*Ümumdünya tarixinin dahi şəxsiyyəti,*
*Azərbaycan xalqının qurtuluş mübarizəsinin qalibi*
*və yeni Azərbaycanın qurucusu*
*HEYDƏR ƏLİYEVİN*
*parlaq xatirəsinə həsr olunur*



downloaded from KitabYurdu.az

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ENSİKLOPEDİYASI

downloaded from KitabYurdu.az

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ENSİKLOPEDİYASI



downloaded from KitabYurdu.az

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ENSİKLOPEDİYASI

İKİ CİLDDƏ

II cild

BAŞ REDAKTOR
YAQUB MAHMUDOV

"LİDER NƏŞRİYYAT"
BAKI-2005

downloaded from KitabYurdu.az

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

downloaded from KitabYurdu.az

**REDAKSİYA HEYƏTİ**

Yaqub MAHMUDOV (baş redaktor), İslam AĞAYEV, Tofıq BABAYEV (məsul katib),

Azər BAĞIROV, İradə BAĞIROVA, Firdovsiyyə ƏHMƏDOVA,

Anar İSGƏNDƏROV, Nigar MAKSVELL, Xeyrulla MƏMMƏDOV,

Elmira MƏMMƏDOVA, Mirheydər MİRZƏYEV, Ataxan PAŞAYEV (baş redaktor müavini),

Mehman SÜLEYMANOV, Kərim ŞÜKÜROV

**947.54 - dc 21**
**AZE**
**Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.** İki cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2005,472 səh.

**ISBN 9952-417-44-4**

© "LİDER NƏŞRİYYAT", 2005

downloaded from KitabYurdu.az

# X

XAÇMAZ HƏRBİ DƏSTƏSİ - Azərbaycana Denikinin hücum təhlükəsinin gözlənildiyi dövrdə Xalq Cümhuriyyətinin hərbi naziri general Səməd bəy Mehmandarovun əmri ilə 1919 ilin yayında yaradılmış xüsusi taktiki qrup. Ölkənin şimal sərhədi boyunca müdafıə mövqeləri tutmuşdu. Xaçmaz hərbi dəstəsinə Quba piyada alayı, 3-cü Gəncə piyada alayının bir taboru, 1-ci Tatar süvari alayı, 1-ci topçu briqadasının 2-ci divizionu və İstehkam məktəbinin şəxsi heyəti daxil idi. General-mayor İbrahim ağa *Usubov* dəstənin komandiri, general-kvartirmeyster vəzifəsinin müvəqqəti icraçısı podpolkovnik Zeynalov qərargah rəisi təyin edilmişdi.

1919 ilin iyulunda Xaçmaz dəstəsinə rəhbərlik Quba piyada alayının komandiri polkovnik Şirin bəy *Kəsəmənliyə* tapşırıldı. 1-ci Tatar süvari alayı istisna olmaqla, digər hissə və bölmələr polkovnik Ş.Kəsəmənlinin əməliyyat tabeliyinə verildi.

1919 ilin noyabrında Xaçmaz dəstəsi ləğv edilərək, onun bazasında *Quba hərbi dəstəsi* yaradıldı. Bununla əlaqədar olaraq şimal sərhədlərinin qorunması ilə bağlı vəzifələr Quba dəstəsinə həvalə olundu.

*Əd.*\ Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Osmanlı H.,Şimal sərhədləri və Bakı rayonunun müdafıəsi tarixindən, B., 1999.

**XALQ AZADLIQ PARTİYASININ (KADETLƏRİN) BAKI ŞÖBƏSİ**-kadetlər partiyasının 1905 ilin dekabrında Moskvada təsis qurultayından iki ay sonra fəaliyyətə başlamışdı. Şöbənin təsis iclası isə 1906 il



Müdafiə mövqelərinin Samur çayı boyunca yerləşməsi (1919 ilin yayı)



yanvarın 7-də keçirilmişdi. İclasda B.L.Baykov Bakı şöbəsinin sədri seçildi. Şöbənin bürosuna isə M.F.Podşibyakin, S.A.Vənsoviç, İ.Miroslavski, A.M.Feyql, Ə. Topçubaşov, İ.Hacınski, K.İ.Xatisov, S.Taqianosov, M.Q.Alibeqov, F.F.Skrepinski daxil oldular. Büroya namizədlər sırasmda İ.Səfərəliyev, İ.Hacıyev, S.Şifrin, Fridlandın adları çəkilirdi.

Özlərini kadet adlandıran konstitusion-demokratlar Rusiyanın ilk liberal təmayüllü partiyası idi. Dünyagörüşlərinə görə islahatçı olan kadetlor zorakı çevrilişi normal tarixi inkişafa zidd sayaraq, onun qəti əleyhinə çıxırdılar. Partiyamn 2-ci qurultayında (1906, yanvar) qəbul edilmiş

downloaded from KitabYurdu.az

proqramında göstərilirdi ki, "Rusiya konstitusiyalı parlament monarxiyası olmalıdır. Rusiyanın dövlət quruluşu Əsas Qanunla (Konstitusiya ilə) müəyyən edilir".

1906 ilin yanvarında təşkilati cəhətdən formalaşmış Bakı kadetləri, əsas etibarilə, Moskva və Peterburq kadetlərinin proqramını qəbul etmişdilər. Sosial və milli tərkibinə görə Bakı şöbəsi, demək olar ki, bütün millətlərin yuxarı və orta təbəqələrini əhatə edirdi. Zorakılığa və xaosa aparan inqilabi yolun əksinə olaraq, kadetlər islahatlar və təkamül yolunu seçmişdilər. Kadetlərin milli proqramının əsas tələbi xalqların mədəni müqəddəratını təyin etməsi və ya milli-mədəni muxtariyyəti idi. Bununla belə, rus dili bütün mərkəzi qurumların, ordunun və donanmanın dili olaraq qalmalı idi. Beləliklə, milli məsələnin həllində kadetlər Rusiyanın vahidliyi və bölünməzliyi ideyasını üstün tuturdular. Rusiyalı həmkarlarından fərqli olaraq, Bakı kadetləri öz məqalələrində Qafqaz xalqlarına muxtariyyət verilməsi tələbi ilə çıxış edirdilər. Belə tələblərlə çıxış edən S.A.Vənsoviç, M.F.Podşibyakin, Ü.Turski muxtariyyət tələbini onunla əsaslandırırdılar ki, Rusiyadan fərqli olaraq, Qafqazda özünüidarəetmə orqanları - zemstvə hələ də yaradılmayıb və belə bir şəraitdə yeganə çıxış yolu Qafqaz xalqlarının çoxdan arzuladığı muxtariyyət üsuli-idarəsinin tətbiq edilməsidir. Lakin muxtariyyət ideyası yalnız nəzəri cəhətdən təbliğ olunurdu, onun həyata keçirilməsi mexanizmləri açıqlanmırdı. Kadetlərin məhz yerli əhalinin problemlərinə laqeydliyi Bakı şöbəsinin azərbaycanlı üzvlərinin fəaliyyətsizliyinə gətirib çıxarmışdı. Onlar öz xalqının çoxsaylı problemlərini həll etmək üçün, ilk növbədə, Ümumrusiya müsəlmanları ilə birləşməyi üstün tuturdular.

Kadetlərin fəallığının artması ən çox seçki kampaniyaları dövrünə təsadüf edirdi. 1906 ildə 1-ci Duma seçkiləri kampaniyasına da onlar birinci başladılar. Müxtəlif millətlərin nümayəndələrini öz seçiciləri sırasına cəlb etmək məqsədilə Bakı kadetləri müraciətnamə yaymışdı. Müraciətnamədə kadetlərin liberal proqramına Rusiyada yaşayan çoxsaylı xalqların vəziyyətinin dəyişdirilməsi, xüsusilə onların öz doğma dillərində yazıb oxumaq və özünüidarəetmə orqanlarına malik olmaq hüquqları barədə bəndlər də salınmışdı. Lakin bu bəyannamələrə baxmayaraq, Bakı şöbəsinin namizəd siyahılarına azərbaycanlılar daxil olunmamışdı və onlar seçkilərdə müstəqil namizədlər kimi iştirak edirdilər. Kadetlərin gurultulu seçki kampaniyası gözlənilmədən yanmçıq qaldı. 1906 il mayın 3-də onların namizədlərindən biri - S.S.Yakovlev naməlum şəxslər tərəfindən öldürüldü. Kadetlər seçki təbliğatlarının dayandırılması barədə qəzetdə elan verdilər və bu qərarın səbəbini onların toxunulmazlığına təminat olmaması ilə izah etdilər. Beləliklə, namizədlərin partiya siyahıları ilə seçilməsi prosesi dayandırıldı.

1907 ilin yanvarında 2-ci Dövlət dumasına seçkiqabağı kampaniya başlandı. Bu dəfəki seçkilərdə kadet platformasının tələbi daha konkret və aydın idi: duma qarşısında cavabdeh olan nazirlər kabinetinin formalaşdırılması. Kadetlər əvvəlcə öz namizədlərinin siyahısını təqdim etmək idilər, lakin yanvarın ikinci yarısında onlar 6 dairədən ikisində "Земля и воля" ("Torpaq və azadlıq") ittifaqı ilə birgə siyahı təqdim etmək qərarına gəldilər. Bu ittifaq boykot taktikasından əl çəkib, seçkidə iştirak etmək qərarına gələn əsər və daşnaklardan təşkil olunmuşdu. Lakin bir çox namizədlər blokda daşnakların iştirakı haqqmda məlumat aldıqdan sonra, öz namizədliklərini geri götürdülər. Onları kadetlərin platformasma daban-dabana zidd olan əsərlərin və daşnakların ekstremizmi qorxudurdu. Nəticə onların qərarınm düz olduğunu göstərdi. Belə ki, son nəticədə "Müsəlman bitərəflər blokunun" (bax *"İttifaqi-Müslimin ")* nümayəndəsi qalib gəldi.

2-ci Duma, hakim dairələrin gözlədiyinin əksinə, daha radikal oldu və 1907 il iyunun 3-də çar tərəfindən qovuldu. Elə həmin tarixli qanunla həm müxalifət partiyalarmın, həm də milli azlıqlarm Dumada təmsilçiliyi xeyli məhdudlaşdırılmışdı. Bu dəfə seçkilərin son mərhələsində kadetlər, menşeviklər və bitərəflər bir blokda birləşmək qərarına gəldilər, lakin buna baxmayaraq, seçkilərin Tiflisdə keçirilən mərhələsində Cənubi Qafqazın sağ qaragüruhçu partiyalarının vahid namizədi qalib gəldi.

1912 ildə 4-cü Dumaya seçkilər vaxtı kadetlər həmin il Rusiyada yaradılan Tərəqqi partiyasınm nümayəndələri qismində fəal seçkiqabağı kampaniyaya başladılar. Seçkilər ərəfəsində kadet partiyasının "ulduzları" Milyukov, Şinqaryov, Rodiçev təbliğat kampaniyası aparmaq üçün Bakıya gəlmişdilər. 1912 ilin sentyabrında keçmiş kadetlər 12 nəfərdən ibarət "birləşmiş tərəqqipərvərlərin" siyahısını irəli sürdülər. Bolşeviklərin onları burjuaziya ilə əməkdaşhqda ittiham etmələrinə tərəqqiçilər (keçmiş kadetlər) "Bakı" qəzetinin səhifələrində belə cavab verdilər: "Konstitusiya təhlükədədir, proletariatın isə gücü yoxdur, biz kapitalistləəri, iş adamlarını özümüzdən uzaqlaşdırmamalıyıq və qaragüruhçuların qalib gəlməməsi üçün birləşməliyik".

Sosial-demokratlar (menşeviklər) tərəqqiçilərlə kompromisə gedib onlarla birləşmək qərarına gəldilər və bu addımın nə qədər düzgün olduğunu tezliklə gördülər. Menşevik M.İ.Skobelev, ilk dəfə olaraq, Bakıdan Dumaya deputat seçildi. Beləliklə, özlərini parlament partiyası sayan kadetlərin, sonra isə tərəqqiçilərin Bakı şöbəsi, böyük fəallığına baxmayaraq, 4 seçki kampaniyasının heç birindo qələbə qazana bilmədi. Bu, kadetlərin Azərbaycanda sosial bazasının məhdudluğu və yerli əhalinin problemlərinin arxa plana çəkilməsi ilə bağlı idi.

1915 il avqustun 9-da Dövlət Dumasında kadetlərin, tərəqqiçilərin və oktyabrist partiyalarının iştirakı ilə "Tərəqqipərvər blok" yarandı. Blokun əsas tələbi Birinci dünya müharibəsində tənəzzülə uğrayan Rusiyada dumaya hesabat verən "ictimai etimad hökumətinin" yaradılması idi. Bakı kadetləri də "Kaspi" və "Bakı" qəzetlərinin səhifələrində bu bloku dəstəkləyir və "cavabdeh hökumət" haqqında tələblər irəli sürürdülər.

Fevral inqilabı (1917) nəticəsində Rusiyada çar mütlə-qiyyəti devrildikdən sonra, kadetlər iqtidar partiyasına çev-

downloaded from KitabYurdu.az

rildilər. Bu dövrdə partiyanın Bakı şöbəsi öz fəaliyyətini bərpa etdi. Kadetlərin bir qismi (A.Leontoviç, K.İretski) Müvəqqəti hökumətin Bakıda təmsilçisi olan İctimai Təşkilatlann İcraiyyə Komitəsinin (İTİK) üzvü oldu. Digərləri isə, xalq azadlıq partiyasının təşkilat komitəsini yaratdılar. Həmin komitəyə, bəzi mənbələrə görə, keçmiş partiya üzvləri -- B.L.Baykov, X.A.Vermişev, M.Q.Alibeqov, M.F.Podşibyakin, Fridland, P.M.KaraMurza ilə yanaşı, F.x.Xoyski də üzv seçilmişdi. Kadetlərin təşkilat komitəsi Müvəqqəti hökumətin dəstəklənməsi, siyasi qüvvələrin birliyi və Antantadakı müttəfıqlərlə birgə müharibəni qələbəyədək aparmaq haqqında bütün vətəndaşlara ünvanlanmış bəyanat qəbul etmişdi. Kadetlərin nümayəndələri, həmçinin, o dövrdə Qafqazı idarə edən Xüsusi Zaqafqaziya Komitəsinin (Особый Закафказскии Комитет-ОЗАКОМ) əsas tərkib hissəsini təşkil edirdilər.

Oktyabr çevrilişindən (1917) sonra Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər kadetlər partiyasını qadağan etdilər. Bakı şöbəsinin bəzi üzviəri Rus Milli Şurasının tərkibinə daxil oldu, bəziləri isə mühacirətə getdi. S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti azərbaycanlılara qarşı 1918 ilin mart soyqırımı zamanı Rus Milli Şurasından öz məqsədləri üçün istifadə etmək istəyirdi. Şura ilk mərhələdə bu fıtnəkarlığa uysa da, sonradan bolşeviklərə daşnakların öz məq-sədlərinə çatmaq üçün yerli əhalini kütləvi surətdə qırdığını görüb, onlarla əlbir olmaqdan çəkindi. 1918 ilin noyabrında Bakıya daxil olmuş ingilis qoşunlarının komandanı general Tomson Rus Milli Şurasının üzvləri M.Podşibyakini, Y.Smirnovu, B.Baykovu və A.Leontoviçi qəbul edərkən onlar Azərbaycan hökumətinə daxil olmaq barədə ingilislərin təklifini rədd etmişdilər. Onlar Azərbaycanın öz milli müqəddəratını təyin etməsinin əleyhinə çıxır və onu yalnız Rusiyanın tərkibində görmək istəyirdilər. Lakin Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini bütün ölkə ərazisində bərqərar edəndən sonra Rus Milli Şurası mövcud vəziyyətlə barışmalı oldu. Onun bəzi üzvləri Parlamentdə yaradılmış slavyan-rus və Milli Azlıqlar fraksiyasına daxil oldular.

*Əd.:* Azərbaycan tarixi, 7 clilddə, c.5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), B., 1998; Багирова И.С., Политеческие партии и организации Азербаиджана в начале XX века, Б., 1997; Шелохаев В.В., Кадеты-главная партия либеральной буржуазии в борьбе с революцией 1905-1907 гг., М., 1983.

**XALQ DAXİLİ İŞLƏR KOMİSSARLIĞI (XDİK)**

S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. Sədri P.A.Caparidze idi. Onun 8 may tarixli əmri ilə, XKS tərəfindən təsdiq olunanadək, F.A.Çikalo və Məşədi Əzizbəyov müvəqqəti olaraq Xalq Daxili İşlər Komissarının müavinləri, Bünyad Sərdarov və L.D.Qoqoberidze isə komissarın müvəkkilləri vəzifəsinə dəvət olunmuşdular.

Bakı Soveti hakimiyyəti ələ aldıqdan sonra cəza orqanlarının fəaliyyətini öz səlahiyyətinə keçirməyə, sovet hakimiyyətini möhkəmləndirmək və onun düşmənlərinə qarşı mübarizə aparmaq üçün onlardan istifadə etməyə çalışırdı. Bu məqsədlə yeni məhkəmə təsisatları sistemi yaradılmasına xüsusi fikir verilirdi. 1917 il dekabrın 12-də hərbi tribunal yaradılmışdı. 1918 il martın 7-də Bakı Soveti İcraiyyə Komitəsinin iclasında şəhər dumasının səlahiyyətində olan bilsin inqilabi qaydaların mühafızəsini təmin edə bilməməsi iddia olunmuş, Caparidzenin təklifı ilə milisin şəhər sovetinin ixtiyarına verilməsi barədə qərar qəbul edilmişdi. Komissarlığın təşkili ilə daxili işlər orqanları onun səlahiyyətinə verilmişdi. Lakin XDİK-in hüquq və səlahiyyətləri getdikcə artırıldı. O, köhnə məhkəmə aparatının ləğvi, yerli və dairə xalq məhkəmələrinin təşkili ilə də məşğul olurdu. Bakı XKS-nin qərarı ilə icraiyyə komitəsinin rekvizisiya (müsadirə) komissiyası XDİK-ya verilmiş və ayrıca rekvizisiya şöbosinə çevrilmişdi. Komissarlıq öz fəaliyyətində sovet hakimiyyətinin ideya düşmənlərinə qarşı çıxanların həbsinə, təqib edilməsinə və fiziki cəhətdən məhvinə cəhd göstərir, fəal rekvizisiya siyasəti həyata keçirərək, sovet hakimiyyətinin maddi imkanlarını möhkəmləndirməyə çalışırdı. XDİK-in qeyri millətlərin nümayəndələri tərəfındən başçılıq edilən cəza əməliyyatları, başlıca olaraq, türk-müsəlman əhaliyə qarşı yönəldilmişdi. Xalq Daxili İşlər Komissarlığı Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv edilmişdir.

*Əd.: Bax Xalq Komissarhğı* məqaləsinin ədəbiyyatına

**"XALQ EVLƏRİ" CƏMİYYƏTİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial-mədəni sahədə fəaliyyət göstərmiş klub tipli müəssisələr. Əsas məqsədi Bakı şəhərinin mədən-zavod rayonlarının əhalisi arasında mədəni-maarif işi aparmaq idi. Xalq evləri bir çox tədbirlərin mərkəzinə çevrilmişdi: burada savadartırma kurslarından tutmuş, universitet kurslarına qədər müxtəlif kurs məşğələləri keçirilir, kitabxana-qiraətxanalar təşkil edilir, teatr tamaşaları, konsertlər göstərilirdi.

Qaraşəhərdəki xalq evi böyük mədəni-maarif işi aparılır, teatr tamaşaları təşkil edirdi. Mövsüm bağlandıqdan sonra dövlət teatrı öz fəaliyyətini burada davam etdirir və həftədə iki dəfə opera tamaşaları göstərirdi. Qaraşəhərdəki cəmiyyət nəzdində 1919 il mayın 1-də mədəni-maarif və musiqi-teatr bölmələri təşkil edilmişdi. İyulun 2-də isə Şamaxı xalq evi təsis edilmişdi.

Xalq evlərinə xeyriyyə köməyi də göstərilirdi. Belə ki, "Uriot" xeyriyyə cəmiyyəti xalq evlərinə avadanlıq almması üçün vəsait ayırmışdı. Məhz bu yardım sayəsində orada kino zalı yaradılmış və filmlərin nümayiş etdirilməsinə başlanmışdı.

Qısa vaxt ərzində Bakı şəhərində, onun bütün mədən və zavod ərazilərində "Xalq evləri" cəmiyyətinin şöbələri açılmış, böyüklər üçün təşkil edilmiş savad kurslarında 5 minə yaxın adam oxumaq və yazmaq öyrənmişdi. "Xalq evləri" cəmiyyəti bu kurslara 7 min manatdan çox vəsait xərcləmişdi. *Aprel işğalından (1920)* sonra cəmiyyət öz fəaliyyətini dayandırmışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

downloaded from KitabYurdu.az

**XALQ ƏDLİYYƏ KOMİSSARLIĞI (XƏK)** Bakı Xalq Komissarları Sovetinın (XKS) hakimiyyot orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatlan Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. Komissar vəzifəsinə A.Qabrielyan (Karinyan) təyin edilmişdi. Əslində, Rusiya Sovet Federativ Sosialist Respublikası XƏK-in tədbirlərini təkrar edirdi. Səlahiyyətlərinə inqilabi qanunçuluğa əməl olunmasına nəzarət, sovet notarius orqanlarının təşkili, əhaliyə hüquqi yardım göstərmək və s. daxil idi. Lakin S.Şaumyamn başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin fəaliyyəti qanunçuluğa deyil, zorakılığa əsaslandığına görə XƏK-in əməli rolu az idi. Əsas üstünlük bilavasitə təsir imkanlarına malik olan istintaq komissiyası, fövqəladə komissiya və inqilabi tribunala məxsus idi. Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv edildi.

*Əd.:Bax Xalq Komissarlığı* məqaləsinin ədəbiyyatına

**XALQ ƏKİNÇİLİK KOMİSSARLIĞI (XƏK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yarandığı elan edilmiş, lakin həmin qərarda bu vəzifənin hələlik boş qaldığı bildirilmişdi. Sonra bu vəzifəyə Mir Həsən Vəzirov təyin olunmuşdu. 1918 il iyunun 18-də, Vəzirovun imzası ilə, mülkədar torpaqlarının müsadirəsi haqqında Bakı XKS-in dekreti verilmişdi. XƏK mülkədar torpaqlarının müsadirəsi ilə yanaşı kəndlərdə torpaq komitələrinin təşkili, kənd təsərrüfatı məhsullarının yığılmasının həyata keçirilməsilə də məşğul olurdu. Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv edilmiş, Vəzirov "Sentrokaspi diktaturası" tərəfindən həbs olunmuş, 1918 il sentyabrın 20-də isə 26-ların tərkibində güllələnmişdir.

*Əd.:* Rəhimov Ə., 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi, B., 1962.

**XALQ ƏMƏK KOMİSSARLIĞI (XƏK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 22 mart tarixli qərarı ilə Bakı quberniyasının əmək komissarlığı təşkil olunmuşdu. Ona İ.D.Zevin başçılıq edirdi. Sonra Bakı XKS tərkibində XƏK yaradıldı. Zevin xalq əmək komissarı təyin edildi. XƏK 8 saatlıq iş gününün tətbiqi, əmək şəraitinin yaxşılaşdırılması və bu kimi başqa məsələlərlə məşğul olurdu. Bakı şəhərinin rayonlarında əmək komissarları fəaliyyət göstərirdi. Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv olunmuş, Zevin "Sentrokaspi diktaturası" tərəfindən həbs edilmiş, 1918 il sentyabrın 20-də 26-ların tərkibində güllələnmişdir.

*Əd: Bax Xalq Komissarlığı məqaləsinin ədəbiyyatına*

**XALQ ƏRZAQ KOMİSSARLIĞI (XƏK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatlan Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. 1918 il iyunun 18-dən komissarlığa P.Caparidze rəhbərlik edirdi. Caparidze, eyni zamanda, daxili işlər komissarı və Bakı Soveti İcraiyyə Komitəsinin sədri idi. İyulun 2-nə olan vəziyyətə görə, XƏK-də öncə yaradılmış 8 şöbə (katiblik, təchizat, idxal və ixrac, nəzarət-qeydiyyat, rekvizisiya şöbələri və s.), sonralar müəssisələrarası qeydiyyat-rekvizisiya şöbəsində birləşdirilmişdi. Bakı XKS-nin süqutu ilə (1918, 31 iyul) ləğv edilmiş, Caparidze "Sentrokaspi diktaturası" tərəfindən həbs olunmuş, sentyabrın 20-də isə 26-ların tərkibində güllələnmişdir.

*Əd.:Bax Xalq Komissarhğı məqaləsinin ədəbiyyatına*

**"XALQ ƏYLƏNCƏLƏRİ" CƏMİYYƏTİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda fəaliyyət göstərmiş liberal istiqamətli qurum. Cəmiyyət müstəqillik əldə etmiş əhalinin istirahətinin təşkilində, savadlanmasında, uşaqların və yeniyetmələrin müxtəlif əyləncəli tədbirlərə və dərnəklərə, klub və kitabxanalara cəlb olunmasında xüsusi fəalhq və təşəbbüskarlıq göstərmiş, onlara milli-mənəvi dəyərlərin aşılanmasında əhəmiyyətli rol oynamışdır.

1919 ilin əvvəllərində Bakı və onun mədən-zavod rayonlarındakı mədəni-maarif cəmiyyətlərini birləşdirmək məqsədilə konfrans çağırılması üçün təşkilat komissiyası yaradılmış, "Bakı şəhəri mədəni-maarif müəssisələri ittifaqının nizamnaməsi" təsdiq olunmaq üçün Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə təqdim edilmişdi. Nizamnamədə deyilirdi ki, mədəni-maarif cəmiyyətləri ittifaqının məramı Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək məqsədilə şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarətdir. 1920 ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra cəmiyyət öz fəaliyyətini dayandırmışdır.

*Əd.: Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.*

**XALQ HƏRBİ VƏ DƏNİZ İŞLƏRİ KOMİSSARLIĞI (XHDİK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatlan Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. Xalq hərbi və dəniz işləri komissarı vəzifəsinə Qafqaz ordusu hərbi-inqilab komitəsinin sədri Q.N.Korqanov təyin edilmişdi. O, 1918 ilin yanvarında hərbi-inqilab komitəsinin tərkibində Tiflisdən Bakıya gəlmiş, burada qırmızı ordu hissələrinin yaradılmasına rəhbərlik etmiş, Bakı və onun rayonlarının inqilabı müdafiə komitəsinin üzvü təyin olunmuşdu. Korqanov azərbaycanlılara qarşı 1918 il mart soyqırımının təşkilatçılarından olmuş, dinc əhaliyə qarşı soyqırımı əməliyyatlarına rəhbərlik etmişdi. Bu əməllərini xalq hərbi və dəniz işləri komissarı kimi də davam etdirmişdi. Komissarlıq, Bakı XKS-in digər orqanlan ilə birgə, Azərbaycan Xalq Cümhuriyyətinə qarşı hərbi əməliyyatların təşkilində əsas rol oynamışdı. Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv edilmiş, xalq hərbi və dəniz işləri komissarı Korqanov isə "Sentrokaspi diktaturası" tərəfindən həbs olunmuş, 1918 il sentyabrın 20-də isə 26-ların tərkibində güllələnmişdir.

*Əd.: Bax Xalq Komissarlığı məqaləsinin ədəbiyyatına*

downloaded from KitabYurdu.az

**XALQ XARİCİ İŞLƏR KOMİSSARLIĞI (XXİK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyot orqanı. Ba-kı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. Bakı XKS-in sədri, Qafqaz işləri üzrə fövqəladə komissar S.Şaumyan, eyni za-manda, xalq xarici işlər komissarı təyin edilmişdi. Bakı

XKS-in fəaliyyətindəki bir sıra ziddiyyətlər xarici siyasət məsələsində daha aydın təzahür edirdi. Bakı XKS-in 1 may bəyannaməsinə görə, o, müstəqil olmayıb, Ümumrusiya Ali Xalq Komissarları Sovetinin bütün dekret və sərəncamlarını yerli şəraitə uyğun həyata keçirməli, Bakı Soveti vahid, bö-yük ölkənin bir hissəsi olaraq qalmalı idi. Belə olduğu halda müstəqil xarici siyasətdən danışmaq mümkün deyildi. Digər tərəfdən, RSFSR hökuməti V Ümumrusiya sovetlər qurultayın qərarlarını əsas götürərək, Bakı XKS-in müstəqil beynəlxalq siyasət yeritməsini tələb edirdi. Şaumyanın rəhbərliyi ilə Bakı XKS Azərbaycanda milli qüvvələrə qarşı mübarizə aparır, neft sənayesi və digər sənaye sahələrini Sovet Rusiyasının mənafeyinə tabe etməyə çalışırdı. Ona görə də XXIK, əslində, formal xarakter daşıyırdı. Bütövlükdə isə, Sovet Rusiyası istisna olmaqla, digər dövlətlərlə xarici siyasət əlaqələri normal deyildi. Türkiyə ilə düşmənçilik münasibətləri əsas götürülürdü. Antiazərbaycan xarici siyasət xətti Bakı XKS-in xarici işlərinin uğursuzluğu və onun süqutunun başlıca səbəblərindən idi. Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv edilmişdir.

*Əd.\ Bax Xalq Komissarlığı məqaləsinin ədəbiyyatına*

**XALQ KOMİSSARLIĞI** -Bakı rayonu Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin idarəetmə orqanı (Bax *Bakı Xalq Komissarlan Soveti)*. 1918 il aprelin 25-də təşkil edilmişdi. Ümumrusiya Ali Xalq Komissarları Sovetinin (orqanın adı rəsmi sənəddə belə göstərilir, əslində Rusiya XKS olmalıdır) ümumi dekretlərini və göstərişlərini, həmçinin Bakı sovetinin qərarlarını həyata keçirməli idi. İdarəçiliyin ayrı-ayrı sahələri xalq komissarlarına tapşırılmışdı. Komissarlar kollegiyası hökumət səlahiyyətinə malik olub, Xalq Komissarları Soveti (XKS) adlanırdı. Xalq komissarlarının fəaliyyətinə nəzarət və onları dəyişmək səlahiyyəti Bakı Sovetinə məxsus idi. XKS sovet və onun İcraiyyə komitəsi qarşısında məsul idi. Bakı XKS-nın süqutu ilə (1918, 31 iyul) ləğv edildi.

*Əd.\ Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşceviklərin mübarizəsi (sənədlər və materiallar), 1917-1918-ci illər, B., 1960; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Азимов Г.С., Бакинская коммуна Б., 1981; yenə onun, Великий в Азербайджане, Б., 1987; История государства и права Азербаиджанской ССР, Б., 1964.*

**XALQ MAARİFİ KOMİSSARLIĞI (XMK)** - Bakı Xalq Komissarları Sovetinın (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. Xalq maarifı komissarı vəzifəsinə N.N.Kolesnikova təyin olunmuşdu. Komissarlığın məqsəd və vəzifələri onun 1918 il 3 may tarixli müraciətində əks olunmuşdu. XMK köhnə təhsil sisteminin dağıdılmasına, xalq maarifı və mədəni-maarif işinin inqilabi yolla yenidən təşkilinə cəhd edirdi. Bu məqsədlə XMK yanında xalq təhsili üzrə məşvərətçi şura yaradılmışdı. Mayın 11-də müəllimlərə müraciətdə tədris müəssisələrində vəzifəli şəxslərin seçkili olacağı bildirilirdi. Həmin işi həyata keçirmək üçün pedaqoji heyətin seçilməsi haqqında əsasnamə də hazırlanmışdı. Komissarlığın fəaliyyət proqramı mayın 21-də Bakı Sovetinin iclasında müzakirə olunaraq bəyənilmiş, məktəbin dindən ayrıldığı elan edilmişdi. Mayın 26-da məktəbəqədər tərbiyənin təşkili sahəsində tədbirlərə başlandı. İyunun sonlarında məktəbəqədər müəssisələr üçün tərbiyəçilər hazırlayan qısamüddətli kurslar açılmış, kimsəsiz uşaqların tərbiyə olunduğu uşaq evlərinin yenidən qurulmasına başlanmışdı. Müsadirə olunan Nobel bağında və onun yanındakı klub binasında uşaq koloniyası təşkil etmək qərara alınmışdı. *"Nəşri-maarifin* məktəbləri komissarlığın ixtiyarına keçirilmiş, neft sənayeçiləri qurultayı şurasının və digər neft şirkətlərinin məktəblərinə rəhbərlik də ona tapşırılmışdı. Lakin komissarlığın təhsil proqramı və fəaliyyəti milli xüsusiyyətləri və yerli şəraiti nəzərə almadığından ciddi etirazla qarşılaşırdı. XMK isə bunu nəzərə almır, işini proletariat diktaturası prinsipi əsa-sında qurmağa çalışırdı. Mədəni-maarif sahəsindəki tədbirlər xalqın deyil, bilavasitə sovet hakimiyyətinin mənafeyinə tabe edilmişdi. Buna görə də verilən vədlərin əksəriyyəti deklarativ xarakter daşıyırdı. XMK Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv olundu.

*Əd.* Bax *Xalq Komissarlığı* məqaləsinin ədəbiyyatına

**XALQ MAARİFİ NAZİRLİYİ (XMN),** Azərbaycan Xalq Cümhuriyyəti Xalq Maarifi N a z i r l i y i -Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin təhsil və mədəni-maarif müəssisələri şəbəkəsinin fəaliyyətinə rəhbərlik edən dövlət orqanı. 1918 il mayın 28-də Azərbaycan Milli Şurasının tapşırığı ilə Fətəli xan Xoyskinin yaratdığı Müvəqqəti Hökumət kabinəsi tərəfindən təsis edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1-3-cü kabinələrində maarif naziri Nəsib bəy Yusifbəyli idi. N.Yusifbəylinin təşkil etdiyi 4-cü Hökumət kabinəsində bu vəzifəyə Rəşid bəy *Qaplanov,* 5-ci Hökumət kabinəsində isə əvvəlcə Həmid bəy *Şahtaxtinski,* sonra isə Nurməmməd bəy *Şahsuvarov* təyin olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalqın maarifləndirilməsinə birinci dərəcəli əhəmiyyət verirdi. XMN öz fəaliyyətinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədərki dövrdə xalq maarifinin vəziyyətinin öyrənilməsi və bu sahədə həyata keçiriləcək vəzifələrin müəyyənləşdirilməsi ilə başladı. Nazirlik xalq təhsilini sürətlə inkişaf etdirmək məqsədilə islahatlar keçirmək üçün qısa müddət ərzində təkliflər hazırlayıb Hökumətə təqdim etdi. Xalq məktəbləri və tədris dairələrinin direktoru vəzifələri ləğv olunaraq, məktəb və təhsil işinin idarə-olunması XMN-nin və xalq məktəbləri təlimatçılarının sərəncamına verildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra iyunun 30-da Hökumətin qərarı ilə XMN-nə nazirliyin ştat cədvəlini müəyyənləşdirmək və Əsasnaməsini hazırlayıb Hökumətə təqdim etmək tapşırıldı. 1918 il avqustun 2-də xalq maarifı naziri tərəfindən hazırlanmış Əsasnamə baxılmaq və təsdiq üçün Hökumətə təqdim olundu. Əsasnaməyə görə, XMN-nin ştatı nazirdən, nazir müavinindən, naziryanı şuradan, məktəbləri idarə etmək üçün ali və orta təhsil,

downloaded from KitabYurdu.az



*Bakı qız gimnaziyası*

ixtisas təhsili sahələri üzrə üç şöbədən ibarət təsdiq olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlordən biri də Hökumətin 1918 il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan Hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanması, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən biri də məktəblərin milliləşdirilməsi oldu.

Azərbaycan Cümhuriyyəti Hökumətinin 1918 il 28 avqust tarixli qəranna əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli idi. Ali ibtidai və orta tədris müəssisələrində isə dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər.

Xalq maarifi naziri N.Yusifbəyli 1918 il dekabrın 31-də Azərbaycan qubernatorlarına göndərdiyi məktubda göstərirdi ki, Azərbaycan Xalq Cümhuriyyətində maarif sahəsində qarşıda çox böyük və çətin vəzifələr durur. Nazirlik yeni məktəblər, müəllim kursları açmaqla, təhsil sahəsində ölkəni mümkün qədər qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün bütün qüvvələri səfərbərliyə aldı. Məktubda qeyd edilirdi ki, indiki zamanda yalnız yüksək maarif malik olan xalq tərəqqi edə bilər. Cümhuriyyət Hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919 ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi.

Müəllimlər seminariyaları istisna olmaqla, 1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi. Xalq təhsilini milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrlarına və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrlan dəvət etmək və dərs vəsaitləri gətirmək, habelə qısamüddətli kurslarda Azərbaycan dilini bilən savadlı şəxslərdən müəllim kadrları hazırlamaq idi. XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədile xüsusi komissiya yaratmışdı. Həmin ko-missiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər.

1919 il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəran ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı.

downloaded from KitabYurdu.az

Azərbaycan Cümhuriyyəti Hökumətinin və Xalq Maarifi Nazirliyinin təhsil sahəsində qarşısında duran ən ümdə vəzi-fələrdən biri də ölkədə ali təhsilin təşkili və ali təhsilli kadrların hazırlanması idi. Cümhuriyyət Hökumətinin fəaliyyət göstərdiyi qısa müddətdə Azərbaycanda üç ali təhsil ocağının - Bakı Dövlət Universitetinin, Əkinçilik İnstitutunun və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırılmışdı. Onlardan yalnız birini - Bakı Dövlət Universitetinin açılmasını reallaşdırmaq mümkün oldu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919 il sentyabrın 1-də "Bakı Döv-lət Universitetinin təsisi haqqında" qanun qəbul etdi. 1919 il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu (bax: *Bakı Dövlət Universiteti).* Parlamentin 1919 il 1 sentyabr tarixli qərarı əsasında XMN-nin xətti ilə 100 nəfər azərbaycanlı gənc dövlət hesabına xarici ölkələrin ali məktəblərində təhsil almağa göndərildi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin xalq maarifi sahəsində həyata keçirdiyi mühüm tədbirlərdən biri də ibtidai təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi idi. Təkcə 1919 ildə Azərbaycanda dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Cümhuriyyət Hökumətinin həyata keçirdiyi mühüm tədbirlərdən biri də yaşlıların savadlandırılması idi. Bu məqsədlə 1919 il sentyabrın 15-dən Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün Azərbaycan dilini öyrədən xüsusi kurslar, 1919 ilin noyabrından isə Bakıda azərbaycanlı fəhlələr üçün texniki axşam kursları açıldı. Bu kurslarda 200 nəfərə yaxın azərbaycanlı fəhlə peşə təhsilini artırırdı. Xalq Maarifi Nazirliyi bu kursların işinə yaxından kömək göstərirdi. Azərbaycan Cümhuriyyəti Xalq Maarifi Nazirliyi ölkədə maarifin inkişafı üçün geniş tədbirlər planı hazırlamış, həmin plan Azərbaycan Hökuməti tərəfindən bəyənilmiş və onun həyata keçirilməsinə razılıq verilmişdi. Lakin *Aprel işğalı (1920)* bu planların gerçəkləşdirilməsini yarımçıq qoydu. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin cəmi 23 aylıq fəaliyyəti dövründə təhsil sahəsində həyata keçirdiyi tədbirlər sonralar Azərbaycanda xalq maarifinin təşkili və inkişafına mühüm kömək göstərdi.

*Əd.:* Azərbaycan tarixi, 7 clldə, c.5, B., 2001; Адрес-календарь Азербаиджанской Ресбублики на 1920 г., Б., 1920; Азербаиджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Məhərrəmov A., Bakı Dövlət Universiteti, B., 2000; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B.,

***Fransada təhsil alan azərbaycanlı tələbələr***



downloaded from KitabYurdu.az

2001; Mərdanov M., Q u l i y e v Ə., Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920), B., 2003.

**XALQ MALİYYƏ KOMİSSARLIĞI (XMK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. Komissar vəzifəsinə sol eser A.Kireyev təyin edilmişdi. Bəzi məlumatlara görə, dövlət vəsaitinin oğurlanması üstündə fövqəladə komissiya tərəfindən güllələnmişdir. Görünür, bu işdə A.Kireyevin partiya mənsubiyyəti və Bakı XKS-in maliyyə sahəsindəki pozuntularını ört-basdır etmək cəhdi də böyük rol oynamışdı. XMK Bakı XKS-in süqutu ilə (1918 il, 31 iyul) ləğv edilmişdir.

**"XALQ SÖZÜ"** -gündəlik qəzet. İlk nömrəsi 1919 il iyunun 17-də çıxmışdır. Üçüncü nömrəsindən sonra fəaliyyəti dayanmışdır. Əsas müəllifləri Seyid Hüseyn, Qədir Hüseynzadə, Məmmədəli Sidqi və Mirzə Bala Məmmədzadə idi. **XALQ ŞƏHƏR TƏSƏRRÜFATI KOMİSSARLIĞI (XŞTK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. Nəriman Nərimanov xalq şəhər təsərrüfatı komissarı təyin olunmuşdu. Bakı XKS-in yarandığı şəraitdə belə bir komissarlıq, əslində, formal xarakter daşıyırdı. Ən mühüm komissarlıqlar (xarici işlər, daxili işlər, hərbi və dəniz işləri, maliyyə, ərzaq, maarif komissarlıqları və s.) qeyri-azərbaycanlılar arasında [S.Şaumyan, P.Caparidze, İ.Suxartsev, İ. Fioletov, Q.Korqanov, N.Kolesnikova, A.Qabrielyan (Karinyan), A.Kireyev və b.] bölüşdürülmüşdü. Faktlar göstərir ki, xalq şəhər təsərrüfatı komissarlığı dəftərxanasının əmrlər kitabçasında (1918, 2 may - 26 iyun) yalnız on gün ərzində (16-26 may) verilmiş əmrləri Nərimanov imzalayıb. Sonrakı əmrlər onu əvəz edənlər tərəfindən imzalanmışdır. XŞTK Bakı XKS-nin süqutu ilə (1918, 31 iyul) ləğv edilmişdir.

*Əd:*. Azərbaycan tarixi, 7 cilddə, c.5, B. 2001; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi (sənədlər və materiallar), 1917-1918-ci illər, B., 1960; Məmmədli Q., Nəriman Nərimanov. 1870-1925 (həyat və yaradıcılığının salnaməsi), B., 1987.

**XALQ YOLLAR, POÇT VƏ TELEQRAF KOMİSSARLIĞI (XYPTK)** - Bakı Xalq Komissarları Sovetinin (XKS) hakimiyyət orqanı. Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin 1918 il 25 aprel tarixli qərarı ilə yaradılmışdı. XYPTK komissarı vəzifəsinə İ.Suxartsev təyin edilmişdi. Sovet Rusiyasında təşkil olunmuş müvafiq komissarlıqlar kimi, ümumi istifadədə olan nəqliyyat və rabitə xidmətlərini həyata keçirməli idi. Komissarlıq Bakı XKS-in süqutu ilə (1918, 31 iyul) ləğv edilmişdir.

**"XALQÇI"-** Azərbaycan Xalq Cümhuriyyəti dövründə siyasi partiya. Fevral inqilabından (1917) sonra sağ sosialist inqilabçılar partiyasından çıxan Aslan bəy *Səfikürdskinin* başçılığı ilə yaradılmışdı. 1917 il noyabrın 26-28-də Müəssislər məclisinə keçirilən seçkilərdə iştirak edən 8 əsas partiya sırasında "Xalqçı" partiyasının sələfi-159770 seçiciyə malik Müsəlman Sosialist Bloku (MSB) da var idi. 60 000 seçiciyə bir deputat qaydası ilə MSB həmin seçkilərdə 2 yer qazana bilmişdi. Bununla da, A.Səfikürdskinin başçılıq etdiyi MSB nüfuzlu və təşkilati cəhətdən möhkəm bir siyasi partiyaya çevrildi. 1918 il yanvarın 5-də Rusiya Müəssislər məclisi buraxıldı və fevralın 10-da Tiflisdə Zaqafqaziya seyminin təsis iclası çağırıldı. Seymin təşkilində hər 20.000 seçiciyə 1 deputat yeri verildiyindən bu quruma MSB-dən 7 nümayəndə seçildi. 1918 il mayın 27-də Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə Azərbaycan Milli Şurası yarandıqda MSB-dən oraya Xudadat bəy Məlik-Aslanov və Camo bəy Hacınski daxil oldular. Milli Şuranın məqsəd və vəzifələrini Cənubi Qafqazın bütün müsəlman bölgələrində xalq kütlələrinə izah etmək üçün göndərilən nümayəndələr arasında, habclə iyunun 18-də İstanbula yola düşən nümayəndə heyətinin tərkibində Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədovla yanaşı, MSB-nin sədri A.Səfikürdski də var idi.

1918 il dekabrın 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində sosialistlər 12 deputatla təmsil olunmuşdular. Onlar Qazax qəzasından deputat seçilmiş A.Səfikürdskinin sədrliyi ilə Müsəlman Sosialist Fraksiyasını yaratmışdılar. Fraksiyaya "xalqçı"lardan başqa, sağ hümmətçilər S.Ağamalıoğlu, K.Camalbəyov, Ə.Qarayev, İ.Əbiləv da daxil idilər. 1919 ilin noyabrında partiyanın mərkəzi komitəsi və eyni adlı qəzet (cəmi 7 nömrəsi çıxmışdır) fəaliyyətə başladı.

Müsəlman sosialist fraksiyasının proqramında bütün millətlərin hüquq bərabərliyi əks olunmuşdu. A.Səfikürdski Parlamentin ilk iclasında siyasi məhbusların əfv olunmasına tərəfdar çıxmışdı. Fraksiya torpaq məsələsinin həllini qanunverici orqanın ümdə vəzifəsi sayaraq, torpağın əvəzsiz olaraq kəndlilərə verilməsində təkid edir, demək olar ki, bütün mühüm məsələlərin müzakirəsində "Müsavat" partiyası ilə toqquşurdu. Partiyanın lideri A.Səfikürdski 1918 il dekabrın 26-da yaradılan və daha sol təmayüllü 3-cü Hökumət kabinəsində poçt, teleqraf və əmək naziri, 1919 il aprelin 14-də yaradılan 4-cü Hökumət kabinəsində ədliyyə və əmək naziri, C.Hacınski isə 4-cü və 5-ci Hökumət kabinələrində poçt-teleqraf naziri vəzifələrini tutmuşdular.

1920 il aprelin sonlarında, 11-ci Qırmızı ordunun Azərbaycana təcavüzündən bir neçə gün əvvəl yeni baş nazir vəzifəsinə Məmməd Həsən Hacınski ilə yanaşı, A.Səfıkürdskinin də namizədliyi müzakirəyə qoyulmuşdu. "Xalqçı" qəzetinin Cümhuriyyətin süqutu ərəfəsində çıxan son nömrəsində sovet hakimiyyəti alqışlanırdı. Lakin *Aprel işğalı (1920)* yeni kabinənin təşkilinə imkan vermədi, beləliklə, "Xalqçı" partiyasının da fəaliyyətinə son qoyuldu.

Sovet hakimiyyəti dövründə Bakı eser təşkilatının azadlıqda qalan üzvləri ilə birgə "xalqçı"lar da gizli fəaliyyətə keçdilər. Lakin 1922 ilin sonunda Bakıda eser təşkilatnın məhkəməsi başlandı. A.Səfikürdski daxil olmaqla, onların bütün üzvləri sovet hakimiyyəti əleyhinə fəaliyyətdə ittiham edilərək həbs olundular. Sonralar onların çoxu qətlə yetirildi.

*Əd:* Адрес-каледарь Азербаиджанской Ресбублики на 1920 г., Б., 1920; Azərbaycan tarixi, 7 cilddə, c 5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), B., 1998; Çıraqzadə V., Aslan bəy Səfikürdski, B., 1994.

downloaded from KitabYurdu.az

**XANLAROV** Mövsüm bəy Məmməd oğlu (12.9.1857, Bakı-23.2.1921, Bakı; Bibiheybət məscidində dəfn olunmuşdur) - Azərbaycanın ilk kimyaçı alimi (üzvi kimya), ictimai xadim, 1878 ildə Bakı realnı məktəbini bitirdikdən sonra təhsilini Almaniyada davam etdirmişdir. 1881 ilədək Vürsburq və Leypsiq universitetlərində, sonra Strasburqda



Kayzer Vilhelm Universitetinin riyaziyyat təbiyyətşünaslıq fakültəsində təhsil almışdır. Universitetdə məşhur kimyaçı R.Fittiqin laboratoriyasında çalışmış, onun rəhbərliyi ilə Almaniyanın aparıcı elmi jumallarında məqalələr çap etdirmişdir. "Tiosirkə turşusunun etilrodanidə təsiri" adlı ilk məqaləsi 1882 ildə Almaniya kimya cəmiyyətinin orqanı - "Berixte" jurnalında dərc olunmuşdur. Xanlarov 1883 ildə Strasburq Universitetinin elmi şurasında "Butirolakton və etilbutirolaktonlar" mövzusunda dissertasiya müdafiə edib kimya doktoru alimlik dərəcəsi almışdır. 1884 ildə D.İ.Mendeleyevin, N.A.Menşutkinin və D.P.Konovalovun zəmanəti (tövsiyəsi) əsasında Rusiya fizika-kimya cəmiyyətinin üzvlüyünə qəbul olunmuşdur. Tezliklə Bakıya golon Xanlarov həm də Rusiya Texnika Comiyyətinin Bakı şöbəsinin üzvü seçilmiş, cəmiyyətin Bakı şöbəsində təftiş komissiyasımn üzvü kimi fəaliyyət göstərmişdir.Cəmiyyətin iclaslarında elmi məruzələrlə çıxış etmiş, neft istehsalının aktual məsələlərinə dair səmərələşdirici təkliflər irəli sürmüşdür.

Xanlarov Bakı Neft Sənayeçiləri Qurultayı Şurası strukturunda fəaliyyət göstərmiş, Statistika bürosuna başçılıq etmişdir. İxrac edilən neftin keyfiyyətinə nəzarət etmək, vaqon-sisternlərin neft məhsulları ixracçıları arasında düzgün bölüşdürülməsi məqsədilə Bakı neft emalı zavodlarının məhsuldarlığın müəyyən etmək məsələlərilə məşğul olmaq Xanlarova tapşırılırdı. 1886 ildə dəmir yolu komitəsinin sədri seçilmişdir., Xanlarov Bakı şəhərinin ictimai həyatında fəal iştirak etmiş, 1882-97 illərdə Bakı şəhər dumasının üzvü olmuşdur. 1891 ildən qarşılıqlı borc cəmiyyətinin, Bakı ictimai yığıncağının direktorlarından biri, şəhər işləri üzrə quberniya idarəsinin üzvü idi.

Xanlarov məşhur sahibkar və mesenat Hacı Zeynalabdin Tağıyevin böyük qızı Xanım Tağıyeva ilə ailə qurmuşdu.

Müxtəlif maarif tədbirlərində, Bakı realnı məktəbinin imkansız şagirdlərinə yardım işlərində iştirak etmişdir. 1884 ildə Xanlarovun təşkil etdiyi xeyriyyə gecəsində M.F.Axundzadənin pyeslərindən səhnələr göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə də elmi-tədqiqat işlərini davam etdirən Xanlarov sovet hakimiyyəti qurularkən Azərbaycan SSR AXTŞ kimya şöbəsində mühəndis-texnoloq vəzifəsinə təyin olunmuşdur. Xanlarov Bakıda elektrotexnika zavodonun, həmçinin boyaq fabrikinin və dərman maddələri yarım şöbəsinin təşkili layihəsini tərtib etmişdir.

*Əd:*. Məhərrəmov A., Allahverdiyev M., Əliyeva R.Ə., Azərbaycan kimyaçıları, B., 1998; Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. Üçüncü buraxılış, B., 2001; Яснопольскии В.Д., таирзаде Н.А. Мовсум Бек Ханларов и его труд по органической химии , «Наученые труд» министрерства высшего и среднего специального образазавания Азерб., ССР (серия химических наук), 1979, № 1; Рахшанлы Р., Мовсум бек Ханларов, Б., 1997.

**XARİCƏ TƏHSİL ALMAĞA GÖNDƏRİLƏN AZƏRBAYCANLI TƏLƏBƏLƏR HAQQINDA QƏRAR**

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də müxtəlif sahələrdə ali təhsilli mütəxəssislər hazırlamaq üçün yüz nəfər azərbaycanlı gəncin Avropanın ali məktəblərinə göndərilməsi olmuşdur. Azərbaycan Parlamentinin 1919 il sentyabrın 1-də keçirilən 70-ci iclasında Bakı Dövlət Universitetinin təsisi ilə yanaşı, 1919-20 tədris ilindən başlayaraq, yüz nəfər azərbaycanlı gəncin Hökumət hesabına təhsil almaq üçün xarici ölkələrin nüfuzlu ali məktəblərino göndərilməsi haqqında məsələ də müzakirə edilmişdir. Bu məsələ ilə əlaqədar Əhməd bəy Pepinovun məruzəsi ətrafında müzakirələrdə Rəhim Vəkiləv, Abdulla bəy Əfəndizadə, Rza bəy Ağabəyov, Məmmədrza Ağavəkiləv, Qasım bəy Camalbəyov, Qara bəy Qarabəyli, Muxtar Əfəndizadə, Ağa Aşurov, xalq maarifı naziri Rəşid xan Qaplanov və b. çıxış edərək, ölkə iqtisadiyyatının elm, təhsil və mədəniyyətinin gələcək inkişafı üçün tələbələrin xarici ölkələrdə ali təhsil almağa göndərilməsinin əhəmiyyətini vurğulamışlar.

1919-20 tədris ilində xaricdə təhsil almağa göndəriləcək tələbələr barədə Azərbaycanın Cümhuriyyəti Parlamentinin xaricdə təhsil almağa göndərilən azərbaycanlı tələbələrə vəsait ödənilməsi haqqında qərarı ilə bu iş üçün dövlət xəzinəsindən xalq maarifı nazirliyinin sərəncamına 7 milyon manat vəsait aynlmışdı. Avropa ali məktəblərinə göndərilən hər tələbəyə ayda 400 frank təqaüd və 1000 frank yol xərci, Rusiya ali məktəblərinə göndəriləcək tələbələrə isə hər ay 3 min rubl təqaüd və 1000 manat yol xərci ayrılmalı idi.

Xaricə göndəriləcək tələbələri seçmək üçün Xalq Maarifı Nazirliyi yanında Məhəmməd Əmin Rəsulzadə (sədr), Əhməd bəy Pepinov, Qara bəy Qarabəyli, Mehdi bəy Hacınski və Abdulla bəy Əfəndizadədən ibarət çox nüfuzlu münsiflər heyəti yaradılmışdı. Münsiflər heyətinin diqqətlə seçdiyi tələbələrdən 10 nəfərinin İngiltərəyə, 23 nəfərinin İtaliyaya, 45 nəfərinin Fransaya, 9 nəfərinin Türkiyəyə göndərilməsi nəzərdə tutulurdu. Nəticədə isə Xalq Maarifi Nazirliyi tərəfındən xaricə göndərilən tələbələrdən 49 nəfərinə Almaniyanın, 27 nəfərinə Fransamn, 4 nəfərinə İtaliyanın, 1 nəfərinə İngiltərənin, 6 nəfərinə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd verilmişdi. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Rusiyada vətəndaş müharibəsi ilə əlaqədar yaranmış şəraitə görə oraya tələbə göndərmək mümkün olmamışdı.

Xaricə göndərilən tələbələr 1920 il yanvarın 14-də Parlament və Hökumət üzvlərinin, tanınmış xeyriyyəçilərin, iş adamlarının, din xadimlərinin, ictimaiyyət nümayəndələrinin və valideynlərin iştirakı ilə təntənəli surətdə yola salındılar. Tələbələrin Batuma getmələri üçün xüsusi vaqon

downloaded from KitabYurdu.az



*Azərbaycan Xalq Cümhuriyyətinin ali təhsil almaq üçün xaricə göndərdiyi tələbələrdən bir qrupu*

ayrılmışdı. 1920 il fevralın 11 -də Parisə çatan tələbələr burada Paris Sülh Konfransında (1919-20) iştirak edən Azərbaycan nümayəndə heyəti tərəfindən hərarətlə qarşılandı. Nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov tələbələr qarşısında böyük nitq söylədi. Bundan sonra tələbələr təhsil almaq üçün Avropanın müxtəlif ölkələrinə yollandılar.

Lakin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin belə diqqətlə seçərək, böyük ümidlərlə xarici ölkələrin ali məktəblərinə yola saldığı bu tələbələrin taleyi *Aprel işğalından (1920)* sonra çox acınacaqlı oldu.

Ölkənin bolşevikləşdirilməsi nəticəsində vəziyyət kəskin şəkildə dəyişdi. Tələbələrə pul göndərilmədi. Onlar bu barədə Nəriman Nərimanova müraciət etdilər. Azərbaycan İnqilab Komitəsinin 1920 il avqustun 9-da Nəriman Nərimanovun şəxsi təşəbbüsü və sədrliyi ilə keçirilən iclasında keçmiş Azərbaycan Hökumətinin xaricə göndərdiyi tələbələrin təhsillərini başa vurması üçün vəsait buraxılması və ümumiyyətlə, onlara maddi yardım göstərilməsi məsələsi müzakirə edilərək, müsbət qərar qəbul olundu və xaricdə oxuyan tələbələrə lazımi maddi kömək göstərilməsi yollarının müəyyənləşdirilməsi və göndərilməsi məsələlərinin həlli xalq maarifi və xalq xarici işlər komissarlıqlarına tapşırıldı. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri kimi Nəriman Nərimanov xaricdə təhsil alan azərbaycanlı tələbələrə yardımın davam etdirilməsi haqqında xüsusi qərar imzaladı. Nəriman Nərimanov hələ 1919 ildən xaricdə oxuyan azərbaycanlı tələbələrin işinə məşğul Bəhram Axundovu 1921 il iyunun 18-də xaricdə oxuyan azərbaycanlı tələbələrin işləri üzrə xüsusi müvəkkil təyin etdi. Həmin il iyulun əvvəllərində B.Axundov xaricdə oxuyan azərbaycanlı tələbələrin maddi vəziyyətini öyrənmək və onlara əməli köməklik göstərmək üçün azərbaycanlı tələbələrin oxuduğu Qərbi Avropa ölkələrinin paytaxtlarına ezam olundu. O, bütün maneələri dəf edərək, yalnız həmin il oktyabrın axırlarında Parisə gəlib çata bildi. 1922 ilin yanvarına qədər Paris, Berlin və Avropanın digər şəhərlərinə səfər edən B.Axundov Fransanın müxtəlif məktəblərində 28, Almaniyanın ali məktəblərində 49, İtaliyada 3 nəfər tələbənin oxuduğunu müəyyənləşdirdi. Bakıya qayıtdıqdan sonra, o, 1922 il martın 2-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun adına əhatəli hesabat təqdim etdi. Bu hesabat əsasında Nəriman Nərimanovun şəxsi göstərişi ilə xaricdə oxuyan tələbələrə təhsillərini müvəffəqiyyətlə davam etdirmələri üçün lazımi şərait yaradılması tapşırıldı. 1922 ilin sonlarında Nəriman Nərimanov Moskvaya işə keçirildikdən sonra, xaricdə oxuyan tələbələrə münasibət yenidən dəyişdi. Xaricdə oxuyan tələbələr "sədaqətli" və "sədaqətsiz" adı ilə iki qismə bölündü. Onlara münasibət də bu yöndə quruldu. Nəticədə, təhsil haqqını ödəyə bilməyən tələbələrdən gündəlik çörəyə möhtac olaraq, ən ağır şəraitdə işləmək məcburiyyətində qalanlar, həbsxanalara düşənlər, hətta böhranlı vəziyyətdən çıxış yolu tapmayaraq, intihar edənlər də olmuşdur. Çox çətinliklə təhsilini başa çatdırıb, yüksək ixtisaslı mütəxəssislər kimi vətənə qayıdan tələbələrin əksəriyyəti isə sonralar "qırmızı terror"un qurbanı oldular.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), B., 1998; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Азербайджанскя Демократическая Республика (1918-1920). Законадательные акты (сборник дакументов) Б.,1998; Абуталыбов Р., Фзербайджанские студенты в Западной Европе, газ. «Панорама», 1996, 15-е марта.

downloaded from KitabYurdu.az

**XARİCİ İŞLƏR NAZİRLİYİ (XİN),** Azərbaycan Xalq Cümhuriyyəti X a r i c i İşlər N a z i r l i y i -Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini həyata keçirən dövlət orqanı. 1918 il mayın 28-də, Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün Fətəli xan Xoyski tərəfindən Tiflisdə təşkil olunmuş Müvəqqəti Hökumət kabinəsi tərəfindən təsis olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci və 2-ci Hökumət kabinələrində xarici işlər naziri vəzifəsinə Məmməd Həsən Hacınski təyin edilmişdi. Hökumət Gəncədən Bakıya köçdükdən sonra, 1918 il oktyabrın 6-da F.x.Xoyski hökumətində dəyişikliklər edilərkən xarici işlər naziri vəzifəsi Əlimərdan bəy Topçubaşova həvalə olundu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti yaradıldıqdan (1918 dekabr) sonra Parlamentin tapşırığı ilə F.x.Xoyski tərəfindən dekabrın 26-da formalaşdırılmış 3-cü Hökumət kabinəsində F.x.Xoyski Baş nazir vəzifəsi ilə yanaşı xarici işlər naziri vəzifəsini də icra etmişdir. 1919 il aprelin 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü Hökumət kabinəsində bu vəzifəni Məmməd Yusif Cəfərov, 1919 il dekabrın 24-də 5-ci Hökumət kabinəsində isə F.x.Xoyski tutmuşdur.

1918 ilin mayında yaradılmış Cümhuriyyət Hökumətinin və onun XİN-nin qarşısında duran başlıca vəzifələrindən biri ölkənin müstəqilliyinin dünyanın böyük dövlətləri tərəfindən tanınmasına nail olmaq idi. Cəmi iki ilə yaxın fəaliyyəti dövründə nazirliyin gərgin fəaliyyəti nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti 1920 il yanvarın 11-də Paris sülh konfransının (1919-20) iştirakçısı olan böyük dövlətlər tərəfindən de-fakto tanındı.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən. yaxın qonşuları ilə əlaqələrini dostluq və qarşılıqlı həmrəylik prinsipləri əsasında qurmağa çalışmış, bütün fəaliyyətini bu vəzifələrin yerinə yetirilməsinə yönəltmişdi.

Cənubi Qafqazda üç müstəqil dövlət -Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yarandıqdan sonra qarşıda, ilk növbədə, müvəqqəti də olsa, onların sərhədlərini müəyyənləşdirmək və Qafqaz canişinliyindən miras qalmış əmlakı bölüşdürmək vəzifəsi dururdu. Canişinlikdən qalmış əmlakın bölüşdürülməsi məsələsi az-çox məqbul şəkildə həll olunsa da, ərazi məsələlərinin həlli daha mürəkkəb idi. Ermənistanın ərazi məsələsinə münasibəti və azərbaycanlıların ata-baba torpaqları olan, həm də çoxluq təşkil etdiyi ərazilərə əsassız iddiaları, həmin ərazilərin müsəlman əhalisinin Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməyə meylli olmalarına daşnakların məhəl qoymamaları vəziyyəti daha da gərginləşdirirdi. Bütün mübahisəli ərazi məsələlərinin sülh yolu ilə həllinə çalışan Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti məsələni mürəkkəbləşdirməməyə çalışır, XİN vasitəsilə Gürcüstan və Ermənistan hökumətlərinə müraciət edərək, mübahisəli ərazi məsələlərini həll etmək üçün üç Cümhuriyyətin hökumət nümayəndələrindən ibarət müştərək komissiya yaratmağı təklif edirdi. Uzunmüddətli danışıqlar nəticəsində 1918 ilin noyabrında Tiflisdə bu məsələ ilə bağlı konfrans çağırıldı. Lakin Ermənistan nümayəndə heyəti konfransa gəlməkdən imtina etdi. Nəticədə, məsələ həll edilməmiş qaldı. Lakin sərhəd bölgələrində azərbaycanlılara qarşı soyqırımları, milli zəmində toqquşmalar, habelə iqtisadi xarakterli məsələlərin bu və ya digər şəkildə həll olunması zərurəti yeni yaranmış bu üç dövlət arasında danışıqlar aparılmasını tələb edirdi.

Buna görə də, Cənubi Qafqaz cümhuriyyətlərinin hökumətləri arasında çoxlu nota mübadiləsindən sonra, nəhayət 1919 ilin aprelində Tiflisdə bu ölkələrin nümayəndələrinin konfransı keçirildi. Konfransda Şimali Qafqaz xalqlarının yaratdığı Dağlılar Respublikasının nümayəndələri də iştirak edirdi. Lakin bu dövrdə Denikin ordularının Dağlılar Respublikasını işğal edib, Azərbaycanın sərhədlərinə yaxınlaşması və Cənubi Qafqaz respublikalarının müstəqilliyini təhlükə altına alması nəticəsində konfrans öz işini dayandırmağa məcbur oldu. Denikinin Cənubi Qafqaz cümhuriyyətlərinə qarşı yaratdığı təhlükəyə qarşı 1919 il iyunun 27-də Azərbaycan və Gürcüstan hökumətləri arasında müdafiə ittifaqı yaratmaq barədə müqavilə bağlandı. Öz qonşularına xəyanət edərək Denikinlə gizli əlaqə saxlayan Ermənistan isə bu ittifaqa qoşulmadı.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və onun XİN öz fəaliyyəti dövründə Ermənistanla münasibət məsələlərinin sahmana sahnmasına daha çox vaxt sərf edirdi. Ermənistan hökumətinin Naxçıvan, Şərur-Dərələyəz, Böyük Vedi bölgələrində və başqa ərazilərin yerli əhalisi olan azərbaycanlılara qarşı yeritdiyi soyqırımı siyasəti, habelə Qarabağ və Zəngəzur məsələlərindəki barışmaz ilhaqçılıq siyasəti, Azərbaycan hökumətinin apardığı uzunmüddətli diplomatik danışıqlar, habelə İngiltərə və Amerika kimi xarici dövlətlərin də bu işə qatılması nəticəsində 1919 il noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətləri başçılarının Tiflisdə görüşü keçirildi. Burada Azərbaycan və Ermənistan nümayəndələrinin birgə konfransını keçirmək barədə razılıq əldə olundu. 1919 il dekabnn 14-də konfrans işə başladı. Mehriban qonşuluq münasibətləri yaratmaq üçün bütün mübahisəli məsələləri silah gücünə deyil, sülh yolu ilə həll etmək haqqında ümumi razılıq əldə olundu. Lakin Ermənistan işdə bu razılığa əməl etmədi və özünün riyakar, təcavüzkar siyasətini yenə də davam etdirdi:

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilk günlərdən başlayaraq, bütün ölkələrlə dostluq və əməkdaşlığı özünün xarici siyasətinin başlıca məqsədi elan etmişdi. Hökumət hələ qalib ölkələr tərəfindən rəsmən tanınana qədər müstəqil dövlət kimi öz suveren hüquqlarını həyata keçirməyə başlamışdı. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbul, Tehran, Tiflis, İrəvan, Kuban və Donda diplomatik nümayəndəlikləri, Batum və Ukraynada baş konsulluqları, Krım və Petrovsk-Portda konsul agentləri, Bakıda isə Gürcüstan və Ermənistan Cümhuriyyətlərinin diplomatik nümayəndəlikləri, İranın baş konsulu, Belçika, Hollandiya, Yunanıstan, İsveç və İsveçrənin konsulları, İngiltərə, ABŞ və Ukraynanın vitse-konsulları, Litva, Polşa və Finlandiyanın konsul agentləri fəaliyyət göstərirdi.

downloaded from KitabYurdu.az

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və onun XİN bütün mövcudluğu dövründə Birinci dünya müharibəsinin (1914-18) qalib ölkələri olan İngiltərə, ABŞ və Fransadan öz suverenliyinin tanınmasını təkidlə tələb edirdi. 1919 ilin yanvarında Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyəti bu yöndə yorulmadan çalışırdı. Nümayəndə heyətinin nə qədər gərgin fəaliyyət göstərdiyini Ə.Topçubaşovun Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti sədrinə ünvanladığı məktublar aydın sübut edir. Antanta dövlətləri Azərbaycan Xalq Cümhuriyyətinin varlığını yalnız Denikin orduları Sovet Rusiyası tərəfindən məğlub edildikdən, keçmiş Rusiyanı bərpa etmək ümidləri boşa çıxdıqdan sonra de-fakto tanıdılar.

Azərbaycan Xalq Cümhuriyyəti, özünün son dərəcə mürəkkəb beynəlxalq vəziyyətinə baxmayaraq, xarici siyasətində qardaş türk xalqlarına, qonşu Dağıstan və çarizm zülmündən xilas olmuş başqa xalqların azadlıq mübarizəsinə yardım göstərirdi.

Sovet Rusiyasının xalq xarici işlər komissarı G.Çiçerin Azərbaycan Xalq Cümhuriyyəti XİN-nin iki dövlət arasında diplomatik əlaqələr yaratmaq barədə Sovet Rusiyasına təkidli təkliflərini qulaqardına vururdu. Bunun əvəzində isə, o, Azərbaycanı Şimali Qafqazdakı Denikin qüvvələri ilə mübarizə ittifaqına cəlb etməyə çalışırdı. Sovet Rusiyasının Azərbaycan Xalq Cümhuriyyətinə qarşı sonrakı təcavüzü və Şimali Azərbaycanı işğal etməsi bolşevik Rusiyasınm antiazərbaycan siyasətinin iç üzünü açıb-göstərdi.

*Aprel işğalı (1920)* başqa nazirliklərlə yanaşı, XİN-nin də fəaliyyətinə son qoydu.

*Əd.:* Азербаиджанскя Демократическая Республика (1918-1920). Внешняя политика (Дакументы и материалы), Б., 1998; Адрескалендарь Азербаиджанскои Республики на 1920 г., Азербаиджанскя Демократическая Республика (1918-1920), Б., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920), B., 1993; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**XARLAMOV** V.A. (?-?)- kadet partiyası xadimlərindən biri; Fevral inqilabından (1917) sonra 1917 il martın 9-da Cənubi Qafqazın idarə olunması məqsədilə yaradılmış mülki hakimiyyət orqanının - Xüsusi Zaqafqaziya Komitəsinin (ОЗАКОМ - Особыи Закавказский Комитет) sədri. Tiflisdə yaradılmış bu komitə həmin ilin noyabrınadək fəaliyyət göstərmişdir.

**XASMƏMMƏDOV** Ələkbər bəy Hacıbaba oğlu (? - ?) - Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ictimai və dövlət xadimi, hüquqşünas. Xəlil bəy *Xasməmmədovun* qardaşıdır. *"Difai"* partiyası Mərkəzi Komitəsinin üzvü olmuşdur.



Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin, onun təftiş komissiyasının üzvü idi. 1905 ilin yayında Qafqazda yerli idarəetmə orqanlarının təşkili ilə bağlı yaradılan üç nəfərdən ibarət heyətin (Əlimərdan bəy Topçubaşov və Adil xan Ziyadxanovla birlikdə) üzvü seçilmişdi. Bu heyət Gəncə bələdiyyə seçkilərinin nəticələrini təsdiq etdirməli, müsəlmanların yerli idarə orqanlarına seçilməsindəki hüquqi məhdudiyyətlər aradan qaldırılmayınca yeni seçkilərin dayandırılması üçün müvafiq Rusiya orqanları qarşısında məsələ qaldırmalı idi. Ə.Xasməmmədov, eyni zamanda, Gəncə Milli Komitəsinin də üzvü olmuşdur.

O, 1918 il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə yaradılmış *Fövqəladə Təhqiqat Komissiyasının* sədri təyin edilmişdi. Ə. Xasməmmədovun rəhbərliyi ilə, az vaxt içərisində, bütün Bakı quberniyasında ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları haqqında istintaq və məlumat xarakterli geniş material toplanmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1919 il 28 fevral tarixli qərarı ilə Ə.Xasməmmədov Azərbaycan Məhkəmə Palatasının böyük sədri vəzifəsinə təyin olundu. O, eyni zamanda, mülki departamentə də sədrlik edirdi. Ə.Xasməmmədov Azərbaycan məhkəmələrinin fəaliyyətində məhkəmə nizamnamələrində ifadə edilmiş və hüquq elmi tərəfindən işlənib hazırlanmış prinsipləri əsas tutacağını, ədalət mühakiməsinin vicdanla həyata keçiriləcəyini, qanunçuluğa və ədalətə riayət ediləcəyini bəyan etmişdi (1919 il, mart).

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Dəmirov M., Azərbaycan prokurorluğu: tarix və müasirlik, B., 1997; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzil-liyin əvvəlləri), B.,1999; Cavadov C, Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə) B., 1999.

**XASMƏMMƏDOV** Xəlil bəy Hacıbaba oğlu (25.10.1873, Gəncə - 1947, İstanbul) - Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi və dövlət xadimlərindən biri. Gəncə klassik gimnaziyasında orta təhsil almış, Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir (1895). Yekaterinodar (indiki Krasnodar) və Yelizavetpol (Gəncə) dairə məhkəmələrində işləmişdir. "İttifaqi-müslimin" təşkilatının din və hüquq komissiyalarının üzvü olmuşdur. Yelizavetpol quberniyasından 2-ci Dövlət dumasına deputat seçilmişdir (1907). Xəlil bəy Xasməmmədov Fətəli xan Xoyski ilə birlikdə Dumanın milli-dini bərabərlik komissiyasının, Dumanın ikinci şöbəsinin və beş komissiyasının üzvü olmuş, xalq azadlığı partiyasını təmsil etmişdir. Özlərini "solların gənc tatar partiyasına" aid edən Xoyski və Xasməmmədov fraksiyanın proqramını "Varlılar və zadəganlar üçün" nəzərdə tutulduğundan, tam şəkildə qəbul etmirdilər. Xasməmmədov Dumanın müsəlman fraksiyasının iclasında amnistiya məsələsini qaldırmış və onun qanunvericilik yolu ilə keçirilməsini təklif etmişdi. 3-cü Dövlət dumasında (1907-12) Xasməmmədov Azərbaycanı təmsil edən yeganə deputat idi. O, Dumanın imperatora müraciət hazırlanması, sorğular, köçürmə işi, məhkəmə islahatı üzrə komissiyalannın üzvü idi. Xəlil bəy Xasməmmədov Qafqaz müsəlmanlarının mənafeyini müdafiə edərək Duma deputatlarına bəyan etmişdi ki, ***"dövlətimizin siyasi quruluşunun bu və ya başqa ciir adlanması qətiyyən vacib deyil, bu siyasi quruluşun tələbatımızı, istəklərimizi yerinə yetirməyə qadir olan məzmunu bizim üçün daha***

downloaded from KitabYurdu.az

***vacibdir".*** Xasməmmədov Dumanın iki illik fəaliyyəti dövründə müsəlmanların hüquqlarının imperiyamn əsas əhalisi ilə bərabərləşdirilməsi, onların maarifiənməsi, rifahının yüksəldilməsi üçün heç bir iş görülmədiyini Duma üzvlərinin nəzərinə çatdırmış, kəndlilərin torpaq azlığından əziyyət çəkdiyini vurğulamışdır.

Xasməmmədov Dumanın bütün fəaliyyəti dövründə müxtəlif sorğular və məsələlər üzrə (ədalətli idarəçilik, yerli əhaliyə torpaq verilməsi, xalq təhsili, hərbi mükəlləfıyyət, seçki, dini etiqad, zemstvə idarələrinin tətbiqi, yerli məhkəmənin dəyişdirilməsi və s.) çıxış etmişdir. Xalq təhsili məsələləri barədə çıxışlarında Xasməmmədov ibtidai məktəbdə ana dilində təhsili müdafiə etsə də, "dövlət dilini bilməyi zəruri" sayırdı. Xasməmmədov Zaqafqaziya (Qori) seminariyası Azərbaycan şöbəsinin Yelizavetpola (Gəncəyə) köçürülməsi və onun müstəqil seminariyaya çevrilməsi barədə Xalq Maarifı Nazirliyi qarşısında vəsatət qaldırmışdı. O, 1911 il noyabrın 30-da hərbi mükəlləfıyyət barədə qanun layihəsi üzrə çıxış edərkən hərbi mükəlləfiyyətin müsəlmanlara da şamil olunmasını tələb etmişdi.

Xasməmmədov Yelizavetpol şəhər bələdiyyə rəisi (1913-17) işləmişdir. Fevral inqilabından (1917) sonra Gəncədə "Türk Ədəmi-mərkəziyyət partiyasının yaradıcılarından biri, 1917 ildə keçirilmiş Qafqaz (Bakı, aprel) və Ümumrusiya (Moskva, May) müsəlmanları qurultaylarının iştirakçısı olmuşdur. "Müsavat" partiyasının birinci qurultayında (Bakı, 1917, 26-31 oktyabr) Mərkəzi Komitənin üzvü seçilmişdir. Xasməmmədov Azərbaycan milli hərəkatının rəhbərlərindən biri, Yelizavetpol Qəza İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya komissarlığında Dövlət nəzarəti komissarı, Zaqafqaziya seyminin, Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan (1918, 26 may) sonra Azərbaycan Milli Şurasımn (1918, 27 may) üzvü olmuşdur. O, 1918 ildə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına göndərilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinə daxil idi.

X. Xasməmmədov Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci Hökumət kabinəsində ədliyyə naziri, 2-ci kabinədə əvvəlcə portfelsiz nazir, 1918 il 6 oktyabr kabinədaxili dəyişikliklərdən sonra ədliyyə naziri, 3-cü kabinədə daxili işlər naziri, 5-ci kabinədə ədliyyə naziri vəzifələrində çalışmışdır. "Müsavat" partiyasından Azərbaycan Parlamentinin üzvü idi. X.Xasməmmədov Azərbaycan nümayəndə heyətinin tərkibində Cənubi Qafqaz respublikaları konfransında (1919, aprel-iyun) iştirak etmişdir.

Xasməmmədov 1920 ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə səfiri təyin olunmuşdu. *Aprel işğalından (1920)* sonra Azərbaycana qayıtmamış, İstanbulda yaşamış, coşğun siyasi-publisistik fəaliyyət göstərmiş, "Yeni Qafqasya" (1923-27), "Azəri-türk" (1928-31), "Odlu yurd" (1920-30), "Azərbaycan yurd bilgisi" (1932-ci ildən nəşr olunub) jurnallarında, Parisdə fransızca çıxan "Prometey" (1929-38), rusca "Kavkaz" (1932-38), Berlində Azərbaycan türkcəsində nəşr edilən "İstiqlal" (1932-34) və "Qurtuluş" (1934-38) qəzet və jurnallarında siyasi məzmunlu məqalələr dərc etdirmişdir.

Xasməmmədov Azərbaycan Milli Mərkəzi (1924, İstanbul) Mərkəzi Komitəsinin və "Müsavat" partiyası xarici

*Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov 2-ci Dövlət dumasının müsəlman deputatları arasında (oturanlardan soldan birinci Fətəli xan Xoyski; sağdan birinci Xəlil bəy Xasməmmədov). Tavriya sarayı. 1907*



downloaded from KitabYurdu.az




*Xəlil bəy Xasməmmədovun məzarı. İstanbul. Fərid köy qəbiristanlığı*

bürosunun (İstanbulda fəaliyyət göstərirdi) 3 nəfərdən (Məhəmməd Əmin Rəsulzadə - sədr, Mirzə Bala Məmmədzadə - katib və Xəlil bəy Xasməmmədov - xəzinədar) ibarət rəyasət heyətinin üzvü idi. 1930-cu illərin əvvəlində Milli Mərkəz və Xarici Büro daxilindəki ixtilafların dərinləşməsi Azərbaycan siyasi mühacirətinin parçalanması ilə nəticələndi. Mustafa bəy Vəkiləv, Şəfı bəy Rüstəmbəyli və digərləri ilə birlikdə Xasməmmədov M.Ə.RəsuIzadəyə qarşı müxalif mövqedə dayanırdı. Sovet hökumətinin təzyiqi ilə M.Ə.Rəsulzadə Türkiyəni tərk etdikdən. sonra Xəlil bəy, Şəfı bəy Rüstəmbəyli və başqalarının Avropadakı mərkəzdən göstəriş almadan, müstəqil fəaliyyət göstərmək meyli gücləndi. Nəticədə, Milli Müsavat Xalq Partiyasının konfransında (avqust 1936, Varşava) Xəlil bəy Xasməmmədov partiya sıralarından xaric edilmişdi.

Azərbaycanın bütün Qafqazın türk-müsəlman xalqlan ilə sıx birliyinin qızğın tərəfdarı olan Xasməmmədov Azərbaycan və Şimali Qafqaz mühacirləri tərəfındən yaradılmış "Azərbaycan-Dağlılar birliyi" adlanan qurumun ilk sədri seçilmişdi. 1942 ilin yazmda Almaniyanın Xarici İşlər Nazirliyi xətti ilə Berlinə görüşə dəvət edilmiş tanınmış Qafqaz siyasi mühacirləri sırasında Xəlil bəy Xasməmmədov da olmuşdur.



*Əd.:* İbrahimli X., Azərbaycan siyasi mühacirəti, B., 1997; Seyidzadə D., Azərbaycan XX əsrin ovvəllərində: müstəqilliyə aparan yollar, B., 1998; Oruclu M.R., Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), B., 2001; Сеидзаде Д. Б., Азербаиджанискые депутаты в Гасударственно Думе России, Б., 1991.

XƏLƏFBƏYOV Məmməd Xələf bəy oğlu (20.6.1898, Şamaxı -?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şamaxı realnı məktəbini bitirib (1917), Petroqrad elektrotexnika institutuna daxil olmuş, Fevral inqilabından (1917) sonra Rusiyada baş verən hadisələrlə əlaqədar-təhsilini yarımçıq qoyaraq vətənə qayıtmışdı. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini fizika-riyaziyyat sahəsində davam etdirmək üçün İstanbul Universitetinə göndərilmişdir. Təhsilini başa vurduqdan sonra Azərbaycana dönmüş, 1930-cu illərdə Semaşko adına xəstəxananın cərrahiyyə şöbəsində professor M.Ə.Mirqasımovun yanında işləmişdir. 1930-cu illərin sonlarında repressiyaya məruz qalmış, Kolıma (Rusiya, Maqadan vilayəti) həbs düşərgəsinə göndərilmiş, düşərgə xəstəxanasında həkim işləmişdir. Ölümündən sonra bəraət almışdır.

downloaded from KitabYurdu.az

**XƏLİL BƏY** (? - ?) -Türkiyənin Araz-Türk Cümhuriyyəti hökuməti yanında Türkiyənin hərbi müşaviri. Osmanlı hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra Naxçıvan mahalında saxlanılan məhdud kontingentlə - 5 zabit və 300 əsgərlə bölgəni erməni-daşnak quldurlarından müdafiə etmişdir. İqamətgahı Naxçıvan şəhərində yerləşən Xəlil bəy əvvəllər Araz-Türk Cümhuriyyətinin, sonra isə Cənub-Qərbi Azərbaycan (Naxçıvan) general-qubernatorluğunun Türkiyə ilə əlaqələrini təmin etmişdir.

**XƏLİL İBRAHİM,** Xəlil İbrahim oğlu İbrahimov (1892, Şuşa - mart, 1938, Bakı) - jurnalist, publisist, tənqidçi. Sənətkar ailəsində anadan olmuşdur. 1907 ildə atası vəfat etmiş, xalça toxuyan anasının himayəsində qalmışdır. Şuşada



rus-Azərbaycan məktəbində, Şuşa və Bakı realnı məktəblərində oxumuşdur. 1909-10 illərdə təqaüd almadığından təhsili yarımçıq qalmış, 1911 ildən Sarıcalıda Qasım bəy Zakirin nəvələrinə evdə dərs demişdir. "Kənd həyatından lövhələr" adlı ilk oçerkini də orada yazmışdır (1913 ildə "Səda" qəzetində dərc olunmuşdur). 1912-13 illərdə Bakıda *"Nəşri-maarif* cəmiyyətinin Əmircandakı məktəbində müəllim işləmişdir. "Səda" (1913-15), "Açıq söz" (1915-18), "Doğru söz" (1916-17), "İqbal" (1912-15), "Yeni iqbal" (1915), "Bəsirət" (1914-20), "Azərbaycan" (1918-20) qəzetlərində, "Tuti" (1914-17), "Qardaş köməyi" (1917) jurnallarında ictimai-siyasi mövzuda publisistik məqalələri və bədii yazıları dərc edilmişdir. "Müsavat" partiyasının üzvü, onun Şuşa şəhər özəyinin katibi olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı *"Azərbaycan"* qəzetində "Qarabağlı Xəlil" imzası ilə məqalələr dərc etdirmişdir. "Azərbaycan" qəzeti 1919 il 4 iyul tarixli 216-cı sayından "Müvəqqəti müdir: Xəlil İbrahim" imzası ilə çap olunmağa başlamışdır. Qəzetin 6 iyul tarixli 217-ci sayında "Bakı xəbərləri" başlığı ilə redaksiyadan belə bir xəbər verilmişdi: "Qəzetimizin müvəqqəti müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək qəsdi ilə bir müddətə Bakıdan gedib. Müvəqqəti müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vaguzar edilmişdir". Xəlil İbrahim sentyabrın əvvəllərinə qədər müvəqqəti redaktor kimi fəaliyyət göstərmiş, eyni zamanda, 1919 ildə yaradılmış jurnalistlər və ədiblər ittifaqı sədrinin müavini olmuşdur.

*Aprel işğalından (1920)* sonra bədii-publisistik fəaliyyətini davam etdirmiş, "Kommunist", "Ədəbiyyat", "Kəndçi" qəzetlərində, "Maarif və mədəniyyət" jurnalında bədii yazıları, ictimai-siyasi mövzularında publisistik və tənqidi məqalələri dərc olunmuşdur. Eyni zamanda, 1932 ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında yaradılan "Elmi terminologiya işləyib hazırlamaq komissiyası"nın üzvü, sonra isə məsul katibi olmuş, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin işində fəal iştirak etmişdir.

Xəlil İbrahim 1920-30 illərdə gizli fəaliyyət göstərən "Müsavatın sıralarında Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsini davam etdirmiş, 1938 ildə "müsavatçı" ittihamı ilə həbs olunaraq, Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı üçlüyünün 1938 il 11 mart tarixli qərarına əsasən güllələnmişdir.

*Əd.* Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Ələkbərli N., Xəlil İbrahim, "Amal" qəzeti, 1992, 15 iyul; Yaddaşın bərpası, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin orqanı "Sərhəd" qəzetinin xüsusi buraxılışı, 1999, Mel.

**XƏLİL** (KUT) PAŞA (1881 - 1957) -Türkiyə hərbi xadimi, general. 1917 ilin sonlarında Türkiyənin Mosulda (İraq) yerləşən 6-cı ordusunun, sonra isə Şərq ordular qrupunun komandanı. Bu ordular qrupuna Türkiyənin şimal-şərqində və Cənubi Qafqazda fəaliyyət göstərən hissə və birləşmələri daxil idi. 1918 ilin iyunundan etibarən Azərbaycana hərbi



yardıma gəlmiş türk hərbi hissə və birləşmələri də Şərq ordular qrupu komandanlığına tabe idi. Azərbaycanda yaradılmış Qafqaz İslam Ordusunun təminat və təchizat məsələlərinin həllində fəal rolu olan Xəlil paşa həmin vəzifəyə *Ənvər paşanın* təşəbbüsü ilə təyin olunmuşdu. Ənvər paşa Xəlil paşanın yardımı və Qafqaz İslam Ordusunun komandanı olan qardaşı Nuru paşanın rəhbərliyi altında türk hərbi hissələrinin yerli hərbi qüvvələrlə birlikdə, Azərbaycanın müstəqilliyinə yol vermək istəməyən bolşevik-daşnak qüvvələrinə ağır zərbə vuracağına inanırdı. Bakının azad olunması ərəfəsində Xəlil paşa Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşa və Əlahiddə Azərbaycan korpusunun komandanı Əlağa Şıxlinski ilə bərabər şəhər ətrafına gəlmiş, Bakının azad edilməsi münasibətilə 1918 il sentyabrın 16-da türk və Azərbaycan hərbi qüvvələrinin paradında iştirak etmişdi. Şərq ordular qrupu ləğv edilənədək (1918, 21 oktyabr) Xəlil paşa onun komandanı vəzifəsində qalmış, Birinci dünya müharibəsi (1914-18) bitəndən sonra həbs edilmişdi. İstanbuldakı "Bəkirağa bölüyü" həbsxanasından qaçaraq Bakıya gəlmiş, burada Sovet-Türkiyə yaxmlaşmasmı və bolşeviklərin Cənubi Qafqazda (o cümlədən Azərbaycanda) möhkəmlənməsini təmin etmək məqsədilə xüsusi tapşırıqlar yerinə yetirmişdir. Sonradan türk milliyyətçilərinin qeyri-rəsmi nümayəndəsi kimi bir müddət Moskvada fəaliyyət göstərmişdir.

*Əd.* Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; Birinci dünya harbinde türk harbi Kafkas cephesi, 3-ncü ordu harekatı, c.II. Ankara. 1993; Yüceer N., Birinci dünya savaşında Osmanh ordusunun Azərbaycan ve Dağıstan harekatı, Ankara, 1996.

**XƏZƏR HƏRBİ DONANMASI** - Rusiya hərbi-dəniz donanmasının Xəzər dənizindəki hissəsi. I Pyotrun fərmanı ilə 1722 ildə yaradılmışdı. 1867 ildən əsas bazası Bakı idi. 1917 ildə 1,2 min şəxsi heyətdən, 2 kanoner (dənizin sahilyanı bölgələrində döyüş əməliyyatı aparan artilleriya qayığı), 2 xidmət gəmisi, bir neçə nəqliyyyat gəmisindən və katerdon, dəniz aviasiyası məktəbi və sahil xidmətindən ibarət idi. Fevral inqilabından (1917) sonra, martın 4-5 (17-18)-də matros və zabit komitələrinə, Bakı Sovetinə

downloaded from KitabYurdu.az

seçkilər keçirilmiş, donanma komandanı devrilmişdi. Xəzər hərbi donanmasında hakimiyyət gəmi komitəsinə keçmişdi. Matroslar martın 8 (21)-də əsgər deputatları sovetinə daxil olmuşdu. O, martın 29-da (aprelin 10-da) Bakı qarnizonu hərbi deputatlar sovetində zabitlər soveti ilə birləşmişdi. Mayın 10-da (23-də) isə hərbi deputatlar soveti fəhlə deputatları soveti ilə birləşmişdi. Xəzər hərbi donanmasında rəhbərlik "Sentrokaspi"nin əlinə keçmişdi. Xəzər hərbi donanmasında bolşeviklər az idi, lakin Rusiya Sosial-Demokrat Fəhlə (bolşeviklər) Partiyası Bakı Komitəsi burada iş aparırdı. Komitə Oktyabr çevrilişindən (1917) sonra, oktyabrın 27-də (noyabrın 9-da) hakimiyyətin sovetlərə keçməsini tələb etmişdi. Xəzər hərbi donanmasının noyabrın 6 (19)-da keçirilən birinci qurultayı hakimiyyətin Bakı Sovetinə verilməsini təklif etmişdi. 1918 ilin yanvar-iyulunda P.M.Pendyurin, iyul-avqustunda V.F.Poluxin donanma komissarı olmuşdu. 1918 ilin yazında donanmada matrosların xeyli hissəsi tərxis edilmiş, antisovet əhvali-ruhiyyə güclənmişdi. Lakin S.Şaumyan başda olmaqla, Bakı Soveti gəmi komitələrinin tərkibini sovet hakimiyyəti tərəfdarları hesabına yeniləşdirmişdi. Xəzər hərbi donanmasının matrosları 1918 ilin martında azərbaycanlılara qarşı soyqırımında Qırmızı qvardiya hissələri ilə birgə iştirak etmiş, İsmailiyyə binası donanmanın gəmilərindən artilleriya atəşinə tutulmuşdu. Bakı Soveti aprelin əvvəlində "Sentrokaspi"nin eser rəhbərliyini uzaqlaşdırmağa nail olmuşdu. Bakı Xalq Komissarları Sovetinin süqutundan (1918, 31 iyul) sonra Xəzər hərbi donanmasının gəmilərini "Sentrokaspi diktaturası" və Bakıya gəlmiş ingilislər ələ keçirmişdi. Bakı azad olunduqdan sonra Xəzər hərbi donanması Azərbaycan Xalq Cümhuriyyətinə tabe edilmişdi. Çingiz İldırım başda olmaqla, bolşeviklər donanmada milli Hökumət əleyhinə iş aparmışlar. Donanma Azərbaycanda sovet hakimiyyətinin qurulmasında iştirak etmiş, 1920 il aprelin 27-də Bakı reydinə daxil olaraq, Hökumət və Parlament binalarını nişana almışdı. H.Sultanovun hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında ultimatumu ilə yanaşı, Ç.İldırım da Parlamentə ultimatum göndərmişdi. Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra Ç.İldırım hərbi dəniz işləri komissarı təyin olunmuşdu.

*Əd.:* Katibli M., Çingiz İldırım, B., 1964; Восенные моряки в борьбе за власть Советов в Азербаиджане и Прикаспии. Сборник дакументов, Б., 1971.

**XƏZƏR İSTEHLAK CƏMİYYƏTLƏRİ İTTİFAQI** -istehlak kooperasiyasının rəhbər təşkilat və təsərrüfat mərkəzi. Bax *Azərhaycan İstehlak Cəmiyyətləri İttifaqı.*

**XİDMƏTİ CİNAYƏTLƏRİN VƏ VƏZİFƏDƏN SUİ-İSTİFADƏNİN TƏHQİQİ ÜZRƏ XÜSUSİ TƏFTİŞ-İSTİNTAQ KOMİSSİYASI HAQQINDA QANUN** -Azərbaycan Parlamentinin 1919 il 27 iyul tarixli iclasında qəbul edilmişdir. Altı bənddən ibarət idi. Qanuna əsasən, xüsusi təftiş-istintaq komissiyası müxtəlif idarələrdə xidməti cinayətlərin və vəzifədən sui-istifadə hallarının təhqiqi üçün yaradılmışdı. Komissiyanın tərkibinə ədliyyə nazirinin təqdimatı ilə Hökumətin təyin etdiyi sədr və səkkiz nəfər üzv daxil idi. Komissiyaya bütün Hökumət idarələrindən və şəxslərdən zəruri məlumatlar və sənədlər tələb etmək, vəzifəli və qeyri-rəsmi şəxslərə qarşı cinayət işi qaldırmaq, ayrı-ayrı təhqiqatları məhkəmə orqanlarına vermək, bütün dövlət idarələrindən kömək göstərilməsini tələb etmək və s. hüquqlar verilmişdi.



**XİROMANOV** Zəkəriyyə Əbdülhəmid oğlu (22.11.1899, Dağıstan - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə gondərilmiş tələbələrdən biri. Temirxan-Şura realnı məktəbini bitirmişdi (1918). Parlamentin də 1919 il sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində davam etdirmək üçün Ştutqart (Almaniya) İnstitutuna göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi haqqında məlumat aşkar olunmamışdır.

**XİYABANİ** Şeyx Məhəmməd Hacı Əbdülhəmid oğlu (1879/80, Təbriz ş. yaxınlığındakı Xamnə qəs. - 14.9.1920, Təbriz) - Azərbaycan milli istiqlal hərəkatının görkəmli xadimlərindən biri. Azərbaycanın cənubunda şahlıq rejiminə qarşı milli azadlıq hərəkatına başçılıq etmişdir. İlk təhsilini Xamnədə almış, Petrovsk-Porta (indiki Mahaçqala) gələrək, ticarət işlərində atasına kömək etmişdir. Təbrizə qayıtdıqdan sonra ruhani təhsili almış, müctəhid dərəcəsinə çatmışdı. Rus və fransız dillərini öyrənmişdi. Təbrizdəki Talibiyyə mədrəsəsində astronomiyadan dərs demişdir. 1905-11 illər İran inqilabı dövründə siyasi həyata qədəm qoymuş, inqilabın fəal iştirakçılarından olmuşdur. 1908-09 illərdə Təbrizin Xiyaban məhəlləsində səngər döyüşlərində mücadilə apardığı üçün Xiyabani adını qazanmışdır. Azərbaycan milli əncüməninin və İran məclisinin (2-ci çağırış; 1909-11) deputatı olmuşdur. 1909 ildə təşkil edilən İran Demokrat Firqəsinə (İDF) daxil olmuş, İran inqilabının məğlubiyyətindən sonra ölkəni tərk edərək, Petrovsk-Port, Bakı, Tiflis şəhərlərinə getmişdir. 1914 ildə Təbrizə qayıdaraq, ədəbi-fəlsəfi dərnək yaratmış və ondan gizli siyasi fəaliyyət üçün istifadə etmişdir. 1917 il Rusiya inqilablarını rəğbətlə qarşılayan Şeyx Məhəmməd Xiyabaninin başçılıq etdiyi İDF Azərbaycan əyalət komitəsi açıq fəaliyyətə başlamışdır. 1917 il aprelin 9-dan partiyanın Azərbaycan əyalət komitəsinin orqanı kimi "Təcəddüd" ("Yeniləşmə") qəzeti nəşr edilirdi. Xiyabaninin ilk məqalələri burada dərc



downloaded from KitabYurdu.az

olunmuşdur. 1917 il avqustun 24-də İDF Azərbaycan əyalət komitəsinin geniş konfransında Azərbaycan Demokrat Firqəsi (ADF) müstəqil elan edilmiş, Xiyabani partiyanın mərkəzi komitəsinin sədri seçilmişdir. ADF həm Cənubi Azərbaycan ərazisindəki xarici işğalçılara, həm də İngiltərə-İran sazişini (1919, 9 avqust) bağlayan Vüsuqüddövlə hökumətinə qarşı mübarizə aparırdı. Cənubi Azərbaycanın şimal-qərbində erməni silahlı dəstələrinin xarici qüvvələrin təhriki ilə aysorlarla birlikdə azərbaycanlılara qarşı törətdiyi soyqırımının qarşısını almaq üçün Xiyabaninin başçılığı ilə yaradılan silahlı dəstələr qırğınların xüsusi qəddarlıqla həyata keçirildiyi Şərəfxan, Salmas, Urmiya və b. bölgələrə göndərildi və bu qüvvələr qətl-qarətlərin qarşısının alınmasında mühüm rol oynadılar.

Şeyx Məhəmməd Xiyabani özünün siyasi-nəzəri platformasını "təcəddüd", yəni "yeniləşmə məsləki" adlandırırdı. "Təcəddüd" məsləki imperialist ağalığına, şah hakimiyyətinə, feodal geriliyinə, sosial ədalətsizliyə qarşı yönəlmiş, həqiqi xalq hakimiyyəti tələb edən cərəyan idi. ADF-nin rəhbərləri, o cümlədən Xiyabani dinc yolla mübarizənin lazımi nəticə verməyəcəyini yəqin edərək, silahlı üsyana hazırlaşmağa başladılar. 1920 il aprelin 7-də Təbrizdə qalxan üsyana rəhbərlik etmək üçün Xiyabaninin başçılığı ilə ictimai idarə heyəti təşkil olundu. Bununla, Şeyx Məhəmməd Xiyabaninin ictimai-siyasi və dövlət xadimi kimi fəaliyyəti daha da gücləndi. 1920 ilin yazında Xiyabani Bakıdan Təbrizə göndərilmiş teatr xadimləri qrupunu Təbrizdə qəbul etmiş, onlara xeyli kömək göstərmişdi. 1920 il iyunun 23-də ADF müvəqqəti icra hakimiyyəti orqanı kimi fəaliyyət göstərən ictimai idarə heyəti əsasında Milli Hökumət yaratmağı qərara aldı. Xiyabani Milli Hökumətin sədri seçildi. Cənubi Azərbaycan "Azadıstan" -Azadlıq ölkəsi adlandırıldı. Milli Hökumət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və s. sahələrdə islahat və tədbirlər həyata keçirdi. Yeni iş yerlərinin açılması, pul islahatı keçirilməsi, bank-maliyyə sistemi yaradılması, bələdiyyə seçkiləri keçirilməsi üçün hazırlıq işləri görülməsinə, torpaq islahatına başlandı.

Xiyabaninin başçılıq etdiyi milli azadlıq və demokratik hərəkat İngiltərənin İrandakı rəsmi nümayəndələrini və İran hökumətini təşvişə saldığından, onlar hərəkata qarşı birləşdilər və əlbir fəaliyyət planı hazırladılar. İrtica sentyabrın 12-də hərəkata qarşı hücuma keçdi. Təbriz - Alaqapıdakı hökumət mərkəzi İran-kazak döyüşçüləri tərəfindən ələ keçirildi. Üsyançılara amansız divan tutuldu, Xiyabani vəhşicəsinə öldürüldü.

Xiyabaninin başçılıq etdiyi hərəkat məğlub olsa da, Azərbaycan xalqının imperialist ağalığına, şahlıq rejiminə qarşı, milli istiqlaliyyət uğrunda mübarizə tarixində böyük əhəmiyyətə malikdir. İranda yaşayan azərbaycanlılarda milli özünüdərkin inkişafında Xiyabaninin əvəzsiz xidməti olmuşdur (bax, həmçinin *Azadıstan).*

Əsərləri: Məqalələr, "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" kitabında, c.2, B., 1983; Çıxışları, "Ali Azeri, Azadistan devleti ve Şeyx Muhammed Hıyabanı (1918-1920)" kitabında, Ankara.

*Əd.:* Cənubi Azərbaycan tarixi oçerki (1818-1917), B., 1985; Məmmədli Q., Xiyabani (Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixindən), B., 1949; İbrahimov (Şahin) T.A., İran Kommunist Partiyasının yaranması, B., 1963; Tağıyeva Ş.A., Azadlıq və məslək fədaisi (Şeyx Məhəmməd Xiyabaninin anadan olmasının 100 illiyinə), Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1983, №1 ; yenə onun, Национально-освободительное движение в Иранском Азербайджане в 1917-1920 гг. Б., 1918-1922 гг., М., 1961.



**XOYSKİ** Əmiraslan xan Cahangir xan oğlu (1888, Şəki -1954, Ankara) - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. Fətəli xan Xoyskinin böyük qardaşı general-leytenant Cahangir xan Xoyskinin oğlu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Bakı qubernatorunun birinci müavini, sonra Gəncə qəzasının rəisi, daha sonra Cümhuriyyət Hökuməti Daxili İşlər Nazirliyinin Qazax qəzası üzrə xüsusi səlahiyyətli nümayəndəsi və Quba qəzasının rəisi olmuşdur. Azərbaycan Cümhuriyyəti sovet Rusiyası tərəfindən işğal edildikdən sonra, Əmiraslan xan Xoyski Gəncədə sovet-bolşevik işğalçılarına qarşı qaldırılmış üsyanın əsas təşkilatçılarından biri idi. *Gəncə üsyanı (1920)* qəddarlıqla yatırıldıqdan sonra Əmiraslan xan Xoyski Türkiyəyə mühacirət etmiş, ömrünün sonuna qədər orada yaşamışdır.

Sovet dövründə Əmiraslan xanın oğlu Cəfər xan, Cahangirli soyadını daşıdığı üçün uzun müddət təqibdən kənarda qala bilmiş, hətta 1936 ildə Laçın rayonunda çalışarkən "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Lakin 1949 ildə Cəfər Cahangirli "burjua-millətçi nəslinin nümayəndəsi" kimi ailəsi ilə birlikdə Sibirə sürgün edilmişdir. SSRİ Ali Məhkəməsinin qərarı ilə Cəfər xan Cahangirliyə 1956 ildə bəraət verilmiş və o, Azərbaycana qayıtmışdır.

*Əd.* Əliyarlı İ.M., Behbudov T.R., Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər), B., 1998; Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri, 4-cü buraxılış, B., 2003.



**XOYSKİ** Fətəli xan İsgəndər xan oğlu (25.11.1875, Şəki -19.6.1920, Tiflis) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Əslən Cənubi Azərbaycanın Xoy şəhərindən olan Şəki xanı Cəfərqulu xanın nəslindən olan general-leytenant İsgəndər xan Xoyskinin oğludur. Fətəli xan Xoyski Gəncə (Yelizavetpol) klassik gimnaziyasını, Moskva Universitetinin hüquq fakültəsini birinci dərəcəli diplomla bitirmişdir (1897). Həmin ildən Gəncə dairə məhkəməsində işə başlayan Xoyski sonradan Kutaisi dairə və qəza məhkəmələrində, Zuqdidi barışıq məhkəməsində çalışmış, titulyar müşavir rütbəsinə layiq görülmüşdür. 1904 ildə kollej asessoru rütbəsi alan Xoyski Yekaterinodar (Krasnodar) dairə məhkəməsi prokurorunun müavini təyin

downloaded from KitabYurdu.az

edilmiş, 1907 ilədək həmin vəzifədə çalışmışdır. Fətəli xan Xoyski 1907 ildə Gəncə quberniyasından 2-ci Dövlət dumasına deputat seçilmişdir. Dumanın iclaslarında müsəlman deputatları fraksiyası adından çar hökumətinin ucqarlardakı ayrı-seçkilik və köçürmə siyasətinə qarşı kəskin çıxışlar etmişdir. Rusiyada milli və dini fərqlərə görə vətəndaşların siyasi və mülki hüquqlarını məhdudlaşdıran qanunların ləğvinə dair Dövlət dumasına təqdim edilmiş qanun layihəsini imzalayan 173 deputatdan biri də Xoyski olmuşdur. 2-ci Dövlət duması buraxıldıqdan sonra Xoyski Gəncəyə qayıtmış, əvvəlcə dairə məhkəməsinin, sonra isə Tiflis məhkəmə palatasının andlı iclasçısı seçilmişdir.

Fətəli xan Xoyski 1913 ildə Bakıya köçərək, şəhər dairə məhkəməsində andh iclasçı olmuş, Bakının ictimai-mədəni həyatında, xeyriyyə cəmiyyətlərinin işində fəal iştirak etmişdir. Rusiyada Fevral inqilabından (1917) sonra Bakıda yaradılmış Müsəlman Milli Şurası müvəqqəti icraiyyə komitəsinin üzvü seçilən Fətəli xan Xoyski həmin ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayının təşkilatçılarından və fəal iştirakçılarından olmuşdur.

1917 ilin oktyabrında Bakı şəhər dumasına seçkilərdə müsəlman bloku 10 mindən çox səs almış və bu bloku təmsil edən Fətəli xan Xoyski dumanın sədri seçilmişdi. Onun rəhbərliyi ilə fəaliyyət göstərən Bakı şəhər duması dövrdə bolşevik Bakı Sovetinin yeganə rəqibi idi. 1918 il fevralın 23-də Tiflisdə Cənubi Qafqazın qanunvericilik orqanı olan Zaqafqaziya seymi işə başladı. Seymə Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlar daxil idi. Seymin Müsəlman fraksiyasına mənsub 44 deputatın arasında Fətəli xan Xoyski də vardı. 1918 ilin aprelində elan olunan müstəqil Zaqafqaziya Federativ Respublikası hökumətində Xoyski xalq maarifı naziri vəzifəsini tutdu. Məhz bu vəzifədə olarkən Fetəli xan Xoyski Tiflisdə yaradılması qərarlaşdırılmış Avropa tipli universitetin Bakıda açılması təklifini irəli sürdü və sonralar bu işin həyata keçirilməsində mühüm rol oynadı (bax, həmçinin *Bakı Dövbt Universiteti).*

Cənubi Qafqazın müstəqilliyinin elanı və yeni hökumətin yaradılması regiona nə daxili və nə də xarici siyasət sahəsində heç bir yenilik gətirmədi. *Zaqafqaziya komissarlığında,* sonra isə nazirliklərində fəaliyyət göstərən hər üç Cənubi Qafqaz millətinin nümayəndələri mənafe müxtəlifliyi üzündən vahid mövqedə birləşə bilmədilər. Belə bir şəraitdə gürcü nümayəndələri Zaqafqaziya federasiyasından çıxıb öz istiqlaliyyətlərini elan etmək qərarına gəldilər. (1918, 26may).

Mayın 27-də Seymin azərbaycanlı deputatları fövqəladə iclas keçirərək, özlərini Azərbaycan Milli Şurası elan etdilər. Azərbaycanın idarəsini öz üzərinə götürən Milli Şura mayın 28-də keçmiş Qafqaz canişininin iqamətgahında keçirilən birinci iclasında, ətraflı müzakirələrdən sonra, Cənubi Qafqazın cənub-şərqində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və İstiqlal bəyannaməsinin qəbul olunması haqqında qərar qəbul etdi. Azərbaycan Milli Şurasının üzvü Fətəli xan Xoyski yekdilliklə Azərbaycan Hökumətinin sədri seçildi və ona Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hökumətini təşkil etmək tapşırıldı. Xoyski elə həmin andaca öz hökumətinin tərkibini elan etdi. Bu Hökumətdə Fətəli xan baş nazir (rəisi-vüzəra) vəzifəsi ilə yanaşı, daxili işlər naziri vəzifəsini də tuturdu.

*AXC Nazirlər Şurasının sədri F.x.Xoyskinin Azərbaycanın istiqlaliyyətinin elan olunması barədə dünyanın əsas siyasi mərkəzlərinə göndərdiyi məlumat. 1918, 30 may*



Нота.

Константинополь, Берлинъ, Вѣна, Парижъ, Лондонъ, Римъ, Вашингтонъ, Софія, Бухарестъ, Тегеранъ, Мадридъ, Гаага, Москва, Стокгольмъ, Кіевъ, Христіанія, Копенгагенъ.-

Министру Иностранныхъ Дѣлъ.-

Такъ какъ Федеративная Закавказская Республика раздроблена бывши отдѣленіемъ отъ нея Грузіи, Національный Азербайджанскій Совѣтъ объявилъ 28 текущаго мѣсяца независимость Азербайджана, состоящаго изъ восточнаго и южнаго Закавказья, и провозгласилъ Азербайджанскую Республику точка Увѣдомляя Васъ о вышеизложенномъ, имѣю честь просить Ваше Превосходительство сообщить объ этомъ Вашему Правительству точка Временное пребываніе моего Правительства будетъ въ Елисаветполѣ.- 30 Мая 1918 г.

Хойскій Предсѣдатель Совѣта Министровъ Азербайджанской Республики.-

Въ удостовѣреніе чего Министръ-Предсѣдатель подписалъ Фаталі Ханъ Хойскій.-

Constantinople, Berlin, Vienne, Paris, Londres, Washington, Sofia, Rome, Bucarest, Téhéran, Madrid, La Haye, Stockholm, Moscou, Kiew, Khristiania, Copenhagne

Ministres des affaires Etrangères

La République Fédérative Transcaucasienne ayant été démembrée par la sortie de la Géorgie, le Conseil National d'Azerbaidjan a declaré le 28 courant l'independance d'Azerbeidjane, composé de Transcaucasie d'Est et de Sud et a institué la République Démocratique d'Azerbeidjane stop En vous faisant part du susmentionné j'ai l'honneur de prier Votre Excellence d'en informer Votre gouvernement stop le 29 mai 1918

Khoïsky Président du Conseil des Ministres de la République d'Azerbeidjane.

downloaded from KitabYurdu.az

Tiflisdə yeni müstəqil dövlətin yaradılması ilə əlaqədar təşkilati tədbirləri həyata keçirdikdən və onu bütün dünyaya bəyan etdikdən (1918, 30 may) sonra, Azərbaycan Milli Şurası və Azerbaycan Hökuməti fəaliyyətini bilavasitə öz ölkəsi ərazisində həyata keçirmək məqsədilə 1918 il iyunun 16-da Gəncəyə köçdü. Milli Şura və Azərbaycan Hökuməti burada mürəkkəb daxili və xarici çətinliklərlə üzləşdi. Xoyski istefa verdi. Lakin Milli Şura Hökumətin təşkilini yenidən ona tapşırdı. Müxtəlif partiyaların nümayəndələrindən təşkil olunmuş yeni hokumətdə Xoyski baş nazir vəzifəsi ilə yanaşı, ədliyyə naziri vəzifəsini də tutdu. Yeni Hökumət proqramı ilə çıxış edən Xoyski bildirdi ki, Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizə onun Hökumətinin başlıca vəzifəsi olacaqdır.

Azərbaycan Milli Şurası 1918 il 17 iyun tarixli iclasında özünün buraxılması, bütün qanunvericilik və icra hakimiyyətinin Azərbaycan müvəqqəti hökumətinin əlində cəmləşdirilməsi haqqında iki mühüm qətnamə qəbul etdi. Milli Şuranın buraxılması haqqındakı birinci sənəddə göstərilirdi ki, həm daxili, həm də xarici siyasət sahəsində Azərbaycanda yaranmış ağır vəziyyəti nəzərə alaraq, Azərbaycan Milli Şurası bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış Hökumətə həvalə edir və ona tapşırır ki, öz hakimiyyətini qısa müddətdə çağırılacaq Müəssislər Məclisindən başqa heç kimə güzəştə getməsin.

Fətəli xan Xoyskinin başçılıq etdiyi Hökumətin hüquq və vəzifələrindən bəhs edən ikinci sənəddə qeyd olunurdu ki, Azərbaycan Hökuməti Azərbaycanın istiqlaliyyətini və siyasi azadlıqları ləğv edə bilməz, aqrar və digər bu kimi mühüm inqilabi əhəmiyyətli qanunları dəyişməyə Hökumətə səlahiyyət verilmir; qalan məsələlərdə Hökumətə bütün hüquqlardan istifadə etmək səlahiyyəti verilirdi. F.x.Xoyski Hökuməti altı aydan gec olmayaraq Müəssislər Məclisini çağırmalı idi. Beləliklə, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atmağa başladığı son dərəcə ağır daxili və beynəlxalq şəraitdə qanunverici və icra hakimiyyətinin əsas ağırlığı Xoyskinin üzərinə düşdü.

Fətəli xan Xoyskinin ikinci Hökuməti Gəncədə çox çətin və mürəkkəb bir dövrdə fəaliyyətə başladı. Yaranmış mürəkkəb şəraitdə Hökumət, ilk növbədə, dövlət aparatının təşkili işini davam etdirdi, əsas diqqəti Nazirlər Şurasının və ayrı-ayrı nazirliklərin idarə aparatlarının yaradılmasına yönəltdi.

Xoyski Hökumətinin Gəncədə ilk tədbiri iyunun 19-da bütün Azərbaycanda hərbi vəziyyətin elan edilməsi oldu. Azərbaycanın dövlət müstəqilliyini müdafiə edəcək ordunun yaradılması işinə başlandı və avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qanun qəbul edildi. Qanuna müvafiq olaraq, 19 yaşına çatmış vətəndaşlar ordu sıralarına çağırıldı. Xoyski Hökuməti iyunun 27-də Azərbaycan (türk) dilini dövlət dili elan etmiş, iyulun 15-də daşnakların Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı vəhşiliklərini aşkara çıxarmaq məqsədilə Fövqəladə Təhqiqat Komissiyası yaratmış, avqustun 30-da Gəncənin və Cəbrayıl

*AXC Nazirlər Şurasının sədri F.x.Xoyskinin ictimai intizam saxlamaq barədə məlumatı. 1918, 18 sentyabr*



СООБЩЕНІЕ
Правительства Азербайджанской Республики

Азербайджанское Правительство, вступившее нынѣ въ столицу республики-гор. Баку, симъ объявляетъ всему населенію города и окрестностей, что всѣ населяющіе Азербайджанъ граждане, безъ различія національности и вѣроисповѣданія, будутъ пользоваться одинаковымъ отношеніемъ Правительства, которое въ равной мѣрѣ будетъ оберегать жизнь, имущество и права всѣхъ гражданъ.

Грабители же, убійцы и вообще лица, нарушающія общественную тишину и спокойствіе, будутъ наказаны по всей строгости законовъ военнаго времени вплоть до примѣненія смертной казни.

Да будетъ извѣстно населенію, что храбрымъ и побѣдоноснымъ турецкимъ войскамъ приказано на мѣстѣ же разстрѣливать всѣхъ мародеровъ и убійцъ, ибо Правительство не допуститъ какого бы то ни было посягательства на жизнь и имущества мирнаго населенія столицы.

*Предсѣдатель Совѣта Министровъ*
*Азербайджанской республики*
Ф. Х. Хойскій

"آذربایجان"
حکومتک اعلانی

پایتختی اولان باکویه تازه وارد اولمش آذربایجان حکومت جمهوریه‌سی بونکله شهرده و اطرافده یاشایان عموم اهالیه بلافرق دین و ملت امر ایدیور که آذربایجان حکومتنک تحت تبعیتنده یاشایان هیچ بر ملته تفاوت قویولمیاراق جانلری غارتگرلری قاتللری و جماعتک آسایشنی پوزانلاری حکومت بیوک جزایه اعدامه وارینجه‌یه قدر دوچار ایده‌جکدر اهالی بونی بیلملیدر که تورک ملت نجیبه‌سنک قهرمان و فاتح عسکرلرینه امر ویریلمشدر که جنایت و قتل غارته مشغول اولانلاری نرده گورسه‌لر گله باران ایتسونلر تورک آذربایجان حکومتنک شان شرفنه یاراشماز که اونک پایتختنده کیمسه‌نک آدامارک حق و حقوقنه تجاوز اولنسون.

آذربایجان هیئت وکلا رئیسی ف. خ. خویسکی

downloaded from KitabYurdu.az



F.x.Xoyski Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvləri arasında

qəzasının tarixi adlarını özünə qaytarmışdı. Paytaxt Bakıya köçürülənədək Xoyski Hökuməti bir sıra digər mühüm tədbirlər də həyata keçirmişdir.

Sözün əsl mənasında, Azərbaycanın "olum, ya ölüm" məsələsinin həll edildiyi olduqca ağır və mürəkkəb olan o dövrdə ölkəyə rəhbərlik etmək son dərəcə çətin bir iş idi. Fətəli xan Xoyski Hökumətinin o dövrdəki fəaliyyəti haqqında Üzeyir bəy Hacıbəyli yazırdı: *"Yeni vücuda gəlmiş Azərbaycan hökumətinin birinci rəisi-vüzərası olmaqla Azərbaycan tarixində mühüm mövqe tutmuş Fətəli xan həzrətləri bu yeni dövlətin vəziyyətini taxta paralarından əmələ gəlmiş bir gəmiyə bənzədir ki, bu kimi fırtınalı bir gündə dərya üzərində hər saat, hər an dağa-daşa çırpılıb dağıla bilmək təhlükəsi qarşısında qalmış, bütün ümidini gəmiçinin istedad və məharətinə bağlamışdır ...Bu zəif gəmini bu fırtınalı gündə bu dağın, bu daşın arasından salamat keçirmək və sahili-nicata çıxarmaq kimi çətinliyi Fətəli Xan həzrətləri öz boynuna götürməyi qəbul etdi və gəmisini kəmali-ehtiyat və ehtimal ilə sahili-nicata çıxarmaqda, fırtına sakit olana qədər dağa və daşa vurmayıb bunların arasından keçirməkdə böyük ustalıq və məharət göstərdi".*

1918 il sentyabrın 15-də Bakı türk və Azərbaycan hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad olundu, sentyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdü. Bakının daşnaklardan, eser-menşevik qüvvələrindən ibarət olan və ingilislərə arxalanan mürtəce "Sentrokaspi diktaturası"nın ağalığından qurtulması ilə əlaqədar olaraq alovlu nitq söyləyən Fətəli xan Xoyski baş vermiş hadisələri qiymətləndirərək deyirdi: *"Bizim də yaşamaq, azad yaşamaq haqqımız var. Nə zirehli maşın, hidroplan, kanonerka, tikanlı məftil, mina və digər texniki qurğular, nə ingilislər və onların əlaltıları, nə də ümumiyyətlə hər hansı bir qüvvə tarixin təbii gedişini dayandıra bildi, onların əlliminlik orduya və texnikaya malik olmasına baxmayaraq, kiçik qüvvənin həmləsinə tab gətirməyib Bakını tərk etmələri öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır".*

Bakıya köçdükdən sonra Xoyski Hökuməti həm ictimai-siyasi, həm də təsərrüfat və mədəni quruculuq sahəsində daha mühüm tədbirlər həyata keçirməyə başladı. Hökumət Məclisi-Məbusanın (parlamentin) çağırılması işinin təşkili üçün komissiya yaratdı, daha sonra bu iş fəaliyyətini yenidən bərpa etmiş Azərbaycan Milli Şurasına həvalə edildi. 1918 il noyabrın 9-da Xoyskinin məruzəsi əsasında Hökumət Azərbaycanın üçrəngli bayrağını təsdiqlədi. Noyabrın 19-da Milli Şura Azərbaycan Parlamentinin yaradılması haqqında Hökumətin qanun layihəsini bəyəndi.

Azərbaycan Parlamentinin ilk iclası 1918 il dekabrın 7-də açıldı. Xoyski çox mürəkkəb tarixi şəraitdə Hökumətin fəaliyyəti barədə Parlamentə hesabat verdi: *"...Bu altı ay müddətində ki hökumət idarə eyləmişdir, siz görürsünüz*

downloaded from KitabYurdu.az



Heydər Əliyev və Eduard Şevardnadze Tiflisdə F.x.Xoyskinin abidəsinin açılışında. 1995

*ki, çox şeylər təzə təşkil olubdur. Daxildə hərcimərcdən başqa heç bir şey yox idi. Hətta polis də yox idl Ona görə hamıdan artıq polis işlərinə diqqət etdik. İndi allaha şükür olsun ki, Azərbaycanın hər yerində, lazımi qədər olmasa da, xalqın malını, camnı müdafiə edəcək təşkilatımız var. Bu xüsusda çox sözlər ola bilər. Fəqət, vaxta baxıb tərəziyə qoyulmalıdır ki, bu işləri hansı hökumat və nə vaxt etmişdir? Tarixi, sabiqəsi, əskər və xəzinəsi olan hökumətmi? Yoxsa, iki gündə təşkil olunmuş pulsuz və əskərsiz hökumətmi? Əgər burasını nəzərə alsanız görərsiniz ki, nə qədər zəhmət lazım idi. Dəmiryolları işləmirdi, dağılmışdı, vaqon, filan yox idi. Məmləkətin dolanacağı buna bağlı idi, Ona binaən hökumət buna vaxt verdi. Doğrudur, indi də mümkün və lazım olan bir çox şey yoxdur. Lakin nə qədər olsa, allaha şükür, yaz, qış dəmir yolları düzəlib idarə olunur. Teleqraf yox idi, bir kağız göndərmək mümkün deyil idi. İndi qüvvəmiz çatan qədər işləyib təmamilə olmasa da, çox yerdə poçt, teleqraf açılmışdır. İstənilən yerlərə teleqram, məktub göndərmək olar. Vacib məsələlərdən birisi də maliyyat məsələsi idi ki, onsuz işləmək mümkün deyil idi. Hökumət bir zamanda təşkil olundu ki, Batum nümayəndələrinə pul göndərmək lazım olduğu halda, on min manat tapılmayıb Tiflisdən borc axtarılırdı... Əlbəttə ki, bu işlər az idi və öhdəmizə düşən vəzifənin bir zərrəsidir. Yalnız böyiik zəlalət bu idi ki, hökumətimiz hədər olan kimi idi. Zira hürriyyət, ədalət və əxvət bayrağı daşıyan firqələr Bakını əlimizdən almış idi, bizi paytaxtsız buraxmış idi. Azərbaycanın köksü, paytaxtının sahibi olan müsəlman milləti qətliam edilmiş idilər. Baş bilənlər Dağıstan, İran və Turana dağılmışlar idi. Şəhərdə bir kişi yox idi ki, bunları bir yerə toplasın, bir iş görsiin, böylə olan surətdə bu məsələdən başqasına artıq əhəmiyyət vermək olurmu idi?... Hər nəzarətdən ayrı-ayrı bəhs edə bilməyəcəm. Ancaq bunu deməliyəm ki, o vaxt nə məktəb var idi, nə ədliyyə idarələri var idi. Hökumət buna da diqqət etməli idi. Çünki, ədliyyə idarəsi olmayınca məmləkəti polis qüvvəsi ilə idarə etmək olmaz. Bu ikisi birdir ki, əvval baş milliləşməli idi. Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır. Bundan əlavə, hökumət əldən gələn qədər çalışaraq, yox olan ədliyyə idarələrini təmdid etdi. İndi allaha şükürlar, hər yerdə olamaz isə də, bir çox ədliyyə idarələrina türk dili bilən adamlar təyin edilmişlər. Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər, yol göstərən işıqlı*




downloaded from KitabYurdu.az

*ulduzu bu şüar olmuşdur:* ***MİLLƏTİN HUQUQU, İSTİQLALI, HÜRRİYƏTİ!".*** Çıxışının sonunda o, istefasını qəbul etməyi Parlamentdən xahiş etdi. Parlament Hökumətin istefasını qəbul edərək, onun təşkilini yenidən Xoyskiyə tapşırdı. Fətəli xan dekabrın 26-da Hökumətin proqramı və tərkibi barədə Parlamentdə çıxış etdi. Geniş müzakirələrdən sonra Parlament Xoyski Hökumətinin proqramını bəyəndi və onun yeni üzvlərinə etimad gostərdi. Bu Hökumətdə Xoyski baş nazir vəzifəsi ilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutdu.

Azərbaycan Parlamentindəki bir sıra partiya fraksiyaları, xüsusilə Azərbaycanın istiqlalına qarşı çıxan qüvvələr, elə ilk aylardan Xoyski Hökumətinə qarşı kəskin müxalif mövqe tutdular. Bu fraksiyalar, xüsusilə "İttihad", "Əhrar" və sosialistlər Hökuməti fəaliyyətsizlikdə təqsirləndirir, ölkənin bütün problemlərini onun üstünə yıxmağa çalışırdılar. Onların əksinə, Məhəmməd Əmin Rəsulzadə Xoyski Hökumətini müdafiə edərək bildirmişdi ki, Hökumət *"bu az müddətdə, nə mümkündürsə, etmişdir".* Parlamentin 1919 il fevralın 5-də keçirilən iclasında cəmi beş həftə fəaliyyət göstərən Hökumət xüsusilə kəskin və qərəzli tənqidə məruz qalmışdı. Həmin əsassız tənqidlərə cavab nitqində Xoyski bildirirdi: *"Mən birinci bəyanatımda demişdim ki, belə ağır bir zamanda heç kəs cəsarət edib Hökuməti ələ ala bilməz. Sizin sidqi-dil ilə hökumətin arxasında durub kömək edəcəyinizə ümid oluruq... Əgər görsəm ki, hökumətə sədaqət yoxdur, bir dəqiqə də hökumət başında durmaram. ...Bir var sorğu ilə hökumətə kömək edilsin, onun nəzərindən qaçanlar yada salınsın, heç vaxt hökumət belə sorğudan inciməz. Amma bir də var zəhərli, hədxahlıq sorğusu... Bu, hökumətə badalaq vurmaq deməkdir... Bu müqəssirlər skamyasıdırmı ki, hərə gəlib bir söz desin, bir ləkə yapışdırsın? Hətta ixtiyarımız da yoxdur ki, onlardan bir qədər ehtiramlı davranmağı tələb edək".*

Daha sonra Fətəli xan Hökumətin fəaliyyətində bəd niyyətlə "qüsur" axtaranları tənqid edərək bildirirdi ki, *"siz bunu bilməlisiz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Biliriz, indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlahmız gedər. Belə miihüm zamanda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olmaz".*

Müxalifətçi partiyalar və fraksiyaların Hökumətə qarşı yaratdığı dözülməz vəziyyətlə əlaqədar 1919 il fevralın 25-də Xoyski Hökuməti yenidən istefa verdi. Parlament istefa-nı qəbul etdi və yeni Hökumətin təşkilinə qədər Xoyski Hökumətindən fəaliyyətini davam etdirməsi xahiş olundu. Hökumət öz fəaliyyətini martın 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü Hökumətinə qədər davam etdir-di. Təcrübəli və səriştəli dövlət xadimi Fətəli xan Xoyski-nin o zamankı son dərəcə mürəkkəb şəraitdə istefa verməyə məcbur olması Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratına mənfı təsir göstərdi. İstefaya çıxdıqdan sonra Xoyski Parlament üzvü kimi bir sıra siyasi, iqtisadi və maliyyə məsələlərinin həllində yenə də fəal iştirak etmiş, Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi məsələlərini araşdırmaq üçün yaradılan Azərbaycan nümayəndə heyətinin sədri təyin olunmuşdu.

1919 ilin dekabrında Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 5-ci Hökumətin tərkibində Xoyski xarici işlər naziri vəzifəsini tutdu. Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən tanınmasına çalışan Xoyski bununla əlaqədar Rusiya Sovet Federativ Sosialist Respublikası xalq xarici işlər komissarı G.V.Çiçerinə dəfələrlə notalar göndərmiş, Azərbaycanın istəyinə məhəl qoymayan Rusiya xarici işlər komissarının Azərbaycan Xalq Cümhuriyyətini Denikin qüvvələri ilə mübarizə ittifaqına cəlb etmək barədə məkrli planını cəsarətlə rədd etmişdi. Çiçerinə cavabında Xoyski birdirirdi ki, Azərbaycan Hökuməti sovet Rusiyasının Denikinlə mübarizəsinə rus xalqının daxili işi kimi baxır və ona qanşmağı yolverilməz hesab edir (bax, həmçinin *Çiçerin notaları).* Fətəli xan Xoyski Azərbaycan Cümhuriyyətinin ilk Hökumət başçısı kimi Azərbaycan istiqlalının elanı barədə dünya dövlətlərinə ünvanlanan radioteleqramı imzalamış, 5-ci Hökumət kabinəsinin xarici işlər naziri olarkən isə istiqlalın Paris Sülh Konfransı tərəfindən tanınması haqqında Parlamentdə məlumat vermişdi. Parlamentin bu məsələyə həsr olunmuş təntənəli iclasındakı (1920, 14 yanvar) çıxışında Fətəli xan Xoyski demişdi: *"...Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri millətlər on illər ilə çalışmışlar. Biz isə onu az müddətdə, bir il yarım içərisində qazandıq. Böylə az miiddətdə istiqlaliyyətini alan bir millətin onu möhkəm saxlayacağına əminəm.*

*Bugünki bayram münasibətilə sizi hökumət tərəfindən təbrik edirəm. Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zaman [da] hökumət başında mən idim. Və indi də təsdiqini sizə mən elan edirəm ".*

1920 il aprelin ortalarında 11-ci Qırmızı ordu Şimali Qafqazda Denikin qüvvələrini məğlub edərək; Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərinə yaxınlaşdı. Aprelin 15-də Xoyski Hökumət adından sovet Rusiyası hökumətinə nota göndərsə də, nota cavabsız qaldı və aprelin 27-də 1.1-ci Qırmızı ordu beynəlxalq hüquq normalarını pozaraq, Azərbaycan sərhədlərini keçdi və Bakıya doğru hücum əməliyyatına başladı. Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyuldu. *Aprel işğalından (1920)* sonra Tiflisə mühacirət etməyə məcbur olan F.x.Xoyski iyunun 19-da orada "Daşnaksutyun"un muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirildi və həmvətəni M.F.Axundzadənin dəfn olunduğu Azərbaycan qəbiristanlığında torpağa tapşırıldı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Fətəli xan Xoyskinin Azərbaycan dövlətçiliyi tarixindəki

downloaded from KitabYurdu.az

fəaliyyətini yüksək qiymətləndirmişdir. Heydər Əliyevin 1995 il 18 dekabr tarixli sərəncamı ilə Fətəli xan Xoyskinin anadan olmasının 120 illiyinin təntənəli surətdə qeyd olunması üçün geniş heyətdə təşkilat komitəsi yaradılmışdı. Onun diqqət və qayğısı sayəsində Tiflisdə Fətəli xan Xoyskinin məzarı üzərində xatirə abidəsi ucaldılmışdır.

*Əd.:* Fətəli xan Xoyski: həyat və fəaliyyəti (sənəd və materiallar), B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Qasımov M., Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti, B., 2002; Qasımlı M., Hüseynova E., Azərbaycanın xarici işlər nazirləri, B., 2003; Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 1998; Сеидзаде Д., Азербаиджанские депутаты в Государственнои Думе России, Б., 1991.



*Hüseynqulu xan Xoyski, Şirinbəyim Xoyski, Valiyə Kazımbəylinin məzarları. Türkiyə. İstanbul*

**XOYSKİ** Hüseynqulu xan İsgəndər xan oğlu (22.9.1869, Gəncə - 7.12.1955, İstanbul) - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. Hərbçi, pod-polkovnik. General-leytenant İsgəndər xan Xoyskinin oğlu, Fətəli xan *Xoyskinin* böyük qardaşıdır. Rusiya-Yaponiya müharibəsində hərbi mükafatlara layiq görülmüşdür. Bir müddət 261-ci Şamaxı olmuşdur. Gəncə dumasının və şəhər idarəsinin üzvü seçilmişdir. 1918 il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması xəbərini Gəncə camaatına ilk çatdıran Hüseynqulu xan olmuşdur. Şəhərdə əmin-amanlığın bərqərar olunmasında, Ələkbər bəy Rəfibəyli və onun oğlu Xudadat bəylə birlikdə, Hüseynqulu xan da böyük zəhmət çəkmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bir müddət Gəncə şəhər qubernatorunun müavini işləmişdir. *Gəncə üsyanının (1920)* fəal iştirakçısı olmuş Hüseynqulu xan üsyan yatırıldıqdan sonra tüğyan edən bolşevik təqibindən qurtulmaq üçün böyük məşəqqətlə ölkədən çıxa bilmişdi. Həyat yoldaşı Şirinbəyim xanımı, oğlanları Zahid xan və İsgəndər xanı, qızları Valiyyə və Samini yalnız bir ildən sonra gözlənilməz təsadüf nəticəsində İstanbulda tapmışdı.



Polşanın rəhbəri marşal Yuzef Pilsudskinin dəvətilə bir müddət Polşada yaşasa da, yenidən İstanbula, ailəsinin yanına qayıtmış, 1925 ildən sonra Atatürkün göstərişi ilə oğlu İsgəndər xanla birlikdə hərbi məktəblərdə tərcüməçi kimi çalışmışdır.

Türkiyədəki azərbaycanlı mühacirlər arasında böyük nüfuz sahibi olan Hüseynqulu xanın evini onların hamısı "ata evi" adlandırırdı. O, İstanbulda, Xəlil bəy Xasməmmədov, Nağı Şeyxzamanlı, Məmmədsadıq Aran, Valiyyə xanım Kazımbəyli, Şirinbəyim xanım və digər 12 qərib azərbaycanlının da uyuduğu "Fəri köy" qəbiristanlığında dəfn olunmuşdur.

*Əd.:* Şeyxzamanlı N., Xatirələr, B., 1997; Rəhmanzadə F., Yol, B., 1994.

**XOYSKİ** Rüstəm xan İskəndər xan oğlu (5.11.1888 -1939, Moskva) - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. General-leytenant İsgəndər xan Xoyskinin oğlu, Fətəli xan *Xoyskinin* kiçik qardaşıdır. 1918 ilə qədər hüquq-mühafizə orqanlarında fəaliyyət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə F.x.Xoyskinin təşkil etdiyi 1-ci və 2-ci Hökumət kabinələrində işlər idarəsinin müdiri, sonralar isə himayədarlıq naziri vəzifələrində çalışmışdır. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra R.x.Xoyski Azərbaycan Sovet Sosialist Respublikası Ali İqtisad Şurası rəyasət heyətinin katibi, kooperativ hüququ məsələləri üzrə hüquqşünas və s. vəzifələrdə işləmişdir. Sonralar Moskvaya köçmüş və orada vəfat edərək, Novədeviçye qəbiristanlığında, qaynı, mühəndis İ.Yutkeviçin yanında dəfn edilmişdir.

*Əd.: Адрес-календарь Азербаиджанскои Республики на 1920 г., Б, 1920;* Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri, 4-cü buraxılış, B., 2003.



**XUDAVERDİYEV** Əlibala Murtuza oğlu (1901; Navahı k. - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1-ci Bakı kişi gimnaziyasını bitirmişdi (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini kənd təsərrüfatı sahəsində davam etdirmək üçün Bonn (Almaniya) İnstitutuna göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azər*

downloaded from KitabYurdu.az

*baycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi haqqında məlumat aşkar olunmamışdır.

**XÜSUSİ XİDMƏT VƏ TƏHLÜKƏSİZLİK ORQANLARI,** Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi xidmət və təhlükəsizlik orqanları -Azərbaycan Xalq Cümhuriyyəti ərazisində dövlət əleyhinə təxribatların qarşısını almaq, düşmənin casusluq fəaliyyətini aşkarlamaq, ölkənin maraqlarına uyğun məlumatların toplanması işlərini həyata keçirmək üçün yaradılmış kəşfiyyat, əks-kəşfiyyat və təhlükəsizlik qurumları.

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyinin qorunması, ərazi bütövlüyünün təmin edilməsi üçün ölkənin hərbi və daxili işlər nazirliklərinin üzərinə böyük vəzifələr düşürdü. Böyük dövlətlərin Qafqazda, o cümlədən Azərbaycanda maraqlarının toqquşması da gənc Cümhuriyyətin möhkəmlənməsinə mane olurdu. Həmin dövrdə keçmiş Rusiya imperiyasının bütövlüyünü qoruyub-saxlamağa çalışan Denikin ordusu, bolşeviklər və onların birbaşa himayəsi ilə əzəli Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" dövləti yaratmağa can atan erməni bolşevik-daşnakları da Azərbaycana qarşı böyük təhlükə yaradan qüvvələr idilər. Belə mürəkkəb daxili və beynəlxalq şəraitdə ölkədə ordu quruculuğu ilə yanaşı, xüsusi xidmət və təhlükəsizlik orqanlarının yaradılması da gənc Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında olduqca vacib vəzifə kimi dururdu.

**Baş Qərargahın kəşfiyyat və əks-kəşfiyyat bölməsi.** Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919 il fevralın 25-də "Hərbi nazirliyin ştatları haqqında" qanun qəbul etdi. Qanunda Hərbi Nazirliyin 38 isti-qamət üzrə ştatları təsdiq olunmuşdu. Nazirliyin general-kvartirmeyster idarəsinin nəzdində kəşfiyyat və əks-kəşfiyyat bölməsinin yaradılması da nəzərdə tutulmuşdu. 1919 il martın 28-də hərbi nazir, general-leytenant Səməd bəy Mehmandarovun əmri ilə Azərbaycan Ordusu Baş Qərargahının general-kvartirmeyster idarəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsi yaradıldı. General-kvartirmeyster idarəsinin tapşırıqlar üzrə ober-zabiti, kornet (Azər-baycan Xalq Cümhuriyyəti dövründə süvari hissələrdə ilk zabit rütbəsi) Ağalarov kəşfiyyat və əks-kəşfiyyat bölməsinin rəisi təyin edildi. Bölməyə 28 ştat vahidi verilmişdi: rəis, onun köməkçisi, kargüzar, 23 nəfər əməliyyat işçisi. Bölmənin rəisi alay komandiri, köməkçilərin vəzifəsi isə batalyon komandiri vəzifəsinə bərabər tutulurdu. İlk vaxtlar bölmədə 12 nəfər xidmət edirdi.

Yeni fəaliyyətə başlamış bölmə ölkədə kəşfiyyat və əks-kəşfiyyatın təminatına məsuliyyət daşıyırdı. Bolşeviklər, erməni-daşnak casusları, denikinçilər və s. barədə toplanmış əməliyyat məlumatları Hərbi Nazirliyin rəhbərliyinə, eləcə də Azərbaycan Hökumətinə təqdim olunurdu. Həmin məlumatlar ölkənin müxtəlif ərazilərini, hərbi birləşmələrin dislokasiya yerlərini əhatə cdirdi.

Bölmənin əməkdaşları martda xüsusi əməliyyat planı əsasında Azərbaycan Ordusunda xidmət edən 15 nəfər denikinçinin casusluq fəaliyyətini ifşa etmişdilər. Həmin ayda daha bir casus şəbəkəsinin üstü açılmışdı. Əks-kəş-fiyyatçılar Gəncədə Smıslova soyadlı qadını həbs etmişdilər. Araşdırma nəticəsində bir çox mühüm məsələlər üzə çıxmışdı. Baş qərargahın əməkdaşı Çernışov, onun arvadı və 10-a qədər hərbi qulluqçu Cümhuriyyət əley-hinə iş apardıqlarına görə yaxalanmışdılar. Çernışovun yaşadığı mənzildə axtarış zamanı Azərbaycanda ictimai-siyasi və iqtisadi vəziyyətlə bağlı gizli bolşevik təşkilatının fəaliyyəti, Azərbaycan Ordusunun durumu barədə Denikinə ünvanlanmış çoxlu sayda agentura məlumatı tapılmışdı. 1919 il martın 29-da hərbi nazir Səməd bəy Mehmandarov casus təşkilatın üzvlərinin tutulması barədə daxili işlər naziri Xəlil bəy Xasməmmədova Gəncə şəhərindən Bakıya məktub göndərmişdi.

1919 il aprelin 5-də Azərbaycan Ordusunun Bakıya gəlişi üçün müəyyən hazırlıq işləri görülməsi tələb olunurdu. Milli Ordunun paytaxta gəlişi ilə bağlı hər cür təxribatların törədiləcəyi istisna edilmirdi. Azərbaycan Ordusu Baş Qərargahının rəisi general-leytenant Məmməd bəy Sulkeviçin Azərbaycan qoşunlarının Gəncədən Bakıya gəlməsi ilə əlaqədar əks-kəşfiyyat işinin təşkilinə dair daxili işlər nazirinin müavini general-mayor Sadıq bəy Ağabəyova məktubuna əsasən, əks-kəşfiyyat bölməsinin əməkdaşı yasavul Yusupov Daxili İşlər Nazirliyinin cinayət axtanşı şöbəsinin əməkdaşları ilə birlikdə bu vəzifəni yerinə yetirmək üçün Bakıya ezam olunmuşdu. Əks-kəşfiyyat işinin düzgün təşkili, yasavul Yusupovun və axtanş polisinin qarşılıqlı fəaliyyəti sayəsində Azərbaycan milli hərbi hissələri Bakıya heç bir narahatlıq keçirilmədən daxil olmuşdular.

Bölmənin kəşfiyyatçıları da Öz işlərini yüksək səviyyədə qurmağa çalışırdılar. Hərbi nazir S.Mehmandarov Azər-baycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrinə 2 aprel 1919 il 1556 saylı məlumatında kəşfiyyatm vəzifələrini belə şərh edirdi: "Düşmən haqqında mümkün olan məlumatları toplamaq, xaricdə hərbi agentura yaratmaq...". Gənc respublikanın ordu quruculuğu məcrasına düşdükcə xarici kəşfiyyat probleminə də xüsusi diqqət yetirilməsinə başlanmışdı. Tiflisdə Azərbaycan diplomatik missiyasında hərbi attaşe vəzifəsinə təyin edilmiş polkovnik Məmməd bəy Əliyev, əslində, həm də kəşfiyyatçı funksiyasını yerinə yetirirdi. Baş qərargahdan ona şifrteleqram vasitəsilə müxtəlif tapşırıqlar verilirdi. M.Əliyevin Tiflisdən göndərdiyi əməliyyat məlumatları olduqca qiymətli idi. Ermənistandakı diplomatik nümayəndəlikdə hərbi attaşe vəzifəsində çalışan olmadığından, orada da kəşfiyyat işlərinin aparılması Hərbi Nazirlik rəhbərliyinin əmrinə əsasən, M.Əliyevə tapşırılmış, Gürcüstan ordusunun Baş qərargahı ilə birlikdə gizli kəşfiyyat işlərinin aparılmasının təşkili də ona həvalə olunmuşdu. Aydın məsələdir ki, bu kəşfiyyat işləri daşnak Ermənistanının pozuculuq fəaliyyətinə qarşı yönəldilmişdi. Bir sıra olduqca mühüm məlumatlar isə. Baş qərargaha məxfi qriflə birbaşa Ermənistandan ötürülürdü. Bu məlumatlar "Şahzadə Məmməd" imzası ilə verilirdi.

downloaded from KitabYurdu.az

Baş qərargahın general-kvartirmeyster idarəsinin kəşfiyyatçı zabitləri ölkənin xarici işlər nazirliyi ilə də geniş əlaqə saxlayırdılar. İdarənin əməkdaşları məxfı kargüzarhq və şifrləmənin sirlərini xarici işlər nazirliyinin diplomatiya şöbəsinin kargüzarlıq və şifrləmə bölməsinin əməkdaşlarına öyrədirdilər. Xarici işlər nazirliyi qonşu respublikalardakı Azərbaycan diplomatik nümayəndəliklərinin əməkdaşları vasitəsilə əldə etdiyi mühüm məlumatlan Baş qərargaha göndərirdilər. "Tam məxfı" qrifı ilə Ermənistanda, Cənub-Qərbi Qafqaz respublikasında, eləcə də həmin illər ingilislərin əlində olan Batumdakı vəziyyət barədə Xarici İşlər Nazirliyinə göndərilən təhlil xarakterli geniş məlumatlar, həm də Baş qərargaha ünvanlanırdı. Baş qərargah da, öz növbəsində, kəşfiyyatçılar vasitəsilə topladığı materialları tanışlıq üçün Xarici İşlər Nazirliyinə göndərirdi. Azərbaycan kəşfiyyatçısı Mullayevin Şimali Qafqaza xidməti ezamiyyətinin nəticələri barədə onun 5 səhifəlik geniş və ətraflı "tam məxfı" məlumat-arayışı ilə diplomatlar da tanış olmuşdular. Praporşik Qaraşarovun Qarabağ və Zəngəzurda vəziyyət barədə verdiyi raportlar həm Hərbi Nazirlik, həm də Xarici İşlər Nazirliyi tərəfindən rəğbətlə qarşılanmışdı. Baş qərargahın general-kvartirmeyster idarəsinin rəisi Karqaleteli və baş adyutant ştabs-rotmistr Takanayevin Ermənistanda siyasi vəziyyət haqqında 2 saylı agentura məlumatına əsasən hazırladıqları geniş və ətraflı təhlil xarakterli arayış da Xarici İşlər Nazirliyində çalışan diplomatlan məlumatlandırmaq məqsədi daşıyırdı.

Diplomatik nümayəndə Məmməd Təkinskinin Ermənistan qoşunları, səfərbərlik, ölkədə ərzaq təminatı, orada yaşayan azərbaycanlıların vəziyyəti və s. barədə İrəvandan göndərdiyi şifrteleqramlarla, həm də, Baş Qərargahın kəşfiyyatçıları tanış olmuşdular.

Hərbi nazir S.Mehmandarov və Baş Qərargahın rəisi M.Sulkeviç 1919 il noyabrın 5-də Xarici İşlər Nazirliyinə göndərdikləri məktubda yazırdılar: "Bizim hökumətimiz Ermənistanın Bakıdakı diplomatik missiyasında hərbi attaşe vəzifəsinin təsis olunması təklifini rədd etmişdir. Əldə edilmiş məlumatlara görə, bu missiyanın üzvlərinin çoxu zabitlərdən ibarətdir, onlardan birini isə "missiya qərargahının rəisi" adlandırırlar. Bunları deməklə, Ermənistan xarici işlər nazirliyinin bu cür hərəkətinə qarşı nə kimi qərar qəbul edilməsi barədə məlumat verməyinizi xahiş edirik".

Ermənistanın Bakıdakı diplomatik missiyası heyətinin əksəriyyətinin hərbçilərdən təşkil edilməsi Azərbaycan xüsusi xidmət orqanlarının, xüsusilə kəşfiyyat və əks-kəşfiyyatın səyi nəticəsində öyrənilmişdi. Bu, beynəlxalq normalara zidd olduğundan Azərbaycan Hökuməti Ermənistanın Bakıdakı diplomatik missiyasında hərbi attaşe vəzifəsinin təsis edilməsinə icazə verməmişdi.

Baş qərargahın general-kvartirmeyster idarəsinin kəşfiyyat və əks-kəşfiyyat bölməsi fəaliyyətini 1919 il iyunun 11-dək davam etdirmişdir. Həmin gün ölkədə ancaq əks-kəşfiyyatın təminatı ilə məşğul olacaq qurum- əks-inqilabla Mübarizə Təşkilatı (ƏMT) yaradılmış, kəşfiyyat işi isə general-kvartirmeyster idarəsinin tərkibində saxlanılmışdır. Əks-kəşfiyyatla məşğul olan şəxslər də ƏMT-nın sərəncamına verilmişdi. Göstərilən dəyişikliklərə baxmayaraq, hərbi nazirliyin kəşfiyyat bölməsi ilə ƏMT sıx əməkdaşlıq edirdilər.

1920 il martın 2-də hərbi nazir Səməd bəy Mehmandarovun məxfı əmri əsasında nazirliyin müvafıq qurumlarında struktur dəyişikliyi aparılmış, Baş qərargahla onun idarəsinin birləşdirilməsi nəticəsində *Azərbaycan ordusunun qərargahı* yaradılmışdı.Yeni yaraddmış Azərbaycan ordusu qərargahının ştat strukturunda kəşfiyyat-əməliyyat bölməsi də nəzərdə tutulmuşdu. Bakı Möhkəmləndirilmiş Rayonunun qərargah rəisi polkovnik İrza bəy Hacıbəylinski ordu qərargahı general-kvartirmeyster idarəsinin kəşfiyyat-əməliyyat bölməsinin rəisi təyin edilmişdi.

**Əks-inqilabla mübarizə təşkilatı (ƏMT).** Dövlət Müdafiə Komitəsi (DMK) ilə eyni vaxtda, 1919 il iyunun 11-də yaradılmışdı. Ölkədə əks-kəşfiyyat təminatını yerinə yetirən qurum kimi böyük səlahiyyətlərə malik idi. DMK qarşısında məsuliyyət daşıyır, onun tapşırıqlarını yerinə yetirir, onu ən mühüm məlumatlarla təmin edir, dövlət əhəmiyyətli digər işləri yerinə yetirirdi. Rusiyanın Xəzərdəki silah-sursat dolu 27 hərb gəmisinin Azərbaycan tərəfinə təhvil verilməsi və onların Azərbaycan bayrağı altında üzməsi probleminin həlli ilə bağlı apanlan danışıqlarda ƏMT-nın rəhbərhyi xüsusilə fəal rol oynamışdı.

ƏMT öz fəaliyyətini "Azərbaycan Respublikası əks-kəşfıyyat xidmətinin hüquq və vəzifələri haqqında" Əsasnaməyə uyğun qurmuşdu. 22 maddədən ibarət olan Əsasnamədə əks-kəşfiyyat xidmətinin hüquq və vəzifələri göstərilmişdi. Bakı və onun ətrafinda təşkilatın 8 rayon bölməsi təsis edilmişdi. Rayon bölmələrinə ƏMT-nın mərkəzi aparatının əməkdaşları rəhbərlik edirdilər. Lənkəran şəhərində ƏMT-nın agenti fəaliyyət göstərirdi.

İlk vaxtlar ƏMT-na əməkdaşların qəbulunda partiya prinsipi əsas götürülürdü. Belə ki, ƏMT əməkdaşlarının üçdə ikisi "Müsavaf', üçdə biri isə "Hümməf' partiyasından olmalı idi. Eyni zamanda, təşkilatın rəhbərinin "Müsavat"dan, müavininin isə "Hümməf 'dən təyin edilməsi nəzərdə tutulmuşdu. Təşkilatın ilk rəisi "Müsavaf' partiyasının, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin və onun aqrar komissiyasının üzvü Məmmədbağır bəy Şeyxzamanh təyin edilmişdi. Rəis müavini vəzifəsini isə “Hümmət” partiyasının üzvü Mir Fəttah Musəvi yerinə yetirirdi. Şübhəsiz ki, bu prinsip ölkənin təhlükəsizliyini təmin edən təşkilatın işinə mənfı təsir göstərirdi. ƏMT denikinçilərə, erməni-daşnak casuslarına və digər təxribatçılara qarşı sərbəst mübarizə apara bilirdi. Xüsusən erməni casuslarına qarşı mübarizədə uğurlu əməliyyat işləri aparılırdı. Lakin təşkilatın əməkdaşları bolşeviklərə qarşı mübarizədə çətin problemlərlə üzləşirdi. ƏMT-da işləyən 17 nəfər “hümmət”çi əməkdaş, başda M.Musəvi olmaqla, bolşeviklərin Ölkə daxilindəki fəaliyyətinə qarşı mübarizəyə açıq və ya gizli şəkildə mane olurdular.

M.Musəvi naməlum şəxslər tərəfindən öldürüldükdən (1919,5 sentyabr) sonra rəis müavini vəzifəsinə Mahmud bəy

downloaded from KitabYurdu.az

Səfikürdski təyin edildi (1919, 19 noyabr). Məmmədbağır bəy Şeyxzamanlı 1919 il avqustun 20-də vəzifəsindən istefa verdi. Elə həmin gün Məmmədbağır bəyin qardaşı Nağı bəy Şeyxzamanlı ƏMT-nın yeni rəisi təyin olundu.

ƏMT-nın fəaliyyət göstərdiyi 11 iyun 1919 ildən 6 mart 1920 iləd ək təşkilatda təxminən 120-dək əməkdaş çalışmışdır.

Bakı şəhəri üzrə ƏMT-nın rayon bölmələrinə Məmmədtağı Dadaşov, Seyfulla Əzimzadə, Məmməd Hacızadə, Qasım İsmayılov, Aleksandr Şengeliya, Qəmbər Tahirov, Əbdüləziz Tağıyev, İslam Əliyev rəhbərlik edirdilər. Lavrenti Beriya təşkilatda senzura, Aleksandr Qoberidze xəfiyyə şöbələrinə başçılıq edirdilər. Təşkilatın Lənkəran şəhəri üzrə nümayəndəsi Yusuf bəy Bayraməlibəyov idi. Mirzağa Nəsirov, Ağəli Mahmudov və Ağəli Zeynalabdinzadə baş agent (baş əməliyyat işçisi) vəzifələrində çalışırdılar.

ƏMT-da azərbaycanlılarla yanaşı, türklər, ruslar, ukraynalılar və gürcülər də işləyirdilər. Ermənilər bu təşkilata işə götürülmürdü.

1919 il oktyabrın 26-da Dövlət Müdafiə Komitəsi bolşeviklərlə mübarizəni gücləndirmək üçün Bakı möhkəmləndi-rilmiş rayonunun səlahiyyətlərini genişləndirmiş, keşikçi, axtarış polislərini, eləcə də ƏMT-ni da onun rəisinə tabe etdirmişdi. Bolşevizmlə mübarizə yalnız bundan sonra ƏMT-nın fəaliyyətində əsas yerlərdən birini tutmağa başlamışdı. ƏMT digər orqanlarla birlikdə bu sahədə çoxlu sayda uğurlu əməliyyat aparmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 6 mart 1920 il tarixli qərarı ilə fəaliyyətini dayandırmışdır (bax, həmçinin *Əks-inqilabla mübarizə təşkilati).*

**İnformasiya şöbəsi.** ƏMT-nın ləğvindən sonra Bakıda və onun ətrafında əks-kəşfiyyatı Bakı general-qubernator-luğunun tərkibində yaradılmış informasiya şöbəsi təmin etmişdir. ƏMT-nın təhqiqat, müsahidə, axtarış, həbs və s. funksiyaları general-qubenatorun göstərişi ilə informasiya şöbəsinə verilmişdi.

İnformasiya şöbəsinə Ələkbər xan Şahsuvarov rəhbərlik edirdi. Həsən bəy Fətəlibəyov rəisin köməkçisi, türk ordusunun polkovniki rütbəsini daşıyanı Cəmil bəy xüsusi tapşırıqları yerinə yetirməklə yanaşı, rəisin köməkçisi idi.

İnformasiya şöbəsi əməkdaşları başda Ələkbər xan olmaqla, bir sıra əhəmiyyətli əməliyyatlar həyata keçirmişdilər. 1920 ilin aprelində Balaxanıda pozuculuq işi aparan 22 nəfər bolşevikin həbsi böyük əks-səda doğurmuşdu.

**Mühafizə dəstəsi.** Azərbaycan Parlamentinin, onun rəhbərlərinin və digər dövlət əhəmiyyətli obyektlərin mühafizəsinin təşkili üçün 1919 il fevrarılın 18-də Parlamentin 15-ci iclasında "Azərbaycan parlamentinin mühafızə dəstəsinin yaradılması haqqında" Qanun qəbul olunmuşdu. Qanuna əsasən, Parlamentin 200 nəfərlik mühafızə dəstəsi təsis edilirdi. Mühafizə dəstəsi Parlamentin Rəyasət Heyətinin tabeliyində idi. Mühafizə dəstəsinin saxlanılmasına dövlət xəzinəsindən 2200000 rubl məbləğində vəsait ayrılmışdı. Parlamentin mühafizə dəstəsinin rəisi vəzifəsinə əvvəllər 1-ci Tatar alayında rotmistr rütbəsində xidmət etmiş podpolkovnik N.Əliyev təyin olunmuşdu.

Mühafizə dəstəsi Parlamentin rəhbərliyini və bir sıra mühüm dövlət obyektlərinin mühafizəsini təmin edirdi. Eyni zamanda, xüsusi və mühüm tapşırıqların yerinə yetirilməsi daha çox mühafizə dəstəsinin şəxsi heyətinə etibar olunurdu.

Mühafızə dəstəsinin əməkdaşları Qarabağda ermənilərlə döyüşlərdə də yaxından iştirak edirdilər. General-mayor Həbib bəy Səlimovun döyiş bölgəsindən Baş qərargaha göndərdiyi raportlarda Parlamentin mühafizə dəstəsi əmək-daşlarının igidliyi barədə məlumat verilirdi. Döyüşlərin birində dəstənin praporşiki Nəcəfəliyev başda olmaqla, 16 əsgər həlak olmuş, praporşik Əsgərov, podporuçik Dauşvili, Ərəbov və xeyli əsgər yaralanmışdı. Döyüşən dəstəyə Parlament mühafızə dəstəsinin podpraporşiki Mövsüm İbrahimov rəhbərlik edirdi (bax, həmçinin *Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin mühafizə dəstəsi).*

*Əd.*: Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Elşad Qoca, Azərbaycanının təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920), B., 2000; yenə onun, Tariximiz, taleyimiz, B., 2001.

**XÜSUSİ ZAQAFQAZİVA KOMİTƏSİ (XZK)** - Rusiyada Fevral inqilabından (1917) sonra, martın 3-də Cənubi Qafqazda yaradılmış mülki hakimiyyət orqanı. Elmi ədəbiyyatda OZAKOM (Osobıy Zakavkazskiy Komitet) da adlandırılır.

Fevral inqilabından sonra Rusiyada yaranmış Müvəqqəti hökumət martın 3-də Cənubi Qafqazda mülki hakimiyyəti yeni orqana - Xüsusi Zaqafqaziya Kormitəsinə (XZK) verdi. Komitə regionun əsas millətlərini 4-cü Dövlət dumasında təmsil edən deputatlardan ibarət idi. XZK-nin sədri kadet partiyasının üzvü V.A.Xarlamov, üzvləri - azərbaycanlı kadet, sonralar müsavatçı Məmmədyusif Cəfərov, gürcü federal-sosialisti K.Abaşidze, rus kadeti P.Pereverzev və b. idilər. İki gündən sonra Nazirlər Şurasının sədri Lvovun əmri ilə P.Pereverzev gürcü menşeviki A.Çxenkeli ilə əvəz edildi. Həmin komitədə M.Y.Cəfərova sənaye və ticarət işləririə rəhbərlik tapşırılmışdı. Bu komitə Müvəqqəti hökumət tərəfindən 1917 il martın 6-da elan olunmuş prinsiplər əsasında Cənubi Qafqazda möhkəm qayda yaratmalı və regionda hakimiyyət orqanını təşkil etməli idi..

Cənubi Qafqaz millətləri bərabər təmsil olunmadığına, aqrar məsələdə qeyri-müəyyən mövqe tutduğuna görə xalq kütlələri XZK-nə etimad göstərmədi və o ilk gündən tənqid hədəfinə çevrildi.

Siyasi partiyalar və onların liderləri yeni hakimiyyətin təşkili məsələsində də müxtəlif mövqelərdə dayanırdılar. Menşeviklər hesab edirdilər ki, yeni hakimiyyət orqanları, mərkəzdə olduğu kimi, inqilabi demokratiya orqanlarının (fəhlə, əsgər və kəndli sovetlərinin) burjuaziya nümayəndələri ilə əməkdaşlığı əsasında yaradılmalıdır. Eserlərin fikrincə, Müvəqqəti hökumətin yaranmaqda olan yerli orqanlarına fəhlə və əsgər deputatları sovetləri nəzarət etməli idi. Bolşeviklər isə, hələlik eserlərin tərəfində dur-

downloaded from KitabYurdu.az

salar da, sonradan yalnız özlərinin hakimiyyətə gəlməsi uğrunda açıq mübarizə mövqeyinə keçdilər. İnqilabın ilk aylarında XZK-nin fealiyyəti müxtəlif siyasi cərəyanların, partiyaların, sosial təbəqələrin fəaliyyəti ilə müşayiət olunurdu. Bütövlükdə isə, cəmiyyətin bir çox siyasi qurumları Müvəqqəti hökumətə və onun yerli orqanı olan XZK-nə etimad göstərirdilər. Bu dövrdə cəmiyyətdə nisbi sabitliyin saxlanılmasına kömək edən amillərdən biri də bolşeviklərin hələlik sovetlərin partiya tərkibini dəyişdirmək taktikasına keçməməsi idi. Yerli hakimiyyət orqanlarının hamısı "demokratiyanın tam vəhdəti" şüarı altında formalaşır və sovetlərlə yerli hakimiyyət orqanlan arasında spesifik münasibətlər yaranırdı. Lakin XZK, əslində, hadisələrin getdikcə gərginləşməsi fonunda ilişib qalır, Cənubi Qafqaz kimi mürəkkəb regionda sabitliyi təmin etmək üçün əsaslı addımlar atmaqda çətinlik çəkirdi. Sovet Rusiyasına tabe olmaq istəməyən və regionu anarxiyadan qorumağa çalışan gürcü menşevikləri, "Müsavat", "Daşnaksutyun" və sağ eserlərin numayəndələri 1917 il noyabrın 15-də Tiflisdə *Zaqafqaziya komissarlığını* yaratdılar. Bununla da Xüsusi Zaqafqaziya Komitəsinin fəaliyyətinə son qoyuldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

downloaded from KitabYurdu.az

# İ

**İBRAHİM BƏY CAHANGİROĞLU,** Cahangirzadə (1874, Gümrü - 19.5.1948, Qars) - dövlət xadimi, hərbiçi, erməni-rus istilaçılarına qarşı fəal mübariz. Cənub-Qərbi Qafqaz hökumətinə başçılıq etmişdir. Gümrüdə və Qarsda mədrəsədə oxumuş, üç il Qars şəhər məktəbində rus dilində təhsil almışdır. Zəngin və tanınmış ailədən olduğundan Aleksandropol (Gümrü) kazak alayına qəbul edilmiş, beş il burada təlim keçdikdən sonra zabit rütbəsi almaq ərəfəsində Qarsdakı gizli "İslam cəmiyyəti" ilə əlaqələri müəyyən edilərək, Dağıstana sürgün olunmuşdur (1903). Əfv fərmanına əsasən, 6 aydan sonra azad olunaraq Qarsa qayıtmış və maliyyə məmuru işləmişdir. 1905-06 illərdə ermənilər Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirərkən könüllü dəstə toplayaraq, qardaşı Hasanxanla birlikdə Qarabağa köməyə gəlmiş, 1906 ildə oradan öz dəstəsiylə Təbriz vilayətinə keçmişdir.



İbrahim bəy Qarsa qayıtdıqdan sonra vilayət qubernatorunun icazəsi ilə erməni komitəçilərinə qarşı "Nəşri-maarif' cəmiyyətini qurmuş, eyni zamanda, Azərbaycanda "Difai" partiyası ilə gizli əlaqə yaratmış, habelə "İttihad və Tərəqqi" partiyası Ərzurum şöbəsinin üzvü olmuşdur.

1907 ildə Xoy şəhərinə köçmüş, Təbrizdə hürriyyət mücadiləsinə qoşularaq, şah rejiminə qarşı mübarizə aparan bir dəstəyə başçılıq etmiş, 1912 ilin oktyabrında 700 mücahidlə Türkiyəyə - Van vilayətinə qayıtmışdır. 1913 ilin martında "İttihadçı"ların dəvətilə öz könüllüləri ilə birlikdə İstanbula getmiş, orada üç ay yarım təlim keçən "Qafqaz könüllü taburu" onun komandanlığı altında Ədirnəni bolqarlardan azad etmişdir.

1914 ilin noyabrında Türkiyənin hərbi naziri Ənvər paşa İbrahim bəyi könüllüləri ilə birlikdə İran və İraq cəbhələrinə göndərmişdir. Burada o, rus ordusuna qarşı vuruşmuşdur. 1918 ilin mayında Ənvər paşa onu İstanbula çağıraraq, "Fəxri alay komandanı" sifətilə 9-cu Ordu komandanı Yaqub Şevqi paşanın sərəncamına göndərmişdir. İyunun ortalarında Şöroyel qaymakamı təyin edilən İbrahim bəy İrəvan və digər bölgələrdən olan qaçqınları ətraf kəndlərə yerləşdirmiş, onlara hər cür qayğı göstərmişdi. Araz-Türk Respublikası hökumətinin hərbi naziri seçilən İbrahim bəy 20 tabur (batalyon) təşkil etmişdir. Bu taburlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Vedibasar, Qəmərli və Zəngibasarda yerləşdirilərək, həmin bölgələrin əhalisini ermənilərin törətdikləri soyqırımlarından müdafiə etmişdir. Həmin il noyabrın 30-da keçirilən Böyük Qars konqresində Araz-Türk Respublikası hökuməti ilə Qars, Ahisqa, Artvin və Batum sancaqlarını əhatə edən Milli İslam Şurası birləşərək, Batumdan Ordubada qədər ərazidə Milli Şura hökuməti quruldu və İbrahim bəy onun başçısı seçildi. 1919 il yanvarın 18-də keçirilən konqresdə mərkəzi Qars olmaqla qurulan *Cənub-Qərbi Qafqaz Cümhuriyyəti* hökumətinin də başçısı İbrahim bəy idi. 40 min *kv.km* sahəsi və 1,7 milyondan çox əhalisi (1,5 milyonu türk-müsəlman) olan bu dövlət 6 ay ərzində öz ərazisini erməni və gürcü basqınlarından qorumuşdur.

Müstəqil daxili və xarici siyasət yeridən bu hökumət 1919 ildə ingilislər tərəfindən yıxıldı, başda İbrahim bəy olmaqla, hökumət üzvləri evləri və əmlakları müsadirə edilməklə, Malta adasına (Aralıq dənizi) sürgün olundular.

1921 ildə Nəriman Nərimanovun köməyi ilə sürgündən azad edilən qarslılar əski rus təbəəsi bəhanəsiylə Tiflisə göndərildilər. Tiflisdən Bakıya gələrək ailəsini axtaran İbrahim bəy arvadı Mələk xanımı və oğlunu Gəncədə Xudadat bəy Rəfıbəylinin himayəsində tapdı və onun köməyi ilə Qarsa qayıtdı. İbrahim bəy Kazım Qarabəkir paşanın tövsiyəsi ilə avqustda Qarsda keçirilən seçkilərdə iştirak edərək, şəhər valisi seçilmiş, 1921-27 illərdə Qars bələdiyyə rəisi işləmiş, sonralar ticarət məmuru olmuşdur.

**İBRAHİMOV** Əbdürrəşid Ömər oğlu [1857, Tobolsk vilayətinin (Sibir) Tara qəza mərkəzi - 1.8.1944, Tokio] - tatar ictimai xadimi, naşir, jurnalist, publisist. Rusiya müsəlmanların arasında islam ("panislamizm") və türk ("pan-türkizm") birliyi ideyalarının tanınmış təbliğatçılarından biri. Ruhani ailəsində doğulmuşdur. Kaşqarda mədrəsə təhsili almışdır. 1892-97 illərdə Orenburq şəhər ruhani idarəsində qazı vəzifəsində çalışmışdır. 19 əsrin axırından jurnalistika ilə məşğul olmuş, "Miraf' (1898), "Ülfət" (1905-07), "Əl-Tilmiz" və s. adlar altında qəzet-məcmuələr nəşr etdirmişdir. 1906 ildə Peterburqda "Ülfət" adlı mətbəə açmış, tatar dilində kitablar buraxılmışdır. Onların arasında "Avtonomiya, yaxud idareyi-muxtariyyə", "Tatar həyatının 1002-ci gecəsi", "Səyahəti-Kedra", "Müsəlman partiyasının nizamnaməsi", dərsliklər, siyasi, dini-didaktik, dini-tarixi səciyyəli kitablar var idi. Bu kitabların əksəriyyətinin müəllifi və naşiri Ə.İbrahimov özü idi. Çar senzurası tərəfindən təqib olunmuş, kitab və qəzetləri müsadirə edilmişdir. Qadağan olunmuş kitabları arasında

downloaded from KitabYurdu.az

tatarların zorla xristianlaşmasından bəhs edən "Çolpan yolduzu" ("Dan ulduzu") əsəri də olmuşdur.Birinci rus inqilabı illərində İbrahimov siyasi mübarizəyə qoşulmuş, Ümumrusiya müsəlmanlannın qurultaylarında fəal iştirak etmişdir. Yaradılması birinci qurultayda qərara alınmış "İttifaqi-müslimin" partiyasının məramnaməsi və nizamnaməsini hazırlayanlardan biridir. O, "İttifaqi-müslimin" partiyasının müsəlmanlan birləşdirmək məramını açıqlayaraq yazırdı: "Müsəlmanlar arasında qohumluq və həmrəylik sözdə, kağız üzərində deyil, onların ürəyində və qanındadır. Buna görə də təkcə Rusiya müsəlmanlarının deyil, bütün dünya müsəlmanlarının ittifaqı bərqərar olmalı, bütün müsəlmanlar bir istiqamətdə hərəkət etməlidirlər. Belə isə mən nə üçün "İttifaqi-islamın" (islam birliyinin - "panislanizm" in) əleyhinə hərəkət etməliyəm?".

"İttifaqi-müslimin" partiyasının 15 nəfərdən ibarət daimi fəaliyyət göstərən Mərkəzi Komitəsinin nəzdində Əlimərdan bəy Topçubaşov və Molla Abdulla Tonayevin daxil olduğu 3 nəfərdən ibarət büronun üzvlərindən biri də Ə.İbrahimov idi.

Birinci rus inqilabının məğlubiyyətindən sonra ölkədə Stolıpin irticası şiddətlənərkən İbrahimov da İstanbula mühacirət etmiş, "Türk ocağı" dərnəyinin fəaliyyətində iştirak etmiş, "Türk yurdu" jurnalı ilə əməkdaşlıq etmişdir. 1913 ildə İstanbulda Ə.İbrahimovun redaktorluğu ilə "İslam dünyası" adlı məcmuə çıxmışdır. İbrahimov ömrünün bir hissəsini Tokioda yaşamış, yaponlar arasında islamın təbliğinə böyük əmək sərf etmişdir.

İbrahimovun Azərbaycanla sıx əlaqələri olmuşdur. 20 əsrin əvvəllərində "Şərqi-Rus", "Həyat" və s. qəzetlərdə məqalələri dərc edilmiş, ictimai-siyasi fəaliyyəti Azərbaycan mətbuatında vaxtaşırı işıqlandırılmışdır. O da, öz növbəsində, "Ülfət" qəzetində M.Ə.Sabirin şerlərini dərc etdirmişdir. Lakin Azərbaycan mətbuatının İbrahimova münasibəti birmənalı olmamış, bir sıra fıkirləri C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağayev və b. tərəfindən tənqid edilmişdir.

*Əd:*. Bayramlı O.,Türkçülük və"Həyat" qəzeti,Hüseynzadə Ə., Türklər kimdir və kimlərdən ibarətdir? kitabında, B., 1997; Mustafayev T., XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi, B., 1973; Tahiri M.,Şərqin səyyah filosoflarından biri Əbdürrəşid İbrahim, "Yeni Azərbaycan" qəzeti, 2003, 29 iyun; Гайнуллин М., Татарская литература и публицистика, Казань, 1983.

**İCTİMAİ TƏŞKİLATLARIN İCRAİYYƏ KOMİTƏSİ**

-Rusiyada Fevral inqilabından (1917) sonra təşkil olunmuş Müvəqqəti hökumətin yerli idarəetmə orqanları. Cənubi Qafqazın idarəsi üçün *Xüsusi Zaqafqaziya Komitəsi* (XZK; rus dilində OZAKOM-Osobıy Zakavkazskiy Komitet adlanır) təsis edilmişdi. Quberniya və qəzalarda ictimai təşkilatların icraiyyə komitələri yerli idarəetmə orqanları oldu. Martın 3-də Bakı Şəhər Duması ictimai təşkilatların müvəqqəti komitəsini yaratmağı qərara aldı, 5-də Bakı İctimai Təşkilatlar Şurası yaradıldı, 17-də isə onun icraiyyə komitəsi seçildi (bax *Bakı İctimai Təşkilatlar Şurası və onun Müvəqqəti İcraiyyə Komitəsi)*. İcraiyyə komitəsinin tərkibinə L.L.Bıç (sədr, sonra onu V.İ.Frolov əvəz etmişdi), Məmməd Həsən Hacınski, İbrahim bəy Heydərov və b. daxil idi. Yelizavetpolda (G ə n c ə) icraiyyə komitəsinin sədri Xəlil bəy Xasməmmədov seçilmişdi. İcraiyyə komitələri ictimai təhlükəsizliyi təmin etməli və yeni dövlət qanunlarını həyata keçirməli idi. Onlar quberniya və qəza komissarlarını təyin edirdilər. Xüsusi Zaqafqaziya Komitəsi əldə edilmiş təcrübəni nəzərə almaqla, aprelin 27-də "Zaqafqaziyada yerli idarəetmənin təşkili haqqında" qərar qəbul etdi. Qərara uyğun olaraq, icraiyyə komitələrinə yeni seçkilər keçirilməli idi. Lakin bu seçkilər də yaşamağa qadir yerli idarəçilik sistemi yarada bilmədi. Bakı Soveti 1917 il Oktyabr çevrilişindən sonra Bakıda hakimiyyəti ələ almağa cəhd göstərdi. Sovet oktyabrın 27-də keçirilən yığıncağında ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsi yaratmağa nail oldu. Lakin Sovetdə mövqelərini möhkəmləndirən bolşeviklər Bakıda ali hakimiyyət orqanı kimi Bakı Soveti İcraiyyə Komitəsini (sədr S.Şaumyan) yaratdılar. Təkhakimiyyətliliyə can atan İcraiyyə Komitəsi noyabrın 12-də Bakı Soveti ictimai təhlükəsizlik komitəsinin ləğvi haqqında qərar qəbul etdi, noyabrın 22-də ictimai təşkilatlar şurası buraxıldı. Siyasi şəraitin mürəkkəbləşməsi ilə əlaqədar, Yelizavetpol quberniyasında hərbi vəziyyət elan olundu, 16 nəfərdən ibarət ictimai təhlükəsizlik komitəsi yaradıldı. İcraiyyə komitələri azərbaycanlıların dövlət idarə orqanlarına cəlb edilməsində müəyyən rol oynadı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Мильман А., Политический строй Азербаиджана в XIX веков Б., 1966; История государства и права Азербаиджанской ССР, Б., 1964.

**"İCTİMAİYYUN-AMİYYUN"** ("Mücahid") - İran Sosial-Demokrat Partiyası; iranlı (əsasən, Cənubi Azərbaycandan olan) fəhlələrin Bakı bolşevik təşkilatı və onun "Hümmət" qrupunun fəal köməyi ilə 1905 ilin sonlarında yaradılmış ilk sosial-demokrat təşkilatı. Azərbaycan azadlıq hərəkatı tarixində partiyanın əhəmiyyətli rolu olmuşdur. "Ədalət" qrupu (1904) əsasında yaradılmış, sonralar (1917 ildə) "Ədalət" partiyasının özəyini təşkil etmişdir. Yaradılmasında Nəriman Nərimanovun mühüm rolu olmuşdur.

Partiya iranlı fəhlələrin inqilabi şüurunun oyanmasında və öz hüquqları uğrunda mübarizəyə cəlb edilməsində, habelə İranda 1905-11 illər Məşrutə hərəkatında mühüm rol oynamışdır. Partiyanın Mərkəzi Komitəsi Bakıda yerləşirdi. N.Nərimanov başda olmaqla, "Hümmət" partiyasının bir çox üzvləri "İctimaiyyun-amiyyun"un məramnaməsinin hazırlanmasında fəal iştirak etmişdilər. Məramnamənin layihəsi 1906 il dekabrın əvvəllərində Bakıda çap edilmişdir. Həmin sənəd partiya təşkilatlarının əsas fəaliyyət proqramı olaraq, Cənubi Qafqazda yayılmış, habelə İrana göndərilərək, partiyanın İran təşkilatlarının, xüsusilə Təbriz təşkilatının ölkədə ictimai-iqtisadi inkişafın səviyyəsi və inqilabın ilk mərhələsinin xüsusiyyətləri haqqında düzəliş və təklifləri əsasında aqrar məsələyə dair müəyyən dəyişiklikdən sonra təkmilləşdirilmiş və partiyanın proqramı kimi, onun 1907 ildə Məşhəddə keçirilən yığıncağında qəbul olun-

downloaded from KitabYurdu.az

muşdu. "Mücahid" partiyasının proqramı "Hümmət"in proqramına nisbətən daha inqilabi xarakteri ilə fərqlənirdi. Partiya fərdi terror taktikasını qəbul etmişdi.

Bakı, Naxçıvan, Lənkəran, Gəncə, Tiflis, Petrovsk-Port (Mahacqala), Vladiqafqaz, Tehran, Təbriz, Məşhəd, Xoy, Ərdəbil, Urmiya və başqa şəhərlərdə partiyanın şöbələri fəaliyyət göstərirdi.

Məşrutə hərəkatı başlayandan sonra partiya əhali arasında təbliğat aparmaq məqsədilə öz fəallannı İrana göndərdi. 1908-09 illər Təbriz üsyanı zamanı isə partiyanın fəal iştirakı ilə Qafqaz və Orta Asiya şəhərlərində İran inqilabçılarına yardım komitələri təşkil olundu.

"Mücahid" partiyasınm şöbələri İran inqilabçılarına pul, silah-sursat, dava-dərman, tibb avadanlıqlan və s. zəruri şeylər göndərirdi. Məşrutəçilərə canlı qüvvə ilə də kömək göstərilir, oraya könüllülər göndərilirdi. N.Nərimanov başda olmaqla, Tiflis komitəsi, M.Əzizbəyov başda olmaqla, Bakı komitəsi bu işdə xüsusi fəallıq göstərirdi.

Çarizm bu partiyanın fəaliyyətinə son qoymağa çalışırdı. Belə ki, polkovnik Babuşkin 1907 il yanvarın 30-da İrandan Bakıya göndərdiyi teleqramında məlumat verirdi ki, "Rəştdə fədai təşkilatının nümayəndəsi ("Mücahid" təşkilatı nəzərdə tutulur) Məşədi Hüseyn Bakıya getdi. Yəqin ki, o, İranda qarışıqlıq salmaq üçün orada yerli inqilab komitələri ilə danışıqlar aparacaqdır".

"Mücahid" partiyası Cənubi Qafqazda da şahlıq üsuli-idarəsi əleyhinə geniş təbliğat aparırdı. Partiyanın Qaraşəhər (Bakı) şöbəsinin fəaliyyəti ilə əlaqədar polisin məlumatında qeyd edilirdi ki, "bu partiya İrandakı mövcud dövlət quruluşunu dəyişdirməyi qarşısına əsas məqsəd qoymuşdur".

Təbriz inqilabçılarına nəşr işləri sahəsində də yardım göstərilirdi. Qafqaz canişininə göndərilmiş gizli polis məlumatında deyilirdi ki, 1907-08 illərdə İran təbəəsi Mirzə Məhəmməd oğlu Təbriz sakini Məhəmmədovun köməyi ilə vaxtilə Rostov-Dondan mətbəə avadanlığı alıb, Təbrizə aparmışdır.

Məşrutə hərəkatının yüksəlişi dövründə Təbriz sosial-demokratlarına yaxından kömək məqsədilə "İctimaiyyun-Amiyyun" Partiyasının Mərkəzi Komitəsi üzvlərindən Məşədi İsmayıl Miyabi, Məşədi Məhəmmədəli xan, Hacı xan Təbrizə gondərilmişdi. Ümumiyyətlə, inqilab illərində Cənubi Qafqazdan İrana cəmi 800 könüllü getmiş və təkcə Təbrizin müdafiəsi zamam onlardan 50-si həlak olmuşdu.

Partiyanın İranda yaradılmış şöbələrində Məşədi İsmayıl Miyabi, Məşədi Məhəmmədəli xan, Hacı xan, Qafarzadə Zünuzi, Məhəmməd Əlioğlu (Təbriz), Mirzə Cəfər Zoncani, Məşədi Mirzə Məhəmməd, Məşədi Abbas və Məşədi Əli (Xoy), Məşədi Bağır Urmiyeyi (Urmiya), Məşədi Hüseyn Sərabi və M.B.Axundov (Reşt), Heydərxan Əmioğlu, Mir Bağır Qafqazi və başqaları Cənubi Azərbaycanın və bütövlükdə, İranın müxtəlif şəhərlərində fəal iş aparırdılar.

Bu illərdə İranda olan Məhəmməd Əmin Rəsulzadə nəşr etdirdiyi "İran-e nou" ("Yeni İran") qəzetinin səhifələrində Ölkədə baş verən inqilabi hadisələri işıqlandırırdı. Məşrutə hərəkatı çar qoşunları tərəfindən qan içində boğulduqdan sonra Təbriz və Rəştdə hərbi-səhra məhkəmələri quruldu, könüllülərin bir çoxu həbs və edam olundu. Yalnız 200 mücahid gizlənərək, xilas ola bildi. Seyid Həsən Tağızadə və M.Ə.Rəsulzadə Türkiyəyə getməyə məcbur oldular. Cənubi Qafqazda aparılan təqib siyasəti nəticəsində "Mücahid" təşkilatlarına ciddi zərbə vuruldu. İran "İctimaiyyun-amiyyun" Partiyasının fəalları və davamçıları 1917 ildə "Ədalət" partiyası adı altında yenidən Azərbaycanın siyasi həyatına qatıldılar.

*Əd.:* İbrahimov T.A. (Şahin), İran Kommunist Partiyasının yaranması, B., 1963; Aslani S.Ş., İran "İctimaiyyun-amiyyun" (Mücahid) Partiyasına aid yeni sənədlər, ADU-nun Elmi əsərləri (tarix və fəlsəfə elmləri seriyası), 1973,. № 8; Tağıyeva Ş.Ə., Nəriman Nərimanov və İran xalqlarının demokratik və milli azadlıq hərəkatı, "Sovet Azərbaycanı və xarici Şərq" kitabında, B., 1980; Иванов С., Иранская револююция 1905-1911 rr., M., 1957.

**İKİHAKİMİYYƏTLİLİK** - Şimali Azərbaycanda eyni zamanda mövcud olmuş və bir-birinə qarşı mübarizə aparmış iki hakimiyyət. Rusiyada 1917 il mart-iyul aylarında Müvəqqəti hökurriətin və Fəhlə, Əsgər və Kəndli Deputatları Sovetinin hakimiyyəti kimi özünü göstərmişdi. 1917 ilin noyabrından 1918 ilin sentyabrınadək Azərbaycanda üç dəfə ikihakimiyyətlilik dövrü olmuşdur.

***Şimali Azərbaycanda mövcud olmuş ikihakimiyyətlilik dövrləri***

| İkihakimiyyətlilik | | Hakimiyyətlər | |
|---|---|---|---|
| sayı | dövrü | 1 | 2 |
| I | 1917, noyabr – 1918, may | Bakı Soveti (Bakı və ətraf rayonlar) | Zaqafqaziya komissarlığı; sonra Zaqafqaziya Federativ Demokratik Respublikası – Şimali Azərbaycan–Bakı və ətrafı istisna olmaqla |
| II | 1918, may–iyul | Bakı Xalq Komissarları Soveti (Bakı və ətraf rayonlar) | Azərbaycan Xalq Cümhuriyyəti (Şimali Azərbaycan–Bakı və ətrafı istisna olmaqla) |
| III | 1918, 1 avqust – 15 sentyabr | "Sentrokaspi diktaturası" (Bakı və ətraf rayonlar) | Azərbaycan Xalq Cümhuriyyəti |

Bakı *Qafqaz İslam Ordusu* tərəfındən azad edildikdən (1918, 15 sentyabr) sonra, paytaxt buraya köçürüldü. Cümhuriyyət hökuməti hakimiyyətini bütün ölkə ərazisində bərqərar etdi və ikihakimiyyətliliyə son qoyuldu. Sonralar Azərbaycanda yeni əks-hakimiyyət qurumları yaratmaq cəhdi (bax *Muğan Sovet Respublikası)* baş tutmadı.

*Əd.:* Şükürov K., Azərbaycan tarixi, 3 hissədə, h.2, B., 2003.

**İKİNCİ HÖKUMƏT KABİNƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə təşkil olunmuş sayca ikinci hökumət kabinəsi, dövlətin ali icraedici orqanı. Azərbaycan Milli Şurası və Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il iyunun 16-da Tiflisdən Gəncəyə köçdükdən sonra

downloaded from KitabYurdu.az

burada yaranmış mürəkkəb şəraitlə əlaqədar, iyunun 17-də Milli Şura və Fətəli xan Xoyskinin 1-ci hökumət kabinəsi buraxıldı. Milli Şura buraxılmazdan əvvəl bir sıra inqilabi əhəmiyyətli məsələlərdən başqa, qalan bütün hakimiyyətin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin əlində cəmləşdirilməsi barədə qərar qəbul etdi və 2-ci müvəqqəti hökuməti formalaşdırmağı F.x.Xoyskiyə tapşırdı. Milli Şuranın Gəncədəki son iclasının qərarına əsasən, F.x.Xoyskinin sədrliyi ilə Nazirlər Şurasının yeni tərkibi aşağıdakı tərkibdə təsdiq edildi: Məmməd Həsən *Hacınski,* Nəsib bəy *Yusifbəyli,* Əlimərdan bəy *Topçubaşov,* Behbud xan *Cavanşir,* Xəlil bəy *Xasməmmədov,* Xosrov Paşa bəy *Sultanov,* Xudadat bəy *Rəfibəyli,* Xudadat bəy *Məlik-Aslanov,* Ağa bəy *Aşurov,* Əbdüləli bəy *Əmircanov* və Musa bəy *Rəfiyev.*


*İkinci piyada diviziyasının zabitləri*

Hökumətin iyunun 19-da keçirilən iclasında: F.x.Xoyski - Nazirlər Şurasının sədri (Hökumətin başçısı) və ədliyyə naziri; M.H.Hacınski - xarici işlər naziri; B.Cavanşir - daxili işlər naziri; X.Məlik-Aslanov - yollar naziri; Ə.Əmircanov - maliyyə naziri; X.P.Sultanov - əkinçilik naziri; N.Yusifbəyli - xalq maarifi və dini etiqad naziri; A.Aşurov - ticarət və sənaye naziri; X.Ə.Rəfıbəyli - səhiyyə və himayədarlıq naziri; Ə.Topçubaşov, X.Xasməmmədov və M.Rəfıyev - portfelsiz nazirlər təsdiq olundular. Bundan əlavə, X.Məlik-Aslanova poçt və teleqraf naziri, A.Aşurova ərzaq naziri, M.H.Hacınskiyə isə dövlət nəzarəti naziri vəzifələrinin müvəqqəti icrası həvalə edildi.

1918 il sentyabrın 15-də Bakı Qafqaz İslam Ordusu tərəfindən azad olunduqdan sonra F.x.Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçdü. Həmin il oktyabrın 6-da F.x.Xoyskinin Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsində dəyişikliklər edildi. F.x.Xoyski hökumətin sədri, X.Xasməmmədov ədliyyə naziri, Ə.Topçubaşov xarici işlər naziri, M.H.Hacınski maliyyə naziri, A.Aşurov poçt və teleqraf naziri, M.Rəfıyev himayədarlıq və dini etiqad naziri, Ə.Ə.Əmircanov dövlət nəzarəti naziri vəzifələrini tutdular. B.Cavanşir daxili işlər naziri vəzifəsi ilə yanaşı, ticarət və sənaye naziri vəzifəsini də yerinə yetirirdi. N.Yusifbəyli xalq maarifi və ərzaq nazirliklərinə başçılıq edirdi. İ.Ziyadxanov hərbi işlər üzrə müvəkkil təyin olundu. Qalan nazirlər öz vəzifələrinin icrasını davam etdirirdilər. Bax *Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti* məqaləsinə.

**İKİNCİ PİYADA DİVİZİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun hərbi birləşməsi. Diviziyaya 5, 6, 7 və 8-ci atıcı alayları daxil idi. Onların şəxsi heyəti lazımınca komplektləşdirilməmişdi. Buna görə də Əlahiddə Azərbaycan Korpusunun (ƏAK) tərkibində bu alayların şəxsi heyəti digər hissələrin komplektləşdirilməsinə yönəldildi və 2-ci piyada diviziyasının komandanlığının saxlanılmasına ehtiyac qalmadı. 1918 ilin sentyabrında Bakı şəhəri düşmən qüvvələrdən azad edildikdən sonra *Qafqaz İslam Ordusu* (QİO) komandanının əmri ilə Azərbaycan piyada diviziyalarının bərpasına başlanıldı. Sentyabrın 25-də ƏAK-nun tərkibinə daxil olan 2-ci Azərbaycan piyada diviziyasının təşkili barədə əmr verildi. Bu zaman yalnız diviziyanın tərkibinə daxil olacaq 4-cü piyada alayının formalaşdırılması başa çatmaq üzrə idi. Diviziyanın formalaşdırılmasını sürətləndirmək üçün 5-ci Qafqaz firqəsinin 10-cu Qafqaz alayı 2-ci piyada diviziyasına verilmişdi və bu alaym taborları diviziyanın yeni yaradılan alaylarının əsasını təşkil etməli idi. 4-cü piyada alayı 10-cu Qafqaz alayının 1-ci taboranun bazasında formalaşmışdı. Taborun zabıt və əsgər heyəti 4-cü alayın şəxsi heyətinə qatılmışdı. 2-ci piyada diviziyasının 5-ci və 6-cı alayları 10-cu Qafqaz alayının müvafiq olaraq 2 və 3-cü taborları bazasında qurulmalı, 6-cı piyada alayının qalan şəxsi heyəti Bakıda, 5-ci alayınkı isə Muğanda cəmləşdirilməli idi. Diviziya Bakıdakı Salyan kazarmalarında yerləşdirilmişdi və onun komandiri vəzifəsinə QİO-nun qərargah rəisi Nazim bəy təyin edilmişdi. Diviziyanın tərkibində bir süvari alayı və yardımçı bölmələr də var idi.

10-cu Qafqaz alayının 2-ci piyada diviziyasının tərkibinə verilməsi onun kəmiyyət baxımından formalaşmasını sürətləndirsə də, türk qüvvələrinin Azərbaycanı tərk etməsilə alay ağır vəziyyətə düşdü. Hərbi nazirliyin bərpasından sonra hissələr yenidən qurularkən 2-ci piyada diviziyası ləğv olundu.

downloaded from KitabYurdu.az

Hərbi nazir S.Mehmandarovun 1919 il 14 iyul tarixli əmri ilə Azərbaycan ordusu tərkibində 2-ci piyada diviziyasının təşkilinə yenidən başlanıldı. Artıq formalaşmış olan 4-cü Quba və 5-ci Bakı piyada alayları, sonradan təşkil edilmiş 6-cı Göyçay piyada alayı da bu diviziyanın tərkibinə qatıldı. Diviziyanın komandiri vəzifəsinə general-mayor İbrahim ağa Usubov, onun müavini vəzifəsinə isə general-mayor Makeyev təyin edildilər. Diviziyanın yüksək döyüş hazırlığı əldə edərək, güclü hərbi vahidə çevrilməsində onların böyük xidmətləri olmuşdur. Bakı ətrafının və şimal sərhədinin müdafiə sisteminin etibarlı şəkildə qurulmasında, Lənkəran və Qarabağ əməliyyatlarının uğurla başa çatdırılmasında 2-ci piyada diviziyası hissələrinin də xüsusi rolu var idi. *Aprel işğalından {1920)* sonra 1 -ci piyada diviziyası kimi 2-ci piyada diviziyası da ləğv olunaraq yenidən quruldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**İKİNCİ SOVETLƏR QURULTAYI** - Fəhlə və Əsgər Deputatları Sovetlərinin II Ümumrusiya qurultayı (1917, 25-26 oktyabr, yeni üsulla 7 noyabr). Petroqradda (Smolnıda) keçirilmişdir. Qurultayın açılışında iştirak edən 649 nümayəndənin 390 nəfəri bolşevik, 160-ı eser, 72-si menşevik, 14-ü menşevik-beynəlmiləlçi və b. idi. Qurultayın işində Bakı Fəhlə və Əsgər Deputatlan Sovetindən bolşeviklər S.Şaumyan, M.Semyonov, A.Raşkeviç, sol eser İ.Suxartsev iştirak edirdilər. Menşevik Y.Martov bütün sosialist partiyalarının nümayəndələrindən ibarət ümumdemokratik hökumətin yaradılmasına cəhd göstərsə də, nə bolşeviklər, nə də menşeviklər və eserlər onun təklifini qəbul etmədilər. Bolşevik L.Trotski sağ sosialist partiyaların nümayəndələrinə müraciət edərək bildirdi ki, onlar iflasa uğramış, öz rollarını oynamışlar və bundan sonra onların yeri tarixin zibil səbətində olmalıdır. Menşeviklər, sağ eserlər və menşevik-beynəlmiləlçilər qurultayı tərk etdilər. Beləliklə, bütün vəziyyətə nəzarət bolşeviklərin hakimiyyəti altına keçdi. Oktyabrın 26-sı səhər saat 5-də 2 nəfər əleyhinə və 12 nəfər bitərəf olmaqla qurultayın "Fəhlələrə, əsgərlərə və kəndlilərə!" müraciəti təsdiq edildi. Qurultay ölkədə bütün hakimiyyətin fəhlə, əsgər və kəndli deputatları sovetlərinin əlinə keçdiyini bəyan etdi.

Yeni Sovet hakimiyyətinin həll etməli olduğu yaxın, təxirəsalınmaz vəzifələri - dərhal sülh təklif edilməsi, torpaqların torpaq komitələrinin sərəncamına verilməsi, ordunun demokratikləşdirilməsi, istehsal üzərində fəhlə nəzarəti, Müəssislər məclisinin vaxtında çağırılması, ərzaq böhranının həll edilməsi, millətlərin öz müqəddəratını təyin etmə hüququnun təmin olunması müəyyənləşdirildi. Oktyabrın 26-da axşam keçirilən ikinci iclasda cəbhədə ölüm hökmünün ləğvi, siyasi cinayətlərə görə həbs olunmuş əsgər və zabitlərin azadlığa buraxılması, Müvəqqəti hökumətin keçmiş başçısı A.F.Kerenskinin dərhal həbs edilməsi, orduda müvəqqəti inqilabi komitələrin təşkili haqqında sərəncamlar təsdiq edildi. Qurultayın bütün qalan vaxtı sülh, torpaq və Sovet hökuməti haqqında dekretlərə həsr olundu. Qurultay V.İ.Leninin məruzəsi üzrə sülh və torpaq haqqında dekretlər qəbul etdi. Sülh haqqında dekret bütün xalqlara və hökumətlərə, ilhaq və təzminatdan imtina etmək şərtilə, ümumi sülh bağlamaq haqqında dərhal danışıqlara başlamaq təkliflərindən ibarət idi. Torpaq haqqında dekretlə torpaq üzərində xüsusi mülkiyyət ləğv edilir və bütün torpaq ümumxalq sərvəti elan olunurdu. Qurultay Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin (ÜMİK) tərkibini seçdi və V.İ.Lenin başda olmaqla, birinci Sovet hökumətini - Xalq Komissarları Sovetini (XKS) təşkil etdi. L.Kamenev ÜMİK-nin sədri seçildi. Xalq Komissarlan Soveti rəsmi olaraq müvəqqəti fəhlə və kəndli hökuməti sayılırdı və öz funksiyalarını Müəssislər məclisinin çağırılmasına qədər həyata keçirməli idi.

İkinci Sovetlər qurultayı nəticəsində Rusiyada hakimiyyət çevrilişi baş verdi. Bolşeviklər hakimiyyəti ələ keçirdilər. Bax həmçinin *Oktyabr çevrilişi (1917).*

**"İQBAL"** -gündəlik qəzet. 1912-15 illərdə Bakıda, Azərbaycan dilində nəşr olunmuşdur.1023 nömrəsi çıxmışdır. Onlardan 459-u Sənətulla Eynullayev-İbrahimovun (6.3.1912-20.9.1913), 299-u Seyid Hüseyn Sadıqzadənin (22.9.1913-8.10.1914), 265-i isə Məhəmmədəli Əbdüləziz və Məhəmməd Əmin Rəsulzadələrin (9.10.1914-27.4.1915) naşirliyi və baş mühərrirliyi ilə buraxılmışdır. “İqbal”ın əsas müəllifləri Sənətulla Eynullayev-İbrahimov, Seyid Hüseyn, Məhəmməd Əmin Rəsulzadə, Hacı İbrahim Qasımov, Nəriman Nərimanov, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət, Əli Nəzmi, Xəlil İbrahim, Əkbər Əkbərov və b. idi.




Qəzetin məqsəd və məramı onun birinci sayında dərc edilmiş baş məqalədə şərh olunmuşdur: *"İqbal" qəzetəsi millətimizin maddi və mənəvi səadətinə, iqbalına xidmət arzusu ilə nəşrə başlamışdır".* Müstəmləkəçi imperialist dövlətlərin Yaxın və Orta Şərqdə törətdikləri təxribatların, Rusiya imperiyasının müstəmləkəçilik və ruslaşdırma siyasətinin tənqidi, milli dirçəliş ideyalarının təbliği, milli ədəbiyyatın inkişafı, ana dilinin müstəqilliyi və yad təsirlərdən təmizlənməsi, qadın azadlığı, maarifin xalqa yaxınlaşması və milliləşməsi “İqbal”ın toxunduğu əsas mövzular idi. Qəzet müxtəlif problemləri vahid məqsəd ətrafında birləşdirir, milli müstəqillik ideyalarının təbliğinə xidmət göstərirdi.

downloaded from KitabYurdu.az

"İqbal"ın məramı rus çarizminin köçürmə və ruslaşdırma, Avropa ölkələrinin Şərqdə müstəmləkəçilik siyasətinin tənqidinə həsr olunmuş məqalələrdə qabarıq surətdə əks olunmuşdur.

Qəzetdə milli istiqlal və dirçəlişə gedən yolda maarifin, məktəbin xalqa yaxınlaşdırılmasının, gənc nəslin milli tarixə, dil və ədəbiyyata bağlılıq ruhunda tərbiyə olunmasının əhəmiyyəti xüsusilə qabardılırdı. "İqbal"ın milli istiqlal uğrunda başladığı mübarizə "Yeni İqbal" və "Açıq söz" qəzetlərində davam etdirilmişdir. "İqbal"ın naşir və baş mühərrirləri, müəlliflərinin böyük əksəriyyəti sonralar Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları oldular.

*Əd:*. Mirəhmədov Ə., Mətbuat, "Azərbaycan ədəbiyyatı tarixi", 3 cilddə, c.2., B., 1960; Zamanova A., "İqbal" qəzeti mətbuatın ictimai mövqeyi və vəzifələri haqqında, "Dil və ədəbiyyat" məcmuəsi, 1998, № 2.

**İLDIRIM** Çingiz (Çingiz İldırım oğlu S u l l a n o v ; 10.7.1890, Qubadlı - 1937) - Azərbaycanda bolşevizmin görkəmli nümayəndələrindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində və bolşeviklərin hakimiyyətə



gəlməsində mühüm rol oynamışdır. 1898-1905 illərdə Şuşa, 1906-09 illərdə Vladiqafqaz realnı məktəblərində təhsil almışdır. 1916 ildə Petroqrad Poli texnik İnstitutunun dağ-mədən şöbəsini mühəndis-metallurq ixtisası üzrə bitirmiş, 1917 ilin sonunadək oradakı "Ayvaz" zavodunda mühəndis işləmişdir. Oktyabr çevrilişində (1917) iştirak etmişdir. 1918 ildən Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Soveti yanında Rusiya müsəlmanlarının işləri üzrə müvəkkil, Şimal Vilayəti Kommunaları İttifaqının milli işlər komissarlığında Petroqrad müsəlman şöbəsinin sədri olmuş, Petroqrad Fəhlə və Əsgər Deputatları Sovetinin üzvü seçilmişdir. 1919 ilin əvvəlində Xalq Cümhuriyyətinin devrilməsində iştirak etmək üçün bolşeviklər tərəfindən Azərbaycana göndərilmiş, Qarabağda, Bakıda inqilabi iş aparmışdır. Bakı limanı rəisinin baş köməkçisi işləyərkən dəniz ekspedisiya dəstəsinə daxil olan qayıqlarla bolşeviklər üçün Həştərxana gizlincə neft və neft məhsullarının yola salınmasını, sovet Rusiyasından isə Bakıya pul, döyüş sursatı, siyasi ədəbiyyat və s. çatdırılmasını təmin etmişdir. Çingiz İldırım, həm də, hərbi limanın rəis müavini təyin olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti polisinin limanda və dənizdə görəcəyi tədbirləri əvvəlcədən bilir və bolşevikləri məlumatlandırırdı. Xəzər hərbi donanması gəmilərinin Həştərxana və Krasnovodska aparılması planının hazırlanmasında başlıca rol oynayırdı. 1920 ilin yanvarından Rusiya Kommunist (bolşeviklər) Partiyasının - RK(b) P-nin üzvü olan Çingiz İldırım Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı silahlı üsyanın hazırlanmasında mühüm rol oynamış, onun təklifi ilə orduda və donanmada gizli bolşevik təbliğat şöbələri yaradılmışdı. RK(b) P Qafqaz Ölkə Komitəsinin qərarına əsasən, donanmanın Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı əməliyyatına komandanlıq etmək Çingiz İldırıma tapşırılmışdı.

1920 il aprelin 27-də Çingiz İldırım Bakı yunkerlər məktəbini, polis idarəsini, Bayılda hərbi silah anbarını ələ keçirmiş, onun əmri ilə hərbi donanmanın gəmiləri toplarını Cümhuriyyət Hökumətinin və Parlamentin yerləşdiyi binalara tuşlamışdı. Çingiz İldırım "Qırmızı hərbi donanma" adından Azərbaycan Hökumətinə və Parlamentinə hakimiyyətin dərhal "Şura hökumətinə" verilməsini tələb edən ultimatum vermişdi. Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra Azərbaycan SSR-in ilk hərbi-dəniz işləri komissarı təyin olunmuş, Sovet hakimiyyətinin qurulmasında xidmətlərinə görə RSFSR-in Qırmızı Döyüş Bayrağı ordeni ilə təltif edilmişdi (1920, 5 may). Bolşeviklər məqsədlərinə nail olduqdan az sonra, Azərbaycan SSR ordusunu müstəqilləşdirməyə təşəbbüs göstərdiyinə görə Çingiz İldırımı hərbi işlərdən uzaqlaşdırdılar. Bundan sonra Çingiz İldırım bir çox döylət və təsərrüfat vəzifələrində çahşmış, 1929-37 illərdə Maqnitoqorsk və Krivoy-Roq metallurgiya kombinatlarının tikintisinə rəhbərlik etmişdir. Repressiyaya məruz qalmışdır.

*Əd.:* K a t i b l i M., Çingiz İldırım, B., 1964; Миндлин Э.М.Начало Магнитогорска, М.-Л., 1931; Полонский Л.,Комиссар Ильдрым, М., 1969; По светлому пути Октября. Статьи, речи и воспоминания Б., 1977.

**İLHAQÇILAR** - 1918 ilin yayında türk hərbi hissələrinin erməni-daşnak quldurları tərəfindən soyqırımına məruz qalan Azərbaycan köməyinə gəlməsi ilə bağlı olaraq, ölkə daxilində Osmanlı dövlətinin tərkibinə qatılmağı təbliğ edən qüvvələr. 19 əsrin sonu - 20 əsrin əvvəllərində Rusiyanın müsəlman xalqlarının istiqlal mübarizəsində onların birliyini nəzərdə tutan "İttihadi-islam" (islam birliyi) ideologiyası geniş yayılmışdı. Hərəkatın təşkilatlanması dövründə onun daxilində dərin siyasi qütbləşmə baş verdi. "İttihadi-islam" hərəkatını bütün müsəlman xalqlarının vahid bir dövlət halında birləşməsi kimi fərz edən mühafizəkar qüvvələr azlıqda qaldılar. Lakin ermənilərin 1917-18 illərdə Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımları bu qüvvələrin yenidən fəallaşmasına əlverişli imkan yaratdı. Ölkədə baş alıb gedən anarxiya və xaosa, milli qırğına və təsərrüfatın dağılmasına qarşı mübarizədə milli hakimiyyətin zəifliyini görən Azərbaycan əhalisi içərisində Osmanlı dövlətinə ilhaq olunmaq ideyasının geniş yayılması təbii hal idi. Belə bir şəraitdə ilhaqçıların uğur qazanacaqları şübhə doğurmurdu. Odur ki, bir sıra nüfuzlu xadimlər bu dövrdə Milli Şuranın və Hökumətin fəaliyyətindən narazı qaldıqları üçün, bəzən də şəxsi motivlərə görə ilhaqçılara qoşulmuşdular. Bunun nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti 1918 il iyunun ortalarında ilk ciddi siyasi böhranla qarşılaşmalı oldu. Ağır siyasi şəraitdə gedən bu ixtilaflar sonda istiqlalçıların (Azərbaycanın müstəqilliyinə tərəfdar olan qüvvələrin) qələbəsi ilə nəticələndi (bax, həmçinin *"İyun böhranı")*.

**İNGİLİSLƏR BAKIDA (1918-19)** - Birinci dünya müharibəsi (1914-18) illərində Böyük Britaniya silahlı qüvvələ

downloaded from KitabYurdu.az

rinin Bakı əməliyyatı. Antanta blokunda İngiltərənin müttəfiqi olan Rusiyada oktyabr çevrilişi (1917) və onun Birinci dünya müharibəsindən çıxması İngiltərənin hərbi əməliyyat planlarında dəyişiklik əmələ gətirdi. İngiltərə rus qoşunlarının tərk etdiyi yerlərdə, xüsusilə neft Bakısında möhkəmlənmək qərarına gəldi. 1917 il dekabnn 24-də Mesopotamiyadakı ingilis hərbi qüvvələri Bağdad-Bakı-Buxara istiqamətində hərəkətə başladı. İngilis hərbi qüvvələrinin komandanı *L.Denstervill* 1918 il fevralın 18-də Ənzəliyə çatdı, lakin burada hakimiyyət hələ rusların əlində olduğu üçün fevralın 25-də Həmədana döndü, müəyyən hərbi hazırlıq tədbirlərindən sonra Cənubi Azərbaycamn bir sıra bölgələrini işğal etdi. İngiltərənin Bakını ələ keçirmək planının baş tutmasında eser-menşeviklərin və daşnakların burada yaratdıqları *"Sentrokaspi diktaturası"* həlledici rol oynadı. Daşnakların təhriki ilə "Sentrokaspi diktaturası" ingilisləri Bakıya dəvət etdi. 1918 il avqustun 4-də 300 nəfərlik ingilis hərbi hissəsi Bakıya daxil oldu. Denstervillin özü isə qalan hərbi qüvvələrlə avqustun 17-də gəldi. Beləliklə, ingilis müdaxiləçiləri Azərbaycan xalqımn köməyinə gələn Qafqaz İslam Ordusunu qabaqladı. Denstervill Bakıda möhkəmlənmək və Qafqaz İslam Ordusunun onu azad etməsinə yol verməmək üçün bəzi hərbi-müdafiə tədbirləri gördü. Lakin bütün bunlara baxmayaraq, ingilislər Qafqaz İslam Ordusu və Azərbaycan Xalq Cümhuriyyəti hərbi qüvvələrinin qarşısında duruş gətirə bilmədilər, sentyabrın 15-də Bakı ingilis müdaxiləçilərindən azad edildi. İngilislər Bakını tərk edərək, Ənzəliyə qayıtdılar. Beləliklə, ingilislərin Bakıya birinci hərbi müdaxiləsi (1918, 4 avqust-15 sentyabr) başa çatdı (bax *Böyük Britaniyanın hərbi ekspedisiyası).* Azərbaycan Xalq Cümhuriyyəti paytaxtını Gəncədən Bakıya köçürdü.

Osmanlı imperiyasının Birinci dünya müharibəsində məğlubiyyəti və *Mudros barışığının (1918)* imzalamasından sonra ingilislərin növbəti dəfə Bakıya hərbi müdaxiləsi üçün əlverişli şərait yarandı. Müqavilənin şərtlərinə görə Osmanlı qoşunları Azərbaycanı tərk etməli, Bakının müttəfiqlər tərəfindən tutulmasına mane olmamalı idi. Yaranmış ağır şəraitdə Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti (Əhməd bəy *Ağayev,* Musa bəy *Rəfiyev* və Nəsib bəy *Yusifbəyli)* noyabrın 14-də Ənzəliyə gedərək ingilis hərbi qüvvələrinin komandanı *U.Tomsonla* görüşdü. Tomson Azərbaycan hökumətini tanımaqdan imtina etdi və nümayəndələrə cavab verərək dedi: "Madam ki, siz bunun əksini iddia edirsiniz, o zaman gəlib yerində təhqiq edib nəticə çıxararıq". Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin başçısı Fətəli xan Xoyski noyabrın 15-də Tomsona teleqramında müttəfiqlərin Bakıya gəlməsinə Azərbaycan hökumətinin etiraz etmədiyini bildirməyə məcbur oldu. Tomson Bakıya müdaxilə ərəfəsində bəyanat verdi: 1) noyabrın 17-si səhər saat 10-dək Azərbaycan və türk orduları Bakını tərk etməlidir; 2) Bakı oradakı neft mədənləri ilə birlikdə işğal olunmalı, ölkənin digər bölgələri Azərbaycan hökumətinin və onun ordusunun nəzarəti altında qalmalıdır; 3) Azərbaycan Xalq Cümhuriyyəti rəsmən tanınmır, lakin İngiltərə, Fransa və Amerika nümayəndələri onunla de-fakto münasibətlər qururlar; 4) bütün müəssisə və idarələr aşağıdakı istisnalarla fəaliyyət göstərəcəklər: a) general Tomson Bakının general-qubernatoru olacaq; b) şəhər polisinə ingilis başçılıq edəcək və s. Noyabrın 17-də Tomsonun başçılığı ilə ingilis hərbi hissələri Bakıya daxil oldu. Şəhər növbəti dəfə ingilis müdaxiləçilərinin əlinə keçdi. Bakıda Böyük Britaniya general-qubernatorluğu yaradıldı. Bakı nefti ingilislərin əlinə keçdi. İngilis komandanlığı dekabrın sonunda Azərbaycan hökumətini tanımadığımı bildirdi, Bakıya qoyulan məhdudiyyətlərin aradan qaldırılmasına başlandı. 1919 ilin aprelində ingilis general-qubernatorluğu ləğv olundu, avqustda isə ingilis hərbi hissələri Bakını tərk etdi (bax, həmçinin *Bakı ingilis general qubernatorluğu, İngilis dəniz nəqliyyatı şirkəti, İngiltərə neft idarəsi).*

*Əd.:* Qasımov M., Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, B., 2001; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Генерал-майор Дентервиль. Британски империализм в Баку и Персии. 1917-1918 (воспоминания), Тифлис, 1925.

**"İNGİLTƏRƏ DƏNİZ NƏQLİYYATI İDARƏSİ",** "Böyük Britaniya Dəniz Nəqliyyatı İdarəsi" - İngiltərə işğalçı rejiminin Xəzər donanmasının ticarət gəmilərinə nəzarət üçün Bakıda yaratdığı şirkət. *Mudros barışığının (1918)* şərtlərinə əsasən, Azərbaycan ərazisi ingilis qoşunlarının işğal zonasına daxil edilmişdi. Bununla əlaqədar, özünü Bakının hərbi qubernatoru elan etmiş general U.Tomsonun başçılığı ilə təxminən min nəfərdən ibarət ingilis qoşunu 1918 il noyabrın 17-də şəhərə daxil oldu. İngilis komandanlığı Bakıda hərbi vəziyyət elan etməklə, şəhərdə və Bakı quberniyasında inzibati hakimiyyəti ələ keçirdi, bütun məhkəmə və icra orqanları general Tomsonun ixtiyarına verildi. Bundan sonra ingilislər şəhərin iqtisadi həyatına təsirlərini gücləndirməyə başladılar. Noyabrın 29-dan Xəzər Donanmasının bütün ticarət gəmiləri ingilis komandanlığının sərəncamına keçdi. İngilisiər bolşeviklərə qarşı "vahid və bölünməz Rusiya"nın bərpasında Denikin ordusuna kömək məqsədilə bütün Xəzər dənizinə nəzarət etməyə başladılar. Nəqliyyat vasitələrini nəzarət altına alan ingilis komandanlığı noyabrın 22-də Britaniya dəniz nəqliyyatı idarəsinin yaradıldığını elan etdi. Şirkətə başçılıq edən mayor Braunun sərəncamlarından birində bildirilirdi ki, "Xəzər dənizinin limanları: Petrovsk, Bakı və Krasno-vədsk ingilislərin idarəçiliyi altında qalır". Bütün ticarət gəmiləri sahiblərinə verilsə də, onların üzərində ingilislərin nəzarəti qoyuldu. Ümumi və nəzarət şöbələri istisna olmaqla, dəniz nəqliyyatı idarəçiliyinin bütün şöbələri tədricən ləğv edildi. Beləliklə, ingilislər Xəzər dənizinə tam nəzarət etməyə başladılar. Britaniya dəniz nəqliyyatı idarəsinin sərəncamı ilə Xəzər dənizinin bütün ticarət gəmiləri heyətləri ilə birlikdə, müvəqqəti olaraq, hərbi komendantlığın sərəncamına keçirildilər. Bununla da, neft məhsullarının ixracı üzərində nəzarət Britaniya komandanlığının əlində cəmləndi.

downloaded from KitabYurdu.az

İdarənin ilk sərəncamlarından biri Britaniya qərargahının icazəsi olmadan neftin dəniz vasitəsilə ixracının qadağan edilməsi idi. Qərargahın sərəncamına keçən gəmilər təkcə yük və sərnişin daşınması üçün deyil, xalis hərbi məqsədlər üçün də istifadə olunurdu. Xəzər ticarət donan-ması gəmilərinin hərəkət marşrutlarını ingilislər müəyyən-ləşdirirdi. Onlar Fransaya və İtaliyaya duru yanacaq ixracına hər vasitə ilə mane olur, Bakı nefti üzərində öz inhisarçı mövqeyini saxlamağa ciddi səy göstərirdilər (bax, həmçinin *İngiltərə neft idarəsi)*.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Азербаиджанская Республика. Дакументы и материалы (1918-1920 гг.), Б., Юсифзаде С. З., Первая Азербаиджанская Республикиф: история, событпя, факты англоазербаиджаннских отно шени Б., 1998.

**İNGİLTƏRƏ-İRAN MÜQAVİLƏSİ (1919)** - 1919 il avqustun 9-da İngiltərə və İran arasında Tehranda imzalanmış müqavilə. Birinci dünya müharibəsi zamanı İran hərbi əməliyyat meydanlarından birinə çevrildi. Ölkənin şimalını Rusiya, cənubunu İngiltərə, qərbini isə türk-alman qoşunları tutdu. Rusiyada Fevral inqilabı (1917) İranın daxili və beynəlxalq vəziyyətinə ciddi təsir göstərdi; Gilanda imperialistlərə qarşı cəngəlilər hərəkatı genişləndi. Oktyabr çevrilişinin (1917) təsiri ilə İranda xalq hərəkatının yeni yüksəlişi baş verdi. 1918 ildə Rəşt və Ənzəlidə yerli şuralar yarandı. Şuralar mürtəce şah hakimiyyətinə və müstəmləkəçilərə qarşı mübarizə aparan cəngəlilərlə əməkdaşlıq edirdilər. Onlar "İran iranlılar üçündür!", "Rədd olsun əcnəbilər!" və s. şüarlar irəli sürürdülər. Cəngəlilər Rəştdəki ingilis konsulu Maklarbini, ingilis şahənşah bankının şöbə müdiri Oksotu və ingilis kəşfiyyatçı dəstəsinin kapitanı Noeli tutdular. İranlı fəhlələr Bakıda "Ədalət" partiyasını yaratdılar. Partiyanın təsiri İrana da yayıldı.

İngilislər rus ordusunun İrandan çıxmasının onların işğalçılıq planlarının həyata keçirilməsinə əlverişi şərait yaradacağını güman edirdilər. Onlar İranın şimalında, xüsusilə Cənubi Azərbaycanda başlanmış istiqial hərəkatını boğmağa və ölkənin digər bölgələrinə, həmçinin Hindistana yayılmasının qarşısını almağa çalışırdılar. İngilislər özlərinin işğalçılıq planlarını, alman və türk ordularının guya İran, Əfqanısıan və Hindistan üçün törətdikləri təhlükənin qarşısını almaq pərdəsi altında həyata keçirirdilər.

1918 ilin əvvəlində Ənzəlini, Rəşti, Bakı və Tiflisi tutmaq üçün İranın şimalına general Denstervillin ekspedisiya qrupu, ölkənin şimal-şərqinə isə Zakaspi vilayətini ələ keçirmək tapşırığı ilə general Mallensonun başçılığı ilə ingilis ordusu göndərildi.

İran əhalisi ingilis ordusunun Şimali İrana müdaxiləsini narazılıqla qarşıladı. "Neytral İrandan əl çəkin!" şüarı ilə ingilis işğalçılarına qarşı istiqlal hərəkatı başladı. İngilisləri yalnız ölkənin irticaçı feodal dairələri, Biçeraxovun rus ağqvardiyaçı dəstələri müdafiə edirdi.

1918 ilin ortalarında ingilislər bütün İrana nəzarəti ələ keçirdilər. Avqustun əvvəllərində Tehranda Vüsuqüd Dövlənin başçılığı ilə ingilispərəst hökumət təşkil olundu. İngilis generalı Ayronsaydın tələbi ilə kazak briqadasında ağqvardiyaçı rus zabitləri ingilislərlə əvəz edildi. 1919 ildə irticaçı İran hökuməti ərazi iddiaları ilə Paris Sülh Konfransına memorandum təqdim etdi. Memorandumda iddia olunurdu ki, öz müstəqilliyini elan edən Azərbaycan dövləti, əslində, heç vaxt olmamış, bu torpaqlar isə tarixən İran dövlətinə məxsusdur. Yalnız 1813 il Gülüstan və 1828 il Türkmənçay müqavilələrinə əsasən, Rusiya dövləti bu torpaqları İrandan qoparmışdır. Bu tələb o qədər təəccüb doğurmuşdu ki, konfrans, hətta ona baxmaqdan imtina etmişdi.

Vüsuqüd Dövlət hökuməti İran üçün son dərəcə ağır şərtlərlə İngiltərə ilə müqavilə imzalamağa hazırlaşırdı. Danışıqlar 1918 ilin payızında başladı, lakin çox ləng getdi. İngilislər İran dövlət nümayəndələrinin ələ alınmasına külli miqdarda pul xərcləmişdilər. Vüsuqüddövlə və hökumətin digər üzvləri 130 min funt sterlinq almışdılar.

İngiltərə-İran müqaviləsi məclisin razılığı olmadan, 1919 il avqustun 9-da Tehranda imzalandı. Müqaviləyə görə, İngiltərə İranın vəsaiti hesabına bütün dövlət idarələrinə geniş hüquqları olan məşvərətçilər göndərirdi. İran ordusunun yenidən qurulması üçün ingilis və İran zabitlərindən ibarət komissiya yaratmaq nəzərdə tutulurdu. Bu məqsədlə İngiltərədən zabitlər, təlimatçılar, silah-sursat gətirilməli idi. Göstərilən tədbirlər ingilis məmurunun nəzarəti ilə İngiltərənin İrana verəcəyi 2 milyon funt sterlinq vəsait hesabına maliyyələşdiriləcəkdi. Beləliklə, 1919 il müqaviləsi İranı İngiltərədən asılı vəziyyətə salırdı.

İran üçün son dərəcə ağır olan müqavilənin imzalanması ölkə əhalisinin etirazları ilə qarşılandı. İngilislər müqavilənin İran Məclisi tərəfindən təsdiq olunmasını gözləmədən onun şərtlərini həyata keçirməyə başladılar. Ermitac Smitin başçılığı ilə İrana ingilis maliyyə missiyası, hərbi təlimatçılar göndərildi. Müqavilənin gömrük tarifinə dair maddəsinə əsasən, İran 1920 ildə ingilis malları üçün aşağı idxal tarifləri nəzərdə tutan gömrük konvensiyası imzalamağa məcbur oldu. İngilislər İranın şimal neftinə nəzarəti ələ keçirmək istəyən “Şərq bankı”nı və "Şimal nefti" şirkətini yaratdılar. Dəmir yollarının çəkilməsi üçün müxtəlif sindikatların yaradılması layihələri hazırlanırdı. İngilislərin İran bazarında qeyri-məhdud hökmranlığı yaranmış, onlar mühüm dövlət vəzifələri tutmuşdular. İranın müstəqilliyi artıq formal səciyyəyə malik idi. Belə bir şəraitdə ölkənin müxtəlif yerlərində müqavilə əleyhinə narazılıqlar geniş vüsət aldı. 1920 il aprelin 7-də Təbrizdə Şeyx Məhəmməd *Xiyabaninin* başçılığı ilə başlanmış silahlı üsyan İranın digər yerlərində də əks-səda verdi. Həmin ilin mayında "cəngəlilər" adlanan partizanlar Rəşti, Gilanı və Mazandaranın bir hissəsini tutdular. Gilanda Kiçik xan başda olmaqla müvəqqəti inqilabi hökumət təşkil olundu. İyunun 5-də (1920) Gilan Respublikası elan olundu.

Cənubi Azərbaycanda Ş.M.Xiyabaninin rəhbərlik etdiyi milli azadlıq hərəkatı, eləcə də bütün İranı bürümüş demokratik hərəkat nəticəsində 1920 il iyunun 25-də Vü-

downloaded from KitabYurdu.az

suq-üd Dövlənin istefası İngiltərənin İrandakı rəsmi nümayəndəliyini və İran hökumətini təşvişə saldı və onlar hərəkata qarşı birləşdilər, azadlıq hərəkatı qan içində boğuldu. Müşirüddövlənin başçılığı ilə təşkil olunmuş yeni kabinet xalqın qəzəbindən qorxaraq 1921 ilin fevralında müqavilənin ləğv olunduğunu elan etdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynətxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h. l [Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917-aprel 1920-ci illər)] B., 2003; Иванов М.СОчерк истортт Ирана, М., 1952; История Ирана М., 1977.

**İNGİLTƏRƏ-İTALİYA SAZİŞİ** - Cənubi Qafqazda ingilis ordusu mövqelərinin İtaliya ordusuna verilməsi haqqında saziş (1919, mart). İtalyanların Qafqaza cəlb edilməsi ideyası ilk dəfə 1919 ilin martında ingilislər tərəfindən irəli sürülmüşdü. B.Britaniya hökuməti bəyan etmişdi ki, ingilislərin Qafqazdakı missiyası müvəqqəti xarakter daşıyır; onlar Qafqaz problemlərinin Paris Sülh Konfransı tərəfindən həllinədək regionda asayişi qoruyub saxlamaq üçün gəlmişlər; ingilislər üçün aydın idi ki, Qafqazın (o cümlədən Azərbaycanın) ingilis imperiyasına qatılması mümkünsüzdür; imperiyanın hüdudlarının genişləndirilməsinə deyil, yeni işğal olunan ərazilərin əldə saxlanmasına üstünlük verilməlidir; Qafqaz xalqlarının münasibətlərindəki gərginlik onların idarəçiliyini çətinləşdirər; ABŞ ilə Fransanın regiona buraxılmalarına və orada möhkəmlənmələrinə şərait yaradılması arzuolunmaz və yolverilməzdir. Buna görə də ingilis qoşunları İtaliya hərbi hissələri ilə əvəzlənməlidirlər. Yalnız bu cür əvəzlənmə İngiltərənin maraqları və Yaxın Şərqdəki qüvvələr tarazlığı baxımından ingilislər üçün sərfəlidir.

İtaliyanın Qafqazda ingilisləri əvəz etməsi Yaxm Şərqdəki mövcud qüvvələr nisbətini pozmurdu. Digər tərəfdən, bununla İtaliyanın Paris Sülh Konfransından narazılığı da bir qədər aradan qaldırılırdı. İlk dövrlərdə Qafqaz barəsində ingilislərlə italyanlar arasında gizli aparılan danışıqlar İtaliya hökumətinin Qafqazla bağlı həm siyasi, həm də iqtisadi marağının olduğunu üzə çıxardı. Digər Avropa rəhbərləri kimi, İtaliyanın baş naziri Orlando da ermənipərəst siyasi xadim idi. Hətta o, dünya müharibəsi başa çatdıqda, Ermənistanın müstəqilliyini müdafiə edərək bildirmişdi: "Ermənilərə deyin ki, mən onların işini öz işim hesab edirəm".

İngiltərə-İtaliya danışıqları 1919 il martın 24-də Baş qərargahlar səviyyəsində ilkin sazişin imzalanması ilə nəticələndi. Gizli sazişin şərtlərinə görə, Cənubi Qafqazdakı ingilis ordusunun mövqeləri İtaliya ordusuna verilməli, italyanlar Batum limanı vasitəsilə Qafqaza qoşun çıxarmalı idi. Ermənilərin "Aralıq dənizinə çıxmaq" iddiaları, həmin dənizi "İtaliya gölünə" çevirmək istəyən İtaliya hökumətinin regionda mövqelərinin möhkəmlənməsinə xidmət etməli idi.

Lakin ilk dövrlərdə ingilis siyasi dairələri bu məsələdə yekdil deyildilər. Qafqazın bilicisi hesab edilən lord Corc Kerzon B.Britaniyanın xarici işlər naziri A.C.Balfura 25 mart tarixli məktubunda göstərirdi ki, Cənubi Qafqaz İtaliyanın "milli mənafeyinə" uyğun deyildir, onlar Qafqazda bolşevizmə qarşı dura bilməyəcəklər. O yazırdı ki, italyanların Qafqaz xalqları arasında heç bir nüfuzu yoxdur, biz oranı tərk etdikdən sonra hadisələrlə təklikdə üz-üzə dayandıqda onlar vəziyyətdən çıxa bilməyəcəklər. Lakin lord Kerzonun təklifı nəzərə alınmadı, aprelin 9-da İngiltərənin hərbi şurası martın 24-də imzalanmış İngiltərə-İtaliya sazişini bəyəndi. Mayın 10-da isə Britaniya komandanlığı ingilis hərbi şurasının Cənubi Qafqazdan çıxmaq qərarı barədə Azərbaycan və gürcü hökumətlərinə məlumat verdi.

İngilislərin Qafqaza (o cümlədən Azərbaycana) dair mövqeyindəki dəyişikliklər və çağdaş şəraitin sərt tələbi (Şimal təhlükəsinə qarşı möhkəm arxa tapılması) ***"bizi yeni istiqamət götürməyə, italyanlara doğru addımlamağa məcbur edirdi"*** (Ə.Topçubaşov)

Azərbaycan nümayəndə heyətinin başçısı bunu həm də Azərbaycanla bağlı birtərəfli siyasətin yürüdülməsi və onun çox çətin anlaşılan şəkildə meydana çıxması ilə əlaqələndirirdi.

Azərbaycan və Gürcüstan hökumətləri ingilislərin bu respublikaların ərazisindən çıxmasına və onların italyanlarla əvəz edilməsinə ilk dövrlərdə etiraz edirdilər. Lakin mayın 10-da artıq İtaliyanın bir hərbi korpusu Batuma daxil olmuşdu. 16-da Savoyalı şahzadənin rəhbərlik etdiyi fövqəladə İtaliya missiyası, ondan az sonra isə mayın 22-də polkovnik Melxior Qabbanın başçılığı ilə hərbi ekspertlər qrupu Bakıya gəldi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C., Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h.l [Azərbaycan beynəlxalq münasibətlər sistemində (mart 1917-aprel 1920-ci illər)], B., 2003.

**İNGİLTƏRƏ NEFT İDARƏSİ**, Britaniya Neft İdarəsi Bakı neft sənayesini nəzarətdə saxlamaq məqsədilə ingilis işğal rejimi tərəfindən yaradılmış qurum. *Mudros barışığının (1918)* şərtlərinə əsasən, Azərbaycan ingilislərin işğal zonasına daxil edilmiş və 1918 il noyabrın 17-də general Tomsonun başçılığı ilə ingilis qoşunları Bakını zəbt etmişdi; bütün inzibati hakimiyyəti ələ keçirən ingilis komandanlığı Bakının iqtisadi həyatına da nəzarəti gücləndirdi.

İngilislər Azərbaycanın, həmçinin bütün Cənubi Qafqaz iqtisadiyyatının ən mühüm sahələrini: neft sənayesini, bankları, nəqliyyatı, Bakı-Batum neft kəmərini nəzarət altına aldılar. Neft uğrunda mübarizə Yaxın Şərqdə ingilislərin siyasətinə böyük təsir göstərirdi. Bakı, İran və İraqdakı neft mənbələrinə yiyələnmək üçün 1918-19 illərdə İngiltərədən ötrü əlverişli şərait yarandı. İngilis komandanlığı Bakını ələ keçirdikdən az sonra "Britaniya neft idarəsi"ni təşkil etdi. Mayor Rulun rəhbərlik etdiyi idarə bu sahədə bütün işləri, xüsusən də neft məhsullarının ixracını nizamlayırdı.

1919 ilin avqustuna qədər ingilislər Bakıdan 113,5 milyon manatlıq, 30 milyon puda qədər neft aparmışdılar.

downloaded from KitabYurdu.az

İngilislərin sərəncamı ilə Bakıdan daşınan bütün neft məhsullarına heç bir aksiz rüsumları qoyulmur, bütün yüklər tələm-tələsik ölkədən çıxarılırdı. Bunun nəticəsində, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ingilislərdən 36 milyon 700 min manat məbləğində gömrük və aksiz borclarını almaq cəhdi baş tutmadı. Britaniya qərargahı Azərbaycan Hökumətinə borclarının olduğunu təsdiq etsə də, həmin məbləği ödəmədi. İngilislərin sərəncamında olan dəmir yolu ilə neft daşınması Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin verdiyi gömrük pulu ilə ödənilirdi. İngilis generalı Tomson Azərbaycan Xalq Cümhuriyyətinin dəmir yolu işçilərinə ingilis zabitlərinin yükünü və sənədlərini yoxlamağı qadağan etmişdi. İngilislər hətta, Azərbaycan Hökumətini onların əllərində olan və istədikləri kimi sərəncam verdikləri Bakı ticarət limanını da maliyyələşdirməyə məcbur etmişdilər.

Azərbaycan Hökuməti ilə İngiltərə arasında 1919 il 23 may tarixli "razılaşmaya" görə, Azərbaycandan İngiltərəyə apanlan mallar üçün heç bir rüsum və icazə tələb olunmamalı idi. Bu "razılaşmaya" əsasən, Azərbaycandan İngiltərəyə Batum vasitəsilə 450 000 pud mazut, 150 min pud ağ neft, 75 000 pud benzin aparılmasına icazə verilmişdi. 1919 il iyunun 30-da Bakıdan Batum vasitəsilə İngiltərəyə 10 vaqon benzin, 2 vaqon isə müxtəlif mallar göndərilmişdi.

İngilis qoşunlarının getməsindən (1919, avqust) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ölkənin maliyyə vəziyyətini yaxşılaşdırmaq, sənayeni ağır vəziyyətdən çıxarmaq üçün neft məhsullarının ixracı planını işləyib hazırlamışdı. Artıq Qafqazda az sayda ingilis qoşunu qaldığından, onlar tərəfdən neft tələbi ilə bağlı müraciət olmayacağına ümid edilirdi. Lakin 1919 ilin oktyabrında general Brefın tələbi Hökumət üçün gözlənilməz oldu. General ingilis komandanlığı üçün gündəlik 30 sistern neft məhsulları, bundan əlavə neft borusu ilə 750 min pud neft vurulmasını tələb edirdi. İqtisadiyyatı böhran vəziyyətində olan dövlət üçün bu tələb çıxılmaz vəziyyət yaratmışdı. Maksimum səylə hər gün 40-45 sistern neft göndərilməsi mümkün olduğu halda, onun 30 sisternini ingilis komandanlığına verməklə ən vacib ehtiyacları belə ödəmək mümkün deyildi. Bununla belə, Hökumətin gündəlik 15 sisternə razılıq verməsi ingilis komandanlığına qane etməmiş, boru ilə neft vurulmasına maneçilik törədilmişdi. Azərbaycan Hökuməti ingilis komandanlığının Bakı neftinə sərəncam verməsindən narazılığını bildirərək, 1919 il noyabrın 15-də "təcili" göndərilən məktubunda göstərirdi: ***"Müttəfiq qoşunlarının Azərbaycanda və Gürcüstanda olduğu müddətdə ingilis komandanlığının tələbi ilə neft borusu demək olar ki, yalnız komandanlığın ehtiyacı üçün işləmişdir... [Neftin] çox az bir hissəsi Hökumətin ehtiyaclarına, o cümlədən neft sənayesinin ehtiyacına sərf edilmişdir".*** Xarici işlər naziri Məmməd Yusif Cəfərov Cənubi Qafqazdakı Britaniya ali komissarına məktubunda Azərbaycan və Gürcüstan respublikalarının ingilis komandanlığının müxtəlif rütbəli nümayəndələri tərəfından məruz qaldığı ziyanın gündəlik göstəricisinin bir neçə milyon rubl təşkil etdiyini nəzərə çatdırmış, nəticədə, ölkə sənayesi və maliyyəsinin məhvə məhkumluğunu bildirmişdi. Tərəflər arasında aparılan danışıqlar nəticəsində, 1920 il yanvarın 26-da ticarət, sənaye və ərzaq naziri Xudadat bəy Məlik-Aslanovla Britaniya neft idarəsinin Batumdakı nümayəndəsi mayor İ.A.Rul arasında neftin satışı üzrə saziş imzalanmışdı. Sazişə görə Azərbaycan tərəfı hər gün Batuma 15 vaqon mazut göndərməli idi.

Britaniya neft idarəsinin qərarına əsasən, 1920 il aprelin 12-dən bütün neft məhsullarından yalnız mazutun dəmir yol vasitəsilə Batuma daşınmasına icazə verilirdi. Bakıdan göndərilən mazut üçün fakturalarda Britaniya neft idarəsinin Bakıdakı nümayəndəsi kapitan Kukun imzası olmalı idi.

İngilislər Bakının neft sənayesində öz inhisarçı mövqeyini son imkana qədər saxlamağa səy etmiş, digər Antanta dövlətlərinə neft məhsulu aparılmasına mane olmuşdular. Britaniya neft idarəsi vəsait qoymadığı, maliyyələşdirmədiyi Azərbaycan neft sənayesini tamamilə özündən asılı vəziyyətə salmışdı ki, nəticədə, yalnız neft sənayesi deyil, respublikanın bütün maliyyə sistemi də ağır vəziyyətə düşmüşdü.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Азербаиджанская Республика. Дакументы и материалы (1918-1920 гг.), Б., 1998; Юсифзаде С.З., Первая Азербаиджанская Республика: история, события, факты англо-азербаиджанских отношений, Б., 1998.

**İNQİLAB KOMİTƏLƏRİ** -Rusiyada Oktyabr çevrilişi (1917) və Vətəndaş müharibəsi (1918-20) dövründə inqilabi hakimiyyət orqanı. Oktyabr çevrilişindən sonra Azərbaycanı sovetləşdirmək məqsədilə Bakı, Lənkəran, Cavad, Şamaxı və Quba qəzalarında hərbi-inqilab komitələri yaradılmışdı (1918, aprel). Lakin Bakı azad edildikdən (1918, 15 sentyabr) və Azərbaycan Xalq Cümhuriyyəti özünün hakimiyyətini ölkənin bütün ərazisində bərqərar etdikdən sonra Bakı quberniyasında da inqilab komitələrinin fəaliyyətinə son qoyuldu. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, inqilab komitələri yenidən Sovet hakimiyyəti orqanları kimi fəaliyyətə başladılar. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin 1920 il 3 may tarixli qərarı ilə Bakıda, habelə respublikanın kənd, nahiyə və qəzalarında inqilab komitələri yaradıldı. İnqilab komitələri 1921 ilin noyabrınadək mövcud olmuşdur.

**İNQİLABI MÜDAFİƏ KOMİTƏSİ** - bax *Bakı şəhəri və onun rayonlarının inqilabı müdafiə komitəsi.*

**İNTENDANT İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun ərzaq və ləvazimatla təminatına cavabdeh olan idarə orqanı. 1918 il noyabrın 15-də yaradılmışdı. Bax *Hərbi ləvazimat (intendant) idarəsi.*

**İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ**, Azərbaycan Xalq Cümhuriyyətinin inzibati-ərazi bölgüsü-

Azərbaycan Xalq Cümhuriyyətinin inzibati-ərazi bölgüsü sistemi. Azərbaycanda müxtəlif tarixi inkişaf dövrlərində müxtəlif inzibati-ərazi bölgüsü mövcud olmuşdur. Rusiya işğalı ərəfəsində Azərbaycan xanlıqlara bölünmüşdü. Xanlıqlar

downloaded from KitabYurdu.az

mahallara bölünürdü. Xanlıqlar dövründə Azərbaycanın etnık və siyasi sərhədləri bir-birinə uyğun gəlirdi, daha doğrusu, Azərbaycanın tarixi siyasi-dövlət sərhədlərini əhatə edirdi. Azərbaycan torpaqları Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri əsasındaRusiya imperiyası və İran ara-sında bölüşdürüldükdən sonra Şimali (Rusiya) və Cənubi (İran) Azərbaycanın inzibati-ərazi bölgüsündə ciddi dəyişikliklər edildi. Ölkənin ənənəvi inzibati-ərazi bölgüsü müstəmləkə siyasətini reallaşdırmaq məqsədilə dəyişdirilmeyə başlandı. Çar hökuməti Şimali Azərbaycan torpaqlarının inzibati-ərazi bölgüsündə (xüsusilə 1840, 1846, 1867, 1873 illərdə) xeyli dəyişikliklər etdi. Qafqaz təqviminin (1917) məlumatına görə, Azərbaycan Xalq Cümhuriyyətinin və digər müstəqil dövlətlərin yaranması ərəfəsində Cənubi Qafqazda aşağıdakı inzibati-ərazi bölgüsü mövcud idi (cədvəl 1). Cədvəldən göründüyü kimi, Cənubi Qafqaz inzibati-ərazi bölgüsünə görə quberniya, vilayət və dairələrə bölünmüşdü. Cənubi Qafqazın ərazisi (Qara dəniz quberniyası daxil edilmədən) 208827,87 *kv.verst* idi. Bu, bütün Qafqaz ərazisinin 57,7%-ni təşkil edirdi.

Ünvan-təqvimin (1920) məlumatına görə, Azərbaycan Xalq Cümhuriyyəti ərazisini (mübahisəsiz və mübahisə-lilərlə birlikdə) 9990887 *kv.verst* (113895,97 *kv.km)* elan etmişdi (bax *Azərbaycan Xalq Cümhuriyyəti* məqaləsinin "Ərazi" bölməsinə). Bu, Qafqaz təqviminə (1917) görə, Cənubi Qafqaz ərazisinin 47,84%-nə bərabər idi. Mübahisəsiz ərazi üzrə bu rəqəm 40,87% idi. Azərbaycan Xalq Cümhuriyyəti ərazi sərhədlərinin müəyyənləşdirilməsinə həyati əhəmiyyət verməklə bərabər, onun inzibati-ərazi quruluşuna da xüsusi diqqət yetirirdi. Dövrün gərgin və

Cədvəl 1

**Qafqaz təqviminin (1917) məlumatına görə, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Cənubi Qafqazın inzibati–ərazi bölgüsü**

| İnzibati-ərazi bölgüsü | Sahəsi (*kv.verst*) | İnzibati-ərazi bölgüsü | Sahəsi |
|---|---|---|---|
| **I. Bakı quberniyası** | **33345,25** | **VIII. Kutaisi quberniyası** | **18535,12** |
| 1. Bakı qəzası | 2610,22 | 1. Zuqdudi qəzası | 2346,43 |
| 2. Göyçay qəzası | 4676,58 | 2. Kutaisi qəzası | 2042,64 |
| 3. Cavad qəzası | 8396,97 | 3. Leçxun qəzası | 4281,88 |
| 4. Quba qəzası | 6308,61 | 4. Ozurget qəzası | 1899,04 |
| 5. Lənkəran qəzası | 4726,88 | 5. Raçi qəzası | 2476,58 |
| 6. Şamaxı qəzası | 6625,99 | 6. Sonak qəzası | 1869,20 |
| **II. Bakı şəhər rəisliyi** | **931,20** | 7. Şorapan qəzası | 2619,35 |
| **III. Batum vilayəti** | **6129,41** | **IX. Suxum dairəsi** | **5791,79** |
| 1. Artvin dairəsi | 2875,06 | **X. Tiflis quberniyası** | **35904,04** |
| 2. Batum dairəsi | 3254,35 | 1. Axalkalaki qəzası | 2407,00 |
| **IV. Dağıstan vilayəti** | **26105,45** | 2. Axalsıx qəzası | 2331,88 |
| 1. Avar dairəsi | 1148,27 | 3. Borçalı qəzası | 6036,96 |
| 2. Əndi dairəsi | 3152,17 | 4. Qori qəzası | 6007,56 |
| 3. Qunib dairəsi | 3422,33 | 5. Duşet qəzası | 3411,80 |
| 4. Dargin dairəsi | 1525,25 | 6. Sığnax qəzası | 5291,79 |
| 5. Qazıqumıq dairəsi | 1270,80 | 7. Telavi qəzası | 2162,91 |
| 6. Qaytaq-Tabasaran dairəsi | 2896,54 | 8. Tiflis qəzası | 4004,08 |
| 7. Kürə dairəsi | 3066,85 | 9. Tionet qəzası | 4250,06 |
| 8. Samur dairəsi | 3258,87 | **XI. Qara dəniz quberniyası** | **5865,83*** |
| 9. Temirxan-Şura dairəsi | 5464,01 | 1. Novorossiya dairəsi | 999,13 |
| **V. Yelizavetpol quberniyası** | **38922,43** | 2. Soçi dairəsi | 3304,84 |
| 1. Ərəş qəzası | 231810 | 3. Tuapse dairəsi | 1561,86 |
| 2. Cavanşir qəzası | 4654,06 | **XII. İrəvan quberniyası** | **23194,79** |
| 3. Yelizavetpol qəzası | 8726,00 | 1. Aleksandropol qəzası | 3386,70 |
| 4. Zəngəzur qəzası | 6742,92 | 2. Naxçıvan qəzası | 3939,04 |
| 5. Qazax qəzası | 5096,52 | 3. Novobayazid qəzası | 4122,76 |
| 6. Qaryagin qəzası | 3276,31 | 4. Sürməli qəzası | 3147,09 |
| 7. Nuxa qəzası | 3685,03 | 5. Şərur-Dərələyəz qəzası | 2637,50 |
| 8. Şuşa qəzası | 4423,28 | 6. İrəvan qəzası | 2724,30 |
| **VI. Zaqatala dairəsi** | **3502,24** | 7. Eçmiədzin qəzası | 3237,40 |
| **VII. Qars vilayəti** | **16466,15** | | |
| 1. Ərdahan dairəsi | 4917,90 | | |
| 2. Kağızman dairəsi | 3843,17 | **YEKUN** | **214693,7** |
| 3. Qars dairəsi | 5083,81 | | |
| 4. Oltin dairəsi | 2621,27 | **Qara dəniz quberniyasız** | **208827,87** |
| | | **Bütünlükdə Qafqaz** | **361633,76** |

* Digər qaynaqlarda Qara dəniz quberniyası Cənubi Qafqaza aid edilmir. Ona görə də sonrakı şərhdə Qara dəniz quberniyası istisna olunur.

downloaded from KitabYurdu.az

mürəkkəb şəraiti əsas götürülərək, mübahisəsiz ərazilərdə köhnə inzibati-ərazi bölgüsü saxlanmış, lakin mövcud tələblərdən irəli gələn bəzi zəruri dəyişikliklər edilmişdi (cədvəl 2).

Beləliklə, quberniya-qəza-dairə-məntəqə sistemi formalaşmışdı. Bakı və Gəncə quberniyaları əvvəllər də mövcud olduğu halda, Zaqatala dairəsi quberniyaya çevrilməklə onların sayı 3-ə çatdırılmışdı. İnzibati-ərazi quruluşunda 16 qəza və 1 dairə ayrılmışdı. Qəza və dairələr məntəqələrə bölünürdü.

*Əd.:* Адрес-Календарь Азербаиджанкой Ресбулики на 1920 г. , Б., 1920; Кавказский календарь на 1917, Тифлис, 1916; Карта Азербаиджанкой Ресбулики 1918-1920, B., 1994.

**İRAN-AZƏRBAYCAN KONFRANSI** - bax *Azərbaycan-İran müqavilələri*

**İRAN-AZƏRBAYCAN MÜQAVİLƏLƏRİ** - Azərbaycan Xalq Cümhuriyyəti ilə İran arasında dostluq və əməkdaşlıq haqqında sazişlər. (bax *Azərbaycan-İran müqavilələri)*

**İRANDA RUSİYA QOŞUNLARI** - Rusiyanın Birinci dünya müharibəsinədək və müharibə dövründə İranda, xüsusilə Cənubi Azərbaycanda təcavüzkar niyyətlərini həyata keçirmək və Osmanlı dövlətinə qarşı strateji üstünlüyə nail olmaq məqsədilə bu ölkənin şimal və şimal-qərb rayonlarına yeritdiyi hərbi qüvvələr. Türkiyənin müharibəyə qoşulmasından sonra bu qüvvələr daha da artırılmış, Türküstan hərbi dairəsindən ordu qruplaşmaları ölkənin şimal-

Cədvəl 2

**Azərbaycan Xalq Cümhuriyyətinin inzibati-ərazi bölgüsü (mübahisəsiz ərazi üzrə)**

| Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsində inzibati-ərazi bölgüsü | Azərbaycan Xalq Cümhuriyyətinin ərazi-inzibati bölgüsü | Sahə | | Yaşayış məskənlərinin sayı** |
|---|---|---|---|---|
| | | Mütləq* (kv. verst) | Bütün əraziyə nisbətən %-lə | |
| **Bakı quberniyası** | | | | |
| 1. Bakı qəzası | 1. Bakı qəzası (keçmiş şəhər rəisliyi ilə birlikdə) | 3541,42 | 4,15 | 90 |
| 2. Göyçay qəzası | 2. Göyçay qəzası | 4.676,58 | 5,48 | 136 |
| 3. Cavad qəzası | 3. Cavad qəzası | 8.396,97 | 9,84 | 225 |
| 4. Quba qəzası | 4. Quba qəzası | 6.308,61 | 7,39 | 362 |
| 5. Lənkəran qəzası | 5. Lənkəran qəzası | 4.726,88 | 5,54 | 357 |
| 6. Şamaxı qəzası | 6. Şamaxı qəzası | 6.625,99 | 7,76 | 185 |
| - Bakı şəhər rəisliyi | - | - | - | - |
| **Yelizavetpol quberniyası** | | | | |
| 1. Ərəş qəzası | 7. Ağdaş qəzası | 2.318,10 | 2,72 | 113 |
| 2. Cavanşir qəzası | 8. Cavanşir qəzası | 4.654,06 | 5,45 | 192 |
| 3. Yelizavetpol qəzası | 9. Gəncə qəzası | 8.726,00 | 10,22 | 265 |
| 4. Zəngəzur qəzası | 10. Zəngəzur qəzası | 6.742,92 | 7,90 | 414 |
| 5. Qazax qəzası | 11. Qazax qəzası | 5.096,52 | 5,97 | 181 |
| 6. Qaryagin qəzası | 12. Cəbrayıl qəzası | 3.276,31 | 3,84 | 159 |
| 7. Nuxa qəzası | 13. Nuxa qəzası | 3.685,03 | 4,32 | 154 |
| 8. Şuşa qəzası | 14. Şuşa qəzası | 4.423,28 | 5,18 | 216 |
| **İrəvan quberniyası** | | | | |
| 1. Naxçıvan qəzası | 15. Naxçıvan qəzası | 3.939,04 | 4,61 | 176 |
| 2. Novobayazid qəzası | | | | |
| 3. Şərur-Dərələyəz qəzası | 16. Şərur-Dərələyəz qəzası | 2.637,050 | 3,1 | 152 |
| 5. İrəvan qəzası | | | | |
| | 17. Göycə dairəsi | 2.071,45 | 2,43 | 42 |
| **Zaqatala dairəsi** | 18. Zaqatala quberniyası | 3.502,24 | 4,10 | 130 |
| | **YEKUN** | **85.348,9** | **100** | **3.549** |

* Qaynaqlar bəzi inzibati-ərazi vahidlərinin sahəsini dəqiq şəkildə müəyyən etməyə imkan vermədiyindən yuvarlaqlaşdırma tətbiq olunmuşdur.

** Yaşayış məskənlərinin sayı xəritə üzrə müəyyən edilmişdir. Əslində, onların sayı daha çox idi.

downloaded from KitabYurdu.az

şərq rayonlarına yeridilmişdi. 1915 ildə Birinci Qafqaz korpusu Şimali İrana yeridilmiş, 1917 ilin yanvarın şimal-qərbi İranda yeddinci əlahiddə Qafqaz ordu korpusu yaradılmışdı. Hər iki korpus əsasındaRusiya qoşunlarının İran qrupu formalaşdırılmışdı. Onlar Qafqaz ordusuna daxil olmayıb, bilavasitə *Qafqaz cəbhəsi* baş komandanına tabe idi. 1917 ilin iyununda Rusiyanın İrandakı qoşunlarının sayı 45-50 min nəfərə çatırdı. Yeddinci əlahiddə Qafqaz ordu korpusunun qərargahı 1917 ildə Cənubi Azərbaycanın Urmiya şəhərində yerləşirdi. Təbriz, Şərəfxan, Dilman onun yaxın arxası idi. Birinci Qafqaz süvari korpusunun qərargahı isə Ave şəhərində yerləşirdi, Tehran, Qəzvin və başqaları onun arxası idi. Rusiya qoşunlarını gücləndirmək üçün əlavə hərbi hissələr Bakı vasitəsilə gətirilirdi. Fevral inqilabından (1917) sonra İrandakı Rusiya qoşunları əsgər komitələri və qarnizon sovetləri yaratdılar. Rusiya qoşunlarında xidmət edən və azərbaycanlılara düşmən münasibət bəsləyən erməni bolşevikləri mövqelərini möhkəmləndirməyə və hərbi hissələrdən öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. İrandakı Rusiya qoşunları Müvəqqəti hökumətin iyun (1917) hücumu zamanı ingilis qoşunları ilə qarşıhqlı əlaqədə Mosul (İraq) üzərinə hücumda iştirak etdi və uğursuzluğa düçar oldu. İranda Rusiya qoşunlarımn siyasiləşməsi prosesi gücləndi. Müvəqqəti hökumətin yıxılması İranda Rusiya qoşunlarının vəziyyətini daha da ağırlaşdırdı. 1918 il yanvarın 3-də Leninin sədrliyi ilə Xalq Komissarları Sovetinin (XKS) iclasında rus qoşunlarının İran ərazisindən çıxarılması məsələsi müzakirə olundu. Lakin başda general Baratov və kazak hissəsinin komandiri L.Biçeraxov olmaqla, əsgər və zabitlərin bir hissəsi Sovet hökumətinə tabe olmaqdan imtina etdilər.

Sovet diplomatı Kolomiytsev 1919 ilin iyulunda İrana səfəri zamanı ağqvardiyaçılar tərəfindən həbs olunaraq öldürüldü.

Qafqaz ordusu Hərbi İnqilab Komitəsinin (HİK) əmri ilə birinci Qafqaz süvari korpusu üçün Şərqi İran rayonu HİK, yeddinci əlahiddə Qafqaz süvari korpusu üçün isə Urmiya HİK yaradıldı. Onlar hərbi hissələrin İrandan çıxarılmasına və Qırmızı ordu hissələrinin formalaşdırılmasına xidmət etməli idi. Rusiya hərbi hissələrinin İrandan çıxarılması 1918 ilin martında başa çatdırıldı. Bu hərbi hissələrin bəziləri (o cümlədən, erməni əsgər və zabitləri) Bakıda S.Şaumyanın tərəfinə keçərək, Azərbaycan xalqına qarşı soyqırımında iştirak etdilər. Azərbaycan Xalq Cümhuriyyəti həmin hərbi hissələrin fəal kömək göstərdiyi S.Şaumyanın daşnak-bolşevik rejiminə qalib gəldi və öz hakimiyyətini bütün ölkədə bərqərar etdi. Rusiya hərbi hissələri İrandan çıxarıldıqdan sonra ölkədə İngiltərənin mövqeyi gücləndi. 1918-20 illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı genişləndi. 1920 il mayın 20-də Ənzəli limanına rus desantı çıxarıldı. Sovet qoşunlarına qəti əmr verilmişdi ki, yalnız müdaxiləçi və ağqvardiyaçı qoşunları Sovet-İran sərhədi hüdudlarından uzaqlaşdırsınlar və onları İran ərazisində təqib etməsinlər. Sovet hökumətinin 1920 il mayın 24-də Sovet qoşunlarının komandirlərinə teleqramında deyilirdi ki, "bizim hissələrimiz heç bir bəhanə ilə Ənzəli hüdudlarından kənara çıxmamalıdır. Dərhal bəyan etmək lazımdır ki, rus hərbi hissələrinin olmasına baxmayaraq, Ənzəlidə hakimiyyət İrana məxsusdur".

*Əd.:* H ə bi b o v Ə., Cənubi Azərbaycanda azadlıq hərəkatı (1914-1918-ci illər), B., 1988; İ br ah i m o v T.Ə. (Şahin), Birinci Dünya müharibəsi döründə İranın cənub və qərb rayonlarında milli azadlıq hərəkatı, B., 1982.

**İRANIN AZƏRBAYCANDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** - İranı Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yanında təmsil edən elçilik. İranın Bakıda konsulluğu 19 əsrin 70-ci illərindən fəaliyyət göstərirdi. Çarizmin devrilməsindən (1917) sonra konsulluğun fəaliyyəti daha da canlandı. Lakin İran hökuməti Azərbaycanın istiqlaliyyətini elan etməsini dərin narahatlıqla qarşıladı. Çünki İranın hakim dairələri Azərbaycanın şimalında müstəqil dövlətin yaranmasına Cənubi Azərbaycanın əldən çıxması təhlükəsi kimi baxırdılar. Buna görə də, İran hökuməti Azərbaycan Xalq Cümhuriyyətini tanımağa və onunla diplomatik əlaqələr yaratmağa tələsmirdi. 1918 ilin yayında Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması haqqında istiqlal bəyannaməsinin surəti İstanbuldakı Azərbaycan nümayəndə heyəti tərəfindən oradakı İran konsulluğuna təqdim olunduqda, konsulluq Azərbaycan adlı dövlətin müstəqilliyini tanımadığını bildirdi və bu sənədi qəbul etmədi.

İranın Azərbaycana münasibətində dönüş 1918 ilin axırından - Azərbaycan Xalq Cümhuriyyətinin qonşu dövlətlərin, o cümlədən, İranın ərazi bütövlüyünə hörmətlə yanaşdığını yəqin etdikdən sonra başladı. İranın Bakıdakı baş konsulu Azərbaycan Parlamentinin açılış mərasimində (1918, 7 dekabr) iştirak etdi. 1918 ilin sonunda Paris sülh konfransına gedən İran xarici işlər naziri Əliqulu xan Ənsari yolüstü 2 gün Bakıda qalaraq, Azərbaycan hökuməti ilə danışıqlar apardı. Bu danışıqlarda, həmçinin, 1919 ilin yanvarında İstanbulda Əlimərdan bəy Topçubaşovla görüşündə İran diplomatiyasının başçısı Azərbaycanla İranın birləşməsi məsələsini qaldırdı.

Azərbaycan tərəfi bu təklifı rədd etdi və İranla bərabərhüquqlu ikitərəfli əlaqələr yaradılmasını ön plana çəkdi. Azərbaycan Hökuməti bu məqsədlə 1919 ilin martında İsmayıl xan Ziyadxanovun baçşılığı ilə İrana fövqəladə diplomatik missiya göndərdi. Missiya İran tərəfinə Bakıda və Gəncədə diplomatik nümayəndəlik yaratmağı təklif etdi.

1919 ilin sentyabrında İranın yeni xarici işlər naziri Firuz Mirzə bu ölkənin Paris Sülh Konfransında nümayəndə heyətinin başçısı təyin edildikdən sonra İran-Azərbaycan münasibətləri dəyişdi. Hər iki ölkənin nümayəndə heyətləri sıx-sıx görüşərək qarşılıqlı münasibətləri ittifaq səviyyəsinə yüksəltdilər. Bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün 1919 il dekabrın əvvəlində İran hökuməti Seyid Ziyaəddin Təbatəbainin başçılığı ilə Azərbaycana fövqəladə nümayəndə heyəti göndərdi. Dekabrın 30-da Bakıda İran nümayəndə heyətinin başçısı ilə Azərbaycan

downloaded from KitabYurdu.az

xarici işlər naziri Məmməd Yusif Cəfərov arasında, siyasi-hüquqi, gömrük-ticarət, poçt-teleqraf sahələri üzrə komissiyalarda danışıqlar aparıldı.

1920 il yanvarın 14-də Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tanınması münasibətilə Azərbaycan hökumətinin təşkil etdiyi diplomatik qəbulda İran nümayəndəliyinin başçısı S.Z.Təbatəbai də iştirak etdi. S.Z.Təbatəbainin İranın Azərbaycanda diplomatik nümayəndəliyinin başçısı kimi fəaliyyəti 1920 il fevralın sonuna kimi davam etdi. Həmin il fevralın 20-də İran hökuməti Möhsün xan Vəzirini Bakıya vitse-konsul təyin etdi.

1920 il martın 20-də Azərbaycan Xalq Cümhuriyyəti ilə İran arasında dostluq müqaviləsi və bir neçə saziş, o cümlədən konsulluq haqqında konvensiya imzalandı. Sonuncu sənədə görə İranın Bakıdakı vitse-konsulluğu baş konsulluğa çevrildi.

1920 il aprelin 27-də 11-ci Qırmızı ordunun müdaxiləsi və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə İranın Azərbaycandakı diplomatik missiyasının normal fəaliyyəti pozuldu. Şimali Azərbaycanın Sovet İttifaqı tərkibində olduğu dövrdə 1971 ildə Bakıda İran konsulluğu açıldı. 1991 ildə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra 1992 ildə İran Azərbaycan Respublikası ilə səfirlik səviyyəsində diplomatik əlaqə yaratdı.

*Əd.:* Азербаиджанкой Ресбулика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**İRANLA SƏRHƏDDƏ KEŞİKÇİ DƏSTƏSİNİN TƏŞKİLİ HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 24 sentyabr tarixli qərarı. Həmin sənədə əsasən, maliyyə nazirliyi ləngimədən İranla sərhəddə keşikçi dəstəsinin təşkili üçün maliyyə vəsaiti ayırmalı idi.

**İRƏVAN** - qədim Azərbaycan şəhəri. *Azərbaycan Milli Şurasının* 1918 il 29 may tarixli qərarı ilə "bir siyasi mərkəz" olaraq ermənilərə güzəşt edilmiş (bax *İrəvanın ermənilərə güzəşt edilməsi)* və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin - Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. Eramızdan əvvəl 782 ildə tikilmiş Erebuni qalası yaxınlığında bina olunmuşdu. O zaman ermənilər hələ Cənubi Qafqaza doğru yayılmamışdılar və onların burada heç bir dövlət qurumları da yox idi. İrəvan adı ilk dəfə 607 ildə çəkilmişdir. Şəhər Rəvan, Erivan, Yerevan və b. adlarla da tanınmışdır. Azərbaycan alimləri B.Budaqov və Q.Qeybullayevin fıkrincə, "şəhərin adının guya Urartu mənbələrində adı çəkilən Yerebuni qalasının adından əmələ gəlməsi uydurmadır. Toponim türk dillərində "ir" -"dağın gün düşən tərəfi", "dalğavarı dağ zirvəsi" və farsca "van" - "yer" sözlərindən ibarətdir. Toponimin "Yerevan" forması İrəvan adının ermənicə yazılışıdır". İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III-VII əsrlər), Ərəb xilafətinin

*İrəvan şəhərinin görünüşü. İrəvana səfər etmiş səyyahın rəsm əsəri. 18 əsr*



downloaded from KitabYurdu.az



İrəvan xanlığının bayraqları. 18-19 əsrin əvvəli

(VII-IX əsrlər), Səlcuq dovlətinin (XI-XIII əsrlər), Monqol imperiyasının (XIII-XIV əsrlər), Azərbaycan Qaraqoyunlu [1410-1468], Ağqoyunlu [1468-1501], Səfəvilər [1501-1736] dövlətlərinin, Nadir şahın [1736-47] imperiyasının tərkibində olmuşdur. Nadirin ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər - xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747-1828) yarandı. İrəvan şəhəri Səfəvilər dövründə Çuxursəd bəylərbəyiliyinin, sonra isə eyni adlı xanlığın mərkəzi olmuşdur. "1441 ildən 1828 ilədək İrəvan xanlığını kimlər idarə etmişdir?" sualına kahin H.Şahxatunyanın tərtib etdiyi siyahıda xronoloji ardıcıllıqla 49 azərbaycanlı hakimin adı çəkilmişdir. Rusiya 1804-13 illər Rusiya-İran müharibəsində şəhəri işğal etməyə cəhd göstərsə də, İrəvan xanlarının güclü müqavimətinə rast gələrək buna nail ola bilməmişdi. 1826-28 illər Rusiya-İran müharibəsi zamanı, İrəvan şəhəri 1827 il oktyabrın 1-də rus qoşunları tərəfindən işğal olundu və 1828 il Türkmənçay müqaviləsinə əsasən İrəvan xanlığı tərkibində Rusiyaya ilhaq edildi. 1828-40 illərdə "Erməni vilayəti"nin, 1840-49 illərdə İrəvan qəzasının, 1849-dan yeni yaradılmış İrəvan quberniyasının mərkəzi oldu. Fevral inqilabından (1917) sonra şəhərdə Müvəqqəti hökumətin, onun devrilməsindən sonra Zaqafqaziya komissarlığının hakimiyyət orqanları yaradıldı. 1918 il mayın 28-də Tiflisdə Cənubi Qafqazda, ilk dəfə olaraq, erməni dövlətinin - Ermənistan Respublikasının yaradılması elan edilərkən məlum oldu ki, Cənubi Qafqazda ermənilərin siyasi mərkəzi yoxdur. Həmin dövrdə güclü xarici təzyiqə məruz qalan Azərbaycan Milli Şurası İrəvanın ermənilərə güzəşt edilməsi haqqında qərar qəbul etməyə məcbur oldu. Beləliklə, qədim Azərbaycan şəhəri İrəvan Ermənistan Respublikasının paytaxtına çevrildi.

İrəvan şəhəri. Bazar meydanı. 18 əsr



downloaded from KitabYurdu.az





*İrəvan. Sərdar sarayı. Divarlarında Fətəli şah Qacarın və Abbas Mirzə Qacarın portretləri (yağlı boya) çəkilmiş güzgülü zal. 19 əsr.* Rəssam Mirzə Qədim İrəvani

downloaded from KitabYurdu.az

*İrəvan rus-müsəlman qız məktəbi. Dərs zamanı. 19 əsr*



Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə burada 1807 azərbaycanlı ailəsi, yaxud 7331 nəfər (3749 kişi, 3582 qadın), 567 erməni ailəsi, yaxud 2.369 nəfər (1220 kişi, 1149 qadın) qeydə alınmışdı. O zaman İrovanın 9700 nəfərlik əhalisinin 75,6%-i azərbaycanlı, 24,4%-i erməni idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı İrəvan şəhərində də artdı. 1829-32 illərdə həyata keçirilən kameral təsvirə görə İrəvan şəhərinə İrandan 366 erməni ailəsi, yaxud 1715 nəfər (903 qadın, 812 kişi), Türkiyədən 11 ailə, yaxud 48 nəfər (25 kişi, 23 qadın) köçürülmüşdü. Bu köçürmə nəticəsində İrəvan şəhəri əhalisinin sayı ermənilərin hesabına artaraq 11.463 nəfərə çatmışdı. Nəticədə, azərbaycanlıların sayı 64%-ə enmiş, ermənilərin sayı isə 36%-ə qalxmışdı. Bu siyasət sonralar da davam etdirilmişdi. 1873 ildə İrəvan şəhərində azərbaycanlıların sayı 5805, ermənilərin sayı 5959, 1886 ildə müvafiq olaraq 7228 və 7142, 1897 ildə 12516 və 12529 olmuşdu. 1917 il Qafqaz təqviminin məlumatına görə, İrəvan şəhərində 51286 nəfər əhali qeydə ahnmışdı, onların 25548 nəfəri (49,8%) kişi, 25738 nəfəri (50,2%) qadın idi. Şəhər əhalisinin 22001 nəfəri daimi, 29285 nəfəri müvəqqəti yaşayanlar idi. Həmin məlumata əsasən, İrəvan əhalisinin 12557 nəfəri (24,5%) azərbaycanlı, 37204 nəfəri (72,5%) erməni idi. Bu fakt bir daha aydın sübut edir ki, 1828-1917 illər arasında çarizmin həyata keçirdiyi məqsədyönlü köçürmə siyasəti və azərbaycanlılara qarşı ayrı-seçkilik siyasəti nəticəsində İrəvanda yerli əhalinin-azərbaycanlılann sayı kəskin surətdə azalmışdı.

İrəvan şəhərinin iqtisadi həyatında sənətkarlıq və ticarət üstünlük təşkil edirdi. İrəvanın Tiflis (1902) və Culfa (1908) dəmir yol xətti ilə birləşdirilməsi şəhərin iqtisadi həyatında mühüm rol oynadı.

İrəvan şəhəri Azərbaycan xalqının əsas mədəniyyət mərkəzlərindən biri idi. Rusiya işğalından sonra İrəvan şəhərinin ictimai-siyasi həyatında çarizmin hərtərəfli köməyi ilə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımları adi hal aldı. Bunlardan ən dəhşətlisi 1905-06 illərdə baş verdi. Azərbaycanlılara qarşı soyqırımı 1917-20 illərdə, xüsusilə İrəvan şəhərinin erməni daşnak hökumətinin paytaxtına çevrilməsindən sonra daha geniş və məqsədyönlü şəkil aldı. Bunun nəticəsində 1922 ildə İrəvan şəhərində cəmi 5124 nəfər azərbaycanlı qalmışdı. Ermənilərin sayı isə 40369 nəfərə çatmışdı.

1920 il noyabrın 29-da Ermənistan Respublikası devrildikdən sonra, dekabrtn 4-də 11-ci Qırmızı ordu hissələri İrəvana daxil oldu. İrəvan Ermənistan Sovet Sosialist Respublikasının paytaxtına çevrildi. Sovet dövründə azərbaycanlıların İrəvandan zorakı deportasiyası davam etdirildi. 1970 il siyahıyaalmasına görə, İrəvan şəhərində cəmi 2721 nəfər azərbaycanlı qalmışdı. Ermənilərin sayı isə 738045 nəfərə çatmışdı. 1988 ilin noyabr-dekabr hadisələri zamanı İrəvanın qədim yerli əhalisi olan azərbaycanlılar oradan tamamilə qovuldu.

Qədim Azərbaycan şəhəri olan İrəvanın etnik-siyasi tarixi ermənilərin özgə torpaqlarına yiyələnmək siyasəti-

downloaded from KitabYurdu.az

nin anatomiyasını əks etdirən ən qabarıq faktlardan biridir.

*Əd.:* Bayramov İ., Qərbi Azərbaycanın türk mənşəli toponimləri, B., 2002; Budaqov B., Qeybullayev Q., Ermənistanda Azərbaycanın mənşəli toponimlərin izahlı lüğəti, B., 1998; Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, B., 2002; Акопян Т.Х., Очерки истории Еревана, Ер., 1977; Кавказкий календарь на 1917; Шопен И., Исторический памятник состаяние Армянской области в эпоху ее присоединения к Российской империи, СПБ, 1852.

**İRƏVAN QƏZASI** - *İrəvan quberniyası* tərkibində inzibati-ərazi vahidi. Çar Rusiyası Naxçıvan və İrəvan xanlıqlarını işğal etdikdən sonra onların əraziləri əsasında "Erməni vilayəti" (1828, 21 mart) yaratdı. Bununla Rusiya Qərbi Azərbaycan ərazisində gələcək erməni dövlətinin əsasını qoydu. Türkiyədon və İrandan ermənilər kütləvi surətdə yenicə yaradılmış Erməni vilayətinə köçürüldülər. 1840 il 10 aprel qanunu əsasında "Erməni vilayəti" ləğv olundu. Naxçıvan və İrəvan vilayətləri qəzalara çevrildi və yeni yaradılmış Gürcü-İmercti quberniyasının tərkibinə qatıldı. Lakin belə bir inzibati-ərazi bölgüsü də uzun müddət davam etmədi. 1849 il iyunun 9-da keçmiş "Erməni vilayəti" və Aleksandropol qəzasının əraziləri əsasında İrəvan quberniyası təşkil edildi. Həmin quberniyanın təşkili ilə əlaqədar olaraq, sahəsinə görə əvvəlki İrəvan xanlığı ərazisinə uyğun gələn İrəvan qəzasının (1840-49) ərazisində dəyişiklik edildi və o yeni yaradılmış İrəvan quberniyası qəzalarından birinə çevrildi. 1917 il Qafqaz təqviminin məlumatına görə İrəvan qəzasının ərazisi 2724,30 *kv.verst* (1 *verst* = 1,0668 *km)* idi. Bu, İrəvan quberniyası ərazisinin 11,74%-ni təşkil edirdi. Qəzada 154331 nəfər əhali yaşayırdı. Onların 82680 nəfəri (53,57%) kişi, 71651 nəfəri (46,43%) qadın, 148791 nəfəri yerli sakin, 18992 nəfəri müvəqqəti yaşayanlar idi. İrəvan qəzasının əhatə etdiyi ərazilərdə, butövlükdə, quberniyanın ərazisində olduğu kimi, tarix boyu azərbaycanlılar yerli ohali olmuş və üstünlük təşkil etmişlər. Lakin İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra (1827, 1 oktyabr) çarizmin erməniləri məqsədyönlü şəkildə bu Azərbaycan torpaqlarına köçürməsi nəticəsində əhalinin etnik tərkibində onların sayı süni surətdə artırılmağa başladı.

Bununla belə, 1917 ilə olan məlumata görə, İrəvan qəzasında azərbaycanlılar təxminən 74175 nəfər (48,1%), ermənilər 69710 nəfər (45,21%) təşkil edirdi. Burada qəza idarə sistemi (mərkəzi İrəvan şəhəri) fəaliyyət göstərirdi. Azərbaycanlı kənd icmalarına kəndxuda, kovxa, yüzbaşı, crməni kənd icmalarına isə məliklər başçılıq edirdilər. İrəvan qəzasında kənd təsərrüfatı üstün yer tuturdu.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra (1918, 28 may) İrəvan qəzasında birinci, üçüncü və dördüncü polis sahələrinin bir hissəsini öz əraziləri sırasına daxil etmişdi. Daşnaklar tərəfindən Ermənistan Respublikasının elan edilməsi (1918, 28 may) və Azərbaycan Milli Şurasının İrəvanı ermənilərə güzəştə getməsi (bax *İrəvanın ermənilərə güzəşt edilməsi)* İrəvan qəzasında ermənilərin mövqeyini gücləndirdi. Fevral inqilabından (1917) sonra azərbaycanlılara qarşı daha da genişlənmiş olan soyqırımları dövlət siyasətinə çevrildi. Erməni-daşnak hökumətinin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırım siyasətinə ən çox məruz qalan bölgələrdən biri İrəvan qəzası oldu. Qərbi Azərbaycanın (müasir Ermənistan Respublikasının ərazisi) tarixi coğrafıyasına dair tədqiqatlarda keçmiş

İrəvan şəhərindəki Göy məscid. 19 əsr




downloaded from KitabYurdu.az


Göy məscidin xaricdən görünüşü

İrəvan qəzasına daxil olan yaşayış məskənlərinin tarixi, o cümlədən 1918-20 illərdə erməni-daşnak hökumətinin azərbaycanlılara qarşı soyqırım siyasəti hərtərəfli araşdınlmışdır. Həmin araşdırmaların nəticələrinə görə, 1918-20 illərdə Qəmərli (indiki Artaşat) rayonunda 20 minə yaxın azərbaycanlı qırılmış və doğma yurd-yuvalarından qovulmuş, 1915-18 illərdə İran və Türkiyədən gəti-rilmiş ermənilər həmin azərbaycanlı kəndlərində yerləşdirilmişdi. Nəticədə, 1922 ildə ermənilərin sayı 2000-dən artaraq, 22479 nəfərə çatmış, azərbaycanlılann sayı isə 20 min nəfərdən azalaraq, 7328 nəfərə enmişdi. Axta (1959 ildən Hrazdan), Vedi (1968 ildon Ararat), Zəngibasar (1937-53, 1969 ildən Masis), Kotayk (1961 ildən Abovyan) rayonlarının əhalisi də dəhşətli soyqırımlarına məruz qalmışdılar. İrəvan qəzasının onlarla qədim Azərbaycan kəndi ermənilər tərəfindən viran edilərək, yerlə-yeksan olunmuş, əhalisi isə qırılmış, yaxud qovularaq doğma torpaqlarından çıxarılmışdı. Bütün bu Azərbaycan kəndlərinin ərazilərinə ermənilər yerləşdirilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin erməni daşnaklarının İrəvan qəzasının əhalisinə qarşı törətdikləri soyqırımı cinayətlərinin qarşısını almaq üçün göstərdiyi bürün cəhdlər nəticə verməmişdi.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra (1920, 29 noyabr) İrəvan qəzasının inzibati-ərazi bölgüsündə erməni əhalinin mənafeyinə yönəlmiş dəyişikliklər həyata keçirilmiş, Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) tətbiq edilən rayonlaşdırma prosesində İrəvan qəzası ləğv olunmuşdu. Eyni zamanda, azərbaycanlıların keçmiş İrəvan qəzasına daxil olan rayonlardan deportasiyası intensiv surətdə və müntəzəm olaraq davam etdirilmişdi. 1948-53 illər deportasiyası, xüsusilə, 1980 illərin sonlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində soydaşlarımızın dədə-baba torpaqları olan Qərbi Azərbaycandan qovulması başa çatdırıldı. Ermənistan hökuməti azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti ilə yanaşı, onlara məxsus olan tarixi yer adlarını da kütləvi surətdə dəyişdirmiş, qədim tarixi abidələri vandalcasına məhv etmişdir. İlk mənbələr, o cümlədən arxiv sənədləri bunu təsdiq edir.

*Əd.: Кавказский календарь на 1917 г.; Адрес-календарь Азербаиджанской республики на 1920 г.;* Ermənistan azər-baycanlılarının tarixi coğrafiyası, B.,1995; Историческая география Западного Азербаиджана, Б., 1998.

**İRƏVAN QUBERNİYASI** - Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ərəfəsində Qərbi Azərbaycan torpaqlarında mövcud olan inzibati ərazi vahidi. Qədim Azərbaycan torpağı olan İrəvan bölgəsində Səfəvilər dövründə (16 əsrin 1-ci yarısı) Çuxursəd, yaxud İrəvan bəylərbəyiliyi yaradılmışdı. Osmanlı-Səfəvi müharibələri zamanı İrəvan bölgəsi iki dəfə (16 əsrin sonları və 18 əsrin 20-ci illərində) Osmanlı imperiyasının tərkibinə qatılmışdı. Osmanlılar onların hakimiyyəti altına keçən İrəvan əyaləti barədə iki dəfə məlumat xarakterli dəftərlər tərtib etmişdilər. 1728 il Müfəssəl dəftərinə görə, İrəvan əyalətində aşağıdakı inzibati ərazi vahidləri vardı. İrəvan şəhəri, Qırxbulaq, Karpi, Maku, Xınzirək, Karni, Vedibasar, Dərə-çiçək, Abaran, Göycə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zərzəmin nahiyələri, Şuragöl və Naxçıvan sancaqları. Sonralar Çuxursəd bəylərbəyiliyi ərazisində İrəvan və Naxçıvan xanlıqları meydana gəldi. Məlum olduğu kimi erməni H. Şahxatunyanın tərtib etdiyi siyahıda (1441-dən 1828 ilədək) İrəvanda hökmranlıq etmiş 49 azərbaycanlı hakimin adı çəkililmişdir. İrəvanın 1827 ilin oktyabrında çar Rusiyası tərəfindən işğalı və *Türkmənçay müqaviləsilə (1828)* xanlığın rəsmən Rusiyaya ilhaqından sonra vəziyyət dəyişdi. Çar I Nikolayın [1825-55] fərmanına (1828, 21 mart) əsasən, İrəvan və Naxçıvan xanlıqları ərazisində *"Erməni vilayəti"* yaradıldı. Xanlıqlar əyalətlər adlandırıldı. İrəvan əyalətində 15 mahal (Qırxbulaq, Zəngibasar, Karnibasar, Vedibasar, Şərur, Sürməli, Parçenis-Dərəkənd, Saatlı, Talin, Seyidli-Axsaxlı, Sərdarabad, Karnibasar, Abaran, Dərəçiçək, Göycə) var idi. Çar hökuməti işğal prosesində və Türkmənçay müqaviləsi imzalandıqdan sonra, digər Azərbaycan torpaqları kimi, İrəvan əyalətinə də ermənilərin kütləvi şəkildə köçürülməsi planını həyata keçirdi. 1828-32 illərdə apanlmış kameral siyahıyaalmaya görə, köçkün ermənilər nəzərə alınmazsa, İrəvan əyalətində 69948 nəfər yaşayırdı. Onların 49875 nəfəri (71,3%) azərbaycanlı, 20073 nəfəri (28,7%) isə erməni idi. 1826-28 illər Rusiya-İran müharibəsi və İrəvanın ruslar tərəfindən işğalından kameral siyahıyaalmanın keçirilməsinədək olan dövrdə, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımları və onların bu torpaqlardan kütləvi surətdə deportasiyası nəzərə almarsa, işğala qədərki dövrdə azərbaycanlıların sayı daha çox idi. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi İrəvan əyalətinin etnik tərkibini əsaslı şəkildə dəyişdirdi. Bu prosesdə İrəvan əyalətinə İrandan 23568 nofər, Türkiyədən 21639 nəfər (birlikdə 45207 nəfər) erməni köçürülmüşdü. Bu, köçürülmə ərəfəsindəki bütün əhalinin 90,64%-nə bərabər idi. Ermənilərin köçürülməsindən sonra əyalətdə

downloaded from KitabYurdu.az



İrəvan qubernatorunun müavini İsmayıl bəy Qazıyev arvadı Əfruz xanımla

əhalinin sayı 115155 nəfər olmuşdu. Bunun nəticəsində əhali arasında azərbaycanlıların sayı azalaraq 71,3%-dən 43,3%-ə düşmüş, ermənilərin sayı isə artaraq 28,7%-dən 56,7%-ə çatmışdı.

1840 il 10 aprel qanununa əsasən, "Erməni vilayəti" ləğv edilmiş, onun tərkibinə daxil olan İrəvan və Naxçıvan əyalətləri qəzaya çevrilərək, Gürcü-İmereti quberniyasına qatılmışdı. Çar I Nikolayın fərmanı ilə 1849 il iyunun 9-da keçmiş "Erməni vilayəti" və Aleksandropol (Gümrü) qəzası əsasında İrəvan quberniyası yaradıldı. Bəzi inzibati-ərazi dəyişikliklərindən sonra quberniya İrəvan, Aleksandropol, Eçmiədzin, Naxçıvan, Novobayazid, Şərur-Dərələyəz, və Sürməli qəzalarına bölündü. İrəvan quberniyasının ərazisi 23194,79 *kv.verst* (1 *verst* = 1,0668 *km)* idi. 1917 il Qafqaz təqviminin məlumatına görə, quberniyada 1120242 nəfər əhali yaşayırdı. *Hər kv.verstə 48,3* nəfər düşürdü. Quberniya əhalisinin 589125 nəfəri (52,6%) kişi, 531117 nəfəri (47,4%) qadın, 1014868 nəfəri (90,6%) yerli sakinlər, 105374 nəfəri (9,4%) müvəqqəti yaşayanlar idi. Çarizmin İrəvan quberniyası əhalisinin etnik tərkibini ermənilərin xeyrinə dəyişdirmək siyasəti Türkmənçay müqaviləsindən sonra ardıcıl surətdə həyata keçirilmişdi. Ermənilərin İrəvan quberniyasına köçürülməsi 1877-78 illər Rusiya-Türkiyə müharibəsi dövründə, 19 əsrin 90 illərində və 20 əsrin əvvəllərində də ardıcıl olaraq davam etdirilmişdi. Bütün bunlara baxmayaraq, İrəvan quberniyasında azərbaycanlı əhalinin xüsusi çəkisi həmişə yüksək olmuşdur. 1917 il Qafqaz təqviminin məlumatına görə, 100 ildən çox davam edən soyqırımlarına və deportasiyalara baxmayaraq, azərbaycanlıların sayı 373582 nəfər (33,35%) idi. Ermənilərin sayı isə qeyd olunan köçürmələr nəticəsində 669871 nəfərə (59,8%) çatdırılmışdı. İrəvan quberniyasındakı 5 şəhərin (Aleksandropol, Naxçıvan, Novobayazid, Ordubad, İrəvan) birlikdə əhalisi 132559 nəfər (11,83%) idi. Əhalinin qalan hissəsi - 967683 nəfər (88,17%) isə qəzalarda, o cümlədən İrəvanda (154331 nəfər), Naxçıvanda (122208), Sürməlidə (104791), Şərur-Dərələyəzdə (90250) yaşayırdı. Azərbaycanlılar bütün şəhər əhalisinin 18,9%-ni (25044 nəfər), qəzaların əhalisinin isə 35,3%-ni (348538 nəfər) təşkil edirdi.

İrəvan quberniyasının iqtisadiyyatında əsas yeri kənd təsərrüfatı tuturdu. Quberniya torpaqlarının 70,1%-i xəzinəyə, 25,6%-i mülkədarlara məxsus idi. Birinci dünya müharibəsi nəticəsində yaranmış şəraitə görə (iş heyvanlarının səfərbərliyə alınması, əhalinin arxa cəbhə işlərinə cəlb edilməsi və i.a.) əkin sahələri üçdə bir qədər azalmışdı.

İrəvan quberniyası *Qqfqaz cəbhəsi* və *Qafqaz ordusunun* yaxın arxa cəbhəsi idi. Quberniyanın İrəvan, Aleksandropol, Naxçıvan və b. qəzalarında ehtiyat hissələr və könüllü dəstələri yerləşdirilmişdi.

Fevral inqilabı (1917) nəticəsində çarizmin devrilməsi xəbəri İrəvan quberniyasına martın əvvəllərində çatdı. Quberniyada *Müvəqqəti hökumətin* yerli hakimiyyət orqanlarının formalaşdırılmasına başlandı. Martın 14 (27)-də təşkil olunan Quberniya İcraiyyə Komitəsi özünü *Xüsusi Zaqafqaziya Komitəsinin* (rusca OZAKOM - Osobıy Zakavkazskıy Komitet) yerli orqanı elan etdi. Qəzalarda da icraiyyə komitələri yaradıldı. Müvəqqəti hökumət tərəfindən İrəvan quberniyasına və qəzalara komissarlar təyin edildi.

Fevral inqilabından (1917) sonra İrəvan quberniyasında sovetlər də yaranmağa başladı. Martın 8 (21)-də Aleksandropolda əsgər, sonra isə fəhlə deputatları sovetləri meydana gəldi. Hər iki sovet tezliklə birləşdi. İrəvan şəhərində də martın 12 (25)-də əsgər, apreldə isə fəhlə deputatları sovetləri yarandı. Mart ayı ərzində İrəvan quberniyasının şəhərlərində sovetlər təşkil olundu. Həm Müvəqqəti hökumətin yerli orqanlarında, həm də sovetlərdə daşnaklar üstünlüyü ələ aldılar. 1917 il sentyabrın sonlarında daşnaklar Tiflisdə "Erməni milli müşavirəsi" çağırdılar. Müşavirədə erməni milli şurası (sədr A.Aqaronyan) təşkil edildi. İrəvan şəhərində və quberniyamn qəzalarında da milli şuraların təşkil olunmasına başlandı. Erməni milli şurası İrəvan quberniyasının azərbaycanlı əhalisinə qarşı soyqırım siyasətinin hazırlanması və həyata keçirilməsi, Osmanlı imperiyasında ermənilərin pozuculuq fəaliyyətinin təşkili, Qafqaz cəbhəsində vuruşmaqdan ötrü erməni korpusunun komp-

downloaded from KitabYurdu.az



*İrəvanın zadəgan nümayəndələri: oturanlar (soldan sağa) Abdulla xan Makinski, Şükür xan Makinski, Abbas xan İrəvanlı, Pənah xan Makinski, Mirzə Cabbar Qazıyev və başqaları, 1860, İrəvan*

lektləşdirilməsi üçün tədbirlər görməyə başladı. Oktyabr çevrilişindən (1917) sonra yaradılan *Zaqafqaziya komissarlığı* [1917, 15 (28) noyabr] hakimiyyətini İrəvan qubemiyasına da yaydı. İrəvan quberniyasında da *Müəssislər məclisinə* (Rusiya) seçkilərdə daşnaklar və sazişçilər qalib gəldilər. 1918 ilin 10 (23) fevralında işə başlayan *Zaqafqaziya seymi* Cənubi Qafqazın Rusiyadan ayrılmasını təsdiqlədi (1918, mart). *Zaqafqaziya Demokratik Federativ Respublikası* elan olunduqda (1918, 22 aprel) İrəvan quberniyası onun tərkibinə qatıldı.

Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) hökuməti İrəvan quberniyası və Osmanlı imperiyasında yaşayan ermənilərdən özünün siyasi məqsədləri üçün istifadə etmək xəttini həyata keçirirdi. 1917 il dekabrın 17 (30)-da Millətlərin işləri üzrə xalq komissarlığında erməni işləri üzrə ayrıca komissarlıq yaradılmışdı. RSFSR Xalq Komissarları Soveti 1917 il dekabrın 27-də (1918,11 yanvar) *"Türkiyə Ermənistanı haqqında dekret"* qəbul etdi. Rus hərbi hissələrinin Qafqaz cəbhəsindən geri çağırılması (1917, dekabr-1918, yanvar) daşnakların mövqeyini xeyli gücləndirdi. İrəvan quberniyasında azərbaycanlılara qarşı soyqırımı daha da genişləndirildi.

Zaqafqaziya seyminin dağılmasından sonra (1918, 26 may) daşnaklar 1918 il mayın 28-də Tiflisdə Erməni (Ararat) respublikasının yaranmasını elan etdilər. Azərbaycan Milli Şurasının 1918 il 29 may tarixli iclasımn qərarına əsasən, İrəvan şəhəri siyasi mərkəz kimi ermənilərə verildi (bax *İrəvanın ermənilərə güzəşt edilməsi)*. Ermənistan Respublikası ilə Osmanlı dövləti arasında bağlanmış 1918 il 4 iyun tarixli Batum müqaviləsinə əsasən, Sürməli qəzası, Aleksandropol, Şərur, Eçmiədzin və İrəvan qəzalarının böyük bir hissəsi Osmanlı dövlətinə keçdi. İrəvan quberniyasmın ərazisinin üçdə bir hissəsindən azı Ermənistanın əlində qaldı. Lakin Birinci dünya müharibəsində Osmanlı dövlətinin məğlubiyyəti *[Mudros barışığı (1918)]* onun bu torpaqlarda möhkəmlənməsinə imkan vermədi. Azərbaycanın Xalq Cümhuriyyəti də İrəvan qubeniiyasının tərkibinə daxil olan ərazilərində hakimiyyətinin bərqərar edilməsində çətinliklərlə üzləşdi. Bundan istifadə edən daşnak hökuməti İrəvan quberniyasında geniş miqyaslı soyqırımı həyata keçirdi. 1917 ilin fevralından 1918 ilin martına qədərki dövrdə İrəvan quberniyasında 200 azərbaycanlı kəndi dağıdılmış, 135 min nəfərdən çox əhali doğma torpaqlarından qovulmuş və ya məhv edilmişdi. *Erməni (Ararat) respublikası qurulduqdan sonra azərbaycanlılara qarşı soyqırımı dövlət siyasətinə çevrildi.* Amerika alimləri Castin və Karolin Makkertilərin məlumatıma görə, qarşıdurmanın sonunda (1920 il nəzərdə tutulur) İrəvan quberniyasında 180000 müsəlman, yaxud quberniyanın müsəlman əhalisinin üçdə ikisindən çoxu ya öldürülmüş, ya da qaçqın düşmüşdü.

downloaded from KitabYurdu.az

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti İrəvan quberniyasında azərbaycanlılara qarşı qırğın və deportasiya siyasətinin qarşısını almaq üçün tədbirlər görməyə çalışırdı. Lakin erməni daşnak hökuməti bu sahədə fəaliyyətini davam etdirirdi. Azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsində Andronik, Dro, Njde və b. öz amansızlıqlarına görə xüsusilə fərqlənirdilər. Lakin azərbaycanlılar doğma torpaqları uğrunda qeyri-bərabər mübarizəni davam etdirirdilər (bax *Şadlinski* Abbasqulu bəy). Bakıda təşkil edilmiş *İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyəti* də quberniyada yaşayan azərbaycanlılarla həmrəylik sahəsində fəal iş aparırdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra (1920 il, 29 noyabr) İrəvan quberniyasının torpaqları onun tərkibinə daxil edildi. İrəvan quberniyası anlayışı 1930 ildə ləğv olundu.

*Əd.:* Азербаиджанкая Демократическая Ресбулика (1918-1920). Закондательные акты (сборник дакументов), Б., 1998; Азербаиджанкая Ресбулика. Дакуметы и материалы. 1918-1920 ,Б., 1998; Bayramov Q., Azərbaycanlıların soyqırımı erməni daşnak hökumətinin dövlət siyasəti olmuşdur, Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2002, № l; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, B., 1995; Əliyev F., Həsənov U., trovan xanlığı, B., 1997; Məmmədov İ., Tariximiz, torpağımız, taleyimiz, B., 2002; Асадов С., Миф о «Великой Армении», Б., 1999; Кавказский календарь нта 1917 г., Тифлис, 1916.

**İRƏVAN QUBERNİYASI MÜSƏLMANLARININ HƏMYERLİLƏR CƏMİYYƏTİ** Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə İrəvan quberniyasının soyqırımına məruz qalan türk-müsəlman əhalisi arasında əlaqələr yaratmaq və həmin quberniyadan olan azərbaycanlı qaçqınlara maddi yardım göstərmək məqsədilə Bakıda yaradılmış qurum. İrəvan quberniyası, həmçinin Naxçıvan bölgəsilə əlaqələrin yaradılması və inkişafında, buradakı yerli azərbaycanlı əhalinin problemlərinin həllində əslən keçmiş İrəvan quberniyasından olan ictimai xadimlərin, ziyalıların, onların yaratdıqları təşkilatların və cəmiyyətlərin mühüm rolu olmuşdur. 1919 il yanvarın 2-də Bakıda İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirildi. Araz-Türk Cümhuriyyətinin nümayəndəsi P. Bayrambəyov müşavirə iştirakçılarını İrəvan quberniyası müsəlmanlarının faciəli vəziyyəti ilə tanış etdi. O, Araz-Türk Cümhuriyyətinin yaranması tarixi barədə də ətraflı məlumat verdi. Müşavirədə tarixi Azərbaycan ərazisi olan İrəvan quberniyasını tutmaq, bu mümkün olmadıqda isə Ararat Respublikasını müsəlmanlara qarşı törədilən vəhşiliklərin qarşısını almaq üçün tədbirlər görməyə məcbur etmək qərara alındı. Bölgəyə qarışıq komissiya göndərmək xahişi ilə ingilis generalı Tomsona müraciət etmək, onunla görüşmək məqsədilə Teymur bəy Makinski, P.Bayrambəyov və başqalarından ibarət nümayəndə heyəti yaratmaq, yerli azərbaycanlı əhalinin ağır vəziyyətilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökumətinə memorandumlar vermək də nəzərdə tutulurdu.

Qərara uyğun olaraq, 1919 il yanvarın 5-də Parlamentin binasında keçmiş İrəvan quberniyasında, o cümlədən Naxçıvan bölgəsində yaşayan azərbaycanlıların nümayəndələrinin fövqəladə iclası keçirildi, mahaldakı mövcud vəziyyət müzakirə olundu və quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradıldı. Yanvarın 6-da cəmiyyətin iclasında aşağıdakı tərkibdə idarə heyəti seçildi: T.Makinski (sədr), H.Qasımov (sədr müavini), R.İsmayılov (katib), M.Sidqi (katibin müavini) və A.Makinski (xəzinədar).

İdarə heyətinin ertəsi gün keçirilən iclasında yerlərdəki vəziyyətlə yaxından tanış olmaq və müəyyən tövsiyələr hazırlamaq məqsədilə Mirabbas Mirbağırovu keçmiş İrəvan quberniyasına göndərmək qərara alındı. İclasda, həmçinin, türk-müsəlman əhalisinə dəyən zərəri müəyyənləşdirmək məqsədilə İrəvan quberniyasına qarışıq komissiya göndərilməsi üçün təcili tədbirlər görülməsi və həmyerlilər birliyi üzvlərindən də bir nəfərin həmin komissiyanın tərkibinə daxil edilməsinin Azərbaycan Hökumətindən xahiş olunması, M.Mirbağırovun xüsusi səlahiyyətlərlə İrəvan quberniyasına göndərilməsinin Azərbaycan Xalq Cümhuriyyəti baş nazirinin nəzərinə çatdırılması razılaşdırıldı. İclasda Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin Araz-Türk Cümhuriyyətinin nümayəndəsi P.Bayrambəyovu qəbul etməsi və İrəvan quberniyasındakı hadisələr haqqında onun məlumatı da iclasda bəyənildi. İrəvan quberniyasından olan qaçqınlar üçün ayrılan bir milyon manatdan cari xərclər üçün müxtəlif məbləğlər ayrıldıqdan sonra qalan 900000 manat P.Bayrambəyov vasitəsilə Naxçıvana göndərildi.

1919 il yanvarın 24-də Bakıdan yola düşən M.Mirbağırov əvvəlcə Gəncəyə gəlmiş, burada Hərbi Nazirlik tərəfindən ona qoşulan 12 nəfər zabitlə birlikdə Qaryagindən (Füzulidən) İrana keçərək, Ordubada, nəhayət fevralın 19-da Naxçıvana çatmışdı.

Bu dövrdə Milli Şura, İcraiyyə Komitəsi və Nax-çıvandan təyin edilən komendant tərəfindən idarə olunan Ordubad əhalisinin hərarətlə qarşıladığı nümayəndələr keçirdikləri müxtəlif görüşlərdə gəlmələrinin məqsədlərini açıqlamış, Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən danışmış. yerli şəraiti öyrənmişdilər. Ordubadda mahalın Azərbaycanla birləşmək arzusu və niyyətinə dair Milli Şuranın protokolu nümayəndələrə təqdim olunmuşdu. Bununla əlaqədar, M.Mirbağırov səfərin yekunlarına dair məruzəsində Ordubada bacarıqlı və nüfuzlu məmurlar təyin olunmasını Azərbaycan Hökumətinə təklif edirdi.

Fevralın 20-də Naxçıvanda da səmimiyyətlə qəbul edilən nümayəndələr ətraf aləmlə əlaqələri kəsilmiş naxçıvanlılara Azərbaycanın dövlət həyatı, İrəvan Quberniyası Müsəlmanlarının Həmyerlilər Cəmiyyətinin yaradılması haqqında məlumat verdilər. Fevralın 22-də M.Mirbağırovun yerli hökumətin sədri Cəfərqulu xan, komandan Kəlbalı xan və ingilis general-qubernatoru ilə görüşündə Naxçıvanın Azərbaycana məxsus olması və bölgənin idarəçiliyi, ingilislərin bu işdə iştirakı məsələləri müzakirə edildi.

İngilis generalının "Siz kimsiniz və nə üçün gəlmişsiniz?" sualına cavabında görüşdə iştirak edən azərbaycanlı

downloaded from KitabYurdu.az

zabit, yerli əhalinin arzusuna uyğun olaraq, hərbi işin təşkili üçün Azərbaycan Hökuməti tərəfindən göndərildiklərini bildirdi. İngilis generalının "bu ərazi hələlik Azərbaycanın tərkib hissəsini təşkil etmir, kimə məxsus olacağı məlum deyil, burada ingilis qubernatorluğu mövcuddur, sizin hökumətin buraya adamlar göndərmək hüququ yoxdur və mən sizə qonaq kimi baxıram" sözlərinin cavabında M.Mirbağırov kiçik xalqların Avropa millətləri, xüsusilə də ingilislər tərəfindən etiraf edilən öz müqəddəratını təyinetmə prinsipini, general Tomsonun və C.Milnin Azərbaycan dövlətçiliyinə müsbət münasibətini xatırlatmış, bölgənin tamamilə müsəlmanlardan ibarət əhalisinin Azərbaycan Hökumətinə xüsusi rəğbət bəslədiyini, generalın da yerli camaatın rifahı naminə çalışacağına və türk-müsəlman əhalinin erməni hərbi dəstələri tərəfindən qırılmasına imkan verməyəcəyinə əmin olduğunu söyləmişdi.

Fevralın 23-də Naxçıvan məscidində hökumətin üzvləri və nümayəndələrin iştirakı ilə xalqın yığıncağı keçirildi. Xalq yekdilliklə Azərbaycanla birləşmək arzusunda olduğunu bildirdi, bütün əhalinin və hökumətin yalnız Azərbaycana tabe olmaq mövqeyi rəsmiləşdi və bölgənin aşağıdakı şərtlər əsasında idarə olunması təklifi irəli sürüldü: 1) anarxiyanın ləğv edilməsi; 2) hökumətin hazırkı tərkibi ilə bağlı narazılıqla məsələnin mürəkkəbləşdirilməməsi; 3) hökumətin tanınması və onunla birgə işləməyə başlanılması; 4) rəsmi sənədlərin Azərbaycan Hökumətinə təqdim edilmək üçün hazırlanması.

Fevralın 25-də nümayəndələrin ingilis general-qubernatorunun və Naxçıvan hökuməti üzvlərinin iştirakı ilə 2-ci görüşü oldu. Bu zaman müttəfiqlərin, o cümlədən də ingilis qoşunlarının Qafqaza gəlişinin səbəbləri barədə Naxçıvan hökumətinin sualına general-qubernator "biz sizin daxili işlərinizə qarışmaq niyyətində deyilik və buraya əmin-amanlığı bərpa etmək və qoruyub saxlamaq üçün gəlmişik", - cavabını verdi.

Elə həmin gün Naxçıvan hökumətinin iclasında Bakıdan və Gəncədən gələn nümayəndələr qeyd etdilər ki, mövcud ycrli hökuməti Azərbaycanın təmsilçiləri kimi ta-nıyırlar və onunla birgə işləyəcəklər. Onların bu bəyanatına əsasən, Azərbaycan Hökumətindən buraya öz məmurlarını göndərmək xahiş olundu. M.Mirbağırov könüllü surətdə Azərbaycana birləşmək barədə rəsmi akt tərtib etməyi və bunun üçün də komissiya seçməyi məsləhət gördü. Siyasi, iqtisadi, hərbi, mülki və mədəni məsələlərə dair maddələr-dən ibarət akt hökumətin, Milli Şuranın və ətraf əhalinin nümayəndələri tərəfindən imzalanaraq, Azərbaycan HÖku-mətinə çatdırılmaq üçün xüsusi nümayəndə heyətinə (Nax-çıvandan 2, Şərur, Zəngibasar və Vedibasarın hərəsindon 1 nəfər olmaqla) təqdim edildi.

M.Mirbağırovun Naxçıvanda olduğu müddətdə yerlərdə hərbi işin vəziyyəti də öyrənildi və onun yenidən təşkili üçün bölgəyə silah gətirilməsi, Vedidə, Şərur, Naxçıvan və Ordubadda 20 piyada rotası, bir batareya üçün artilleriya komandası, 400 nəfərlik süvari hissəsi, pulemyot dəstəsi və təlim komandasının təşkili qərara alındı. M.Mirbağırov bölgədəki və ətraf yerlərdəki hərbi-siyasi vəziyyətlə tanış olduqdan, türk-müsəlman əhalisinin, ictimai qüvvələrin mövqelərini və qarşıhqlı münasibətlərini dərindən araşdırdıqdan sonra Azərbaycan Hökumətinə aşağıdakı təklifləri vermişdi:

*- bu mahalı idarə etmək üçün Müttəfiqlərin, İran və Ermənistanın təsirinə qarşı mübarizə aparmağa qabil olan, özgə təsiri altına düşməyən və müəyyən məqsədyönlü siyasəti inadla və ardıcıllıqla həyata keçirən, habelə ira-dəli, cəsur, qətiyyətli, rüşvətə meyl etməyən azərbaycanlı general-qubernator təyin olunmalıdır; - bölgəyə hərbi nazirliyin yuxarıda sadalanan keyfiyyətlərə malik olan nümayəndəsi də göndərilməlidir;*

*~ mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar mütləq azərbaycanlılardan təyin edilməlidir;*

*~ hərbi işi təşkil etmək üçün göndərilən yerli zabitlər kifayət etmədiyindən bölgəyə əlavə zabitlər dəstəsi yollamaq lazımdır;*

*- Azərbaycanın uzaq ucqarları, məhsuldar torpağı, çoxlu məhsulu, duzu, digər faydalı mineralları olan və Müttəfiqlərin, fars-erməni diplomatiyasının məkrli siyasəti ilə üzləşən Naxçıvan və Şərur Azərbaycan Cümhuriyyəti tərəfindən səxavətlə təchiz olunmalıdırlar.*

Bölgədəki vəziyyətin ağırlığını, oradakı problemlərin təxirə salınmadan həllinin zəruriliyini, səfərin əhəmiyyətini və yekunlarını əsas tutaraq, M.Mirbağırov ümumdövlət məsələlərinə aid olan bir məruzə kimi onun Nazirlər Şurasının müzakirəsinə təqdim olunmasını da məsləhət görmüşdü.

İrəvan Quberaiyası Müsəlmanlarının Həmyerlilər Cəmiyyətinin fəaliyyəti, xüsusilə M.Mirbağırovun missiyası müəyyən nəticələr verdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğu (arxiv sənədlərində Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu da adlandırılır) yaradıldı. M.Mirbağırovun məruzəsində qaldırılan məsələlər Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və Parlamentinin iclaslarında müzakirə olunaraq, müvafiq qərarlar qəbul edildi və tədbirlər görüldü. Cəmiyyətin çoxşaxəli fəaliyyəti və missiyanın yekunları 1919 ilin may-iyul aylarında ingilislərin Naxçıvan mahalında yaratdıqları "erməni idarəçiliyi"nə son qoyulmasına ciddi təsir göstərdi.

*Əd.:* Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996.

**İRƏVANIN ERMƏNİLƏRƏ GÜZƏŞT EDİLMƏSİ**

İrəvan şəhərinin siyasi mərkoz kimi ermənilərə verilməsi haqqında Azərbaycan Milli Şurasının qərarı (1918, 29 may). Zaqafqaziya seyminin dağılmasından sonra (1918, 26 may) erməni milli şurası Tifiisdə Ermənistan (Ararat) Res-publikasının yaradıldığını elan etdi. 1918 il mayın 29-da Tiflisdə Azərbaycan Milli Şurasının iclası keçirildi. İclasın 3 nömrəli protokoluna görə, Fotoli xan Xoyski şura üzvlərinin Azərbaycan və Erməni federasiyası ərazilərinin

downloaded from KitabYurdu.az




1886-cı ilin məlumatına əsasən tərtib edilmişdir.

downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az


Azərbaycanlılar
Azərbaycanlıların Avarlarla birgə yaşadıqları ərazilər
Gürcülər
Ermənilər
Ruslar
Yunanlar
İngiloylar
Kürdlər
QUBERNİYASI
TER
QORİ
QƏZASI
KUTAİSİ
QARS VİLAYƏTİ
İRƏVAN QUBERNİYASI
ABBASTUMAN
AXALSİX
Adıgün
Varxan
Ude
Vale
Sadaxlı
Asxur
Idumala
Uraval
Lepis
AXALKƏLƏK
AXALKƏLƏK QƏZASI
Kür
Nardivan
Əvranlı
Aşqala
Beştaşen
Başköy
Dəmirbulaq
Darvaz
Böyük Qəmərli
Gəyliyən
Başkeçid
Dmanisi
Altuntaş
Şahnəzər
İlməzli
Sarıcabət
Pripinoye
Heydərbay
Allahverdi
Vorontsovka
Novo-Pokrovka
QƏZALAR
1.AXALSİX
2.BORÇALI
3.ZAQATALA MAHALI


TİFLİS QUBERNİYASI VƏ
ZAQATALA MAHALI
ETNOQRAFİK XƏRİTƏ
DAĞISTAN VİLAYƏTİ
TİONETİ QƏZASI
TELAVI QƏZASI
SIĞNAQ QƏZASI
YELİZAVETPOL QUBERNİYASI
ŞİRAK ÇÖLÜ
ELDAR VADİSİ
Alazan
İori
Kür
Balakən
Qabaqçöl
Katex
Car
ZAQATALA
Qıbqan
Tala
Muxax
Cardaxlı
Suvagil
Kürmür
Güllük
Saribaş
Faldarlı
Əliabad
Mərsan
Kum
İlisu
Qax-Muğal
Qaşqaçay
Zəyəm
Əlibəyli
Lələ
Almalı
Qıpçaq
Poylu
Qazaxlı
Muğanlı
Güllər
Lambalı
Qaracalar
Ağtəhlə
Gölkənd
Kosalar
Qaçağan
Körpülü
Çoçkan
Şıxlı
Axpat


29 Мая 1918

sərhədləri məsələsinə dair erməni milli şurası ilə apardıqları danışıqların nəticələri barədə məruzə etmişdir. Xoyski məruzəsini Erməni federasiyasının yaradılması üçün onlara siyasi mərkəz lazım olduğunu, Aleksandropolun (Gümrü) Türkiyəyə keçməsindən sonra belə mərkəzin yalnız İrəvan ola biləcəyi haqqında məlumat verdikdən sonra İrəvamn ermənilərə güzəştə gedilməsinin zəruri olduğunu bildirmişdir. Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov bu məsələ üzrə çıxış edərək, İrəvanın ermənilərə güzəştini tarixi zərurət, labüd bədbəxtlik adlandırdılar. Bu məsələ üzrə səsvermə nəticəsində 28 Şura üzvündən 16-sı İrəvanın güzəşt edilməsinin lehinə, 1 nəfər əleyhinə səs vermiş, 3 nəfər bitərəf qalmışdır (protokolda belə göstərilmişdir). Beləliklə, Azərbaycan Milli Şurası İrəvanın Ermənistana güzəştə gedilməsi haqqında qərar qəbul etmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətinin baş naziri Fətəli xan Xoyski mayın 29-da xarici işlər naziri Məmməd Həsən Hacınskiyə yazırdı: ***"Biz ermənilərlə bütün miibahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və muharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".*** Milli Şuranın iyunun 1-də keçirilən iclasında həmin məsələyə yenidən baxılaraq, bu qərara protest elan edildi. Onu Şuranın İrəvandan olan 3 üzvü imzalamışdı. Milli Şura protesti müzakirə olunmadan iclas protokoluna əlavə etməyi qərara aldı. İrəvanın ermənilərə güzəşt olunması haqqında qərarın qəbul edilməsi, onun əsaslandırılması üçün gətirilən bütün dəlillərə baxmayaraq, siyasi cəhətdən tamamilə səhv addım idi. Erməni hökuməti Tifiisdən İrəvana köçdükdən sonra İrəvanda və Azərbaycanın digər tarixi torpaqlarında azərbaycanlılara qarşı soyqırımı törətdi. İrəvan azərbaycanlıları həm daşnak (1918-20), həm də Sovet (1920-91) hökumətinin məqsədyönlü qırğın və deportasiya siyasətinə məruz qaldı, İrəvanda azərbaycanlılara məxsus maddi mədəniyyət abidələri dağıdıldı, onların erməniləşdirilməsi tədbirləri həyata keçirildi. 1980 illərin sonlarından başlayaraq azərbaycanlılar İrəvan şəhərindən tamamilə çıxarıldı.

*Əd.:* Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (sənəd və materiallar).B.,1998; Азербаиджанкой Ресбулики Дакумерты и материалы. 1918-1920 гг., Б., 1998; Köçərli T. Qarabağ, B., 2002.



**İSGƏNDƏROV** Ağalar Məşədi Abbasqulu oğlu (sentyabr, 1899, Şamaxı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax X*aricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şamaxı realnı məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini kimya sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən

downloaded from KitabYurdu.az

*Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**İSLAMÇILIQ** - islam birliyinə, onun əxlaqi-etik prinsiplərinə əsaslanan ideya-siyasi cərəyan. İlk vaxtlar ittihadi-islam (ərəb dilində "ittihad", yəni "birlik", "həmrəylik" və islam sözlərindən) adlanırdı. Antiislam mövqedə duran siyasi və ideoloji qüvvələr onun mütərəqqi mahiyyətini təhrif edərək, mürtəce damğa vurmuş, *panislamizm* ideya-siyasi cərəyanı kimi təqdim etmişlər. İslamın meydana gəlməsi bəşər tarixində mütərəqqi hadisə oldu. Dünyanın bir sıra ölkələrində onun yayılması və hakim mövqeyə keçməsi ilə islam ölkələri və onları birləşdirən islam mədəniyyəti təşəkkül tapdı. Səlib yürüşləri Böyük Coğrafı kəşflər və müstəmləkə işğallarının başlanması nəticəsində müsəlman ölkələrinin siyasi və sosial-iqtisadi inkişafının ləngiməsi, Qərb dövlətlərinin müstəmləkəsinə çevrilməsi üçün əlverişli şərait yaratdı. Lakin tədricən müsəlman ölkələrin-də milli oyanış başlandı. 19 əsrdən müstəmləkə rejimlərinə qarşı milli azadlıq hərəkatı genişləndi. İttihadi-islam ideyası bu mübarizənin ideoloji cəhətdən əsaslandırılmasında, böyük dövlətlərin, xüsusilə Rusiya imperiyasının dini-milli ayrı-seçkilik siyasətinə qarşı müsəlman xalqlanrın həmrəyliyində mühüm rol oynadı. İttihadi-islam ideya-siyasi cərəyanının banisi böyük Azərbaycan mütəfəkkiri Seyid Cəmaləddin *Əfqani* (1839-97) idi. Əfqaninin ideya-siyasi baxışlan qısa müddətdə islam ölkələrində özünə xeyli tərəfdar tapmış, geniş kütlələrin siyasi fəaliyyət proqramına çevrilmiş, müstəmləkəçilər dairəsində əks reaksiya yaratmışdı. İttihadi-islam nəzəriyyəsi Rusiya müsəlmanları içərisində də geniş yayılmışdı. 1897 ildə birinci ümumrusiya əhali siyahıyalınmasınm yekunlarına görə, Rusiyada pravoslavlardan (87,1 milyon, yaxud 76%) sonra, ən çoxsaylı konfessiya müsəlmanlar (13,9 milyon, yaxud 11,9%) idi. Azərbaycanda Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Axund Yusif Talıbzadə, Mirzə Əbdürrəhim Talıbov və başqaları ittihadi-islam ideyasının üstünlüklərini qeyd etmişdilər. Ə.Ağayevə görə "ittihadi-islam" ideyası üçün islamda əlverişli zəmin olmasına baxmayaraq, o, Əfqaninin zühuru ilə dünya üzü görmüşdü. Ə.Ağayev və Ə.Hüseynzadə ümumislam reallığı ilə yanaşı, bilavasitə Azərbaycan gərçəkliyini özündə əks etdirən baxışları ilə ittihadi-islamı yeni orjinal müddəalarla zənginləşdirmişlər. Azərbaycanda ittihadi-islam ideyasına osaslanan siyasi partiya və təşkilatlar da təşəkkül tapmışdı. Ona görə də Rusiyada islam birliyi ideyasına, onun hər cür təzahürünə qarşı panislamizm damğası vurulur, əleyhinə amansız mübarizə aparılırdı. Pravoslav əhaliyə daha geniş hüquqlar verilməklə bərabər, müsəlmanlar arasında xristianlığın zorla yayılması, müsəlmanların hüquqlarının tapdanması kimi vasitələrdən də istifadə edilirdi. Təsadüfi deyildir ki, Rusiyanın daxili işlər naziri P.Stolıpin 1911 il yanvarın 15-də Nazirlər Şurasına "Müsəlman əhalisi arasında panislamizm və panturanizm təsirinə əks təsir tədbirləri haqqında" məruzə təqdim etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra (1918, 28 may) ölkədə islama qarşı ayrı-seçkiliyə son qoyuldu, islamçılıq dövlət bayrağında (yaşıl rəng) və ideologiyasmda rəsmən təsbit olundu. Bununla yanaşı, Azərbaycan Milli Şurasının 1918 il mayın 28-də qəbul etdiyi *İstiqlal bəyannaməsində* Azərbaycan Xalq Cümhuriyyətinin "millət, məzhəb... fərqi gözləmədən qələmrovunda yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin elədiyi", Cümhuriyyət "ərazisi daxilində yaşayan bircümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxdığı" gostərilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində bilavasitə dövlət maraqları üstünlük təşkil edir, həm islam, həm də xristian dövlətlərlə sülh, dostluq və əməkdaşlıq münasibətləri qurulmasına önəm verilirdi. Bolşevik Rusiyasımn hərbi müdaxiləsi nəticəsində Azərbaycanda Xalq Cümhuriyyətinin devrilməsindən sonra qurulan sovet hökuməti (1920, 28 aprel) ateizmi öz rəsmi ideologiyasının tərkib hissəsi elan etdi. İslamçılığın hər hansı bir şəkildə təzähürünə qarşı mübarizə aparmaq üçün panislanizm uydurması yenidən bərpa olundu. 1920-30 illərin repressiyaları zamanı pantürkizmlə yanaşı, panislanizm də Azərbaycanın mütərəqqi ziyalılarını məhv etmək üçün əsas "ittiham"lardan birinə çevrilmişdi. Bir çox ölkələrdə müsəlman xalqlarının dirçəlişi və birliyinə qarşı mürtəce "panislamizm" baxışının müxtəlif formalarından indi də istifadə olunur.

*Əd.:* Bünyadov Z., Qırmızı terror, B., 1993; Göyüşov A., Azərbaycanda ittihadçılıq, B., 1997; Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, B., 2000; Mustafaycv Q., XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi, R., 1973 Аршаруни А., Габидуллин Ч., Очерки панисламизма и пантюркизма в России, М., 1931, Стенографический отчет заседания отделения Советского и Зарубежного Востока совместю с обществом историков-марксиситов по вопросу обсуждения доклада научного сотрудника Аз. ГНИИ Хулуфлу «Панисламизм как идеология». ГААР., ф. 387, оп. 1, д. 269,

**"İSMAİLİYYƏ"** - Azərbaycanın möhtəşəm memarlıq abidələrindən biri. Bakı şəhərinin İstiqlaliyyət küçəsində, indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi binanın ilkin adı. Neft sənayeçisi Musa Nağıyev binanı Müsəlman Xeyriyyə Cəmiyyəti üçün tikdirmiş, həyatdan vaxtsız getmiş oğlu Ağa İsmayılın xatirəsinə onu "İsmailiyyə" adlandırmışdı. Binanın özülü mülki mühəndis, milliyyətcə polyak olan İ.K.Ploşkonun layihəsi əsasında 1908 il dekabnn 21-də qoyulmuş, tikintisi isə 1913 ilin əvvəlində başa çatdırılmışdır. Venesiya qotikası üslubunda ucaldılmış, yerli inşaat materiallarından istifadə olunmaqla, milli ornament və xəttatlıq nümunələri ilə bəzədilmiş bina Bakı şəhərinin memarlıq görüntüsünü yaradan on möhtəşəm tikililərdən biridir. "İsmailiyyə" memarlıq incisi olmaqla bərabər, Azərbaycanın istiqlal tarixinə müstəqillik uğrunda mübarizənin əsas qərargahlarından biri, milli məfkurənin formalaşdığı mərkəz kimi daxil olmuşdur. 1918 ilin martında erməni-daşnak quldurlarının törətdiyi soyqırımı nəticəsində təkcə azərbaycanlıların özləri qətlə yetirilmir, daha planlı və məqsədyönlü şəkildə

downloaded from KitabYurdu.az



*İsmailiyyə binasının ermənilər tərəfindən yandırılması. 1918, mart*

xalqın mədəniyyət abidələri də məhv edilirdi. Ennəni daşnaklarının Bakıdakı "modəniyyət genosidi" mətbuatda ayrıca mövzuya çevrilmişdi. Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Mirzə Bala Məmmədzadə, Seyid Hüseyn həyəcanlı yazılarla çıxış edirdilər. Şəhər memarlığına ən böyük qəsdin ünvanı kimi "İsmailiyyə" seçilmişdi. 1918 ilin qanlı mart günlərində erməni-daşnak quldurları bolşevik vandalları ilə birlikdə "İsmailiyyə"ni talan edib tamamilə yandırmışdılar. "Azərbaycan", "İstiqlal", "Bəsirət" və başqa milli mətbuat orqanlarında dərc edilən yazılarda "İsmailiyyə" binasının başına gətirilən dəhşətlərdən, onun gələcək taleyindən ürək ağrısı ilə söhbət açılırdı. Seyid Hüseyn və Əlabbas Müznib bu yöndə daha çox iş görürdülər. "İsmailiyyə yanğını" bədii-ictimai likirdə də bir yanğına çevrilmişdi. "Yaşıl qələm" ədəbi birliyi həmin mövzuda ən yaxşı bədii əsər üçün müsabiqə də elan etmişdi. Bu müsabiqədə birinci yeri Seyid Hüseynin 1919 ildə yazdığı ***"Həzin bir xatirə. "İsmailiyyə"*** adlı hekayəsi tutmuşdu. Ədib "İsmailiyyə"ni xalqın arzu və əməldən tikdiyi azadlıq və istiqlal məbədgahı kimi, ***"milli ənənələrimizin doğulduğu yer", "Azərbaycan hürriyyəti və istiqlaliyyəti məfkurəsini bətnində bəsləyən və ərsəyə yetirən ana"*** kimi tərənnüm edirdi. Müəllif "bu abidə bir çox şad və qəmli günlərin şahididir" deməklə "Nicat" və "Səfa" maarif cəmiyyətlərinin, "Səadət" ruhani cəmiyyətinin, cahan savaşı illərində "Qardaşlıq köməyi" idarəsinin burada yerləşdiyini yada salırdı. Seyid Hüseyn bu binanı ən çox ona görə müqəddəs sayırdı ki, Qafqaz müsəlmanlarının birinci qurultayı burada keçirilmiş, "muxtariyyət və ədəmi-mərkəziyyət" fikri burada yaranmışdı. Yazıçı bu mövzunu yenidən işləyərək "İsmailiyyə" adı ilə "İstiqlal" qəzetində (1920, 4 fevral) dərc etdirmişdi. Seyid Hüseyn burada keçirilən *"gurultulu iclaslan, məslək mübarizələrini* "yada salaraq, fəryadla bildirirdi ki, *"yandırılan nə "Müsavat" bürosu, nə də "Hümmət", müsəlmançılıq və sairə firqə və təşkiiatlardır. Xaincəsinə yandırılan İsmailiyyə binasıdır, millətimizin müqəddəs azadlıq və istiqlal məbədgahıdır".* Lakin hekayə nikbin və rəmzi bir ovqatla tamamlanır, müəllif məbədgahın həqiqətən yanması xəbərinə *"Yalandır, inanma!"* deyirdi. *"Bilirmisiniz İsmailiyyənin yandırıla bilmədiyini aləmə isbat edən bir həqiqət hankısıdır? Azərbaycan parlament üzərindəki üçrəngli və səkkiz guşə yıldızlı təmuc üçün Azərbaycan bayrağı'".*

*Əd.: Фатуллаев Ш. С., Градостроительство Баку XIX –начала XX вв Б., 1978.*

**İSMAYILƏV** Rəşid bəy Əsəd oğlu (1.877, İrəvan - 1941, Bakı) - publisist, tarixçi və pedaqoq. İrəvan müəllimlər seminariyasını bitirmiş, "Şərqi-Rus" qəzetində fəaliyyətə

downloaded from KitabYurdu.az

başlamışdır. Bununla yanaşı, Qafqazda və Rusiyanın mərkəzində çap olunan rusdilli mətbuatda ("Sankt-Peterburqskiye vedomosti" və s.) məqalələr dərc etdirmişdir. Dövrün görkəmli şəxsiyyətləri Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtlı, Əhməd bəy Ağayev (Ağaoğlu), Əlimərdan bəy Topçubaşov və b. ilə sıx əlaqələri olmuş, onlarla birlikdə fəaliyyət göstərmişdir. "Şərqi-Rus" qəzetinin nəşri dayandırıldıqdan sonra "Novoye obozreniye" qəzetinin müsəlman həyatı və Yaxın Şərq şöbələrinə rəhbərlik etmişdir. "Müxtəsər Qafqaz tarixi və Zaqafqaziyada zühur edən məşhur türk ədib və şairlərinin müxtəsər tərcümeyihalları" kitabını (Tiflis, 1905) yazmış, Z.Antonovun "Koroğlu" pyesini gürcü dilindən çevirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nazirlər Şurasında məsul vəzifədə çalışmışdır. Cümhuriyyətin süqutundan sonra Bakıdakı 18 nömrəli məktəbdə tarix müəllimi işləmişdir. 1923 ildə "Azərbaycan tarixi" adlı kitabı çap olunmuşdur. Əsərdə "Mavərayi-Qafqazın elani-istiqlalı" hissəsi Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsindəki vəziyyətə, "Azərbaycan Cümhuriyyəti" bölməsi isə bilavasitə onun qurulmasına və fəaliyyətinə həsr edilmişdir. Əsəri: Azərbaycan tarixi, B., 1993.

**İSMAYILƏV** Tağı Mahmud oğlu (1885, indiki Şərur rayonunun Çomaxtur k. - 1958, orada) - Azərbaycamn istiqlalı uğrunda mübariz. İlk gəncliyindən cəsarətli görüşlərinə görə Şimali Qafqaza sürgün olunmuşdu. 1902 ildə Naxçıvan-İrəvan dəmir yolunun inşasında iştirak etmişdir. Rusiyanın hərbi qüvvə və texnikasını daşımaq üçün çəkiləcək Şahtaxtı-Maku-Bayazid dəmir yolunun tikintisində işləyərkən əsgərlər arasında təbliğat işi apararaq, "Şahtaxtı fəhlə, kəndli və əsgər “soveti” nin yaradıcılarından (1917), 1918-19 illərdə Şərur mahalına basqın edən daşnaklara qarşı döyüşçü dəstələrinin təşkilatçılarından olmuşdur. Şərur mahalının kəndlərini erməni quldurlarından təmizləyən türk hərbi hissələrinin tərkibində həmkəndlilərindən ibarət könüllü döyüşçü dəstələrində vuruşmuşdur. İsmayıləv Xok kəndi (Naxçıvan) altında daşnak ordusuna son zərbənin endirilməsində göstərdiyi igidliyə görə "Türk çapı" adlanan silah və qəbzəsi qiymətli daşlarla bəzədilmiş gümüş xəncərlə təltif edilmişdi. Onun komandiri olduğu partizan dəstəsi 1920 il iyulun 28-də Dərələyəz dərəsindən Şərur mahalına hücum edən daşnak quldur dəstəsinə qarşı döyüşlərdə xüsusilə fərqlənmişdi. 1920-22 illərdə Abbasqulu bəy Şadlinskinin "Qırmızı tabor"unun komandirlərindən idi. Sovet dövründə Şərurda bank və kooperasiya strukturlarımn təşkilatçılarından olmuşdur.



**İSMAYILZADƏ** İbrahim (?-?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı. Azərbaycan Milli Şurasınm *"Azərbaycan Məclisi Məbusanının təsisi haqqında qanun "* una (1918, 19 noyabr) əsasən seçilmişdir. Sosialistlər fraksiyasına daxil idi.

**İSRAFİLBƏYLİ** Ağababa Nəcməddin oğlu (1884, Şamaxı - 1968, Bakı) - maarifçi ziyalı, yazıçı. Şamaxıda mollaxanada və dördsinifli şəhər məktəbində (1891-1902) oxumuşdur. Petrovsk-Portda (Mahaçqala) Nikolay şəhər məktəbinin nəzdində birillik pedaqoji kurs bitirmiş (1903), ibtidai məktəb müəllimi vəsiqəsi almışdır. Bakı quberniyasının Quba və Göyçay qəzalarında (1903-07), Kürdəmir kənd və vağzalətrafı məhəllələr məktəbində müdir (1904-07) işləmişdir. 1907 ildən isə müsabiqə yolu ilə təyinat aldığı Bakıda müəllimlik etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq maarifi sahəsində fəaliyyətini davam etdirmiş, 1919 ilin mayında "Bakı və ətraf rayonların rürk müəllimlər ittifaqı"nm sədri seçilmişdi. 1919 ildə üç hissədən ibarət 'Təzə elmi-hesab" adlı dərsliyi çap olunmuşdur. İsrafılbəyli bədii-publisistik yaradıcılıqla da məşğul olmuş, "Tərəqqi", "Sədayi-həqq" qəzetlərində sosial problemlərə və təlim-tərbiyə məsələlərinə dair məqalələr, "Məktəb" jurnalında müəllifi olduğu və tərcümələrdən ibarət uşaq-hekayələri dərc etdirmişdir. "Səbzəlinin toyu" adlı komediyası var. "Ağıllı qız" (1913), "Pişik balası" (1913) kitablan nəşr olunmuşdur. Sovet hakimiyyəti illərində Nəriman Nərimanov adına texnikumda müəllimlik etmiş, "Qınnızı günəş" (1921) adlı uşaq jurnalının redaktoru işləmiş, "Molla Nəsrəddin" jurnalında müxtəlif imzalarla 30-a yaxın felyeton dərc etdirmişdir. Cəlil Məmmədquluzadə İsrafılbəylinin bədii-publisistik fəaliyyətini yüksək qiymətləndirmişdir.



*Əd:*. Məmmədov Ə., Azərbaycan uşaq ədəbiyyatı, B., 1977; M ə m m ə d o v X., Xalq müəllimi. "Molla Nəsrəddin" yazır, "Azərbaycan müəllimi"qəzeti,1984; Namazov Q.,Azərbaycan uşaq ədəbiyyatı, B., 1984.

**İSRAFİLBƏYOV** (Qədirli) Möhsün Nəcməddin oğlu (12.8.1893, Şamaxı - 1941) - ictimai-siyasi və dövlət xadimi, Azərbaycanda səhiyyə işinin təşkilatçılarından biri, professor (1934). Kiyev Universitetində təhsil aldığı dövrdə (1911-17) tələbələrin inqilabi nümayişlərində iştirak etmiş, 1911 ildə Rusiya Sosial-Demokrat Fəhlə (bolşeviklər) Partiyası [RSDF(b)P] sıralarına daxil olmuşdur. Fevral inqilabından (1917) sonra Bakıya qayıtmış, "Hümmət" (bolşevik) təşkilatının katibi və büro üzvü. RSDF (b) P Bakı Komitəsinin və Bakı Sovetinin üzvü seçilmişdir. 1918 ilin martında Lənkəran, Cavad, Şamaxı qəzalarının fövqəladə komissarı təyin olunmuşdur. 1918 ilin iyulunda V Ümumrusiya Sovetlər qurultayına nümayəndə göndərilmişdir. 1918 ilin avqustunda Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Xalq Milli İşlər Komissarlığında işləmişdir. Az sonra Həştərxana göndərilmiş, Rusiya Kommunist (bolşeviklər) Partiyası [RK(b)P] Həştərxan Quberniya Komitəsinin, Quberniya İcraiyyə Komitəsinin üzvü seçilmiş, sədr müavini, səhiyyə şöbəsinin müdiri vəzifələrində işləmişdir. 1919 ilin mayında RSFSR Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsində çalışmışdır. 1920

downloaded from KitabYurdu.az

ildən Azərbaycan İnqilab Komitəsi və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin tərkibinə daxil idi. Azərbaycan SSR Xalq Hərbi-Dəniz İşləri Komissarlığı Siyasi İdarəsinin rəisi işləmişdir. Nəriman Nərimanovun yaxın silahdaşı olmuş, partiyadaxili ixtilaflarda onun mövqeyini dəstəkləmişdir. 1921-22 illərdə Azərbaycan SSR Xalq İctimai Təminat Komissarı, 1922-34 illərdə Xalq Səhiyyə Komissarı işləmiş, 1934-37 illərdə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında malyariya və s. tropik xəstəliklərə qarşı mübarizə komitəsinin sədri vəzifəsində çalışmışdır.

Azərbaycanda malyariya, traxoma və s. xəstəliklərin ləğv edilməsində İsrafılbəyəvun böyük xidməti olmuşdur. Repressiyaya məruz qalmış, ölümündən sonra bəraət verilmişdir.

Əsəri: Проблемы борьбы с малярией в Азербаиджанской ССР, Б., 1937.

*Əd.: Кадырлы А., М. Н. Кадырлы (Исрвфилбеков), Б., 1970.*

**İSRAFİLOV** İsrafil (? -?) - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti. 1918 ildən Cümhuriyyət ordusu sıralarında xidmət etmişdir. Azərbaycan Hökumətinin 11 yanvar 1919 il tarixli qəran ilə ona podpolkovnik hərbi rütbəsi verilmişdir. Hərbi nazirin 14 yanvar 1919 il tarixli əmri ilə 1-ci Cavanşir piyada alayının komandiri, 19 fevral 1919 il tarixli əmri ilə isə hərbi nazirin yanında tapşırıq zabiti vəzifəsinə təyin edilmişdi. 1919 il iyunun 25-də imzalanmış başqa bir əmrlə İsrafil İsrafiləv yenicə formalaşdırılmağa başlayan 5-ci Bakı piyada alayına komandir təyin olunmuşdu. Lənkəran əməliyyatında və Qarabağda erməni qiyamının yatırılmasında alayı ilə birlikdə fəal iştirak etmişdi. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirət etmişdir.

**İSTANBUL KONFRANSI (1918)** - Mərkəzi Avropa İttifaqı ölkələri (Almaniya, Avstriya-Macanstan, Türkiyə və Bolqarıstan) ilə Qafqaz (Azərbaycan, Gürcüstan, Ermənis-tan və Dağlılar İttifaqı) dövlətləri arasında İstanbulda ke-çirilməsi nəzərdə tutulan beynəlxalq konfrans. Batum müqaviləsi imzalandıqdan (1918, 4 iyun) iki gün sonra Gürcüstan hökuməti Almaniyanın Xarici İşlər Nazirliyinə verdiyi notada Brest-Litovsk sülhü əsasında Dördlər İttifaqı ilə Gürcüstan arasında əlaqələr yaratmaq məqsədilə konfrans keçirməyi təklif etdi. 1918 il iyunun 9-da Almaniya cavab notasında konfrans çağırılmasına tərəfdar olduğunu bildirdi, lakin onun təkcə Gürcüstanla deyil, Qafqazdakı yeni respublikalarla birlikdə İstanbulda keçirilməsini təklif etdi. Almaniya öz müttəfiqlərini və Qafqaz respublikalarını Türkiyə vasitəsilə konfransa dəvət etdi. İyunun 17-də Fətəli xan Xoyskinin Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsinin iyunun 18-də qəbul etdiyi ilk qərarlarından biri Mərkəzi Avropa İttifaqı ölkələrinin İstanbul konfransına göndəriləcək Azərbaycan hökumət nümayəndə heyətini müəyyənləşdirmək oldu. Nümayəndə heyətinə Məhəmməd Əmin Rəsulzadə (sədr), Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfikürdski daxil edildi.

Azərbaycan nümayəndələri iyunun 24-də İstanbula gəldi. İyulun əvvəllərində konfransa gəlmiş nümayəndələr bir sıra ikitərəfli gizli görüşlər keçirmiş və danışıqlar aparmışdılar. İkitərəfli danışıqların gedişində Qafqaz respublikaların öz nüfuz dairələrinə daxil etmək uğrunda Almaniya ilə Türkiyə arasında gərgin mübarizə gedirdi. Bu mübarizədə gürcülər almanların, azərbaycanlılar isə türklərin tərəfdan olduqlarını nümayiş etdirirdilər. Ermənilər tərəddüd keçirirdilər. Danışıqların gedişində Almaniya nümayəndələri belə bir qənaətə gəldilər ki, Bakı probleminin həllinin açarı Cənubi Qafqaz respublikalarmda deyil, məhz Moskvadadır. Ona görə də Almaniya Sovet Rusiyası nümayəndələrinin İstanbul konfransına dəvət olunmasını təklif etdi. Türkiyə bu təklifı qəti surətdə rədd etdi. Bundan sonra almanlar Bakı və Azərbaycan barəsində Sovet Rusiyası ilə gizli danışıqlara girdilər. Berlində üç aya qədər davam edən Almaniya-Rusiya damşıqlan, nəhayət, Brest müqaviləsinə əlavə olaraq, Türkiyədən gizli Almaniya ilə Sovet Rusiyası arasında 27 avqust sazişinin imzalanması ilə nəticələndi. 8 fəsil və 17 maddədən ibarət olan sazişin 6-cı fəsli bilavasitə Qafqaza, 14-cü maddəsi isə Azərbaycana aid idi. Burada göstərilirdi ki, Almaniya Qafqazdä Gürcüstan hüdudlarından kənarda gedən hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir əməli yardım etməyəcək. Rusiya Bakı vilayətində neft hasilatını bütün imkanları daxilində artıracağını, çıxarılan neftin dörddə bir hissəsini isə hər ay Almaniyaya verəcəyini vəd edirdi (bax *Brest-Litovsk sülh müqaviləsinə əlavə məxfi saziş).* Sazişin Qafqaza aid hissəsi, ilk növbədə, Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünə qarşı yönəlmişdi. Bu məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə İstanbuldan Azərbaycan Cümhuriyyəti Hökumətinə yazırdı: ***"Siz Bakını tutmalısınız ki, hamı baş vermiş fakt qarşısında qalsın".***

1918 il sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan hərbi qüvvələri Bakını azad etdi. Bu, Tələt paşanın Berlində almanlarla apardığı danışıqlara, həqiqətən, ciddi təsir göstərdi. Sentyabrın 23-də imzalanmış Almaniya-Osmanh protokolu ilə Almaniya Rusiya ilə bağladığı 27 avqust sazişindən rəsmən imtina etdiyini bildirdi və Azərbaycanı diplomatik cəhətdən tanıyacağını və ilk addım kimi, Bakıda tezliklə konsulluq açacağını vəd etdi. 1918 ilin payızında Almaniya-Türkiyə blokunun dünya müharibəsində məğlubiyyəti nəticəsində oktyabrın 30-da Türkiyə İngiltərə ilə ağır şərtlərlə *Mudros ba rışığını {1918)* imzalamağa məcbur oldu. Mudros barışığının 11-ci maddəsinə gorə, Türkiyə orduları Cənubi Azərbaycanı və Cənubi Qafqazı tərk etməli idi.

1918 il oktyabrın axırlarında İstanbul konfransında iştirak etmək üçün Türkiyəyə getmiş Azərbaycan nümayəndə heyəti Mərkəzi Avropa ölkələrinin Cümhuriyyətin istiqlaliyyətini tanıyacaqlarına ümidlərini itirdi və yaranmış böhranlı vəziyyətdə konfransın artıq baş tutmayacağına əmin olaraq Bakıya qayıtdı.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Азербаиджанская Демократическая Республика (1918-1920). Законодательные акты, Б., 1998; Внешняя политика.ю Б., 1998; Топчибашев А.А., Дипломатические беседы в Стамбуле (1918-1920), B., 1994.

downloaded from KitabYurdu.az

**İSTANBUL KONFRANSINA NUMAYƏNDƏLƏR GÖNDƏRİLMƏSİ HAQQINDA QƏRAR** - 1918 il iyunun 18-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmiş qərar. Həmin qərara əsasən, Mərkəzi Avropa htifaqı ölkələrinin və Qafqaz dövlətlərinin İstanbulda keçiriləcək beynəlxalq konfransına Məhommməd Əmin Rəsulzadə (sədr), ədliyyə naziri Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfikürdskidən ibarət nümayəndə heyətinin tərkibi təsdiq olunmuşdu. Hökumətin qərarından dərhal sonra nümayəndə heyəti təcili yola salınmışdı.

**İSTANBULA DİPLOMATİK HEYƏTİN GÖNDƏRİLMƏSİ VƏ AZƏRBAYCANIN İRANDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİNİN TƏSİS OLUNMASI HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il avqustun 1-də qəbul etdiyi qərar. Qərarın birinci bəndi Yusif Vəzirovun (Çəmənzəminli) başçılığı ilə İstanbula diplomatik heyət göndərilməsi barədə idi. İkinci bəndə əsasən, A.Ziyadxanov başda olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinin İranda diplomatik nümayəndəliyi təsis olunurdu.

**İSTEHKAM İDARƏSİ** - Azərbaycan milli ordusu istehkam bölmələrinin formalaşmasına, təlim-tərbiyəsinə, istehkam və digər hərbi xarakterli tikinti işlərinin aparılmasına rəhbərlik edən orqan. 1918 il noyabrın 15-də Ümumi qərargahın şöbəsi kimi yaradılmışdı. Qoşun hissələrinin təşkilinin sürətləndirilməsi ilə əlaqədar 1919 ilin əvvəlində İstehkam şöbəsinin strukturu və səlahiyyəti genişləndirildi. Onun bazasında İstehkam idarəsi yaradıldı və bu struktur Ümumi qərargahın tərkibindən çıxarılaraq, hərbi nazirə tabe etdirildi.

İstehkam idarəsi iki şöbədən ibarət idi: istehkam və mənzil şöbələri. İstehkam şöbəsi idarənin şəxsi heyətinin, ordunun bütün istehkam bölmələrinin və hərbi hissələrin istehkam ləvazimatı ilə təmin edilməsi, qala və mövqe tikililərinin layihələşdirilməsi və icrası, yolların, körpülərin, maneələrin və digər istehkam qurğularının layihələşdirilməsi və qurulması, mənzil şöbəsi isə yeni qışlaların və bütünlükdə, hərbi nazirliyin binalarının tikintisi, yenidən qurulması və təmiri, mövcud su xətlərinin bərpası və yenilərinin çəkilməsi, hərbi nazirliyin idarələri, müəssisələri və hissələri üçün binaların kirayə edilməsi ilə məşğul olmalı idi. Ümumi qərar-gahın torkibindən çıxarıldıqdan sonra Topçu və İstehkam idarələrinin, həmçinin topçu və istehkam anbarlarının fəaliyyətinə nəzarət hərbi nazirin müavini Ə.Şıxlinskiyə həvalə olunmuşdu. 1919 il avqustun 16-dapolkovnik Savlin xidmətdən tərxis olunduğu üçün İstehkam idarəsinin rəisi vəzifəsini müvəqqəti olaraq mühəndis Zübeyir bəy Teymurxanov icra etdi. Həmin il avqustun 31-də bu vəzifəyə general-leytenant Tarxanov təyin olundu.

1920 ilin martında təchizat və təminat orqanlarında islahatların aparılması ilə əlaqədar İstehkam idarəsi Azərbaycan ordusu təchizat rəisi idarəsinin tərkibinə daxil edildi.

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**İSTEHKAMÇILAR MƏKTƏBİ** Azərbaycan Xalq Cümhuriyyətinin milli ordusu üçün hərbi kadrlar hazırlayan təhsil müəssisəsi. Hərbi nazirin 1919 il 28 yanvar tarixli əmrinə əsasən, Gəncədə yaradılmışdı. Statusuna görə kiçik komandirlər və mütəxəssislər hazırlayırdı. Təminat və təchizatın, müəllim-zabit kadrların və dərs vəsaitlərinin çatışmazlığı tədrisin təşkilində əlavə çətinliklər yaradırdı. 1919 ilin iyulunda İstehkamçılar məktəbi Praporşiklər məktəbi ilə birlikdə Hacıkəndə köçürüldü. Az sonra hər iki məktəbin Bakıya köçürülməsi qərara alındı. 1919 il avqustun axırlarında məktəb əvvəlcə Gəncəyə, sonra isə (sentyabrın 5-də) Bakıya köçürüldü. Məktəbin rəisi polkovnik B.K.Bekov idi. İstehkamçılar məktəbi Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, 1920 il iyulun 14-də ləğv olunmuşdur.

*Əd:.* Süleymanov M, Azərbaycan ordusu (1918-1920), B., 1998.

**"İSTİQLAL"** –həftəlik qəzet' "Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın orqanı. Bakıda nəşr olunmuşdur. İlk nömrəsi 1919 il fevralın 4-də, son nömrəsi 1920 il aprelin 23-də çıxmışdır. 42 nömrəsi buraxılmışdır. Qəzetin məsləki, məqsəd və vəzifəsi Məhəmməd Əmin Rəsulzadənin birinci nömrədə çap olunmuş "İstiqlal" adlı baş məqaləsində şərh olunmuşdu. Məqalədə deyilirdi: "İnsanların istiqlalına hürriyyyəti-şəxsiyyə, millətlərin hürriyyəti-şəxsiyyəsinə istiqlal deyilir. Hürriyyəti-şəxsiyyə nə qədər müqəddəs isə, şəxslərin məcmusu olan millətlərin istiqlalı da o nisbətdə müqəddəsdir. Azərbaycan istiqlalı! İştə, bir şüar ki, fırqəmiz onun ilkələmdan olmaq şərəfilə iftixar eylər. İştə, bu, qanlarla söndürülməyən və bu gün hər kəsi kəndisini tanımaya vadar edən, yolunda dönməz bir əzmlə cihad etdiyimiz Azərbaycan istiqlalını müdafiə üçün "İstiqlal"ı nəşrə başlayır".

*"Millət yoludur, haqq yoludur tutduğumuz yol,*
*Ey haqq, yaşa, ey sevgili millət, yaşa, var ol! "*

*(Tofiq Fikrət)*

**İstehkamçılar məktəbinin məzunları**



beyti qəzetin başlığında epiqraf kimi verilmişdi. "Heyəti-təhririyyə" (redaksiya heyəti) tərəfindən idarə edilən qəzet "Turan" mətbəəsində çap olunurdu. Əsas müəllifləri Məhəmməd Əmin Rəsulzadə, Seyid Hüseyn, Mirzə Bala

downloaded from KitabYurdu.az

Məmmədzadə, Ə.Həmdizadə, Əhməd Həmdi Qaraağaczadə, Ümmügülsüm, Əhməd Cavad, Əli Yusif, Cəfər Cabbarlı, Əbdülvahab Məmmədzadə, Məmmədəli Rəsulzadə, Ağa oğlu Məhəmməd, Məşədi Yusif Fərzixanov və b. idi. İştirakçıların çoxluğuna baxmayaraq, qəzetin aparıcı ədəbi simaları M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və Ə.H.Qaraağaczadə idi. “İstiqlal”da partiyanın məfkurəsinin təbliği əsas yer tuturdu. İlk nömrələrinin birində "Türk Ədəmi-Mərkəziyyət fırqəsi "Müsavatın məramnaməsi" dərc olunmuşdu. "Firqə həyatı" rübrikasında Bakı və ətrafında, əyalətlərdə "Müsavat" özəklərinin işi işıqlandırılırdı. “İstiqlal”da partiyalararası ixtilaflar, "Müsavat”la "İttihad" və sosialistlər arasındakı ziddiyyətlər geniş şərh olunurdu. "Kabinə böhranı" başlığı ilə dərc olunmuş məqalələrdə siyasi dairələrdə vəziyyət təhlil edilirdi. Qəzetdə Azərbaycan xalqına qarşı mart soyqırımının və İstiqlal bəyannaməsinin elan olunmasının ildönümü münasibətilə yazılara və keçirilmiş tədbirlərin təsvirinə geniş yer verilirdi.

“İstiqlal”ın səhifələrində bədii ədəbiyyat da əhəmiyyətli yer tuturdu. Qəzetdə M.Ə.Rəsulzadə, Ə.Cavad, Ümmügülsüm, Əli Yusif və C.Cabbarlının şerləri, "Seyrçi" və "Ağcaqanad" imzaları ilə nəsr əsərləri dərc olunmuşdur.

**"İSTİQLAL"** - 1919 ildə, *"İstiqlal bəyannaməsi "nin* elan olunmasının birinci ildönümü münasibətilə Bakıda buraxılmış toplu. "İstiqlal bəyannaməsi"nin mətni ilə açılan topluda Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan parlamenti", P.Kosalının "Seymin Parlamanı Cümhuriyyətimizin tarixi inkişafında", Üzeyir bəy Hacıbəylinin "Azərbaycan türklərinin musiqisi tarixindən", naməlum müəllifm "Xalq ədəbiyyatı" məqalələri verilmişdir.

**"İSTİQLAL"** - Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Vətəni tərk etməyə məcbur olan Azərbaycan siyasi mühacirlərinin 1932-34 illərdə Almaniyanın Berlin şəhərində Azərbaycan dilində nəşr etdirdiyi ictimai-siyasi qəzet. İlk nömrəsi 1932 il yanvarın 10-da buraxılmışdı. "İnsanlara hürriyyət! Millətlərə istiqlal!" şüarı ilə nəşr olunan qəzetin redaktoru Məhəmməd Əmin Rəsulzadə idi.

Sovet hökumətinin dəfələrlə təkidli tələbləri nəticəsində Türkiyə Cümhuriyyəti hökuməti öz ərazisində fəaliyyət göstərən Azərbaycan siyasi mühacirətinə qəzet və jurnalların nəşrini qadağan etməyə məcbur olduğundan Azərbaycan mühacirətinin rəhbəri M.Ə.Rəsulzadə bu məqsədlə fəaliyyət mərkəzini Almaniyaya-Berlinə köçürmüşdü. O, "İstiqlal" qəzetinin 1-ci nömrəsində dərc etdirdiyi "Qısılmayan bir səs" adlı baş məqaləsində bu münasibətlə yazırdı: "Türkiyə Cümhuriyyəti hökumətinin qərarı ilə İstanbulda nəşr edilən "Odlu yurd", "Azəri-Türk", "Yeni Türküstan" məcmuələri ilə "Bildiriş" qəzetəsi qapanmışdır". "İstiqlal" qəzetinin amalından və məramnaməsindən bəhs edən M.Ə.Rəsulzadə yazırdı: "Bu gün Berlindən eşitdiyiniz bu səs 10 ilə yaxın bir müddətdən bəri İstanbuldan gəliyordu".


İSTİKLÂL

Günün en büyük ve en mukaddes vazifesi

1918 28 MAYIS 1933

Vatansever bütün Azerbaycanlılara

“İstiqlal”ın səhifələrində Azərbaycan Cümhuriyyətinin elanı, ölkənin 11-ci Qırmızı ordu tərəfindən işğalı, Bakının daşnak və ingilis qüvvələrindən azad edilməsi, ermənilərin türk-müsəlman xalqına qarşı törətdiyi soyqırımları və başqa tarixi hadisələrin ildönümü bayram və matəm günləri kimi geniş qeyd olunurdu. 1933 il mayın 28-də Azərbaycan istiqlanının elan olunmasının 15-ci ildönümü münasibətilə qəzetin 8 səhifəlik bayram nömrəsi tamamilə bu hadisəyə həsr olunmuşdu. Qəzetdə o dövrdə SSRİ-də, Azərbaycanın SSR-də və ümumiyyətlə, dünyada baş verən mühüm ictimai-siyasi hadisələrə münasibət bildirilməklə yanaşı, Azərbaycan tarixilə, mədəniyyət, ədəbiyyat və incəsənə-tinə həsr olunmuş yazılara da geniş yer verilirdi. Qəzetdə Molla Pənah Vaqif, Abbas Səhhət, Cəlil Məmmədquluzadə haqqında, Azərbaycan teatr tarixi və s. barədə sanballı məqalələr dərc olunmuşdur.

Qəzetin, demək olar ki, bütün nömrələrinin baş məqalələrini M.Ə.Rəsulzadə özü yazırdı. "İstiqlal”ın ən məhsuldar yazarlarından biri də Mirzə Bala Məmmədzadə idi. Bəzən bir nömrədə onun bir neçə məqaləsi dərc olunurdu. Qəzetin əsas müəllifləri sırasında doktor Mir Yaqub, Hilal Münşi, doktor Abdulla Cövdət, V.Nuhoğlu, Dəmirçioğlu, İsrafıl və başqaları da var idi. “İstiqlal”ın əldə olan son 64-cü nömrəsi 1934 il avqustun 15-də işıq üzü görmüşdür.

*Əd.:* T a h i r l i A., "Azərbaycan mühacirət mətbuatı", B., 2002;

Ş i m ş i r Səbahəddin, Azərbaycanın istiqlal mücadiləsi, İstanbul, 2002.

downloaded from KitabYurdu.az



**İSTİQLAL BƏYANNAMƏSI** *Azərbaycan Milli Şurasının* qərarına əsasən, Azərbaycanın istiqlaliyyətini rəsmən elan edən sənəd *(Əqdnamə)*. İstiqlal bəyannaməsi Azərbaycan Milli Şurasının 1918 il mayın 28-də Tiflisdə, keçmiş Qafqaz canişininin iqamətgahında keçirilən iclasında qəbul olunmuşdur. İclasa Həsən bəy Ağayev sədrlik etmişdir. Altı bənddən ibarət olan bəyanaməni (bu sənədi o dövrdə Əqdnamə və ya *Misaqi-milli* də adlandırırdılar) Azərbaycan Milli Şurasının aşağıdakı üzvləri imzalamışlar: Həsən bəy *Ağayev,* Fətəli xan *Xoyski,* Nəsib bəy *Yusifbəyli,* Camo bəy *Hacınski,* Şəfi bəy *Rüstəmbəyli,* Nəriman bəy *Nərimanbəyov,* Cavad *Məlik-Yeqanov,* Mustafa *Mahmudov.*

Azərbaycanın istiqlaliyyətinin elan olunması və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin adından mayın 30-da radioteleqrafla dünyanın əksər siyasi mərkəzlərinə -London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Moskva, Roma, Vyana, Buxarest, Tokio, Haaqa, Kopenhagen, Stok-holm və s. yerlərə rəsmi məlumat verilmişdir.

İstiqlal bəyannaməsinin elan olunması Azərbaycan xalqının taleyində misilsiz tarixi hadisə idi. *M.Ə.Rəsulzadə* sonralar bu barədə belə yazmışdır: ***"28 mayıs 1918 il Bəyannaməsini nəşr etməklə Azərbaycan Şurayi-milliyəsi, söziin siyasi mənası ilə, bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Beyləki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafi və linqvistik bir kəlmə olmaqdan çıxaraq, siyasi bir aləm olmuşdur".***

**İSTİQLAL BƏYANNAMƏSİ**
(Əqdnamə)

"Böyük Rusiya inqilabının cərəyanında dövlət vücudunun ayrı-ayrı hissələrə ayrılması ilə Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcib bir vəziyyəti-siyasiyyə hasil oldu. Kəndi qəvayi-məxsusələrinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Vəqaye- siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milloti Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühur edən müharibənin təsviyəsi üzündən hasil olan vəziyyət hazireyi-siyasiyyə və məmləkət daxilində bulunan misilsiz anarxiya Cənub-Şərqi Zaqafqaziyadan ibarət bulunan Azərbaycana dəxi bulunduğu daxili və xarici müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təlqin ediyor.

Buna binaən arai-ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi-milliyeyi islamiyyəsi bütün cəmaətə elan ediyor ki:

1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi, Cənubi və Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan dövlətinin şəkli-idarəsi Xalq Cümhuriyyəti olaraq təqərrür ediyor.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə, həmcivar olduğu millət və dövlətlərlə münasibəti-həsənə təsisinə əzm ediyor.
4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrovunda yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər.
5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.
6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurayi-milliyəyə qarşı məsul hökuməti-müvəqqəti durur".
7. Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyov, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Nəriman bəy Nərimanbəyov, Cavad Məlik-Yeqanov, Mustafa Mahmudov.

**"İSTİQLAL" MUZEYİ** - Azərbaycanın tarix və mədəniyyətini, milli bədii irsini nümayiş və təbliğ edən ilk dövlət muzeyi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmışdır. 1919 il dekabrın 7-də Azərbaycan Parlamentinin işə başlamasının ildönümü münasibətilə onun binasında açılmış və Parlamentin nəzdində fəaliyyət göstərmişdir. Muzeyin təsisi ilə əlaqədar "Azərbaycan" qəzeti (1919, 23 sentyabr) yazırdı: ***"Sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da vətənimiz Azərbaycanda bir milli muzey təsisidir... Sābiq Rusiya zamanında təsis edəcəyimiz muzeyin adını "milli muzey"***

downloaded from KitabYurdu.az


"İstiqlal" muzeyinin möhürü. Azərbaycan Tarixi Muzeyi

***qoymaq fikrində idiksə də, bu giin fərdimizin köksünü qabardan istiqlal şüarı olmasına görə, "İstiqlal" muzesi olmasını əhəmiyyətli görürüz".***

Muzeydə Azərbaycanın azadlıq və istiqlalına dair sənəd və materiallar, tarixi və maddi mədəniyyət örnəkləri, arxeoloji tapıntılar, silahlar, numizmatika nümunələri, rəsm əsərləri, xalça və xalça məmulatı, bədii tikmələr, dulus və mis qablar, bəzək əşyaları və digər sənət əsərləri, Qurani-Kərimin nadir nüsxələri, müxtəlif əlyazmalar və s. toplanmışdı. Muzeyin açılışına hazırlıq görülərkən 1919 il noyabrın 6-da tərtib olunmuş bir sənəddə (onu həm muzeyin yaradıcıları olan sənətşünaslar Hüseyn bəy *Mirzəcamalov* və Məhəmməd *Ağaoğlu,* həm də Azərbaycan Parlamenti sədrinin müavinləri Həsən bəy Ağayev, Sultanməcid Qənizadə və Parlamentin rəyasət heyətinin digər məsul əməkdaşları imzalamışlar) muzeyin əsasnaməsi, uçot-mühafizə üzrə təlimat, fond-satınalma komissiyası haqqında müddəalar yığcam şəkildə əks olunmuşdu. Sənəddə göstərilirdi ki, muzeyə verilən hər bir əşya milli sərvətdir, əşya sahiblərinin ailə üzvləri gələcəkdə onlan tələb edə bilməzlər. Muzeyə hədiyyə olunmuş əşyalar geri qaytarılmır. Sənədin 3-cü bəndində deyilirdi: "İstiqlal muzeyi milli bir müəssisə olduğu üçün muzeydə mövcud bütün əşya milli mal hesab edilir. Heç kəs və heç bir müəssisə o şeylərə sahib ola bilməz".

Muzeyin təşkili və fəaliyyəti ilə bağlı bütün xərclər Azərbaycan Parlamenti rəyasət heyətinin hesabına idi. *Aprel işğalından (1920)* sonra "İstiqlal" muzeyinin eksponatları yeni təşkil olunmuş Azərbaycan Dövlot Muzeyinə verildi. Sonralar eksponatlann bir hissəsi (o cümlədən, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı, "İstiqlal bəyannaməsi"nin əsli, Azərbaycan Parlamentinin materiallan və s.) Moskvadakı İnqilab muzeyinə aparıldı.

*Əd.:* Bayramov A., Azərbaycanda muzey işinin tarixindən, "Mədəni-maarif işi" jurnalı, B., 2000, №. 4/5; Бахшиева А., Из истории образавания и деятельности и Азербаиджане»Музэкскурс»а , "Azərbaycan Tarixi Müzeyi - 80" toplusunda, B., 2001; Джахангирова С., О трех печатях из фонда новой истории Музея Истории Азербаиджана yenə orada.

**İSTİQLALIN BİRİNCİ İLDÖNÜMÜ,** Azərbaycanın istiqlalının elan olunmasının birinci ildönü-mü - Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının birinci ildönümü münasibətilə keçirilən bayram tədbirləri. 1919 il mayın 27-28-də istiqlaliyyətin birinci ildönümü münasibətilə Bakıda və bölgələrdə təntənəli mərasimlər və kütləvi tədbirlər keçirildi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 28 mayı bayram günü elan etmiş və bayramın keçirilməsi üçün komissiya yaratmışdı.

Mayın 28-də çıxan qəzetlər yaşıl və qırmızı rənglərlə haşiyələnmişdi. Gündüz saat 11-də Parlamentin təntənəli iclası, saat 1-də isə Hürriyyət meydanında (keçmiş 26-lar, indiki Sahil bağı) əsgərlərin rəsm-keçidi oldu. Rəsm-keçidi Nazirlər Şurasının sədri və hərbi nazir qəbul etdi. Zülfüqar və Üzeyir Hacıbəyli qardaşlarının truppası müxtəlif libaslarda mütəhərrik tarixi dəstələr təşkil edərək, küçələrdə böyük tamaşalar və nümayişlər göstərdilər. Belə ki, mayın 27-də səhər saat 9-da Hacıbəyli qardaşları truppasının artistləri bəzəkli avtomobildə, süvari musiqi dəstəsinin müşayiəti ilə Azərbaycan milli marşlarını oxuya-oxuya, tarixi qəhrəmanlar Çingiz xan, Əmir Teymur, Şah Abbas, Ağa Məhəmməd Şah Qacar, Şeyx Şamil, həmçinin Bakı, Şəki, Şirvan, Gəncə, Quba, Qarabağ xanlarının libaslarında hökumət teatrından çıxıb, şəhər küçələrindən keçərək Parlamenti təbrik etmək üçün onun qarşısına gəlmiş, daha sonra şəhərin məhəllələrini gəzə-gəzə teatra qayıtmışdılar. Kəndlərdən tərəkəmə köçləri gəlib, at çapa-çapa şəhər küçələrindən keçmişdilər. Mütəşəkkil dəstələr Parlamentin qarşısından keçmiş, tanınmış natiqlər orada nitqlər söyləmişdilər.

Mayın 28-də Hökumət teatrında Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operası və İsa bəy Aşurbəylinin "Azərbaycan" faciəsi tamaşaya qoyulmuşdu. Şeyxülislam həmin gün camaatın məscidlərə dəvət olunması, dualar oxunması, moizə və nitqlər söylənilməsi, 500 nəfərlik ehsan verilməsi barədə qəzalara teleqram göndərmişdi.

Bakıda bağlar, bulvar və b. yerlər çıraqban edilmiş, milli bayraq və xahlarla bəzədilmişdi. Küçələrdə və gəmilərdə işıqlarla "İstiqlal" sözü yazılmışdı. Qız qalası üzərində elektrik işığı ilə böyük tarixi panno qurulmuş və şüarlar yazılmışdı. 21 topdan şadyanahq atəşi açılmışdı. İstiqlalm birinci ildönümü bayramı çox böyük təntənə və əzəmətlə qeyd olunmuş, xalqm şüurunda dərin iz buraxmışdı.

*Əd:.* Süleymanov M., Müsəlman dünyasında ilk xalq cümhuriyyəti, B., 1999.

**İŞÇİLƏR MƏSƏLƏSİNƏ DAİR XÜSUSİ MÜŞAVİRƏNİN TƏŞKİLİ HAQQINDA QANUN** - əməyin mühafızəsi, fəhlələr və sahibkarlar arasında münasibətlərin tənzimlənməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il martın 10-da qəbul etdiyi sənəd (ətraflı məlumat üçün bax *Fəhlə məsələsinə dair məşvərət şurası).*

downloaded from KitabYurdu.az

**İTALİYA-AZƏRBAYCAN SAZİŞLƏRİ** - Azərbaycan və İtaliya dövlətləri arasında iqtisadi-siyasi əlaqələri genişləndirmək məqsədilə bağlanmış sazişlər. 1919 ilin payızından etibaron, ağqvardiyaçı rus generallarının məğ-lubiyyəti ilə əlaqədar beynəlxalq vəziyyət yeni yaranmış müstəqil respublikaların xeyrinə dəyişməyə başladı. Azərbaycan Hökuməti ölkənin müstəqilliyinin dünyamn böyük dövlətləri tərəfındən tamnması məsələsinin həllini sürətləndirmək məqsədilə Beşlər Şurasına, o cümlədən İtaliyaya müraciət etdi.

İtaliyanın Azərbaycanda güclü iqtisadi marağı var idi. Lakin o, mandatlığa götürmək istədiyi əraziləri xarici təcavüzdən qorumaq iqtidarında deyildi. Gələcəkdə Rusiya və Türkiyə ilə qarşılaşmaq qorxusu İtaliyanı bu işdən çəkindirdi.

Azərbaycan Hökuməti İtaliya ilə iqtisadi-siyasi əlaqələri gücləndirmək məqsədilə general İbrahim ağa Usubovun başçılığı ilə Romaya nümayəndə heyəti göndərdi. Heyət "hərbi missiya" adlanırdı və əsasən, hərbi, iqtisadi məsələlərlə bağlı işlər aparmalı idi.

İtaliya hökuməti 1920 il yanvarın 17-də Azərbaycanı de-fakto tanıması haqda qərarını general İ.Usubova təqdim etdi və ölkəmizlə daimi əlaqə saxlamaq fikrində olduğunu bildirdi.

General İ.Usubov Romada sənayeçi-senator S.E.Konti ilə görüşdü. Görüşdən məqsəd Azərbaycan ordusu üçün İtaliyadan paltar və silah alınması idi.1920 ilin fevralında S.E.Kontinin başçılığı ilə 35 nəfərdən ibarət İtaliya nümayəndə heyəti Azərbaycana gəldi. İtaliya Azərbaycandan neft, Azərbaycan isə oradan ordu üçün silah və hərbi geyimlər almaq niyyətində idi. İmzalanmış sazişə əsasən, İtaliyadan 6 ədəd sürətli kater, 12 ədəd mina düzən cihaza malik kater, 6 sualtı qayıq, 92 dəniz artilleriyası, piyada qoşunlar üçün 135 min mərmiyə malik 34 top, 12 hidroplan, 4 aeroplan, 5 tank, 20 zirehli maşın, 10 min cüt uzunboğaz çəkmə, 70 min cüt ayaqqabı, 40 min dəst şinel alınmalı idi. Azərbaycan isə İtaliyaya hər ay 500 min pud neft, yaxud mazut göndərməli idi. Azərbaycan neftin hər tonu üçün 35 dollar, mazutun hər tonu üçün isə 25 dollar almalı idi. İtaliya hökumətinin və ayrı-ayrı firmaların nümayəndələri 1920 ilin əvvəlində Azərbaycandan neft və neft məhsulları, pambıq, yun, ipək və digər məhsullar almaq barədə sazişlər imzalamışdılar. Lakin *Aprel işğalı (1920)* İtaliya-Azərbaycan sazişlərinin reallaşdırılmasma imkan vermədi.

**İTALİYANIN AZƏRBAYCANDA DİPLOMATİK NÜMAYƏNDƏLİYİ** - İtaliyanın Azərbaycan Cümhuriyyətində siyasi agentliyi. 1920 il martın 10-da Azərbaycanda fəaliyyətini dayandırmış İtaliya hərbi missiyasını əvəz etmişdir. İtaliya hökuməti bu ölkənin Cənubi Qafqazdakı hərbi missiyasının rəisi polkovnik M.K.Qabbam Azərbaycanda siyasi agent təyin etmişdi. Daimi iqamətgahı Tiflisdə yerləşməli idi. Podpolkovnik Enriko İnsom onun Bakıda nümayəndəsi idi. İtaliyanın Azərbaycana iqtisadi marağı güclü olduğu üçün böyük dövlətlər içərisindən Bakıda, birinci olaraq, E.İnsom başda olmaqla İtaliya diplomatik nümayəndəliyi fəaliyyətə başlamışdı. Konsul isə L.Qrikurov idi.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика, Б., В., 1998.

**"İTTİFAQ"** - Azərbaycan milli sosialist-inqilabçı (eser) təşkilatı. 1905 ilin oktyabrında Bakıda yaradılmışdı. Təşəbbüsçüləri sosialist-inqilabçılar partiyası Bakı komitəsinin üzvləri S.Rayetski və V.Rizel idi. Təşkilatın başçıları R.Şərifzadə, M.Cuvarlinski, R.Məlikov olmuşlar. "İttifaq"ın üzvləri sırasında P.Montinlə birlikdə qətlə yetirilmiş fəhlə Əli Hacı Yaqub oğlunun, eləcə də Ş.Poladov, tələbə Mehdiyevin də adları çəkilir.

Mətbu orqanı olmayan Azərbaycan eserləri "Qafqaz sözü", "Kaspi" və digər qəzetlərin səhifələrində məqalələr dərc etdirirdilər. Təşkilatın liderləri kütlələrin maarifləndirilməsini və xalqın azadlığını Özlərinin əsas məqsədləri elan edirdilər. Azərbaycanlılara qarşı soyqrımları zamanı "ittifaq"çılar eserlərlə və digər partiyalarla birlikdə hakimiyyət nümayəndələrinin təxribatına qarşı çıxış etmişdilər. Siyasi şəraitin və erməni-müsəlman münasibətlərinin gərginləşdiyi 1905 ilin oktyabrında "ittifaq"çılar sol blok taktikası tərəfdarları olaraq, eserlərin Bakı komitəsi, sosial-demokratlar və erməni "spesifikləri" ilə birgə qaragüruhçulara və digər təxribatçılara qarşı yaradılmış "İnqilabi koalisiya ittifaq"ına daxil oldular. 1905 ilin avqustunda yaranmış eyni vəziyyətdə "İttifaq" azərbaycanlıları və erməniləri birliyə çağıraraq, hakim dairələrin təxribatlarına uymamağa və qırğınları dayandırmağa çağırırdı. Taktiki üsullarında "ittifaq"çılar terrorun və anar-xist mübarizəsinin tərəfdarı idilər.

Sovet tarixşünaslığında "İttifaq"ın kütlələr arasında dayağı olmadığına görə 1906 ilin sonuna doğru tarix səhnəsindən çıxdığı bildirilirdi. Lakin son dövrlərdə aşkar olunmuş sənədlərə görə, onların fəaliyyəti 1911 ilə qədər davam etmişdi. 1907 ildə *Sosialist İnqilabçılar Partiyasının* Bakı komitəsi ilə birgə yaydıqları vərəqələrdə "ittifaq"çılar azərbaycanlıların azadlıq hərəkatına qoşulmağa və fəhlələri tətillərə çağırırdılar. Həmin ilin yayında eserlərin Bibiheybət şöbəsi "İttifaq" təşkilatına üzvlərin cəlb olunmasım bərpa edərək, öz mətbu orqanlarını onların arasında yayırdı.

Polis 1908 ildə də eserlərin Azərbaycan dilində çağırışlarını çap etmək üçün mətbəə şriftlərini aşkar etmişdi. Azərbaycan eser təşkilatının mövcudluğu barədə 1911 ilə aid bəzi məlumatlar da var. 1917 ildə bərpa olunmuş eser təşkilatlarının milli şöbələri aktiv fəaliyyətə başlamışdılar. Bu vaxtdan etibarən onlar sol - "Əkinçi" və sağ - "Xalqçı" qa-nadlarına bölünmüşdülər.

*Əd.:* Əfəndiyev S.M., Azərbaycan proletariatının inqilabı hərəkatı tarixindən, B., 1957; Лопач З.А., Деятельность эсеров в Азербайджане и борьба большеков против них (1903-1914). Автореф. Канд дисс., Б., 1981.

**"İTTİFAQİ-MÜSLİMİN"**, Müsəlman Konstitusion Partiyası-Rusiya imperiyasının milli-müstəmləkə zülmü altında olan türk-müsəlman xalqlarırın azadlığı uğrunda mübarizə aparan siyasi partiya. Əsası Rusiya mü-

downloaded from KitabYurdu.az

səlmanlarmın 1905 ilin avqustunda Nijni Novqorod şəhərində keçirilən 1-ci qurultayında (bax *Ümumrusiya müsə-manlarının qurultayları)* qoyulmuşdur. Partiyanın rəhbərləri - Əlimərdan bəy Topçubaşov, İsmayıl bəy Qasprali, Yusif Akçura idilər. Təşkilat, əsasən, Azərbaycan, Mərkəzi Asiya və Krımın görkəmli ziyahlarını birləşdirirdi. Partiyanın yaranması ərəfəsində, 1905 ildə Qafqaz canişini təyin edilmiş qraf İ.İ.Voronsov-Daşkovun Qafqazda islahatların keçiriləcəyi barədə vədlərindən ruhlanan liberal görüşlü Azərbaycan ziyalılarının daha qabaqcıl hissəsi fəal siyasi mübarizəyə başladı. Həmin mübarizənin əsas formalarından biri də petisiya kampaniyası idi.1905 il ərzində Peterburqa, əsasən, Əlimərdan bəy Topçubaşovun yazdığı və mahiyyətcə Azərbaycan cəmiyyətinin qanun çərçivəsində yenidən qurulmasına yönəlmiş milli proqram olan 3 petisiya göndərilmişdi. Lakin canişinin və digər hakimiyyət orqanlarının boş vədlərindən və Azərbaycan dilində bir neçə qəzetin buraxılmasına icazə verilməsindən savayı, onlara heç bir reaksiyası göstərilmədi.

Səylərinin heç bir nəticə vermədiyini görən Azərbaycan liberal ziyalılarının nümayəndələri Rusiya imperiyasının digər müsəlman əhalisi ilə sıx əlaqələr quraraq, vahid partiya yaratmaq və öz hüquqlarının təmin edilməsinə nail olmaq üçün daha fəal mübarizəyə qalxdılar. Bu səylər Krım və Kazan tatarlarının ziyahları tərəfindən dəstəkləndi. "İttifaqi-Müslimin"in təsis qurultayı 1905 il avqustun 15-də Nijni Novqorodda keçirildi. Görkəmli Kırım-tatar ictimai xadimi, "Tərcuman" qəzetinin naşiri İsmayıl bəy Qasprali qurultayın sədrliyinə namizəd irəli sürüldü. Lakin İsmayıl bəy Qasprali öz namizədliyini geri götürdü və onun təklifi ilə Əlimərdan bəy Topçubaşov qurultayın sədri seçildi. Qurultayda Rusiyanın türk-müsəlman əhalisinin lideri olan Əlimərdan bəy Topçubaşov tərəfindən yazılmış qətnamə yekdilliklə qəbul olundu. Qətnamədə partiyanın yaradılması, eləcə də müsəlmanlara qarşı tətbiq olunan bütün məhdudiyyətlərin aradan qaldırılması "onların siyasi, mülki, dini hüquqlarının rus əhalisinin hüquqları ilə bərabərləşdirilməsi"nin zəruriliyi qeyd edilirdi. "İttifaqi-Müslimin"in təşkilati baxımdan formalaşması Rusiya müsəlmanlarının 2-ci (1906, yanvar, Peterburq) və 3-cü (1906, avqust, Nijni Novqorod) qurultaylarında başa çatdı.

"İttifaqi-Müslimin" partiyası proqramının əksər bəndləri Kadetlər partiyasımn [bax *"Xalq azadlıq partiyasının (kadetlər) Bakı şöbəsi"]* proqramı ilə üst-üstə düşürdü. Dövlət Dumasına seçkilərə də onlarla birlikdə getmək qərara alınmışdı. Proqramın son və tam variantı 3-cü qurultayda qəbul edilmişdi. Onun birinci bölməsində partiyanın sinfi əlamətdən kənar ümummilli təşkilat və əsas vəzifəsinin Rusiyanın bütün müsəlmanlarını birləşdirmək olduğu göstərilirdi. "İttifaqi-Müslimin" Rusiyanın dövlət quruluşunu konstitusiyalı monarxiya şəklində görürdü. 17 oktyabr Manifestində (1905) vəd edilmiş demokratik azadlıqların Rusiyada yaşayan çoxsaylı türk-müsəlman xalqları üçün də təmin olunması tələbi irəli sürülmüşdü.

Türk-müsəlman əhali üçün milli dildə məktəblər açılması, qəzet-jurnal nəşri daxil olmaqla, milli-mədəni muxtariyyət tələb edilirdi. Məktəb və mədrəsələrin maarif nazirliyinin tabeliyindən çıxarılarıq, müsəlman ruhani idarələrinin tabeliyinə verilməsi təklif olunurdu. Ümumiyyətlə, ruhani idarələrinin hüquqlarının genişləndirilməsi, müsəlman ruhanilərinin hüquqlarının pravoslav ruhaniləri ilə bərabərləşdirilməsi, vəqf işinin nizama salınması barədə tələblər də irəli sürülmüşdü. Proqramda fəhlə-kəndli məsələsi də əksini tapmışdı. Qurultayda, həmçinin, erməni-müsəlman toqquşmalarına dair qətnamə də qəbul olunmuşdu. İki xalqın qarşılıqlı barışması işi din xadimlərinin və ictimai-siyasi xadimlərin üzərinə qoyulurdu. 3-cü qurultayda partiyanın Əlimərdan bəy Topçubaşov, İsmayıl bəy Qasprali, Rəşid İbrahimov, Yusif Akçura, Seyid Girey Alkin və başqa görkəmli ziyalıların daxil olduğu 15 nəfərdən ibarət Mərkəzi Komitəsi seçilmişdi. Bundan əlavə, hüquq, din və iqtisad komissiyaları da yaradılmışdı. Onların tərkibinə Azərbaycandan Ə.Topçubaşov, X.Xasməmmədov, Ə.Xoyski, Ə.İbrahimov daxil edilmişdilər. Bir çox cəhdlərə baxmayaraq, Bakıda partiyanın şöbəsini yaratmaq mümkün olmadı. Yerli şöbələri təşəkkül tapmayan Müsəlman Konstitusion Partiyası, əslində, yarımleqal fəaliyyət göstərirdi. Partiyanın əsas işi Dövlət Dumasımn Müsəlman fraksiyasının fəaliyyətinə rəhbərlikdən ibarət idi. MK-nın 1907 ilin aprelində keçirilmiş müşavirəsində "İttifaqi-Müslimin"in işini aparmaq və Dövlət dumasında Müsəlman fraksiyasının dumadankənar fəaliyyətinə kömək etmək üçün 5 nəfərdən ibarət daimi büro seçildi. Büroya Rusiyada çıxan müsəlman qəzetlərinin redaktorları -Ə.Topçubaşov, Ə.İbrahimov, S.Alkin, F.Kərimov və Y.Akçura daxil oldular. 1909 ildə keçirilmiş iclasda büronun sədrliyi Ə.Topçubaşova və Müsəlman fraksiyasının rəhbəri K.M.Tevkelevə tapşırıldı. Əksəriyyəti Dumanın Müsəlman fraksiyasının üzvləri olan partiya liderləri, İttifaqın proqram və qərarlarını rəhbər tutaraq, onun fəaliyyətində yaxından iştirak edirdilər. Fraksiyanın təşəbbüsü ilə 1914 ilin iyulunda Sankt-Peterburqda Rusiya müsəlmanlarının növbəti qurultayı keçirildi. K.M.Tevkelev sədr, Ə.Topçubaşov və İ.Axundov isə onun müavinləri seçildilər. Qurultayda IV Dumanın deputatı M.Y.Cəfərov çıxış edərək, ölkənin müsəlman əhalisinə qarşı hökumətin apardığı ayrı-seçkilik siyasətini kəskin tənqid etmişdi. O, K.M.Tevkelevlə birlikdə Baş nazirə məktub yazaraq, qeyri-rus xalqların orduda tikinti işlərini aparmaq üçün çağırışını nizamlamağı xahiş etmiş və nəticədə, bu çağırış təxirə salınmışdı. Müsəlman fraksiyası kadetlərlə və "Mütərəqqi blok"la (1915) birlikdə hökumətin dəyişdirilməsi və ictimai etimad hökuməti tələbi ilə çıxış etmişdi.

1917 ilin fevralında çarizmin devrilməsindən sonra Müsəlman fraksiyası Müvəqqəti hökumətin fəaliyyət proqramı ilə razılaşdığım bildirdi. M.Y.Cəfərov martın 9-da yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinin (XZK) üzvü seçildi və bununla Dumamn və Müsəlman fraksiyasının işi

downloaded from KitabYurdu.az

sona çatdı. Qafqaz müsəlmanlarının 1917 il aprelin 15-20-də Bakıda keçirilmiş qurultayında Ə.Topçubaşov azərbaycanlıların kadet partiyasından ayrıldığını bəyan etdi. Həmin dövrdə Azərbaycanın görkəmli ziyalıları artıq milli azadlıq hərəkatının fəal iştirakçıları idilər.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Seyidzadə D.B., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 1998; Süleymanova S.Y., Azərbaycanda ictimai-siyasi hərəkat, B., 1999; Багирова И.С. Политические партии и организации Азербайджана в начале XXвека, Б., Азербаиджанские депутаты в Государственной Думе России, Б., 1991.

**"İTTİHAD"** - siyasi, ictimai, ədəbi qəzet. Ceyhun bəy *Hacıbəyli* tərəfindən təsis edilmiş və ilk nömrəsi 1917 il dekabrın 4-də onun baş redaktorluğu ilə çıxmışdır. "Güc ittihaddadır" şüarı ilə çap olunurdu.1918 ilin əvvəllərində C.Hacıbəyli *"Azərbaycan"* qəzetinin rəhbərliyinə dəvət olunandan sonra "İttihad" 59-cu nömrəsindən etibarən *"Rusiyada müsəlmanlıq "* fırqəsinin rəsmi orqanına çevrilmişdi. Daşnakların azərbaycanlılara qarşı törətdikləri *Mart soyqırımı (1918)* nəticəsində nəşri müvəqqəti olaraq dayandırılan qəzet 1919 ilin fevralından partiya orqanı kimi yenidən çap olunmağa başladı. "İttihad"ın 1918 il və 1919 ilin aprelinə qədərki nömrələri redaksiya heyətinin (heyəti-təhririyyə) rəhbərliyi ilə çıxırdı. 1919 ilin aprelində isə qəzetə "Acaralı Camal" təxəllüsü ilə . *"Qafqaz İttihad Firqəsi"* Mərkəzi Komitəsinin üzvü Camal əfəndi Nakaşidze baş mühərrir təyin olundu. Lakin Camal əfəndi Nakaşidzenin partiyanın tərk etməsi onun qəzetin mühərrirliyindən də getməsi ilə nəticələndi. Bundan sonra qəzetə əvvəl qeyri rəsmi, 1920 ilin yanvarından isə "Qafqaz Tttihad Firqəsi"nin ikinci qurultayının qərarına əsasən, partiyanın sədri Qara bəy *Qarabəyli* rəhbərlik etməyə başladı. İlk vaxtlar gündəlik çıxan "İttihad" 1919-20 illərdə ayda yalnız bir-iki dəfə çap olunurdu. "İttihad"ın əsas müəllifləri Ceyhun bəy Hacıbəyli, Qara bəy Qarabəyli, Axund Molla Ələkbər Abbasquluzadə, Ceyhum bəy Tağızadə, Ə.H.Cabbarlı, Məhəmməd Hadi, Mirzə Bala Məmmədzadə, Hacı Mir Mövsün Qasımzadə, Bəhlul Behcət, Məhəmməd ağa Şahtaxtlı və b. idi. "İttihad" geniş proqramla fəaliyyət göstərirdi. Səhifələrində fırqənin siyasi mövqeyini, Qafqaz, Rusiya və İrandakı siyasi proseslərə aid məqalələr, sosial problemlərə dair yazılar, ictimai qüsurları tənqid edən felyetonlar, azadlığı tərənnüm edən şerlər, Bakı və qəzaların həyatına dair məlumatlar dərc olunurdu. *Aprel işğalından (1920)* sonra qəzetin nəşri dayandırılmışdır.

*Əd:* Mustafayev Q., XX əsrin əvvəllərində Azərbaycanda İslam ideologiyası və onun tənqidi, B., 1973; Göyüşov A., Azərbaycanda İttihadçılıq, B., 1997; Rüstəmova-Təhidi S., Azərbaycan dövrü mətbuatı, B., 1993.

**"İTTİHAD"** - Azərbaycan milli partiyası. İslam ideologiyasına əsaslanırdı. 1918 ilin yanvarında Bakıda fəaliyyət göstərən "Rusiyada müsəlmanlıq" partiyası ilə Gəncədəki "İttihadi-İslam" cəmiyyətinin birləşməsi nəticəsində yaradılmışdı.

Görkəmli pedaqoq Sultanməcid *Qənizadə,* tanınmış sahibkar Bəşir bəy Aşurbəyov, Bakı Müsəlman İctimai Təşkilatları Şurası sədrinin müavini Mir Yaqub *Mehdiyev,* həkim Kərim ağa Sultanov, Axund Molla Ələkbər Abbas-quluzadə, Axund Molla Hənifə və b. 1917 ilin yayında Bakıda "Rusiyada müsəlmanlıq" partiyasının təşkilat komitəsini yaratmışdılar.

1918 ilin yanvarında "Rusiyada müsəlmanlıq" partiyası və Gəncədə keçmiş "Difai" partiyasının rəhbərlərindən biri şeyxülislam Molla Məhəmməd Pişnamazzadənin başçılıq etdiyi "İttihadi-İslam" cəmiyyəti birləşərək, "İttihadi-İslam - Rusiyada müsəlmanlıq" adlandırıldı. Bakıda daşnakların azərbaycanlılara qarşı törətdikləri mart soyqırım-larından sonra partiyanın fəaliyyəti, əsasən, *Zaqafqaziya seymində* təmsil olunan fraksiya çərçivəsində davam edirdi. Fraksiyada "İttihad"ın nümayəndələri S.Qənizadə, M.Y.Mehdiyev və Heybətqulu Məmmədbəyli təmsil olunmuşdular. Seymdə fəaliyyət göstərdikləri dövrdə "Müsavat" və "İttihad" partiyaları, demək olar ki, bütün mühüm məsələlərdə həmrəylik göstərərək, birgə mövqedən çıxış edirdilər.

1918 il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildikdən sonra partiyada böyük canlanma baş verdi. Bu canlanma doktor Qara bəy *Qarabəyli* partiyanın rəhbəri olduğu dövrdə (1918 ilin sentyabrından) xüsusilə gücləndi. Onun səyləri nəticəsində "İttihad" nüfuzlu partiyaya, Azərbaycan Parlamentinin "Müsavat"dan sonra ən böyük fraksiyasına çevrildi. Partiyanın rus və Azərbaycan dillərində *"İttihad"* adlı qəzeti çap olunurdu. Başqa partiyalardan fərqli olaraq, "İttihad" islam beynəlmiləlçiliyini təbliğ etdiyindən Azərbaycanının qeyri-türk müsəlman əhalisi də (ləzgilər, kürdlər, talışlar) ona rəğbət bəsləyirdi. Partiyanın aparıcı qüvvəsini ziyalılar, sahibkarlar və din xadimləri təşkil edirdi. "İttihad"ın Azərbaycan kəndliləri və ordu arasında da nüfuzu var idi.

Partiyanın 1918-20 illərdəki fəaliyyəti, əsas etibarilə, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin işi ilə bağlı idi. Parlament açılarkən "İttihad" orada 11 üzvlə təmsil olunmuşdusa, 1920 ildə onların sayı 13 nəfərə çatmışdı. "İttihad"çılar Azərbaycan Parlamentində aparıcı fraksiya olan "Müsavat"a qarşı kəskin qarşıdurma şəraitində fəaliyyət göstərmişdir. Hələ ilk iclaslardan parlamentdə səs çoxluğuna malik olan "Müsavat" "İttihad"ı hokumət koalisiyasından kənarda qoymağa müvəffəq oldu. "İttihad" isə, öz növbəsində, Fətəli xan Xoyskinin rohbərlik etdiyi hökumətə etimad göstərməyəcəyini gizlətmirdi. 1918 ilin dekabrında işə başlayan hökumət cəmi 2 aylıq fəaliyyətdən sonra istefa verməyə məcbur oldu. Bu, "İttihad"ın neft və neft məhsullarının qanunsuz satışı barədə təqdim etdiyi sorğudan və hökumətə etimadsızlıq göstərməsindən sonra baş verdi. "Müsavat"' F.x.Xoyski kabinetinin istefasını "İttihad"ın hökumətə əks mövqeyi ilə, "İttihad" isə yalnız hökumətin özünün buraxdığı səhvlərlə əlaqələndirirdi. Bundan sonra "İttihad" parlamentə, Azərbaycanın müstəqilliyini tanımaq istəməyən partiyalar (rus-slavyan və erməni fraksiyaları) istisna olmaqla, geniş koalisiya

downloaded from KitabYurdu.az

yaratmaq təklifıni irəli sürsə də, "Müsavat" buna razı olmadı və beləliklə, gələcək hökumət böhranlarının təməli qoyuldu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi yeni hökumət koalisiyasında ermənilərin və rusların yer alması, "ittihad"çıların isə təcrid olunması sonuncuların bu kabineti ciddi tənqid etməsinə səbəb oldu. Tənqidin əsas hədəfləri daxili işlər nazirliyinin fəaliyyəti, hökumətin kadr siyasəti, maarif sahəsində əyintilər, Qarabağ və qaçqınlar problemləri idi.

1919 ildə "İttihad"ın parlamentdən kənar fəaliyyəti də genişləndi. Göyçay, Şamaxı, Cavad qəzalarında, Gəncədə, Qarabağda, Dağıstanda partiyanın şöbə və komitələri açılmışdı. "İttihad"ın nüfuzlu dayaqlarından birinə çevrilmiş Qarabağ komitəsi oraya general-qubernator təyin olunmuş Xosrov paşa bəy *Sultanovun* köməkliyi ilə yaradılmışdı. Həmin vaxt "Müsavat"ın üzvü olan bəzi şəxslər də bilavasitə "İttihad"ın rəhbərliyinə cəlb olunmuşdu. 1919 il aprelin 10-da "İttihad"ın I qurultayı çağırıldı. Partiyanın sədri Q.Qarabəylinin nitqində bütün siyasi qüvvələr Azərbaycanın müstəqilliyi naminə "fırqəbazlıq"dan əl çəkməyə çağırılırdılar. Nitqdə qeyd olunurdu ki, " "İttihad" bütün səylərini milli barışığın əldə olunmasına, Azərbaycanın müstəqilliyini qəbul edən firqələrin bu amal ətrafında birliyinə yönəltməlidir və partiyanın taktiki xəttini məhz bu vəzifə müəyyən etməlidir". Partiya proqramının qəbulunda "İslamın siyasi kodeks kimi bizə verdiyi hazır təşkilat formulunu kənara ata bilmərik" deməklə məramnamədə fırqə ideallarının toxunulmaz qalacağı təsdiq olunmuşdu. Bununla belə, bəzi məsələlərdə, o cümlədən torpaq məsələsində dəyişikliklər edilmiş və torpaqlarm bir hissəsini mülkədarlarda saxlamaq şərtilə, qalanlarının tədricən əkinçilər arasında bölüşdürülməsi barədə maddə salınmışdı. Qurultayda 22 nəfərdən ibarət Mərkəzi Komitə seçilmişdi. Qurultayın qəbul etdiyi qərarların çoxunun həyata keçirilməməsinə baxmayaraq, partiyamn tərkibi bundan sonra xeyli genişlənmişdi. "İttihad"ın I qurultayında hər 20 nəfərdən 1 nümayəndə seçilmək şərtilə, 300 nəfər partiya üzvü iştirak etmişdisə, 1920 ilin yanvarında keçirilən II qurultayında hər 100 üzvdən 1 nümayəndə seçilməklə 1000 nəfər iştirak edirdi. Qurultay 19 maddədən ibarət qərarlar toplusu qəbul etmişdi. Onların içərisində Türkiyə ərazisinin müdafıə edilməsi (Atatürk hökumətinin Antanta dövlətlərinin təcavüzündən müdafiə olunması nəzərdə tutulurdu), daşnakların müsəlmanlara qarşı qəddarlıqlarının qarşısını almaq üçün qətiyyətli tədbirlər görülməsini hökumətdən tələb etmək, əsgərlərin təminatım yaxşılaşdımıaq və onlarla pis rəftar edənləri cəzalandırmaq, dözülməz dərəcəyə çatmış rüşvətxorluğun və cinayətkarlığın qarşısını qətiyyətlə almaq, alış-verişi sərbəstləşdirmək, lazımi miqdarda məktəblər açmaq, torpaqların əhaliyə verilməsi üçün komissiya yaratmaq, Müəssislər məclisini mart ayından gec olmayaraq toplamaq, hökumət qəzetlərinin bitərəfliyini təmin etmək və s. barədə qərarlar var idi. Qurultay partiyanın 32 nəfərdən ibarət Mərkəzi Komitəsini seçdi. Nəcəf bəy *Vəzirov,* Həbib bəy *Mahmudbəyov,* Mir Məhəmməd Mir Bağırzadə MK-nın yeni tərkibinə seçilmişdilər.

Qurultayda səslənən tələbləri "İttihad" fraksiyası parlamentdə də hökumətin qarşısında növbəti dəfə sorğu şəklində qoyaraq, N.Yusifbəyli kabinetinin istefasına nail oldu. 1919 il avqustun sonundan N.Yusifbəyli yeni kabinetin təşkilinə başlayarkan "ittihad"çılara koalisiyaya qatılmağı təklif etdi. Çox çətin və uzun sürən danışıqlardan sonra kompromis variant kimi 5-ci hökumət kabinəsində daxili işlər naziri vəzifəsinə Məmməd Həsən Hacınskinin namizədliyi təsdiq olundu, maarif və dini etiqad naziri vəzifəsinə əvvəl Həmid bəy Şahtaxtinski, sonra isə (1920 il martın 5-dən) "ittihad"çı Nurməmməd Şahsuvarov təyin edildi. Parlamentin yeni rəhbərliyinin seçilməsi zamanı "İttihad"çı S.Qənizadə parlament sədrinin müavini seçildi. "İttihad" yeni hökumət qarşısında 11 bənddən - Denikinə qarşı qəti addımlar atmaq. və Azərbaycan ərazisini ona rəğbət bəsləyən qüvvələrdən təmizləmək, əhalinin maddi vəziyyətini yaxşılaşdırmaq, qanunsuz əməllərdə yaxalanmış məmurları məhkəmə məsuliyyətinə cəlb etmək və s.-dən ibarət tələblər qoydu. Lakin bəzi işlərin görülməsinə baxmayaraq, yeni kabinetin də ömrü uzun olmadı. Müxalif qüvvələr yenə də bir-birlərinə güzəştə getmədilər. "İttihad"ın öz nümayəndələrini kabinetdən geri çağırması, sonra isə sosialistlərin və "Əhrar"ın koalisiyadan çıxması hökumətin istefası ilə nəticələndi. Sovet ordusunun Azərbaycana yaxınlaşması və bolşeviklərin mövqeyinin güclənməsi ilə əlaqədar yeni kabinetin formalaşdırılması "İttihad"ın və "Müsavat"ın razılığı ilə sol yönlü M.H.Hacınskiyə tapşırıldı. Lakin M.H.Hacınskinin bolşeviklərlə koalisiya yaratmaq səyləri nəticəsiz qaldı və o, aprelin 22-də, yəni bolşevik işğalından bir neçə gün əvvəl istefa verdi. Aprelin 27-də M.H.Hacınski, Q.Qarabəyli və sosialistlər fraksiyasnın nümayəndələri çıxış edərək, bolşeviklərin parlamentə təqdim etdiyi ultimatumu dəstəkləyib, hakimiyyəti Sovetlərə təhvil vermək tərəfdarı olduqlarını bildirdilər. Onlar, həmçinin parlament üzvlərini inandırmağa çalışırdılar ki, Qırmızı ordu Bakıya girmədən Türkiyəyə köməyə getmək niyyətindədir. Müsəlman dünyasının azadlıq mübarizəsini özlərinin əsas proqram məqsədlərindən sayan “ittihadçı”'lar bolşeviklərə müttəfiq kimi baxırdılar və bu səhv baxışın nəticəsi olaraq, bolşevizm işğalını bu məqsədə doğru yönəlmiş bir addım kimi qarşıladılar.

Bolşeviklərə böyük umid bəsləyən və "Müsavat"la daim mübarizədə olan "İttihad"ın fəaliyyəti Azərbaycanda sovet hakimiyyəti bərqərar olduqdan sonra dayandırıldı. Partiyanın bir çox üzvü mühacirətə getdi. Azərbaycan Dövlət Siyasi İdarəsinin 1920 illərə aid sənədlərindən birində göstərilir ki, "İttihad"ın bəzi üzvləri dindar kəndlilər arasında sovet rejiminə qarşı təşviqat aparmaqla gizli fəaliyyət göstərməkdə davam edirdilər. 1929 ildə 474 "ittihad"çı qəza orqanları tərəfindən həbs edilmiş, onların

downloaded from KitabYurdu.az

bir qismi uzaq Şimala sürgün olunmuşdu. Partiyanın lideri Q.Qarabəyli isə sovet dövründə bir neçə dəfə həbs edildi, 1920 ildə əvvəl Solovki həbs düşərgəsinə (Rusiyanın Arxangelsk vilayəti), sonra isə Səmərqəndə sürgün olundu. 1937 ildə yenidən həbs olunaraq, Kolımaya (Maqadan vilayəti) göndərildi, 10 ildən sonra Səmərqəndə qayıdaraq, 1953 ildə orada vəfat etdi.

*Əd.:* Göyuşov A., Azərbaycanda ittihadçılıq, B., 1997; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998; Rəsulzadə M.Ə., Azərbaycan Xalq Cümhuriyyəti, B., 1990; Məmmədzadə M.B., Milli Azərbaycan hərəkatı, B., 1992; Азербайджанская Республика. Страницы истории 1918-1920, Б., 1994; Балаев А., Азербайджанское национальное движение в 1917-1918 гг., Б., 1998.

**"İTTİHAD" FRAKSİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "İttihad" partiyasını təmsil edən fraksiya. Parlamentdə 11 deputatla təmsil olunurdu: Qarabəy Qarabəyli, Mir Yaqub Mehdiyev, Kazım Əhməd (Xan Baba) Məmmədbəyov, Bəhram bəy Vəzirov, Sultanməcid Qənizadə, Həmdulla Əfəndi Əfəndiyev, Zeynal bəy Vəzirov, Heybətqulu Məmmədbəyov, Əli bəy Zizikski, Qara bəy Əliverdilər, Əsəd bəy Əmirov. Bitərəflər qrupunda olan İsgəndər bəy Axundov sonradan "İttihad" fraksiyasına daxil olmuşdu. "İttihad" fraksiyasının nümayəndələri Parlament komissiyaları arasında aşağıdakı kimi bölünmüşdülər: maliyyə-büdcə komissiyası - Qara bəy Əliverdilər, Əli bəy Zizikski; təsərrüfat komissiyası Heybətqulu Məmmədbəyov; redaksiya komissiyası Bəhram bəy Vəzirov; hərbi komissiya - Qara bəy Qarabəyli; aqrar komissiyası - Bəhram bəy Vəzirov; sorğu üzrə komissiya - Kazım Əhməd Məmmədbəyov; ölkənin məhsuldar qüvvələrindən istifadə komissiyası - Zeynal bəy Vəzirov; Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi komissiya - Əsəd bəy Əmirov, Zeynal bəy Vəzirov, Heybətqulu Məmmədbəyov, Cəmil bəy Ləmbəranski.

Parlamentdə "İttihad" fraksiyasının rəhbəri Q.Qarabəyli tərəfindən təqdim edilmiş bəyannamədə hakimiyyətin millətə məxsus olması ideyasının gerçəkləşməsi müsəlmanların istiqlal mübarizəsinin son məqsədi sayılırdı. Bəyannamədə Azərbaycandakı bütün xalqların sülh şəraitində yaşamalarının təmin olunması tələb edilirdi. "İttihad"çılar fəhlə məsələsində menşeviklərin proqramı ilə çıxış edərək, fəhlələrin səadətini təmin etməyə səy göstərəcəyini vəd edir, aqrar məsələdə isə torpağın pulsuz olaraq kəndlilərə paylanması təklifini irəli sürürdü. Onlar maliyyə sahəsində mütərəqqi gəlir vergisinin tətbiqini, digər vergilərin isə ləğvini tələb edirdilər. "İttihad" fraksiyası ibtidai məktəblərdə ümumi və icbari təhsilin bərqərar edilməsinə, məktəblərin milliləşdirilməsinə tərəfdar olduğunu bildirirdi.

"İttihad" fraksiyası Parlamentin, əsasən, sağ cinahını təşkil edirdi. Bu fraksiya ölkədə siyasi üstünlüyə malik milli demokratik cərəyana qarşı sərt müxalifət mövqeyində durur və 1919 ilin dekabrınadək Hökumət kabinetlərinin formalaşmasında iştirakdan imtina edirdi. "İttihad" fraksiyası Hökumətə etimad göstərməyənlərin öncüllərindən idi. 1919 ilin yanvarında "İttihad" fraksiyası neft möhtəkirliyinə qarşı mübarizə barədə, 1918 ildə tədarük olunmuş taxıl məhsulunun talan edilməsi və H.Z.Tağıyev fabrikində bez satışı ilə bağlı qanunsuzluqlar haqqmda üç bənddən ibarət sorğu ilə Hökumətə müraciət etmişdi. Fraksiyanın rəhbəri Q.Qarabəyli bu məsələlərin nizamlanması üçün xüsusi müşavirə çağırmağı təklif etmişdi. Sorğularla əlaqədar Hökumət üzvlərinin, hətta Hökumət başçısı Fətəli xan Xoyskinin Parlament qarşısında çıxışlarında verdiyi cavablarla hesablaşmayan Qarabəyli öz fraksiyası adından Hökumətin izahatını qeyri-qənaətbəxş saydığını bildirib ona etimadsızlıq göstərilməsi tələbini irəli sürmüşdü.

Müzakirələr nəticəsində aydın olmuşdu ki, Hökumətə tam etimadsızlıq göstərilməsini yalnız "İttihad" partiyası tələb edir. "İttihad" fraksiyası Parlamentdən yeni Hökumət kabinəsinin təşkil olunması tapşırığını alan Nəsib bəy Yusifbəylinin namizədliyini də müdafiə etməmişdi.

Bununla belə, "İttihad" da yeni kabinetə daxil olmaq ehtimalını nəzərdən keçirirdi. O, rus-slavyan və erməni fraksiyaları istisna olmaqla, Azərbaycanın müstəqilliyi ideyasını müdafiə edən bütün partiyaların Parlament mərkəzinin yaradılmasını təklif etmiş və bildirmişdi ki, əks təqdirdə "Müsavat"-sosialist mərkəzi adlandırılan mərkəz (əgər bu baş tutarsa) ölkəni səhvlərdən və müxalifətdən xilas edə bilməyəcək. 1919 ilin sentyabrında da hökumətə etimad məsələsi irəli sürülərkən "İttihad" fraksiyası qəti və açıq şəkildə buna qarşı çıxmışdı. "İttihad" yeni hökumətin “Müsavat”' və "İttihad" fraksiyaları, həmçinin bitərəflər bloku əsasında formalaşdırılmasını təklif edirdi. 1919 ilin oktyabrında "Müsavat" fraksiyası bitərəflərlə bir fraksiyada birləşdikdən sonra, kabinetin tərkibi məsələsi təkrar müzakirə olunarkən "İttihad" "Müsavat” ın daxili və xarici siyasət taktikası ilə prinsipial ixtilafda olduğuna görə, yeni Hökumətin tərkibində iştirakdan imtina etməyi qərara aldı. Bununla yanaşı, N.Yusifbəylini bitərəf hökümət yaratmağa qadir olmayan məhdud partiya lideri hesab etdiyini bildirən "İttihad" onun təşkil etdiyi hər hansı hökumətə etimadsızlıq göstərilməsi haqqında qərar qəbul etdi. 1919 ilin dekabrında yeni Hökumət kabinetinin formalaşdırılması zamanı "İttihad"dan 2 nəfər koalisiyaya daxil edildi. Həmid bəy Şahtaxtinski xalq təhsili və dini etiqad naziri (1920 il martın 5-dən 30-dək Nurməmməd Şahsuvarov), Sultanməcid Qənizadə dövlət nəzarətçisi oldu.

"İttihad" partiyası yeni Hökumətdə iki nazir vəzifəsi alsa da, fraksiyanın lideri Q.Qarabəyli, öz "ənənəsinə" sadiq qalaraq, Hökumətin proqramını kəskin tənqid edirdi. O, dövlət məmurlarını rüşvətxorluqda, vəzifədən sui-istifadədə ittiham emiş, "respublika qəzalarını tamamilə yaddan çıxaran" Xalq Maarifi Nazirliyini isə kəskin tənqid atəşinə tutmuşdu. “Müsavat” partiyası "ittihad"çıların müqavimətini neytrallaşdırmaq niyyəti ilə onlara koalisiya təklif etmişdi. "İttihad" Hökumətə daxil olmaq təklifı müqabilində üç şərt irəli sürmüşdü: 1) bütün müsəlman partiyalarının koalisiyasına riayət olunsun; 2) daxili işlər naziri portfeli Məmməd Həsən Hacınskiyə verilsin;

downloaded from KitabYurdu.az

3) dövlət nəzarəti vəzifəsi bu partiyanın nümayəndəsinə həvalə edilsin. Dövlot nəzarəti vəzifəsini ələ keçirən "ittihad"çılar bildirirdilər ki, dövlət strukturlarındakı qanunsuzluqlara və sui-istifadə hallarına görə "müsavat"çılar daha çox məsuliyyət daşıyırlar. "İttihad" "Müsavat"ı dövlət vəsaitindən qanunsuz olaraq özünün partiya təbliğatı üçün istifadə etməkdə ittiham edirdi.

"İttihad" bir sıra məsələlərə münasibətdə qismən bolşevikpərəst mövqedən çıxış edirdi. Bu fraksiya ***Qərb imperia-lizminə qarşı mübarizədə kommunistlərlə ittifaqa çağırır, rus Sovet ordusunun Antantaya qarşı mübarizə aparan Tiirki-yəyə yardım etməsi üçün Azərbaycana buraxılmasını tələb edirdi.*** "Müsavat"'ın M.H.Hacınskini daxili işlər naziri vəzifə-sindən geri çağırmaq niyyətindən xəbər tutan "İttihad" hökumət koalisiyası haqqında qərar qəbul etmişdi. Yeni təyinatlardan razı qalmadığını bildirən "İttihad" fraksiyası baş nazir N.Yusifbəyliyə partiyalarla məsləhətləşməyi və Hacınskini nazir vəzifəsində saxlamağı təklif etdi. İttihadçılar "Müsavat"'ı hakimiyyəti zorla ələ keçirməkdə günahlandırırdılar. Onlar ***Hökumətin kommunistlərə qarşı gördüyü tədbirlərin də əleyhinə çıxırdılar.*** "İttihad" nümayəndələri Hökumətin tərkibindən çıxaraq, "Müsavat"ın hakimiyyətdən getməsinə çalışır, əks halda, Hökumətdə iştirakdan imtina edəcəkləri ilə hədələyirdilər. *1920* ***ilin aprelində hakimiyyətin kommunistlərə təhvil verilməsi haqqında ultimatumun müzakirəsi zamanı "İttihad" fraksiyası hakimiyyətin təhvil verilməsi təklifini müdafiə etdi*** Beləliklə, Azərbaycanın bolşeviklər tərəfindən işğalına əlverişli şərait yaradıldı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), I və II cildlər, B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Göyüşov A., Azərbaycanda ittihadçılıq, B., 1997.

**"İTTİHAD VƏ TƏRƏQQİ"** - türk ziyahlarının ("yeni osmanlılar" və ya "gənc türklər") siyasi təşkilatı. "İttihad və Tərəqqi" cəmiyyətinin əsası 1889 ildə İstanbulda hərbi-tibb məktəbinin tələbələri tərəfindən qoyulmuşdu. Təsisçilərindən biri də Azərbaycan milli hərəkatının görkəmli xadimi Əli bəy Hüseynzadə idi. Cəmiyyətin üzvləri, din və məzhəb fərqi qoymadan, Osmanlı dövləti daxilindəki bütün toplumları "Osmançılıq" düşüncəsi ətrafında birləşdirmək, 1876 il konstitusiyasını bərpa etməyə çalışırdılar. "İttihad və Tərəqqi" cəmiyyəti sonralar Əhməd Rza bəyin fəaliyyəti nəticəsində daha da güclənmiş və ölkənin vilayətlərində gizli şöbələri açılmışdı. "Gənc türklər" Parisdə özlərinin xarici mərkəzini yaratmış və 1892 ildən "Məşvərət"' qəzetini nəşr etməyə başlamışdılar. Aralarında Ənvər, Niyazi, Əyyub Səbri kimi cəsarətli və vətənpərvər zabitlərin olduğu "İttihad və Tərəqqi"çilər əlavə kömək almaq üçün bolqar inqilabçıları ilə də əlaqə saxlayırdılar.

Osmanlı imperiyasında idarəçilik sistemini dəyişmək tərəfdarı olan Mustafa Kamal da "İttihad və Tərəqqt"'çilərlə yanaşı, əvvəlcə Şamda (Dəməşq), sonra isə Solanikdə (Saloniki) "Vətən və Hürriyyət" cəmiyyəti yaratmışdı. Bu cəmiyyət sonralar "İttihad və Tərəqqi" cəmiyyəti ilə birləşmiş, nəticədə 1907 ilin sonundan etibarən "İttihad və Tərəqqi" gənc türklərin vahid təşkilatına çevrilmişdi. Mustafa Kamal əsgəri həyatdan kənar siyasi fəaliyyətini bu cəmiyyətdə davam etdirirdi. Lakin, çox keçmədən, cəmiyyətin rəhbərləri ilə onun arasında fikir ayrılıqları yarandı. O, əsgərlərin siyasətə qarışmasını istəmirdi. Bu səbəbdən cəmiyyətdən aynldı.

1908 ilin iyulunda "Gənc türklər" inqilabına rəhbərlik edən "İttihad və Tərəqqi" partiyası Sultan II Əbdülhəmidin ləğv etdiyi 1876 il konstitusiyasının bərpa olunduğunu elan etdi. İyulun 24-də İstanbul əhalisi və şəhər qarnizonunun üsyançılar tərəfinə keçməsi nəticəsində Sultan konstitusiyanın bərpa olunması və məclisin çağırılması haqqında fərman verməyə məcbur oldu. Məclisdə çoxluq təşkil edən "Gənc türklər" inqilab ərəfəsində verdikləri vədlərinə (aqrar islahatı, fəhlələrin vəziyyətini yaxşılaşdırmaq, milli azlıqlara muxtariyyət vermək, xarici kapitalı məhdudlaşdırmaq və s.) əməl etmədiklərindən onların sosial bazaları getdikcə zəiflədi. Bundan istifadə edən II Əbdülhəmid tərəfdarları 1909 il aprelin 13-də hərbi çevriliş edib hakimiyyəti ələ keçirdilər. Makedoniyaya qaçmış gənc türklər əsas dayaqları olan üçüncü ordunu ("Hərəkət ordusu") İstanbul üzərinə yeritdilər. 1909 il aprelin 27-də II Əbdülhəmid taxtdan salındı. "İttihad"çılar hakimiyyəti ələ aldıqdan sonra ölkədə sultan hakimiyyəti dövründəkindən fərqlənməyən, hətta daha sərt siyasət yeritməyə başladılar. Onlar ordunu da siyasətə qarışdırırdılar. Nəticədə, Osmanlı ordusunda zabitlərin böyük əksəriyyəti ya ittihadçı, ya da onlara qarşı müxalifətdə idilər. Zabitlərin bir-birlərinə qarşı düşmənçilik etməsi ordunun döyüş qabiliyyətini itirməsinə səbəb oldu. Bundan əlavə, yeritdikləri səbatsız siyasət nəticəsində "ittihad"çılar xaricilərin Osmanlı dövləti üzərinə ayaq açmasına şərait yaratdılar.

Birinci dünya müharibəsi (1914-18) ərəfəsində hakimiyyəti ələ alan "İttihad və Tərəqqi"'nin rəhbərlərindən ibarət üçlük (Ənvər, Tələt və Camal) Türkiyənin milli mənafelərini Almaniya imperializminin maraqlarına tabe etdirərək, ölkəni müharibəyə sürüklədilər. Bu da 1918 ildə Türkiyənin rüsvayçı məğlubiyyəti ilə sona çatdı. Yalnız Mustafa Kamal başda olmaqla həmin üçlüyün siyasəti əleyhinə olan vətənpərvərlərin Qurtuluş savaşı nəticəsində ölkə tamamilə dağılmaqdan xilas edildi və türk dövlətçiliyini yaşatmaq mümkün oldu.

"İttihad və Tərəqq"inin proqramındakı türkçülük və türk xalqlarının birliyi ideyası o dövrdə çar Rusiyasının milli əsarəti altında olan türk xalqlarının, o cümlədən Cənubi Qafqaz türklərinin "İttihad və Tərəqqi"yə rəğbətini artırmışdı. Gizli şəkildə də olsa, bu ərazilərdə "İttihad və Tərəqq"inin şöbələri yaranmışdı.

Türk xalqlarının Rusiya imperiyasına qarşı milli azadlıq hərəkatının əsas mərkəzlərindən biri olan Azərbaycanda "İttihad və Tərəqqi"'yə rəğbət daha güclü idi. Azərbaycanda "İttihad və Tərəqqi"çilər, hətta özlərinin müstəqil parti-yalarını yaratmışdılar (bax *Qafqaz İttihad və Tərəqqi firqəsi).*

*Əd.:* Erol Güngör, Tarihte Türkler, İstanbul, 1990; Ahmet Palazoğlu,Osman Bircan, Türkiyə Cümhuriyyəti inkilap tarihi və Atatürkçülük, Ankara, 1993.

**"İTTİXAD"** - ictimai-siyasi qəzet. *"İttihad" Partiyasının* orqanı. 1919 ilin fevralından rus dilində çıxmışdır. Həmin ilin

downloaded from KitabYurdu.az

iyul ayına qədər qəzetin nəşrinə redaksiya heyəti rəhbərlik edirdi. Bu dövrdən etibarən isə qəzetin baş redaktorluğu partiya sədrinin müavini Qazi Əhməd bəy *Məhəmmədbəyova* həvalə olundu. Ayda iki-üç nömrəsi çap olunurdu. *Aprel işğalından (1920)* sonra nəşri dayandırılmışdır.

**İYİRMİ ALTI İYUN (1918)** - Azərbaycan Milli ordusunun yaranma günü. Azərbaycan Respublikasının ümumxalq bayramlarından biri. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998 il 22 may tarixli Fərmanı ilə təsis edilmişdir (bax *Milli ordu günü).*

**İYİRMİ SƏKKİZ APREL İŞĞALI (1920)** - Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin təcavüzkar sovet-bolşevik qoşunları tərəfindən işğalı və Azərbaycanın nıüstəqilliyinə son qoyulması. 28 Aprel Azərbaycan xalqının tarixində on faciəli günlərdən biridir. Bax həmçinin *Aprel işğalı (1920).*

**İYİRMİ SƏKKİZ MAY (1918)** - Azərbaycan Respublikasının ən mühüm dövlət və ümumxalq bayramlarından biri; Respublika günü. Müsəlman Şərqində ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı və Azərbaycan dövlətçiliyinin bərpa edildiyi gün. 1918 ildə həmin gün Azərbaycan Milli Şurasının iclasında 6 bənddən ibarət Azərbaycanın *İstiqlal bəyannaməsi* qəbul olundu. Bəyannamədə müstəqil Azərbaycan dövlətinin idarə formasımn xalq cümhuriyyəti olduğu; bütün millətlər və dövlətlərlə yaxın münasibətlər qurmaq əzmi; millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən, bütün vətəndaşların mülki və siyasi hüquqlarının təmin edilməsi; xalq cümhuriyyəti ərazisi daxilində yaşayan millətlərin sərbəst inkişaflarına geniş meydan verilməsi təntənə ilə vəd edilirdi. Bu tarixi sənədə əsasən, Müəssislər Məclisi çağırılana qədər Milli Şura ölkədə qanunverici, müvəqqeti hökumət isə icraedici orqan hesab olunmuşdur. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk konstitusiya aktı - İstiqlal bəyannaməsinin qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyəvi xalq cümhuriyyəti formasmda elan olundu. Milli Şuranın elə həmin iclasında bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Xosrov Paşa bəy Sultanov, Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacmskidən ibarət ilk Azərbaycan Hökuməti yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributlan - öz parlamenti, hökuməti, ordusu, bayrağı və pul vahidi olan müstəqil suveren bir dövlətə çevrildi. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində mühüm rol oynamışdır.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı (1992) ilə 28 may - Respublika günü hər il ümumxalq bayramı kimi dövlət səviyyəsində qeyd olunur.

**İYİRMİ YEDDİ AVQUST ALMANİYA-RUSİYA SAZİŞİ (1918)** - Almaniya ilə Rusiya Sovet Federativ Sosialist Respublikası arasında 1918 il avqustun 27-də bağlanmış *Brest-Litovsk müqaviləsinə əlavə məxfi saziş.*

**"İYUN BÖHRANI"** - *Nuru paşanın* Azərbaycan Milli Şurasına və hökumətinə etimadsızlığı ilə bağlı 1918 il iyunun 16-17-də yaranmış siyasi böhran. Azərbaycan istiqlalı üçün son dərəcə təhlükəli olan bir dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və Milli Şura 1918 il iyunun 16-da Tiflisdən Gəncəyə köçdülər. Onların Azərbaycan hüdudlarına daxil olduqları zaman qarşılaşdıqları ilk ciddi məsələ bolşevik-daşnak qüvvələrinin Cənubi Qafqazın müsəlman olan əhalisinə qarşı həyata keçirdikləri soyqırımlarına son qoymaq üçün Osmanlı dövləti tərəfindən göndərilən *Qafqaz İslam Ordusunun* komandanı təyin edilmiş Nuru paşanın və onun ətrafındakı qüvvələrin Milli Şuraya və Hökumətə soyuq və inamsız münasibəti oldu. Nuru paşanın bu mövqeyi Azərbaycana gəldiyi ilk günlərdə milli hökuməfə hörmət və etimadla yanaşacağı, daxili siyasi proseslərə müdaxilə etməyəcəyi barədə verdiyi bəyanata tam əks idi. Belə bir vəziyyət Azərbaycan istiqlalı üçün ciddi təhlükə yaradırdı.

Gərginliyin dərinləşməsinə Nuru paşanı əhatə edən, ona güclü təsir göstərən *"rus çinovniklərinin qapısında baş əyən qara qəlbli, xəbis adamlar"ın* (R.Vəkiləv) "xidmətləri" mühüm rol oynamışdı. Özünün də etiraf etdiyi kimi. siyasətçi olmayan Nuru paşanın Azərbaycan hakimiyyətinə qarşı tutduğu bu sərt mövqe Azərbaycanın daxili və xarici vəziyyətinin çox mürəkkəb olduğu bir durumda bildirilmişdi. Bakıda sovet hakimiyyəti pərdəsi altında fəaliyyət göstərən daşnak rejimi Osmanlı dövlətinin Qafqaz xalqları üçün ciddi təhlükə doğurduğu, Osmanlı işğalının ağır nəticələrinin bütün xalqlar üçün faciəli sonluqla bitəcəyi, yalnız "Sovet hakimiyyəti"nin xalqlara "xoşbəxt gələcək" bəxş edəcəyi və bu kimi cəfəngiyatlarla dolu təbliğat apardığı bir şəraitdə Nuru paşanın Azərbaycan istiqlalına münasibəti onun siyasi proseslərə düzgün qiymət verə bilməməsi ilə bağlı idi.

Nuru paşanı əhatə edən *İlhaqçılar* Azərbaycanın yeganə xilas yolunu Osmanlı imperiyası hüdudları daxilində mövcudluqda görürdülər. Onlar Nuru paşanı Milli Şura hökumətinin guya Rusiyapərəst və inqilabi hakimiyyət olmasına, anarxiyaya və xaosa gətirib çıxaracağına inandıra bilmişdilər. Azərbaycana yeni-yeni Osmanlı hərbi qüvvələrinin gəlməsi ilə Nuru paşanın özünün Azərbaycandakı rolu barəsində təsəvvürlərində ciddi dəyişikliklər baş verirdi. Belə ki, o, özünü burada mütləq hakim kimi aparmağa başlamışdı. Onun, əksər hallarda, Azərbaycan Hökuməti ilə razılaşdırılmamış və Hökumətin əhali qarşısında bəyan etdiyi prinsiplərə zidd olan qərarları ölkənin siyasi dairələrində çaşqınlıq və məyusluq doğururdu, hətta bəzi siyasi xadimlər Azərbaycanın xarici siyasət istiqamətinə yenidən baxmaq zərurətinin yarandığını bildirirdilər. Vəziyyətin anlaşılmazlığı belə bir münasibətin Nuru paşanın şəxsi mövqeyi, yaxud Osmanlı dövlətinin siyasəti

downloaded from KitabYurdu.az

ilə bağlı olub-olmamasının qeyri-müəyyənliyindən irəli gəlirdi. Bunu və digər məsələləri müzakirə etmək üçün Milli Şura və hökumət tərəfindən M.Ə.Rəsulzadə, F.x.Xoyski, M.H.Hacınskidən ibarət nümayəndə heyəti təşkil edildi. Gəncədəki siyasi mühit danışıqların gərgin olacağından xəbər verirdi. "Bu mübarizə məmləkət üsuli-idarəsinə aid demokrasi cərəyanlarla aristokrat zehniyyətlər arasında vüsuə gəliyordu" (M.Ə.Rəsulzadə). Nuru paşa Qafqaz İslam Ordusunun komandanı kimi yalnız hərbi sahə ilə məşğul olduğunu bildirib, nümayəndə heyətini onları maraqlandıran məsələləri onun siyasi işlər üzrə müşaviri Əhməd bəy Ağaoğlu ilə müzakirə etməyi məsləhət gördü: "Mən əsgərəm, siyasəti anlamıram, ordunun siyasi müşaviri Əhməd Ağaoğludur. Onunla görüşün".

Azərbaycan nümayəndə heyəti Ə.Ağaoğlunun sərt bəyanatı ilə qarşılaşdı. Onun fikrincə, guya indiki hakimiyyət əhali arasında nüfuzunu tamamilə itirmişdir və əhali ona qarşı hər an üsyana qalxa bilər. Belə bir vəziyyət yaranarsa, Osmanlı hərbi qüvvələri hakimiyyəti müdafiə etməyəcəklər. Ə.Ağaoğlu bununla Nuru paşanı əhatə edən qüvvələrin hökumətin radikal islahatlar proqramından, xüsusilə aqrar islahat tədbirlərindən narahatlıqlarını çatdırırdı. Zahirən Azərbaycanın müstəqilliyinə qarşı çıxmayan Ə.Ağaoğlu sərt şəkildə "siz Milli Şuranı bağlayın, hökumətdən əl çəkin, Nuru paşa istədiyi adamlardan bir hökumət qurar" tələbini dilə gətirmişdi.

Azərbaycan nümayəndə heyəti Ə.Ağaoğlunun bu tələbini qətiyyətlə rədd etmiş və bildirmişdi ki, bu, əslində, Azərbaycanın işğal edilməsi demək olacaqdır. Bunun isə istər Osmanlı dövlətinin, istərsə də Azərbaycanın beynəlxalq aləmdə maraqlarına ciddi zərbə vuracağı şəksizdir. Belə bir tələb, dolayısı ilə, 1918 il iyunun 4-də Batumda imzalanmış "Sülh və dostluq haqqında" Osmanlı-Azərbaycan müqaviləsinin şərtlərinə kökündən zidd idi. Azərbaycan nümayəndələrinin ortaya qoyduqları bu və digər dəlillər Ə.Ağaoğlunu özünün əvvəlki mövqeyindən geri çəkilməsi ilə nəticələndi. Danışıqların yekununda belə bir razılıq əldə olundu ki, Milli Şura yalnız yeni hökuməti yaratmalı və səlahiyyətlərini bu hökumətə verib özünü buraxmalıdır.

Siyasi böhran Milli Şurada təmsil olunan bir sıra siyasi qüvvələrin kəskin narazılıqlarına səbəb oldu. Müsəlman sosialist bloku və "Hümmət" Osmanlıların dövlətin daxili işlərinə qarışmasına etiraz əlaməti olaraq Milli Şuranı tərk etdilər.

1918 il iyunun 17-də Gəncədə şəhər idarəsinin binasında Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə Milli Şuranın 7-ci iclası keçirildi. İclası giriş sözü ilə açan M.Ə.Rəsulzadə yaranmış vəziyyətin fövqəladə olduğunu və müzakirəyə çıxarılacaq məsələlərə hissə qapılmadan soyuqqanlı yanaşmağın vacibliyini qeyd etdi. O bildirdi ki, əsas prinsipə sadiq qalmaqla, yaranmış vəziyyət nəzərə alınmalıdır. "Bəlkə də bu gün qəbul edəcəyimiz qərar bizim bədbəxtliyimiz olacaq, lakin əgər yaranmış vəziyyətdən yeganə çıxış yolu yalnız bundadırsa, biz onu qəbul etməliyik". Siyasət naminə siyasətdən əl çəkməyin vacibliyini vurğulayan sədr Şura üzvlərini verəcəkləri qərarlarda vətən və millətin maraqlarını nəzərə almağa çağırdı.

Sonra hökumət başçısı Fətəli xan Xoyski ölkə hüdudlarına köçməsi ilə əlaqədar mayın 28-də Tiflisdə yaradılmış Müvəqqəti hökumətin istefasını qəbul etməyi Milli Şuradan xahiş etdi. Aslan bəy Səfıkürdski Nuru paşanın simasında Osmanlı dövləti rəhbərlərinin Azərbaycan xalqının maraqlarına zidd addımlar atmasına təəssüfləndiyini bildirdi. M.Ə.Rəsulzadə natiqin çıxışını kəsərək, "paşanın bu işə aidiyyəti yoxdur" dedi. A.Səfikürdski çıxışını davam etdirərək, xalqın türklərə münasibətdə məyusluğunun son nəticədə Azərbaycan üçün çox ağır nəticələrə səbəb olacağını bildirdi. Məmməd Yusif Cəfərov isə qeyd etdi ki, "biz asanlıqla əldə etdiyimiz azadlığı belə asanlıqla da təhvil veririk... Kömək gözlədiyimiz Osmanlı qardaşlarımız ürəklərimizi oxlayırlar, hisslərimizi zəhərləyirlər".

Məmməd Həsən Hacınski Osmanlıların Azərbaycanın müstəqil və nüfuzlu hökumətinin yaradılmasını səmimiy-yətlə istədiklərini qeyd etdi. Rəhim bəy Vəkilov isə müzakirəyə çıxarılmış təklifı "Müsavat partiyasının çəkildiyi son səngər" adlandırdı.

İclasda çıxış edən Nəsib bəy Yusifbəyli yaranmış böhranın əsas səbəbinin Nuru paşanı əhatə edən "şübhəli şəxslər"də olduğunu göstərdi. Onun fkrincə, indiki vəziyyətdə güzəştə getməmək olar, lakin bu ağır nəticələrə gətirib çıxarar ki, bu da "belə bir müşkül vəziyyətə düşdüyümüz vaxtda vətənpərvərlik hərəkəti ola bilməz". O, hökumətin istefasının qəbul edilməsini, Milli Şura sədrinin yeni hökumətin təşkilini özünün inandığı şəxsə həvalə edərək, Milli Şuranın bütün səlahiyyətlərinin həmin hökumətə verilməsini, tezliklə Müəssislər məclisinin çağırılmasını, hökumətə bu ixtiyarı heç kəsə könüllü təhvil verməməyi tapşırmağı təklif etdi, əks halda, "hər cür cəhdlərə qarşı müstəqilliyimizin ilk müdafiəçisi olacağını bildirdi.

Fasilədən sonra M.Ə.Rəsulzadə ümumi razılığa əsasən, yeni Hökumətin təşkilini F.x.Xoyskiyə həvalə etdiyini bildirdi. F.x.Xoyski yeni hökumətin fəaliyət proqramının əsasında Azərbaycanın şərəfinin, azadlığının və müstəqilliyinin durduğunu bəyan etdi. Müzakirələrin yekununda Milli Şuranın fövqəladə iclasının iştirakçıları - M.Ə.Rəsulzadə, M.Mahmudov, R.Vəküov, S.Qənizadə, N.Yusifbəyli, X.Xasməmmədov, F.x.Xoyski, X.Məlik-Aslanov, T.Makinski, Ə.Şeyxülislamov, M.Rizayev, M.H.Seyidov, Hacı Molla Səlim Axundzadə, İ.Vəkiləv, A.Qardaşov, F.Köçərli, M.Hacınski, C.Hacınski, Q.Camalbəyov, Ə.Pepinov, H.Ağayev, X.Sultanov, Ş.Rüstəmbəyli, M.Məhərrəmov, M.Y.Cəfərov, A.Səfikürdski, M.H.Hacınski, Şərifov iki qətnamə qəbul etdilər. Müvəqqəti hökumətin hüquq və və-zifələrinə dair birinci qətnamədə göstərilirdi ki, müvəqqəti hökumət dövlət müstəqilliyini və mövcud siyasi azadlığı ləğv etmək, aqrar və bu kimi digər vacib məsələlər barə-

downloaded from KitabYurdu.az

sində inqilabi qanunları dəyişdirmək hüquqlarına malik deyildir. Hökumət altı aydan gec olmayaraq, Müəssislər məclisi çağırmalıdır, digər idarəetmə məsələlərində isə tam hüquqa malikdir. İkinci qətnamə Azərbaycan Milli Şurasnın buraxılması haqqında idi. Qətnamədə deyilirdi: "Azərbaycanın daxili və xarici həyatındakı ağır vəziyyəti nəzərə alaraq, bütün hakimiyyət F.x.Xoyskinin sədrliyi ilə təşkil olunmuş hökumətə verilsin və ona tapşırılsın ki, öz hakimiyyətini yaxın vaxtlarda çağırılacaq Müəssislər məclisindən başqa heç kəsə güzəştə getməsin".

Yekun nitqi ilə çıxış edən M.Ə.Rəsulzadə bu qətnamələrə əsasən, tarixi məsuliyyətin bütün ağırlığının F.x.Xoyski hökuməti üzərinə düşdüyünü nozərə çarpdırmaqla, onun vəziyyətini döyüşün ən ağır və məsuliyyətli anında geri çəkilən ordunun son arxa mövqelərini müdafiə etmək əmri almış hərbi qüvvənin keçirdiyi qorxu və həyəcan hissi ilə müqayisə etdi. Yeni doğulmuş Azərbaycan dövlətinin məhvinə yol verməmək hökumətin ən vacib vəzifəsi hesab olunurdu. M.Ə.Rəsulzadə Milli Şuranın xalq nümayəndəliyini təmsil etdiyini göstərməklə, bu orqanın fəaliyyətini dayandırmasını "heç şübhəsiz, demokratiyanm geri çəkilməsi və irtcaçı qüvvələrin uğuru" kimi qiymətləndirdi. Məsələyə əsl qiyməti tarixin verəcəyini bildirən natiq Müəssislər məclisinə tezliklə keçiriləcək seçkilərdə Azərbaycan xalqının əsl istəyinin ortaya çıxacağına inandığını bildirdi. M.Ə.Rəsulzadə çıxışının sonunda həmkarlarını mövcud şəraitin ağırlığına baxmayaraq, Azərbaycanın tezliklə azad və mütərəqqi bir cəmiyyətə sahib olacağına inandıraraq dedi: ***"İştə, müstəqil bir Azərbaycan! Siyasətin kəsbi-hürriyyət və istiqlal edəcək Azərbaycanda ictimai hürriyyətlər və hüquqi-bəşərə aid düsturların, hər halda, müstəbid Rusiya zamanından daha geniş, daha müsaid olacağına şübhə etməm. Hətta, əfəndilər, söyləmək istərəm ki, Azərbaycan Qafqasiyada ən hürriyyətpərvər və inqilabçı təsəvvür olunan Gürcüstandan daha məsuddur. Çünki burada bizim daxili hiirriyyətlərimizə icrai-nüfuz edən və edəcəyi mütəsəvvir bulunan qiivvət yabançı bir qüvvət deyil, öz qüvvətimizdir. Buradan istiqbal, böyük və şanlı bir millətin miixtəlif şöbə və budaqlarının tövhidə doğru gedəcəyi eyni məqsədimizdir. İctimai və hüquqi hürriyyətlərdə bilfərz qaib etsək belə, siyasətən qazanacaq təlafiyi-mafat edəcəkiz".*** M.Ə.Rəsulzadə çıxışını ***"Yaşasın Azərbaycan! Yaşasın türk xalqı!"*** şüarı ilə bitirdi. Beləliklə, yeni yaranmış Azərbaycan dövlətçiliyi üçün ilk ciddi smaq olan "İyun böhranı" Milli Şuranın öz fəaliyyətini dayandırması ilə nəticələndi. Yeni hökumətin tərkibinə daxil olan 12 üzvdən 6-sı əvvəlki hökumətdə də iştirak etmişdi.

Nuru paşa isə tezliklə Azərbaycan Hökuməti ilə münasibətlərini normallaşdırmaq məcburiyyətində qaldı.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (Сборник документов), Б., 2001; Azər-baycan tarixi, 7 cilddə, c.5, B., 2001; Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti, B., 1990; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Vəkiləv P.Ə., Azərbaycan Respublikasının yaranma tarixi, B., 1998; Hətəmov R., "17 iyun böhranını doğuran səbəblər haqqında, "Tarix və onun problemləri" jurnalı, № 2, B., 2002.

**"İZVESTİYA SOVETA RABOÇİX İ SOLDATSKİX DEPUTATOV BAKİNSKOQO RAYONA"** - gündəlik ictimai-siyasi qəzet; Bakı Sovetinin orqanı. 1917 il martın 30-dan 1918 il iyulun 31-dək nəşr edilmişdir. Cəmi 372 nömrəsi çıxmışdır. 6 nömrəsi Azərbaycan xalqına qarşı kütləvi soyqırımlarının əsas təşkilatçılarından biri olan S.Şaumyanın redaktorluğu ilə buraxılmış, 7-ci nömrədən redaksiya tamamilə menşevik, eser və daşnakların əlinə keçmişdir. 1917 ilin noyabrında Bakı Sovetinə rəhbərlik bolşeviklərin əlinə keçdikdən sonra redaksiyanın tərkibi və qəzetin istiqaməti dəyişmişdir. A.V.Karinyan (Ter-Qabrielyan) qəzetin redaktoru olmuş, redaksiyaya iki beynəlmiləlçi-menşevik daxil edilmişdi. Qəzet, əsasən, bolşeviklərin xəttini həyata keçirmiş, Bakıda 1918 il mart qırğınlarından sonra ardıcıl bolşevik orqanına çevrilmişdi. 1918 ilin aprelindən mayınadək qəzetin faktik redaktoru redaksiya heyətinə daxil olan A.İ.Mikoyan idi. "Kavkazskaya Krasnaya Armiya" qəzeti ilə birləşdikdən sonra S.Q.Osipyan onun redaktoru seçil-mişdi. Qəzet bolşeviklərin və başqa siyasi qüvvələrin Azərbaycanda müstəqil milli dövlət quruculuğu əleyhinə çevrilmiş və xalqın milli-mənəvi dayaqlarını sarsıdan ideyaları təbliğ edirdi. 1918 ilin aprelindən qəzet, eyni zamanda, Azərbaycan və erməni dillərində də buraxılmışdır. Qəzetin nəşrində və buraxılmasında M.Əzizbəyov, S.Boqdanov, P.Çaparidze, İ.Mahgin, A.Karinyan, A.Mikoyan, S.Şaumyan və b. iştirak etmişlər. Bakı Xalq Komissarları Sovetinin hakimiyyəti döv-ründə (1918, 25 aprel-31 iyul) qəzetdə partiya, sovet, həmkarlar ittifaqı təşkilatların fəaliyyəti işıqlandırılmışdır.

downloaded from KitabYurdu.az

# J

**JORDANİYA** Noy Nikolayeviç (21.3.1869, Gürcüstan, Lançxuti ş. - 1953) - Gürcüstanın dövlət xadimi, gürcü menşeviklərinin lideri, jurnalist. 20 əsrin 90-cı illərindən sosial-demokrat hərəkatında iştirak etmiş, Cənubi Qafqazda ilk sosial-demokrat təşkilatı "Mesamedasi" qrupuna daxil olmuşdur. I Dövlət dumasının deputatı, sosial-demokrat fraksiyasının sədri (1906) idi. 1912 ildə Bakıda "Naşe slovo" menşevik qəzetinin redaktorlanndan olmuşdur. Fevral inqilabından (1917) sonra Tiflis Fəhlə Deputatlan Sovetinin, 1918-21 illərdə isə Gürcüstan menşevik hökumətinin sədri olmuşdur. Gürcüstanda sovet hakimiyyəti elan edildikdən (1921, 25 fevral) sonra mühacirətdə yaşamış, Gürcüstan mühacir təşkilatının rəhbərlərindən biri kimi geniş fəaliyyət göstərmişdir.

**JURNALİSTLƏR VƏ ƏDİBLƏR İTTİFAQI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeyri-hökumət yaradıcılıq birliyi. 1919 ilin oktyabrında yaradılmışdı. Həmkarlar ittifaqı səciyyəsi daşıyan qurum milli mənsubiyyətindən asılı olmayaraq, jurnalist və yazıçıları birləşdirirdi. Sədri L.P.Umanski, sədr müavini Xəlil İbrahimov (Xəlil İbrahim), xəzinədarı Xudadat bəy Əzizov idi. Üzeyir Hacıbəyli ittifaqın idarə heyətinin üzvü olmuşdur. Nizamnaməsinə əsasən, bütün mübahisəli məsələlərə təşkilatın nəzdində yaradılmış arbitraj komissiyasında baxılırdı. İttifaq fəal mədəni-maarif və xeyriyyəçilik fəaliyyəti göstərirdi. Belə ki, 1919 ilin noyabrında ittifaqın yoxsul üzvləri üçün pul fondu yaradılmış, noyabrın 23-də fondun nəfinə tamaşa göstərilmişdi. Elə həmin vaxt "jurnalist günü"nün keçirilməsi qərara alınmış, Dövlət Teatrında (indiki Azərbaycan Dövlət Opera və Balet Teatrı) tamaşa-bal təşkil edilmiş, jurnalist günü ilə əlaqədar bir gün-lük qəzet buraxılmışdı. Jurnalistlər və ədiblər ittifaqı Azərbaycanda demokratik mətbuatın inkişafında, Cümhuriyyət ideyalarının, hökumətin həyata keçirdiyi ictimai-siyasi, iqtisadi və sosial-mədəni tədbirlərin işıqlandırılmasında mühüm rol oynamışdır. İttifaq *Aprel işğalı (1920)* nəticəsində fəaliyyətini dayandırmışdır.

downloaded from KitabYurdu.az

# K

**KADETLƏRİN BAKI ŞÖBƏSİ** - Rusiyanın ilk liberal təmayüllü konstitusion-demokratlar (kadetlər) partiyasının Bakıdakı şöbəsi. Təsis yığıncağı 1906 il yanvarın 7-də keçirilmişdi. Bakı kadetləri, əsasən, Moskva və Peterburq kadetlərinin proqramını qəbul etmişdilər. Ətraflı məlumat üçün bax *Xalq azadlıq partiyasının (kadetlərin) Bakı şöbəsi* məqaləsinə.


Каспій

**"KASPİ"** - ictimai-siyasi, ədəbi qəzet. 1881 ilin yanvarından 1919 ilin martınadək Bakıda rus dilində nəşr olunmuşdur. 10065 nömrəsi çıxmışdır. İlk 28 nömrəsi həftədə iki dəfə, 1881 ilin iyulundan həftədə 3 dəfə, 1884 ildən isə gündəlik çıxmışdır. "Kaspi"nin yaradılması ideyası "Ba-kinskiye izvestiya" qəzetinin redaktoru V.V.Kuzmino məxsus idi. Müxtəlif vaxtlarda qəzetin redaktorları və naşirləri V.Kuzmin, V.Liçkus-Xomutov, Əlimərdan bəy *Topçubaşov,* Həsən bəy *Zərdabi,* Əli bəy *Hüseynzadə* və b. olmuşlar. 1897 ildə "Kaspi"ni Hacı Zeynalabdin Tağr mış və qəzetin redaktorluğunu Ə.Topçubaşova həvalə etmişdir. Qəzetin 133-cü sayında dərc edilmiş "Redaksiyadan" adlı yazıda "neft səltənətinin paytaxtı" olan Bakıda, ümumiyyətlə, Qafqazda, Orta Asiyada əhalinin yaşayışı

*Kaspi qəzeti redaksiyasının erməni–daşnak quldurları tərəfindən yandırılması. 1918, mart*



downloaded from KitabYurdu.az



adət-ənənələri, dini ilə bağlı məsələlərin qəzetin səhifələrində işıqlandırılacağı vəd olunurdu. H.Z.Tağıyev milli ziyalıları qəzetin ətrafına toplayırdı. Rusca çıxmasına baxmayaraq, 90-cı illərdən etibarən "Kaspi"nin səhifələrində milli məfkurə məsələləri geniş yer aldı. "Kaspi" Ə.Topçubaşovun, habelə sonralar Ə.Hüseynzadənin, H.Zərdabinin redaktorluğu dövründə rusdilli ,milli düşüncəli mətbuat orqanına, milli ideyanın başlıca müzakirə mərkəzlərindən birinə çevrildi. Mütərəqqi, demokratik Azərbaycan ziyalılarının görkəmli nümayəndələri - H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, Ə.Ağayev (A ğ a o ğ l u), M.Şahtaxtinski, C.Məmmədquluzadə və b. "Kaspi" ilə əməkdaşlıq edirdilər. Qəzet öz səhifələrində Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini işıqlandırılırdı.

1-ci və 2-ci səhifələrində, bir qayda olaraq, elanlar, bildirişlər, reklamlar, felyetonlar, 2-ci və 3-cü səhifələrdə Rusiyaya dair ümumi xəbərlər, yerli xronika, şəhər dumasının iclasları haqqında materiallar, müxtəlif hadisələr - ixtiralar, yeniliklər, teatr və musiqi, ayrı-ayrı ölkələrin təhsil sistemi haqqında yazılar, Azərbaycan və rus ədəbiyyatından nümunələr dərc olunurdu. "Kaspi"nin "Gündəlik həyatdan", "Bizə yazırlar", "Özgə diyarlardan", "Məhkəmə xronikası", "Kaspinin məktubları", "Arabesklər", "Eskizlər" və b. rubrikaları vardı. "Arabesklər" və "Eskizlər" rubrikalarında şəhər dumasının və idarəsinin fəaliyyəti tez-tez tənqid olunurdu. 1901-07 illərdə "Kaspi"nin bir səhifədən ibarət xüsusi əlavəsi də buraxılırdı. Burada Rusiya Teleqraf Agentliyinin dünyadakı hadisələr haqqında məlumatları, dünya mətbuatının səhifələrindən xülasələr, birja qiymətləri və s. çap olunurdu. Qəzetin xüsusi "Neft şöbəsi" idə neft sənayesinin vəziyyətinə, ayrı-ayrı şirkətlərin fəaliyyətinə, neft hasilatına və satışına dair materiallar dərc edilirdi. 1905 ildə Bakıda ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları zamanı "Kaspi" əsl fədakarlıq göstərmiş, uydurma erməni təbliğatına sinə gərmişdi. Ermənilər bütün dünyaya Bakıda müsəlmanların əli ilə guya "10-15 min erməni öldürüldüyü barədə" yalanlar yaymağa başladığı və Rusiyanın paytaxt şəhərlərində çıxan "Birjevıye vedomosti", "Sankt-Peterburqskiye vedomosti", "Novosti", "Rus" və b. qəzetlər erməni saxtakarlıqlarını yaydığı zaman "Kaspi"nin əməkdaşları bu barədə bir çox həqiqətləri üzə çıxarmış və qəzetin səhifələrində dərc etmişdilər. Hətta bəzi ermənilər öz saxtakarlıqlarına görə "Kaspi" vasitəsilə üzr istəmək məcburiyyətində qalmışdılar. 1918 ilin martında bolşevik-daşnak quldurlarının Bakıda azərbaycanlılara qarşı törətdiyi soyqırımı zamanı "Kaspi" qəzetinin mətbəəsi də yandırılmışdı.

Əd.: Azərbaycan dövri mətbuatı, 1832-1920. Biblioqrafiya. B., 1987; Axundov N., Sənədlərin dili ilə, B., 1980; Zeynalov N., Azərbaycan mətbuat tarixi, B., 1973 Мовлаева С.А., Пропаганда русской и азербайджанской литературы на страницах газеты «Каспий», Б., 1983.

*Kazım Qarabəkir paşa məscidi. 1999. Naxçıvan şəhəri*



**KAZIM QARABƏKİR PAŞA** (1882, İstanbul - 1948, orada) - Türkiyənin görkəmli hərbi və dövlət xadimi, *Atatürkün* yaxın silahdaşlarından biri. Ali hərbi təhsil almış, Balkan (1912-13) və Birinci dünya (1914-18) müharibələ



rində iştirak etmişdir. Hərbi sahədə xidmətlərinə görə 1918 ildə diviziya generalı, sonra isə ordu generalı rütbəsinədək yüksəlmiş, "paşa" fəxri tituluna layiq görülmüşdür. Kazım Qarabəkir paşa Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin erməni silahlı qüvvələrinin təcavüzündən müdafiəsində mühüm xidmətlər göstərmişdir. Həmin ərazilərin müdafıəsi Osmanlı ordusunun onun komandanlıq etdiyi I Qafqaz korpusuna həvalə olunmuşdu; korpusun qərargahı 1918 il avqustun 7-də Naxçıvan şəhərində qurulmuşdu. Naxçıvanı türk dünyasına açılan "Şərq qapısı" adlandıran Kazım Qarabəkir paşanın komandanlıq etdiyi türk qoşun hissələri Naxçıvan mahalını erməni silahlı dəstələrinin Zəngəzur və s. yerlərdən etdikləri hücumlardan qətiyyətə qoruya bilmişdi. Osmanlı hərbi qüvvələrinin Qafqazdan, o cümlədən Azərbaycandan çəkilməsini nəzərdə tutan *Mudros barışığının (1918)* 11-ci maddəsinə əsasən, 1-ci Qafqaz korpusu da Naxçıvanı tərk etmişdi. Kazım Qarabəkir paşa Türkiyənin istiqlal savaşında (1918-23) fəal iştirak etmiş, Şərq cəbhəsinin komandanı kimi bir sıra əzəli türk torpaqlarımn geri qaytarılmasında, daşnakların sülh bağlamağa məcbur edilməsində əvəzsiz xidmətlərinə görə "İstiqlal" ordeninə layiq görülmüşdür. Azərbaycanda baş verən hadisələrlə daim yaxından maraqlanmış, Qars konfransında (1921) onun ərazi bütövlüyünün qorunub saxlanması üçün olduqca səmərəli diplomatik fəaliyyət göstərmişdir. Onun da imzaladığı *Qars müqaviləsinin (1921)* 5-ci maddəsinə və 3-cü əlavəsinə əsasən, Naxçıvan bölgəsinin muxtar ərazi kimi Azərbaycanın himayəsi altında saxlanılması dövlətlərarası səviyyədə razılaşdırıldı.

Naxçıvanın mədəni həyatında yaxından iştirak edən Kazım Qarabəkir paşa şəhərdə teatrın fəaliyyətini bərpa etmiş, Naxçıvan teatrında türk yazıçılannın dram əsərləri tamaşaya qoyulmuş, tədris müəssisələri işə başlamış, məktəblər üçün Türkiyədən çoxlu dərsliklər gətirilmişdi. Hərbi-vətənpərvərlik tərbiyəsinə böyük əhəmiyyət verən və nizami ordu quru-culuğunun vacibliyini nəzərə alan Kazım Qarabəkir paşa bu işi öyrənmək üçün bir qrup gənci Türkiyə məktəblərinə oxu-mağa göndərmişdi. Məktəblərdə hərbi məşğələlər keçirilir, yerli əhalidən hərbi batalyonlar təşkil olunurdu. Bu iş təkcə Naxçıvan şəhərində deyil, bölgənin digər yerlərində do həyata keçirilir, milli ordu hissələri yaradılırdı. Türk xalqının istiqlal mücadiləsi başa çatdıqdan az sonra ordudan tərxis olunan Kazım Qarabəkir paşa millət vəkili kimi fəaliyyət göstərmiş, 1946 ildə Türkiyə Böyük Millət Məclisinin başçısı seçilmişdi.Kazım Qarabəkir paşanın xatirəsinə Naxçıvan şəhərində Türkiyə Diyanət İşləri Vəqfı tərəfındən məscid inşa edilmişdir. Məscidin açılışı 1999 il oktyabrın 13-də olmuş-dur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Kazım Qarabəkir paşanın qızı Timsal Qarabəkir məscidin açılış mərasimində çıxış etmişlər.Yazıçı Güllü Məmmədovanın "Qarabəkir əfsanəsi" tarixi-sənədli romanı görkomli sərkərdənin həyat və döyüş yolundan, eləcə də 1918-20 illərdə Naxçıvanda baş vermiş hadisələrdən, Naxçıvan torpaqlannın erməni təcavüzündən qorunmasında onun xidmətlərindən bəhs edir.

*Əd.:* Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996; Səfərli F., Kazım Qarabəkir Paşa və Naxçıvanın erməni təcavüzündən müdafiəsi, "Naxçıvan" jurnalı, 2001, №5.

**KAZIMBƏYLİ** Cahangir bəy (1888, Gəncə - 1955, Berlin) - hərbi xadim, Azərbaycan Xalq ümhuriyyəti ordusunun alay komandiri, polkovnik. *Gəncə üsyanının (1920)* əsas təşkilatçılanndan biri olmuşdur. Gəncə gimnaziyasında təhsil almış, Peterburqda hərbi məktəb bitirmişdir. Çar Rusiyası ordusu sıralarında Birinci dünya müharibəsində (1914-18) iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra milli orduda xidmətə başlayan Kazımbəyli 1920 lin əvvəllərində 3-cü Şəki süvari alayının komandiri təyin lunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təchizat rəisi general-mayor Məhəmməd Mirzə Qacarın, 1-ci piyada diviziyasının komandiri ge-neral-mayor Cavad bəy Şıxlinski-nin, süvari diviziyasının komandiri general-mayor Teymur bəy Novru-zovun Gəncə üsyanının təşkilinə cəlb edilmələrində Kazımbəylinin böyük rolu olmuşdur. Üsyanda iştirak edən hərbi qüvvələrin Qaçaq Qəmbərin, Sarı Ələkbərin, Qaçaq Qasımalı və başqalarının dəstələri ilə və partizanla əlaqələrinin yaradılmasında da onun mühüm xidməti vardı. Sonralar yazdığı xatirələrindən göründüyü kimi o, üsyanın gedişində öz alayının şəxsi heyəti ilə bərabər partizanların fəaliyyətinə də rəhbərlik etmişdir. Kazımbəylinin fıkrincə, 1920 il mayın 28-də Azərbaycan xalqı öz azadlığı uğrunda qurban getməyə hazır olduğunu bir daha nümayiş etdirdi: ***"28 may yalnız Milli İstiqlalımızın elanı günü kimi deyil, Vətən uğrunda şəhid verdiyimiz gün kimi də tariximizdə yazılmalıdır. ...28 may günündə düşmənə cavabımız ruhumuzun yüksəkliyinin, mənəvi qalibiyyətimizin simvolu olacaqdır".***

1920 il iyunun 3-dən 4-nə keçən gecə Cahangir bəy yaxın qohumlarını, həyat yoldaşını və oğlunu Gəncədən çıxar-mağa nail olsa da, özü Qıraq Kəsəməndə düşmən qüvvələri ilə üzbəüz gəlmiş, qanlı döyüşlərdən sonra Tiflisə gedə bil-miş, təxminən bir ildən sonra İstanbulda yaxın qohumlarını, oğlunu, həyat yoldaşını və qayınatası Hüseynqulu xan *Xoy-skini* tapmışdır. 1922 ilin əvvəlində Kazımbəyli marşal Pilsudskinin dəvətilə ailəliklə Polşaya köçmüşdür.

Kazımbəyli Azərbaycanın müstəqilliyi uğrunda mübarizəni daim davam etdirmiş, 1943 ildə azərbaycanlıların Berlində çağırılmış qurultayınm iştirakçısı, Avropada yaranan "Milli birlik" partiyasının əsas təşkilatçılarından ol-muşdur. Parisdə və Berlində nəşr olunan "Azərbaycan" məcmuələrində, "Milli birlik" jurnalında müntəzəm olaraq məqalələrlə çıxış etmişdir.

İkinci dünya müharibəsindən (1939-45) sonra sovet əks-kəşfıyyatı tərəfindən izlənilən Cahangir bəy Misir kralı Fər-ruxun şəxsi köməyindən sonra Romada rahatlıq tapa bilmişdi. 1954 ilin sonunda Münxendə "Azadlıq" radiosunun Azərbay-can şöbəsində fəaliyyətə başlayan Kazımbəylinin dünya azərbaycanlılarını mübarizəyə səsləyən çağırışları diqqətdən yayınmamışdı. O, 1955 ilin yazında sovet əks-kəşfiyyatının əli ilə Berlində xaincəsinə qətlə yetirilmişdir.

*Əd:.* N ə z i r l i Ş., Arxivlərin sirri açılır, B., 1999; Rəhmanzadə F., Yol, B., 1994.

**KAZIMBƏYLİ** Qulamhüseyn bəy (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı. Azərbaycan Milli Şurasımn *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, Parlament üzvü seçilmişdir. "Müsavat" və bitərəflər fraksiyasına daxil idi.

downloaded from KitabYurdu.az

**KAZIMOV** Cəfər Ələsgər oğlu (4.1.1897, Bakı -14.8.1968, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmiş (1915), Moskva Kommersiya İnstitutunun texnika-iqtisadiyyat şöbəsinə daxil olmuşdur. Bakıya qayıtdıqdan sonra xəstəxanada hesabdar işləmişdir. 1918 ildə əvvəlcə sol eserlər, sonra isə kommunist partiyasının üzvü olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Əmək Nazirliyində katib işləmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini dağ-mədən mühəndisliyi sahəsində davam etdirmək üçün Almaniyanın Frayburq Dağ-Mədən Akademiyasına göndərilmişdir. 1925 ildə təhsilini bitirmiş, Azərbaycana qayıtdıqdan sonra 1927 ilədək Suraxanı neft mədənlərində çalışmışdır. N.Nərimanov adına Sənaye texnikumunun direktor müavini (1927-30) işləmiş, qazıma, dağ-mədən, mineralogiya, petroqrafiya fənlərindən dərs demişdir. Azərbaycan SSR Dövlət Plan Komitəsi rəyasət heyətinin üzvü, daha sonra Komitənin şöbə müdirinin müavini işləmişdir (1931-33). SSRİ EA Azərbaycan Filialı Rəyasət Heyəti sədrinin müavini (1933-38) olmuşdur. 1938 ildə repressiyaya məruz qalmış, Komidə, SSRİ DİN-in Uxta kombinatında cəza çəkmişdir. 1941 ildə Mərkəzi elmi-tədqiqat laboratoriyasında şöbə rəisi, 1945 ilin aprelindən isə geoloq-petroqraf işləmişdir. Nen muxtar mahalında geoloji ekspedisiyalarda iştirak etmişdir (1945-48). İkinci ekspedisiya zamanı (həmən vaxt Kazımov böyük texnik-geoloq idi) Barens dənizi sahilində uran filizi aşkar edilmişdir. 1949 ildə Kazımovun Cənubda məskunlaşmasına icazə verilmişdi. 1955 ildə bəraət almış, ömrünün son 20 ilini iflic vəziyyətində yaşamışdır.



*Əd:*. Tahirzadə Ə., Cəfər Kazımov. Sovet uranını tapanlardan biri, B,, 2001.

**KAZIMZADƏ** Abbasqulu (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçısı, *Azərbaycan Milli Şurasının* üzvü. 1905 ildən Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının üzvü olmuş, 1911 ildə "Musavat" partiyasının yaranmasında iştirak etmişdir. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"* una (1918, 19 noyabr) əsasən, Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasının üzvü idi.



*Əd.: Азербайджанская Республика, Документы и материалы, 1918-1920, Б,*

**KEÇƏÇİ MƏHƏMMƏD,** Məhəmməd Məşədi Xəlil oğlu (1864, Şuşa- 1940, Quba) - musiqi xadimi, xanəndə. Xanəndəlik sənətini dövrünün məşhur xanəndəsi Məşədi İsidən, həmçinin tanınmış musiqişünas Xarrat Quludan öyrənmişdir. Gənc yaşlarından Şuşa məclislərində oxumuş, "Xandəmirovun teatrı"nda tamaşalarda və konsertlərdə iştirak etmiş, müğənni kimi məşhurlaşmışdır. O, 1902 ildə Bakıda Tsğıyev teatrında Cabbar Qaryağdı oğlu, Şəkili Ələsgər, məşhur tarzən Sadıq Əsəd oğlu (Sadıqcan), Məşədi Zeynal, Gülablı aşıqları Abbasqulu və Nəcəfqulu və başqs sənətkarlarla birlikdə "Şərq konsertləri" ində iştirak etmişdir. "Şüştər" muğamının mahir ifaçısı idi. 1904 ildə Bakıya köçmüş, burada Məşədi Zeynal, Mərdi Canıbəyov, sonralar Qurban Pirimovla birlikdə çıxış etmişdir. Geniş diapazonlu, güclü və məlahətli səsə malik olan Kcçəçi Məhəmməd "Nəva", "Mahur", "Mani", "Bayatı-qacar" muğamlarını da xüsusi ustalıqla oxumuşdur. Onun ifasında bir sıra muğənni, təsnif və xalq mahnıları 1912 ildə "Sport-rekord" (Varşava), 1914 ildə isə "Ekstrafon" (Kiyev) şirkətləri tərəfindən qrammofon valına yazılmışdır.



Ölkənin mədəni həyatında həmişə yaxından iştirak edən Keçəçi Məhəmməd Azərbaycan Xalq Cümhuriyyəti (1918-20) dövründə də milli mədəniyyətin inkişsfına dəyərli yardım göstərmiş, xanəndə və çalğıçıların musiqili səhnəciklərində çalıb-oxumuş, xeyriyyə konsertlərində, bayramlarda və başqa el şənliklərində yaxından iştirak etmişdir. Bütün qüvvə və biliyini milli musiqi mədəniyyətinin, xüsusilə xanəndəlik sənətinin yüksəlişinə həsr etmiş, Azərbaycan musiqisinin bünövrəsi olan muğamata guşə və xallar əlavə edərək, onu daha da zənginləşdirmişdir. Tədqiqatçı Firidun Şuşinskinin fikrincə, musiqi tariximizdə ritmik muğamları Keçəçi Məhəmməd kimi ustalıqas oxuyan və onun səsi kimi yüksək diapazona malik səsi olan xanəndəmiz olmamışdır.

*Keçəçi Məhəmməd Şərq konsertində*



*Əd.:* Şuşinski F., Azərbaycan xalq musiqiçiləri, B., 1970; yenə onun, Народные певцы и музыканты Азербаиджана, М. ,1979.

**KERENSKİ** Aleksandr Fyodoroviç (4.5.1881, Simbirsk -11.6.1970, Nyu-York) - Rusiyanın dövlət və siyasi xadimi,

downloaded from KitabYurdu.az

eser. IV Dövlət dumasında (1912-17) trudoviklər fraksiyasına başçılıq edirdi. Fevral inqilabının (1917) qələbəsində mühüm rol oynamışdır. İnqilabdan sonra Petroqrad Soveti sədrinin müavini idi. Müvəqqəti hökumətdə ədliyyə (1917, mart-may), hərbi və dəniz naziri (may-sentyabr), iyulun 21-dən həmçinin baş nazir, sentyabrın 21-dən, eyni zamanda, ali baş komandan olmuşdur. Oktyabr çevrilişindən (1917) sonra Sovet hakimiyyətinə qarşı fəal mübarizə aparmışdır. 1918 ildə Fransaya mühacirət etmiş, "Dni" qəzetinin redaktoru (1922-32) olmuşdur. 1940 ildən ABŞ-da yaşamışdır.

**KERZON** Corc Nataniel (11.1.1859, Derbişir, Kedlston-Holl - 20.3.1925, London) - B.Britaniya dövlət xadimi, diplomat, markiz. Oksford Universitetini bitinnişdir. 1891-92 illərdə Hindistanın işləri üzrə nazir müavini, 1898-1905 illərdə Hindistanın vitse-kralı, 1919-24 illərdə B.Britaniyanın xarici işlər naziri olmuşdur. 1911 ilden parlamentin lordlar palatasının üzvü idi. Sovet-Polşa sərhədlərini müəyyənləşdirən "Kerzon xətti"ni 1920 ildə Antanta adından təklif etmişdir. Birinci dünya müharibəsindən (1914-18) əvvəl Qafqazda olmuş və regionu dərindən öyrənmişdir. 1920 il yanvarrı 10-da *Paris sülh konfransı (1919-20)* Ali Şurasının iclasında Azərbaycan və Gürcüstan hökumətlərinin Antanta ölkələrindən kömək istəmələri haqqında məlumat vermiş, bu respublikalarm müstəqil dövlətlər kimi dərhal de-fakto tanıması təklifini irəli sürmüşdür. Onun təklifi ilə yanvarın 11-də Antanta Ali Şurası Azərbaycan və Gürcüstan respublikalarının de-fakto tanınması barədə qərar qəbul etmişdir. Kerzon Azərbaycanın dövlət müstəqilliyini qorumaq məqsədilə ona yardım göstərilməsini təklif etmiş, müttəfiq ordularının çıxarılmasının əleyhinə olmuşdur.

Kerzon 1920 ilin əvvəllərində İngiltərə parlamentində azərbaycanlılara və Anadolu türklərinə qarşı soyqırımları törətmiş erməni canilərini ifşa edərək bildirmişdi ki, ***mənə elə gəlir ki, siz erməniləri səkkiz yaşında təmiz və məsum bir qız kimi zənn edirsiniz. Bu fikirdə çox yanılırsınız. Halbuki, ermənilər özlərinin son vəhşi davranışları ilə nə qədər qantökən olduqlarını büsbütün isbat etmişlər.***

*Əd.:* Qasımlı *M..*, Avropa və Amerika ölkələrinin müasir tarixi, 2 hissədə, h. 1 (1918-1945-ci illər), B., 2003; Кредер А. А., Словарь по новейшей истории, М., 1998.

**KƏND TƏSƏRRÜFATI İNSTİTUTU** - Azərbaycan Xalq Cümhuriyyətinin ölkədə ali təhsili inkişaf etdirmək üçün açılmasına təşəbbüs göstərdiyi tədris ocaqlarından biri. Cümhuriyyət Hökuməti 1919 il 5 mart tarixli iclasında kənd təsərrüfatı mütəxəssisləri hazırlamaq məqsədilə Bakıda ali məktəb açmaq məsələsini müzakirə edərək bəyənmişdi. Sənəd-lərdən aydın olur ki, Xalq Maarifi Nazirliyinə məsələ ilə bağlı qanun layihəsi hazırlayıb Parlamentə təqdim etmək tap-şırılmışdı. Lakin Cümhuriyyət Hökuməti yalnız Bakı Dövlət Universitetinin açılmasına macal tapdı, ali təhsil sahəsində di-gər planlarını isə həyata keçirə bilmədi.

**KƏNDLİ İTTİFAQI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda yaradılmış qeyri-hökumət təşkilatı. Əsası 1918 ilin yanvarında Bakı şəhər rəisliyi kəndlilərinin qurultayında qoyulmuşdu. 32 nümayəndənin iştirak etdiyi qurultayda ittifaqın idarə heyəti seçilmişdi: sədri Mahmud Quliyev, üzvləri Şirəli Zeynalov, Məmməd bəy Bakıxanov, Hacağa Babayev, Məşədi Ağarəşid Feyzizadə, Mirzə bəy Mahmudbəyov, Manaf Məhərrəmov, Seyid Mehdi Seyid Musa oğlu, Mir Həmdulla Zəkizadə, Molla Abbdulla Şahbazzadə idilər. İdarə heyəti "İsmailiyyə" binasında yerləşirdi. İttifaq kəndlilərin sosial-iqtisadi mənafelərəni müdafiə edən yeganə birlik idi. Əsas məqsədi kəndlilərin birliyinə nail olmaq, kəndli bankı açmaq, kəndliləri Müəssislər məclisinə seçkilərə hazırlamaq, onların arasında rnaarif işini genişləndirmək (xalq məktəblərinin açılması) və s. olmuşdur. 1918 ilin martında daşnak-bolşevik quldurlarının Bakıda azərbaycanlılara qarşı törətdiyi soyqırımı zamanı İttifaqın "İsmailiyyə" binasında yerləşən dəftərxanası və əmlakı yandırılmış və o, fəaliyyətini müvəqqəti dayandırmışdı. 1918 ilin sentyabrında yenidən işə başlayan İttifaqın fəaliyyəti bütün Bakı qəzasını (280 min nəfər əhalisi olan 76 kənd) əhatə edirdi. 1920 ilin əvvəllərində 1 2-ci kəndli qurultayının çağırılacağı elan olunmuşdu. Qurultayda nümayəndəlik Azərbaycan Xalq Cümhuriyyətinin hər kənd icmasmdan 5 nəfər olmaqla müəyyən edilmişdi. Kəndlərdə yeni özəklər yaratmaq, ərzaq bölgüsünə nəzarəti həyata keçirmək üçün İttifaqın mərkəzi komitəsini təşkil etmək nəzərdə tutulmuşdu. Lakin *Aprel işğalından (1920)* sonra Kəndli ittifaqı fəaliyyətini dayandırmağa məcbur oldu.

**KƏNDLİLƏR** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə əhalinin əksəriyyətini təşkil edən sosial təbəqə. Azərbaycanda kəndli təbəqəsi qədim tarixə malikdir. Şimali Azərbaycanda kəndlilərin tarixində əsas dəyişikliklər Ru-siya işğalından (1801-28) sonra baş vermişdir. İşğal prosesində xanlıqlar dövründə mövcud olan kəndli kateqoriyaları (divan, sahibkar və vəqf torpaqlarında yaşayan rəiyyətlər və rəncbərlər) arasında nisbət dəyişirdi. Çar Rusiyasına müqavimət gostərən xan və bəylərin torpaqları müsadirə olunaraq, xəzinənin mülkiyyətinə keçirildi. Torpaq üzərində dövlət və xüsusi sahibkar miilkiyyəti möhkəmlənirdi. Buna uyğun olaraq, kəndlilər dövlət və xüsusi sahibkar kəndlilərinə bölünürdü. Şimali Azərbaycanda kəndlilərin təxminən dörddə bir hissəsini sahibkar kəndliləri, qalanını isə dövlət kəndliləri təşkil edirdi. Azərbaycanın kəndliləri çar hökumətinin siyasəti nəticəsində ağır milli və sosial zülmə məruz qalırdılar. Ona görə də 19 əsrin 30-cu illərində Car-Balakən (1830), Talış (1831), Quba (1837) və Şəki (1838) üsyanları baş vernişdi. Çar hökumətinin 1840-cı illərin əvvəllərinədək keçirdiyi inzibati-aqrar islahatlar yeni narazı-lıqlar yaratmış, Qazax qəzasında (1842-44 illər) və b. yerlərdə kəndli çıxışları olmuşdu. Vəziyyəti belə görən çar hökuməti 1846 il 6 dekabr reskriptini, 1847 il 20 aprel və 28 dekabr əsasnamələrini qəbul etmişdi. 1870 il 14 may kəndli islahatı ilə kəndlilər, rəsmi surətdə, şəxsən azad elan olunmuşdu. Buna baxmayaraq, onlar pay torpaqlarının mülkiy-

downloaded from KitabYurdu.az



çisi ola bilmədilər, "müvəqqəti mükəlləfiyyətli" vəziyyətində qaldılar. Yalnız 1912 il 20 dekabr islahatı nəticəsində kəndlilərə torpaqları pulla almaq və mülkiyyətçiyə çevrilmək hüququ verildi. Xüsusi sahibkar kəndlilərinə nisbətən dövlət kəndlilərinin vəziyyəti bir qədər yaxşı idi. Hesablamalara görə, başlıca torpaq sahibləri olan dövlət və mülkədarlar, torpağın yalnız üçdə bir hissəsini kəndlilərin istifadəsinə vermişdilər. Kəndlilərin torpaqla təmin olun ması isə müəyyən səbəblər üzündən (mülkədarların dövlət kəndlilərinin torpaqlarını ələ keçirməsi, çarizmin köçürmə siyasəti və s.) getdikcə pisləşirdi. Ona görə də imkansız kəndlilər torpağı ağır şərtlərlə icarəyə götürür, kənddə muzdurluq edir, yaxud kəsbkarlığa getməli olurdu. Vergi sistemi də kəndlilər üzərində ağır yük idi. 1900 il 12 iyun qanunu ilə dövlət kəndində vergi sistemində dəyişiklik edilmişdi. Hərbi mükəlləfiyyət əvəzinə, 1887 ildən tətbiq edilən hərbi vergi də kəndlilərin vəziyyətini çətinləşdirirdi. Bütün bunlar kəndli hərəkatına, o cümlədən onun spesifik forması olan qaçaq hərəkatına səbəb olurdu. Lakin nə çar hökuməti, nə də onun devrilməsindən sonra hakimiyyətə gələn *Müvəqqəti hökumət* aqrar məsələnin həlli sahəsində ciddi tədbirlər görmədi. *Zaqafqaziya Komissarlığı* aqrar sahədə qanun qəbul edilməsi üçün müəyyən addım atdı. 1917 il dekabrın 8-9-da komissarlığın iclasında torpaq haqqında qanun layihəsi müzakirə edildi, dekabrın 16-da xəzinə, keçmiş xanədan, kilsə, monastır, hüquqi şəxs və xüsusi sahibkar torpaqlarının torpaq komitələrinə verilməsi barədə əsasnamə qəbul olundu. Lakin kəndlilər bu qanun üzrə torpaq ala bilmədilər. *Zaqafqaziya seymi* təşkil edildikdən sonra da aqrar məsələ əsas məsələlərdən biri olaraq qalırdı. Ona görə də 1918 il martın 7-də torpaq haqqında qanun qəbul edildi (bax *Aqrar məsələ)* .Kəndlilər Azərbaycan Xalq Cümhuriyyətinin həyatında da mühüm rol oynayırdı. Bunu nəzərə alan hökumət aqrar sahədə dəyişikliklər etmək üçün tədbirlər görməyə başladı. 1918 il iyunun 22-də Zaqafqaziya seyminin aqrar qanununun respublika ərazisinə şamil edilməsi dayandırılmış, yeni aqrar siyasət hazırlanmağa başlamışdı. Lakin hökumət bu sahədə çevik siyasət hazırlayıb həyata keçirə bilmədi. Ona görə də kəndlilər arasında narazılıqlar yarandı. Cümhuriyyət Hökumətinin düşmənləri, xüsusilə bolşeviklər [bax *Rusiya Sosial Demokrat Fəhlə (bolşevik) Partiyası]* bundan istifadə etdi, ölkədə kəndli çıxışları artdı. Bu, Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda müəyyən rol oynadı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5. B., 2001; Сумбатзаде А.С., Социально-економические предпосылки победы Советской власти в Азербаиджане, М. , 1972; Тюкавкин В.Г. Щагин Э. М. , Крестьянство России в период трех революций, М., 1987.

**KƏNGƏRLİ** Bəhruz (Şamil) Şirəli bəy oğlu (22.1.1892, Naxçıvan - 7.2.1922, Naxçıvan) - rəssam, boyakar və qrafik. Azərbaycan təsviri sənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərə janrlarının formalaşması Kəgərlinin adı ilə bağlıdır. Uşaq ikən ciddi xəstəlik keçirən Kəngərli ağır eşitdiyindən ümumtəhsil məktəbinə gedə bilməmiş, rəssamlığa meyl göstərmişdir. Tiflisdə Qafqaz İncəsənəti Təşviq Cəmiyyətinin boyakarlıq və Heykəltaraşlıq məktəbində oxumuşdur (1910-15). Kəngərlinin rəssam kimi püxtələşməsində "Molla Nəsrəddin" jurnalının böyük rolu olmuşdur. Yaradıcılığının ilk dövründə müəllimi-mollanəsrəddinçi yoldaşı L.D. Qudiaşvilinin portretlərini çəkmiş, karikatura və satirik rəsmlər, mənzərə və məişət səhnələrini əks etdirən rəsm, akvarel və boyakarlıq əsərləri yaratmışdır ("Qoca kişi", "Toy", "Elçilik" və s.). 1914 ilin iyununda rəssamın Naxçıvandakı ilk böyük sərgisi və orada göstərilən rəsmləri həmyerlilərini heyran etmişdi. O vaxt "İqbal" qəzeti yazırdı: ***"Cavan rəssamımız gələcəkdə iftixarımız olacaqdır".***

Kəngərlinin zəngin bədii irsi qalmışdır. Cəmi 7 il yaradıcılıq fəaliyyəti ilə məşğul olmağa möhlət tapmış Bəhruz Kəngərli 2000-ə qədər rəsm əsəri yaratmışdır. O, realist ifadəliliyi, yüksək bədii-estetik dəyəri ilə diqqəti cəlb edən çoxlu portret, mənzərə, natürmort və s. çəkmişdir. Dövrünün qabaqcıl ziyalılarının, sadə adamların portretləri ("Yaşlı kişi", "Gürcü" və s.), mövzu aktuallığına və ideya məzmununa görə bu günün ictimai-siyasi hadisələri ilə səsləşən "Qaçqınlar" silsiləsinə daxil olan portretlər canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə fərqlənir. Rəssamın yaradıcılığında mənzərə janrı mühüm yer tutur. Onun mənzərələrində təbiət gözəllikləri ("Şəlalə", "Dağlıq mənzərə", "İlanlı dağ ay işığında", "Günəş batarkən", "Ağrı dağı", "Köhnə qala", "Əliabad kəndində darvaza ", "Yamxana kəndinə gedən yol", "Əshabi-kəhf dağı" və s.), mədəniyyət abidələri ("Mömünə xatun türbəsi"), ilin fəsilləri ("Payız", "Bahar") əks olunmuşdur. Bəhruz Kəngərli 1918-20 illərdə erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz dədə-baba torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların portretlərindən ibarət silsilə əsərlər yaratmışdır. Bu silsilədən olan "Qaçqınlar", "Qaçqın qız", "Qaçqın oğlan", "Qaçqın qadın", "Yurdsuz ailə", "Qaçqın Gümşün", "Ayaqyalın qaçqın oğlan" və s. onlarla qaçqının portretləri təkcə sənətkarlıq səviyyəsinə görə deyil, tarixi sənəd kimi də dəyərlidir. O, portret ustası kimi yaratdığı personajların daxili-psixoloji aləmini açıb göstərə bilmişdir. Rəssam təsvir etdiyi qaçqın uşaqların hər birinin simasında didərgin düşdükləri ata-baba ocaqlarının həsrətini, keçirdikləri hiss və həyəcanları, gözlərinə qonmuş qüssə və kədəri özünəməxsus ustalıqla əks etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Bəhruz Kəngərli yaradıcılıqdan qalmır, boyakarlıq və qrafika əsərləri yaradır, rəssamlıq sənətini gənclərə öyrətmək, bu sənəti sevdirmək üçün xüsusi dərnək açır, fərdi sərgilərini təşkil edirdi. 1921 ildə Azərbaycanda açılan ilk böyük sərgidə

downloaded from KitabYurdu.az



Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilmişdir. Əsərləri R.Mustafayev ad. Azərbaycan Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskvada Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda saxlanılır.

Kəngərli həm də milli teatr rəssamlığının banilərindəndir. 1910-cu illərdə Naxçıvan teatrında "Ölülər" (C.Məmmədquluzadə), "Hacı Qara" (M.F.Axundzadə), "Pəri-cadu" (Ə.Haqverdiyev) tamaşalanna bədii tərtibat və geyim eskizləri vermişdir. A.Babayevin "Yarımçıq şəkil" pyesi Kəngərliyə həsr olunmuşdur. Naxçıvan Dövlət Tarix Muzeyi Kəngərlinin adınadır. Naxçıvan MR Ali Məclisinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" qərarına (2001, 22 may) əsasən, Naxçıvan şəhərində muzeyi yaradılmışdır. Qəbirüstü abidəsi ucaldılmışdır.

*Əd.:* Nəcəfov M., Bəhruz Kəngərli., B., 1957; Kərimov K, Bəhruz Kəngərli, B., 1963; Alıyev N., Bəhruz Kəngərli yaradıcılığında qaçqınlar obrazı, "Naxçıvan" jurnalı, Naxçıvan, 2000.



**KƏRİM ODƏR** - Azərbaycan mühacirətinin körkəmli nümayəndələrindən biri. Bakı Ticarət litseyini bitirmişdi. *Aprel işğalından (1920)* sonra təzyiq və təqibə məruz qalaraq Tiflisə, sonra isə Türkiyəyə mühacirət etmişdir (bax *Zeynalzadə* Kərim İbadulla oğlu).

**KƏRİMOV** Əli Xasbulat oğlu (fevral, 1902, Bakı, Balaxanı k. - ?) - 3-cü Bakı kişi I gimnaziyasını bitirmişdir (1919). Tarix-filologiya sahəsində ali təhsil almaq üçün 1919 il 17 sentyabr və 5 noyabr tarixli məktubları ilə Azərbaycan Xalq Cümhuriyyətinin Xalq Maarifi Nazirliyinə müraciətlər etmişdir. Arxiv materialları arasında təhsil almağa göndərilməsi barədə heç bir məlumat yoxdur.

downloaded from KitabYurdu.az

**KƏRİMOV,** Kərimoğlu Qərib (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçısı. Azərbaycan Xalq Cümhuriy-yəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasınm *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918,19 noyabr) əsasən, Nuxa (Şəki) qəzasından Cümhuriy-yət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Əhrar" fraksiyasının üzvü idi.

**KƏSƏMƏNLİ** Şirin bəy (1887, Qazax qəzasının Qıraq Kəsəmən kəndi - 4.1.1920, Tiflis; Qazaxda dəfn olunmuşdur) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti, polkovnik. Tiflisdə hərbi gimnaziyada



təhsil almışdır. Gimnaziyanı bitirdikdən (1905) sonra Qusar alayında qulluq etmiş, Kiyevdə ikinci Konstantin topçu məktəbində hərbi təhsilini davam etdirmişdir. Birinci dünya müharibəsində (1914-18) "Dikaya diviziya"nın tərkibində vuruşmuş, "İgidliyə görə" medal və 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Şirin bəy Kəsəmənli Milli orduda xidmətə başlamış, türk hərbi qüvvələri Azərbaycanı tərk etdikdən sonra *Praporşiklər məktəbinin* ilk azərbaycanlı rəisi olmuşdur. Hərbi nazirin 1919 il 8 aprel tarixli əmri ilə 2-ci Bakı piyada alayımn (sonralar 4-cü Quba piyada alayı adlandırılmışdı) komandiri təyin edilmişdi. Şimal sərhədlərinin müdafıəsi üçün yaradılmış *Xaçmaz dəstəsinə* rəhbərlik də Şirin bəy Kəsəmənliyə həvalə olunmuşdu. Vəzifə başında ağır xəstəliyə tutulan Şirin bəy Kəsəmənli 1919 il sentyabnn 29-da müalicə üçün Tiflisə göndərilmiş, hələ müalicədə ikən hərbi nazirin 1919 il 7 dekabr tarixli əmri ilə 2-ci piyada diviziyası komandirinin müavini təyin edilmişdi.

*Əd:.* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999.

**KİÇİK XAN,** Mirzə K i ç i k xan (1880-81, Rəşt -noyabr, 1921) - İran inqilabçısı, Gilanda (İran) antiimperialist partizan (cəngəlilər) hərəkatının təşkilatçısı və rəhbəri. İran inqilabının (1905-11) iştirakçısı olmuşdur. Gilanda milli azadlıq hərəkatının yüksəlişi dövründə (1920-21) İran kommunistləri ilə vahid cəbhədə çıxış etmişdir. Gilan res-publikası müvəqqəti inqilabi hökumətinin sədri (1920, 5 iyun- 18 iyul), sonra isə 1921 il mayın 8-də yaradılmış Gilan respublikası yeni hökumətinin - İnqilab Komitəsinin sədri olmuşdur. Rusiya bolşevik hökuməti ingilis əsarətinə qarşı barışmaz mübariz olan Kiçik xanın qüvvələrindən öz maraqları yönündə istifadə etmişdir. Sovet hökuməti Kiçik xana ingilislərlə əməkdaşlıq edən L.Biçeraxovun öz silahlı qüvvələri ilə Bakıya gəlməsinə imkan verməsinə dair məktub göndərmişdi. Lakin Kiçik xan İran kommunist-partiyası üzvlərinin və Sovet hökuməti tərəfindən İrana ezam edilən şəxslərin sosialist məzmunlu inqilabi hərəkatı genişləndirmək, xüsusi mülkiyyətə qarşı çıxmaq, aqrar dəyişikliklər etmək, kommunist rejimi yaratmaq cəhdləri ilə barışmamışdır. Nəriman Nərimanov Sovet hökumətinin İranda həyata keçirdiyi radikal tədbirləri kəskin surətdə pisləyir, İranın xarici əsarətdən azadlıq mübarizəsini mümkün reallıq kimi qiymətləndirərək, bu baxımdan Kiçik xanı dəstəkləməyi, onunla əlaqədə bütün İranı ingilis əsarətinə qarşı qaldırmağı tövsiyə edirdi. İranın müstəqilliyi uğrunda vuruşan Kiçik xan bolşevik hökumətinin müdaxiləsinin mahiyyətini anlayanda əks mövqe tutmuş, 1921 il sen-tyabrın 29-da İran kommunist Partiyasına qarşı çıxmışdır. Yaranmış vəziyyət İran hökumətinin Gilanda milli azadlıq hərəkatını yatırmasını asanlaşdırmışdı. Kiçik xan Gilan meşələrinə çəkilmiş,Talış dağlarında həlak olmuşdur. Onun azadlıq savaşı ingilis tarixşünaslığında ekstremist, terrorçu hərəkat, sovet tarixşünaslığında isə inqilabi mübarizəyə xəyanət kimi qiymətləndirilmişdir.


Удостовѣреніе.
Предъявитель сего ... Байрам-Мирза состоитъ членомъ Азербайджанскаго Парламента, что подписями и приложеніемъ печати удостовѣряется.
Предсѣдатель Парламента
Секретарь

**KİÇİKXANLI,** Kiçikxanov Bayram Niyazi (?-?)-Azərbaycan milli azadlıq hərəkatının iştirakçısı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una.* (1918, 19 noyabr) əsasən, Zaqatala mahalından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Əhrar" fraksiyasının üzvü idi. Kiçikxanh Parlamentin katibliyinə seçilmiş, vəzifəsinə görə rəyasət heyətinin tərkibinə salınmışdı.

**KİÇİK NAZİRLƏR ŞURASI** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin tərkibində fəaljyyət göstərən icra orqanı. Hökumətin 1918 il 12 noyabr tarixli qərarı ilə yaradılmışdı. Kiçik Nazirlər Şurasına məruzələr Nazirlər Şurasmın sədri vasitəsilə göndərilirdi. Nazirlər Şurasına məruzə təqdim edən hər bir nazirə məruzənin böyük, yaxud kiçik şuraya göndərilməsinə dair rəyini yazılı şəkildə bildirmək hüququ verilirdi. Nazirlər Şurasının sədrinə, onun vasitəsilə ayrı-ayrı nazirliklərə kiçik şuraya protest göndərmək hüququ verilirdi. Kiçik şuranın protest verilmiş qərarları Böyük şuranın müzakirəsinə təqdim olunurdu. Kiçik Nazirlər Şurası haqqında Əsasnamə 1919 il martın 3-də təsdiq edilmişdi (bax, həmçinin *Böyük Nazirlər Şurası).*

*Əd:. Азербайджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник дакументов), Б., 1998.

downloaded from KitabYurdu.az

**KLEMANSO** Jorj Benjamen (28.9.1841, Muyron-an-Pare; bəzi mənbələrə görə Vandeya - 24.11.1929, Paris) - Fransa siyasi və dövlət xadimi. İki dəfə (1906-09; 1917-20) Fransa Respublikası Nazirlər Şurasının sədri (2-ci dəfə həm də müdafiə naziri) olmuşdur. *Paris sülh konfransının (1919-20)* sədri idi. *Versal sülh müqaviləsinin (1919)* müəlliflərindən biridir. Paris sülh konfransı Ali Şurasının 1920 il yanvarın 10-da B.Britaniyanın təşəbbüsü ilə çağırılan sessiyasında Klemanso ingilis nümayəndələri tərəfindən "Qafqaz respublikalarına kömək haqqında" memorandum hazırlanmasını zəruri saymışdı. Memorandum yanvarın 19-da Klemansonun iştirakı ilə Ali Şuranın iclasında elan edilmişdir. Qafqaza qoşun göndərmək tərəfdarı olmuşdur. Azərbaycan və Gürcüstan nümayəndələri ilə görüşərək, bu ölkələrin təhlükəsizliyi məsələlərini müzakirə etmişdir. 1920 il prezident seçkilərində məğlub olduqdan sonra fəal siyasi həyatdan uzaqlaşmışdır.

*Əd.:* Qasımlı M., Avropa və Amyrika ölkələrinin müasir tarixi, 2 hissədə, h.l (1918-1945-ci illər), B., 2003; Прицкер Д. П. Жорж Клемансо: политическая биография, Б., 1983.

**KLENEVSKİ** Viktor Viktoroviç (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şura-sının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, *Slavyan-Rus cəmiy-yətindən* Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə Slavyan-Rus cəmiyyəti fraksiyasının üzvü idi. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü Hökumət kabinəsində sosial-təminat naziri olmuşdur.

**KONSTİTUSİON DEMOKRATLAR (KADETLƏR) PARTİYASININ BAKI ŞÖBƏSİ** - bax *Xalq azadlıq partiyasının (kadetlərin) Bakı şöbəsi.*

**"KOOPERASİYA-TOPDANSATIŞ ƏMƏLİYYAT-LARI CƏMİYYƏTİ"** - istehlak cəmiyyətləri ittifaqı. 1915 ilin mayında Bakının 12 istehlak cəmiyyəti (10 mə-ən-zavod və 2 şəhər) birləşərək "Kooperasiya-topdansatış əməliyyatları cəmiyyəti" adlı istehlak cəmiyyətləri ittifaqı yaratmışdılar. Həmin il dekabrın ortalarında ittifaq Bakı rayonunun 18 istehlak cəmiyyətini birləşdirirdi. Bax *Azərbaycan istehlak cəmiyyətləri ittifaqı.*

**"KORNİLOV QİYAMI",** Korniləvçuluq-1917 ilin avqustunda general L.G. Korniləvun başçılığı ilə Rusiyada hərbi çevriliş cəhdi. İyunun sonu - iyulun əvvəllərində Müvəqqəti hökumətin Cənub-Qərb cəbhəsində hücumunun uğursuzluğu, Petroqraddakı inqilabi əhvali-ruhiyyəli hərbi hissələrin buraxılması yeni siyasi böhrana səbəb oldu. İyulun 16-da Petroqradda kortəbii nümayişlər başladı. Hərəkata bolşeviklər də qoşuldular. Lakin Müvəqqəti hö-kumət qəti tədbirlərə əl atdı. Nümayişçilər güllələbarana tutuldu, 500 nəfər öldürüldü, paytaxtda hərbi vəziyyət elan olundu. Knyaz G.Y.Lvovun hökuməti istefa verdi. Sosialist A.F.Kerenskinin başçılığı ilə İkinci koalisiya hökuməti ya-radıldı. Məğlubiyyətə uğramış sol qüvvələr "Bütün hakimiyyət sovetlərə" şüarını gündəlikdən çıxardılar. Belə bir şəraitdə hakim dairələrdə hərbi diktatura meylləri gücləndi. Avqustun 25-də çağırılan dövlət müşavirəsində (Moskva) onun proqramı formalaşdırıldı. Hərbi diktatura tərəfdarlarından biri də avqustun 1-dən Ali baş komandan təyin edilmiş L.G.Korniləv (1870-1918) idi. Buna görə də Qərargah (Mogilyov) hərbi çevrilişin mərkəzi olmuşdu. Sui-qəsdçilər Petroqradda bolşevikləri silahlı üsyana təhrik etmək, bundan sonra paytaxtda qayda yaratmaq adı ilə məqsədlərinə nail olmaq istəyirdilər. Kerenski hərbi çevrilişin onun hakimiyyəti üçün təhlükəli olduğunu başa düşsə də, bolşeviklərin planından istifadə edərək, sol qüv-vələri tamamilə darmadağın etməyi qərara aldı. Mürtəce generallara bir-birinin ardınca güzəştlər edilməyə başlandı. Korniləv sentyabrın 7-də qoşunları Petroqrada yeritdi, Müvəqqəti hökumətin istefasını və Kerenskinin Qərargaha gəlməsini tələb etdi. Kadet nazirlər qiyamdan xəbər tutan kimi istefa verdilər. Belə olan halda Kerenski daha qəti hərəkət etməyi qərara aldı. Sentyabrın 9-da paytaxta doğru irəliləyən hərbi hissələr qiyamçı elan olundu, Korniləvun özü isə Ali baş komandan vəzifəsindən kənarlaşdırıldı. Kerenskinin fəaliyyəti hərbi diktatura əleyhdarı olan siyasi partiyalar, o cümlədən bolşeviklər tərəfindən dəstəkləndi. Sentyabrın 12-də Korniləv ordusunun hərəkəti dayandırıldı, hərbi diktatura təhlükəsi sovuşdu. Korniləv həbs edildi, lakin general N.Duxoninin köməyi ilə dekabrın 2-də həbsdən qaçaraq ağqvardiyaçılarm rəhbərlərindən biri oldu. 1918 il aprelin 13-də Yekaterinodara hücum zamanı öldürüldü. Korniləv qiyamı əleyhinə Azərbaycanda da çıxış etmişdilər. 1917 il sentyabrın 11-də RSDF(b)P Bakı komitəsi ilə "Hümmət"in birgə iclası keçirilmiş, sentyabrın 13-də Bakı təşkilatının konfransında xüsusi qətnamə qəbul olunmuşdu. N.Nərimanov "Hümmət" qəzetində zəhmətkeşləri sayıqlığa çağırmışdı. Bəzi tarixçilərə görə, "Korniləv qiyamının" yatırılması ilə "Rusiyanın hər yerində olduğu kimi, Azərbaycanda da, xüsusən Bakıda fəhlə və hərbi deputatlar sovetlərinin canlanması dövrü, sovetlərin bolşevikləşməsi dövrü başlandı".

*Əd.:* İbrahimov Z., Azərbaycan zəhmətkeşlərinin sosialist inqilabının qələbəsi uğrunda mübarizəsi (1917-1918-ci illər), B., 1957; Иванов Н. Я., Контрреволюция в России в 1917 году и ее разгром, М., 1977.



**KÖÇƏRLİ** Firidun bəy Əhməd ağa oğlu (26.1.1863, Şuşa - 20.5.1920, Gəncə) - maarif xadimi, publisist-yazıçı, ədəbiyyatşünas alim, tənqidçi, tərcüməçi, "Müsavat" partiyasının üzvlərindən biri. Bəy ailəsində doğulmuşdur. Şuşada mollaxanada (1870-72), Mirzə Kərim Münşizadənin məhəllə məktəbində (1872-75), 2-ci dərəcəli şəhər məktəbində (1876-79) oxumuş, Qori Müəllimlər Seminariyasını (QMS) bitirmişdir (18X5). İrəvan gimnaziyasında (1885-96), QMS-nın Azərbaycan şöbəsində (1896-1917) müəllim işləmişdir. 1905 və 1908 illərdə QMS Azərbaycan şöbəsinin inspektoru vəzifəsini tutmağa təşəbbüs göstərmiş, 1910 ildə şöbənin inspektorlu

downloaded from KitabYurdu.az

ğunu müvəqqəti (fevral-iyun) icra etmişdir. Fevral inqilabından (1917) sonra seminariya tələbələrinin tələbinə əsasən, Xüsusi Zaqafqaziya Komitəsi sədrinin 1917 il 17 avqust tarixli əmri ilə Azərbaycan şöbəsinin inspektoru təyin olunmuşdur. 1918 ildə Cənubi Qafqazda baş verən siyasi hadisələr zamanı Köçərli, azərbaycanlılann arzusunu həyata keçirərək, QMS-nın Azərbaycan şöbosini Qazax şəhərinə köçürmüş, onu müstəqil milli seminariyaya çevirmiş və ilk direktoru (1918-20) olmuşdur.

Köçərli 1917 ildə siyasi proseslərə qoşulmuş, "Müsavat" partiyasma daxil olmuşdur. 1918 il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü seçilmiş, *"İstiqlal bəyannaməsi*"ni imzalamışdır. O, seminariyadakı fəaliyyətinə üstünlük verərək, Parlamentdə iştirak etməmişdir. 1919 il fevralın 1-də "Müsavat"m Mərkəzi Komitəsi səyyar bürosunun təşəbbüsü ilə Qazaxda partiyanın şöbəsi təşkil edilərkən Köçərli onun sədri seçilmişdir. 1919 ildə zəhmətkeş əhali, xüsusilə kəndlilər və qadın cəmiyyəti general-qubernator Əmirxan Xoyskinin vəzifədən çıxarılmasına etiraz edərkən Köçərli "Müsavat" partiyası təşkilatı adından xüsusi bəyanat vermiş, qəzanın əmin-amanlığı, əhalinin rifahı naminə general-qubernatorun geri qaytarılması tələbini irəli sürmüşdür.

1920 ilin mayında Qazax kommunistləri Köçərlini və digər "Müsavat" funksionerlərini "xalqa xəyanətdə", "milli nifaq törətməkdə", "torpaq və mülk zəbt etməkdə", general-qubemator Ə.Xoyskinin etibarlı şəxsləri olmaqda ittiham etdilər. Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinə təqdimatma əsasən, ədib həbs olunmuş, 20-ci diviziyanın 7-ci xüsusi bölməsi xüsusi şöbəsində şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə alınmadan güllələnməsi haqqında qərar çıxarılmışdır. Qərar 7-ci xüsusi bölmənin rəisi Liberman və fövqəladə komissar Həmid Sultanov tərəfindən təsdiq edilmiş, hökm yerinə yetirilmişdir.

Köçərli zəngin yaradıcılıq yolu keçmişdir. O, publisistika ("Məişətimizə dair" məqalələr silsiləsi, 1906-16), ədəbiyyat tarixi ["Azərbaycan türklərinin ədəbiyyatı", 1903; "Qafqaz üdəbası və şüərasının tərcümeyi-halı", "Ədəbiyyata bir nəzər", 1908 - bunlar sovet hakimiyyəti illərində "Azərbaycan ədəbiyyatı tarixi materialları" (h.1-4, 1925-26) adı altın-da nəşr olunmuşdur, "M.F.Axundov", 1912], ədəbi tənqid ["Evlənmək su içmək deyil" (1892), "Azərbaycan komediyaları" (1895), "Ədəbiyyatımıza dair məktub" (1904), "Molla Nəsrəddin" (1906), "Usta Zeynal" (1906), "Milli şairimiz Abbas ağa Qayıbzadə Nazir" (1909), "Sultanməcid Qənizadə" (1912), "Ana dili" (1913)], folklər nümunələrinin toplanması ("Balalara hədiyyə", 1912), dərsliklərin tərtibi ("Tarixi-müqəddəs", 1899) və nəşri ("Vətən dili", 1907), bədii tərcümə ("Təlimati-Sokrat", 1892; "Üç xurma", "A kişi, niyə yatıbsan?", 1895) sahəsində çalışmışdır.

M.F.Axundzadənin realizm təliminin təbliği və ədəbi prosesə tətbiqi uğrunda mübarizə Köçərlinin ədəbiyyatşü-naslıq fəaliyyətinin əsas qayəsini təşkil edir. Yazıçıdan "öz əsrinin müsəvvir və nəqqaşı", "zəmanəsinin aynası" olmağı tələb edən tənqidçi M.F.Axundzadə, Q.Zakir, S.Ə.Şirvani, N.Vəzirov, M.Ə.Sabir, C.Məmmədquluzadə kimi sənətkarları "öz camaatının hər qism sədasına" cavab verib, "qeyrət və təəssüb damarını hərəkətə" gətirib, "qəflətdən bidar" etdiklərinə, əsərlərinə real həyatdan mövzu seçdiklərinə, onları sənətkarlıqla, "canlı və anlaşıqlı dil ilə" təsvir etdiklərinə görə təqdir edirdi.

Köçərliyə görə, ədəbiyyat hər millətin inkişaf səviyyəsini, "qüdrət və cəlalını" göstərən tarixi vəsiqə, xalqı yaşa-dan vasitədir. Ana dilində ədəbiyyatı olmayan xalqlar mədəniyyətli millətlərin nüfuzu altına düşüb, onlarla qaynayıb-qarışıb, milli varlıqlarını qeyb edirlər. 18-19 əsrlərdə və 20 əsrin əvvəlində Azərbaycan ədəbiyyatının inkişaf yolunu araşdıran Köçərli onun 130 nümayəndəsinin həyatı və yaradıcılığı haqqında məlumat toplamışdır.

Köçərlinin publisistik məqalələri mövzu aktuallığı və siyasi kəskinliyi ilə seçilir. Çarizmin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətinin və onun dayaqlarının - məmur, mülkədar, bəy, xan zülmünün, ruhani istibdadının, ziyalı biganəliyi və rəiyyət passivliyinin tənqidi, milli oyanışa və siyasi fəalhğa çağırış, kəndli hüququnun müdafiəsi, qadın azadlığı uğrunda mübarizə, məktəbin həyatla əlaqəsi, maarifın əhalinin maddi və mənəvi tələblərinə uyğunlaşdırılması məsələləri Köçərli publisistikasının ana xəttini təşkil edir. Bütün bunlar 20 əsrin əvvəlində xalqın milli şüurunun oyanmasında, azadlıq uğrunda mübarizəyə hazırlanmasında böyük rol oynamışdır.

Əsərləri: Seçilmiş əsərləri, B., 1963; Azərbaycan ədəbiyyatı, c. 1-2,B., 1978, 1981.

Əd.: Nəbiyev B., Firidun bəy Köçərli, B., 1984; Talıbzadə K., XX əsr Azərbaycan tənqidi, B., 1966; Məmmədov X., Firidun bəy Köçərli nə vaxt inspektor olmuşdur?, "Ulduz" jurnalı, 1968, №2; Qasımov C, Firidun bey Köçərli niyə öldürülmüşdür? "Panorama" qəzeti, 1998, 14, 15 aprel.

**KÖÇÜRMƏ SİYASƏTİ,** köçürülmə-çar Rusiyası və SSRİ ərazisində yaşayan türk-müsəlman xalqlarına, o cümlədən azərbaycanlılara qarşı yeridilmiş zorakı ayrı-seçkilik siyasəti. Çar Rusiyası rusları, ermənilәri və digər xristian əhalini işğal etdiyi türk-müsəlman xalqlarının torpaqlarına köçürərək, həmin yerlərdə məskunlaşdırırdı. SSRİ dövründə isə bu torpaqlarda məskunlaşdırılmış xristian əhali, xüsusilə ermənilər və ruslar, həmin ərazilərin yerli (aborigen) əhalisini ata-baba yurdlarından sıxışdırıb çıxararaq, onların torpaqlarını özününküləşdirirdilər.

18 əsrdən başlayaraq, 20 əsrin əvvəllərinədək Rusiyanın mərkəzi əyalətlərindən ruslar, İran və Türkiyədən isə ermənilər Rusiyanın işğal etdiyi Şimali Azərbaycana, Krıma, Şimali və Cənubi Qafqaza, Mərkəzi Asiyaya, Sibirə və başqa ərazilərə köçürüldülər. Bu köçürmələr yerli türk-müsəlman və xristian olmayan digər xalqları sıxışdırmaq, zorla ruslaşdırmaq və xristianlaşdırmaqla, onların əzəli torpaqlarına yiyələnmək kimi azğın müstəmləkəçilik məqsədləri güdən qatı irticaçı dövlət siyasəti idi. I Pyotrun vəsiyyətlərini yerinə yetirən Rusiya İranla (1804-13 və 1826-28), Türkiyə ilə (1828-29 və 1877-78) müharibələrdən və 1861 il kəndli islahatından sonra bu siyasəti Cənubi Qafqazda daha da sürətləndirmişdi.

downloaded from KitabYurdu.az




Rusiyanın köçürmə siyasətində Cənubi Qafqaz, xüsusən də onun ta qədimdən azərbaycanlıların məskunlaşdığı Şimali Azərbaycan ərazisi mühüm yer tuturdu. Təbriz komendantı, mənşəcə erməni olan Q.Lazarev 1829 il dekabrın 24-də general İ.Paskeviçə hesabatında bildirirdi ki, üç ay yarım ərzində İrandan 8 mindən yuxan erməni ailəsi (40 min nəfər) Arazı keçərək, Rusiyanın yeni tutduğu torpaqlarda - İrəvan, Naxçıvan və Qarabağda məskunlaşdırılmışlar. Elə həmin vaxt 14 min erməni ailəsi (84600 nəfər) Türkiyəni tərk edərək, Rusiya ərazisinə (əsasən, Cənubi Qafqaza) köçmüşdülər. İ.Paskeviçin təşəbbüsü ilə ermənilərin arzularını yerinə yetirən I Nikolay keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində *Erməni vilayəti* yaradılması haqqında fərman verdi və 1829 ilin aprelindən 1832 ilin mayına qədər bu ərazidə əhalinin kameral siyahıya alınması aparıldı. İ.Paskeviçin bu işin yekunlaşdırılmasını həvalə etdiyi mülki müşavir İ.Şopen toplanmış materiallar əsasında"Rusiya İmperiyasına birləşdirilən dövrdə Erməni vilayətinin vəziyyəti" adlı iri həcmli kitab yazaraq, 1852 il-də çap etdirdi. Rusiyaya qatılan zaman İrəvan və Naxçıvan xanhqlan ərazisində üç şəhər (İrəvan, Naxçıvan, Ordubad) və 1111 kənd vardı. Həmin kəndlərdən 752-si məskunlaşdırılmış, 359-u isə müharibələr nəticəsində xaraba qalmışdı. Kitabda verilmiş statistik məlumatlara görə, Rusiyanın işğal etdiyi zaman keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində 20502 ailə (107900 nəfər) olmuşdur. Onların da 16078-i (81749 nəfər) azərbaycanlı, 4424-ü (25151 nəfər) isə erməni ailəsi idi.

1828-29 illərdə Rusiyanın Azərbaycan torpaqlarında yenicə yaratdığı Erməni vilayətinə İrandan 6946 erməni ailəsi (35558 nəfər), Türkiyədən isə 3 il ərzində 3682 erməni ailəsi (21666 nəfər) köçürülmüşdü. Həmin illərdə İran və Türkiyədən Erməni vilayətinə 10628 erməni ailəsi (57224 nəfər) köçürülmüşdü. Ümumiyyətlə isə, zorakı köçürmə siyasəti nəticəsində Erməni vilayətində azərbaycanlı əhali ilə erməni əhalisinin sayı, demək olar ki, bərabərləşdirildi. Belə ki, köçürmədən sonra bu ərazidə 16078 azərbaycanlı ailəsi (81749 nəfər) və 15059 erməni ailəsi (82377) yaşayırdı. Bu, ermənilərin Cənubi Qafqaza ilk axını idi. Rus tədqiqatçısı, "Zaqafqaziyada rus işinə yeni təhlükə" kitabının müəllifı N.Şavrovun qeyd etdiyi kimi, bu axın sonralar bir əsrə yaxın müddətdə ardıcıl olaraq davam etmişdir. O yazırdı ki, 20 əsrin əvvəllərində Cənubi Qafqazda yaşayan ***bir milyon üç yüz min*** ermənin ***bir milyonundan*** çoxu yerli əhali olmayıb, Rusiya hakimiyyət orqanları tərəfindən bura köçürülənlər idi.

downloaded from KitabYurdu.az

19 əsrdə ölkənin mərkəzi rayonlarındakı rusların da Şimali Azərbaycana köçürülməsi Rusiyanın zorakı köçürmə siyasətinin başlıca tərkib hissələrindən biri idi. 19 əsrin 30-40-cı illərində Cənubi Qafqazda salınmış 34 rus kəndindən 30-u Azərbaycan ərazisində idi. 90-cı illərdə Bakı quberniyasında 21, Yelizavetpol quberniyasında isə 14 rus kəndi salınmışdı. 1899-1905 illərdə bu quberniyalarda 28 yeni rus kəndi meydana gəlmişdi. 1907 ilin əvvəlində köçürmə siyasətini həyata keçirmək üçün Qafqazda, hətta, vahid köçürmə idarəsi də yaradılmışdı. 1908-12 illərdə Qafqaza köçürülən 8326 rus ailəsinin 4 minindən çoxu Azərbaycan ərazisində yerləşdirilmişdi. Çar hakimiyyəti orqanları yerli kəndlilərin ən məhsuldar torpaqlannı zorla zəbt etməklə, buraya köçürülənlər üçün torpaq fondu yaradırdı. 20 əsrin əvvəllərində ermənilərdən və ruslardan əlavə, Azərbaycana 17226 nəfər polyak, 456 nəfər latış, 2724 nəfər moldavan, 82043 nəfər yunan və s. xalqların da nümayəndələri köçürülmüşdü.

Çar Rusiyasınm yeritdiyi qəddar köçürmə və ayrı-seçkilik siyasətinə baxmayaraq, Azərbaycan xalqının artım sürəti sayəsində azərbaycanlıların say tərkibini onların doğma torpaqlarında əsaslı surətdə azaltmaq mümkün olmadı. Belə ki, 1916 il yanvarın 1-nə olan məlumata görə, hətta keçmiş İrəvan quberniyasına daxil olan qəzalarda belə əhalinin əsas hissəsini yenə də azərbaycanlılar təşkil edirdilər.

Bu ərazilərdəki azərbaycanlı əhalinin say tərkibinin azalmasında kəskin dəyişikliklər 1918-20 illərdən-bədnam "Daşnaksutyun" partiyasının yaratdığı Ararat Respublikası zamanından başlanırdı. Bu illər ərzində həmin ərazilərdə erməni-daşnak quldur birləşmələrinin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımları nəticəsində keçmiş İrəvan quberniyası ərazisində yüzlərlə Azərbaycan kəndi yerlə-yeksan edildi, yüz minlərlə azərbaycanlı isə həmin ərazilərdə qətlə yetirildi və ya oradan qovuldu. 1920 ildə Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra isə kommunist və bolşevik qiyafəsinə girmiş daşnakların əl-qolu daha da açıldı. Bolşevik rejimi və Mərkəzi Sovet hökuməti tərəfından himayə olunan və hər cür kömək alan ermənilər Zəngəzuru ələ keçirdilər. Naxçıvan və Qarabağı Azərbaycandan qoparmağa çalışdılar. 70 illik Sovet hakimiyyəti dövründə Mərkəzin koməyi ilə ermənilər, bir tərəfdən öz ərazilərini Azərbaycan torpaqları hesabına daim genişləndirir, digər tərəfdən isə, bütün vasitələrdən istifadə edərək, azərbaycanlıları tutduqları ərazilərdən sıxışdırıb çıxararaq, yalnız ermənilərdən ibarət "türksüz Ermənistan" yaratmaq siyasəti yeritdilər. 70 il ərzində Mərkəzin himayəsi ilə Ermənistanda bu siyasət ardıcıl surətdə və dönmədən davam etdirildi.

Ermənilərin Azərbaycana qarşı yeni ərazi iddiaları 1941-45 illər müharibəsindən sonra yenidən baş qaldırdı. 1945 ilin noyabrında Ermənistan SSR rəhbərliyi heç bir əsaslı səbəb göstərmədən İttifaq hökuməti qarşısında Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi məsələsini irəli sürdü. İstədiyinə nail ola bilməyən Ermənistan rəhbərliyi bu dəfə başqa bir hiyləyə əl atdı: guya "xaricdən gələn erməniləri yerləşdirmək üçün onların torpaqları çatmır"; Azərbaycan SSR-in Kür-Araz ovalığında isə pambıqçılığı inkişaf etdirmək üçün işçi qüvvəsi çatışmır; Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Kür-Araz ovalığına köçürülməsi bu məsələlərin hər ikisinin həllinə imkan verərdi. Azərbaycan rəhbərliyi ilə gizli surətdə razılaşdırılmış bu təklif SSRİ rəhbərlyi və şəxsən İ.Stalin qarşısında qaldırıldı və ermənilər istədiklərinə nail oldular. 1947 il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin sədri İ.Stalin "Ermənistan SSR-də yaşayan kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar imzaladı. Qə-

*Ermənilərin Qarabağa köçürülmələrinin 150 illiyi münasibətilə qoyduqları abidə, Ağdərə, Marağaşen kəndi*

*Həmin abidə 10 il sonra (1988). Erməni vandalları onların Qarabağa gəlmə olduqlarını sübut edən "150" rəqəmini abidə üzərindən "yox etmişlər".*




downloaded from KitabYurdu.az



Köçkün və didərgin düşmüş soydaşlarımız



Köçkünlərin çadır şəhərciyi

rarən birinci bəndində deyilirdi: "1948-50 illərdə könüllülük prinsipi əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. 1948 ildə 10 min nəfər,

1949 ildə 40 min nəfər, 1950 ildə isə 50 min nəfər köçürülsün". Qərarın axırıncı - 11 -ci bəndində isə Ermənistan SSR Nazirlər Sovetinə tapşırılırdı ki, Kür-Araz ovalığına köçürülən azərbaycanlıların evlərinə xaricdən gələn ermənilər yerləşdirilsin. Çar Rusiyası və SSRİ-nin köçürmə siyasəti - tarixdə analoqu olmayan bu qeyri-insani aksiya bir xalqın, heç bir əsas olmadan, əsrlər boyu yaşadığı ata-baba yurdundan "könüllülük prinsipi" adı ilə zorla çıxarılması sovet totalitarizminin və erməni fitnəkarlığının iç üzü idi. Azərbaycanlıların Ermənistandan zorla köçürülməsi 1950 ilə qədər deyil, 1953 ilə, İ.Stalinin ölümünə qədər davam etdirilmişdir. Ermənistanın dağlıq-yaylaq rayonlarından köçürülən əhalinin əksəriyyəti Kür-Araz ovalığının aran iqlim şəraitinə alışa bilmir, kütləvi surətdə qırılır, digər hissəsi isə Azərbaycanın dağ rayonlarına qaçır və ya geri qayıdırdılar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1997 ilin mayında ölkəmizin müstəqilliyi Respublika günü münasibətilə söylədiyi nitqində xalqımızın başına gətirilən bu müsibətlə bağlı demişdir: ***"Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-48 illərdə Azərbaycan xalqına qarşı Sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüjlər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik, ...biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988 ildə Ermənistan Azərbaycana artıq təcavüz edibdir. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar".***

Bütün bunları nəzərə alaraq, Prezident Heydər Əliyev 1997 il dekabrın 18-də "1948-53 illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" xüsusi fərman imzalamışdır. Bu fərmanla həmin məsələlərin hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı döviət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması üçün Prezidentin özünün sədrliyi ilə geniş tərkibdə dövlət komissiyası yaradılmışdı. Azərbaycan xalqına qarşı törədilən tarixi ədalətsizliklər - zorakı köçürmələr yalnız bu fərmandan sonra geniş surətdə öyrənilməyə və beynəlxalq ictimaiyyətə çatdırılmağa başlamışdır.

*Əd.:* "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası

downloaded from KitabYurdu.az

haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı, "Azərbaycan" qəzeti, 1997, 19 dekabr; Deportasiya (məqalələr toplusu), B., 1998; P a ş a y e v A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Шопен И., Исторический в эпоху ее присоединения к Российской империи, СПб, 1852; Шавров Н., Новая угроза русскому делу в Закавказье, СПб., 1911,

**KÖNÜLLÜ ORDU,** D e n i k i n ordusu - Rusiyada Oktyabr çevrilişindən (1917) sonra ölkənin cənubunda sovet-bolşevik rejiminə - "qırmızılar"a qarşı mübarizə məqsədilə yaradılmış hərbi birləşmə. Formalaşdırılmasına 1917 ilin noyabrında Novoçerkasskda başlanmış, dekabrında rus generalları M.Alekseyev, L.Korniləv, A.Denikin tərəfindən başa çatdırılmışdı. Zabitlərdən, yunkerlərdən, varlı kazaklardan və s. təşkil olunan Könüllü ordu ("Ağ qvardiya"), "vahid və bölünməz Rusiya" uğrunda vuruşan hərbçilərdən ibarət idi. Əvvəllər sayı 4 minə qədər olan ordu sonralar 30-35 min nəfərə çatırdı. 1919 ildə Könüllü ordu general A.Denikinin komandanlığı altında Petrovsk-Port (indiki Mahaçqala) şəhərini tutaraq, cənuba doğru hərəkət etdi. Azərbaycan Xalq Cümhuriyyoti Hökuməti müttəfiq qoşunları komandanlığından Denikin ordusunun cənuba doğru irəliləməsinin qarşısını almaq üçün tədbirlər görülməsini tələb etdi. 1919 ilin yanvarında Bakıdakı B.Britaniya qoşunlarının baş komandanı general U.Tomson Qafqaz dağları boyunca Dağıstanın şimal hissəsindən keçən demarkasiya xəttini müəyyənləşdirdi (bax *Könüllü ordu ilə Azərbaycan arasında demarkasiya xətləri).* Lakin 1919 ilin martında Dağlılar Respublikasını aradan qaldıran Könüllü ordu Azərbaycan üçün birbaşa təhlükə yaratdı. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi müttəfiq qoşunların komandanlığından Könüllü ordu hissələrinin Dağıstandan çıxarılması üçün qəti və təxirəsalınmaz tədbirlər görülməsini tələb etdi. Hökumət diplomatik tədbirlərə də əl atdı; ingilis generalı Şatelvorq və Bakıdakı İtaliya nümayəndəliyi ilə danışıqlar aparıldı. Könüllü ordunun Bakıdakı ingilis qərargahı yanındakı nümayəndəsi general Lazarev Azərbaycan Hökumətini əmin etdi ki, "Denikin ordusu Azərbaycana münasibətdə heç bir təcavüzə əl atmaq fikrində deyil və onun müstəqilliyini tanıyır". Lakin Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Denikinin əsl niyyətlərini yaxşı başa düşürdü. Könüllü ordu cənuba doğru irəliləməkdə davam edirdi. A.Denikin mayın sonlarında Dərbəndi tutdu. Bununla, Azərbaycanla Könüllü ordu arasındakı demarkasiya xətti pozuldu. 1919 il mayın 26-da Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti Könüllü ordunun Petrovsk-Portu və Dərbəndi tutması ilə bağlı "Müsavat" fraksiyasının sorğusunu, həm də Cümhuriyyətin müstəqilliyinin müdafıəsi üzrə tədbirləri müzakirə etdi və bu sahədə hökumətin həyata keçirdiyi bütün tədbirləri bəyənərək, ona yardım edəcəyini bildirdi.

Könüllü ordunun getdikcə Azərbaycan sərhədlərinə yaxınlaşması onunla mübarizəni ölkənin ən başlıca ümummilli vəzifəsinə çevirdi. Bu dövrdə Denikin təhlükəsi hökumətin Britaniya komandanlığı ilə apardığı diplomatik danışıqların əsas mövzusu idi. Fətəli xan Xoyski 1919 il mayın 29-da *Zaqqfqaziya konfransında* Könüllü ordunun Dağlı Xalqları Respublikası ərazisinin işğalına qarşı etiraz bildirməyi tələb etdi. Konfrans Azərbaycan nümayəndəliyinin təkidi ilə bu barədə xüsusi qətnamə qəbul etdi. Qətnamədə Könüllü ordunun bütün Cənubi Qafqaz respublikalarının müstəqilliyinə təhlükə törətdiyi qeyd olunurdu. Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan hökumətləri Könüllü ordunun cənuba doğru irəliləməsinə "biganə" qalan ingilis komandanlığına etirazlarını bildirdilər. Lakin Denikin Dərbəndi tərk etməkdən imtina etdi və yeni demarkasiya xətti müəyyən olundu.

Azərbaycan Parlamenti iyunun 5-də bir daha Denikin təhlükəsi ilə bağlı məsələ müzakirə etdi və ölkənin müda-fiəsi ilə bağlı qəti tədbirlər görməsi hökumətdən tələb olundu. Baş nazir Nəsib bəy Yusifbəyli hökumətin Denikin təhlükəsinə qarşı gördüyü bütün tədbirlər haqqında deputatlara məlumat verdi. Parlament ölkənin müdafiəsi məqsədilə hökumətin tərkibində xüsusi orqan təsis edilməsini məqsədəuyğun saydı. 1919 il iyunun 14-də yaradılan Dövlət Müdafiə Komitəsi bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Bu tədbir Denikin təhlükəsinə qarşı mü-barizənin yeni mərhələsi oldu. 1919 il iyunun 16-da Könüllü ordu təhlükəsinə qarşı *Azərbaycan-Gürcüstan hərbi müda-fiə paktı* imzalandı. Denikinlə gizli saziş bağlamış Ermənistan bu pakta qoşulmadı. Parisdə olan Azərbaycan, Gürcüs-tan və Dağlılar Respublikasının nümayəndələrinin Paris Sülh Konfransının Ali Şurasına təqdim etdiyi bəyanatda Könüllü ordunun işğal etdiyi ərazilərdən çıxması və Qafqaz respublikalarının hüquqlarına hörmət edilməsi tələbi qoyuldu. Buna məhəl qoymayan ingilis komandanlığı Qafqazdan çıxmaq ərəfəsində malik olduğu hərbi ləvazimatı və Azərbaycanın mülkiyyəti olan Xəzər donanması hərbi gəmilərinin bir hissəsini Könüllü orduya verdi. Bu, Azərbaycan Xalq Cümhuriyyətinə məxsus mülkiyyətin özbaşına ələ keçirilməsi demək idi. Bunun qarşısını almaq üçün Azərbaycan Hökumətinin göstərdiyi bütün cəhdlər nəticə vermədi. Beləliklə, 1919 il yayın sonunadək Könüllü ordu bütün Dağıstanı tutdu. Denikinin hərbi qüvvələri ingilislərin "bağışladığı" Xəzər donanması vasitəsilə Azərbaycana yaxın ərazilərə daşınırdı. Bununla əlaqədar, Ə.Topçubaşov sentyabrın 9-da Paris Sülh Konfransının sədrinə müraciətdə üç tələb qoydu: Könüllü ordu demarkasiya xəttini pozmamalı, tezliklə Dərbənddən çıxmalı, Könüllü orduya "bağışlanmış" Xəzər donanmasının gəmiləri qanuni sahibi olan Azərbaycan Hökumətinə qaytarılmalıdır.

Bakını tərk edərkən ingilislərin Azərbaycan Hökumətinə qaytardığı gəmilər əsasında Azərbaycanın Xəzər Donanması yaradıldı. Bu addım Könüllü ordunun etirazına səbəb oldu. Ordunun dəniz donanmasının vitse-admiralı Gerasimov Azərbaycan Hökumətinə nota verərək, Azərbaycan Xəzər Donanmasının ləğv olunmasını tələb etdi. Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Müdafiə Komitəsi Könüllü ordu rəhbərliyinin tələbinə etirazını bildirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Könüllü ordu ilə bağlı çətinlikləri 1920 ilin əvvəllərinədək davam etdi. Könüllü ordunun uğursuzluqları, Denikinin cənuba

downloaded from KitabYurdu.az

doğru geri çəkilməsi, eyni zamanda, bolşevik təhlükəsinin yaxınlaşması demək idi. Artıq müttəfiqlər Könüllü orduya kömək etməyin əhəmiyyətsiz olduğunu bəyan edirdilər. RSFSR 1920 ilin əvvəlindən Könüllü orduya qarşı birgə mübarizə aparmaq üçün hərbi saziş bağlamaq təklifi ilə bir neçə dəfə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə müraciət etdi (bax *Çiçerin notaları)*. 1920 ilin əvvəllərində Könüllü ordunun vəziyyəti ağırlaşdı. Fevralın 7-də ordunun nümayəndəsi Cənubi Qafqaz respublikalarının müstəqilliyinin general Denikin tərəfindən tanındığını bəyan etməyə məcbur oldu. Martda sovet-bolşevik qoşunları tərəfindən ağır zərbə alan Könüllü ordunun Azərbaycana qarşı təcavüzü baş tutmadı. Könüllü ordunun qalıqları 1920 il martın sonunda general P.N.Vrangelin ordusuna daxil oldu.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; *Азербайджанская Демократическая Республика* (документы и материалы), 1918-20 гг., B., 1998.

**KÖNÜLLÜ ORDU İLƏ AZƏRBAYCAN ARASINDA DEMARKASİYA XƏTLƏRİ** - Denikinin *Könüllü ordusunun* işğal etdiyi ərazilərlə Azərbaycan Xalq Cümhuriyyəti arasında müəyyən olunmuş sərhəd nişanları. Könüllü ordunun işğalı nəticəsində Dağlı Respublikasının süqutu Azərbaycan üçün ciddi təhlükə yaradırdı.

Denikin Azərbaycan sərhədlərinə yaxınlaşırdı. Bunu nəzərə alan Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi müttəfiq qoşunların komandanlığına müraciət edərək, Cənuba doğru irəliləyən bu ordunun qarşısının almaması və onun hissələrinin Dağıstandan çıxarılması üçün tədbirlər görülməsini tələb etdi. 1919 ilin yanvarında Bakıdakı B.Britaniya qoşunlarının baş komandanı general U.Tomson Qafqaz dağları boyunca Dağıstanın şimal hissəsindən keçən demarkasiya xəttini müəyyənləşdirmişdi. Lakin buna məhəl qoymayan Denikinin könüllü ordusu Dərbəndi tutdu. Azərbaycanla könüllü ordu arasında demarkasiya xətti pozuldu. Yeni demarkasiya xəttinin müəyyənləşdirilməsinə və könüllü ordunun bu xətdən geri çəkilməsi haqqında ingilis komandanlığının tələbinə baxmayaraq, Denikinin hərbi qüvvələri Dərbənddə və bütün Dağıstanda qalmaqda davam edirdi. Bundan ciddi narahat olan Cümhuriyyət Hökumətinin başçısı Nəsib bəy Yusifbəyli Cənubi Qafqazda ingilis qoşunlarının komandanı general Q.Kori ilə görüşmüşdü. General Q.Kori 1919 il iyunun 11 -də N.Yusifbəyliyə göndərdiyi məktubunda general Denikinlə Cənubi Qafqaz respublikaları arasında yeni demarkasiya xəttinin keçdiyi əraziləri müəyyənləşdirmişdi. Həmin sənədə əsasən, Petrovsk-Portdan 5 mil cənubda yeni demarkasiya xətti ilə sərhədlər qeydə alındı. Razılaşmaya görə, könüllü ordu bu xətdən cənuba, Azərbaycan Cümhuriyyəti isə şimala irəliləyə bilməzdi. Lakin Denikin ikinci demarkasiya xəttini də pozdu.

1919 il avqustun 4-də Azərbaycan-Gürcüstan sərhədləri boyunca üçüncü demarkasiya xətti müəyyənləşdirildi. Yeni xəttə görə, Dağıstan tamamilə könüllü ordunun nəzarəti altın qaldı. General Q.Korinin N.Yusifbəyliyə 1919 il 4 avqust tarixli məkrubunda yeni demarkasiya xettinin hüdudlan gösterilir və müvafiq coğrafi xəritə təqdim edilirdi. B.Britaniya hökumətinin Q.Koriyə teleqramındakı əvvəlki xəbərdarlıq təkrar olunurdu. Cənubi Qafqaz respublikaları könüllü ordu üzərinə hər hansı həmlədən çəkinməli, general Denikinə kömək göstərməli, Xəzər donanmasını yanacaq və s. ilə təchiz etməli idilər. Məktubda göstərilirdi ki, bu şərtlərə əməl edilməməsi, könüllü ordunun demarkasiya xəttindən şimalda qalmasına B.Britaniya zəmanətini mümkünsüz edir. Cənubi Qafqaza Rusiyanın tərkib hissəsi kimi baxan Denikin taktiki baxımdan yerli hökumətlərin mövcudluğunu müvəqqəti olaraq qəbul edirdi. İngilis qoşunları Azərbaycanı tərk edəndən sonra B.Britaniyanın Cənubi Qafqaz respublikalarındakı diplomatik missiyasının əsas vəzifələrindən biri bu respublikalarla könüllü ordu arasındakı demarkasiya xettinə əməl olunmasına nəzarət etmək idi.

*Əd.:* Bax *Könüllü ordu* məqaləsinin ədəbiyyatına.

**KRAVÇENKO** Vasili ata (?-?)- Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının "*Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, *Slavyan-Rus cəmiyyətindən* Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə slavyan-rus cəmiyyəti fraksiyasının üzvü idi.

**KRIM HÖKUMƏTİ** - Krım türklərinin (tatarlarının) milli azadlıq hərəkatı gedişində yaradılmış milli idarəçilik qurumu. Fevral inqilabı (1917) ərəfəsində Krım türklərinin milli azadlıq hərəkatı genişlənməyə başladı. İnqilabdan sonra hərəkat təşkilatlandı. Martın 25-də Simferopolda tatarların qurultayı çağırıldı və S.D.Xəttarovun sədrliyi ilə 50 nəfərdən ibarət Krımın Müsəlman İcraiyyə Komitəsi seçildi. Komitə milli federasiya əsasında Kırıma Rusiya tərkibində muxtariyyət verilməsini tələb edirdi. 1917 ilin iyulunda yaradılmış Milli Firqə də (sədri Çələbican Çələbiyev idi) bu tələbi müdafiə edirdi.

Oktyabr çevrilişi (1917) demokratik proseslərin dinc inkişafını pozdu. Bolşevik hakimiyyətini tanımaqdan imtina edən tatar nümayəndələri 1917 il noyabrın 26-da Baxçasarayda quraltay keçirərək, Ç.Çələbiyevin başçılığı ilə müstəqil hökumət - "Milli direktoriya" yaratdılar. Hərbi işlər üzrə direktor Cəfər Seyidəhməd tatar atlı eskadronları əsasında milli hərbi qüvvələrin təşkilinə başladı. Qurultayda Krım ölkəsinin dövlət bayrağı qəbul edildi. Bayraqda göy rəngli parça üzərində qızılı tamğa təsvir olunurdu.

1918 ilin yanvarında Sevastopoldakı Qara dəniz donanmasının matrosları və digər rus hərbi qüvvələri bolşeviklərin təhriki ilə Simferopola hücum edib, Krım hökuməti üzvlərini həbs etdilər. Hökumət qoşunu və özünümüdafiə qüvvələri əsir götürülərək güllələndi. Tatar əhalisi kütləvi qətl və qarətlərə məruz qaldı. 1918 ilin mayında Krımın alman qoşunları tərəfindən tutulması minlərlə dinc sakinin məhv edildiyi bolşevik repressiyalarına son qoydu. Keçmiş çar ordusunun generalı M.A.Sulkeviçin başçılığı ilə Krım hökuməti təşkil edildi. Hökumətə tatarların nümayəndəsi (C.Seyidəhməd) ilə yanaşı, rus, alman, yəhudi əhalisinin təmsilçiləri də daxil idi.

downloaded from KitabYurdu.az

Kırın hökuməti Krımın müstəqilliyini möhkəmləndirməyə çalışır, onun Ukraynaya birləşdirilməsinə qarşı çıxırdı. Bu məqsədlə həm Osmanlı dövləti, həm də Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələr yaradılırdı. Azərbaycan Cümhuriyyəti Hökuməti də Krımın müsəlman türk əhalisinin müstəqillik uğrunda mübarizəsini dəstəkləyir, ona mümkün olan bütün vasitələrlə yardım göstərirdi. Bu məqsədlə Azərbaycan Xalq Cümhuriyyəti Krım hökuməti yanında diplomatik nümayəndəlik yaratmışdı.

Lakin 1918 il noyabrın 16-da M.Sulkeviçin hökumət kabinəsi istefa verdi. Krıma ingilis-fransız hərbi qüvvələri çıxarıldı. Krımı Rusiyanın tərkibində saxlamaq mövqeyindən çıxış edən qüvvələr keçmiş Duma üzvü S.Krımın başçılığı ilə yeni hökumət təşkil etdilər.

Krım tatarları bu hökumətdə təmsil olunmadıqları üçün özlərinin ayrıca hökumətini (Direktoriya) və parlamentini (Məclisi-məbusan) yaratdılar. Həm S.Krım hökumət kabinəsi, həm də Denikin ordusu komandanlığı Krım tatarlarının bu dövlət qurumlarına düşmən münasibəti bəsləyirdi. 1919 il fevralın 23-də ağqvardiyaçı zabitlər tatar parlamentinin iclaslarının keçirildiyi binaya soxularaq, Direktoriyanın bütün sənədlərini müsadirə etdilər. Milli Firqə fəalları həbs olundu, "Millət" qəzeti redaksiyası dağıdıldı. Krım tatarlarının bəzi liderləri, o cümlədən general Məmməd bəy Sulkeviç repressiyadan qurtulmaq üçün Azərbaycana pənah gətirdi və baş qərargah rəisi vəzifəsində Azərbaycan Cümhuriyyətinin ordu quruculuğunda fəal iştirak etdi (bax həmçinin *Sulkeviç* Məmməd bəy).

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920) Внешнняя политика (дакументы и материалы), Б., 1998; Возгрии В. Е., Исторические судьбы крымских татар, М., 1992.

**KUBAN RESPUBLİKASI** - Oktyabr çevrilişindən (1917) sonra Kubanda yaradılmış hökumət. Paytaxtı Yekaterinodar (indiki Krasnodar) şəhəri idi. Kuban vilayəti 1860 ildə Şimali Qafqazın Rusiya tərəfindən işğalı zamanı həyata keçirilən inzibati islahat nəticəsində yaradılmışdı. Belə ki, 19 əsrin 60-cı illərində çarizmin müstəmləkəçilik siyasətinə boyun əyməyən Kubanın yerli - dağlı xalqları, xüsusən adıqlar kütləvi surətdə Osmanlı dövlətinin ərazisinə köçüb getdilər. Əvəzində Kubana Ukrayna və Don kazakları gətirilib yerləşdirildi və demoqrafık vəziyyət kəskin şəkildə dəyişdirildi. 19 əsrin 70-ci illərinin əvvəlində Kubanda cəmi 87 min adıq qalmışdı ki, bu da bütün vilayət əhalisinin 6 faizinə bərabər idi. 1871 ildə burada mülki idarəçilik tətbiq edildi, hərbi dairələrin yerinə Yeysk, Temrük, Ye-katerinodar, Maykop və Batalpaşa qəzaları təşkil edildi. 1916 ildə Kubanda 2,9 milyon əhali yaşayırdı və onun 1,4 milyonu və ya 43 faizi kazak idi.

1917 ilin noyabrında Yekaterinodarda Kuban Qanunverici Radası (parlamenti) toplandı və müstəqil Kuban hökumətinin yarandığını elan etdi. Kubanın müstəqilliyi uğrunda ardıcıl mübarizə aparan *L.Bıç* hökumətin sədri seçildi. Kuban Respublikası Rusiya bolşevik hakimiyyətinə qarşı qətiyyətlə çıxış edirdi və bu məqsədlə 1918 ilin martında A.Denikinin könüllü ordusu ilə ittifaq bağlamışdı. Lakin Kuban hökuməti və Radası, eyni zamanda, Denikinin Rusiya imperiyasını bərpa etmək uğrunda apardığı böyük dövlətçilik siyasətinə də qarşı çıxırdı. Azərbaycan Xalq Cümhuriyyəti Kuban Respublikasının müstəqilliyini müdafiə edirdi və onunla diplomatik əlaqə yaratmışdı (bax *Azərbaycanın Kubanda və Donda diplomatik nümayəndəliyi)*. Kubana diplomatik nümayəndə göndərilmiş C.Rüstəmbəyov 1919 il iyunun 11-də Yekaterinodardan Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda bildirirdi ki, Kuban hökuməti Denikinin "vahid və bölünməz Rusiya" yaratmaq cəhdinin qarşısını almaq üçün Don, Terek, Kuban, Dağıstan, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin konfransını çağırmağı təklif etmişdir və Kuban kazakları denikinçilərlə birlikdə yalnız Qırmızı orduya qarşı döyüşmək niyyətindədirlər.

Kuban nümayəndəliyi *Paris sülh konfransında (1919-20)* öz respublikasının müstəqilliyini müdafiə edir və keçmiş Rusiya imperiyası ərazisində yaranmış yeni dövlətlərlə eyni mövqedən çıxış edirdi. 1919 il oktyabrın 8-də Kuban nümayəndə heyətinin başçısı L.Bıçın da imzaladığı və Paris sülh konfransının sədri J.B.Klemansoya təqdim olunmuş bəyannamədə bu dövlətlərin müstəqilliklərinin dərhal tanınması məsələsi qaldırılmışdı.

Kuban Respublikasının müstəqillik uğrunda mübarizəsi Denikin ordusu tərəfindən boğuldu. 1919 ilin noyabrında Kuban Radasının üzvləri həbs edildi, onların lideri A.Kalabuxov isə edam olundu. 1920 ilin martında Yekaterinodar Qırmızı ordunun əlinə keçdi və beləliklə, Kuban Respublikasının varlığına son qoyuldu.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (дакументы и материалы), Б., 1998; Ладоха Г., Очерки гражданской войны на Кубани, Краснодар, 1923; Сухоруков В. Т., XI армия в боях на Северном Кавказе и Нижней Волге (1918-1920 гг.), М., 1961.

**KUN** Lorens Yakovleviç (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanu"* una (1918,19 noyabr) əsasən, alman koloniyasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə Milli azlıqlar fraksiyasının üzvü idi.

**KUSTAR NEFTÇIXARANLARIN BİRLƏŞMİŞ İTTİFAQI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət təşkilatı. Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1919 ildə qoyulmuşdu. Yaradılması ideyası Fevral inqilabına (1917) qədər də mövcud olmuş, lakin 1916 ildə çar hökuməti tərəfindən qəbul edilməmişdi. İttifaqın sədri Nəcəfqulu Vəliyev, idarə heyətinin üzvləri Mirzağa Atababayev, Orucəli Babayev, Səfər Mir Mövsümov, Yevsey Tatarenko idilər. Əsas məqsədi neft hasilatına olan ehtiyacları, kustar neft istehsalını qanunvericilik əsasındaqaydaya salmaq haqqında müvafiq müraciətlər edilməsi, neft bazarının vəziyyətinin öyrənilməsi, əməyin təhlükəsizliyini təmin edən müvafiq tədbirlərin və texniki qaydalann işlənib hazırlanması, ittifaqın fəaliyyət göstərdiyi ərazidə nəqliyyat yollarının

downloaded from KitabYurdu.az

çəkilişi, üzvlərə hüquqi yardımm təşkili, istehsal ehtiyaclan üçün lazımi materiallann alınmasına güzəştli kreditlərin açılmasını və s. təmin etmək olmuşdur. Bakı mədən rayonunda neftin əl ilə çıxarıldığı sahələrin icarəyə verilməsi üçün "xüsusi qaydalar" layihəsinin işlənib hazırlanması ilə əlaqədar ittifaq 1920 ilin əvvəllərində öz hesabatım Azərbaycan Xalq Cümhuriyyəti Ticarət və Sənaye Nazirliyinə təqdim etmişdi. Dövlət xəzinəsinin nıənafeyini müdafıə etmək məqsədilə tərtib edilmiş "Xüsusi qaydalar" kustar neft istehsalçılarının maraqlarım nəzərə almırdı. Buna görə də ittifaq "Xüsusi qaydalar"ı iqtisadi cəlıətdən məqsədəuyğun saymamışdı. İttifaq *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır.

**KÜRDƏMİR DÖYÜŞÜ** -erməni-daşnaklar tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi qüvvələrinin (bax *Qafqaz İslam Ordusu)* və Azərbaycan silahlı birləşmələrinin S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin qoşunlarına qarşı Kürdəmir qəsəbəsinin azad edilməsi məqsədilə 1918 il iyulun 5-dən 10-na qədər keçirdiyi döyüş əməliyyatı. Döyüşdə podpolkovnik Həbib bəy Səlimovun rəhbərliyi altında Müsüslü dəstəsi, Həsən bəyin 46-cı piyada taboru ilə toplu süvari alayından ibarət dəstəsi və cəbhənin gücləndirilməsi üçün sonradan cəlb olunmuş əlavə qüvvələr, düşmən tərəfdən isə Qırmızı ordunun 1-ci briqadası, İrandan yenicə gələrək, cəbhə komandanı təyin edilmiş Biçeraxovun dəstəsi və təlimatçılar məktəbinin bölmələri iştirak edirdilər. Düşmənin hərbi qüvvələri, əsasən, Birinci dünya müharibəsindən (1914-18) Bakıya gətirilmiş və Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirmiş daşnak-erməni zabit və əsgərlərindən ibarət idi.

Türk-Azərbaycan qoşun hissələrinin azlığı və bolşevik-daşnak qoşunlarının mövqelərinin daha əlverişli olması qırmızıların ilk günlər Müsüslü dəstəsi ilə Həsən bəyin dəstəsinin qarşısmı saxlamasına, hətta şimal istiqamətində Ağsuya doğru bir qədər irəliləməsinə imkan vermişdi.

Bolşevik-daşnak qüvvələrinin hücumlarının genişlənməsinə yol verməmək üçün 5-ci Qafqaz diviziyasının 13-cü piyada alayı Kürdəmir ətrafına yönəldildi. Alay Həsən bəyin dəstəsi ilə birləşərək, şimal tərəfdən Kürdəmirə hücum etməli idi. Müsüslüdəki qüvvələri gücləndirmək üçün Ağdaş və Xaldan məntəqələrində toplanmış Azərbaycan könüllüləri, həmçinin Qazaxa gətirilmiş 350 nəfər silahsız könüllü də Bərgüşad stansiyasına göndərildi.

İyulun 8-də ağır döyüşlər oldu. Düşmənə əsas zərbənin 13-cü alay tərəfindən vurulacağı nəzərdə tutulsa da, Qırmızı ordunun bura xeyli qüvvə çıxarması vəziyyəti mürəkkəbləşdirmişdi. Biçeraxov 13-cü alaya qarşı 8 top və 8 pulemyotla müşayiət olunan qüvvə çıxarmışdı. Döyüş gecəyə kimi davam etdi. Ciddi müqavimətlə üzləşən 13-cü alay iyunun 8-i gecəsini İbrahimbəyli və Qarasaqqal kəndləri arasında keçirdi. Müsüslü dəstəsinin fəallığı da gün ərzində cəbhədəki mövqelərdə ciddi dəyişiklik yaratmadı. Zirehli qatardan və ətraf landşaftdan bacarıqla istifadə olunması düşmənin müqavimətini xeyli artırmışdı.

İyulun 9-da və 10-da Kürdəmir ətrafında döyüşlər yenidən davam etdirildi. Ayın 10-da gecədən başlayan döyüşün gedişində düşmənin arxasındakı dəmir yolu xəttini dağıtmaq və onun geri çəkilməsini çətinləşdirmək üçün Kərrar stansiyasına bir dəstə göndərildi. Həmin dəstə tapşırığı yerinə yetirdikdən sonra 13-cü alay uğurla hücuma başladı. Vəziyyətin gərginləşdiyini görən Qırmızı ordu komandanlığı Kürdəmirin şimalındakı bolşevik-daşnak qüvvələrini gücləndirdi. Nəticədə, 13-cii alaym sağ cinahında ciddi təhlükə yarandı. Lakin bir tərəfdən, alay bölmələrinin fədakarlığı, digər tərəfdən də diviziyadan kömək göndərilməsi bolşevik-daşnak qüvvələrinin qarşısını almağa imkan verdi. Qazaxdan Bərgüşada gətirilmiş 350 nəfərlik dəstə də silahlandırılaraq 13-cü alaya qatıldı. Bu zaman H. Səlimovun Müsüslü dəstəsi düşmən qüvvələrinin zəifləməsindən məharətlə istifadə edərək, onun müdafiə xəttini yarmağa müvəffəq oldu.

Bolşevik-daşnak qüvvələri, bütün cəhdlərinə baxmayaraq, 13-cü alayın hücumunun qarşısını ala bilmədilər. Axşama yaxın alayın sağ cinahı ilə Müsüslü dəstəsinin sol cinahı Kürdəmirin qərbində birləşdilər. Bir neçə saatdan sonra isə birləşmiş qüvvələr qəsəbəni düşməndən tamamilə azad etdilər.

Kürdəmirin azad olunması hərbi təşəbbüsün Türk-Azərbaycan qoşunlarının əlində daha da möhkəmlənməsi ilə nəticələndi.

Əd:Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; Yüceer- N., Birinci dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, Ankara, 1996.

downloaded from KitabYurdu.az

# Q



**QACAR** Əmənulla Mirzə Bəhmən Mirzə oğlu (8.1.1862, Şuşa- 1937, Tehran) - hərbi xadim, general-mayor (1917). Azərbaycan Qacarlar sülaləsi nəslindəndir. Atası Bəhmən Mirzə Qacar (1811-84) Fətəli şah Qacarın nəvəsi və vəliəhdi Abbas Mirzə Qacarın (1789-1833) oğlu idi. Əmənulla xan Qacar Peterburq hərbi kadet korpusunu bitirdikdən (1879) sonra Rusiya ordusunda xidmət etmiş, 9-cu Kuban piyada kazak batalyonunun komandiri olmuşdur. Rusiya-Yaponiya (1904-05) və Birinci dünya müharibələrinin (1914-18) iştirakçısı olmuş, döyüşdə şücaətinə görə "Müqəddəs Vladimir", "Müqəddəs Anna", "Müqəddəs Sta-nislav" ordenləri ilə təltif edilmişdir. Fevral inqilabından (1917) sonra Tiflisdə, daha sonra Şuşada yaşamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra hərbi nazir Səməd bəy Mehmandarova ərizə ilə müraciət edərək, könüllü surətdə Azərbaycan ordusu sıralarında xidmətə başlamış, Xankəndidə Birinci süvari diviziyasının komandir müavini və qarnizon rəisi təyin olunmuşdur. 1920 il martın 21-də erməni daşnak quldurlarının qəfil gecə basqınına qarşı döyüşlərdə başçılıq etdiyi hərbi qüvvələrlə birlikdə igidliklə vuruşmuşdur. *Aprel işğalından (1920)* sonra İrana mühacirət etmiş, hərbi məktəbdə işləmiş, İranın ordu quruculuğunda yaxından iştirak etmişdir.

*Əd.:* N ə z i r l i Ş., Qacarlar, B., 1995; yenə onun, Arxivlərin sirri açılır, B., 1999 Каджар; Чингиз, Каджар, Б., 2001.



**QACAR** Əmir Kazım Mirzə Bəhmən Mirzə oğlu (1853, Şuşa - 1920) - hərbi xadim, general-mayor. Azərbaycan Qacarlar sülaləsi nəslindəndir. Tiflisdə gimnaziya təhsili almış, Peterburq süvari məktəbini bitirmişdir. 1871 ildən Rusiya ordusunun Qafqazdakı hərbi hissələrində xidmət etmişdir. Rusiya-Türkiyə (1877-78), Rusiya-Yaponiya (1904-05) və Birinci dünya müharibələrinin (1914-18) iştirakçısıdır. 1910 ildə general-mayor rütbəsinə layiq görülmüş, "Müqəddəs Anna", "Müqəddəs Stanislav", "Müqəddəs Vladimir" ordenləri, həmçinin İranın "Şiri-xurşid", Buxara əmirliyinin ordenləri ilə təltif olunmuşdur. Əmir Kazım Mirzə Tiflisdə Azərbaycan məktəblərinin və Azərbaycan dram teatrının açılma-sında fəal iştirak etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra istefada olan Əmir Kazım Mirzə hərbi nazir Səməd bəy Mehmandarova müraciət edərək, könüllü surətdə Azərbaycan ordusu sıralarmda xidmətə başlamışdır. S.Mehmanda-rovun 1919 il 18 dekabr tarixli əmri ilə Gəncənin komendantı təyin olunmuşdu. *Aprel işğalından (1920)* sonra bol-şeviklər tərəfindən güllələnmişdir.

Əd.:Nəzirli Ş., Qacarlar, B., 1995; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Каджар; Чингиз, Каджар, Б., 2001

**QACAR** Feyzulla Mirzə Bəhmən Mirzə oğlu (?-?)- hərbi xadim, general-mayor. Azərbaycan Qacarlar sülaləsi nəslindəndir. Nikolayevsk süvari məktəbini bitirdikdən sonra uzun müddət Rusiya ordusunda xidmət etmişdir. 1918 ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti ordusu süvari diviziyasının komandiri təyin olunmuş və 1919 ilin ortala-rınadək bu vəzifəni icra etmişdir. Hərbi nazir Səməd bəy Mehmandarovun 1919 il 9 yanvar tarixli əmri ilə, eyni za-manda, Gəncə qarnizonunun rəisliyi də ona həvalə olunmuşdu. *Aprel işğalından (1920)* sonra bolşeviklər tərəfindən güllələnmişdir.

Əd.:Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**QACAR** Xosrov Mirzə Bəhmən Mirzə oğlu (?-?)- hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti. Azərbaycan Qacarlar sülaləsi nəslindəndir. Birinci dünya müharibəsində (1914-18) iştirak etmiş, Şimal draqun polkunun komandiri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli ordu sıralarında xidmətə başlamış, 3-cü Şəki süvari alayının komandiri olmuşdur. 1919 il aprelin 9-da polkovnik rütbəsinə layiq görülmüş, hərbi nazirin həmin il 18 dekabr tarixli əmri ilə süvari diviziyası komandirinin müavini təyin edilmişdir. *Lənkəran əməliyyatında (1919)* və Qarabağda erməni qiyamının yatırılmasında fəal iştirak etmişdir. *Gəncə üsyanının (1920)* iştirakçısı olmuş, üsyan yatırıldıqdan sonra Türkiyəyə mühacirət etmişdir.

*Əd.:* N ə z i r l i Ş., Arxivlərin sirri açılır, B., 1999; Каджар; Чингиз, Каджар, Б., 2001

**QACAR** Məhəmməd Mirzə (?-?)- hərbi xadim, Azər-baycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru. Azərbaycan Qacarlar sülaləsi nəslindəndir. 1918 ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkilinə

downloaded from KitabYurdu.az

başlanılanda onun sıralarına qoşulmuşdur. Hərbi nazirlik bərpa edildikdən sonra polkovnik Məhəmməd Mirzə Qacar birinci topçu briqadasmın komandiri təyin olunmuşdu. Briqadanın formalaşdırılmasının ilkin ağırlığı da onun üzərinə düşmüşdü. Azərbaycan ordusunun təşkilatlanmasında göstərdiyi xidmətlərinə görə Hökumətin 1919 il 25 iyun tarixli qərarı ilə ona general-mayor rütbəsi verilmişdi. Məhəmməd Mirzə Qacar 1919 il dekabrın 1-də Baş Topçu İdarəsinin rəisi, 1920 il martın 15-də isə Azərbaycan ordusunun təchizat rəisi təyin olundu. Onun başçılıq etdiyi qurumun tərkibinə ləvazimat idarəsi, istehkam təchizatı idarəsi, topçu təchizatı idarəsi, hərbi-sanitar hissəsi və hərbi baytar hissəsi daxil idi. M.M.Qacar 1920 ilin mayında bolşevik işğalına qarşı başlamış *Gəncə üsyanının (1920)* əsas təşkilatçılanndan biri idi. Ona üsyandan sonra təşkil olunacaq yerli hökumətə rəhbərlik etmək tapşırılmışdı. Lakin üsyan işğalçı Qırmızı ordu birləşmələrinin birgə əməliyyatı nəticəsində amansızcasına yatırıldı. Məhəmməd Mirzə Qacarın sonrakı taleyi barədə məlumat yoxdur.


*Qacar Sədrəddin Mirzə döyüş yoldaşları ilə. Vladiqafqaz*

Əd.: Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995, yenə onun, Qacarlar, B., 1995, Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Каджар;Чингиз, Каджар, Б., 2001

**QACAR** Seyfulla Mirzə Bəhmən Mirzə oğlu (6.3.1864, Tiflis-1926) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yüksək rütbəli zabiti. Azərbaycan Qacarlar sülalesi nəslindəndir.Tiflis hərbi məktəbində təhsil almışdır. 1886 ildən Rusiya ordusunun 152-ci Vladiqafqaz alayında, Rusiyanın müxtəlif şəhərlərində süvari diviziyalarında xidmət etmiş, Birinci dünya müharibəsi (1914-18) dövründə Qərb cəbhəsində tabor və alay komandiri olmuşdur. 1916 ildə polkovnik rütbəsi alan Seyfulla Mirzə Qacar Amur sərhəd alayınm komandiri idi. "Müqəddəs Stanislav", "Müqəddəs Anna", "Müqəddəs Vladimir" ordenləri, "Georgi" silahı ilə təltif edilmişdir. Seyfulla Mirzə Qacar Azərbaycan Xalq Cümhuriyyəti hərbi nazirliyinin bərpasından sonra milli orduya qoşulan ilk Azərbaycan zabitlərindən biri idi. Hərbi nazirliyin 1918 il 15 noyabr tarixli əmri ilə o, baş qərargahda Lə-vazimat idarəsinin rəisi, 1919 ilin əvvəlindən isə 3-cü Gəncə piyada alayının komandiri təyin edilmişdi. Sonradan başqa vəzifələrdə də fəaliyyət göstərmiş Seyfulla Mirzə Qacar 1921 ilədək Azərbaycan hərbi hissələrində xidmətini davam etdirmiş, həmin ildə xəstəliyi ilə əlaqədar istefaya çıxmışdır.



*Əd.:* N ə z i r l i Ş., Arxivlərin sirri açılır, B., 1999; Каджар; Чингиз, Каджар, Б., 2001

**QACAR** Sədrəddin Mirzə (1866 - ?) - hərbi xadim. Azərbaycan Qacarlar sülaləsindən olan Şahzadə Əmir Kazım Mirzə Qacann nəvəsi, Azərbaycanın xalq artisti Surəyya Qacann atasıdır. Orenburqda hərbi məktəb bitirmişdir. Uşaq yaşlarından musiqiyə həvəs göstərən Sədrəddin Mirzə yaxşı skripka çalmış, sonralar musiqi müsabiqəsində qızıl medala layiq görülmüşdür. Hərbi xidmətini Vladivostokda keçirmişdir. Fevral inqilabından (1917) sonra Tiflisdə, daha sonra Gəncədə yaşamışdır. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli ordu sıralarında xidmətə başlamış, 1919 ilin sonlarınadək Bakı qəzasının hərbi rəisi, həmin vaxtdan isə hərbi nazirliyin dəftərxana rəisi olmuşdur. *Aprel işğalından (1920)* sonra Sədrəddin Mirzə bolşeviklər tərəfindən həbs edilərək Arxangelskə sürgün olunmuş, bir ildən sonra isə Ryazan şəhərində güllələnmişdir.

*Əd.:* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999; Каджар; Чингиз, Каджар, Б., 2001

**QAÇQIN VƏ KÖÇKÜNLƏRLƏ BAĞLI KOMİSSİYANIN YARADILMASI HAQQINDA QƏRAR -** Birinci dünya müharibəsi (1914-18) illərində və bundan sonrakı dövrdə erməni-daşnak quldurlarının törətdikləri soyqırımları nəticəsində ata-baba torpaqlarından, doğma yurd-yuvalarından didərgin düşmüş azərbaycanlılara kömək göstərmək məqsədilə ayrıca hökumət qurumu yaradılması barədə sənəd. 1919 il iyunun 23-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmişdir. Qərarın birinci bəndinə əsasən, Bakı şəhərində qaçqınların ehtiyaclarını müəyyənləşdirmək üçün Əkinçilik, Daxili işlər və Himayədarlıq nazirlikləri nümayəndələrindən ibarət Mərkəzi komissiya, quberniya və qəzalarda isə ona tabe olan yerli komissiyalar yaradılmalı idi. İkinci bəndə görə, xarici işlər naziri, qaçqınlar məsələsinin həllini asanlaşdırmaq və beynəlxalq komissiya yaratmaq məqsədilə Ermənistan Respublikası ilə əlaqə saxlamalı idi.

**QAÇQINLAR MƏSƏLƏSİ,** Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaçqınlar məsələsi - 20 əsrin əvvəllərində erməni millətçilərinin azərbaycanlılara qarşı dəfələrlə törətdikləri soyqırımları nəticəsində yaranmış və beynəlxalq səciyyə kəsb etmiş problem. 19 əsrin əvvəllərindən başlayaraq çar Rusiyası tərəfindən cənubi Qafqaza - Azərbaycan torpaqlarına köçürülmüş ermənilər yerli aborigen əhali olan azərbaycanlılara qarşı aramsız kütləvi qırğınlar həyata keçirmiş, onları öz ev-eşiklərindən məhrum etmiş, ata-baba torpaqlarından sıxışdırmışlar. Azərbaycan xalqının üzləşdiyi belə fəlakətlərdən biri də

downloaded from KitabYurdu.az

1917-20 illərdə baş vermişdir. Bu dövrdə yüz minlərlə azərbaycanlı Qərbi Azərbaycandan (hazırda Ermənistan adlanan ərazidən), həmçinin Naxçıvan, Qarabağ və digər bölgələrdən didərgin salındılar. 1917-18 illərdə təkcə Yeni Bayazid, Eçmiədzin və İrəvan qəzalanndan olan qaçqınların sayı 200 minə çatmış, İrəvan quberniyasında azərbaycanlılar yaşayan 211 kənd viran edilmişdi. Ümumiyyətlə, erməni qəddarlığı və təcavüzü nəticəsində 1918-20 illərdə İrəvan, Zəngəzur, Şuşa və Şamaxıdan 300 mindən çox azərbaycanlı qaçqın düşmüşdü. Azərbaycanın əlverişli geostrateji mövqedə yerləşməsi, zəngin sərvətlərə malik olması, Birinci dünya müharibəsi zamanı bir-biri ilə döyüşən bloklardakı iri dövlətlərin, Azərbaycana yiyələnmək və buranı həmişəlik olaraq özünün bir quberniyasına çevirmək istəyən Rusiyanın Azərbaycana münasibətdə təcavüzkar siyasəti, Azərbaycan xalqının müsəlman, xüsusilə türk olması və Rusiyanın müstəmləkə siyasətindən narazılığı, ermənilərin "dənizdən-dənizə" "Böyük Ermənistan" yaratmaq kimi sərsəm ideyalarını həyata keçirmək məqsədilə Azərbaycanın əzəli torpaqlarını zəbt etmək arzusu, ümumən, türklərə qarşı düşmən münasibəti, onların öz məkrli niyyətlərini həyata keçirmək üçün böyük dövlətlərin, xüsusilə Rusiyanın əlində alətə çevrilmələri və s. o zaman Azərbaycanın düçar olduğu fəlakətin əsas səbəbləri idi.

Azərbaycan xalqının öz doğma yurd-yuvalarından qaçqın düşməsi prosesi Avropa dövlətlərinin cənubi Qafqaza müdaxiləsindən sonra da dayanmadı. Həmin dövrdə təkcə İrəvan quberniyasından Şərqi Azərbaycana 150 mindən çox qaçqın gəlmişdi. 1919 il oktyabrın 1-nə kimi Azərbaycanda təkcə İrəvan quberniyasından 5848 ailə, yaxud 30741 nəfər qaçqın var idi.

Qaçqınların sayı Azərbaycanın mərkəzində - Bakıda hakimiyyəti ələ keçirmiş daşnak S.Şaumyamn rəhbərlik etdiyi Bakı Sovetinin antiazərbaycan siyasəti, yerli türk-müsəlman əhaliyə qarşı həyata keçirilən dəhşətli soyqırımları nəticəsində daha da artmışdı. Azərbaycanlı qaçqınlara yardım məqsədilə Zaqafqaziya seymindəki müsəlman fraksiyasının tələbi ilə xüsusi qurum - qaçqınlar şöbəsi yaradılmışdı. Lakin seymdə təmsil olunan ermənilərin azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətini dəstəkləmələri nəticəsində bu şöbə işinin öhdəsindən gələ bilmədi. Bakı şəhəri də daxil olmaqla, ölkə ərazisinin bir hissəsinin daşnak-bolşevik qüvvələrinin nəzarətində olduğu vaxt Gəncədə fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti qaçqınlara kömək etmək üçün dərhal ciddi səylər göstərmiş və bu problemin həlli üçün Xudadat bəy Rəfibəylinin başçılığı ilə Səhiyyə və Himayədarlıq Nazirliyi yaratmışdı. Milli Hökumət Bakı da daxil olmaqla, ölkə ərazisini işğalçılardan azad etdikdən və paytaxt Bakıya köçürüldükdən sonra qaçqınlar məsələsi ilə daha da ciddi məşğul olmaq imkanı qazandı. Problemin dərinliyini və ciddiliyini nəzərə alan Hökumət 1918 ilin oktyabrında Səhiyyə və Himayədarlıq Nazirliyini iki müstəqil nazirliyə çevirdi. Qaçqınlar problemi ilə Himayədarlıq Nazirliyi məşğul olmağa başladı. Müharibə, hərc-mərclik, xüsusilə 1918 ildə güclənən erməni təcavüzü və soyqırımları nəticəsində ölkədə evsiz-eşiksiz qalan, tamamilə müflisləşən və sərgərdan vəziyyətə düşən on minlərlə adam var idi. Onlar dövlətin göstərdiyi qayğı və yardım vasitəsilə yaşayırdılar. Hökumət onları maddi yardımla, müvəqqəti yaşayış yerləri ilə, həmçinin, işlə təmin etmək, yetim və valideynləri tərəfindən atılmış uşaqları xilas etmək məqsədilə daimi idarələr yaratmışdı.

Qaçqınlar problemləri ilə bağlı hökumətin qarşısında duran başlıca vəzifələr qonşu dövlətlərdən gələn saysız-hesabsız didərginlərə qayğı və diqqət göstərilməsi, onların zəruri ərzaq məhsulları ilə təmin edilməsi, təsərrüfatlarının təşkili üçün faizsiz borc, əkin üçün toxum, iş heyvanları verilməsindən ibarət idi. Hökumət yetimxanaların və az-yaşlı yetimlər üçün koloniyaların, himayə evlərinin açılması, əhalinin yoxsul təbəqəsi üçün müvəqqəti yaşayış yerlərinin, qidalanma məntəqələrinin və ucuz yeməkxanaların, xeyriyyə işlərinin təşkili sahəsində də mühüm tədbirlər həyata keçirmişdi.

Qaçqınlar Bakıdan kənarda yerləşdirilərkən hökumətlə yanaşı, yerli ictimai qüvvələrin köməyindən də istifadə olunur, qaçqınların və yerli əhalinin nümayəndələrindən ibarət qaçqın komissiyaları təşkil edilirdi. Bu komissiyalar qaçqınların işə düzəlməsi, yerləşdirilməsi yollarını axtarırdı.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti, iqtisadi çətinliklər üzündən, 1919 ilin ortalarından etibarən Bakı şə-hərindən kənarda yaşayan qaçqınlara nağd pulla yardım göstərilməsini dayandırmışdı. Bunun əvəzində ərzaq payları verilirdi. Bu, orta hesabla, yaşından asılı olmayaraq, adambaşına 20-25 funt buğda və arpa, çəltik, sabun, duz, parça, paltar və s. ibarət idi. Bu zaman, müstəsna hal kimi, işləmək imkanından məhrum olanlar nəzərə alınmırdı.

Bundan başqa, Şamaxı və Lənkəran qəzalarında daşnak-bolşevik qüvvələrinin, ağqvardiyaçıların vəhşiliyi nəticəsində müflisləşmiş, qaçqınlar kimi müəyyən dərəcədə köməyə ehtiyacı olan minlərlə insan vardı. Bu vəziyyət hərtərəfli araşdırılır, 1919 ilin aprelindən onlara da məhsul yığımınadək, qaçqınlarla bərabər, ərzaq yardımı edilirdi.

Azərbaycan Hökuməti Parlamentdən Zəngəzur qaçqınları üçün, üç aylıq yardım və qidalanma da daxil olmaqla, 187500 manat həcmində xüsusi kredit aynlmasını xahiş etmişdi. Parlament göstərilən vəsaiti ayırmış və Zəngəzur qəzasını əhatə edən xüsusi idarələrarası komissiyanm sərəncamına vermişdi. 1919 ildə Şuşa, Cəbrayıl, Cavanşir, Ağdam, Qaryagin (indiki Füzuli rayonu) və Bərdədə məskunlaşan 20 minədək qaçqına yardım edilmişdi.

Qaçqınların əsas kütləsi əkinçi olduğundan 1920 ilin baharınadək onların Ərəş və Nuxa qəzalarında yerləşdirilməsi məqsədəuyğun sayılırdı. 1919 ilin yayında istilərin düşməsi ilə əlaqədar, Azərbaycan Hökuməti onları Nuxa, Ərəş, Göyçay və Şamaxı qəzalarının boş torpaqlarında yerləşdirmişdi. Nuxa dairəsi və Gəncə qəzasında yerləşən qaçqınlara 2 milyon manata qədər yardım edilmişdi. 1918 ilin oktyabrında İrəvan quberniyasının Eçmiədzin

downloaded from KitabYurdu.az

qəzasından Qazax qəzasına qaçqınların kütləvi surətdə yeni axını baş verdi. 1919 il yanvarın əvvəllərində Zəngəzurda baş verən zorakılıqlar və qırğınlar nəticəsində bu qəzanın dağlıq hissəsinin 40 minədək sakini Qarabağın Cəbrayıl, Şuşa, Cavanşir qəzalarına və respublikanın digər yerlərinə qaçmağa məcbur oldular. Bu səbəbdən Azərbaycan Hökuməti 1919 ilin mayında Parlamentə Ermənistanın müsəlman əhalisinə yardım göstərilməsi barədə qanun layihəsi təqdim etmişdi. Parlament qanun layihəsinə dərhal baxdıqdan sonra vəsait ayırmaq barədə qərar qəbul etmiş, ayrılmış 3 milyon vəsait hesabına 1919 il iyulun sonlarında İrəvana 15 vaqon un, taxıl, darı və arpa göndərilmiş və əhalinin hər nəfərinə ayda 10 funt hesabı ilə paylanmışdı. Bundan əlavə, İrəvanda müsəlmanlar üçün ambulatoriya, habelə 85 nəfərlik uşaq evi açılmış və sonralar Amerika Komitəsinin himayəsinə verilmişdi.

Bakı və onun ətrafını əhatə edən sənaye rayonunda yalnız qaçqınlara deyil, bütün yoxsul yerli əhaliyə, mədən fəhlələrinə də yardımlar göstərilirdi. Azərbaycan Hökuməti 1919 ilin fevralından başlayaraq qida məntəqələri şöbələrinə, əslində, dövriyyə vəsaitlərinin yeganə mənbəyinə çevrilmiş aylıq ödənişsiz pul subsudiyaları verirdi. Hökumət bununla kifayətlənməyərək, həmin şöbələrin işinə daim nəzarət edir və ehtiyac olduqda şəhərin müxtəlif yerlərində yeni məntəqələrin açılmasına göstəriş verirdi. Bu məntəqələrdə əhaliyə pulsuz, bir hissəsi kiçik ödənişlə isti xörək, çay, həmçinin zəruri gündəlik tələbat məhsulları da paylanırdı.

Azərbaycan Hökuməti ilə yanaşı, xalq da qaçqınlara yaxından köməklik edirdi. 1919 ildə Bakı şəhəri və mədən rayonlarında qaçqınlar üçün 308000 manat toplanmışdı.

Ermənistan və Gürcüstan hökumətlərindən fərqli olaraq, Azərbaycan Cümhuriyyəti, milliyyətindən asdı olmayaraq, bütün didərginlərə kömək edirdi. Belə ki, Hökumət 1919 ildə yardım olaraq Müsəlman qadın xeyriyyə cəmiyyətinə - 220 nəfərlik müsəlman uşaq sığmacağı üçün, Erməni Milli Şurasına - 517 nəfərlik 2 sığınacaq üçün, Rus xeyriyyə cəmiyyətinə - 517 nəfərlik sığınacaq və əlillər evi üçün, Uşaq evi cəmiyyətinə - 80 nəfərlik sığınacaq üçün, 9-cu sahə komitəsinə - 30 nəfər yaşlı adam üçün, Yəhudi Milli Şurasına - ucuz yeməkxana üçün, Yəhudi xeyriyyə cəmiyyətinə - qocalar və əmlakı olmayanlar üçün sığınacağa görə 2114501 manat pul vermişdi.

Azərbaycan Hökuməti 1918 il mart qırğınları və Bakının yadelli işğalçılardan, o cümlədən "Sentrokaspi diktatur-ası"ndan azad edilməsi dövründə zərər çəkmiş şəxsləri də yaddan çıxarmamışdı. Hökumət belə şəxslərə birdəfəlik pul yardımı göstərmişdi. Bu müavinətlər üçün ayrılan pulların ümumi məbləği isə 300000 manata bərabər idi.

Azərbaycan Hökumətinin qaçqınlarla bağlı gördüyü işin bir sahəsi də onların öz doğma yurd-yuvalarına qayta-rılması idi. Bununla bağlı bütün xərcləri hökumət özü çəkirdi. Azərbaycan Hökuməti erməni və rus milli komitələrinin rəyinə əsasən, 5000 ermənini və 2500 rusu daimi yaşayış yerlərinə yola salmışdı. Bundan əlavə, 4000 müsəlman və 1000 nəfər digər millətlərin nümayəndələri də daimi yaşayış yerlərinə yola salınmışdı. Onlara, əlavə olaraq, yolda qidalanmaq üçün də müavinətlər verilmişdi.

O dövrdə erməni daşnakları rus qoşunlarının köməyi ilə Anadoluda, xüsusilə Qarsda, İqdırda və b. ərazilərdə yerli türk əhalisinin evlərini dağıtmış, on minlərlə günahsız insanı, o cümlədən qoca, qadın, uşağı öldürmüş, ev-eşiyindən didərgin salmışdılar. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bu insanları da yaddan çıxarmamışdı. Belə ki, Himayədarhq Nazirliyi Müsəlman Xeyriyyə cəmiyyətinin vasitəçiliyi ilə Qars əyalətindən qaçqın düşərək Bakıda məskunlaşan 700 nəfərin gündəlik çörəklə təminatını öz üzərinə götürmüşdü. Hökumət 1919 ilin noyabrından 1920 il yanvarın 1-dək olan dövrdə buna 526.195 manat məbləğində pul xərcləmişdi.

Himayədarlıq Nazirliyinin nümayəndəsi Qars vilayətindən və İrəvan quberniyasından olan müsəlman qaçqınlara yardım üçün 1919 ilin noyabrından Tiflisə ezam edilmişdi. O, qaçqınların yolüstü qısamüddətli qidalanma məntəqələrinin yaradılmasını təşkil etməli və bunun üçün onlara pul müavinətləri verməli idi. Tifiis yaxınlığında və Aşağı Cəral stansiyasında iki belə məntəqə açılmışdı. 1919 ilin axır-larında Dağlılar Respublikasında gedən hərbi əməliyyatlar üzündən Azərbaycana pənah gətirən qaçqın dağlılara yardım məqsədilə də 1 milyon manatpul sərf edilmişdi.

Azərbaycan Parlamentində xalq üçün fəlakətə çevrilmiş qaçqın və didərginlərin məsələsi dəfələrlə müzakirə edilmiş və müvafiq qərarlar qəbul olunmuşdu. Məsələn, 1919 ildə Parlament Qərbi Azərbaycandan olan qaçqınlara smetadan kənar 13 milyon, Zəngəzur qaçqınlarına 18 milyon 750 min manat köməklik göstərilməsi barədə qərar qəbul etmişdi.

Parlamentdə müzakirələr zamanı deputatların bir qismi ayrılan yardımlara heç də birmənalı münasibət bildirmir, qaçqınlara göstərilən yardımların formasına etiraz edirdilər. Məsələn, deputat A.Aşurov yardımm qısa müddət üçün nə-zərdə tutulduğuna və hökumətin qaçqınların vəziyyətinin yaxşılaşdırılması istiqamətində uzunmüddətli proqramının olmamasına etiraz edirdi. Parlamentin 14 iyun 1919 il tarixli iclasında deputatların əksəriyyəti qaçqınlara yardımdan da-ha çox, onların işlə təmin olunmasını düzgün yol hesab edirdi. Deputatların bir qismi pulların qaçqınlara necə çatdı-rılması ilə bağlı hökumətdən ciddi izahat istəyir, mənimsəmənin qarşısını almağı tələb edir, digər qismi isə problemi həll etmək üçün əmək qabiliyyətli qaçqm və köçkünlərdən ötrü yeni iş yerləri açmağın zəruri olduğunu bildirirdilər. Onlar Suraxanı-Mərdəkan dəmir yolu xəttinin çəkilməsini və qaçqınların orada işlə təmin olunmasını təklif edirdilər.

Azərbaycan Hökuməti qaçqınlara təkcə pulla deyil, ərzaqla da kömək edirdi. Belə ki, 1920 il yanvarın 5-də par-lamentdə qaçqınların 21 milyon manat dəyərində buğda ilə təchiz olunması haqqında qərar qəbul olunmuşdu. Ümu-miyyətlə, 1919 ildə Hökumət əhalinin yoxsul təbəqələrinə kömək üçün 3082000 manat maliyyə yardımı etmişdi.

downloaded from KitabYurdu.az

zərbaycan Hökuməti milli münaqişələr zamanı yetim və kimsəsiz qalmış uşaqların himayəsinə də xüsusi diqqət yetirirdi. Bu sahədə görülən mühüm işlərdən biri də yerli xeyriyyə cəmiyyətlərinin maliyyə köməyi ilə valideyn himayəsindən məhrum olanlar üçün uşaq evlərinin təşkili, genişləndirilməsi və bu işə daim nəzarət edilməsi idi.

1918 ildə Mərkəzi Uşaq Evinin nəzdində yetim uşaqlara kömək etmək üçün xüsusi yardım bürosu yaradılmışdı. Büro, bu sahədəki bütün işlərin öhdəsindən təkbaşına gələ bilmədiyindən kömək üçün Himayədarlıq Nazirliyinə müraciət etmişdi. Nazirlik uşaq evindəki hər bir uşağa əvvəlcə ayda birdəfəlik 60 manat, sonra isə qaytarılmamaq şərti ilə 120 manat subsudiyaların ödənilməsi yolu ilə kömək ayrılmışdı. Büro dağıldıqdan sonra isə nazirlik cəmiyyətlərə himayəyə götürülmüş hər bir uşaq evi üçün adambaşına ayda 200 manat subsudiya ödəyirdi. Bundan əlavə, cəmiyyətin bu və ya digər ehtiyacları üçün, əlillər evi, gecəqondular və ucuz yeməkxanaların saxlanmasından ötrü də vəsait ayrılırdı.

Azərbaycan Hökuməti ağır vəziyyətdə olmasına baxmayaraq, Gürcüstanda yaşayan yoxsul müsəlman əhalisinə də yardım göstərirdi. Belə ki, hökumət 1920 ilin fevralında Gürcüstanda baş verən zəlzələ nəticəsində zərər çəkmiş əhaliyə, Axalsıx və Axalkələk qəzalarının yoxsul əhalisinə ərzaq və maliyyə yardımı etmişdi.

Tədqiqatlar və müqayisəli təhlil sübut edir ki, əsrin əvvəllərində olduğu kimi, sonunda da Azərbaycan xalqının deportasiya və soyqırımına məruz qalmasının səbəbləri dəyişməyərək qalmışdır.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998; Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Əziz B., ADR-in qaçqınları yerləşdirmək sahəsində fəaliyyəti, "Tarix və onun problemləri", B., 2000, №3-4; yenə onun, Azərbaycan Xalq Cümhuriyyəli və qaçqınlar problemi. Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri. Beynəlxalq ylmi sessiyanın materialları, B., 2003; Адрескалендарь Азербаиджанскюй Республики на 1920 г., Б., 1920.

**QAFARZADƏ** Əsədulla Qafar oğlu (1885, Ərdəbil - may 1918, Rəşt) - *"Ədalət"* təşkilatının rəhbərlərindən biri. 1905 ildən Rusiya Sosial-Demokrat Fəhlə (bolşeviklər) Partiyasının üzvü. 1905-11 illər İran inqilabının iştirakçılarına silah və siyasi ədəbiyyat göndərilməsində fəal iştirak etmişdir. 1917 ildə "Ədalət" in ilk sədri seçilmiş, təşkilatın orqanı olan "Bayraqi-ədalət" həftəlik ictimai-siyasi və ədəbi jurnalının (ilk nömrəsi 1917 il iyunun 10-da Bakıda Azərbaycan və fars dillərində çıxmışdır) redaktoru olmuşdur. Gilan inqilabçıları ilə əlaqə yaratmaq məqsədilə 1918 ilin mayında Rusiya Kommunist (bolşeviklər) Partiyası Bakı komitəsi tərəfindən İrana göndərilmiş, Rəşt şəhərində öldürülmüşdür.

**"QAFQASYA"** - Qafqaz siyasi mühacirlərinin 1951 ilin avqustundan 1952 ilin dekabrınadək Münxendə türk, ingilis və rus dillərində nəşr etdirdikləri jurnal. Vahid konfederatif Qafqaz dövləti yaratmaq ideyasını təbliğ edirdi. Əli xan *Qantəmirin* redaktorluğu ilə çıxan jurnal 1-ci sayındakı "Dava və qayəmiz" adlı baş məqaləsində yazırdı: ***"Müztərib Vətənimizin qurtuluşu ümidi ilə yaşayan biz qafqazlılar üçün yalnız müstəqil və birləşik Qafqaz fikrinə sədaqətimizi yenidən bəyan etməklə qalmayıb, bu həddə hansı yollarla çatmaq istədiyimizi, hansı millətlərarası qüvvələrə istinad etməyi düşündüyümüzü, Qafqazın öz istiqlalım istirdad etməsi və xüsusilə onu mühafizə edə bilməsi üçün özünə hansı dostları və müttəfiqləri tapa biləcəyini də ortaya qoymaq zamanı gəlmişdir".***

Jurnalda Qafqaz birliyi ideyasına, ərazidə yaşayan xalqların tarixi birliyinə, həmçinin çar Rusiyasının, sovet rejiminin Qafqazdakı siyasətinə dair elmi-publisistik materiallar dərc edilirdi. Əli xan Qantəmirin "Qafqaz" (1951, avqust, № l), Əhməd Nəbi Maqomanın "Qafqazın istiqlal mücadiləsi" (1951, avqust, № 1), Mirzə Bala Məmmədzadənin "Azərbaycanda ruslaşdırma siyasəti" (1952, iyun-iyul, №11-12) və digər çoxsaylı məqalələrdə Qafqazın tarixi coğrafiyası, burada yaşayan xalqların adət-ənənəsi və yadellilərə qarşı birgə mübarizəsindən bəhs olunurdu.

"Qafqasya"nın ən çox müraciət etdiyi mövzu sovet rejimi və ideologiyasının, bolşevizmin xalqlara gətirdiyi bəlaların tənqidi idi: Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycanda Aprel inqilabı" (1952, N9İ0), R.Trahonun "Şimali Qafqazda kollektivləşdirmə" (1952, Nell-12), M.H.Türkəqulun "Qızıl Rus imperiyası qan üzərində qurulmuşdur" (1952, N°14) məqalələri və s. Məhəmməd Əmin Rəsulzadənin "Qafqaz Konfederasiyası hərəkatı" (1951, N°2-3) və "Qafqaz məsələsi" (1952, Ne6-14) məqalələri Qafqaz birliyi ideyasımn proqramı adlandırıla bilər.

Mirzə Bala Məmmədzadənin "Milli istiqlal davamızın bugünkü səhifəsi" adlı yazısında (1952, avqust № 13) bir tərəfdən, rusların nəyin bahasına olursa-olsun, "vahid və bölünməz Rusiya" qurmaq niyyətləri ifşa edilirsə, digər tərəfdən, "milli istiqlal davamızı ruslarla bir bazarlıq mövzusu halına" gətirən qeyri-rus, o cümlədən Azərbaycan mühacirətinin yanlış mövqeləri tənqid olunur.




"Hər şeydən öncə - milli istiqlal" adlı başqa bir məqaləsində (1952, oktyabr, №15) M.B.Məmmədzadə Amerika Komitəsinin sədri admiral Kerki "Sovetlərdəki millətlərin istiqlal haqqını şübhə altına aldığına" görə qınayaraq yazırdı: ***"Bizim üçün, hər şeydən öncə, milli istiqlalımız bəhs mövzusu olduğu halda və müqəddəs haqqımızın qeyd və şərtsiz tanınmasını tələb etdiyimiz halda, Amerika Komitəsinin siyasətinə tərcüman olan admiral Kerk bunun tam əksini id-dia edir, hətta daha irəli gedərək, "bir çox millətin qaynayıb-qarışıb tək bir millət" ola biləcəyini mümkün görür".*** Məqalədə

downloaded from KitabYurdu.az

daha sonra deyilirdi: "Hər şeydən öncə, istiqlal haqqının tanınmasını tələb edən millətlər yenidən böyük bir Rusiyanın təşəkkülünü ümumi barış, ümumi güvən, dünya mədəniyyəti və hürriyyət prinsipləri üçün böyük bir təhlükə hesab edirlər". "Qafqasya"nın tutduğu yolun doğru olduğunu tarix 40 il sonra təsdiq etdi: Sovetlər birliyi çökdü və imperiyanın xarabalıqları üzərində müstəqil milli dövlətlər yarandı.

"Qafqasya" 1953 ilin yanvarından həmin ilin mayınadək "Birləşik Qafqasya" adı ilə nəşr olunmuşdur. Proqram, məram, mövzu, problem və yazarlar baxımından "Birləşik Qafqasya" öz sələfindən fərqlənmirdi.

Qafqaz konfederasiyası ideyasına yarandığı vaxtdan tərəfdar olmayan erməni mühacirətinin təmsilçiləri, əvvəl-ki nəşrlər kimi, "Birləşik Qafqasya"nın da fəaliyyətində iştirak etmirdilər. Əsasən, Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin tribunasına çevrilən "Birləşik Qafqasya" Qafqaz konfederasiyası uğrunda ardıcıl mübarizə aparırdı. Jurnal, eyni zamanda, milli istiqlal mübarizəsi önünə kötük kimi atılan "vahid və bölünməz Rusiya" prin-sipinin tərəfdarlarına sərt cavablar verməyi də unutmurdu.

Azərbaycan mühacirətinin liderlərindən biri, görkəmli ideoloq M.B.Məmmədzadə beləlvalərinin tezislərini tutarlı tarixi faktlarla alt-üst edərək yazırdı: ***"Tarixən qılınc, qan və ataş gücü ilə, vəhşət və barbarlıqla təşəkkül etmiş Rusiya varsa, o millətlər zindanında... milli mövcudiyyətlərini qoruya biləcək qədər mədəni və insani qüdrət göstərmiş olan millətlər də vardır...".***

Mürəkkəb və dəyişən tarixi şərait, ictimai-siyasi mühit mühacir istiqlalçıların mübarizə üsulu və taktikasında müəyyən dəyişikliklər etsə də, onları əsas prinsip, amal və proqramlarından döndərə bilməmişdi. Azərbaycan istiqlal-çılarının "Birləşik Qafqasya"da dərc edilmiş bu qəbildən olan yazıları göstərir ki, sovet rejiminin ***"şiddət və təzyiq politikasına rəğmən, ruslar Azərbaycanı yalnız maddətən istila etməyə müvəffəq olmuş, Vətən mənən fəth edilmə-mişdir"*** (M.H.Türkəqul, "Azərbaycan türklərinin istiqlal günü", 1953, may, № 5).

"Birləşik Qafqasya" Azərbaycan istiqlalçılarının həyatında və mətbuat tarixində parlaq iz qoymuş, *"rədd olsun bölünməz və bütöv Rusiya, yaşasın Qafqaz Konfederasiyası, yaşasın millətlərin istiqlal haqqı!"* - deyərək, SSRİ-dəki məhkum millətlərin istiqlalının bolşevizmə qarşı mübarizə proqramının tərkib hissəsinə çevrilməsində böyük rol oynamışdır.

*Əd.:* T a h i r l i A., Azərbaycan mühacirəti,B., 2001; yenə onun, Azərbaycan mühacirət mətbuatı, II hissə, B., 2003.

**"QAFQAZ AZƏRBAYCANI CÜMHURİYYƏTİNİN. PARİS SÜLH KONFRANSINA MEMORANDÜMU"** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Paris Sülh Konfransına təqdim etdiyi tarixi sənəd. 1918 il dekabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Parlamentin ağsaqqallar şurası üzvlərinin iştirakı ilə Paris Sülh Konfransına göndəriləcək Azərbaycanın nümayəndə heyətinin tərkibini müəyyən etdi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinə Məmməd Həsən Hacınski, Əhməd bəy Ağayev, Əkbər Şeyxülislamov, Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli daxil idilər. Yanva İstanbula gedən nümayəndə heyəti üç ay orada gözlədik sonra, nəhayət, 1919 il aprelin 22-də İtaliya gəmisi Fransaya yola düşdü və mayın əvvəllərində Parisə çatan nümayəndə heyəti hələ İstanbulda ikən Ə.Topçubaş Ə.Ağayev və C.Hacıbəyli tərəfindən hazırlanmış "Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu" adlı sənəd üzərində yenidən işləyərək, onu daha da təkmilləşdirdi. Məqsəd memorandumu Paris Sülh Konfransının keçirildiyi ingilis və fransız dillərində kitabça şəklində hazırlayıb konfrans iştirakçılarına paylamaq Ə.Topçubaşov 1919 il iyunun 8-10-da Azərbaycan Cümhuriyyəti Nazirlər Şurası sədrinə yazdığı məktubda mermo randum üzərində gedən gərgin iş barədə məlumat verə bildirirdi ki, ***"indi nümayəndə heyətinin bütiin üzvləri həmin məsələ ilə məşğuldurlar. Ümid edirik ki, memorandumu tezliklə başa çatdırıb lazımi yerlərə və şəxslərə təqdim edəcəyik".*** Həmin il iyulun 8-9-da yazdığı digər məktuda isə o, memorandumun iyunun 12-də, ümumən, yazılıb başa çatdırıldığını, onun nümayəndə heyəti üzvlərinin təklif əlavə və düzəlişləri əsasında yenidən təshih olunub fransız dilinə tərcümə edildiyini bildirirdi.

Azərbaycan Hökumətinin memorandumu, hələ kitabça şəklində çap edilməzdən əvvəl, ingilis və fras dillərində əlyazması şəklində Sülh Konfransının katibliyinə təqdim olunmuşdu.

"Qafqaz Azərbaycam Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu" on dörd bölmədən ibarət idi. "Az baycanın mənşəyi-müstəqil xanhqlar və onların tənəzzü adlanan 1-ci bölmədə Azərbaycan xalqının mənşəyi və formalaşma prosesi, Azərbaycanın qədim coğrafi hüdudları, müstəqil xanlıqların yaranması və onların Rusiya imperiyası tərəfindən işğalı barədə Sülh Konfransı iştirakçılarına, Avropa və Amerika ictimaiyyətinə qısa məlumat verilirdi.

Memorandumun "Azərbaycanın yerli əhalisi, onların keçmiş rus imperiyasına münasibəti" adlanan 2-ci bölməsində Rusiya işğalından sonra Qafqazın digər xalqlarına nisbətən azərbaycanlıların daha çox təqiblərə məruz qalması, onların uzun müddət milli məktəbinin, anadilli mətbuatının, xeyriyyə cəmiyyətlərinin qadağan edilməsi, məmurlarının müsəlman xadimlərinə etimadsızlığı və haqqında məlumatlar açıqlanırdı.

"Transqafqaz seymi və federasiyası - onların tənəzzülü və süqutu" adlanan 3-cü bölmə Cənubi Qafqazda müxtəlif dövlət qurumlarının yaradılması, onların daxili və xarici yasəti, Zaqafqaziya seymi daxilindəki ziddiyyətlər, habelə Seymin süqutunun səbəbləri əksini tapmışdı.

Memorandumun "Azərbaycan Cümhuriyyətinin höküməti və onun paytaxtı Bakı şəhəri" adlanan 4-cü bölməsində Azərbaycanın müstəqilliyinin elan edilməsi, Cümhuriyyət Hökumətinin təşkili, onun fəaliyyəti barədə hərtərəfli və yığcam məlumat verilir, Bakı şəhəri, onun bir paytaxt

downloaded from KitabYurdu.az

kimi Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatındakı roluna geniş yer ayrılırdı. Memorandumun 5, 6 və 7-ci bölmələrində Azərbaycan xalqının bolşevik və erməni-daşnak quldurlarına qarşı mübarizəsindən, bolşevik-daşnakların Bakı, Şamaxı, Quba və digər yerlərdə azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərindən və Bakının azad olunmasından bəhs edilirdi.

Memorandumun ən mühüm bölmələri Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi və əhalisinə aid bölmələr idi. Ermənistanın, Gürcüstanın və İranın konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana qarşı yönəldiyindən, Cümhuriyyət ərazilərinin tarixən ona məxsus olması, Azərbaycana qarşı iddia qaldırılmış ərazilərdə əhalinin böyük əksəriyyətini ta qədimdən azərbaycanlıların təşkil etməsi tarixi faktlarla əsaslandırılırdı.

"Millətlər liqası. Azərbaycanlıların mövqeyi. Bolşeviklərə qarşı mübarizədə türklərə müraciət" adlanan 13-cü bölmədə Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər liqasına daxil olmaq təşəbbüsü, dünya xalqlan ailəsində özünün qanuni yerini tutmaq üçün Millətlər liqasının tribunasından istifadə arzuları ifadə edilmişdi.

Memorandumun sonuncu - 14-cü bölməsində Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransına bəslədiyi ümidlər və konfransdan tələbləri əksini tapmışdı.

Azərbaycan nümayəndə heyətinin tələbləri konfrans nümayəndələrinin ciddi müzakirələrinə səbəb oldu və nəhayət, bəhrəsini verdi. 1920 il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycan Cümhuriyəyətinin varlığını *de-fakto* tanımaq barədə qərar qəbul etdi. Bu, Azərbaycanın Parlamentinin sədri Ə.Topçubaşovun rəhbərlik etdiyi sülh nümayəndə heyətinin, ümumiyyətlə isə, Azərbaycan xalqının, Hökumətinin və diplomatiyasının böyük qələbəsi idi.

*Əd.: Азербаиджанская Демократическая Ресбулика.* (1918-1920). Внешнеяя политика (документы и материалы), Б., 1998; Topçubaşov Ə., Paris məktubları, B., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ciillər), B., 1993.

**QAFQAZ BOLŞEVİK TƏŞKİLATLARININ BİRİNCİ QURULTAYI** - Qafqazdakı bolşevik təşkilatlarını Rusiya Sosial-Demokrat Fəhlə (bolşeviklər) Partiyasının [RSDF(b)P] rəhbərliyi altında birləşdirmək və onların fəaliyyətini vahid məqsədə yönəltmək niyyətilə keçirilmiş toplantı. 1917 il oktyabrın 2-dən 7-dək Tiflis şəhərində keçirilmişdir. Qurultayda Bakı, Batum, Gəncə, Şuşa, Tiflis və başqa şəhərlərin bolşevik teşkilatları 52 nümayəndə ilə təmsil olunurdular. Qurultay aqrar və milli məsələlərə, siyasi vəziyyətə dair qərarlar qəbul etmiş və RSDF(b)P-nin Qafqaz ölkə Komitəsini seçmişdi.

**QAFQAZ CƏBHƏSİ** - Birinci dünya müharibəsində (1914-18) Rusiyanın hərbi əməliyyat cəbhələrindən biri. 1915 ilin oktyabrında yaranmışdı. Türkiyənin Qara dəniz sahillərində yerləşən Tirebolu şəhərindən İranda Təbriz və İsfahanadək olan 1000 km-lik məsafəni əhatə edirdi. Qafqaz cəbhəsi tərkibinə Türkiyə ərazisində Qafqaz ordusu (1-ci, 4-cü, 5-ci, 6-cı Qafqaz və 2-ci Türküstan korpusları), İran ərazisində 2 əlahiddə korpus (7-ci Qafqaz və 1-ci Qafqaz süvari korpusu), 2 möhkəmləndirilmiş mövqe (Ərzurum və Trabzon) və b. hissələr daxil idi. Qafqaz cəbhəsi qərargahı Ərzurumda, sonra Tiflisdə yerləşirdi. Qafqaz cəbhəsində qoşunların sayı 1917 ilin martında 600 min, oktyabrında isə 508000 nəfər idi. 1917 ilin mart-aprelində cəbhə qoşunlarının baş komandanı N.N.Yudeniç olmuşdur. Qafqaz cəbhəsinin ən böyük arxa sənaye rayonu Bakı bölgəsi idi. Fevral inqilabından (1917) sonra qarnizonlarda əsgər deputatları sovetləri, martın sonunda isə hissə və birləşmələrdə əsgər komitələri yaradıldı. Qafqaz cəbhəsinin əsgərləri arasında eser-menşeviklərin və milli partiyaların mövqeyi güclü idi. Qafqaz ordusu (faktik olaraq, cəbhəsi) 1-ci ölkə qurultayında [Tiflis, 1917, 23 aprel-28 may (6 may-10 iyun)] seçilən Qafqaz ordusu diyar sovetində (150 nəfər) 100 nəfərədək eserləri, 40 nəfərədək isə menşevikləri müdafiə edirdi. Qafqaz cəbhəsi hissələrində partiya təşkilatlarının yaradılmasına qadağa qoyulmasına baxmayaraq, bolşeviklər bu sahədə fəal iş aparmaqda davam edirdilər. Rusiya Sosial Demokrat Fəhlə (bolşeviklər) Partiyasının [RSDF(b)P] 1-ci Qafqaz diyar qurultayında [Tiflis, 1917, 2-7 (15-20) oktyabr] hərbi hissələrdə partiya təşkilatları yaratmaq qərara alındı və Qafqaz cəbhəsi hərbi təşkilatlarının RSDF(b)P diyar bürosu yaradıldı. Oktyabr çevrilişindən (1917) sonra təşkil olunmuş Zaqafqaziya komissarlığı Qafqaz cəbhəsində hakimiyyəti öz əlinə almağa çalışırdı. Zaqafqaziya komissarlığı və Qafqaz cəbhəsi komandanlığı 1917 il dekabrın 5 (18)-də Türkiyə ilə Ərzincan barışığını imzaladı. Qafqaz ordusunun 2-ci ölkə qurultayında [Tifıis, 1917, 10-23 dekabr (1917, 23 dekabr- 1918 5 yanvar)] bolşeviklər sol eserlərlə birgə üstünlüyə nail oldular. 1917 il dekabrın 27-də (1918, yanvarın 9-da) Qafqaz ordusu diyar sovetinin sağ hissəsi Zaqafqaziya komissarlığı və Qafqaz cəbhəsi komandanlığının köməyi ilə özünü Qafqaz ordusunun diyar soveti elan etdi. Sovetin sol hissəsi isə sonralar azərbaycanlılara qarşı soyqırımda fəal iştirak etmiş Korqanovun başçılığı ilə müvəqqəti inqilabi komitə yaradaraq, hərbi hissələrin geri çəkilməsini təşkil etməyə başladı. Zaqafqaziya komissarlığı geri qayıdan hərbi hissələrin tərk-silah edilməsini qərara aldı. 1918 ilin yanvarında Şamxor stansiyasında onların tərksilah olunması həyata keçirildi (bax *Şamxor hadisəsi).* Qafqaz cəbhəsi əsgərlərinin bir hissəsi Bakıda və Şimali Qafqazda sovet hakimiyyətinin dayağına çevrildi. 1917 ilin dekabrından Qafqaz cəbhəsində milli birləşmələr - əsasən, erməni, gürcü və rus birləşmələri formalaşmağa başladı.

1918 ilin yanvar-fevral aylarında erməni (fevralda 17 min nəfər) və gürcü (12 min nəfər) korpusları Qafqaz cəb-həsi qoşunlarının əsas hissəsini təşkil edirdi. Bakıda hakimiyyəti ələ keçirmiş S.Şaumyanın daşnak-bolşevik rejimi Qafqaz cəbhəsindən geri çəkilən erməni silahlı birləşmələrindən istifadə edərək Azərbaycan xalqına qarşı dəhşətli soyqırımları törətdi [bax *Mart soyqırımı (1918), Soyqırımı],*

downloaded from KitabYurdu.az

Cənubi Qafqazda müstəqil respublikaların yaranması ilə (1918, may) Qafqaz cəbhəsi ləğv edildi.

*Əd:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Дарабади П., Военные проблемы политической Азербаиджана начала XX века, Б., 1991.

**QAFQAZ DİYAR KOMİTƏSİ (QDK)** - Rusiya Kommunist (bolşeviklər) Partiyasının [RK(b)P] Cənubi və Şimali Qafqaz bolşevik təşkilatlarına rəhbərlik edən orqanı. Rusiya Sosial Demokrat Fəhlə (bolşevik) Partiyası Qafqaz təşkilatlarının 1-ci qurultayında [Tiflis, 1917, 2-7 (15-20) oktyabr] yaradılmışdı. Oktyabr çevrilişindən (1917) sonra cənubi Qafqazın Rusiyadan ayrılması əleyhinə çıxış etmiş və Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Xalq Komissarları Soveti hakimiyyətinin tanınması tələbini irəli sürmüşdü. Zaqafqaziya komissarlığını tanımaqdan və Zaqafqaziya seyminin işində iştirakdan imtina etmişdi. QDK Qafqazda sovet hakimiyyəti qurulmasına bilavasitə rəhbərlik edirdi. 1919 ilin mayında QDK tərəfindən hazırlanan və Bakıda keçirilən RK(b)P 2-ci cənubi Qafqaz konfransında "Müstəqil Sovet Azərbaycanı uğrunda" şüarı qəbul olunmamışdı. Lakin mayın sonunda QDK bu şüarla razılaşmışdı. Komitənin Bakı bürosu Azərbaycan Kommunist Partiyasının yaradılması təklifi ilə çıxış etmişdi. Məsələnin müzakirəsi RK(b)P Mərkəzi Komitəsinə verilmişdi. 1919 ilin avqustu-1920 ilin yanvarında RK(b)P MK siyasi bürosu və təşkilat bürosu, Lenin başda olmaqla, Qafqazda partiya və milli quruculuq məsələsini 8 dəfə müzakirə etmiş, QDK-nın rəhbərliyi ilə Azərbaycanın, Ermənistan və Gürcüstan kommunist partiyalarının yaradılmasına razılığını bildirmişdi. S.Şaumyan, A.İ.Mikoyan, A.A.Bekzadyan, I.Anaşkin, S.Buaçidze, P.Caparidze, F.Maxaradze, M.Hüseynov, D.Bünyadzadə və başqaları müxtəlif vaxtlarda QDK-nın üzvü olmuşlar. 1920 ilin fevralında *Azərbaycan Kommunist (bolşevikhr) partiyası* yaradılmışdı. QDK Azərbaycanda və Gürcüstanda müstəqil milli hökumətlərə qarşı təxribatlar törədilməsinə, hərbi-siyasi kəşfiyyatın təşkilinə bilavasitə rəhbərlik edirdi. Komitə 1920 ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyotini devirmək üçün silahlı üsyan haqqında məsələ müzakirə etmiş, yanvarın sonunda Bakı bürosunun qərarı ilə hakimiyyət çevrilişini təşkil etmək məqsədilə mərkəzi hərbi qərargah yaratmışdı. Nəticədə, 1920 il aprelin 28-də yerli bolşevik təşkilatlarının xəyanəti və 11-ci Qırmızı ordunun təcavüzü ilə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. RK(b)P MK-nın qərarı ilə 1920 ilin mayında QDK-nin fəaliyyəti dayandırıldı, MK-nın Qafqaz bürosu yaradıldı.

*Əd.:* Azərbaycan Kommunsit Partiyası tarixinin oçerkləri, B., 1994; Победа Советской власти и Закавказье, Тбилиси, 1971.

**QAFQAZ İSLAM ORDUSU (QİO)** - Bakıda hakimiyyəti ələ keçirmiş S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi kütləvi soyqırımının qarşısını almaq və Azərbaycan xalqının müstəqilliyini qorumaq üçün Osmanlı Türkiyəsi və Azərbaycan silahlı qüvvələrindən təşkil edilmiş hərbi truktur. Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi günlərdən 1918 ilin noyabrına qədər fəaliyyət göstərmişdir. QİO-nun yaradılmasına 1918 ilin əvvəllərində başlanmışdı. Azərbaycan xalqına qarşı daşnak-bolşevik qırğınının yaxınlaşması ilə bağlı olaraq Azərbaycan railli azadlıq hərəkatının liderləri yeganə çıxış yolunu Osmanlı Türkiyəsindən hərbi yardım almaqda görürdülər. Bu məqsədlə İstanbula xüsusi nümayəndə heyəti göndərilmişdi. Nağı *Şeyxzamanlının* rəhbərlik etdiyi həmin heyət Osmanlı sultanı, habelə baş nazir *Tələtpaşa,* hərbi nazir *Ənvərpaşa* ilə görüşərək, Azərbaycan xalqına hərbi yardım göstərilməsinə razılıq aldı.

Türkiyə tərəfinin planlarına görə, Azərbaycandakı silahlı qüvvələr türk hərbi mütəxəssislərinin rəhbərliyi ilə yenidən qurulmalı idi. Həmin məqsədlə Azərbaycana göndərilən hərbçilər qrupuna Ənvər paşanın ögey qardaşı *Nuru paşa* rəhbərlik edirdi. 1918 il mayın 25-də Nuru paşa və onunla birlikdə Azərbaycana gələn türk hərbçiləri Gəncədə qarşılandı. Nuru paşa Azərbaycanda hərbi-siyasi vəziyyətin son dərəcə gərginləşdiyini, daşnak-bolşevik rejiminin Azərbaycanın bütün ərazisini öz hakimiyyəti altına keçirmək cəhdini, bu təhlükənin qarşısını alacaq milli hərbi qüvvələrin zəifliyini və onların formalaşdırılmasına xeyli vaxt lazım gələcəyini nəzərə alaraq, Osmanlı dövlətinin rəhbərliyi qarşısında tezliklə Azərbaycana hərbi qüvvə göndərmək məsələsini qaldırdı.

Azərbaycanın istiqlalı elan olunduqdan (1918, 28 may) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi yardım üçün rəsmi olaraq Osmanlı dövlətinə müraciət etdi. 1918 il iyunun 4-də Batumda iki döviət arasında müqavilə imzalandı [bax *Batum müqaviləsi (1918)].* Müqavilə şərtlərinə uyğun olaraq, Mürsəl paşanın komandanlığı altında *Beşinci Qafqaz firqəsi* (diviziyası) Azərbaycana göndərildi. Həmin diviziya və general leytenant Əlağa *Şıxlinskinin* komandanlığı ilə əsası hələ 1917 ilin dekabrında qoyulan, lakin mürəkkəb tarixi şəraitdə lazımınca fomıalaşa bilməyən Azərbaycan hərbi qüvvələri (bax *Müsəlman korpusu)* Qafqaz İslam Ordusu adı ilə vahid strukturda birləşdirildi. Bu struktura rəhbərlik Nuru paşaya həvalə olundu. 1918 il iyunun 26-da Müsəlman korpusu *Əlahiddə Azərbaycan korpusu* adlandırıldı. 1918 ilin sentyabrında Azərbaycana yenicə gəlmiş *On beşinci firqə* də QİO-nun tərkibinə verildi. Daşnak-bolşevik quldurlarına qarşı mübarizə məqsədilə toplanan Azərbaycan könüllü dəstələri də QİO-nun rəhbərliyi ilə fəaliyyət göstərirdi.

QİO-nun ərzaq təminatı bütünlüklə Azərbaycanın öhdəsində idi. Həm Azərbaycan hərbi hissələrinin formalaşması, həm də buradakı türk hərbi qüvvələrinin verdiyi canlı itkilərin bərpası azərbaycanlılar hesabına həyata keçirilirdi. QİO-nun hissə və bölmələri bu struktur yaranan gündən Azərbaycanın istiqlaliyyətini məhv etmək üçün irimiqyaslı hərbi əməliyyatlara başlamış bolşevik-daşnak qüvvələri ilə ağır döyüşlərə atıldı. Azərbaycan Hökuməti və bütün Azərbaycan xalqı tərəfindən hərtərəfli dəstəklənən QİO-nun türk və Azərbaycan hərbi qüvvələri *Gəncə ermənilərinin tərksilah edilməsində,* Qaraməryəm, Kürdəmir,

downloaded from KitabYurdu.az

Şamaxı, Binəqədi döyüşlərində (bax *Qaraməryəm döyüşü, Kürdəmir döyüşü, Şamaxı döyüşü, Binəqədi döyüşü)* və s. vuruşmalarda, hərbi tapşırıqların icrasında misilsiz şücaət göstərdilər, bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, onları bütün cəbhə boyu geri çəkilməyə məcbur etdilər. QİO-nun zəfər yürüşünün zirvəsi isə *Bakının azad olunması (1918)* idi. Yüksək hərbi peşəkarlıqla planlaşdırılan bu əməliyyat qısa zamanda müstəqil Azərbaycan dövlətinin paytaxtı Bakının azad edilməsi ilə nəticələndi. Türk və Azərbaycan hərbi qüvvələrinin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məqsədilə həyata keçirdiyi birgə döyüş əməliyyatlarının uğurlu nəticələrindən biri də Qafqaz İslam Ordusunun Qarabağ hərəkatıdır. Fəaliyyət göstərdiyi dövrdə QİO Göyçaydan Bakıya qədər olan əraziləri bolşevik-daşnak qüvvələrindən, Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdaxiləçilərindən azad etdi. Həyata keçirilən bu hərbi əməliyyatlar nəticəsində, Lənkəran bölgəsi istisna olmaqla, Azərbaycan Xalq Cümhuriyyətinin sərhədləri çərçivəsində Azərbaycanın hakimiyyəti bərqərar edildi.

Birinci dünya müharibəsində (1914-18) Osmanlı dövlətinin məğlub olması nəticəsində [bax *Mııdros barışığı (1918)]* Türkiyənin Qafqaz siyasətində də ciddi dəyişikliklər baş verdi. Müttəfiqlərin tələbi ilə Anadolunun şərqində fəaliyyət göstərən Şərq ordular qrupu, o cümlədən həmin ordular qrupunun tabeliyində olan QİO da ləğv olundu və Azərbaycandakı türk hərbi hissələri geri çağırıldı. Qafqaz İslam Ordusu Azərbaycan xalqına qarşı S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin hoyata keçirdiyi soyqırımlarının dayandırılmasında və Azərbaycan Xalq Cümhuriyyətinin tarixində mühüm rol oynamışdır.

*Əd.:* Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; Birinci dünya harbinde türk harbi Kafkas cebhesi 3-cü ordu harekatı, c.2, Ankara, 1993; Yüceer Nasir, Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan və Dağıstan harekatı, Ankara, 1996; Rüştü, Büyükharbte Baku yollarında 5-ci Kafkas piyade firkası, 93 saylı askeri mecmuanın tarih kısmı, 1934,. №34.

**QAFQAZ İSLAM ORDUSUNUN DAĞISTAN HƏRƏKATI** - 1918 il oktyabrın 1-dən başlayaraq, həmin il noyabrın sonlarınadək *Qqfqaz İslam Ordusunun* türk hərbi hissələrinin yerli könüllü dəstələrlə birlikdə Dağıstanın şovinist-biçeraxovçu rus qüvvələrindən təmizlənməsi üçün həyata keçirdiyi hərbi əməliyyat. Türkiyədən hərbi yardım ahnması və bununla da bölgədəki milli azadlıq hərəkatının möhkəmləndirilməsi üçün Dağıstan nümayəndə heyəti hələ 1918 ilin aprel-may aylarında Trabzon, İstanbul və Batumda hərbi nazir *Ənvər paşa* və Osmanlı dövlətinin digər yüksək vəzifəli

*Qafqaz İslam Ordusu Bakıda*



downloaded from KitabYurdu.az

şəxsləri ilə görüşmüşdülər. 1918 il mayın 11-də Şimali Qafqaz Cümhuriyyəti elan edildikdən sonra Türkiyənin hərbi yardımına ehtiyac xüsusilə aktuallaşmışdı. Çünki Dağıstanın müstəqilliyini tanımayan Sovet Rusiyasının hərbi qüvvələri Petrovsk-Port (indiki Mahaçqala), Temirxan-Şura, Dərbənd şəhərlərini, habelə Dərbənd-Petrovsk dəmir yol xəttini nəzarət altına ala bilmişdi. 1918 il avqustun ikinci yarısında isə Dağıstan ərazisi Azərbaycandan sıxışdırılmaqda olan biçeraxovçu hərbi qüvvələrin təcavüzünə məruz qaldı. Əvvəl Dərbənd, sonra isə Petrovsk-Port bu qüvvələrin əlinə keçdi.

Dağıstana real hərbi yardımın göstərilməsi üçün şərait Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən azad edildik-dən sonra yarandı. Dağıstanın azad edilməsi ilə, həm də Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərinin təhlükəsizliyi təmin olunurdu. Qafqaz İslam Ordusunun komandanı *Nuru paşa* oktyabrın 1-də 15-ci piyada tüməninə Dağıstana doğru hərəkət etmək əmri verdi. 15-ci tümənə və ona kömək edəcək Dağıstan könüllülərindən ibarət qüv-vəyə Şimali Qafqaz Ordusu komandanı Yusif İzzət paşa başçılıq edirdi. Əslən çərkəz olan Yusif İzzət paşa, həm də Şimali Qafqaz Cümhuriyyətində Osmanlı dövlətinin təmsilçisi idi. Ordunun qərargahı rəisliyinə İsmayıl Haqqı bəy (Berkok) təyin edilmişdi.

Avqustun 29-da İstanbuldan Batuma gələn Yusif İzzət paşa oradan Şimali Qafqaz Cümhuriyyətinin başçısı Əbdülməcid Çermoyevlə birlikdə oktyabrın 5-də qatarla Bakıya gəldi.

Əvvəlcə bir zirehli qatar, daha sonra 56-cı piyada alayı Dağıstana hərəkət etdi. Oktyabrın 5-də 38-ci piyada alayı da Dərbənd cəbhəsinə gəldi. Xaçmaz mühafizə dəstəsi də 15-ci piyada tümeninin sərəncamına verilmişdi. Oktyabrın 5-də 56-cı alayla Derbənddəki Biçeraxov qüvvələri arasında qanlı döyüş oldu. Türklər 25 əsgər itirdilər, bir zabit və 28 sıravi isə yaralandı. Ertəsi gün 38-ci piyada alayı da döyüşə qoşuldu. Günortaya yaxın Dərbənd şəhəri bütünlüklə ələ keçirildi. 1918 il oktyabrın 13-də Şimali Qafqaz Cümhuriyyəti rəsmən elan olundu. Mərasimdə Əbdülməcid Çermoyev, Yusif İzzət paşa və Nuru paşa iştirak edirdilər.

Qafqaz İslam Ordusu hissələri oktyabrın 20-dən Petrovsk-Port istiqamətində hərəkətə başladılar. Biçeraxovun qüvvələri geri çəkilərək, şəhərin darvazası rolunu oynayan Tərki dağında müdafiə mövqeyi tutmuşdular. Oktyabrın 27-də Petrovsk-Port şəhəri cənub və qərb tərəflərdən mühasirəyə alındı. Dağıstanın azad olunması uğrunda döyüşlərdə albay Akif bəyin komandanlıq etdiyi Azərbaycan alayı da iştirak edirdi.

Qafqaz İslam Ordusunun Dağıstan hərəkatı zamam Türkiyədə gərgin siyasi hadisələr cərəyan edirdi. Hələ oktyabrın 8-də "İttihad və Tərəqqi" partiyası iqtidarı istefa vermiş, Əhməd İzzət paşanın başçılığı ilə yeni hökumət təşkil olunmuşdu. Bu hökumət oktyabrın 1-də Antanta nümayəndələri ilə *Mudros barışığını (1918)* imzalamaq məcburiyyətində qalmışdı. Bununla əlaqədar yeni hökumət Cənubi Qafqazdakı və Dağıstandakı qüvvələrin Türkiyəyə geri çəkilməsi haqqında göstəriş verdi. Nuru paşa bu göstərişə əməl etməyərək, xilaskarlıq əməliyyatını davam etdirdi.

Tərki dağına hücum noyabrın 5-də sübh tezdən başladı. Müdafiə olunanlara iki hərb gəmisi də yardım göstərirdi. Türk qüvvələri düşmənin sərt müqavimətini qıra-qıra bir-birinin ardınca taktiki əhəmiyyətli təpələri ələ keçirirdi. Hücum ayın 6-da davam etdirildi. Duruş gətirə bilməyən Biçeraxov qüvvələri şəhəri tərk edib qaçdılar. Beləliklə, Petrovsk-Port şəhəri də azad olundu. Bu şəbər uğrunda döyüşlərdə 113 rürk əsgəri və 5 zabit şəhid olmuş, 318 sıravi əsgər və 10 zabit isə yaralanmışdı. Ümumiyyətlə, Dağıstan hərəkatında türklərdən 192 nəfər şəhid olmuş, 362 nəfər yaralanmş, 20 nəfər isə itkin düşmüşdü.

Türk hərbi qüvvələri Dağıstanda çox qala bilmədilər və Mudros banşığının tələblərinə uyğun olaraq, noyabrın 26-da Petrovsk-Portdan Dərbəndə, oradan Bakıya çəkildilər, daha sonra isə Azərbaycanı tərk etdilər.

*Əd:*. Kurat N.A., Türkiye və Rusiya, Ankara, 1990; Yüceer Nasir, Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı, Ankara, 1996.

**QAFQAZ İSLAM ORDUSUNUN QARABAĞ HƏRƏKATI -** Qarabağda yerli türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirən erməni-daşnak silahlı dəstələrini tərk-silah etmək və bölgədə Azərbaycamn qanuni ha-kimiyyət strukturlarının işini bərpa etmək məqsədilə 1918 ilin sentyabr-oktyabrında *Qafqaz İslam Ordusuna* daxil olan türk və Azərbaycan hərbi hissələri tərefindən həyata keçirilmiş hərbi əməliyyat.

Qarabağda hərbi şərait hələ Azərbaycanın müstəqilliyi elan edilməzdən əvvəl mürəkkəbləşməyə başlamışdı. Er-mənilər Birinci dünya müharibəsinin (1914-18) doğurduğu əlverişli tarixi şəraitdən istifadə edərək bölgəni Azərbay-candan ayırıb Ermənistana birləşdirmək üçün burada güclü silahlı dəstələr formalaşdırmışdılar. Həmin dəstələr birbaşa Ermənistan tərəfindən silahlandırılırdı. Qafqaz İslam Ordusu Bakıya doğru irəliləyərkən xüsusi qüvvələr ayırıb Qara-bağa göndərmək mümkün olmadığından bu məsələ yalnız Bakı şəhəri azad edildikdən sonra diqqət mərkəzinə gəldi. Bu məqsədlə 1-ci Azərbaycan piyada diviziyası əsasındaxüsusi dəstə yaradıldı.

Qarabağda döyüş əməliyyatlarına rəhbərlik 1-ci Azərbaycan diviziyasının komandiri Cəmil Cahid bəyə həvalə olunmuşdu. Qarabağ hərəkatında bu diviziyanın 1-ci, 2-ci və 3-cü süvari alayları, 2-ci piyada alayı, milli könüllü böl-mələr, habelə bir Şnayder dağ taboru və zirehli avtomobillər iştirak edirdilər. 1-ci Azərbaycan diviziyası 9-cu və 106-cı türk alayları ilə möhkəmləndirilmişdi.

Nuru paşa sentyabrın 21-də Qarayazı və Ləzgi süvari alaylarının Yevlağa və oradan da Bərdəyə yola düşmələrinə hazrrlaşmaları barədə əmr verdi. Onun 23 sentyabr tarixli əmri ilə digər hərbi hissələrin də yola salınmasına başlandı.

Həmin hərbi hissələr sentyabrın 25-dən etibarən Qarabağ ərazisinə daxil olmağa başladılar. Cəmil Cahid bəy tərksilah və Azərbaycan Hökumətinə tabe olmaları barədə

downloaded from KitabYurdu.az

Qarabağ ermənilərinə ultimatum verdi. Erməni millətçi dairələri senıyabrın sonlarında qurultay çağıraraq, bu məsələni müzakirə etdilər və Azərbaycan Hökumətini tanımayacaqlarını bildirdilər. Qurultaym qərarı 5 nəfər erməni vasitəsilə Ağdama, 1-ci Azərbaycan diviziyasımn komandanlığına çatdırıldı. Cəmil Cahid bəy bu qərarla tanışlıqdan sonra onu gətirən ermənilərdən üçünün həbs olunmasına əmr etdi. İkisi isə buraxıldı və onlara bildirildi ki, ermənilər ən qısa müddətdə təslim olmasalar, Şuşaya hücum başlanacaqdır. Ermənilər oktyabrın 3-də çağırdıqları yeni qurultayda Azərbaycan Hökumətini tammağı, ancaq silahların yığılmaması barədə türk komandanlığı qarşısında məsələ qaldırılmasını qərara aldılar. Oktyabrın 1 -də Nuru paşa da artıq Ağdama gəlmişdi. Döyüşə hazırlıq vəziyyəti yoxlanıl-dıqdan sonıa oktyabrın 4-də Qarabağ dəstəsi Şuşaya doğru hərəkətə başladı və elə həmin gün Əsgəran ətrafında güclü döyüş baş verdi. Əsgəran boğazının təbii şəraitindən istifadə edən ermənilər burada möhkəm müdafiə postları qurmuşdular. Üzbəüz döyüşlə bu mövqeləri yarıb keçmək çətin olacağından 2-ci Azərbaycan piyada alayı və bir süvari alayı Kətik-Daşbaşı istiqamətinə göndərildi. 9-cu Qafqaz piyada alayı isə Ağbulağa tərəf hərəkət etdi və bu məntəqəni ələ keçirərek, ermənilərin cənuba doğru geri çəkilmək yolunu kəsdi. 9-cu alayın bu məntəqəni ələ keçirməsi və həmin alayın 25-ci taborunun cənubdan Əsgərana doğru hərəkəti ermənilərin müqavimətini tamamilə qırdı və onların geri çəkilməkdən başqa çarəsi qalmadı. Bununla da, Şuşa yolunda əsas müqavimət səddi aradan qaldırıldı.

Xramort, Xanabad, Daşbaşı, Aranzəmin, Qarakənd erməniləri də müqavimət göstərməyə çalışırdılar. Oktyabrın 6-da Əsgəranla Şuşa arasındakı Əyrikənd ətrafında növbəti döyüş baş verdi. Burada xeyli erməni qüvvəsi toplaşmışdı. 1-ci Azərbaycan diviziyasının sərəncamında olan topların sürəkli atəşindən sonra həmin qüvvələr qaçıb dağılışdılar. Xanabad, Qılınəbağı və Kətik kəndlərinin dağlara qaçmış əhalisi müqavimətin əbəs olduğunu anlayıb silahlarını təhvil verməyə başladılar.

Şuşa istiqamətində oktyabrın 6-dək davam edən döyüşlərdə bir zabit və 32 əsgər şəhid olmuş, 65 nəfər yaralanmış, 16 min güllə və 276 top mərmisi sərf edilmişdi. Ayın 7-də Şuşa istiqamətində irəliləyən əsas qüvvələr Xankəndinə doğru hərəkəti davam etdirdilər. Əsas qüvvələr irəli hərəkət etdikcə arxada qalan yolun və məntəqələrin mühafızəsi də təmin olunurdu. Bu məqsədlə bir piyada taboru Ağdamda saxlandı, bir piyada taboruna isə Şuşa-Ağdam yolunun mühafizəsi tapşırıldı.

1-ci Azərbaycan diviziyası və onun tabeliyinə verilmiş hissələr oktyabrın 4-də Ağdamdan hərəkət edərək, ayın 8-də Şuşaya daxil oldular. Yalnız oktyabrın 4-də Əsgəran ətrafında döyüşə girən bu qüvvələr sonrakı günlərdə elə bir ciddi müqavimətlə rastlaşmadan yol üstündəki kəndlərdən silah toplamaqla məşğul idilər. Şuşa əhalisi Qafqaz İslam Ordusu qüvvələrinin qarşılanması üçün Gövhər ağa məscidində könüllü 20 min rubl vəsait toplamışdı. Bu vəsait qoşun hissələrinin yerləşdirilməsinə, onların ərzaqla təhcizatına sərf edildi. Şuşa bəylərindən biri şəhərə gələn qoşunların bir günlük bütün xərclərini öz üzərinə götürdü. Digər bəylər və imkanlı adamlar da qoşunlarm ərzaq təminatı üçün böyük miqdarda çörək, çay, şəkər və s. almışdılar.

Şuşada Qafqaz İslam Ordusu hissələrinin rəsm-keçidi də təşkil edildi. Bu rəsm-keçid həm azərbaycanlılar, həm də ermənilər tərəfindən izlənildi. Şəhərin həm azərbaycanlılar, həm də ermənilər yaşayan hissəsində postlar quruldu və asayişin təmin edilməsi onlara tapşırıldı.

Ermənilər aldıqları ilk zərbədən sonra, öz xislətlərinə uyğun olaraq, Qafqaz İslam Ordusu hissələri qarşısında geri çəkilməyə razılıqlarını bildirsələr də, əslində, məqam gözləyir, gizli şəkildə öz dəstələrini gücləndirirdilər. Kənardan alınan yardımlar da onların daha yaxşı təşkilatlanmasına və təchizinə kömək edirdi. Məsələn, Dovşanlı və Marağalıda 1000 nəfərlik erməni-daşnak silahlı dəstəsi toplanmışdı. Dəstənin kifayət qədər silahı, hərbi sursatı var idi. Bu dəstəyə Arşak adlı birisi rəhbərlik edirdi. Gorusda onun 700 nəfərlik piyada, 200 nəfərlik süvari qüvvəsi, 11 pulemyotu və 2 topu olması barədə xəbər alınmışdı. Şahnəzərov adlı birisinin rəhbərliyi altında isə 600 nəfərlik Gəncə alayı, 400 nəfərlik Şuşa alayı və 200 nəfərlik Samsun alayı var idi. Bütün bu qüvvələr Qarabağa gəlmiş Qafqaz İslam Ordusu hissələrinə qarşı təzyiqi günü-gündən gücləndirirdilər. Onların müqavimətini qırmaq və Şuşa ətrafında vəziyyəti sabitləşdirmək üçün Cəmil Cahid bəy öz qüvvələrini aşağıdakı şəkildə bölüşdürməyi qərara aldı: 2-ci Azərbaycan piyada alayının bir taboru Xankəndi yolunda dayanmalı, alay özü isə bir topçu batareyası ilə Şuşada qalmalı, 1-ci süvari və Ləzgi süvari alayları isə Əsgəranda mövqe tutmalı idi. Süvarilər və Xankəndidəki taborun bir bölüyü bu iki məntəqə arasında asayişi mühafizə etməli idi. 25-ci taborla topçu Şnayder taboru Ağdamda qalmalı, 1-ci Azərbaycan di-viziyasının qərargahı da buraya köçürülməli idi. Könüllü milis dəstələri də Ağdamda cəmləşdirilərək, yürüşə hazır vəziyyətdə saxlanmalı idi. Cəbrayıl ətrafında isə yerli qüvvələrdən silahlı dəstələr yaradılması nəzərdə tutulmuşdu.

1-ci Azərbaycan diviziyası qərargahının Şuşada yerləşdirilməsi planlaşdırılırdı. Diviziya bölgənin təhlükəsizliyini təmin etməli idi. Bölgədə əvvəlki vəziyyəti bərpa etmək üçün isə ermənilər təkcə öz qüvvələrini gücləndirmir, eyni zamanda, havadarları vasitəsilə Türkiyəyə güclü təzyiq göstərir və ciddi-cəhdlə Qafqaz İslam Ordusu hissələrinin Qara-bağdan çıxanlmasmı tələb edirdilər. Yaranmış mürəkkəb beynəlxalq şərait və eyni zamanda, *Mudros barışığının (1918)* şərtlərinə görə, türk hərbi qüvvələrinin Azərbaycandan geri çağırılması Qarabağda yenidən baş qaldıran erməni-daşnak təcavüzünü birdəfəlik susdurmağa imkan vermədi. Qarabağdakı 9-cu və 106-cı türk alaylarının geri çağırılmasından son-ra general-mayor Usubov diviziyanın komandiri təyin edildi və Qarabağda erməni təcavüzünə qarşı mübarizə aparmaq bütünlüklə Azərbaycan hissələrinin öhdəsinə düşdü.

*Əd.:* Süleymanov M., Qafqaz İslam Ordusu ve Azərbaycan, B., 1999; Birinci dünya harbinde türk harbi Kafkas cebhesi 3-cü ordu harekatı,

downloaded from KitabYurdu.az

c.2, Ankara, 1993; Yüceer Nasir, Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan və Dağıstan harekatı, Ankara, 1996.

**QAFQAZ İSTİQLAL KOMİTƏSİ (1927)** - Azərbaycan, Gürcüstan və Şimali Qafqazın istiqlalının bərpası və birləşdirilməsini qarşıya məqsəd qoyan siyasi təşkilat. Qafqaz İstiqlal Komitəsi (QİK) 3+1 prinsipi əsasında qunulmuşdu: Üç Qafqaz Respublikası+Polşa dövləti. Polşa Qafqaz respublikalarının təmsil edən mühacir təşkilatlarının fəaliyyətini əlaqələndirir, maliyyə və s. yardımlar göstərirdi.

QİK-də Azərbaycanı Məhəmməd Əmin Rəsulzadə, Mir Yaqub Mehdiyev, Gürcüstanı NJordaniya, A.Çxenkeli, A.Asatiani, S.Mdivani, dağlıları M.Sunşev və İ.Çumşov təmsil edirdilər. Təşkilat hərbi bölmə və mətbuat şöbəsindən ibarət idi. Operativ işləri M.Mehdiyev, M.Sunşev və İ.Salamodanın daxil olduğu üçlük həyata keçirirdi. Komitə gürcülərin separatçı mövqeyi üzündən çox böyük çətinliklərlə üzləşirdi. Bu səbəbdən onu maliyyələşdirən Polşa hökumətinin təşəbbüsü ilə 1930 ilin əvvəllərində Varşavada QİK-in yığıncağı keçirildi. Qızğın mübahisələr şəraitində keçən bu yığıncaqda Polşa və Azərbaycan nümayəndələri gürcülərin şimaldan - Rusiyadan olan təhlükə ilə yanaşı, cənubdan, yəni Türkiyə tərəfindən də belə bir təhlükənin olması, habelə "pantürkizm" barədə fikirlərini kəskin tənqid etdilər. Qafqazlıların birliyinə mane olan bir çox başqa məsələlərə də aydınlıq gətirildi. Eyni zamanda, Komitənin qərargahının İstanbuldan Varşavaya köçürülməsi qərara alındı. Yığıncaqda Qafqazın birliyi ideyasına azərbaycanlıların daha çox səy göstərmələri xüsusi qeyd edildi və QİK-in İstanbulda filialının fəaliyyət göstərməsi barədə qərar qəbul olundu. Qafqazlı mühacirlər ermənilləri də Komitənin fəaliyyətinə cəlb etməyə çalışırdılar. Ermənilər isə rus mü-hacirləri ilə birləşərək, onların mətbuatında daim Azərbaycana və Gürcüstana qarşı ərazi iddiaları irəli sürürdülər. Er-mənilərin pozuculuq fəaliyyətinə baxmayaraq, mühacirlər Qafqaz birliyi məsələsində daha da irəli gedərək, 1934 il iyulun 14-də Brüsseldə "Qafqaz Konfederasiyası Paktı"ın (Misaqını) imzaladılar (bax *"Qafqaz Konfederasiyası Pak-tı").* QİK Qafqaz Konfederasiyası Paktının məqsədləri barədə bəyannamə yayaraq, "yaxın zamanlarda bir konfrans çağırılacağını və QİK-in istefasını qəbul edəcək olan bu konfransın müştərək bir Qafqaz orqanı yaradacağını" bildirdi (bax *Qafqaz Konfederasiyası Şurası).*

*Əd.:* Bax *Qafqaz Konfederasiyası* məqaləsinin ədəbiyyatına.

**QAFQAZ İSTİQLAL KOMİTƏSİ (1952)** - Qafqaz xalqlarının milli azadlıq mübarizəsinə rəhbərlik və xaricdə onu təmsil etmək üçün yaradılmış ümumqafqaz mərkəzi. Qafqaz respublikalarının müstəqilliyinin bərpası uğrunda birgə fəaliyyətin əsaslarını hazırlamaq və müzakirə etmək üçün 1952 il dekabrın 11-16-da üç Qafqaz respublikasının nümayəndələri Münxendə Ümumqafqaz konfransına toplaşdılar. Konfrans "Qafqaz İstiqlal Komitəsi"nin vəzifələrini müəyyənləşdirdi. Konfransın qəbul etdiyi bəyannaməni Azərbaycan Milli Mərkəzinin sədri M.Ə.Rəsulzadə, Gürcüstan Milli Siyasi Mərkəzinin sədri NJordaniya və Şimali Qafqaz Milli Komitəsinin sədri Əhməd Maqoma imzaladılar. Bəyannamədə göstərilirdi ki, konfrans Qafqaz xalqlarının ruslaşdırılması siyasəti yeridən Moskvanın milli-müstəmləkə zülmünə qarşı müqaviməti gücləndirmək və Qafqaz respublikalarının müstəqilliyini bərpa etmək uğrunda mübarizəni genişləndirmək məqsədilə bu xalqların Milli Mərkəzlərinin birgə fəaliyyətini təşkil etməyi zəruri sayır eyni zamanda, konfrans Qafqaz respublikalanrının suverenliyinin bərpasından sonra da onların Qafqaz Konfederasiyası prinsipləri əsasında sıx birliyini zəruri hesab edirdi. Konfrans, həmçinin, Qafqaz xalqlarının milli azadlıq mübarizəsinə rəhbərlik və xaricdə onu təmsil etmək üçiin "Müstəqil Qafqaz Komitəsi" adlı orqanın yaradıldığını bəyan etdi. Qafqaz İstiqlal Komitəsi qafqazlıların mühacirətdə yaratdıqları sonuncu müştərək təşkilat oldu.

*Əd.:* Bax *Qafqaz Konfederasiyası* məqaləsinin ədəbiyyatına.

**QAFQAZ İŞLƏRİ İDARƏSİNİN AZƏRBAYCAN BÖLMƏSİ** - İkinci dünya müharibəsi dövründə Almaniya hökumətinin SSRİ, o cümlədən Qafqaz xalqlarının xaricdə yaşayan nümayəndələrindən istifadə etmək məqsədilə Şərq nazirliyi nəzdində yaratdığı qurumun tərkibində fəaliyyət göstərən struktur. 1941 il iyunun 22-də nasist Almaniyası SSRİ üzərinə hücum etdikdə tezliklə qələbə çalacağına inanırdı. Lakin "İldırım sürətli müharibə" planı boşa çıxdıqda Almaniya Baş qərargahı SSRİ-də yaşayan və əvvəlcə çarizm, sonra isə bolşevizm tərəfindən istilaya məruz qalmış xalqların azadlıq mübarizəsinə ümid bəsləməyə başladı. Almaniya-SSRİ müharibəsi başlayarkən, 1941 il iyunun 22-də Türkiyə özünü bitərəf elan edən kimi burada yaşayan siyasi mühacirlərin Almaniyaya axını artdı. Azər-baycan siyasi mühacirəti ilə Almaniya rəhbərliyi arasında əlaqələr yarandı. Azərbaycan siyasi mühacirəti nasist Al-maniyasının bolşevizmə qarşı mübarizəsindən istifadə edib Azərbaycanın dövlət müstəqilliyinin bərpasına çalışırdı.

Bolşevizm əsarətində olan xalqların mübarizəsindən istifadə etmək məqsədilə 1941 ilin sonunda Berlində, Alfred Rozenberq başda olmaqla, Almaniyanın Şərq Nazirliyi yaradıldı. Nazirliyin nəzdində SSRİ xalqları ilə iş üzrə idarə təsis olundu. Bu quruma başçılıq edən professor Fon Mende isə onun nəzdində milli əlamətlərə görə bir sıra təsisatlar yaratmağa başladı. Onlardan biri də Qafqaz İşləri İdarəsi adlandırıldı. Ona Saytler Valter başçılıq edirdi. Bu qurumun tərkibində Azərbaycan bölməsi də təşkil olunmuşdu. Bölmənin əsas funksiyası praktik işlərdə almanlara kömək etmək idi. Bu məqsədlə bolşevik istilasından sonra mühacirətə getməyə məcbur olmuş Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin Almaniyaya dəvət edilməsi məqsədəuyğun sayıldı. Məhəmməd Əmin Rəsulzadə Berlinə dəvət edildi. M.Ə.Rəsulzadə Berlinə gələn kimi siyasi mühacirətin tanınmış nümayəndələrini ətrafına topladı və *Milli Azərbaycan Komitəsini* yaratdı. Lakin alman rəhbərliyi ilə razılığa gələ bilmədiyindən komitənin nəzərə çarpa-caq fəaliyyəti olmadı. İkinci dünya müharibəsində Almaniyanın məğlub olması ilə Qafqaz işləri idarəsinin Azərbaycan bölməsi də fəaliyyətini dayandırdı.

downloaded from KitabYurdu.az

**QAFQAZ İŞLƏRI ÜZRƏ MÜVƏQQƏTİ FÖVQƏLADƏ KOMİSSAR** - Sovet Rusiyası Xalq Komissarları Sovetinin Qafqazda, o cümlədən Azərbaycanda Sovet hakimiyyəti qurmaq və bu regionu bolşevik Rusiyasının tərkibinə qatmaq məqsədilə təsis etdiyi fövqəladə səlahiyyətli vəzifə. 1917 il dekabrın 16-da RSFSR Xalq Komissarları Sovetinin V.İ.Leninin sədrliyi ilə keçirilmiş iclasında həmin vəzifəyə Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin sədri S.Şaumyan təyin olundu. Göstərilən iclasda, eyni zamanda, Bakı Sovetinə 500 min rabl pul buraxılması qərara alındı. Dekabrın 18-də Xalq Komissarları Sovetinin sədri V.Ulyanov (Lenin) və milli işlər üzrə xalq komissarı İ.Cuqaşvili-Stalinin imzaları ilə verilən dekretdə göstərilirdi ki, S.Şaumyan "Qafqazda Sovet hakimiyyəti təşkil olunana qədər Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilir". Bu barədə elə həmin tarixdə Leninin və İ.Cuqaşvili-Stalinin imzaları ilə S.Şaumyana göndərilən bildirişdə göstərilirdi ki, "Qafqaz Fövqəladə Komissarlığının ehtiyacları üçün 500 min rubl göndərilir".

Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilmiş S.Şaumyan 1918 il yanvarın ikinci yarısında Tiflisə gəldi və öz vəzifəsini icra etməyə başladı. O, yanvarın 31-də "Bütün fəhlə, əsgər və kəndli deputatları Sovetlərinə, Qafqazın bütün fəhlə, əsgər və kəndlilərinə" müraciət edərək, onlan Qafqazda Sovet hakimiyyəti qurmağa çağırdı. S.Şaumyan, eyni zamanda, "Zaqafqaziyanın müsəlman əyalətləri kəndli əhalisinə" də müraciət etdi və onları bəy-xan ağalığını devirməyə çağırdı. S.Şaumyan bu zaman Qafqaz cəbhəsindən qayıdan və əksəriyyəti erməni olan Rusiya əsgərlərinin tərk-silah edilməsinə, silahların Gəncə müsəlman milli komitəsinin əlinə keçməsinə etiraz etdi. O, əsgərləri "silahı əsla əldən verməməyə, onu fəhlə-kəndli inqilabını müdafiə üçün saxlamağa" çağırdı. Şaumyan sonra-lar bu silahlı erməni qüvvələrindən Azərbaycanın türk-müsəlman əhaiisinə qarşı soyqırımı cinayətlərində istifadə etdi [ətraflı məlumat üçün bax *Mart soyqırımı (1918), Soyqırımı* məqalələrinə]. Qafqaz işləri üzrə müvəqqəti fövqəladə ko-missar S.Şaumyanın dövlət əleyhinə fəaliyyətini izləyən Zaqafqaziya komissarlığı 1918 ilin fevralında onun həbs olunması haqqında qərar qəbul etdi. Şaumyan Tiflisdə fəaliyyət göstərə bilməyib Bakıya qayıtmağa məcbur oldu. 1918 il martın 15-də Şaumyan Bakı Sovetinin iclasında Qafqazda siyasi vəziyyət haqqında məruzə etdi və martın 16-da bu barədə İV.Stalinə məktub göndərdi. Bakı Sovetinin S.Şaumyanın məruzəsinə əsasən qəbul etdiyi qətnamədə deyilirdi: ***"Bakını Zaqafqaziyada Sovet hakimiyyəti uğrunda mübarizənin dayaq məntəqəsinə çevirmək lazımdır".*** Bu, Azərbaycanın muxtariyyəti uğrunda mübarizə aparan milli qüvvələrlə Şaumyanm başçılıq etdiyi bolşeviklər arasında qarşıdurmanı daha da dərinləşdirdi. Azərbaycanın muxtariyyət qazanmasına qarşı mübarizə aparan Şaumyanın mövqeyi "Bakinski raboçi" qəzetində aydın ifadə olunmuşdu: "Azərbaycan muxtariyyəti türk burjuaziyasının muxtariyyəti deməkdir. Bu muxtariyyətə nə Rusiya burjuaziyası, nə də Rusiya demokratiyası razı olar. Azərbaycanın muxtariyyətini istəyən müsavatçılar nəticədə xarabazarlıq alacaqlar". Azərbaycanın muxtariyyətini yolverilməz sayan Şaumyan, əksinə, "Türkiyə Ermənistan"nın muxtariyyət qazanmasına hər vasitə ilə kömək etməyə çalışırdı. Bu məsələdə o, nəinki qərarlı, həm də səlahiyyətli idi. Bu səlahiyyəti ona Mərkəz vermişdi. Qafqaza fövqəladə komissar təyin edilərkən, "Türkiyə Ermənistan"nın muxtariyyəti haqqında Rusiya Xalq Komissarları Sovetinin 1917 il 29 dekabr tarixli dekretinin icrası məhz ona tapşırılmışdı. Şaumyana həvalə olunurdu ki, dekreti həyata keçirmək üçün "Türkiyə Ermənistanı" əhalisinə hər cür yardım göstərsin (bax *RSFSR Xalq Komissarları Sovetinin "Türkiyə Ermənistanı" haqqında dekreti).* Beləliklə, öz sələfləri kimi, bolşeviklər də Qafqazda erməni amilini işə salmışdılar. Qafqazda Şaum-yanın başçılıq etdiyi bolşevik hərəkatının əsas hərbi zərbə qüvvəsini də ermənilər təşkil edirdi. Belə ki, Şaumyanm güvəndiyi əsas qüvvənin - "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik "Qafqazdakı Qırmızı Ordu"nun şəxsi heyətinin 70 faizi erməni idi. "Daşnaksutyun" Partiyası və Erməni Milli Şurası ilə əlbir hərəkət edən Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar 1918 il martın 30-da yaradılan *Bakı şəhəri və onun rayonlarının İnqilabi Müdafiə Komitəsinə* daxil idi. Bu koalisiya türk-müsəlman əhaliyə qarşı ***"hələdici döyüşlərə hər ciir hazırlıq görmüşdü və dərhal bütün cəbhə boyu hücuma başladı"*** (S.Şaumyan). S.Şaumyanın bu cinayətkar fəaliyyəti nəticəsində 1918 ilin yazında Bakıda və Azərbaycan qəzalarında dinc türk-müsəlman əhalisinə qarşı kütləvi soyqırımları baş verdi. Üç günün (30 mart-aprel) qətl-qarətlərində təkcə Bakıda 12 min nəfər azərbaycanlı əhali məhv edildikdən sonra, aprelin 2-də Caparidze Şaumyana yazırdı ki, ***"Daşkənddən və Şimaldan bizə kbmək gəlir, artıq indi müsəlmanları sakitləşdirmək üçün onlara muxtariyyət vəd etmək olar".*** Lakin Şaumyan hətta İ.Stalinin göndərdiyi 1918 il 1 aprel tarixli məktubdan sonra belə, şərti də olsa, müsəlmanlara muxtariyyət vəd etmədi.

Cənubi Qafqazda, Bakıda baş verənlər barəsində dürüst məlumatları olmadığını qeyd edən Stalin Şaumyana yazırdı: ***"Bakını hərbi və maliyyə cəhətdən möhkəmləndirmək, müsəlmanlar muxtariyyət tələb edirlərsə, mərkəzdə və yerlərdə Sovet hakimiyyətini sözsüz olaraq tanımağı şərt qoymaqla, onlara muxtariyyət vermək... lazımdır".***

Mərkəzin bu tövsiyəsinin yanlış olduğunu sübut etmək və qanlı mart qırğınlarına haqq qazandırmaq, özünün qeyd etdiyi kimi, mərkəzi çoxdan (1 aya qədər müddətdə!) məlumatlandırdığına bəraət qazandırmaq məqsədilə Şaum-yan aprelin 13-də RSFSR Xalq Komissarları Sovetinə qəsdən saxtalaşdırılmış geniş məktub-hesabatında yazırdı: ***"Üç gün - martın 30, 31-də və aprelin 1-də Bakıda şiddətli vuruşma olmuşdur... Biz döyüşlərdə parlaq nəticə əldə etmi-şik. Düşmən tamamilə darmadağın edilmişdir... Hər iki tərəfdən öldürülən üç mindən artıqdır... Zaqafqaziyanın***

downloaded from KitabYurdu.az

***müqəddəratı həll olunurdu. Onlar ("müsəlman milli partiyaları"- red.) Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilər, bütün qeyri-müsəlman ünsürlər tərksilah edilib qırılardı ...Bakıda onların qələbəsi Zaqafqaziyanın Rusiya üçün itirilməsinə gətirib çıxarardı".***

Həmin dövrdə RSFSR hökuməti Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissarın, başlıca olaraq, Tiflisdə fəaliyyət göstərdiyini əsas tutaraq, P.A.Kobozevi "Orta Asiya və Bakının fövqəladə komissarı" təyin etmişdi və o, Stalinin 1 aprel tarixli məktubu ilə Bakıya yola salınmışdı. Stalin məktubunda yazırdı: "Onu (Kobozevi) "Bakının da" komissarı təyin etdiyimiz zaman bunu əsas tutmuşuq ki, Qafqaz işləri üzrə komissar, deməli, Bakının da komissarı olan Stepan, məlum səbəblərə görə, başlıca olaraq Tiflisdə fəaliyyət göstərir, halbuki bütün cənubda mühüm məntəqə olan Bakı hər tərəfdən mühasirəyə alınır, Stepan isə iki yerə bölünə bilməz. Biz burada bir an da olsun şübhə etmirik ki, Kobozev Stepanla tam əlaqədə hərəkət edəcəkdir (bu, ona deyilmişdir)". Moskvadan Bakıya yola düşməzdən əvvəl, martın 17-də V.Lenin P.A.Kobozevi qəbul etmiş, yerlərdə Sovet hakimiyyətini təmin etmək yolunda döyüş əməliyyatlarına rəhbərlik də daxil olmaqla, bütün zəruri tədbirləri görmək üçün ona mandat vermişdi. Mərkəzdən bu qədər geniş səlahiyyətlər almış və Bakının fövqəladə komissarı təyin edilmiş P.A.Kobozev aprelin ortalarında Bakıya gəldi. Bununla belə o, aprelin 25-də təşkil olunan Bakı Xalq Komissarları Sovetinin (BXKS) tərkibinə daxil edilmədi. "Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar" olan S.Şaumyan isə BXKS-nin sədri, həm də xalq xarici işlər komissarı idi. BXKS-nin fəaliyyət göstərdiyi bütün dövr ərzində Şaumyan Rusiyaya, V.Leninə göndərdiyi teleqram və məktublarını "Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar" kimi imzalamışdır. Lakin "Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar" nəinki Qafqazda Sovet hakimiyyəti qurulmasını təmin edə bilmədi, hətta Bakıda elan etdiyi sovet hakimiyyətini qoruyub saxlamağa müvəffəq olmadı. Lakin üzdə bolşevik, əslində isə qatı daşnak olan Şaumyan erməni millətçilərinin tarix boyu həyata keçirməyə çalışdıqları bir vəzifənin öhdəsindən "layiqincə" gəldi - Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımı cinayətini həyata keçirdi.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B., 1960.

**QAFQAZ İTTİHAD FİRQƏSİ** - 1917-20 illərdə Azərbaycanda açıq fəaliyyət göstərmiş siyasi partiya.İslam ideologiyasını siyasət səviyyəsinə qaldırmağa çalışan aparıcı təşkilat. İdeoloji əsasını o dövrün *ittihadi-islam,* islam modernizmi, islam reformizmi kimi populyar nəzəriyyələr təşkil edirdi. Partiya Fevral inqilabından (1917) sonra Azərbaycan ərazisində formalaşmağa başlamış islamçı təşkilatların birləşməsi nəticəsində meydana gəlmişdi. Birləşmə prosesinin əsasında 1917 ilin yayında Bakıda yaradılmış *"Rusiyada müsəlmanlıq"* firqəsi və həmin ilin payızında Gəncədə təsis olunmuş "İttihad mədəni-ictimai cəmiyyəti dururdu. Birləşmədən sol partiya bir müddət "İttihadi-islam-Rusiyada müsəlmanlıq" adlanmışdır. Partiyanın təşkilində Sultanməcid Qənizadə, Mir Yaqub Mehdiyev, Bəşir bəy Aşurbəyov, Mahmud Quliyev, Kərimağa Sultanov, Hacı Hüseyn Tağıyev, Qasım Cəfərov, Ağa Zeynal Tağıyev (Hacı Zeynalabdin Tağıyevin nəvəsi) iştirak etmişlər.

İttihadçılıq ideologiyasının ana xətti ideal islama, Məhəmməd Peyğəmbər dövrünün mövhumat və xurafatdan uzaq ənənələrinə qayıdış prinsipi idi. Özü də bu zaman İslam qanunlarının bu dövr üçün populyar olan demokratiya, azadlıq, bərabərlik kimi prinsiplərinin açıqlanmasına xüsusi fikir verilirdi. "Yaşasın İttihadi-İslam, var olsun Hürriyyəti-ənam" epiqrafı ilə nəşr olunan "Müsəlmanlıq" qəzetinin ilk məqaləsi "Firqə ibarət olacaq o adamlardankı, İslamiyyətin əsasını hər şeydən əziz və mötəbər tutsun va ona əməl etsin və Şəriətimizin ehkamının hürriyyətlə gözəl imtizac etdiyinə qail olub bu ahəngi ixlal etməsin və hər ikisinə canla və malla müdafiə olsun" sözləri ilə başlayır.

İttihadçı ideoloqlar İslam dünyasının ümumi tənəzzülünü, mədəni, iqtisadi-siyasi geriliyini, müsəlman ölkələrinin Avropa dövlətlərinin müstəmləkələrinə çevrilməsinin səbəblərini də, klassik ittihadda olduğu kimi, Məhəmməd dövründən sonra İslamın "ehkami-nəzəriyyə, məna və ruhinin büsbütün dəyişdirilməsi, zülm və müstəbidliyin hökm fərma olması" ilə əlaqələndirirdilər. Günahkar isə "əski müstəbid hökmdarlar, bizə cəfa eyləyən vəzirlər, böyüklər, əyrini doğru göstərən üləmalar", "sırf kəndi mənafe və mövqeləri üçün İslamdakı kəlam və əfkara mane olduqlarından İslamların geri qalmasını icab etdirənlər" elan olunurdu.

"Qafqaz İttihad Firqəsi"nin tərkibinə qatılmış "Rusiyada müsəlmanlıq" partiyası 1917 ildə həm Bakı şəhər dumasına, həm də *Rusiya Müəssislər məclisinə* keçirilən seçkilərdə müstəqil şəkildə iştirak etmişdi. Birinci seçkilərdə 8 min səs toplayaraq, şəhər dumasında 12 deputatla (qlasnı) təmsil olunmuş, Müəssislər məclisinə seçkilərdə 60 mindən çox səs toplayraq 1 deputat yeri qazanmışdı. Partiya 1918 ilin fevralında Tifiisdə fəaliyyət göstərməyə başlayan *Zaqafqaziya seymində* 3 deputatla (Sultanməcid Qənizadə, Mir Yaqub Mehdiyev, Heybətqulu Məhəmmədbəyov) təmsil edilmişdi. Onların hər üçü 1918 ilin 28 mayında Azərbaycan istiqlaliyyətini elan edən *Azərbaycan Milli Şurasının* üzvləri olmuşlar.

1918 il dekabrın 7-də açılmış *Azərbaycan Parlmentinə* "Qafqaz İttihad Firqəsi" sayca ikinci böyük fraksiya (əvvəl 11, sonra isə 13 deputatla) idi. Parlamentdə fraksiyaya 1918 ilin sentyabrından Qara bəy *Qarabəyli* rəhbərlik etmişdir.

1919 ilin aprelində keçirilən birinci qurultayda partiyanın rəsmi adı "Qafqaz İttihad Firqəsi" kimi təsdiq olunmuş, Qara bəy Qarabəyli partiyanın sədri, Sultanməcid Qənizadə və Qazi Əhməd bəy Məhəmmədbəyov sədr müavinləri seçilmişdilər. Partiyanın ikinci qurultayında (1920, yanvar) Mərkəzi Komitəyə Nəcəf bəy Vəzirov, Həbib bəy Mahmudbəyov, Cəmil bəy Ləmbəranski, Əli bəy Zizikski,

downloaded from KitabYurdu.az

Heybətqulu Məhəmmədbeyov, Həmdulla əfəndi Əfəndizadə, Bəşir bəy Aşurbəyli, Nurməmməd Şahsuvarov, Məhəmməd bəy Bakıxanov, Mahmud Quliyev, Mir Yaqub Mehdiyev, Ağa Zeynal Tağıyev, Qara bey Əliverdilər (Üzeyir bəy Hacıbeylinin dayısı) və b. daxil olmuşdular. Məşhur din xadimləri - sabiq şeyxülislam Molla Məhəmməd Pişnamazzadə, Şeyx Əbdülqəni və Axund Molla Hənifə, Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Sultanov partiyanın fəal təəssübkeşləri idilər.



*Qafqaz İttihad və Tərəqqi Firqəsi proqramının üz qabığı*

1920 ilin ikinci yarısında partiya sədrinin birinci müavini Sultanməcid Qənizadə Azərbaycan Parlamenti sədrinin müavini vəzifəsinə seçilmişdi. Cümhuriyyət dövründə "Qafqaz İttihad Firqəs", əsasən, apancı müxalifət partiyası kimi tanınsa da, 1919 ilin sonlarında təşkil olunmuş 5-ci milli Hökümətdə təmsil edilmişdi (Nurməmməd Şahsuvarov - dini etiqad və maarif naziri; Heybətqulu Məhəmmədbəyov -dövlət müfəttişi). Azərbaycan Parlamentinin 17 aylıq fəaliyyəti dövründə onun ən nəzərə çarpan cəhətlərindən biri "İttihad" - "Müsavat" qarşıdurması olmuşdur. "İttihad" ölkə həyatının bir sıra məsələlərinə münasibətdə bolşevikpərəst mövqedən çıxış edirdi. Partiyanın mətbu orqanı "İttihad" qəzeti yazırdı: "Bolşevizm müsəlmanlardan kənarda güclü qüvvə olduğuna və bütün bəşəriyyəti, o cümlədən müsəlmanları əsarət və zülmün bütün formalarından, Avropa kapitalizmi və imperializmindən azad etmək uğrunda mübarizə apardığına görə partiya tərəfindən müdafiə edilir". Partiya qəzetində islamın - "təkcə dini təlim deyil, həm də müsəlmanların siyasi və ictimai həyatının çıxış nöqtəsi olan" bu etiqadın sosializmlə birliyinin mümkünlüyü haqqında məqalələr dərc olunurdu. "İttihad"ın bu fəaliyyəti Azərbaycan xalqının dövlət müstəqilliyinə qarşı çevrilməklə, Azərbaycan Xalq Cümhuriyyətinin varlığına qəsd idi və yalnız hökumət böhranı deyil, həm də bütün dövlət hakimiyyəti böhranını dərinləşdirirdi (baxhəmçinin *"İttihad" fraksiyası).*

"Qafqaz İttihad Firqəsinin" *"Müsəlmanlıq"* (1917 il; Azərbaycan dilində), *"İttihad"* (fasilələrlə 1918-20; Azərbaycan dilində) və *"İttixad"* (1919-20, rus dilində) adlı rəsmi qəzetləri nəşr olunmuşdur. *Aprel işğalından (1920)* sonra açıq fəaliyyətini dayandırmışdı. Partiyanın bir çox üzvləri 20-30-cu illərin antisovet üsyanlarında fəal iştirak etmiş, repressiyaya məruz qalmışlar.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Mustafayev Q., XX əsrin əvvəllərində Azərbaycanda İslam ideologiyası və onun tənqidi, B., 1973; Göyüşov A., Azərbaycanda İttihadçılıq, B., 1997; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Агамлиева Н., Худиев Р., Азербайджанская Республика. Страницы политической истории. 1918-1920, Б., 1994.

**QAFQAZ İTTİHAD VƏ TƏRƏQQİ FİRQƏSİ-** Azərbaycanın istiqlalı uğrunda mübarizə aparmış siyasi partiyalardan biri. Türkçülük və türk xalqlarının birliyi ideyasının təsiri altında yaranmışdı.(1918). Azərbaycanlıların və başqa türk xalqlarının Türkiyənin baçşılığı ilə vahid türk dövləti halında birləşdirilməsi ideyasını təbliğ edirdi. Türkiyədəki "İttihad və tərəqqi" partiyasının təsiri altında meydana gəlmişdi. Uzun müddət gizli fəaliyyət göstərmiş, 1918 ildən ***Qafqaz İttihad və Tərəqqi Firqəsi proqramının üz qabığı*** açıq işə keçmişdi. Respublika Dövlət Arxivində Qafqaz İttihad və Tərəqqi Firqəsinin proqramı mühafizə edilir. Həmin sənəd Bakıda Əbuzər Orucovun elektrik mətbəəsində nəfis şəkildə ***"Haqq verilməz, alınar!"*** çağrışı ilə çap olunmuşdur. Proqramın üzərində onun çap tarixi göstərilməsə də, mətndən aydın olur ki, o, 1918 ildə nəşr edilmişdir. Qafqaz İttihad və Tərəqqi Firqəsinin yerlərdə də gizli şöbələri yaradılmışdı. 1918 il iyulun 28-də Bakı qubernatoru Göyçay qəza rəisinə məktub göndərərək ondan Göyçay şəhərində fəaliyyət göstərən İttihad və Tərəqqi Komitəsinin proqramı, onun məqsədləri və idarə quruluşu barədə məlumat verməsini tələb etmişdi. Öz növbəsində, Göyçay qəza rəisi də həmin il avqustun 1-də Qafqaz İttihad və Tərəqqi Firqəsi Göyçay şöbəsindən yuxarıda göstərilən məlumatları almışdı. Firqənin 17 səhifədən ibarət proqramı ilə yanaşı, onun Göyçay qəza mərkəzinin katibi tərəfindən imzalanmış və şöbənin möhürü ilə təsdiq edilmiş məktubu da Bakı quberniya idarəsinə göndərilmişdir. Verilən cavabdan məlum olur ki,

downloaded from KitabYurdu.az



Qafqaz İttihad və Tərəqqi Firqəsinin mərkəzi elə Göyçay olmuşdur. Məktubda göstərilir ki, firqə və şöbənin rəisi Hacı Baba bəy Süleymanzadə, xəzinədarı Mirzəqulu Sultanzadə, üzvləri – Ağamirzə Ağamirzəzadə, Əlibaba Səidzadə, Əbdülqasım Hüseynzadə, Əbdülhəmid Səidzadə, Əbdülhəmid əfəndi Qazızadə, katibi isə Şərafəddin Hacı Veyselzadə idi. Məktubda partiyanın yaranması, onun məqsəd və vəzifələri barədə belə məlumat verilirdi: ***"Firqəli Tiirkiyədə olduğu kibi, Qafqaziyyədə dəxi və bilxassə Göyçayda bir çox sənə bundan müqəddəm məxfi surətdə təşkil və təsis edilmişdir. Fəqət rus hökumət mətruda müstəbidəsinin dövri-mənhusində ən qaranlıq qorxu və ehtiyat ilə millətin səadəti və vətəninin səlaməti uğrunda (eyni məramnamə möcübüncə) sərfi-iqtidar etmiş və meydam çıxacaq bir zaman və bir günü bəkləməkdə idi.***

***Cənabi-həqqə həmd və sənalar olsun ki, Nikolay hökuməti inhifiramə uğrayıb zülm və istibdadı şəmsi-hürriyyətə mübtədil olduğu zaman bir pərdə və bir dərəa sərzəbeyi-zühur olaraq, nəhayət, 20 yanvar 1918 il tarixində ruyi-kafərindən pərdeyi-ixtifai büsbütün kənara atılıb, açıq çalışmağa və fəaliyyət xudapəsəidanəsini meydani-əlniyyəyə qoymağa nail olaraq məsudiyyəti-tams ilə yaşamaqda və bu surətlə millət və islamiyyətin nicat və səadəti uğrunda çalışaraq bəqədərül-imkan millət və vətənə ariz olan maddi və mənəvi əza və cəfanın dəfi və rəfinə müqtədirat etmiş və edəcəkini təahhüd edir.***

***Firqənin qayeyi-amalı isə məramnamənin eyni göstərdiki olub xilafinə olan cüzi, yaxud külli hər bir hərəkətə firqə mənsubları və məsləkdasları zidd olub və olmaqdadır".***

Proqramın girişində deyilirdi ki, ***dörd ildən bəri bəşəriyyəti ölümə aparan, dünyanı qana boyayan, yaşayış yerlərini viran eləyən nasionalizm və militariznm politikası hərbin əvvəlinə nisbətən bu gün daha qüvvətlidir.*** **Proqramda qeyd olunurdu ki,** ***gələcəkdə hüququ bəşər vicdana deyil, yenə də qüvvətə istinad edəcəkdir. Bundan sonra hansı millət güclii, zəngin və mədəni bir ordu təşkil edərsə, o millət böyük haqlara, yaxşı miittəfiqlərə malik olacaq və qorxusuz yaşayacaqdır. Zəmanəmizdə bir millətin həyatının üç qolu böyük qüvvət, böyiik sərvət və böyük mə-dəniyyətdir.*** Partiya öz məramı kimi ***"bütün Qafqaz müsəlmanlarının əski ana Vətənimiz olan Türkiyəyə ilhaqı", "dünyadakı bütün türklərin Türkiyəyə qatışması və bir hiss, bir tərbiyə ilə yüksələrək aləmi islama nigahban olması"nı*** təbliğ edirdi. Proqramda daha sonra göstərilirdi: "Əlhasil: Qafqasiyyə İttihad və Tərəqqi firqəsi iman edir və iddia eylər ki: türk ruhu ilə türk qanının layiq olduğu böyük qüvvəti, parlaq mədəniyyəti və tükənməz sərvəti ancaq Türkiyə bayrağı altında bulacaq və əski şərəflərini o bayraqla qucaqlayacaqdır". Firqə ideoloqları türk dilinin "türk aləminin hər yerində böyük firqələr ilə və haman ayrı lisanlar şəklində qonuşulmaqda və yazılmaqda" olduğunu göstərərək bəyan edirdilər ki, "türk aləmini təhlükəyə düşürən və türk birliyini pozan bu ayrılıqları aradan qaldırmaq zəngin və yeknəsək bir türk dili meydana gətirmək üçün hər yerdən ən müqtədir türk alimlərini cəlb edərək İstanbulda bir türk akademiyası təsis etməli və onun dəlaləti ilə ümumi türk aləminin qəbul edə biləcəyi həqiqi ana dilində tazədən bütün təhsil kitablarını yazmalıdır". Azərbaycanın müstəqilliyinin qorunmasının qarşısında

downloaded from KitabYurdu.az

başlıca məqsəd qoymuş Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət orqanları Qafqaz tttihad və Tərəqqi fırqəsinin fəaliyyətini dayandırmışdı.

*Əd.:* P a ş a y e v A., Haqq verilməz, alınar, "'Respublika" qəzeti,1990, 22 dekabr.

**QAFQAZ KOMİTƏSİ** –Türkiyədə yaşayan qafqazlıların yaratdıqları siyasi birlik. Mühacirətdəki azərbaycanlılar təkcə Rusiya türklərinin deyil, Qafqaz millətlərinin nümayəndələri ilə də iş birliyi qurmuşdular. 1915 ildə Şimali Qafqaz, Azərbaycan, Gürcüstan mühacirləri Türkiyədə, "Qafqaz Komitəsi" adlı təşkilat yaratdılar. 1915 ilin dekabrında "Qafqaz Komitəsi"nin İsa paşa, Əziz Məkər və Fuad paşa (Şimali Qafqaz), Səlim bəy Behbudov (Azərbaycan), knyaz Maçabeli və Kamil bəy Toğridzedən (Gürcüstan) ibarət bir heyəti Avropa dövlətlərinə memorandum təqdim etmək üçün Berlinə və Vyanaya getmişdi. Bu sənəddə, "Qafqazın xilas edilməsi və dörd dövlətdən ibarət konfederasiya qurulması üçün" mərkəzi dövlətlərdən "Qafqaz Komitəsi"nə kömək göstərilməsi xahiş olunurdu.

Şimali Qafqaz mühaciri Fuad paşanın sədr olduğu "Qafqaz Komitəsi" Qafqazın müstəqilliyinə çalışır və Rusiyadan ayrıldıqdan sonra onun konfederativ bir siyasi qurum kimi formalaşmasının nəzəri əsaslarını hazırlayırdı. Komitə üzvləri Avropada ictimai rəy formalaşdırmaq yönündə güclü təbliğat aparır, əsərlər, müxtəlif mətbuat orqanlarında məqalələr dərc etdirir, dövlətlərə rəsmi müraciətnamələr göndərir, mühazirələr oxuyurdular.

Rəsmən komitənin üzvü olmayan Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə də Birinci dünya müharibəsi (1914-18) ərəfəsində neytral İsveçrədə məskunlaşaraq, Qafqazın Rusiya pəncəsindən xilas olması məsələsi ilə bağlı "Avropa dövlətlərinə muhtiralar (nota - *red.)* verib Qafqaz türklərinin həqiqi vəziyyətini anlatmağa çalışırdılar".

Komitənin Qafqazla gizli əlaqəsi var idi. Alman tədqiqatçısı prof. Dr.Ç.Yəşke yazır ki, "azərbaycanlı Səlim Behbud bəy (Behbudov) Bakı və Qarabağ milli təşkilatları ilə gizli münasibət təsisinə müvəffəq oldu və müəyyən siyasi vəzifələr üçün sualtı gəmi ilə gizlincə Qafqaz sahillərinə gedərək, oradan da Azərbaycana keçdi. "Qafqaz Komitəsi"nin fəaliyyəti dövründə Türkiyə ordusuna, bilxassə, Azərbaycandan gizli olaraq könüllülər axmağa başladı".

Birinci dünya müharibəsində (1914-18) Rusiya türkləri Türkiyənin qalib gələcəyini səbrsizliklə gözləyir, imkan daxilində ona yardım etməkdən çəkinmirdilər. "Qafqaz Komitəsi"nin nümayəndələri əlverişli fürsətdən faydalanaraq, Lozanna konfransında (1922-23) Rusiyanın məhkum millətlərinin istiqlaliyyəti məsələsi ilə bağlı uğurlu çıxışlar etdilər: "Bu çıxışlar Rusiya məhkumu türklərin beynəlmiləl ölçüdə və həm də geniş bir Avropa mühafili önündə ilk qüvvətli istiqlal həmlələri idi".

*Əd.:* Məmmədzadə M., Milli Azərbaycan hərəkatı, B., 1992; Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə, h.1-2, B., 2000; İbrahimli X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997.

**QAFQAZ KONFEDERASİYASI** - Qafqaz xalqlarını Rusiya-bolşevik əsarətinə qarşı mübarizədə birləşdirməyə və vahid Qafqaz Konfederasiyası dövləti yaratmağa çalışan siyasi mübarizə cərəyanı. 1918-20 illərdə müstəqil Qafqaz respublikaları bolşevik işğalı nəticəsində süquta uğradıqdan sonra siyasi mühacirətdə olan qafqazlı istiqlal mübarizləri tərəfindən formalaşdırılmışdır. Qafqaz birliyi məsələsi Birinci dünya müharibəsindən (1914-18) əvvəl Türkiyədə yaşayan qafqazlıların yaratdıqları *Qafqaz Komitəsi* dövründən aktual olmuşdur. Bu məsələ Zaqafqaziya seymində, Trabzon konfransında (1918) və "Müsavat" partiyasının ikinci qurultayında (1919) da müzakirə edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin bir çox dövlət xadimləri Qafqaz respublikalarrının birliyi və konfederasiya formasmına birləşməsi məsələsində fəal mövqe tutmuşlar. Ermənilər Qafqaz Konfederasiyası ideyasının reallaşması məsələsində daim pozuculuq mövqeyi tutmuşlar. Cənubi və Şimali Qafqazın birləşməsi məsələsinə münasibətdə də müəyyən fikir ayrılıqları olmuşdur. Gürcüstan dövlətinin başçıları Şimali Qafqazla ittifaq məsələsinə ehtiyatla yanaşır, dağlı liderlərinin təbliğ etdikləri Qafqaz Konfederasiyası ideyasını isə, ümumiyyətlə, dəstəkləmirdilər. Qafqaz respublikalarının Tiflis konfransında (1920, 9 aprel) Azərbaycan nümayəndə heyətinin (Həsən bəy Ağayev - sədr, O.Kriçinski, F.Vəkilov) təşəbbüsü ilə Qafqaz Cümhuriyyətləri Şurası yaratmaq barədə razılaşma əldə olundu. Bu Şuranın yaradılması haqqında Azərbaycan ədliyyə nazirinin müavini O.Kriçinski tərəfindən 24 maddədən ibarət layihə də hazırlanırdı. Lakin *Aprel işğalı (1920)* onun reallaşdırılmasına imkan vermədi.

Qafqaz respublikalarının süqutundan sonra qafqazlı mühacirlər Qafqaz birliyi ideyasının gerçəkləşməsi üçün yeni təşəbbüslərlə çıxış etməyə başladılar. Onlar Qafqaz Cümhuriyyətlərinin süqutunun bir səbəbini də "Qafqaz birliyi" məsələsinə kifayət qədər əhəmiyyət verilməməsində görürdülər (Ceyhun Hacıbəyli). Qafqazlı mühacirlər Əlimərdan bəy Topçubaşovun təşəbbüsü ilə 1921 il mayın 8-də Azərbaycan Xalq Cümhuriyyətinin Parisdəki nümayəndəliyinə toplaşaraq, Qafqaz Konfederasiyası fikrini yenidən müzakirə etdilər. İyunun 10-da Qafqaz respublikaları səlahiyyətli təmsilçilərinin Topçubaşovun sədrliyi ilə keçirilən ilk yığıncağında onların ittifaqını yaratmaq qərara alındı və bu barədə Azərbaycan, Şimali Qafqaz, Gürcüstan, Ermənistan nümayəndə heyətləri arasında müştərək müraciət imzalandı. Bununla, mühacirətdə, ilk dəfə olaraq, Qafqaz birliyinin əsası qoyuldu. 1921 il iyulun 7-də Qafqaz respublikaları və Rusiya təmsilçilərinin ilk birgə yığıncağı keçirildi. Mühacirlər Fransa hökumətinə müraciət etdilər. Qafqaz və Rusiya mühacirlərinin vahid antibolşevik cəbhədə birləşməsinə meylli olan Fransa hökuməti 1922 ilin əvvəllərində Qafqaz respublikalarının səlahiyyətli təmsilçilərinə maddi yardım göstərməyi qərara aldı. Yığıncaqda ilk çıxış edən Ə.Topçu-başovun Qafqaz Konfederasiyası ideyasına Türkiyənin də müsbət münasibət bəslədiyini bildirərək bu dövləti müdafiə etməsi və müttəfiq dövlətlərə (İngiltərə, Fransa, Yunanıstan)

downloaded from KitabYurdu.az

tutduğu iradlar Fransa hökuməti və ermənilər tərəfindən narazılıqla qarşılandı. Yığıncaq heç bir razılaşma əldə olunmadan dağılsa da, Ə.Topçubaşov Türkiyə barədə Qərbdəki rəyi dəyişmək və Qafqaz Konfederasiyasının yaradılması yönündə fəaliyyətini davam etdirirdi [bax, həmçinin, *Qafqaz İstiqlal Komitəsi (1927, 1952), "Qafqaz Konfederasiyası Paktı", Qafqaz Konfederasiyası Şurası* məqalələrinə].

Qafqaz Cümhuriyyətləri təmsilçilərinin mühacirətdəki fəaliyyəti ümumi antibolşevik hərəkatının formalaşmasına müəyyən təsir göstərdi. Qafqaz birliyi türküstanlıları və tatarları da analoji birliklər yaratmağa sövq edirdi. Qafqaz birliyi ideyasında Şimali və Cənubi Qafqaz bir-birindən ayrı düşünülmürdü. Sovet dövlətinin Şimali və Cənubi Qafqazı parçalamaq və bir-birinin əleyhinə qaldırmaq siyasətinə qarşı mühacirət dörd Qafqaz Cümhuriyyətinin vahid konfederasiya şəklində birləşməsi ideyasını irəli sürürdü. 20 əsrin birinci yarısında son dərəcə aktual olan Qafqaz Konfederasiyası ideyası mühacirətdə milli azadlıq ideologiyasının, dövlətçilik şüurunun formalaşmasında əhəmiyyətli rol oynamışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.6, B., 2000; İbrahimli X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997; Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000; Oruclu M., Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992), B., 2001; Qəndilov S., Azərbaycan Xalq Cümhuriyyəti və siyasi mühacirət, "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri" beynəlxalq elmi sessiyasının materialları, B., 2003.

**"QAFQAZ KONFEDERASİYASI PAKTI"** - bolşevik işğalından sonra Avropada fəaliyyət göstərən qafqazlı mühacirlərin Qafqaz Konfederasiyası yaratmaq məqsədilə imzaladığı sənəd. 1934 il iyulun 14-də Brüsseldə imzalanmışdır. "Qafqaz Konfederasiyası Paktı" adlanan 14 iyul anlaşmasında Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Milli Merkəzləri ***"Bir millətin tam inkişafının ancaq tam bir istiqlal şərtilə mümkün olacağını, təkmil Qafqaz qüvvələrinin vahid və müştərək sərhədlər daxilində birləşmədən bu məqsədə çatmasının son dərəcə çətin olacağını, Qafqaz millətlərinin xarici siyasət və milli müraciətlərinin müştərək bir tərzdə ifadə edilməsinin zəruriliyini, Qafqaz Cümhuriyyətləri Konfederasiyasının məmləkətin siyasi və iqtisadi birliyindən irəli gələn siyasi bir forma olduğunu"*** nəzərə alaraq, Qafqaz Konfederasiyasının əsaslarını elan etdilər. Sənəd də göstərilirdi ki, Qafqaz Konfederasiyası xaricdə tərkibinə qatılmış Cümhuriyyətlərin adından çıxış edəcək; yaradılacaq Qafqaz Konfederasiyası müştərək gömrük sərhədinə malik olacaq; konfederasiyaya daxil olan Cümhuriyyətlərin xarici siyasəti qurumun səlahiyyətli nümayəndələri tərəfindən birgə həyata keçiriləcək; konfederasiyanın sərhədləri Cümhuriyyətlərin ordularından təşkil edilən və vahid komandanlıq altında fəaliyyət göstərən konfederasiya ordusu tərəfindən müdafiə olunacaq; konfederasiya daxili mübahisəli məsələlərə ali konfederasiya məhkəməsində baxılacaqdır.

"Qafqaz Konfederasiyası Paktı"nı Azərbaycan adından Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Şimali Qafqaz adından Məmməd Girey Sunc, İbrahim Çulik, Tausultan Şakman, Gürcüstan adından N.Jordaniya, A.Çxenkeli imzalamışdılar.

*Əd.:* Bax *Qafqaz Konfederasiyası* meqaləsinin ədəbiyyatına.

**QAFQAZ KONFEDERASİYASI ŞURASI (QKŞ)** -Avropa ölkələrindəki Qafqaz mühacirlərinin müştərək siyasi orqanı. Qafqazlı mühacirlərin 1935 il fevralın 14-dən 23-dək keçirilən konfransının qərarına əsasən yaradılmışdı. Konfrans Qafqaz Konfederasiyası Şurasının yaradıldığını bəyan etdi. Konfransın qəbul etdiyi on bəndlik "Qafqaz məsələsi və Rusiya" adlı sənəddə Şuranın qarşısında Qafqazın gələcək taleyi ilə bağlı bir sıra vəzifələr qoyulurdu.

QKŞ paritet əsaslarla Azərbaycan, Gürcüstan və Şimali Qafqaz milli təşkilatlarının nümayəndələrindən ibarət idi. Nizamnaməyə uyğun olaraq, Şura müntəzəm toplanmalı, Qafqaza aid bütün siyasi məsələlərlə məşğul olmalı idi. Şu-rada Azərbaycanın səlahiyyətli nümayəndəsi Azərbaycan Milli Mərkəzinin sədri M.Ə.Rəsulzadə idi. Ermənistan mü-hacir təşkilatları uzun müddət Şuraya daxil olmadılar. Erməni nümayəndələri "Qafqaz Konfederasiyası Paktı"na yalnız 1940 ildə qoşuldular. Heydər Bammat Qafqaz millətlərinin birinin digəri üzərində hegemonluğunun qeyri-mümkünlüyünü qeyd edir, hamını kənardan yardım istəməməyə çağırırdı. O bildirirdi ki, Qafqazın və Türkiyənin birliyi ortaq mənafe birliyidir; Qafqazın müstəqilliyi Türkiyənin şimal-şərq sərhədlərindən tam rahatlığı deməkdir.

Qafqaz Konfederasiyası ideyası ətrafında fikir ayrılıqları vardı. Bu sahədə müxtəlif qruplaşmalar da meydana gəlmişdi. Nə "Qafqaz Konfederasiyası Paktı"ını imzalayıb, sonra isə QKŞ-ni yaradanlar (M.Ə.Rəsulzadə, NJordaniya, S.Əhməd və b.), nə də bu məsələ ilə bağlı müxalifətdə duranlar (X.Xasməmmədov, H.Bammat, Q.Kvinitadze və b.) Qafqaz Konfederasiyasının yaranmasına qarşı çıxmamışlar. Müxalifətdə olanlar Paktı imzalayanları və Şuranı yaradan-ları Qafqaz Cümhuriyyətlərinin süqutuna qədər bu ideyaya əhəmiyyət verməməkdə ittiham edirdilər. Müxalifət sosial-demokrat N.Jordaniyanın Qafqaz Konfederasiyası Şurasının rəhbərliyində təmsil olunmasından xüsusilə narahat idi. Onu II İnternasionalla əməkdaşlıqda və Türkiyəyə qarşı mənfi münasibətdə təqsirləndirirdilər.

1936 il mayın 24-də "Erməni-Gürcü İttifaqı" yaradıldı və ittifaqın adından erməni və gürcü millətlərinə ünvanlanmış bəyannamə yayıldı. Qafqaz mühacirləri bu separatçılıq addımına kəskin reaksiya verdilər və ittifaqa qarşı bir sıra tənqidi məqalələrlə çıxış etdilər.

Qafqaz Konfederasiyası Şurası 1936 il iyunun 16-da Erməni-Gürcü İttifaqının yaradılması ilə bağlı xüsusi bəyanat verdi və bu addımı pislədi: "Qafqaz Konfederasiyası Şurası Qafqaz millətlərinin vahid bir təşkilatda birləşməsini lüzum bilir ki, QKŞ-nin timsalında da belə bir təşkilat vardır". Bununla belə, "Erməni-Gürcü İttifaqı" yaradıldıqdan sonra Azərbaycan və Şimali Qafqaz mühacirləri tərəfindən də "Azərbaycan-Dağlılar Birliyi" adlanan rəsmi qurum yaradıldı. Birliyin sədri əvvəlcə Xəlil bəy Xasməmmədov, sonralar isə Heydər Bammat oldu. "Azərbaycan-Dağlılar Birliyi"

downloaded from KitabYurdu.az

N.Jordaniyaya müxalif gürcü mühacirlərinin bu birliyə qoşulması ilə nisbətən böyüdü. Bütün Qafqaz Cümhuriyyətlərinin birlikdə təmsil olunmasına can atan H.Bammat, ermənilərdən Zərgəryan qardaşlarını da cəlb etdikdən sonra həqiqi Qafqaz Federasiyasının yarandığını bildirdi. İkinci dünya müharibəsi (1939-45) ərəfəsində H.Bammat Berlində məskunlaşaraq, "Qafqaz" jurnalının nəşrinə nəzarət edirdi. "Qafqaz" jurnalı 1939 il Almaniya-SSRİ paktından sonra dövlətin rəsmi göstərişi ilə bağlandı.

İkinci Dünya müharibəsi dövründə Qafqaz Konfederasiyası Şurasına daxil olan mühacirlər həm ayrı-ayrılıqda, həm də ittifaq halında təmsil etdikləri ölkələrin müstəqilliklərinin tanınması haqqında alman rəsmi dairələri ilə danışıqlar apardılar. 1944 il avqustun 22-də dörd Qafqaz Cümhuriyyətinin təmsilçiləri Almaniya Xarici İşlər Nazirliyinə nota verdi və Qafqazın konfederativ dövlət halında formalaşdırılması barədə qərar verilməsini tələb etdi. Almaniya bu dövrdə Qafqaz Konfederasiyası Şurasının vahid bir dövlət qurumu kimi tanımadı. Yalnız müharibənin sonuna yaxın, məğlubiyyət qarşısında qaldıqda, Qafqaz Konfederasiya Şurasına daxil olan Cümhuriyyətləri ayrı-ayrılıqda rəsmən tanıdığını bildirdi.

Müharibədən sonra bammatçılar mütəşəkkil təşkilat kimi fəaliyyət göstərə bilmədilər. Birliyin bəzi üzvləri (Əli xan Qantəmir, Fuad Əmircan, N.Şeyxzamanlı və b.) M.Ə.Rəsulzadənin xəttini müdafiə etməyə başladılar.

*Əd.:* Bax *Qafqaz Konfederasiyası* məqaləsinin ədəbiyyatına.

**QAFQAZ KONFRANSI** - Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar respublikaları nümayəndələrinin 1918-19 illərdə Qafqazda münaqişələri nizama salmaq və əməkdaşlığı inkişaf etdirmək üçün keçirdikləri toplantı. Birinci dünya müharibəsinin (1914—18) sona çatdığı bir şəraitdə qarşıdan gələn sülh konfransında Qafqaz dövlətlərinin ümumi mövqedən çıxış etmələri və aralarındakı problemlərin həlli üçün Gürcüstan tərəfi 1918 il oktyabrın 27-də Azərbaycan, Ermənistan və Dağlılar respublikalarına müraciətlə Qafqaz konfransında iştirak etmək məqsədilə Tiflisə səlahiyyətli nümayəndələr göndərməyi təklif etdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bu təklifi razılıqla qarşılayaraq, noyabrın 11 -də konfransda iştirak üçün Mustafa Vəkilov və Məmməd Yusif Cəfərovdan ibarət nüma-yəndə heyəti yaratdı. Dağlılar Respublikası Tiflisə V.Cabagiyev və P.Kotsevdən ibarət nümayəndə heyətini göndərdi. Ermənistan isə Gürcüstan və Azərbaycana qarşı ərazi iddiasmda olduğu və silahlı qüvvə tətbiq etməklə, işğallara başladığı üçün təklənməkdən qorxaraq, konfransda iştirakdan boyun qaçırdı və öncə Gürcüstanla Borçalı ilə bağlı münaqişəni "həll etməyi", yəni qəzanın bir hissəsinin Ermənistana verilməsini şərt kimi irəli sürdü.

Qafqaz konfransı 1918 il noyabrın 14-də Tiflisdə işə başladı. Ermənistan nümayəndə heyəti iştirak etmədiyindən, Gürcüstan nümayəndə heyətinin başçısı Y.Gegeçkorinin təklifı ilə konfrans noyabrın 20-dək təxirə salındı. Sonra elə həmin səbəbdən konfransın açılışı daha 2 dəfə təxirə salındı və onun işə başlaması dekabrda da mümkün olmadı. Ermənistan tərəfi isə Almaniya ve Osmanlı imperiyasının müharibədə məğlub olmasını, Bakıya ingilis qoşununun çıxarılmasmı özü üçün əlverişli hesab edərək, dekabrın 15-də Gürcüstana qarşı hərbi əməliyyatlara başladı. Bu münaqişə ingilis hərbi qüvvəsi nümayəndələrinin fəal müdaxiləsindən sonra dekabrın 31-də dayandırıldı. 1919 il yanvarın 9-da Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri arasında ikitərəfli danışıqlar başlandı. Azərbaycan-Gürcüstan damşıqlarında Qafqaz konfransına hazırlıq üçün 4 bölmə - siyasi məsələlər, maliyyə məsələləri, dəmir yolu və poçt-teleqraf, gömrük və ticarət məsələləri üzrə - yaradılması qərara alındı. Bu məsələlər üzrə bölmələrdə iş aparılması və müvafıq nəticə əldə edildikdən sonra, konfransın rəsmi müzakirəsinə çıxarılması nəzərdə tutulurdu.

Qafqaza ingilis qüvvələrinin yeridilməsi ilə yaranan qeyri-müəyyənlik, Qafqaz respublikalan arasında qarşılıqlı etimadsızlığın güclü olması kimi amillər bu sahədə işlərin başlanmasma mane olurdu. Bununla belə, Qafqaz respublikaları arasında normal əlaqələr yaradılması həyati zərurət idi. Ona görə də, 1919 il fevralın 22-də Gürcüstan xarici işlər naziri qonşu ölkələr arasında dəmir yolu hərəkətinin tənzimlənməsi, poçt-teleqraf rabitəsi, gömrük, maliyyə və mal mübadiləsi məsələlərinin müzakirəsi üçün konfrans keçirilməsi təklifi ilə Azərbaycan, Ermənistan və Dağlılar respublikalarına müraciət etdi. Azərbaycan Hökuməti konfransda iştiraka razılıq verdi və gündəliyə siyasi xarakterli məsələlərin: beynəlxalq sülh konfransında birgə iştirak və Qafqaz respublikalarının müstəqilliyinin müdafiəsi sahəsində əməkdaşlıq, sərhəd-ərazi mübahisələrinin sazişlər yolu ilə həlli, bu mümkün olmadıqda, arbitraj vasitəsilə nizama salınması məsələlərinin müzakirəsini də təklif etdi. Gürcü və erməni tərəfləri bu təklifi qəbul etdikdən sonra, konfransın işinə əməli hazırlığa başlandı.

1919 il aprelin 11-də Qafqaz konfransı rəyasət heyəti adından Qazax, Naxçıvan və Qarabağda davam edən qanlı toqquşmaların dərhal dayandırılması üçün Azərbaycan və Ermənistan hökumətlərinə müraciət edildi. Elə həmin gün Azərbaycan tərəfi konfransın işinin sakit şəraitdə keçməsi və səmərəli işləməsi üçün Qafqazdakı bütün millətlərarası toqquşmaların dərhal dayandırılması məsələsinin müzakirə edilməsinə razı olduğunu bildirdi.

Aprelin 18-də Azərbaycan Hökuməti Qafqaz konfransında iştirak etmək üçün aşağıdakı tərkibdə nümayəndə he-yətini təsdiq etdi: Parlamentin üzvü Fətəli xan Xoyski (sədr), xarici işlər naziri Məmməd Yusif Cəfərov və parlamentin üzvü Məhəmməd Əmin Rəsulzadə.

Qafqaz konfransı 1919 il aprelin 27-də Tiflisdə işə başladı. Konfransın işində Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndə heyətləri iştirak edirdi. Həmin vaxt Dağlılar Respublikası Denikin ordusunun hücumuna məruz qaldığı və ərazisinin əsas hissəsini itirdiyi üçün bu konfransa nümayəndəlik göndərə bilməmişdi. Konfransı Gürcüstanın Respublikasının xarici işlər naziri Y.Gegeçkori açaraq bildirdi ki, Qafqaz xalqlarının həyati mənafeyi müstəqillikləri üçün gələcəkdə yarana biləcək bütün təhlükələrə qarşı onların birləşməsini tələb edir. Bu istiqamətdə ilk addım siyasi və iqtisadi ittifaq yaramaq, vahid cəbhə təşkil etməkdir. Azərbaycan nümayəndə heyətinin başçısı Fətəli xan Xoyski və Ermənistan nümayəndə heyətinin başçısı, xarici işlər naziri S.Tiqranyan öz hökumətləri adından bildirdilər ki, Qafqaz xalqları birləşməlidirlər və yalnız bu halda birgə, razılıq əsasında yaşamaq mümkündür.

downloaded from KitabYurdu.az

Konfransın rəyasət heyətinin iclasmda Fətəli xan Xoyskinin təklifinə əsasən, Qafqaz dövlətləri arasında münasi-bətlərin bütün sahələrdə nizama salınması üçün ərazi-sərhəd mübahisələrinin həlli prinsipləri və yolların müəyyən edilməsi; dəmir yolu, poçt və teleqraf əlaqələrinin nizamlanması; ticarət, gömrük və maliyyə məsələləri; siyasi məsələlər (müstəqilliklərin qarşılıqlı tamnması, xarici təcavüzün qarşısmm ahnması, vətəndaşhq məsələləri); məhkəmə-hüquq məsələləri (cinayətkarların verilməsi, dövlətlərə qarşı iddialar qaldırılması); qaçqınlar və köçəri əhali üzrə komissiyalar yaradılması qərara alındı. May ayı ərzində konfransın işi bu komissiyalarda davam etdirildi.

Qafqaz konfransında ərazi-sərhəd məsələsinin müzakirəsi və helli yollarının müəyyən edilməsi onun ən böyük uğuru oldu. Uzun mübahisələrdən sonra aşağıdakı qərar qəbul edildi: Qafqaz dövlətlərinin sərhədlərinin nüəyyən edilməsində yalnız respublikalar arasında qarışıq əhaliyə malik bölgələr haqqında mübahisəli nəsələlər müzakirə obyekti ola bilər; respublikalar nübahisəli ərazilərlə bağlı öz aralarmda razılığa gəlmədikdə bu mübahisələr arbitraj yolu ilə həll olunur. Konfransda, həmçinin, birgə bon buraxılmasına, köçəri əhalinin hərəkət qaydalarına, iqtisadi əməkdaşlığa dair mühüm razılaşmalar əldə edildi.

1919 ilin yazında regionda vəziyyətin kəskin dəyişilməsi, Denikin ordusunun Dağlılar Respublikasının işğal etməsi və sürətlə cənuba doğru irəliləməsi, Azərbaycana Gürcüstan üçün ciddi təhlükə yaratması konfransın işində gərginliyə səbəb oldu. Ermənistan nümayəndəliyinin Denikin ordusunun Dağıstanı işğal etməsinə və Cəubi Qafqaza qarşı təcavüzkar hərəkətlərinə reaksiya Denikinlə Ermənistan arasında gizli razılaşma bağlanması haqqında halıh şübhələr doğurdu. Belə bir şəraitdə Qafqaz konfransının digər iştirakçıları: Azərbayın və Gürcüstan nümayəndəlikləri 1919 il iyunun 9-da keçirdikləri iclasda Denikin ordusunun Şimali Qafqazdakı işğallarını kəskin şəkildə pislədilər və Azərbaycan tərəfinin təklifi ilə Qafqazın müstəqilliyinin mehvinə yönəlmiş təcavüzün qarşısını almaq tədbirlərini müzakirə etdilər. Damşıqlar nəticəsində 1919 il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublisı arasında hərbi-müdafıə sazişi imzalandı. Sazişin 10-paraqrafı Ermənistanın 2 həftə ərzində ona qoşulmasına imkan verirdi. Lakin Ermənistan Respublikası bundan imtina edərək, Azərbaycana qarşı düşmənçilik hərəkətlrini gücləndirdi, beləliklə, Qafqaz konfransı qərarlarının bütün region miqyasında həyata keçməsinə mane oldu.

*Əd.:* Nəsibzadə N., Azerbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Азербаиджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998.

**QAFQAZ QIRMIZI ORDUSUNUN HƏRBİ İNQİLAB KOMİTƏSİ** - Oktyabr çevrilişindən (1917) sonra Qafqazda qalmış rus ordusunun parçalanmasının qarşısını almaq onun bu regionda bolşevizmin dayağına çevrilməsini təmin etmək məqsədilə bolşeviklərin rəhbərliyi ilə təşkil edilmiş hərbi-siyasi qurum. Bu qurum Qafqaz ordusunun 1917 il dekabrın 10-dan 23-dək Tiflisdə çağırılmış ikinci diyar qurultayından sonra meydana gəlmişdi. Həmin qurultayın çağırılmasından da məqsəd ordunun siyasiləşməsinə, onun bolşevizmin xidmətinə cəlb olunmasına, region xalqlarının milli azadlıq hərəkatına qarşı istifadə edilməsinə nail olmaq idi. Bolşeviklər məqsədlərinə yetişmək üçün ciddi hazırlıq işləri apardılar, yerli xalqların milli azadlıq hərəkatının qarşısını almaq üçün əsgərlər arasında şovinizm təbliğatını gücləndirdilər, 1917 il noyabrın 30-da RSDF(b)P Qafqaz Diyar Komitəsi qurultayla bağlı Qafqaz ordusunun əsgərlərinə müraciət edərək, onlan bolşevik nümayəndələrinə səs verməyə çağırdı.

Nəticədə, Qafqaz ordusunun 2-ci diyar qurultayının nümayəndələri arasında bolşeviklər və bolşevikpərəstlər üstünlük təşkil etdilər. Onların sayı 160-a yaxın idi. Bu nümayəndələrin üstünlüyü ilə qəbul edilmiş qərarda Zaqafqa-ziya komissarlığının yaradılması pislənilir, çağırılacaq Müəssislər məclisinin qərarlarının bolşevikpərəst olmayacağı halda, onların boykot ediləcəyi bildirilirdi.

Qafqaz ordusunun diyar şurasına seçkilər də bolşeviklərin azacıq üstünlüyü ilə başa çatdı. Diyar şurasının 100 üzvündən 52-si bolşevik meylli, 48 nəfəri isə bolşevizmə əks olan və daha çox regionun milli azadlıq hərəkatı tərə-findən müdafiə olunan nümayəndələr idi. Zaqafqaziya komissarlığı tərəfindən dəstəklənən qeyri-bolşevik üzvlər özlərini Qafqaz ordusunun səlahiyyətli diyar şurası elan etdilər və öz fəaliyyətlərini Tiflisdə quracaqlarını bildirdilər. Özlərini Qafqaz ordusu diyar şurasının təmsilçiləri hesab edən bolşevik üzvlər iclas çağıraraq diyar şurası icraiyyə orqanının Qafqaz ordusunun hərbi inqilab komitəsinin yaradıldığını bildirdilər. Q.Korqanovun sədr seçildiyi bu komitə Tiflisdə bolşeviklərin xeyrinə fəaliyyət göstərmək mümkün olmadığından Bakıya köçdü və burada kök saldı.

S.Şaumyanın və onun ətrafına toplaşmış milliyyətcə erməni olan bolşeviklərin güclü təsirə malik olduğu hərbi-inqilabi komitə həm Bakıdakı hərbi qüvvələr, həm də Türkiyə cəbhəsindən qayıdan hərbi hissələr (onların da əksə-riyyəti erməni əsgər və zabitləri idi) arasında iş apararaq, onlarm böyük bir qismini öz tərəfinə çəkə bildi. Hərbi-inqilabi komitənin təsiri altında olan hərbi qüvvələr erməni-daşnak silahh dəstələri ilə birləşərək, 1918 ilin martında Bakıda türk-müsəlman əhaliyə qarşı soyqırımları törədil-

downloaded from KitabYurdu.az

məsində, şəhərdə hakimiyyətin ələ keçirilməsində, Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün Gəncəyə hücumun təşkilində fəal iştirak etdilər. Komitə Bakı Sovetinin süqutuna qədər (1918, 31 iyul) fəaliyyət göstərdi.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Большевики в борьбе за победу социалиситический револющий в Азербаиджане. Документы и материалы. 1917-1918 гг.Б., 1957; Токаржевский Е.А., Из истории иностранной интеренции и гражданский войны в Азербаиджане, Б., Интервенциа и гражданская война в Закавказье, М., 1960

**QAFQAZ MÜSƏLMAN MÜƏLLİMLƏRİNİN BİRİNCİ QURULTAYI** - Qafqaz müsəlman müəllimlərinin problemlərini araşdırmaq məqsədilə toplanmış məclis. Bəzən Azərbaycan müəllimlərinin qurultayı adlandırılır. 1906 ilin mayında "Nicat" maarif cəmiyyətinin qiraətxanasında keçirilən yığıncaqda avqustda müəllimlərin qurultayının çağırılması qərara alınmış və Həsən bəy Zərdabi (Məlikov), Fərhad Ağazadə, Nəriman Nərimanov, Ə.Cəfərzadə, A.Əfəndiyev, H.Mahmudbəyov, H.M.Hacıbababəyov və M.Y.Əfəndiyevdən ibarət komissiya təşkil edilmişdi. Təsis komissiyasının sədri N.Nərimanov idi. Hazırlıq dövründə bir çox vətənpərvər Azərbaycan ziyalıları mətbuatda qurul-tayın qarşısında duran vəzifələri ətraflı şərh edirdilər. Təsis komissiyası maydan qurultay açılanadək N.Nərimanovun sədrliyi ilə 11 iclas keçirmişdi. Komissiyanın üzvləri ayrı-ayrı şəhərlərə gedərək, qurultayın çağırıllması və keçirilməsi ilə bağlı məsələləri həll edirdilər. 1906 il avqustun 15-də 2-ci şəhər məktəbində işə başlayan qurultayı giriş sözü ilə N.Nərimanov açdı. H.Zərdabi sədr, N.Nərimanov onun müavini, F.Ağazadə katib seçildilər. Qurultayda 100-dən artıq nümayəndə iştirak edirdi. Müəllimlərdən başqa, təlim-tərbiyə ilə maraqlananlar və yerli mətbuat nümayəndələri də dəvət olunmuşdular. Avqustun 15-dən 28-nə qə-dər davam edən qurultayda ibtidai və orta rus-tatar məktəblərində ana dilinin icbari fənn kimi tədrisi, yeni dərs proqramının tərtibi, vahid dərs metodunun hazırlanması, kənd müəllimlərinin həyat şəraitinin yaxşılaşdırılması, Qori müəllimlər seminariyası Azərbaycan şöbəsinin Azərbaycan şəhərlərindən birinə köçürülməsi və qadın təhsilinin inkişafı məsələləri müzakirə edilmişdir. Müzakirə edilən məsələlərdən biri də ana dili proqramının təsdiqi və uşaqların orta məktəblərə az daxil olmalarının səbəblərini müəyyənləşdirmək idi. O zaman mərkəzi maarif müfəttişliyinin əmri ilə müəllimlər azərbaycanlı uşaqlara "lal metod"la dərs deməli idilər. Bu üsulla dərs demək müəllimlər üçün çətinlik törətdiyi kimi, onların nüfuzdan düşməsinə səbəb olurdu. Qurultayda qabaqcıl müəllimlər bu "üsulun" ləğvini tələb edirdilər. Bu zəmində baş vermiş ixtilaf uzun illər müxtəlif söz-söhbətlərə səbəb olmuşdur. Qurultay nümayəndələri ana dilinin müstəqil fənn kimi keçilməsi barədə sərəncam verilməsi üçün avqustun 21-də qərar qəbul etdilər. Qurultayın sədri H.Zərdabinin Qafqaz canişininə ünvanlanan teleqramında "Qurultay ədalətli serəncam verməniz xahiş edir" yazmasına  N.Nərimanov "Qurultay xahiş yox, tələb edir!", - deyə etiraz etmişdi. Bu məsələdə nümayəndələr iki dəstəyə bölünmüşdü. Təklifləri səsə qoyarkən Nərimanovun təklifi keçmişdi. Bu əhvalatdan xəbər tutan Hacı Zeynalabdin Tağıyev avqustun 22-də qurultaya gelmiş, Qafqaz canişininə göndəriləcək teleqram üstündən N.Nərimanovla onun arasında münaqişə baş vermişdi. H.Z.Tağıyev qurultay nümayəndələrindən qərarı də-yişdirməyi xahiş etmişdi. Belə olduqda, N.Nerimanov qurultay qarşısında çıxış edərək, H.ZTağıyevin təqaüdündən imtina etdiyini bildirmişdir: "Başqalarının nəinki açıq danışdığı, hətta çar istibdadına qarşı azadlıq yolunda öz qanlarını tökdükləri bir zamanda, mən heç kəsə ixtiyar verməmişəm və imkan verməm ki, mənfur qızılın gücü ilə məni susdursun". Onun çıxışı nümayəndələr tərəfindən alqışlarla qarşılanmışdı. Erməni-müsəlman qırğınlarının qarşısını almaq məqsədilə qurultay erməni müəllimlərinə müraciət qəbul etmişdi.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M.F., Eşitdiklərim, oxuduqlarım, gördüklərim, B., 1987; Əhmədov H.M., Nəriman Nərimanov (həyatı, fəaliyyəti, pedaqoji və tibbi fikirləri), B., 2004.

**QAFQAZ MÜSƏLMAN SÜVARİ DİVİZİYASI** -Birinci dünya müharibəsi (1914-18) dövründə Qafqazın yerli müsəlman əhalisindən təşkil edilmiş süvari diviziya. Bax *"Dikaya diviziya "*.

**QAFQAZ MÜSƏLMANLARININ QURULTAYI-** Rusiyada Fevral inqilabının (1917) qələbəsindən sonra Qafqaz müsəlmanlarının Bakıda keçirilmiş ali məclisi (1917, 15-20 aprel). Qurultayın təşkilində və keçirilməsində *Bakı Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti Komitəsi* həlledici rol oynamışdır. Qafqaz müsəlmanlannın siyasi və milli-mədəni amallarını açıq ifadə etmək məqsədilə keçirilən qurultayda Azərbaycan siyasi qüvvələrinin bütün dairələri təmsil olunmuşdu. Qurultayda müxtəlif ictimai təşkilatlardan 300-dən artıq nümayəndə iştirak edirdi. Qurultayın ka-tibliyinə Əlimərdan bəy Topçubaşov, Nəriman Nərimanov, İbrahim bəy Heydərov, Nəsib bəy Yusifbəyli, Fətəli xan Xoyski, İslam bəy Qəbulov, M.Axundov, Mustafa Mahmudov, Həsən bəy Ağayev və Mir Yaqub Mehdiyev seçildilər.

Qurultayın sədri seçilən Ə.Topçubaşov açılış mərasimində Qafqazın bütün xalqlarının ümumi vətənin rifahı naminə həmrəyliyə çağırdı. Bakı İctimai Təşkilatları Şurası İcraiyyə Komitəsinin sədri V.İ.Frolov, Bakı şəhər rəisi Y.N.Smirnov, qubernator P.F.İlyuşkin, polyak təşkilatlarından S.A.Vonsoviç, yəhudi icması adından M.Y.Şor çıxış edərək, azad Rusiyanın bütün xalqlarının həmrəyliyi fikrini müdafiə etdilər.

Qurultaydakı məruzələri sistemləşdirmək, həmçinin siyasi, təşkilati, dini, məktəb işləri üzrə və milli fond ya-radılması məqsədilə beş komissiya təşkil olundu. Qurultayda müzakirə olunan əsas məsələlərdən biri Rusiyanın gələcək siyasi quruluşu və əsarətdə olan xalqların hüquqlarına aid idi. Bu barədə məruzə edən M.Ə.Rəsulzadə bildirdi ki, Rusiya kimi geniş əraziyə malik, çoxmillətli dövlətdə hakimiyyətin mərkəzləşdirilməsi xalqların azad birgə yaşayışı baxımından məqbul deyildir. Məruzənin əsasında milli müqəddəratını azad surətdə təyin olunması hüququ dayanırdı.

downloaded from KitabYurdu.az

Qurultaya islamçı və sosialist yönümlü qüvvələrin nümayəndələri, o cümlədən bolşeviklər ərazi muxtariyəti ideyasına qarşı çıxdılar. İslamçılar ərazi muxtariyyəti tərəfdarlarını Rusiyanın müsəlman xalqlarının birliyini, sosialist yönümlü qüvvələr, o cümlədən boşeviklər isə inqilabi hərəkatı parçalamaqda günahlandırırdılar. Üzun sürən müzakirələrdən sonra qurultay M.Ə.Rəsulzadənin məruzəsi üzrə qətnamə qəbul etdi. Qətnamədə deyilirdi: ***Federativ əsaslarla demokratik respublika qurulması usiya dövlət quruluşunun müsəlman xalqlarının mənafeyini təmin edən ən yaxşı forma kimi tanınsın".***

Qurultay Müvəqqəti hökumətə, müharibəyə və Rusiyanın digər xalqlarına münasibət məsələlərini də üzakirə etdi, Müvəqqəti hökumətin 1917 il 6 mart tarixli qətnamməsində bəyan olunan prinsipləri müdafiə etdiyini bilIdirdi. Müharibəyə münasibət məsələsinə dair qərarda Rusiya demokratlarının müharibəni ilhaqsız və təzminatsız sülhlə qurtarmaq tələbinə qoşulmaq nəzərdə tutulur, Həmçinin, ümumi demokratik ideallarn birgə həyata keçirilməsi üçün Rusiyanın bütün digər xalqları ilə yaxınlaşmağın vacibliyi qeyd edilirdi.

Qurultayda qadınların vəziyyətinə dair məsələ də müzakirə olundu. Siyasi komissiyanın qətnaməsində müsəlman qadınlarına kişilərlə bərabər hüquqlar verilməsinin zəruriliyi bəyan edilirdi. Fəhlə və torpaq haqqında məsələlərə dair qurultayın gündəliyinə daxil edilsə də, bu məsələlərə dair qətnamə qəbul olunmadı, onların həlli Müəssislər məclisi çağırılanadək təxirə salındı.

Qurultayın 4-6-cı iclaslarında din və məktəb işləri üzrə komissiyaların məruzələri müzakirə edildi. Ə.Əfəndiyevin təhsil məsələsinə dair məruzəsi üzrə bul olunmuş ***"Türk dilində ümumi, məcburi və pulsuz təhsilin zəruriliyi haqqında"*** qətnamədə türk dilində iəllim seminariyalarının, universitetin açılması nəzərdə tutulurdu. Qurultay M.C.Yusifzadənin dini işlər üzrə aya məruzəsini dinlədi. Məruzədə dini sahədə əsas qaydalar müəyyənləşdirilir, ***şiə və sünni dini idarələrinin vahid orqanda birləşdirilməsi, vahid dini təhsil müəssiərinin yaradılması*** təklif edilirdi. Qurultayda ***sünni və məzhəblərinə parçalanmaya son qoymaq haqqında qərar qəbul olundu.***

Qurultay müsəlman komitələrinin, onların rəhbər orqanlarınnı yaradılması haqqında qərar qəbul etdi. İki mərkəzi, bir xüsusi büro yaradıldı. Vladiqafqazda yerləşən birinci büro Şimali Qafqaz, Bakıda yerləşən ikincisi Cənubi Qafqaz üçün idi. Tiflisdə yerləşəcək üçüncü o birinci və ikinci büroların işini əlaqələndirməli idi. Müvafiq olaraq şəhər, quberniya, vilayət, qəza, sahə və on komitələrinin yaradılması nəzərdə tutulurdu. Milli ordunun yaradılması haqqında qərar qəbul edilən gün fonda artıq xeyli məbləğdə pul daxil olmuşdu. H.Z.Tağıyev milli fonda 50 min manat ianə vermişdi. Qafqaz müsəlmanlarmm qurultayı Rusiya müsəlmannın siyasi həyatında mühüm rol oynadı, onlarm milli hərəkatının gücləndirilməsi yollarını müəyyənləşdirdi. Qafqaz müsəlmanlarının Bakı qurultayında irəli sürülən prinsiplər sonralar Azərbaycan milli partiyaları və siyasətçilərinin fəaliyyətinin əsasında durdu.

*Əd.:*Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001; Məmmədzadə M.B., Milli Azərbaycan hərəkatı, B., 1992; Məmmədov X., Azərbaycan milli hərəkatı(1875-1917-ciillər), B., 1996; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri). B., 1999; Oruclu M., Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992), B., 2001; Гасанов Г., Комитет Бакинских мусульманских организаций, "Tarix və onun problemləri", B., 2003, №2

**QAFQAZ ORDUSU** - *Qafqaz cəbhəsi* tərkibində İrandakı rus qoşunları ilə birlikdə hərbi əməliyyat keçirən qoşun birləşməsi. 1917 ilin aprel-dekabr aylarında onun tərkibinə 1-ci, 4-cü, 5-ci və 6-cı Qafqaz ordusu korpusları, 2-ci Türküstan ordu korpusu, 2 möhkəmləndirilmiş mövqe (Ərzurum və Trabzon) və b. hissələr daxil idi. Sayı 426486 nəfər (14 mart), daha sonra 767238 nəfəı (7 noyabr) olmuşdur. Qərargahı Ərzurumda yerləşirdi. Cəbhə xətti Türkiyənin ərazisindən keçir, Cənubi Qafqaz ordusunun arxa cəbhəsinin bir hissəsini təşkil edirdi.

Qafqaz ordusunun arxa cəbhəsində ermənilərin rəhbərlik etdiyi bolşevik qrupları fəaliyyət göstərirdi. P.A.Caparidze və Q.N.Korqanov da burada iş aparırdılar. Ordunun ermənilərin üstünlük təşkil etdiyi bəzi hissələri Bakıda S.Şaumyanın təşkilatçılığı və göstərişi ilə azərbaycanlılara qarşı soyqırımda fəal iştirak etmişdi.

Fevral inqilabından (1917) sonra baş verən hadisələr (iyun hücumu, iyul hadisələri, kornilovçuluq) Qafqaz ordu-sunda da özünü göstərmişdi. Ordu komandanlığı milli birləşmələr yaradılmasını həvəsləndirirdi. Bolşevik əhvali-ruhiyyəli hərbi hissələr sovet hakimiyyəti tərəfinə keçmişdilər. Zaqafqaziya komissarlığı və Qafqaz cəbhəsi koman-danlığı cəbhədən qayıdan hissələrin tərksilah edilməsini qərara almışdı (bax *Şamxor hadisəsi).* 1918 ilin fevralında Qafqaz ordusu buraxıldı. Qafqaz cəbhəsində yalnız milli birləşmələr və Zaqafqaziya komissarlığının hakimiyyətini tanıyan hərbi hissələr qalmışdı.

*Əd:.* Bax *Qafqaz cəbhəsi* məqaləsinin ədəbiyyatına

**QAFQAZDA SLAVYAN-RUS CƏMİYYƏTİ ŞURASI** - 1918 ilin martında yaranmışdı. Üzvləri K.N.Lizqar, M.N.Vinoqradov, E.P. Şmerlinq, A.İ.Şpitalski, V.İ.Soko-lov, İ.N.Protasyev, N.A.Vaykov, O.Vasili Kravçenko, İ.P.Zalayev, D.S.Saxnovski, V.A.Piquzov, V.İ.Dedukov və b. olmuşlar. Şuranın 27 noyabr tarixli iclasında aşağıdakı tezislər qəbul edilmişdi: Qafqazda Slavyan-rus cəmiyyəti slavyan, o cümlədən rus mənşəli vətəndaşların əlaqələrinin və bütün milli təşkilatlarla əməkdaşlığının möhkəmləndirilməsini qarşısına başlıca məqsəd qoyur; xalqların öz müqəddəratını təyin etməsi prinsipi əsasında Rusiyanın 1914 ildə müharibə elan edilənə qədərki sərhədləri hüdudunda bütövlüyü ideyası onun fəaliyyətinin əsasmı təşkil edir; dövlətin bütövlüyü və müstəqilliyi əleyhinə çevrilmiş hər hansı hərəkət yolverilməzdir və hər vasitə ilə qarşısı alınmalıdır; buna görə də Slavyan-rus cəmiyyəti hökuməti dəstəkləmək üçün hər cür tədbir-

downloaded from KitabYurdu.az

görməyi zəruri sayır; dövləti gücləndirmək üçün yerli hərbi qüvvələrin yaradılması vacibdir; Ümumrusiya Müəssislər məclisi Rusiya dövlətinin idarə formasını müəyyən edənə qədər yerlərdə mülki hakimiyyət həmin ərazidə yaşayan əhalinin nümayəndələrindən ibarət özünüidarə hökumətinə məxsusdur; Hökumətin ilk vəzifəsi ölkədə qayda-qanun yaradılması və anarxiyanın aradan qaldırılmasıdır; Hökumət torpaqsız və aztorpaqlı kəndlilərə qayğı ilə yanaşmalıdır; əhalinin kənd təsərrüfatı ehtiyaclarına və sənayenin, məhsuldar qüvvələrin inkişafına qayğı ilə yanaşılmalıdır; əhalinin maariflənməsi və mədəniyyətinin inkişafı sahəsində tədbirlər görülməlidir.

**QAFUR RƏŞAD,** Qafur Ələkbər oğlu Mirzəzadə (6.5.1884, Şamaxı - 26.11.1943, Bakı) - maarif xadimi, naşir-müherrir, publisist, tərcüməçi, coğrafiyaşünas. Şamaxıda mollaxanada (1890-94), şəhər məktəbində (1894-1901), Bakıda Ali Pedaqoji İnstitutda (1923-27) təhsil almışdır. Bakıda III Aleksandr kişi gimnaziyasındakı xüsusi komissiya qarşısında imtahan verib (1901) Azərbaycan dili müəllimi vəsiqəsi almışdır. Şamaxı qəzasının Lahıc kənd ibtidai məktəbində (1902-07, Bakıda “Nəşri-maarif” cəmiyyətinin müəllim hazırlığı kursunda (1907-09), şəhər "Rus-müselman" məktəbində (1909-17) müəllim işləmişdir. 1917 ildə Bakı şəhəri 2-ci realnı məktəbinin milli sinfində dərs deməyə dəvət olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti xalq məktəbləri direktorunun əmri ilə "milli fənləri" tədris etmək üçün 2-ci realnı məktəbə təyinat almışdır. Sovet hakimiyyəti illərində Azərbaycan Dövlət Universitetində (ADU), Zaqafqaziya Pambıqçılıq tnstitutunda, Sənaye Akademiyasında, Sənaye İnstitutunda, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda işləmişdir. Qafur Rəşad 20 əsrin əvvəllərində Azərbaycanın ictimai və mədəni həyatında fəal iştirak etmiş, dövri mətbuatda müxtəlif sosial problemlərə dair publisist məqalələrlə çıxış etmişdir. 1908 ildə "Ayineyi-millət" ("Oyanınız, qardaşlar") kitabını nəşr etdirmişdir. Siyasi süstlüyün, mütiliyin tənqidi, milli dirçəlişə çağırış əsərin əsas ideyasını təşkil edir, maarifçilik əsarətdən qurtuluş vasitəsi hesab olunurdu. Milli məktəblərin müasir dərsliklərlə təmin olunması sahəsində Qafur Rəşadın xidmətləri böyükdür. İlk coğrafiya dərsliklərinin yaradıcısı olan Qafur Rəşad 1909-43 illərdə "Qafqaz coğrafıyası" (1910), "Ümumi coğrafıya" (1923), "İbtidai coğrafıya" (1922), "Coğrafiya terminləri lüğəti" (1923), "SSRİ-nin iqtisadi coğrafıyası" (1941), "Xəritə üzərində əməli iş" (1943) və s. adlar altında 18 dərslik və vəsait yazıb, nəşr etdirmişdir. "Rəhbəri-sərf” (Məmmədsadıq Axundovla birgə, 1910), "Rəhbəri-hesab" (Əbdür-rəhman Tofıq Əfəndizadə ilə birgə, 1910) dərslikləri uzun illər məktəblərdə tədris olunmuşdur. Milli uşaq ədəbiyyatının inkişafında Qafur Rəşadın rolu daha böyükdür. O, Azərbaycanda "Məktəb" adlı sayca ikinci uşaq jurnalının (1911-20) və uşaqlara məxsus əbəbiyyat nəşr edən eyni adlı birinci mətbəənin təsisçisidir (Əbdürrehman Əfəndizadə ilə birgə). Cümhuriyyət dövründə nəşr olunmuş "Məktəb" uşaqların milli müstəqillik və dövlətçilik ruhunda tərbiyəsində müsbət rol oynamışdır. Pedaqoq-yazıçıları jurnalın ətrafına toplamış, orijinal şer və hekayələrdən, müxtəlif dillərdən edilən tərcümələrdən, elmi-kütləvi məqalələrdən ibarət zəngin uşaq əbəbiyyatı xəzinəsi yaratmış, yeni yazıçı nəslinin yetişməsi işində böyük xidmət göstərmişdir.



Tərcümə sahəsində də çalışmış, L.N.Tolstoyun "İnsana çoxmu torpaq lazımdır?", "Baha oturur", "Barmaq boyda uşaq", "Çəməndə tülkü ilə qurd və yeddi yaşar", "Dövlətli sərçə və dişli siçan", "Bir-birinə məhəbbət ediniz" və P.N.Polevəyun "İki yol, iki yoldaş" əsərlərini təbdil və tərcümə etmiş, kitab halında buraxdırmışdır.

Əsəri: Ayineyi-millət, B., 1992.

*Əd.:* Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər). Tərtib edənlər: X.Məmmədov, A.Həsənov, B., 2002; Məmmədov Ə., Azərbaycan uşaq ədəbiyyatı, B., 1977; Yüzbaşov R., Məşhur coğrafıyaşünas Qafur Rəşad Mirzəzadə, B., 1968; Namazov Q., Azərbaycan uşaq ədəbiyyatı, B., 1984.

**QANTƏMİR** Əlixan (?-?)- *Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının* (Dağlı Respublikası) Azərbaycan Xalq Cümhuriyyətində diplomatik nümayəndəsi. Ə.Qantə-mir 1917 ildən Şimali Qafqazda dağlı xalqların azadlıq mübarizəsinin fəal iştirakçısı idi. O, 1918 ilin martında dağlı xalqların Zaqafqaziya seymi ilə danışıq aparmaq üçün Tiflisə göndərdiyi nümayəndə heyətinin üzvü olmuş, dağlı nümayəndə heyətinin tərkibində Trabzon və Batum konfranslarında iştirak etmişdir.

1918 il mayın 11-də Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası yaradılması haqqında bəyannamə elan edildikdən sonra, Osmanlı dövləti ilə yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti də ona hərtərəfli yardım göstərdi. Azərbaycan Hökuməti Dağlı hökuməti ilə sıx siyasi, iqtisadi və hərbi əməkdaşlıq xətti yeridir, eyni zamanda, hər iki respublika sərhədlərinin dəqiqləşdirilməsini zəruri sayırdı. Azərbaycan tərəfi bu məqsədlə müştərək komissiya yaradılmasının təklif etmişdi. Dağlı Respublikası ilə Azərbaycan arasında normal əlaqələrin qurulmasında Ə.Qantəmir mühüm rol oynadı. 1918 ilin oktyabrında Dağlı Respublikası hökumətinin Azərbaycanda diplomatik nümayəndəsi təyin olunan Ə.Qan-təmir Dağlı Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında iqtisadi, maliyyə və digər sahələr üzrə müqavilə və sazişlər bağlanmasında iştirak etmişdir.

Dağlı Respublikası 1919 il mayın sonunda Denikin ordusu tərəfindən işğal olunduqdan sonra da Ə.Qantəmir öz hökumətinin nümayəndəsi kimi fəaliyyətini davam etdirmiş, Cənubi Qafqaz respublikalarının 1919 ilin may və iyu-nunda maliyyə-iqtisadi, hərbi-siyasi məsələlər üzrə Tiflisdə keçirdikləri konfransda onu təmsil etmişdir.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998. Б., 1998; Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

**QANTƏMİR,** Qafur Sədrəddin oğlu Əfəndiyev (1888, Göyçay qəzası, Potu k. - 1944, Orta Asiya) - maarif xadimi,

downloaded from KitabYurdu.az



dimi, pedaqoq, yazıçı. İlk təhsilini Potuda, atası Sədrəddin əfəndinin xüsusi məktəbində (1896-1905) almışdır. Göyçay şəhərində İbrahim Həqqinin yeni üsul məktəbində (1905-08) oxumuşdur. İstanbul Darülfununun tarix-ədəbiyyat fakültəsini (1914), Azərbaycan Dövlət Tibb İnstitutunun stomatologiya fakültəsini (1929) bitirmişdir. Qan-təmir 1908 ildə Göyçayda pedaqoji fəaliyyətə başlamışdır. 1915 ildə fəaliyyətini şəhərdə yeni açılan "İqbal" məktəbində davam etdirmişdir. 1916 ildə "Nəşri-maarif" cəmiyyətinin Qubada açdığı məktəbə müdir vəzifəsinə dəvət olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Potu kəndində yaşamış, 1919 ildə burada məktəb açmışdır. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da xalq maarifi sahəsində işləmiş, Göyçayda müəllim hazırlamaq üçün qısamüddətli pedaqoji kurslar təşkil etmişdir. Sonralar Bakıda Ali Pedaqoji İnstitutun nəzdində təşkil edilmiş Abdulla Şaiq adına ikinci dərəcəli nümunə məktəbində direktor vəzifəsində çalışmış, 1937 ildə Ağsu rayonuna köçüb diş həkimi işləmiş, 1939 ildə həbs olunaraq, Orta Asiyaya sürgün edilmişdir.

Qantəmir ədəbi yaradıcılıqla 20 əsrin əvvəlindən məşğul olmağa başlamışdır. "Faiz" təxəllüsü ilə yazdığı şerləri və məqalələri "Təzə həyat", "İqbal" qəzetlərində dərc olunmuşdur. Geniş yaradıcılıq fəaliyyətinə 1926 ildən başlamış, "Buğda quyusu", "Ağıl dəryası", "Mirzə Aves", "İntelligent", "Hacı Qambay" və s. hekayələri geniş oxucu kütləsinin diqqətini cəlb etmişdir. "Ağıl dəryası" (1930), "Şarlatanlar" (1934) hekayələr məcmuəsi və "Kolxozıstan" (1935) povesti nəşr olunmuşdur. Əsəri: Seçilmiş hekayələr, B., 1964.

*Əd.:* Abdullayev A., Qantəmirin həyatı və yaradıcılığı. Filologiya elmləri namizədi diss. avtoreferatı, B., 1964; Azərbaycan sovet ədəbiyyatı tarixi, 2 cilddə, c.l, B., 1967.

**QAPLANOV** Rəşid xan Zavid oğlu (1883, Dağıstanın Xasavyurd qəzasının Ağsay kəndi-1937) - siyasi və döv-lət xadimi. Milliyyətcə qumıqdır. Vladiqafqazda realnı məktəbi, 1910 ildə Parisdəki Sorbonna Universitetinin hüquq fakültəsini bitirmişdir. İstanbul Universitetinə dəvət olunmuş, 1913 ilədək orada dərs demişdir. Həmin il



Vladiqafqaza qayıtmış, şəhər dairə məhkəməsində andlı müvəkkil müavini vəzifəsində çalışmışdır. Rusiyada Fevral inqilabından (1917) sonra Şimali Qafqazda gedən siyasi proseslərdə fəal iştirak etmiş, burada yaranmış Çərkəz-Dağıstan və Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası hökumətlərində müxtəlif nazir vəzifələrini tutmuşdur.

Qaplanov 1919 ilin əvvəllərində Bakıya köçmüş, Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü hökumət kabinəsində maarif və dini etiqad naziri vəzifəsinə təyin olunmuşdur. Onun rəhbərliyi ilə Bakıda və Azərbaycanın bir çox I şəhərində yeni məktəblər fəaliyyətə başlamışdır. Bakı Dövlət Universitetinin açılmasında Qaplanov da yaxından iştirak etmiş, eyni zamanda, burada "Osmanlı ədəbiyyatı tarixi"ndən dərs demişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin 5-ci hökumət kabinəsində Qaplanov maliyyə naziri təyin olunmuş, dövriyyəyə buraxılan pulların qiymətdən düşməməsi və devalvasiyaya uğramaması üçün böyük səy göstərmişdir. 1920 il fevralın əvvəllində *Bakı bonlarının* Zaqafqaziya pullarının dəyişdirilməsini dayandırmaq barədə qərar vermişdi. Qərara əsasən, "500 manat" dəyərində olan kağız pul əlli beş seriya ilə dövriyyəyə buraxılmışdı. Pulun üzərində baş nazir Nəsib bəy Yusifbəylinin və maliyyə naziri Rəşid xan Qaplanovun imzaları vardı. *Aprel işğalından (1920)* bir həftə əvvəl Qaplanov Batuma ixrac edilən neft və neft məhsulları üçün rüsumların yalnız Azərbaycan pulu ilə ödənilməsi haqqında sərəncam vermişdi.

Aprel işğalından sonra, 1920 ilin iyununda Qaplanov Bakıda həbs olunaraq, əvvəlcə Vladiqafqaza, sonra isə Moskvaya göndərilmişdi. Moskvadakı Şərq Xalqlan Universitetində "Osmanlı imperiyası tarixi"ndən dərs demiş, eyni zamanda, vəkil kimi özəl fəaliyyət göstərmişdir. Repressiyaya məruz qalmışdır.

*Əd.:* Əliyev M., Rəşidxan Qaplanov, "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti - 1918-1920" kitabında, B., 1990; Məmmədzadə N., Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi kursunun formalaşdırılmasında siyasi partiyaların rolu, "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri" beynəlxalq elmi sessiyasının materialları, 28 aprel, 2003.

**QARAAĞAZADƏ** Əhməd Həmdi bəy (? - ?)- Azərbaycan istiqlal hərəkatının iştirakçısı. *Azərbaycan Milli Şurasının* üzvü. Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, Cümhuriyyət Parlamentinin tərkibinə daxil olunmuşdu. "Müsavat" və bitərəflər fraksiyasının üzvü idi.

**QARABAĞ**- Azərbaycanın qədim tarixi bölgələrindən biri. Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Bəzi məlumatlara görə, "Qarabağ" anlayışı 7 əsrdən işlənmiş, 12 əsrdən daha geniş yayılmışdır. "Qarabağ" "qara" və "bağ" türk-Azərbaycan

*Azıx adamının (Azıxantrop) alt çənə sümüyünün bir hissəsi*



downloaded from KitabYurdu.az



*Xocalı–Gədəbəy mədəniyyəti tapıntıları. Son Tunc – ilk Dəmir dövrləri*

sözlərinin birləşməsindən əmələ gəlmişdir ("qara" sözü türk dillərində, o cümlədən Azərbaycan dilində, rəng bil-dirməklə yanaşı, "böyük", "qalın", "sıx" mənasında da işlənir). Tədqiqatçılar "Qarabağ"ın "böyük bağ", "səfalı bağ" mənasında işlədildiyini də bildirirlər. Bəzi mənbələrdə Qarabağın dağlıq hissəsi "Arsax" adlandırılır. Etimoloji araşdırmalar göstərir ki, "Arsax" sözü də Qarabağın qədim türk etnoslarından biri olan saklarla bağlıdır. "Arsax" "ər" və "sak" sözlərinin birləşməsi ("sak əri") kimi də izah olunur.

Qarabağ təkcə Azərbaycanın deyil, eləcə də bütün dünyanın ən qədim tarixə malik diyarlarındandır. Azıx mağarasında (Fizuli rayonu) tapılan insan məskəni və ən qədim insanın qalıqları ("Azıxantrop" və ya "Azıx adamı") bu bölgənin Aralıq dənizi və Şərqi Afrika ilə birlikdə müasir insanların meydana gəldiyi məkanlardan olduğunu söyləməyə əsas verir. Azıxın alt çöküntülərindən aşkar edilmiş əmək alətləri Quruçay mədəniyyəti adlandırılmışdır. 1968 ildə Azıx mağarasından azıxantrop adlandırılan ibtidai insanın (350-400 min il əvvəl yaşamışdır) alt çənə sümüyünün bir hissəsi tapılmışdır. Daş dövrünün sonrakı tarixi mərhələlərində, həmçinin Eneolit (e.ə. 6-4-cü minilliklər), Tunc və ilk Dəmir (e.ə. 4-cü minilliyin ortaları - 1-ci minilliyin əvvəlləri) dövrlərində Qarabağın həyatında ciddi dəyişiklik baş vermişdir. Son Tunc və ilk Dəmir dövrü (e.ə. 12-7-ci əsrlər) Xocalı-Gədəbəy mədəniyyəti adını almışdır. Bu dövrə aid Xocalı qəbiristanlığı arxeoloji abidəsindən üstündə Aşşur çarı Adadnerariyə aid mixi yazı olan əqiq muncuq tapılmışdır. Qarabağ bütün tarixi dövrlərdə Azərbaycan dövlətinin tərkibində olmuşdur. Antik və erkən orta əsrlərdə Qarabağ Azərbaycan Albaniya dövlətinin (e.ə. 4 - eramızın 7 əsri) mühüm vilayətlərindən biri idi. Albaniya dövlətində xristianlıq rəsmi din kimi qəbul edildikdən sonra, bu din Qarabağda, xüsusilə onun dağlıq ərazilərində də yayılmışdı. Ərəb istilaları (7-9 əsrlər), xüsusilə Albaniya dövlətinin aradan qaldırılması (705) Qarabağın həyatına da ciddi təsir göstərdi. Ərəb istilalarınadək Qarabağın tarixi ərazisində əhali etnik baxımdan eyni kökdən olduğu halda, işğaldan sonra vəziyyət dəyişdi. Xilafətin Azərbaycan üçün faciəli siyasəti nəticəsində xristianlığın yayıldığı dağlıq hissədə Alban kilsəsinin mövqeyi zəiflədi. Bundan istifadə edən erməni qriqorian kilsəsi dini üstünlüyü ələ aldı. Beləliklə, Qarabağın dağlıq hissəsində xristian albanlar arasında qriqorianlığın yayılması üçün əlverişli şərait yarandı və bununla da, Qarabağın dağlıq hissəsində əhalinin qriqorianlaşdırılması, daha sonra isə erməniləşdirilməsi prosesi başlandı. Ərəb xilafətinin dağılmasından sonra Qarabağ Azərbaycan Şəddadilər dövlətinin (975-1075), Böyük Səlcuq imperatorluğunun (11 əsrin ortaları- 12 əsrin əvvəlləri), Azərbaycan Atabəyləri dövlətinin (1136-1225) hakimiyyəti altında oldu. 12 əsrin sonu-13 əsrin əvvəllərində Qarabağın dağhq hissəsində alban Xaçın knyazlığı yarandı. Sonralar onun ərazisində, Xaçının özü də daxil olmaqla, Qarabağ-alban məlikləri [Xaçın, Vərəndə, Dizaq, Gülüstan

downloaded from KitabYurdu.az



Araz çayı üzərində 15 və 11 aşırımlı Xudafərin körpüləri. Cəbrayıl rayonu (Azərbaycan)

Yaranmışdır. Qarabağ 13-14 əsrlərdə bütünlüklə Monqol imperiyasının 14 əsrin sonu-15 əsrdə Teymurilər dövlətinin tərkibində idi. Şirvan hökmdarı I İbrahim [1382-1417] Qarabağın düzənlik hissəsini öz torpaqlarına birləşdirə bilmişdi. Qarabağ 15-18 əsrin əvvəllərində Azərbaycan Qaraqoyunlu (1410-68), Ağqoyunlu (1468-1501), Səfəvilər (1501-1736) dövlətlərinin tərkib hissəsi idi.

Səfəvilər Qarabağ torpaqlarının bütöv halda Qarabağ və ya Gəncə bəylərbəyiliyində birləşdirmişdilər. Səfəvi-Osmanlı müharibələri dövründə (1514-55, 1578-90 və s.) Qarabağ əldən-ələ keçmişdi. 1590 il müqaviləsindən sonra Osmanlı dövlətinin tərkibinə qatılan Qarabağ torpaqlarında siyahıyaalma nəticəsində müfəssəl dəftər tərtib edilmişdi (1593). Həmin məlumata görə, Gəncə-Qarabağ əyaləti 5 sancağa, 36 nahiyəyə bölünürdü. Dini mənsubiyyətinə görə əhalinin 61%-i müsəlman, qalanı isə qeyri-müsəlman idi. Qeyri-müsəlman əhali xristianlaşmış (və qriqorianlaşmaqda olan) albanlar idi.

Səfəvi dövlətinin zəifləməsi 18 əsrin 1-ci rübündə Azərbaycan torpaqlarının İran, Rusiya və Osmanlı dövlətləri arasında bölüşdürülməsi ilə nəticələndikdə, Qarabağ Osmanlı dövlətinin tərkibində qalmışdı. Bu dövrə aid siya-hıyaalmanın nəticələri, daha doğrusu, Osmanlı dəftərləri də azərbaycanlıların bölgənin əsas əhalisi olduğunu sübut edir. Hesablamalara görə, 1727 ildə Gəncə-Qarabağ əyalətindəki 122 min nəfərədək əhalinin 80,3 min nəfəri (66%) azər-baycanlılar, 37,8 min nəfəri (31%) qriqorianlaşmış və erməniləşmiş albanlar, 3,7 min nəfəri (3%) kürdlər olmuşdur. Azərbaycan torpaqlarının bölüşdürülməsində fəal iştirak edərək, Xəzəryanı torpaqlan ələ keçirən Rusiya çarı I Pyotr [1682/89-1725] bu torpaqlarda möhkəmlənmək və özünün işğalçılıq planlarını genişləndirmək üçün ermənilərdən isti-fadə edilməsinə böyük önəm verirdi. Bu məqsədlə o, 1724 il noyabrın 10-da erməni xalqına fərman imzalamışdı. Fər-manda ermənilərin işğal olunan Azərbaycan torpaqlarına köçürülməsi, onlara mehribanlıq göstərilməsi, boşalmış ev-lərin, münbit torpaqların onlara verilməsi, mühafizələrinin təşkil edilməsi, bütün bunları həyata keçinnək üçün müsəl-manların doğma yerlərindən deportasiyası nəzərdə tutulurdu. Sonuncu Səfəvi hökmdarı III Abbası [1732-36] yıxaraq, hakimiyyətə gələn Nadir şahın [1736-47] onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyiliyinə qarşı cəza tədbirləri də Qarabağm alban məlikliklərinin mövqeyini gücləndirdi və onların separatiz-minə təkan verdi. Nadirin ölümündən (1747) sonra Azərbaycan ərazisində xanlıqlar yarandı. Keçmiş Gəncə-Qarabağ əyalətində iki xanlıq - Gəncə və Qarabağ xanlıqları meydana gəldi. Qarabağ xanlığı Azərbaycanın dövlətçilik tarixində mühüm yer mtmuşdur. Xanlığın banisi Pənahəli xan [1747-63] onun siyasi, sosial-iqtisadi və mədəni inkişafı sahəsində ciddi tədbirlər həyata keçirdi. Xanlığın siyasi mərkəzi kimi, Şuşa şəhərinin əhəmiyyəti artdı. Qarabağ-alban məlikliklərinin separatçıhq fəaliyyətinə qarşı qətiyyətli mübarizə aparıldı. Xanlığı daha da inkişaf etdirmək və Azərbaycan torpaqlarını birləşdirmək sahəsində Pənah xamn fəaliyyətini oğlu İbrahimxəlil xan [1763-1806] davam etdirdi. Məlikliklər və onlara köməklik göstərən Rusiya imperiyasının xanlığa qarşı təşkil etdiyi "səlib yürüşü" boşa çıxdı. 18 əsrin sonunda Ağa Məhəmməd şah Qacar [1795-97] tərəfındən Qarabağ xanlığına qarşı təhlükə artdı. 1795 ildə həyata keçirilən yürüş zamanı Şuşa şəhəri 33 günlük mühasirəyə tab gətirsə də, 1797 il hücumunda Qacar Şuşanı ələ keçirə bildi, lakin burada sui-qəsd nəticəsində öldürüldü. 18 əsrin sonu - 19 əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazda işğalçılıq fəaliyyəti yenidən genişləndi. 1801 ildə Gürcüstan imperiyaya qatıldı, 1803 ildə Car-Balakən, 1804 ildə Gəncə xanlığı işğal olundu. Belə bir tarixi şəraitdə Qarabağ xanlığı Rusiya imperiyası ilə Kürəkçay müqaviləsini imzaladı (1805, 14 may). Xanlıq, əslində, Rusiyaya ilhaq edildi. Qarabağda işğal rejiminin qurulmasına başlandı. 1806 ildə İbrahim xan ailə üzvləri ilə birlikdə vəhşicəsinə qətlə yetirildi. Belə bir şəraitdə xanlığa keçən Mehdiqulu xamn [1806-22] hakimiyyəti möhkəm deyildi. Çar Rusiyası yerli və üstün mövqeyə malik olan müsəlman hakim təbəqənin iqtisadi mövqelərini məqsədyönlü şəkildə zəifltməyə, eksinə, mövqeyi zəif olan erməniləşmiş albanların rolunu artırmağa çalışırdı. Bu məqsədlə Qarabağ xanhğı ləğv edilərək (1822) adi əyalətə

downloaded from KitabYurdu.az




**Qarabağın Alban abidələri**

1. Qandzasar məbədi (X ə z n ə d a ğ  m ə b ə d i) kompleksi. 1238. Ağdərə rayonu, Vəngli kəndi; 2. Xotavəng məbədi kompleksi. XIII əsr. Kəlbəcər rayonu, Vəng kəndi; 3. Ağoğlan məbədi kompleksi. IX əsr. Laçın rayonu; 4. Amaras məbədi kompleksi. IV əsr. Xocavənd rayonu, Sos kəndi.

downloaded from KitabYurdu.az











**Qarabağın tarixi-memarlıq abidələri**

1. Qız qalası. Orta əsrlər. Cəbrayıl rayonu; 2. Qara Böyükxanım qalasının bürcü. XVIII əsr, Şuşa şəhəri; 3.Qarğabazar karvansarası. 1684. Füzuli rayonu; 4. Şuşa qalasının divarları.1750; 5. Şuşa şəhərində Molla Pənah Vaqifin məqbərəsi.1982. *Memar Ə. V. Salamzadə, heykəltəraş A. Mustafayev.*

downloaded from KitabYurdu.az







Qarabağ xalçaçılıq məktəbinin xovlu və xovsuz xalçaları. XIV–XX əsrlər.Azərbaycan Tarixi Muzeyi

downloaded from KitabYurdu.az




Erməni vandallarının gülləbaran etdiyi abidələr: 1. Görkəmli Azərbaycan şairi Natəvan; 2. Dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəyli; 3. Məhşur Azərbaycan müğənnisi Bülbül.

downloaded from KitabYurdu.az


Daş heykəl. Ağdam rayonu, Boyəhmədli kəndi

çevrildi. Qarabağda komendant idarə üsulu yaradıldı. Qarabağ əyaləti hərbi-müsəlman dairəsinin (mərkəzi Şuşa) tərkibinə daxil edildi. Bu dövrdə əslən erməni olan general-leytenant V.Q.Mədətov Qarabağda, sözün əsl mənasında, erməni-Rusiya müstəmləkə sistemi yaratmışdı. Çar Rusiyasının 1840 il 10 aprel tarixli idarə-inzibati islahatı nəticəsində Qarabağ əyaləti *Şuşa qəzasına* çevrildi və Kaspi vilayətinə (mərkəzi Şamaxı) tabe edildi. Bununla da, Qarabağ anlayışı siyasi mənasını itirərək, yalnız coğrafı məfhum kimi qaldı. 1846 ildə həyata keçirilən yeni inzibati-ərazi bölgüsü zamam Şuşa qəzası yeni yaradılmış Şamaxı (1859 il-dən Bakı) quberniyasına tabe edildi. 1867 ildə Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda, Şuşa qəzası bu dəfə onun tərkibinə verildi. Şuşa qəzasının ərazisində *Zəngəzur, Cavanşir* və *Cəbrayıl* qəzaları təşkil edildi. Bununla, Şuşa qəzası da vahid inzibati-siyasi idarəsini itırdi.

Çarizmin Şimali Azərbaycan torpaqlarını işğal etməsi, bütövlükdə onun, o cümlədən Qarabağın erməniləşdirilməsilə yanaşı gedirdi. *Türkmənçay müqaviləsindən (*sonra bu hal daha müntəzəm xarakter aldı. Ermənilərin köçürülməsi müqavilənin 15-ci maddəsində təsbit olundu. Ədirnə müqaviləsi (1829) ilə Osmanlı imperiyası: da ermənilərin yeni işğal olunmuş ərazilərə, o cün Qarabağa köçürülməsi həyata keçirilməyə başladı. Bu da, Qarabağ əhalisinin etnik tərkibinin ermənilərin dəyişdirilməsi üçün daha bir addım atıldı. Qafqazda qoşunlarının baş komandanı P.Yermolovun göstərişi ilə Qarabağ xanlığının ləğv edilməsilə əlaqədar tərtib Qarabağ əyalətinin təsvirinə (1823) görə, qeydiyyata 20095 ailədən 15729-u (78,3%) azərbaycanlı ( şəhərdə, 14618-i kənddə), 4366-sı (21,7%) erməni şəhərdə, 3945-i kənddə) idi. Ermənilərin kütləvi Qarabağa köçürülməsi nəticəsində burada yeni kəndləri (Marağalı, Canyataq və s.) meydana gəlmiş mənilər sonralar Azərbaycana qarşı

At heykəli. Qəbirüstü abidə. 18 əsr. Ağdam rayonu


ərazi iddiaları qqaldırdıq zaman bu köçürülmələr "şərəfmə" qoyduqla dələri dağıdaraq, tarixi unutdurmağa çahşmışlar!). məlumatlara əsasən, 1828-30 illər arasında Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, imperiyasmdan 90 min erməni köçürülmüşdü. Qeyri erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü. Ermənilərin köçürülməsi sonralar da davam etdirilməsi 1911 ilə aid rəsmi məlumata görə, Cənubi Qafqazda olan 1,3 milyon erməninin 1 milyondan çoxu köçürülənlər idi. Artıq 1916 ildə Qarabağda (xanlıq sərhədləri daxılında əhalinin təxminən 51%-i azərbaycanlı, 46%-i isə idi. Köçkün ermənilərin əksəriyyəti Qarabağın dağlıq hissəsində məskunlaşırdı. Çarizmin ermənipərəst siyasəti nəticəsində ermənilərin inzibati idarəçilikdə möhkəmlənməsi, köçürülmə prosesində saylarının mexaniki artırılması onların iqtisadi potensialının möhkəmləndirilməsilə müşayiət olunurdu. Ermənilər çarizmin hərtərəfli dəstəyi və yaratdığı əlverişli şərait sayəsində Qafqazın iqtisadi həyatında da möhkəmlənə bildilər. Beləliklə,

downloaded from KitabYurdu.az



Gövhərağa məscidinin portalı. Şuşa. 18 əsr

sosal iqtisadi, hərbi-siyasi və mədəni həyatın bütün sahələrində yer alan ermənilər Rusiyaya arxalanaraq, sərsəm "Böyük Ermənistan" xülyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Bu bədnam siyasətin əsas tərkib hissələrindən biri də Qarabağ, İrəvan, Naxçıvan və digər Azərbaycan torpaqlarının yerli türk-müsəlman əhalisini məhv etmək və bu torpaqları ələ keçirmək idi. Ermənilərin 1890-cı illərdən Osmanlı dövlətində mərkəzi hakimiyyətə qarşı xəyanətkar çıxışları uğursuzluğa düçar olduqdan sonra bu mübarizənin mərkəzinin Şimali Azərbaycana keçməsi Qarabağda vəziyyəti daha da kəskinləşdirdi. Ermənilər 1905 ildə yerli azərbaycanlılara qarşı tarixə "erməni-müsəlman davası" adı ilə daxil olan dəhşətli soyqırımı törətdilər. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasəti Qarabağda daha faciəli şəkil aldı. 1905-06 illərdə türk-müsəlman əhaliyə qarşı soyqırımı ilə kifayətlənməyən ermənilər Birinci dünya müharib\si (1914-18) dövründə yaranan şəraitdən yenidən istifadə etməyə cəhd göstərərək, 1918 ildə Bakıda və Azərbaycamn digər bölgələrində daha dəhşətli soyqırımı törətdilər. 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Qarabağın da tarixində mühüm hadisə oldu. Xalq Cümhuriyyəti Qarabağın bütün tarixi ərazisini respublikanın aynlmaz tərkib hissəsi sayır və burada siyasi hakimiyyətinin bərqərar edilməsinə çalışırdı. Tiflisdə elan edilmiş Ermənistan Respublikası da Qarabağa əsassız iddia irəli sürürdü. Azərbaycan Hökuməti bu iddianı qətiyyətlə rədd etdi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov 1918 il noyabrın 18-də İstanbulda Osmanh dövlətinin xarici işlər naziri ilə söhbətində bildirmişdi: ***"Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5, ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu, elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanla-rın sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyillər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir... Nəhayət, Qarabağ özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə, biz məslənin sülh yolu ilə həllinin tərəfdarıyıq".*** Azərbaycan Xalq Cümhuriyyətinin sülhsevər siyasətinə baxmayaraq, ermənilərlərin Qarabağda hakimiyyətə nail olmaq üçün əvvəllər başladıqları soyqırımı siyasətini davam etdirirdilər. Cümhuriyyət Hökuməti yaranmış vəziyyəti nəzərə alaraq, 1919 il yanvarın 13-də "Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general-qubernator təyin edilməsi haqqında" qərar qəbul etdi (bax *Qarabağ general- qubernatorluğu).* Bu vəzifəyə Xosrov Paşa bəy *Sultanov* təyin edildi. X.Sultanov 1919 ilin fevralında Şuşaya gələrək, vezifəsinin icrasına başladı. Er-mənistan Respublikasının etirazına, ingilis və amerikanlarla gərgin münasibətlərə baxmayaraq, Qarabağda qarşıya qoyulan vəzifələrin həlli sahəsində mühüm işlər görüldü. Ermənilər isə Qarabağda etnik təmizləmə siyasətini davam etdirməyə cəhd göstərir, Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında Azərbaycanlılara qarşı aramsız olaraq qırğınlar törədirdilər. Ermənilərin bolşevik Rusiyasının sifarişi ilə Qarabağda apardığı separatçı və işğalçı müharibə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi qüvvəsini daim həmin regiona cəlb edirdi ki, bu da dövlətin şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vururdu. 1920 il aprelin 28-də

Cümə məscidinin ümumi görünüşü. Ağdam. 19 əsr



downloaded from KitabYurdu.az



*Qarabağ bu gün. Erməni vandallarının törətdiyi dağıntılar*

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra, mayın birinci yarısında Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında sovet hakimiyyəti quruldu. 1920 il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra, bolşevik Rusiyasının bilavasitə köməyi və iştirakı ilə Zəngəzurun böyük bir hissəsi ermənilərə verildi, nəticədə, Naxçıvanla Azərbaycanın digər torpaqları bir-birindən ayrı salındı. 1923 il iyulun 7-də Qarabağın dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması ilə gələcək erməni separatçılığının əsası qoyuldu. Bununla yanaşı, Ermənistan SSR hökuməti də Dağlıq Qarabağa olan iddialarını davam etdirdi. 1920-30-cu illərdə istədiklərinə nail ola bilməyən ermənilər 1941-45 illər müharibəsindən sonra yenidən fəallaşdılar. Ermənistan K(b)P MK katibi Q.Arutyunov 1945 ilin noyabrında İ.Stalinə müraciət edərək, Azərbaycan SSR-in DQMV-nin Qarabağ vilayəti kimi Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələ qaldırdı. Həmin müraciətin mətai ÜİK(b)P MK katibi G.M.Malenkov tərəfindən təklif üçün Azərbaycan K(b)P MK katibi M.C.Bağırova göndərilmişdi. Bağırovun 1945 il 10 dekabr tarixli cavab məktubunda təkzibolunmaz faktlar əsasındasübut edilirdi ki, ***"Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir".*** Bu və digər inkaredilməz faktlardan sonra Ermənistan SSR-in iddiası baş tutmamışdı. Lakin Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyən Ermənistan 1980-ci illərin sonlarında, yaranmış əlverişli şəraitdən istifadə edərək yenidən Azərbaycana qarşı müharibəyə başladı.

Ermənistan Rusiya hərbi qüvvələrinin köməyilə 1992 ilin fevralında Xocalıda azərbaycanlılara qarşı soyqırımı törətdi, daha sonra Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu (respublika ərazisinin 20%-i) işğal etdi, bir milyona yaxın azərbaycanlını dədə-baba yurdundan didərgin saldı. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistanın işğal etdiyi torpaqları azad etməsinə dair 4 qətnamə (822, 853, 874, 884 № -li) qəbul etsə də, Ermənis-tan onları yerinə yetirməkdən boyun qaçırdı. Azərbaycan Respublikası işğal olunmuş torpaqlarının azad edilməsi, dövlətin ərazi bütövlüyünün bərpa olunması, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və ədalətli həll edilməsi üçün dönmədən fəal siyasət yeridir.

*Əd.:* Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, B., 2000; Qarabağnamələr. I-II kitablar, B., 1989; 1991; Qeybullayev

downloaded from KitabYurdu.az



*Ata-baba yurdundan didərgin salınmış qarabağlılar*

Q.,Qarabağ (etnik və siyasi tarixinə dair), B., 1990; Şükürov K., Ermənilərin Azərbaycanda və Osmanlı imperiyasmdakı türk genosidi tarixinin öyrənilməsi: ınetodoloji problemlər. Azərbaycan tarixinin çağdaş problemləri, B., 2000; Yüzbaşov R., Dağlıq Qarabağ Muxtar Vilayətinin toponimikası, Azərbaycan SSR EA xəbərləri (Yer haqqında elmlər seriyası), 1969, № 2; Azərbaycan bölgələrində erməni sorunu (1918-1920), Ankara, 2001; Köçərli T ., Qarabağ (Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə), B., 2002; Азербаиджанская Демократическая Республика (1918-1920) Законодательные акты (сборник документов), Б., 1998; История Азербаиджана по документам и публикациям, Б., 1990; К истории образования Нагорно-Карабахской автономной области Азерб., ССР. 1918-1925. Документы и материалы, Б., 1989; Нагорный Карабах: разум победит, Б., 1989; Описание Карабахской провинции, составленное в 1823 г., Тифлис, 1866; Описание переселения армян азербаиджанских в пределы России. М., 1831; Алиев И. Г., З., Нагорный Карабах: неизвестная правда ,Б., 1995; Карабач. Очерки истории и культуры, Б., 2004,2004.

**QARABAĞ ƏMƏLİYYATI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağda Azərbaycanın dövlət suverenliyini bərpa etmək məqsədilə 1920 il mart və aprel aylarında həyata keçirilmişdir. Qarabağ əməliyyatı Cümhuriyyət ordusunun müstəqil şəkildə həyata keçirdiyi ən irimiqyaslı hərbi əməliyyat olmuşdur. Əməliyyat nəticəsində qarşıya qoyulan bütün döyüş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirilmiş, Qarabağda Azərbaycanın suverenliyi tam bərpa edilmişdi.

1920 il martın əvvəllərində ermənilərin Zəngəzurda 3 minədək silahlı dəstə toplayaraq, Qarabağ üzərinə hücuma hazırlaşdıqları məlum olmuşdıı. Erməni silahlarına peşəkar zabitlər rəhbərlik edirdi. Dəstənin sərəncamında 2 ədəd top və pulemyot vardı. Bir ədəd top da Xanazakda var idi. 7-10 gündən sonra erməni silahlı dəstələrinin Mamzak istiqamətindən hücumu başlandı. Məqsəd Qarabağdakı silahh dəstələrlə birləşmək və buradakı Azərbaycan hakimiyyət orqanlarını devirmək idi. Hücum başlanan kimi bütün Qarabağ erməniləri də ayağa qalxaraq, Azərbaycan Hökuməti əleyhinə qiyama qoşulmalı idilər. Plana görə Zəngəzurda hücum başlanan kimi Gəncə qəzasının silahlı erməni dəstələri Əsgəran üzərinə yürüş edib, oranı tutmalı idilər. Martın əvvəlində Gəncə ətrafındakı erməni kəndlərindən Qarabağ ərazisinə 1000 nəfərlik silahlı dəstə göndərilmişdi. Çaykənddə isə

downloaded from KitabYurdu.az

2500-3000-ə qədər erməni silahlısı toplaşmışdı. Onlarm çoxu rus ordusunda hərbi xidmət keçmiş ermənilər idi.

Erməni silahlı dəstələrinin təcavüz əməliyyatı Novruz bayramı günləri başlandı. Martın 19-da erməni silahlıları hücum edərək, 2 azərbaycanlı əsgərini qətlə yetirdilər. Martın 20-də 25 nəfər erməni silahlısı yerli hökumət orqanlarında işləyən 2 erməni məmurumm vasitəsilə gizlincə Şuşaya gətirildi. Martın 22-də Şuşada onların sayı 200 nəfərə çatdırıldı.

Martın 22-də gecə saat 3-də separatçı erməni qüvvələrinin Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə eyni vaxtda hücumu başlandı. Azərbaycan ordusunun Əsgərandakı 50 nəfərlik kiçik dəstəsi erməni silahlılarına qəhrəmancasma müqavimət göstərsələr də, qüvvələr nisbəti bərabər olmadığından ermənilər Əsgəran postunu ələ keçirib, onlarm hamısını qırdılar. Digər məntəqələrdə isə erməni silahlı dəstələri uğur qazana bilmədilər. Erməni silahh qüvvələrinin martın 24-də səhər saat 6-da Tərtər üzərinə başlanan hücumu da dəf edildi.

Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü üçün çox ciddi təhlükə yarandığından milli ordunun bütün potensialı səfərbərliyə alındı və onun əsas gücü Qarabağa istiqamətləndirildi.

Bölgədəki hərbi hissələrin möhkəmləndirilməsi üçün şimal sərhədlərindəki qüvvələrin bir hissəsinin də Qarabağa göndərilməsi qərara alındı. Hələ martın 19-da hərbi nazir 1-ci Tatar süvari alayının tam tərkibdə, habelə Quba piyada alayının bir taborunun Qarabağa yola salınması barədə göstəriş vermişdi. Martın 24-də Gəncə piyada alayının 2 ədəd topa malik olan bir taboru da bölgəyə yola salındı. Bu dəstəyə podpolkovnik Qasımbəyov komandirlik edirdi. Həmin dəstənin tərkibində 18 zabit, 633 əsgər, 1 həkim, 97 baş at var idi. Döyüş əməliyyatlarına rəhbərlik üçün Azərbaycan ordusunun qərargah rəisi general-mayor H.Səlimovun rəhbərliyi ilə xüsusi bir qərargah da yaradıldı. Hemin qərargah martın 26-da Ağdamda yerləşdirildi.


*Azərbaycan ordusunun topçu əsgəri*

Təcavüzün başlanmasının elə ilk günlərində hərbi nazir S.Mehmandarov ölkənin qərb bölgəsinə gəldi və həm onun möhkəmləndirilməsi, həm də qüvvələrin Qarabağa səfərbər edilməsi ilə məşğul olmağa başladı.

Martın 24-25-də erməni qüvvələri yenidən Tərtər üzərinə hücuma keçdi. Lakin bu hücum da uğursuz oldu. Əvəzində, Azərbaycan qoşun hissələri və partizanların əks-hücuma keçərək, əvvəlcə Marağalı kəndini ermənilərdən azad etdilər, sonra isə Marquşevan kəndində Yüzbaşovun malikanəsini tutdular. Martın 26-da Tərtər ətrafında Azərbaycanının qoşun bölmələrinin və partizanların uğurlu hücumları davam etdirildi. Gündüz saat 12-də Çaylı və Bruc erməni kəndləri ələ keçirildi.

Qarabağdakı hərbi qüvvələrin daha da möhkəmləndirilməsi üçün 8-ci Ağdaş piyada alayı və Zaqatala piyada alayının 700 nəfərlik Nuxa taboru da Qarabağa hərəkət etmək əmri aldı. Martın 29-da Azərbaycanın qoşun hissələrinin Əsgəran istiqamətində əsas hücumu başlandı. Döyüşə partizan dəstələri də cəlb edilmişdi. Onlar 3360 nömrəli hündürlük istiqamətində hərəkət etməli idilər. Parlament mühafizə dəstəsi Xramort kəndi, Bakı piyada alayının bölmələri isə Daşbaşı kəndi istiqamətində irəliləməli idi. Bakı alayı bölmələrinin sağ cinahının mühafizəsi üçün süvari partizan dəstəsi və Tərtər süvari alayı bölüyünün yarısı ora göndərilmişdi.

Bu döyüş milli qoşun hissələrinin uğuru ilə başlasa da, həmin uğuru davam etdirmək və qarşıya qoyulan məqsədə nail olmaq mümkün olmadı. Döyüş təcrübəsizliyi, bölmələr arasında qarşılıqlı əlaqələrin düzgün tənzimlənməməsi hücumun nəticələrinə öz təsirini göstərdi və qüvvələr əvvəlki mövqelərinə çəkilməyə məcbur oldular.

Aprelin 2-də Zaqatala piyada alayı, Şirvan alayının və Tərtər süvari alayının hissə və bölmələrinin bölgəyə gəlib çatması ilə Əsgəran üzərinə yeni hücum hazırlığına başlandı. Əlavə nizami qüvvələrlə möhkəmləndirilən Ağdam dəstəsi aprelin 3-də yenidən Əsgəran istiqamətində hücuma keçdi. Erməni silahlı qüvvələri bütün imkanlarını səfərbərliyə ahb, əvvəlki hücumda olduğu kimi Ağdam dəstəsinin qarşısını kəsməyə çalışsalar da, böyük tələfat verib, əvvəlcə Əsgəranın, sonra da Xocalını tərk etməyə məcbur oldular. Bölgədə

downloaded from KitabYurdu.az

Strateji əhəmiyyəti malik olan bu iki məntəqə Ağdam dəstəsi tərəfindən azad edildi. Uğurlu hücumu davam etdirən Ağdam dəstəsi gün ərzində Ağdam-Əsgəran yolunun kənarında yerləşən Kətik, Aranzəmin və Naxçıvanik kimi möhkəmləndirilmiş məntəqələri də erməni qüvvələrindən azad etdilər və Mahbəyli kəndinə yaxınlaşdılar.

Əsgəran ətrafında uğursuzluğa düçar olan düşmən qüvvələri geri çəkilərək, Malıbəyli-Daşkənd və Şuşikənd məntəqələri arasında toplaşdı. Ətraf kəndlərdəki erməni silahh dəstələri də bura axışaraq, güclü zərbə qüvvəsi yaratdılar. Bu düşmən dəstəsinin sərəncamında 3 ədəd dağ topu və 2 ədəd pulemyot var idi. Aprelin 5-də Ağdam dəstəsi Şuşikənd istiqamətindəki erməni mövqeləri üzərinə hücuma keçdi. Səhər saat 10-da başlanan hücum üç istiqamətdə aparıldı. Cəbhənin mərkəzində 4-cü Quba piyada alayının bölmələri döyüşürdülər. Sağ cinahda Malıbəyli kəndini ötüb keçərek, Şuşikəndin şərqindəki yüksəkliklərə doğru Tatar süvari alayının bölmələri irəliləyirdi. Sol cinahdan - Şuşikənd qəbiristanlığı istiqamətindən isə kəsə yolla Bakı piyada alayının bir taboru hücum edirdi. Saat 20-də döyüşü uğurla başa vuran 1 və bölmələr Şuşaya daxil oldular.

Aprelin 9-dan 12-dək Şuşa yaxınlığındakı Keşişkənd ətrafında da gergin döyüşlər davam etdi. Bu döyüşlər nəticəsində Qarabağdakı erməni qüvvələrinin ən güclən möhkəm bazası məhv edildi.

Bununla, 1920 il martın 22-dən başlanmış Qan əməliyyatı Azərbaycan ordusunun hissə və bölmələrinin tam qələbəsi ilə başa çatdı. Qarabağda Azərbaycanın dövlət suverenliyi bərpa olundu. Cümhuriyyət ordusu öz tarixinə şanlı bir səhifə yazdı.

*Əd.:* Азербаиджанская Демократическая Республика (1918-1920). Армия, Б., 1998; Azərbaycan Cümhuriyyəti, B., 1998; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**QARABAĞ GENERAL-QUBERNATORLUĞU** Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı yeni ərazi iddiaları nəticəsində məcburiyyət qarşısında Qarabağda yaradılmış müvəqqəti inzibati idarəçilik rejimi. Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Cənubi Qafqazda sülh və əmin-amanlıq yaratmaq məqsədilə Azərbaycan hökuməti 1918 il mayın **29-da *İrəvanı ermənilərə güzəştə getdi.*** Bununla, Azərbayı ciddi ərazi itkisinə yol verdi. Lakin ermənilər Azərbaycana qarşı ərazi iddialarını davam etdirdilər. Qarabağın dağlıq hissəsində yaşayan ermənilər iyulun 22-də onun "müstəqilliyini" elan etməyə cəhd göstərdilər. Azərbaycan xalqının qatı düşməni Andronik qiyamçı ermənilərə kömək məqsədilə silahsız azərbaycanlıların kütləvi surətdə qıra-qıra Zəngəzurdan Şuşa qəzasına keçdi. Gəncədə yerləşən Cümhuriyyət Hökuməti Bakını ələ keçirmiş S.Şaumyanın daşnak-bolşevik rejiminin hərbi qüvvələrinə qarşı mübarizə apardığından, erməni separatçılarının törətdiyi problemi danışıqlar yolu ilə nizama salmağa çalışırdı. Bu məqsədlə Şuşaya nümayəndə heyəti göndərilmişdi. Avqustun 15-də isə Andronikin törətdiyi soyqırımlar ilə əlaqədar Ermənistan hökumətinə etiraz notası verilmişdi. Erməni hökuməti iki gün sonra verdiyi cavabında Andronikin guya Xüsusi erməni korpusuna "tabe olmadığını" bildirərək, bu yalanla məsuliyyətdən yaxa qurtarmağa çalışmışdı. Həmin dövrdə Ermənistan hökuməti Qarabağın Azərbaycanın tərkibində olmasını təsdiq edirdi. Bunu avqustda Şuşaya nümayəndə heyəti göndərmək üçün Ermənistanın Tiflisdəki diplomatik nümayəndəliyinin oradakı (Tiflisdəki) rəsmi Azərbaycan orqanlarına müraciəti də sübut edir. Azərbaycan Xalq Cümhuriyyəti ilə müqavilə əsasında (1918, iyun) dəvət edilmiş türk hərbi hissələri oktyabrda Şuşa şəhərinə, demək olar ki, müqavimətsiz daxil olmuş, ermənilər Azərbaycan Hökumətinin hakimiyyətini qəbul etdiklərin bildirmişdilər. Andronik isə dekabrda guya "ingilislərin Qarabağı onun ixtiyarına verməsi haqqında" şayiə yaymağa başlamışdı. Azərbaycan Hökumətinin sədri Fətəli xan Xoyski dekabrın 20-də Parlamentdəki çıxışında buna qarş etirazını bildirmişdi. Eyni zamanda, dekabrın 22-də Bakıdakı ingilis qoşunlarının komandanı Tomson da bu şaiyəni

*Azərbaycan ordusunun əsgərləri*



downloaded from KitabYurdu.az

təkzib etdi. Buna baxmayaraq, erməni separatçıları və Gorusda möhkəmlənmiş Andronik azərbaycanlılara qarşı soyqırımını davam etdirirdi. Buna görə də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Daxili İşlər Nazirliyi 1919 il yanvarın əvvəllərində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları əsasında müvəqqəti general-qubernatorluq yaradılmasını təklif etdi. Hökumət bu təklifi qəbul etdi və yanvarın 13-də həmin qəzalarda müvəqqəti general-qubernatorluq vəzifəsinin təsis edilməsi haqqında qərar çıxardı. Bu vəzifəyə yanvarın 29-da Xosrov paşa bəy *Sultanov* təyin olundu. Azərbaycan Hökumətinin qəti addımlarından narahat olan Ermənistan belə bir şəraitdə Dağlıq Qarabağa açıq iddia ilə çıxış etdi. Azərbaycan Hökuməti yanvarın 31-də cavab notasında Qarabağm tarixən Azərbaycanın aynl-maz tərkib hissesi olduğunu bildirdi ve Qarabağ general qu-bernatorluğunun yaradılmasma Ermənistanın etirazını Azərbaycanın suverenliyinə qəsd və onun daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirdi. Ermenistan bununla sakitləşməyərək, təzyiqi artırmağa çalışırdı. O, fevralda Britaniyanın Tiflisdəki silahlı qüvvələrinin komandanı Uorkerə müraciət etdi. Müracietde Xosrov paşa bəy Sulta-novun Qarabağa generaLqubernator təyin edilməsinə etiraz olunur, onun səlahiyyətləri etibarsız elan edilirdi. Lakin bu müraciət cavabsız qaldı. Belə olduqda, Ermənistan xarici işlər naziri general Tomsona müraciət etdi. Qarabağda yaşayan erməni milli şurası və Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyan da müxtəlif vasitələrlə ingilis komandanlığına təsir göstərməyə çalışırdı. 1919 il martın axırlarında Tomsonun İrəvana səfəri zamanı Ermənistan hökuməti ona təzyiqi gücləndirməyə cəhd etmiş, lakin bu cəhd də nəticəsiz qalmışdı. General Tomsonun nümayəndəsi polkovnik Şatelvort Bakıdan Şuşaya gedərək, ermənilərin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə tabe olmasım tələb etmişdi. Cümhuriyyət Hökuməti isə Ermənistanın əsassız iddialarına baxmayaraq, general-qubernatorluğun fəaliyyətə başlaması üçün tədbirlərini davam etdirirdi.

Aprelin 4-də general-qubernatorun orada yerləşən hərbi hissələrə münasibətdə səlahiyyət çərçivəsini müəyyən edən qanun qəbul olundu. Azerbaycan Hökuməti görülən tədbirlərin süni surətdə yaradılmış Qarabağ probleminin həllində mühüm əhəmiyyətə malik olacağını düşünərək, daha inamlı addımlar atmağa başlamışdı. Baş nazir Nəsib bəy Yusifbəyli aprelin 14-də Parlamentdə Hökumət bəyannaməsinin müzakirəsi zamanı demişdi: ***"Qarabağ xüsusunda mübahisə yoxdur".*** Lakin belə arxayınçılığa da əsas yox idi. Ermənilər separatçılıq fəaliyyətini davam etdirirdilər. Onlar aprelin axırında keçirdikləri qurultayda Qarabağ general-qubematorunun hakimiyyətini tammaqdan imtina etmişdilər. Bu tipli qərarların qəbul olunmasında Ermənistan hökuməti və onun Dağlıq Qarabağdakı emissarlarının pozuculuq fəaliyyəti mühüm rol oynayırdı. Tomson mayın 5-də F.x.Xoyski ilə keçirilən görüşündə belə şəxslərin sürgün edilməsi haqqında sərəncam verdiyini bildirmişdi. Bütün bunlara baxmayaraq, separatçılar Qarabağda vəziyyəti kəskinləşdirməkdə davam edirdilər. Bu cür mürəkkəb şəraitdə Qarabağ general-qubernatorluğunun səmərəli fəaliyyəti regionda əmin-amanlığın qorunub saxlanmasında mühüm rol oynayırdı. General-qubernator X.Sultanov separatçılara qarşı qətiyyətlə mübarizə aparırdı. İyunun 5-də erməni milli şurasının qatı irticaçı üzvləri ingilis komandanlığı nümayəndəsinin müşayiəti ilə Şuşadan Tiflisə sürgün edildi. İyunun 6-da isə Azərbaycan batalyonu Şuşanın ermənilər yaşayan hissəsindəki kazarmalarda yerləşdirildi. Burada keçirilən mitinqdə ermənilər Cümhuriyyət Hökumətini tanıdıqlarını bildirdilər. X.Sultanov konkret tədbirlərlə yanaşı, Qarabağ probleminin əsaslı şəkildə həlli proqramının hazırlanmasına da xüsusi önəm verirdi. Onun bu barədəki baxışları Hökumətə təqdim etdiyi məlumat-məruzəsində və Bakıda müttəfiq qoşunlarının komandanı Şatelvorqla iyunun 25-də keçirilən görüşündə şərh olun-muşdu. Ermənilər general-qubernatorluğun fəaliyyət prinsiplərini qəbul edərək, müzakirələr aparmağa başlamışdılar. Baş nazir N.Yusifbəyli, Gəncə qubernatoru Xudadat bəy Rəfibəyli və hərbi nazir Səməd bəy Mehmandarovun Şuşaya səfəri və orada görülən tədbirlər də general-qubernatorluğun nüfuzunu artırmışdı. Bütün bunların nəticəsində avqustun 15-də ermənilər Azərbaycan Hökuməti ilə saziş imzaladılar və ermənilər yaşayan ərazilərin Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etdilər. Lakin Ermənistan Respublikasmm azərbaycanlılara qarşı genişlənən soyqırım siyasəti Qarabağda da vəziyyətin sabitləşməsinə mənfi təsir göstərirdi. Bununla belə, Cümhuriyyət hökuməti Qarabağı diqqət mərkəzində saxlayır, diyarın həyatının müxtəlif sahələrinə dair tədbirlərini davam etdirirdi. Sentyabrın 27-də Şuşada müəllimlər qurultayı keçirilməsi üçün vəsait ayrılması haqqında qərar qəbul edilmiş, ayın 29-da isə general-qubernatorun sərəncamı ilə yardım kimi Qarabağın erməni müəllimlərinə paylanmaq üçün bir milyon manat pul ay-rılmışdı. Ermənistan hökumətinin siyasəti isə orada yaşayan azərbaycanlıların öz dədə-baba torpağından didərgin düşərək qaçqına çevrilməsinə səbəb olmuşdu. Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzalarında da minlərlə qaçqın yerləşmişdi. Bu, general-qubernatorluğun işini daha da mürəkkəbləşdirirdi. Oktyabrın 29-da hökumət general-qubernatorluğa dair daha iki qərar qəbul etmişdi. Onlardan biri general-qubernatorluqda fəaliyyət göstərən qulluqçuların maaşının artırılmasına, digəri isə general-qubernatorluğun ehtiyacı və qəzet nəşri üçün mətbəə almaqdan ötrü vəsait ayrılmasına aid idi. 1919 il noyabrın əvvəllərində ermənilərin Zəngəzurda törətdikləri qətl-qarətlərə qarşı mübarizə məqsədilə general-qubernatorluğa kiçik qoşun hissələri göndərilmişdi. Bununla da, Zəngəzurda azərbaycanlıların müdafiəsi sahəsində müəyyən işlər görüldü. Lakin Ermənistan hökuməti separatçılara kömək göstərir, pozuculuq işlərini artırmaqda davam edirdi. Nəticədə, müttəfiq dövlətlərin Cənubi Qafqazda Ali komissarının müavini C.Reyin iştirakı ilə noyabrın 23-də Tiflisdə Azərbaycan Xalq Cüm-

downloaded from KitabYurdu.az

huriyyəti Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli və Ermənistanın baş naziri Xatisov arasında saziş imzalandı. Ermənistan hökuməti bu sazişin şərtlərini pozaraq, dekabrın 8-də Zəngəzura qoşun yeritdi. Ermənistan hökuməti Azərbaycan torpaqlarına iddiasını həyata keçirmək üçün silahlı hərbi müdaxilə ilə yanaşı, pul vəsaiti sərf edilməsinə də xüsusi fikir verirdi. 1919 ilin axırlarında Ermənistan hökuməti Dağlıq Qarabağın "azad" edilməsi üçün 19 milyon manat pul ayırmışdı. Bütün bunların nəticəsində 1920 ilin martında erməni separatçıları daha da azğınlaşdı. Martın 22-23-də Ermənistanın bilavasitə iştirakı və Moskvanın sifarişi ilə Dağlıq Qarabağda Azərbaycana qarşı xəyanətkar çıxışlar baş verdi. Azərbaycan Hökumətinin hərbi və diplomatik tədbirləri nəticəsində martın axırlarında - apreldə ermənilərin Qarabağdakı düşmənçilik fəaliyyətinin qarşısı alındı. Qarabağda hadisələrin bu yöndə inkişafında Azərbaycan Xalq Cümhuriyyətinə qarşı təcavüzkarlıq planlarını həyata keçirməyə hazırlaşan Sovet Rusiyası və bolşeviklərin ölkə daxilində apardığı pozuçuluq-təxribatçılıq işləri də mühüm rol oynadı. *Aprel işğalı (1920)* və Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Qarabağ general-qubernatorluğunun fəaliyyətinə də son qoyuldu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Köçərli T., Qarabağ, B., 2002; M u s a y e v L, Xosrov bəy Sultanov Dağlıq Qarabağ münaqişəsinin həlli haqqında, "Qarabağ dünən, bu gün və sabah" kitabında, B., 2002; Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., Азербайджанская Демократическая Республика. Внешняя политика (документы и материалы), Б., 1998.. Азербайджанская Демократическая Республика (1918-1920). Армия (документы и материалы), Б., 1998; История Азербайджана по документам и публикациям, Б., 1990.

**QARABAĞ ÜSYANI (1920)** - *Aprel işğalından (1920)* sonra Azərbaycanda sovet-bolşevik rejiminə qarşı baş vermiş qüvvətli xalq üsyanlarından biri (1920 il 29 may - 13 iyun). Rəhbəri və istiqamətverici qüvvələri Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri və hərbi qulluqçuları idi. Üsyanda partizan və qaçaq dəstələri, Qarabağ əhalisi fəal iştirak edirdi. Üsyana hazırlığın həlledici mərhələsi 1920 il mayın sonlarında başa çatdı. *Gəncə üsyanının* başlanması xəbəri alınan kimi, Cəbrayıl ətrafında milli qüvvələrin toplantısı keçirildi və burada üsyanın mayın 29-dan 30-na keçən gecə başlanması qərarlaşdırıldı.

Üsyana hazırlıq zamanı Cəbrayıl qəzasında 20-yə yaxın könüllü silahlı dəstə yaradılmışdı. Tofiq bəyin başçılıq etdiyi belə dəstələrdən biri mayın 29-da Yolçu məntəqəsində dayanan bolşevik postuna hücuma keçdi. Mayın 30-da bolşevik orqanlarının nümayəndələri həbs olundular və qəzada hakimiyyət milli qüvvələrin əlinə keçdi. 1920 il iyunun 3-dən 4-nə keçən gecə *Qafqaz İslam Ordusunun* keçmiş komandanı Nuru paşa və polkovnik Zeynalov milli qüvvələrlə birle-şərək, şəhərin sovet hakimiyyəti nümayəndələrinin hamısmı həbs etdilər. Səhəri gün Qarabağda sovet hakimiyyətinin devrildiyi elan olundu. Polkovnik Zeynalov Qarabağdakı milli hərbi qüvvələrin ümumi komandanı təyin edildi. Iyunun 5-də Xankəndi və Ağdam da sovet hərbi qüv vələrindən təmizləndi. Qırmızı qüvvələr geri çəkilərək, Bərdədə, Tərtər çayının sol sahilində mövqe tutdular. Bölgə əhalisi sovet işğalına qarşı başlanmış üsyanı böyük rel bətlə qarşıladı. Qarabağda baş verən üsyan əhatə dairəsina' görə son dərəcə geniş idi. Üsyan nəticəsində Azərbaycan ərazisinin böyük bir hissəsi sovet-bolşevik işğalçılarının nəzarəti altından çıxmışdı. Üsyan sovet hakimiyyətinin Azərbaycandakı dayaqlarına ciddi zərbə vura bilərdi. Buna görə də həm 11-ci Qırmızı ordu komandanlığı, həm də Azərbaycanın yeni hakimiyyət orqanları üsyanı yatırtmaq üçün təcili tədbirlərə əl atdılar. Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi və Azərbaycan İnqilab Komitəsi Çingiz İldırım və Dadaş Bünyadzadənin baş-çılığı ilə Qarabağa partiya fəallarından ibarət 20-25 nəfərlik bir qrup göndərdi. 11-ci Qırmızı ordunun komandanı Levandovski də bölgəyə yollandı. Qarabağ üsyanının yatırılması ilə bağlı 11 -ci Qrrmızı ordunun səhra qərargahının və Hərbi-İnqilab Şurasının birgə iclası keçirildi.

1920 il iyunun 9-da 11-ci Qırmızı ordunun komandanı üsyanın yatırılması ilə bağlı xüsusi əmr imzaladı. Əmrdə Qarabağı bolşeviklərdən təmizləmiş milli qüvvələrə qarşr irimiqyaslı hərbi əməliyyatın keçirilməsi nəzərdə tutulur-du. Qarabağ üsyançılarına əsas zərbənin 32-ci diviziya tərəfindən vurulması planlaşdırıldı. Qüvvə üstünlüyü yara-dılması üçün 20-ci atıcı diviziyanın bir briqadası, zirehli avtomobillər və müsəlman fəhlə dəstəsi 32-ci diviziya ko-mandirinin tabeliyinə verilmişdi. 18-ci süvari diviziyasıda üsyanın yatırılması üçün bölgəyə yeridilmişdi. Bundan əlavə, qrrmızı qüvvələri hərbi təyyarələr də müşayiət etməli idilər.

Üsyançı qüvvələr də işğalçılarla döyüşə ciddi hazrlaşırdılar. Qırmızı ordunun qəti hücuma başlaması ərəfəsində polkovnik Sofiyevin komandir olduğu 1-ci Tatar süvari alayı, Cavanşir piyada alayının bölmələri, top divizionu və digər bölmələr Tərtər çayının sağ sahilində müdafiə mövqeləri tutmuşdular.

1920 il iyunun 10-da Qırmızı ordu qüvvələri üsyançılara qarşı bütün cəbhə boyu hücuma keçdi. Üsyançılar say-ca onlardan qat-qat üstün olan, çoxsaylı toplardan və başqa silahlardan, zirehli avtomobillərdən, hərbi təyyarələrdən istifadə edən Qırmızı ordunun qarşısını saxlaya bilmədilər. İstiqlal yolunda ayağa qalxan Azərbaycanın milli qüvvələri öz amalları yolunda bütün qüvvələri ilə vuruşsalar da, həm sayca, həm də hərbi texnika baxımından böyük üstünlüyə malik olan bolşevik qüvvələrinin təzyiqinə davam gətirə bilmədilər. İyunun 11 -də Tərtər, Bərdə və Ağdam ərazisi 11 -ci Qırmızı ordu qüvvələrinin nəzarəti altına keçdi. İyunun 13-de Şuşa müdafiəçilərinin də müqaviməti qırıldı. Burada sovet hakimiyyəti qurulduqdan sonra 11-ci Qırmızı ordunun hissələri tezliklə Qaryagin (indiki Füzuli), Cəbrayıl, Hadrut, Qubadlı, Zəngilan və s. yerlərdə də üsyançıları geri çəkilməyə məcbur etdilər. Qmmzı bolşevik cəlladları Qarabağ üsyanının yayıldığı bütün ərazidə kütləvi qırğınlar həyata keçirdilər. Qarabağ üsyanı bolşevik rejiminə qarşı

downloaded from KitabYurdu.az

Azərbaycan xalqının istiqlal mübarizəsinin ən parlaq səhifələrindən biridir.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.6, B., 2000; Q a f f a r o v T., Azərbaycan tarixi. 1920-1991, B., 1999; S ü l e y m a n o v M., Azərbaycanın ordusu (1918-1920), B., 1998.

**QARABAĞDA AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLARI** - erməni-daşnak quldur dəstələrinin Qarabağın Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında azərbaycanlılara qarşı törətdikləri soyqırımı və talanlar. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən yaradılmış *Fövqəladə Təhqiqat Komissiyası* bu vəhşilikləri dərindən araşdırmış, bu haqda çoxlu şahid ifadələri, baxış protokolları, məruzələr, faktik məlumatlar toplamışdır.

Sovet Rusiyasının Birinci dünya müharibəsi (1914-18) cəbhələrində hərbi əməliyyatların dayandırmasından əvvəl erməni əsgərləri kütləvi surətdə fərarilik edərək, cəbhədən qaçır və özləri ilə çoxlu oğurluq tüfəng, pulemyot və digər hərbi sursatlar aparırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü N.Mixaylovun toplanmış faktlar əsasında hazırladığı məruzədə deyilirdi ki, Cavanşir qəzasının müsəlman əhalisi qonşuları ermənilərə çox sadəlövhcəsinə inanır və həmin silahların gələcəkdə onlara qarşı yönəldiləcəyini təsəvvürlərinə belə gətirmirdilər. Buna görə də onlar həmin silahların gətirilməsinin qarşısını almaq üçün heç bir tədbir görmürdülər. Rusiyada Oktyabr çevrilişindən (1917) sonra isə Yuxarı Qarabağa, o cümlədən Cavanşir qəzasının erməni kəndlərinə silah və sursat, demək olar ki, açıq şəkildə gətirilməyə başladı.

N.Mixaylovun məruzəsində göstərilirdi ki, 1917 ilin dekabrından başlayaraq, erməni-daşnak quldur dəstələri Kolanı icmasının azərbaycanlı kəndlərinə basqın edir və onlardan hələ yer üzərində mövcud olmayan Ermənistan Respublikasının tanımağı tələb edir və guya öz dövlətləri üçün azərbaycanlılardan zorla vergi yığırdılar.

Erməni təqiblərindən bezmiş Cavanşir qəzasının bir neçə kəndinin, o cümlədən İmarət-Qərvənd kəndinin əhalisi və Umudlu kəndi əhalisinin bir hissəsi payız aylarında böyük tələfatla Murovdağı aşaraq, Cavanşir qəzasının aran kəndlərinə üz tutur və orada məskunlaşırlar. N.Mixaylovun 1919 il mayın 9-da Fövqəladə Təhqiqat Komissiyasına təqdim etdiyi məruzədə göstərilirdi ki, axır vaxtlar vəziyyət bir qədər yüngülləşsə də, Cavanşir qəzasındakı ermənilər buradakı azərbaycanlıların torpaqlarını Ermənistan Respublikasının ərazisi elan edərək, Azərbaycan Respublikasının hakimiyyətini tanımaq belə istəmir və öz zorakılıq hərəkətlərini əvvəlki kimi davam etdirirlər. Ona görə də Fövqəladə Təhqiqat Komissiyasının üzvləri erməni kəndlərindən keçərək, qəzanın dağətəyi hissəsində dağıdılmış azərbaycanlı kəndlərinə baxış keçirə bilmirdilər.

Qarabağ bölgəsində 1918 ilvə 1919 ilin əvvəllərində ermənilərin törətdikləri soyqırımlarına daha çox məruz qalan qəzalardan biri də Cəbrayıl qəzası idi. Qəza 12 azərbaycanlı və 3 erməni kənd icmasından ibarət idi. Fövqəladə Təhqiqat Komissiyasının topladığı materiala və dindirilmiş şahidlərin ifadələrinə görə, qəza əhalisi Qarabağın başqa qəzalarında eraənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər haqqında deyilənləri əvvəllər ağıllarına belə sığışdıra bilmidilər. 1918 il dekabrın ilk günlərindən ermənilər qəzanın azərbaycanlı əhalisinə qarşı silahlı təxribatlara başladılar. Ermənilər, əvvəlcə, tək-tək qətllər törədir, basqın edərək, azərbaycanlılara məxsus mal-heyvanı sürüb aparırdılar. Getdikcə daha da mütəşəkkilləşən erməni quldur dəstələri azərbaycanlı kəndlərinə açıq silahlı hücumlar etməyə başlayırlar. Buna baxmayaraq, Fövqəladə Təhqiqat Komissiyası üzvlərinin dindirdikləri şahidlərin ifadələrində və Cəbrayıl qəza rəisinin 1919 il fevralın 17-də Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Sultanova raportunda bildirilirdi ki, "qəzanın bu cür hadisələri böyük təəssüf hissi ilə qarşılayan müsəlman əhalisi heç bir fəal mübarizə yoluna keçməyərək, yalnız özlərini və öz əmlaklarını erməni hücumlarından qorumaq üçün müdafiə mövqeyi tutmuş və ermənilərə qarşı heç bir qanunsuz hərəkətə yol verməmişlər. Buna da sübut odur ki, bütün bu müddət ərzində erməni kəndlərindən heç biri müsəlmanlar tərəfindən zərər görməmişdir". Məruzədə 1918 ilin sonu - 1919 ilin əvvəllərində Cəbrayıl qəzasında erməni silahlı quldur dəstələrinin azərbaycanlılar yaşayan Eyvazlı, Dolanlar, Şıxlar, Məlikü və digər kəndlərə hücum edərək, azərbaycanlı əhalinin əmlakını qarət edib yandırdıqları, mal-heyvanlarının isə sürüb apardıqları haqda çoxlu faktlar sadalanır.

Qarabağda ermənilərin azərbaycanlılara vurduğu ən böyük ziyan isə Şuşa qəzasının ərazisi və hemişə ələ keçirməyə can atdıqları Şuşa şəhəri idi. Oktyabr çevrilişindən (1917) sonra onsuz da hədsiz sursat ələ keçirmiş ermənilər daha sürətlə silahlanmağa başladılar. Silahlı erməni quldur dəstələri cəbhələrdən qaçan fərari erməni əsgər və zabitlərinin hesabına getdikcə daha da çoxalırdı. Şuşa-Qaryagin (Cəbrayıl) və Şuşa-Əsgəran yollarının tamamilə nəzarət altına alan ermənilər həmin yollarla gedib-gələn azərbaycanlıları qarət edir, silahlarını əllərindən alır və bu keçidləri tədricən bütünlüklə azərbaycanlıların üzünə bağlayırdılar. Bu quldur dəstələri getdikcə daha mütəşəkkil hərbi birləşmələrə çevrilirdilər.

Fövqəladə Təhqiqat Komissiyasının məruzəsində göstərilirdi ki, Şuşa şəhərindəki və ətraf kəndlərdəki erməni əhalisi Azərbaycanın hakimiyyətini tanımayıb, bu günə qədər də tanımaq istəmirlər. Onlar Azərbaycan Hökumətinə vergi verməkdən və hər hansı mükəlləfiyyətləri yerinə yetirməkdən imtina edirlər.

Şahidlərin ifadələrinə görə, 1918 ilin dekabrında ermənilər Qoqo kəndinin azərbaycanlılar yaşayan 55 evini dağıtmış və yandırmışlar. Mülkədar Cavanşirin də malikanəsini viran edərək, ailə başçısı Əsəd ağa Cavanşiri, oğlu Soltan ağanı, qızı İranə bəyimi, qardaşı qızı Fatma bəyimi, evin qulluqçusu və nökərlərini vəhşicəsinə qətlə yetirmiş, bütün avadanlıq, mal-qara və kənd təsərrüfatı alətlərini qarət edib aparmışdılar.

Ermənilər Tuğ kəndinin azərbaycanlılara məxsus hissəsini də dağıtmışlar. 33 evden ibarət Salakətin kəndini,

downloaded from KitabYurdu.az

Şıxımlı, Gövşadlı, Divanlılar və Çərəküz kəndlərini tamamilə dağıdaraq yandırmış, əmlaklarını qarət etmişdilər.

Şahid ifadələrini ümumiləşdirən komissiya qeyd edirdi ki, təkcə Şuşa qəzasında dağıdılmış, yandırılmış, talan edilmiş azərbaycanlı kəndlərində öldürülənlərin sayı 100 nəfərdən çox idi. Öldürülənlər üzərində ağlagəlməz vəhşiliklər edilmişdi. Qəzanın azərbaycanlı əhalisi 100 milyon manatdan çox zərər çəkmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıdakı ingilis komandanlığı ilə razılaşdıraraq, 1919 ilin yanvarında Azərbaycanın ayrılmaz hissəsi olan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları ərazisində ermənilərin törətdikləri soyqırımlarının qarşısını almaq üçün müvəqqəti general-qubernatorluq yaratdı. Buna baxmayaraq, Şuşa şəhərində və ətraf kəndlərdəki ermənilər general-qubernatorun hakimiyyətini tanımır, Şuşadakı erməni milli şurasının bütün tapşırıqlarını danışıqsız yerinə yetirirdilər. Şuşa-Gorus, Şuşa-Cəbrayıl yollarını tam nəzarətdə saxlayan ermənilər bu yollarla Şuşa ermənilərinə gizli yardım, silah-sursat və s. gətirirdilər. 1919 il iyunun 1-də çoxlu sayda silahlı ermənilərin gizli yolla şəhərə daxil olması barədə məlumat alan Şuşadakı Azərbaycan hakimiyyət orqanları azərbaycanlılara məxsus Üçtığ yüksəkliyində gözətçilərin sayını artırdı. İyunun 4-də Üçtığ yüksəkliyi tərəfdən gözlənilmədən başlayan atışma tezliklə bütün şəhəri bürüdü. 50 nəfərə yaxın silahlı erməni quldur u azərbaycanlı əsgərlərin səngərlərinə hücum etdi. Nəticədə, 3 nəfər azərbaycanlı əsgər qətlə yetirilmiş, ermənilərdən isə hücuma rəhbərlik edən Arzumanov və digərləri məhv edilmişdi.

Azərbaycanın yüzlərlə kəndini yerlə yeksan edən, əhalisinə qarşı tarixdə görünməmiş vəhşiliklər törədən ermənilər bütün bu faktları saxtalaşdırır, özlərini "zərərçəkən" kimi qələmə verir, azərbaycanlılara və Azərbaycan Hökumətinə qarşı təbliğat aparır, bütün dünyaya haray-həşir salırdılar.

Ermənilərin bütün pozuculuq hərəkətlərinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ciddi səyləri nəticəsində 1919 il avqustun sonlarında Azərbaycan Hökuməti ilə erməni milli şurası arasında bəyannamə imzalanmışdı. Bu bəyannamə ilə Qarabağ erməniləri Azərbaycan Hökumətinin hakimiyyətini tanıyır, Azərbaycan Hökuməti isə onlara mədəni-milli muxtariyyət hüququ verirdi. Lakin bütün bunlara baxmayaraq, Qarabağ erməniləri, gizli olaraq, yeni təxribatlara hazırlaşırdılar. Belə təxribatlardan biri 1920 il martın 22-də -Azərbaycan xalqının Novruz bayramı günü törədilmişdi. Martın 23-də bütün günü Şuşada atışma getmiş və günbatna yaxın qiyamçılar Azərbaycan ordu hissələrinin qarşısında duruş gətirə bilməyərək, şəhəri tərk etmişdilər.

Şuşa şəhəri və Şuşa qəzası kəndləri ilə yanaşı, Qarabağın Cavanşir və Zəngəzur qəzalarının erməni əhalisi də qiyam qaldırıb Azərbaycan əhalisi və Azərbaycan əsgərləri üzərinə hücum etmişdilər. Lakin hər yerdə erməni-daşnak quldur birləşmələrinə ağır zərbələr endirilmiş, onların hücumları dəf edilmişdi. Ermənilərin gizli şəkildə hazırladıqları hücum planları puça çıxmışdı.

*Aprel işğalınadək (1920)* Qarabağ erməniləri özid alarmdan əl çəkməmişdilər. İki cəbhəyə işləməyi məharətlə bacaran ermənilər, bir tərəfdən, Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışmış, digər tərəfdən də bolşevik ordusunun Azərbaycana müdaxiləsini asanlaşdırmaq məqsədilə Sovet Rusiyası ilə əlaqəyə girərək 1920 ilin yazında Moskvanın sifarişi ilə qiyam qaldırmış, Azərbaycan ordusunun əsas qüvvələrinin başını Dağlıq Qarabağda qatmışlar. Bununla da, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti öz hərbi qüvvələrini ölkəni şimal sərhədlərini keçmiş bolşeviklərə qarşı yönəldə bilməmişdi.

*Əd.:* Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XI əsrlər). Müxtəsər xronoloji ensiklopediya, B., 2003; Преступления армянских террористических и бандитских формирований против челоеческтва (XIX-XX вв.) Креткая хронологическая энциклопедия, Б., 2002.

**QARABƏYLİ** Qara bəy İsmayıl ağa oğlu (14.1.1873, Yelizavetpol quberniyası, Yuxarı Ayıblı kəndi - sentyabr, 1953, Səmərqənd) - ictimai-siyasi xadim, həkim, publisist, dilçi-lüğətçi, mühərrir. İlk təhsilini Şəmkir alman-rus litseyində almışdır. Daha sonra Tiflis klassik gimnaziyasını bitirərək (1892) Moskva Universitetinin tibb fakültəsinə daxil olmuş, burada 4 il təhsil aldıqdan sonra 1896 ildə siyasi fəaliyyətinə görə bir il həbs cəzasına məhkum edilmişdir. Həbsdən azad olunduqdan sonra təhsilini Yuryev (Tartu) Universitetinin tibb fakültəsində davam etdirmişdir. Buranı bitirdikdən (1899) sonra iki il Moskvada işləmişdir. 1901 ildə Bakıya qayıdaraq, müstəqil həkimlik fəaliyyətinə başlamış, şəhərdə ilk dəfə olaraq, zöhrəvi xəstəliklərin müalicəsi üzrə kabinet açmışdır. Birinci rus inqilabının (1905-07) təsirilə ictimai fəaliyyətə başlayan Qarabəyli Rusiya müsəlmanlarının birinci qurultayında (1905, 15 avqust, Nijni Novqorod) iştirak etmiş, *"İttifaqi-müslimin "* təşkilatının üzvü, Əhməd bəy Ağayevin *"Difai"* partiyasının rəhbərlərindən olmuşdur. Həmin dövrdən publisist fəaliyyətinə başlamış, "Həyat", "İrşad", "Kaspi" və s. nəşrlərlə əməkdaşlıq etmişdir. Bəzi mənbələrdə Qarabəylinin *"Hümmət" in* yaradılmasında da iştirak etdiyi bildirilir.



1906 ildə o, İrana mühacirətə gedərək, inqilabi fəaliyyətini burada davam etdirmiş, Rəşt tutulduqdan sonra Avropaya mühacirət etmək məcburiyyətində qalmışdır. 1908 ildə İstanbula gəlib, burada "Səadət" adlı təşkilat yaratmışdır. Həmin il hakimiyyətə gələn "Gənc türklər" Qarabəyliyə vəzifə təklif etsələr də, bundan imtina etmişdir. 1911 ildə Bakıya qayıdaraq, həkimlik və publisistik fəaliyyətini davam etdirmiş, "Haqq yolu" adlı jurnal buraxmışdır. O, həmçinin, Azərbaycanda ilk ikicildlik türk-rus lüğətini nəşr etdirmişdir.

downloaded from KitabYurdu.az

Birinci dünya müharibəsinin (1914-18) başlanması ilə cəbhəyə yollanmış, rus ordusunun tərkibində müsəlmanlardan ibarət "Vəhşi diviziya"nın baş həkimi olmuşdur. Fevral inqilabından (1917) sonra Bakıya qayıtmış, bir müddət "Kaspi" və "Yeni həyat" qəzetlerinin baş redaktoru olmuşdur. *Mart soyqırımından (1918)* sonra Bakını tərk etmək məcburiyyətində qalan Qarabəyli İmam Necməddin Qotsinskinin dəstələri ilə birlikdə Dağıstana getmiş, bir müddət oradakı aullarda yaşamışdır. Bakı azad edildikdən (1918, 15 sentyabr) sonra vətənə qayıdan Qarabəyli Bakı bələdiyyəsi tərəfindən türk ordusu şəninə təşkil olunan tədbirlərin rəsmi rəhbəri təyin edilmiş, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə keçirilən əlavə seçkilərdə onun üzvü seçilmiş, *"İttihad"* partiyası rəhbərliyinin xahişi ilə bu partiyaya daxil olmuş, parlamentdə onun fraksiyasına rəhbərlik etmiş, 1919 ilin aprelində "İttihad" partiyasının sədri seçilmişdir. Qarabəylinin bilavasitə rəhbərliyi sayəsində "İttihad"ın fəaliyyəti xeyli canlanmış və o, Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Müsavat"dan sonra ən güclü siyasi təşkilata çevrilmişdi.

*Aprel işğalından (1920)* sonra Qarabəyli bir neçə dəfə həbs edilmiş, əvvəlcə Arxangelsk vilayətindəki Solovki həbs düşərgəsinə göndərilmişdir. Nərimanovun xahişindən sonra Leninin müdaxiləsi nəticəsində 1923 ildə sürgündən azad olunmuş, Moskvaya köçərək, Rusiya Fövqəladə Komissarlığının (VÇK) xəstəxanasında həkim işləmişdir. Eyni zamanda, bir müddət tibb institutunda patoloji anatomiyadan dərs demiş, Kreml xəstəxanasına rəhbərlik etmişdir. Bununla yanaşı, xalq komissarlığı şurasının işlər idarəsində tərcüməçi olmuşdur. 1924 ildə Qırğızıstana köçərək, burada ilk mamalıq tibb texnikumunun əsasını qoymuşdur. 1932 ildə Qırğızıstanda ilk rentgeneloji kabinet təşkil etmişdir. 1933 ildə Özbəkistana gəlmək məcburiyyətində qalan Qarabəyli Səmərqənd xəstəxanasında baş həkimin müavini vəzifəsində işləmişdir. 1934 ildə gizli olaraq Bakıya gələrkən bir erməni döydüyü üçün həbs edilmiş, həbsdən buraxıldıqdan sonra yenidən Səmərqəndə göndəririlnişdi. 1936 ildə Səmərqənddə vərəm sanatoriyasının baş həkimi işləmişdir. Lakin bir həkimin şikayət məktubu əsasında "pantürkist, panislamist" kimi həbs edilerək, 10 il müddətinə Kolımaya (Rusiya, Maqadan vilayəti) sürgün olunmuşdur. 1947 ildə Bakıya qayıtsa da, burada iş və qeydiyyat problemləri ilə üzləşdiyindən yenidən Səmərqəndə qayıtrmşdır.

*Əd:*. Göyüşov A., Azərbaycanda İttihadçılıq, B., 1997.

**QARAMƏRYƏM DÖYÜŞLƏRİ (1918)** - *Qafqaz İslam Ordusu* qüvvələri ilə S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin bolşevik-daşnak quldur dəstələrindən ibarət Qafqaz Qırmızı Ordusu hissələri arasında baş vermiş döyüşlər (1918, 16-30 iyun). 1918 il iyunun 16-da səhər saat 9-da başlayan döyüşdə Qafqaz Qırmızı Ordusunun 3-cü briqadasının qüvvələri azərbaycanlılardan, gürcü və dağıstanlılardan ibarət dəstənin üzərinə hücuma keçdi. Türk hərbi qüvvələri bölgəyə gəlib çatmadığından Qaraməryəm ətrafında dayanan müdafiə dəstələri qeyri-bərabər döyüşdə geri çəkilmək məcburiyyətində qaldılar və bolşevik-daşnak qoşunları Qaraməryəmi ələ keçirdilər. İyunun 18-də bölgəyə yetişmiş 5-ci Qafqaz fırqəsinin (diviziyasının) 10-cu alayı da döyüşə qoşuldu. Lakin döyüş hazırlığı görülmədiyindən və əməliyyat planı istər diviziya, istərsə də ordu komandanlığı ilə razılaşdırılmadığından, nəticə uğursuz oldu. Göstərilən bütün cəhdlər boşa çıxdı. Daşnak Hamazaspın başçılıq etdiyi 3-cü briqadanın hissələri isə, əksinə, Qaraməryəmdə daha da möhkəmləndilər və Göyçaya hücum etmək üçün əlverişli mövqelər ələ keçirdilər.

İlk döyüşlərin nəticələri Qafqaz İslam Ordusu komandanlığında ciddi təhlil olundu. Ordu komandanı Nuru paşa, Müsəlman korpusu komandanı Əlağa Şıxlinski, 5-ci Qafqaz firqəsinin qərargah rəisi Rüşdü bəy vəziyyətlə daha yaxşı tanış olmaq, qüvvələri yenidən qruplaşdırmaq və imkanları bütünlüklə səfərbər etmək məqsədilə cəbhə xəttinə gəldilər.

Bakıya doğru uğurlu hücumların təşkil edilməsi üçün zəruri tədbirlər həyata keçirildi. Hər şeydən əvvəl, məhəlli komandanlıqlara azərbaycanlılardan ibarət silahlı dəstələrin təşkilini və Göyçay ətrafına göndərilməsini sürətləndirmək göstərişi verildi. Ağdaşdan 2 minlik silahlı dəstənin Göyçaya göndərilməsi qərara alındı. Bunlardan əlavə, Nuru paşa Gəncədən 46-cı və 26-cı ta-

*Göyçay–Qaraməryəm türk şəhid abidəsi*



*Göyçay–Qaraməryəm türk şəhid abidəsi*



downloaded from KitabYurdu.az

borun, istehkam bölüyünün, dağ toplarının, 9-cu alayın pulemyot bölüyünün və könüllülərin göndərilməsi barədə əmr verdi. Bu işlər ayın 27-nə qədər davam etdirildi. Qafqaz İslam Ordusu qoşunları ayın 28-də bolşevik-daşnak qüvvələri üzərinə hücumla təşəbbüsü ələ almağı planlaşdırırdı. Lakin döyüşə hazırlıq planı iyunun 26-da bolşevik-daşnak qüvvələrinə məlum oldu. Qırmızı ordunun üç taboru ayın 27-də səhər saat 6-da Göyçay-Qaraməryəm şosesi boyunca, iki bölük piyada qüvvəsi isə şimaldan 10-cu və 13-cü alayların cinahlarına hücuma keçdi. Bolşevik-daşnak qüvvələrinin Göyçayın şimalından hücuma keçib, Qafqaz İslam Ordusu hissələrini qəfildən mühasirəyə almaq və zərbə vurmaq niyyəti aydın olanda, köməyə gəlmiş azərbaycanlı könüllü qüvvələrinə Veysəlli istiqamətində hücuma başlamaq, düşmənə cinahlardan və arxadan zərbə endirmək və Ağsu-Qaraməryəm yolunu kəsərək, onun geri çəkilməsinə mane olmaq əmri verildi. Saat 10-a yaxın bolşevik-daşnak qoşunlarının 10-cu alayının sol cinahına keçmək təhlükəsi güclənəndə, ehtiyatda saxlanmış 25-ci tabor döyüşə qoşuldu. Göyçayın şimalından bir bölüyə qədər süvari dəstəsi, həmçinin Ağdaşdan gətirilmiş könüllülər, Müsüslü dəstəsindən qüvvələr də 13-cü alayın sağ cinahına köməyə göndərildi. Nəticədə, Bığır istiqamətində irəliləyən bolşevik-daşnak qoşunlarının hərəkəti təxminən saat 15-də dayandırıldı, hətta 10-cu Qafqaz alayı cəbhəsində əks-hücum üçün yaxşı imkan yarandı. 5-ci Qafqaz firqəsi komandanlığı bu imkandan istifadə edərək, saat 18-də hər iki alaya əks-hücum əmri verdi. 10-cu alay əks-hücumla düşmən qüvvələrini 3 kilometr geriyə atdı. Lakin qaranlıq düşdüyü üçün alaya əvvəlki mövqelərinə qayıtmaq əmri verildi.

İyunun 29-da səhər tezdən davam edən döyüş Qafqaz İslam Ordusu hissələrinin daha böyük uğuru ilə nəticələndi. Elə ilk anlardan təşəbbüsü ələ alan 10-cu və 13-cü alayın döyüşçüləri düşmənin müqavimətini tamamilə qırdılar. Qırmızı ordu hissələrinin məğlubiyyəti ilə başa çatan döyüşlərin sonunda Qaraməryəmin qərb hissəsi tamamilə, şərq hissəsi isə qismən Qafqaz İslam Ordusu hissələrinin nəzarəti altına keçdi. Həlledici döyüşlərin uğurla başa çatdırılması ordunun şəxsi heyətində qəti qələbəyə inam yaratdı, Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizədə dönüş nöqsanın başlanğıcını qoydu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5., B., 2001; Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999.

**QARACƏMİRLİ** Məcid bəy Qasım oğlu (?, Gədəbəy - ?) - Azerbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına li təhsil almaq üçün xaricə göndərilməsi nəzərdə tutulan sləbələrdən biri. Xarkov Universitetinin hüquq fakültəsində 3 il təhsil almışdı (1919 ilədək). Qaracəmirli Məcid təhsilini davam etdirmək üçün Azərbaycan hökumətinin Xalq Maarifi Nazirliyinə müraciət etmişdi. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarı ilə adı Rusiyaya göndəriləcək tələbələrin siyahısına salınmışdı. Lakinl Vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürəkkəbl vəziyyətdə oraya tələbə göndərmək baş tutmamışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**QARAŞAROV** (Qaraşarlı) Rza bəy (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. *Zaqafqaziya seymi Müsəlman fraksiyasının,* Zaqafqaziya Federasiyasının süqutundan sonra isə (1918, 26 may) *Azərbaycan Milli Şurasının* (1918, 27 may) üzvü olmuşdur. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Azerbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdir. Parlamentdə Sosialistlər bloku fraksiyasının üzvü idi.

**QARAYAZI,** Qarayazı düzü - Kür çayının sol sahili boyunca Tiflisə qədər uzanan düzənlik. Gəncə-Qazax düzənliyinin davamı. Qarayazı Azərbaycan türklərinin ən qədim məskənlərindəndir. Qədim türk dilindəki "qara" ("böyük") və "yazı" ("düzənlik", "çöl") sözlərinin birləşməsindən əmələ gəlməklə "böyük çöl", "böyük düzənlik", "böyük çöllük" mənasındadır. Qarayazı tarix boyu, əsasən, Azərbaycan-türk dövlətlərinin tərkibinə daxil olmuşdur. Nadir şahın [1736-47] vaxtında Qarayazının tarixində dəyişiklik baş verdi. Tərkibinə Qarayazının da daxil olduğu *Borçalının* idarəsi Kaxeti [1733-44], sonra Kartli [1744-62] çarı olan II Teymuraza (1700-62) tapşırıldı. Nadir şahın ölümündən (1747) sonra Azərbaycan ərazisində xanlıqlar meydana gəldi. Bu dövrdə Borçalı da müstəqil Azərbaycan sultanlığına çevrildi. Kartli-Kaxeti çan II İrakli [1762-98] 1765 ildə Borçalının, o cümlədən Qarayazının idarəsini öz əlinə aldı. 1801 ildə Borçalının tərkibində Rusiyaya ilhaq edildi. 1819 ildə Qarayazı Borçalı distansiyasının tərkibində nahiyəyə çevrildi. 1846 il inzibati-ərazi bölgüsü zamanı Borçalı müstəqil qəzaya çevrildi, Qarayazı isə nahiyə kimi *Tiflis quberniyasının* tərkibinə qatıldı. 1917 il Qafqaz təqviminin məlumatına görə, Qarayazı polis sahəsi (mərkəzi Qaratəpə kəndi) Qarayazı. Mixaylovsk, Təklə kənd icmalarını birləşdirirdi. Cənubi Qafqazda müstəqil respublikalar yarandıqdan sonra Gürcüstan Azərbaycanın digər torpaqları (Zaqatala, Sığnaq qəzası və s.) kimi Qarayazıya da ərazi iddiası irəli sürdü. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin əməkdaşı A.Şepotyevin sənədlər əsasında müəyyən etdiyinə görə, Qarayazı düzü əhalisinin tərkibində, demək olar ki, bir nəfər də gürcü yox idi. Onun əhalisinin 88,8%-ni Azərbaycan türkləri, qalanlarını isə ruslar (6,6%) və müxtəlif millətlərdən olan kolonistlər (4,6%) təşkil edirdi. Şepotyevin fikrincə, məhz Azərbaycan Xalq Cümhuriyyətinin Qarayazı düzünə olan hüququ mübahisəsiz idi. Bu hüquq iqtisadi amillərlə də əsaslandırılmışdı. Lakin bütün bunlara baxmayaraq, gürcü hərbi birləşmələri Cənubi Qafqaza müdaxilə etmiş alman qoşunları ilə birləşərək, Qarayazını işğal etdilər. Borçalı qaziləri 1918 il sentyabrın 19-da Azərbaycan

downloaded from KitabYurdu.az

Xalq Cümhuriyyəti Nazirlər Şurasına (surəti Osmanlı sultanına) göndərdikləri məktubda Gürcüstan hökumətinin və alman qoşunlarının bölgədə törətdikləri özbaşmalığa qarşı çıxaraq, iki təklif - mərkəzi Tiflis şəhəri olmaqla, Qarapapaq xanlığının yaradılması, yaxud Tiflis şəhəri ilə birlikdə tarixi Borçalı, Başkeçid, Qaraçöp, Qarayazı torpaqlarının Azərbaycana birləşdirilməsi təklifmi irəli sürdülər. *Aprel işğalı (1920)* nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutu problemin həmin təkliflər əsasında həll olunmasına imkan vermədi. Azərbaycanda və Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra, Gürcüstan SSR, faktik olaraq, Qarayazıya ərazi iddiasını qismən reallaşdıra bildi. Yuxarı Qarayazı [müasir Tbilisinin həndəvərindən başlayaraq, Kür və Qabırrı (İori) çayları arasındakı ərazi] Gürcüstana verildi; Qareci çölü və Aşağı Qarayazı (658,89 *kv.km.* ərazi) Azərbaycan SSR-in tərkibində qaldı. Gürcüstan SSR-də həyata keçirilən müxtəlif inzibati-ərazi bölgüləri zamanı Qarayazı rayonu yaradıldı. Sonradan bu ərazi Qardabani rayonunun tərkibinə qatıldı.

*Əd:* Ömərov V., Qarayazı. Gürcüstanda türklər, h.I, B., 2001; Tiflis əyalətinin müfəssəl dəftəri. Borçalı və Qazax (1728-ci il), B., 2001; Шепотьев А., Доклад о спорных кавказских территориях, на которые имеют самоопределившие азербайджанские тюрки. Изв. АН Азерб. ССР (серия истории, философии, права), 1990, №2; Кавказский календарь на 1917 г.



**QARAYEV** Əbülfəz Fərəc oğlu (20.4.1885, Bakı -24.10.1952, Bakı) - görkəmli həkim-pediatr, tibb elmləri doktoru, professor (1939), əməkdar elm xadimi (1940). Odessadakı Novərossiya Universitetini bitirmişdir (1916). Əbülfəz Qarayev Azərbaycan Xalq Cümhuriyyəti dövründə *Bakı Şəhər Həkimlər Cəmiyyəti* idarə heyətinin üzvü olmuş, yatalaq xəstəliyi epidemiyasına qarşı mübarizədə yaxından iştirak etmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra respublikada qadın və uşaq müalicə müəssisələrinin yaradıcılarından biri olan Əbülfəz Qarayev bağırsaq infeksiyasına qarşı mübarizə problemi üzərində çahşmış, qan xəstəliklərinin etiologiyası, patogenezi və müalicə yollarını araşdırmışdır. 1930 ildən ömrünün sonunadək Azərbaycan Dövlət Tibb İnstitutunda dərs demişdir.

**QARAYEV** Əliheydər Ağakərim oğlu (20.6.1896, Şamaxı 21.4.1938) - *Aprel işğalında (1920)* ve Şimali Azərbaycanda bolşevik rejiminin bərqərar olmasında fəal iştirak etmiş sovet siyasi xadimi. Şamaxı realnı məktəbində oxumuşdur. 1916 ildə Don (Novoçerkassk) Politexnik İnstitutuna daxil olmuş, inqilabı hərəkatda iştirak etmişdir. Fevral inqilabından (1917) sonra Şamaxıya qayıtmış, burada Fəhlə və Əsqər Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilmişdir. Zaqafqaziya Kəndli Deputat Soveti Ölkə İcraiyyə Komitəsinin tərkibinə daxil idi. Ümumrusiya Kəndli Deputatları Sovetləri qurultayı iştirak etmişdir. 1917 ilin yayından Tiflisdə inqilabı aparmışdır. Tiflis "Hümmət" (menşevik) komitəsinin k bi, "Al bayraq" qəzetinin redaktoru idi. 1918 ilin dekabrdan Bakıda inqilabi iş aparmışdır. 1918 ilin dekabrın "Hümmət" partiyasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Həmin ilin sonlarında E Fəhlə Konfransının , 1919 ildə rəyasət heyətinin üzvü, sc isə sədri seçilmişdir. 1919 ilin fevralında RK(b)P - yə d. olmuş, RK(b)P Bakı komitəsinin üzvü, 1919-20 illərdə sıra bolşevik qəzetlərinin redaktoru olmuşdur. Bu nəşr vasitəsilə xalqa mövcud hökuməti devirib, yerində Sovet hakimiyyəti qurmağı təbliğ edirdi. Bir çox mətbuat səhifələrində Azərbaycan Xalq Cürhuriyyəti hakimiyyə "Müsavat" partiyasının kəskin tənqid və təhqir edən Qarayev Parlamentdə "Mətbuat nizamnaməsi haqqında" qanun layihəsinin özünün redaktoru və naşiri olduğu "Füqəra sədası" qəzetinə qarşı olduğunu bildirirdi. Bu qəzeti "füqəranı aldadanların nidası" adlandıran M.Ə.Rəsulzadə göstərirdi ki, sosialistlərin məqsədi ölkədə söz və mətbuat azadlığı adı altında anarxiya yaratmaq, axır nəticədə isə bolşevikləri Azərbaycana gətirməkdir. Ə.Qarayev Parlamentdə ifrat mövqe tutmuş, Cümhuriyyət Hökumətinin müxtəlif sahələrdə yeritdiyi siyasəti müntəzəm surətdə tənqid etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı çevrilişin hazırlanmasında fəal rol oynamışdır. 1920 ilin yanvarında RK(b)P Bakı Komitəsi yanında Ə.Qarayevin sədrliyi Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün silahlı üsyan təşkil etmək məqsədilə "operativ qərargah" fəaliyyət göstərirdi. Ə.Qarayev Azərbaycan Kommunist Partiyası 1-ci quraltayında (1920 il, fevral) MK üzvü seçilmişdir. Onun 1920 il martın 30-da Dağıstandakı sovet qoşunlar komandanı B.Şeboldayevə göndərdiyi teleqramda deyil "Ən yaxın günlərdə Bakıda çevrilişə hazırlaşırıq. Hərəkat başlanandan əvvəl öz yürüşümüzün məqsədləri haqqında Azərbaycan fəhlələrinə və kəndlilərinə müraciətnamə buraxacağıq". Elə həmin günlərdə ermənilərin Qarabağ və Zəngəzurda qaldırdıqları qiyamların günahını da Qarayev Hökumətin üzərinə yıxmışdı. Onun Hökuməti üsyanla devirmək, Parlamenti dağıtmaq və Şura hökuməti elan etmək barədə planı imzalaması xəbəri Parlamentin iclas salonunda "Ar olsun! Eyib olsun! Rədd olsun xain!" nidaları ilə qarşılanmışdır. Bu məsələ ilə əlaqədar Məhəmməd Əmin Rəsulzadə çıxış etmişdi: "Üsyana çağıranın adı Əliheydərmi olsun, ya Vartazarmı olsun, ikisi də birdir. Qarabağdamı və ya Bakıdamı çıxışda bulunsun, ikisi də birdir". Apre işğalında fəal rol oynamış Ə.Qarayev 1920 il aprelin 27 Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin tərkibinədə də olmuş, Bakı müvəqqəti inqilab komitəsinin sədri, Azərbaycan SSR xalq ədliyyə və əmək komissarı, Bakı Soveti icraiyyə Komitəsinin sədri işləmişdir. Azərbaycan SSR xalq hərbi dəniz işləri komissarı (iyun 1920 - yanvar 1923), eyni,



downloaded from KitabYurdu.az

vaxtda, 11-ci ordunun hərbi-inqilabi şurasının üzvü (noyabr 1920 - may 1921) olmuşdur. Qarayev respublikanın bir sıra bölgələrində sovet hakimiyyəti əleyhinə baş verən silahlı üsyanların yatırılması əməliyyatlarına rəhbərlik etmişdir. Üsyanların əsas zərbə qüvvəsini milli ordunun hissələri təşkil etdiyindən, yeni milli hərbi hissələrin formalaşdırılması işinə də Qarayev rəhbərlik etmişdir. 1923 ildə AK(b)P MK katibi, 1929 ildə ÜİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin katibi seçilmişdir. 1930-31 illərdə AK(b)P Gəncə mahal komitəsinin katibi olmuşdur. Qarayev AK(b)P daxilində baş verən ixtilaflarda "sol" qrupun fəal nümayəndəsi kimi milli məsələdə N.Nərimanovun əleyhinə çıxmışdır. "Qarayev-Hüseynov qrupu" siyasi opponentləri tərəfindən Azərbaycanın milli mənafeyini Rusiyaya "satmaqda ittiham olunurdu". O, bir sıra milli ruhlu azərbaycanlı kommunistləri millətçilikdə, şovinizmdə günahlandırmışdı. panturanist və panislamist fikirlərini "sovet dərsliklərinə" soxuşduran "Türkiyə agentləri"ni cidd-cəhdlə üzə çıxarmağı özü üçün böyük bir hünər sayan Əliheydər Qarayev ***"Müsavat" partiyası ilə beynəlxalq faşizmin "soysuz bir uşağı" kimi ifşa edilərək*** (M.Ə.Rəsulzadə), repressiyaya məruz qalmışdır.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Hüseynov A.Ə., Əliheydər Qarayev, B., 1961; Ağayev L, XX əsrin əvvəllərində Azərbaycan şeri, B., 2002; Paşayev A., Azərbaycan Xalq Cümhuriyyətinin Parlament təcrübəsindən, Müstəqil dövlətimiz və parlamentimiz (məqalələr toplusu), B., 2001.

**"QARDAŞ KÖMƏYİ"** - ictimai təşkilat. Birinci dünya müharibəsi (1914-18) illərində Azərbaycanın bir sıra yaşayış məntəqələrində fəaliyyət göstərmişdir. Təşkilatın əsas məqsədi müharibədə əsir düşmüş türk əsgərlərinə, kimsəsizlərə yardım etmək, müalicə olunmalarına kömək göstərmək, onları ərzaqla, geyimlə təmin edib vətənlərinə yola salmaq idi. Cəbhə bölgələrində sahibsiz qalmış türk uşaqlarını toplayıb uşaq evlərinə göndərirdi.

Təşkilatın Bakı şöbəsi Nargin adasında saxlamları türk əsirlərinin azad olunmasında böyük şücaət göstərmişdir. Belə ki, gecələr kiçik qayıqlarda Nargin adasına yan alan bakılılar yüzlərlə əsiri azad edib Türkiyəyə yola salmağa nail olmuşdular. Əsirlərin bəziləri vətənlərinə qayıtmaqdan imtina edərək, Azərbaycanı özlərinə vətən seçmişdilər. O cümlədən, iki türk əsiri azad olunduqdan sonra Mərdəkanda qalmış, ailə qurmuş və 20 əsrin sonlarınadək yaşamışlar. Onların törəmələri Mərdəkanda böyük bir nəsil halında yaşamaqdadır.

Nağı *Şeyxzamanlının* verdiyi məlumata görə, təşkilat "Qardaş köməyi" adlı jurnal da nəşr etdirmişdir. Jurnalın bir nüsxəsi İstanbulda mühafizə olunur.

*Əd:* Şeyxzamanlı N., Azərbaycan İstiqlal mücadiləsi xatirələri, B., 1997.

**"QARDAŞ KÖMƏYİ"** - ictimai-siyasi toplu. Birinci dünya müharibəsi (1914-18) dövründə Azərbaycanın bir sıra yaşayış məntəqələrində fəaliyyət göstərmiş *"Qardaş köməyi"* təşkilatının orqanı. Əsasən, Qars vilayəti ətrafında zərər çəkmiş müsəlman qaçqınlarının həyatına həsr olunmuş məqalələr dərc edilirdi. Toplunun əsas mühərrirləri Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cavad, Hİseyn Cavid, Firidun bəy Köçərli, Seyid Hüseyn, Abdulla Şaiq, Şəfiqə xanım Əfəndizadə idi.

*Əd:* Qılman İlkin,Bakı və bakılılar, B., 1998.

**QARDAŞOV** Aslan bəy (?-?)- ictimai-siyasi xadim *"Əhrar"* partiyasının liderlərindən biri. Zaqafqaziya seyminin, Azərbaycan Milli Şurasının, Azərbaycan Parlamentinin üzvü olmuşdur. "Əhrar" fraksiyasının təmsilçisi Parlament iclaslarında fəal iştirak etmiş, əsasən Hökumət iqtisadi sahədəki fəaliyyətinə qarşı tənqidi mövqe tutmuşdur. Aslan bəy Qardaşov 1918 il dekabrın 25-də Parlamentin siyasi dustaqların amnistiyası üzrə yaratdığı komissiyalrının üzvü olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü hökumət kabinəsində (1919 il, 14 aprel-22 dekabr) əkinçilik naziri idi. 1920 il aprelin 15-də Aslan bəy Qardaşov "Əhrar" fraksiyası adından koalisiyadan çıxdığım və öz nümayəndələrini Hökumətdən geri çağırdığını bəyan etmişdi, 1920 il aprelin 27-də hakimiyyətin kommunistlərə təhvil verilməsi haqqında ultimatumu müzakirə etmek üçün Parlamentdə yaradılmış komissiyaya daxil olmuş müzakirə zamanı hakimiyyəti bolşeviklərə təhvil vermak təklifini müdafiə etmişdir.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998.

**QARS DEMOKRATİK CÜMHURİYYƏTİ** - Binnci dünya müharibəsi (1914-18) dövründə erməni-daşnak silahlı quldur dəstələri tərəfındən türk-müsəlman əhalinin soyqırımına məruz qaldığı Cənub-Qərbi Qafqazda yaranmış demokratik respublika (bax *Cənub-Qərbi Qafqaz Cümhuriyyəti).*

**QARS İSLAM ŞURASI** - Birinci dünya müharibəsi (1914-18) dövründə erməni-daşnak silahlı quldur dəstələri tərəfindən türk-müsəlman əhalinin soyqırımına məruz qaldığı Cənub—Qərbi Qafqazda yaradılmış (1918, 5 noyabr) demokratik respublika. Ətraflı məlumat üçün bax *Cənub-Qərbi Qafqaz Cümhuriyyəti.*

**QARS MÜQAVİLƏSİ** (1921) - Cənubi Qafqazın sovet respublikaları ilə Türkiyə hökuməti arasında, Sovet Rusiyasının iştirakı ilə 1921 il oktyabrın 13-də Qarsda bağlanmış müqavilə. 1921 il 16 mart Sovet-Türkiyə müqaviləsinə uyğun olaraq, Türkiyə və Cənubi Qafqaz sovet respublikaları arasında müqavilə bağlanması üçün danışıqlar başladı. Müəyyən müzakirələrdən soma nümayəndə heyətlərinin Qarsda konfransını çağırmaq qərara alındı. Konfrans 1921 il sentyabrın 26-da işə başladı və oktyabrın 13-dək davam etdi. Azərbaycanın B.Şahtaxtinski (xalq dövlət nəzarəti komissarı), Ermənistanı A.Mravyan (xalq xarici işlər komissarı) və P.Makinzyan (xalq daxili işlər komissarı), Gürcüstanın Ş.Eliava (xalq hərbi və dəniz qüvvələri komissarı) və A.Svanidze (xalq xarici işlər naziri), Türkiyəni Kazım Qarabəkir paşa və Vəli bəy (Böyük Millət Məclisinin üzvləri), Muxtar bəy (keçmiş ictimai işlər naziri), Memduh Şövkət bəy (Türkiyənin Azərbaycandakı səlahiyyətli nümayəndəsi),

downloaded from KitabYurdu.az

Rusiyanı isə vasitəçi kimi Y.Qanetski (Rusiyanın Latviyadakı səlahiyyətli nümayəndəsi) təmsil edirdi. Konfrans müzakirələrdən sonra tərəflər arasında müqavilə bağlamağı qərara aldı. Oktyabrın 13-də RSFSR-in iştirakı ilə bir tərəfdən Azərbaycan, Ermənistan, Gürcüstan respublikaları, digər tərəfdən, Türkiyə arasında müqavilə imzalandı. Qars müqaviləsi 20 maddə və 3 əlavədən ibarət idi. ***Birinci maddədə*** 1921 il 16 mart Moskva müqaviləsi istisna olmaqla, razılığa gələn tərəflərin tabeliyindəki ərazilərdə öz suveren hüquqlarının həyata keçirən dövlətlər arasında bağlanmış və yuxarıda göstərilən ərazilərə, həmçinin Cənubi Qafqaz respublikalarına aidiyyəti olan, habelə üçüncü dövlətlərlə bağlanmış müqavilələrin ləğv olunduğu və qüvvədən düşdüyü bildirilirdi. ***İkinci maddəyə*** görə tərəflər onlardan hər hansı birinə güclə, məcburi qəbul etdirilən heç bir sülh müqaviləsini və ya digər beynəlxalq aktı tanımamağa razılaşırdılar. Cənubi Qafqaz respublikaları Türkiyənin, Türkiyə isə onların qəbul etmədiyi hər bir beynəlxalq aktı tanımamağı üzərinə götürürdü. ***Üçüncü maddədə*** kapitulyasiya rejiminə hər hansı münasibəti olan bütün funksiya və hüquqların öz qüvvəsini itirdiyi və ləğv olunduğu qeyd edilirdi. ***Dördüncü maddə*** sərhədlər məsələsinə həsr olunmuşdu. Qars müqaviləsinin beşinci maddəsi Naxçıvana aid idi. Həmin maddədə göstərilirdi ki, ***"Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin III əlavəsində göstərilən sərhəd daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar".*** ***Altıncı maddə*** ilə Türkiyə Batum şəhərini və limanın müəyyən şərtlərlə Gürcüstana güzəştə gedirdi. 7, 8 və 9-cu maddələrdə Türkiyə və Gürcüstan arasındakı sərhəd məsələlərindən, Qara dəniz və boğazlarına statusundan bəhs olunurdu. ***Onuncu maddə*** ilə "razılığa gələn tərəflər öz ərazilərində digər ölkənin və ya onun ərazisinin bir hissəsində hökumət roluna iddia edən təşkilat və ya qrupların yaranmasına və ya olmasına, həmçinin digər ölkəyə qarşı mübarizə məqsədi güdən qrupların olmasına yol verməməyi öhdəsinə götürürlər". 11, 12 və 13-cü maddələr müqaviləyə qoşulan dövlətlərin vətəndaşları ilə bağlı məsələlərə həsr edilmişdi. ***On dördüncü*** maddə ilə Müqavilənin imzalandığı gündən sonra 6 ay ərzində 1918-20 illər müharibələri qaçqınlarına aid xüsusi müahidə bağlanması nəzərdə tutulurdu. 15 və 16-cı maddələr Qafqaz cəbhəsindəki hərbi əməliyyatlardan irəli gələn cinayətlərə görə tam əfv-ümumiyyə (amnistiya) elan edilməsi, hərbi və mülki əsirlərin geri qaytarılması haqqında idi. 17 və 18-ci maddələr isə razılığa gələn tərəflər arasında kommunikasiya və iqtisadi əlaqələrə həsr olunmuşdu. ***On doqquzuncu maddəyə*** görə, tərəflər müqavilənin imzalanmasından sonrakı 3 ay ərzində konsul konvensiyası bağlamağı öhdələrinə götürürdülər. ***Sonuncu - iyirminci maddə*** müqavilənin ratifikasiya olunmasını nəzərdə tuturdu. Ratifikasiya fərmanları mübadiləsinin İrəvanda həyata keçirilməsi qeyd olunmuşdu. Müqavilə onun imzalanmasından sonra dərhal qüvvəyə minən 6, 14, 15, 16, 18 və 19-cu maddələr istisna onunla, ratifikasiya fərmanlarının mübadilə olunduğu qüvvəyə minməli idi. Qars müqaviləsinin ratifi mübadiləsi 1922 il sentyabrın 22-də İrəvanda olmuşdu. Müqavilənin fəaliyyət müddəti məhdudlaşdırılmamışdır.

*Əd.: Документы внешней политика СССР., т.4, док. 264, М., 1960;* Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgə siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci il 1996; Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni İ.Hacıyev), B., 1999; İbrahimzadə F., Behbud Şah və Qars müqaviləsi, "Tarix və onun problemləri", 2002, .№ 3.

**QARS VİLAYƏTİ** - 1877-78 illər Rusiya-Türkiyə müharibəsi nəticəsində Rusiyanın işğal etdiyi türk torpaq yaratdığı inzibati-ərazi vahidi. 1920 ilin dekabr mövcud olmuşdu. 1877-78 illər müharibəsində məğlub olan Osmanlı imperiyası fevralın 19-da Rusiya ilə San-Stefano sülh müqaviləsini imzalamağa məcbur oldu. Rusiyanın geniş işğalçılıq planları Avropa dövlətlər razı saldı. San-Stefano müqaviləsinin şərtləri 1878 nun 13-də Rusiya, Almaniya, Avstriya-Macarıstan, İngiltərə, İtaliya və Türkiyənin iştirakı ilə işə başlyan Berlin konqresində yenidən nəzərdən keçirildi. Bununla Berlin konqresi də Qars torpaqlarının Rusiyaya ilhaq olunmasını təsdiq etdi. Qarsda yeni inzibati-ərazi sistemi Rusiya işğalı prosesində (1877, may-iyun) formalaşdırmağa başlamış, noyabrın 6-da inzibati idarə yaradı Qafqaz canişinliyi 1878 il dekabrın 27-də "Qars vilayətinin idarə nizamnaməsi"ni təsdiq etmiş, bu ərazi Qafqaz dairəsinə daxil olunmuşdu. 1917 il Qafqaz təqvimini məlumatına görə, Qars vilayəti Ərdəhan, Kağızman, Qars, Olti dairələrinə bölünürdü. Vilayətin ərazisi 16466,15 *km* əhalisi 364214 nəfər idi. Əhalinin çoxu müsəlmanlardan cümlədən Azərbaycan türklərindən ibarət idi. Qars Birinci dünya müharibəsinin Qafqaz cəbhəsində əhəmiyyətə malik idi. Müharibə başlayan kimi çar generalları vilayətdə azlıq təşkil edən (31,08%) ermənilər silahlandırdılar. Silahlı erməni quldur dəstələri yerli türk müsəlman əhaliyə qarşı soyqırımına başladı. Rus qoşunlarının tərkibinə daxil olmuş erməni birləşmələri də müsəlman əhaliyə qarşı soyqırımında fəal iştirak edirdilər. Fevral inqilabından (1917) sonra burada Müvəqqəti hökuməti idarə orqanları yaradılmağa başlamışdı. Qars komitəsi silahlı erməni əhalisinin vilayətdə ciddi təhlükə mənbəyi olduğunu nəzərə alaraq, onun tərksilah olunması haqqında qərar qəbul etdi. Vilayətdə, eyni zamanda, fəhlə və deputatları sovetləri də yaradılmışdı. Oktyabr çevrilişindən (1917) sonra Cənubi Qafqazda idarəçilik, əsasən, *Zaqafqaziya komissarlığına* keçdi. Dekabrın 5-də Qafqaz komandanlığı ilə Türkiyə arasında barışıq imzalan çəkilən rus qoşunları bütün silah-sursatı ermənilərə verdilər. Rus qoşunlarının yerləşdiyi ərazilərdə ermənilərin türklərə qarşı törətdiyi soyqırımları Osmanlı dövlət təhlükəsizlik tədbirləri görməyə məcbur etdi. Türk qoşunları hərbi əməliyyata başlamağı qərara aldı. Belə bir şəraitdə Sovet Rusiyası Brest sülhünü (1918) imzalayaraq, qoşunlarını Qars, Ərdəhan və Batumdan çıxarmağa razı oldu. Həmin

downloaded from KitabYurdu.az

min ərazilər Tiirkiyəyə qaytarıldı. Yeni yaramnış *Zaqafqaziya seymi* Brest süilhünün şərtlərini qəbul etməkdən boyun qaçırdı. Buna görə də türk qoşunları hərbi əməliyyatlan davam etdirdi. Cənubi Qafqazın nümayəndə heyəti 1918 il martın 8-də Trabzonda Türkiyə ilə danışıqlara başladı. Danışıqların gedişində Brest sülhünün şərtlərinə yenidən baxıldıqdan sonra, nümayəndə heyəti daxilindəki ziddiyyətlər üzə çıxdı. Gürcü menşevikləri Qars və Kağızmanın türklərə verilməsinin lehinə, daşnaklar isə bunun əleyhinə çıxırdı. Belə olduqda, türk qoşunları martın 12-də Ərzurumu tutdular və Qarsa doğru hərəkət etdilər. Aprelin 5-6-da Sarıqamış azad edildi. Trabzondakı türk nümayəndə heyəti 48 saat ərzində Batum, Ərdəhan və Qars dairələrinin təhvil verilməsini tələb etdi. Aprelin 5-də Zaqafqaziya seymi, Olti dairəsinin, Ərdəhan dairəsinin cənub hissəsinin, Qars və Kağızman dairələrinin bir hissəsinin türklərə verilməsinə razı oldu. Türkiyə aprelin 7-də Brest sülhünün tanınması barədə ultimatum verdi. Trabzonda danışıqlar dayandırıldıqdan bir gün sonra, aprelin 13-də Batum azad olundu. Aprelin 22-də Zaqafqaziya Respublikasının yaradılması elan edildi. Türkiyə ilə danışıqların Batumda davam etdirilməsi qərara alındı. Türklər aprelin 25-də Qars qalasının azad edilməsi haqqında qərar çıxarılmasına nail oldu, qaladakı qoşunlar Aleksandropola (Gümrü) geri çəkildilər. Türklər qaladakı ermənilərin evakuasiyası üçün hər cür şərait yaratmışdılar. Türkiyə tarixi torpaqlarının azad olunmasını davam etdirirdi. Cənubi Qafqazda müstəqil Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yaradıldıqdan sonra, onlar 1918 il iyunun 4-də Osmanlı dövləti ilə müqavilə imzaladılar [bax *Batum müqaviləsi (1918)]*. Bununla, Türkiyə 1877-78 illər Rusiya-Türkiyə müharibəsi zamam işğal olunmuş torpaqlarını geri qaytarmağa nail oldu. Lakin çox çəkmədən Türkiyə Birinci dünya müharibəsində məğlub oldu və oktyabrın 30-da *Mudros barışığını (1918)* imzalamağa məcbur oldu. Türk qoşunları yerləşdiyi torpaqlardan çıxarıldı, həmin yerləri ingilislər tutdular. Azərbaycan Xalq Cümhuriyyəti Cənub-Qərbi Qafqazda cərəyan edən hadisələrə diqqətlə yanaşır, Azərbaycan türklərinin ata-baba yurdları olan və Qara dənizə çıxış imkanı verən bu ərazilərin taleyinə böyük maraq göstərirdi. Yerli əhali də Azərbaycan Cümhuriyyəti ilə birləşmək istəyirdi. Lakin ümumi beynəlxalq-siyasi vəziyyət, xüsusilə ingilis müdaxiləçilərinin erməniləri müdafiə etməsi nəticəsində bu niyyətin həyata keçirilməsi mümkün olmadı. 1918 ilin payızında - 1919 ilin əvvəllərində bölgədə bir neçə dövlət qurumu yarandı. Onların içərisində Cənub-Qərbi Qafqaz və ya Qars Demokratik Cümhuriyyəti (QDC) mühüm yer tuturdu. 1919 ilin aprelində QDC ingislərin hərbi müdaxiləsi nəticəsində süqut etdi. Hakimiyyət ingilislərin köməyi ilə ermənilərin əlinə keçdi. Erməni-daşnak hakimiyyəti dövründə bölgənin türk-müsəlman əhalisi dəhşətli soyqırıma məruz qaldı. Qarsın iqtisadi həyatının bütün sahələri tənəzzülə uğradı. Bölgədə daşnaklara qarşı narazılıq daha da artdı. Mayın 10-da Qarsda sovet hakimiyyəti elan olundu. Daşnaklar mayın 12-də Qarsda "Vətəni xilas komitəsi" yaratdılar. Komitə şəhərdə hakimiyyəti ələ keçirə bildi. 1920-ci il avqustun 10-da imzalanan və əslində, Türkiyəni parçalayan *Sevr müqaviləsi (1920)* daşnakların əl-qolunu daha açdı. Daşnakların siyasəti Türkiyə ilə müharibəyə səl oldu [bax *Ermənistan-Türkiyə müharibəsi (1920)*. Mustafa Kamal Atatürk yazmışdır: "Bizim Şərq ordumuz oktyat 28-də Qarsa doğru hərəkətə başladı. Düşmən şəhəri müqavimətsiz tərk etdi və türklər oktyabrın 30-da onu tut Bizim ordumuz noyabrın 7-dək Arpaçayadək olan ərazi həmçinin Gümrünü tutdu". Müharibə dekabrın 2-də *Alt sandropol (Gümrü) müqaviləsinin (1920)* imzalanması başa çatdı. Bu zaman Ermənistanda daşnakların hakimiyyəti dağılmış, Qırmızı ordu hissələri İrəvana daxil olmuşdu. Ermənistan sovet hökuməti 1920 il 10 dekabr notası ilə Aleksandropol müqaviləsi şərtlərinin yenidən nəzərdən keçirilməsi təklifini irəli sürdü. Bölgə ilə bağlı bütün mübahisəli məsələləri 1921 il 16 mart Moskva və 13 oktyabr Qars müqavilələri nizama saldı. Beləliklə, Qars, Kağızma Ərdəhan, Olti, Artvin dairələrinin və Sürməli qəzasını Türkiyə tərkibində qalması təsdiq olundu.

*Əd:*. Hacıyev A., Qars və Araz-Türk respublikalarının tarixində: B., 1994; Kırzıoğlu F., Kars tarihi, İstanbul, 1953; Мустафа Кемаль, Путь новой Турции т. 3, М., 1934; Погоян А.М., Карсская область в составе России, Ереван, 1983; Шепоьев А., Доклад о спорных Кавказских территориях, на которые имеют права самоо-пределившиеся азербаиджанские тюрки. Изв. Ан Азерб. ССР (серия истории, философии и права), 1990, №2,

**QARYAGİN QƏZASI** - Şimali Azərbaycanda inzibat ərazi vahidi. 1873 ildə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində yaradılmışdı. Şuşa, Zəngəzur, Cavad qəzaları, cənubdan isə İranla həmsərhəd idi. Mərkəzi Cəbrayıl məntəqəsi idi. Azərbaycanın işğalında iştirak etmiş (19 əsrin əvvəlləri) rus zabiti R.M.Karyaginin adı ilə Qaryagin qəzası adlandırılmışdı (1905). Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 30 avqust tarixli qərarı ilə Qaryagin qəzası yenidən *Cəbrayıl qəzası adlandırılmışdı.*



**QARYAĞDI OĞLU CABBAR,** Cabbar Məşədi İsmayıl oğlu (31.3.1861, Şuşa - 20.4.1944, Bakı) – musiqi xadimi, Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biri. Azərbaycanın xalq artisti (1935). Cabbar Qaryağdı oğlunda xanəndəlik sənətinə həvəs uşaqlıqdan oyanmış, ilk musiqi təhsilini Şuşada Xarrat Qulunun məktəbində almışdır. Cabbar Qaryağdı oğlu xalq Qarabağda şöhrət qazanmışdı. Əbdürrəhim bəy Haqverdiyevin 1887 ildə hazırladığı "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəsində Məcnun rolunu ifa etmişdir. Bir müddət tarzən Sadıq Əsəd oğlunun (Sadıqcan) sazandalar dəstəsi ilə çıxış etmiş, sonralar isə məşhur xanəndə kimi Bakı, Gəncə, Şamaxı, Ağdaş şəhərlərinə

downloaded from KitabYurdu.az



*"Neft və milyonlar səltənəti" kinofilmindən səhnə. Xanəndə Cabbar Qaryağdıoğlu*

hərlərinə dəvət olunmuşdur. 1905 ildən tarzən Qurban Pirimov ilə birlikdə geniş proqramlı "Şərq konsertləri"ndə iştirak etmiş, Cənubi Qafqaz, Orta Asiya, Kiyev, Moskva, İran və başqa yerlərdə qastrol səfərlərində olmuşdur. 1906-12 illərdə "Qrammofon", "Sport-rekord", "Ekstrafon" səhmdar cəmiyyətləri tərəfindən Kiyev, Moskva və Varşavada səsi qrammofon valında yazılmışdır. 1912 ildə Varşavadan qayıdarkən Moskvada "Şərq konsertləri" vermişdir. Kürd-Şahnaz, Mahur, Bayatı-Qacar, Heyratı, xüsusilə Mənsuriyyə muğamlarını müstəsna ustalıqla ifa edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə və sonralar Cabbar Qaryağdı oğlu Azərbaycan milli musiqi mədəniyyətinin, xüsusilə xanəndəlik sənətinin zənginləşməsində böyük əmək sərf etmişdir. O, mahir müsiqiçilər dəstəsi ilə birlikdə xeyriyyə məqsədilə konsertlər vermiş, musiqi səhnəciklərində çalıb-oxumuş, bayramlarda, el şənliklərində yaxından iştirak etmiş, musiqi və mədəniyyət xadimlərinə maddi yardım göstərmişdir. Musiqimizin təməl daşı olan muğamatı yaşadan, ona guşələr və xallar əlavə edərək zənginləşdirən Cabbar Qaryağdı oğlu nəinki Azərbaycanda, həmçinin bütün Qafqazda və Yaxıq Şərqdə ustad sənətkar kimi məşhur idi.

Cabbar Qaryağdı oğlu Azərbaycan Dövlət Konservatoriyasının yaradıcılarından olmuş, burada klassik xalq musiqisindən dərs demiş, gənc kadrların yetişdirilməsində böyük iş görmüşdür. Azərbaycan Dövlət Konservatoriyası nəzdində Bülbülün rəhbərlik etdiyi xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetində onun ifasında 300-ə yaxın mahnı və təsnif, təqribən 70 xalq musiqisi nümunəsi lentə yazılmış, Səid Rüstəmov isə 50 xalq mahnısını nota köçürmüşdür. Cabbar Qaryağdı oğlu öz şer, qəzəl və qoşmalarına, eləcə də başqa şairlərin sözlərinə 30-dan artıq mahnı bəstələmişdir. O, 1934 ildə Firdövsinin 1000 illik yubileyi münasibətilə 6 musiqi parçası hazırlamışdı.

Cabbar Qaryağdı oğlu fitri istedada, zil və olduqca güclü, gözəl tembrli, geniş diapazonlu tenor səsə, qeyri-adi musiqi hafızəsinə malik sənətkar idi. Musiqi xadimləri onu məşhur italyan müğənnisi Karuzo, rus vokal sənətinin görkəmli nümayəndəsi Fyodor Şalyapin ilə müqayisə etmişlər. Cabbar Qaryağdı oğlu əsərlərində klassik xalq musiqisindən istifadə edən bəstəkarlardan R.Qlierə ("Şahsənəm" operasının yaradılmasında), Üzeyir bəy Hacıbəyliyə, Niyaziyə, Fikrət Əmirova və başqalarına yaradıcılıq köməyi göstərmişdir.

F.Şalyapin və görkəmli rus şairi Sergey Yeseninlə tanış olmuşdur. Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır. Cabbar Qaryağdı oğlu həm də musiqi tədqiqatçısı idi. Onun "Azərbaycan musiqisinin keçmişi haqqında xatirələr" əlyazmasında 19 əsrin xanəndə və musiqiçilərindən, muğamların tarixindən, təsnif və mahnılardan bəhs edilir. Görkəmli xanəndə və müğənnilərdən Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli, Sürəyya Qacar, Haşım Kələntərli və b. Cabbar Qaryağdı oğlu məktəbinin davamçıları olmuşlar.

*Əd.:* Şuşinski F., Azərbaycan xalq musiqiçiləri, B., 1985; yenə onun, Cabbar Qaryağdı oğlu, B., 1987; yenə onun, Народные музыканты и певцы Азербаиджана, М., 1979.

**QASIMOV** Hacı İbrahim Hacı Mahmud oğlu (1886, Bakı -1936, Bakı) - mətbuat xadimi, jurnalist, publisist, yazıçı, teatr tənqidçisi, tərcüməçi. Bakıda ilk "rus-müsəlman" məktəbini bitirmişdir. 1907 ildə mətbuat aləminə gəlmiş, "Təzə həyat" (1907-08), "Məlumat" (1911), "İqbal" (1912-15), "İqdam" (1914-15), "Yeni iqbal" (1915-17) qəzetlərində əməkdaşlıq etmiş, Seyid Hüseynin nəşr etdiyi "Kəlniyət" satirik jurnalının redaktoru olmuşdur. Ədəbiyyat və teatr sənətinə dair tənqidi məqalələr, felyetonlar və publisistik əsərlər yazmışdır. M.Ə.Sabirlə görüşləri haqqında xatirələri var. Baş mühərrir işlədiyi *"Bəsirət"* qəzeti Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkədə gedən prosesləri obyektiv şəkildə əks etdirmişdir.

Sovet dövründə "Kommunist" qəzetində və "Azər-nəşr"də tərcüməçi işləmişdir. L.N.Andreyevin "İnsan həyatı" pyesini, M.Tvenin hekayələrini və s. əsərləri Azərbaycan dilinə tərcümə etmişdir.

*Əd.:* Məmmədzadə M., Azərbaycan türk mətbuatı, B., 1922; Talıbzadə K., XX əsr Azərbaycan ədəbi tənqidi, B., 1966.



**QASIMZADƏ** Feyzulla Səməd oglu (19.11.1898, Bakı yaxmlığındakı Mərdəkan kəndi - 29.3.1976, Bakı) - maarif xadimi, ədəbiyyatşünas. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü (1967). Mollaxanada, Bakı şəhəri Aleksey ali-ibtidai "rus-müsəlman" məktəbində, Yemelyanovun axşam gimnaziyasında oxumuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (1925), Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini (1929) bitirmişdir. Əmək fəaliyyətinə Bakıda "Kazennaya palata" Azərbaycan Göyçay qəzasının Qazyan və Mərdəkan kənd ibtidai məktəblərində müəllim və müdir (1917-22) işləmişdir. Cümhuriyyət illərində Mərdəkan-Qala məntəqələrində

downloaded from KitabYurdu.az



*İsmayıl bəy Qaspralı, Yusif Akçura Krımda (Qurzuf)*

təxribatçılara qarşı mübarizə aparmış, əməlləri ilə xalq arasında narazılıq yaradanlar haqqında rəsmi hökumət dairələrinə raportlar yazmışdır. "Mərdəkan" sözünün etimologiyası ilə əlaqədar "Azərbaycan" qəzetində dərc etdirdiyi məqalədə ("Mərdəkanlı Feyzulla Qasımzadə. Etiraz. "Azərbaycan" qəzeti, 1919, 5 həziran, №196») 1918 ilin mart qırğını zamanı mərdekanlı igidlərin erməni quldurlarına qarşı mərdlik və fədakarlıqla vuruşması haqqında məlumat vermişdir: "Keçən sənə sübh tezdən Mart hadisəsini eşidərək dərhal Mərdəkan köyünün gəncləri yüz nəfərdən ziyadə müsəlləh olub, "İslam qardaşlarımızı mühafizət etməyə gediyoruz",- deyə sevinclə düşmənə tərəf rəvanə oldular. Və haman gün Sabunçu ətrafındakı yol üstündə düşmənlərlə şir kimi müharibə edib, altı nəfər şəhid verib, canlarını vətən və millət yolunda təslim etdilər".

F.Qasımzadə sovet hakimiyyəti illərində xalq maarifi sahəsində işləmiş, ümumtəhsil, orta ixtisas təhsili məktəblərində və ali məktəblərdə dərs demişdir.

Qasımzadə zəngin ədəbiyyatşünaslıq irsi yaratmışdır. Azərbaycan ədəbiyyatının mürəkkəb 19 əsr mərhələsinin tədqiqi və elmi tarixinin yaradılması onun adı ilə bağlıdır. "Mirzə Fətəli Axundovun həyatı və yaradıcılığı" (1939; 1962),"Xalq aşıq poeziyası" (1950), "Tənqidi realizm"(1952), "N.Vəzirov" (1954), "Abbasqulu ağa Bakıxanov Qüdsi" (1956), "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" (1956, 2-ci nəşri, 1974), monoqrafiyaları müasir Azərbaycan ədəbiyyatşünaslığının nailiyyətlərindən sayılır.

*Əd.:* Məmmədov K., Feyzulla Qasımzadə (Biblioqrafiya, B.,1968, ön söz); B., Məmmədov X., Feyzulla Qasımzadə məktəbi, "Azərbaycan müəllimi" qəzeti, 1988, 18 noyabr; yenə onun, Bir yazı və onun haqqında xatirə, "Ədəbiyyat" qəzeti, 2003, 25 iyul; Mirəhmədov Ə., Feyzulla Qasımzadə ("Fikrin karvanı" kitabında), B.,1984.

**QASIMZADƏ** Hacı Səlim Hacı Qasım oğlu - maarif xadimi, şair. *"Nəşri-maarif"* cəmiyyətinin işində yaxından iştirak etimş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə maarifçiliyin təbliği yönündə çoşğun fəaliyyət göstərmişdir. Bax *Hacı Səlim Səyyah.*

**QASPRALI** (Qasprinski) İsmayıl bəy Mustafa ağa oğlu [21.3.1851, Avçiköy (Krım) - 11.9.1914, Baxçasaray ş.]-Rusiya müsəlmanları arasında maarifçi türkçülük hərəkatının görkəmli xadimlərindən biri, Krım türklərinin (tatarlarının) ictimai-siyasi xadimi, maarif islahatçısı, milli nəşriyyat və mətbuatın banisi, alim, yazıçı. Zadegan məmur ailəsində doğulmuşdur. İlk təhsilini ailədə xüsusi müəllimdən almış gimnaziyasında (1861-63). Voronej məktəblərində (1863-67), Parisdə Şərq dilləri litseyində (1871-75) oxumuşdur. Baxçasarayın Zəncirli mədrəsəsində, Yaltanın Dərəköy məktəbində rus dili müəllimi (1868-71), Parisin "Aşey" reklam agentliyində məmur, yazıçı İ.S.Turgenevin katibi (1872-74), Baxçasaray şəhər bələdiyyə idarəsinin rəisi (1878-83) işləmişdir. 1874-75 illərdə İstanbulda yaşamış, Odessa, Moskva, Peterburq qəzetləri də məqalələr dərc etdirmişdir. Türk zabiti, dövlət məmur olmaq səyləri baş tutmamış, 1875 ildə Baxçasaray dönmüş, üç il Krım yarmadasını gəzib dolaşaraq xalq həyatını öyrənmişdir.



İsmayıl bəy Qaspralı Rusiyanın türk-müsəlman əhalisinin mədəni birliyi ideyasını irəli sürmüş, onun tez bir zamanda həyata keçirilməsi üçün doğma türk dilində dövri mətbuat və müasir milli məktəb yaratmaq təşəbbüsü ilə çıxış etmişdir. Bu məqsədlə "Məktəb" adlı qəzetin nəşrinə icazə almış (1879), "Tuncuc", "Şəfəq", "Qəmər", "Ulduz", "Günəş" və s. imzalarla yazdığı məqalələrdə (1880-83) maarifçilik ideyalarını yaymışdır. "Tavriya" qəzetində dərc olunmuş milli məzmunlu silsilə məqalələri əsasında imperiyada türk-müsəlman xalqlarının hüquq və vəzifələrinə dair "Rusiya müsəlmanları" kitabını nəşr etdirmişdir.

Qaspralı Krımın Rusiya tərəfindən işğal olunmasının 100 illiyi günü - 1883 il aprelin 10-da türkcə-rusca "Tercüman-Perevodçik" qəzetinin nəşrinə icazə almış, onu imperiyanın türkdilli əhalisinin ümumi mətbuat orqanına çevirmişdir. *"Dildə, fikirdə, işdə birlik"* tezisini irəli sürmüş, onu otuz bir il naşiri və redaktoru olduğu "Tərcüman" qəzeti vasitəsilə Krımdan Kaşğara qədər geniş bir ərazidə -Vəlqaboyunda, Qafqazda, Orta Asiyada, Sibirdə ardıcıl surətdə təbliğ etmişdir.

Qaspralı Baxçasarayda ilk "üsuli-cədid" məktəbi açmış (1884), müxtəlif bölgələrdən topladığı şagirdlərə sovti üsulla (fonetik) təlim qaydalarına öyrətməklə, onları bütün Rusiya müsəlmanların arasında yaymağa nail olmuşdur. Tərtib etdiyi "Xoceyi Sibyan" adlı əlifba dərsliyi ilə Rusiya müsəlmanlarının mədəni həyatında, maarif sahəsində yeni mərhələnin başlanğıcını qoymuşdur.

"19 əsrin ən böyük islahatçısı", "türk dünyasını oyandıran" İsmayıl bəy Qaspralı "Tərcüman" qəzetində dərc etdirdiyi yazıları ilə bütün türk xalqlarının ortaq və təmiz bir dil zəminində birləşdirmək istəyirdi. Qaspralı isla-

downloaded from KitabYurdu.az

hatçılıq fəaliyyətinə başlayarkən Azərbaycan maarifçiləri H.Zərdabi, S.Ünsizadə, C.Ünsizadə və S.Vəlibəyovun, həmçinin A.O.Çernyayevskinin naşirlik, müəllimlik təcrübəsindən bəhrələnmiş, "Tərcüman" və "Xoceyi Sibyan"ın nəşrindən sonra Ə.Topçubaşov, S.Qənizadə, N.Nərimanov, F.Köçərli kimi onlarla ziyalının "mürşid"inə çevrilmişdir.

İsmayıl bəy Qasprah velikorus milletçiliyinin türk-müsəlman xalqları üçün böyük təhlükə yaratdığını dərk edirdi və imperiyanın müsəlman xalqları arasında milli şüurun formalaşması, onların əməkdaşlığı, birliyi ideyası ilə çıxış edirdi. O yazırdı: ***"Asiya və Avropanın bir qismində sanki böyük bir millət — türk-tatar milləti var. Bu millət dağınıq, parçalanmış, zəif haldadır, digər millətlərə nisbətən elm və mərifətcə, sərvət və mədəniyyətcə çox geridə qalmışdır. Belə davam edərsə, əbədi mübarizə qanununa uyğun olaraq (bu millət) məhv olacaq, başqa millətlər tərəfindən udulacaqdır..."***

İsmayıl bəy Qasprah irəli sürdüyü ***"dildə, fikirdə, işdə birlik"*** tezisini, prinsip etibarı ilə, həm "müsəlman birliyi" (panislamizm), həm də "türk-tatar müsəlman birliyi" (pantürkizm) təliminə tətbiq edirdi. Dil, din, adət və ənənə birliyini millətin əsas əlamətləri kimi səciyyələndirən götürən İsmayıl bəy "cədidçilik" ("üsuli-cədid"), yəni "yeni üsul" adlanan maarifçi-islahatçı hərəkatın genişlənməsində, bu cərəyanın "qədimçilər"ə, yəni "köhnə üsul" cərəyanına qarşı mübarizəsində fəal iştirak etmişdir.

Qasprah ictimai həyatın müxtəlif sahələrinə dair elmi, publisist və bədii əsərlər yazmışdır. Onun "Rusiya müsəlmanlığı" (1881), "İslamlığa dair nizamlar və imtiyazlar" (1885), "Avropa mədəniyyətinə bir nəzəri-müvazinə" (1885), "Rus-Şərq razılaşması" (1886), "Mirati-cədid" (1882), "Atlaslı cahannüma" (1892), "Qiraəti-türki" (1894), "Gündoğdu" və s. əsərləri məşhurdur.

Qasprahnın Azərbaycanla sıx ictimai-siyasi, elmi-ədəbi və şəxsi əlaqələri olmuşdur. Tərəqqipərvər Azərbaycan ziyahları İ.Qasprahnın türk-müsəlman xalqlarının milli və mədəni intibahı yolunda fədakar fəaliyyətini yüksək qiymətləndirmiş, milli mətbuat onu "möhtərəm ustad", "fəxri-millət", "böyük İsmayıl bəy", "türklüğü paydar, milləti nidər etməkə çalışmaqdan yorulmaq bilməyən... ustadi-əzim" adlandırmışdır. İsmayıl bəy Qasprah ilə sıx əməkdaşlıq edən və onun yaradıcılığından bəhrələnən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Sultanməcid Qənizadə, Nəcəf bəy Vəzirov, Əlabbas Müznib, Ceyhun bəy Hacıbəyli, Mirzə Bala Məmmədzadə və başqaları türkçülük ideya və siyasətini müdafiə və inkişaf etdirmişlər. İ.Qasprah da, öz növbəsində, onların fəaliyyətini izləyir, uğurlarımı qiymətləndirirdi. "Molla Nəsrəddin" jurnalı təqiblərə məruz qaldıqda o, həmkarlarına ürək-dirək verərək yazırdı: "Sizin məcmuənizdə hədəfə olduqca sərrast dəyən şeylər vardır..., gümrah çalışın".

İsmayıl bəy Qasprah erməni daşnaklarının 1897 ildə Anadoluda, 1905-06 illərdə Qafqazda törətdikləri qanlı cinayətləri hiddətlə pisləmiş və bu fəsad əhlini ağlını başına yığmağa çağırmışdır.

İ.Qasprah Azərbaycana şəxsi tellərlə də bağlı olmuşdur. "Türk ədəmi-mərkəziyyət" partiyasının banisi, Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən və

*İsmayıl bəy Qasprahnın cənazəsi evindən çıxarılarkən. 1914*



downloaded from KitabYurdu.az

rəhbərlərindən olan Nəsib bəy Yusifbəyli bir müddət Baxçasarayda yaşamış, İsmayıl bəy Qaspralının qızı Şəfiqə xanımla ailə həyatı qurmuşdur.

Nəriman Nərimanov Qaspralının vəfatı ilə əlaqədar "Bəsirət" qəzetində dərc etdirdiyi "Baxçasarayda imtahan meydanı" məqaləsində millətə böyük itki üz verdiyini bildirərək yazırdı ki, millət yolunda **"bütün ömrünü sərf edən"**, onu **"axır nəfəsinədək nicat yoluna dəvət edən"** "ustad'ın qəbri üzərində abidə ucaltınaq zəruridir. Əhməd bəy Ağaoğlu da Qaspralı ilə 1905 ildə Peterburqda tanış olmuş, 1908-11 illərdə isə Türkiyədə yaradılmış "Türk ocağı", "Türk yurdu" jurnallarında onunla birlikdə əməkdaşlıq etmişdir. İ.Qaspralının vəfatı münasibətilə "Türk yurdu" jurnalda dərc olunmuş nekroloqu da məhz Ağaoğlu yazmışdı.

İ.Qaspralının ictimai-siyasi görüşləri Azərbaycan ictimai fikrinə, milli müstəqillik ideologiyasının təşəkkülünə, o cümlədən onun ideoloqlarının dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

*Əd.:* Cəfərzadə Ə., İsmayıl bəy Qaspralı, "Elm və həyat" jurnalı, № 6; Krımlı Seyid Cəfər, Qaspralı İsmayıl bəy, İstanbul, 1934; Məmmədov X., Qasprinski və Azərbaycan, "Ulduz" jurnalı, № 9; yenə onun, İ.Qasprinski "Molla Nəsrəddin" haqqında, "Azərbaycan müəllimi" qəzeti, 1992, 20 may; yenə onun, İ.Qasprinskinin Ə.Hüseynzadəyə "Açıq məktubu", "Ədəbiyyat qəzeti", 1992, 17 iyul; yeno onun, "Tərcüman"da Azərbaycan ədəbiyyatı, "Ədəbiyyat qəzeti", 2000, 17 noyabr; Kəngərli A., İsmayıl bəy Qasprinski, B., 2004; Kırımlı Hakan, İsmail bey Gaspıralı, Ankara, 2001; Крикчи А.И., Исмайыл бей Гаспринский, журнал «Дружба народов», 1991, № 12; Ганкевич В., На службе правде и просвешению, Симферeполь, 2000.

**QASPRALI** Şəfiqə xanım (19 əsrin sonları, Krım - 1964, İstanbul) - jurnalist. İsmayıl bəy *Qaspralının* qızı, Nəsib bəy *Yusifbəylinin* həyat yoldaşı. Atasının redaktorluğu ilə nəşr olunan "Tərcüman" qəzetində işləmişdir. 20 əsrin əvvəllərində atasının yanına gələn azərbaycanlı tələbələr Nəriman Nərimanov və Nəsib bəy Yusifbəyli her ikisi Şəfıqə xanıma elçi düşsə də, o, Nəsib bəyə üstünlük vermiş və onunla ailə qurmuşdur. Bu izdivacdan Zöhrə və Niyazi adlı iki övladı dünyaya gəlmişdir. Şəfiqə xanım 1918 ilədək Gəncədə, 1918 ilin sentyabrından isə Bakıda yaşamışdır. O zamankı dövri mətbuatda yazıları dərc olunmuşdur. *Aprel işğalından (1920)* sonra övladları ilə birlikdə yaşadığı mənzilindən çıxarıllmışdı. 1922 ili İsmayıl bəy Qaspralının yaxın dostu, Bakıda işləyən titul diplomatının köməyilə əvvəlcə türk hərbçiləri ilı birlikdə Batuma, sonra Trabzona, oradan da böyük çətinliklə İstanbula gəlmişdir. "Qızıl ay" beynəlxal xeyriyyə cəmiyyətində işləmişdir.



*Əd.:* Qadın, gözəllik və ülviyyət (ensiklopedik toplu), B., 2001.



**QATIR MƏMMƏD** [Məmməd Əli oğlu Məmmədov 1887, Gəncə (Yelizavetpol) quberniyası, Goranboy Əhmədli k. - 18.9.1919] - çar Rusiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövründə kəndli hərəkatının başçılarından biri. 1903 ii də Gəncədə sənət məktəbinə dax olmuş, 1905 ildə inqilabi hərəkatda iştirakına görə oradan qovulmuşdu. 1907 ildə Goranboy-Əhmədlidə mülkədarı öldürdüyünə görə qaça düşmüşdür. 1909 ildə həbs olunaraq İrkutsk quberniyasına sürgün edilmiş, lakin yolda qaça bilmişdir. 1914-cü ildə həbs edilərək, yenidən İrkutska sürgün olunmuş, bura da bolşeviklərlə daha da yaxınlaşmışdır. Fevral inqilabından (1917) sonra Azərbaycana qayıdaraq, Bakı bolşeviklə ilə sıx əlaqə saxlamış, dəfələrlə S.Şaumyan, M.Əzizbəyov və b. bolşeviklərlə görüşüb tapşırıqlar almışdır. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Qatır Məmməd milli hökumətə qarşı çıxmışdır. Bu işdə bolşeviklərin ona maddi köməyi ilə yanaşı, hökumətin aqrar siyasətindəki səhvlər də müəyyən rol oynamışdı. 1919 ilin yayında "xanları və bəyləri öldürün!" şüarı ilə çıxış edən bolşeviklər Qatır Məmmədə pul vəsaiti göndərmişlər. Cümhuriyyət Hökumətinin 500 nəfərlik seçmə qüvvəsi Gəncəbasarda Qatır Məmməd tərəfindən məğlub edilmişdi. Qatır Məmmədin silahlı dəstələri Gəncə qəzasında iri torpaq sahiblərinin mülklərini dağıdır, Bakı-Tiflis dəmir yol xəttində hərəkətə mane olurdu. Pusiya Kommunist (bolşeviklər) Partiya Gəncə Komitəsinin tapşırığı ilə Dağıstandakı 11-ci Qırmızı ordu hissələri ilə birləşməyə çalışan Qatır Məmməd bu məqsədlə Kür çayının sol sahilinə - şimala keçmişdi. Hökumət qüvvələrinin gördüyü tədbirlər nəticəsində Qaraqovaq kəndində öldürülmüşdür.

*Şəfiqə xanım Qaspralı tələbələri ilə birlikdə. Bakı, 1919*



*Əd.:* H ü s e y n o v C, Xalq qəhrəmanı Qatır Məmməd, B., 1969; Gəncə (tarixi oçerk), B., 1994.



**QAYIBOV** Bahadır Hüseyn əfəndi oğlu (1878-1949) Azərbaycan Xalq Cümhuriyyəti ordusunda hərbi-tibb xidmətini fəal təşkilatçılarından biri. Hərbi nazirin 1919 il 19 iyul tarixli əmri ilə Azərbaycan ordusuna qəbul edilərək, hərbi-sanitar hissəsinin rəis təyin olunmuş, Azərbaycan Xal Cümhuriyyətinin süqutuna qədər bu vəzifəni icra etmişdir. Onun rəhbərliyi ilə Şuşada hərbi feldşer məktəbi,

downloaded from KitabYurdu.az



təbi, bir sıra hərbi hissələrdə və məntəqələrdə tibbi müayinə obyektləri açılmışdı (bax *Hərbi-sanitar hissəsi).*

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999.

**QAYIBOV** Cahangir Hüseyn əfəndi oğlu (1882-1938) -Azərbaycan milli istiqlal hərəkatının iştirakçılarından biri. Moskvada Şərq dilləri institutunu bitirmişdir (1909). Bakı, Tiflis və Tehran banklarında işləmişdir. "Azərbaycan Respubliksının 1920 il üçün ünvan-təqvimi" soraq kitabındakı məlumata əsasən, Qayıbov Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Xarici İşlər Nazirliyinin dəftərxana müdiri işləmiş, Zakaspi hökumətində Azərbaycan Xalq Cümhuriyyəti diplomatik nümayəndəliyinin üzvü, İstanbulda Azərbaycan diplomatik nümayəndəsinin müavini və maliyyə müşaviri vəzifələrində çalışmışdır. Dövrünün qabaqcıl maarifpərvər ziyalıları Mirzə Fətəli Axundzadə, İlya Cavcavadze, Adolf Berje, Məhəmməd ağa Şahtaxtlı, Səid Ünsizadə və başqaları ilə birgə fəaliyyət göstərmiş və dostluq etmiş, klassik Azərbaycan ədəbiyyatının öyrənilməsində mühüm xidmətləri olmuş, atası Mirzə Hüseyn əfəndi kimi incəsənətə böyük maraq göstərmiş, "Tiflis dram cəmiyyəti"nin nizamnaməsinin hazırlanmasında yaxından iştirak etmişdir.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998.

**QAYTABAŞI** Əbdülhəmid bəy Şərif bəy oğlu (1888-1920) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun 1918 il 15 noyabr tarixli əmri ilə Ümumi qərargahın tərkibindəki növbətçi general vəzifəsinə təyin olunmuşdu. Onun tabeliyində müfəttişlər bölməsi, təmir və bərpa bölməsi, ümumi bölmə, qeyri-nizami bölmə və nəşriyyat var idi. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1919 il 25 iyun tarixli qərarı ilə Qaytabaşı general-mayor rütbəsinə layiq görülmüşdü. 1919 il dekabrın 10-da general-mayor Həbib bəy Səlimov Bakı istehkamçılar hissəsinin rəisi təyin edilərkən, Ümumi qərargah rəisi vəzifəsinin müvəqqəti icrası Qaytabaşıya həvalə olunmuşdu.



Bu vəzifəni Azərbaycan ordusunun qərargahı yaradılana qədər icra etmişdir. 1920 il martın 1-dən fəaliyyətə başlayan Azərbaycan ordusu qərargahında Qaytabaşı növbetçi generalın idarəsinə rəhbərlik edirdi. Hərbi nazirlikdə struktur dəyişikliklərindən sonra ümumi bölmə, təftiş bölməsi, pensiya bölməsi və nəşriyyat işləri bu idarəyə verilmişdi. *Aprel işğalından (1920)* sonra Qaytabaşı qısa müddət Azərbaycan ordusu qərargahının rəisi vəzifəsini icra etmişdi. Lakin Azərbaycanda sovet-bolşevik rejiminə qarşı müqavimət hərəkatı genişləndikdə, bir çox Cümhuriyyət generalları kimi, Qaytabaşı da bolşeviklər tərəfindən repressiyaya məruz qaldı və güllələndi.



Qayıbov qardaşları

*Əd.:* Nəzirli Ş., Cümhuriyyət generalları., B., 1995; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**QAZAX QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi. Səfəvilər dövründə Gəncə-Qarabağ bəylərbəyiliyinin tərkibinə daxil idi. 18 əsrin birinci rübündə Osmanlı dövlətinin əlinə keçmiş, Tiflis əyalətinin tərkibinə qatılmışdı. 1723-28 illərdə tərtib olunmuş "Tiflis əyalətinin müfəssəl dəftəri"nə görə, Qazax bölgəsi "liva" ("sancaq") statusuna malik olmuş, İncə, Çuvar, Axstav və Türk nahiyələrini əhatə etmişdi. Səfəvilərdən sonra hakimiyyətə gələn Nadir şah [1736-47] bu torpaqları öz hakimiyyəti altına qaytarmışdı. Gəncə-Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu Nadirin şah seçilməsinə etiraz etdiyi üçün Qazax torpaqları Şəmşəddil və Borçalı ilə birlikdə Kartli çarı Teymurazın idarəsinə verilmişdi. Şəki xanı Hacı Çələbinin [1743-55] Kartli çarı II İrakli üzərində qələbəsindən (1752) sonra Qazax sultanlığı Şəki xanlığının tərkibinə qatılmışdı. 18 əsrin axırlarında Qazax sultanlığı yenidən II İraklinin hakimiyyəti altına keçmişdi. Bu dövrdə Qazax sultanlığı Şəmşəddil ilə birlikdə Qazax-Şəmşəddil sultanlığı adlandırılmışdı. Bu sultanlıq 1801 ildə Rusiyaya ilhaq edilmiş, 1819 ildə ləğv olunaraq, yerində Qazax və Şəmşəddil distansiyaları yaradılmışdı. 1840 il inzibati-ərazi bölgüsü zamam Qazax və Şəmşəddil distansiyaları sahəyə çevrilərək Gürcü-İmereti quberniyasının *Yelizavetpol (Gəncə) qəzasının* tərkibinə daxil edilmişdi.

19 əsrin 40-cı illərindəki aqrar islahatları zamanı Qazax və Şəmşəddil kəndlilərinin çar hakimiyyətinə qarşı çıxışları (1844-45) baş vermişdi. 1846 il dekabrın 14-də keçirilən yeni inzibati ərazi bölgüsü zamanı Qazax və Şəmşəddil *Tiflis quberniyasının* tərkibinə qatılmışdı. Lakin dəyişikliklər bununla başa çatmamış, "Qafqaz və Zaqafqaziya diyarının idarə olunmasının dəyişdirilməsi haqqında" 1867 il 9 dekabr tarixli çar fərmanı ilə yeni *Yelizavetpol*

downloaded from KitabYurdu.az

*Quberniyası* təşkil edilmişdi. Həmin fərman əsasında Yelizavetpol (Gəncə) quberniyasının tərkibində ayrıca Qazax qəzası yaradılmışdı. 1917 il Qafqaz təqviminin məlumatma görə, Qazax qəzasının sahəsi 5096,52 *kv.verst* idi. Qəzada 137049 nəfər əhali yaşayırdı. Onun 78601 nəfəri (57,4%) kişi, 58448 nəfəri (42,6%) qadın, 131032 nəfəri yerli sakin, 6.017 nəfəri müvəqqəti yaşayanlar idi. Burada qəza idarə sistemi mövcud idi. Qəzada iri mülkədar təsərrüfatları üstünlük təşkil edirdi. Qazax qəzasında əkinə yararlı torpağın 98,9%-i (518573 desyatin) xəzinəyə və mülkədarlara məxsus idi. Kəndlilərin ixtiyarında isə cəmi 5362 desyatin satınalma pay torpağı vardı. Qəzanın iqtisadi həyatında kənd təsərrüfatı əsas yer tuturdu.

Fevral inqilabından (1917) sonra Qazax qəzasında Müvəqqəti hökumətin yerli hakimiyyət orqanları yaradılmağa başladı. Martda Qazax şəhər icraiyyə komitəsi seçildi. Oktyabr çevrilişindən (1917) sonra Qazax qəzası *Zaqafqaziya komissarlığının* hakimiyyəti altına keçdi. Bu dövrdə qəzada kəndli hərəkatı genişləndi. Bolşeviklər kəndlilərin narazılığından istifadə edərək fəallaşdılar. 1917 il dekabrın ikinci yarısında Qovlar stansiyasında S.Şaumyan və Həmid Sultanovun iştirakı ilə müşavirə keçirildi. Müşavirədə mülkədar torpaqlarının müsadirə edilərək kəndlilərə verilməsi, silahlı kəndli dəstələri yaradılması haqqında qərarlar qəbul olundu. 1918 il yanvarın əvvəllərində kəndli çıxış lan artdı. Bəzi tədqiqatlarda Qazax qəzasında 1918 ilin yanvar-iyun aylarında sovet hakimiyyəti qurulduğu qeyd edilir. Azərbaycan Xalq Cümhuriyyəti 1918 ilin iyununda Qazax qəzasında öz hakimiyyətini bərqərar edə bildi. Ermənistan Respublikası, digər Azərbaycan torpaqları kimi, Qazax qəzasının dağlıq hissəsinə də iddia irəli sürdü. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qazax qəzası ilə əlaqədar bəzi qanunvericilik sənədləri qəbul olunmuşdu. 1918 il iyunun 22-də Qori müəllimlər seminariyası Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi üçün vəsait ayrılması barədə qərar qəbul edilmiş, 21 oktyabr tarixli qərarla seminariyasının saxlanmasına vəsait ayrılmışdı. 1918 il 12 iyul tarixli qərarla Salahlı, Şıxlı kəndlərində və Poylu stansiyasında sərhəd məntəqələri təşkil olunmuşdu. Qazax qəzasının idarəçiliyini möhkəmləndirmək üçün də tədbirlər görülmüşdü. 1919 il 17 fevral tarixli qərarla qəzada, müvəqqəti olaraq, Daxili İşlər Nazirliyinin fövqəladə səlahiyyətli müvəkkili vəzifəsi təsis olunmuş, 7 may tarixli qərarla R.Qaraşarov bu vəzifəyə təyin edilmişdi. Lakin Cümhuriyyət Hökumətinin aqrar məsələnin həllini ləngitməsi Qazax qəzasında kəndlilərin narazılığının davam etməsinə səbəb oldu. 919 ilin sentyabrında Qazaxda kəndli qurultayı keçirildi. Qurultay torpaq məsələsi haqqında bolşevik qətnaməsini qəbul etdi. Vəziyyəti nəzərə alan Cümhuriyyət Hökuməti Bakı qubernatorunun köməkçisi Əmiraslan xan Xoyskini ) Qazax qəzasına göndərsə də, o, tezliklə buranı tərk etməli oldu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Qazax qəzasında hərbi inqilab komitəsi yaradıldı. Ermənistanda sovet hökuməti qurulduqdan (1920, 29 noyabr) sonra Qazax qəzası ərazisinin 44,5%-i, o cümlədən 1874 il inzibati bölgüsünə görə Azasu, Qaradaş, Qılınc kənd, Uzuntala, Baranin, Qalaçı, Kötikənd, Qoşqotan Külpi, Yeni Dilican, Köhnə Dilican, Karvansara, Qaraqo yunlu, Polad, Ayrım, Xaştar, Başkənd, Küləli, Mixaylovsk, Tatlıkənd, Tovuzqala kəndləri Ermənistanın tərkibində qaldı. Qazax qəzasının Azərbaycanın tərkibində qalan torpaqlarında Qazax, Ağstafa, Tovuz, Gədəbəy Şamxor rayonları, Ermənistana verilmiş torpaqlarda isə Karvansara (İcevan), Çəmbərək (Krasnoselsk), Şəmşəddil, Dilican rayonları yaradıldı.

*Əd.:* Tiflis əyalətinin müfəssəl dəftəri. Borçalı və Qazax (1728-ci il), B., 2001; Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998. Законодательные акты (сборник документов), Б., 1998; Миралаев Т.С., Революционное движение трудяшихся крестьян партия-организатор победы Советской власти и строительства социальства социализма в Азербаиджане, Б., 1958.

**QAZAX MÜƏLLİMLƏR SEMİNARİYASI** - Azərbaycanda ibtidai məktəblər üçün müəllim hazırlayan ilk tədris ocağı (1918-1925). Qazax əhalisinin xahişi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 ci il 22 iyun tarixli qərarına əsasən, *Qori müəllimlər seminariyası* Azərbaycan şöbəsinin bazasında yaradılmışdı.

Seminariya 1918 il noyabrın 10-da Məşədi İbrahim Kosalının malikanəsində fəaliyyətə başlamışdır. Seminariyanın direktoru vəzifəsinə Qori seminariyası Azərbaycan şöbəsinin sonuncu müfəttişi, məşhur pedaqoq və ədəbiyyatşünas Firidun bəy Köçərli təyin olunmuşdu. O, 1920 ilin mayında Gəncədə qətlə yetiriləndən sonra seminariyaya Əli Hüseynov (yazıçı Mehdi Hüseynin atası) rəhbərlik etmişdir. Seminariyanın pedaqoji heyəti müxtəlif illərdə Qori seminariyasında təhsil almış Əhmədağa Mustafayev, İbrahim Qayıbov, Mirzə Vəliyev, Müstafa Məmmədov, Yusif Qasımov, İsfəndiyar Vəkilov və b.-dan ibarət idi.

Qazax müəllimlər seminariyasına bütün bölgələrdən şagird qəbul edilirdi. Lakin dövrün iqtisadi çətinlikləri ilə əlaqədar, tələbə kontingenti Qazax və onun ətraf məntəqələrində yaşayan yeniyetmə və gənclərdən komplektləşdirilmişdi. Azərbaycanın maarif, elm və ədəbiyyatının inkişafında böyiik xidmətləri olan xalq şairləri Səməd Vurğun və Osman Sarıvəlli, Mehdixan Vəkilov, Hacıbala Hacıyev və b. seminariyanın ilk məzunlarından idilər. Seminariya Qori müəllimlər seminariyasının D.D.Semyonov və A.O.Çemyayevskinin adı ilə bağlı olan mütərəqqi pedaqoji ənənələri, mühüm elmi-metodiki prinsipləri zəminində, yeni dövrün tələblərinə, yerli şəraitin xüsusiyyətlərinə və milli maraqlara uyğun qurulmuşdu. Seminariyanın tədris planına "Azərbaycan tarixi" fənni daxil edilmiş, bütün fənlərin ana dilində tədrisi həyata keçirilmişdi. 1923 ildə seminariyanın ilk buraxılışı oldu. Seminariya 1925 ildə pedaqoji texnikuma çevrildi.

*Əd.:* Nəbiyev B., Firidun bəy Köçərli, B., 1984; Nəzirli Ş., Qoridən gələn qatar, B., 1993; Seyidov F., Maarifimizin təkrarsız xəzinəsi, B., 2001.

downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az

**QAZAX QƏZASINDA DAXİLİ İŞLƏR NAZİRLİYİNİN XÜSUSİ MÜVƏKKİLİ** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Qazax qəzasında yerli hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət etmək, azərbaycanlılar, ermənilər və gürcülər arasında münasibətləri tənzimləmək məqsədilə 1919 il fevralın 17-də təsis etdiyi müvəqqəti vəzifə. 1919 il mayın 7-də bu vəzifəyə Rza bəy Qaraşarov təyin olunmuş, ona qəzada fəaliyyət göstərən hakimiyyət nümayəndələrinə nəzarət etmək, lazım gəldikdə, onları tutduqları vəzifələrdən kənarlaşdırmaq səlahiyyəti verilmişdi.

**QAZAXDA KƏNDLİ QURULTAYI** - Qazax qəzası kəndlilərinin 1919 il sentyabrın 25-də Qazax şəhərində keçirilən qurultayı. Qurultay hümmətçi menşeviklərin təşəbbüsü ilə çağırılmışdı. Bolşeviklərlə digər sosial-demokratlar arasında kəskin mübahisə şəraitində keçən qurultayda Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin aqrar siyasəti müzakirə olunmuşdur. "Müsavat" partiyasının nümayəndələri qurultayda iştirak etmirdi. Qurultayda iştirak edən Bakı Fəhlə Konfransının nümayəndə heyəti kəndliləri fəhlələrlə ittifaqda sovet hakimiyyəti uğrunda, burjua-mülkədarlar əleyhinə mübarizəyə çağırdı. Qurultayda hümmətçi menşeviklər öz aqrar proqramlarını, Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti sosialist fraksiyasının üzvləri isə aqrar komissiyada yeritdikləri torpaq siyasətinin mahiyyətini izah və müdafiə edirdilər. S.Ağamalıoğlu hər mülkədara 10 desyatin bağ yeri, 15 desyatin əkin yeri və 45-50 desyatin otlaq saxlamaqla, qalan torpaqların ödənc ilə kəndlilərə paylanmasını, torpaq pulunun ödənilməsi üçün əhaliyə gəlir vergisi qoymaq yolu ilə fond yaradılmasını təklif etdi. İ.Əbiləv və Ə.Pepinov da bu aqrar proqrama tərəfdar çıxdılar. D.Bünyadzadə, R.Hüseynov, Ə.Qarayev, A.Yusifzadə isə bütün mülkədar torpaqlarının müsadirə edilib, təmənnasız olaraq kəndlilərə paylanması təklifmi irəli sürdülər. Qurultayın qəbul etdiyi qətnamədə deyilirdi: "...Rusiya inqilabının ən böyük nailiyyətlərindən biri torpağın zəhmətkeşlərə verilməsi şüarı idi. Ona görə də biz parlament və hökumətdən tələb edirik ki, ən yaxın müddətdə bu məsələni həll etsin və kəndlilərin tələbini yerinə yetirsin". Qurultayın seçdiyi xüsusi nümayəndə heyəti oktyabrın 12-də Bakı Fəhlə Konfransının iclasında iştirak etmişdir. Konfransda qurultay haqqında məruzə dinlənilmiş, müvafiq qətnamə qəbul olunmuşdu.

*Əd:* Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Борьба за победу Советской власти в Азербайджане. 1918-1920 Документы и материалы, Б., 1967; Агамалиева Н., Худиев Р., Азербайджанская Республика . Страницы политической истории 1918-1920 гг., Б., 1994,

**"QEYRƏT"** - Azərbaycanda ilk milli sosial-federalist təşkilatı. 1905 ildə Gəncədə yaradılmışdır. Təşkilata hüquqşünas Ələkbər bəy *Rəfibəyli,* Gəncə (Yelizavetpol) dairə məhkəməsinin üzvü Ələkbər bəy *Xasməmmədov,* şəhər polis idarəsinin pristav köməkçisi A.Quliyev başçılıq edirdilər. Q.Fəttahov, M.H.İsmayılzadə, H.M.Həmzəyev, M.Xəliləv da təşkilatın üzvü idilər.

Təşkilat əvvəlcə özünü "Türk sosial-federativ inqilabi komitəsi" adlandırır, bu adla vərəqələr buraxırdı. Azərbaycan xalqına qarşı törədilən soyqırımları ilə bağlı bu vərəqələrdə türk-müsəlman əhaliyə müraciət edilir və onlar bütün vərəqləri milli qırğınların əsas təşkilatçısı olan çar hökumətinə qarşı yönəltməyə çağırılırdı. Komitənin Qafqaz xalqlarına müraciətində onları birliyə, Rusiya hakimiyyətinə qarşı mübarizəyə dəvət edilir və göstərilirdi ki, Qafqaz xalqları çar hökümətindən özləri üçün bərabər hüquqlar almaq istəyirlər və birləşib muxtariyyət yaratmalıdırlar. Azərbaycanda federalizm ideyaları ilə ilk dəfə çrxış edən bu komitə 1905 ilin ortalarında "Qeyrət" təşkilatının əsasını qoydu. "Qeyrət” gürcü sosial-federalist partiyası ilə də əlaqələr yaratmişdı. Təşkilat Bakıda və Şuşada da fəaliyyət göstərirdi. "Qeyr üzvləri əhali arasında federalizm ideyalarının təbliğ ilə yanaşı, sosial-demokratlarla birlikdə mitinqlərdə iştirak edərək, millətlərarası toqquşmaları dayandırmağa çağırırdı.

Balkan müharibələrinin (1911-12) başlanması və Rusiya-Türkiyə münasibətlərinin kəskinləşməsi ilə əla (Azərbaycan, eləcə də gürcü sosial-federalistlərin fəaliyyəti genişləndi. Rusiya tərkibində muxtariyyət ideyalarının təbliğatçıları çar hakimiyyəti üçün təhlükə törətdiyindən onlara qarşı repressiyalar başlandı. "Qeyrəfin bəzi üzvləri (H.M.Həmzəyev, M.Xəlilov və b.) həbs olundular, təşkilatın fəaliyyəti dayandırıldı. Azərbaycan sosial-federalistləri Fevral inqilabından (1971) sonra "Türk ədəmi-mərkəz partiyası" adı ilə yenidən fəaliyyətə başladılar.

*Əd.:* Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqillyə aparan yollar, B., 1998; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века, Б., 1997; Ахмедов А., Азербайджанские тюрки в революции 1905 г., Б., 2001.

**"QEYRƏT"** - Cəlil *Məmmədquluzadə* və Ömər *Nemanzadənin* naxçıvanlı tacir Məşədi Ələsgər Bağırzadənin maddi köməkliyi ilə Tiflisdə "Şərqi-Rus" qəz bazasında yaratdıqları mətbəə-nəşriyyat (1905-11) "Qeyrətin sahibi-imtiyazı C.Məmmədquluzadə, müdiri Ö.F.Nemanzadə idi. Ö.F.Nemanzadə yazırdı ki, ***mən, əziz yoldaşlarım: əhli-qələmdən Məmmədquluzadə, tüccardan Şeyx Ələsgər Bağırzadə, bu üçümüz ittihad edib... Tiflisdə bir müsəlman mətbəəsi açdıq, adını "Qeyrət" təmsiyyə etdik.*** Moskvada alman firması tərəfindən buraxılmış "Frok və "Amerikanka" adlı çap maşınları, çoxlu hürufat klişeləri olan mətbəədə "türkcə, farsca, ərəbcə, rusca və firəngcə hər növ kitab, məcmuə..." nəşri nəzərdə tutulmuşdu.

20 əsrin başlanğıcında xalqın milli dirçəlişinə 5 göstərmək "Qeyrət” in əsas amalı idi. Burada müxtəlif mövzularda kitablar - bədii ədəbiyyat (C.Məmmədquluzadə "Poçt qutusu", "İranda hürriyyət", "Usta Zeynal", "Qurbanəli bəy" hekayələri, Əbdürrəhim bəy Haqverdiyevin " Millət dostları" komediyası, Mirzə Əbdürrəhim Talıbovun " Məsailül-həyat" romanı, Məmməd Səid Ordubadinin "Qəflət” "Vətən və hürriyyət" şer topluları, Seyid Nigarinin "Divan”ı) bədii tərcümə (Firdovsinin "Rüstəm və Söhrab" dastanı, Namiq Kamalın "Röya" pyesi), dərsliklər ("Vətən dili", “İkinci il", "Nəsihətül-ətbaf”", "Ana dili") və s. nəşr olunurdu.

Xalqın siyasi düşüncəsini oyatmaq "Qeyrət”in məramnaməsində aparıcı yer tuturdu. Onun əməkdaşları 2 (əvvəlində bütün siyasi qüvvələri ətrafında birləşdirən

downloaded from KitabYurdu.az



"Qeyrət" mətbəəsinin binası. Tiflis



C.Məmmədquluzadə "Qeyrət" mətbəəsində. Rəssam Nəcəfqulu

"Hümmət" təşkilatı ilə sıx əlaqədə işləyirdi. "Qeyrət"'in nəşr etdirdiyi kitablar arasında Fyodoroviçin "Millətin paraları nasıl toplanır və nasıl sərf olunur?", O.Volkenşteynin "Azadə danışmaq və bir yerə cəm olmaq nə üçündür?", Peşexonovun "Neft, nur və hürriyyət" kimi sırf siyasi məzmunlu kitabçalar, broşürlər vardı. Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurası və Parlamenti sədrinin müavini Həsən bəy Ağayevin rus dilindən tərcümə etdiyi "Silk, sinif, firqə" kitabı da "Qeyrət"də nəşr olunmuşdu. "Qeyrət" İran və türk inqilabçıları ilə sıx əlaqə saxlamış, onların sifarişlərini yerinə yetirərək, xalqı istibdad rejiminə qarşı mübarizəyə çağıran intibahnamələr çap etmişdi.

Şərq xalqlarının siyasi və milli oyanışında misilsiz xidmət göstərən "Molla Nəsrəddin" jurnalı da 1906-11 illərdə "Qeyrət" mətbəəsində nəşr olunurdu. "Qeyrət" mətbəə-nəşriyyatı Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində xalqın milli-siyasi oyanışında mühüm rol oynamışdır.

*Əd.:* Axundov H., "Molla Nəsrəddin" jurnalının nəşri tarixi, B., *1959;* Məmmədli Q., Molla Nəsrəddin (salnamə), B., 1984; Mirəhmədov Ə., Azərbaycan Molla Nəsrəddini, B., 1980; Qurbanov Ş., Ömər Faiq Nemanzadə, B., 1992; Həbibbəyli İ., Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, B., 1997.

**QƏBULOV** Baba bəy (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Parlamentə daxil olunmuşdu. Qəbulzadə Cümhuriyyətin görkəmli xadimi Mimərdan bəy *Topçubaşov,* Səməd bəy *Mehmandarov* və Cudadat bəy *Məlik-Aslanovla* birlikdə Parlamentin müstəqillər fraksiyasını təmsil edirdi.

**QƏBULOV** İslam bəy Hacı Pirməmməd bəy oğlu 15.10.1879, Qax - ?) - maarifçi, publisist, "Müsavat" partiyasının fəal üzvlərindən biri. Mollaxanada oxumuş, Zaqatala 4-cü dərəcəli şəhər məktəbini bitirmişdir. 1905 də Tiflis quberniyası xalq məktəbləri inspektorunun vəsatəti ilə Qax məktəbinin nəzdində tatar (Azərbaycan) şöbəsinə, 1910 ildə isə Bakı şəhər dumasının məktəb komissiyasında imtahan verərək, 5-ci "rus-müsəlman' məktəbinə müəllim təyin olunmuşdur. Qəbulov "Müsavat" partiyasının 1919 il dekabrın 2-də çağırılan II qurultayının katibi seçilmişdir. 20 əsrin əvvəlində dövü mətbuatda publisist məqalələrlə çıxış etmiş, "Qəvaidi-lisani-türki" (1902) və "Rəhbəri-hesab" (1904) dərsliklərini nəşr etdirmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**QƏDİMOV** Lətif Şirin oğlu (20.3.1895, Şuşa - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdi (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini nəqliyyat sahəsində davam etdirmək üçün Berlin Parloffen institutuna (Almaniya) göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitirməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**QƏMƏRLİNSKİ,** Əhməd Haşım oğlu Məlikov (1880, Bakı - 9.3.1952, Bakı) - aktyor, Azərbaycanın əməkdar incəsənət xadimi (1940). Səhnəyə ilk dəfə 1906 ildə, həvəskar aktyorların Balaxanıda hazırladıqları tamaşalarda çıxmış, həmçinin xalq mərasim, oyun və əyləncələrində iştirak etmişdir. Sonralar milli teatr sənətinin inkişafında mühüm rolu olmuş *"Nicat"* cəmiyyətinin nəzdindəki teatr truppasının aktyoru olmuş, bir sıra obrazlar yaratmışdır. Rüstəm bəy, Kərbəlayı Qubad ("O olmasın, bu olsun", "Ər və arvad", Üzeyir bəy Hacıbəyli), Bayram ("Hekayəti-Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə),

downloaded from KitabYurdu.az

İblis ("Pəru-cadu", Əbdürrəhim bəy Haqverdiyev). Azərbaycan Xalq Cümhuriyyəti dövründə təşkil olunmuş (1919, 17 noyabr) Dövlət türk opera dram Teatrında işləmişdir. Sonralar Bakı Azad Tənqid-Təbliğ Teatrında aktyor və rejissor kimi çalışmış, "İsmət", "Almas", "Səbuhi" filmlərində çəkilmişdir.

**QƏMKÜSAR,** Əliqulu Ələkbər oğlu Nəcəfov (1880, Naxçıvan - 14.3.1919, Tiflis) - şair, jurnalist, ictimai xadim. İlk təhsilini mollaxanada almış, ərəb və fars dillərini öyrənmişdir. Sonralar Məhəmməd Tağı Sidqinin Naxçıvanda açdığı "Tərbiyə" ("Məktəbi-tərbiyə") məktəbində oxumuşdur. 1896-1912 ıllərdə Culfa gomrükxanasında



işləmişdir. Dövrün mürəkkəb ictimai-siyasi həyatına qoşulan Qəmküsar burada Tiflis "Hümmət" təşkilatının yerli özəyində çalışmışdır. Səttarxan hərəkatı, İran Azərbaycam inqilabçıları ilə əlaqə saxlamış, onlara yardım göstərmişdir. 1912 ildə Cəlil Məmmədquluzadənin dəvəti ilə Tiflisə gələrək, *"Molla Nəsrəddin "* jurnalının nəşrində ona yaxından kömək etmiş, 1913-14 illərdə jurnalın məsul mühərriri olmuşdur. 1916-17 illərdə C.Məmmədquluzadə ilə birlikdə ədibin "Ölülər" komediyasının Bakıda, Orta Asiyada və Volqaboyu vilayətlərində tamaşaya qoyulmasında fəal iştirak etmiş, Şeyx Nəsrullah rolunun ilk ifaçısı olmuşdur. 1917 ildə bir müddət Naxçıvanda yaşamış, burada "El güzgüsü" adlı dram dərnəyi təşkil etmişdir. Həmin il yenidən Tiflisə köçən Qəmküsar "Molla Nəsrəddin" jurnalı ilə yanaşı, digər mətbuat orqanlarında da şer, məqalə və felyetonlar dərc etdirmişdir. Tiflisdə qaragüruhçular tərəfindən xaincəsinə qətlə yetirilmişdir.

Qəmküsar Azərbaycan ədəbiyyatı tarixinə mollanəsrəddinçi şair kimi daxil olmuşdur. Məhz "Molla Nəsrəddin" ədəbi mühitinin ən qabaqcıl nümayəndələrindən olan Qəmküsar 1906 ildə "Cüvəllağı", "Cüvəllağıbəy", "Sarsaqqulubəy", "Simurq", "Xadimi-millət", "O taylı" və s. imzalarla dərc etdirdiyi satirik şer və felyetonlarda fanatizmi, gerilik və cəhaləti, fırıldaqçı və cahil ruhaniləri, çarizmin müstəmləkəçilik siyasətini, İran əks-inqilabını, Şərq, xüsusən İran istibdadını, beynəlxalq imperializmi kəskin satira atəşinə tutmuşdur. Onun satirası həm ideya məzmunu, həm də bədii üslubu ilə Mirzə Ələkbər Sabir satirasının davamı idi.

Siyasi əqidəsinə görə Azərbaycan Xalq Cümhuriyyəti və onun bəzi liderləri ilə müxalifətdə olmuş, "Əlaman" müxəmməsində Cümhuriyyət Hökumətini kəskin tənqid etmişdir.

Əsəri: Seçilmiş əsərləri, B., 1959.

*Əd.:* Ağayev İ., Əliqulu Qəmküsar, B., 1976; Həbibbəyli İ., Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, B., 1997.

**QƏNİZADƏ** Sultanməcid Hacı Murtuzəli oğlu (aprel, 1866, Şamaxı - 1937, Bakı) - maarif xadimi, yazıçı, tərcüməçi, filoloq alim. Tacir-müəllim ailəsində doğulmuşdur. "Məclis" məktəbində (1872-79), 3-cü dərəcəli şəhər məktəbində (1879-82) oxumuş və birillik pedaqoji kurs bitirmişdir (1883). Tiflisdə Aleksandr Müəllimlər



İnstitutunda almışdır. Bakıda Həbib bəy Mamudbəyovla açdığı ilk xususı “rus-müsəlman" məktəbində (1887-91) müəllim, 2-ci "rus-müsəlman" məktəbində (1891-98), 2-ci dərəcəli ali ibtidai məktəbdə (1898-1905) müdir, *Qori müəllimlər seminariyasının* Azərbaycan şöbəsində (1905-08), Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri idarəsinin 2-ci rayonu üzrə müfəttiş (1908-17) və vilayət xalq məktəblərinin direktoru (1917-18) işləmişdir.

Birinci rus inqilabından (1905-07) sonra Qənizadənin dünyagörüşündə islamçılıq və islam birliyi meylləri güclənmiş və o, 1917 ildə bütün müsəlmanların birliyini təbliğ edən "İttihad" partiyasının təşkilatçılarından olmuşdur. 1918 il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü seçilmiş, İstiqlal bəyannaməsi imzalanarkən bitərəf qalmışdır. Qənizadə ilk milli dövlətin quruculuq işlərində və Parlament iclaslarında fəal iştirak etmişdir. 1919 ilin avqustunda Parlamentin sədr müavini seçilmişdir. O, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclaslarında müzakirə olunan məsələlərə "İttihad" partiyasının və özünün şəxsi münasibətlərini bildirirdi. "İttihad" partiyasının liderlərindən biri kimi, "müsavat"çılarla ardıcıl surətdə davam edən ixtilaflar Qənizadənin keçmiş şagirdi Məhəmməd Əmin R*əsulzadənin* və Nəsib bəy *Yusifbəylinin* idarəçilik üsullarına mənfi və inkarçı münasibətin yaranmasma səbəb olmuşdu. "XIX əsrin axır illərində maarif və ədəbiyyata dair xatiratım" əsərində Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin fəaliyyətini tənqid etmişdir. "Kommunist" qəzetində dərc etdirdiyi məktubda (1920 il, 5 may) və "Tərcümeyi-hal"ında (1931 il, 31 mart) "Müsavat" firqəsinin sol cinahında durub, bolşeviklərlə işləməyi müdafıə etdiyini açıqlamışdır.

Sovet hakimiyyəti illərində Azərbaycan SSR Xalq Maarif Komissarlığında dərslik və sinifdənkənar oxu materialı hazırlayan şöbənin müdiri (1920-25), Bakı şəhər xalq maarifı idarəsində inspektor (1925-29), pedaqoji təcrübə məşğələlərinin rəhbəri olmuş, hərbi məktəbdə və sənaye institutunda dərs demişdir.

Qənizadə bədii və elmi yaradıcılıqla müntəzəm məşğul olmuş, realist ədəbiyyatın inkişafında, ilk dərsliklərin və lüğətlərin yaranmasında mühüm xidmət göstərmişdir. Ədibin "Məktubati - Şeyda bəy Şirvani" dilogiyası ["Müəllimlər iftixari" (1898)), "Gəlinlər həmayili" (1900)], "Allah xofu" (1906), "Qurban bayramı, yaxud on gün riyazət" (1907) hekayələri milli realist ədəbiyyatın dəyərli nümunələrindəndir. Rus ədəbiyyatından tərcümələri "Əvvəlinci şərabçı" [Lev Tolstoy, 1894), "Allah divanı", "Nabəkar qonşu" (Poqosski, 1896] və s. var. Alim 19 əsrin 80-90-cı illərində və birinci rus inqilabı ərəfəsində Azerbaycan, rus

downloaded from KitabYurdu.az

və fars» dillərinin tədrisindən ötrü "İstilahi-Azərbaycan" (h.1-2, 1889), "Rus dilinin müəllimi" (1896), "Kilidi-ədəbiyyat" (Əlisgəndər Cəfərzadə ilə birgə, 1900), "Əlifbayi-mütəhərriki" (1905) dərsliklərini, "Lüqəti-rusi və türki" (1890), "Rus dilinin dilmancı" (1896), "Lüqəti-türki və rusi" (1904) lüğətlərini yazıb nəşr etdirmişdir.

Qənizadənin "Bir para mətləblər" başlığı ilə "Həyat" və "İrşad" qəzetlərində dərc etdirdiyi publisist məqalə və felyetonlarda Birinci rus inqilabı nəticəsində əldə edilmiş azadlıqlar, çarizmin müstəmləkəçilik rejimini müdafiə edən müsəlman ruhaniləri və ana dilini lüzumsuz ərəb-fars sözləri ilə korlayan mühərrirlər kəskin tənqid olunur.

Hüseyn Ərəblinskidən bəhs edən "Böyük aktyor haqqında xatirələrim", "Sabir haqqında kiçik bir xatirə"nin də müəllifidir. Əsərləri: Seçilmiş əsərləri, B., 1965; Gəlinlər həmayili, B., 1986.

*Əd:* Məmmədov X., Sultan Məcid Qənizadə, B., 1983.

**QƏZA** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə yerli inzibati-ərazi vahidi, quberniyanın tərkib hissəsi. Qəzalar inzibati-ərazi vahidləri kimi çar Rusiyası zamanı yaradılmışdı. Azərbaycanın şimalının Rusiya tərəfindən işğalından sonra ləğv olunan xanlıqların əvəzində əyalətlər yaradıldı. 1840 il 10 aprel tarixli fərman əsasında inzibati-məhkəmə islahatının gedişi zamanı əyalətlərin yerinə qəzalar yaradılmışdı. 1867 və 1873 illərdə qəzaların sayı artırılmışdı. Çar II Aleksandrın 1888 il fərmanı ilə Cənubi Qafqazda 37 qəza yaradılmışdı. Bu vəziyyət Rusiyada çarizmin süqutunadək davam etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra quberniya inzibati-ərazi bölgüsü saxlandığına görə, onun tərkib hissəsi kimi, qəzalar da qalmaqda davam etdi. Cümhuriyyətin ərazisində müəyyən edilmiş 18 yerli inzibati-ərazi vahidindən ikisi (Zaqatala və Göyçə mahalları) istisna olmaqla, qalanları qəzalar idi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da qəzalar yerli inzibati-ərazi vahidi kimi saxlanmış, yalnız 1929 ildə ləğv edilmişdir.

*Əd.:* Bax *Qubemiya* məqaləsinin ədəbiyyatına.

**QƏZA İDARƏ SİSTEMİ** - qəzalarda idarəçiliyi həyata keçirən hakimiyyet orqanı. Çar Rusiyasında qəzaların yaradılması nəticəsində təşəkkül etmişdi. Azərbaycanın şimalında qəza idarələri 1840 il 10 aprel qanunu əsasında yaradılmağa başlanmışdı. Qəza idarəciliyinə qəza rəisi, onun köməkçisi, qəza xəzinədarı, sahə iclasçıları və şəhər polisi vəzifələri daxil idi. Azərbaycan Xalq Cümhuriyyətində qəza rəisi çar Rusiyasındakına nisbətən daha geniş hüquqlara malik idi. Cümhuriyyət dövründə qəzaların yerli inzibati-ərazi vahidi kimi saxlanması ilə əlaqədar olaraq, qəza idarəsi də müəyyən dəyişikliklərlə fəaliyyətini davam etdirmişdir.

*Əd.:* Bax *Qubemiya idarə sistemi* məqaləsinin ədəbiyyatına.

**QIRMIZI QVARDİYA DƏSTƏLƏRİ** Bakıda sovet hakimiyyətinin ilk silahlı dəstələri. Sovet hakimiyyəti elan olunduqdan sonra RSDF(b)P Bakı komitəsinin qərarına əsasən 1917 ilin noyabrından yaradılmağa başlanmışdı. Təşkilinə başçılıq etmək üçün Bakı Sovetinin İcraiyyə Komitəsi mərkəzi büro yaratmışdı. 1918 ilin əvvəlində həmin büro Qırmızı qvardiyanm baş qərargahma çevril-mişdi. Həmid Sultanov istisna olmaqla, qeyri millətlərden ibarət baş qərargahın sədri erməni A.Bağdasarov idi. Qırmızı qvardiyanın əsasını onluqlar təşkil edirdi. Dörd onluq bir taqım, üç taqım bir drujina, üç drujina bir tabor sayılırdı. Bir taborda təxminən 500-600 nəfər olurdu. Qırmızı qvardiyaya yalnız Bakı Sovetinin platformasmı dəstəkləyən fəhlələr qəbul edilirdilər. Bütün qvardiyaçılar iş yeri və maaşla təmin olunurdular. Sahibkarlar onlara maaş verməkdən boyun qaçırdıqda yerli sovetlər bunu təmin edirdilər. Qvardiyaçılar, əsasən, rus, fransız və alman tüfəngləri ilə silahlandırılırdı. Baş qərargahın tabeçiliyində Qafqaz ordusundan tərxis olunmuş əsgərlər tərəfindən verilmiş iki zirehli qatar var idi. 1917 ilin sonunda Qırmızı qvardiyanın tərkibində 400 döyüşçü var idisə, 1918 ilin aprelində Qafqaz cəbhəsindən qayıdan erməni əsgər və zabitlərinin hesabına onun sayı 4000 nəfərə çatırdı. 1918 ilin əvvəlində RSDF(b)P-nin Bakı komitəsi hərbi drujinaların təşkilinə başladı. Bolşevik drujinalarının yaradılmasına əsas köməyi Qafqaz ordusu hərbi inqilab komitəsi göstərirdi. Şəhər cəbbəxanalarında olan ən yaxşı silahlar bolşeviklərə verilirdi. Döyüş drujinalarına, ən azı dörd aylıq stajı olan partiya üzvləri qəbul edilirdilər. Əvvəllər drujinaların tərkibində 50-60 döyüşçü olduğu halda, 1918 ilin martında onların sayı 400-ə çatdırıldı. Hər bir drujina müxtəlif silahlarla, o cümlədən "kolt" tipli iki pulemyotla silahlanmışdı.

Qırmızı qvardiyanın təşkilinə Azərbaycan xalqının münasibəti mənfi idi. Çünki S.Şaumyanın başçılıq etdiyi Bakı Soveti onun milli varlığı iiçün ciddi təhlükə yaradılırdı. Qırmızı qvardiyanın rəhbərliyi və şəxsi heyəti əsasən ermənilərdən ibarət idi. 1918 ilin mart soyqırımı ərəfəsində Bakı Xalq Komissarları Sovetinin Qırmızı qvardiya dəstələrindən ibarət olan hərbi qüvvələri 18 min nəfərə çatırdı ki, bunun da böyük əksəriyyəti Birinci dünya müharibəsi cəbhələrindən Bakıya gətirilmiş silahlı erməni əsgər və zabitlərindən ibarət idi. Qırmızı qvardiya dəstələri 1918 il mart soyqırımında Azərbaycan xalqına qarşı xüsusi qəddarlıq göstərmişlər.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası, B., 1990; Həsənli C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**"QIRMIZI TABOR"** - 1918-22 illərdə Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və b. ərazilərdə fəaliyyət göstərmiş xalq könüllülərindən ibarət partizan birləşməsi. Abbasqulu bəy *Şadlinskinin* başçılığı ilə 1918 ilin yayında Vedibasar bölgəsində yaradılmışdı. Erməni-daşnak quldur dəstələrinin Azərbaycan xalqına qarşı törətdikləri qanlı cinayətlərin, soyqırımların qarşısını almaqda mühüm rol oynamışdı. 1918 ilin iyulunda daşnakların Vediyə birinci hücumu zamam "Qırmızı tabor" hissələri onlara ciddi müqavimət göstərmiş, düşməni canlı qüvvə və texnika sarıdan çoxlu itki verərək, qaçmağa məcbur etmişdilər. Bu əməliyyat zamam "qırmızı tabor"çular qənimət kimi çoxlu silah və sursat ələ keçirmişdilər. 1919

downloaded from KitabYurdu.az

ilin iyulunda daşnakların Vediyə ikinci hücumu zamanı "Qırmızı tabor" dəstələri yenə də qəhrəmancasına müqavimət göstərmiş, lakin düşmənin üstün qüvvələri qarşısında vuruşa-vuruşa öz mövqelərini tərk etməyə və İrəvan şəhərinə doğru geri çəkilməyə məcbur olmuşdular. Bundan sonra Vedibasar, Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçən "Qırmızı tabor" hissələri əvvəlcə Xoy şəhəri yaxınlığındakı Qəzənfərdağ adlı yerdə, sonra isə Mərənd şəhəri ətrafında mövqe tutmuşdular. Naxçıvanda sovet hakimiyyəti elan edildikdən (1920, 28 iyul) sonra Naxçıvan hərbi inqilab komitəsinin dəvəti ilə A.Şadlinskinin başçılığı ilə 200 nəfərlik "Qırmızı tabor" dəstəsi sentyabrın 17-də Naxçrvana gəlmiş, buradakı qınnızı qvardiya dəstələri "Qırmızı tabor"la birləşmişdi. "Qırmızı tabor"a, evvəlcə, Naxçıvan sərhədlərinin qorunması tapşırılmış, sonra isə, onun döyüşçüləri daşnaklara qarşı Zəngəzur istiqamətində döyüş əməliyyatları aparmışlar. 1921 ilin fevralında Ermənistanda sovet hakimiyyətinə qarşı daşnak qiyamı zamanı Ermənistan SSR hökumətinin dəvətilə köməyə gəlmiş "Qırmızı tabor" hissələri həmin qiyamın yatırılmasında mühüm rol oynamışdılar. Daşnaklara qarşı döyüşlərdə göstərdikləri şücaətə görə A.Şadlinski başda olmaqla "Qırmızı tabor"un 19 üzvü Ermənistan SSR-in "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu. "Qırmızı tabor" hissələri Zəngəzurun daşnaklardan təmizlənməsində də böyük qəhrəmanlıq göstərmişdilər. Ermənistanda və Zəngəzurda sovet hakimiyyəti bərqərar olduqdan sonra "Qırmızı tabor" Naxçıvanda saxlanılmış və onun sərhədlərinin qorunmasında fəal iştirak etmişdir. 1986 ilin oktyabrında Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda "Qırmızı tabor" partizan dəstəsinə həsr olunmuş "Şöhrət muzeyi" açılmışdır. Yazıçı F.Kərimzadənin "Qarlı aşırım" romanı və onun əsasında çəkilmiş "Axırıncı aşırım" bədii filmi "Qırmızı tabor"un fəaliyyətindən bəhs edir.

*Əd:*. Əliyev Ə., Qırmızı tabor, B., 1990; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci iller), B., 1998.

**QOLÇOMAQLAR** - kənd burjuaziyası, Azərbaycan Xalq Cümhuriyyəti dövründə əhalinin sosial qruplarından biri. Kəndlilərin sosial təbəqələşməsi prosesində yaranmışdı. Oktyabr çevrilişi (1917) ərəfəsində qolçomaqlar kəndlilərin 15%-ni, ölkə əhalisinin (1939 il sentyabrın 17-dək olan SSRİ sərhədlərində) 12%-ni təşkil edirdi. Bəzi hesablamalara görə, Şimali Azərbaycanda 19 əsrin 80-ci illərində 12 min (6,61%), 1917 ildə isə 28 min (9-10%) varlı və qolçomaq təsərrüfatı var idi. Bu dövrdə qolçomaqların və varlı kəndlilərin əlində olan torpaqların sahəsi də xeyli artmışdı. 19 əsrin 80-90-cı illərində bu təsərrüfatlarının əlində 568,5 min desyatin (23%) pay torpağı var idisə, 1917 ildə bu rəqəm 900 min desyatinə (30%) çatmışdı. İcarəyə verilən və digər torpaq sahələri üzrə də artım var idi. Qolçomaqlar və varlı kəndlilərin təsərrüfatı bazarının tələblərinə, əsasən, uyğunlaşmışdı. Qolçomaqların Şimali Azərbaycan kəndli təsərrüfatının cəmi 9-10%-nə sahib olduqlarına baxmayaraq, onlar təsərrüfat əməliyyatların üçdə birini, ticarət əməliyyatlarının isə daha çox hissə öz əlində cəmləşdirmişdilər. Qolçomaqlar kəndlilərin digər təbəqələri kimi, mülkədar torpaq sahibliyinin ləğv edilməsinə tərəfdar idilər. Lakin Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti aqrar məsələnin həllində kifayət qədər çeviklik göstərmədiyindən kəndlilərin qalan təbəqələri kimi, qolçomaqlar da narazı qaldılar. Buna görə də kənddə baş verən iğtişaşlarda qolçomaqlar da fəal iştirak edirdilər. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920, 28 aprel) və möhkəmləndikdən sonra qolçomaqların bir sinif kimi ləğv edilməsi siyasətinin həyata keçirilməsi nəticəsində onların varlığına son qoyuldu.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.5-6, B., 2000-2001; Исмаилов М. А., Капитализм в сельском хозяйстве Азербаиджана на исходе XIX и начале XX вв., Б., 1964; Умаев А., Процессы капиталистического развития в селькoм хозяйстве Азербаиджана в конце XIX-началеXX века.

**QORİ MÜƏLLİMLƏR SEMİNARİYASI,** Zaqafqaziya Müəllimlər Seminariyası, Qori Seminariyası – Cənubi Qafqazın yerli əhalisindən ibarət məktəb müəllimi hazırlayan orta pedaqoji təhsil müəssəsi. K.D.Uşinskinin layihəsi əsasında 1876 ildə Qori şəhərində (Gürcüstan) açılmışdı. Seminariyada dövlət hesab təhsil alan şagirdlərdən əlavə, zemstvo, şəhər və kənd təşkilatları təqaüdçüləri, öz xərcinə oxuyan şagirdlər də idi. Qori seminariyasında hesab, həndəsə, tarix, coğraf təbiət, ana dili (rus, Azərbaycan, gürcü və erməni şöbələrində milli dil), pedaqogika, psixologiya, hüsnxətt, rəsm, musiqi, nəğmə, səhiyyə və tibb tədris olunurdu. Qori seminariyasında pedaqoji təcrübəyə böyük əhəmiyyət verilirdi. Tədris prosesinin təşkili baxımından Qori seminariyası Rusiyanın qabaqcıl seminariyalarından biri sayılırdı. Müəllim seminariyaları və institutlarının 1900 ildə Parisdə keçirilmiş ümumdünya sərgisində Qori seminariyası metodiki işlərin təşkilinə görə qızıl medala layiq görülmüşdü.

Seminariyanın Azərbaycan şöbəsi 1879 ildə fəaliyyətə başlamışdı. Azərbaycan şöbəsinin yaradılmasında Mirzə Fətəli Axundzadənin böyük rolu olmuşdu. Gələcək azərbaycanlı müəllimlərin hazırlanmasında bu şöbənin müfəttişi Azərbaycanın Mərəzə kəndindən olan A.O.Çernyayevskin xidməti təqdirəlayiq idi. Seminariyada təhsil rus diliı aparılırdı. Azərbaycan dili isə yalnız Azərbaycan şöbəsiı tədris olunurdu. Yuxan hazırlıq sinfinin tələblərinə cavab verə bilən müsəlman şagirdlərinin sayı az olduğundan, Rusiyadakı başqa müəllim seminariyalarından fərqli olan Qori seminariyasında üç əsas və bir yuxarı hazırlıq sinfı təsis edilmişdi. Buraya yaşı 15-dən yuxarı olmayan, əsas az hazırlıqlı kəndli müsəlman uşaqları qəbul edilirdi. Azərbaycan şöbəsinin şagirdləri Azərbaycan dili və şəriət dərs lərindən başqa, qalan bütün fənləri xristian uşaqları ilə birlikdə keçir və təlim kursunu bitirdikdən sonra onlarla eyni hüquqa malik olurdular. Lakin seminariya Azərbaycan müəllimləri hazırlamırdı.

Seminariyanın müəllimləri yeni dərsliklər və tədris vəsaitlərinin yaradılması, Cənubi Qafqaz məktəblərində

downloaded from KitabYurdu.az



**Üzeyir bəy Hacıbəyli və Müslüm Maqomayev Qari Seminariyasının tələbələri arasında. 1904**

tədris üsullarının yaxşılaşdırılması və s. ilə məşğul olurdular. Mütərəqqi müəllimlər qabaqcıl ideyaları yaymaq üçün sinifdənkənar tədbirlərdən (sinifdənkənar qiraət, ekskursiya və gəzintilər, özfəaliyyət gecələri, əmək işləri, idman və s.) geniş istifadə edirdilər. Qori seminariyası Azərbaycanın maarifçilik tarixində əhəmiyyətli rol oynamışdır. Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Sultanməcid Qənizadə, Nəriman Nərimanov, Müslüm Maqomayev, Rəşid bəy Əfəndiyev, Həbib bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Fərhad Ağazadə, Firidun bəy Köçərli, S.Vəlibəyov və bir çox başqaları bu seminariyanı bitirmişlər. Bununla belə, 20 əsrin əvvəllərində Qori seminariyasında milli müəllim kadrlarının hazırlanması sistemi Azər-baycanın mütərəqqi ziyalılarını qane etmirdi. Ə.Ağayev (A ğ a o ğ l u) 1905 ildə həmin seminariyada kadrların hazır-lamnası sistemini tənqid edərək, buradakı təhsil metodlarını "missioner pedaqogikası" adlandırmışdı. O, həmin seminariyanın direktoru Miropiyevin fəaliyyəti haqqında yazırdı ki, o, hər şeydən əvvəl, ruslaşdırma vəzifələrini yerinə yetirir və onun bu təhsil müəssisəsinə rəhbər təyin olunması ilə seminariya müəllimlər yox, məmurlar hazırlamağa başlamışdır. ƏAğayev 1905 il mayın 22-də "Kaspi" qəzetində dərc olunmuş məqaləsində seminariyanın islam dini qanunlarının öyrənilməsinə dair buraxdığı dərs vəsaitinin müsəlman cəmiyyətində narazılıqdan və məktəbə ümumi nifrətdən başqa bir hiss doğurmayacağını xüsusi qeyd edirdi. Azərbaycan ziyalıları Qori seminariyasının başçılarının fəaliyyətinə xalq maarifi sahəsində dövlət siyasəti kontekstində yanaşırdılar. Onlar uzun illər ərzində seminariyanın Azərbaycan şöbəsinin Azərbaycan şəhərlərindən köçürülməsi və ya Azərbaycanda başqa bir seminarın açılması uğrunda mübarizə aparmışlar. 1906 ildə mətbuatda seminariyanın Bakıda şöbəsinin açılması məsələsi qalmışdı. Nəhayət, 1914 ildə Gəncədə müəllimlər seminriyası açılmış, 1916 ildə belə bir seminariya Bakıda fəaliyyətə başlamışdı. 1918 ildə Qori seminariyasının Azərbaycan şöbəsi Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən Qazaxa köçürüldü və müstəqillik statusu aldı. Seriyada başqa tədbirlərlə yanaşı, milli məktəblər üçün peşəkar müəllimlər hazırlanmalı idi. F.Köçərli onun direktoru təyin olundu. Bax *Qazax müəllimlər seminariyası.*

*Əd.:* Seyidov F.Ə., Azərbaycan müəllimlərinin hazırlamasında Zaqafqaziya (Qori) seminariyasının rolu, B., 1960; Azəfbaycan I cilddə, c.5, B., 2001; Səidə Əliqızı, Əhməd bəy Ağayevin maarifçilik fəaliyyəti haqqında, "Tarix və onun problemləri" 2003, №3.

**QOTSİNSKİ** Nəcməddin (1859-65 illər arasında- "Şimali Qafqaz dağlılarının azadlıq hərəkatı liderlərindən biri. Dağıstan və Çeçenistanın 5-ci imamı. Avar dairəsinin Qotso aulunda İmam Şamilin naibi Donoqo Məhəmmədin ailəsində anadan olmuşdur. Ali dini təhsil almışdır. Dağıstanın ən iri torpaq sahiblərindən biri idi. Dini mövzulu şerləri Dağıstan əhalisi arasında şötrət qazanmış, Suriya və Türkiyədə də məşhurlaşmışdı. Şərqşünas akademik Kraçkovski Nəcməddin Qotsinskinin əsərlərini yüksək dəyərləndirmişdir. Qotsinski Avar dairəsinin Koysubul

downloaded from KitabYurdu.az

sahəsinin naib-rəisi olmuş, Dağıstan Xalq Məhkəməsinin üzvü seçilmişdir. 1903 ildə Türkiyəyə getmiş və bir müddət burada yaşayaraq dini təhsilini təkmilləşdirmişdir. Geri döndükdən sonra Dağıstanın Avar dairəsinin dini məktəblərində müəllimlik etmişdir.

Fevral inqilabından (1917) dərhal sonra, martın 9-da Temirxan-Şura şəhərinde təşkil olunmuş Müvəqqəti Dağıstan Vətəndaş İcraiyyə Komitəsinin üzvü, mayda Şimali Qafqaz Dağlılarının Vladiqafqazda keçirilən 1-ci quraltayında Dağıstan və Çeçenistan müftisi və Dağlı Xalqlarının Dini İdarəsinin sədri, həmin ilin avqustunda Dağıstanın Əndi kəndində keçirilən qurultayda isə yekdilliklə Dağıstan və Çeçenistanın beşinci imamı seçilmişdi.

1918 ilin yanvarında Dağıstan xalqlarrının Temirxan-Şurada keçirilən ikinci qurultayında İmam Nəcməddinin İmaməti bərpa etmək haqqında təklifi azadlıq hərəkatının liberal-demokrat və sosial-demokrat cərəyanları tərəfindən rədd edildikdən sonra naibi Uzun Hacının bütün təkidlərinə rəğmən, bu işi zorla həyata keçirməkdən imtina etmiş və dağlara çəkilmişdir. Lakin 1918 ilin martında Bakıda daşnakların türk-müsəlman əhaliyə qarşı soyqırımı xəbərini eşitdikdən dərhal sonra öz hərbi dəstələri ilə hərəkətə başlamış, Petrovsk-Port (indiki Mahaçqala) şəhərini sovetlərdən təmizləmiş və fərmanla bu şəhərin adını dəyişdirərək Şamilqala qoymuşdur. Bundan sonra Bakınm türk-müsəlman əhalisinə kömək üçün irəliləyərək Xaçmaz yaxınlığında bolşevik dəstələri üzərində qələbə çalmış, yürüşünü Bakı istiqamətində davam etdirmişdir. Erməni-bolşevik birləşmələrinin Biləcəri-Xırdalan müdafiə xəttinə qədər yaxınlaşmış, ilk toqquşmada onları məğlubiyyətə uğradıb, şəhər üzərinə son hücum hazırlığına başlamışdır. Lakin Həştərxandan Xəzər dənizi vasitəsilə göndərilən bolşevik hərbi hissələrinin Şamilqala (Mahaçqala) və Bakıya çatması nəticəsində qüvvələr nisbəti dəyişmiş və o, mühasirəyə düşmək təhlükəsi qarşısında qalaraq geri çəkilməli olmuşdur. Dağıstanın Osmanlı ordusu tərəfindən azad edilməsindən sonra, 1919 ilin martında Pşemaxo Kotsev tərəfindən təşkil edilmiş 2-ci dağlı hökümətində şəriət məsələlərinə məsul olmuşdur. Şimali Qafqazm Denikin tərəfindən işğalı dövrü İmam Nəcməddinin həyatında ən ziddiyyətli məqam hesab olunur. Könüllü ordu rəhbərliyi ilə əməkdaşlıq etməsə də, sabiq naibi Uzun Hacı və Dağıstan Şeyxülislamı Əli Hacı Akuşalıdan fərqli olaraq, işğalçılara qarşı mübarizədən də imtina etmişdir. Bununla əlaqədar, Nəriman Nərimanovun İmam Nəcməddinə müraciəti də mövcuddur.

1920-21 illərdə İmam Nəcməddin Şimali Qafqaz Dağlılarının bolşevik Rusiyasına qarşı 8 ay davam edən silahlı üsyanının təşkilatçısı və rəhbəri olmuşdur. Üsyanm yatırılmasından sonra sovet hökuməti tərəfindən rəsmən "Dağıstan və Çeçenistan zəhmətkeşlərinin düşməni" elan edilmiş və Çeçenistan ərazisində gizlənmək məcburiyyətində qalmışdır. 1925 ildə əsir düşmüş və Baş Siyasi İdarənin Şimali Qafqaz diyar şöbəsinin qərarı ilə güllələnmişdir.

*Əd.:* G ö y ü ş o v A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

**QUBA HƏRBİ DƏSTƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə şimaldan gözlənilən Denikin təcavüzünə qarşı 1919 ilin noyabrında yaradılmış taktiki hərbi qrup. *Xaçmaz dəstəsinin* bazasında təşkil edildiyindən, həmin dəstənin komandiri polkovnik Şirin bəy Kəsəmənli Quba dəstəsinin də komandiri vəzifəsində saxlanıldı. Quba qəzasındakı bütün hərbi hissə və bölmələr Ş.Kəsəmənliyə tabe etdirildi. Quba dəstəsinin qərargahı Qusara köçürüldü və Ş.Kəsəmənli, eyni zamanda, Qusar qarnizonunun rəisi vəzifəsini də öz üzərinə götürdü.

Quba dəstəsi şimal sərhədi boyunca müdafiə mövqelərini möhkəmləndirməklə bərabər, kəşfiyyat işləri də aparmalı, Denikin qüvvələrinin Dağıstan ərazisindəki yerdəyişmələrini izləməli, toplanılan məlumatları Bakıya göndərməklə yanaşı, zəruri hallarda vəziyyətə uyğun qərarlar qəbul etməli idi.

1919 il dekabrın 4-də Ş.Kəsəmənli 2-ci piyada diviziyasının komandir müavini təyin edilməsi ilə əlaqədar Quba dəstəsinin komandiri vəzifəsindən azad edildi və bu vəzifəyə süvari diviziyasının komandiri general-mayor Teymur bəy *Novruzov* təsdiq olundu. Ancaq bir neçə gündən sonra onun da, yalnız birbaşa vəzifəsinin icrası ilə məşğul olması məqsədəuyğun bilindi, dəstəyə komandirlik isə 2-ci piyada diviziyasının komandiri vəzifəsinin icraçısı general-mayor Makeyevə həvalə olundu.

Denikin təcavüzü təhlükəsinin sovuşması ilə əlaqədar 1919 il dekabrın 31-də Quba dəstəsi ləğv edildi.

*Quba hərbi dəstəsinin əsgərləri*



downloaded from KitabYurdu.az



Quba qəzasının gerbi. 1840.
Azərbaycan Tarixi Muzeyi

**QUBA QƏZASI** – Azərbaycan Xalq Cümhuriyyəti dövründə dəstəsi Quba şəhərində 3000-dək dinc sakini qətlə yetirmiş, 4 milyon manat nağd pul, həmçinin 4,5 milyon manatlıq brilyant, qızıl, gümüş və digər qiymətli daş-qaş, 25 milyon manatlıq müxtəlif əşyalar qarət etmişdi. Quba qəzasında 122 müsəlman kəndi dağıdılmış və yandırılmış, əhalisi kütləvi şəkildə qətlə yetirilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Quba qəzasında öz hakimiyyətini bərqərar etmişdi. Parlamentin 1919 il 2 iyun tarixli qərarı ilə səpmə yatalaqla mübarizə üçün Quba şəhər özünü idarəsinə 100 min manat məbləğində faizsiz borc ayrılmışdı. Aprelin 12-də isə Qusar sahəsinin Xuluq kəndində ali ibtidai məktəb açılması barədə qanun qəbul olunmuşdu. Lakin sovet Rusiyasının yaxından köməklik göstərdiyi bolşeviklər qəzada Hökumət əleyhinə iş aparırdı. Quba şəhərində silahlı üsyan qərargahı təşkil edilmişdi. 1920 il aprelin 27-də gündüz saat 2-də istilaçı 11 -ci Qırmızı ordu hissələri Qubaya girdi. Quba qəzasında sovet hakimiyyətinin qələbəsi elan olundu. 1929 ildə Azərbaycan Sovet Sosialist Respublikasında həyata keçirilən rayonlaşdırma prosesində Quba qəzası ləğv edildi.

Bakı quberniyasının inzibati ərazi vahidlərindən biri. Keçmiş Quba xanlığının ərazisində yaradılmışdı. Quba xanlığı 1806 ildə Rusiya imperiyası tərəfindən işğal olunaraq, əyalətə çevrildikdən sonra onu Gürcüstan Baş rəisliyinin tabeliyindəki naib idarə edirdi. 1809 ildə Quba əyalətini idarə etmək üçün Abbasqulu ağa Bakıxanovun atası Mirzə Məhəmməd xan başda olmaqla, dörd nüfuzlu bəydən ibarət Quba idarəsi yaradılmışdı. 1810 il üsyanından sonra Qubada komendant üsul-idarəsi formalaşdırıldı. Quba əyaləti Bakı və Dərbənd əyalətləri ilə birgə Dağıstan dairəsində birləşdirildi. 1840 il 10 aprel tarixli inzibati-məhkəmə islahatından sonra yaradılan Quba qəzası (Samur dairəsi ilə birlikdə) Dərbənd hərbi dairəsinə daxil edildi. 1846 il inzibati-ərazi bölgüsü nəticəsində Quba əyaləti yeni yaradılmış Dərbənd quberniyasının tərkibində qaldı. Dağıstan vilayətinin idarə edilməsi haqqında 1860 il 5 may tarixli Əsasnaməyə görə Dərbənd quberniyası ləğv olundu. Quba qəzası Bakı quberniyasının tərkibinə daxil edildi. Qəzanın mərkəzi Quba şəhəri idi. Quba qəzasında qəza idarə sistemi ya-radılmışdı. Qafqaz təqviminin (1917) məlumatına görə, Quba qəzasının sahəsi 6308,61 *kv.verst* idi. Qəzada 171248 nəfər əhali yaşayırdı. Onlardan 170148 nəfəri yerli sakinlər, 1100 nəfəri isə müvəqqəti yaşayanlar idi. Qəza əhalisinin 91.871 nəfəri kişi (53,65%), 79377 nəfəri qadın (46,35%) idi. Müsəlmanların sayı 164,8 min nəfər idi. Qəzada 5206 nəfər rus qeydə alınmışdı. Quba şəhərində 26956 nəfər yaşayırdı. Qəzanın təsərrüfat həyatında bağçılıq daha çox inkişaf etmişdi. Fevral inqilabından (1917) sonra Quba qəzasında Müvəqqəti hökumətin yerli orqanlarının təşkilinə başlandı. Martın sonlarında Qubada ictimai təşkilatların icraiyyə komitəsi yaradıldı. Oktyabr çevrilişindən (1917) sonra Bakıda hakimiyyəti ələ almış Bakı Soveti Quba qəzasını sovetləşdirmək pərdəsi altında azərbaycanlılara qarşı soyqırımı həyata keçirdi. 1918 il aprelin 21-də Bakı bolşevik təşkilatı və Bakı Soveti Quba qəzasına hərbi dəstələr göndərdi. Aprelin 23-də qəzada sovet hakimiyyeti elan olunmuş, qəza hərbi-inqilab komitəsi yaradılmışdı. Quba qəza-sında azərbaycanlılara qarşı soyqırımı mayın 1-də başlamış və 9 gün davam etmişdi. Qubada törədilən soyqırımlarını daşnak qulduru Hamazaspın başçılıq etdiyi erməni cəza dəstələri həyata keçirmişdi. *Fövqəladə Təhqiqat Komissi-yasının* üzvü A.F.Novatskinin Quba şəhərinin və qəza kəndlərinin dağıdılması, onların sakinlərinə qarşı edilən zorakılıqlar haqqında məruzəsində göstərilirdi ki, Hamazaspın cəza dəstəsi Qubaya komissar Şaumyanın göstərişi ilə göndərilmiş, dəstənin döyüşçülərini o zamankı hərbi komissar Korqanov seçmişdir. Dəstə yalnız "Daşnaksutyun" partiyasının üzvü olan təqribən iki minə yaxın ermənidən təşkil edilmiş, dəstənin başçısı "məşhur" daşnak Sakan Hamazasp, komissarı isə Venuns familiyalı birisi təyin edilmişdir. "Cəza dəstəsi" yalnız azərbaycanlıları qırmaq məqsədini güdmüşdür. Hesablamalara görə, Hamazaspın

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998.: Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920), Ankara, 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Rüstəmbəyov M, Quba qəzasında kəndlilərin torpaq uğrunda mübarizəsi (sentyabr 1918-ci il - aprel 1920-ci il), BDU-nun Elmi Əsərləri (tarix və fəlsəfə seriyası), 1978; Vəlixanlı N.,31 mart - azərbaycanlıların soyqırımı günüdür, "İpək yolu" jurnalı, 1998;

**QUBA QIRĞINLARI** - 1918 ilin aprel-may aylarında erməni-daşnak quldur dəstələrinin Quba şəhəri və qəzasının kəndlərində azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayəti. Azərbaycan xalqının qatı düşmənləri S.Şaumyan və Q.Korqanovun təşkılatçılığı ilə həyata keçi-

downloaded from KitabYurdu.az

lişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 8 ilin iyulunda yaratdığı *Fövqəladə Təhqiqat Komissi-ı* erməni-daşnak quldur dəstələrinin törətdikləri vəhşi-ər haqqmda 5 cilddən ibarət materiallar (zərərdidələrin şahidlərin dindirilmə protokollan, Quba şəhərinin yan-lmış və dağıdılmış evlərinə və dükanlarma baxış proto-ları, Komissiyamn üzvü A.Novatskinin və başqalarmm '.ırladıqları məruzələr, sənədlər, əhaliyə dəymiş maddi ərin miqdan barədə arayışlar və s.) toplanmışdır.

Daşnak Hamazaspm quldur dəstələri tərəfindən soyqırımı və talanlar həyata keçirilənə qədər Quba şəhərində ribən 20 minə yaxm əhali və 10 min ev olmuşdur. Daşnkların şəhərə basqını mayın 1-də başlamış və onların azlıqları doqquz gün davam etmişdir. Bundan əvvəl isə, 18 ilin aprelində, Bakı şəhəri və quberniyasının bir hissəsində hakimiyyət bolşeviklərin əlində olarkən, bolşevik partiyasının nümayəndəsi David Qolovani Qubaya gəlmiş, 2 saat müddətində Sovet hakimiyyətini tanımalarını əhalidən tələb etmiş, əks təqdirdə, hadisələrin gedişinə cavabı olmadığını bildirmişdi. Quba şəhər rəisi Əlabbas bəy Əlibəyov şəhər əhalisinin D.Qolovaninin təklifini qəbul etməsindən sonra baş verən hadisələr haqqında bildirirdi ki, ondan sonra o, Xaçmaza getmiş, altı gündən sonra 170 fərlik silahlı dəstə və pulemyotlarla yenidən Qubaya qalxmışdı. Ruslar, yəhudilər və ermənilərdən (axırıncılar çoxluq təşkil edirdilər) ibarət dəstənin başında poruçik Ağacanyan dururdu. O, həm də pulemyotçuların rəisi idi.

D.Qolovaninin dəstələri Qubadan çıxanlarından təxminən 2 həftə sonra Bakıdan top və pulemyotlarla silahlanmış böyük ordu hissəsi Qubaya doğru hərəkətə başladı. Yalnız ermənilərdən təşkil edilmiş bu dəstənin başında türklərə qarşı vəhşiliklər törətməkdə "ad çıxarmış" Hamazasp dururdu. Onun köməkçisi Nikolay, komissarı Venuns, bələdçisi “Dəyirmançı" ləqəbli qubalı erməni Hərtün Hayrapetov idi.

1918 il mayın 1-də dəstə üç istiqamətdən şəhərə daxil araq, dinc əhalini hədsiz amansızlıq və qəddarlıqla qətlə yetirməyə və var-dövlətlərini qarət etməyə başladı. Təkcə birinci gün şəhərin aşağı hissəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 713 nəfər azərbaycanlı öldürüldü. Ermənilərin Qubada azğınlığı doqquz gün davam etdi. Hücumun ikinci günü 1012 nəfər azərbaycanlı qətlə yetirildi, bunların əksəriyyəti şəhərin yoxsul əhalisi və İrandan iş dalınca gəlmiş kişilər idi. Hamazaspın quldur dəstələrinin Quba şəhərində və ətraf kəndlərdə törətdiyi vəhşiliklər Fövqəladə təhqiqat Komissiyasımn üzvü A.Novatskinin rəhbərlik etdiyi qrup tərəfindən ümumiləşdirilmiş məruzədə əksini tapmışdır. Məruzədə göstərilirdi ki, erməni silahlı dəstələrinin şəhərə axil olması müsəlman əhalinin kütləvi surətdə qətli və onlar üzərində hər cür zorakılıq halları ilə müşayiət olunurdu. Ermənilər küçələrdə əllərinə keçən kişi, qadım və uşaqları amansızlıqla qətlə yetirir, evlərə soxularaq, südəmər uşaqlara elə rəhm etmir, onlan analarının qucağındaca qılıncla doğrayırdılar. A.Novatskinin məruzəsindən, D.Qolovaninin və Ə.Əlibəyovun məlumatlarından göründüyü kimi, şəxsən S.Şaumyanın tapşırığı ilə Bakı Xalq Komissarları Sovetinin hərbi komissarı Q.Korqanov tərəfindən Qubaya göndərilmiş təxminən iki min nəfərlik hərbi hissəyə yalnız "Daşnaksutyun" partiyasına mənsub ermənilər daxil edilmişdi.

Quba şəhərində 3 minədək dinc sakin qətlə yetirilmişdi. Hamazaspm dəstəsi tərəfindən oğurlanmış əmlak 4 milyon manat nağd pul, 4,5 milyon manatlıq brilyant, qızıl, gümüş və digər qiymətli daş-qaş, 25 milyon manatlıq müxtəlif mallar - xalça, ev əşyaları və s. olmuşdu.

Bundan əlavə, Hamazaspın dəstələri təkcə Quba şəhərində 105 evi və digər tikililəri tamamilə yandırıb dağıtmışdılar ki, bunun da nəticəsində onların sahiblərinə dəyən zərər 100 milyon manatdan yuxarı olmuşdur. A.Novatski məruzəsində göstərirdi ki, ümumiyyətlə Hamazaspın dəstələri tərəfindən Quba qəzası ərazisində 122 müsəlman kəndi dağıdılmış və yandırılmış, əhalisi kütləvi şəkildə qətlə yetirilmişdi.

Məruzənin yekunlarında Quba şəhərində və qəzanın 122 kəndində vəhşiliklər törətmiş Hamazaspa və onun əlaltılarına qarşı cinayət işi qaldırılması, keçmiş komissarlar S.Şaumyan və Q.Korqanov öldükləri üçün onlara qarşı cinayət işinin xətm edilməsi təklif olunurdu.

Fövqəladə Təhqiqat Komissiyası göstərilən şəxslərə qarşı cinayət işinin qaldırılması haqqında qərar qəbul etmiş, onların işləri 1920 il yanvarın 29-da Bakı dairə məhkəməsinə göndərilmişdi.

*Aprel işğalından (1920)* sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin bütün qanun və qərarlarım ləğv edən Sovet hakimiyyətinin məhkəmə orqanlan Cümhuriy-yət Parlamentinin 1920 il fevralın 9-da qəbul etdiyi amnis-tiya haqqmda qanunu əsas götürərək, Quba qırğınları ilə əlaqədar cinayət işinə xitam vermişdir.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya, B., 2003;

**"QUBA MƏSƏLƏSİ"** -*Dağlı Respublikası* hökumətinin bəzi üzvlərinin Quba qəzası ilə bağlı Azərbaycan Xalq Cümhuriyyətinə əsassız ərazi iddiası. Dağlı Respublikası 1918 ilin payızmda Şimali Qafqazda öz mövqelərini möhkəmləndirmek üçün müəyyən tədbirlər görməklə yanaşı, bəzi addımları ilə Azərbaycan ve Gürcüstanla münasibətlərdə problemlər yaratdı. Dağlı hökumətinin bəzi üzvləri Quba qəzası ilə bağlı Azərbaycana, Cənubi Osetiya və Abxaziya ilə əlaqədar isə Gürcüstana qarşı ərazi iddiası qaldırdılar.

Dağlı Respublikası rəhbərliyinin ayrı-ayrı üzvləri Quba qəzası ilə bağlı ərazi iddiası irəli sürərkən, həmin bölgədə ləzgilərin də yaşamasım əsas gətirirdilər. Dağlı hərbçiləri bu əsassız iddianı həyata keçirmək məqsədilə, hətta, Quba qəzası ərazisinə müdaxilə etmiş, Yalama dəmir yolu stansiyasını ələ keçirmişdilər. Azərbaycan sərhəd keşikçiləri 1918 il dekabrın 24-də onları bu ərazidən çıxarmış, şimal sərhədini keçmiş Bakı quberniyası hüdudları boyunca bərpa

downloaded from KitabYurdu.az

etmişdilər. Dağlı hökumətinin Bakıdakı nümayəndəsi Əlixan Qantəmir bu münaqişə ilə bağlı Azərbaycan hökumətinə etirazını bildirmiş, "mübahisəli" sərhəd məsələlərinin həlli üçün xüsusi orqan yaradılması, ona qədər isə Quba qəzasının idarə olunmasında hər iki tərəfi təmsil edən müştərək qrupun fəaliyyət göstərməsi təklifini irəli sürmüşdü.

Dağlı hökumətinin bəzi nümayəndələri bu cür əsassız hərəkətləri ilə ən yaxın müttəfiqləri olan qonşu dövlətlərlə münasibətlərdə soyuqluq yaradırdılar. Lakin hökumətin əksər üzvləri Azərbaycan və Gürcüstana qarşı ərazi iddiaları qaldırılmasına qəti etiraz etdilər. Xarici işlər naziri Heydər Bammatovun başçılıq etdiyi bu qrup Qafqazda ərazi mübahisələrinin həlli zamanı Azərbaycanın təklif etdiyi prinsipləri dəstəklədi. Həmin prinsiplər bunlar idi: ərazi məsələlərinin həllində mübahisəli bölgədə yaşayan əhalinin öz iradəsini azad surətdə bildirməsinin əsas götürülməsini ərazi mübahisəsinin yalnız əhalinin qarışıq yaşadığı bölgələrə aid edilməsini əhalinin rəyi yekdil olmadığı halda bölgənin iqtisadi-təsərrüfat əlaqələrinə üstünlük verilməsi.

Quba qəzası əhalisi və Quba Müsəlman Şurası bu ərazinin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu qəti şəkildə bəyan etdi. Quba nümayəndəsi Murtuza Axundov Azərbaycan Parlamentində bu məsələ ilə bağlı 1919 il fevralın 5-dəki çıxışında bildirdi: "Qubada kasıb, dövlətli - hər kəsin ipək parçadan tikilmiş üçrəngli bayrağı var". Quba Müsəlman Şurası Dağlı hökumətinə göndərdiyi məktubda onun bəzi üzvlərinin ərazi iddiasının ümummüsəlman mənafeyini müəmmalı məqsədlərə qurban vermək kimi qiymətləndirdi.

"Quba məsələsi" Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qətiyyətli mövqeyi, Quba qəzası əhalisinin öz iradəsini birmənalı şəkildə bildirməsi və Dağlı hökumətində sağlam düşüncənin üstün gəlməsi nəticəsində qısa müddətdə həll edildi.

*Əd.:* Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. Stenoqrafik hesabatlar, c.l, B., 1998.

**QUBERNİYA** - Azərbaycan Xalq Cümhuriyyətində ən iri inzibati-ərazi vahidi. İlk dəfə Rusiyada çar I Pyotr zamanı tətbiq edilmişdir. 1708 il 18 dekabr tarixli fərman əsasında ölkədə 8 quberniya yaradılmışdı. 1719 ildə quberniyaların sayı 11-ə, 1745 ildə 16-ya çatmışdı. II Yekaterina dövründə quberniyaların sayı xeyli artırılmış, 1781 il 13 iyun tarixli fərmanla ölkə 40 quberniyaya bölünmüşdü. 19 əsrin əvvəllərində onların sayı yeni işğal olunan torpaqlar hesabına daha da artmışdı. Əsrin sonlarında Rusiya imperiyasında olan 78 quberniyanın 7-si Qafqazda idi. Quberniyalar qəzalara bölünmüşdü.

Çar hökuməti Cənubi Qafqazdakı işğalının ilk mərhələsində ümumrusiya inzibati-ərazi bölgüsünü burada tətbiq etməyə tələsmirdi. 1840 il 10 aprel tarixli inzibati idarə islahatlarına görə, Cənubi Qafqaz diyarı Gürcü-İmereti quberniyasına və Kaspi vilayətinə bölündü. 1846 ildə Cənubi Qafqaz Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına ayrıldı. 1849 ildə *İrəvan quberniyası* da yaradıldı (bununla Qərbi Azərbaycan ərazisində gələcək Ermənistan dövləti yaradılması üçün daha bir addım atıldı). 1859 il Şamaxı zəlzələsindən sonra quberniya mərkəzi Bakıya köçürüldü. 1860 ildə Dərbənd quberniyası ləğv olundu, onun tərkibindəki Quba qəzası Bakı quberniyasına verildi, qalan ərazidə Dağıstan dairəsi yaradıldı (bununla əzəli Azərbaycan torpaqlan olan Dərbənd və onun ətrafındakı ərazilərin Azərbaycandan ayrılmasının əsası qoyuldu). 1867 ilin dekabrında Tiflis, İrəvan və Bakı quberniyalarına daxil olan torpaqlar hesabına yeni - Yelizavetpol quberniyası təşkil olundu. Beləliklə, Rusiya imperiyasının dağılması ərəfəsində Cənubi Qafqazda 5 quberniya var idi. Rusiyada həyata keçirilən bütün bu islahatlar nəticəsində Azərbaycanın ərazi-dövlətçilik ənənələrinə ağır zərbə vuruldu.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra quberniya inzibati-ərazi bölgüsü saxlanıldı. Respublikanın ərazisində iki quberniya-Bakı və Yelizavetpol quberniyaları mövcud idi. Yelizavetpol quberniyasının adı dəyişdirilərək Gəncə adlandırıldı. Azərbaycanın digər torpaqları isə Cənubi Qafqazdakı başqa quberniyaların tərkibində qaldı və ana vətəndən ayrı düşdü. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin bu torpaqları geri qaytarmaq üçün göstərdiyi təşəbbüslər nəticə vermədi.

*Əd.: Мильман А. И., Политический строи Азербаиджана в XIX-нач. XX веков. Б., 1966; Хрестоматия по истории государства и права СССР, М., 1990.*

**QUBERNİYA İDARƏ SİSTEMİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə yüksək yerli idarəçilik orqanı. Bu idarə sistemi çar I Pyotrun 1708 ildə Rusiyada quberniyalar təsis etməsi nəticəsində yaranmışdı. Quberniya idarə sisteminin təkmilləşdirilməsində II Yekaterinanın Rusiya imperiyası quberniyalarının idarəsi üçün təsisatlar haqqında 1775 il 7 noyabr tarixli qanunu mühüm rol oynamışdı. Həmin qanunda göstərilirdi ki, quberniyaların nizamlı idarə edilməsi üçün onların əhalisi 300000-dən 400000-dək olmalıdır. General-qubernatorun başçılığı ilə quberniya idarələri təşkil olunurdu. Azərbaycanın şimalı Rusiya tərəfindən işğal edildikdən sonra burada bəzi xanlıqlar bir müddət saxlanmış, ləğv olunmuş xanlıqların ərazisində əyalətlər yaradılmışdı. Bu, komendant idarə üsulu admin almışdı. 1840 il 10 aprel qanunu ilə üç pilləli (quberniya-qəza-sahə) inzibati ərazi quruluşu tətbiq edilmiş, sonrakı inzibati-ərazi bölgülərində Cənubi Qafqazdakı quberniyaların sayı beşə (Tiflis, Kutais, Bakı, Yelizavetpol, İrəvan) çatdırılmışdı. Beləliklə, quberniya idare sisteminin formalaşması başa çatdırılmışdı. Bu sistemə qubernator, quberniya idarəsi, xəzinə palatası, dövlət mülkiyyəti palatası və b. qurumlar daxil idi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra quberniya idarə sistemi müəyyən dəyişikliklərlə saxlanmış, xüsusi hal kimi, Qarabağ general-qubernatorluğu (1919, yanvar) yaradılmışdı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra quberniya idarə sistemi ləğv edildi.

*Əd.:* Bax *Qabemiya* məqaləsinin ədəbiyyatına.

**QUBERNİYA VƏ QƏZA KOMİSSARLARI** - Şimali Azərbaycan və Dağıstanın Sovet hakimiyyəti elan edilmiş

downloaded from KitabYurdu.az

ərazilərində Bakı Xalq Komissarları Sovetinin hakimiyyət icraçıları. Bakı quberniya komissarı Məşədi Əzizbəyov, Cavad Lənkəran qəzalarının fövqəladə komissarı M.İsrafilbəyov, Bakı qəza komissarı B.Əfəndiyev, Quba qəza komissarı A.B.Yusifzadə, Dağıstanın fövqəladə komissarı V. Naneyşvili, Dərbənd qəza komissarı Q.Ağasiyev təyin etmişdilər. Onlar sovet hakimiyyətinin tədbirlərini, əsasən, yerli şəraiti nəzərə almadan həyata keçirməyə çalışırdılar. da əhalinin narazılığına səbəb olurdu. Bakı XKS-nin süqutu ilə (1918 il, 31 iyul) bu vəzifələr də ləğv olundu. XMAN Moisey Arkadyeviç (?-?)- Azərbaycan Xalq Cumhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, yəhudi əhalisinin nümayəndəsi kimi Parlamentin tərkibinə daxil edilmişdi. Parlamentdə "milli azlıqlar" fraksiyasının tərkibində idi.

**QUQUŞOV** Hüseyn bəy (?-?)- Azərbaycan Xalq Cumhuriyyəti ordusunun zabiti, podpolkovnik. Hərbi nazirin 1919 il 4 yanvar tarixli əmri ilə 2-ci piyada alayının komandiri təyin edilmişdi. Hərbi nazirin 1919 il 25 iyun tarixli əmri ilə bu alay 2-ci Quba piyada alayı, 1919 ü 14 iyul tarixli əmri ilə 4-cü Quba piyada alayı adlandırılmışdı. Hüseyn bəy Ququşov alayın komandiri kimi 1920 ilin martında Qarabağda daşnak-erməni qiyamının yatırılmasında iştirak etmişdir.

**QULİYEV** Mirzə Hüseyn Hənifə oğlu (1.1.1900, Bakı, Ibülə k. - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı kişi gimnaziyasını bitirmişdir (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən kimya sahəsində təhsilini davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**QLLUQÇULARIN ƏMƏK HAQLARININ MÜVƏQQƏTİ ARTIRILMASI HAQQINDA QANUN** Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il aprelin 7-də qəbul etdiyi qanun. Həmin qanuna əsasən, vəzifəli şəxslərin təzə ştatları, qulluqçuların yeni maaşı, müvafıq maaşlar üzrə qulluqçuların dərəcələrə bölünməsinin layihəsi təsdiq olunmuşdu. Bundan əlavə, yol tikintisi işləri Yollar Nazirliyinə verildiyindən, quberniya idarələrinin mühəndis-memarlıq və tikinti bölmələdəki qulluqçu ştatları ləğv edilmişdi.

**QURBAN BAYRAMININ QEYD EDİLMƏSİ HAQQINDA QƏRAR** - dünya müsəlmanlarının Qurani-Kərimlə təsbit olunmuş və ən geniş yayılmış bayramlarından - Qurban bayramının rəsmi şəkildə qeyd edilməsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 19 il 14 sentyabr tarixli qərarı. Rusiya hakimiyyəti dövründə, başqa türk-müsəlman xalqları kimi, Şimali Azərbaycan müsəlmanlarının da dini bayramlarının qeyd olunmasına və müqəddəs yerlərə ziyarətlərinə əngəllər törədilirdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Hökumətin göstərilən sənədində 1919 ildə Qurban bayramının rəsmən sentyabrın 17-də qeyd olunması qərara alındı. Sovet hakimiyyəti qurulduqdan sonra Qurban bayramının qeyd edilməsi ləğv olundu. Azərbaycanın yenidən müstəqilliyə qovuşması ilə (1991) başqa milli və dini bayramlarla yanaşı, Qurban bayramının da azad surətdə qeyd olunması rəsmiləşdirildi.

*Əd.:* A3ep6afla)KaHCKaa fleuoKpaTHMecKaa Pecnyö.iHKa (1918-1920). 3aKOHOflaTejibHbie aKTM (c6opHHK AOKyMeHTOB), B., 1998.

**"QURTULUŞ"** - Azərbaycan siyasi mühacirlərinin Almaniyanın Berlin şəhərində nəşr etdirdikləri toplu. İlk sayı 1934 ilin noyabrında, son - 51-ci sayı isə 1939 ilin yanvarında işıq üzü gönnüşdür. "Qurtuluş" toplusu da, digər siyasi mühacir nəşrləri kimi, bolşevik Rusiyasının əsarətində olan azərbaycanlılara müraciətlə nəşr edilirdi. Xüsusilə, hər il 28 May İstiqlalı, 27 Aprel İstila günləri məcmuədə daha geniş əks olunurdu. Topluda Azərbaycan xalqının yenidən öz istiqlalına qovuşacağı günün gələcəyinə inam ifadə edilirdi. "Qurtuluş"da Azərbaycan xalqının tarixi, mədəniyyəti, türk dünyası, beynəlxalq məsələlər və s. barədə də dəyərli yazılar verilirdi. Məcmuədə Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Mir Yaqub, Hilal Münşi, B.Nuhoğlu, Almas İldırım, Cəfər Seyid Əhməd, Əhəd Əli-




downloaded from KitabYurdu.az

Zadə, Kərim Yayşılı və başqalarının məqalələri dərc olunurdu. B.Nuhoğlu "Qurtuluş" məcmuəsinin 1936 il 18-ci nömrəsində dərc etdirdiyi "27 Nisan" ("27 Aprel") məqaləsində yazırdı: ***"27 Nisan ən qara bir günümüzdür. 27 Nisan Milli hürriyyətimizin, Milli istiqlalımızın çalındığı bir gündür. 27 Nisan müqəddəs milli bayrağımızın yendirildiyi qara bir matəm günüdür. 27 Nisan haqqın çeynəndiyi, vəhşətin və istibdadın müzəffər olduğu bir gündür.. Bu gün günəşimiz tutulmuş və sonu gəlməyən bir qaranlıq başlamışdır. 27 Nisanda milli Azərbaycan vicdanı zədələnmiş, milli şüurumuzda daima sızlayan müqəddəs bir yara açılmışdır. Hər 27 Nisanda o yaranın közü qopuyor".***

*Əd.:* Şəmşir Səbahəddin, Azərbaycanın İstiqlal mücadiləsi. İstanbul, 2002; Tahirli A., Azərbaycan mühacirət mətbuatı, 2 hissədə, h. 1, B, 2002.

downloaded from KitabYurdu.az

# L

**LENİN** (Ulyanov) Vladimir İliç [22.4.1870, Simbirsk (indiki Ulyanovsk şəhəri) - 21.1.1924, Qorki qəsəbəsi] -bolşevik partiyasının və Sovet dövlətinin banisi, Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin 1879-87 illərdə Simbirsk gimnaziyasında oxumuş, Kazan Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Tələbə çıxışlarında iştirakına görə 1887 ilin dekabrında universitetdən xaric olunmuş və sürgün edilmişdir. 1891 ildə Peterburq Universiteti yanında hüquq fakültəsinə ekstern qaydası ilə dövlət imtahanları vermiş, vəkil köməkçisi kimi



işə başlamışdır. 1895 ildə Peterburq "Fəhlə sinfinin azadlığı uğrunda mübarizə ittifaqı"nı yaratmışdır. İnqilabi fəaliyyətinə görə yenidən həbs və sürgün olunur. 1900-05 illərdə Münxen, London, Cenevrədə yaşamış, "İskra" qəzetinin xaricdə nəşrini qaydaya salmışdır. Həmin dövrdə qəzetin təkrar çapı üçün Bakıda da gizli mətbəə təşkil edilmişdi. Lenin RSDFP-nin 2-ci qurultayının (1903) hazırlanması və gedişində fəal rol oynamışdır. Qurultayda partiyanın rəhbər orqanlarına seçkilər zamanı keçirilən qızğın müzakirələrdə "İskra" redaksiyası Leninin təklifini müdafiə etmədiyindən, o, "İskra"ya yeni seçkilər keçirməyi təklif etmişdir. Nümayəndələrin əksəriyyəti Leninin mövqeyini dəstəklədiyindən qəbul olunmuş qətnamə tərəfdarları **bolşeviklər** adlanmağa başladılar. Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) 3-cü (1905) və 5-ci (1907) qurultayları da Leninin rəhbərliyi ilə keçirilmişdir. 1905 ilin noyabrında gizli surətdə Peterburqa gələn Lenin bolşevik MK-na və Peterburq komitəsinə, "Vperyod", "Proletari", "Novaya jizn" qəzetlərinə rəhbərlik etmişdir. Təqiblərə məruz qaldığından 1907 ilin iyununda yenidən mühacirətə getmişdir. 10 il çəkən ikinci mühacirət illərində o, bolşevizmin nəzəri əsaslarını hazırlamış, sosialist hərəkatının bolşevizmə müxalif cərəyanlarına qarşı mübarizə aparmış, Rusiyanın sürətlə dəyişən şəraitinə uyğun olaraq RSDFP-nin strategiya və taktikasını müəyyənləşdirmişdi. Əvvəllər olduğu kimi, Bakı sosial-demokratları ilə sıx əlaqə saxlayan Lenin Bakı bolşevik təşkilatını 1910-11-ci illər Rusiyası üçün nümunəvi və qabaqcıl sosial-demokrat təşkilatlarından biri adlandırmışdı. 1912 il martın 28-də Parisdən Tiflisə göndərdiyi məktubunda Lenin Bakı və Tiflisin son dərəcə mühüm mərkəzlər olduğunu qeyd etmişdir. Müxtəlif yazılarında Lenin Bakı quberniyasını müntəzəm qeyd etmiş, milli məsələ ilə bağlı yazılarında Qafqaz sosial-demokratlarının əlbir fəaliyyətini nümunə göstərmişdir.

Lenin Rusiya ilə daha yaxından əlaqə saxlamaq üçün 1912 ilin iyununda Krakova (Polşa) köçmüş və Birinci dünya müharibəsi (1914-18) başlanana qədər burada yaşamışdır. Həmin dövrdə "Millətlərin öz müqəddəratını təyin etməsi hüququ haqqında", "Milli məsələyə dair tənqidi qeydlər" əsərlərini yazmışdır. Müharibənin əvvəlindən 1917 ilin martınadək İsveçrədə yaşayan Lenin *Fevral inqilabından (1917)* sonra, aprelin əvvəlində Petroqrada gələrək, bolşeviklər qarşısında "Aprel tezisləri" kimi məşhur olan "Hazırkı inqilabda proletariatın vəzifələri haqqında" məruzəsi ilə çıxış etmişdir. Leninlə, demək olar ki, bir vaxtda Rusiyaya qayıtmış Q.V.Plexanov "Aprel tezislərini" "sayıqlama" adlandırırdı. Lakin "Aprel tezisləri" bolşeviklərin sosial dayağını sürətlə artırdı. Lenin Müvəqqəti hökuməti tənqid edir, yalnız qalibiyyətli sosialist inqilabı yolu ilə imperialist müharibəsindən çıxmağın mümkün olacağını göstərirdi. Lenin 1-ci Ümumrusiya Sovetlər qurultayında (1917, 3-24 iyun) onun başçılıq etdiyi bolşeviklər partiyasının istənilən vaxt bütün hakimiyyəti öz üzərinə götürməyə hazır olduğunu bəyan etdi.

Rusiyaya qayıtdığı vaxtdan (1917, aprel) iyul hökumət böhranınadək (1917) Lenin 170-dən çox məqalə, kitabça, qətnamə layihələri, müraciətnamələr yazdı. Onun başçılığı ilə oktyabrın 24-də hakimiyyət çevrilişi məqsədilə silahlı üsyan başlandı [bax *Oktyabr çevrilişi (1917)]* və Müvəqqəti hökumət devrildi. Oktyabrın 25-də Leninin "Rusiya vətəndaşlarına" müraciəti elan olundu. Oktyabrın 26-da Lenin İkinci Sovetlər qurultayında sülh və torpaq haqqında məruzələrlə çıxış etdi. Leninin baçşılığı ilə Xalq Komissarları Soveti yaradıldı. Noyabrda Leninin imzası ilə dərc edilən "Rusiya xalqlarının hüquq bəyannaməsi"ndə xalqların öz müqəddəratlarını azad şəkildə müəyyən etmək hüququ elan edilirdi. 1918 ilin yanvarında Lenin "Zəhmətkeş və istismar olunan xalqın hüquq bəyannaməsi"ni yazdı. Bu bəyanatlara inanan Rusiya xalqları, o cümlədən Azərbaycanın müsəlman siyasətçiləri öz məramlarının həyata keçirilməsi üçün şərait yarandığını güman etdilər. Lakin çox çəkmədən onların yanıldıqlan aydın oldu. 1917 ilin dekabrında Leninin S.Şaumyanı Qafqaz işləri üzrə Fövqəladə Komissar təyin etməsi və bu komissarlıq üçün xüsusi maliyyə vəsaiti ayrılması Qafqazın yeni Rusiya dövlətinin maraq dairəsində olduğunu təsdiq etdi.

downloaded from KitabYurdu.az



Ulyanovlar ailəsi. 1879, Simbirsk

Keçmiş Rusiya imperiyasının bütün ərazilərinin sovetləşdirilməsi uğrunda qanlı mübarizə başlandı. Bolşeviklərin Bakıda sovet hakimiyyəti qurmaq uğrunda mübarizəsindən istifadə edən S.Şaumyan Azərbaycan xalqına qarşı kütləvi soyqırımı həyata keçirdi (bax *Mart soyqırımı).* **Leninin 1918 mayında "Sizin möhkəm və qəti siyasətiniz bizi çox sevindirir" deyə S.Şaumyana teleqram göndərməsi onun başçılıq etdiyi Bakı bolşeviklərinin və silalılı daşnak birləşmələrinin bütün Azərbaycan ərazisində türk-müsəlman əhaliyə qarşı qanlı cinayətlər törətməsinə haqq qazandırdı və rəvac verdi.** Lenin Bakı neftinin Rusiyaya daşınmasını təmin etmək üçün mayın 22-də Xalq Komissarları Sovetinin xüsusi qərarını imzaladı. Şaumyana verdiyi göstərişdə də Lenin, neft ələsini 1 nömrəli vəzifə kimi qarşıya qoydu, neft məhsullarının təcili surətdə Rusiyaya çatdırılması üçün bütün tədbirlərin görülməsini, neft sənayesinin vəziyyəti haqqında gündəlik məlumat verilməsini tələb etdi. Bakıda azərbaycanlılara qarşı həyata keçirilən mart soyqırımına Şaumiyanın saxta məlumatları əsasında qiymət verən Lenin ona etimad göstərdiyini yazdı. Lenin Bakıda sovet hakimyətinin saxlanması naminə hər cür hərbi yardım göstərməyə hazər idi və bu məqsədlə müvafiq sərəncamlar verirdi. Sovet dövlətinin müharibədən çıxmasını təmin edən Lenin Bakı məsələsində də almanlarla sövdələşməkdən çəkinməmişdi. O, 1918 il iyulun 7-də İ.Stalinə teleqramında bildirirdi ki, almanlar neftin bir hissəsinin onlara verilməsi müqabilində türklərin Bakıya yürüşünü dayandırmağa razıdırlar. Lenin almanların Bakını tutacağı təqdirdə, onlara neft ehtiyatlarını ələ keçirə bilməmələri üçün bütün tədbirlərin görülməsini tələb edirdi. Hələ 1918 il iyunun 5-də Lenin qeyd vərəqində yürüş olarsa, Bakını tamamilə yandırmaq üçün hər şeyi hazırlamağı və bunu Bakıda mətbuatda bəyan etməyi Baş neft komitəsinin üzvü S.M.Ter-Qabrielyana çatdırmaq barədə yazmışdı. Almanlarla gizli sövdələşmə ittihamına S.Şaumyan "Sentrokaspi diktaturası" dövründə "Vperyod" daşnak qəzetinə cavab verərək, Leninin tələbini təsdiq etmiş, müvafiq tədbirlər görüldüyünü etiraf etmişdi. Bakı ingilislərin əlinə keçdiyi zaman da, Lenin Bakını diqqət mərkəzində saxlamışdı. 1919 ilin fevralında Xəzər-Qafqaz cəbhəsi hərbi-inqilab şurasına teleqramında "ən ciddi tədbirlər görüb, bakılıların əhvali-ruhiyyəsindən sürətli və həlledici hərəkət üçün istifadə" etməyə çağırmışdı. Bakını ələ keçirmək və burada sovet hakimiyyəti qurmaq məsələsində Leninin mövqeyi və fəaliyyəti 1920 ilin əvvəlindən başlayaraq daha intensiv xarakter alır. 1920 ilin yanvarından Rusiya Kommunist (bolşeviklər) Partiyası Bakı Komitəsi yanında Əliheydər Qarayevin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün silahlı üsyan təşkil etmək məqsədilə "operativ qərargah" fəaliyyət göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətindən Denikin əleyhinə saziş bağlamaq təklifinə rədd cavabı alan Lenin, 1920 il martın 17-də Qafqaz cəbhəsinin Hərbi İnqilab Şurasına teleqramında bildirirdi: ***"Bakını almaq bizə olduqca və olduqca zəruridir. Biitün səyinizi buna verin".*** Həmin ünvana aprelin 2-də göndərdiyi teleqramında ***"ehtiyatlı hərəkət etməyi və müsəlmanlara münasibətdə mütləq maksimum xeyirxahhq göstərməyi"*** xahiş edir: ***"Müsəlmanlara, onların muxtariyyətinə, müstəqilliyinə və sairəyə rəğbət göstərdiyimizi hər vasitə ilə, həm də ən təntənəli bir surətdə nümayiş etdirin".*** Az sonra, 1920 il aprelin 27-də 11 -ci Qırmızı ordusunun birbaşa hərbi müdaxiləsi nəticəsində 23 ay müstəqil fəaliyyət göstərmiş və beynəlxalq aləmdə de-fakto tanınmış Azərbaycan Xalq Cümhuriyyəti devrildi [bax *Aprel işğalı (1920)]*. Bu xəbərə Leninin reaksiyası, həm də kütlə qarşısında etirafı onun Bakı və Azərbaycan barədə həqiqi məramını əks etdirir. O, Bakı nefti sayəsində sovet Rusiyasının vəziyyətinin yaxşılaşacağını bir neçə dəfə vurğulayır: "... ***Dünən Bakıdan aldığınız bir xəbər göstərir ki, sovet Rusiyasının vəziyyəti yaxşdaşacaqdır... İndi bizim bütün sənayemizi canlandıra biləcək bir iqtisadi bazamız vardır".*** Lenin Bakı neftini həmişə diqqət mərkəzində saxlamış, onun Azərbaycanla əlaqədar yazılarının əksəriyyəti Bakı nefti ilə bağlı olmuş və bu barədə müntəzəm olaraq sərəncamlar vermişdir. O, eyni zamanda, Antantanın Bakı üzərinə yürüşü ehtimalına qarşı şəhərin qurudan və dənizdən təcili surətdə möhkəmləndirilməsi barədə göstəriş vermişdi.

1921 ilin yazında Leninin Cənubi Qafqazla bağlı digər tələbi bu region üçün vahid təsərrüfat orqanının yaradılması

downloaded from KitabYurdu.az

idi. O, Zaqafqaziya Federasiyasmm yaradılmasmm təşəbbüsçüsü və müdafiəçisi olmuşdur. Onun 1921 il aprelin 14-də "Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan və Dağlılar Respublikasındakı kommunist yoldaşlara" ünvanladığı məktubda Qafqaz regionunun RSFSR-dən fərqli şəraiti və siyasi-iqtisadi vəziyyəti müqayisə olunmuş, Qafqaz respublikaları qarşısında, xüsusən iqtisadi baxımdan, həyata keçirilməli vəzifələrin perspektiv imkanları proqramlaşdırılmışdır. Bölgənin xarici ticarət sahəsində geniş imkanlarmı açıqlayan **Lenin 1921 il sentyabrın 26-da Nəriman Nərimanova teleqramında bildirirdi ki, RK(b)P Mərkəzi Komitəsinin sanksiyası və Diyar xarici ticarət orqanının razılığı olmadan nə almanlarla, nə də başqa biriləri ilə xarici ticarət haqqında qətiyyən müqavilə bağlamayın.** Belə sərt qadağa yalnız neft məhsullarına aid deyildi. Azərbaycan hökumətinin digər təbii sərvətlər, xanımal ehtiyatları barədə də sərbəst sərəncam vermək hüququ yox idi. Aprel işğalından az sonra hələ RSFSR ilə ittifaq müqaviləsinə daxil olmazdan əvvəl, **V.İ.Lenin Azərbaycan Xalq Təsərrüfatı Şurasına da iqtisadi sanksiya səciyyəli daşıyan teleqram göndərmişdi: "...Sizin sərəncamınızda altı min pud sıxılmış qara kürü vardır və siz bunu nıüstəqil əmtəə mübadiləsi qaydasında xaricə göndərmək istəyirsiniz. Lazım bilirik diqqətinizi cəlb edək ki, sizin əmtəə mübadiləsi məsələsində bizimlə razılaşmadan hərəkət etməniz ümumdövlət baxımından arzuedilməz-dir". Azərbaycanın yalnız iqtisadi həyatına deyil, "bütün xarici və daxili siyasətinə rəhbərlik" Lenin tərəfindən Azərbaycan SSR hökumətinin başçısı N.Nərimanova deyil, RK(b)P MK Qafqaz Bürosunun sədri Q.K.Orconikidzeyə həvalə edilmişdi.** Bununla belə, Lenin Şərqlə bağlı məsələlərdə N.Nərimanovun təklif və tövsiyələrinə diqqətlə yanaşmış, bir çox hallarda bunu nəzərə almışdı. Xüsusən Sovet-Türkiyə yaxınlaşmasında, Moskva və Qars müqavilələrinin bağlanmasında, habelə Şərqlə bağlı digər məsələlərin həlli zamam Leninin real beynəlxalq şəraiti nəzərə almasında N.Nərimanovun tövsiyyələri mühüm rol oynamışdır [bax *Moskva müqaviləsi (1921), Qars müqaviləsi (1921)]*. Sovet Rusiyasının Mustafa Kamal hərəkatına maddi və hərbi yardmı hər iki dövlət arasında əlaqələrin güclənməsinə, Antantaya qarşı müttəfiqlərə çevrilməsinə mühüm təsir etmişdir.

Lenin başda olmaqla bolşeviklər Vətəndaş müharibəsi və xarici hərbi müdaxilə şəraitində mövcud çətinlikləri dəf etmək üçün hərbi-kommunist idarəçilik rejimi yaratmışdılar ve sosializm ideyalarından uzaqlaşdılar. Ölkəni dərin iqtisadi və siyasi böhrandan çıxartmaq məqsədilə Lenin, Yeni İqtisadi Siyasət (NEP) xətti yeritməyə başladı. Səhvləri etiraf etməyi bacaran, çevik siyasətçi olan Lenin NEP-ə müvəqqəti tədbir kimi baxsa da, xarici ticarətə dövlət nəzarətinin ləğv olunmasına imkan verməmiş, ömrünün sonunadək xarici ticarətdə dövlət inhisarının tərəfdarı olmuşdur. **O, 1922 ilin martında L.Kamenevə yazırdı: "NEP-in terrora son qoyduğunu düşünmək böyük səhv olardı. Biz hələ terrora, həm də iqtisadi terrora qayıdacağıq".**

Lenin artıq 1921 ilin qışından tez-tez müalicə olunmağa və istirahət etməyə məcbur idi. 1922 ilin dekabrından cari məsələlərin həllində bilavasitə iştirak edə bilməsə də, SSRİ-nin yaradılması, partiyanın 12-ci qurultayına hazırlıq işlərinə rəhbərlik etmişdir. Lenin İ.Stalinin "muxtariyyətləşdirmə" ideyasını kökündən yanlış saymış, respublikaların muxtariyyət statusu ilə RSFSR-in tərkibinə qatılmasını və onların vahid mərkəzə tabe etdirilməsini çar dövrünü xatırladan siyasət kimi qiymətləndirmişdir. O, bütün sovet respublikalarının tam hüquq bərabərliyi və suverenlik əsasında yeni, çoxmillətli ittifaq dövləti formasında könüllü birliyinin tərəfdarı idi. Stalin Leninin bu mövqeyini sonralar "milli liberalizm" adlandırmışdı. **Lenin millətçiliyin və hakim millətçilik şovinizminin əleyhinə olmuş, velikorus şovinizminə qarşı qətiyyətlə çıxış etmişdir: "Velikorus şovinizminə ölüm-dirim müharibəsi elan edirəm. Lənətə gəlmiş dişdən xilas olan kimi, onu bütün sağlam dişlərimlə çeynəyəcəyəm".** O, milli məsələnin mürəkkəbliyini nəzərə alaraq, federasiyaya üstünlük vermiş, lakin federasiya ilə konfederasiya, mərkəzlə respublikaların funksiyası arasında dəqiq sədd qoymamışdı. NEP-in tətbiqində olduğu kimi, milli məsələnin həllində də imperializmlə mübarizə və birpartiyalı rejimin möhkəmləndirilməsi məqsədi güdülürdü.

Lenin ağır xəstə olduğundan SSRİ-nin yaradıldığı 1-ci Ümumittifaq Sovetlər qurultayında (1922, 30 dekabr) iştirak edə bilmədi. SSRİ MİK-in 2-ci sessiyasında (1923, iyul) Nəriman Nərimanovun təklifı ilə Lenin SSRİ-nin ilk Xalq Komissarları Sovetinin sədri seçildi. 1923 ilin payızında Leninin səhhəti daha da pisləşdi. Onun xəstəliyi şiddətləndikcə partiyadaxili ixtilaflar da kəskinləşir, hakimiyyət uğrunda mübarizə güclənirdi. Lenin "Qurultaya məktub" adlı vəsiyyətnaməsində partiya xadimlərinin şəxsi xarakteristikasını vermiş və tədbir görülməzsə partiyanın parçalanma təhlükəsi barədə xəbərdarlıq etmişdi.

Əsərləri: Əsərlərinin tam külliyyatı, c.1-55, B, 1973-1985; V.İ.Lenin Azərbaycan haqqında, B., 1970.

*Əd.:* V.İ.Lenin. Tərcümeyi-halı, B., 1975; Azərbaycan elçiləri İliçin yanında, B., 1970; Nərimanov N., Lenin və Şərq, B., 1970; Воспоминания азербаиджанских коммуистов о В.И. Ленине, Б., 1958.

**LEVANDOVSKİ** Mixail Karloviç (1890-1937) - Rusiya hərbçisi. 1918 ilin fevralından Şimali Qafqazda sovet qoşunlarının komandanı. 1920 ilin mart-iyulunda 11-ci Qırmızı ordunun komandanı olmuşdur. 1920 il aprelin 25-də hələ Dərbənd şəhərində ikən onun Azərbaycanın işğalı barədə hərbi hissələrə konkret göstərişlər verdiyi 52 saylı əmrdə Azərbaycan Xalq Cümhuriyyəti ordusu şəxsi heyətinin sayı, qoşun növləri, hərbi potensialı, qoşunların Azərbaycan ərazisində yerləşmə mənzərəsi təsvir edilirdi; Levandovskinin başçılıq etdiyi işğalçı 11-ci Qırmızı ordu 1920 il aprelin 27-də Azerbaycan sərhədlərini keçməli, sürətli hücumla Bakı quberniyası ərazisini zəbt etməli və Yalama-Bakı əməliyyatını beş gün müddətində başa çatdırmalı idi. 11-ci Qırmızı ordunun müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ələ keçirmək

downloaded from KitabYurdu.az

Məqsədi daşıyan əmr açıq hərbi mudaxilə idi (bax *Bakı əməliyyatı).* Levandovski "aprelin 27-də Xudatda, aprelin 28-də Dəvəçidə, 29-da Giləzidə, aprelin 30-da Yaşmada, mayın 1-də Biləcəri-Bakıda olacağına" tam əmin idi. Onun 53 saylı və sonrakı əmrlərində Bakı əməliyyatı ilə bağlı vəzifələr bir daha dəqiqləşdirilir, Azərbaycan ordu və donanmasının 11-ci Qırmızı orduya tabeçilik məsələləri müəyyənləşdirilirdi.

Levandovski Bakı əməliyyatına görə Azərbaycan SSR-in Qırmızı Bayraq Ordeni ilə teltif olunmuşdu (1921). O, 1924-25 illərdə Türküstan cəbhəsinin, sonra isə hərbi dairələrin komandanı olmuşdur. Repressiyaya məruz qalmışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001.

**LƏMBƏRANSKİ** Cəmil bəy Nəsir bəy oğlu (1884, Bərdə, Ləmbəran k. - 1959, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. 1913 ildə Kiyev Universitetinin tibb fakültəsini bitirmiş, 1920 ilə qədər özünün



təşkil etdiyi Tərtər xəstəxanasında işləmişdir. *Batum konfransında* (1918) iştirak etmişdir. Azərbaycan Mıllı Şurasının *Azərbaycan da qanun*"una (1918, 19 noyabr) əsasən, Azərbaycan Xalq Cümhuiyyəti Parlamentinə üzv seçilmiş, Parlamentdə "İttihad" fraksiyasına daxil olmuşdur. Ləmbəranski *Aprel işğalından (1920)* sonra Azərbayan Xalq Səhiyyə Komissarlığının müalicə şöbəsinə başçılıq etmiş, 1-ci cərrahiyyə xəstəxanasının baş həkimi, neft-mədən rayonu (Sabunçu, Qara şəhər) xəstəxanalarında travmatologiya şöbələrinin müdiri, İkinci dünya müharibəsi 939-45) illərində qarnizon hospitalının baş cərrahı və səiyyə komissarlığı təxliyə hospitallarının məsləhətçisi vəzifələrində işləmişdir. 1949 ildə namizədlik dissertasiyası müdafiə etmiş, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnsutunda optopediya və travmatologiya kafedrasının müdiri olmuşdur. 1957 ildə Ləmbəranskiyə Azərbaycanın əməkdar həkimi fəxri adı verilmişdi.

**LƏNKƏRAN ƏMƏLİYYATI (1919)** - Azərbaycanın cənub bölgəsində ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün Azərbaycan Xalq Cümhuriyyəti ordu hissələri 1919 ilin avqustunda həyata keçirdiyi hərbi əməliyyat. Ölkənin cənub bölgəsi hələ Azərbaycanın müstəqilliyinin təyin edilməsindən əvvəl bolşeviklərin, sonra isə ağqvardiyaçı qüvvələrin nəzarətində olduğundan, orada hərbi əməliyyat keçirilməsi zəruri idi. 1919 il iyulun sonu, avqustun əvvəllərində Lənkəran bölgəsinə hərbi qüvvə yeritmək imkanı yarandı. Bu məqsədlə xüsusi dəstə yaradıldı, general-mayor Həbib bəy Səlimov dəstənin komandiri təyin Idi. 1919 il avqustun 4-də hərbi nazir Səməd bəy Mehmandarov Lənkərana qoşun dəstəsi göndərilməsi haqqında - imzaladı. Əmrə görə dəstə Hacıqabul, Salyan, Pokrovsk (Xol-Teklə), Prişib (Göytəpə) marşrutu ilə Lənkəran qəzasına doğru hərəkət etməli, bölgədə olan silahlı dəstələri neytrallaşdırmalı və onları tərk-silah etməli idi. Lənkəran əməliyyatının başlaması ərəfəsində hərbi nazir S.Mehmandarov bölgə əhalisinə müraciət etdi və onları silahları təhvil verməyə çağırdı. Hərbi nazirin müvafiq əmrinə əsasən Lənkəran dəstəsinə daxil olan hissə və bölmələr 1919 il avqustun 12-də Hacıqabulda toplaşdılar. Onlar 5-ci Bakı piyada alayı, 3-cü Şəki süvari alayı, 2-ci yüngül topçu, 6-cı dağ topçu və əlahiddə qaubitsa batareyaları, istehkam taqımı və zirehli maşınlar taqımından ibarət idi. Dəstə avqustun 14-də hərəkətə başladı və ertəsi gün Salyana çatdı. Dəstənin komandiri general-mayor Səlimov dərhal öz nümayəndələrini məntəqədəki hərbi qüvvələrin başçılarının yanına göndərdi və onların Azərbaycan Hökumətini tanımağa çağırdı. Bununla yanaşı, Lənkəran dəstəsi yolboyu yerləşən rus kəndlərindən də silahları topladı. Avqustun 17-18-də həmin kəndlərdən 3 top və 5 pulemyot alınıb Bakıya yola salındı. Ayın 19-da həmin silahlar artıq Bakıya çatmışdı. Hərbi nazir S.Mehmandarov avqustun 19-da H.Səlimova göndərdiyi teleqramda Azərbaycan hökumətinin və ordusunun nüfuzunun aşağı düşməsinə yol verməmək üçün daha qətiyyətlə hərəkət etməyi və əməliyyat başa

*Lənkəran əməliyyatının əsgərləri*



downloaded from KitabYurdu.az



Lənkəran əməliyyatının əsgərləri

çatdırıldıqdan sonra dəstənin Bakıya mümkün qədər tez qaytarılmasının təmin olunmasını tələb edirdi.

Dəstə avqustun 20-də Pokrovsk kəndini mühasirəyə aldı və əhalidə olan silahları toplamağa başladı. Kənd əhalisindən 2 ədəd top və 4 pulemyot alındı. Avqustun 23-də dəstə Lənkərana çatdı. Sürətli və qətiyyətli tədbirlər nəticəsində bölgədəki qüvvələrin hər hansı silahlı müqavimət göstərmək imkanı heçə endirildi. Bununla da, avqustun sonunda Lənkəran dəstəsi ona həvalə olunmuş vəzifələri tamamilə yerinə yetirdi, xüsusi silahlı müqavimətə rast gəlmədən bölgənin rus əhalisini, polkovnik İlyaşeviçin başçılığı altında olan silahlı dəstələri tamamilə tərk-silah etdi.

Nəticədə, Cümhuriyyət ordusu üçün xeyli silah və hərbi sursat əldə olundu. 1919 il sentyabrın 3-də Lənkəran dəstəsi Hacıqabula qayıtdı. Azərbaycan milli ordusunun Lənkəran əməliyyatı nəticəsində ölkənin cənub bölgəsində Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti təmin olundu.

*Əd:.* Азербаиджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998. Azərbaycan tarixi, 7 clddə, c.5,B.,2001; Süleymanov M.,Azərbaycan ordusu(1918-1920),B., 1998.

**LƏNKƏRAN QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı quberniyası tərkibində inzibati-ərazi vahidi. Hələ çar I Nikolayın dövründə [1825-55] həyata keçirilmiş 1840 il 10 aprel qanunu ilə Talış əyalətinin əsasında yaradılmışdı. Lənkəran qəzası 1841-46 illərdə Kaspi vilayətinin tərkibinə daxil idi. 1846 il 14 dekabr tarixli fərmanla Şamaxı quberniyası təşkil edildikdə, onun tərkibinə qatılmışdı (1859 il Şamaxı zəlzələsindən sonra mərkəzi Bakıya köçürüldüyündən Bakı quberniyası adlandırılmışdı). Qəzanın mərkəzi Lənkəran şəhəri idi Qəza Səbican, Lənkəran, Ərkivan məntəqələrindən və Muğan pristavlığından ibarət idi. Burada qəza idarəçi sistemi fəaliyyət göstərirdi. Qafqaz təqviminin (1917 məlumatma görə, qəzanın ərazisi 4726,88 *kv.verst* idi Lenkeran qəzasmda yaşayan 185518 nəfər əhalinir 183583 nəfəri yerli sakinlər, 1935 nəfəri müvəqqət yaşayanlar, 96904 nəfəri kişi, 88614 nəfəri qadın idi Qəza əhalisinin 170 min nəfərə qədəri müsəlman idi Çarizmin köçürmə siyasəti nəticəsində Lənkəran qəzasının əhalisinin tərkibində rusların sayı artmışdı. Həmin məlumata görə, qəzada 16206 nəfər rus qeydiyyata alınmışdı onların 6974 nəfəri pravoslav, 9232 nəfəri sektant idi Lənkəran şəhərində 17801 nəfər yaşayırdı. Qəzanın təsərrüfat həyatında taxılçılıq, çəltikçilik, balıqçılıq əsas yer tuturdu. Fevral inqilabından (1917) sonra Lənkəranda sovetlər yarandı. Oktyabr çevrilişindən (1917) sonra Bakıda hakimiyyəti ələ keçirmiş Bakı Soveti quberniyaya daxil olan qəzaların, o cümlədən Lənkəran qəzasının zor gücünə sovetləşdirilməsinə çalışırdı. 1918 il aprelin 12-də Bakı Soveti Lənkərana 280 nəfərlik silahlı dəstə göndərdi və aprelin 14-də qəzada sovet hakimiyyətinin qurulması elan olundu. Lakin 1918 il avqustun 4-də Lənkəran qəzasında sovet hakimiyyəti süqut etdi. Burada sağ eserlərlə "Muğan Müvəqqəti hərbi diktaturası və ya Beşlər dikta-turası" yaradıldı. "Muğan hökuməti" antiazərbaycan siyasəti yeridir, denikinçilərin Cənubi Qafqazda ağalığını təmin etməyə çalışırdı. Bolşeviklər də Lənkəranda hakimiyyəti ələ keçirməyə cidd-cəhd göstərirdilər. Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsi

Lənkəran qəzasının gerbi. 1840.
Azərbaycan Tarixi Muzeyi



downloaded from KitabYurdu.az

Lənkəranda gizli radiostansiya təşkil etmiş, sovet hakimiyyəti tərəfdarlarına hərbi və maddi kömək göstərmişdi. "Muğan hökuməti" 1919 il aprelin 25-də yıxıldı, *Muğan Sovet Respublikası* (1919 il 25 aprel - 27 iyul) quruldu. Muğan Sovet Respublikası Azərbaycan Xalq Cümhuriyyətini tanımaqdan imtina etdi. Bəzi sosialist tədbirlərinə baxmayaraq, Muğan Sovet Respublikası xalq arasında nüfuz qazana bilmədi və iyulun 27-də süquta uğradı. Lənkəran qəzasında hakimiyyət Muğan qüvvələrinin əlinə keçdi. Ölkənin ərazi bütövlüyünün bərpasına xüsusi önəm verən Cümhuriyyət Hökuməti Lənkəran qəzasında öz hakimiyyətinin qurulması uğrunda fəal mübarizəyə başladı. Bu məqsədlə xüsusi dəstə təşkil olundu. Hərbi nazir Səməd bəy Mehmandarov iyulun 23-də Lənkəran qəzasının sakinlərinə müraciət imzaladı. Müraciətdə deyilirdi: *"Vətəndaşlar! Azərbaycan Cümhuriyyəti hökumətinin iradəsi ilə mən Lənkəran qəzasına dəstə göndərirəm. Vətəndaş müharibəsinə birdəfəlik son qoymaq, qayda-qanun yaratmaq, sizi dinc əhaliyə əzab verən zorakı dəstələrdən və qatillərdən azad etmək işi bu dəstəyə tapşırılıb. Azərbaycanın ayrılmaz hissəsi olan qəzada məskunlaşmış bütün millətlərə ədalətli münasibət bəsləyən Azərbaycan qoşunları sizin yanınıza qanunçuluğun daşıyıcısı kimi gəlirlər... Bununla bərabər, məlum edirəm ki, sovetlər, komitələr və ya "Muğan respublikası" adı altında hər hansı özbaşına təşkilatın yaradılmasına yol verilməyəcəkdir..."*. Lənkəran əməliyyatı uğurla başa çatdı. Avqustun sonunda Lənkəran dəstəsi qarşıya qoyulan vəzifəni yerinə yetirdi. 1919 ilin avqustundan Lənkəran qəzasında Azərbaycan Xalq Cümhuriyyətinin suveren hüquqları bərpa edildi. *Aprel işğalından (1920)* sonra Cümhuriyyət hakimiyyətinin süqutu nəticəsində 1920 il mayın 3-də Lənkəran qəzasında yenidən sovet hakimiyyəti quruldu. Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar olaraq, Lənkəran qəzası 1929 ildə ləğv edildi.



Lənkəran xan evi

*Əd:*. Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Əlizadə N.İ., Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən (Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi). B., 1974; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998. Армия (документы и материалы), Б., 1998 Привольный А.А., Синицын В.М., Сражающаяся Мугань. Документы истории к ним, Б., 1979.

**"LƏNKƏRAN ŞƏHƏRİ TƏLƏBƏ VƏ ABİTURİYENTLƏR İTTİFAQI"** – Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qurum (1919). Əsas məqsədi Lənkəran şəhəri əhalisi arasında mədəni-maarif işi aparmaq, burada savad kursları, kitabxana-qiraətxanalar təşkil etmək, məşğələlər keçirmək və s. idi. İttifaq əhali arasında milli-mənəvi dəyərlərin təbliği və möhkəmləndirilməsində əhəmiyyətli rol oynamışdır. *Aprel işğalından (1920)* sonra fəaliyyəti dayandırılmışdır.

**LƏNKƏRAN ÜSYANI (1920)** - Azerbaycanın Lənkəran-Astara bölgəsində sovet işğalına qarşı xalq üsyanı. 1920 ilin iyununda başlanmış, həmin ilin sentyabrında kütləvi xarakter almışdır. Üsyan, əsasən, bölgədə yaradılmış 7 böyük silahlı dəstə tərəfindən aparılırdı. Ən böyük dəstələrə Cümhuriyyətin süqutundan sonra Azərbaycanda qalmış türk zabiti Yusif Camal bəy, Nəcəfqulu xan və Şahverən rəhbərlik edirdilər. Üsyançı silahlı dəstələrdəki döyüşçülərin sayının 6-10 min arasında olduğu güman edilir. Yusif Camal bəyin dəstəsi Lenkəranın cənubunda, Nəcəfqulu xanım dəstəsi isə şimalında fəaliyyət göstərirdi. Yusif Camal bəyin silahlı dəstəsi, ilk olaraq, Lənkəranın Şahağac, Təngərud, Səfidar kəndlərini sovet rejimindən azad etdi. Züvənd sahəsindəki sovet milis dəstəsini isə Şahverənin dəstəsi zərərsizləşdirdi. Sentyabrın (1920) əvvəllərində Astara ətrafında genişlənən xalq üsyanın əsas zərbə qüvvəsi Ramazanın dəstəsi idi. Astaranın Şüvə kəndində yaradılmış başqa bir üsyançı dəstəyə isə Qüdrət Mollaağa oğlu

Lənkəranın yerli idarə orqanının rəhbərləri əhali arasında



downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az

başçılıq edirdi.Üsyançı qüvvələr 1920 ilin sonlarına kimi ölkənin müxtəlif məntəqələrində sovet qüvvələrinə ağır zərbələr endirdilər. Dekabrda Yusif Camal bəyin dəstəsi Astaranı sovet qüvvələrindən təmizləyərək, Lənkərana doğru istiqamət götürdü. Yusif Camal bəyin irəliləməsini yalnız Lənkəran ətrafında dayanmış 245-ci sovet alayının və dənizdəki sovet hərb gəmilərinin birgə səyi ilə dayanırmaq mümkün oldu.

Genişlənən xalq üsyanlaının qarşısını almaq üçün 11-ci rdu komandanlığı 248-ci, 249-cu atıcı alaylarını, "Ukrayna" və "Dostoynı" eskadron minadaşıyanlarını, "Roza Lüksemburq" kreyserini, "Prıtki" minadaşıyaını, "Kursk" gəmisini və desant daşıyan əlavə beş nəqliyyat gəmisini bölgəyə göndərdi. Bakıdan göndərilən qüvvələr bölgəyə yetişəndən sonra iki taktiki qrupa bölünməli və onların köməyi ilə Lənkəran və Astara arasındakı ərazini nəzarət altına almış üsyançı qüvvələr neytrallaşdırılmalı idi. Qrupun iri Lənkərandan cənuba, digəri isə Astaradan şimala doğru hərəkət etməli idi. Bölgədə yerləşən 1-ci süvari diviziyası və digər bölmələr də bu iki taktiki qrupla birgə fəaliyyət göstərməli idi. Üsyançılara qarşı hazırlanan döyüşün planına əsasən, bölgədəki bütün sovet qüvvələri Lənkəranın cənuba doğru hərəkət edən qrupu, Bakıdan gələn qüvvələr isə, sahilə çıxmaqla, Astaradan şimala doğru hərəkət dəcək qrupu təşkil etməli idilər. Çox böyük imkanlara malikk olmasına baxmayaraq, Bakıdan gələn qüvvələrin 1920 il dekabrın 23-də Astara yaxınlığında sahilə çıxmaq üçün göstərdikləri ilk cəhd baş tutmadı. Buradakı üsyançı dəstələr son dərəcə böyük şücaət göstərərək sovet qüvvələrinin ilk hücumunu dəf etdilər. Lakin üsyançıların sovet gəmilərində qurulmuş uzaqvuran toplardan açılan atəşin qarşısını almaq üçün heç bir texniki vasitəsi yox idi. Məhz gəmi artilleriyasının işə salınması üsyançıları geri çəkilməyə məcbur etdi. Sovet qüvvələri gəmi artilleriyasından fəal istifadə etməklə, Lənkəran və Astara arasında sahil boyu olaqda döyüş mövqelərini ələ keçirib möhkəmləndilər. 1920 il dekabrın 25-də Lənkəran və Astara bölgəsi yenidən sovet qüvvələrinin nəzarəti altına alındı.

1921 il yanvarın əvvəllərində Lerik ətrafında Şahverənin başçılığı ilə sovet işğalçılarına qarşı üsyan yenidən alovlandı. Şahverən kifayət qədər taktiki çeviklik göstərərək, bura gətirilmiş sovet bölmələrinə ciddi zərbələr endirldi. Yanvarın 9-dan 26-dək bölgədə gedən döyüşlərdə əlaliddə sovet süvari divizionu 196 nəfər itki vermiş, 78 nəfər yaralanmış, 75 nəfər isə döyüş qabiliyyətini itirmişdi.

1921 il fevralın əvvəlində Lənkəran ətrafında Nəcəfqulu xanın baçşılığı ilə, həmin il avqustun sonlarında isə Astara ətrafında bir neçə dəstənin iştirakı ilə xalq üsyam yenidən alovlandı. Astara ətrafındakı üsyanda Rəşid xanın, Hüseynəli xanın, Şahverənin, Ataxanın, Nəcəfqulu xanın və onun qardaşı Əhməd xanın dəstələri iştirak edirdilər. Üsyançılar kifayət qədər şücaət göstərsələr də, Bakıdan gətirilən əlavə qüvvələrdən, xüsusən gəmi artilleriyasından geniş istifadə etməklə onların müqavimətini qırmaq mümkün oldu. Lənkəran üsyanı (1920) Azərbaycan xalqının sovet-bolşevik işğalına qarşı mübarizəsinin ən parlaq səhifələrindən biridir.

*Əd:*. Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; İbrahimli F., Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930), B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Qaffarov T., Azərbaycan tarixi. 1920-1991, B., 1999.

**LƏVAZİMAT (İNTENDANT) İDARƏSİ** Azərbaycan ordusunun ərzaq və əşya təminatı ilə məşğul olan orqanı. Əsası 1918 il noyabrın 15-də *Ümumi qərargahın* şöbəsi kimi qoyulmuşdur. Polkovnik Seyfulla Mirzə hərbi nazirin əmri ilə ləvazimat şöbəsinin rəisi təyin edilmişdi. Bax *Hərbi ləvazimat (intendant idarəsi).*

**LİZQAR** Konstantin Nikolayeviç (1882 - 15.5.1920, Bakı) - Azərbaycan Xalq Cümhuriyyətinin 3-cü hökumət kabinəsində ərzaq naziri. 1914 ilə qədər Bakıda və Vladiqafqazda mağazalar sahibi olmuş, 1914 ildə praporşik rütbəsi ilə orduya çağırılmış, 499-cu səhra hospitalında, Tiflis avtomobil komandasında, Türküstanda xidmət etmişdir. Xüsusi Zaqafqaziya Komitəsində yollar komissiyasının kargüzarı olmuş, yollar komissarlığında xüsusi tapşırıqlar məmuru vəzifəsində çalışmışdır. 1918 ilin martında *"Slavyan-rus cəmiyyəti* "ni yaradanlardan biri və onun sədri olmuşdur. Həmin ilin oktyabrmda Azərbaycan Xalq Cüm-huriyyəti Hökumətinin əkinçilik naziri Xosrov Paşa bəy Sultanovun dəvəti ilə Bakıya gəlmiş, nazirlikdə xüsusi tapşırıqlar məmuru təyin olunmuş, Cümhuriyyətin 3-cü hökumət kabinəsində isə ərzaq naziri vəzifəsini tutmuşdur. 1920 il mayın 2-də 11-ci Qırmızı ordu inqilabi şurası yanındakı xüsusi şöbə tərəfindən həbs edilmiş, mayın 15-də əks-inqilabi fəaliyyətdə və sovet hökumətinə qarşı düşmənçilikdə ittiham edilərək güllələnmişdir.

*Əd.:* Şüküroğlu L.,Cümhuriyyət hökuməti repressiya məngənəsində, B., 2000.

**LLOYD CORC** Devid (17.1.1863, Mançester-26.3.1945, Llanistamdvi, Karnarvənşir) - Böyük Britaniya siyasi və dövlət xadimi, diplomat. Liberallar partiyasının lideri. 1905-08 illərdə ticarət naziri, 1908-15 illərdə maliyyə naziri, 1916-22 illərdə baş nazir olmuşdur. *Paris sülh konfransının (1919-20)* əsas təşkilatçılarından və *Versal sülh müqaviləsinin (1919)* müəlliflərindəndir. Bu dövrdə bolşeviklərin qələbələri sovet Rusiyasının qonşuluğunda yerləşən yeni yaranmış dövlətlər üçün ciddi təhlükə yaradırdı. Digər tərəfdən, Qərbin bir sıra dövlət xadimləri keçmiş Rusiyanın sərhədləri boyunca yaranmış milli dövlətlərə bolşevizmin digər bölgələrə yayılmasının qarşısını ala biləcək bir qüvvə kimi baxırdılar. Müttəfiqlərin Rusiya məsələsində öz siyasətlərinə düzəliş etməsi vaxtının çatdığını ilk dəfə Lloyd Corc bildirmişdi. Müttəfiqlərin bu vaxta qədər Rusiyanın daxilindəki antibolşevik qüvvələrin ruhlandırılması üçün "vahid və bölünməz Rusiya" prinsipi ilə formalaşdırılan siyasəti artıq əhəmiyyətini itirmişdi.

O, 1919 il noyabrın 17-də İngiltərə parlamentinin icmalar palatasında çıxış edərək bildirdi ki, Rusiyada kifayət qədər antibolşevik qüvvələrin olmasına baxmayaraq, onlar birləşə bilmirlər. Bu qüvvələr sırasında Azərbaycanın da

downloaded from KitabYurdu.az

adını çəkən L.Corcun fikrincə, onların birləşə bilməmələrinin başlıca səbəbi müstəqillik məsələsində "ağlar" ilə milli ucqarların mənafelərinin uyğun gəlməməsidir. L.Corc Kolçakın və Denikinin, bir tərəfdən, bolşevikləri devirib Rusiyada köhnə rejimi bərpa etmək, digər tərəfdən isə, "vahid və bölünməz Rusiya" uğrunda mübarizə apardıqlarını qeyd edərək, bildirirdi ki, birinci məsələdə onların milli ucqarlar ilə bir mövqedən çıxış etmələri mümkündür, lakin ikinci məsələdə mənafeləri heç cür uyğun gələ bilməz. O, çıxışında qeyd edirdi: "...Denikin deyir ki, Gürcüstan, Azərbaycan, Ermənistan Rusiyanın bir hissəsidir. Onları Rusiyaya birləşdirmək onun siyasətinin əsas özəyidir, lakin onlar bu haqda eşitmək belə istəmirlər. Onlar müstəqillik uğrunda mübarizə aparırlar". O, açıq göstərirdi ki, Rusiyamn daxilindəki antibolşevik mərkəzlərinə olan ümidlər boşa çıxmışdır, "ağ" generallar ilə milli ucqarların vahid ittifaqda bolşevizmə qarşı mübarizə aparmaları mümkün deyil. Beləliklə, L.Corc parçalanmış, bufer dövlətlərlə əhatə olunmuş və bolşevizm ideologiyasının təcrid olunduğu bir Rusiyanı daha məqbul sayırdı. O, sovet Rusiyasının hərbi yolla məğlub edilməsinin mümkün olacağına şübhə ilə yanaşır, əsas diqqəti onun qonşu bölgələrdən təcrid olunmasına yönəldirdi. Bunun üçün isə, Qərb dövlətlərinin yeni yaranmış milli dövlətlərə münasibətində əsaslı dəyişiklik edilməli idi.

L.Corcun çıxışında Azərbaycana da mühüm yer ayrılmışdı. Bu, gənc Cümhuriyyətin beynəlxalq aləmdə nüfuzunun artmasına müəyyən təsir göstərmişdi. Corcun göstərilən çıxışı, eyni zamanda, ermənilərin Azərbaycana qarşı apardıqları böhtan kampaniyasına da ağır zərbə vurmuşdu. Bından əlavə, onun çıxışı Qərb dövlətlərinin Qafqaza, o cümlədən Azərbaycana maraqlarının artmasına səbəb oldu. Bu isə Azərbaycanın beynəlxalq aləmdə de-fakto tanınmasını sürətləndirdi və dünya dövlətləri birliyində bərabərhüquqlu yer tutmasına zəmin yaratdı.

L.Corc Paris sülh konfransı Ali Şurasının 1920 il yanvarın 10-da B.Britaniyanın təşəbbüsü ilə çağırılan sessiyasında Cənubi Qafqaz respublikaları ilə bağlı məsələlərin müzakirəsində fəal iştirak etdi. Onun təşəbbüsü ilə Ali Şuranın qəbul etdiyi qərara əsasən, hərbi ekspertlər Cənubi Qafqaz respublikalarına kömək üçün təkliflər hazırlamalı idilər. L.Corc Azərbaycan və Gürcüstanm müstəqil dövlətlər kimi tamnması məsələəini irəli sürmüşdü. O, hərbi ekspertlərin Qafqaza qoşun göndərmək təklifinə etiraz etmiş, Cənubi Qafqaz respublikalarına silah-sursatla və geyimlə təcili yardım göstərilməsini zəruri saymışdı. L.Corc bildirmişdi ki, Cənubi Qafqaz respublikaları müdafiə qabiliyyətlərini, xüsusən Bakının müdafiə qabiliyyətini öz silahlı qüvvələri hesabına gücləndirməlidirlər. O, Dağlılar Respublikasım de-fakto tanımaq haqqında Əlimərdan bəy Topçubaşovun təklifini bəyənmiş və Ali Şura Qafqaza aid 4 maddədən ibarət qərar qəbul etmişdi. Lloyd Corc Sovet Rusiyasına qarşı müdaxiləni müdafiə etmiş, lakin bu siyasətin perspektivsizliyini görüb, Sovet dövləti ilə münasibətləri nizama salmağa məcbur olmuşdu. Türk xalqının milli azadlıq hərəkatına (1918-23) qarşı silahlı müdaxilənin təşkilatçısı olmuş, Antanta dövlətlərinin bu avantürist siyasəti boşa çıxdıqdan sonra istefa vermişdi. Sonralar faşist təcavüzünə qarşı Sovet-İngiltərə Həməkdaşlığına tərəfdar çıxmışdır.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**LONDON KONFRANSLARI** - təzminat və Yaxın Şərq məsələlərinə dair konfranslar. 1921 il fevralın 21-də martın 14-dək keçirilən birinci konfransda B.Britaniya, Fransa, İtaliya, Türkiyə və b. dövlətlər, həmçinin Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Azərbaycan siyasi mühacirətinin nümayəndə heyəti iştirak etmişlər. Türkiyədən Osmanlı dövlətinin və Türkiyə Böyük Millət Məclisi (TBMM) hökumətinin nümayəndə heyətləri iştirak etmişlər. Konfransda Türkiyənin tələbləri bunlar idi: Türkiyənin1913 il sərhədləri bərpa olunsun, İzmir yunan ordusundan azad edilsin və türklərə qaytarılsın; boğazlardan keçidi nsərbəst olacağı halda, Türkiyənin suverenliyinə və təhlükəsizliyinə təminat verilsin; işğal rejimi ləğv edilsin; öz sahillərini və ərazilərini qorumaq üçün Türkiyəyə hərbi dəniz donanması saxlamaq hüququ verilsin.

Konfransda Böyük Britaniyanm baş naziri Lloyd Gorc TBMM nümayəndə heyətinin başçısı Bəkir Sami ilə məxfi görüşündə belə bir təklif irəli sürmüşdü: "Türkiyə, Bakı neft mənbələri ilə birlikde, bütün Cənubi Qafqazı öz protektoratlığına götürsün".

Konfransda təzminat ödəmək barədə Almaniyaya ultimatum verilmişdi. Türklərlə yunanlar arasında razılıq əldə edilmədiyindən konfransın işi pozulmuşdu. Bundan sonra Türkiyə 1921 il martın 16-da Rusiya ilə müqavilə (bax *Moskva müqaviləs)* bağlamışdır.

1921 il aprelin 29-dan mayın 5-dək keçirilən ikinci konfransda Almaniyanın ödəyəcəyi təzminatın məbləği 132 milyard qızıl marka həcmində müəyyənləşdirilmişdi. Almaniya təzminatı ödəmək, tərk-silah keçirmək, müharibə canilərini təhvil vermək barədə şərtləri qəbul etmişdir.

London konfranslarında Azərbaycan nümayəndə heyəti müharibədə vurulan ziyana görə təzminat verilməsini və bolşevik işğalına son qoyulmasım tələb etsə də, istəyinə çatmamışdı.

*Əd.:* Q a s ı m o v M., Avropa və Amerika ölkələrinin müasir tarixi, 2 hissədə, h. 1 (1918-1945-ci illər), B., 2003.

**LUKOMSKİ** Aleksandr Sergeyeviç (1868-1939) – rus hərbi xadimi, general. Denikinin Könüllü ordusunun təşkilatçılarından biri. Azərbaycan Xalq Cümhuriyyətinin Kuban hökumətində diplomatik nümayəndəsi Cəfər bəy Rüstəmbəyov 1919 il oktyabrın 2-ci yarısında Lukomski ilə görüşüb danışıqlar aparmışdı. Görüşdə Lukomski bildirişdi ki, Könüllü ordu üçün Azərbaycanın müstəqil dövlət kimi yaşaması müvəqqəti haldır; Azərbaycan yeni yaranmış digər dövlətlər kimi Rusiyanın bir hissəsidir. Lakin Azərbaycan məsələsinin ümumrusiya miqyasında həllinədək Könüllü ordu onun müstəqilliyinə qəsd etmək fikrində deyildir. Görüşdə Dağıstan və demarkasiya xətti məsələləri

downloaded from KitabYurdu.az

də müzakirə edilmişdir. Lukomski bildirmişdi ki, "onlar arxada bolşeviklərin mövcudluğuna göz yuma bilməzlər və buna görə də dağlı üsyanının yatırılması üçün əllərindən gələni əsirgəməyəcəklər. Dağıstanlılar bütün Şərq xalqları kimi ancaq gücə tabe olduqlarından onlara qarşı... bu güc tətbiq ediləcəkdir".

1920 il yanvarın 20-də Azərbaycan Xalq Cümhuriyyəti Kuban hökuməti yanında diplomatik nümayəndəliyini ləğv etməklə, dağlı üsyanına qarşı olan münasibətlə razılaşacağını göstərdi. Lukomski Samur çayını Azərbaycan sərhəddi hesab etdiyini söyləmişdi. 1920 ilin martından müttəfiqlərin İstanbul komitəsində general Vrangelin nümayəndəsi olmuş, sonra mühacirət etmişdir.

*Əd:*. Азербаиджанская Демократическая Республика (1918-1920). Документы и материалы, Б., 1998. 1998; Göyüşov A., 1917-1920-lərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

downloaded from KitabYurdu.az

# M

**MAHMUDBƏYOV** Ələsgər bəy (1875, Şamaxı - 1968, Qahirə) - *Azərbaycan Milli Şurasının* üzvü. Bakı realnı məktəbini, Peterburq Politexnik İnstitutunu bitirmişdir. Təhsilini başa vurduqdan sonra Hacı Zeynalabdin Tağıyevin toxuculuq fabrikində çalışmış, 1908 ildə Tiflisə köçərək ictimai fəaliyyət göstərmiş, Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətinin işində yaxından iştirak etmişdir. Azərbaycan Milli Şurasının *İstiqlal bəyannaməsini* imzalayan 26 üzvündən biri idi. 1918 ildə Türkiyəyə getmiş, Adana şəhərində toxuculuq fabrikinə başçılıq etmişdir. Sonralar Qahirəyə köçmüş, ömrünü orada başa vurmuşdur.

**MAHMUDBƏYOV** Həbib bəy Hacı İbrahimxəlil oğlu (16.6.1864, Şamaxı - 30.7.1928, Bakı) - maarif xadimi. İlk təhsilini Şamaxıda almış (1871-73), Bakıda realnı məktəbdə oxumuşdur (1873-81). Tiflisdə Aleksandr Müəllimlər İnstitutunda təhsil almışdır (1883-87). Rusiyanın maarif naziri qraf İ.D.Delyanovun müsəlmanları ali tipli xalq məktəblərinə buraxmamaq haqqında sərəncamına əsasən, digər azərbaycanlı həmkarları ilə birlikdə təyinatdan kənarda qalmışdır. 1887 ildə Bakıda Sultanməcid *Qənizadə* ilə birlikdə ilk xüsusi "rüs-müsəlman" məktəbinin əsasını qoymuşdur. Sonralar İçərişəhərdə açılan birinci "rus-müsəlman" məktəbinə müdir təyin olunmuş, on dörd il ona rəhbərlik etmişdir. 1905-16 illərdə ikinci dərəcəli Bakı şəhər məktəbinin müdiri işləmiş, yoxsul uşaqlarının təhsilə cəlb olunmasına çalışmışdır.

Mahmudbəyov Bakı şəhər dumasında məktəb komissiyasının üzvü, Azərbaycan müəllimlərinin 1-ci qurultayının nümayəndəsi olmuşdur. 1916 ildə pedaqoji sahədən uzaqlaşmış, Azərbaycan Xalq Cümhuriyyəti illərində Bakı lombardında, Sovet hakimiyyəti illərində xalq maarifinin yenidən qurulmasında fəaliyyət göstərmiş, Ali Pedaqoji İnstitutda direktor müavini (1921-27) işləmişdir.

*Əd.:* Abdullayev A., Azərbaycan dilinin tədrisi tarixindən, B., İ964; Məmmədov X., İlk "Rus-müsəlman" məktəbi və onun tarixi rolu, "Azərbaycan məktəbi" jurnalı, 1964, №5; Mustafayeva D., Görkəmli maarifpərvər müəllim Həbib bəy Mahmudbəyov, "Azərbaycan məktəbi" jurnalı, 1964.

**MAHMUDBƏYOV** Mahmud bəy Polad bəy oğlu (1863, Şamaxı - 1923, Bakı) - maarif və mətbuat xadimi, publisist. Bəy ailəsində doğulmuşdur. Şamaxıda məhəllə və şəhər məktəblərində (1870-79), Qori Seminariyasında (1879-83) təhsil almışdır. Pedaqoji fəaliyyətində Yelizavetpol və İrəvan quberniyası xalq məktəbləri direktorluğunda



başlamış, Padar, Ağcabədi və Ağdam kənd ibtidai məktəblərində (1883-88) müəllim işləmişdir. Bakı quberniyası, Dağıstan vilayəti xalq məktəbi direktorluğuna dəyişilmiş, Dilman və Kalavat kənd ibtidai, Göyçay və Sabunçu ikisinifli məktəblərində (1888-97) pedaqoji fəaliyyətini davam etdirmişdir. 1897 ildə Bakı şəhəri 2-ci "rus-müsəlman" məktəbində müəllim, 1898 ildə 3-cü "rus-müsəlman" məktəblərində müdir olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin mədəni-maarif həyatında yaxından iştirak etmiş, 1919 il yanvarın 16-da maarif naziri Nəsib bəy Yusifbəylinin əmri ilə Bakı quberniyası xalq məktəblərinin 4-cü rayonu üzrə inspektor vəzifəsinə təyin olunmuş, nazirliyin təşkil etdiyi əlifba komissiyasının işində fəal iştirak etmişdir.

Təhsilin milliləşdirilməsi, demokratikləşməsi, xalq həyatına yaxınlaşması, milli mənlik şüurunun oyanması uğrunda mübarizə M.Mahmudbəyov fəaliyyətinin əsas istiqamətini təşkil edir. 20 əsrin əvvəllərində xalq inqilabının təsiri altın milli mənəvi həyatda milliləşmə prosesi başlanarkən M.Mahmudbəyov Qafqaz müsəlman müəllimlərinin 1-ci və 2-ci qurultaylarında tədris-pedaqoji ədəbiyyatın yaradılmasına rəhbərlik etmişdir. O, "Birinci il Müsəvvər türk əlifbası" (1907), "İkinci il" (1908; S.Əbdül-Rəhmanbəyzadə və S.Axundovla birgə) "Yeni məktəb" (1909; Abbas Səhhətlə birgə), "Türk ədəbiyyatına ilk qədəm" (1914; Abbas Səhhətlə birgə) dərsliklərini yaratmış, milli məktəblərin tarixində yeni mərhələnin təməlini qoymuşdur. Məktəbdə və mətbuatda yazı qaydalarını nizama salmaq və vahid orfoqrafiya prinsipi yaratmaq məqsədilə "İmlanuz" (1911) əsərini yazmışdır.

Mahmudbəyov milli bədii və pedaqoji ədəbiyyatın sağlam inkişafına xüsusi diqqət yetirmiş, ədəbiyyatdan və üsuli-təlim və tərbiyədən bəhs edən "Rəhbər" (1906-07) adlı jurnal nəşr etmiş, "Maarif' (1922) uşaq jurnalının redaktorlarından biri olmuşdur. Onun fəaliyyətində milli ədəbiyyatın toplanması, nəşri və təbliği məsələləri aparıcı yer tutur. O, uşaq mütaliəsində fars və ərəb ədəbiyyatı nümunələrinin təsirini tənqid etmiş ("Müsəlman məktəbləri", 1905), ədəbiyyat tarixi materiallarının toplanıb tədqiqi məsələsini irəli sürmüş ("Ədəbiyyatımıza dair"; 1906), F.Köçərliyə sifariş verərək "Seyid Əbülqasım Nəbati", "Vaqif və Vidadi" haqqında məqalələr yazdırmış ("Rəhbər" jurnalı, 1906, № l, 5), xalq ədəbiyyatı nümunələrini

downloaded from KitabYurdu.az

toplayıb nəşr etdirmiş ("Zaqafqaziya türklərinin poeziyadan", "Molla Qasım nağılı", "Abbas və Gülgəz", "Aşıq rib"), "Hophopnamə"nin birinci və ikinci çapının (1912-14) fəal təşkilatçılarından olmuşdur.

*Əd.:* Abdullayev A., Azərbaycan dilinin tədrisi tarixindən, B., 1966; Əfəndiyev P., Azərbaycan folklorşünaslığı, B., 2000; Həsənov Şərəfli xidmət, "Azərbaycan müəllimi" qəzeti, 1975, 28 noyabr; Məmmədov X., "Azərbaycan ədəbi tənqidi XIX-XX əsrlərin hüdudlarında", B., 1999; Talıbzadə K., "Abbas Səhhət", B., 1986.

**MAHMUDOV** Mustafa Hacımusa oğlu (1878, Göyçay qe-iinın Kürdəmir k., - 20.12. 1937, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Qori Müəllimlər Seminariyasını bitirmiş, Bakıda 1 -ci "rus-müsəlman" məktəbində müəllim (1899-1907) və müdir (1910-20), daşınmaz şəhər mülkiyyətini qiymətləndirən komissiyada



məmur (1908-10) işləmişdir. 1907 ildə Bakı qubeniyasından 2-ci Dövlət Duma" sına deputat seçilmişdir. Dumada müsəlman fraksiyasının, 9-cu şöbənin və dörd komissiyanın üzvü olmuşdur. Hərbi-səhra məhkəmələrinin ləğvinə tərəfdar çıxmış, Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədovla likdə hərbi nazirə müraciət edərək, Qafqaz hərbi-səhra məhkəməsi tərəfindən ölüm cəzasına məhkum olunanların cəzasını yüngülləşdirmək barədə vəsatət qaldırmışdır. Mahmudov işsizlərə yardım komissiyasnın üzvü kimi "Proqres" qəzeti vasitəsi ilə işsizlər və onlara lazımi yardımın həcmi barədə məlumat göndərilməsi üçün oxuculara müraciət etmişdi. Dumanın xalq təhsili komissiyasının üzvü M.Mahmudov maarif nazirini müsəlman əhalisinin təhsilinin vəziyyətinə göz yummaqda təqsirləndirmiş, müsəlman müəllimlərinə qarşı ayrı-seçkiliyin mövcud olduğunu və onların "kastalara" bölündüyünü tənqid etmişdi. 1917 ildə *Zaqafqaziya seyminin, Zaqafqaziya Demokratik Federativ Respublikasının* süqutundan (1918, 26 may) sonra isə *Azərbaycan Milli Şurasının* üzvü, Milli Şuranın *"Azərbaycan Məclisi-Məhbusanının təsisi haqqında qanun* "una (1918,19 noyabr) əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı seçilmişdir. "Müsavat" fraksiyasının, parlamentin aqrar komissiyasının üzvü olmuşdur.

*Aprel işğalından (1920)* sonra təqiblərə məruz qalmış, llətçilikdə, "əks-inqilabi fəaliyyətdə" ittiham edilmişdir. kıdakı 132 saylı məktəbdə dərs demişdir. 1924 və 1929 >rdə işdən çıxarılması barədə məsələ qaldırılmış, 1937 ı noyabrında həbs olunaraq güllələnmişdir.

*Əd.:* Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004; Elşad Qoca, Sibir dərsi, B., 2000; За семью печатями" (сборник документов), Б., 1992.

**MAK-DONELL** Ronald (?-?)- 1906-18 illərdə Bakıda ingilis vitse-konsulu. Bakıda ingilis vitse-konsulu olan L. Urkvart ermənilərin ona qarşı təşkil etdiyi sui-qəsdlə qədər Bakını tərk etdikdən sonra bu vəzifəyə təyin olunmuşdu. 1917 ildə bu vəzifədən, müvəqqəti olaraq, uzaqlaşsa da, Tiflisdəki ingilis missiyasının rəhbəri general OffliŞer yenidən Bakıya qayıdaraq vəzifəsini icra etməyi ona tapşırmışdı. Mak-Donell İrandakı ingilis ordusu komandanlığından göndərilən pulları türklərə qarşı vuruşan qüvvələrin maliyyələşdirilməsinə sərf etməli idi. 1918 ildə Bakıda azərbaycanlılara qarşı mart soyqırımı hadisələrindən sonra Denstervill missiyasını təkidlə sıx əlaqə saxladığı Şaumyana qəbul etdirməyə çalışırdı. Şaumyan bu yardımı müəyyən şərtlərlə qəbul etməyə hazır olsa da, şərtlər ingilislər üçün məqbul deyildi. İraqdakı ingilis komandanlığı Mak-Donelle, zəruri olduqda, neft mədənlərinin yandırılmasına və bolşeviklərin Bakıdan qovulmasına səlahiyyət vermişdi. 1918 ilin yayında Mak-Donell Bakıda hazırlanmış antibolşevik çevrilişin fəal üzvlərindən biri olmuşdur. Onun qarşısına qoyulan başlıca vəzifə erməniləri bu çevrilişə cəlb etmək idi. İyulun əvvəlinə təyin olunmuş çevriliş uğursuz nəticələndikdən sonra Bakı Xalq Komissarları Soveti (BXKS) onu çevriliş cəhdində təqsirləndirərək mühakimə etmək istədikdə, ermənilərin yardımı ilə azad edilmişdi. Bundan sonra Ənzəliyə gələn Mak-Donell burada Denstervill ilə görüşmüş, avqustda yenidən Bakıya qayıtmışdı. Ənzəlidə olarkən BXKS onu yenidən günahlandıraraq, qiyabi olaraq ölümə məhkum etmişdi. 1918 il sentyabrın 15-dən ingilis ordusunun mayoru rütbəsində Ənzəlidə siyasi zabitin müavini təyin edilmiş, noyabrın 17-də general Tomsonun missiyası ilə Bakıya qayıtmışdır. 1919 ilin əvvəlindən B.Britaniya xarici işlər nazirliyində Yaxın Şərq şöbəsinin Cənubi Qafqaz üzrə mütəxəssisi vəzifəsinə təyin olunmuş və 1922 ildə istefaya çıxmışdır.

**MAKİNSKİ** Teymur bəy (?-?)- 20 əsrin əvvəlində Azərbaycanda milli azadlıq hərəkatının fəal iştirakçılarından biri, ictimai-siyasi xadim. Zaqafqaziya seyminin Müsəlman fraksiyasının, Zaqafqaziya Federasiyasının süqutundan sonra isə (1918, 26 may) *Azərbaycan Milli Şurasının* üzvü olmuşdur. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun""una.* (1918, 19 noyabr) əsasən, seçkisiz Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdir (bax *Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təsis olunması haqqında qanun).*

Makinski 1918 ilin iyun-oktyabr aylarında Azərbaycan Hökuməti ədliyyə nazirinin müavini, oktyabrın 20-dən noyabrın 6-dək Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi olmuş (əslində, bu vəzifəni dekabrın sonuna qədər icra etmişdir), 1918 il dekabrın 26-dan 1919 il aprelin 14-ə qədər Fətəli xan Xoyskinin 3-cü hökumət kabinəsində ədliyyə naziri vəzifəsini icra etmişdir. 1919 ilin iyunundan 1920 ilin yanvarına qədər Azərbaycan hərbi məhkəməsinin sədri, 1920 ilin martından isə yenidən Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi olmuşdur.

**MAQALOV L.** (?-?)- 1917 ilin dekabrında general-leytenant Əliağa *Şıxlinskinin* komandanlığı altında əsası qoyulmuş *Müsəlman korpusunda* xidmətə dəvət edilmiş gürcü hərbçisi, polkovnik, knyaz. O, həmin korpusun Gəncədə

downloaded from KitabYurdu.az

yerləşən Tatar süvari alayına komandir təyin edilmişdi. Alay komandiri kimi Maqalov 1918 ilin yanvarında Zaqafqaziya hökumətinin qərarı ilə Şamxor ətrafında rus ordu hissələrinin tərk-silah olunmasında fəal iştirak etmişdir (bax *Şamxor hadisəsi)*.

Bakıda hakimiyyəti ələ keçirmiş və 1918 ilin martında Azərbaycan xalqına qarşı soyqırımı törətmiş bolşevik-daşnak qüvvələrinə qarşı mübarizə üçün Zaqafqaziya hökuməti tərəfindən göndərilən hərbi hissə və bölmələrə də polkovnik Maqalov rəhbərlik etmişdi. Həmin qüvvələrin tərkibinə Maqalovun komandiri olduğu tatar süvari alayı, Müsəlman korpusunun tərkibinə daxil olan nişançı alaylardan birinin bölmələri, pulemyot komandası, gürcü təlim taborunun bir bölüyü, 4 ədəd top və 6 ədəd pulemyot daxil idi. Polkovnik Maqalovun rəhbərliyi altında olan bu dəstənin ümumi sayı 2 min nəfərə çatırdı. Bu dəstə 1918 il aprelin əvvəllərində Hacıqabul ətrafına yetişərək buradakı bolşevik-daşnak qüvvələrinə güclü zərbə endirdi və Hacıqabulu nəzarət altına ala bildi. Maqalovun göstərişi ilə dəstənin bölmələri Hacıqabulun sağından hücumu davam etdirərək qarşı tərəfin müdafiə xəttini yarmağa cəhd göstərdi. Bu bölmələr Duvannıya (indiki Qobustan) qədər hərəkət etsələr də, burada güclü müqavimətlə rastlaşıb geri çəkildilər.

Maqalovun dəstəsinin fəallığı Bakıda hakimiyyəti ələ almış bolşevik-daşnak qüvvələrinin ciddi narahatçılığına səbəb oldu və həmin dəstənin Bakıya doğru irəliləməsinin qarşısını almaq üçün Hacıqabul ətrafına əlavə hərbi qüvvələr, Xəzər hərbi donanmasının şəxsi heyətinin bir bölməsi və bir zirehli qatar göndərildi. Bununla da daşnak-bolşevik qüvvələri cəbhədə üstünlüyü ələ keçirdilər. Nəticədə, 1918 il aprelin 20-də baş verən təkrar döyüşdə Hacıqabul yenidən bolşeviklərin nəzarəti altına keçdi. Maqalovun dəstəsi isə qərbə doğru geri çəkildi.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Maqalov Müsəlman korpusunu tərk etdi və gürcü milli qoşun hissələrində xidmətə cəlb olundu.

*Əd.:* Azərbaycan tarixi. 7 cilddə, c.5, B., 2001; Сеф С.Е., Борьба за октябь в Закавказье, Тифлис, 1932; Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999.

**MAQOMAYEV** Müslüm (Əbdülmüslüm) Məhəmməd oğlu (18.9.1885, Qroznı - 28.7.1937, Nalçik; Bakıda dəfn olunmuşdur) - görkəmli Azərbaycan bəstəkarı, dirijor, ictimai xadim, əməkdar incəsənət xadimi (1936). Atası nəslən Azərbaycanın Qax rayonundan olmuş, sonralar Qroznıya köçmüşdür. Qori Müəllimlər Seminariyasında oxumuş (1899-1904), burada ilk musiqi əsərlərini yazmış, Üzeyir bəy Hacıbəyli ilə tanış olmuşdur. Seminariyanı bitirdikdən sonra Şimali Qafqazda, Lənkəranda müəllimlik etmişdir (1905-11). Müslüm Maqomayev 1911 ildə Bakıya köçmüş, Sabunçuda müəllim, opera tamaşalarında skripkaçı işləmişdir. Həmin vaxtdan mütərəqqi mədəniyyət xadimlərinin (Üzeyir bəy Hacıbəyli, Hüseynqulu Sarabski, Hənəvi Terequlov və Azərbaycan musiqili teatrının təşəkkülü və inkişafı" apardıqları mübarizəyə qoşulmuş, Ü. Hacıbəylinin ən yaxın silahdaşı olmuşdur.



Müslüm Maqomayev milli musiqi janrlarının yaranması yolunda Üzeyir bəy Hacıbəyli ilə çiyin-çiyinə çalışan sənətkarlardan idi. Teatr fəaliyyətinə orkestrin skripkaçısı kimi başlayan Müslüm Maqomayev 1912 ildən ömrünün axırındək opera tamaşalarında dirijorluq etmişdir. Bəstəkar 1916 ildə Azərbaycan opera sənətinin klassik əsərlərindən biri olan "Şah İsmayıl" operasını yaratmışdır. Bu o 1919 ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə səhnəyə qoyulmuş və böyük uğur qazanmışdı.

*Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Hüseynqulu Sarabski və Hənəfi Terequlov*



Müslüm Maqomayev Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zülfüqar və Üzeyir Hacıbəyli qardaşları, Qurban Pirimov ilə birlikdə "milli səhnəmizi daha müntəzəm bir hala salmaq", müqtədir aktyor və aktrisalar hazırlamaq, onların peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə təsis edilmiş "bədaye kursları"nın musiqi şöbəsində müəllim kimi çalışmışdır. Azərbaycan xalq mahnılarının toplayıb işləməsi Maqomayevin bəstəkarlıq üslubunun formalaşmasında mühüm rol oynamışdır. 1927 ildə Maqomayevin ümumi redaktəsi "Azərbaycan türk el nəğmələri" toplusu nəşr edilmişdir.

Maqomayevin böyük yaradıcılıq uğuru olan "Nərgiz" operası (1935; yeni redaksiyası 1938) Azərbaycan musiqili teatrının inkişafında mühüm mərhələ təşkil edir. Klassik opera ənənələri əsasında yazılmış "Nərgiz"in musiqi dili Azərbaycan xalq musiqisi intonasiyaları ilə aşılanmışdır. "Nərgiz" 1938 ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti on günlüyündə böyük müvəffəqiyyət

downloaded from KitabYurdu.az

qazanmışdı. O, dram tamaşalarına ("Ölülər", "1905-ci ildə"), sənədli filmlərə ("Azərbaycan incəsənəti", "Bizim raport" və s.) musiqi yazmış, mahnı, rapsodiya, rəqs, marş və fantaziyalarını, "Şəlalə" simfonik pyesinin müəllifidir. Maqomayev 300-dən artıq Azərbaycan xalq mahnı və rəqslərini nota salmışdır. Azərbaycan Dövlət Filarmoniyasına, Bakı küçələrindən birinə Maqomayevin adı verilmişdir. Anadan olmasının 100 illik yubileyi geniş miqyasda qeyd edilmişdir.

*Əd.:* İsmayılova Q., Müslüm Maqomayev, B., 1965; yenə onun, Муслим Магомаев, B., 1975; Qasımova S., M.Maqomayevin "Nərgiz" operası, B., 1967; Касимов К., Муслим Магомаев, Б., 1948.

**MALİYYƏ-İQTİSAD KOMİTƏSİ** – Azərbaycan Xalq Cümhuriyyəti dövründə maliyyə-iqtisad məsələlərinə dair sənədlərin ilkin hazırlanması ilə məşğul olan qurum. Cümhuriyyət hökumətinin 1919 il 12 fevral tarixli qərarı ilə yaradılmışdı. Tərkibinə maliyyə, ticarət, sənaye və ərzaq, yollar, xalq maarifi və nəzarət nazirləri daxil idi. Komitənin hazırladığı maliyyə-iqtisad sənədləri Nazirlər Şurasında baxılmağa çıxarılmazdan əvvəl ətraflı müzakirədən keçirilirdi. Maliyye-İqtisad Komitəsi 1919 il dekabrın 24-də ləğv edilmişdir.

*Əd.:* : Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**MALİYYƏ NAZİRİ YANINDA ŞURA YARADILMASI HAQQINDA QANUN** - 1919 il martın 17-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul edilmiş sənəd. Qanuna əsasən, müxtəlif vergilərin qoyulmasına dair şikayətlərə baxılması üzrə ali müfəttişlik kimi, maliyyə naziri yanında şura yaradılmışdı. Şuraya daimi üzvlərlə yanaşı, həlledici səs hüququ ilə məhkəmə palatasının sədri və ya üzvü, prokuror və vergi ödəyicilərindən beş nəfər də daxil idi.

**MALİYYƏ NAZİRLİYİ,** Azərbaycan Xalq Cümhuriyyətinin Maliyyə Nazirliyi- ölkənin maliyyə sisteminin təşkilinə və tənzimlənməsinə büavasitə rəhbərlik edən hakimiyyət orqanı. 1918 il mayın 28-də Azərbaycan Milli Şurasının qərarı ilə Fətəli xan Xoyski tərəfindən Tiflis-də yaradılmış 1-ci hökumət kabinəsində ilk maliyyə naziri və xalq maarifı naziri vəzifələrinin icrası Nəsib bəy Yusifbəyliyə tapşırılmışdı. Həmin il iyunun 17-də F.x.Xoyskinin Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsində maliyyə naziri vəzifəsinə Əbdüləli bəy Əmiraslanov təyin olunmuşdu.

1918 ilin sentyabrında *Qafqaz İslam Ordusu* Bakını azad etdikdən və Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdükdən sonra oktyabrın 6-da F.x.Xoyskinin 2-ci hökumət kabinəsində dəyişikliklər edilərkən maliyyə naziri vəzifəsi Məmməd Həsən Hacınskiyə tapşırıldı. *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti* yaradıldıqdan (1918, dekabr) sonra F.x.Xoyskinin dekabrın 26-da Parlamentin tapşırığı ilə təşkil etdiyi 3-cü hökumət kabinəsində maliyyə naziri vəzifəsini Slavyan-Rus Cəmiyyətindən olan İ.Protasov tutdu. F.x.Xoyskinin kabinəsi istefa verdikdən sonra 1919 il aprelin 14-də N.Yusifbəylinin təşkil etdiyi 4-cü hökumət kabinəsində bu vəzifəyə Ələağa Həsənov, 1919 ilin dekabrın 24-də N.Yusifbəylinin təşkil etdiyi beşinci hökumət kabinəsində isə Rəşid bəy Qaplanov təyin olundular. Nazirlik ilk günlərdən öz fəaliyyətini dövlətin pul vəsaiti fondlarının yaradılması, gəlirlərinin artırılması, xərclərə mümkün qədər qənaət edilməsi, dağıdılmış maliyyə işinin qaydaya salınması, müxtəlif sahələr üzrə pul və kredit sistemlərinin tənzimlənməsi, dövlətin maliyyə strukturunun yaradılması və onun işinin düzgün qurulması istiqamətlərinə yönəltmişdi. Pul tədavülü və inflyasiya məsələsi o illərdə təkcə müstəqilliyini yenicə elan etmiş Azərbaycan Cümhuriyyəti üçün deyil, eləcə də Birinci Dünya müharibəsinin (1914—18) təsiri ilə bütün dünya dövlətləri qarşısında duran başlıca məsələ idi. İnflyasiya nəticəsində qiymətdən düşməkdə olan manatın məzənnəsini tənzimləmək mümkün olmasa da, nazirlik ölkədə normal pul tədavülü dövriyyəsini qoruyub saxlamaq üçün ciddi addımlar atmışdı. 1919 il sentyabrın 30-da Bakıda fəaliyyətə başlamış *Azərbaycan Dövlət Bankının* bu sahədə müstəsna əhəmiyyəti olmuşdu. Dövlət Bankının Gəncədə, Şamaxıda, Lənkəranda və başqa şəhərlərdə də şöbələri yaradılmışdı. 1919-20 illərdə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributlarından birini əks etdirən 25, 50, 100, 250 və 500 manat dəyərində kağız əsginaslar dövriyyəyə buraxılmışdı. Yüksək bədii zövqlə hazırlanmış bu əsginasların üzərində Nazirlər Şurasının sədri N.Yusifbəylinin və maliyyə naziri Ə.Həsənovun imzaları var idi.

Maliyyə nazirliyi, qısa vaxtda, ölkədə maliyyə aparatının yaradılması sahəsində də çox işlər görə bilmişdi. Ölkənin maliyyə strukturunun bütün sahələrində, həm mərkəzi, həm də yerli maliyyə idarələrinin mükəmməl və planlı sistemi yaradılmışdı. Nazirlik ölkədə pul-kredit əməliyyatlarının həyata keçirilməsi üzərində tam nəzarəti təmin etməklə öz işlərini getdikcə daha da təkmilləşdirirdi.

*Aprel işğah (1920)* nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin başqa nazirlikləri kimi, maliyyə nazirliyinin də fəaliyyətinə son qoyuldu.

*Əd.:Адрес-календарь* :.Азербайджанская Демократическая Республика

**MANDATLIQ SİSTEMİ** - Paris Sülh Konfransında (1919-20) yaradılmış Millətlər Cəmiyyətinin Birinci dünya müharibəsində (1914-18) qalib gəlmiş dövlətlərə məğlub olmuş Almaniya və Osmanlı imperiyasının keçmiş müstəmləkələrini idarə etmək üçün verdiyi səlahiyyətlər sistemi. Mandatlıq sistemi 3 dərəcəyə bölünürdü: 1. Osmanlı imperiyasının keçmiş müstəmləkələrinə münasibətdə bu, protektoratlıq statusuna yaxın idi; 2. Mərkəzi Afrikadakı keçmiş alman müstəmləkələrinə münasibətdə müəy-yən qədər özünüidarə hüququ saxlanılırdı; 3. Cənub-Qərbi Afrika və Sakit okean adalarında tətbiq edilən mandatlıq əsasında isə bu ərazilər mandat sahibi olan ölkələrə ilhaq edilirdi. Mandat sahibi olan dövlət mandat aldığı ərazinin siyasi, iqtisadi, mədəni inkişafı üçün Millətlər Cəmiyyəti qarşısında məsul idi. Lakin böyük dövlətlər bu sistemi dağılmış Rusiya imperiyasının hüdudlarında meydana gəlmiş müstəqil dövlətlərə tətbiq etməyə ehtiyatla yanaşırdılar.

Azərbaycanın himayəçilik prinsipinə meyli xeyli dərəcədə xarici təhlükə ilə bağlı idi. İstiqlaliyyətin elan olun-

downloaded from KitabYurdu.az

masından (1918, 28 may) sonra keçən müddət sübut edirdi ki, özünümüdafiə üçün təkcə müstəqillik kifayət deyildir, böyük dövlətlərin hər hansı birindən yardım almaq milli təhlükəsizliyi təmin etmək üçün mühüm şərtdir. Xüsusilə, köhnə və yeni Rusiyanın Azərbaycana formaca fərqli, mahiyyətcə eyni cür münasibəti böyük dövlətlər arasından himayəçi axtarmağı tarixi zərurətə çevirmişdi. Dünya müharibəsindəki məğlubiyyətinə qədər Azərbaycanın arxalana biləcəyi himayəçi dövlət ancaq Osmanlı imperiyası idi. Dünya müharibəsi qurtardıqdan sonra beynəlxalq vəziyyət tamamilə dəyişdi. Həmin dövrdən Azərbaycan üçün belə himayəçi dövlət Fransa, B.Britaniya, ABŞ və İtaliya dövlətlərindən biri ola bilərdi.

Qafqaz millətlərinə Fransa himayədarlığı o qədər də real deyildi. Fransa işgüzar dairələrinin Qafqaza marağı güclü olsa da, Klemanso hökumətinin "vahid və bölünməz Rusiya" ideyasına sədaqəti daha üstün idi. Paris Sülh Konfransında (1919-20) yüksək nüfuza malik olan böyük dövlətlər içərisində məhz Fransa yeni yaranmış respublikaların müstəqilliyinin tanınması əleyhinə idi.

Bu dövrdə B.Britaniya Qafqaz, o cümlədən Azərbaycan mandatını götürməyə hər cür imkanı olan yeganə ölkə idi. B.Britaniyanın regiondakı güclü hərbi qüvvələri xarici təcavüzdən müdafiə olunmaqda, qüdrətli iqtisadi potensialı, bütün dünyadakı siyasi nüfuzu Azərbaycanın tərəqqisində və taleyində əhəmiyyətli rol oynaya bilərdi. Lakin B.Britaniya imperiyası bu dövrdə müstəmləkələrinin ərazilərini genişləndirilməkdən daha çox, müharibə dövründə ələ keçirdiyi müssmləkələri qoruyub saxlamaq üzərində düşünürdü. Bununla elə, ingilislər Qafqazdan çıxmaqla yanaşı, elə etmək istəyirilər ki, nə amerikalılar, nə də fransızlar bu regionda birtərəfli qaydada qüvvətlənməsinlər. Çünki 1919 ilin fevral-mart ayında, ABŞ və Fransanın Paris Siilh Konfransındakı siyasi dairələrinin çıxışları bu ölkələrin Qafqaza marağını açıq aydın əks etdirirdi. Belə olduqda, italyanların Qafqaza cəlb edilməsi ideyası ilk dəfə ingilislər tərəfindən irəli sürüldü. Doğrudan da, İtaliyanın Qafqazda ingilisləri əvəz etməsi yaxın Şərqdə mövcud olan qüvvələr nisbətini pozmurdu.

1919 il iyunun 28-də B.Britaniya hökuməti ingilis ordusunun Qafqazdan və ümumiyyətlə, keçmiş Rusiya ərazisindən çıxarılması barədə Paris Sülh Konfransına rəsmi şəkildə məlumat verdi və müttəfiqlər Qafqazdan çıxan ingilis ordusunun İtaliya ordusu ilə əvəz olunması haqqında qərar qəbul etdilər.

Belə bir vəziyyətdə İtaliyada hökumət dəyişikliyi oldu. Əvvəllər Qafqaza həvəs göstərən, oraya ordu göndərməyə razılıq verən Orlando hökuməti istefa verdi, yeni yaradılmış F.Nitti hökuməti isə Qafqaza ordu göndərməkdən imtina. İtaliya hökumətinin avqustun 15-də rəsmi bəyanatı da qərarı təsdiqlədi.

Digər Qərb ölkələrilə müqayisədə, Fransanm Qafqazı, o cümlədən Azərbaycana marağı zəif idi. Almaniya Türkiyə müstəmləkələrinin bir hissəsini ələ keçirən Fransa Rusiya imperiyasındakı ərazilərə son dərəcə ehtiyatla yanaşırdı. Fransız siyasətçiləri "vahid və bölünməz Rusiya" ideyasının tərəfdən idilər. Digər tərəfdən Fransanın regionda və ona yaxın olan ərazilərdə güclü birləşmələri yox idi.

İtalyanların Azərbaycana iqtisadi marağı güclü Lakin İtaliya mandatlığa götürmək istədiyi əraziləri təcavüzdən qorumaq imkanına malik deyildi. Gələcəkdə Rusiya və Türkiyə ilə qarşılaşmaq qorxusu İtaliyanı belə addımdan çəkindirdi. Azərbaycan Respublikası üçün İtaliya mandatlığı sərfəli deyildi.

ABŞ-ın Qafqazda güclü hərbi, siyasi, iqtisadi və strateji marağı olsa da, o, Cənubi Qafqaz respublikalarını etibarlı şəkildə müdafiə edə bilməzdi. Digər tərəfdən, Birləşmiş Ştatların avropalı müttəfiqləri onun regionda qü vətlənməsindən ehtiyat edirdilər.

Qalib dövlətlər arasındakı ziddiyyətlər Cənubi Qafqazın, o cümlədən Şimali Azərbaycanın bolşevik Rusiya tərəfindən işğalı ilə nəticələndi.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycan xarici siyasəti (1918-1920), B., 1996; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), h.l (mart 1917-aprel 1920), B., 2001.

**MART SOYQIRIMI (1918)** - Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyanın təşkilatçılığı və rəhbərliyi ilə silahlı bolşevik-daşnak birləşmələrinin Bakıda türk-müsəlman əhaliyə qarşı törətdikləri kütləvi soyqırımı. S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak rejiminin hakimiyyəti dövründə Azərbaycanda güclənməkdə olan milli dirçəliş prosesi, "Müsavat" partiyasının durmadan artan nüfuzu bolşevik-daşnak qruplarını daha da yaxınlaşdırdı. "Daşnaksutyun"un liderlərindən olan Kaçaznuni bununla bağlı yazmışdı: "Bolşeviklərə qarşı ancaq iki partiya real qüvvə kimi duruş gətirə bilərdi — tatarların (azərbaycanlıların - *red.)* "Müsavat" və ermənilərin "Daşnaksutyun" partiyaları. Bolşeviklərlə mübarizədə qalib gəlmək üçün bu partiyalar hökmən birləşməliydilər, bu isə ağlasığmaz idi. Bakının erməni əhalisinə gəlincə, onlar üçün bolşevik diktaturasıt "Müsavat" diktaturasından daha məqbul idi. Elə buna görə də bizimkilər (daşnaklar - *red.)* Bakıda daha çox bolşeviklərə xidmət edərək, onun dayağına çevrilirdi".

Bolşeviklərin yerli əhali arasında heç bir nüfuzu, sosial dayağı yox idi. Bunu 1917 ilin oktyabrında Bakı Sovetinə keçirilən seçkilərin nəticələri də aydın sübut etdi. Seçkilərdə cüzi səs qazanan bolşeviklər "Müsavat" partiyasına ciddi şəkildə uduzmuşdu. "Müsavat"ın Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamlı mübarizəsi bolşevikləri ciddi narahat edirdi. Elə buna görə də Şaumyan Bakıda azərbaycanlılara qarşı milli qırğın törədərək, xalqın oyanmaqda olan milli azadlıq, qurtuluş hərəkatını beşikdə ikən boğmaq, "Müsavat" partiyasının sosial bazasını zəifləmək, müsəlmanlara "dərs vermək" istəyirdi.

Bakının türk-müsəlman əhalisinə qarşı soyqırımına ciddi hazırlaşan Şaumyan Stalinə məktub yazaraq, Qafqaz Qırmızı ordusunun təşkili üçün təcili surətdə on milyon rubl göndərilməsini xahiş edirdi. Bolşeviklərin Şaumyana göndərdikləri ərzaq eşelonları bu dövrdə Şimali Qafqazda

downloaded from KitabYurdu.az



Bakı Mart soyqırımı günlərində. 1918



Bakı Mart soyqırımı günlərində. 1918

yaranmış Terek-Dağıstan müsəlman hökumətinin maneçilik törətməsi nəticəsində Bakıya yetişməsə də, ermənilər Moskvadan böyük mənəvi dəstək aldılar. 1917 ilin 29 dekabrında Lenin Türkiyə ərazisində ermənilərə muxtariyyət verilməsinə dair sənəd imzaladı. Bu sənəd daşnak-bolşevik ittifaqını daha da gücləndirdi. Bakıda törədilən 1918 ilin mart soyqırımında "Daşnaksutyun" bolşeviklərin zərbə qüvvəsini təşkil etdi. Digər tərəfdən, S.Şaumyanın təşkilatçılığı ilə Birinci dünya müharibəsi cəbhələrindən geri çəkilən erməni əsgər və zabitləri Bakıda cəmləşdirildi. Sonradan, 1918 il aprelin 19-da Bakı Sovetinin yığıncağında Şaumyan etiraf etmişdi ki, Bakının milli tərkibi onu çoxqorxudurmuş və o, erməni-daşnak alaylarının köməyindən heç cür imtina edə bilməzdi.

Həqiqətən də, Bakıda azərbaycanlılara qarşı törədilən mart soyqırımın əsas təşkilatçısı və icraçısı V.Leninin Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdiyi Şaumyan idi. Onun təşkil etdiyi "Qırmızı ordu"nun tərkibi də, demək olar ki, tamamilə ermənilərdən ibarət olmuşdur.

Bu cinayəti həyata keçirmək üçün bəhanə lazım idi. Bu məqsədlə "Evelina" münaqişəsi törədildi. Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuş, müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra zabitlər "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-molokan kəndlərini məhv etmək tapşırığı almışlar. Bu təxribat xarakterli şayiə öz nəticəsini verdi, Bakıda olan bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərk-silah edilməsinə tərəfdar oldu. Təcili şəkildə, martın 30-da Bakı şəhəri mədən-zavod rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. İnqilabi Komitənin təşəbbüsü ilə "Evelina"nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərk-silah edildi. Müsəlman əhalisi məscidlərə toplanaraq, silahların qaytarılmasını tələb etdi. Vəziyyətin ciddi xarakter aldığını görən Azərbaycanın milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gəlib, alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərdilər. Martın 30-da N.Nərimanovun evində S.Şaumyanla və həmin gün İnqilabi Müdafiə Komitəsində M.Ə.Rəsulzadə ilə keçirilən görüşlərdə müəyyən razılıq əldə edilməsinə, silahların qaytarılmasına vəd verilməsinə baxmayaraq, bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi.

Martın 30-da saat 16.40 radələrində erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlmanlara ilk atəş açdılar və soyqırıma başladılar. Martın 31-də səhər

downloaded from KitabYurdu.az



Bakı Mart soyqırımı günlərində. 1918

tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və digər Azərbaycan məhəllələrinə hücum etdilər. Şaumyanın xahişi və Leninin xüsusi göstərişi ilə Saritsından göndərilən 2 təyyarə havadan, hərbi gəmilər isə dənizdən şəhərin azərbaycanlılar yaşayan məhəllələrini bombalamağa başladılar. Azərbaycan xalqına divan tutmaq üçün əllərinə girəvə düşmüş daşnaklar erməni neft sənayeçilərinin barjlarında qoyulmuş toplardan Abşeronun şimalındakı kəndləri də atəşə tutdular.

Martın 31 -də səhərə yaxın bütün erməni hərbi dəstələrinin başçıları və silahlanmış erməni ziyalıları İnqilabi Müdafiə Komitəsinin qərargahına gəldilər. Onlar qısa vaxtda təlimatlandırılaraq müsəlman məhəllələrinə göndərildilər. Yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanlann evlərinə soxulur, sakinləri öldürür, onlan xəncər və süngü ilə doğrayır, uşaqları yanan evlərin içinə atır, körpə uşaqlan süngülərin ucuna keçirirdilər. Dinc əhalini qorxudan dəhşətə gətirib, istədiklərinə nail olmaq üçün hər cür vəhşiliyə əl atan bolşevik-erməni cəlladları müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər: şəhərin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınlan yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı. Çoxlu gənc qadını diri-diri divara mıxlamışdılar. Qaçıb canını qurtarmağa çalışan əhalini gülləbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədə plemyotlar qoyulmuşdu.

Bir çox müsəlman məhəllələri məhv edildikdən s martın 31-də axşamüstü İçərişəhərin almması ənıəli başlandı. Bununla bağlı fövqəladə istintaq komissiyası rinin Ədliyyə Nazirliyinə təqdim etdiyi məruzədə aşagı faktlar göstərilir: Nikolay (indiki İstiqlaliyyət) küçəsile cuma keçmiş erməni əsgərlərinə başlıca olaraq, er ziyalılarınm nümayəndələri rəhbərlik ediblər. Belə deı lərdən biri evə girib, səkkiz qadm və uşağı güllələmi Başqa dəstə Fars küçəsində Bala Əhməd Muxtarovune girərək, doqquz müsəlmam küçəyə çıxarmış və kilsə m damnda güllələmiş, meyitlərin ikisini "Dağıstan" mehm xanasmm alovu içinə atmışlar...

Dəhşətli soyqırımına məruz qalan azərbaycanlılar martın 31 -də müqaviməti dayandırdılar. Lakin erməni dsşnak birləşmələri soyqırımını aprelin 2-si gecədən xeyli keçənədək davam etdirdilər.

Rəsmi məlumatlara görə, mart soyqırımı nəticəsinində Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirilmişdi. Bolşevik-daşnak birləşmələri "Kaspi" mətbəəsini, "Açıq söz" qəzetinin redaksiyasını, *"İsmailiyyə "* (hazırda Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası) binasını yandırmış, "Təzəpir" məscidinin minarələrini top atəşi ilə zədələmişdilər.

Daşnak-bolşevik hərbi birləşmələri Bakıdan sonra Qarabağ (bax *Qarabağda azərbaycanlılara qarşı soyqırımları)* Quba (bax *Quba qırğınları),* Naxçıvan [bax *Naxçıvan bölgəsində soyqırımları (1917-20)]*, Şamaxı (bax *Şamaxı qırğınları),* Zəngəzur (bax *Zəngəzur qırğınları)* bölgələrində, həmçinin Şərqi Anadoluda (bax *Şərqi Anadoluda soyqırımı),* Cənubi Azərbaycanda (bax *Cənubi Azərbaycanda soyqırımı* da Azərbaycan xalqına qarşı soyqırımları həyata keçirdilər.

Bakı Sovetinin antiazərbaycan siyasətini xalqa nümayiş etdirən Mart soyqırımına qədər Azərbaycanın milli demokratik qüvvələri Rusiya tərkibində milli-məhəlli muxtariyyət tələbi ilə çıxış edirdilərsə, artıq qırğınlardan sonra bu ümidlər boşa çıxdı. Mart soyqırımı nəticəsində Azərbaycan

Bakı Mart soyqırımı günlərində. 1918



Bakı Mart soyqırımı günlərində. 1918



downloaded from KitabYurdu.az

xalqına yabançı olan sovetləşmə ideyasına güclü zərbə vuruldu, xalqın milli birliyini və qədim ənənələrə malik müstəqil dövlətçiliyini bərpa etmək əzmi daha da gücləndi.

Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998 il 26 mart tarixli Fərmanına əsasən, martın 31 —i azərbaycanlıların soyqırımı günü elan olunmuşdur (bax, həmçinin *Soyqırımı* məqaləsinə).

*Əd.:* Əliyev Heydər, Müstəqilliyimiz əbədidir, 1-13 cildlər, B., 1997-2004; yenə onun, Müstəqillik yolu (seçilmiş fıkirləri), B., 1997; Tariximizin faciəli səhifələri: Soyqırımı, B., 2000; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; İsgəndərov A., 1918-ci il mart qırğınının tarixşünaslığı, B., 1997; Мамедова Л., Февраль 1917г.: новая фаза подьема армянского политического эктремизма в Азербаиджане, Б., 1995; Bax, həmçinin *Soyqırımı* məqaləsinin ədəbiyyatına.

**MAŞTAĞA HƏRBİ DƏSTƏSİ** - *Qafqaz İslam Ordusunun* 1918 il avqustun 13-də Maştağa kəndi ətrafında döyüşən hissə və bölmələrindən təşkil edilmiş xüsusi taktiki qrup. Onun yaradılmasında məqsəd məntəqədəki nizami bölmələrin, habelə Bakı ətrafındakı kəndlərin könüllü dəstələrinin və yerli əhali nümayəndələrinin ümumi səylərini birləşdirmək və Bakı şəhərinin yad qüvvələrdən azad edilməsi uğrunda onlarm fəaliyyətinin səmərəliliyini artırmaq idi. Məntəqədə bir neçə gün davam edən döyüşlərin təcrübəsi də belə zərbə qüvvəsinin təşkilini zəruri edirdi.

1918 il avqustun 10-dan etibarən Abşeron yarmadasında başlanan döyüşlərdə Maştağa kəndini yerli könüllülərlə bərabər, *Əlahiddə Azərbaycan korpusunun* ləzgi süvari alayı qoruyurdu. Elə həmin gün Şərq cəbhəsi komandanlığı ləzgi süvari alayının köməyinə bir piyada bölüyü ilə bir pulemyot taqımı göndərdi. Avqustun 11-də isə, əlavə olaraq, 38-ci türk piyada alayının bir taboru da məntəqəyə gətirildi. Avqustun 13-də həmin bölmələr və ləzgi süvari alayı Şərq cəbhəsi komandanı Mürsəl bəyin əmrilə Maştağa dəstəsində birləşdirildi və 38-ci piyada alayının 2-ci tabor komandiri qayməqam Həşən bəy bu dəstənin komandiri təyin edildi.

Maştağa dəstəsi Binəqədi döyüşündə fəal iştirak etdi. 1918 il sentyabrın əvvəllərində dəstə ləğv edildi. Onun tərkibinə daxil olan ləzgi süvari alayı, Azərbaycan korpusunun digər süvari bölmələri və 5-ci Qafqaz fırqəsinin 2-ci süvari alayı əsasında ayrıca bir dəstə yaradıldı və Zehni bəy həmin dəstənin komandiri təyin olundu.

Əd.: Süleymanov M.,Azərbaycan ordusu(1918-1920), B., 1998.

**MEHDİYEV** (Mirmehdiyev) Mir Yaqub (1891, Bakı, Xırdalan kəndi - 1952, Türkiyə) - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. 1909 ildə Aleksandropol (Gümrü) kommersiya məktəbini bitirdikdən sonra təhsilini Peterburq Politexnik İnstitutunun iqtisadiyyat fakültəsində davam etdirmişdir. 1913 ildə qısa müddətli məzuniyyət götürərək, Kiyevdə Rusiya müsəlman tələbələrinin gizli yığıncağında iştirak etmişdir. Həbs olunduğundan vaxtında Peterburqa qayıda bilməyən Mehdiyev institutdan xaric edilsə də, az sonra bərpa olunmuşdur. İnstitutu bitirdikdən (1915) sonra təhsilini davam etdirmək məqsədilə Almaniyanın Bonn şəhərinə getmişdir. Mehdiyev *"İttihad"* partiyasının təşkilatçılarından olmuş, partiyanın birinci (1918, aprel ) və ikinci (1920, yanvar) qurultaylarında Mərkəzi Komitə üzvü seçilmişdir. Bu partiyada fəaliyyətinə qədər *Kəndlilər İttifaqının* və *Bakı Müsəlman İctimai Təşkilatları Şurasının* sədr müavini kimi ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmişdir.

"İttihad" partiyasını təmsil edən Mehdiyev *Zaqafqaziya seyminin* 1918 il 25 mart tarixli iclasında Cənubi Qafqazın müstəqil elan olunması tələbi ilə müsəlman fraksiyası adından ilk dəfə çıxış etmişdi. *Zaqafqaziya Federasiyasının* süqutundan (1918, 26 may) sonra *Azərbaycan Milli Şurasının* (1918, 27 may) üzvü olmuş, Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, seçkisiz *Azərbaycan Parlamentinin* tərkibinə daxil edilmişdi. Parlamentdə "İttihad" fraksiyasının üzvü idi. *Paris Sülh Konfransında (1919-20)* iştirak edən Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil olmuşdur. *Aprel işğalından (1920)* sonra Türkiyəyə mühacirət etmişdir. Mühacirətdəki "İttihad" liderlərindən olan Mir Yaqub Mehdiyevin bütün səylərinə baxmayaraq, partiyanın xarici ölkələr bürosu yaradılmadı.

O, Məhəmməd Əmin Rəsulzadə ilə birlikdə *"Prometey"* təşkilatında Azərbaycanı təmsil edirdi. Məmməd Məhərrəmovla birlikdə Cenevrə və Lozanna konfranslarında iştirak etmiş, Azərbaycan neftini heç kimin hərraca qoymağa səlahiyyətli olmadığı barədə kəskin etiraz notaları ilə çıxış etmişlər. SSRİ-nin Millətlər Cəmiyyətinin (MC) üzvlüyünə daxil olunması ilə bağlı MC-nin XVIII ümumi toplantısının rəisinə ünvanlanmış etiraz notasını Azərbaycan adından Mir Yaqub Mehdiyev imzalamışdır. 1928 ildə İstanbulda "Beynəlmiləl siyasətdə petrol" kitabı nəşr edilmişdir. Kitab M.Ə.Rəsulzadənin İstanbulda yaratdığı Milli Azərbaycan nəşriyyatının sayca 9-cu kitabı idi. M.Ə.Rəsulzadənin ön söz yazdığı kitab "Petrolun cahan hərbindəki rolu", "Cenevrə Konfransında Azərbaycan", "İngiltərə-Amerika rəqabəti", "Bolşeviklərə qarşı müştərək bir cəbhə", "Neft rəqabətinin təvəllüd etdiyi məhzurlar" bölümlərindən ibarətdir. Kitabda Bakı nefti uğranda beynəlxalq aləmdə gedən mübarizə ətraflı təhlil olunnıuşdur. Əsər İstanbul nəşrindən az sonra fransız dilinə, 1931 ildə isə Çin dilinə tərcümə edilmişdi. 1934 ildə Parisdə M.Y.Mehdiyevin "Beynəlxalq vəziyyət və sovetlərdə milliyyət məsələsi" əsəri rus dilində nəşr olunmuşdur.



**MEHMANDAROV** Əbdülkərim (Kərim) bəy Mirzə Mustafa bəy oğlu (2.12.1854, Şuşa - 20.12.1929, orada) - həkim, terapevt, cərrah, ictimai xadim. Şuşa qəza məktəbinin əlaçı şagirdi kimi Bakı realnı məktəbinə dəyişilmiş, 1872 ildə buranı qızıl medalla qurtarmışdır. Akademiyasını bitirdikdən (1877) sonra təyinatla Peterburq klinik hospitalına göndərilmiş, burada "yaralı və xəstə döyüşçülərə kömək cəmiyyəti"nə daxil olmuş və yenicə başlanmış Rusiya-Türkiyə müharibəsi

downloaded from KitabYurdu.az

ilə əlaqədar Dunayda döyüşən ordunun sanitariya dəstələrindən birinə göndərilmiş, bir il üç ay cəbhədə olmuşdur. Əla xidmətinə görə 1878 ildə üçüncü dərəcəli Müqəddəs Anna ordeni və bürünc medalla, bir qədər sonra III Aleksandrın xatirəsinə gümüş medalla mükafatlandırılmışdır. 1879 ildə Baş Hərbi Tibb İdarəsi tərəfindən elmi-praktik təkmilləşmə üçün bir illiyə Peterburq klinik hospitalına qəbul olunmuş, qəza həkimi adı almışdır. 1880 ilin yazında Rusiya Qırmızı Xaç Cəmiyyətinin sanitariya dəstəsinin tərkibində Poltava quberniyasında difteriya epidemiyasına qarşı mübarizədə fəal iştirak etmiş, fədakar əməyinə görə ikinci dərəcəli Müqəddəs Stanislav ordeninə layiq görülmüşdür. Təhsil illərində dostluq etdiyi Aleksandra Mixaylovna Dolqanova ilə izdivacından 1882 ildə oğlu, gələcəyin məşhur həkimi, akademik Mixail Dmitriyeviç Tuşinski - Mixail Əbdülkərim bəy oğlu Mehmandarov dünyaya gəlmişdir. Peterburqa qayıdan Əbdülkərim bəy tibb doktoru adı almaq üçün uğurla şifahi və praktik imtahanlar versə də, Qafqaza getməli olması onun doktorluq dissertasiyasını müdafiə etməsinə imkan verməmişdir. Tədqiqatı, əsasən, epidemik, yoluxucu xəstəliklərin profilaktikasına və müalicəsinə aid idi. 162-ci Axalsıx piyada polkuna həkim təyin olunan Əbdülkərim bəy az sonra Qafqaz mülki idarəsinin əmri ilə Yelizavetpol (Gencə) quberniyasının Cavanşir qəzasına həkim göndərilmişdi. 1883 ildə mülki xidmətə keçmiş, həkimliyi davam etdirmiş, on ildən artıq Cavanşir qəzasında işləmiş, 1893 ilin aprelində Qafqaz həkimlərinin bir il evvəl bütün Qafqazda geniş yayılmış vəba epidemiyası ilə mübarizənin yekunlarına həsr olunmuş birinci qurultayında (Tiflis) çıxış edərək, işlədiyi qəzada əhalinin tibbi sanitariya cəhətdən dözülməz vəziyyətdə olduğunu vurğulamışdır. 1895 ildə Şuşa qəzasında kənd həkimliyi vəzifəsinə dəyişilmiş, iki il sonra Şuşa qəza həkimi vəzifəsinə irəli çəkilmiş, eyni zamanda Şuşa həbsxanası lazaretinin müdiri təyin olunmuşdur. 1897 ildə tibbi fəaliyyətinin iyirmi illiyi münasibətilə ikinci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilmişdir.

1905 ildə başlanan erməni-müsəlman davasında Şuşanın müdafiəsini təşkil etmiş, müsəlmanları kütləvi qırğınlardan qorumuşdur. Həmin dövrdə şəhərin müsəlmanlar yaşayan aşağı hissəsində xəstəxana və yetim qalmış uşaqlar üçün məktəb də açmışdı. Əhməd bəy Ağayevlə birlikdə Şuşada qiraətxana təşkil etmişdir. *"Difai"* partiyasının üzvü olan Mehmandarov partiyanın Şuşadakı "Qarabağın birlik məclisi" adlanan şöbəsinin sədri idi. Şöbənin 400 nəfərlik döyüş drujinası vardı. Bu təşkilat müsəlmanların birliyini, maarifin genişlənməsini, cəmiyyətdə qanun-qayda yaradılmasını təbliğ edirdi. Mehmandarov "Şuşa xeyriyyə cəmiyyəti"nin sədri kimi də geniş fəaliyyət göstərmiş, şəhərdə keçirilən bütün mədəni-kütləvi tədbirlərə başçılıq etmişdir. Şəhər klubunda tibbin müxtəlif sahələrinə dair müntəzəm surətdə mühazirələr oxumuş, xeyriyyə tədbirlərindən əldə olunan vəsaiti kasıblara, daha çox ehtiyacı olan tələbələrə paylamışdır.

1907 ildə Qarabağda yatalaq xəstəliyinə qarşı fəal mübarizə aparmışdır. 1911 ildə Mehmandarovun təşəbbüsü və səyi nəticəsində Şuşada ilk rus-tatar (Azərt məktəbi açılmışdır. Maarif və mədəniyyət sahə təbliğat işi aparmış, nümunə olaraq, kiçik qızını məktəbə birinci yazdırmışdı. 1911 ildə Əbdü Şuşa şəhər həkimi vəzifəsinə keçirilmiş, dördüncü Müqəddəs Vladimir ordeni ilə mükafatları Birinci dünya müharibəsi illərində sanitar kadrların hazırlanmasına təşkil etmiş, müxtəlif xeyriyyə tədbirlərində iştirak etmişdir. Şuşa "Nəşri-maarif' cəmiyyəti təşkilatçılarından biri olmuşdur.

Mehmandarov Azərbaycan Xalq Cümhuriyyətində də səhiyyənin inkişafında, əhaliyə tibbi yardımın təşkilində böyük səy göstərmişdir. Həkimlik fəaliyyəti dövründə də davam etdirmiş, 1923 ildə Şuşa xəstəxanasının baş həkimi təyin olunmuşdur. Vaxtilə partiyasının üzvü olması ittihamı ilə hökumət incidilmiş, "müsavatçı", "xalq düşməni" kimi fiziki və mənəvi ztirablar onun ölümü ilə nəticələnmiş, oğlanları 1937 il repressiyasının qurbanları olmuşdular.

*Əd.:* Süleymanova S., Azərbaycanda ictimai-siyasi yüzilliyin sonu- XX yüzilliyin əvvəlləri), B., 1999; Quliye deyil, loğmandır "Azərbaycan" qəzeti, 2003, 5-6 fevral; Таирзаде Н., Неизвестные материалы об одном из первых врачей-азербаиджанцев А.М.Мехмандарове. Доклады АН Азерб.ССР, Б., 1962, № 12; Багирова И. , Политические партии и организации Азербаиджана нач. XX в. ,Б., 1997.

**MEHMANDAROV** Səməd bəy Sadıq (16.10.1856, Lənkəran - 12.2.1931, Bakı) - Xalq Cümhuriyyətinin hərbi naziri, görkəmli hərbi xadim, artilleriya generalı leytenantdan sonra gələn rütbə). Əslən Şuşadan dövlət xidməti ilə əlaqə Lənkəranda yaşamışdır. İlk təhsilini Bakıdakı Edadiyə məktəbində almış, 1873-cü ildə Peterburqdakı 2-ci Konstantin hərbi məktəbinə daxil oluş, Mehmandarov praporşik rütbəsi (ilkin zabit rütbəsi) alaraq, 1-ci Türküstan topçu briqadasına göndərilmişdir. Sonralar 2-ci və 38-ci topçu briq xidmət keçən Mehmandarov 1894 ildə Varşava rəsinə göndərilmiş, 1898 ildə isə Əlahiddə Zabaykalye hərbi divizionuna dəyişilmişdir. Həmin divizionun Çində 1900-01 illərdə baş vermiş antiimperialist üsyanının qarşısının alınmasında iştirak etsə də, çar generalların təkidili tələbinə baxmayaraq, silahsız xalq kütlələrinə qarşı atəş açmağı zabit şərəfindən kənar sayaraq, boyun qaçırmışdır.



19 əsrin sonlarında Mehmandarov xalqın maariflənməsini son dərəcə vacib sayırdı və vətəndən uzaqlaşmasına baxmayaraq, dövri mətbuat orqanlarında bu bir sıra yazılar çap etdirmişdi. Onun ictimai narahatlığını əks etdirən "Müsəlmanların geriliyinin səbəbləri ", "İbtidai qiraət dərsləri", "Müsəlman mühafizəkarlığı əleyhinə", "Şiələrin dini şəbihləri", "Müsəlmanların öz-

downloaded from KitabYurdu.az

özlərinə işgəncə vermələri haqqında" və s. məqalələri Tiflisdə nəşr olunan "Novoye obozreniye" qəzetinin səhifələrində dərc olunmuşdu.

Mehmandarov 1904-05 illər Rusiya-Yaponiya müharibəsində iştirak etmiş, 7-ci Şərqi Sibir artilleriya divizionunun komandiri, eyni zamanda, Port-Arturun Şərq cəbhəsinin artilleriya rəisi olmuşdur. Müharibədə göstərdiyi şücaətlərinə görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilmiş və general-mayor rütbəsinə layiq görülmüşdür. Onun təşkilatçılıq qabiliyyəti və peşəkarlığı təkcə xidmət yoldaşlarını deyil, yapon hərbçilərini də valeh etmişdi. Mehmandarov bu müharibədə həm də zabit prinsipiallığı və şərəfinə sədaqəti ilə müasirlərinin yadında qalmışdı. Rus generallarının fərsizliyi və savadsızlığı üzündən Port-Artur təslim ediləndə yapon komandanlığının tələbi ilə gələcəkdə bir daha bu dövlətə qarşı vuruşmayacağına iltizam verən zabitlər evə buraxılır, qalanları isə əsir götürülürdü. Mehmandarov da bir sıra xidmət yoldaşları ilə bərabər əsir düşməyi həqarətli azadlıqdan üstün sayaraq, yalnız 1905 ilin avqustunda Portsmutda (ABŞ) bağlanmış sülh müqaviləsinin şərtlərinə görə əsirlikdən qurtarmışdır.

Mehmandarov Birinci dünya müharibəsinin də iştirakçısı olmuş, əvvəlcə birinci piyada diviziyasına, sonra isə 2-ci Qafqaz ordusuna komandanlıq etmiş, həmin vəzifələrdə də ona tapşırılan ən məsuliyyətli tapşırıqları uğurla yerinə yetirmişdir. Əməliyyatların keçirilməsi zamanı nümayiş etdirdiyi yüksək komandirlik məharəti, təşkilatçılıq vərdişləri çar Rusiyası komandanlığı tərəfindən lazımınca dəyərləndirilmiş və o, hərbi akademiya təhsilinin olmamasına baxmayaraq, 1915 il martın 22-də tam general rütbəsinə layiq görülmüşdür.

Fevral inqilabından (1917) sonra rus ordusunun bolşevikləşməsi və ordu daxilində anarxiyanın artması ilə əlaqədar Mehmandarov istefa verərək, 1918 ilin payızında vətənə qayıtmışdır.

1918 il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Hərbi Nazirliyi bərpa etmək barədə qərar qəbul edərkən Mehmandarov Cümhuriyyət ordusunda xidmətə çağırılaraq, hərbi nazirin müavini təyin edildi, nazirliyin və ordunun formalaşdırılması ona tapşırıldı. Mehmandarovun peşəkarlığı, təşkilatçılıq qabiliyyəti, başlıcası isə Azərbaycanın müstəqilliyinə sədaqəti yeni şəraitdə də tezliklə öz təsdiqini tapdı və 1918 il dekabrın 25-də o, hərbi nazir təyin edildi.

Mehmandarov Azərbaycan Xalq Cümhuriyyəti ordusu quruculuğunun memarı idi. O, hər şeydən əvvəl, bu prosesin mahiyyətini, onun dövlət quruculuğundakı yerini dəqiqliklə müəyyənləşdirdi və bütün imkanları da bu məsələlərin həllinə istiqamətləndirdi. Mehmandarov dəfələrlə bəyan etmişdi ki, Cümhuriyyət ordusu, siyasətdən kənarda qalmaqla, yalnız Azərbaycanın müstəqilliyinin keşiyində dayanmalıdır. Bu prinsipə hərbi nazir olduğu bütün müddət ərzində dönmədən riayət edən Mehmandarovun mövqeyi hakimiyyətdə təmsil olunan siyasi qüvvələr tərəfindən də yüksək qiymətləndirilirdi və bunun nəticəsi idi ki, Cümhuriyyətin mövcud olduğu dövrdə hökumətdə hərbi nazir portfeli yalnız ona tapşırılmışdı.

1918 il noyabrın 17-də Müttəfiq dövlətlər adından Bakıya daxil olan ingilis qoşunlarının komandanlığı Azərbaycan Xalq Cümhuriyyəti hərbi qüvvələrinin, o cümlədən Hərbi Nazirliyin Bakıdan çıxarılmasını tələb etdi. Bununla əlaqədar, nazirlik Gəncəyə köçürüldü və 1919 ilin ortalarına kimi orada fəaliyyət göstərdi. Paytaxtdan ayrı düşmək qarşıda dayanan mürəkkəb vəzifələrin həllinin operativliyinə təsir göstərsə də, Mehmandarovun işgüzarlığı, ətrafına topladığı zabitlərin və generalların iş keyfiyyətlərindən məqsədyönlü istifadə etməsi mövcud çətinliklərin həllində bir dinamiklik yaratdı. Kadrlarla işlərin düzgün qurulması Mehmandarovun hərbi nazir kimi uğurlu fəaliyyətini şərtləndirən başlıca amillərdən biri idi. Böyük etimad, yüksək tələbkarlıq və daimi qayğı Əlağa Şıxlinski, Məmməd bəy Sulkeviç, Həbib bəy Səlimov, İbrahim ağa Usubov, İbrahim bəy Vəkilov, Cavad bəy Şıxlinski, Əbdülhəmid bəy Qaytabaşı, Teymur bəy Novruzov və onlarca digər generalın və yüksək rütbəli milli zabitlərin təşəbbüskar fəaliyyətinə geniş meydan açdı. Zabit kadrlarının sayının artırılmasını Mehmandarov ordu quruculuğunun milli zəmin üzərində təkmilləşdirilməsinin mühüm şərti sayırdı. Məhz onun təşəbbüsü ilə Gəncə hərbi məktəbinin bazasında əvvəlcə *Praporşiklər məktəbi*, sonra isə *Hərbiyyə məktəbi* açıldı. Eyni zamanda, *İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi, Şuşa hərbi-feldşer məktəbi* fəaliyyətə başladı.

Mehmandarovlar ailəsi. 1890



Ordu quruculuğunun milli zəmində qurulması və aparılması Mehmandarovun hərbi nazir kimi izlədiyi əsas xətt idi. Konkret tarixi şəraitdə Azərbaycanda türk və rus hərbi təcrübələrinin təsiri olmasına baxmayaraq, o, həmin təcrübələrin ən yaxşı cəhətlərindən məhz milli zəmin, şərait və ənənə əsasında istifadəsinə üstünlük verirdi. Milli məqamları Cümhuriyyət ordusu hərbi qulluqçusunu xalqına daha da yaxınlaşdıran, vətəninə daha dərindən bağlayan dəyərlər kimi qiymətləndirən Mehmandarov orduda rəsmi dilin Azərbaycan dili olduğunu elan edərək, azərbaycanlı döyüş-

downloaded from KitabYurdu.az

çülərin Qurani-Kərimin altından keçməklə, Vətənə sədaqət andı içmələrini vacib saydı, Azərbaycan dilinin öyrənilməsi üçün göstəriş verdi, əsgərlərin marşları Azərbaycan dilində oxumasını tələb etdi, milli və tarixi rəmzləri özündə əks etdirən döyüş bayraqların və geyim formalarının layihələrini təsdiqlədi, Azərbaycan xalqının zəngin hərbi tarixinin öyrənilməsinə və hərbi qulluqçular arasında yayılmasına, hətta əsgərlərin qidalanmasında milli xörəklərin üstünlük təşkil etməsinə göstəriş verdi.

Mehmandarov Hərbi Nazirlikdəki fəaliyyətinin ilk günlərindən qoşunlardakı vəziyyətlə tanışlıq məqsədilə hərbi hissələrdə olmuşdur. Bunun nəticəsində aşkara çıxan fərarilik, çağırış - səfərbərlik işinin düzgün qurulmaması kimi ciddi nöqsanları aradan qaldırmaq, əhalidə orduya inam yaratmaq üçün Mehmandarov xalqa müraciət etdi, 1919 il fevralın 25-də Parlamentdəki proqram xarakterli çıxışında, habelə digər əmr və yazışmalarında imkanlı şəxslərin övladlarının xidmətdən yayındırılmasını sərt tənqid etdi. Əhalinin hərbi xidmət yaşı çatmış bütün kateqoriyalarının orduya cəlb edilməsi üçün çağırış və səfərbərlik işinin yeni sistemi tətbiq olundu, bu sistemi işlək vəziyyətə gətirəcək orqanların şəbəkəsi genişləndirildi, fərarilərin, habelə imkanlı şəxslərin xidmətdən yayınan övladlarının xidmətə qaytarılması üçün daxili işlər orqanları ilə əlaqələr gücləndirildi. Fərarilik və xidmətdən yayınmanın əsas səbəblərindən biri olan xidmət şəraitinin yaxşılaşdırılması üçün mütəmadi addımlar atılmağa başlandı. Ordunun çevik və işlək strukturları və idarəetmə orqanları yaradıldı, konkret tarixi şəraitdə Azərbaycanın hərbi təhlükəsizliyinin daha səmərəli təmin edilməsi vəzifələrinə uyğun olaraq, bu struktur və idarəetmə orqanları daha da təkmilləşdirildi, ordunun maddi-texniki təchizatının yaxşılaşdırılması və döyüş hazırlığının yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirildi.

Denikin qoşunlarının hücum təhlükəsinin qarşısını almaq məqsədilə Bakı ətrafında və şimal sərhədi boyunca güclü müdafiə sisteminin yaradılması, Lənkəran bölgəsindəki separatçılığın aradan qaldırılması üçün planlaşdırılan döyüş tapşırığının icrasının təşkili, habelə 1920 il martın sonlarında Qarabağa erməni təcavüzünün qətiyyətlə dəf olunması və Cümhuriyyətin ərazi bütövlüyünün təmin edilməsi Mehmandarovun hərbi nazir kimi fəaliyyətinin dəyərli nəticələri idi. Həm Qarabağ istiqamətində, həm də Qazax-Tovuz bölgəsində genişlənən erməni təcavüzünün qarşısının alınması üçün ölkənin hərbi potensialını məharətlə istiqamətləndirən Mehmandarov, strateji təşəbbüsü öz əlində saxlamaqla, Azərbaycanın hərb tarixinə layiqli səhifələr yazdı.

*Aprel işğalı (1920)* ilə əlaqədar Mehmandarov vəzifəsindən istefa verdi. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş qüvvələr onu Gəncə üsyanının təşkilində günahkar bilərək, 1920 il iyunun 4-də Ə.Şıxlinski ilə birlikdə həbs etdilər. Yalnız Nəriman Nərimanovun işə qarışmasından sonra Mehmandarov bolşevik terrorundan xilas oldu və Ə.Şıxlinski ilə bərabər bir il Moskvada yaşamaq məcburiyyətində qaldı. Mehmandarov 1921 ilin yayında Bakıya qa-

*General Səməd bəy Mehmandarovun büstü. "N" hərbi hissəsi*



downloaded from KitabYurdu.az

yıdaraq, Xalq Hərbiyyə və Bəhriyyə Komissarlığında işə düzəlmiş, 1924-28 illərdə Birləşmiş Komandirlər məktəbində müəllim işləmiş, 1929 ildə isə təqaüdə çıxmışdır. Çənbərəkənd qəbiristanlığında dəfn edilmişdir.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; İbrahirabəyli H., Səməd bəy Mehmandarov, B., 1946; N ə z i r l i Ş., Cümhuriyyət generalları, B., 1995; Süleymanov M., Mehmandarov, B., 2000; Azərbaycan tarixi şəcərə cəmiyyətinin xəbərləri, 4-cü buraxılış, B., 2003; Абасов А., Генерал Мехмандаров. Б.,

**MEMORANDUM** (latınca *memorandum* - yadda saxlanılmalı şey) - beynəlxalq münasibətlərdə diplomatik yazışma forması; xatırlatma notasına oxşayır. Burada memorandumun göndərilmə səbəbi ilə əlaqədar məsələnin faktik hüquqi, yaxud sənəd hissəsi şərh edilir. Çox zaman möhürsüz, imzalanmadan müstəqil sənəd kimi təqdim olunur.

Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) Osmanlı imperiyası, Ermənistan və Gürcüstan hökumətləri yanında fövqəladə nazir - səfiri Əlimərdan bəy *Topçubaşovun* Cənubi Qafqaz respublikaları arasında ərazi problemlərini həll etmək məqsədilə İstanbulda keçfrilməsi nəzərdə tutulan (1918, yay) beynəlxalq konfransa memorandum təqdim etmişdi.

Cənubi Qafqazm müstəqil respublikaları 1918 il iyunun 4-də Batumda Osmanlı dövləti ilə müqavilələr imzalamışdılar. Gürcüstan müqavilənin imzalanmasından sonra iyunun 6-da *dördlər ittifaqı* ilə əlaqələr yaratmaq məqsədilə konfrans çağırmaq ideyasını irəli sürdü. Almaniya iyunun 9-da cavab notasmda bu təklifi inkişaf etdirərək, təkcə Gürcüstanla deyil, Qafqazdakı yeni respublikalarla birlikdə İstanbulda konfrans keçirilməsinə tərəfdar olduğunu bildirdi. Beləliklə, Mərkəz (Almaniya, Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan) və Qafqaz (Azərbaycan, Gürcüstan, Ermənistan və Dağlılar Respublikası) dövlətlərinin İstanbulda birgə konfransının keçirilməsi qərara alındı. AXC Hökuməti iyunun 17-də nümayəndə heyətinin tərkibini (Məhəmməd Əmin Rəsulzadə, Xəlil bəy Xasməmmədov, Aslan bəy Səfıkürdski) müəyyən etdi. Nümayəndə heyətinə geniş səlahiyyətlər verildi. İyunun 24-də İstanbula gələn Azərbaycan nümayəndə heyəti, mandatına uyğun olaraq, fəaliyyətə başladı. Sentyabrda Ə.Topçubaşov da İstanbula gəldi. Birinci dünya müharibəsinin (1914-18) gedişində dördlər ittifaqı dövlətlərinin vəziyyətinin ağırlaşması ilə əlaqədar İstanbul konfransı baş tutmadı. Azərbaycan nümayəndə heyəti geri döndü. Ə.Topçubaşov fəaliyyətini davam etdirərək, yeni tarixi şəraitdə AXC-nin beynəlxalq aləmdə tanınması üçün böyük səy göstərdi. Onun AXC-nin yaran-masına, siyasi, sosial-iqtisadi vəziyyətinə ve gələcək inkişafına dair baxışlarını əks etdirən "Azərbaycanın təşəkkülü" (İstanbul, 1918) əsəri əsasında tərtib edilərək diplomatik sənəd şəklinə salınmış 14 hissədən ibarət memorandum fransız dilində yazılmışdır. Birinci h i s s ə memorandumun məqsədinə, Qafqazın sərhədləri, ərazisi və əhalisinə həsr olunmuşdur. Bu hissədə müstəqil Azərbaycan dövlətinin yaranması şəraiti aydınlaşdırılmış, onun yaşamasına, iqtisadiyyatının inkişafına, sosial tərəqqisinə, maddi və mənəvi sərvətlərinin artırılmasına Antanta hökumətləri tərəfindən kömək göstərilməsi ümidləri əksini tapmışdır. Sənəddə rəsmi statistikaya əsasən, Cənubi Qafqaz əhalisinin tərkibində Azərbaycan türklərinin 2653000, ermənilərin 1782000, gürcülərin 1641000 nəfər olduğu göstərilirdi. İ k i n c i h i s s ə d ə rəsmi Rusiya statistikasının əhaliyə, xüsusilə müsəlman əhalisinə dair məlumatlarının etibarsızlığı əsaslandırılır, 1897 il Ümumrusiya əhali siyahıyaalmasının yekunları tənqid edilir və göstərilir ki, hərbi mükəlləfiyyət haqqında qanun türk-müsəlmanlar yaşayan əraziyə şamil edilmədiyindən, Azərbaycan türklərinin sayı daha çox olmalı idi. Üçüncü h i s s ə d ə Rusiya tərəfindən işğala qədər Cənubi Qafqazda mövcud olmuş Azərbaycan dövlət qurumları haqqında məlumat verilir, onlarm işğalı, sonralar 1877-78 illər Rusiya-Osmanlı müharibəsi nəticəsində Qars, Batum və Suxum hesabına region ərazisinin genişləndirildiyi göstərilir. Rusiya hakimiyyəti altın yaradılan inzibati-ərazi bölgüsü verilir, Cənubi Qafqaz ərazisinin 237055 *kv.km,* əhalisinin 7667370 nəfər olduğu bildirilir, müsəlmanların 3306000 (43,1%), ermənilərin 1786000 (23,3%), gürcülərin 1641000 (21,4%) olduğu qeyd edilir. Dördüncü h i s s ə d ə çarizmin müstəmləkə siyasətinin xalqların milli varlığına ağır zərbə vurduğu, bu zərbənin islam dininə mənsub Azərbaycan türklərinə münasibətdə daha amansız olduğu vurğulanır. Memorandumda Cənubi Qafqazda xalqlar arası münasibətlər obyektiv təhlil olunmaqla yanaşı, onların dinc, dostluq, mehriban qonşuluq şəraitində yaşaması ideyasına üstünlük verilir, 1905-06 illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımını hakim dairələrin diqqəti Rusiyada baş verən inqilabdan yayındırmaq məqsədi ilə törətdiyi əsaslandırılır. B e ş i n c i h i s s ə d ə 1905-07 illər inqilabından sonra Cənubi Qafqaz xalqları arasında siyasi fəaliyyətin geniş vüsət aldığı, siyasi partiyaların sayının artdığı, köhnə partiya təşkilatlarının yeniləri ilə qovuşduğu qeyd olunur. Burada Qafqaz və Rusiya qəzetlərinin, həmçinin demək olar ki, bütün Qərbi Avropa ölkələrinin paytaxtlarında təmsil olunan erməni publisistləri və onlarm vəkillərinin ixtilaflara yardım göstərməsi, onlara rəvac verməsi ayydınlaşdırılır. Yaranmış şəraitdə çarizmin, Rusiya imperiyasının bütün sahələrdə süqutu sürətlənir. *Zaqafqaziya seymi* 1918 il aprelin 9-da Cenubi Qafqazın müstəqilliyini elan edir, onun parçalanması ilə müstəqil respublikalar yaranır. A l t ı n c ı h i s s ə AXC-nin yaranmasına, ərazisinə və əhalisinə həsr olunmuşdur. Burada Azərbaycan nümayəndə heyətinin İstanbul konfransına ərazi ilə bağlı layihə təqdim etdiyi göstərir. Layihəyə uyğun olaraq, AXC-nin inzibati ərazi bölgüsü verilir.

Təxmini hesablamalara görə, bu ərazinin 85 min *kv.verst,* yaxud 96502 *kv.km* olduğu, burada rəsmi Rusiya statistikasına görə, müsəlman-türklərin üstünlüyü, 2353 min əhalinin yaşadığı, ermənilərin isə cəmi 300.000 nəfər (12,7%) təşkil etdiyi bildirilir. Yeddinci hissədə Azərbaycan türkləri dərin və hərtərəfli səciyyələndirilir. Bütün sahələrdə Rusiyanın 25 milyonluq müsəlman əhalisi kimi, Azərbaycan türklərinin də qarşısında süni sədlər yaradıldığı nəzərə çarpdırılır. Bütün bunlara baxmayaraq, Azərbaycan türkləri arasında intellektual

downloaded from KitabYurdu.az

və mədəni təbəqənin təşəkkül tapdığı qeyd olunurdu. Səkkizinci hissə Azərbaycanın təbii sərvətlərinə, iqtisadi durumunun səciyyəsinə, dövlət xəzinəsi gəlirlərinin mənbələrinə, bir sözlə, respublikanın müstəqilliyinin iqtisadi təminatının əsaslandırılmasına həsr edilmişdi. Dövlət gəlirlərinin əsas mənbəyi kimi, neftin rolu qeyd olunurdu. Adi vaxtlarda neft hasilatı 550-660 milyon pud, yaxud 9836100 ton (1 pud - 16,38 kq, 61 pud isə 1 tona bərabər olmaqla) idi. Fevral inqilabı (1917) dövründə, xüsusilə Bakı və onun ətrafı bolşeviklər tərəfindən tutulduqdan sonra (1918 il mart-avqust) neft hasilatı 250-300 milyon puda (4097000-4918000 ton) enmişdi. Hasil edilən neftin üçdə iki hissəsi Rusiyaya daşınır, qalanı isə Türkiyə və digər xarici dövlətlərin bazarlarına çıxarılırdı. İqtisadiyyatdan bəhs olunarkən kənd təsərrüfatı haqqında da yığcam məlumat verilirdi. Potensial vergi verənlər də nəzərə alınmaqla, AXC-nin bütün xərclərini öz vəsaiti hesabına ödəyə biləcəyi göstərilirdi. Bunun ardınca müvəqqəti iqamətgahı Gəncədə yerləşən Cümhuriyyət hökumətinin Bakını azad etmək tədbirlərindən danışılır, Azərbaycanın Bakısız mövcud ola bilməyəcəyi qeyd olunur, Almaniya və Sovet Rusiyasının Bakıya dair sövdələşməsi kəskin tənqid edilir. Doqquzuncu hissədə rus bolşevizminin tərkib hissəsi olan Bakı bolşevizmi hərtərəfli seciyyələndirilir, 1918 ilin martında bolşevik-daşnakların Bakıda Azərbaycan türklərinə qarşı törətdiyi soyqırımının kökləri, miqyası şərh olunur, bu hadisələrin Bakrdan kənarda yaşayan ermənilər tərəfindən belə məhkum olunduğu nəzərə çarpdırılır. Onuncu hissədə Bakıdakı bolşevik hakimiyyətinin mürtəce mahiyyəti açıqlanırdı. On birinci və on ikinci hissələrdə Cümhuriyyət hökumətinin dövlətin müstəqilliyini möhkəmləndirmək üçün hərbi sahədə gördüyü tədbirlərdən, Bakının azad edilməsinin əhəmiyyətindən, ölkə ərazisində sülh və sabitlik yaratmaq səylərindən, Andronikin quldur dəstələrinin Azərbaycan xalqına qarşı törətdiyi qəddar soyqırımı cinayətlərindən bəhs edilir. On üçüncü hissə müstəqilliyin tanınması probleminə həsr edilmişdir. Burada göstərilir ki, hazırda Azərbaycan Respublikasını narahat edən yeganə məsələ, onun müstəqilliyinin digər dövlətlər, xüsusilə, Antanta dövlətləri tərəfindən tanınmasıdır. Sənəddə Azərbaycanın, eləcə də digər Cənubi Qafqaz respublikalarının müstəqilliyini tanıyan Osmanlı dövlətinin fəaliyyəti yüksək qiymətləndirilir, Almaniyanın mövqeyi tənqid edilir. Sonuncu - on dördüncü hissədə Azərbaycan xalqının müstəqillik yolunda çiçəklənməyə nail olmaq istəyindən, bunun ABŞ prezidenti Vilsonun prinsiplərində ifadə olunmasından söz açılır. Cənubi Qafqaz millətlərinin İsveçrə nümunəsində konfederasiya prinsiplərinə əsaslanan siyasi birliyinin yaradılmasının zəruriliyi fıkri irəli sürülür.

Bu sənədin başlıca müddəaları *"Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris sülh konfransına memorandumu* "nda da əks olunmuşdur.

*Əd.: Топчибашов А.М., Меморанндум, Б.*, 1993; yenə onun, Azərbaycanın təşəkkülü, Azərbaycan SSR EA xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1990, № 3; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**MENŞEVİKLƏR** - bax *Rusiya Sosial Demekrat (Menşevik) Partiyası.*

**METRİKA KİTABLARI** - vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı kitabları. Rusiyada 18 əsrin əvvələrindən tərtib edilməyə başlanmışdı. 19 əsrin 3l illərinədək yalnız pravoslav əhaliyə şamil edilirdi. Si qeyri-pravoslav əhali üçün də tətbiq olunmağa başladı. Azərbaycanda metrika kitablarının tərtib edilməsi əsasən, Cənubi Qafqaz müsəlman ruhani idarələri 1872 il 5 aprel tarixli əsasnamədən sonra başlandı. Met kitablarının tərtibi Tiflisdə aparılırdı. Azərbaycan Cümhuriyyəti qurulduqdan sonra Cənubi Qafqaz ruhani idarəsinin bütün əmlakı ilə birlikdə metrika kitablarını Tiflisdən gətirilməsi üçün tədbirlər görüldü. Hökumətin 1918 il 25 iyun tarixli qərarı ilə şeyxülislama və müftiyə metrika kitablarının təxirə salınmadan Tiflisdən Gəncəyə gətirilməsi həvalə olundu. Həmin qərara əsasən, metrika kitablarının müəyyən qisminin gətirilməsi və onlar qazı idarələrinə verilməsi təmin olunmuşdu. Hökumətin 1919 18 oktyabr tarixli qərarı ilə bu məqsəd üçün yetmiş yonluq fonddan Dini Etiqad Nazirliyinə əlli min manat vəsait ayrılmışdı.

Sovet hakimiyyəti dövründə metrika kitablarının aparılması ləğv edildi. Hazırda metrika kitablarının bir qismi Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin fondlarında [Cənubi Qafqaz Şiə Ruhani İdarəsi (f.290), Cənubi Qafqaz Sünni Ruhani İdarəsi (f.291)] saxlanılır.

Metrika kitabları, bütövlükdə, Cənubi Qafqazın demoqrafiya tarixini öyrənmək üçün qiymətli mənbədir.

*Əd.*: :. Азербаиджанская Демократическая Республика (1918-1920). Hüseynli R., Azərbaycan ruhaniliyi, B., 2002.

**"METROPOL"** - Bakı şəhərinin mərkəzində mehmanxana (hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat Muzeyinin yerləşdiyi bina). Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu tarixi binada müxtəlif xarakterli rəsmi və qeyri-rəsmi tədbirlər keçirilmişdir. Əvvəllər mehmanxanada 38 nömrə vardı. Hər nömrənin qiyməti sutkada 1 manat 50 qəpikdən 5 manatadək idi. Mehmanxananın alt qatında mağazalar yerləşirdi. Hərraca qoyulanda "Metropol" mehmanxanasını Bakı milyonçusu Hacı Hacağa almışdı. 20 yüzilliyin əvvəllərində neft sənayeçiləri ilə fəhlə nümayəndələri arasında danışıqlar, əsasən, bu binada aparılmışdır. 1918 ilin martında azərbaycanlılara qarşı soyqırımı zamanı daşnaklar "Metropol" mehmanxanasının damından ətraf mülkləri, o cümlədən *"İsmailiyyə" ni* atəşə tutmuşdular. Denstervillin Bakıda olduğu dövrdə ingilis müdaxiləçilərinin hərbi qərargahı "Metropol"da yerləşirdi.

**MƏCLİSİ-MƏBUSAN** - Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəli ali qanunvericilik orqanı - parlamenti (bax *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti).*

**MƏHƏMMƏD HADİ,** Ağaməhəmməd Hacı Əbdülsəlim oğlu - görkəmli Azərbaycan şairi, müəllim, jurnalist, publisist. Azərbaycan ədəbiyyatında romantizmin görkəmli nümayəndəsi (bax *Hadi* Məhəmməd).

downloaded from KitabYurdu.az

**MƏHƏMMƏDBƏYOV** Qazi Əhməd (?-?)- Azərbaycanda milli istiqlal mübarizəsinin fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Məhəmmədbəyov *Zaqafqaziya seymi Müsəlman fraksiyasının, Zaqafqaziya Federasiyasının* süqutundan (1918, 26 may) sonra isə Azərbaycan Milli Şurasının (1918, 27 may) üzvü olmuşdur. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, seçkisiz Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdi. Əvvəllər *"Müsavat"* partiyasının üzvü olmuş, sonra *"İttihad"* partiyasına keçmişdi. O, "İttihad" partiyasının sədr müavini idi. Məhəmmədbəyov 1877-78 illər Rusiya-Osmanlı müharibəsi zamanı Rusiya imperiyasına qarşı Samur-Axtı üsyanına başçılıq etmiş Qazi Məhəmməd bəyin nəvəsi, bəzi mənbələrə görə Şeyx Şamilin nəticəsi idi. Vəkilliklə məşğul olmuşdur. Məhəmmədbəyov 1919 ilin iyunundan rus dilində çıxan "İttihad" qəzetinin redaktoru (doktor *Q.Qarabəylidən* sonra) olmuşdur. Parlamentdə "İttihad" fraksiyasını təmsil edirdi.

**MƏHƏRRƏMOV** Məhəmməd (1886, İrəvan quberniyasının Qəmərli k. - 1982, Paris) - Azərbaycanda milli istiqlal mübarizəsinin fəal iştirakçılarından biri. İrəvan gimnaziyasının bitirdikdən (1914) sonra Moskva Universitetinin tibb fakültəsində oxumuşdur. Fevral inqilabından (1917) sonra təhsilini yarımçıq qoyub Tiflisə qayıtmış, burada "Hümmət" sosial-demokrat təşkilatına daxil olmuşdur.

Məhərrəmov Müsəlman sosialist blokundan Zaqafqaziya seyminə seçilmiş, Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan (1918, 26 may) sonra Azərbaycan Milli Şurasının (1918, 27 may) üzvü olmuşdur. *İstiqlal bəyannaməsinin* qəbul olunmasında iştirak etmişdir. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, seçkisiz Azərbaycan Parlamentinin tərkibinə daxil edilmişdi. Azərbaycan Hökumətinin Parlamentin ağsaqqallar şurası ilə birgə iclasında (1918, 28 dekabr) Paris Sülh Konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin müşaviri (Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli ilə birlikdə) təyin olunmuşdu.

*Aprel işğalından (1920)* sonra Məhərrəmov Vətənə qayıda bilməyərək, Fransada qalmış, Sorbonnada iqtisa-diyyat sahəsində ali təhsil almışdı. 1927 ildən Bankda çalışmış, sonralar 18-19-cu əsrlər fransız ədəbiyyatı bu-kinist mağazası açmışdı.

İkinci dünya müharibəsindən sonra vətənə qayıtmaq ümidini itirən Məhərrəmov 1948 ildə Fransa təbəəliyini qəbul etmişdi. O, 1972 və 1975 illərdə Bakıda olmuş, şəhərin muzey və kitabxanalarına Azərbaycan mədəniyyətinə aid qiymətli materiallar bağışlamışdır.

**MƏHKƏMƏ İŞLƏRİNƏ DAİR QANUN LAYİHƏLƏRİ HAZIRLAYAN KOMİSSİYA** Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti üçün məhkəmə işlərinə dair qanun layihələri hazırlayan komissiya. 1919 il fevralın 11-də Ədliyyə Nazirliyi nəzdində yaradılmışdı. Komissiyaya ədliyyə naziri (sədr), əkinçilik nazirinin müavini, hüquq məsləhətçisi, ədliyyə nazirliyi dəftərxanasının Azərbaycan Məhkəmə Palatasının böyük sədri və prokroru, palatanın 2 üzvü, palata prokurorunun müavi Dairə Məhkəməsinin prokuroru, 3 vəkil və komissya sədrinin dəvət etdiyi digər şəxslər daxil idi. Komissiya də parlamentin, məhkəmə palatasının üzvləri, nazirliklərin hüquq məsləhətçiləri iştirak edirdilər. siyanın cəmi üç iclası keçirilmişdir. İclaslarda mahalında, Quba qəzasında ədalət məhkəməsi ilə yaranmış vəziyyət müzakirə olunmuşdu. Zaqatala mahalı sakinlərinin quraltayı Zaqatala barışıq şöbəsini ləğv etmiş, keçmiş Qafqaz canişini dəftərxanasının hərbi idarəsinə tabe olan xalq məhkəmələri deyilən məhkəmələr də fəaliyyətlərini dayandırmışdı. Qurultayın qərarı şəriət məhkəməsi tətbiq olunmuşdu.

Mahalda ədalət məhkəməsi ilə bağlı yaranmış vəziyyəti aydınlaşdırmaq üçün Parlamentin Zaqatala olan deputatları -Aslan bəy Qardaşov, Kiçikxanlı Niyazi və Abdulla əfəndi Əfəndiyev komissiyasının dəvət edilmişdilər. Ətraflı müzakirədən sonra komissiya bütün məsələləri yerində aydınlaşdırmaqdan ötrü nümayəndələr göndərmək barədə qərar qəbul etmişdi. Quba qəzasında da şəriət məhkəməsi yaradılmışdı. Komissiya qəzada məhkəmə fəaliyyətini bərpa etmişdi.

Komissiya öz işini uğurla aparmaq üçün minlərlə üzrə bir neçə yardımçı komissiya da (Ali Məhkəmənin yaradılması, ictimaiyyət nümayəndələrinin ədalət mühakiməsinə cəlb olunması, yerli məhkəmə, cinayət hüququ və prosesi, mülki hüquq və proses və s.) yaratmışdır.




**"MƏKTƏB"** - demokratik istiqamətli, elmi-ədəbi-bədii jurnal. Bakıda (rəsmən 2 həftədə 1 də Azərbaycan dilində nəşr olunmuşdur. İlk nömrəsi 1911 il 29-da, sonuncusu 1920 il martın 21-də (cəmi 95 nömrə çıxmışdır. Redaktorları *Qafur Rəşad* (həm də naşiri) və Ə. Əfəndizadə olmuşlar. 1-ci nömrəsindən Nəriman Nərimanovun "Əziz balalar!" başlığı ilə uşaqlara müraciəti verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) məktəblərdə milli mənəviyyatlı yeni nəsil yetişdirmək "Məktəb" jurnalının səhifələrində milli dirçəliş, istiqlal ideyası, ana dilinə bağlılıq, vətənə məhəbbət, övladlıq borcu, ədəb-ərkan, yoldaşlıq, qayğıkeşlik, səmimi münasibət möv-

downloaded from KitabYurdu.az

zularında yazılar və kiçik uşaq hekayələri, eyni zamanda, xalqın müdrikliyindən, mübariz ruhundan bəhs edən folklor nümunələri, xüsusilə nağıllar, lətifələr, oyun və əyləncələr çap olunurdu. Jurnalda Həsən bəy *Zərdabi,* Mirzə Ələkbər *Sabir,* Süleyman *Sani Axundov, Üzeyir bəy Hacıbəyli, Abdulla Şaiq, Abbas Səhhət, Cəfər Cabbarlı və* b.-nın yazıları ilə yanaşı, xarici dillərdən tərcümələr də dərc edilmişdir. "Məktəb" pedaqoji biliyin və dünyagörüşünün genişlənməsində, maarifə, elmə həvəsin artmasında, uşaqlara yüksək mənəvi-əxlaqi keyfiyyətlərin aşılanmasında əhəmiyyətli rol oynamışdır. *Əd.:* Əzizov Ə., Uşaqların sevimliləri, B., 1978.

MƏLİK-ASLANOV Xudadat bəy Ağa oğlu (?.4.1879, Şuşa şəhəri - 23.7.1935) - Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli dövlət xadimlərindən biri, Parlament üzvü, alim, ixtiraçı-mühəndis; Dəmiryol nəqliyyatı mühəndisi, texnika



elmləri sahəsində ilk azərbaycanlı professorlardan biri. Şuşa realnı məktəbini (1898) bitirmiş, 1904 ildə Sankt-Peterburq Yol Mühəndisliyi İnstitutunda ali təhsilini birinci dərəcəli diplomla başa vurmuşdur. 1901-04 illərdə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının üzvü olmuş və partiyanın Peterburq komitəsində çalışmışdır. Xudadat bəy sonralar heç bir partiyaya mənsub olmamış, ömrünün sonunadək bitərəf qalmışdır. İnstitutu bitirdikdən sonra təyinata əsasən altı ay Sankt-Peterburqda Vəloqda-Petrozavodsk dəmiryolunun çəkilişi idarəsində işləmişdir. 1905 ilin əvvəlində Tiflisə köçmüş və Zaqafqaziya dəmiryol nəqliyyatı sistemində işləməyə başlamışdır. Əvvəlcə mühəndis, stansiya rəisinin köməkçisi, sonra isə Zaqafqaziya dəmir yolunun Suram aşırımı keçidində yol xidməti rəisinin köməkçisi və rəisi təyin olunmuşdur. Bu dövrdə Məlik-Aslanovun Peterburq jurnallarında elmi məqalələri çap olunmuşdur. O, dəmiryol texnikası sahəsində yeni ixtiraları ilə tanınmış mühəndis olmuşdur. Fevral inqilabından (1917) sonra, martda Müvəqqəti hökumətin sərəncamı ilə Xüsusi Zaqafqaziya Komitəsində Zaqafqaziya dəmir yolu üzrə müvəkkil təyin olunmuşdur. Məlik-Aslanov Zaqafqaziya Komissarlığının və Zaqafqaziya Federativ Respublikasının dəmiryol nəqliyyatı komissarı və naziri idi (1917, noyabr - 1918, may). 1918 ildə Məlik-Aslanovun Tiflis dəmir yolu nəqliyyatı tarixindən bəhs edən kitabı (rus dilində) çap edilmişdir. O, Zaqafqaziya seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci və 2-ci hökumət kabinələrində yollar və poçt-teleqraf naziri, 3, 4 və 5-ci kabinələrdə yollar naziri idi. 5-ci hökumət kabinəsində 1920 il fevralın 18-dək, həm də, müvəqqəti olaraq, ticarət, sənaye və ərzaq nazirinin səlahiyyətlərini yerinə yetirmişdir. 1918 il iyulun 14-də Osmanlı hərbi dəmiryolları və limanları baş idarəsi ilə, 1919 il martın 8-də Gürcüstan Respublikası ilə dəmir yollarından istifadəyə dair müqavilə və saziş, 1920 il fevralın 5-də isə Gürcüstan dövləti ilə tranzit müqaviləsini imzalamışdır. Azərbaycan Parlamentinin üzvü olan Məlik-Aslanov 1919 ilin iyununda yaradılmış Dövlət Müdafiə Komitləri sədrinin birinci müavini təyin edilmişdi. 1919 ildə Bakıda ana dilində dərs keçirilən ilk dəmiryol məktəbi Məlik Aslanovun təşəbbüsü ilə açılmışdır. Onun gərgin əməyi sayəsində Azərbaycan dəmir yolunda böyük təmir işləri yaradılmış və nəqliyyatın nizamla işləməsi təmin olunmuşdu. Məlik-Aslanov 1919 ilin aprelində latın əlifbasına keçirilməsi üçün yaradılan xüsusi komissiyanın sədri təyin edilmişdi. O, *Aprel işğalından (1920)* sonra da rəhbər vəzifələrdə çalışmışdır. 1921 ilin əvvəllərində Azərbaycan Dövlət Tikinti Komitəsində şöbə müdiri, sonra isə komitə sədri işlənilmişdir. Azərbaycan Ali Xalq Təsərrüfatı Şurası yanında dəmir yolu tikintisi idarəsinin rəisi və şuranın məsləhətçisi idi. Azərbaycan Dövlət Plan Komitəsinin sənaye-nəqliyyat tikinti bölməsinin müdiri və rəyasət heyətinin üzvü (19231 25), Zaqafqaziya Dəmir yolu idarəsinin üzvü (1922-241 Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində yol, sənaye, nəqliyyat və tikinti bölməsinin sədri (1921-30) həmin fakültənin dekanı (1924-30), Azərbaycan SSR; Texnika Komitəsinin sədr müavini (1928), RSFSR və Azərbaycanın bir sıra elmi-texniki və mədəni-maarif təşkilatlarının üzvü (1921-30), SSRİ Ali Xalq Təsərrüfatı Şurasının elmi-texniki kollegiyasının üzvü (1927-30) olmuşdur. Məlik-Aslanov 1926-30 illərdə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin (MİK) üzvü seçilmişdir. Zaqafqaziya MİK üzvlüyünə namizəd idi. Moskva jurnallarında məqalələri çap olunmuşdur. 1927 ildə Politexnik institutunun nəşriyyatı, 1929 ildə isə Azərbaycan Dövlət Nəşriyyatı Məlik-Aslanov dəmir yolu texnikasına aid iki kitabını nəşr etmişdir. Azərbaycan SSR MİK-in qərarı ilə (1929) Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna həqiqi üzv seçilmişdir. Azərbaycan Neft İnstitutu nəqliyyat fakültəsinə rəhbərlik etmişdir (1930).

Məlik-Aslanov 1930 ilin əvvəlində Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı Dövlət Siyasi İdarəsi tərəfindən “Azərbaycan Milli Mərkəzinin işi" üzrə ittiham olunub həbs edilmiş, 1933 ilin ortalarında azad olunmuşdur. 1933 il sentyabrın 1-dən Azərbaycan Nəqliyyat İnstitutunda dəmir yolu kafedrasına və Azərbaycan İnşaat İnstitutunda inşaat işinin təşkili kafedrasına rəhbərlik etmişdir. Azərbaycan SSR-də magistral dəmir yol şəbəkəsinin inkişaf planının işlənilib həyata keçirilməsi, şəhərdaxili nəqliyyat və s. məsələlərin həlli ilə məşğul olmuş, 70-dən çox əsər (o cümlədən dəmir yol nəqliyyatına dair 3 monoqrafiya və s.) dərc etdirmişdir. 1934 ilin avqustunda əsassız ittihamla yenidən həbs edilmiş və həbs düşərgəsində həlak olmuşdur. 1959 ildə ona bəraət verilmişdir.

Əsərləri: Влияние профиля пути на разрывы поездов и возможные меры для их устранения, Б., 1927; Расчет верхнего строения железнодорожных путей, Б., 1929.

*Əd.*; Əl i y e v M., Xudadat bəy Məlık-Aslanov, "Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920)" kitabında, B., 1990; Elşad Qoca, Sibir dərsi, B., 2000; Azərbaycan tarixi Şəcərə Cəmiyyətinin xəbərləri, ikinci buraxılış, B., 2001; :. Азербайджанская Демократическая Республика (1918-1920).

downloaded from KitabYurdu.az



**MƏLİK-YEQANOV** Cavad bəy Rza bəy oğlu (1878, Qarabağın Tuğ kəndi - 18.5.1942) - Azərbaycan Xalq Cüm-huriyyətinin görkəmli dövlət xadimi, Cümhuriyyətin Həmkarlar İttifaqları Təşkilatının banilərindən biri, Parlament üzvü, müsəlman fəhlələrinin həmkarlar ittifaqının yaradıcısı. Qarabağ bəyləri nəslindəndir. İbtidai təhsilini məşhur maarifçi Mir Mehdi Xəzaninin ev məktəbində almış, sonra texniki məktəb bitirmişdir. Rus, fars, alman, gürcü, erməni dillərini bilirdi. 1903 ildən Bakının neft mədənlərində işləmiş, inqilabi hərəkatda iştirak etmişdir. "Hümmət" təşkilatının üzvü olmuşdur. 1909 ildə çar hakimiyyətinə qarşı mübarizə apardığına görə həbs olunaraq Bakıdan sürgün edilmişdir. 1914 ildə yenidən Bakıya qayıtmış, neft mədənlərində işləmişdir. 1917 ildə "Müsavat" partiyasının üzvü olmuş və partiyanın birinci qurultayında fəal iştirak etmişdir. Partiyada fəhlə münaqişələri üzrə iş aparmışdır. Məlik-Yeqanov Zaqafqaziya seyminin müsəlman fraksiyasının üzvü olmuş, 1918 il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü kimi Azərbaycanın müstəqilliyi haqqında *İstiqlal bəyannaməsinə* imza atmış, Azərbaycan Cümhuriyyətinin banilərindən biri olmuşdur. Məlik-Yeqanov Azərbaycan Parlamentinin üzvü idi. Parlament üzvü kimi münaqişəli, məsuliyyətli bölgələrə ezam edilirdi, qayıdanda isə fəhlə kütləsi qarşısında hesabat verirdi. 1919 il martın 10-da Parlament tərəfindən təsdiq edilən fəhlə mə-sələsi üzrə xüsusi müşavirənin tərkibinə daxil edilmişdi. Fehlələrin Azərbaycanın müstəqilliyi uğrunda mübarizədəki xidmətlərindən, 1918 ilin mart soyqırımda verdikləri təlefatdan, Denikin əleyhinə mövqelərindən bəhs edərək, onlarm ağır güzəranı ilə bağlı hökumət qarşısında kəskin tələblərlə çıxış edirdi. O, fəhlə məsələsini bolşevik ideologiyasının inhisarına verənlərdən fərqli olaraq, Azərbaycan Cümhuriyyətinin müstəqilliyi naminə çalışan fəhlələrin təmsilçisi idi. Azərbaycanın müstəqilliyinin Avropa dövlətləri tərəfindən tanınması təntənələrində çıxış edərək demişdi: ***"Elan olunmuş müstəqilliyi Avropa tanımasaydı belə, fəhlələr onun uğrunda öz həyatlarını qoymağa həmişə hazır olmuşlar".***

Cavad bəy Məlik-Yeqanov 1919 ildə Lənkəranın general qubernatoru təyin edilmiş, denikinçilərə qarşı mübarizə aparmışdır. 1919 il avqustun 15-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin təmsilçiləri kimi Məlik-Yeqanov və T.Məmmədov "Muğanın Azərbaycan hakimiyyətini tanınması haqqında barışıq şərtlərini imzalamış, bütün diyarda hərbi vəziyyət elan etmiş, Lənkəranın və Muğanın Azərbaycan hakimiyyətinə tabe edilməsində mühüm rol oynamışdır. 1919 ilin oktyabrında "Müsavat" partiyasınını ikinci qurultayında mandat komissiyasının üzvü olmuş, elə həmin ay partiyanm Bakı komitəsinə seçilmişdir. Məlik-Yeqanov Türk Fəhlə Konfransının təşkilatçılarından olmuş, Mərkəzi Həmkarlar İttifaqının sədri vəzifəsində çalışmışdır. 1920 il mayın 11-də həbs edilmiş, ittiham aktı sübuta yetirilmədiyindən iyulun 19-da azad olunmuş, sonra yenidən həbs edilərək, 1921 il yanvarın 21-də azadlığa buraxılmışdır. Aprel işğalından sonra o, ümumiyyətlə, 6 dəfə həbs edilmişdir. Sovet hakimiyyəti illərində tikinti trestində, əmək birjasında çalışmışdır. Respublika Xalq Əmək komissarlığı qaçqınlar şöbəsinin rəisi, 1927-28 illərdə neft məhsulları satışı idarəsinin rəisi vəzifələrində işləmiş, N.Nərimanov adma Bakı Sənaye Texnikumunun təsərrüfat hissəsinə başçılıq etmişdir. Gizli "Müsavat" partiyasının üzvü ittihamı ilə 1931 ildə həbs edilərək, 10 il müddətinə uzaq şimala sürgün olunmuşdur. Sürgündən həyat yoldaşı Məryəm xanım Bayraməlibəyova-Məlik-Yeqanovaya göndərdiyi məktublarında yazırdı: ***"...Mən özxalqımı, Azərbaycanımı çox sevirəm. Həyatımı, varhğımı onlarsız təsəvvür etmirəm".*** Məlik-Yeqanov 1942 ildə sürgündə vəfat etmişdir. 1959 il fevralın 7-də Kareliya MSSR Ali Məhkəməsi tərəfindən ona bəraət verilmişdir.

*Əd.:* Əhmədova F., Böyük terrorun qurbanı, "Ülfət" qəzeti, № 19-22,25 may-iyun 2000; Elşad Qoca, Sibir dərsi, B., 2000.

**MƏLİKOV** Həsən bəy Səlim bəy oğlu - Azərbaycanın görkəmli maarif və mətbuat xadimi, təbiətşünas-alim, pedaqoq (bax *Zərdabi* Həsən bəy).

**MƏLİKOV** Səffət Həsən bəy oğlu (?, Zərdab kəndi - ?, İstanbul) - tikinti mühəndisi. 1914 ildə Riqa Politexnik İnstitutunun memarlıq fakültəsinə daxil olmuş, 1915-17 illərdə atası Həsən bəy Zərdabinin adına təsis edilmiş təqaüdlə oxumuşdur. Rusiyada Fevral inqilabından (1917) sonra təhsilini davam etdirə bilməmiş və Bakıya qayıtmışdır.

1918 ildə Əlimərdan bəy Topçubaşovu İstanbula səfərdə müşayiət etmiş, İstanbulda Paris Sülh Konfransına gedəcək Azərbaycan nümayəndə heyətinin tərkibinə katib kimi daxil edilmişdi. Parisə getməsi haqqında məlumat yoxdur. 1919 il martın 9-da Ə.Topçubaşov Fətəli xan Xoyskiyə

*Həsən bəy Zərdabi və Hənifə xanım Məlikova*



downloaded from KitabYurdu.az

göndərdiyi məktubda bildirmişdi ki, o, Paris Sülh Konfransına yola düşməyə hazırlaşdığından, Səffət bəy Məlikovu müvəqqəti olaraq İstanbulda konsul funksiyasını icra etmək üçün hazırlamışdır.

S.Məlikov 1921 il fevralın 7-də təhsilini davam etdirmək üçün xaricə göndərilməsi haqqında ərizə ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığına müraciət etmiş, komissarlıq 1 mart 1921 il tarixli iclasında təhsilini başa çatdırmaq üçün onun Almaniyaya göndərilməsi haqqında qərar qəbul etmişdir. 1922 ilin sonunda Xalq Komissarlar Sovetinin xaricdə oxuyan tələbələrə baxan komissiyası S.Məlikovun "varlı ailədən və Əlimərdan bəy Topçubaşovun qohumu olduğunu" əsas gətirib təqaüdünün kəsilməsi haqqında qərar qəbul etmişdir. Hənifə xanım Məlikova Xalq Komissarlar Sovetinə və Maarif Komissarlığına ərizə ilə müraciət etmiş, Qəzənfər Musabəyov, Tağı Şahbazi, Mustafa Quliyev və Dadaş Bünyadzadənin səyi ilə təqaüdün müddəti uzadılmışdır. Almaniyada mühəndis-arxitektor diplomu aldıqdan sonra Azərbaycana qayıtmamış, bir müddət Parisdə bacısı və onun əri Əlimərdan bəy Topçubaşovun yanında yaşadıqdan sonra İstanbula köçmüş, 20 əsrin 70-ci illərinin ortalarına qədər orada yaşamışdır.

*Əd.:* :. Азербаиджанская Демократическая Республика (1918-1920). Məmmədov X., Həsən bəy Zərdabinin oğlu Səffət Məlikov təhsil üçün təqaüd istəyir, "Azərbaycan müəllimi" qəzeti, 1998, 13 avqust.

**MƏLİKOVA-ABAYEVA** Hənifə xanım Aslan bəy qızı (5.5.1856, Şimali Qafqaz, Nalçik ş. - 1929, Bakı) - maarif xadimi, pedaqoq. Həsən bəy *Zərdabinin* həyat yoldaşı və silahdaşı. Tiflisdə Müqəddəs Nina qız gimnaziyasını (1872) bitirmişdir. H.Zərdabinin "Cəmiyyəti-xeyriyyə" ("Xeyriyyə cəmiyyəti") pansionunda tərbiyəçi, Aleksandr "rus-müsəlman" qadın məktəbində (1901-09), Bakı şəhəri birinci qadın "rus-müsəlman" məktəbində (1909-18) müdir işləmişdir. Məlikova-Abayeva Azərbaycan Xalq Cümhuriyyəti dövründə birinci qadın türk məktəbində də müdir (1918-20) vəzifəsində çalışmışdır. Pedaqoji fəaliyyətini sovet hakimiyyəti illərində də davam etdirmişdir. 1925 ildə *"Əkinçi"* qəzetinin 50 illik yubileyi münasibətilə "Həsən bəy Məlikov-Zərdabinin bioqrafiyası" əsərini yazmışdır.

*Əd.:* Məmmədov S., Hər sətirdə bir tarix, B., 1994; Современники о Г. Зардаби, Б., 1985.

**MƏMMƏDBƏYLİ** Heybətqulu Həbibulla oğlu (1888, Bakı yaxınlığındakı Şağan k. - 16.12.1937, orada) - ictimai-siyasi xadim. Azərbaycan Xalq Cürnhuriyyəti Parlamentinin üzvü. Bakı realnı məktəbini bitirdikdən sonra texniki sənaye məktəbində oxumuşdur. *Bakı müsəlman xeyriyyə cəmiyyəti, "Nəşri-maarif"* və *"Nicat"* cəmiyyətləri tərəfindən Bakıda göstərilən tamaşa və müsamirələrin təşki-lində yaxmdan iştirak etmişdir. Məmmədbəyli Fevral inqi-labından (1917) sonra siyasi fəaliyyətə başlamış, "Rusiyada müsəlmanlıq" partiyasının (1917 il noyabrın axırlarından *"İttihad"* partiyası) təsis olunmasında yaxından iştirak etmişdir. 1918 ilin fevralında Zaqafqaziya seyminin üzvü seçilmiş, həmin il fevralın 28-də Seym tərəfindən təsdiq olunmuş müsəlman fraksiyasının tərkibinə "İttihad" partiyasının nümayəndəsi kimi daxil olmuşdu. 1918 il dekabrın 7-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk təsis iclasında Parlamentin üzvü seçilmişdi. Parlamentd "İttihad" fraksiyasının rəhbərlərindən biri idi. Məmmədbəyli həmin dövrdə Bakıda bir sıra mədəni-maarif tədbirlərinin təşkilatçılarından olmuşdur. O, Nəsib bəy Yusifbəylinin 2-ci hökumət kabinəsində dövlət nəzarəti naziri vəzifəsində çalışmışdır. *Aprel işğalından (1920)* sonra: müxtəlif idarələrdə fəaliyyət göstərmiş, təqiblərə məruz qalmış, həbs edilmiş, işdən çıxarılmışdır.

**MƏMMƏDQULUZADƏ** Cəlil Məmmədqulu oğlu (təxəllüsü Molla Nəsrəddin; 22.2.1869, Naxçıvan - 4.1.1932,1 Bakı) - yazıçı. dramaturq, jurnalist, ictimai xadim. Azerbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələnən müstəqil milli dövlətçilik ideyalarının formalaşmasında mühüm rol oynamışdır. İlk təhsilini əvvəlcə mollaxanada, sonra isə üçsinifli Naxçıvan şəhər məktəbində almışdır. Qori Müəllimlər Seminariyasını bitirdikdən (1887) sonra, İrəvan qubemiyasının Uluxanlı, Naxıvan mahalının Baş Noraşen (indiki Şərur rayonunun Cəlilkənd kəndi), Nehrəm kəndlərində müəllimlik etmişdir (1887-97). Müəllim işlədiyi illər ədibin gələcək yaradıcılığı üçün zəngin material vermişdir: "Çay dəstgahı" (1889) alleqorik mənzum dramı, "Kişmiş oyunu" (1892) komediyası, "Danabaş kəndinin əhvalatları" (1894; 1936 ildə nəşr olunmuşdur) povesti və s. Naxçıvanda və İrəvanda müxtəlif hüquq idarələrində çalışmışdır (1897-1903). Cəlil Məmmədquluzadənin yazıçı və jurnalist kimi püxtələşməsində 1903 ildən Tiflisdə nəşr edilən "Şərqi-Rus" qəzetində işləməsinin və onun redaktoru Məhəmmədağa *Şahtaxtlının* mühüm rolu olmuşdur. İlk mətbu əsəri olan "Poçt qutusu" hekayəsi bu qəzetdə dərc edilmişdir. 1905 ilin əvvəlində "Şərqi-Rus" bağlanarkən jurnalist Ömər Faiq Nemanzadə və maarifpərvər tacir Məşədi Ələsgər Bağırzadə ilə şərikli bu qəzetin mətbəəsini alıb, onu "Qeyrət" adlandırmışdır. Ədibin ilk kitabçaları ("Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "İranda hürriyyət") "Qeyrət" mətbəəsində nəşr olunmuşdur (1905-07). 1905 ildə Tiflisdə uşaqlar üçün məktəb və pansion açmışdı. Həmin il "Kavkazski raboçi listok" qəzetində Cənubi Azərbaycandan gəlmiş fəhlələrin ağır həyatını təsvir edən "Binəsiblər" və "Xeyir-dua" məqalələri ilə çıxış etmişdir. Onlardan birincisi Məhəmməd Əmin Rəsulzadənin tərcüməsində "Həyat" qəzetində dərc olunmuşdu.



İlk nömrəsi 1906 il aprelin 7-də (20-də) çıxan "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla Cəlil Məmməd-quluzadə Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında satirik jurnalistikanın əsasını qoydu. Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə, Əli Nəzmi

downloaded from KitabYurdu.az




*Cəlil Məmmədquluzadənin abidəsi. 1974. Naxçıvan şəhəri.*
*Heykəltəraş M. Mirqasımov*

downloaded from KitabYurdu.az



C.M.Məmmədquluzadə ailə üzvləri ilə İsa bulağında. Şuşa. 1926, iyul

Əliqulu Qəmküsar kimi yazıçı və jurnalistlərlə Cəlil Cəmmədquluzadə arasında möhkəm ideya-yaradıcılıq əlaqəsi yarandı. Jurnalın təbliğ etdiyi dərin demokratik və azadlıq ideyaları ona ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırdı. Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə mollanəsrəddinçilər Yaxın və Orta Şərqə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat və dəbiyyat məktəbi yaratdılar. Başqa mollanəsrəddinçilər kimi, Cəlil Məmmədquluzadə də irtica və qaragüruhçuların arasıkəsilməz təqib və təzyiqinə məruz qalırdı. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qey)t" mətbəəsində axtarışlar aparır, bəzən də "Molla Nəsrəddin"in nəşrini dayandırırdı. Jurnal müəyyən fasilələrlə ) 31 ilədək Tiflisdə (340 nömrə), Təbrizdə (8 nömrə) və Bakıda (400 nömrə) nəşr edilmişdir. Ölkədə yaranmış mürəkkəb vəziyyətlə əlaqədar olaraq Cəlil Məmmədquluzadə 1918-20 illərdə, əsasən, Qarabağ, ömür-gün yoldaşı Həmidə xanımın malikanəsi olan Kəhrizli kəndində yaşamışdır. Azərbaycan Xalq Cümhuyəti dövründə müstəqil dövlət quruculuğunda bilavasitə irak etməsə də, onun ideyalarını dəstəkləmiş, Əsgəran uğrunda döyüşlərdə iştirak etmişdir. O və Həmidə xanım 19 il iyunun 18-də Ağdamdan Azərbaycan Xalq Cümhuyəti hökumətinin sədri Nəsib bəy Yusifbəyliyə və parlanmentin üzvləri Məhəmməd Əmin Rəsulzadəyə və Əhməd Pepinova teleqram göndərərək, Ermənistanda azərbayılılara qarşı aparılan soyqırımı siyasəti nəticəsində evlərindən didərgin düşüb, Qarabağ general qubernatorluğu ərazisinə pənah gətirmiş 50 minə yaxın soydaşımızı Mil düzünün yanına milyon desyatinlik torpaqlarında yerləşdirmiş, 15 mindən yuxarı əmək qabiliyyətli qaçqını işlə təmin etmək barədə Əmək və Əkinçilik Nazirliyinin qaldırdığı məyə qoşulduqlarını bildirmişlər. "Azərbaycan" qəzetinin 9 il 6 iyul tarixli 140-cı nömrəsində dərc olunmuş həmin teleqramda deyilirdi: "50 min müsəlman qaçqınının ağır vəziyyəti bizi Kür və Araz çaylarının köhnə "Gavur Arxı" kanalı vasitəsilə birləşdirərək, Mil düzündə yarım on desyatin torpağın suvarıllması barədə məsələ qaldırmağa məcbur etdi... Atamız Əhməd bəy Cavanşir (Həmi xanımın atasıdır) hələ 19 əsrin 60-70-ci illərində bu istiqamətdə bəzi işlər görmüşdü. Lakin fitnə-fəsadlar nəticəsində bu işi yarımçıq qoymağa məcbur olmuşdu...

Əziz vətənimizə məhəbbət naminə biz də öz səsimi bu qədər vacib və təxirə salınmaz məsələnin tezliklə həllini qoşuruq. Bizdə atamızın bu məsələ ilə bağlı çoxlu məktubları var, onları məmnuniyyətlə plan və layihələrlə birlikdə hökumətin sərəncamına verməyə hazırıq. Həmidə xanım Cavanşir, Cəlil Məmmədquluzadə".


PROGRAM

ƏLULƏR

تولی لر

Cəlil Məmmədquluzadə sovet dövründə "Molla Nəs rəddin" jurnalı və "Yeni yol" (Bakı) qəzetinin redaktorunu, Ümumittifaq Mərkəzi Yeni Əlifba Komitəsinin üzvü, Tənqid-Təbliğ Teatrının təşkilatçılarından olmuşdur.

20 illərin 2-ci yarısından etibarən Cəlil Məmmədquluzadənin həyatında ciddi sarsıntılar dövrü başlanmışdır. redaktoru olduğu "Molla Nəsrəddin" jurnalına ciddi senzura nəzarəti qoyulmuş, jurnalın nəşri üçün ayrılan dövlət vəsaiti (dotasiya) azaldılmışdır. Hətta "Molla Nəsrəddin" jurnalı Mübariz Allahsızlar Cəmiyyətinin orqanına çevrilmiş və Cəlil Məmmədquluzadə redaktorluqdan uzaqlaşdırılmışdı. Bütün bunlar, habelə, dövri mətbuatda haqqında çap olunan qərəzli məqalələr və digər haqsızlıqlar böyük demokrat-ədib üçün gözlənilməz ağır mənəvi zərbələrə çevrilmiş, yazıçının sağlamlığını ciddi surətdə sarsıtmışdır.

Cəlil Məmmədquluzadə 40 illik yaradıcılığı boyu müxtəlif janrlarda (dram, hekayə, povest, şer, publisistika, ədəbi tənqid, xatirə və s.) yazdığı əsərləri ilə realist Azərbaycan ədəbiyyatının yeni, yüksək pilləyə qalxmasında müstəsna rol oynamışdır. Mirzə Fətəli Axundzadənin realist ənənə

downloaded from KitabYurdu.az

lərinə əsaslanan ədib sənətdə mücərrədliyə, formalizm təzahürlərinə, ideyasızlıq meyllərinə qarşı kəskin mübarizə aparırdı. Ədəbiyyatı və mətbuatı geniş xalq kütlələrinin mənafeyi uğrunda mübarizəyə yönəltmək, onu bütün xalqın, hətta sadə və savadsız, avam adamların malı etmək onun əsas yaradıcılıq qayələrindən idi. Xalqın, hətta sadə və savadsız, avam adamların malı etmək onun əsas yaradıcılıq qayələrindən idi.

"Danabaş kəndinin əhvalatları" povestində və ilk hekayələrində ("Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy" və s.) yazıçı o zamankı Azərbaycan həyatında hökm sürən feodal-patriarxal münasibətləri, çar məmurlarının və riyakar din xadimlərinin özbaşınalığını, şüurlarda və məişətdəki geriliyi, mövhumat, cəhalət və xurafatı, qadınların acınacaqlı taleyini böyük vətəndaş yanğısı ilə qələmə almışdı. Məşhur "Ölülər" (1909) tragikomediyası Azərbaycan realizmi və satirası tarixində şərəfli yer tutur. Bu əsərlərdə Cəlil Məmmədquluzadə "ölülər" mühitinin rəzalətlərini nifrətlə damğalamış, işıqlı həyat haqqında arzularının tərcümanı olmuşdur.

Cəlil Məmmədquluzadə bədii yaradıcılığında olduğu kimi, publisistikasında da, əsasən, satirik janrlardan istifadə etmişdir. O, çarizm, sosial ədalətsizlik, fanatizm, xurafat, cəhalət və nadanlıq, köhnəlmiş zehniyyət, vaxtı ötmüş, ictimai tərəqqini buxovlayan adət-ənənələr, Qərb imperializminin müstəmləkəçilik siyasəti və Şərq istibdadı əleyhinə çevrilmiş yüzlərlə publisistik məqalə, felyeton və satirik miniatürün müəllifidir. Digər dünya demokrat yazıçıları və Mirzə Fətəli Axundzadə kimi, Cəlil Məmmədquluzadə də ustalıqla, eyhamlar vasitəsilə məzlumları birləşib, "islam millətini çürüdən və çürütməkdə olan milyonca... həşəratlarla, zorbalarla" haqq-hesab çəkməyə çağırırdı. "Cümhuriyyət" (1917) adlı məqaləsində çarizmin devrilməsini alqışlayan ədib, onun yerində xalq hakimiyyəti, demokratik respublika qurulması tələbini irəli sürərək yazırdı: ***"Padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri, o cümlədən də biz müsəlmanları məşğul edən tək bir məsələdir: həmin məsələ cümhuriyyət məsələsidir".***

"Cümhuriyyət, yəni latınca "respublika" elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn, Firəngistan, İsveçrə və qeyrilər".

Cəlil Memmədquluzadə və onun ətrafında birləşən əməlpərvər ziyalılar həqiqi azərbaycançılığın əsaslarını yaratdılar. Xalqımızın tarixi taleyi ilə bağlı olan bu məfkurə Azərbaycanın milli maraqlarını önə qoyan bir məslək, yol idi. Ədib bu yolu 1917 ilin noyabrında "Molla Nəsrəddin"-də dərc olunan "Azərbaycan" məqaləsində ifadə etmiş və Rusiyada baş verən hadisələrin Azərbaycanın istiqlalına doğru apardığım uzaqgörənliklə duymuşdu. Məqalədə vahid Azərbaycan ideyası qabarıq şəkildə irəli sürülürdü. Parçalanmış Vətənin coğrafi hüdudları haqqında məlumat verən ədib "Haradadır Azərbaycan" sualının cavabında yazırdı: "Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxilindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından, Bəyaziddən ibarət olsun".

Cəlil Məmmədquluzadə Azərbaycanın həqiqi övladları birləşib, Vətəni "yad millətlərin südünü əmmiş", millətin "ruhundan xəbərsiz" xainlərin xəyanətindən qorumağa, birliyini bərpa etməyə səsləyirdi: "Ax, gözəl Azərbaycan vətənim! Harada qalmısan? Ay torpaq çörəyi yeyən təbrizli qardaşım, ay keçə papaq meşkinli, sərablı, goruslu və moruslu qardaşlarım... Gəlin, biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək, hardadır bizim vətənimiz?". Hər iki məqalədə Azərbaycan Xalq Cümhuriyyəti uğrunda mübarizənin ideoloji əsasları öz əksini tapmışdır.

Azərbaycançılıq məfkurəsi böyük demokratın Azərbaycan ədəbiyyatında Cümhuriyyət ideyaları ilə birbaşa səsləşən ilk sanballı bədii əsəri olan "Anamın kitabı" (1919) pyesində xüsusilə bariz əksini tapmışdır. Vətəndaş ədib əsərdəki rəmzi "Anamın kitabı" obrazı ilə o dövr üçün son dərəcə mühüm və aktual ictimai-siyasi əhəmiyyət kəsb edən Azərbaycanın bütövlüyü və müstəqilliyi ideyasının yüksək sənətkarlıqla ümumiləşdirmişdi.

Dövrün daha bir aktual mövzusundan - erməni-Azərbaycan münaqişəsindən bəhs edən birpərdəli "Kamança" pyesində də Azərbaycan xalqının yüksək humanizmi dərin psixoloji-bədii inandırıcılıqla və müstəsna emosional təsir gücü ilə əks etdirilmişdir.

Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə və b. Cəlil Məmmədquluzadənin ədəbi-ictimai fəaliyyətini yüksək qiymətləndirmişlər.

Əsərləri: Əsərləri, c. 1-3, B., 1936-47; Seçilmiş əsərləri, c.1-2, B., 1951-54; Felyetonlar, məqalələr, xatirələr, məktublar, B., 1961; Əsərləri, c. 1-3, B., 1966-67; Əsərləri, c. 1-6, B., 1983-85; Seçilmiş əsərləri, B., 1987; Избр.произв, т. 1-2, Б. ,1966; Рассказы, Б., 1976; Сборище сумашедших, М., 1989.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, c. 2, B., 1960; İbrahimov M., Böyük demokrat, B., 1957; Paşayev M., Cəlil Məmmədquluzadənin bədii nəsri., B., 1963; Məmməd Cəfər, Cəlil Məmmədquluzadə, B., 1966; Məmmədli Q., Molla Nəsrəddin (Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin salnaməsi), B., 1966; 1984; Hüseynov F., Adi əhvalatlarda böyük həqiqətlər, B., 1977; Əlimirzəyev X., Problemlər və xarakterlər dramaturgiyası, B., 1979; Mirəhmədov Ə., Azərbaycan Molla Nəsrəddini, B., 1980; Şərif Ə., "Molla Nəsrəddin" necə yarandı, B., 1986; Həbibbəyli İ., Cəlil Məmmədquluzadə; Mühiti və müasirləri, B., 1997; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Габиббейли И., Джалил Мамедкулизаде (Молло Насреддин), Б, 1999.



**MƏMMƏDQULUZADƏ-CAVANŞİR** Həmidə Əhməd bəy qızı [19.1.1873, Cavanşir qəzasının (indiki Ağcabədi rayonu) Kəhrizli k., - 6.2.1955, Bakı] - Azərbaycanın ilk maarifçivə ziyalı qadınlarından biri. Maarifçi, tarixçi, şair və tərcüməçi Əhməd bəy Cavanşirin (1834-1902) qızı, Cəlil Memmədquluzadənin ömür-gün yoldaşı. Ailə təhsili almışdır. Ata mülkü olan Kəhrizlidə ibtidai məktəb, tibb məntəqəsi və toxuculuq emalatxanası açmış,

downloaded from KitabYurdu.az

Tiflisdə Qafqaz Musəlman Qadınları Xeyriyyə Cəmiyətinin (1908-17) yaradıcılarından biri və sədr müavini olmuş, "Molla Nəsrəddin" jurnalının nəşrində ərinə kömək etmişdir. 1912 ildə Qafqaz pambıqçılarının Tiflisdə çağırılmış yığıncağında iştirak etmiş, irəli sürdüyü təkliflər yüksək qiymətləndirilmişdir. Xalq şairi Mirzə Ələkbər Sabirə böyük qayğı bəsləmiş, onun müaəsinə maddi yardım göstərmişdir. Azərbaycan Xalq Cumhuriyyəti dövründə ata mülkü olan Kəhrizlidə yaşamış, kənd təsərrüfatı işləri ilə məşğul olmuş, emalatxanasını genişləndirmiş, qadınların işləməsinə və dolansına şərait yaratmışdır. 1919 il iyunun 18-də C.Məmədquluzadə ilə birgə Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin sədri Nəsib bəy Yusifbəyliyə, habelə Parlamentin üzvləri Məhəmməd Əmin Rəsulzadəyə və Əhməd bəy Pepinova teleqram göndərərək, Əmək və Əkinkçilik Nazirliyinin Ermənistanda azərbaycanlılara qarşı aparılan soyqırımı siyasəti nəticəsində ata-baba torpaqlalarından, ev-eşiklərindən didərgin düşmüş, Qarabağa pənah gətirmiş 50 minə yaxın soydaşımızı Mil düzünün yarım on desyatinlik torpaqlarında yerləşdirmək, 15 mindən əmək qabiliyyətli qaçqını işlə təmin etmək barədə qalığı məsələyə qoşulduğunu, atasının hələ 19 əsrin 60-70 ində bu yöndə bəzi işlər gördüyünü, lakin fitnələr nəticəsində bu işi yarımçıq qoymağa məcbur olduğunu, onun bu məsələ ilə bağlı çoxlu məktubların məmnuniyyətlə plan və layihələrlə birlikdə hökumətin sərəncamına verməyə hazır olduğunu bildirmişdir.

1920 ilin mayında C.Məmmədquluzadə ilə birlikdə ıbi Azərbaycana getmiş, iki il Təbrizdə yaşamışdır. ilin ortalarında sovet Azərbaycanına dönüb, bir müddət Kəhrizlidə yaşamış, mülkləri müsadirə edilərək, təqibə məruz qalmışdır. Sonralar Bakıya köçərək, ömrünün sonunadək burada yaşamışdır. 1939 ildə Azərbaycan Sovet İttifaqının üzvü seçilmişdir. Əsasən, bədii tərcüməsində çalışmış, C.Məmmədquluzadənin bir sıra hekayəsini, Mir Cəlalın "Dirilən adam" romanını rus dilinə tərcümə etmişdir. Azərbaycanda memuar ədəbiyyatının inkişafına xeyli xidmət göstərmiş, atasının tərcümeyi halını, Məmmədquluzadə və M.Ə.Sabir haqqında xatirələr yaz". C.Məmmədquluzadə ilə məktublaşmaları yazıçının və fəaliyyətinin öyrənilməsində böyük əhəmiyyətə malikdir. Qarabağ folklorunun toplanması və öyrənilməsi məşğul olmuşdur.

Əsərləri: Mirzə Cəlil haqqında xatirələrim, B., 1981; Həmidə və Tiədquluzadə. Məktublar (tərtib edəni Ə.Mirəhmədov), B., 1994.

Əd.: Axundov H., "Molla Nəsrəddin" jurnalının nəşri tarixi, B., Həbibbəyli İ, Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, 7; Məmmədli Q., Molla Nəsrəddin (salnamə), B., 1984; Mirəhmədov., Azərbaycan Molla Nəsrəddini, B., 1980.

**MƏMMƏDOV** Ağabala Ələsgər oğlu (1892, Tiflis - ?) Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarı *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* və özünün müraciətinə əsasən, hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Tiflisdə realm məktəb bitirmiş (1913), Xarkov Texnologiya İnstitutunun mexanika şöbəsində 3 il təhsil almış, lakin maddi çətinlik üzündən 1918 ildə geri qayıtmağa məcbur olmuşdu. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, yenidən Xarkova göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**MƏMMƏDOV** Həmid (Həmidi) Məmməd oğhı (20.1.1900, Qars —?) — Azərbaycan Xalq Cümhuriyyəti, Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1-ci Bakı kişi gimnaziyasını bitirmişdi (1919). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Ştutqart İnstitutuna (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr Ittifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**MƏMMƏDOV** Hüseynbala Cəfərqulu oğlu (22.10.1899, Dərbənd - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Dərbənd realnı məktəbini bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Bonn Ali Kənd Təsərrüfatı Məktəbinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**MƏMMƏDOV** Qəhrəman İsrafıl oğlu (1897, Tiflis - ?) Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı politexnik məktəbinin memarlıq-inşaat şöbəsini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarix

downloaded from KitabYurdu.az

li qərarına əsasən, təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında təhsilini bitirməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MƏMMƏDOV** Nəbi (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* və xalq maarifi nazirinə müraciətinə əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1919 ildə Kiyev Dövlət Kommersiya İnstitutunun tələbəsi olmuş, maddi çətinlik üzündən təhsilini yarımçıq buraxıb geri qayıtmış və bütün sənədləri Kiyevdə qalmışdır. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini bitirmək üçün yenidən Kiyevə göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**MƏMMƏDOV** Zal Məmmədcavad oğlu (1898, Şuşa - ?) Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Yelizavetpol kişi gimnaziyasını bitirmişdir (1918). Parlamentin 1919 il sentyabr tarixli qərarına əsasən, təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Drezden niversitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına tehsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr tttifaqının* 1923-25 illər üçün məlumatmda təhsilini bitirməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MƏMMƏDSADIQ** Aran (1898, Zəngəzur, Urud kəndi -1972, İstanbul) - şair, ədib və publisist. İlk təhsilini atasının kənd uşaqları üçün tikdirdiyi xüsusi məktəbdə almış, bir müddət nahiyə mərkəzi Qarakilsədə oxumuş, daha sonra Naxçıvanda rus məktəbini bitirmişdir. İlk şerlərini *"Açıq söz "* və s. metbuat orqanlarında dərc etdirmişdir. Şerlərində dövrün haqsızlıqlarını, xüsusilə ictimai-siyasi qüsurları dilə gətirdiyi üçün təqib və məhrumiyyətlər üzündən 1914 ildə İrana mühacirət etmək məcburiyyətində qalmış, Marağa şəhərində ibtidai məktəb açaraq, müəllimlik etmişdir. 1916 ildə Qafqaza qayıtmış, 1917 ildə Gorusa gələrək orada məktəb açmışdır. M.Aran *Aprel işğalına (1920)* qədər coşğun siyasi fəaliyyət göstərmişdir. Həmin tarixdən sonra, Qaryagin (indiki Füzuli) şəhərində gizli iş aparmışdır. 1921 ilin 2-ci yarısında "Müsavat" partiyası tərəfindən Türkiyəyə ezam olunmuş, İstanbulda hökumət xadimləri ilə danışıqlar aparmışdır. Batum yolu ilə Qafqaza qayıdarkən sovet orqanları tərəfindən həbs edilmiş, iki il Tiflisdə fövqəladə komissiyanın ("çeka") zindanında yatmışdır. Hebsxanadan qurtulduqdan sonra 1924 ilin yanvarında Türkiyəyə mühacirət edən M.Aran 2 il Trabzonda müəllim işləmiş, sonra İstanbula gələrək, Məhəmməd Əmin Rəsulzadə ilə birlikdə "Yeni Qafqasya" jurnalının buraxmağa başlamışdır. 1932 ildə M.Aran Tampere şəhərindəki türklərin dəvətilə Finlandiyaya köçərək, türk uşaqlarına müəllimlik etmiş, siyasi fəaliyyətini də davam etdirmişdir. Burada türkcə-fincə "Yeni Turan" adlı qəzet buraxmışdır. 1936 ildə İrana getmiş, "Cümhuriyyət" və "Ulus" qəzetlərinin xüsusi müxbiri işləmişdir. 1941 ildə yenidən İstanbula köçən M.Aran 1942 ildə Cənubi Azərbaycanın ictimai-siyasi vəziyyəti, tarixi, görkəmli şəxsiyyətləri barədə dolğun məlumat verən "İran türkləri" adlı kitabını çap etdirmişdir. Az sonra müəllifin "Türkün altun kitabı" adlı ikinci əsəri nəşr olunmuşdur. M.Aran pedaqoji, siyasi fəaliyyətlə yanaşı, bədii yaradıcılıqla da məşğul olmuşdur. Onun "Qara köynək", "Gənclərə nəsihət", "Millətlərin haqqı və məhkum türklərin davası" adlı nəsr əsərləri, "Qaçaq Nəbi", "Top səsləri" pyesləri, çoxlu şerləri vardır.

*Əd.:* T a h i r l i A., Azərbaycan mühacirəti, B., 2001.

**MƏMMƏDYAROV** Əbdülsəməd Bağır oğlu (27.9.1889, Bakı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanh tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilməsi nəzərdə tutulmuş tələbələrdən biri. Bakı orta inşaat-mexanika məktəbini bitirmiş (1913), Xarkov Texnologiya İnstitutunun mexanika şöbəsində 4 il təhsil almış, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxmış, 1918 ildə vətənə qayıtmışdır. 1919 ildə müraciətinə əsasən, təhsilini davam etdirmək üçün Parlament tərəfindən yenidən Rusiyaya (Xarkov) göndərilməsi nəzərdə tutulmuşdu. Lakin Vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürəkkəb vəziyyətdə oraya tələbə göndərmək mümkün olmamışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**MƏMMƏDZADƏ** Əbdülvahab, Yurdsevər - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçısı, şair, publisist (bax *Yurdsevər).*

**MƏMMƏDZADƏ** Mirzə Bala (1898, Bakı yaxınlığındakı Zirə kəndi - 8.3.1959, İstanbul) - Azərbaycan milli istiqlal hərəkatının görkəmli xadimlərindən biri, publisist, yazıçı, tarixçi. Balıqçı ailəsində doğulmuşdur. Atası ailəsini dolandırmaq üçün əsrin əvvəllərində Bakıya köçərək, şəhərin Çənbərə-kənd adlanan hissəsində məskunlaşmışdır. Mirzə Bala Bakıdakı 7ci "rus-tatar" məktəbini (1914), 3-cü ali ibtidai məktəbi bitirdikdən sonra təhsilini Bakı texniki sənaye məktəbində davam etdirmişdir. Ədəbi yaradıcılığa təhsil illərində başlamış, 1912 ildə İsa bəy Aşurbəyovun "Kaspi" mətbəəsində "Nəfi-elm və yaxud elmin sonu" adlı kitabı çap olun-

downloaded from KitabYurdu.az

muşdur. *Fevral inqilabından (1917)* sonra açıq siyasi fəaliyyətə qoşulmuş, "Müsavat" partiyası sıralarına daxil olmuşdur. *"Açıq söz", "Bəsirət"* və s. mətbuat orqanlanında dövrün siyasi problemləri ilə bağlı məqalələr dərc etdirmişdir. Məqalələrinin birində o, gəncliyə müraciətlə yazırdı: ***"Bu giin Kəbeyi-müqəddəsiniz olan vətəninizi azad ediniz... Sizi bir insan olaraq vətən yaşadar. Sizin diliniz, sizin irz və namusunuz yenə vətəniniz içində səlamət qala bilər"*** ("Açıq söz", 4yanvar, 1918).

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən dərhal sonra M.B.Məmmədzadə "Müsavat" partiyası nəzdində yaradılmış "Gənclər cəmiyyəti"nin orqanı *"Gənclər yurdu"* (1918, iyun-noyabr) jurnalının redaktoru (T.F.Hacızadə ilə birgə) olmuşdur. Həmin dövrdə Mirzə Balanın Tiflisdə "İki inqilab arasında" adlı risaləsi də çap edilmişdi. Kitabçada 1905-17 illər arasında Azərbaycanda mətbuat, maarif, ədəbiyyat, teatr, din və qadın məsələləri tarixinə ümumi nəzər salınırdı.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində stenoqrafçı işləyən M.B.Məmmədzadə 1919 ilin oktyabrında "Müsavat" partiyası Bakı Komitəsinin üzvü seçilmişdi. Həmin ilin sentyabrında Azərbaycan Dövlət Teatrında onun 1918 il mart soyqırımından bəhs edən "Bakı uğrunda mübarizə" pyesi tamaşaya qoyulmuşdu.

*Aprel işğalından (1920)* sonra M.B.Məmmədzadə Bakıda "Müsavat"m gizli teşkilatının rəhbəri olmuş, 1923 ilə qədər onun orqam *"İstiqlal"* qəzetini nəşr etdirmişdir. Həmin dövrdə Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi və orta məktəbdə müəllim işləyən M.B.Məmmədzadə mətbuatla da əlaqəsini üzməmiş, "Yeni yıldız" jurnalında Azərbaycan tarixinə dair silsilə məqalələr dərc etdirmiş, 1922 ildə Bakıda "Azərbaycan türk mətbuatı" adlı kitabı nəşr olunmuşdur.

1923 ilin iyulunda "İstiqlal" qəzeti mətbəəsinin yeri hökumət orqanları tərəfindən aşkar edildikdən sonra "Müsavat"m gizli təşkilatının üzvləri həbs olunduqda M.B.Məmmədzadə həbsdən yayma bilmiş, həbs olunanların bir qrupunun sovet hakimiyyətini müdafiə etmələri ba-rədə verdikləri bəyanatm əleyhinə vərəqələr yaymışdır. 1924 il yazın axınna qədər gizli fəaliyyət göstərən M.B.Məmmədzadə mayda İranm Ənzəli şəhərinə gedərək, buradakı mühacirlerin fəaliyyətinə başçılıq etmişdir. Bir müddət Təbrizdə yaşayan, sonra isə Sulduz şəhəri ətrafında şose yolu çəkilişində mühəndis-texnik işləyən M.B.Məm-mədzadə İstanbulda M.Ə.Rəsulzadənin rəhbərliyi ilə nəşr olunan "Yeni Qafqasya" jurnalma məqalələr göndərmişdir.

Bolşevizmin, sovet ideologiyası və rejiminin, partiya-sovet aparatının tərkib hissəsi kimi bolşevik mətbuatının ifşası M.B.Məmmədzadənin bu dövr publisistikasının əsas mövzularından idi. M.B.Məmmədzadə 1927 ildə İstanbula köçmüş, ele həmin il İstanbulda onun "Azərbaycan misaqi-millisi: 28 Mayıs İstiqlal Bəyannaməsinin təhlili", "Ermənilər və İran" kitabları çap olunmuşdur. M.Ə.Rəsulzadənin redaktorluğu ilə çıxan "Azəri türk" (1928-31) və "Odlu yurd" (1929-31) jurnalları, habelə "Azərbaycan yurd bilgisi" jurnalı ilə də yaxından əməkdaşlıq etmişdir. "Azəri türk" və "Odlu yurd" jurnallarının əsas yazarlarından olan Mirzə Balanın "Fətəli xan Xoyski", "Doktor Həsən bəy" adlı məqalələri Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərini səciyyələndirmək baxımından çox qiymətlidir. "Solovkidən gələn səslər" məqaləsində Rusiyanın 9 ayı qış olan Solovki adalarına - "təbiətin bu qorxunc sekasına", "kommunizm zindanlarına sürülmüş Azərbaycan istiqlal mücahidlərinin dəhşətli işgəncələrə məruz qalmalarına baxmayaraq, yenilmədiklərindən, amansız şəraitdə belə "İstiqlal" marşım oxumalarından bəhs edilir.

M.Məmmədzadənin "Bolşevizm və türkçülük", "Azərbaycan və bolşeviklər", "Mədəniləşdirmə ünvanı altında ruslaşdırma", "Kommunistlər və istila", "On illik istismar", "Rusiya əsarətində türk Bakı", "Sovet Azerbaycanında “Hürriyyəti-mətbuat", "Yeni türk əlifbası və bolşevik mətbuatı" və s. məqalələrində bolşevizmin iç üzü açılır, sovet hakimiyyətinin antimilli siyasəti ifşa olunur. M.B.Məmmədzadə mühacirət illərində İstanbul Universitetinin hüquq fakültəsini bitirmişdir.

1931 ildə Sovet İttifaqının tələbi ilə Türkiyə hökuməti "Müsavat"ın xarici bürosunun Türkiyədə fəaliyyətini qadağan etdikdən sonra, M.Ə.Rəsulzadə və onun digər silahdaşları ilə birlikdə M.B.Məmmədzadə də İstanbulu tərk edərək Varşavaya köçdü. Bu dövrdə onun Berlində M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunan "İstiqlal" (1932-34) qəzetində və "Qurtuluş" (1934-38) jurnalında Azərbaycanın istiqlalı probleminə aid xeyli məqaləsi çap olunmuşdur. M.B.Məmmədzadə "Milli Azərbaycan "Müsavat" xalq firqəsi"nin 1936 ildə Varşavada keçirilmiş konfransında yaxından iştirak etmişdir.

"Müsavat" partiyasının nəşr etdiyi bülletenlərdə rus müstəmləkə üsuli-idarəsini ifşa edən xeyli məqaləsi dərc olunmuş, Polşada keçirilən bir neçə elmi konfransda məruzə ilə çıxış etmişdir. 1938 ildə Berlində "Qurtuluş" jurnalı mətbəəsində Mirzə Bala Məmmədzadənin "Milli Azərbaycan hərəkatı. Milli Azərbaycan "Müsavat" xalq firqəsinin tarixi" adlı kitabı çapdan çıxmışdır.

İkinci dünya müharibəsinin başlanması və Polşanm Almaniya tərəfindən işğalı ilə əlaqədar yenidən İstanbula köçən M.B.Məmmədzadənin "Milliyyət" və "Cümhuriyyət" qəzetlərində, "Türk ensiklopediyası"nda, "İslam ensiklopediyası"-nda və digər nəşrlərdə Azərbaycan tarixinə dair çoxlu məqaləsi dərc edilmişdir.

1949 ildə M.B.Məmmədzadənin yaxından iştirakı ilə Ankarada "Azərbaycan Kültür Dərnəyi"nin əsası qoyulmuş, 1951 ildə "Azərbaycan tarixində türk Albaniya" adlı əsəri həmin dərnək tərəfindən çap olunmuşdur. 1952 ildən Ankarada onun "Azərbaycan Kültür Dərnəyi"nin "Azərbaycan" jurnalında da Azərbaycan tarixi ilə bağlı çox saylı məqaləsi dərc edilmişdir. Jurnalda Mirzə Bala Məmmədzadənin "Qafqaz ölkələri istiqlal elanın 40-cı ildönümü münasibətilə" adlı iri həcmli məqaləsi Qafqaz

downloaded from KitabYurdu.az

problemini, bu regionun beynəlxalq aləmdə yerini və rolunu düzgün dəyərləndirmək baxımından əhəmiyyətlidir.

Visbaden konfransında (1951) siyasi mühacirətin görkəmli nümayəndələri Ceyhun bəy Hacıbəyli, Əkbər ağa Şeyxülislamov və İsmayıl Əkbərin "Vahid antibolşevik cəbhə" yaradılması haqqında Rusiya mühacirət təşkilatları ilə müştərək bəyannamə imzalamaları Azərbaycan mühacirət təşkilatlannm ciddi narazılığına səbəb oldu. M.B.Məmmədzadənin "Qafqasya" jurnalında çıxan (1952, avqust, №13,) "Milli İstiqlal davamızın bugünkü səhifəsi" adlı yazısı bir tərəfdən, məqsədi "vahid və bölünməz Rusiya qurmaqdan" ibarət olan rus siyasi mühacirlərinin niyyətlərinin iç üzünü ifşa edirsə, digər tərəfdən, Visbaden konfransına qatılan qeyri-rus, o cümlədən Azərbaycan mühacirlərinin yanlış mövqelərini tənqid edirdi. Mirzə Bala bu qənaətdə idi ki, ***"Milli İstiqlal davamızı ruslarla bir bazarlıq mövzusu halına gətirmək rus imperialistlərinin qayə və əməllərini asanlaşdırmağa yarayır".*** Məmmədzadə "Hər şeydən öncə -milli istiqlal" məqaləsində Rusiya mühacir təşkilatlarının fəaliyyətini əlaqələndirən və maliyyələşdirən, Visbaden konfransını təşkil edən Amerika Komitəsini "Sovetlərdəki millətlərin istiqlal haqqını şübhə altına aldığına" görə ciddi tənqid edirdi. Qafqaz İstiqlal Komitəsinin orqanı olan "Birləşik Qafqasya" jurnalında dərc etdirdiyi məqaləsində Qafqaz xalqlarının istiqlal mübarizəsi tarixini və yolunu işıqlandıran M.B.Məmmədzadə SSRİ-dəki qeyri-rusların istiqlal haqqını tanımaq istəməyən rus mühacirlərini, habelə, sovet rejimini, kommunist ideologiyasını tənqid edir, ədəbi, mədəni həyatla bağlı məsələlərə toxunurdu.

O, 1954 ildən Münxendəki SSRİ-ni öyrənən institutda çalışmış, burada iki il elmi şuranın sədri, iki il isə sədr müavini vəzifəsini icra etmişdi. Türkiyənin bir çox qəzet və jurnallarında da onun SSRİ-dəki totalitar rejimi kəskin tənqid edən məqalələri dərc olunmuşdur. Onun "Proletar ədəbiyyatı milliyyətçi ədəbiyyatın vahid cəbhəsi qarşısında", "Ədəbi hakimiyyət qovğası", "Azəri türk ədəbiyyatının dünəni və bu günü", "Müasir Azərbaycan şairləri", "Romantik və realist cərəyanlarını mücadiləsi", "Milli dil və milli kültür", "Cəfər Cabbarlı", "Mirzə Ələkbər Sabir", "Sovet dil siyasətinin bugünkü səhifəsi", "Dədə Qorqud", "Milli dastanlarımıza dair" və s. məqalələrində ədəbiyyatımızın dünəni və bu günü ilə bağlı mülahizələr irəli sürülür, Azərbaycanda yeridilən ruslaşdırma siyasətinin (dil, mədəniyyət, ədəbiyyat və s. sahələrdə) mahiyyəti aşkarlanmır.

M.B.Məmmədzadənin "Mirzə Bala", "Nuhoğlu", "A.Kut", "M.M.Məmmədzadə", "M.B.Daşdəmir" və "Əli Kutluk" imzaları ilə 2000-dən çox məqaləsi vardır.

M.Ə.Rəsulzadənin vəfatından (1955) sonra "Müsavat" partiyasına və *Azərbaycan Milli Mərkəzinə* M.B.Məmmədzadə rəhbərlik etmişdir. O, 1957 il iyulun 26-da Münxendə keçirilən "Qırx illik sovet hakimiyyəti"adlı elmi konfransın təşkilatçısı olmuşdur. İstanbulda Qaracaəhməd məzarlığında dəfn edilmişdir.

Əsəri: Milli Azərbaycan hərəkatı, B., 1992.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Sultanlı V., Azərbaycan mühacirət ədəbiyyatı, B., 1998; Tahirli A., Azərbaycan mühacirət mətbuatı, 2 hissədə, hissə 2. B., 2003.

**MƏMURLAR** (bürokratiya) - 1) Rusiyada 1722 ildə tətbiq edilən “Dərəcələr haqqında tabel” ə uyğun olaraq rütbəsi olan dövlət müəssisəsi qulluqçuları; 2) Dövlət müəssisələri və ictimai təşkilatlar sistemində çalışan qulluqçuların ümumi adı. Oktyabr çevrilişinədək (1917) Rusiyanın iqtisadi fəal əhalisinin 2%-ni təşkil edirdi. Məmurların yuxarı təbəqəsi - ali bürokratiya, bilavasitə nəsli zadəganlara mənsub idi. Əksəriyyətinin iri torpaq sahibi olmasına baxmayaraq, onlar kapitalist birlikləri, banklar və b. sahələrdə fəaliyyətə qoşulmuşdular. Orta məmurlar zadəganlardan, aşağılar isə xırda burjua, yaxud yaxın proletar təbeqə və başqalarından ibarət idi. *Müvəqqəti hökumət* "Dərəcələr haqqında tabel" və "Mülki xidmət haqqında nizamnamə"ni (1832) qüvvədə saxladı.

Şimali Azərbaycanın işğalı gedişində (1801-28) və işğaldan sonra Rusiya burada yaradılmış dövlət idarə sistemi üçün məmurlar formalaşdırılmasına xüsusi diqqət yetirmişdi. Şimali Azərbaycanda məmurluq sisteminin əsasını çarizmin müstəmləkə siyasətinin həyata keçirilməsi təşkil edirdi. Çar hökuməti Rusiyanm mərkəzi şəhərlərindən Qafqaza, o cümlədən Şimali Azərbaycana məmurlar cəlb etmək üçün onlara imtiyazlar verirdi. Buraya gələn qulluqçuya "Dərəcələr haqqında tabel”'də mayora uyğun olan kollec asessoru rütbəsi verilirdi. 1840 il 15 aprel islahatından sonra inzibati-idarə sistemində çalışan məmurların sayı artırıldı; buraya ruslarla yanaşı, yerli xalqların nümayəndələri də cəlb edildi. Çar hökuməti gürcü və ermənilərə nisbətən azərbaycanlıların dövlət qulluğuna cəlb edilməsinə ehtiyatla yanaşırdı. Azərbaycanlılar məmurların yuxarı və orta təbəqəsinə, demək olar ki, buraxılmırdı. Çarizmin devrilməsindən sonra Müvəqqəti hökumətin təşkil etdiyi Xüsusi Zaqafqaziya Komitəsi və İctimai Təşkilatların İcraiyyə Komitəsinə azərbaycanlıların cəlb edilməsi artdı. Lakin çarizmin yüz ildən çox davam edən müstəmləkə siyasəti azərbaycanlılar içərisindən məmurluq sistemində çalışmaq üçün savadlı kadrlar hazırlığına mənfı təsir göstərmişdi. Bu problem Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə (1918-20) özünü bütün çətinlikləri ilə büruzə verdi. Müstəqil Azərbaycan dövlətinin idarə sistemində çalışmaq üçün kifayət qədər azərbaycanlı kadr olmadığı ortaya çıxdı. Ali təhsil almış azərbaycanlıların bir hissəsinin bolşeviklərin mövqeyində dayanması da bu sahədə imkanları məhdudlaşdırırdı. AXC Bakı Dövlət Universitetinin açılması, təhsil sahəsində bəzi tədbirlərlə idarə sistemində çalışa bilən qulluqçular hazırlanmasına da həll etmək istəyirdi. Lakin bu tədbirlər perspektiv üçün nəzərdə turulurdu. AXC Hökuməti bütün problemlərə baxmayaraq, dövlət idarəetmə sistemini formalaşdırmağa nail olmuşdu. Məmurlar bu sistemdə mühüm yer tuturdu. AXC Hökuməti dövlət idarə sistemində çalışan qulluqçuların həyat şəraitinin yaxşılaşdırılmasına çalışır, onların əmək haqlarını artırırdı və i.a. Məmurların etnik

downloaded from KitabYurdu.az

tərkibi müxtəlif idi. Azərbaycan Respublikasının Təqvim-Ünvanında (1920) çap olunmuş "Hökumət idarələri qulluqçularının şəxsi tərkibi" adlı siyahı bu məsələnin öyrənilməsində qiymətli mənbə rolunu oynayır. Bu siyahılardan aydın olur ki, Cümhuriyyət hökuməti idarələrində yuxarı məmurlar azərbaycanlılar içərisindən təyin edilmiş şəxslərlə müəyyən dərəcədə təmin olunsa da, orta və aşağı təbəqə, əsasən, əvvəlki dövrdən burada çalışanlar idi. Bu təbəqənin əksər hissəsi qeyri-azərbaycanlılar olduğundan, hökumətin siyasətinin həyata keçirilməsində çeviklik göstərmirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda bu amil də müəyyən rol oynamışdı.

*Əd.: Адрес-каледары.* :. Азербайджанской Республики (1918-1920). :. Азербаиджанская Демократическая Республика (1918-1920). Исмаилзаде Д., Население городов Закавказского края в XIX-начале XX в., Историко-демографический анализ, Б., 1991.

**MƏNZİLLƏRDƏN İSTİFADƏ HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi (1920, 12 aprel) qanunlardan biri. 44 maddədən ibarət idi. Qanunda mənzillərin, ticarət və digər məqsədlər üçün nəzərdə tutulan binaların kirayəyə verilməsi, qiymətlərinin son həddi və istifadə şərtləri müfəssəl şəkildə əks olunmuşdur. Qanunun icrasına nəzarət edənlər, icarədarlar və icarəyə verənlər arasında mübahisələrin həlli üçün barışdırıcı mənzil komissiyaları yaradılmışdı. Qanuna Bakı şəhərində barışdırıcı mənzil komissiyalanının yaradılması haqqında Qaydalar da əlavə olunmuşdu. Paytaxtda, bütövlükdə, 5 komissiya yaradılmışdı. Hər komissiya sədr, sədr müavini və ən azı 8 üzvdən ibarət idi. Qanun Azərbaycan Xalq Cümhuriyyətinin bütün digər şəhərlərinə də şamil edilirdi.

**MƏRKƏZİ BAKI FƏHLƏ KONFRANSI** - Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı fəaliyyət göstərmiş bolşevik təşkilatı (bax *Bakı Fəhlə Konfransı).*

**MƏRKƏZİ EV KOMİTƏSİ**, S e n t r o d o m - Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeyri-hökumət xeyriyyə cəmiyyəti. 1918 ilin sentyabrında yaradılmışdır. Köməyə ehtiyacı olanların qeydiyyata alınması, evlərdə və küçələrdə qayda-qanuna və təmizliyə nəzarət, yanğınla mübarizə, əhalinin zəruri ərzaq məhsulları ilə təchizatı, yoluxucu xəstəliklərlə mübarizə və s. vəzifələri yerinə yetirirdi. Komitənin sədri A.K.Leontoviç seçilmişdi (1918 il mart qırğınları zamanı onun həyat yoldaşı və 3 yaşlı oğlu öldürülmüş, özü isə 1920 ilin aprelində güllələnmişdir). Komitənin aşağıdakı orqanları var idi: 1. Qidalanma məntəqələri şöbəsi (1918 il sentyabrın 27-də yaradılmışdı). Şöbənin müdiri doktor Q.B.Bron seçilmişdi. Qidalanma məntəqələrində ehtiyacı olanlara pulsuz yemək verilirdi. Məntəqələrin birinci iş həftəsi ərzində hər gün 3 minədək adama nahar yeməyi verilmişdi. Müsəlman əhalisi bu məntəqələrin yeməklərindən imtina etdiyindən, onlara ərzaq məhsulları paylayan xüsusi məntəqələr açılmışdı; 2. Ərzaq şöbəsi (1919 ilin yanvarın təşkil edilmişdi). Şöbənin əsas vəzifəsi əhalini ucuz və keyfiyyətli məhsullarla təchiz etmək olmuşdur. Ərzaq şöbəsinin ticarət, tədarükçü və paylaşdırıcı bölmələri var idi. 1919 il yanvarın 3-dən ucuz çörək bişirmək üçün çörəkxanalar fəaliyyət göstərirdi. Bu məqsədlə şəhərin müxtəlif yerlərində komitənin 10 dükanı açılmış, müsəlman məhəllələrində isə ucuz təndir çörəyinin satışı üçün xüsusi dükanlar təşkil edilmişdi; 3. Hüquq şöbəsi (1918 ilin sentyabrında yaradılmışdı). Məqsədi əhaliyə ucuz hüquqi yardım göstərmək idi; 4. Səhiyyə şöbəsi. Məqsədi şəhərin yaşayış məhəllələrində yoluxucu xəstəliklərlə mübarizə aparmaq idi. Şöbənin həkim və feldşerləri yoxsul əhaliyə pulsuz tibbi yardım göstərirdilər. Yoxsul əhali üçün hamam icarə edilmişdi.

Mərkəzi ev komitəsi 1918 ilin sentyabrında *Uşaqlara yardım Bürosu* təşkil etdi. *Aprel işğalından (1920)* sonra Mərkəzi ev komitəsinin fəaliyyəti dayandırıldı.

**MƏRKƏZİ FƏHLƏ KLUBU** - Bakı şəhəri və onun rayonlarına xidmət edən fəhlə klubu. 1918 il mayın 31-də açılmışdı. Klubun yaradılması ilə bağlı təşkilat işləri Rusiya Kommunist (bolşeviklər) Partiyası Bakı Komitəsinin üzvü R.M.Okinşeviçin başçılıq etdiyi həmkarlar ittifaqları komissiyası tərəfindən həyata keçirilmişdir. Klubun rayon şöbələri və müxtəlif bilik sahələri üzrə bölmələri var idi. Bütün həmkarlar ittifaqları klubun saxlanılması üçün xüsusi vəsait ayırırdılar. Klub fəhlələr, şəhər əhalisi arasında geniş siyasi maarifləndirmə işi aparırdı. 1919 ildə klubun idarə heyəti, bütünlüklə, bolşeviklərdən ibarət idi.

Bolşeviklərin rəsmi partiya iclasları Mərkəzi Fəhlə Klubunun binasında keçirilirdi. Bolşevik hərəkatının qərargahına çevrilən fəhlə klubllarından milli dövlətçilik əleyhinə istifadə edilməsi Azərbaycan Xalq Cümhuriyyəti hökumətini müvafiq tədbirlər görməyə vadar etdi. Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri 1919 il dekabrın 9-da Bakıda fəaliyyət göstərən bütün fəhlə klublarının bağlanması haqqında sərəncam verdi. Buna cavab olaraq ertəsi gün fəhlələrin tətili başlandı. Fəhlə klublarının binası açılsa da, siyasi mövzularda mühazirələr oxunması yasaqlandı. Hökumətin dəfələrlə xəbərdarlıqları nəticəsiz qaldığından, 1920 il martın 15-də fəhlə klublan yenidən bağlandı. Martın 23-də mərkəzi fəhlə konfransının rəyasət heyəti və həmkarlar Şurasının idarə heyəti hökumətə etirazlarını bildirdilər. Martın 25-də hökumət Mərkəzi Fəhlə Klubundan başqa, bütün klubların fəaliyyətə başlamalarına icazə verdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001.

**MƏRKƏZİ, QƏZA, NAHİYƏ VƏ ŞƏHƏR HƏRBİ DAİRƏLƏRİ HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi (1919, 26 may) qanunlardan biri. Qanuna əsasən, Azərbaycan Mərkəzi Hərbi Dairəsi Azərbaycan Xalq Cümhuriyyəti ərazisində hərbi mükəlləfiyyət işləri ilə məşğul olan ali idarə orqanı oldu. Onun başlıca vəzifəsi vətəndaşların hərbi xidmətə çağırılmasını və hərbi mükəlləfiyyətləri yerinə yetirməsini təşkil etmək idi. Mərkəzi Hərbi Dairənin sədri daxili işlər nazirinin müavini, üzvləri isə hərbi və ədliyyə nazirliklərinin nümayəndələri təyin olunmuşdular. Mərkəzi Hərbi Dairə yerlərdə hərbi mükəlləfiyyət işləri ilə məşğul olan qəza, nahiyə və şəhər hərbi dairələrinin işinə nəzarət edirdi.

downloaded from KitabYurdu.az

**MƏRKƏZİ TƏTİL KOMİTƏSİ** - 1918 il dekabr ümumi siyasi tətilinə rəhbərlik etmək üçün *Bakı fəhlə konfransı* tərəfindən yaradılmış komitə. Tətil komitəsi fəhlə konfransı ilə həmkarlar ittifaqları arasında əlaqə yaradırdı. Komitənin başlıca vəzifəsi tətillərin təşkili və onlara rəhbərlik idi.

Mərkəzi tətil komitəsinin "Bakı Tətil Komitəsinin xəbərləri" adlı qəzeti vardı. Qəzet eser və menşeviklər tərəfindən redaktə olunurdu. Mərkəzi tətil komitəsinin bolşeviklərin səyi ilə keçirdiyi dekabr tətili Azərbaycan dövlətçiliyinə qarşı yönəlmişdi. Ümumiyyətlə, komitənin təşkil etdiyi bütün tətillər iqtisadi pərdə altında keçirilsə də, Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti əleyhinə yönəlmişdi. Tətil komitəsinin əsas başçıları A.Anaşkin, A.Çurayev, A.Mikoyan, F.Qubanov idilər.

**"MƏŞYƏXƏT-İ İSLAMİYYƏ" İDARƏSİ** Azərbaycan Xalq Cümhuriyyəti dövründə müsəlman ruhani idarəsi. Çar Rusiyası Şimali Azərbaycanı işğal etdikdən sonra, Cənubi Qafqaz şiələrinə başçılıq etmək üçün şeyxülislam (1823), sünnilərə rəhbərlik etmək üçün isə müfti (1832) vəzifələri təsis olundu. Lakin Cənubi Qafqaz müsəlmanları ruhani idarəsinin yaradılması ləngidirdi. Cənubi Qafqazda şiə və sünni məzhəbləri üzrə müvafiq ruhani idarələri yalnız 1872 il aprelin 5-də yaradıldı. Bu idarələr Tiflisdə yerləşirdi.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra dini işlərin həllində şeyxülislamın və müftinin roluna diqqət artırıldı. Cümhuriyyət hökumətinin 1918 il 18 iyun tarixli qərarı ilə islam dininə aid məsələlərin Nazirlər Şurasında müzakirəsi zamanı şeyxülislama və müftiyə həlledici səs hüququ verilirdi. Fətəli xan Xoyskinin 2-ci hökumət kabinəsində Xalq Maarifı və Dini Etiqad Nazirliyi yaradıldı. Həmin nazirliyin şeyxülislama və müftiyə 1918 il 10 avqust tarixli müraciəti nəticəsində Cənubi Qafqaz müsəlman ruhani idarələri Tiflisdən Gəncəyə köçürüldü, Hər iki idarə rəhbərinin 1918 il 1 sentyabr tarixli qərarı ilə şiə və sünni ruhani idarələri birləşdirildi. Yeni yaradılan ruhani idarəsi, Osmanlı dövlətində olduğu kimi, "Meşyəxət-i islamiyyə" ("məşyəxati" "şeyx" sözünün cəm şəkillərindən biridir. "Məşyəxət-i islamiyyə", yəni müsəlman şeyxləri, ağsaqqalları, rəhbərləri, başçıları mənasındadır) adlandırıldı və onun strukturu müəyyənləşdirildi. Xalq Maarifı və Dini Etiqad Nazirliyinə təqdim edilmiş ştat cədvəlinə görə, "Məşyəxət-i islamiyyə" idarəsi 2 sədr, 4 idarə üzvü, katib, 2 kargüzar, ümumiyyətlə, 15 nəfərdən ibarət olmalı idi. Hökumət 1918 il 8 oktyabr tarixli qərarı ilə müftinin və şeyxülislamın aylıq məvacibini 2 min 500 manat müəyyən etmiş, digər dövlət və hökumət orqanları ilə birlikdə, onların da dəftərxanalarını Bakıya köçürtmüşdü. Sonralar müftinin və şeyxülislamın məvacibi 1 min 500 manat müəyyənləşdirildi. "Məşyəxət-i islamiyyə" idarəsi Bakıya köçürüldükdən sonra onun strukturunun dəqiqləşdirilməsi sahəsində işlər davam etdirildi. İdarəyə şeyxülislamın və müftinin həmsədrlik etməsi qərara alındı. Hökumətin 1920 il mart sərəncamına əsasən, həmsədrlər nazir köməkçisi ilə eyni status alırdı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra "Məşyəxət-i islamiyyə" idarəsi ləğv olundu.

*Əd.:* :. Азербаиджанская Демократическая Республика (1918-1920). Əhədov A., Azəıbaycanda din və dini təsisatlar, B., 1991; Quluzadə M., Dinimiz dünən və bu gün (1920-1995-ci illər), B., 1996; Hüseynli R., Azərbaycan ruhaniliyi (xanlıqlar çağırışdan sovet işğalınadək olan dövrdə), B., 2002.

**MƏTBUAT HAQQINDA NİZAMNAMƏ** Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuat məsələlərini tənzimləyən sənəd. 1919 il oktyabrın 30-da Parlament tərəfindən qəbul olunmuşdu. Hökumətin 1919 il 30 aprel tarixli qərarına əsasən, nizamnamə layihəsini hazırlamaq ədliyyə nazirliyinə tapşırılmışdı. Lakin 1919 il iyunun 20-də hökumət daxili işlər nazirliyinin təqdim etdiyi qanun layihəsini bəyəndi və onu Parlamentin müzakirəsinə çıxardı. Nizamnamə söz və mətbuat azadlığı prinsiplərinə əsaslanırdı. Sənəddə deyilirdi ki, insan fəaliyyətinin hər bir sahəsi kimi, mətbuat da azadlıqla anarxiya arasında sərhədi müəyyən edən qanunlara tabe olmalıdır.

Mətbuat azadlığına yekdilliklə tərəfdar olan parlament üzvləri bu qanun layihəsini ən ciddi sənədlərdən biri hesab edirdilər. Bununla belə, layihənin Parlamentdə hər üç oxunuşu qızğın müzakirələrlə keçdi. "Hümmət" partiyası və sosialist fraksiyası layihənin əleyhinə çıxır və bildirirdilər ki, mətbuatı heç bir qanunla məhdudlaşdırmaq olmaz, Nizamnamə demokratiya və müstəqil dövlətçilik prinsiplərinə ziddir. Maddələrin ayrı-ayrılıqda müzakirəsi zamanı mətbuata ümumi nəzarət və rəhbərlik haqqında, redaktorun təbəəliyi, təhsili, yaş senzi, mətbəə yaradılmasına icazə verilməsi barədə maddələr geniş diskussiya doğurdu. İclasların birində bəzi bəndlərin qəbul olunması ilə razılaşmayan sosialistlər salonu nümayişkaranə tərk etmişdilər.

Mətbuat haqqında Nizamnamə oktyabrın 23-dən 30-dək parlamentin 87-90-cı iclaslarında müzakirə edildi və üçüncü oxunuşda, 1 deputat bitərəf qalmaqla, 21 səsə qarşı 28 səslə qəbul olundu. Nizamnaməyə əsasən, mətbəə açmaq, çap məhsullarını nəşr etmək, buraxmaq və satmaq üçün hökumətin heç bir icazəsi tələb edilmirdi. Yetkinlik yaşına çatmış hər bir vətəndaş mətbu nəşrin məsul redaktoru ola bilərdi. Mətbəə açmaq və ya mətbu nəşr buraxmaq istəyənlər mətbuat işləri üzrə baş müfəttişə bu barədə müəyyən edilmiş formada ərizə verməli idilər. Nizamnamənin bir sıra maddələrini pozmaqda təqsirli bilinən naşir, mətbəə sahibi və redaktor pulla cərimə ödəməli və ya həbs cəzasına məhkum edilməli idi. Nizamnaməyə mətbuat işləri üzrə baş müfəttiş ştatı əlavə olunmuşdu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.2, B., 1998.

**MİLLƏTLƏR CƏMİYYƏTİ** - Birinci və İkinci dünya müharibələri arasındakı dövrdə fəaliyyət göstərmiş beynəlxalq təşkilat. Nizamnaməsi *Paris Sülh Konfransında (1919-20)* bəyənilmiş və *Versal sülh müqaviləsinin (1919)* mətninə daxil edilmişdi. Əsas orqanları Cenevrədə (İsveç-rə) yerləşən assambleya, şura və katiblik idi. Cəmiyyətin

downloaded from KitabYurdu.az

Nizamnaməsini əvvəlcə 44 dövlət qəbul etmişdi. Nizamnaməyə görə, Millətlər cəmiyyətinin məqsədi xalqlar arasın-da əməkdaşlığı genişləndirmək, sülhü və beynəlxalq təhlükəsizliyi qorumaq idi. Onun 16-cı maddəsində cəmiyyətin kollektiv iqtisadi və hərbi sanksiyalar tətbiq etməsi nəzərdə tutulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini qoruyub saxlamaq üçün Millətlər cəmiyyətinə ümid bəs-ləyirdi. Lakin Millətlər cəmiyyəti bu ümidləri doğ-rultmurdu. Əlimərdan bəy Topçubaşov bununla bağlı yazırdı: ***"Hər halda, kiçik xalqları xilas etmək üçün yaradılmış bu təşkilat, Millətlər cəmiyyəti, hələlik olü doğulmuş uşağa bənzəyir, onu kimin, necə və nə zaman dirildəcəyi məlum deyil. Elə bil, Fransa, İtaliya və İngiltərə də bunları unudubdur".***

Millətlər cəmiyyətinin təsis edilməsilə meydana çıxan mühüm məsələlərdən biri də mandatlıq məsələsi idi. Osmanlı imperiyasının və Almaniyanın keçmiş müstəmləkələri Millətlər cəmiyyətinin hamiliyi altında mandat yolu ilə qalib dövlətlər arasında bölüşdürüldü. Böyük dövlətlər mandatlıq sistemini dağılmış Rusiya imperiyasının hüdudlarında meydana gəlmiş yeni dövlətlərə tətbiq etməyə bir qədər ehtiyatla yanaşırdılar.

1919 il avqustun 6-da Versal konfransında Azərbaycanın, Gürcüstanın və Dağlılar Respublikasının xarici dövlətlərə meyli məsələsinin müzakirəsi zamanı Azərbaycan və Gürcüstan nümayəndələri mandatı qəbul edən ölkənin Millətlər cəmiyyəti tərəfindən müəyyən olunması haqqında cəmiyyətə müraciət etmək təklifini irəli sürdülər. Məmməd Həsən Hacınski isə Azərbaycanın İngiltərə tərəfindən mandatlığa götürülməsini təklif etdi. Gürcüstan nümayəndələri də buna tərəfdar çıxdılar. Qeyd olundu ki, bu, digər dövlətlərin İngiltərədən inciməməsi şərtilə həyata keçirilməlidir. Ona görə də əvvəlcə İngiltərənin fıkrini öyrənmək, sonra isə Millətlər cəmiyyətinə müraciət etmək haqqında razılıq əldə olundu. Lakin ingilislərin 1919 il avqustun sonlarında Qafqazdan çıxması nəticəsində bu təklif baş tutmadı.

Versal konfransındakı Azərbaycan nümayəndələri 1919 ilin noyabr-dekabr aylarında beynəlxalq şəraitin əlverişli olduğunu görüb, Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər cəmiyyətinə qəbul edilməsi barədə memorandum hazırlayaraq, cəmiyyətin katibliyinə təqdim etdilər. Gürcü nümayəndələri də müvafiq memorandum hazırlayıb təqdim etmişdilər. Millətlər cəmiyyətinin katibliyində Azərbaycanın və Gürcüstan müraciətlərini öyrənmək üçün xüsusi komissiya yaradılmışdı. Komissiya həmin materialları və real vəziyyəti öyrəndikdən sonra Azərbaycan məsələsini Gürcüstan, Ermənistan, Ukrayna və Kosta-Rika məsələlərilə birlikdə Millətlər cəmiyyətinin üçüncü komissiyasının müzakirəsinə verdi. Komissiyanın müəyyən etdiyi şərtlər daxilində Cənubi Qafqaz respublikaları de-yure tanınmadığı və aralarında mübahisəli ərazi məsələləri olduğu üçün onların Millətlər cəmiyyətinə qəbul edilməsi məsələsi müvəqqəti olaraq dayandırıldı.

1920 ilin aprelində Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Avropadakı Azərbaycan mühacirəti Millətlər cəmiyyətinə üzv olmaqdan ötrü yenidən səy göstərdi. Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti 1920 il noyabrın 1-də 669 saylı məktubla Millətlər cəmiyyətinə müraciət edərək, Azərbaycanın işğalına etiraz bildirilməsini və onun müstəqilliyinin müdafiə olunmasını tələb etdi. Azərbaycan nümayəndələrinin müraciəti nəzərə alınaraq noyabrın 24-də Baş katib bu barədə 204868 saylı memorandum imzaladı. Memorandumda Millətlər cəmiyyəti Assambleyası Azərbaycanın beynəlxalq statusunu "özünü idarə edən bir dövlət" kimi qiymətləndirdi. Parisdə çıxan "Tan" qəzetinin məlumatma görə, Cenevrədə xalqların hüquqları üzrə 5-ci beynəlxalq konqres Azərbaycan nümayəndələrinin məlumatını dinləyərək, Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər cəmiyyətinə qəbul edilməsini bəyənmişdi. Lakin konqres, eyni zamanda, "Azərbaycanın rus sovet hakimiyyəti tərəfindən işğal olunduğunu" da nəzərə çarpdırmışdı. Beləliklə, *Aprel işğalı (1920)* Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər cəmiyyəti üzvlüyünə qəbul olunmasının reallaşdırılmasına imkan vermədi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Qasımov M., Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər), B., 1998.

**MİLLİ AZƏRBAYCAN KOMİTƏSİ** - Azərbaycan siyasi mühacirlərinin 1941 ilin sonunda Berlində təsis olunmuş təşkilatı. Almaniya Xarici İşlər Nazirliyinin dəvətilə Buxarestdən Berlinə gələn Məhəmməd Əmin Rəsulzadə Mustafa Vəkilovu, Mir Yaqub Mehdiyevi, Xosrov Paşa Sultanovu buraya dəvət edərək, Hilal Münşi ilə birgə Milli Azərbaycan Komitəsini yaratdı. Komitəyə 4 nəfər daxil idi. Onun tərkibi təsdiq üçün Almaniya Xarici İşlər Nazirliyinə təqdim edildi. Bu sənədlə yanaşı, M.Ə.Rəsulzadənin Azərbaycanın dövlət müstəqilliyinin Almaniya tərəfindən dərhal tanınması, vahid Azərbaycan ordusunun yaradılması və s. təkliflərin nəzərdə tutulduğu geniş bəyanatı da nazirliyə təqdim olundu. Komitə Almaniya rəhbərliyi ilə əməkdaşlığı yalmz Şimali Qafqazadək mümkün sayırdı. Belə hesab olunurdu ki, alman orduları bolşevik rejimini devirdikdən sonra Qafqaza girməməli, onun taleyini region xalqlarının özləri həll etməlidir. Lakin Almaniya hökuməti bu təklifləri qəbul etmədi. M.Ə.Rəsulzadənin təkliflərinin Almaniya rəhbərliyi tərəfindən qəbul edilməməsinin başlıca səbəbi müharibənin əvvəlində SSRİ üzərində sürətli qələbə çalınacağına dair yanlış inamı ilə bağlı idi. Nasional-sosialistlər əlavə yardıma ehtiyac olmadan da qalib gələcəklərinə əmin idilər. Nəticədə, Almaniya hökuməti ilə ixtilaf yarandı, Komitənin almanlarla əməkdaşlığı, əslində, baş tutmadı. 1943 ilin avqustunadək mövcud olan komitə Almaniya rəhbərliyi ilə əlaqələrdən çəkinmişdir.

*Əd.:* İ b r a h i m l i X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997; Qasımov M., Güney Kafkasya Böyük devletlerin mengenesinde: Azerbaycan tarihi 1920-1945 yılları, İstanbul, 2005.

**MİLLİ AZLIQLAR FRAKSIYASI (MAF)** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fraksiyalarından biri. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) müvafiq olaraq, Azərbaycanda sayca azlıq təşkil edən gürcü, yəhudi, alman və polyakların hərəsindən Azərbaycan Parlamentinə bir nəfər nümayəndə göndərilməsi qərara alındı. Həmin qanuna əsasən, Parlamentdə təmsil olunan bu millətlərin nümayəndələri parlament nizamnaməsinin fraksiyalar yaratmaq barədə tələblərinə uyğun olaraq, birləşib Milli azlıqlar fraksiyasını təşkil etdilər. 1919 ilin axırlarına yaxın MAF-a alman -L.Y.Kun, yəhudi - M.A.Quxman, polyak - S.A.Vənsoviç, həmçinin ukraynalı - V.Kujim daxil idi. Gürcü V.A.Bakaradze sosial-demokrat kimi sosialistlər fraksiyasına daxil olmuşdu. MAF-ın parlament iclaslarında daha çox fəallıq göstərən üzvlərdən olan S.A.Vonsoviç Azərbaycanın taleyüklü məsələlərinin müzakirəsində həmişə yaxından iştirakı ilə seçilirdi.

downloaded from KitabYurdu.az

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (ste-noqrafık hesabatlar), c.1-2, B., 1998; Адрес-календарь :. Азербаиджанскаой Республики (1918-1920).

**MİLLİ BAYRAQ** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət suverenliyi rəmzlərindən biri (bax *Dövlət bayrağı).*

**MİLLİ BAYRAĞIN TƏSİSİ HAQQINDA QƏRAR** -Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin mühüm qə-rarlarmdan biri. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti suverenlik remzlərindən biri olan dövlət bayrağmm təsisi haqqında ilk qərarı 1918 il iyunun 21-də Gəncədə qəbul etmişdir. Həmin qərara əsasən, Cümhuriyyətin qırmızı (al) rəngli ilk bayrağının üzərində ağ rəngli aypara və ağ rəngli səkkizguşəli ulduz təsvir olunurdu. Bugünkü Azərbaycan Respublikasının dövlət rəmzi olan üçrəngli milli bayraq isə 1918 il noyabrın 9-da Cümhuriyyət Hökumətinin iclasında hökumətin sədri Fətəli xan Xoyskinin məruzəsi əsasında qəbul edilmişdir. Qərara əsasən, Azərbaycan Xalq Cümhu-riyyətinin Dövlət bayrağının "yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət" olması qərara alındı. Bayraqdakı üç rəng - mavi türklüyün, qırmızı (al) müasir azadlıq ideologiyasının, yaşıl isə islamın rəmzi idi. 1918 ilin iyununda təsdiq edilmiş bayraqdakı ağ rəngli aypara və səkkizguşəli ulduz isə olduğu kimi saxlanılmışdır (bax *Dövlət bayrağı).*

**"MİLLİ BİRLİK MƏCLİSİ",** "Azərbaycan Milli Birlik Məclisi" - Azərbaycan mühacirətinin Avropada fəaliyyət göstərmiş siyasi təşkilatı. 1943 ildə Berlində keçirilən ümumazərbaycan qurultayında Əbdürrəhman Fətəlibəyli (Düdənginski) tərəfindən yaradılmışdır. Məhəmməd Əmin Rəsulzadənin ətrafında birləşən əski Azərbaycan mühacirlərinə müxalif mövqedə dayanırdı. Ceyhun bey Hacıbəyli, Əkbər ağa Şeyxülislamov təşkilatm rəyasət heyətinin üzvləri idilər. Visbaden bəyannaməsini imzaladıqlarına görə C.Hacıbəyli, Ə.A.Şeyxülislamov və İ.Əkbər Azərbaycan mühacirlərinin kəskin hiddətinə məruz qalmışdılar. Onlarm bu sənədi "Milli Birlik Məclisi" adından imzalamaları kəskin reaksiya doğurmuşdu. "Müsavat" partiyası belə bir təşkilatı tanınmadığını bəyan edərək bildirdi ki, "Azərbaycan Milli Birlik Məclisi" deyilən bir təşkilatdan qətiyyən xəbərimiz yoxdur. Mövcud olmayan bir təşkilat haqqında söz söyləmək ümumi əfkarı göz görə-görə aldatmaqdır". 1952 ilin oktyabrında Münxendə 4 rus mühacir partiyası, 5 qeyri-rus mühacir təş-kilatının nümayəndələri "Bolşevik Əleyhdarları Əlaqələndirmə Mərkəzi"ni yaratdılar. Mərkəzin yaranması barədə razılaşmanı "Azərbaycan Milli Birlik Məclisi" adından C.Hacıbəyli, Ə.Şeyxülislamov və polkovnik C.Kazımbəyli imzalamışdılar. Bu, Azərbaycan mühacirəti arasında ixtilafları daha da kəskinləşdirdi. Əlaqələndirmə Mərkəzində də artan daxili ixtilaflar onun iki yerə parçalanması ilə nəticələndi (1953). Amerikalıların və ingilislərin maliyyə yardımı kəsildikdən sonra əlaqələndirmə mərkəzlərinin hər ikisi dağıldı. "Milli Birlik Məclisi"nin orqanı olan "Azərbaycan" jurnalının nəşri dayandı. Ə.Fətəlibəyli 1954 ildə qətlə yetirildikdən sonra "Milli Birlik Məclisi"nin də fəaliyyəti sona çatdı.

*Əd.:* İbrahimli X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997.

**"MİLLİ DİREKTORİYA",** Krım "Milli direktoriyası" - Krım türklərinin müstəqil hökuməti. Oktyabr çevrilişindən (1917) sonra bolşevik hakimiyyətini tanımaqdan imtina edən Krım türklərinin nümayəndələri 1917 il noyabrın 26-da Baxçasarayda qurultay keçirərək, Ç.Çələbiyevin başçılığı ilə müstəqil hökumət - "Milli direktoriya" yaratdılar. Hərbi işlər üzrə direktor Cəfər Seyidəhməd tatar atlı eskadronları əsasında milli hərbi qüvvələrin təşkilinə başladı. Qurultayda Kırm ölkəsinin dövlət bayrağı qəbul edildi. Bayraqda göy rəngli parça üzərində qızılı tamğa təsvir olunurdu (ətraflı məlumat üçün *Krım hökuməti* məqaləsinə bax).

**MİLLİ GERB** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət suverenliyi rəmzlərindən biri (bax *Dövlət gerbi).*

**MİLLİ HİMN** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət suverenliyi rəmzlərindən biri (bax *Dövlət himni).*

**MİLLİ İSTİQLALİYYƏT BAYRAMI** Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayramı. İlk dəfə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 26 may tarixli qərarı ilə həmin il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunmasının 1-ci ildönümü günü kimi qeyd edilmişdi. Hökumətin qərarına əsasən, həmin gün qeyri iş günü elan olundu. Bayram günü bütün qəzetlərin, xüsusilə Azərbaycan və rus dillərində nəşr olunan hökumət qəzeti "Azərbaycan"ın bir nömrəsi başdan-başa İstiqlaliyyətin ildönümünə həsr edilmişdi. 6 səhifədə çıxan "Azərbaycan" qəzetinin bütün səhifələrində aşağıdakı şüarlar manşetə çıxarılmışdı: ***"Yaşasın müstəqil Azərbaycan Cümhuriyyəti", "Yaşasın Cahan Demokratiyası!", "Yaşasın təyini müqəddərat hüququ!", "Yaşasın türk milləti!", "Yaşasın millətlərin qardaşlığı!", "Yaşasın Hürriyyət və İstiqlal, qəhr olsun düşmənlər!".***

Həmin nömrədə Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev və Səməd bəy Mehmandarovun portretləri

downloaded from KitabYurdu.az

dərc olunmuş, ***"ilk dəfə Azərbaycan ordusunun vətəninin paytaxtına vürudu"*** alt yazısı ilə Azərbaycan ordusunun Bakının mərkəzi küçələrindəki rəsm-keçidi və Parlament binasının şəkli də verilmişdi.

İstiqlaliyyətin birinci ildönümü münasibətilə hökumətin sədri Nəsib bəy Yusifbəylinin *"Azərbaycan vətəndaşlarına!"* müraciəti, habelə 1918 il mayın 28-də elan edilmiş *İstiqlal bəyannaməsi* yenidən dərc olunmuşdu. Şeyxülislam Axund Ağa Ağazadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Xəlil İbrahim, Əlabbas Müznib, Şəfiqə Əfəndizadə və başqalarının bayram münasibətilə məqalələri "Azərbaycan" qəzetinin səhifələrində dərc edilmişdi.

Parlamentin həmin gün keçirilən 42-ci fövqəladə təntənəli iclası Cürnhuriyyətin birinci ildönümünə həsr olunmuşdu. Parlament sədri vəzifəsini icra edən H.Ağayev, Parlamentin "Müsavat" fraksiyasından M.Ə.Rəsulzadə, sosialistlər blokundan "Hümmət"çi Ə.Pepinov, "İttihad" fraksiyasından Q.Qarabəyli, "Əhrar" fraksiyasından A.Əfəndizadə və başqaları bu tarixi iclasdakı nitqlərində Cümhuriyyətin yaranmasının və istiqlaliyyətin Azərbaycan tarixində əhəmiyyətindən bəhs etmişdilər. H.Ağayev bu tarixi günün yaddan çıxmaması üçün həmin "tarixi günün şərəfinə abidə" qoymağı təklif edərək demişdi ki, ***"böylə olarsa, paytaxtımızın gözəl bir yerində təsis olunmuş o abidə daim bizim nəsillər üçün bir xatirə və bir yaddaş olacaq, istiqlaliyyət fikri, istiqlaliyyət duyğusu daim onların fikrinə və beyninə yeriyəcəkdir"'.***

"Azərbaycan" qəzetinin ertəsi gün çıxan nömrəsində verilmiş məlumatlarda deyilirdi ki. 1919 il mayın 28-də Azərbaycanın istiqlalının elan edildiyi gün keçirilən bayram tədbirləri özünün rəngarəngliyi və möhtəşəmliyi ilə yadda qalan nadir günlərdən biri olmuşdur. Bütün şəhər, xüsusilə keçmiş Nikolay (indiki "İstiqlaliyyət") küçəsi çox böyük zövqlə bayramsayağı bəzədilmişdi. Parlament binası üzərində elektrik lampaları ilə yazılmış ***"Yaşasın İstiqlal!"*** sözləri uzaqdan diqqəti cəlb edirdi. Binanın fasadında Əzim Əzimzadənin çəkdiyi, əlində üzərində ***"Yaşasın Azərbaycan Cümhuriyyəti!"*** yazılmış Azərbaycan Cümhuriyyətinin bayrağını tutmuş mələk təsvir edılən şəklin ətrafi xalçalarla və elektrik lampaları ilə bəzədilmişdi. Parlament binasının içərisi də bayramsayağı bəzədilmiş, binanın qarşısında bayram tədbirləri üçün baş tribuna qurulmuşdu. Küçə başdan-başa bayram nümayişinin iştirakçıları ilə dolu idi. İlk olaraq tribunadan "Müsavat" partiyasının sədri M.Ə.Rəsulzadə bayram tədbirlərində iştirak edən nümayişçilərə müraciətlə nitq söylədi. Sonra fəhlələr adından Səməd Əlisgəndərov, sosial-demokrat "Hümmət" partiyasından Ağazadə və başqaları çıxış etdilər. Bu vaxt küçə boyu maşınla hərəkət edən hökumətin sədri N.Yusifbəyli nümayiş iştirakçılarını salamladı, onlar da hökumət sədrini alqışlarla qarşıladılar. H.Ağayev Parlament binasının balkonundan nümayişçiləri təbrik etdi. Şərifovun (Abbas Mirzə Şərifzadə) xüsusi ahənginə söylədiyi "Azərbaycan bayrağı" şeri nümayişçilər tərəfindən hərarətlə qarşılandı.

Elə həmin gün saat 13-də Azərbaycan ordusu Bakı qarnizonunun hərbi paradı keçirildi. Paradı hərbi nazir Səməd bəy Mehmandarov qəbul etdi. Parad da Azərbaycan Cümhuriyyəti Parlamenti və Hökumətinin üzvləri tam tərkibdə iştirak edirdi. Bütün bu təntənələrin sonunda isə Cümhuriyyət hökuməti Azərbaycanın istiqlaliyyətinin birinci ildönümü günü münasibətilə qəbul düzəltdi.

Ümumiyyətlə, Azərbaycanın istiqlalının birinci ildönümü günü çox təntənəli şəkildə bayram edildi və gələcəkdə həmin günün daim bu cür bayram edilməsi qərara alındı. Lakin 1920 il aprelin 27-də Azərbaycanın sovet Rusiyası tərəfindən işğalından sonra, bu bayram yalnız xaricə mühacirət etmiş Cümhuriyyət xadimlərinin təşəbbüsü ilə hər il anılırdı. Yalnız 1991 ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra həmin gün yenidən xalqımızm və dövlətimizin ən əziz bayramı - Respublika günü kimi hər il təntənəli şəkildə qeyd olunur. Bax, həmçinin *İyirmi səkkiz may, Respublika günü* məqalələrinə.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-İ920). Parlament (stenoqrafik hesabatlar), c.l, B., 1998; :. Азербаиджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник дакументов), Б., 1998.

**MİLLİ KOMİTƏLƏRİN LƏĞVİ HAQQINDA QƏRARLAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin özündən əvvəlki yerli hakimiyyət orqanlarının ləğv olunmasına dair qərarları (1918, iyun-iyul). Fevral inqilabı (1917) bütün müsəlmanların, eyni zamanda, azərbaycanlıların siyasi fəallığını artırdı. Yerlərdə Müsəlman Milli Komitələri yaradıldı. Bakıda, Gəncədə, İrəvanda və başqa şəhərlərdə yaradılmış milli komitələrin qarşısına qoyduğu əsas məqsədlərdən biri müsəlmanların yerli özünü idarə orqanlarında və Rusiyanın gələcək Müəssislər Məclisində proporsional şəkildə təmsil olunmasına nail olmaq idi (bax *Müsəlman Milli Komitələri)*. Lakin Azərbaycan müstəqillik qazandıqdan sonra buna ehtiyac qalmadı. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra milli komitələrin yerlərdə hakimiyyət orqanları kimi fəaliyyətinə xitam vermək məqsədilə hökumət qərarları qəbul edildi. Hökumətin 1918 il 27 iyun tarixli qərarı ilə Gəncə (Yelizavetpol) milli komitəsinin sərəncamında olan ən zəruri mallar və bütün ərzaq ehtiyatı Ərzaq Nazirliyinin sərəncamına keçdi. 1918 il iyulun 7-də verilmiş qərara görə daxili işlər, maliyyə və ərzaq nazirlərinə Gəncə müsəlman milli komitəsinin əmlakının aydmlaşdırılması və qəbul edilməsi üçün ləğvetmə komissiyası yaratmaq tapşırıldı. Elə həmin gün verilmiş digər qərara əsasən, daxili işlər nazirinə Azərbaycan Xalq Cümhuriyyəti ərazisindəki bütün milli komitələrin ləğv olunması və onların əmlakının dövlətin serəncamına keçirilməsi tapşırılırdı.

*Əd.:* :. Азербаиджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник дакументов), Б., 1998.

**MİLLİ ORDU** - Şimali Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yaratdığı ordu. Azərbaycan Xalq Cümhuriyyəti silahlı qüvvələrinin təşkilinə Cümhuriyyətin elan edildiyi gündən (1918, 28 may) başlanmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 26 iyun tarixli qərarı ilə milli ordunun formalasdırılmasına başlanmış və əsasən, azərbaycanlılardan ibarət olan Müsəlman korpusu *Əlahiddə Azərbaycan korpusu* adlandırılmış, bununla da Cümhuriyyət ordusunun əsası qoyulmuşdur.

downloaded from KitabYurdu.az

Azərbaycan Milli ordusunun ilk hərbi birləşmələri xalq könüllü dəstələri ilə birlikdə *Nuru paşanın* başçılıq etdiyi *Qafqaz İslam Ordusunun* tərkibində bolşevik-daşnak hərbi qüvvələrinə qarşı döyüşlərdə, Bakının azad olunmasında (1918, 15 sentyabr) fəal iştirak etmiş, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin düşmənlərinə qarşı Qarabağda, Lənkəranda uğurlu döyüş əməliyyatları aparmış, daşnak-bolşevik hərbi birləşmələrinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımlarının qarşısını almışdır. Cümhuriyyət dövründə milli ordunun yaradılmasında istedadlı generallar Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski mühüm rol oynamışlar. Milli Ordu Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay ərzində çətin və şərəfli döyüş yolu keçmişdir (bax *Azərbaycan ordusu).*

**MİLLİ ORDU GÜNÜ** - Azərbaycan Respublikasının dövlət və ümumxalq bayramlarından biri. Azərbaycan Milli ordusunun yaranma günü. Hər il iyunun 26-da qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998 il 22 may tarixli Fərmanı ilə təsis edilmişdir. Azərbay-can Prezidentinin fərmanına əsasən, iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir. Həmin fərmanla iyunun 26-sı qeyri iş günü elan olunmuşdur.

**MİLLİ ORDUNUN BAŞ QƏRARGAHI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoşun hissələrinin formalaş-masına, döyüş hazırlığına, təlim-tərbiyəsinə, hərbi əməliyyatların icrasına rəhbərlik edən ali hərbi idarəçilik orqanı (bax, həmçinin *Baş ərkani-hərb).*

**MİLLİ ORDUNUN BİRİNCİ PİYADA DİVİZİYASI** Azərbaycan Xalq Cümhuriyyəti ordusunun tərkibində hərbi birləşmə (bax *Birinci piyada diviziyası).*

**MİLLİ ORDUNUN İKİNCİ PİYADA DİVİZİYASI** -Azərbaycan Xalq Cümhuriyyəti ordusunun tərkibində hərbi birləşmə (bax *İkinci piyada diviziyası).*

**MİLLİ ORDUNUN HƏRBİ RÜTBƏLƏRİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə xidməti vəzifəsinə, hərbi və ixtisas hazırlığına, xidmət müddətinə, xidmət dövründə əldə etdiyi nəticələrə və qoşun növlərinə görə hərbi qulluq-çulara fərdi qaydada verilən rütbələr (bax *Hərbi rütbələr).*

**MİLLİ ORDUNUN SÜVARİ DİVİZİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun tərkibində hərbi birləşmə. Diviziyaya daxil olan süvari hissələrinin əsası *Müsəlman korpusunun* formalaşması dövründə qoyulmuşdu (bax *Süvari diviziyası).*

**MİLLİ ORDUNUN TƏCHİZAT RƏİSİNİN İDARƏSİ** - Azərbaycan ordusunun təchizat məsələlərini həll edən qurum. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Hərbi Nazirliyində təchizat sahəsində aparılan islahatlar nəticəsində 1920 il martın 15-də yaradılmışdır (bax *Azərbaycan ordusu təchizat rəisinin idarəsi).*

**MİLLİ ŞURA,** Azərbaycan Milli Şurası-ümumxalq seçkisi yolu ilə seçilmiş deputatlardan ibarət qanunvericilik səlahiyyətinə malik ali hakimiyyət orqanı-parlament. 1918 il mayın 27-də Tiflis şəhərində Zaqafqaziya seyminin müsəlman fraksiyasının fövqəladə iclasında yaradılmışdır. Həmin iclasda "Müsavat" partiyası Mərkəzi Komitəsinin sədri Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri, bitərəf Fətəli xan Xoyski isə icraedici orqanın sədri (hökumət başçısı) təsdiq olunmuşlar (bax, həmçinin *Azərbaycan Milli Şurası).*

**MİLLİ ŞURANIN AZƏRBAYCAN ƏHALİSİNƏ MÜRACİƏTİ** - ilk Azərbaycan Parlamentinin - Milli Şuranın Azərbaycan vətəndaşlarına 1918 il 29 noyabr tarixli müraciəti (bax *"Bütün Azərbaycan əhalisinə").*

**MİLLİ ŞURANIN İCRAİYYƏ ORQANI** - *Zaqafqaziya seymi* dağıldıqdan sonra seymin müsəlman fraksiyasının üzvləri 1918 il mayın 27-də Tiflisdə toplanaraq, hərtərəfli müzakirədən sonra, belə ağır bir zamanda Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürmək qərarına gəldilər və özlərini Azərbaycan Milli Şurası elan etdilər. Həmin iclasda Milli Şuranın rəyasət heyəti seçildi. Rəyasət heyətinə "Müsavat" partiyası və bitərəflərin demokratik qrupu tərəfindən Məhəmməd Əmin Rəsulzadə, Həsən bəy Ağayev, Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, müsəlman sosialistlər partiyasından Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınski, sosial-demokrat (menşevik) "Hümmət" qrupundan Əkbər ağa Şeyxülislamov, "İttihad" partiyasından doktor Xosrov paşa Sultanov daxil oldu. Bu zaman *Batum konfransında* Türkiyə nümayəndə heyəti ilə danışıqlar aparan Məhəmməd Əmin Rəsulzadə gizli səsvermə yolu ilə Azərbaycan Milli Şurasının sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi.

*Əd.: Адрес-календарь* Азербайджанской Республики.

**MİLLİ VALYUTA** - Azərbaycan Xalq Cümhuriyyətinin pul nişanları, ahcılıq və ödəmə vasitəsi kimi istifadə olunan qısamüddətli borc öhdəliyi (bax, həmçinin *Bakı bonları).*

**MİLN CORC F.** (?-?)- ingilis generalı. Birinci Dünya müharibəsində (1914-18) Böyük Britaniyanın Qara dəniz orduları baş komandanı. Milnin hərbi səlahiyyətləri dairəsinə Rusiyanın əyalətləri, Qara dəniz, Qafqaz, Xəzər dənizi, Türkmənistanda Mərvə qədər Zakaspi vilayəti daxil idi. Bu ərazilər 1918 il oktyabrın 30-dan 1920 ilin avqustunadək Britaniya ordularının nəzarət dairəsinə daxil idi. Onun Britaniya hərbi nazirliyinə göndərdiyi "General Corc Milnin Qafqazda və Orta Asiyadakı hadisələr haqqında məlumatları" adlı hesabatda, 1918-20 illərdə regionda, o cümlədən, Azərbaycanda gedən proseslər təsvir və təhlil edilmişdir. Sənəddə 1918 ilin martında Bakıda bolşevik-daşnak qüvvələrinin dinc türk-müsəlman əhaliyə qarşı törətdiyi kütləvi qırğınlar, "Sentrokaspi diktaturası"nın siyasəti, Bakının azad edilməsi, Qafqazda, xüsusən Bakıda ingilis ordu hissələrinin qarşısında duran vəzifələr, bütövlükdə, B.Britaniyanın Azərbaycanda maraqları, general Tomsonun, Biçeraxovun fəaliyyəti və s. öz əksini tapmışdır.

downloaded from KitabYurdu.az

Şuşa ermənilərin törətdiyi dağıntılardan sonra. 1905



Ermənilərin törətdiyi soyqırımının qurbanları. Bakı. 1905



*Əd.:* Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918—ci illər), 3 hissədə, h.2, B., 2002; Мир Льва Гумилева, Каспийский транзит, в 2-ч томах, т., 2., М., 1995.

**MİLYUKOV** Pavel Nikolayeviç (27.1.1859, Moskva -31.3.1943, Eks-le-Bel, Fransa) - Rusiya siyasi xadimi, tarixçi, publisist, rus burjuaziyasının ideoloqu, kadetlər partiyasının liderlərindən biri. Fevral inqilabından (1917) sonra Müvəqqəti hökumətin birinci kabinetində xarici işlər naziri olmuş, "müharibəni qələbəyədək davam etdirmək" siyasəti yeritmişdir. Oktyabr çevrilişindən (1917) sonra Sovet hakimiyyətinə qarşı xarici hərbi müdaxilənin təşkilatçılarından olmuşdur. Milyukov gizli "Milli mərkəz"in təşkilatçılarından və rəhbərlərindən idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Əlimərdan bəy Topçubaşov 1918 il dekabrın 7-də İstanbulda Milyukovla görüşüb, danışıqlar aparmışdır. 1920 ildən mühacirətdə yaşamışdır.

**MİN DOQQUZ YÜZ BEŞİNCİ İL SOYQIRIMI** - çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi soyqırımı. Birinci rus inqilabı (1905-07) başlanan dövrdə çarizm ucqar əyalətlərdə öz mövqeyini qoruyub saxlamaq məqsədilə milli qırğınlar üçün tədbirlər planı hazırlamışdı. Azərbaycandakı qırğına qədər çarizm bu üsuldan Polşada, Baltikyanı ölkələrdə və digər milli ucqarlarda istifadə etmişdi. Lakin digər ucqarlardan fərqli olaraq, Azərbaycanda çarizmin bu mənfur siyasətindən öz maraqları üçün istifadə edən qatı millətçi "Daşnaksutyun" partiyası Bakıda, Şuşada, Naxçıvanda, Gəncədə, İrəvanda və digər bölgələrdə azərbaycanlı əhaliyə qarşı kütləvi soyqırımları törətdilər.

Birinci rus inqilabı illərində Azərbaycanda və Cənubi Qafqazın müsəlmanlar yaşayan bölgələrində törədilən milli qırğınlar çar ordusunun və rəsmi dövlət adamlarının gözləri önündə baş verirdi. Ordu və polis bu milli qırğını cəllad soyuqqanlığı ilə seyr edirdi."Daşnaksutyun" partiyası və erməni quldur dəstələri hökumətin bu "seyrçi" mövqeyindən istifadə edərək, az vaxt ərzində azərbaycanlılar yaşayan 158 kəndi dağıtmış, evləri yandırmış və yüzlərlə insanın həyatına son qoymuşdur. Təkcə 1905-06 illərdə erməni quldurları müsəlmanlara qarşı 500-ə qədər cinayət hadisəsi törətmişlər. Daşnaklar zahirən muxtariyyət tələbi ilə çıxış etsələr də, bunun arxasında "Böyük Ermənistan" yaratmaq xulyası dururdu. Onlar bu sərsəm niyyətlərini həyata keçirmək üçün daha çox Rusiyadan istifadə etmək istəyirdilər.

1905 il fevralın əvvəllərində Bakıda milli qırğına başlamaq üçün bəhanə axtaran daşnaklar hər yerdə müsəlmanların qaniçən, vəhşi olmaları barədə təbliğat aparırdılar. Fevralın 2-də azərbaycanlı ehaliyə qarşı düşmənçilik ruhunda tərbiyə olunmuş ermənilər tərəfindən bir azərbaycanlı öldürüldü. Səhərisi ermənilər daha bir qətl törətdilər. Daha sonra erməni əsgəri istintaqa apardığı müsəlman dustağı yolda güllələdi. Bu qətllər əvvəlcədən hazırlanmış plana əsasən həyata keçirilirdi. Özünü müdafiə etmək məcburiyyətində qalan əliyalın müsəlmanlar küçələrə çıxdıla Şiddətli döyüşlər başlandı. Evlər dağıdılır, mal-mülk qarət edilirdi. Qubernatorun ixtiyarında kifayət qədər əsgər və polis olsa da, o, baş verən qırğının qarşısını almaq istəmirdər. Fevralın 6-dan 10-na qədər Bakıda davam edən qırğın nəticəsində hər iki tərəfdən yüzlərlə insan öldürüldü. Bakıda kı qırğından sonra fevralın 18-də II Nikolaym fərmanına əsasən, Bakı quberniyasında hərbi vəziyyət elan edilsədə 1905 il avqustun 16-21-də Şuşada, avqustun 20-26-da Bakıda, noyabrın 18-də Gəncədə azərbaycanlıların soyqırımı həyata keçirildi.

Erməni quldurlarının növbəti hədəfi Naxçıvan oldu. Daşnaklar qəflətən hücum etməklə, azərbaycanlılar içərisində vahimə yaratmağa çalışırdılar. Naxçıvan əhalisinin ermənilərin cinayət əməllərindən İrəvan qubernatorunun müavini Baranovskiyə şikayətinə məhəl qoyulmadı. Bu, ermənilərin əl-qol açmasına imkan verdi Onlar şəhərin müsəlmanlar yaşayan məhəllələrini kütləvi şəkildə atəşə tutdular. Adamlar öldürülür, dükanlar yandırılır və qarət edilirdi. Döyüşü müşahidə edən polis rəisi Angil qırğına mane olmadı. Bir qədər sonra azərbaycanlılarla ermənilərir birlikdə yaşadığı Çəhri kəndində dəhşətli faciə baş verdi. Noyabrın 26-da kazaklarla birləşən erməni caniləri bir neçə ailəni qətlə yetirdikdən sonra, kəndi xarabalığa çevirdilər Camaata bir daha aydın oldu ki, erməniləri qızışdıran və qırğına rəvac verən Rusiya hökumətidir.

downloaded from KitabYurdu.az

Ermənilər Bakı və Naxçıvandan sonra öz məkrli niyyətlərini İrəvan şəhərində və onun ətrafındakı bölgələrdə yaşayan müsəlmanlara qarşı həyata keçirdilər. Bu məqsədlə onlar silahh quldur dəstələri yaratmışdılar. Ermənilərin niyyətindən xəbərsiz olan İrəvan azərbaycanlıların lazımi müdafiə tədbirləri görməmişdilər. Mayın 24-də ermənilər şəhərin azərbaycanlılar yaşayan hissəsinə qəflətən hücum edərək, xeyli adamı qətlə yetirdilər. Azərbaycanlılan soyqırımıdan xilas etmək üçün qonşu qəzalardan, Türkiyədən və İrandan müsəlman könüllüləri İrəvana doğru hərəkət etdilər.

Məngüs kəndinin ağsaqqalı Novruz Kazım oğlu son gülləsinə qədər vuruşaraq, onlarca erməni quldurunu məhv etdi. Ermənilər Novruz kişini tutub qətlə yetirdilər və kəndə od vurdular. Onlar iyunun əvvəlində Güllücə və Kamal kəndlərini də viran qoydular, onlarca adam vəhşicəsinə qətlə yetirildi. İyunun 3-də Uşu kəndində 8 saat davam edən döyüşdə könüllülər erməni quldurlarının geri oturdular. Ermənilər yarahları və meyitləri səngərlərdə qoyub qaçdılar. Onlar iki gündən sonra böyük qüvvə ilə təzədən hücuma keçsələr də, yenə məğlubiyyətə uğradılar. İyunun 9-u və 10-da erməni quldurları yaxşı silahlanmış yeni qüvvələrlə Uşu və Təkyə kəndləri üzərinə hücuma keçdi. Düşmənin sayca çoxluğu və kənardan lazımi kömək göstərilməməsi əhalini hər iki kəndi tərk etmək məcburiyyətində qoydu.

Zəngəzuran erməni kəndlərindən və digər yerlərdən toplanan quldur dəstələri Sokratın başçılığı ilə qəflətən hücuma keçərək, Cəbrayıl qəzasını Veysəlli kəndini yandırdılar. 150 evdən ibarət olan Qacar kəndi 6 saatdan çox davam edən döyüşdə düşməni pərən-pərən saldı. Qonşu müsəlman kəndindən gələn yeni könüllü dəstələri döyüş meydanından qaçan erməniləri təqib etdilər və xeyli quldur əsir götürüldü. Daşnaklar 3 min quldurla Qacar kəndinə yenidən hücuma keçsələr də, döyüşdə qələbə çalan qacarlılar və könüllülər xeyli quldura qətlə yetirdilər.

Müsəlman süvariləri Şeyxməli kəndində məşq edən min nəfərlik quldur dəstəsinə qəflətən hücum etdilər. Bütün günü davam edən döyüşün sonunda xeyli itki verdikdən sonra qaçıb, Düdüklü kəndinə sığman ermənilər az sonra oradan da çıxarıldılar. Həmin günün səhəri müsəlman süvariləri Çəmənli kəndinə hücum edən erməniləri məğlubiyyətə uğratdılar. Bu məğlubiyyətdən və itkilərdən sonra ermənilər Xırmancıq kəndinə 2500 quldur topladılar. Onlar müsəlman könüllülərinin toplaşdığı Arış kəndini ələ keçirmək istəyirdilər. Lakin quldurlar döyüşdə atlıları və silahlarını da qoyub qaçdılar. Alınmaz hesab edilən Xırmancıq kəndi döyüşçülərimiz tərəfindən tutuldu. Pristav Davıdovun öz strajnikləri ilə ermənilərə köməyi də nəticə vermədi. Buna baxmayaraq, ermənilər Cəbrayıl və Qaryagin (indiki Füzuli rayonu) qəzalarında Veysəlli, Divanəlilər, Süleymanlı kəndlərini yandırmış, insanları kütləvi şəkildə qırmışdılar.

1905 il hadisələri içərisində Şuşa faciəsi daha dəhşətli idi. Qəzalardakı qırğının qarşısını almalı olan əsgərlər qəsdən Şuşada saxlanılırdı. Məqsəd müsəlmanların soyqırımında onlardan istifadə etmək idi. Ermənilər Şuşa döyüşünə böyük hazırlıq işləri gönnüş və çoxlu canlı qüvvə toplamışdılar. Avqustun 8-də növbəti fitnə törədildi - Cənubi Azərbaycandan gəlmiş və bir məktəbin təmiri ilə məşğul olan 17 fəhlə qətlə yetirildi. Avqustun 16-da silahlı ermənilər azərbaycanlıları atəşə tutdular. Rus ordusunda qulluq edən 15 nəfər erməni əsgəri komandanlığını razılığı ilə silahlarını götürüb vuraşan quldurlara qoşuldu. Tiflisdən də 100 erməni köməyə gəlmişdi. Azərbaycanlılar müdafiə olunmaq üçün şəhərin müxtəlif yerlərində 5 səngər qurmuşdular. Hər səngərə bacarıqlı adamlar başçılıq edirdilər. Onlardan Abbas bəy Talıb oğlu, Əfrasiyab Hacı Əzim oğlu, Məşədi Abış Bəylər oğlu və b. Xüsusilə fərqlənirdilər. Ətraf kəndlərdən şəhərə xeyli atlı dəstələri köməyə gəlmişdi. Elə həmin gün ermənilərin hücumlarının qarşısı alındı. İki-üç gün ərzində ermənilərin bütün mövqeləri ələ keçirildi. Ermənilərin yandırdıqları binalar içərisində teatr və qız məktəbinin binası da vardı. 1905 il avqustun 16-dan 21-dək Şuşada ermənilərin törətdikləri milli qırğında daşnak qüvvələri istədiklərinə nail ola bilmədilər.

Ermənilərin türk-müsəlman əhalisinə qarşı törətdikləri qırğınlar sonrakı illərdə də təkrar olundu və 1918 ilin yazında azərbaycanlılara qarşı kütləvi soyqırımları Qarabağda (bax *Qarabağda azərbaycanlılara qarşı soyqırımları)*, Qubada (bax *Quba qırğınları)*, Naxçıvanda [bax *Naxçıvan bölgəsində soyqırımlar (1917-20)]*, Şamaxıda (bax *Şamaxı qırğınları)*, Zəngəzurda (bax *Zəngəzur qırğınları)*, həmçinin Şərqi Anadoluda (bax *Şərqi Anadoluda soyqırımı)*, Cənubi Azərbaycanda (bax *Cənubi Azərbaycanda soyqırımı)* davam etdirildi. 20 əsrdə azərbaycanlıların ermənilər tərəfindən dəfələrlə məruz qaldığı soyqırımı siyasəti əsrin sonlarında Xocalı faciəsi ilə bir daha təkrar olundu. Azərbaycan əhalisinin 1 milyondan çoxu qaçqına çevrildi, ərazisinin 20%-i işğal edildi.

*Əd.:* Azərbaycan tarixi, 7 cllddə, c.5, B., 2001; Ordubadi M.S., Qanlı illər, B., 1991;Nəvvab MirMöhsün, 1905-1906-cı illərdə erməni-müsəlman davası, B., 1993;Назжафов Б., Лицо врага. История армиянского национлизма в Закавказье в конце XIX-начале XX в., В 2-х частях, Б., 1993-1994; Исторические факты о деяниях армян на азербайджанской земле. Сборник статей (редакторы-составителели: Т. Мусаева, А. Мамедов), Б., 2003.

**MİN DOQQUZ YÜZ ON DOQQUZUNCU İL 1 MAY NÜMAYİŞİ** - Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin iştirakı ilə Bir may bayramının Bakıda qeyd olunması [bax *Bir may nümayişi (1919)]*.

**MİN DOQQUZ YÜZ ON SƏKKİZİNCİ İL 30 MAY RADİOQRAMI** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin başçısı Fətəli xan Xoyskinin Azərbaycanın müstəqil dövlət elan olunması barədə dünyanın əsas siyasi mərkəzlərinə [İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Kristianiya (Oslo), Kopenhagen, Tokio] radioteleqrafla göndərdiyi məlumat, tarixi sənəd (bax, həmçinin *Azərbaycanın istiqlaliyyəti haqqında teleqram)*.

**MİRBAĞIROV** Mirabbas (?-?)- *İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinin* nümayəndəsi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin tapşırığı ilə 1919

downloaded from KitabYurdu.az

ilin yanvarın yerli əhalinin ehtiyacları ilə tanış olmaq üçün Naxçıvana göndərilmişdi. Əhali Azərbaycan Xalq Cümhuriyyətinin elçilərini böyük ruh yüksəkliyi ilə qarşıladı. Onlar gəlişlərinin səbəbi, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi haqqında əhaliyə məlumat verirdilər.

1919 il fevralın 22-də Mirbağırovun başçılıq etdiyi elçilər Naxçıvanda ingilis general-qubernatoru ilə görüşərək, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Naxçıvanla bağlı mövqeyini onun diqqətinə çatdırdılar. Naxçıvanda hakimiyyətin sonrakı taleyi ilə bağlı Cəfərqulu xanın iqamətgahında keçirilən görüşdə Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti ilə yanaşı, ingilis general-qubernatoru da iştirak edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri Cəfərqulu xanın başçılıq etdiyi hökuməti tanıdıqlarını bildirdilər. Həmin görüşdə Naxçıvanın könüllü olaraq Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında akt tərtib olundu. Aktın mətninin hazırlanması üçün yaradılan komissiyanın üzvlərindən biri də Mirbağırov idi. Siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələlərə aid bendlərdən ibarət akt hökumət və Milli Şura üzvləri, əhalinin nümayəndələri tərəfindən imzalanaraq, hökumət möhürü ilə təsdiq edilmişdi.

M.Mirbağırovun bu missiyası Araz-Türk Respublikası və Azərbaycan Xalq Cümhuriyyəti arasında münasibətlərin yeni mərhələsinin başlanğıcı idi. Bu mərhələnin mahiyyəti ondan ibarət idi ki, Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə ardıcıl məşğul olmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yardımına arxalanan Naxçıvan hökuməti həm öz əhalisinin, həm də keçmiş İrəvan quberniyasında yaşayan azərbaycanlıların hüququnu fəal müdafiə etməyə başladı.

*Əd.:* H a c ı y e v A., Qars və Araz-Türk respublikalarının tarixindən, B., 1994; M u s a y e v İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996.



**MİRQASIMOV** Mirəsədulla Mirələsgər oğlu (17.11.1883, Bakı - 20.7.1958, orada) - ilk azərbaycanlı alim-cərrah, Azərbaycan SSR EA ilk prezidenti(l 945-47). uhani seminariyası müəlliminin ailəsində doğulmuşdur. Gimnaziyada oxuyarkən ictimai həyatda fəal iştirak etmiş, Şərq ölkələrində müsəlman qadınlarının acınacaqlı vəziy yəti haqqında məqalələrlə qəzet və jurnal səhifələrində çıxış etmişdır. 1913 ildə Novərossiysk Universitetinin (Odessa) tibb fakültəsini bitirmişdir. Tələbəlik illərində Uzaq Şərqin mədənlərində feldşer, 1916 ilədək Odessa şəhər xəstəxanalarından birində həkimintern, sonra isə ordinator işləmişdir.

1916-18 illərdə Bakıda hərbi xəstəxanada, 1918-27 illərdə Mixail xəstəxanasında cərrah, Bakı Dövlət Uni-versitetinin tibb fakültəsində dosent işləmişdir. Mirqasımov Azərbaycanda müasir tibb elminin əsasını qoyanlardan biridir. Azərbaycanda ilk doktorluq dissertasiyası müdafiə etmiş (1924) həkim-cərrah kimi Mirqasımov respublikada urologiyanın əsasını qoymuşdur. Elmi fəaliyyəti, əsasən, sidikdaşı xəstəliyinin etiologiya, klinika və müalicəsinin öyrənilməsinə, irinli peritonitlərə, urologiya və cərrahlığın digər aktual məsələlərinə həsr olunmuşdur. 1928 ildə professor adına layiq görülmüşdür. 1931 ildən ömrünün sonunadək Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) hospital cərrahiyyəsi kafedrasına rəhbərlik etmişdir. Yüksək ixtisaslı kadrlar hazırlanmasında mühüm xidməti var. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin (1933), 50 elmi əsərin müəllifidir.

Mirqasımov 1934 ildə Azərbaycan SSR əməkdar elm xadimi adına layiq görülmüş, 1945 ildən Azərbaycan SSR EA akademiki və Azərbaycan SSR Elmlər Akademiyasının ilk prezidenti (1945-47) olmuşdur. 1955 ildə Cərrahların Beynəlxalq Assosiasiyasının həqiqi üzvü seçilmişdir. Respublika səhiyyə nazirliyi kollegiyasının üzvü, çoxsaylı komissiyaların sədri olmuşdur. Azərbaycan SSR MİK üzvü (1931-34), SSRİ Ali Sovetinin (1-3-cü çağırış) deputatı seçilmiş, bir çox orden və medallarla təltif edilmişdir.

Əsərləri: Qısaca ümumi xirurgiya kursu, B., 1933; Материалы к изучению мочекаменной болезни в АзербаиджанеБ., 1928; Роль хирургии в обороне страны, Б. ,1941; Хирургия Брюшного тифа, 2 изд., т. 1-2, Б., 1957-59.

*Əd.:* M.A. Мир-Касимов, Библиография, Б., 1964; M.A. Мир-Касимов (1883-1958), «Хирургия» ,1966, №4.

**MİRQASIMOV** Zeynalabdin Mirələsgər oğlu (1887, Bakı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. İstanbulda osmanlı imperator litseyini bitirmiş, Fransanın Nansi Universitetinin elektrotexnika sahəsində 3 il oxumuşdur (1919 ilədek). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini hüquq sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MİRZƏ BƏY GÖYGÖL** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il 1 sentyabr tarixli xüsusi qərarına əsasən, dövlət hesabına ali təhsil almaq üçün Almaniyanın Berlin şəhərinə göndərilmiş tələbələrdən biri. Təhsilini başa vurduqdan sonra sovet işğalına məruz qalmış Azərbaycana dönə bilməmişdir (ətraflı məlumat üçün bax *Hacızadə* Mirzə Məşədi Yusif oğlu).

**MİRZƏ KÜÇEK XAN,** K i ç i k xan - İran inqilabçısı, Gilanda antiimperialist cəngəlilər hərəkatının təşkilatçısı və rəhbəri. "İttihade-İslam" ("İslam Birliyi") adlı siyasi təşkilatının yaradıcılarından (1917) biri və rəhbəri. 1918 il-də Kiçik xanın dəstələri Bakıya can atan Denstervillin kor-

downloaded from KitabYurdu.az




pusuna ciddi müqavimət göstərmiş, lakin məğlub olmuşdur. Gilan Respublikası Müvəqqəti İnqilabi hökumətinin, sonra isə İnqilab Komitəsinin sədri olmuşdur (bax *Kiçikxan).*

**MİRZƏCAMALOV** Hüseyn bəy (?-?)- sənətşünas. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) milli mədəniyyətin tərəqqisində yaxmdan iştirak etmişdir. Mir-zəcamalov görkəmli sənətşünas Məhəmməd *Ağaoğlu* ilə birlikdə ilk milli *İstiqlal muzeyinin* təsis olunmasına təşəb-büs göstərmiş və Azərbaycan Cümhuriyyəti Parlamenti ho-min muzeyin yaradılması barədə qərar qəbul etmişdi (1919, 7 dekabr). *"Yaşıl qələm" cəmiyyətinin* fəal üzvü olan Mir-zəcamalov muzeydə "Fransa və Rusiyada böyük inqilablar, onları doğuran amillər haqqında" və s. mövzularda məra-zələr etmiş, dövri mətbuatda mühüm ictimai-siyasi məsə-lələri vətəndaş mövqeyindən işıqlandıran yazıları çap olun-muşdur. Mirzəcamalov bir sıra maarif və sənət ocaqlarının açılmasında, qədim mədəniyyət abidələrinin qorunması sa-həsində də fəal çalışmışdır.

**MİRZƏZADƏ** Qafur - maarif xadimi, naşir-mühərrir. publisist, tərcüməçi, coğrafiyaşünas. Bax *Qafur Rəşad.*

**MİSAQİ-MİLLİ** – Azərbaycan Mılli Şurasının 1918 il 28 may tarixli qərarına əsasən, Azərbaycanın istiqlaliyyətini rəsmən elan edən sənəd (bax *İstiqlal bəyannaməsi).*

**"MOLLA NƏSRƏDDİN"** - həftəlik, illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı. Birinci nömrəsi 1906 il aprelin 7-də (20-də) Tiflisdə çapdan çıxmışdır. 1906-17 illərdə Tiflisdə, 1921 ildə Təbrizdə, 1922-31 illərdə Bakıda nəşr olımmuşdur. Redaktora və naşiri Cəlil *Məmmədquluzadə* idi. 25 il ərzində 748 nömrəsi (340-1 Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxmışdır. Mütərəqqi ideyalarını carçısı olan "Molla Nəsrəddin" zəhmətkeş xalq və demokratiya cəbhəsində duraraq, azadlıq düşmənlərini - çar mütləqiyyətini, hakim təbəqələrin ağalığını, imperializmin müstəmləkəçi-lik siyasətini, geriliyi, mövhumat, cəhalət və xurafatı amansız satira atəşinə tutmuş, Azərbaycan xalqının milli oyanışında, əhalinin geniş təbəqələri içərisində istiqlal ideyalarının yayılmasında mühüm rol oynamışdır. Jurnal, eyni zamanda, maarıf və mədəniyyətin tərəqqisi, qadın azadlığı, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Kəskin və cəsarətli tənqidi çıxışlarına, "acı həqiqətləri" söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalın nəşri çar senzurası tərəfindən tez-tez dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru dəfələrlə məhkəmə məsuliyyətinə cəlb olunmuş, cərimə edilmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, "Molla Nəsrəddin"in haqq səsi çox keçmədən şimallı-cənublu bütün Azərbaycanın, Qafqazın hüdudlarını aşıb Rusiyada, Yaxın və Orta Şərqdə eşidilmişdi. Jurnalın Tiflis, Bakı, İrəvan, Təbriz, Naxçıvan, Gəncə, Şamaxı, Şəki, Dərbəndlə yanaşı Orta Asiyada, Krımda, Kazan, Ufa, Həştərxan, Orenburq, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlkətə və s. şəhərlərdə də çoxlu oxucusu var idi. C.Məmmədquluzadənin dediyi kimi, zəmanənin yaratdığı "Molla Nəsrəddin" dövrünün mühüm ictimai-siyasi hadisələrinə səs verir, onları inqilabi-demokratik baxımdan şərh edirdi. Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. "Molla Nəsrəddin"in yazıları və dərin mənalı karikaturaları Orta Asiya və Tatarıstanda, bir sıra qonşu Şərq ölkələrində bilavasitə onun təsiri ilə nəşr edilən satirik jurnallar üçün ömək olmuşdur. "Molla Nəsrəddin" İran, Türkiyə və Şərq ölkələrində genişlənən milli azadlıq hərəkatını diqqətlə izləyir, beynəlxalq irtica qüvvələrini, yerli istibdadı ifşa edirdi. Səttarxan, Bağırxan, Xiyabani kimi azadlıq mücahidlərinin başçılığı ilə Cənubi Azərbaycanda və bütün İranda gedən milli-demokratik mübarizə haqqında jurnalın yazıları və rəsmləri yüksək vətənpərvərlik nümunələri idi. "Sabirin əsərləri İran məşrutəsinə... bir ordudan ziyadə xidmət etmişdir" (Abbas Səhhət) sözləri eynilə "Molla Nəsrəddin"ə də aid edilə bilər. "Molla Nəsrəddin" Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamış, Azərbaycan Xalq Cümhuriyyətinin meydana gəlməsilə nəticələnən milli azadlıq ideyalarının təbliğində mühüm rol oynamışdır. Jurnalda Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz və b. şair, yazıçı və jurnalistlər, O.Şmerlinq, İ.Rotter. Əzim Əzimzadə kimi rəssamlar fəaliyyət göstərirdilər. "Molla Nəsrəddin"in realist-demokratik ədəbiyyat, zəhmətkeş xalqın mənafeyi uğrunda mübarizəsi, onun inqilabi satirası jurnalda əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq isti-

downloaded from KitabYurdu.az



Millət necə tarac olur-olsun, nə işim var?!
Düşmənlərə möhtac olur-olsun, nə işim var?!



Laylay, bala, laylay,
Yat, qal dala, laylay!




Nədir olur bu çocuqlar, əyan, bu boyda-bu boyda?
Hara gedir bu yazıqlar, aman, bu boyda-bu boyda?



Ev madam, mənzil madam, balkon madam, bulvar madam!
Müxtəsər əqlim çaşıb, ey dad-bidad, Ərdəbil!



Rədd ol qapıdan, ağlama zar-zar, dilənçi!
Vaqqıldama bayquş kimi, idbar, dilənçi!



Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

downloaded from KitabYurdu.az



*Mollanəsrəddinçilərdən bir qrup: Əbdürrəhim bəy Haqverdiyev, Rzaqulu Nəcəfov, Salman Mümtaz, Zeynal Məmmədov, Əliqulu Qəmküsar*

qamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də "Molla-nəsrəddinçilik" adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı. Mollanəsrəddinçilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək, milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirmişlər.

Sovet hakimiyyəti illərində ciddi təzyiq və qadağalara baxmayaraq, "Molla Nəsrəddin" öz mütərəqqi ənənələrini davam etdirmiş, ictimai tərəqqiyə, elmin, mədəniyyətin inkişafına maneçilik törədən qüvvələri satira atəşinə tutmuşdur. "Molla Nəsrəddin" beynəlxalq məsələlərə geniş yer vermiş. imperializmin təcavüzkar təbiətini damğalamış, müstəmləkə və asılı ölkə xalqlarının milli azadlıq hərəkatını alqışlamışdır. Bu dövrdə Ə.Haqverdiyev, Ə.Əzimzadə və b. ilə yanaşı, jurnalda Cəfər Cabbarlı, Əlağa Vahid, Böyükağa Talıblı və digər şair və yazıçılar da əməkdaşlıq edirdilər. Jurnal 1926 ildən "Heyəti-təhririyyə" imzası ilə buraxılmışdır.

"Molla Nəsrəddin"in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur. Mübaliğəsiz demək olar ki, "Kolokol", "Sovremennik", "Oteçestvenniye zapiski" jurnallarının Rusiyada oynadığı rolu, Azərbaycanda və bütün Yaxm Şərq ölkələrində "Molla Nəsrəddin" oynamışdır. Müasir Azərbaycan satirik publisistikasının təşəkkülü və inkişafı da bilavasitə "Molla Nəsrəddin"lə bağlıdır. 20-ci illərdə çıxmış "Əqrəb", "Tikan", "Damğa", "İdarəmizin güzgüsü" kimi jurnallarda, sonralar "Kirpi" jurnalında, "Mozalan" satirik kinojurnalında və eyniadlı telejurnalda "Molla Nəsrəddin" ənənələrini aydın görmək olar. Mollanəsrəddinçilərin böyük istedadla yaratdıqları, yüksək xəlqilik nümunəsi olan poetik, publisist və qrafıka əsərləri bu gün də satirik sənətkarlar üçün yaradıcılıq nümunəsidir. Nəşrə başlamasının 75, 80 və 90 illiyi qeyd olunmuşdur. Kitab şəklində 12 cilddə nəşr edilir (2 cildi çapdan çıxmışdır).

*Əd.:* Axundov N., "Molla Nosrəddin" jumalının nəşri tarixi, B., 1959; Məmmədli Q., "Molia Nəsrəddin", B., 1966; Ağayev L, "Molla Nəsrəddin"in tarixi hünəri, B., 1976; Əziz Şərif, "Molla Nəsrəddin" necə yarandı, B., 1986; Həbibbəy li İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B.,1997; Касумов М., Боевой революционно-демократический журнал «Молло Насреддин», Б., 1966.

**"MOLOT"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunmuş gündəlik leqal bolşevik qəzeti. 1919 ildə Ba-kıda rus dilində nəşr olunmuşdur. Birinci nömrəsi 1919 il iyulun 9-da, sonuncu nömrəsi isə avqustun 14-də (cəmi 31 nömrə) çıxmışdır. "Molot"da Rusiya Kommunist (bolşe-viklər) Partiyasının ideya-siyasi xətti təbliğ edilir, Azərbaycan xalqının milli hökumətinə qarşı yönəldilən yazılar

downloaded from KitabYurdu.az

dərc olunurdu. Pozucu fəaliyyətinə görə "Molot"un nəşri Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən qadağan edilmişdi. Lakin qəzet 1919 il avqustun 19-dan 28-dək "Proletari" adı ilə nəşrini davam etdirmişdir (8 nömrə).

**MORGENTAU** Henri (?-?)- ABŞ diplomatı. Birinci dünya müharibəsi (1914-18) dövründə Osmanlı dövlətində Amerika səfiri. *Paris Sülh Konfransında (1919-20)* ABŞ nümayəndə heyətinin üzvü olmuşdur. Kofransın gedişində, Azərbaycan istiqlalının birinci ildönümü günündə (1919 il mayın 28-i) Əlimərdan bəy *Topçubaşovla* görüşmüşdür. Görüşdə həmin günün ikinci yarısında ABŞ prezidenti Tomas Vudro Vilsonla keçiriləcək danışıqlarda müzakirə ediləcək məsələlər müəyyənləşdirilmişdir. Morgentau Azərbaycanın zəngin təbii ehtiyatlarını və sənaye potensialını nəzərə alaraq, ölkənin iqtisadiyyatına Amerika kapitalının cəlb edilməsini və Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə maliyyə yardımı göstərilməsini mümkün hesab etmişdir. 1919 ildə Yaxın Şərqdə Amerika yardımı komitəsinin sədr müavini olmuşdur.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər)., B., 1993; Qasımlı M., Avropa və Amerika ölkələrinin müasir tarixi, 2 hissədə, h.l (1918-1945-ci illər), B., 2003; Архив полковника Зайза. 1,4, Б., 1944.

**MOSKVA MÜQAVİLƏSİ (1921)** - Rusiya Sovet Federativ Sosialist Respublikası və Türkiyə arasında "Dostluq və qardaşlıq haqqında" müqavilə. Tərəflər arasında müqavilə bağlanması təşəbbüsü Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal *Atatürkün* RSFSR Xalq Komissarları Sovetinin sədri *V. İ.Leninə* 1920 il 26 aprel tarixli məktubunda irəli sürülmüşdü. Müəyyən diplomatik hazırlıqdan sonra 1921 il fevralın 26-da Moskvada Sovet-Türkiyə danışıqları başlamış, müqavilə hazırlanmışdı. Müqaviləni martın 21-də Rusiya tərəfindən RSFSR xalq xarici işlər komissarı *G.Çiçerin* və ÜRMİK-in üzvü Cəlaləddin Qorxmazov, Türkiyə Böyük Millət Məclisi hökuməti tərəfindən xarici işlər naziri Yusif Kamal bəy, doktor Rza Nuri bəy və Əli Fuad paşa imzalamışdı. Müqavilə 16 maddə və 2 əlavədən ibarət idi.

**Birinci maddədə** tərəflər hər birinin zorla qəbul olunmağa məcbur edildiyi heç bir sülh müqaviləsini və ya başqa beynəlxalq aktları tanınmaması prinsipi ilə razılaşırdılar. Bu maddədə Türkiyənin şimal-şərq sərhədi də müəyyənləşdirilirdi (sərhədlər və ona aid məsələlər I (A) və II (B) əlavələrində və hər iki tərəfin imzaladığı əlavə xəritədə ətraflı təsvir olunmuşdu).

**İkinci maddədə** göstərilirdi ki, Türkiyə Batum şəhəri və limanı və müqavilənin birinci maddəsində göstərilən sərhədlərdən şimalda yerləşən və Batum dairəsinin tərkib hissəsini təşkil edən ərazilər üzərində suverenliyi iki şərtlə - həmin yerlərin əhalisinin yerli muxtariyyətə, arzusuna müvafiq torpaq qanunu müəyyən etmək imkanına malik olması; Türkiyə mallarının Batum limanı vasitəsilə gömrüksüz və maneəsiz keçməsi, ona azad tranzit təmin olunması şərtilə Gürcüstana güzəştə getməyə razıdır. **Üçüncü maddə** Azərbaycanın Naxçıvan bölgəsi ilə bağlı idi. Həmin maddədə göstərilirdi ki, razılığa gələn tərəflər Naxçıvan vilayətinin hazırkı müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altın muxtar ərazi yaradılmasına razıdırlar, bir şərtlə ki, Azərbaycan bu protektoratlığı üçüncü dövlətə güzəştə getməməlidir. **Dördüncü maddəyə** görə, tərəflər xalqların azadlıq və istiqlaliyyət hüququnu, həm-çinin onların öz arzularına uyğun idarə forması seçmək hüququnu qeyd-şərtsiz etiraf etdiklərini bildirirdilər. **Beşinci maddədə** boğazların açılmasının və oradan bütün ölkələrin ticarət gəmilərinin azad keçməsinin təmin edilməsi üçün Qara dəniz və boğazların beynəlxalq statusunun qəti şəkildə hazırlanmasını sahilboyu dövlətlərin nümayəndələrindən ibarət gələcək konfransın öhdəsinə verməyə razılaşırdılar. Bir şərtlə ki, onun çıxardığı qərar Türkiyənin tam suverenliyinə, həmçinin ölkənin və onun paytaxtı İstanbulun təhlükəsizliyinə zərər yetirməsin. **Altıncı maddədə** hər iki ölkə arasında o vaxtadək bağlanmış bütün müqavilələrin, qarşılıqlı surətdə, onların mənafelərinə uyğun olmadığı etiraf edilir, ona görə də bu müqavilələrin ləğv olunduğu və qüvvədən düşdüyü bildirilirdi. **Yeddinci maddəyə** görə, RSFSR hökuməti kapitulyasiya rejiminin hər bir ölkənin azad milli inkişafı ilə, həmçinin onun suveren hüquqlarının tam həyata keçirilməsilə bir araya sığmadığını etiraf edərək, bu rejimə hansısa aidiyyəti olan, hər cür funksiya və hüquqlarını öz qüvvəsini itirdiyini və ləğv olunduğunu hesab edirdi. **Səkkizinci maddə** ilə hər iki tərəf öz ərazisində digər ölkənin və ya onun ərazisinin bir hissəsində hökumət roluna iddia edən təşkilat və ya qrupların yaranmasına və ya olmasına, həmçinin digər ölkəyə qarşı mübarizə məqsədi güdən qrupların olmasına yol verməməyi öhdəsinə götürürdü. Rusiya və Türkiyə qarşılıqh şərtlərlə Qafqazın sovet respublikalarına münasibətdə də üzərinə belə öhdəlik götürürdü. **Doqquzuncu maddədə** tərəflər hər iki ölkə arasında əlaqələrin fasiləsizliyini təmin etmək üçün qarşıhqlı razılıq üzrə də-mir yol, teleqraf və digər əlaqə vasitələrini saxlamaq və mümkün qədər inkişaf etdirmək məqsədilə, həmçinin adamların və malların heç bir maneə olmadan hər iki ölkə arasında sərbəst hərəkətini təmin etmok üçün bütün zəruri tədbirləri görməyi öhdelərinə götürürdülər. **Onuncu maddə** ilə hər iki tərəfin digər tərəfin ərazısində olan vətəndaşlarına olduğu ölkənin (onların azad edildiyi milli müdafiə üzrə təəhhüdləri istisna olmaqla) qanunlarından irəli gələn bütün hüquq və vəzifələr şamil edilirdi. **On birinci maddədə** tərəflər onlardan hər birinin digər tərəfin ərazisində olan vətəndaşlarına daha əlverişli şərait prinsipi tətbiq etməyə razı olduqlarını bildirirdi. **On ikinci maddəyə** görə, 1918 ilədək Rusiyanın tərkib hissəsi olan, RSFSR hökumətinin bu müqaviləyə əsasən Türkiyənin suverenliyi altın olduğunu etiraf etdiyi ərazilərin hər bir sakini Türkiyəni sərbəst tərk etmək və özü ilə əmlakını, mülkiyyətini və ya onların dəyərini götürmək hüququna malik idi. **On üçüncü maddə** hərbi əsirlər məsələsinə həsr olunmuşdu. **On dördüncü maddədə** tərəflərin yaxın zamanlarda kon-

downloaded from KitabYurdu.az

sul müahidəsi, həmçinin hər iki ölkə arasında hazırkı müqavilənin preambulasında qeyd edilən dostluq münasibətləri yaratmaq üçün bütün iqtisadi, maliyyə və digər məsələləri tənzimləyən zəruri sazişlər bağlamağa razı olduqları göstərilirdi. **On beşinci maddə** ilə Rusiya Cənubi Qafqaz respublikalarına münasibətdə onların Türkiyə ilə bağlayacağı müqavilələrdə hazırkı müqavilənin bilavasitə onlara aidiyyəti olan maddələrini, bu respublikaları hökmən tanımaq üçün zəruri addımlar atmağı öhdəsinə götürürdü. **On altıncı maddə** müqavilənin ratifikasiya olunmasını, ratifikasiya fərmanları mübadiləsinin Qarsda həyata keçirilməsini nəzərdə tuturdu. Müqavilə, on üçüncü maddə istisna olmaqla, ratifikasiya fərmanları mübadilə olunduğu andan qüvvəyə minməli idi. Moskva müqaviləsi RSFSR MİK tərəfindən 1921 il iyulun 20-də, Türkiyə Böyük Millət Məclisi tərəfindən isə 1921 il iyulun 21-də ratifikasiya olunmuş, onlarm mübadiləsi sentyabrın 22-də həyata keçirilmişdi. Moskva müqaviləsinə uyğun olaraq, 1921 ilin oktyabrında *Qars müqaviləsi (1921)* bağlanmışdı.

*Əd.:Документы внешней политики СССР, т.3, М., 1959*1959; Güm-rü, Moskva, Qars müqavilələri və Naxçıvamn taleyi (tərtib edəni İ. H a c ı - yev), B., 1999.

**MÖVSÜMOV** Mirağa Mirmövsüm oğlu (1850, Şamaxı -1926, Bakı) - maarif xadimi, pedaqoq, dinşünas alim-metodist, şair. Şamaxıda mollaxanada və mədrəsədə təhsil almış (1859-82), ərəb, fars dillərini, şəriəti, islam tarixini öyrənmişdir. Şamaxıda xüsusi məktəb açmış (1882-87), oğlanlara əlifba və şəriət qaydalarını tədris etmişdir. 1887 ildə Bakıya köçərək, burada da Şamaxıdakı məktəb kimi məktəb açmışdır. 1892 ildə Bakı realnı məktəbində və Cənubi Qafqaz şiə ruhani idarəsində xüsusi komissiya qarşısında imtahan verərək, şəriət və Azərbaycan dili müəllimi dərəcəsi almış, uzun müddət Bakı məktəblərində şəriətdən dərs demişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə pedaqoji fəaliyyətini davam etdirmişdir.

Həsən bəy Zərdabi ilə dost olan M.Mövsümov onun millətin oyanmasına kömək edən nəğmələr yazmaq çağırışına cavab olaraq, "Əkinçi"də təbliğ olunan fikirlərin məzmununa uyğun yazdığı şerləri 1901 ildə Bakıda "Türk nəğmələrinin məcmuəsi" adı ilə kitab halında nəşr etdirmişdir. H.Zərdabi "Türk nəğmələri"nin əhalinin siyasi düşüncəsinin oyanmasına təsirini yüksək qiymətləndirmiş və müasir şairlərə M.Mövsümovun yolunu davam etdirməyi məsləhət görmüşdü.

M.Mövsümovun uşaq şerlərindən ibarət "Hədiyyeyi-ətfal" (1911) kitabı da nəşr olunmuşdur. 20 əsrin əvvəllərində "rus-müsəlman" məktəbləri üçün "Təcvid" (1909), "Şəriət kitabı" (1909), "Tarixi müqəddəs" (1911), "Əhaili-islam" (1914), "Yeni təlimül-şəriə" (1916) və s. dərsliklər yazıb çap etdirmişdir.

Əsəri: Şirvani M.M., Şəriət kitabı, B., 1992.

*Əd.:* Məmmədov X., H.Zərdabinin "Türk nəğmələrinin məcmuəsi" haqqında, Azərbaycan Pedaqoji İnstitutunun "Elmi əsərləri", 1975, *№2.*

**MUDROS BARIŞIĞI (1918)** - B.Britaniya (admiral Kaltorn) və Türkiyə (Rauf Hikmət və Sədulla bəy) nümayəndələri arasında Türkiyənin Birinci dünya müharibəsində (1914-18) məğlub olması haqqında barışıq sazişi. Oktyabrın 30-da İngiltərənin Mudros limanında (Egey dənizi, Lemnos adası) dayanmış "Aqamemnon" kreyserində imzalanmışdı. İngiltərənin diktəsi ilə hazırlanmışdı. Mudros barışığının şərtləri türk ordusunun danışıqsız təslim olmasını, Antanta dövlətləri silahlı qüvvələrinin Qara dəniz boğazlarını tutmasını, onların hərbi gəmilərinin boğazlardan sərbəst gediş-gəlişinin təmin edilməsini, Türkiyə hərbi hissələrinin İrandan, Kilikiyadan, Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan və Dağıstandan çıxarılmasını, habelə "fövqəladə vəziyyət yaranarsa", Türkiyənin bütün strateji məntəqələrinin Antanta qoşunları tərəfindən işğalını nəzərdə tuturdu. Barışıq sazişinin 6 və 9-cu maddələrinə əsasən, Türkiyə özünün bütün hərbi donanmasını, gəmi təmiri emalatxanalarını və hərbi-dəniz cəbbəxanalarını müttəfiqlərin ixtiyarına verməli idi. Mudros barışığının 11 -ci maddəsinə əsasən, Azərbaycan İngiltərənin nüfuz dairəsi elan edilir, 15-ci maddəyə əsasən isə, Azərbaycanın yolları və neft mənbələri ingilis komandanlığının ixtiyarına keçir, Bakının işğalına Türkiyənin etiraz etməməsi tələb olunurdu. Saziş imzalanmazdan əvvəl oktyabrın 27-də Türkiyənin yeni xarici işlər naziri Nəbi bəyin qəbulunda olan Əlimərdan bəy Topçubaşov qarşıdakı Vyana və Berlin səfərini dayandırıb Antanta nümayəndələri ilə sülh danışıqları aparılan Lemnos (Sakkız) adasına getmək istədiyini bildirmişdi. Lakin nazir gözləmək lazım olduğunu söyləmişdi. Barışığını 24-cü maddəsinə görə isə, Türkiyənin "altı erməni vilayətindən" hər hansı birində qarışıqlıq, iğtişaş baş verərsə, müttəfiqlər oranı tutmaq ixtiyarına malik idilər. Azərbaycan hökuməti və onun Osmanlı dövlətində olan diplomatik nümayəndəsi Mudros barışığının Azərbaycana aid ağır şərtlərinə biganə qalmadı. Noyabrın 3-də Mudros barışığının şərtləri rəsmi şəkildə elan edildi. Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsi həmin gün Rauf bəylə danışıqlarda Azərbaycan nümayəndəsinin iştirakı olmadan Bakı və Azərbaycan dəmir yolu haqqında Mudros barışığına bəndlər daxil edilməsinə öz etirazını bildirdi. Noyabrın 4-də Ə.Topçubaşov Mudros barışığının Azərbaycana aid hissəsi ilə bağlı Osmanlı hökumətinin xarici işlər nazirinin müavini Rəşad Hikmət bəyə etiraz notası verdi. Notada deyilirdi ki, Osmanlı hökumətinin Azərbaycan Xalq Cümhuriyyətini tanınmasına baxmayaraq, Cümhuriyyətin paytaxtı Bakı şəhəri haqqında maddənin Mudros barışığına daxil edilməsi beynəlxalq hüquq və normalarına zidd olub, Azərbaycanın ingilislər tərəfindən işğal olunmasının asanlaşdırılmasına xidmət edir. Notada qeyd edilirdi ki, barışığını Qafqaza və xüsusən Azərbaycana aid olan bəzi maddələrinin Azərbaycan hökumətinə aydınlaşdırılması yaxşı olardı. Mudros barışığının Transqafqaza aid olan 15-ci maddəsi ilə bağlı notada göstərilirdi ki, Azərbaycan Cümhuriyyətinin dəmir yolları heç bir halda bu

downloaded from KitabYurdu.az

maddənin subyekti ola bilməz. Notanın sonunda bildirilirdi ki, Azərbaycan hökuməti Mudros barışığında Cümhuriyyətin mənafeyinə toxunan məsələlərlə bağlı birbaşa, yaxud Osmanlı hökumətinin vasitəçiliyilə danışıqlar aparılmasını zəruri hesab edir.

Mudros barışığının Azərbaycana aid maddələrinə görə narazı qalmasına baxmayaraq, Azərbaycan xalqı vaxtilə türk ordusunu böyük hərarətlə qarşıladığı kimi, dünya müharibəsində məğlub dövlətlər arasında olmasından ehtiyat etməyərək, onu dərin hörmət və ehtiramla yola saldı. Mudros barışığı təkcə Osmanlı imperiyasının varlığına son qoymur, eyni zamanda, Türkiyənin müstəqil dövlət kimi yaşamasını da təhlükə altına alırdı. Mudros barışığı imzalandıqdan az sonra Antanta qoşunlarının Türkiyəni işğal etməyə başlaması (noyabrın 9-da ingilis desant qoşunlarının Dardanel sahilindəki limanların tutması, noyabrın 13-də isə 10 min nəfərədək ingilis qoşununun fransız və italyan qoşunlarırının köməyi ilə İstanbuldakı hərbi qışlaları və bir çox yaşayış binalarını tutması və s.) onların məhz bu niyyətindən xəbər verirdi. Türk xalqının milli azadlıq mübarizəsi (1918-23 illər) və dünyanın mütərəqqi ictimaiyyətinin həmrəyliyi Mubros barışığı şərtlərinin həyata keçirilməsinə yol vermədi.

*Əd.:* Hüseynov Q.H., Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, B., 1970; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**MUĞAN MÜVƏQQƏTİ HƏRBİ DİKTATURASI (MMHD),** B e ş l ə r D i k t a t u r a s ı, Lənkəran Resp u b l i k a s ı - Bakı Xalq Komissarları Sovetinin süqutu və "Sentrokaspi diktaturası"nın yaradılması ilə Azərbaycan ərazisinin cənub bölgəsində şovinist rus zabitlərinin yaratdıqları (1918, 5 avqust) oyuncaq qurum. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı dövrdə Lənkəran-Muğan bölgəsi vəziyyətin ən gərgin olduğu yerlərdən idi. Çar hakimiyyəti dövründə bölgədə yerləşdirilən və buradakı rus əhalisi tərəfindən dəstəklənən Rusiya qoşun hissələrinin zabitləri fəal antiazərbaycan mövqeyi tuturdular. Bu qoşunlara İranla sərhədi qorumaq üçün Muğanın cənubunda yerləşdirilmiş 29-cu rus sərhəd briqadasının komandiri polkovnik İlyaseviç başçılıq edirdi. O, Denikin qoşunlarının zabitləri ilə sıx əlaqədə idi. İlyaşeviçin briqadası 1918 ilin avqustunda Cavad qəzasının Biləsuvar kəndindən Lənkəran qəzasının Prişib (G ö y t ə p ə) kəndinə köçmüşdü. Bu briqadada 6 min nəfərə qədər döyüşçünün olması ehtimal edilirdi. Briqada heyətinin təzyiqi ilə avqustun 4-5-də Prişibdə fövqəladə qurultay çağırıldı. Qurultayda Lənkəran və Cavad qəzalarında hakimiyyət məsələsi müzakirə olundu. Həmin qəzaları idarə etmək üçün 5 nəfərdən ibarət "Müvəqqəti diktatura" yaradıldı. Bu diktatura bəzən "Beşlər diktaturası" da adlandırılırdı. Bununla da, Azərbaycan Cümhuriyyətinin cənub bölgəsində hakimiyyət şovinist rus zabitlərinin əlinə keçdi. MMHD öz sərəncamındakı hərbçilərə, Bakıdakı Rus Milli Şurasına və Denikinin dəstəyinə arxalanaraq, bölgədə hakimiyyətini möhkəmləndirməyə çalışırdı. Bu hakimiyyətə qanuni don geyindirmək üçün 1919 ilin fevralında rus hərbçilərinin nəzarətində olan ərazilər "Lənkəran Respublikası" elan edildi və Suxorukovun başçılığı ilə demokratik hökumətin təşkili bəyan olundu.

Martın 21-də Prişibdə çağırılan qurultayda Paris Sülh Konfransı işini qurtaranadək Lənkəran qəzasının Azərbaycanın hakimiyyətinə verilməməsi, "Muğan vilayəti" adı ilə yaradılan müstəqil quruma tabe edilməsi qərara alındı. Denikin qüvvələrinin Cənubi Qafqazda gələcək hakimiyyəti üçün dayaq rolunu oynamalı olan "Muğan hökuməti" böyük dövlətçilik siyasəti yeridir, "Vahid və bölünməz Rusiya" prinsiplərindən çıxış edir, yerli əhali arasında milli ədavət salırdı. Bolşeviklərin "Muğan hökuməti"nə qarşı mübarizəsi 1919 il aprelin 25-də baş verən silahlı üsyanla hakimiyyətin bolşeviklərin əlinə keçməsi ilə nəticələndi. Polkovnik İlyaşeviç və tərəfdarları həbs edildi. "Muğan hökuməti" yıxıldı, hakimiyyət inqilab komitəsinin əlinə keçdi. Bolşeviklər Lənkəran bölgəsinə nəzarəti ələ alıb, Azərbaycanın cənubunda sovet hakimiyyətinin qurulduğunu elan etdilər. Bax *Muğan Sovet Respublikası.*

*Əd.:* Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Ə l i z a d ə N., Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəsi tarixindən, B., 1963; Гусейнов А.А., Синицын В.М., Сражающаяся Муган ,Б., 1979.

**MUĞAN SOVET RESPUBLİKASI (MSR)** Azərbaycan Xalq Cümhuriyyəti dövründə bolşeviklərin ölkənin cənub bölgəsində yaratdıqları oyuncaq qurum. 1919 il aprelin 25-dən iyulun 27-nə kimi Lənkəran qəzasında mövcud olmuşdur. Bolşeviklər 1919 ilin martından Lənkəranda hakimiyyəti ələ almağa hazırlaşırdılar. Sovet qoşunlarını Xəzər dənizinin cənub-qərb sahilinə çıxarmaq məqsədilə istinadgah yaradılmasında Lənkəranın və Muğanın strateji mövqeyini nəzərə alan RK(b)P Qafqaz Diyar Komitəsinin (QDK) rəhbərliyi ilə aprelin 25-de silahlı üsyan baş verdi, "Muğan hökuməti" devrildi. Bolşeviklər Lənkəran bölgəsinə nəzarəti ələ keçirdilər. Hakimiyyətlərinin qanuniliyini təmin etmək üçün 1919 il mayın 15-də Lənkəranda Muğan Kəndli Deputatları Sovetinin Fövqəladə Qurultayını çağırdılar. İştirakçılarının yarısı qeyri-azərbaycanlı olan qurultay Lənkəranda və Muğanda sovet hakimiyyətinin qurulduğunu elan etdi. MSR Cənubi Qafqazda bolşevik Rusiyasının yeganə dayaq məntəqəsi oldu. Qurultayda seçilən Muğan ölkə fəhlə və kəndli deputatları Soveti Azərbaycanı işğal etməyə hazırlaşan bolşeviklərin başçılığı ilə Ölkə İcraiyyə Komitəsini yaratdı. MSR bir sıra sosialist tədbirləri həyata keçirdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Azərbaycanın cənubunda hakimiyyətini bərqərar etməyə kifayət qədər gücü yox idi. Əsas hərbi qüvvələr Qarabağda erməni təcavüzünün və şimaldan gözlənilən təhlükənin qarşısını almağa cəlb edilmişdi. RK(b)P QDK və Bakı komitəsi MSR-na hərtərəfli yardım edir, silah, sursat, pul və siyasi ədəbiyyat göndərirdilər. Həştərxandan da kömək göstərilirdi. V.İ.Leninin tapşırığı ilə Baltik matrosu, kommunist T.İ.Ulyantsev (Otradnev) Həştərxandan Lənkərana gəlib, Hərbi inqilab şurası və Hərbi-səhra qərargahı təşkil etdi. Sovet Rusiyasının diplomatik

downloaded from KitabYurdu.az

tapşırıqla İrana göndərdiyi İ.O.Kolomiytsev də MSR-nın rəhbərlərindən biri idi. Şimali Qafqazdakı 11-ci Qırmızı ordunun tərkibindən MSR-na 200 döyüşçü göndərilmişdi.1919 il iyulun ortalarında ağqvardiyaçı rus zabitlərinin rəhbərlik etdiyi qüvvələr Lənkəran üzərinə hücuma keçdilər. İyulun 24-25-də Lənkəranın mühüm obyektlərini yenidən nəzarət altına alan ağqvardiyaçılar iyulun 26-da Prişibdə qurultay çağıraraq, bölgədə öz hakimiyyətlərini bərpa etdiklərini bildirdilər. MSR-nın üçaylıq hakimiyyətinə son qoyuldu.

*Əd.:* Azərbaycan tarixi, 3 clddə, c.3, B., 1973; Məmmədova Ş., Muğan Sovet Respublikası: Həqiqətlər, uydurmalar, "Tarix və onun problemləri", 1999; №2; Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Əli -zadə N., Lənkəran qəzası zəhmətkeşlərinin Sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən, B., 1963; Гусейнов А.А., Синицын В.М., Сражающаяся Муган ,Б., 1979.

**MUĞANIN SUVARMA SİSTEMİ** - suyu suvarma mənbələrindən götürüb, suvarılmaya ehtiyacı olan sahələrə paylayan və suvarılmanı təmin edən qurğular sistemi. Muğanda suvarma sisteminin yaradılması qədim tarixə malikdir. Lakin işğalçı yürüşlər zamanı suvarma sistemi dəfələrlə dağıdılmış, müxtəlif tarixi dövrlərdə yenidən bərpa edilmişdi. 19 əsrdə-20 əsrin əvvəllərində, xüsusilə rusların Muğana köçürülməsinin artması ilə əlaqədar olaraq, suvarma sisteminin yeniləşdirilməsinə diqqət artdı. Lakin Muğanda bolşevik anarxiyası suvarma sisteminə ciddi zərbə vurdu. Kənd təsərrüfatının inkişafı üçün Muğanın suvarma sisteminin bərpasına və inkişafına böyük əhəmiyyət verən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti özünün 1918 il 24 iyul tarixli qərarı ilə Aşağı Muğan kanalının təmiri və digər işlər üçün 26,5 min manat ayrılmışdı. 1919 il 24 fevral tarixli qərarla isə Muğanın su qurğularının və suvarma kanallarının təmirinə ayrılan vəsaitin miqdarı 200 min manat müəyyən edilmişdi.

*Əd:. Азербаиджанская Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Исмаилзаде Д., Русское крестьянство в Закавказье.30-е годы XIX-нач.XX в. , М., 1982.



**MUXARSKİ** Süleyman Bikir oğlu (20.7.1900, Vilno quberniyası, Ostrino - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr - haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri, milliyyətcə tatar, Litva vətəndaşı. Tiflis realnı məktəbini bitirmişdi (1919). Parlamentin 1919 il sentyabr tarixli qərarına əsasən, təhsilini hüquq sahəsində davam etdirmək üçün Lion şəhərinə (Fransa) göndərilmışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MUXTAR ƏFƏNDİ** (1880-1975) - maarif xadimi, müəllim, şərqşünas-tərcüməçi. Bax *Əfəndizadə* Muxtar İsmayıl oğlu.

**MUXTAROV** Murtuza (1855, Bakı yaxınlığındakı Əmircan kəndi - 1920, Bakı) - məşhur Azərbaycan milyonçusu, xeyriyyəçi, Azərbaycan sahibkarlığının və neft sənayesinin görkəmli nümayəndəsi. Neft sənayesində podratla qazma işinin xeyli hissəsini öz əlində cəmləşdirmiş iri sahibkar idi. Əvvəllər malakeşlik etmiş, arabaçı olmuş, çəlləkdə mədənlərdən şəhərə qara neft daşıyıb satmaqla məşğul olmuşdu. 1870 ildən Balaxanı-Zabrat kəndləri ətrafındakı mədənlərdən birində fəhləlik etmişdir. Buruqda adi fəhlə kimi işə başlamış, sonra usta təyin edilmişdir. İxtiraçılıq qabiliyyəti, qazma dəzgahını təkmilləşdirməsi, dözümü və qətiyyəti sayəsində sahibkara çevrilmiş, şəxsi qazma kontoru açmışdı. Muxtarovun adı daha çox neftçıxarma texnologiyasının inkişafı ilə bağlıdır. Ali texniki təhsili olmasa da, neft maqnatları içərisində neft yataqlarının sirrini və qazma işlərini dərindən bilən sahibkar kimi tanınmışdı. Muxtarov Azərbaycan neft sənayesi tarixinə metal ştanqlarla zərbə qazma dəzgahının ixtirası (1895) ilə daxil olmuşdur. O, dövlət patenti aldığı bu ixtirasına "Bakı qazma sistemi" adı vermişdi. Əsasını 1891 ildə qoyduğu "Muxtarov M." şirkəti neft sənayesi üçün texniki avadanlıq buraxır və neft quyuları qazmaqla məşğul olurdu. Balaxanı, Suraxanı, Ramana və Sabunçu neft rayonlarında neft quyularının əksəriyyəti onun "Podrat qazma" kontoru tərəfindən qazılmışdır. Sabunçu, Bibiheybət və Suraxanıda özünün mexaniki zavodları və neft mədənləri vardı. Bakıdan Buzovnaya elektrik qatarı yolunda Sabunçudan sonra birinci dayanacaq onun adı ilə adlanır. Dayanacağın ətrafındakı bütün neft quyuları Muxtarova məxsus olmuş dur. Onun Bibiheybətdəki qazma avadanlığı zavodu Rusiyada ilk neft avadanlığı müəssisəsi idi. O, təkcə Bakıda deyil, Maykop və Qroznıda da neft mədən sahibləri ilə müqavilə bağlayıb, quyu qazırdı. "Muxtarov M" şirkəti 1906 ildən "Qazıma işləri sahibkarları sindikatının", "Neft



*Murtuza Muxtarovun Vladiqafqazda tikdirdiyi məscid. 1910*



downloaded from KitabYurdu.az



Murtuza Muxtarovun tikdirdiyi "Səadət" sarayı. Bakı. 1911–12



Liza xanım Muxtarova

quyuları qazan Bakı podratçılar cəmiyyətinin", 1917 ildən isə "Podrat qazıma şirkətləri ittifaqının əsas iştirakçılarından olmuşdur. 1913 ildə Muxtarovun müəssisələri daha da genişləndi, Suraxanıda onun üçüncü zavodu fəaliyyətə başladı. Elə həmin il şirkət səhmdar cəmiyyətinə çevrilmişdi və 4 milyon manat əsas kapitalı vardı. 1916 ildən cəmiyyətin səhmlərinin əksəriyyəti Petroqraddakı Azov-Don bankının əlinə keçdi və idarəsi Bakıdan Petroqrada köçürüldü. Muxtarov 1914 ildə Bakı Tacir Bankının yaradılmasında iştirak etmişdi. Vladiqafqazda qoşa minarəli, qoşa eyvanlı məscid, Əmircanda eyni memarlıq üslubunda məscid (1910), habelə məktəb inşa etdirmişdi. Mərdəkanda salınan (1890) ilk bağlardan biri (sahəsi 8 hektar) Muxtarova məxsus idi.

Muxtarov geniş xeyriyyəçilik fəaliyyəti göstərmiş, ictimai binalarını, məktəblərin inşasına heç zaman vəsaitini əsirgəməmişdir. O, *"Nəşri-maarif"* və *"Nicat"* cəmiyyətlərinin işində fəal iştirak etmişdir. Bakıda və ətraf kəndlərdə, Rusiya və Avropanın bir sıra şəhərlərindəki çoxlu binalar onun adı ilə bağlıdır. Həyat yoldaşı Liza xanım Muxtarova ilə Avropa səyahətində olarkən Venesiyadakı binaların memarlığına valeh olmuş, Bakıda bir il ərzində (1911-12) onlara oxşar saray tikdirmişdir. Memar İ.K.Ploşkonun layihəsi əsasında fransız qotikası üslubunda tikilmiş bu mülk indi onun adına olan küçədəki "Səadət" sarayının binasıdır. Muxtarov, demək olar ki, Bakının bütün xeyriyyə cəmiyyətlərinin fəaliyyətində yaxından iştirak etmiş, idarə heyətlərinin üzvü olmuş, mətbuata, maarif və mədəniyyətə, incəsənət xadimlərinə qayğı ilə yanaşmış, maddi və mənəvi yardım göstərmişdir. O, məşhur aktyor Hüseyn Ərəblinskinin müalicə xərclərini öz üzərinə götürmüş, Saratovda küçələrdə mahnı oxuyan azərbaycanlı qızın musiqi təhsili almasına yardım göstərmiş, onu konservatoriyaya apararaq, vokal şöbəsinə daxil olmasına kömək etmiş, həmçinin öz soyadını ona verərək, qızlığa götürmüşdür (həmin qız sonralar məşhur opera müğənnisi, xalq artisti, 1938-53 illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti Fatma Muxtarova idi). "Səadət" xeyriyyə cəmiyyəti üçün məktəb binasını da Muxtarov tikdirmişdir. 1908 il iyunun 3-dən fəaliyyətə başlamış "Tərəqqi" qəzeti "İrşad" mətbəəsində Muxtarovun pulu ilə çap edilirdi. Bir müddət sonra Muxtarov "İrşad" mətbəəsini satın alıb, daimi istifadə üçün Haşım bəy Vəzirovun sərəncamına vermişdir. Muxtarov İran inqilabçılarına (Səttarxan hərəkatı) da pul və silahla kömək etmişdir.

downloaded from KitabYurdu.az

Abşeronun dəniz sahilində mayak qülləsi (1913), Mərdəkanın Pirhəsən pirində Axund Mirzə Əbu Turabın qəbri üstündə günbəz, Kislovodskda (Şimali Qafqaz), İtaliyanın Florensiya şəhərində bir çox yaraşıqlı binalar Muxtarovun vəsaiti ilə tikilmişdir. *Aprel işğalının (1920)* ilk "talan həftəsi" günlərində Muxtarov mənzilinə basqın etmiş silahlı hərbçilərdən birini, sonra isə özünü güllə ilə vurmuşdur. İşğaldan sonra "Muxtarov M." şirkətinin müəssisələri milliləşdirilmişdir.

*Əd.:* Azərbaycanın tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Eşitdiklərim, oxuduqlarım, gördüklərim, B., 1987; Q ı l m a n İlkin, Bakı və bakılılar, B., 1998; Алияров С.С., Нефтяные монополии в Азербайджане в период первой мироваи войны, Б., 1974; Исмаилов М.А., Промышленность Баку в XX века, Е., 1976.

**MUXTAROVA** Liza xanım (?, Vladiqafqaz - 1956, İstanbul) - *Bakı Müsəlman Qadın Xeyriyyə cəmiyyətinin* sədri, Azər-baycanın görkəmli sənayeçisi, milyonçu və xeyriyyəçi Murtuza *Muxtarovun* həyat yoldaşı. General Əhməd bəy Tuqanovun qızı idi. Avropa səyahəti zamanı Liza xanımın İtaliyada Venesiya saraylarından birinə valeh olduğunu görən Murtuza Muxtarov həmin binanın layihəsində Bakıda onun şərəfinə əzəmətli saray ucaltdırmışdır (1911-12). Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti bu binada (hazırda "Səa-det" sarayının binasıdır) fəaliyyət göstərmişdir. Həmin sa-rayda Liza xanım qızlar üçün pansion açmışdı. Muxtarova Azərbaycanın maarifpərvər qadınları ilə birlikdə cəmiyyətin işində fəal çalışmışdır. 1917 ilin oktyabrında Muxtarovanın sədrlik etdiyi xeyriyyə cəmiyyətinin yoxsul qızlar üçün açdığı peşə məktəbi 1918 ilin mart soyqırımı zamanı bağlanmış, 1919 ilin əvvəllərində fəaliyyətini yenidən bərpa etmişdir. O, ehtiyacı olan gənclərə qayğı göstərir, yardım edirdi. Azərbaycanda qadın təhsilinin inkişafına çalışırdı. Muxtarova "Müqəddəs Nina" qız məktəbinin qəyyumluq şurasının sədri olmuşdur. *Aprel işğalından (1920),* Murtuza Muxtarovun faciəli ölümündən sonra "Müsavat" partiyası gizli təşkilatının üzvləri onun mənzilində türk nümayəndələri ilə görüşürdü. Muxtarova sonradan İstanbulda yaşamışdır.

*Əd.:* Gəncəli S., Qadın, gözəllik və ülviyyət (ensiklopedik toplu), B., 2001.

**MURAD GƏRAY TLEXAS** - hərbi xadim. Azərbaycan Milli Ordusunun generalı. Hərbi Nazirliyin topçu idarəsinə və başqa strakturlarına rəhbərlik etmiş, Bakının hərbi general-qubernatoru olmuşdur (bax *Tlexas* Murad Gəray).

**MURADXANOV** Əsədulla bəy (1866, Salyan - 1942, orada) - ictimai-siyasi xadim, maarifpərvər-publisist. Rusiyanın 1-ci Dövlət Dumasının deputatı. Görkəmli pedaqoq-alim, professor Mərdan Muradxanovun atasıdır. Qori Müəllimlər Seminariyasını bitirmiş (1886), həmin ildən Kürdəmirdə müəllim işləmişdir. Uzun illərdən sonra müəllimlikdən uzaqlaşan



Əsədulla bəy Cavad qəzasının kəndlilərlə əlaqə şöbəsində kargüzar və tərcüməçi kimi fəaliyyət göstərmişdir. 1906 ildə Bakı quberniyasının Cavad qəzasından Rusiyanın 1-ci Dövlət Dumasına deputat seçilmişdir. Dumada Xalq Azadlıq Partiyasına mənsub olmuşdur. Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Məmmədtağı Əliyevlə birlikdə çarizmin Rusiya imperiyasında yaşayan xalqlar arasında ədavət salmaq siyasətinə qarşı çıxmış, qeyri-rus xalqlarını milli muxtariyyəti ideyasını müdafiə etmişdir. Duma çar Nikolay tərəfindən qovulduqdan sonra Muradxanov Peterburqdan Salyana qayıtmış, burada bir neçə maarifçinin fəal iştirakı ilə əhali arasında mədəni-maarif işləri aparmış, "cəmiyyəti-xeyriyyə" yaratmış, kitabxana-qiraətxana açmış, həvəskar teatr cəmiyyəti təşkil etmiş və s. xeyriyyə işləri ilə məşğul olmuşdur. Dövri mətbuatda çıxış etmiş, inqilabdan əvvəl "Brokhauz və Yefron ensiklopedik lüğəti"ndə məqalələri çap olunmuşdur.

Əsədulla bəy 1926 ildə Bakıya köçmüş və Qara şəhərdə mülki məhkəmənin sədri vəzifəsində çalışmışdır. 1929 ildən təqaüdə çıxmışdır.

*Əd.:* S e y i d z a d ə D.B., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004; Azərbaycan teatr salnaməsi, B., 1975.



**MURADOV** Abbas Həmid oğlu (?, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Ağdam rus-tatar (Azərbaycan) məktəbini (1912) və Peterburq realnı məktəbini bitirdikdən (1918) sonra bir müddət Ümumrusiya Müsəlmanlar İttifaqının İcraiyyə komitəsində işləmiş, Azərbaycan Xalq Cümhuriyyəti himayədarlıq nazirliyinin qaçqınlarla iş şöbəsində çalışmışdır. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti



quralduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında onun təhsilini uğurla davam etdirdiyi, *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MURADOV** Məmməd bəy Fəxrəddin oğlu (1.1.1900, Şuşa — ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 3-cü Bakı kişi gimnaziyasını bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahə-

downloaded from KitabYurdu.az

sində davam etdirmək üçün Paris universitetinə (Fransa) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin maddi vəziyyətini, təhsilin gedişini və məişət məsələlərini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında onun təhsilini uğurla davam etdirdiyi, *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında isə təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MURADZADƏ** Məmməd (?-?)- Bakıdakı *Mart soyqırımı (1918)* hadisələrini öz gözləri ilə görmüş, həmin hadisələr zamanı daşnaklar tərəfindən evləri qarət edilib dağıdılmış, atası güllələnmiş, anası əsir kimi Mailəv teatrına aparılmış yeniyetmə Bakı sakini. 1918 ilin dekabrında həmin hadisələri qələmə almış, 1919 ilin martında ona əlavələr etmişdir. 1920 ildə "Həyat dəftərimdən bir parça" rubrikasında "Mart hadiseyi-əliməsi" adı ilə hökumət mətbəəsində kitabça halında çap etdirmişdir (kitabça 1996 ildə kiril əlifbası ilə yenidən nəşr olunmuşdur). Ailəsinin başına gətirilən müsibətlərdən, atasının qohum və tanışlarının güllələnməsindən, həmin hadisələr zamanı kiçik qardaşı ilə qonşu yəhudinin evində gizlənməsindən danışan, şahidi olduğu acınacaqlı mənzərəni təsvir edən gənc yazısını belə yekunlaşdırırdı: ***"Hələ qarşımda o gün müşahidə etdiyim ürək dağlayan bir mənzərə təcəssüm edib durur. O gün küçə ilə bir neçə kişinin çiynində qısa bir nərdivan üzərinə əlvan boyalı xalça salınmış bir meyitin aparıldığını gördünüz? O, mart günlərinin məzlum qurbanı, mənim zavallı atam idi. O dövrün vəziyyətinə nəzərən bu hala da qibtə edirdilər. Ona görə ki, çox şəhidlərin meyiti o gün tapılmaz oldu. Ana və bacıların qəlbinə acı və daim sağalmaz dağlar basıldı. O gün bu müəzzəm Bakı şəhərinin yarıdan çoxu bir matəm sarayına çevrildi. Çox evlərin üzvləri südəmər uşaqlarınadək zəhərli xəncərlər ilə doğrandı. Fəryad, ah-fəğan sədası eşidilməyən bir ev qalmadı. Söyləyiniz, belə ürək yandıran tarixi bir vaqiəni unutmaq olarmı?"***

Yazıda hadisələr zamanı öz niyyətlərinə çataraq "qalib çıxmış", kişiləri öz evlərində qətlə yetirib, qadın və qocaları əsir kimi nümayişkaranə surətdə küçələrdən keçirən qaniçən ermənilərin vəhşilikləri dərin ürək ağrısı ilə təsvir edilirdi.

***"Qafqaziyyəyə bizimki söyləyirdiniz, iştə Qafqaziyyəyə sahib oldunuz?"*** deyən düşmənin istehzalı tənələrinə dözə bilməyən gənc müəllif yazırdı: ***"Düşmənin bu növ tənələri acı, fəqət doğru idi. Çalışmamaq nəticəsi olaraq, azlıq təşkil edən millətin bu gün vəhşi qüvvələri qarşısında baş əyməyə məcbur olmuşuq"***. M.Muradzadənin sonrakı taleyi haqqında məlumat əldə olunmamışdır.

**MUSAYEV** Cəmil İbrahim oğlu (14.3.1897, Şuşa -29.1.1970, Şuşa) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmiş (1914), Bakıya köçdükdən sonra riyaziyyat və rəsmxətdən dərs demişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün əvvəlcə İtaliyaya, sonradan isə Berlin Politexnik İnstitutuna göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında onun təhsilini uğurla davam etdirməsi, *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. 1925 ildə təhsilini başa vuraraq Bakıya qayıtmış, ömrünün sonunadək öz ixtisası (memarlıq) üzrə işləməklə bərabər, orta məktəbdə alman dilindən dərs demişdir. 1960 ildə "Azərbaycan SSR-in əməkdar inşaatçısı" fəxri adına layiq görülmüşdür.



**MUSƏVİ** Seyid (Mirhəsən Hacı Mirağa oğlu Mövsümov; 1882, Şamaxı - 17.6.1907, Bakı) - sosial-demokrat, "Hümmət" təşkilatının banilərindən biri, naşir, yazıçı-publisist. İbtidai təhsilini Bakıda mollaxanada və "rus-müsəlman" məktəbində almışdır. Bakı realnı məktəbində oxumuşdur. Şəriət müəllimi, alim-metodist, şair Hacı Mirağa Mövsümovun oğludur.

Erkən yaşlarından əmək fəaliyyətinə başlamış, çarizmə qarşı siyasi mübarizəyə qoşulmuş, Məhəmməd Əmin Rəsulzadə, Sultanməcid Əfəndiyev, Məşədi Əzizbəyov, Məmmədsadıq Axundov və b. ilə birlikdə müsəlman sosial-demokrat "Hümmət" təşkilatının əsasını qoymuşdur. Evində gizli mətbəə yaratmış, "Hümmət" qəzetinin 6 nömrəsini (1904-05) və bir sıra siyasi vərəqələr buraxmışdır. Sosial-demokratik ideyaları təbliğ etdiyinə görə həbs olunmuş, irəli sürülən ittihamlar sübuta yetmədiyindən azad edilmişdir. Təqiblərdən qurtarmaq üçün Gədəbəyin gümüş, mis mədənlərində fəhlə işləmişdir. Seyid Musəvi siyasi mübarizədə bədii və publisist sözün təsir gücünə önəm vermiş, "Hümmət", "Dəvət-Qoç", "Təkamül", "İrşad" qəzetlərində müxtəlif janrlarda yazılar (hekayə, pyes, məqalə və s.) dərc etdirmişdir. Seyid Musəvinin "Çaq-çuk", "Təzə əsrin tülüunda", "Məşədi İsmayıl" hekayeləri, "Mis mədəni" pyesi, "Bakı həbsxanası" məqaləsi və inqilabi vərəqələri Azərbaycan ədəbiyyatı və publisistikasında özünəməxsus yer tutur.

*Əd.:* XX əsr Azərbaycan ədəbiyyatı müntəxəbatı, B., 1958; Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, c.2, B., 1960; XX əsr Azərbaycan bədii nəsri, B., 1992; Hüseynov Ş., Həqiqət və ədalət carçısı, B., 1988; Talıbzadə K., Ədəbiyyatımızın inqilabi ənənələri, onun "Ədəbi irs və varislər" kitabında, B., 1974.

**MUSTAFAYEV** Ağahəsən Manaf oğlu (1900, Bakı - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Birinci

downloaded from KitabYurdu.az



Bakı kişi gimnaziyasını bitirmişdi (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini gəmiqayırma sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MUSTAFAYEV** Ağasəfər Hüseynqulu oğlu (9.1.1894, Tiflis - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilməsi nəzərdə tutulmuş tələbələrdən biri. İkinci Bakı kişi gimnaziyasını bitirmiş (1913), 1918 ilədək Rusiyanın Don (Novoçerkassk) Universitetinin fizika-riyaziyyat şöbəsində 3 il oxumuş, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxıb, geri qayıtmağa məcbur olmuşdu. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Rusiyaya göndəriləcək tələbələrin siyahısına daxil edilmişdi. Lakin Vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürəkkəb vəziyyətdə oraya tələbə göndərmək mümkün olmamışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**MUSTAFAYEV** Mustafa Hacı Rəhim oğlu (17.10.1895, Qazax - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmişdir (1914). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində davam etdirmək üçün Fransaya göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında Mustafayevin təhsilini uğurla davam etdirməsi, *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında isə təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Tələbəlik illərində M.Mustafayev dünya şöhrətli "Reno" şirkətinin müəssisələrində istehsalat təcrübəsi keçmişdir. Tuluza İnstitutunda təhsilini başa vurduqdan sonra ona "Reno" şirkətində mühəndis yerini tutmaq təklif edilmişdi. Fransada ailə həyatı quran Mustafayev 1927 ildə Azərbaycana qayıtmış, sənayeləşmə illərində mühəndis-energetik kimi 15 il bir sıra elektrik stansiyalarını və Bakı tramvay xəttinin tikintisində çalışmışdır. İkinci dünya müharibəsi başlayanda fransız həyat yoldaşı Səmərqənd şəhərinə (Özbəkistan), Mustafayev özü isə Şimali Qazaxstana sürgün edilmişdir (1942). O, 1943 ilin noyabrında azad edilərək, Səmərqəndə gəlmiş, 1961 ilədək burada ixtisası üzrə işləmişdir. Bakıya qayıtdıqdan sonra Bakı Dövlət Universitetində və Sənaye İnstitutunda riyaziyyat və fransız dili fənlərindən dərs demişdir.



*Əd.: Дулаев З, Страницы истории национальной интеллигенции* "Azərbaycan Tarixi Muzeyi - 2003" (məqalələr toplusu), B.,2003.

**"MUSULMANSKİYE İZVESTİYA"** - Bakı müsəlman ictimai təşkilatları komitəsinin mətbu orqanı. "Kaspi" qəzetinin redaksiyası ilə komitənin mətbuat orqanın nəşri haqqında razılığa əsasən, qəzetin 30 aprel 1917 il 95-ci saymdan etibarən 4-cü səhifəsi "Bakı müsəlman ictimai təşkilatları komitəsinin xəbərləri" adı ilə çıxmağa başlamışdı. İyunun 9-dan etibarən "Xəbərlər"in müvəqqəti redaktoru Ceyhun bəy Hacıbəyli idi. Burada millətlərin öz müqəddəratını təyin etməsi problemi başlıca məsələ kimi işıqlandırılırdı. "Xəbərlər"də "Hazırkı vəzifələrə dair", "Milli komitədə", "Biz necə işləməliyik", "Vəzifələrimiz" başlıqları altında materiallar dərc edilirdi. Qəzetdə müntəzəm olaraq Şimali Qafqaz, Türküstan, Volqaboyu və digər türk diyarlarından xəbərlər dərc edilir, Rusiya xalqları arasında müsəlman və türk həmrəyliyi, Rusiyanın və dünyanın türk və müsəlman cəmiyyətlərinin quruluşu haqqında, "Müsavat" partiyasının təsir dairəsinin genişləndiyi, hətta Stavropolda öz şöbəsini yaratdığı barədə məlumatlar verilirdi. Rusiyanın müsəlman mətbuatından parçalar, "Müsavat" partiyasının orqanı olan "Açıq söz" qəzetindən tez-tez xülasələr, habelə gürcü və erməni mətbuatından yazılar da dərc edilirdi.

"Xəbərlər"də müsəlmanların seçkilərdə iştirakına, tibbi xidmətə, qadınların ictimai həyatda fəallaşmasına, tələbə gənclər və müsəlman ziyalıları arasında qarşılıqlı münasibət problemlərinə dair izahat işi aparılır, tövsiyələr verilirdi. Qəzetdə müsəlman memarlıq abidələri haqqında məqalələr dərc edilir, Bakıdakı Şirvanşahlar sarayının tarixi əhəmiyyəti, çar hakimiyyətinin ona etinasız münasibət bəslədiyi göstərilirdi. "Xəbərlər" Azərbaycanın rusdilli ziyalılarında və bütövlükdə, Azərbaycan xalqının siyasi şüurunun formalaşmasında, Rusiyanın türk və müsəlman xalqlarının həmrəyliyində əhəmiyyətli rol oynamışdır.

*Əd.: Гасанов Г., Комитеть Бакинских мусульманских организаций* "Tarix və onun problemləri", B., 2003, №2.

**"MÜCAHİD"** - Azərbaycan siyasi mühacirətinin Türkiyədə nəşr etdirdiyi aylıq jurnal. 1955 ilin iyulundan 1962 ilin iyununa kimi Çingiz Göygölün redaktorluğu ilə çıxmışdır. İlk nömrəsindəki proqram məqaləsində ***"bütün gücünü məhkum türk ellərinin qurtuluş davasına və kommunizm ilə mücadiləyə"*** yönəldəcəyini bildirirdi.

Qafqaz birliyi ideyasına və bu fikrin daşıyıcılarına kəskin müxalifətdə duran *"Türk izi"* jurnalının nəşri dayandıqdan sonra çıxmağa başlayan "Mücahid" öz sələfinin mövqeyini bir qədər yumşaltsa da, yalnız türk birliyini qəbul etdiyini

downloaded from KitabYurdu.az

gizlətmir, "Türküstan, İdil-Ural, Şimali Qafqaz, Azərbaycan və Krım mücahidlərinin də müştərək bir türk cəbhəsi halında çalışmaları lüzumuna inandığını bəyan edirdi" ("Üçüncü cildə başlayarkən" məqaləsi, 1960, JV°25-26). Bununla bərabər, "Mücahid" Şimali Qafqazla Azərbaycan arasında dostluq və iş birliyi tərəfdarı və təbliğatçısı olmuşdur. "Şimali Qafqaz və Azərbaycan qardaşlığı" məqaləsində (1962, may-iyun, № 49-50) jurnal qeyd edirdi ki, Şimali Qafqazla Azərbaycan arasında sıx mənəvi yaxınlaşma mövcud olmuş, hətta Şimali Qafqazlılar Rusiyada çar rejimi devrildikdən sonra, qurduqları müstəqil Cümhuriyyətin dövlət dili kimi Azərbaycan türkcəsini qəbul etmiş, orta və ali məktəblərdə təhsilin türkcə tədrisinə qərar vermişdilər.

"Mücahid" türkdilli xalqların tarixi, ədəbiyyatı, adət-ənənəsi, tanınmış liderləri haqqında materiallar dərc etmiş, türkçülük, türk birliyi ideyasına öz töhfəsini vermişdir.

**"MÜCAHİD"** (ərəbcə *mübariz, döyüşçü)* - Bakıda işləyən və əksəriyyəti Cənubi Azərbaycandan gəlmiş fəhlələrin ilk sosial-demokrat təşkilatı olan İctimaiyyun-amiyyun partiyasının adlarından biri. Bax *"İctimaiyyun-amiyyun"*.

**"MÜDAFİƏ"** - Azərbaycanın siyasi partiyalarından biri. 1907 ilin mayında Tiflisdə yaradılmışdı. Partiyaya korpus topoqrafı podpolkovnik İbrahim *Vəkilov* rəhbərlik edirdi. Təşkilatın fəaliyyət dairəsi Yelizavetpol quberniyasının qərbini, əsas etibarilə, Qazax qəzasının və Tiflis quberniyasının bir sıra qəzalarını əhatə edirdi. Partiyanın yaradılmasında Ağabəy Qiyasbəyov, Hacı Kərim Samlı, A.Xəlilbəyov fəal iştirak etmişdilər.

"Müdafiə" təşkilatının möhürü



"Müdafiə" proqram sənədi kimi, *"Difai"* partiyasının proqramını qəbul etmişdi. Partiyanın buraxdığı intibahnamələrdə bildirilirdi ki, o, "müsəlmanların bütün ictimai işlərinə qarışacaq, onların arasında birlik yaradacaq, maarif və mədəniyyət işlərinə qayğı göstərəcəkdir". Partiya öz tərəfdarlarını millətin azadlığı və ədalət uğrunda mübarizəyə çağırırdı.

Partiyanın əsas diqqəti daşnakların azərbaycanlılara qarşı törətdikləri soyqırımları ilə əlaqədar çarizmin Azərbaycanın qərb qəzalarında yerləşdirdiyi kazak hissələrinin boykot edilməsinə yönəlmişdi. "Müdafiə" 1907 ildə Qazaxda yerləşdirilmiş hərbi hissələrə kömək göstərən əhaliyə xəbərdarlıq edərək, kazakların 1906 ildə azərbaycanlıların başına gətirdiyi müsibətləri onlara xatırladırdı.

Lakin üzvlərinin azlığı və polis tərəfindən təzyiqlərə məruz qalması üzündən "Müdafiə", müəyyən təbliğatçılıq fəaliyyəti istisna edilməklə, əməli fəaliyyət göstərə bilmədi və 1908 ildə fəaliyyətini dayandırdı. Bəzi mənbələrə görə, "Müdafiə"nin fəaliyyəti 1909 ilə qədər davam etmişdi.

*Əd:* Seyidzadə D.B., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat, B.. 1999; Вагирова И.С., Политические партии и организации Азербаиджана в начале XX века ,Б., 1997; Ахмедов А., Азербаиджанские тюрки вреволюций 1905 года, Б., 2002.

**MÜƏSSİSLƏR MƏCLİSİ,** Ümumrusiya müəssislər m ə c 1 i s i - dövlətin idarə formasını müəyyən etmək və konstitusiya hazırlamaq üçün ümumi seçki hüququ əsasında yaradılan ali nümayəndəli orqan. Müəssislər məclisi ideyası Rusiyada 20 əsrin əvvəllərində meydana gəlmişdi. Rusiyada Fevral inqilabından (1917) sonra yaranan *Müvəqqəti hökumət* Müəssislər məclisinin çağırılmasını başlıca vəzifəsi hesab edirdi. Martın 13 (26)-də Müəssislər məclisinə seçkilər haqqında qanun hazırlanması üzrə xüsusi müşavire (sədri kadet F.F.Kokoşkin idi) yaradılmışdı. O, mayın 25-də (iyunun 7-də) fəaliyyətə başlayaraq, sentyabrda işini başa çatdırmışdı.

Müvəqqəti hökumət iyunun 14 (27)-də Müəssislər məclisinə seçkilərin sentyabrın 17 (30)-də keçiriləcəyini, 30-da (oktyabrın 13-də) isə çağırılmasını elan etmişdi. Avqustun 9 (22)-da isə Müəssislər məclisinə seçkilər noyabrın 12 (25)-nə, çağırılması isə 28-nə (dekabrın 11-nə) təyin edildi. Seçkilər haqqında Əsasnamədə ümumi seçki hüququ əsasında proporsional seçki sistemi nəzərdə tutulurdu. Avqustun 7 (20)-də Müəssislər məclisinə seçkilər haqqında Ümumrusiya işləri üzrə komissiyanın (Vsevıbor) iclasları başladı. Onun əsas vəzifəsi seçkiyə texniki hazırlıq və keçirilməsi idi. Sentyabrda seçici siyahılarının hazırlanmasına başlandı, oktyabrda isə siyasi partiyaların namizəd siyahıları dərc olundu. *Oktyabr çevrilişindən (1917)* sonra Xalq Komissarları Soveti (XKS) 27 oktyabr (9 noyabr) tarixli qərarı ilə seçkilərin noyabrın 12 (25)-də keçirilməsini təsdiq etdi. Müxtəlif səbəblər üzündən seçkilər yalnız 39 seçki dairəsində vaxtında keçirildi. Bir sıra yerlərdı seçkilər noyabrın sonu - dekabrın əvvəllərində, bəzi ucqar dairələrdə isə yanvarın əvvəllərində keçirildi. XKS noyabrın 26-da (dekabrın 9-da) Müəssislər məclisinin 800 nümayəndədən 400-nün olduğu halda açılacağı barədə dekret qəbul etdi. Müəssislər məclisinə seçkilər 79 dairədə keçirilməli, burada 90 milyon seçici iştirak etməli idi. 67 dairə üzrə səsvermədə 44,4 milyon seçici iştirak etmişdi. 54 seçki dairəsi üzrə məlumata görə, seçicilərin 62%-i eser, menşevik və başqalarına, 25%-i bolşeviklərə, 13%—i kadetlərə və digər partiyalara səs vermişdi. Müəssislər məclisinə 715

downloaded from KitabYurdu.az

nümayəndə seçilmişdi. Tam olmayan məlumata görə, məclisdə eserlər 370 (52,4%), bolşeviklər 175 (24,8%), sol eserlər 40 (5,7%), kadetlər 17, menşeviklər 15, xalq sosialistləri 2, partiya mənsubiyyətini bildirməyənlər 1, milli qruplar 86 (12,2%) nümayəndə ilə təmsil olunurdular.

Müəssislər məclisinə seçkilər Cənubi Qafqazın, o cümlədən Azərbaycanın da siyasi həyatında mühüm rol oynadı. *Xiisusi Zaqafqaziya Komitəsi* nəzdində Müəssislər məclisinə seçkilər üzrə Mərkəzi Zaqafqaziya Komissiyası təşkil edilmişdi. Azərbaycanda yaradılmış müvafiq komissiyaya Fətəli xan Xoyski başçılıq edirdi. Müəssislər məclisinə seçkilərə hazırlıq işi bir sıra çətinliklərlə (seçici siyahılarının hazırlanması, maddi-texniki təminatın kifayət qədər olmaması, lazımi təlimatların vaxtında verilməməsi, əhalinin savad səviyyəsinin aşağı olması və s.) müşayiət olunurdu. Sentyabrın sonlarında qəzalarda seçkilərə hazırlıq işləri qaydaya düşsə də, Bakı şəhəri və mədən-zavod rayonlarında məsələ mürəkkəb olaraq qalırdı. Bolşeviklər mədən-zavod rayonları ərazisinin şəhər idarəsi dairəsinə qatılmasına çalışırdı. "Müsavat"”çılar da bunun tərəfdarı kimi çıxış edirdilər. Xüsusi Zaqafqaziya Komitəsi bu barədə göstəriş vermişdi. Müəssislər məclisinə seçkilər üzrə komissiya müsəlman qadınlarının seçkidə iştirakına xüsusi diqqət yetirmiş, onların səs verməsinin təmin olunması üçün 9 seçki dairəsində xüsusi binalar ayrılmasına icazə vermişdi. Cənubi Qafqazda, o cümlədən Azərbaycanda seçkilər 1917 il noyabrın 26-29-da keçirildi. Cənubi Qafqaz üzrə seçkilərdə 15 partiya, 2455274 seçici iştirak etdi. Səsvermənin nəticələrinə görə, gürcü menşevikləri 661934 (26,9%), "Müsavat" 615816 (25,1%), daşnaklar 558400 (22,7%), müsəlman sosialistləri bloku 159770 (6,5%), eserlər 117522 (4,8%), bolşeviklər 95581 (3,9%), menşevik hümmətçilər 84748 (3,5%), ittihad 66504 (2,7%) səs toplamışdı. Noyabrın 29-da Bakıda keçirilmiş seçkidə 160 min seçicidən 110 min nəfəri iştirak etmişdi. Seçkinin nəticələrinə görə, bolşeviklər 22,2 min, “müsavatçı”lar 21,7 min, daşnaklar 20,3 min, eserlər 18,8 min səs toplamışdı. Ümumi səsvermənin nəticələrinə görə hər 60000 səsə bir nümayəndə olmaqla gürcü menşevikləri 11, "Müsavat" 10, daşnaklar 9, müsəlman sosialist bloku 2, bolşeviklər, eserlər, menşevik "Hümmət" və ittihadçılar hərəyə bir yer qazandı.

Azərbaycan partiyaları Ümumrusiya Müəssislər məclisinə seçkilərdə 926838 səs, ümumi səsin 37,7%-ini aldı ki, bunun da 66,5%-i "Müsavat"ın payına düşürdü. Məclisə "Müsavat”dan Həsən bəy Ağayev, Məmməd Yusif Cəfərov, Məhəmməd Əmin Rəsulzadə, Xosrov Paşa bəy Sultanov, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli, Qazı Əhməd Məmmədbəyov; Müsəlman sosialist blokundan İbrahim Heydərov, Əlixan Qantəmir, Aslan bəy Səfıkürdski; "İttihad"dan Sultanməcid Qənizadə; "Hümmət"dən Cəfər Axundov seçilmişdilər.

Müəssislər məclisi 1918 il yanvarın 5 (18)-də açıldı. Bununla əlaqədar keçirilən nümayişin iştirakçıları ilə sovet hökumətinin hərbi qüvvələri arasında baş verən toqquşmada ölən və yaralananlar oldu. Müəssislər məclisinin iclasına 715 nümayəndədən 410-u gəlmişdi. Məclisdə V.M.Çernov başda olmaqla mərkəzçi eserlər üstünlük təşkil edirdilər. Bolşeviklər və eserlər 155 nəfər (30,5%) idi. Müəssislər Məclisi (sədri Çernov idi) Y.M.Sverdlovun ÜRMİK adından təklif etdiyi "Zəhmətkeş və istismar olunan xalqla-rın hüquq bəyannaməsi"nin müzakirəsini rədd etdi, sovet hökumətinin dekretlərini tanımadığını bildirdi. Bolşevik fraksiyası, sol eserlər və bəzi digər qruplar müxtəlif bəhanələrlə zalı tərk etdilər. 13 saat davam edən iclas saray mühafizəsi rəisinin tələbi ilə yanvarın 6 (19)-da səhər saat 5-də bağlandı. Yanvarın 6 (19)-dan 7 (20)-nə keçən gecə ÜRMİK Leninin məruzəsi əsasında Müəssislər məclisinin buraxılması haqqında dekret qəbul etdi. Müəssislər məclisi buraxıldıqdan sonra Cənubi Qafqazdan seçilmiş nümayəndələr 1918 il fevralın 22-də *Zaqafqaziya seyminin* yaradılması və hakimiyyətin ona verilməsi barədə qərar qəbul etdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Агамалиев Н., О выборах в Учредительное Собрание а Азербайджане, Изв.АН Азерб., ССР (серия истории ,философии и права), 1990 №4; Свиетоховский Т., Русский Азербайджан. 1905-1920. Формирование национального самознания в мусульманском сообществе, «Хазар», 1990, №2; Спирин А.Ь., Итоги выборов во Всероссийское Учредительное собрание в 1907 г., «История СССР» jurnalı, 1998, №2; Балаев А., Азербайджанское национальное движение в 1917-1918 гг., Б., 1998.

**MÜƏSSİSLƏR MƏCLİSİNƏ SEÇKİLƏR HAQQINDA ƏSASNAMƏ** - Azərbaycan Xalq Cümhuriyyətinin ali seçkili orqanın səlahiyyətlərini tənzimləyən sənəd. Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə Azərbaycan parlamentinə da-xil olan ayrı-ayrı fraksiyaların üzvlərindən yaradılmış Müəssislər məclisinə seçkilər keçirilməsi üzrə Mərkəzi Komissiya "Azərbaycan Cümhuriyyəti Müəssislər məclisinə seçkilər haqqında Əsasnamə" layihəsini hazırlayaraq parlamentin mü-zakirəsinə təqdim etdi. Əsasnamənin ilk müzakirəsi parlamentin 1919 il mayın 15-də keçirilən 38-ci iclasında parlament komissiyasının sədri M.Ə.Rəsulzadənin məruzəsi ilə başlandı. Müəssislər məclisinə seçkilər haqqında qanun layihəsinin 3-cü son oxunuşu isə parlamentin həmin il iyulun 21-də keçirilmiş 57-ci iclasında başa çatdı. Həmin iclasda Əsasnamənin təsdiqi barədə qanun qəbul olundu. Əsasnamə-nin 10-cu maddəsinə əsasən, həmin iclasda 21 nəfərdən iba-rət mərkəzi seçki komissiyası təşkil edildi. Əsasnamə 10 fəsil (ümumi müddəalar; seçki hüququ haqqında; Müəssislər məclisinə seçkiləri həyata keçirən təşkilatlar haqqında; seçici siyahıları; namizədlərin siyahıları haqqında; seçki bülletenlərinin verilməsi və sayılması haqqında; seçkilərin nəticələrinin müəyyən edilməsi haqqında; Müəssislər məclisinə nümayəndəlikdən imtina etmiş və ya çıxmış üzvlərin yerinə yeni seçkilərin keçirilməsi haqqında; seçkilərin azad və düzgün keçirilməsi haqqında; Müəssislər məclisinə seçkilər üçün xərclər haqqında) və 116 maddədən ibarət idi.

Əsasnamənin əsas müddəalarında göstərilirdi ki, Müəssislər məclisi cinsindən asılı olmayaraq ümumi, bərabər və gizli səsvermə yolu ilə seçilmiş üzvlərdən təşkil olunur. Əsasnamədə Müəssislər məclisinə 120 nəfər nümayəndənin

downloaded from KitabYurdu.az

seçilməsi nəzərdə tutulurdu. Seçkilərdə hər nümayəndə üçün bir seçki dairəsi və səsləri hesablamaq üçün seçki məntəqələri yaradılmalı idi. Əsasnaməyə görə, cinsindən, irqindən, milliyyətindən, dini mənsubiyyətindən asılı olmayaraq, 20 yaşına çatmış və səsvermə hüququ olan bütün Azərbaycan vətəndaşları səsvermə hüququna malik idilər. Bu Əsasnamə o dövrdə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində ən demokratik seçki hüququ müəyyən edən tarixi sənəd idi. Mərkəzi seçki komissiyası Müəssislər məclisinə seçkilərə hazırlığa başlamış və bu sahədə bir sıra işlər görmüşdü. Lakin Azərbaycanın 1920 il aprelin 27-də sovet Rusiyası tərəfindən işğah bu işin başa çatdırılmasına imkan vermədi.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c. I, B., 1998; *Азербайджанская Республика* (1918-1920). Законадательные акты (сборник документов), B., 1998.

**MÜHACİRƏT** (latınca *emiqro* - köçürəm, çıxıram) - 1) daimi və ya müvəqqəti (uzun zamana) yaşamaq üçün digər ölkəyə könüllü və ya məcburi köçmə; 2) hər hansı bir ölkədə yaşayan mühacirlərin toplusu. Mühacirətin tarixi uzaq keçmişdən başlamışdır. Qədim imperiyaların, sonralar isə Sasanilərin, Ərəb xilafətinin və digər dövlətlərin Azərbaycanda işğalçı siyasəti mühacirətə səbəb olmuşdu. Lakin müasir anlarıda mühacirət Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsilə [bax *Gülüstan müqaviləsi (1813)* və *Türkmənçay müqaviləsi (1828)]* bağlı olmuşdur. Çar Rusiyasının müstəmləkəçilik siyasəti, ermənilərin azərbaycanlılara qarşı soyqırımları Şimali Azərbaycandan, hakim dairələrin sosial-siyasi zülmündən narazılıq isə Cənubi Azərbaycandan əhalinin zaman-zaman mühacirətinə səbəb olmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaranan mühacirət, Azərbaycanın mühacirət tarixində yeni bir səhifə açmışdı. Cümhuriyyətin rəhbərlərinin böyük bir hissəsi, yeni qurulmuş sovet hakimiyyətinin ideya düşmənləri, keçmiş sahibkarların əksəriyyəti ölkəni tərk edərək, mühacirətə getmişdi. İlk dəfə olaraq, Azərbaycan mühacirəti siyasi cəhətdən təşkilatlanmış (bax *Siyasi mühacirət)*, ədəbi-bədii məktəb, (bax *Mühacirət ədəbiyyati)*, dövri mətbuat (bax *Mühacirət mətbuatı)* yaratmışdı. Bu dövr mühacirəti Azərbaycanda baş verən hadisələrə münasibətini bildirməyə, vəziyyətin dəyişdirilməsinə təsir göstərməyə çalışmışdır (bu barədə bax Əlimərdan bəy *Topçubaşov,* Məhəmməd Əmin *Rəsulzadə,* Mirzə Bala *Məmmədzadə,* Şəii bəy *Rüstəmbəyli,* Xəlil bəy *Xasməmmədov* və b.). Azərbaycan mühacirətinin yeni bir mərhələsi 1941-45 illər müharibəsi dövrünə təsadüf edir. İkinci dünya müharibəsindən sonra Cənubi Azərbaycandan, SSRİ-nin dağılmasından sonra isə Şimali Azərbaycandan mühacirətin miqyası artmışdır. Mühacirət Azərbaycan diasporunun yaranmasıvə mövqeyinin möhkəmlənməsinə mühüm təsir göstərmişdir.

*Azərbaycan siyasi mühacirləri. İstanbul (Türkiyə)*



*Əd.:* Bax *"Mühacirət ədəbiyyatı", "Mühacirət mətbuatı", "Siyasi mühacirət"* məqalələrinin ədəbiyyatına.

**MÜHACİRƏT ƏDƏBİYYATI,** Şimali Azərbaycanın mühacirət ədəbiyyatı - Azərbaycanın söz sənətinin mühüm qollarından biri. Azərbaycanın mühacirət ədəbiyyatı qədim tarixə malikdir. Belə ki, böyük filoloq alim Xətib Təbrizi (1030-1109) indiki İraqa mühacirət etmiş, ömrünün sonunadək Bağdadda yaşayıb-yaratmışdır. 12 yüzilin görkəmli Azərbaycan filosofu, şairi və nasiri Şihabəddin Sührəverdi (1154-92) bir çox qürbət elləri gəzib dolaşmış, ömrünün son illərini Hələbdə yaşamışdır. İmadəddin Nəsiminin (1369-1417) də faciəli ömrü Hələbdə bitmişdir. 16 yüzildə Azərbaycan şairlərindən Şahi, Süruri, Tüfeyli, Həbibi, Xəlili, Matəmi, Qasımi, Gülşəni, Bidari, Sahibi, Pənahi, Xəlifə, Xəzani (Əsiri), Bəsiri və başqaları Osmanlı imperatorluğunun müxtəlif bölgələrinə köç etmişlər. 17 yüzil şairlərindən Məsihi (1575-1655), Saib Təbrizi (1601-79), İbrahim Ordubadi bir müddət Hindistanda yaşayıb-yaratmışlar. Əslən Qarabağdan olan 19 əsrin məşhur təriqət şairi Seyid Nigari (1795-1886) həyat və yaradıcılığının mühüm bir dövrünü Anadoluda keçirmişdir. Sonrakı dövrün sənətkarları içərisində də mühacirətdə yaşayanlar az olmamışdır. Lakin Azərbaycan mühacirət ədəbiyyatı məfhumu 20 yüzilin siyasi mühacirətinin doğurduğu və formalaşdırdığı ədəbi-estetik anlayışı ifadə edir. Buna görə də Azərbaycan mühacirət ədəbiyyatı dedikdə, əsas etibarilə, 20 əsrdə siyasi səbəblərdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş ədəbi şəxsiyyətlərin yaradrcılıq irsi nəzərdə tutulur.

20 əsr Azərbaycan mühacirət ədəbiyyatı bir neçə mühüm inkişaf mərhələsindən keçmişdir. Bu dövrdə mühacirətin **ilk dalğası** hələ əsrin əvvəllərində, Birinci rus inqilabının (1905-07) məğlubiyyəti ilə əlaqədar azadfikirliliyin təqib olunması nəticəsində başlamışdı. Bu təqiblər nəticəsində 1908-10 illərdə Azərbaycanı tərk edən Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və başqaları Azərbaycan mühacirət ədəbiyyatının ilk mərhələsini formalaşdırmış, onun bir sıra dəyərli nümunələrini yaratmışlar. 1909 ilin əvvəllərində İrana mühacirət edən M.Ə.Rəsulzadə Tehranda "İraninou" ("Yeni İran") qəzetini çıxarmış və onun səhifələrində müxtəlif səpkili məqalə, şer və tərcümələrlə çıxış etmişdir. M.Ə.Rəsulzadənin sonralar Türkiyədə və Azərbaycanda nəşr olunmuş xeyli elmi-nəzəri tədqiqatlarının və bədii əsərlərinin materialları da İranda yaşadığı illərdə toplanmışdır.

downloaded from KitabYurdu.az

1911 ilin mayında Rusiya səfirliyinin təzyiqi ilə Türkiyəyə getməyə məcbur olan ədib İstanbulda yenicə çıxmağa başlayan "Türk yurdu" jurnalında mühüm bir qismi ədəbiyyatşünaslıqla bağlı olan "İran türkləri" silsilə məqalələrini, "Səbilürrəşad" jurnalında isə həmin silsilənin davamı olan "İran tarixçeyi-inqilabı" əsərini nəşr etdirmişdir.

M.Ə.Rəsulzadə bununla yanaşı, Azərbaycanın və bütün Şərqin böyük mütəfəkkiri Cəmaləddin Əfqaninin "Məqalati-cəmaliyyə"sinin "Vəhdəti-cinsiyyə fəlsəfəsi və ittihadi-lisanın mahiyyəti-həqiqiyyəsi" bölümünü fars dilindən türkcəyə çevirərək, "Türk yurdu" jurnalında dərc etdirmişdir. Həmin dövrdə İstanbulda yaşayan Ə.Hüseynzadə və Ə.Ağaoğlu da "Türk ocağı"ında, "İttihad və tərəqqi" cəmiyyətində çalışmış, müxtəlif mətbuat orqanlarında ədəbi-publisistik yazılarla ardıcıl çıxış etmişlər.

20 əsrdə mühacirətin daha böyük və kütləvi xarakter daşıyan **ikinci mərhələsi** Azərbaycan Xalq Cümhuriyyətinin (1918-20) süqutu ilə başlamışdır. Təxminən 1920-40 illəri əhatə edən bu mərhələdə Azərbaycanın siyasi xadimləri ilə yanaşı, onlarla vətənpərvər ziyalı, alim, yazıçı ölkəni tərk etməyə məcbur olmuşdur. Bunların içərisində Əlimərdan bəy *Topçubaşov,* Ceyhun *Hacıbəyli,* Mirzə Bala *Məmmədzadə,* Almas *İldırım,* Əbdülvahab *Yurdsevər,* Kərim *Odər,* Əhməd Cəfəroğlu, Abbasqulu *Kazımzadə,* Məhəmmədəli Rəsuloğlu, Hüseyn Baykara, *Məmmədsadiq Aran,* Ümmülbanu (Banin) və başqaları kimi görkəmli şəxsiyyətlər vardır.

Mühacirət ədəbiyyatının bu mərhələsi janr baxımından da rəngarəngdir. Onun əsas nümayəndələri poeziya, nəsr, ədəbi tənqid, ədəbiyyatşünaslıq, publisistika ilə məşğul olmuşlar. Almas İldırım, Kərim Yaycılı, Əli Vulkan, Teymur Atəşli və başqalarının poeziya sahəsindəki uğurları diqqəti çəkməkdədir. Xüsusilə, Almas İldırımın yaradıcılıq irsi mühacirət poeziyasının ən kamil örnəklərindən sayılır.

Əhməd Ağaoğlunun, Ümmülbanunun, Ceyhun Hacıbəylinin, Səməd Ağaoğlunun, Qurban Səidin nəsr yaradıcılığı xüsusilə maraq doğurur. Ə.Ağaoğlunun bəzi siyasi-fəlsəfi yazıları, o cümlədən "Sərbəst insanlar ölkəsində", "Mən nəyəm?", "Könülsüz olmaz" əsərləri bədii səpkidə işlənmişdir.

Ümmülbanunun "Nami" (1943), "Qafqaz günləri" (1945), "Paris günləri" (1947), "Ernst Yunkerlə görüş" (1951), "Mən tiryəki seçdim" (1959), "Sonra" (1961), "Yad Fransa" (1968), "Son ümidin çağırışı" (1971), "İvan Buninin son höcəti" kimi bədii nəsr nümunələri onu təkcə Azərbaycan mühacirət ədəbiyyatının deyil, həmçinin fransız nəsrinin tanınmış nümayəndələrindən birinə çevirmişdir.

Səməd Ağaoğlunun bədii irsi əsas etibarilə "Strasburq xatirələri", "Zürriyyət", "Öyrətmən Qafur", "Böyük ailə", "Hücrədəki adam", "Qatırın ölümü" kitablarında toplanmışdır. Onun atası Ə.Ağaoğlu haqqında yazdığı "Babamı xatırlarkən" və "Babamın arkadaşları" əsərləri mühacirətdə yaranmış memuar nəsrinin ən dəyərli nümunələrindəndir. Bu dövrdə tənqid, ədəbiyyatşünaslıq və publisistika sahəsində də ciddi uğurlar qazanılmışdır. M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti", "İstiqlal məfkurəsi və gənclik", "Qafqazya türkləri", "İxtilalçı sosializmin iflası və demokrasinin gələcəyi", "Çağdaş Azərbaycan ədəbiyyatı", M.B.Məmmədzadənin "Milli Azərbaycan hərəkatı", Hilal Münşinin "Azərbaycan Cümhuriyyəti", Ə.Cəfəroğlunun "Azəri ədəbiyyatında istiqlal mücadiləsi" və s. əsərlər bu qəbildəndir. Azərbaycan folklorşünaslığının, ədəbiyyatşünaslığının, ümumən, filoloji fikrinin dünya miqyasında təmsilçilərindən biri olan Əhməd Cəfəroğlunun (1899-1975) tədqiqatlarında qədim türk yazılı abidələri, folklorşünaslıq, ədəbiyyatşünaslıq və nəzəriyyə problemləri, klassik və çağdaş Azərbaycan ədəbiyyatına dair araşdırmalar xüsusi yer tutur.

"Azərbaycan yurd bilgisi", "Türk amacı", habelə İstanbul Universitetinin nəşr etdiyi "Türk dili və ədəbiyyatı" jurnallarının redaktoru olan Ə.Cəforoğlu onların səhifələrində "Azəri xalq ədəbiyyatında sayaçı sözləri", "Gəncə dialektində 75 Azərbaycan bayatısının dil baxımından təhlili", "Dədə Qorqud dastanlarının antroponimlər sistemi" və s. ciddi nəzəri-analitik yazılar dərc etdirmişdir. Alimin mifologiya ilə bağlı araşdırmaları da ("Azəri türk ədəbiyyatında batil etiqadlar", "Anadolu və Azərbaycan uşaq folklorunda şamanizm qalıqları", "Azərbaycan və Anadolu folklorunda saxlanan iki şaman tanrısı") diqqətə layiqdir.

Ə.Cəfəroğlu klassik irsimizin və müasir ədəbi prosesin tədqiqi ilə də ardıcıl məşğul olmuşdur. 1932-33 illərdə nəşr etdirdiyi "XIX əsr azəri şairi Siraci", "XVIII əsr azəri şairi Məlik bəy Avçı", "Modern Azərbaycan ədəbiyyatına toplu bir baxış" və s. əsərləri müəllifin bu sahədə elmi uğurudur.

Azərbaycan mühacirət ədəbiyyatının **üçüncü mərhələsi** İkinci dünya savaşı, əsas etibarilə, 1941-45 illər müharibəsi nəticəsində mühacir ömrü yaşamağa məcbur olan siyasi-intellektual potensialı əhatə edir. Bu mühacir nəsli artıq yarım əsrə yaxın bir dövrdə formalaşmış olan mühacirət ədəbiyyatının özülü və sütunları üzərində yüksəlmiş, onun ideya məfkurəsini mənimsəmiş, ənənələrini davam etdirmişdir. Müxtəlif ədəbi janrlarda yazmış Süleyman Təkinər, Abay Dağlı, Əbdürrəhman Fətəlibəyli (Düdənginski), Alazan Baycan, Məhəmməd Kəngərli, Məcid Musazadə və başqaları həmin nəsli təmsil etməkdədir.

Bu mərhələdə memuar janrı xüsusilə inkişaf etmişdir. M.Ə.Rəsulzadənin "Stalinlə ixtilal xatirələri", M.S.Aranın "Hürriyyətə uçan türk", Süreyya Ağaoğlunun "Bir ömür böylə keçdi", Ə.Yurdsevərin "Azərbaycan istiqlal savaşından xatirələr", Nağı Şeyxzamanlının "Azərbaycan istiqlal mücadiləsi xatirələri" və s. əsərlər bu qəbildəndir.

M.Ə.Rəsulzadənin "Azərbaycan kültür gələnəkləri", "Azərbaycan şairi Nizami", "Çağdaş Azərbaycan tarixi", Ə.Yurdsevərin "Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri", "Azərbaycan dram ədəbiyyatı", "Sabirin Azər-

downloaded from KitabYurdu.az

baycan ədəbiyyatındakı yeri", "Azərbaycan şairlərindən Vaqif və Vidadinin yaradıcılığı", H.Baykaranın "Azərbaycanda yeniləşmə hərəkatları", "Azərbaycan istiqlal mücadiləsi tarixi", M.B.Məmmədzadənin "Qafqaz tarixində türk Albaniya", Kərim Odərin "Azərbaycan" və başqa ədəbi-tənqidi və publisistik tədqiqatları bu dövrün məbsuludur.

Mühacirət ədəbiyyatının bu mərhələsinin görkəmli nümayəndələrindən olan Abay Dağlının "Füzuli", "Dədə Qorqud", "Gənc ata", "Sakarya gərargahı", "Malazgirddən Sakaryaya", "Sakaryada 22-ci gün", "Albay", "Natəvan", "Əsir ruhlar", "Okullular" və başqa pyesləri Türkiyə ədəbi-mədəni mühitində maraqla qarşılanmır.

Mühacirət ədəbiyyatının son mərhələsi Güney Azərbaycanda İslam rejiminin (1979) formalaşması ilə əlaqədar başlamışdır. Təxminən həmin illərdən etibarən keçmiş Sovetlər Birliyində milli azadlıq hərəkatının güclənməsi, "yenidənqurma", "aşkarlıq" və s. kimi siyasi proseslər dəmir pərdənin tədricən aradan götürülməsinə gətirib çıxarmış, bu isə mühacirətin yeni bir dalğasının yaranmasına təkan vermişdir. Bu illərdə mühacirətin yaranmasını şərtləndirən əsas amil, bir tərəfdən, Vətənimizin güneyində yaşayan soydaşlarımızın milli hüquqlarının tapdanması ilə bağlıdırsa, digər tərəfdən, Quzeydə milli-azadlıq hərəkatının güclənməsi, itirilmiş dövlətçiliyin bərpa olunması (Azərbaycan Respublikasının yaranması), azad, demokratik dünya ilə əlaqə və rabitə ehtiyaclarının reallaşmasıdır.

Mühacirət ədəbiyyatının müasir mərhələsinin özünə-məxsusluğunu şərtləndirən cəhətlərdən biri onun daha çox Güneydəki ədəbi potensiala söykənməsidir.

Bu mərhələnin özünəməxsusluğunu şərtləndirən əsas amillərdən biri həmin mərhələdə Azərbaycanın hər iki parçasının - həm şimalının, həm də cənubunun ədəbi potensialının birgə iştirakı, istiqlalçılıq, vətənçilik, dövlətçilik dünyagörüşü zəminində Bütov Azərbaycan məfkurəsini formalaşdırmaq cəhdi ilə bağlıdır. Bu, olduqca mühüm əhəmiyyət kəsb edən və mübacirətin keyfiyyətcə yeniləşməsini göstərən siyasi-mədəni amildir.

Azərbaycanın şimalında istiqlaliyyətin bərpasından sonra Azərbaycan türklərinin məskunlaşdığı ayrı-ayrı ölkələrdə təşkilatlarına işləri sürətlənmiş, yeni-yeni mərkəz, ocaq və cəmiyyətlər meydana gəlmişdir. Məhz bu təşkilatlanma nəticəsində Azərbaycan diasporunun güclənməsi milli-mədəni mərkəzlərin yaranması prosesini sürətləndirmiş, bu isə özlüyündə mühacirət ədəbiyyatının inkişafına və yeni mərhələyə qədəm qoymasına ciddi zəmin hazırlamışdır.

Mühacirətin son mərhələsi mətbuatın kütləvi inkişafı ilə də bağlıdır.Əgər əvvəlki illərdə Azərbaycan mühacirət mətbuatı əsas etibarilə Türkiyə və Avropa ölkələrini əhatə edirdisə, hazırda Amerika Birləşmiş Ştatlarından tutmuş Yaponiyaya qədər dünyanın bir çox ölkələrində mühacirət mətbuatı nəşr olunmaqdadır.

Azərbaycan mühacirət ədəbiyyatının son mərhələsindən danışarkən onu təmsil edən bir çox ədəbi şəxsiyyətlərin uzun illik qürbət həyatı yaşasa da, ədəbi-kulturoloji fəaliyyətlərinin müstəqil Azərbaycan dövlətçiliyinin bərpasından sonra genişləndiyini qeyd etmək lazımdır.

Azərbaycan mühacirət ədəbiyyatının çağdaş mərhələsi janr baxımından da zəngin və rəngarəngdir. Mövcud ədəbi nümunələr içərisində poeziya, nəsr, dramaturgiya, tənqid və ədəbiyyatşünaslıqla bağlı əsərlərə təsadüf olunur. Mühacirətin poetik irsi Həmid Nitqi, Məhəmmədəli Mahmud, Turxan Gənceyi, Qulamrza Səbri Təbrizi, Əlirza Miyanalı və başqalarının adları ilə təmsil olunur. Onların poetik və elmi əsərləri ədəbiyyatımıza yeni mövzu və çalarlar gətirmiş, onu üslub baxımından zənginləşdirmişdir. Azərbaycan mühacirət ədəbiyyatının son mərhələsi özünün yayğınlığı və çoxməkanlılığı ilə də diqqəti cəlb etməkdədir. Belə ki, əgər əvvəlki mərhələlərdə mühacirətin fəaliyyəti, başlıca olaraq, Türkiyə, Fransa, Almaniya, Polşa kimi bir neçə ölkə ilə məhdudlaşırdısa, son mərhələdə bu ədəbiyyatın planetimizin əksər dövlətlərində yarandığı müşahidə olunmaqdadır.

Son illərdə Azərbaycan mühacirət ədəbiyyatının digər türk xalqlarının mühacirət ədəbiyyatı ilə əlaqəsi genişlənir. Bu əlaqələr gücləndikcə qürbətdə türk dünyasının vahid mədəniyyət məkanının yaranması daha intensiv səciyyə daşıyır. Bu proses, şübhəsiz ki, ədəbi düşüncədən də yan keçməmiş və qürbətdə yaranan ədəbiyyatına məzmununa, xarakterinə, ruhuna əhəmiyyətli təsir göstərmişdir. Mühacirətdə yaşayan Azərbaycan ədəbi şəxsiyyətlərinin yaradıcılığında türkçülük amilinin güclənməsi, həmçinin bir çox mühacir türk ədiblərinin Azərbaycan ünvanlı yazıları bu təsirdən qaynaqlanmaqdadır.

Azərbaycan mühacirət ədəbiyyatının sonuncu mərhələsini səciyyələndirən digər mühüm və fərqləndirici cəhət vaxtilə vahid ədəbi məkan hesab olunan postsovet regionunun bu gün mühacirətin məskunlaşdığı məkana inteqrasiya olmasıdır. Başqa sözlə, Azərbaycanın istiqlaliyyətə qovuşması sovet imperiyası dövrünün təbii miqrasiyasını birbaşa mühacirətin ədəbi potensialına çevirmişdir.

*Əd.:* Azərbaycan Demokratik Respublikası (məqalələr toplusu), B., 1990; Çəmənzəminli Y.V., Azərbaycan ədəbiyyatına bir nəzər, "Azərbaycan", 1989, № 9-10; Sultanlı V., Azərbaycan mühacirət ədəbiyyatı, B., 1998; Tahirli A., Azərbaycan mühacirəti B., 2001.

**MÜHACİRƏT MƏTBUATI,** Şimali Azərbaycanın mühacirət mətbuatı - Azərbaycan mətbuatının mühüm qollarından biri. Azərbaycan mühacirət jurnalistikasının tarixi 19 əsrin sonlarından başlayır. Həmin dövrdə görkəmli şərqşünas-alim, publisist, tənqidçi, ictimai-siyasi xadim Əhməd bəy Ağayev (Ağaoğlu), böyük mütəfəkkir və ideoloq Əli bəy Hüseynzade, yazıçı-publisist, tərcü-məçi, naşir və redaktor Ceyhun bəy Hacıbəyli, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri Məhəmməd Əmin Rəsulzadə, istiqlal şairi Məhəmməd Hadi mühacirət jurnalistikasının ilk və parlaq nümunələrini yaratmışlar.

Böyük demokrat Cəlil Məmmədquluzadənin 1921 ildə Təbrizdə nəşrini davam etdirdiyi "Molla Nəsrəddin" jurnalı da, əslində, başqa bir dövlətin (İran) ərazisində yayımlanan mühacir nəşr idi. Lakin sözün əsl mənasında, mühacirət

downloaded from KitabYurdu.az

mətbuatı dedikdə, Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra istiqlal mücadiləsini xaricdə davam etdirən Azərbaycanın siyasi mühacirlərinin - başda Məhəmməd Əmin Rəsulzadə olmaqla, Cümhuriyyət xadimlərinin və onların ardıcıllarının bütün 20 əsr boyu - SSRİ-nin süqutunadək, əsasən, Türkiyədə və bəzi Qərbi Avropa ölkələrində yaratdıqları mətbuat nəzərdə tutulur.

İstiqlal mübarizəsi ideoloqlarından biri Mirzə Bala Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" (1937) əsərində göstərilirdi ki, *"Yeni Qafqasyä"* (İstanbul, 1923-27) yalnız azərbaycanlıların deyil, rus əsarəti altınkı bütün türklərin xaricdə çıxardıqları ilk məcmuə idi.

1927 ildə "Yeni Qafqasya" Sovet İttifaqının Türkiyəyə təzyiqlərindən sonra fəaliyyətini dayandırdı. Lakin 1932 ilədək - Azərbaycan mühacirləri Türkiyədən çıxarılana qədər bu və ya digər adlarla öz nəşrlərini buraxmağa müvəffəq olmuşlar. Həmin müddətdə Azərbaycan mühacirləri İstanbulda "Azəri türk" (1928-30), "Yaşıl yarpaq" (1928), "Odlu yurd" (1929-31) məcmuələrini və "Bildiriş" qəzetini (1930-31) nəşr etmişlər. Həmin nəşrlərin də proqramları cüzi dəyişikliklərlə "Yeni Qafqasya"nın proqramının təkrarı idi. Jurnalda imtiyaz sahibi və məsul müdir kimi əvvəlcə Seyid Tahir, sonra Əhməd Haqqının adları göstərilsə də, əslində, nəşrə Məhəmməd Əmin Rəsulzadə rəhbərlik etmişdir.

"Yeni Qafqasya" ərəb əlifbası ilə, "Azəri-türk"ün ilk 20 sayı ərəb, sonrakı 10 nömrəsi latın əlifbası, sonrakı bütün nəşrlər isə latın əlifbası ilə buraxılmışdır. İstanbul nəşrlərinin ("Yeni Qafqasya", "Azəri-türk", "Yaşıl yarpaq", "Odlu yurd", "Bildiriş") müəllifləri, əsasən, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, A.Battal, Əbdülqədir, Ə.Z.Validi, Əli Mərdan, Ayaz İsaqi, Gültəkin, Ş.Rüstəmbəyli, Ə.Cəfəroğlu, Kırımılı Cəfər Seyid Əhməd, Məmməd Sadıq, Abdulla Cövdət, Hilal Münşi, Kamal, Seyid Əhməd, M. Ağaoğlu və b. idi.

30-cu illərədək Türkiyədə mühacirlər 7 kitab [M.Ə.Rəsulzadə, "Azərbaycan Cümhuriyyəti" (İstanbul, 1923), "Əsrimizin Siyavuşu" (İstanbul, 1923), "İstiqlal məfkurəsi və gənclik" (İstanbul, 1925), "Rusiyada siyasi vəziyyət" (İstanbul, 1925), M.B.Məmmədzadə, "Azərbaycan Misaqi millisi" (İstanbul, 1927), "Ermənilər və İran" (İstanbul, 1927), Şerlər məcmuəsi: "İstiqlal uğrunda" (İstanbul, 1928)] buraxmışlar.




Paris Sülh Konfransına (1919-20) yola düşən Azərbaycan nümayəndə heyəti də nəşr sahəsində faydah və fədakar fəaliyyət göstərmişdir. Onlar qısa vaxt ərzində Fransada 3 kitab, 12 bülleten nəşr etdirmişdilər.

30-cu illərdə azərbaycanlı mühacirlərin Türkiyədə yeganə mətbu orqanı professor Əhməd Cəfəroğlunun redaktorluq etdiyi "Azərbaycan yurd bilgisi" adlı ədəbi-nəzəri-elmi tedqiqat jurnalı (1932-34, 36 nömrə; 1954, 1 nömrə) olmuşdur. Jurnalda Azərbaycan xalqının tarixi, dili, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, coğrafiyası, həmçinin iqtisadiyyatı ilə bağlı çox sanballı materiallar, bir sıra türkdilli xalqların mədəni irsi, görkəmli xadimləri və istiqlal mücadiləsi qəhrəmanları barədə yazılar çap olunmuşdur.

Azərbaycanlı mühacirlərin xaricdə əcnəbi dildə nəşr etdikləri ilk mətbu orqanı 1926 ildə Parisdə C.Hacıbəylinin redaktorluğu ilə buraxılan "Azərbaycan" jurnalı olmuşdur. Azərbaycanlı mühacirlər Türkiyədən çıxarıldıqdan sonra, M.Ə.Rəsulzadənin redaktorluğu ilə Berlində "İstiqlal" (1932-34) qəzetini və "Qurtuluş" jurnalının (1934-39) nəşr etmişlər.

Mühacirlər 30-cu illərdə Fuad Daryalın tərtib etdiyi "Qafqaz almanaxı"nın 2 nömrəsini, "Müsavat" partiyasının 3 bülletenini və 30-40-cı illərdə Nağı Şeyxzamanlının "Biz və onlar" (İstanbul, 1934), Şəfı Rüstəmbəylinin "Yıxılan bütlər" (İstanbul, 1934), "M.Ə.Rəsulzadənin fəci süqutu" (İstanbul, 1935), M.B.Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" (Berlin, 1938), M.Ə.Rəsulzadənin "Das problem Azerbaidschan" (Berlin, 1938), Ə.Cəfəroğlunun "Azərbaycan" (İstanbul, 1940), Sənan Azərin "İran türkləri" (İstanbul, 1942), "Azərbaycan tarixindən" (Münxen, 1947), M.S.Aranın "Türkün altın kitabı "Kutadqu biliq" (İstanbul, 1944) kitablarını nəşr etdirmişlər.

downloaded from KitabYurdu.az

İkinci dünya müharibəsi ərəfəsi və dövrü mühacirlərin fəaliyyətində sönük və durğunluq mərhələsidir. Vermaxt öz nüfuz dairəsindəki ərazilərdə mühacirlərin bütün, o cümlədən nəşriyyat fəaliyyətinə yasaq qoyduğundan həmin dövrdə azərbaycanlı mühacirlərin fəaliyyəti xeyli zəifləyir. Lakin Azərbaycan Rabitə Heyətinin fəaliyyətə başlamasından, Azərbaycan legionerlərinin təşkilatlanmasından, xüsusilə 1943 ilin noyabrında azərbaycanlıların Berlində Azərbaycan Milli Birlik Mərkəzinin təşəbbüsü ilə keçirilən qurultayından sonra nəşriyyat fəaliyyəti sahəsində müəyyən canlanma əmələ gəldi. Legionerlər 1942-45 illərdə Berlində "Azərbaycan", "Hücum" qəzetlərini, "Milli birlik" jurnalını nəşr etmişlər.

Müharibədən sonra, xüsusilə soyuq müharibə başlanandan Azərbaycan mühacirləri yenidən təşkilatlanmağa, bolşevizmə və sovet rejiminə qarşı amansız ideoloji mücadiləyə girişdilər. 1949 ildə Ankarada "Azərbaycan Kültür Dərnəyi" təsis edildi. 1952 il aprelin 1 -dən dərnəyin "Azərbaycan" adlı aylıq jurnalı nəşrə başladı. Elə həmin tarixdən də Münxendə Azərbaycan və rus dillərində Milli Birliyin orqanı "Azərbaycan" jurnalı çıxmağa başladı. 50-ci illərdə Azərbaycan Kültür Dərnəyi 11 kitab nəşr etmişdir. M.Ə.Rəsulzadənin "Azərbaycan kültür gelenekləri" (Ankara, 1949), "Çağdaş Azərbaycan ədəbiyyatı" (Ankara, 1950), "M.F.Axundzadənin həyatı və əsərləri" (Ankara, 1950), "Nizami" (Ankara, 1951), "Azərbaycan dram ədəbiyyatı" (Ankara), "Sabirin Azərbaycan ədəbiyyatındakı yeri" (Ankara), "Azərbaycan ədəbiyyatında Vidadi və Vaqifin yaradıcılığı" (Ankara, 1952), Mirzə Balanın" Azərbaycan tarixində türk Albaniya" (Ankara, 1951), Kərim Odərin "Azərbaycan iqtisadiyyatı" (Ankara, 1952), Almas İldırımın "Seçilmiş şerlər"i (Ankara, 1953), Ə.Cəfəroğlunun "Azərbaycan dil və ədəbiyyatının dönüm nöqtələri" (Ankara, 1953) əsərləri həmin dövrün məhsuludur.

Ötən əsrin 60-70-ci illəri Azərbaycan mühacirəti, xüsusilə mühacirət mətbuatı tarixində süstlük və durğunluq dövrü kimi səciyyələndirilir. 70-ci illərin sonu - 80-ci illə-rin əvvəllərində mühacirlərin fəaliyyətində nisbətən canlanma yarandı. 1979-80 illərdə İran İslam inqilabından sonra hakimiyyətə gələn rejimin siyasəti yüz minlərlə azərbaycanlının ölkədən didərgin saldı. 1985-86 illərdə SSRİ-də başlanan aşkarlıq və yenidənqurma siyasəti imperiyanı süquta aparan milli azadlıq hərəkatının başlanmasına səbəb oldu. Şovinist ermənilərin Dağlıq Qarabağdakı seperatçılıq fəaliyyəti və onların azərbaycanlılara qarşı ağlasığmaz vəhşilikləri ölkə daxilində olduğu kimi, xaricdəki azərbaycanlılarda da kəskin etiraz və qəzəb doğurdu. Mühacir nəşrlərin başlıca mövzusu Azərbaycanın azadlığı, ərazi bütövlüyü və eyni zamanda, erməni vəhşiliyinin ifşası idi.

1978-90 illər ərzində yalnız "Azərbaycan Kültür Dərnəyi" nin xətti ilə 30-a yaxın kitab, bir neçə risalə çap edildi. Cemender Arslanoğlu və dr. İsmayıl Kayabalının ("Azərbaycan türkləri kültür tarixinin ana xətləri", Ankara, 1978; 'Türk milli kültürü", Ankara, 1981; "Bolqar türkləri", Ankara 1985), Cemender Arslanoğlunun ("Cənub-Qərbi Qafqaz hökuməti Müvəqqəti Milliyəsi", Ankara, 1986 və s., Əhməd Qaracanın ("Azərbaycanın yaxın tarixinə qısa bir baxış", Ankara, 1982), dr.A .Baycanın ("Könül sazından", Ankara, 1983; "Dağ çiçəkləri", Ankara, 1987), Şükrü Kaya Səfəroğlu və Adnan Müdərrisoğlunun ("Türk dövlətləri tarixi", Ankara, 1986), dr.Orxan Türkdoğanın ("Doğu Anadolunun sosial yapısı", Ankara, 1987), İshak Süngüroğlunun ("Harput yollarında" (Seçmələr), Ankara, 1987), dr.Ənvər Konukçunun ("Koroğlu"ya qədər Bingöl", Ankara, 1987), Cəmil Ünalın ("Türk və islam aləmində Azərbaycanın yeri", Ankara, 1987), Sədi Bayramın ("Güney Doğu Anadoluda proto-türk izləri", Ankara, 1988), dr.Ədhəm Ruhi Fığlalın ("Atatürk və din", Ankara, 1988), dr.Əbdürrəhman Güzəl və Kaya Səfəroğlunun ("Atatürk və milli birlik", Ankara, 1988), Yılmaz Öztunayın ("XX yüzilliyin son çərəyində Şərq məsələsi", Ankara, 1989), Məlahət Altunbayın ("Hürriyyətə uçan tükr", Ankara, 1989), dr.Mehmət Sarayın ("Qiyafət və layiqlik", Ankara, 1989) əsərləri, habelə üç hissədən ibarət "Azərbaycan türk ədəbiyyatı tarixində abidə şəxsiyyətlər" (Ankara, 1987), "Dağlıq Qarabağ xəyallar və gerçəklər" (Ankara, 1989) və s. kitablar Azərbaycan mühacirlərinin fəaliyyət dairəsinin genişliyinə dəlalət edir. Nağı Keykurun (Şeyxzamanlı) "İstiqlal mücadiləsi xatirələri" (İstanbul, 1969), Hüseyn Baykaranın "Azərbaycan yeniləşmə hərəkatları XIX yüz il" (Ankara, 1966), "Azərbaycan istiqlal mücadiləsi tarixi" (Ankara, 1975), "İran inqilabı və azadlıq hərəkatları" (İstanbul, 1978), Kərim Odərin "Azərbaycan", Taha Akyolun "Azərbaycan Sovetlər və ötəsi" (İstanbul, 1990), Əhməd Mehribaninin tərtib etdiyi "Dağlıq Qarabağ: tarixi sənədlər" (Fransa, 1989) və digər kitablar da diqqəti cəlb edir.

Azərbaycanın öz müstəqilliyini yenidən bərpa etmək uğrunda mübarizə apardığı illər - 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində mühacirət mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoydu. Həmin dövrdə və müstəqilliyin ilk illərində "Azərbaycan" (Ankara) jurnalı ölkədə gedən ictimai-siyasi prosesləri, xüsusilə Dağhq Qarabağ və onun ətrafında baş verən hadisələri diqqətlə izləyir və dərhal reaksiya verirdi. Türkiyədə ("Azərbaycan türkləri", "Xəzər", İstanbul, 1990), İsveçdə ("Araz", Lund, 1991; "Azərbaycan", Stokholm), Böyük Britaniyada ("Aydınlıq", 1988, London; "Odlar ölkəsi", 1988, Edinburq), Almaniyada ("Azər", 1990, Berlin; "Ana dili", 1984, Bonn; "Savalan", 1967, Berlin, "Ərk", 1975), İspaniyada ("Dədə Qorqud", 1988, Madrid), Belçikada ("Qürbət", 1984, Brüssel; "Odlu vətən", 1992, Brüssel), habelə keçmiş SSRİ məkanında-Rusiya Federasiyasında ("Azərros", "Azərbaycan XXI əsr", "Millətin səsi", "Azərbaycan diasporu", "Asudə vaxt", Moskva; "Azərbaycan media", İvanovo; "Azerbaycan", Yekaterinburq; "Bizim qəzet", Kemerovo; "Yurd", Saratov; "İnam", Sankt-Peterburq; "Azərbaycan", Vladivostok; "Dərbənd", Dərbənd), Estoniyada ("Ocaq, Tallin"), Ukraynada ("Savalan", Dnepropetrovsk; "Exo Azerbaydjana", "Qolos Azerbaydjana", Kiyev; "Millət", Simferepol),

downloaded from KitabYurdu.az

Moldovada ("Araz", Kişinyov) nəşr edilən qəzet və jurnallar mühacirət mətbuatı tarixində müəyyən iz qoymuşdur.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Tahirli A., Azərbaycan mühacirəti (tarixi, mətbuatı, mədəniyyət mərkəzləri), B., 2001; yenə onun, Azərbaycan mühacirət mətbuatı, hissə 1-2, B., 2002-03; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**MÜHƏNDİS İDARƏSİ** - Azərbaycan ordusunun istehkam bölmələrinin formalaşmasına, hərbi xarakterli mühəndis-istehkam qurğularının inşasına rəhbərlik edən orqan (bax, həmçinin *İstehkam idarəsi).*

**MÜLKƏDARLAR,** Şimali Azərbaycanda mülkədarlar -torpaq sahibləri. Çar Rusiyası Şimali Azərbaycanı işğal edərkən ona müqavimət göstərən bəy və ağaların torpaqlarını müsadirə etməklə dövlət torpaqlarının miqdarını artırır, onların iqtisadi gücünü qırmağa çalışırdı. Bəylərin və ağaların hüquqi-siyasi statusunda da qeyri-müəyyənlik qalırdı. Azərbaycanın bəy və ağalarına, gürcülərdən fərqli olaraq, rus zadəganları ilə eyni status verilməmişdi. Ona görə də Azərbaycan bəyləri və ağaları zadəgan-mülkədarlar deyil, mülkədarlar adlandırılırdı. Bununla belə, Rusiyada olduğu kimi, Şimali Azərbaycanda da mülkədarların əlində xeyli torpaq sahəsi var idi. Azərbaycan Xalq Cümhuriyyəti Əkinçilik Nazirliyinin məlumatına görə, xüsusi sahibkar və hüquqi şəxslərin torpaqlarının miqdarı Bakı, Gəncə və Zaqatala quberniyaları üzrə 936563 desyatin (1 *des.* = 100982 *hd)* idi. Həmin məlumata görə ölkədə 8484 torpaq sahibi vardı, hər torpaq sahibinə, orta hesabla, 110,4 desyatin torpaq düşürdü. Torpaq sahiblərindən 195 nəfəri daha çox torpağa malik idi. Onların içərisində Zülqədorovların (34278 *des.),* Məlikbəylərovların (14522 *des.,* Gəncə qəzası), Colalovların (21513 *des.),* Ağalarovların (9402 *des.),* Rüstəmbəyovların (5907 *des.),* Məlikbəylərovların (9376 *des.,* Cavanşir qəzası), Cavanşirovların (17670 *des.,* Cəbrayıl qəzası), de-Burun (6552 *des.),* Mirzəyevlərin (7318 *des.,* Quba qəzası), Şirvanskilərin (13146 *des.,* Salyan qəzası), Fərrux bəy Vəzirovun (8990 *des.,* Şuşa qəzası), Urmiyevlərin (39295 *des.,* Zəngəzur qəzası) daha çox torpağı var idi. Lənkəran qəzasında Talışinskilərin böyük torpaq sahəsi vardı. Naxçıvan qəzasında torpaqların 89,3%-i mülkədarların (xəzinə ilə birgə) əlində toplanmışdı. 182 bəy-xan və mülkədarın hərəsi isə 1000 desyatindən çox torpağa malik idi. Azərbaycan mülkədarları həmin torpaqlarda öz təsərrüfatlarının yaradılmasına xüsusi maraq göstərmir, əksəriyyəti torpaqlarını kəndlilərə icarəyə verirdi. Bununla belə, az da, olsa öz təsərrüfatını yaradıb, muzdlu əmək tətbiq edənlər də var idi. Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq, bəzi mülkədarlar, torpaqlarını banklara girov qoyurdu.

Rusiyada oktyabr çevrilişindən (1917) sonra mülkədarlar yeni qurulmuş hakimiyyətə qarşı mübarizəyə qoşulmuşdular. Azərbaycanda isə mülkədarlar Xalq Cümhuriyyətinin qurulmasında və möhkəmləndirilməsində iştirak edirdi. Cümhuriyyət hökuməti də öz siyasətində onların mənafeyinin qorunmasına xüsusi diqqət yetirirdi. Fətəli xan Xoyski 1918 il iyunun 22-də *Zaqafqaziya seyminin* aqrar qanununun Azərbaycana şamil edilməsini dayandırmış, həm dövlət, həm də xüsusi torpaqların tutulması hallarının aradan qaldırılmasını tələb etmişdi. *Bakı Xalq Komissarları Sovetinin* torpaq haqqında dekreti də ləğv olunmuşdu. *Aqrar məsələnin* holl edilməməsi nəticəsində Azərbaycan kəndində baş verən aqrar hərəkatlar zamanı da dövlət mülkədarların mövqeyini müdafiə edirdi. Mülkədarlar isə aqrar məsələnin həllinə köməklik göstərmək, dövlət üçün həyati əhəmiyyətə malik olan gərginlik mənbələrindən birini aradan qaldırmaq əvəzinə, müstəqilliyin yaratdığı imkandan öz mənafeləri üçün istifadə etməyə çalışırdılar. Azərbaycan Xalq Cümhuriyyətinin böyük ehtiyatla yanaşdığı mülkədar torpaq sahibliyi, Azərbaycan SSR dövründə aradan qaldırıldı. Azərbaycan İnqilab Komitəsinin 1920 il 5 may tarixli dekreti ilə torpaq üzərində xüsusi mülkiyyət hüququ ləğv olundu.

*Əd.:Адрес-календарь :. Азербаиджанской Республики* на 1920 г., Б.,1920; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Закондательные акты (сборник документов), Б., 1998; Декреть Азревкома Б, 1988; Rəhimov Ə.C., 1920-cr ildə Azərbaycanında mül-kədar torpaq sahibliyinin loğvi, B, 1962; Исмаилов М., Социально-економическая структура а Азербаиджане в эпоху империализма, Б., 1982; Сумбатзаде А.С., ., Социально-економическая предпосылылики победы Советской власти в Азербаиджананк, М, 1972,

**MÜMTAZ**, Salman Məmmədəmin oğlu Əsgərov görkəmli ədəbiyyatşünas-alim, mətnşünas, şair, publisist. Milli mətnşünaslığın inkişafında böyük xidməti olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) fəaliyyət göstərmiş "Yaşıl qələm" ədəbi cəmiyyətinin fəal üzviərindən idi (bax *Salman Mümtaz).*

**MÜNİRİ,** Ağadadaş Cəfərov (1863, Bakı yaxınlığındakı Hövsan k. - 1940, Bakı) - şair. Klassik qəzəl, qəsidə üslubunda yazmışdır. 19 əsrin 80-ci illərində Bakıda Məhəmmədağa Cürminin sədrliyi ilə təşkil edilmiş "Məcmə üşşüəra" ədəbi məclisinin fəal üzvlərindən olmuşdur. 20 əsrin əvvəllərində 1905 il inqilabı hadisələrinin tosiri ilə xalqı milli azadlığa, ictimai oyanışa səsləyən şerlər də yazmışdır. Müniri 1919 ildə Bakıda görkəmli yazıçı və tənqidçi Seyid Hüseynin rəhbərliyi ilə fəaliyyət göstərən "Yaşıl qələm" ədəbi cəmiyyətinin iclaslarında yaxından iştirak etmişdir. Əsərləri "Dirilik" (1914-16) jurnalında, "Türkcə qəzəllər" kitabında (1917), 1918-20 illər demokratik mətbuat səhifələrində dərc olunmuşdur. Əlyazması şəklində zəngin arxivi vardır.



Əsəri: Şerlər, "Deyilən söz yadigardır" (tərtib edəni Cəfər Rəmzi) kitabında, B., 1981.

**MÜNŞÜZADƏ** Hilal Mirzə Hüseyn oğlu, Hilal Münşi (12.4.1899, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il sentyabr tarixli qərarına əsasən, təhsilini dağ-mədən mühəndisliyi sahəsində davam etdirmək üçün Berlin

downloaded from KitabYurdu.az

Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilini bitirməsinə 1 il qaldığı göstərilirdi.

*Aprel işğalından (1920)* sonra Hilal Münşi Azərbaycan mühacirləri içərisində fəal siyasi iş aparmış, 1924 ildə Almaniyada təhsil alan azərbaycanlı tələbələrin yaratdığı "Azərbaycan İstiqlal Komitesi"nə sonralar sədrlik etmişdir. Onun rəhbərliyi ilə bu təşkilat uzun müddət Avropa ictimaiyyətinin və dovlətlərinin diqqətini Azərbaycanın müstəqilliyi məsələsinə cəlb edə bilmişdi. Hilal Münşi "Müsavat" partiyasının Berlin komitəsinə başçılıq etmiş, 1928 il mayın 28-də Berlində Azərbaycanın müstəqilliyinin elan olunmasının 10 illiyinin bayram edilməsinin əsas təşkilatçılarından olmuş, bu münasibətlə keçirilən iclas onun "1918 il 28 mayın əhəmiyyəti" mövzusunda çıxışı ilə açılmışdır. 1930 ildə Berlində almanca "Azərbaycan Cümhuriyyəti" əsəri nəşr olunmuşdur.1934 ildə Berlində Hilal Münşinin redaktorluğu ilə əsası qoyulan "Qurtuluş" jurnalı 1939 ilin sentyabrınadək fasiləsiz olaraq çıxmışdır. Mühacirətdə baş verən ixtilaflar dövründə Məhəmməd Əmin Rəsulzadənin mövqeyini müdafiə etmişdir. İkinci dünya müharibəsi başlayanda M.Ə.Rəsulzadə ilə birlikdə Berlində *Milli Azərbaycan Komitəsini* yaratmışdır.

*Əd.:* İbrahimli X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997; Qasımlı M., Güney Qafqasya böyük devletlerin mengenesinde: Azerbaycan tarihi 1920-1945 yılları, İstanbul, 2005.

**MÜRSƏL PAŞA BAKI** - türk generalı. Nuru paşanın komandanlığı altında Azərbaycana hərbi yardım üçün göndərilmiş *Qafqaz İslam Ordusunun* tərkibindəki Beşinci Qafqaz firqəsinin komandiri. Bakının azad olunmasında yaxından istirak etmişdir. 20 əsrin 30-cu illərində Türkiyədə soyadların tətbiqinə başlananda, Bakı adını fəxarətlə özünə soyadı seçmişdir (bax *Bakı Mürsəlpaşa).*

**MÜRŞİD** Balaqardaş (?-?) -istiqlal şairi. 1918-20 illər milli istiqlal poeziyasının nümayəndəsi. Əsərləri "Azərbaycan", "İstiqlal", "Hürriyyət", "Qurtuluş", "Gənclər yurdu", "Övraqi-nəfisə", "Bəsirət" kimi mətbuat orqanlarında çap edilmişdir. Şairin silsilə "Əsgər şerləri" ində ("Əsgər hərbə gedərkən", "Əsgər şərqisi", "Ana deyir", "Qarabağda həlak olmuş arkadaşının ruhuna ithaf", "Bu günün gənclərinə" və s.) vətənin fədakar oğullarına müraciət, azadlıq uğrunda mübarizəyə, milli istiqlalın qorunmasına çağırış motivləri güclüdür.

*Mənim eşqim ancaq Vətən eşqidir,*
*Könlümdəki Azərbaycan eşqidir.*

Ömrü boyu bu ideala sadiq qalan şair şerlərindən birində hərbə gedən əsgərin dilindən deyirdi:

*Mən gedirəm məqsədimə yetməyə,*
*Azərbaycanına xidmət etməyə!*

"Şühədayi-Vətən" şerində Mürşid dostu Məhəmməd Hadinin səsinə səs verir, vətən yolunda, Qarabağ müharibəsində şəhid olanların millətin qəlbində əbədiyyət qazandığını göstərir:

*Sən dəfəxr et, bambaşqadır bu ölüm,*
*Bənzəməzsən sən bir adi ölmüşə.*
*Cismin əgər gömülmüşsə məzara,*
*Ruhunu millət qəlbindədir həmişə.*

"Bir qaçqın cocuğun dilindən" şerində şair erməni quldurlarının əzab-işgəncə verdiyi, yurd-yuvasız qoyduğu, körpə qəlbinə sağalmaz yaralar vurduğu balaca uşağın fəryadını, üsyanını dərin ürək yanğısı ilə qələmə almışdır.

Yaradıcılığında Türk birliyinə, Azərbaycan türklərini milli dövlət ətrafında birləşməyə çağırış ruhlu şerlər də mühüm yer tutur.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998; Əliyeva A., Unudulmuşlar, "Elm" qəzeti, 1990,26 may.

**"MÜSAVAT"** (ərəbcə *bərabərlik)* - Azərbaycan milli-demokratik partiyası. 1911 ildə Bakıda keçmiş hümmətçilər (bax *"Hümmət")* Abbas Kazımzadə, Tağı Nağıoğlu və Məmmədəli Rəsulzadə (Rəsuloğlu; Məhəmməd Əmin Rəsulzadənin əmisi oğlu) tərəfından yaradılmışdır. 1913 ildən partiyaya mühacirətdən qayıtmış Məhəmməd Əmin Rəsulzadə rəhbərlik etmişdir. Partiyanın mətbuat orqanı *"Açıq söz"* qəzeti idi. Partiya Fevral inqilabına (1917) qədər qizli fəaliyyət göstərmiş və "Cəmiyyət" adlanmışdır.

"Müsavat"ın 1911 ildə yazılmış ilk proqramında bütün dünya müsəlmanları birliyə çağırılırdı. Səkkiz maddədən ibarət proqramda müsəlman ölkələrinin müstəqilliyinin bərpasına, bu ölkələrə mənəvi və maddi yardım göstərilməsinə, habelə müsəlmanların tərəqqisi, onların iqdisadi həyatlarının inkişafı üçün bütün mübarizə fomıalarının gücləndirilməsinə çağırış əksini tapmışdı. Partiyanın proqramı və "Müsavat"ın 1912 il Birinci Balkan müharibəsinin başlanması ilə əlaqədar yaydığı intibahnamə gostərir ki, müsəlman xalqlarının birləşməsi ideyası, hər şeydən öncə, bu xalqları zaman Türkiyə əleyhinə vahid cəbhədə çıxış edən Qərb ölkələri və Rusiya imperiyasına qarşı birgə mübarizəyə qaldırmaq üçün atılan addım idi. Lakin bu mütərəqqi ideyaya görə "Müsavat"a sovet tarixçiləri, o cümlədən bəzi Azərbaycan sovet tarixçiləri "panislamizm" damğası vurmuşlar.

"Müsavat"ın Mərkəzi Komitəsi Bakıda idi. Yerlərdə mərkəzdən təyin olunan və azı üc nəfərdən ibarət partiya özəkləri fəaliyyət göstərirdi.

1913 ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar verilmiş amnistiya nəticəsində Məhəmməd Əmin Rəsulzadə İstanbuldan Bakıya qayıtdı və həmin vaxtdan "Müsavat"a rəhbərlik etdi. 1915 ildə M.Ə.Rəsulzadə Qafqaz canişininin icazəsi ilə "Müsavat"ın mərkəzi mətbu orqanı olan "Açıq söz" qəzetini nəşr etməyə başladı. Həmin vaxtdan 1918 ilin martında bağlanana qədər milli inkişaf, Rusiyanın müsəlman əhalisinin xristianlarla hüquq bərabərliyi, 4-cü Dövlət Dumasının Müsəlman Fraksiyasının fəaliyyəti və başqa məsələlər qəzetin diqqət mərkəzində olmuşdur. "Acıq söz" qəzeti 1917 ilin aprelində təsis olunmuş Müsəlman İctimai Təşkilatları Şurasının və onun İcraiyyə Orqanının - Müsəlman İctimai Təşkilatları Komitəsinin (MİTK) də rəsmi mətbu orqanı idi. 1917 ilin fevralında Ru-

downloaded from KitabYurdu.az

siyada mütləqiyyətin süqutundan sonra "Müsavat" qizli fəaliyyətdən çıxaraq, MİTK-də fəaliyyətini gücləndirdi. Həmin dövrdə "Müsavat" 1917 ilin martında Nəsib bəy Yusifbəylinin başçılığı ilə Gəncədə yaradılmış və Azərbaycanın Rusiya imperiyası daxilində muxtariyyətini özünün məqsədi elan etmiş "Türk Ədəmi-Mərkəziyyət" partiyası ilə əməkdaşlığa başladı.

Qafqaz müsəlmanlarının 1917 il aprelin 15-də Bakıda açılmış birinci qurultayında M.Ə.Rəsulzadə Rusiya müsəlmanları üçün orazi müxtariyyətı tələbini və onun gələcəkdə Məclisi-müəssisanın gündəliyinə salınması təklifini irəli sürdü. M.Ə.Rəsulzadə ərazi muxtariyyəti ideyasını mayda Moskvada keçirilən Ümumrusiya müsəlmanlan qurultayında da müdafiə etdi. Nümayəndələrin müzakirəsinə verilən iki qətnamədən (Ə.Salikovun Milli-mədəni müxtariyyət və M.Ə.Rəsulzadənin ərazi müxtariyyəti qətnamələri) M.Ə.Rəsulzadənin ki qəbul olundu. Burada deyilirdi ki, *"Rusiyada müsəlman xalqlarının mənafelərini təmin edə bilən ən məqbul dövlət quruluşu forması milli ərazi federasiyası əsasında yaradılacaq demokratik respublikadır"*.

1917 il iyulun 3-də "Müsavat"la "Türk Ədəmi-Mərkəziyyət" partiyaları birləşdi. Yeni partiya "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" Partiyası" adlandırıldı. Buraxdığı bəyannamədə partiya özünü ***"Əməkçi kütlələrə, habelə Rusiyanın türk və digər müsəlman xalqlarının milli-mədəni istəklərinə arxalanan demokratik"*** partiya kimi təqdim edirdi. Həmin vaxtdan etibarən "Müsavat" Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynamağa başladı. Partiyanın sosial tərkibi ziyalılardan, fəhlələrin, qismən kəndlilərin, habelə burjuaziyanın nümayəndələrindən ibarət idi. 1917 il oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilər "Müsavat"ın nüfuzunun xeyli artdığım göstərdi. Bu seçkilərdə "Müsavat" ən çox səs (9617) toplayaraq, hələ 20 əsrin əvvəllərindən Azərbaycanda fəaliyyət gostərən sosialist partiyalarını xeyli qabaqladı.

1917 il oktyabrın 25-dən 31-dək Bakıda birləşmiş "Müsavat" partiyasının Birinci qurultayı keçirildi. Qurultay "Müsavat" partiyası Mərkəzi Komitəsinin tərkibi və onun iqamətgahı haqqında qərar qəbul etdi. Qərara əsasən "Müsavat" partiyasının mərkəzi orqanı Bakıda 9 nəfərdən ibarət tərkibdə fəaliyyət göstərməli idi. Mərkəzi orqana Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Əliş Məmmədzadə, Məhəmməd Əmin Rəsulzadə, Məmməd Həsən Hacınski, Qulam Şərifzadə, Şəfi bəy Rüstəmbəyli, Molla Qafar Axundov, İsgəndər Hüseynzadə, Səməd Əliisgəndərov, Musa bəy Rəfiyev, Oruc Orucov, Həmdi Qaraağazadə, Əbdüləli bəy Əmircanov və Mirzə Məmməd Axundovun namizədlikləri verilmişdi. Lakin partiyanın Mərkəzi Komitəsi aşağıdakı tərkibdə formalaşdı: Məhəmməd Əmin Rəsulzadə (sədr), Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyli, Məmməd Həsən Hacınski, Mirzə Məmməd Axundov, Musa bəy Rəfiyev. Mərkəzi Komitəyə tərkibə, əlavə olaraq, daha iki nəfərin cəlb edilməsi səlahiyyəti verildi.




# ПРОГРАММА

тюркской демократической партіи федералистовъ „МУСАВАТЪ".

*Принятая въ 1917 году 26 октября на первомъ партійномъ съѣздѣ въ Баку*) (Переводъ съ тюркскаго).*

Предисловіе.

„Жизнь человѣка—это постоянная борьба съ природой. Цивилизація—это завоеванія человѣчества въ этой борьбѣ. Цѣль и стремленіе человѣчества заключается въ упроченіи цивилизаціи (культуры) и въ распредѣленіи ея благъ. Общечеловѣческая цивилизація есть сумма культурныхъ завоеваній отдѣльныхъ націй.

Для упроченія завоеваній цивилизаціи и для общественной жизни человѣка необходимо созданіе культурнаго государства. И разъ неоспоримъ этотъ фактъ, то общечеловѣческая культура есть сумма національныхъ культуръ, то слѣдуетъ признать, что самымъ нормальнымъ и раціональнымъ государствомъ должно считаться государство національное,

*) Программа наша принята 26 октября 1917 года естественно въ связи съ новыми политическими обстоятельствами въ міровомъ масштабѣ въ своей политической части является устарѣлой и требуетъ кореннаго пересмотра на ближайшей партійной конференціи, конечно, съ новымъ курсомъ, принятым-

"Müsavat"'ın qurultayda qəbul olunmuş proqramı fəhlə və torpaq məsələlərini, milli və dini məsələləri, mülki hüquqları və s. əhatə edən 9 bölmədən və 76 bənddən ibarət idi.

Qurultay Azərbaycana milli-ərazi muxtariyyəti verilməsi uğrunda gələcək siyasi mübarizəsində partiyanın taktika və strategiyasını müəyyənləşdirdi.

Proqramda elan edilirdi ki, Rusiya öz dövlət quruluşuna görə vətəndaşların hüquq və azadlıqlarının konstitusiya ilə qorunacağı demokratik federativ respublika olacaqdır. Proqramda Rusiya imperiyasında yaşayan xalqların gələcək dövlət quruluşunun formaları federasiya və milli-məhəlli muxtariyyət kimi müəyyənləşdirilirdi. Federasiyaya daxil olan muxtar vahidlər öz aralarında, əsasən, iqtisadi baxımdan ittifaq bağlamalı, müdafiə məsələləri, maliyyə və gömrük sistemləri, xarici siyasət, dəmir yolları və s. isə mərkəzi hakimiyyətin sərəncamında olmalı idi.

Muxtar vilayətlərin hər birində rəsmi dil yerli xalqın, yəni həmin vilayətin əksəriyyətini təşkil edən əhalinin danışdığı dil olmalıdır. Parlamentə cinsindən, milliyyətindən və dini etiqadından asılı olmayaraq, 20 yaşına çatmış bütün vətəndaşlar seçilə bilərdilər. Rusiya ərazisində yaşayan bütün türk xalqları üçün milli və mədəni ittifaq yaradılması nəzərdə tutulurdu.

Proqramda dini məsələlərə də toxunulurdu. Milli mənsubiyyətinə və dini məzhəbinə fərq qoyulmadan Rusiya müsəlmanları üçün Müfti (Şeyxülislam) seçilirdi. Dini təşkilatların fəaliyyətinə nəzarət etmək üçün onun sədrliyi ilə bütün müsəlman vilayətlərinin nümayəndələrindən ibarət komissiya yaradılırdı. Vətəndaş hüquqları sahəsində milliyyətindən, dini etiqadından, partiya mənsubiyyətindən asılı ohnayaraq, federativ respublikanın bütün vətəndaşlarının qanun qarşısında bərabərliyi irəli sürülürdü.

İqtisadi və maliyyə siyasətində, gəlir vergisi istisna

downloaded from KitabYurdu.az

olmaqla, bütün vergilər ləğv edilirdi. Partiya yeni vergi növü - mirasdan vergi məsələsini irəli sürürdü. İqtisadiyyatın sürətli inkişafını təmin etmək məqsədilə partiya gömrük rüsumunun minimuma endirilməsinə nail olmağa çalışırdı. Əsas məsələlərdən biri arqar məsələ idi. Torpaqların dövlət fonduna verilməsi nəzərdə tutulurdu. Bütün xəzinə, xanədan, mülkədar torpaqları və xüsusi mülkiyyətdə olan torpaqlar təmənnasız olaraq, kəndlilərin tam miilkiyyətinə verilirdi. Sənəddə göstərilirdi ki, ayrı-ayrı şəxslərə məxsus maksimum torpaq həddi qanunla müəyyən edilir. Xüsusi mülkiyyət yalnız torpağın səthinə şamil olunurdu. Yerin təki isə dövlətə məxsus olmalı idi. Keçmiş torpaq sahiblərinə dəyən zərəri ödəmək üçün varlı təbəqədən mütərəqqi vergi tutmaq vasitəsilə yaradılan xüsusi fonddan ödənc verilməsi nəzərdə tutulurdu. Lakin partiyanın aqrar proqramı qarşıya qoyulan vəzifənin yeniliyi üzündən həddən çox ümumi, yarımçıq, hətta ziddiyyətli idi (bax *Aqrar məsələ)*.

Fəhlə məsələsində "Müsavat" partiyası, əsasən, RSDFP-nin II qurultayında (1903 il) qəbııl olunmuş proqramı bəyəndi. Bu proqrama əsasən, bütün fəhlələr üçün 8 saatlıq iş günii və həftədə 24 saatlıq fasiləsiz istirahət müəyyən olunurdu. İş vaxtından əlavə əmək fəaliyyəti qadağan edilirdi. 16-18 yaşlı yeniyetmələr üçün 6 saatlıq iş günü müəyyən edilir, eyni zamanda, uşaqların və mıktəb yaşlı yeniyetmələrin muzdlu əməyindən istifadə qadağan olunurdu. Qadın əməyindən istifadə olunan fabrik və zavodlarda südəmər uşaqlar üçün körpələr evləri açılmalı, qanunlara əməl olunmasına nəzarət etmək üçün müəssisələrdə fəhlə müfəttişliyi yaradılmalı idi. Əmək qanununu pozan sahibkarlar cinayət məsuliyyətinə cəlb olunurdular.

Məhkəmə quruculuğu sahəsində "Müsavat" partiyası məhkəmə orqanlarının yerli hakimiyyət orqanlarından tam müstəqilliyini irəli sürürdü. Məhkəmələr ancaq qanuna tabe olmalı idi. Mohkəmə xərclərinin əhalinin hesabına ödənilməsi ləğv olunurdu.

Xalq təhsili sahəsində ibtidai və ali təhsil müəssisələrində pullu təlim ləğv edilirdi. Təhsil hər bir muxtar vilayətin əksəriyyət təşkil edən əhalisinin dilində aparılmalı idi. Ali təhsil müəssisələrində təlim türk dilində keçirilməli idi. Bütün ali təhsil müəssisələrinə tam muxtariyyət verilirdi.

1917 ilin noyabrında Ümumrusiya Məclisi-müəssisanına seçkilərdə müsavatçılar 615816 səs (10 yer) qazana bildilər. Lakin bolşeviklərin *Oktyabr çevrilişi {1917)* nəticəsində yaratdıqları diktatura bu seçkili orqanın fəaliyyət göstərməsinə imkan vermədi. Məclisi I müəssisanın Cənubi Qafqazdan olan deputatları 1918 ilin fevralında Tiflisdə toplaşaraq, *Zaqafqaziya seyminin* yaradılması və bütün Cənubi Qafqazda hakimiyyətin bu orqana verilməsi barədə qərar qəbul etdilər. Seymdə Azərbaycanı 44 deputat təmsil edirdi ki, onların da 30-u müsavatçı və onlara qoşulan bitərəflər qrupuna mənsub idi. O zamankı mürəkkəb beynəlxalq və daxili vəziyyət, habelə milli mənafe ziddiyyətləri nəticəsində Zaqafqaziya seyminin fraksiyaları arasında xeyli gərgin münasibət yarandı. Bakı kommunasının başçısı S.Şaumyanın göstərişi və baçşılığı ilə daşnakların 1918 ilin martında Bakıda törətdikləri və 12 mindən çox azərbaycanlının qətlə yetirilməsinə səbəb olan soyqırımı [bax *Mart soyqırımı (1918)]* Zaqafqaziya seymi daxilindəki ziddiyyətləri daha da dərinləşdirdi. Müsəlman fraksiyası azərbaycanlı əhaliyə qarşı soyqırımını dayandırmaq üçün Bakıya qoşun göndərilməsini tələb etdirir, əks-halda hökumətin tərkibindən çıxacağını bildirdi. Lakin Bakı Sovetinin hərbi qüvvələri Zaqafqaziya seyminin Bakıya göndərdiyi qoşunu Kürdəmirə çəkilməyə məcbur etdi və Seymin azərbaycanlı deputatlarının Türkiyənin köməyinə ümid bəsləməkdən başqa çıxış yolu qalmadı. Zaqafqaziya seymi ilə Türkiyə arasında danışıqlar aparıldığı *Batum konfransında* Gürcüstan niimayəndə heyəti Almaniya ilə separat danışıqlara başladı, mayın 25-də *Zaqafqaziya Respublikasının* tərkibindən çıxdığını bildirdi və mayın 26-da müstəqilliyini elan etdi. Seymin müsəlman fraksiyasının mayın 27-də keçirilən fövqəladə iclasında Müvəqqəti Milli Şuranın yaradılması qərara alındı. "Müsavat”'ın lideri M.Ə.Rəsulzadə Şuranın sədri, bitərəf Fətəli xan Xoyski isə icraedici orqanın sədri seçildi. Milli Şuranın 1918 il mayın 28-də keçirilən tarixi iclasında *İstiqlal bəyannaməsi* qəbul edildi və Azərbaycanın müstəqilliyi elan olundu. F.x.Xoyskinin başçılığı ilə milli hökumət təşkil edildi. Müstəqil respublikanın 1-ci kabinəsinin üç naziri - N.Yusifbəyli, M.H.Hacınski və X.Xasməmmədov "Müsavat" partiyasının üzvü idilər.

1918 il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Tiflisdən Gəncəyə köçdü. Yaranmış tarixi şəraitdə Milli Şura buraxıldı və F.x.Xoyskinin başçılığı ilə 2-ci hökümət kabinəsi yaradıldı. Türkiyə və Azərbaycan qoşunlarından təşkil edilmiş *Qafqaz İslam Ordusu* homin il sentyabrın 15-də Bakını azad etdi. Azərbaycan Hökuməti Cümhuriyyətin bütün ərazisində öz hakimiyyətini təmin etdi.

1918 il dekabrın 7-də ölkənin, demək olar ki, bütün partiya və xalqlarının təmsil olunduğu Azərbaycan Parlamenti fəaliyyətə başladı. Parlamentin doqquz fraksiyasından ən böyüyü "Müsavat" fraksiyası idi. Parlamentin 79 deputatının 23-ü "Müsavat"ın üzvü idi. Yaradılan yeni koalisiya hökumətində də dörd nazir vəzifəsini müsavatçılar (F.x.Xoyski, N. Yusifbəyli, X.Xasməmmədov, M.Əsədullayev) tutdu. Lakin davam etməkdə olan iqtisadi böhran, fəhlə məsələsinin kəskinləşməsi və bəzi Parlament fraksiyalarının, xüsusilə "İttihad" fraksiyasının barışmaz mövqeyi bu hökumət kabinəsinin də uzun müddət işləməsinə imkan vermədi. 1919 il aprelin 14-də Parlament müsavatçı N.Yusifbəylinin başçılığı ilə sayca 4-cü hökumət kabinəsini təsdiq etdi. Yeni koalisiya hökumətində baş nazir istisna olmaqla, müsavatçı nazirlərin sayı ikiyə endirildi. Parlament fraksiyaları arasındakı ciddi ziddiyyətlər nəticəsində ölkədə daha da gərginləşən mürəkkəb siyasi və iqtisadi şərait N.Yusifbəyli kabinəsinin də uzun müddət işləməsinə imkan vermədi və o, 1919 ilin sentyabrında öz səlahiyyətlərini dayandırdı. "İttihad" fraksiyası və sosialistlərlə çoxsaylı müzakirələrdən sonra, nəhayət, həmin ilin dekabrında yenidən "Müsavat" partiyasının üzvü N.Yusifbəylinin başçılığı ilə 5-ci hökumət kabinəsini yaratmaq mümkün oldu.

1919 ilin dekabrında "Müsavat" partiyasının ikinci qurultayı keçirildi. M.Ə.Rəsulzadə qurultayı açaraq, partiyanın növbəti qurultayının Azərbaycan xalqının öz istiqlaliyyətinə qovuşduğu yeni tarixi şəraitdə və müstəqil Azərbaycanın paytaxtında keçirildiyini vurğuladı. O, partiyanın iki qurultay arasındakı dövrdə fəaliyyətinə siyasi qiymət verməklə yanaşı, onun millət qarşısında daşıdığı məsul vəzifələri xatırladaraq, onların şərəflə yerinə yetirilməsi naminə bütün partiya üzvlərini daha sıx birləşməyə çağırdı.

downloaded from KitabYurdu.az

Qurultayın rəyasət heyətinə M.Ə.Rəsulzadə (sədr), Ş.Rüstəmbəyli, M.Rəfıyev A.B.Rüstəmzadə, İbrahim Yusif (sədrin müavinləri), İ.Qəbulov, M.M.Axundov, D.Axundzadə və Mövsümzadə (katib) seçildilər.

Qurultaydakı ilk çıxışlarda “Müsavat”ın, bir siyasi partiya kimi, dövlət quruculuğu sahəsində aparıcı rolu qeyd olundu. Baş nazir N.Yusifbəyli, yollar naziri X.Məlik-Aslanov müstəqilliyin möhkəmləndirilməsində, xalqın mənafeyinin qorunmasında partiyanın göstərdiyi mühüm xidmətin tarixi əhəmiyyətini vurğuladılar.

MK-nın sədri M.Ə.Rəsulzadənin hesabat məruzəsində partiyanın birinci qurultaydan sonra keçən dövrdəki fəaliyyəti, ikinci qurultaydan qabaq Azərbaycandakı siyasi vəziyyət dərindən təhlil edilmiş, habelə partiyanın Parlament fəaliyyəti də əksini tapmışdı. Hesabat məruzəsi ciddi müzakirələrə səbəb oldu. Müzakirələrdə çıxış edənlər xüsusilə aqrar və fəhlə məsələləri üzrə partiya siyasətinin hesabatda kifayət qədər əks olunmadığını göstərərək, "Müsavat" nümayəndələrinin başqalarına nisbətən çoxluq təşkil etdiyi hökumətin bu sahədə hələ də ciddi bir qərar qəbul etmədiyini, buna görə də Azərbaycanda vəziyyəti yaxşılaşdırmaq üçün hökumət orqanlarının fəaliyyətinin gücləndirməsinin zəruriliyini vurğuladılar. Qurultay, nümayəndələrin tələbi ilə, partiyanın aqrar proqramının müzakirəsinə yenidən qayıtdı və dekabrın 8-də keçirilən 4-cü iclasını tamamilə həmin məsələnin müzakirəsinə həsr etdi. Məsələ barəsində fıkrini bildirən 20 nümayəndənin əksəriyyəti qurultayın aqrar komissiyasının mövqeyini müdafiə etdi. Dörd saatlıq müzakirədən sonra həmin komissiyanın irəli sürdüyü aşağıdakı qətnamə qəbul olundu: "1. Xəzinəyə, keçmiş çar ailəsinə, həmçinin mülkədarlara və xüsusi sahibkarlara məxsus olan torpaqlar əvəzsiz olaraq onların əlindən alınır və zəhmətkeş kəndlilər arasında bölüşdürülür; 2. Torpaqların zəhmətkeşlərə verilməsilə əlaqədar olaraq, suvarma qurğuları və mühərriklər alınır və onların dəyəri varlı siniflər üzərinə qoyulan gəlir vergisi hesabına yaranan fonddan ödənilir".

Fəhlə məsələsi üzrə müzakirələrdə çıxış edən bütün nümayəndələr fəhlələrin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün partiya rəhbərliyindən təcili tədbirlər görməyi tələb etdilər. Qurultay nümayəndəsi Cavad Məlik-Yeqanov çıxışında partiyanın fəhlə məsələsi ilə bağlı fəaliyyətini kəskin tənqid edərək, müstəqil Azərbaycan dövlətinin yaradılmasında və onun ərazi bütövlüyünün qorunmasında fəhlələrin rolunu xatırlatdı və bildirdi ki, bunun müqabilində onlara "heç də yaxşı şərait yaradılmayıb. Buna baxmayaraq, fəhlələr "Müsavat"ın arxasınca gedir və inanırlar ki, bu partiya onların iqtisadi vəziyyətini yaxşılaşdıracaq".

Qurultay Denikin ordusunun yaxınlaşmaqda olan müdaxilə təhlükəsi barədə qətnamə qəbul edərək, xalqı hökumətin ətrafında, habelə Qafqazın bütün respublikalarını azad Qafqaz Konfederasiyasında birləşməyə çağırdı. Qurultayda Məhəmməd Əmin Rəsulzadə başda olmaqla Mərkəzi Komitə seçildi. MK-nın tərkibinə Həsən bəy Ağayev, Nəsib bəy Yusifbəyli, Məmməd Həsən Hacınski, Şəfi bəy Rüstəmbəyli, Mehdi bəy Hacınski daxil oldular.

1920 il yanvarın 11-də Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətlər tərəfindən de-fakto tanındı. Bu, Əlimərdan bəy Topçubaşov başda olmaqla, Azərbaycan diplomatiyasının böyük qələbəsi idi. Denikinin müdaxilə təhlükəsinin artması, denikinçilər darmadağın olunduqdan sonra isə sovet Rusiyasının Cənubi Qafqazı işğal etmək təhlükəsinin güclənməsi, daşnakların təhriki ilə Qarabağda dövlətə qarşı qalxan qiyam, dərinləşməkdə olan daxili iqtisadi böhran 1920 ilin əvvəlində Azərbaycan Parlamentini və Hökumətini çox ağır vəziyyətə saldı. Parlamentdə bir tərəfdən "Müsavat", "İttihad" və "Əhrar" fraksiyaları, digər tərəfdən isə sosialistlər və bitərəflər arasındakı mübarizə və qarşıdurmalar-böhranı daha da dərinləşdirdi. Bu vaxt "Müsavat" partiyasında parçalanma baş verdi. Partiyanın M.H.Hacınskinin başçılıq etdiyi kifayət qədər güclü sol qolu meydana gəldi. Daxili işlər naziri olan M.H.Hacınski sosialist partiyaları ilə sövdələşməyə girdi və rusiyapərəst mövqe tutdu. Qətiyyətli mövqedə duran F.x.Xoyskinin tələbi ilə fevralda M.H.Hacınski vəzifəsini tərk etdi. Bu, “Müsavat”la "İttihad" və digər sosialist partiyaları arasındakı ixtilafları daha da dərinləşdirdi. "Müsavat”ın üzvü M.Vəkilov daxili işlər naziri, Ş.Rüstəmbəyli isə onun müavini təyin olundu. Lakin Parlamentdəki qarşıdurmanın güclənməsi, "Müsavat"dakı partiyadaxili ixtilaflar, bolşeviklərin fəallaşması və Rusiyanın müdaxilə təhlükəsinin artması hakim partiyanı yeni nazirlər kabinetinin təşkilini rusiyapərəst M.H.Hacınskiyə tapşırmağa məcbur

downloaded from KitabYurdu.az

etdi. Partiyalar arasında davam edən kəskin mübarizə, real surətdə hakimiyyətə gəlməyə hazırlaşan bolşeviklərin hökumətdə iştirakdan imtina etməsi M.H.Hacınskinin yeni kabineti təşkil etmək cəhdlərini boşa çıxardı. Aprelin 27-də başda Həmid Sultanov olmaqla, bolşeviklərin niimayəndə heyəti hakimiyyətin Fəhlə-Kəndli Şurası hokumətinə təslim edilməsi barədə Parlamentə ultimatum verdi. Eyni zamanda 11-ci Qırmızı ordu hissələri Bakıya daxil oldu. Ultimatum, müəyyən şərtlər daxilində, səs çoxluğu ilə qəbul edildi. Lakin hakimiyyəti ələ keçirən bolşeviklər həmin şərtlərin heç birini yerinə yetirmədi [bax, həmçinin *Azərbaycan Xalq Cümhuriyyəti* məqaləsinin tarix bölməsinə, *Bakı əməliyyatı (1920), İyirmi səkkiz aprel (1920)]*. Beləliklə, aprelin 28-də sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti devrildi. Müsəlman Şərqində ilk demokratik respublika süqut etdi. "Müsavat" partiyasına qarşı repressiyalar başlandı. Partiya üzvlərinin bir çoxu mühacirətə getdi, digər qismi isə 1920 ilin mayında Gəncə üsyanı yatırıldıqdan sonra güllələndi. Partiyanın başçısı M.Ə.Rəsulzadə isə Azərbaycan Fövqəladə Komissiyası tərəfindən həbs olundu. Lakin az sonra o, İ.V.Stalinin köməkliyi ilə Moskvaya getdi. 1922 ildə Petroqraddan gizli yolla Finlandiyaya gedən, sonra isə Türkiyəyə gələn M.Ə.Rəsulzadə ilk növbədə "Müsavat" partiyasının xarici bürosunu yaratdı və 1923 ilin iyunundan "Yeni Qafqasya" məcmuəsinin nəşrinə başladı. Xarici Büro əsasən, "Müsavat" partiyasının mühacirətdəki üzvlərindən təşkil olunmuşdu (bax *"Müsavat"partiyasının xarici bürosu).*

*Aprel işğalı (1920)* nəticəsində "Müsavat"ın əsas özəyi məhv edilsə də, partiyanın ayrı-ayrı nümayəndələri və tərəfdarları bolşevik rejiminə qarşı mübarizəni davam etdirdilər. İşğalın ikinci günü partiyanın gizli yığıncağı keçirildi. Sonra isə hökumətin icazəsi ilə keçmiş şəhər dumasının yerləşdiyi binada 300-dək adamın iştirak etdiyi ümumi iclas oldu. İclasda hökumətə müraciət qəbul olundu və təxminən 15 nəfərdən ibarət Mərkəzi Komitə seçildi. Onun tərkibinə Mirzə Bala Məmmədzadə (sədr), Məmmədsadıq Quliyev (təşkilat katibi), Əbdülvahab Məmmədzadə (müavin), Cəfər Cabbarlı (katib), Məmməd Həsən Baharlı (maliyyə katibi) və b. daxil oldular.

Lakin az sonra "Müsavat" partiyasının leqal fəaliyyət göstərmək hüququ ala bilməyəcəyi aydın oldu. Partiya fəaliyyətini gizli şəraitdə davam etdirmək qərarına gəldi. Gizli "Müsavat" təşkilatı 3 nəfərdən ibarət qruplar şəklində qurulmuşdu. Yalnız şəhər komitələri və Mərkəzi Komitə komissiyaları beş və ya yeddi nəfərdən ibarət idi.

Azərbaycan Dövlət Siyasi İdarəsinin məlumatından aydın olur ki, 1921 ilin axırlarında "Müsavat" partiyası *"Müstəqil Azərbaycan uğrundar* şüarı ilə hakimiyyəti ələ almağa hazırlaşıb. Bununla əlaqədar, partiyanın hərbi təşkilatının əsası qoyulmuşdu.

1923 ilin sentyabrında partiyanın gizli mətbəəsinin aşkar edilməsinin ardınca kütləvi həbslər həyata keçirildi. Ağır şəraitə baxmayaraq, "Müsavat" MK-nın ikinci tərkibi yaradılmış və 1926 ilin noyabrına qədər fəaliyyət 1 göstərmişdi. 1926 il martın 11-də Azərbaycan Fövqəladə Komissiyasının sərəncamı ilə MK üzvləri Dadaş Həsənov, Əhməd Hacınski, MK-nın müvəkkili Əli Yusifzadə və 34 nəfər digər partiya üzvü həbs edildi. Oktyabrda keçirilən növbəti həbslər zamanı partiyanın daha 31 üzvü həbs edilmiş və bununla da MK-nın ikinci tərkibi ləğv edilmişdi. Lakin tezliklə MK-nm üçüncü tərkibi də formalaşdı.

1923-26 illərdə partiya, sovet hökumətini silahlı üsyan yolu ilə devirmək məqsədindən əl çəkməsə də, öz taktikasını dəyişməyə və daha ehtiyatla fəaliyyət göstərməyə məcbur olmuşdu. Bu dövrdə əsas diqqət partiyanın yerli təşkilat və özəklərinin möhkəmləndirilməsinə, bolşevizmə qarşı təbliğatın gücləndirilməsinə və Xarici Büro ilə əlaqələrin genişləndirilməsinə yönəldilmişdi.

1926-31 illərdə Sovet-İngiltərə münasibətlərinin kəskinləşməsi ilə "Müsavat" partiyasının fəaliyyətində müəyyən canlanma baş verir. Silahlı üsyan cəhdləri yenidən yaranır, repressiyalar nəticəsində ləğv edilmiş təşkilatların bərpasına başlanır. Partiya bu dövrdə ideoloji mübarizəyə üstünlük verir, gənclərlə aparılan işə xüsusi diqqət yetirirdi.

1927 ildə Həsənağa Axundzadə (məsul katib), Haşım Aslanov (təşkilat şöbəsinin müdiri), Əliağa Aslanov (xəzinədar) tərəfindən "Gənc Azər" təşkilatı yaradılmışdı. "Gənc Azər" öz qarşısına, sosial vəziyyəti və partiya mənsubiyyəti nəzərə alınmadan, milli əhval-ruhiyyəli gənclərin təşkilata cəlb edilməsi, Bakıda və təşkilatın genişlənəcəyi halda, Azərbaycanın qəzalarında təhsil alan gənclər arasında fəal milli təşviqatın aparılması kimi vəzifələr qoymuşdu.

"Gənc Azər"in özəkləri ilk əvvəl Xalq Maarif Komissarlığının Bakı Pedaqoji Texnikumunda, Bakı Xalq Təhsili Şöbəsinin Pedaqoji Texnikumunda, Lenin adına fabrikdəki fəhlə fakültəsində yaradılmışdı. Təşkilata yeni üzvlərin cəlb olunmasına 1927-28 dərs ilinin əvvəlindən başlanmışdı. Bu dövrdə partiya əsasən, Xarici Büronun göstərişləri ilə fəaliyyət göstərirdi. Partiyadakı canlanma yeni repressiyalara səbəb oldu. 1929 ildə "Müsavat" partiyasının 1142 nəfər cəza orqanları tərəfindən həbs olundu. 1931 il həbsləri nəticəsində isə "Müsavat"ın fəallarının bir qismi güllələndi, digər qismi isə Azərbaycandan sürgün edildi. 1929 il yanvarın əvvəlində gənc müsavatçıların "Gənc Azər" təşkilatının rəhbər özəyi də Azərbaycan Dövlət Siyasi İdarəsi tərəfindən ləğv olundu. "Gənc Azər" təşkilatının istintaq işi 37 adamı əhatə etmişdi. Bunlardan 19 nəfəri Bakı Pedaqoji Texnikumunun tələbəsi, 7 nəfəri müəllim, 8 nəfəri qulluqçu və b. idilər. Bunlardan 13 nəfəri Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının (ALKGİ), 2 nəfəri isə Azərbaycan Kommunist (bolşevik) Partiyasının [AK(b)P] üzvləri idi. İş üzrə 7 adam həbs olunmuşdu. "Gənc Azər"dən başqa, ölkənin təhsil müəssisələrində bir sıra gizli təşkilatlar da ("Gənc Türklər Birliyi", "Zaqafqaziya Milli Mərkəzi", "Türkçülər" və s. fəaliyyat göstərirdi.

downloaded from KitabYurdu.az

1931-37 illərdə "Müsavat" mütəşəkkil təşkilata malik olmamışdır. Bu mərhələdə Azərbaycanın mütərəqqi fikirli ziyalıları, şair və yazıçıları həbsdən yayınan müsavatçılarla biriəşərək, gizli təşkilat və qruplar təşkil etmişlər. Onlar gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında, azadlıq və istiqlaliyyət ideyalarının yayılmasında mühüm rol oynamışlar. Bu dövrdə Azərbaycanın mütərəqqi fikirli ziyalılarının bir çoxu "müsavatçı" damğası ilə repressiyaya məruz qalmışlar.

1936 ildə keçirilən kütləvi həsblər və 1937 ildə davam etdirilən repressiyalar ölkə daxilində müsavatçılığa son qoydu. "Müsavat" partiyası Azərbaycan daxilində fəaliyyətini dayandırmağa məcbur oldu.

*Əd.:* Rəsulzadə M.Ə., Azərbaycan təşəkkülündə Müsavat, B., 1919; Адрес-календарь *Азербаиджанской Республики на 1920; Програмные документы мусьманских политических партий* 1917-1920 гг., Оксфорд, 1985; Müsavat Partiyasının Proqram və nizamnamə sənədləri, Gəncə, 1993; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; "Gənc Azər" (İstintaq materialları üzrə), B., 1993; İ b r a h i m l i X., Azərbaycan siyasi mühacirəti, B., 1996; Məmmədov X., Azərbaycan milli hərəkatı (1875-1918), B., 1996; Y a q u b l u N., Müsavat Partiyasının tarixi, B., 1997; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998; Oruclu M.R., Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), B., 2001; Məhmətzadə M.B., Milli Azərbaycan "Müsavat" Halk Fırkası tarihi, Ankara, 1991 (B., 1992); Гусеинов М.Д., Тюркская демократическая партия федералистов «Мусават» в прошлом и натоящем, Б., 1927; Багирова И.С., Политические партии и организации Азербаиджана в начале XX века, Б., 1997; Валаев А., Азербаиджанское национальное движение в 1917-1918 гг., Б., 1998.

**"MÜSAVAT" PARTİYASININ XARİCİ BÜROSU** - *Aprel işğalından (1920)* sonra "Müsavat"ın mühacirətdə fəaliyyət göstərən təşkilatı. Azərbaycanın işğalından sonra xaricə güclü mühacir axını başlandı. Siyasi mühacirləri təşkilatlandırmaq zərurəti yarandı. İşğaldan sonra xaricə gedən Azərbaycan siyasi mühacirləri Tehran, Gilan, Təbriz, Astara, Ərdəbil, Trabzon, İstanbul və başqa şəhərlərdə mühacir cəmiyyətləri yaratsalar da bu cəmiyyətlər qısa müddətdən sonra fəaliyyətlərini dayandırmışdılar. Yalnız "Müsavat"ın görkəmli nümayəndələrinin, xüsusilə Məhəmməd Əmin Rəsulzadənin xaricə mühacirətindən sonra müxtəlif ölkələrə səpələnmiş Azərbaycan mühacirlərini bir təşkilat ətrafına toplamaq mümkün oldu. M.Ə.Rəsulzadə 1922 ildə Türkiyəyə gələrək, ilk növbədə, "Müsavat" Partiyasının Xarici Bürosunu təşkil etdi.

"Müsavat" Partiyasının Xarici Bürosu ilk vaxtlar öz komitələrini partiya üzvlərinin daha çox məskunlaşdığı Türkiyə və İranda yaratdı. Bu komitələr geniş fəaliyyətə başladılar. İstanbulda fəaliyyət göstərən Xarici Büronun sədri Məhəmməd Əmin Rəsulzadə, katibi Mirzə Bala Məmmədzadə, xəzinədarı Xəlil bəy Xasməmmədov idi. Onlar Xarici Büronun Rəyasət Heyətini təşkil edirdi. Büro üzvləri Şəfı bəy Rüstəmbəyli və Mustafa Vəkilov Rəyasət Heyətinin üzvləri ilə birlikdə onun İcraiyyə orqamna daxil idilər ki, bunları da "beşlik" adlandırırdılar. Məmmədsadıq Axundzadə və Abbasqulu Kazımzadə Büronun üzvləri idilər. Bu dövrdə partiyanın İranda Cəfər Cəfərov (sədr), Məmmədəli Rəsulzadə və Qulam Şərifovdan ibarət Tehran (Rəşt və Ənzəli təşkilatları da bu komitəyə tabe idilər), Teymur bəy Məlik-Aslanovun sədrliyi ilə Təbriz komitələri (Ərdəbil və Astara təşkilatları bu komitəyə tabe idilər) fəaliyyət göstərirdi.

"Müsavat" partiyası Gürcüstan və Şimali Qafqaz milli təşkilatları ilə ittifaqa girmiş, ilk əvvəl Qafqaz İstiqlal Komitəsi təşkil etmiş, sonra isə istiqlalın bərpa ediləcəyi təqdirdə Qafqaz işlərini idarə edəcək *Qafqaz Konfederasiyası Şurasını* yaratmağa nail olmuşdu.

M.Ə.Rəsulzadənin rəhbərliyi ilə "Müsavat" partiyasının xaricdə fəaliyyətinin genişlənməsi Sovet hakimiyyəti dairələrində böyük narahathq doğururdu. 1925 ildə Sovet İttifaqının xarici işlər komissarı G.V.Çiçerin Bakıda keçirilən IV Sovetlər qurultayındakı çıxışında demişdi: ***"Son zamanlar miisavatçıların Türkiyədə fəaliyyətlərinin gücləndiyini qeyd etməmək olmaz- Biz dəfələrlə Türkiyə hökumətinə müraciət edərək, Sovet hökuməti əleyhinə intriqalara etirazımızı bildirmişik və buna, nəhayət, son qoyulmasını tələb etmişik".***

Bu dövrdə Türkiyənin beynəlxalq vəziyyətinin pis olması və böyük dövlətlərin bu dövlətə təzyiqinin artması onu eyni vəziyyətdə olan Sovet İttifaqı ilə yaxınlaşdırırdı. Sovet İttifaqımn tələbi ilə Türkiyədə müsavatçıların fəaliyyəti xeyli dərəcədə məhdudlaşırdı. 1931 ildə müsavatçılar Türkiyəni tərk etməyə məcbur oldular. Polşa hökuməti Azərbaycan mühacirlərini qəbul etdi. "Müsavat" partiyasının lideri M.Ə.Rəsulzadə himayəyə alındı.

İrandakı müsavatçılar içərisində fars və türk təmayülləri arasında mübarizə gedirdi. Fars meylli qüvvələrə parlamentin sabiq üzvü molla Mirzə Səlim Axundzadə başçılıq edirdi. İran hökumətinin nümayəndələri fars meylli qüvvələrin təsir dairəsini genişləndirmək məqsədilə onlara maddi yardım göstərirdilər. Türk təmayüllü qüvvələrə isə Məmmədsadıq Quliyev rəhbərlik edirdi. M.B.Məmmədzadə İstanbula getdikdən sonra M.Quliyev Xarici Büronun Cənubi Azərbaycandakı nümayəndəsi təsdiq olunmuşdu.

1931-32-ci illərdən sonra Azərbaycanın daxilində və xaricdə "Müsavat" təşkilatlarının fəallığının zəifləməsi müşahidə olunurdu. Bu, bir tərəfdən, Azərbaycan Dövlət Siyasi İdarəsinin müntəzəm olaraq keçirdiyi həbs və sürgünlərlə, digər tərəfdən isə, "Müsavat"ın Xarici Bürosu və *Azərbaycan Milli Mərkəzi* (AMM, İstanbul) daxilindəki fikir ayrılığının və ixtilafların dərinləşməsi ilə əlaqədar idi. Belə ki, "Müsavat"ın Xarici Bürosunun və AMM-in İstanbul qrupunda Mustafa Vəkilov, Şəfi bəy Rüstəmbəyli, Xəlil bəy Xasməmmədov və digərləri M.Ə.Rəsulzadəyə müxalif mövqedə dururdu. Getdikcə dərinləşən ixtilaflar Müsavat mərkəzlərinin fəaliyyətini çətinləşdirdi. Vəziyyəti nizamlamaq məqsədilə 1928 ildə partiyanın rəhbər orqanı olan Divanm yenidən formalaşdırılması qərara alındı. Yeni Divan ayrı-ayrı partiya mərkəzlərinin təmsilçilərindən ibarət olmalı idi. Əksəriyyətin qəbul etdiyi qərara qarşı çıxdıqlarına görə Ş.Rüstəmbəyli, X.Xasməmmədov, M.Axundzadə İstanbul təşkilatından xaric edildilər. Lakin tezliklə

downloaded from KitabYurdu.az

nüfuzlu partiya üzvlərinin səyi ilə partiyada parçalanmasının qarşısı alındı. İlk vaxtlar ixtilafların səbəbi, formal olaraq, "Müsavat"'ın Xarici Bürosunun və AMM-in İstanbuldan Parisə və yaxud Varşavaya köçürülməsi məsələsində yaranmış fikir ayrılığı kimi qələmə verilsə də, əslində, bu mübarizə partiyaya rəhbərlik, onun rəhbər xadimlərinin təsir dairəsinin müəyyən edilməsi ilə bağlı idi. Getdikcə güclənən təşkilatdaxili çəkişmələr 1934 ildə bir qrupun partiyadan xaric edilməsi ilə nəticələndi.

1936 ilin avqustunda Varşavada Milli Müsavat Xalq Partiyasının qurultay səlahiyyətli konfransı keçirildi.

Konfransda M.Ə.Rəsulzadə "Milli hərəkatda birgə" mövzusunda hesabat məruzəsi ilə çıxış edərək, partiyanın həm Azərbaycanın daxilində, həm də mühacirətdə öz taktiki xəttini düzgün müəyyənləşdirdiyini bildirdi. O, *"şəxslər müvəqqəti, ideologiya əbədidir"* tezisini əsas tutaraq, müsavatçıları ideologiyaya sadiqliyə çağırdı. Konfrans partiya sıralarının təmizlənməsi məsələsini müzakirə edərək, ilk növbədə, partiya rəhbərliyinin Mir Əziz Seyidli və Şəfi bəy Rüstəmbəylinin partiyadan xaric olunması haqqında vaxtilə çıxardığı qəran təsdiq etdi. Sonra isə Nağı Şeyxzamanlı, Xəlil bəy Xasməmmədov və Səlim Ağasıbəyli partiya sıralarından xaric olundular.

Konfrans partiyanın 7 nəfərdən ibarət Divanını seçdi, Divan üzvlüyünə sonradan daha iki nəfərin cəlb olunması haqqında qərar qəbul edildi.

Partiyanın əvvəlki proqramının qəbulundan keçən müddət ərzində milli və beynəlxalq sahədə baş verən fövqəladə hadisələri özündə əks etdirən "Yeni Proqram Əsasları" müzakirə edilərək qəbul olundu. "Yeni Proqram Əsasları"nda partiyanın məqsədləri 1917 il proqramına nisbətən daha aydın ifadə olunurdu.

1917 il proqramındakı *"Mitti istiqlal və ya muxtariyyətə malik olmayan bir mittət hürriyyət və mədəniyyətini hifz etməz"* tezisi yeni proqramda təkmilləşdirilərək, *"Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti rus istilasından qurtulacaq, qeydsiz-şərtsiz müstəqil bir dövlət halında yaşayacaqdır"* şəklində ifadə olunmuşdu. "Yeni Proqram Əsasları"nda müsavatçılığın *"böyük türk kültürünə bağlı, milli, mədəni və insani dəyərləri mənimsəyən, hürriyyət, cümhuriyyət və istiqlal idealına sadiq Azərbaycan vətənpərvərliyindən"* ibarət olduğu göstərilirdi. Birinci proqramında millətin siniflərdən ibarət olduğunu və "Müsavat"'ın zəhmətkeş xalqın mənafeyini müdafiə etdiyini bildirən Partiya "Yeni Proqram Əsasları"nda fərdlə ümuminin mənafelərinin uzlaşdırılması, hər cür sinif və zümrə hakimiyyətinin rədd edilməsini nəzərdə tutan daha mükəmməl nəzəriyyə irəli sürürdü.

"Yeni Proqram Əsasları"nda sözdə sülhsevər cildə girən Sovet hökumətinin iç üzü açılıb göstərilir, bolşevizmin əleyhinə olan beynəlxalq təşkilatlarla əlaqə yaradılmasının, Azərbaycanın istiqlal mübarizəsinin bütün dünyada beynəlmiləl məsələ səviyyəsinə qaldırılmasının zəruriliyi qeyd olunur, həmçinin, Milli İstiqlalı bərpa etmək və onu hər cür təhlükələrdən qorumaq üçün siyasi müqəddəratları eyni olan Qafqaz xalqları ilə konfederasiya əsasında bağlılığın vacibliyi nəzərə çarpdırılırdı. Varşava konfransı müsavatçılığın ideoloji cəhətdən dolğunlaşmasında və partiyadaxili ixtilafların aradan qaldırılmasında mühüm rol oynadı. Belə ki, 1936 il konfransından sonra partiya daxilində ixtilafların olması ilə bağlı heç bir fakt məlum deyil.

Aprel işğalından sonra "Müsavat" partiyası Türkiyə, İran, Fransa və Polşada məskunlaşan müsavatçıları və digər Azərbaycan mühacirlərini vahid təşkilat ətrafında birləşdirməyə nail olmuşdu. "Müsavat" partiyasının Xarici Bürosu və AMM Azərbaycan mühacirlərinin bolşevizmə qarşı mütəşəkkil mübarizəsini təmin etmiş, ölkə daxilində fəaliyyət göstərən müsavatçılarla əlaqələr yaradaraq, onların sovet hakimiyyəti əleyhinə mübarizəsini istiqamətləndirmişlər. Partiya, eyni zamanda, bolşevizmə qarşı mübarizə aparan xalqların mühacirətdəki nümayəndələri ilə birlikdə antisovet təşkilatların yaradılmasına çalışmış və bu təşkilatların işində fəal iştirak etmişdir (bax, həmçinin *Siyasi mühacirəi)*.

*Əd.:* İbrahimli X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997, Oruclu M, Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992), B., 2001.

**"MÜSAVAT" VƏ BİTƏRƏFLƏR FRAKSİYASI** -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin aparıcı fraksiyası. Parlamentin fəaliyyətə başladığı ilk vaxtlarda fraksiya üzvlərinin sayı 18 nəfər idi. Parlamentin bütün fəaliyyəti dövründə "Müsavat" fraksiyasına Məhəmməd Əmin *Rəsulzadə* rəhbərlik etmişdir.

Parlamentin 1918 il dekabrın 10-da keçirilmiş ikinci iclasında, ilk olaraq, Türk Ədəmi-Mərkəziyyət "Müsavat" Partiyası fraksiyasının rəhbəri M.Ə.Rəsulzadə öz partiyasının fəaliyyəti və gələcək planları barədə bəyannaməni elan etdi. O bildirdi ki, "Müsavat" partiyası həm Rusiya Müəssislər Məclisinə seçkilər zamanı, həm də Zaqafqaziya seymi dövründə bitərəf və partiyasız ictimai xadimlərin demokratik qrupları ilə fraksiya təşkil edərək, onlarla birlikdə fəaliyyət göstərmişdir. M.Ə.Rəsulzadə "Müsavat" partiyasının öz ideallarına sadiq qaldığını, həmişə ədəmi-mərkəziyyət, sonra muxtariyyət, daha sonra isə istiqlaliyyət tərəfdarı, Azərbaycan məfkurəsinin müdafiəçisi olduğunu, cəmiyyətin zehnində Azərbaycanın istiqlalı fikrinin möhkəm yer tutduğunu və buna görə bu gün artıq Azərbaycanın müsəlman firqələri arasında ixtilaf qalmadığını, üçrəngli məğrur bayrağın cəmiyyətin bütün üzvlərini birləşdirdiyini vurğulayaraq, "Müsavat" partiyası fraksiyasının Parlamentdə yeridəcəyi siyasət haqda geniş məlumat vermişdi. O, Azərbaycanın bütün partiyalarını artıq müstəqillik ideyasının təbliğinə deyil, mövcud tarixi faktın siyasi, hüquqi və diplomatik cəhətlərdən təsbit edilməsinə yönəlmiş fəaliyyətə çağırdı. Bəyannamədə "Müsavat"'ın milli demokratiya mövqeyində dayanması vurğulanır, Azərbaycanın dünya dövlətləri tərəfindən tanınması və Qafqaz xalqlarının birliyinə nail olması yeni formalaşacaq hökumətin xarici siyasət sahəsində əsas vəzifələri kimi göstərilirdi. Fraksiyanın bəyannaməsində milliyyətindən asılı olmayaraq, Azərbaycanda yaşayan bütün xalqlann bərabərliyi ideyası xüsusi ifadə edilirdi.

downloaded from KitabYurdu.az

Bəyannamədə partiyanın torpaq və fəhlə məsələlərinə dair mövqeyinin açıqlanmasına mühüm yer ayrılmışdı. Aqrar məsələ ilə bağlı bütün torpaqların kəndlilərə pulsuz verilməsinin, torpağın kəndlilərin tam mülkiyyətinə çevrilməsinin nəzərdə tutulduğu bildirilir, eyni zamanda, qeyd olunurdu ki, kəndlilərə yalnız yerin üstü verilməli, yerin təki isə dövlətin mülkiyyətində saxlanmalıdır. Meşələr, göllər, şoranlıqlar və sular ümumxalq sərvəti elan edilirdi. Fəhlə məsələsi ilə bağlı tədbirlərdə 8 saatlıq iş gününə keçilməsi, sosial sığortanın tətbiq edilməsi, barışdırıcı komissiyaların, əmək birjasının təşkili, bütün müəssisələrə fabrik müfəttişlərinin təyin olunması, gecə qulluğunun, 16 yaşına qədər uşaqlan işlətməyin qadağan edilməsi, qadınların səhhətlərinə zərərli işlərdən azad olunması kimi mühüm vəzifələr nəzərdə tutulurdu.

Bəyannamədə, həmçinin, xalq təhsilinin inkişafı, Azərbaycan dilinin dövlət idarələrində işlədilməsi, ərzaq probleminin həlli, ordunun təşkili məsələlərinə toxunulur, yeni hökumətin təşkilinə gəldikdə isə, onun koalisiya şəklində qurulması istəyi ifadə olunurdu. Bu koalisiyamn həm millətlərarası, həm də partiyalararası zəmində formalaşmasının vacibliyi bildirilir, parlament qarşısında cavabdeh olan hökumətin bərqərar edilməsi xüsusi vurğulanırdı.

Azərbaycan parlamentində ən nüfuzlu qüvvə "Müsavat" fraksiyası idi. O, koalisiya prinsipini dövlətin maraqlarına uyğun hesab edərək, öz fəaliyyətində bütün siyasi təşkilatlarla konstruktiv əməkdaşlığa meyl göstərirdi.

Bir sıra parlament fraksiyaları, xüsusilə "İttihad" və "Sosialistlər", kəskin şəkildə, "Müsavat" partiyasının Parlamentdə və Hökumətdə yeritdiyi siyasətə qarşı çıxırdılar. "Müsavat"ı isə bitərəflər, qismən isə "Əhrar" fraksiyası müdafiə edirdi. "Müsavat" fraksiyası rəhbərinin öz bəyannaməsində bitərəflərdən ayrıca fəaliyyət göstərəcəklərini elan etməsinə baxmayaraq, 1919 ilin oktyabrında bitərəflər fraksiyasında parçalanma baş verdikdə, onların 8 nəfərdən ibarət böyük əksəriyyəti - Fətəli xan Xoyski, Mirzə Əsədullayev, Əsədulla Əhmədov, Cəmil Sultanov, Yusif Əhmədov, Baxış bəy Rüstəmbəyov, Abuzər bəy Rzayev və Ağa Aşurov "Müsavat" fraksiyası ilə birləşərək, həlledici səsə malik "Müsavat" və bitərəflər fraksiyasını yaratdılar. Bu birləşmə müsavatçıların mövqeyini daha da gücləndirdi. "Müsavat"la birləşmələrinə baxmayaraq, bitərəflər müstəqil səsvermə hüquqlarını özlərində saxlayırdılar. 1919 ilin sonlarında bu fraksiya üzvlərinin sayı 38 nəfərə çatdı.

Bütün bunlara baxmayaraq, artıq 1919 ilin sonu və 1920 ilin əvvəllərində parlamentdəki digər fraksiyalar tez-tez parlament və hökumət böhranı yaradırdılar. "Müsavat" və bitərəflər fraksiyası ilə "Sosialistlər", "İttihadçı"lar arasında gedən rəqabət 1920 il martın sonunda Nəsib bəy Yusifbəyli hökumətinin istefasına və yeni hökumət böhranına gətirib çıxardı. "Müsavat" və bitərəflər fraksiyasında baş vermiş parçalanmanı aradan qaldırmaq və yaradılan kabinetdə liderliyi saxlamaq üçün "Müsavat" partiyası yeni hökumətin təşkilini müsavatçı Məmmədhəsən Hacınskiyə tapşırmağa məcbur oldu və ona bütün parlament fraksiyaları ilə danışıqlarda hərəkət sərbəstliyi verdi. Lakin o, bunu 1920 il aprel işğalına qədər gecikdirdi, sonra isə "Müsavat" partiyasından çıxaraq, bolşeviklərə qoşuldu. Parlamentin aprelin 27-də keçirilən son fövqəladə iclasında 11-ci Qırmızı ordunun işğalı şəraitində hökumət bolşeviklərə təhvil verildi. Bu iclasda fraksiya sədri M.Ə.Rəsulzadə çıxış edərək, təslimçilik əleyhinə kəskin etirazını bildirmişdi. 1920 il 28 aprel işğalı nəticəsində "Müsavat" və bitərəflər fraksiyası süquta uğradı və onun üzvləri yeni yaradılmış bolşevik hakimiyyəti tərəfindən amansız repressiyalara məruz qaldı (bax, həmçinin *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti).*

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. Stenoqrafik hesabatlar, c. 1-2. B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B, 2001; Адрес-календарь *Азербайджанской Республики* 1920 г., Е., 1920.

**"MÜSƏLMAN AKTYORLAR CƏMİYYƏTİ"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda fəaliyyət göstərmiş peşəkar aktyor truppası. "Nicat" və "Səfa" maarifçilik cəmiyyətlərinin köməyi ilə yaradılmışdı. Truppanın fəaliyyətində Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov və b. yaxından iştirak etmişlər. Cəmiyyət aktyorların peşəkarhğımn yüksəldilməsinə, ustalığının təkmilləşdirilməsinə, onların yaradıcılıq inkişafına daim qayğı göstərirdi. Cəmiyyətin aktyor truppası Ə.Haqverdiyevin, N.Vəzirovun, Ü.Hacıbəylinin, Namiq Kamalın sərlərindən ibarət tamaşalar hazırlayır, xeyriyyə tamaşalarında iştirak cdir, Bakı və onun ətraf rayonlarında çıxış edirdilər. Milli teatr sənətinin inkişafında cəmiyyətin aktyor truppasının mühüm rolu olmuşdur.

**MÜSƏLMAN DRAM CƏMİYYƏTİ** – Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş teatr cəmiyyəti. 1916 ilin mayında Bakıda təsis olunmuş, 1920 ilədək fəaliyyət göstərmişdir. Birinci iclasında Sadıq bəy Hacınski (sədr), Mir Yaqub Mehdiyev (sədr müavini), Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Bağır bəy Əlibəyov (idarə heyətinin üzvləri), Bala bəy Xocayev (katib), Əliheydər Babayev (daxıldar - xəzinədar), Əhməd bəy Hacınski, Süleyman Abdullayev cəmiyyətin üzvü seçilmişlər. Cəmiyyətin məqsədi, nizamnaməsində deyildiyi kimi, "teatr və səhnoni ticarət halından çıxarıb, sənət halına vəz" etməkdən, teatr qüvvələri hazırlamaqdan ibarət olmuşdur. Müsəlman Dram Cəmiyyəti 1916 ilin 19 oktyabrında çağırılmış növbəti iclasında Abbas Mirzə Şərifzadənin üç il müddətinə Xarkov şəhərinə, Eylin studiyasının dram kursunda təhsil almağa göndərilməsi haqqında qərar qəbul etmişdi. Müsəlman Dram Cəmiyyəti üzvlərdən, xeyriyyəçilərdən alınan ianələr və teatr tamaşalanndan toplanan vəsait hesabına yaşayırdı.

*Əd.:* Cəfərov C, Azərbaycan Dram teatrı, B., 1959; Kərimov İ., Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri, B., 2002; Məmmədli Q., Azərbaycan teatrının salnaməsi, B., 1975; Сарабский А.Г., Возникновение и развитие Азербайджанского музыкального театра, Б., 1968.

downloaded from KitabYurdu.az

**MÜSƏLMAN FƏHLƏ KONFRANSI** - Bakı mədən rayonu müsəlman fəhlələrinin konfransı. 1920 il aprelin 8-də "Türk ocağı"nın binasında keçirilmişdir. Konfransda hər 25 nəfərə bir mandat olmaqla, Mədən rayonunun bütün həmkarlar ittifaqlarının 700-ə yaxın nümayəndəsi iştirak etmişdir. Mərkəzi həmkarlar ittifaqının sədri Cavad bəy Məlik-Yeqanov konfransın açılışındakı çıxışında müsəlman fəhlələrin maraqlarını müdafiə edə biləcək, xalqların öz müqəddəratını təyin etmək və Azərbaycan Cümhuriyyətinin müstəqilliyi prinsiplərinə cavab verə biləcək ali fəhlə orqanının yaradılmasının zəruriliyini vurğulamışdır. Hökumət adından daxili işlər nazirinin müavini Şəfi bəy Rüstəmbəyli və Məhəmməd Əmin Rəsulzadə cari vəziyyətə dair məruzə etmişdilər. Ş.Rüstəmbəyli hökumətin fəhlə və kəndlilərə dair tədbirlərindən ətraflı bəhs etmiş, Azərbaycan zəhmətkeşlərini həmrəyliyə və hökuməti dəstəkləməyə çağırmışdır. M.Ə.Rəsulzadə konfrans iştirakçılarına baş verən hadisələrlə əlaqədar Azərbaycanın mövcud vəziyyəti barədə ətraflı məlumat vermişdir. Piri Mürsəlzadə mərkəzi fəhlə orqanının, həmkarlar ittifaqları şurasının vəzifələri haqqında məruzə etmişdir. Şura kooptasiya hüququ ilə 15 şəxsdən ibarət olub, 5 komissiyaya (təşkilat, barışdırıcı, mədəni-maarif, sanitar-gigiyena və tətil komissiyaları) bölünürdü. Sonra Şuraya seçkilər keçirilmişdir.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920 Документы и материалы 1918-1920 гг., Б., 1998.

**MÜSƏLMAN FRAKSİYASI** - Rusiyada Oktyabr çevrilişindən (1917) sonra Cənubu Qafqazda yaradılmış *Zaqafqaziya seymində* Azərbaycanı təmsil edən qanunvericilik qurumu. 1918 il fevralın 23-də təşkil olunmuş, həmin il mayın 26-da Gürcüstanın Zaqafqaziya seymindən çıxması ilə fəaliyyəti sona çatmışdır (ətraflı məlumat üçün bax *Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası).*

**MÜSƏLMAN HƏKİMLƏRİN HƏRBİ XİDMƏTƏ ÇAĞIRILMASI HAQQINDA QANUN** - Azərbaycanda doğulmuş və ya son beş ildə burada yaşayan 45 yaşınadək kişi həkimlərin orduda üçillik məcburi xidmətini nəzərdə tutan hüquqi sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən 1919 il iyunun 16-da qəbul olunmuşdu.

Daxili işlər və hərbi nazirliklərə təcili surətdə, istisnasız olaraq, butun kişi həkimləri qeydiyyata almaq, onların yaşını, yaşayış yerini, dini etiqadını, ailə və xidməti vəziyyətini, hərbi xidmət keçməsini, sağlamlığını, universiteti bitirmə tarixini, həkimlik təcrübəsini və ixtisasını dəqiq müəyyənləşdirmək tapşırılırdı. Daxili işlər və xalq səhiyyəsi nazirləri ilə razılaşma əsasındahərbi nazirə, ilk növbədə, müsəlman həkimləri həqiqi hərbi xidmətə cəlb etmək hüququ vcrilirdi. Bu zaman onların yaşı, həkimlik təcrübəsi, sağlamlığı, ailə vəziyyəti nəzərə alınmalı idi. Qeyri-müsəlman həkimlərin hamısı ehtiyatda hesab olunurdular. Müsəlman həkimlər çatışmadıqda, onların arasından müəyyən sayda və müsəlman həkimlərlə bərabər əsasda, həqiqi hərbi xidmətə çağırış nəzərdə tutulurdu. Həkimlərin daimi iş yerlərində saxlanılması zəruri olduqda, daxili işlər və səhiyyə nazirlikləri ilə razılaşma əsasında hərbi nazirə, onlara hərbi mükəlləfiyyətdən möhlət vermək ixtiyarı verilirdi.

Əd.: *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTLƏRİ** - Şimali Azərbaycanda *Aprel işğalına (1920)* qədər əhali arasında mədəni-maarif işləri aparmış müxtəlif istiqamətli qeyri-hökumət təşkilatları. Ucqarlarda yaşayan xalqlara qarşı dözülməz müstəmləkəçilik siyasətilərnidən çar Rusiyası yerli xalqların, xüsusilə də müsəlmanların öz xeyriyyə cəmiyyətlərini yaratmasına hər vasitə ilə mane olurdu. Belə ki, Bakıda rusların xeyriyyə cəmiyyəti 1875 ildə, ermənilərin xeyriyyə cəmiyyəti 1899 ildə yaradıldığı halda, azərbaycanlılann ilk xeyriyyə cəmiyyəti yalnız 1905 ildə, Birinci rus inqilabının təsirilə yaranmışdır. Qonşu erməni və gürcülərin öz milli məktəbləri, milli mətbuatı, xeyriyyə cəmiyyətləri, digər milli-ictimai qurumları olduğu halda, azərbaycanlılar bunlardan, demək olar, məhrum idi. Onu demək kifayətdir ki, məktəblərdə Azərbaycan dilinin tədrisi qadağan olunmuşdu, azərbaycanlı uşaqlar zorla rus məktəblərinə cəlb edilirdilər. Ana dilində mətbuat, nəşriyyat, teatr tamaşaları çar məmurları tərəfindən amansız təqibə məruz qalırdı. Bu işdə milliyyətcə erməni olan məmurlar xüsusilə fəallıq göstərir, azərbaycanlıların iqtisadi, siyasi və mədəni inkişafına hər vasitə ilə mane olmağa çalışırdılar. Azərbaycanda ilk müsəlman xeyriyyə cəmiyyətinin nizamnaməsi 1905 il oktyabrın 10-da Qafqaz canişini qraf İ.İ.Vorontsov-Daşkov tərəfindən təsdiq edilmişdi. Cəmiyyətin təşkilinin təşəbbüsçüləri Hacı Zeynalabdin Tağıyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə və b. idi. Cəmiyyətlərin yaradılmasından məqsəd ziyarətə gedən, müalicəyə ehtiyacı olan qocalara, əmək qabiliyyətini itirmiş imkansız müsəlmanlara, şagird və tələbələrə kömək göstərmək, zəruri hallarda, maliyyə yardımı etmək və s. idi. Maddi yardımla yanaşı, əhalini maarifləndirmək məqsədilə məktəb və kurslar açan xeyriyyə cəmiyyətləri də yaranırdı. Bakıda 1906-07 illərdə bir-birinin ardınca *"Nəşri-maarif"*, *"Nicat"*, *"Səadət"* və s. xeyriyyə cəmiyyətləri fəaliyyətə başlamışdı. Bu cəmiyyətlərin nizamnamələri oxşar olsa da, fəaliyyət yönlərinə görə fərqlənirdilər. Cəmiyyətlərdə təhsil almış bəzi mütəxəssislər ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi-mədəni həyatında yaxından iştirak etmişlər.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

**MÜSƏLMAN KORPUSU** - *Zaqafqaziya Komissarlığı* dövründə təşkilinə başlanmış müsəlman hərbi birləşməsi. Əsasən, azərbaycanlılardan ibarət idi. Yaradılması barədə dekret Zaqafqaziya komissarlığı tərəfindən 1917 il dekabrın 11-də verilmişdi. Korpusun komandiri vəzifəsinə general-leytenant Əlağa *Şıxlinski* təyin edilmişdi. 1917 ilin sonu, 1918 ilin əvvəllərində Korpusun qərargahı Tiflisdə yerləşirdi, bütün təşkilati işlərə də buradan

downloaded from KitabYurdu.az

rəhbərlik edilirdi. Qərargahın tərkibinə aşağıdakı qurumlar daxil idi: ümumi qərargah, ləvazimat rəisi xidməti, topçu müfəttişi xidməti, istehkam rəisi xidməti, ober-kvartirmeyster xidməti, növbətçi zabit şöbəsi, tibb xidməti və baytar həkimi xidməti.

Müsəlman korpusunun formalaşması bir sıra çətinliklərlə qarşılaşmışdı. Onlardan biri korpusun təhcizat məsələsi idi. Bu çətinliyin aradan qaldırılmasında müsəlman milli şuraları da öz köməklərini əsirgəmirdilər. Hələ Ə.Şıxlinski korpus komandiri təyin edilməzdən əvvəli Tiflis Müsəlman Şurası milli qoşun hissələrinin təşkili üçün müəyyən qədər zəruri əşyalar toplamış və onları korpus komandanlığına təhvil vermişdi. Müsəlman ictimai təşkilatlarının fəalları, imkan daxilində, satınalma yolu ilə də silah, sursat əldə edərək, qoşun hissələrinə verirdilər.

Mövcud olan bütün imkanlardan istifadə edilsə də, Müsəlman korpusunun silah və sursatla təmin edilməsində əsas ümid Qafqazdakı Rusiya ordusunun tərk-silah olunmasına və onun ləvazimatının milli qoşun hissələrinə verilməsinə bağlanmışdı.

Zaqafqaziya Komissarlığı və milli şuralar da silah, sursat və təchizat problemini lazımınca həll etmək üçün *"Cəbhənin silahları Zaqafqaziyada saxlanılmalıdır"* şüarı ilə çıxış edərək, ləğv olunan Rusiya hərbi hissələri əmlakının Cənubi Qafqazda saxlanılmasına çalışırdılar. Bunun həyata keçirilməsi üçün azərbaycanlılar, gürcülər və ermənilərdən təşkil olunmuş Millətlərarası Hərbi Şura ilə Qafqaz cəbhəsi qoşunlarının ümumi qərargahı bir sıra qərarlar qəbul etdilər və bu qərarlara əsasən, ləğv edilmiş hissələrin öz əmlakını hansı hissələrə təhvil verməli olduğu müəyyənləşdirildi. Məsələn, qarşılıqlı razılaşmaya əsasən, Yelizavetpolda yerləşən 219 saylı alay özünün bütün əmlakını burada formalaşmaqda olan Tatar alayına təhvil verməli idi. Müvafiq əmr 1917 il dekabrın 14-də həmin alaya çatdırılsa da, alay əmlakı təhvil verməkdən imtina etdi. Buna görə də Gəncə Müsəlman Şurasının fəalları qətiyyət göstərərək və güc tətbiq edərək, həmin alayın ərzaq, ləvazimat anbarlarının ələ keçirilməsinə, şəxsi heyətinin tərk-silah edilməsinə nail oldular.

Zaqafqaziya Komissarlığının razılığı ilə Qafqaz cəbhəsinin ləğv olunmuş 5-ci və 7-ci diviziyalarının tərkibinə daxil olan hissələr də bölgəni tərk etdikcə öz əmlakını yaradılmaqda olan müsəlman hissələrinə təhvil verməli idilər. Ancaq ləğv olunan hissələrin əksəriyyəti, bir tərəfdən, bolşevik təbliğatının, digər tərəfdən də, şovinist hissələrin təsiri altında silah və əmlakını könüllü surətdə təhvil vermək istəmirdilər. Belə hissələrin bəzilərinə qarşı imkan daxilində, güc tətbiq edilirdi. Məsələn, Lənkəranda formalaşdınları milli qoşun dəstəsi Müsəlman Şurasının fəalları ilə birlikdə qəza bolşeviklərinin təsiri altında olan 4-cü və 7-ci sərhəd alaylarını tərk-silah etdi. Elə orada "Milyutin" gəmisində İrandan geri qayıdan Rusiya əsgərləri milli qüvvələr və Prişibdən (indiki Göytəpə) çağırılmış Kərim bəy Şahtaxtinskinin başçılıq etdiyi Şahsevən dəstələri tərəfindən tərk-silah olundular. Bu zaman Rusiya silahlılarından 6 pulemyot, 3 min tüfəng, 85 min patron, 10 qutu bomba alındı. Yanvarın 15-də isə milli silahlı qüvvələrlə Şahsevən süvariləri Astara sovetinin 60 nəfərlik milis dəstəsini tərksilah etdi və əmlakını əlindən aldı.

Rusiya hərbi hissələrinin kütləvi şəkildə tərk-silah edilməsi isə 1918 il yanvarın 8-10-da Şamxor (indiki Şəmkir) stansiyası yaxınlığında baş verdi. Rusiya hərbçiləri bolşeviklərin təsiri altın silahları təhvil verməkdən imtina etdi. Nəticədə tərəflər arasında silahlı toqquşma baş verdi və hər iki tərəfdən itkilər oldu. Bu əməliyyat nəticəsində, Rusiya qoşun hissələrindən 20 top, 70 pulemyot və 15000 tüfəng alındı ki, bu da Müsəlman korpusunun silahla təchiz olunmasına xeyli kömək etdi.

Müsəlman milli qoşun hissələrinin təşkilində qarşıya çıxan digər başlıca çətinliklərdən biri isə kadr və səfərbərlik məsələsi idi. Korpusun tərkibinə daxil olan hissələrin şəxsi heyəti yalnız azərbaycanlılardan və digər müsəlmanlardan komplektləşdirilə bilərdi. Bu isə çağırış işinin lazımi səviyyədə qurulmasını tələb cdirdi. Bir tərəfdən, azərbaycanlıların uzun illər boyu hərbi xidmətə çağırılmaması, digər tərəfdən də, çağırışı təşkil edəcək orqanların təşkil olunmaması bu məsələnin həllində çətinliklər yaradırdı. Bununla belə, Müsəlman korpusunun tərkibinə könüllü yazılan azərbaycanlılar da az deyildi. Məsələn, Bakının Çənbərəkənd hissəsində şəhər könüllülərinin toplanmasına başlanmışdı. Burada könüllülərin toplanılması işinə süvari zabiti İsgəndərbəyli rəhbərlik edirdi. Qoşun bölməsinə könüllü yazılanlar arasında dağıstanlılar da vardı. Çənbərəkənddə bir məktəb binasında könüllülər üçün qışla düzəldildi və dərhal da onların təliminə başlandı. Korpusun zabit heyətində azərbaycanlıların və digər müsəlman xalqları nümayəndələrinin sayını artırmaq lazım idi. Bu məqsədlə Qafqaz cəbhəsində xidmət edən azərbaycanlılar və digər müsəlman zabitləri hərbi xidmətə çağırıldılar. Onlar sayca o qədər də çox deyildilər. Ancaq korpusun komandanlığı bu kadrlardan daha səmərəli istifadə etməyə, onları komanda vəzifələrində yerləşdirməyə çalışırdı. Həmin zabitlərin arasında sonradan Cümhuriyyət ordusunda general-mayor rütbəsinə yüksəlmiş Həbib bəy *Səlimov*, Murad Gəray *Tlexas*, Süleyman bəy *Əfəndiyev*, Əmənulla Mirzə *Qacar* kimi zabitlər də var idi.

*Müsəlman korpusu qərargahının strukturu*




downloaded from KitabYurdu.az

Müsəlman korpusu zabitlərinin böyük əksəriyyətini ruslar təşkil edirdilər. Onların sayı korpus zabitlərinin ümumi sayının 65%-nə çatırdı. Təşkilati işlərin əsas hissəsi onların əlində idi. Korpusa rus zabitlərinin cəlb edilməsi həm könüllülük əsasında, həm də komanda üzrə aparılırdı.

Zabitlərin xidməti çar Rusiyası dövründə qəbul edilmiş müvafiq sənədlər və qərarlar əsasında nizamlanırdı. Müsəlman korpusu Zaqafqaziya Komissarlığına tabe olan Qafqaz cəbhəsi qoşunlarının tərkib hissəsi sayıldığından zabitlərin rütbələri də Zaqafqaziya Komissarlığı hökumətinin qərarı ilə artırılırdı. Müsəlman korpusunun sıralarında bir neçə general xidmət edirdi. General-leytenant Ə.Şıxlinski, general-mayor X.Talışinski və general-mayor Ağausubov da onların arasında idi.

Rusiya ordusu zabitləri Müsəlman korpusunun zabitlərlə komplektiəşdirilməsinin əsas bazası olsa da, milli zabit kadrlarının hazırlanması sahəsində də müəyyən addımlar atılırdı. Müsəlman korpusunun komandanlığı Bakıda bütün hərbi tələblərə cavab verən hərbi məktəb açmağı planlaşdırırdı. Korpusun komandiri Ə.Şıxlinski və qərargah rəisi polkovnik Mençukov 1918 il fevralın 6-da Qafqaz cəbhəsi qoşunlarının Baş komandanına göndərdikləri raportda aşağı rütbəli milli zabitlərin çatışmaması iiə əlaqədar olaraq, Bakıda 1-ci Müsəlman diviziyasının nəzdində milli hərbiyyə məktəbinin açılmasına razılıq verilməsini xahiş etmişdilər. Raportda qaldırılan məsələ üzrə Qafqaz cəbhəsi qoşunları baş komandanlığının razılığı alınmışdı. Ancaq təşkilati məsələlərin uzanması və bölgədə baş verən hərbi-siyasi proseslər nəticəsində milli hərbiyyə məktəbinin fəaliyyətə başlaması yalnız Azərbaycanın müstəqilliyi elan edildikdən sonra mümkün oldu.

Müsəlman korpusunun tərkibində iki nişançı diviziya var idi. Diviziyalar dörd alaydan ibarət idi. Bundan başqa korpusun tərkibinə 1 -ci və 2-ci topçu briqadaları, üç süvari alayından ibarət xüsusi müsəlman süvari briqadası, müsəlman istehkam taboru, müsəlman süvari batareyası, müsəlman mortir (gödək lüləli top) və park divizionu, ikinci müsəlman mortir parkı və s. birləşmələr daxil idi.

Korpus komandanlığı hərbi xidmət rejimində müəyyən dəyişikliklər apararaq, onu müsəlman həyatının müəyyən cəhətləri ilə uyğunlaşdırmağa çalışırdı. Məsələn, həftənin cümə gününün Müsəlman korpusunun şəxsi heyəti üçün istirahət günü olması və həmin gün hərbi hissəiərdə heç bir təlim keçirilməməsi qərara alınmışdı.

Rusiya ordusu nizamnamələrinin yenidən işlənməsi və onların Müsəlman korpusundakı xidmət və məişət şəraitinə uyğunlaşdırılması da qərara alınmış və bunun üçün xüsusi komissiya yaradılmışdı. Komissiya qısa müddət ərzində nizamnamələrdə dəyişiklik edİməsi barədə təkliflər hazırlayıb komandanlığa təqdim etməli idi.

Azərbaycanda milli hərbi hissələrin yaradılması Bakıda hakimiyyəti ələ keçirməyə çalışan bolşevikləri ciddi narahat edirdi. Bunun nəticəsi idi ki, 1918 il fevralın 24-də Bakıda 1-ci Müsəlman nişançı alayının təşkil edilməsi üçün general-mayor X.Talışinskinin rəhbərliyi ilə 1-ci nişançı diviziyasının buraya gəlmiş qərargah zabitləri dərhal elə vağzaldaca həbs edildi. Bu xəbər azərbaycanlı əhali arasınfda çox böyük narazılığa səbəb oldu. Xalqın narazılıqların geniş miqyas aldığını görən bolşeviklər general-may X.Talışinski ilə gələn müsəlman zabitləri həbsdən azafetməyə məcbur oldular. Bütünlükdə isə, Bakıda milli qoşun bölmələrinin tam açıq şəkildə formalaşdırılması üçün lazımi şərait mövcud deyildi. Bakı ətrafında bəzi qoşun bölmələri yaradılsa da, bu iş çox çətin şəraitdə baş verirdi və "İsmailiyyə"də yerləşən Müsəlman diviziyası qərargah üzvlərinin hər bir addımı izlənilirdi Azərbaycanda cərəyan edən hadisələr, bolşevik- daşnak irticasının güclənməsi Müsəlman koıpusunun tezliklə formalaşmasım və onun Azərbaycan xalqının mənafeyi keşiyində dayanmağa qadir səviyyəyə çatdırılması tələb edirdi. Lakin daşnak-bolşevik qüvvələrinin əngəl törətməsilə yanaşı, zəruri maddi-texniki bazanın olmaması, kadr və çağırış problemləri, hərbi infrastrukturun çatışmamasıda milli hissələrin formalaşmasını xeyli çətinləşdirirdi. Bunun nəticəsi idi ki, Müsəlman korpusunun Azərbaycanın Xalq Cümhuriyyətinin yaranması ərəfəsində mövcud 1 olan bolşevik-daşnak təhlükəsinin qarşısını almaq imkanı yox idi. 1918 ilin mart soyqırımlarından sonra Bakıda şəriksiz hakimiyyətə sahib olan S.Şaumyan və onun əlaltıları Moskvanın maliyyə və texniki yardımı ilə, əsasən, ermənilərdən ibarət olan bolşevik və daşnak silahlılarını birləşdirərək, sayı 20 minə yaxın böyük bir hərbi qüvvənin formalaşdırılmasına nail oldular. Təşkilati işlər başa çatdıqdan sonra bu qüvvələrə Azərbaycanın milli azadlıq hərəkatını beşikdə ikən boğmaq üçün Gəncəyə doğru hücum etmək əmri verildi. 1918 il mayın 21 -də Müsəlman korpusunun Hacıqabul ətrafına gətirilmiş hərbi birləşmələrinin həmin qüvvələrlə ilk toqquşması oldu. Müsəlman korpusu qüvvələrinə tatar süvari alayı, nişançı alay, knyaz Maqalovun başçılıq etdiyi Borçalı süvari alayının bir bölüyü, Şəki süvari alayının iki bölüyü, Azərbaycan könüllüləri dəstəsi, Ləzgi süvari alayı, Xan Naxçıvanskinin süvari dəstəsi daxil idi. Müsəlman korpusunun tərkibində gürcü korpusunun bir təlim taboru və pulemyot komandası da var idi." Hərbi qüvvələrə ümumi rəhbərlik də knyaz Maqalova tapşırılmışdı. Bununla belə, Bakı Soveti hərbi qüvvələrinin əsas zərbə qüvvəsinin bu istiqamətə yönəldilməsi nəticəsində hələ tam formalaşmamış Müsəlman korpusunun hissə və bölmələri düşmənin qabağını saxlaya bilmədi. Böyük say və hərbi texnika üstünlüyünə malik olan daşnak-bolşevik qoşunları Hacıqabul ətrafındakı müdafiəni yarmaqla, Gəncəyə doğru irəliləmək fürsəti əldə etdilər. Azərbaycan xalqını daha böyük faciə və qırğınlardan qurtarmaq, Gəncəyə doğru irəliləməkdə olan daşnak-bolşevik qoşunlarının qarşısını kəsmək üçün istiqlal mübarizəsinin liderləri Osmanlı Türkiyəsindən hərbi yardım almaq qərarına gəldilər. Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən dərhal sonra qardaş harayına yetişmiş türk hərbi qüvvələri daşnak-

downloaded from KitabYurdu.az

bolşevik qoşunlarının qarşısını saxlamaqla bərabər, Müsəlman korpusunun da formalaşdırılması üçün əlverişli zəmin yaratdılar.

1918 il iyunun 26-da Azərbaycan Xalq Cünıhuriyyəti Hökumətinin qərarı ilə Müsəlman korpusu *Əlahiddə Azərbaycan korpusu* adlandırıldı və korpusun formalaşdırılması üçün başlanan işlər yeni şəraitdə davam etdirildi. Bununla Azərbaycan Xalq Cümhuriyyəti ordusunun təşkilinə başlandı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**MÜSƏLMAN KORPUSUNUN ƏLAHİDDƏ AZƏRBAYCAN KORPUSU ADLANDIRILMASI HAQQINDA QƏRAR** - Azərbaycan milli ordusunun yaradılması haqqında ilk tarixi sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 26 iyun tarixli qərarı ilə 1917 ildə Zaqafqaziya komissarlığının ordu strukturu kimi formalaşdırılmış *Müsəlman korpusu* adlanan hərbi birləşmə *Əlahiddə Azərbaycan Korpusu* adlandırıldı. Həmin qərarla Azərbaycan Hökuməti bu hərbi birləşməyə sahibliyini hüquqi cəhətdən təsdiqlədi. Bununla, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun əsası qoyuldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998 il 22 may tarixli fərmanı ilə iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir (bax, həmçinin *Milli ordu günü).*

**MÜSƏLMAN QADINLARI XEYRİYYƏ CƏMİYYƏTİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş mədəni-maarif təşkilatı. Burada qadınlar arasında ictimai həyatın müxtəlif problemləri ilə bağlı iş aparılır, onların savad və biliyinin artırılması, milli ənənələrin yaşadılması, milli özünüdərkin dirçəldilməsi istiqamətində tədbirlər həyata keçirilirdi. Ətraflı məlumat üçün bax *Bakı müsəlman qadın xeyriyyə cəmiyyəti.*

**MÜSƏLMAN MİLLİ KOMİTƏLƏRİ** - Susiyada Fevral inqilabından (1917) sonra Azərbaycan şəhərlərində yaradılmış təşkilatlar. Tərkibinə milli burjuaziya və ziyalı nümayəndələrinin də daxil olduğu ən güclü təşkilat aparıcı rol oynayan Bakı Müsəlman Milli Komitəsi idi. 1917 il martın 29-da *Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi* yaradıldı. Məmməd Həsən Hacınski onun sədri, Məhəmməd Əmin Rəsulzadə isə sədr müavini seçildilər. Milli hakimiyyətin rüşeymini təşkil edən müsəlman milli komitələri "Ümumi milli mənafeyi" qorumaq bayrağı altında çıxış edir, "Milli hüquq bərabərliyi", "milli zülmün aradan qaldırılması" şüarlarını irəli sürərək, mübarizəyə qalxmış Azərbaycan xalqının milli azadlıq hərəkatına rəhbərlik edirdilər. *Gəncə Müsəlman Milli Komitəsinə* Adil xan Ziyadxanov, Aslan bəy Səfıkürdski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Həsən bəy Ağayev və b. başçılıq edirdilər. İrəvan Milli Komitəsinin üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev, Nəriman bəy Nərimanbəyov və b. idi.

Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi 1917 il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayı ərəfəsində Qafqaz müsəlmanlarına müraciət dərc etmişdi. Müvəqqəti İcraiyyə Komitəsinin qarşıya qoyduğu başlıca məqsədlərdən biri özünüidarə orqanlarında və gələcək Müəssislər məclisində müsəlmanların proporsional şəkildə təmsil olunmasına nail olmaq idi. Qafqaz müsəlmanları qurultayında Cənubi Qafqaz üçün, mərkəzi Bakı olmaqla, Şimali Qafqaz və Dağıstan üçün isə mərkəzi Vladiqafqaz olmaqla Mərkəzi Komitələr yaratmaq qərara alındı.

Cənubi Qafqaz üçün Mərkəzi Komitənin təşkili Bakı müsəlman ictimai təşkilatları komitəsinə tapşırıldı. Bakı müsəlman ictimai təşkilatları komitəsinin Şuraya çevrilməsi ilə əlaqədar onun tərkibi təmsilçilik əsasında genişləndirildi. Şuranın rəhbər orqanları - Komitə və İcraiyyə bürosu oldu. 1917 il iyulun 12-də Ə.Topçubaşov Komitənin sədri, M.H.Hacınski və M.Ə.Rəsulzadə sədrin müavinləri, Mirhəsən Vəzirov katib seçildi. Bakı Müsəlman Milli Komitəsi Azərbaycan milli hərəkatının rəhbər orqanına çevrildi.

Milli Komitələr vətənpərər qüvvələri öz ətrafında birləşdirir və yerlərdə hakimiyyəti ələ alırdılar. Bakı Müsəlman Milli Komitəsinin qarşısını isə bolşeviklərin başçılıq etdiyi Bakı Soveti kəsmişdi. Milli hərbi hissələrin yaradılması yerli milli komitələrin fəaliyyətində əsas yer tuturdu. İlk milli dəstələrdən biri "Dikaya diviziya" ("Vəhşi diviziya") adlanan "Qafqaz yerli diviziyası"na daxil olan "Tatar süvari alayı" idi. Çar ordusu dağıldıqdan sonra bu alay Azərbaycana qayıdaraq, milli silahlı qüvvələrin özəyini təşkil etdi. Silaha olan ehtiyacı ödəmək üçün Gəncə Milli Komitəsi dekabrın 17-də şəhərdəki keçmiş çar ordusunun 219-cu alayını, həmçinin Qafqaz cəbhəsindən Rusiyaya qayıdan bir neçə hərbi eşelonu tərk-silah etməyə məcbur oldu. Bu əməliyyat Zaqafqaziya komissarlığının sədri N.Jordaniyanın sərəncamı ilə həyata keçirildi. 1918 il yanvarın 7-də A.Ziyadxanov, A.Səfıkürdski, N.Yusifbəyli, X.Xasməmmədov və b. başçılıq ctdiyi Gəncə Müsəlman Milli Komitəsi Şəmkir və Dəllər stansiyası yaxınlığında gürcülərin göndərdiyi zirehli qatarın köməyi ilə tərk-silah əməliyyatı keçirərək, 15 min tüfəng, 70-ə yaxın pulemyot və 20 top əldə etdi.

1917 il noyabrın 9-12-də Bakıda Cənubi Qafqaz müsəlman milli komitələrinin konfransı keçirildi. Konfrans millətlərin öz müqəddəratını təyinetmə hüququnun dərhal reallaşması məqsədilə milli Müəssislər Məclisinin çağırılmasını qərara aldı. Sürətlə cərəyan edən siyasi proseslərin gedişində Azərbaycan Müəssislər Məclisini çağırmaq qeyri-mümkün olduğundan Conubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi bu məsələnin həllini Zaqafqaziya seyminin müsəlman üzvlərinə həvalə etdi. 1918 il mayın 27-də Seymin müsəlman fraksiyası özünü Azərbaycan Müvəqqəti Milli Şurası adlandırılaraq, mayın 28-də Azərbaycanın İstiqlal bəyannaməsini elan etdi. Beləliklə, Müsəlman Milli Komitələri başlıca məqsədinə nail oldu (bax *Azərbaycan Milli Şurası).*

*Əd.:* Azərbaycan tarixi, 3 cilddı, c.l, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Азербаиджанское национальное движение в 1917-1918 гг., Б., 1998.

downloaded from KitabYurdu.az

**MÜSƏLMAN MİLLİ KOMİTƏSININ MÜVƏQQƏTI İCRAİYYƏ KOMİTƏSİ** - Rusiyada Fevral inqilabından (1917) sonra baş verən proseslərdə müsəlmanların fəallığını təmin etmək, Azərbaycan milli qüvvələrini birləşdirmək məqsədilə təsis olunmuş qurum. Komitə Azərbaycan siyasi qüvvələrinin rəhbər orqanına çevrilmiş, Azərbaycan milli hərəkatında görkəmli rol oynamışdır. Komitə mürəkkəb tarixi şəraitdə Azərbaycan xalqının maraqlarını ifadə və müdafiə etmişdir. Müsəlman Milli Komitəsinin təbii varisi 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını elan edən *Azərbaycan Milli Şurası* oldu. Ətraflı məlumat üçün bax *Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi*.

**MÜSƏLMAN SOSİAL-DEMOKRAT (MENŞEVİK) "HÜMMƏT" PARTİYASI** - *"Hümmət"* təşkilatının Tiflis şöbəsi. 1905 ildən fəaliyyətə başlamışdı. Təşkilatçıları Mir Bağır Mir-Heydərzadə, Qasım Camalbəyov, Ə.Yüzbaşov, Ə.Bayramov, H.Ə.Tağızadə, Hüseyn Hacı Əliqulu oğlu Novruzov, A.K.Xanməmmədov olmuşlar. 1905 ilin sonunda artıq 100-dən çox üzvü var idi. Şöbə sonralar öz proqramı olan partiyaya çevrildi.

RSDFP proqramını yayan Bakı "Hürnmət" təşkilatından fərqli olaraq, Tiflis "Hümmət"inin 13 bənddən ibarət proqramında (mətni 1909 ildə Naxçıvanda jandarmlar tərəfindən aşkar edilmişdir) demokratik azadlıqlar tələbi əks olunmuşdu. Bu, bütün yoxsul təbəqələrin sosial vəziyyətini yaxşılaşdırmaq, söz, mətbuat və yığıncağ azadlıqları tələbləri idi. İqtisadi sahədə 8 saatlıq iş günü, siyasi və iqtisadi tətillər keçirmək hüququ tələb olunurdu. Partiyanın şüarında "Ədalət, bərabərlik, azadlıq" tələbləri irəli sürülürdü. Nizamnaməyə görə, rəhbər orqanı 12 nəfərdən ibarət gizli xüsusi yığıncaq hesab olunurdu. Partiyanın məhkəməsi, kassası və digər zəruri atributları var idi.Tiflis hümmətçiləri öz vərəqələrində erməni-müsəlman qırğınlarını dayandırmağa, beynəlxalq sosialist hərəkatı ilə həmrəyliyə çağırırdılar. İntibahnamə və bəyanatların çap olunmasında *"Qeyrət"* mətbəəsindən istifadə edilirdi. Giircü menşevikləri Kutateladze və Boquslavski təşkilatı işlərdə Tiflis hümmətçilərinə böyük kömək göstərmişdilər.

Azərbaycanın, ümumiyyətlə, Cənubi və Şimali Qafqazın, demək olar ki, bütiin şəhər və kəndlərində, o cümlədən Gəncə, Naxçıvan, Qazax, İrəvan, Batum, Petrovsk-Port (indiki Mahaçqala), Vladiqafqaz, Qars və s. şəhərlərdə Tiflis "Hümmət"inin şöbələri təşkil olunmuşdu.

Tiflis "Hümmət"i yerli sosial-demokratlarla İran inqilabçılarını Bakı təşkilatına nisbətən daha çox birləşdirirdi. Tiflisdə "İctimaiyyün-amiyyun" və ya "Mücahid" partiyasının şöbələri yaradılmışdı. 1906 ildə Bakıda və Tiflisdə İran inqilabçılarına yardım komitələri fəaliyyət göstərirdi. Bakı komitəsinə M.Əzizbəyov, Tiflis komitəsinə isə N.Nərimanov rəhbərlik edirdi. Cənubi Azərbaycana yardım komitəsinə N.Nərimanovdan başqa, M.B.Mir-Heydərzadə, Ə.Bayramov, Q.A.Tağızadə, H.Şirinzadə, Y.Axundov və b.daxil idilər. 1908 ilin əvvəllərində Tiftis komitəsinin tapşırığı ilə M.B.Mir-Heydərzadə Təbriz və Xoy komitələrinin işinə nəzarət etmək üçün oraya göndərilmişdi. Təbrizdən qayıdarkən Səttarxan onun vasitəsi ilə Tiftis komitəsinə məktub göndərmişdi. İran inqilabçılarına yardım göstərilməsi 1909 il Təbriz üsyanı zamanı daha da güclənmişdi. Əksəriyyəti azərbaycanlılardan ibarət Cənubi Qafqaz könüllülərinin sayı 800 nəfərə çatırdı. Onların 50-si Təbrizin müdafiəsi zamanı həlak olmuşdu. 1911 ilin dekabrında İnqilab yatırıldıqdan sonra Təbrizdə və Rəştdə hərbi-səhra məhkəmələri təşkil edilmişdi, 200-dək könüllü yayına bilsə də, çoxları həbs olunmuşdu. İranda, eləcə də Rusiyada hümmətçilərin sürgün və həbs olunması Tiflis "Hümmət"inə və onun müxtəlif bölgə və şəhərlərdəki filiallarına ciddi zərbə vurdu. Tiflis təşkilatı Bakı "Hümmət"indən daha çox yaşasa da, 1911 ildən 1917 ilin martınadək onun fəaliyyəti barədə məlumatlara yalnız tək-tək hallarda təsadüf edilir.

1917 ilin martından "Hümmət"in Bakı təşkilatı bolşeviklərlə sıx əlaqədə işlədiyi halda, elə həmin vaxtda bərpa olunmuş Tiflis təşkilatı, əvvəlki kimi, menşevik yönünə üstünlük verirdi. Tiflis "Hümmət"inə İ.Əbiləv, S.Ağamalıoğlu, Ə.Qarayev, Ə.Pepinov rəhbərlik edirdilər. Yalnız 1917 ilin oktyabrında Tiflisdə Ə.Yüzbaşov, Ə.Tağızadə, N.Bağırovun rəhbərliyi ilə bolşevikyönlü "Hiimmət" qrupu yarandı. Tiflis "Hümmət"inin Qazaxda, Gəncədə, Naxçıvanda, Tovuzda şöbələri bərpa olundu. Bakı kommunasının süqutundan sonra Tiflis hümmətçiləri Bakıya gəldilər. Tiflis və Bakı hümmətçilərinin menşevik tərəfdarları (onlar özlərini sosial-demokrat adlandırırdılar) S.Ağamalıoğlı, Ə.Pepinov, Ə.Şeyxülislamov, Q.Camalbəyov, Ə.Qarayev bolşeviklərdən fərqli olaraq, Parlament mübarizəsi metodlarının tərəfdarı olduqlarını nümayiş etdirdilər və 1918 ilin 7 dekabrında fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil olub, sosialist fraksiyası yaratdılar. Parlamentin işində iştirak edən hümmətçilər bir çox məsələlərdə "Müsavat" və bitərəflər fraksiyası ilə həmrəy olurdular. Menşevik hümmətçilərin liderlərindon olan Ə.Pepinov 1918 il dekabrın 19-da N.Yusifbəylinin kabinetində əmək naziri vəzifəsi tutmuşdu. "Hümrnət"in Bakı Komitəsi 1919 ildə parçalandıqdan sonra menşevik hümmətçilərin bir qismi bolşeviklərlə əlbir olub, Sovet hakimiyyətinin qurulmasında iştirak etdi, digərləri isə 1920 ilin aprelindən sonra ya repressiyalara məruz qaldılar, ya da mühacirətə' getdilər.

*Əd.:* Azərbayean tarixi, 7 cilddə, c.5, B,, 2001; Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), B., 1998; Əfəndiyev S.M., Türk proletariatının inqilabihərəkatı tarixindən, B., 1957; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Nəsibzadə N., Azərbaycan Dcmokratik Respublikası, B., 1991; Rəsulzadə M.Ə., Əsərləri, c.l (toplayanı və tərtib edəni Şirməmməd Hüseynov), B.,1992; Багирова И.С., Политические партии и организации Азербаиджана в начале XX века, Б., 1997

**MÜSƏLMAN ŞƏRQİNİ ÖYRƏNƏN CƏMİYYƏT** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət elm təşkilatı. 1919 il dekabrın

downloaded from KitabYurdu.az

29-da Bakı Universitetinin nəzdində yaradılmışdı. Əsas məqsədi islam dininə etiqad edən xalqların, onların yaşadıqları ölkələrin tarixini, həmçinin müsəlman mədəniyyətinin inkişafına bu və ya digər dərəcədə təsir göstərmiş tarixi və mədəni amillərin öyrənilməsi idi. L.A.Zimin cəmiyyətin sədri, Y.A.Belyayev sədrin müavini, Seydiyev katib, Abdulla bəy Sübhanverdixanov (Divanbəyoğlu) xəzinədar seçilmişdilər. Cavad bəy Rəfibəyli, general-leytenant Məmməd bəy Sulkeviç də cəmiyyətin üzvləri arasında idilər. Cəmiyyət müsəlman Şərqinin, xüsusən də Azərbaycan, Türkiyə, İran və Türküstanın tarix, dil, arxcoloji və et-noqrafik baxımından öyrənilməsinə xüsusi önəm verirdi. Əldə olunan əlyazmalar və materiallar cəmiyyətin muzeyinə toplanmalı, yaxud mühafizə və sistemləşdirilmək üçün "İstiqlal" milli muzeyinə verilməli, onların nəşri və tədqiq olunması ilə Bakı Universiteti məşğul olmalı idi. Qədim sikkələrin toplanmasına, salamat qalmış köhnə binaların və qədim şəhər qahqlarının dəqiq və ətraflı qeydiyyata alınmasına xüsusi diqqət yetirilirdi.

Müsəlman Şərqinin öyrənilməsi ilə maraqlanan azərbaycanlıların işə cəlb olunmasını və onların lazımi elmi hazırlıq keçməsini cəmiyyət özünün əsas vəzifələrindən hesab edirdi. Cəmiyyətin nizamnaməsi 1920 il fevralın 2-də təsdiq edilmişdi (mətni hələlik tapılmamışdır). Cəmiyyət 1920 ilin əvvəllərində Bakıdakı Şirvanşahlar Sarayının bərpası ilə məşğul olmuşdur. Bu abidənin mühafizəsi üçün M.Sulkeviç, V.A.Belyayev və Nəbioğludan ibarət komissiya yaradılmışdı. Cəmiyyət müsəlman incəsənətinə və mədəniyyətinə həsr olunmuş sərgi hazırlanması ilə məşğul olmuş, sərgini 1920 ilin sentyabrında açmaq, Azərbaycanın hər yerindən eksponatlar toplamaq nəzərdə tutulmuşdu. Cəmiyyət Tiflisdə Azərbaycana və müsəlman Şərqinə aid ərəb, fars və türkdilli əlyazmaları ilə tanışlığa; Zaqatalanın arxeoloji baxımdan tədqiqinə; yerli kurqan arxeoloji abidə-lərinin planlarmın çəkilməsinə; qədim Azərbaycanın (Qaf-qaz Albaniyasının) paytaxtı Bərdənin öyrənilməsinə; Quba qəzasındakı Şabran şəhərinin ycrinin müəyyənləşdirilməsinə; Nizami Gəncəvinin qəbirüstü abidəsinin, Gəncədə Şah Abbas dövrü abidələrinin, Suraxanıda Xilə məscidinin, Bülbülə kəndində İmamzadə qəbrinin, Mərdəkan qalalarının tədqiqinə dair elmi tədqiqat planları hazırlanmışdı.

Cəmiyyətin iclaslarında tarix, numizmatika, şərqşünaslıq və incəsənətə dair silsilə mühazirələr oxunmuşdur. *Aprel işğalından (1920)* sonra Müsəlman Şərqini Öyrənən Cəmiyyətin fəaliyyəti dayandırılmışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 clilddə. c.5. B.. 2001.

**MÜSƏLMAN ZƏHMƏTKEŞ ZİYALILAR İTTİFAQI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət təşkilatı. 1919 il fevralın 15-də gənc Azərbaycan dövlətini möhkəmləndirmək üçün hökumətə yardım etməkdən ötrü ziyalıları birləşdirmək məqsədilə yaradılmışdı. Mchdi bəy *Hacıbababəyovım* sədrliyi ilə keçirilən təsis iclasında ittifaqın nizamnaməsi qəbul edilmiş, 12 üzvdən və 6 namizəddən ibarət Şura seçilmişdi. 1919 il fevralın 17-də Şura İttifaqın gələcək fəaliyyətinə həsr olunmuş ilk iclasını keçirdi. İclasda doktor Əli Seyidovun sədrliyi ilə Şuranın rəyasət heyəti seçildi və texniki, maliyyə-iqtisadi, tibbi-sanitar, təsərrüfat, mətbuat komissiyaları yaradıldı.

Ziyalılar ittifaqı dövrün bütün demokratik təşkilatları ilə əl-ələ verərək Azərbaycanın müstəqilliyinə təhlükə törədən xarici və daxili qüvvələrə qarşı mübarizədə hökuməti qızğın müdafiə edirdi. İttifaqın iclaslarında ölkə həyatının mühüm məsələləri müzakirə olunurdu. Müzakirələrdə müxtəlif partiyaların təmsilçiləri, həmçinin Türkiyə, İran, Krım və Türküstandan gələn nümayəndələr də çıxış edirdilər.

**"MÜSƏLMANLIQ"** - siyasi, ictimai, ədəbi qəzet. *"Qafqaz İttihad Firqəsi"* ("Rusiyada müsəlmanlıq") partiyasının rəsmi orqanı. 1917 ilin oktyabr və noyabr aylarında iki nömrəsi çıxmışdır. "Yaşasın İttihadi-İslam, var olsun Hürriyyəti-Ənam" şüarı ilə çap olunurdu. Qəzetə redaksiya heyəti (heyəti-təhririyyə) rəhbərlik edirdi. Eyni ideologiyalı *"İttihad"* qəzeti nəşrə başlayandan sonra "Müsəlmanlıq" qəzetinin çapına ehtiyac görülməmişdir.

*Əd.:* Mustafayev Q., XX əsrin əvvəllərində Azərbaycanda İslam ideologiyası və onun tənqidi, B., 1973; Göyüşov A., Azərbaycanda İttihadçılıq, B., 1997; Rüstəmova-Tohidi S., Azərbaycan dövrü mətbuatı, B., 1993.

**"MÜSTƏQİL AZƏRBAYCAN"** - 1928 ildə Bakıda müsavatçılarla ittihadçıların yaratdığı təşkilat. 1927 ildə gizli fəaliyyət göstərən müsavatçıların kütləvi həbsindən sonra partiyanın fəallığının zəifləməsi müşahidə olunurdu. Bu şəraitdə müsavatçılar ittihadçılarla ümumi təşkilat yaratmağa cəhd göstərdilər. Belə ki, şəxsi tanışlıq əsasında bir-birinin mənzillərinə toplaşıb siyasi-ədəbi mövzularda söhbətlər cdən müsavatçıları və ittihadçıları Sovet hökumətindən ümumi narazılıq birləşdirirdi. 1928 ilin mayında belə yığıncaqların birində müsavatçılar və ittihadçılar Mirzə Cəlil Yusifzadə, Əli Heydər Babayev, Əhməd Hacıyev, Yusif Əli Əliyev, Yusif Nəcəfov, Məmməd Salayev və b. "Müstəqil Azərbaycan" adlandırdıqları təşkilatı təsis etmək üçün təşəbbüs mərkəzi yaratdılar. Bu təşkilatın əsas vəzifəsi Azərbaycan mühacirlərinin işi və beynəlxalq vəziyyət haqqında müntəzəm olaraq informasiya almaq üçün "Müsavat"ın Xarici Bürosu və onun İrandakı komitələri ilə əlaqə yaratmaq idi. 1928 il mayın axırlarında "Müstəqil Azərbaycan" təşkilatının üzvləri Y.Ə.Əliyev və Ə.Hacıyev Türkiyənin Bakıdakı vitse-konsulu ilə əlaqə yaratmış və onun vasitəsilə Məhəmməd Əmin Rəsulzadəyə "Ocaq-Saz" qəzeti, antisovet xarakterli şerlər, M.Ə.Rəsulzadənin ailəsinin məktubunu və Bakıdakı müsavatçıların vəziyyətinə dair məktub göndərmişdilər.

Təşkilat sürgündəki müsavatçıların vəziyyətini yüngülləşdirmək və Sovet hakimiyyət orqanlarında ümumi vəziyyəti öyrənmək məqsədilə 2 nəfər kommunisti öz tərəfinə çəkmişdi. 1928 ilin iyulunda bu kommunistlərdən biri təşkilatın keçirdiyi yığıncaqlarla əlaqədar hökumətin informasiyaya malik olması barədə xəbərdarlıq etmiş və həbslərdən yayınmaq üçün təşkilatın işini dayandırmağı təklif etmişdi. "Müstəqil

downloaded from KitabYurdu.az

Azərbaycan" təşkilatının üzvləri güclü repressiyalardan ehtiyatlanaraq, fəaliyyətlərini müvəqqəti olaraq dayandırmışdılar.

*Əd.:* Oruclu M., Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1992), B., 2001.

**"MÜSTƏQİL SOVET AZƏRBAYCANI"** - bolşeviklərin Azərbaycan Xalq Cümhuriyyətini devirmək və Azərbaycan milli qüvvələrinin istiqlal mübarizəsini zəiflətmək niyyətilə irəli sürdüyü şüar. 1918 ilin sonlarında Azərbaycan kommunistləri arasında Azərbaycan Xalq Cümhuriyyətini devirdikdən sonra onun yerində müstəqil sovet sosialist respublikası yaratmaq, ya da Azərbaycanı quberniyalara bölüb RSFSR-ə birləşdirmək kimi iki fikir var idi.

Azərbaycan Xalq Cümhuriyyətinin birinci ildönümünü qeyd etməyə hazırlaşdığı dövrdə bolşeviklərin milli dövlətçiliyin sosial təməlini sarsıtmaq niyyətilə "Müstəqil Sovet Azərbaycanı" şüarını irəli sürməsi taktiki manevr idi.

Nəriman Nərimanov Həştərxanda olarkən Bakı Xalq Komissarları Sovetinin milli məsələdə buraxdığı səhvləri nəzərə alaraq, Azərbaycan Sovet Respublikasının yaradılması lüzumunu hərtərəfli əsaslandırmışdı.

1919 il mayın 2-də bolşeviklərin keçirdiyi Ümumbakı partiya konfransı "Müstəqil sovet Azərbaycanı" şüarını partiya təşkilatlarının növbəti siyasi vəzifəsi kimi qəbul etdi. Cənubi Qafqaz partiya konfransı isə bu şüarı ilkin mərhələdə məqsədəuyğun saymadı. Bu Cənubi Qafqaz kommunistləri arasında fikir ayrılığına səbəb oldu. Lakin Qafqaz Ölkə Komitəsinin Bakıda keçirilən plenumu, başda Q.Orconikidze olmaqla, həmin şüara tərəfdar çıxdı. Bu qərar RK(b)P MK və V.Lenin tərəfindən bəyənildi.

1919 il iyulun 19-da RK(b)P MK-nın Siyasi bürosu ilə Təşkilat bürosunun birgə iclasında gələcəkdə Sovet Azərbaycanının müstəqil respublika kimi tanınması haqqında qərar qəbul edildi. Avqustun 20-də RK(b)P MK katibi Y.Stasova partiyanın Qafqaz Ölkə Komitəsinə yazmışdı: "Azərbaycanın gələcəkdə müstəqil Sovet Respublikası elan olunmasını tamamilə məqsədəuyğun hesab edirik".

RSFSR-ın milli işlər üzrə xalq komissarı İ.Stalin "Müstəqil sovet Azərbaycanı" şüarına daha açıq münasibət bildirmişdi; "Azərbaycanın güman edilən gələcək müstəqilliyi ciddi əməli əhəmiyyəti olmayan bir bəyannamədir". N.Nərimanov, sonralar hakimtyyətdə olarkən "Müstəqil sovet Azərbaycanı" şüarından partiyadaxili etirazını bildirmək üçün istifadə etmişdr "Vladimir İlıç, məgər, "Müstəqil Azərbaycan" sözləri Sizin dilinizdən çıxmayıb?".

*Aprel işğalından (1920)* dərhal sonra A.Mikoyan Azərbaycanın müstəqil sovet respublikasına çevrilməsinə yol verməmək üçün "Müstəqil sovet Azərbaycanı" şüarının partiyanın qəbul etdiyi müvəqqəti taktiki şüar kimi artıq əhəmiyyətini itirdiyini bəyan etmişdi. Az sonra Q.Orconikidze müstəqillik məsələsini AK(b)P MK-nın müzakirəsinə çıxarmışdı: "Azərbaycan Respublikası müstəqilini yaşamalı, yoxsa, Sovet Rusiyasının tərkibinə daxil olmalıdır?" Bir qrup azərbaycanlı kommunist ikinci yola tərəfdar çıxsa da, N.Nərimanovun mövqeyi, qısa bir zaman kəsiyi üçün olsa da, qalib gəldi. Lakin bu qərar 28 Aprel işğalının mahiyyətini dəyişmədi.

*Əd.:* Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Kommunist Partiyasının tarixi, B., 1958; Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, B., 1986: Nərimanov N., Ucqarlarda inqilabımızın tarixinə dair, B., 1992; Əhmədova F., Nəriman Nərimanov - ideal və gerçəklik, B., 1998; Гусейнов И.А.., Советский Азербаиджан, Ученые записки АГУ , 1957; № 10; Глуиев Дж.Б., К истории образвання второй ресбублики Азербаиджана, Б., 1997.

**MÜSTƏQİLLƏR QRUPU** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində fəaliyyət göstərmiş qrup. 1919 ilin axırlannda yaradılmışdı. Qrupa Əlimərdan bəy Topçubaşov, Səməd bəy Mehmandarov, Xudadat bəy Məlik-Aslanov və Baba bəy Qəbulzadə (Q ə b u l o v) daxil idi.

*Əd.:* Адрес-календарь *Азербаиджанской Республики на* 1920 г., Б., 1920.

**MÜSTƏQİLLİYİN DE-FAKTO TANINMASI** - Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransı Ali Şurası tərəfindən de-fakto tanınması (1920, II yanvar). 1919 ilin sonunda beynəlxalq şərait yeni yaranmış müstəqil respublikaların xeyrinə dəyişmişdi. Antanta ölkələri bolşeviklərə qarşı mübarizə aparan rus generallarının uğursuzluqlarına təəssüflənərək, onlara kömək göstərməyin əhəmiyyətsiz olduğunu etiraf edirdilər. 1919 ilin dekabrında Əlimərdan bəy Topçubaşov başda olmaqla Versaldakı Azərbaycan diplomatik missiyası Azərbaycan Xalq Cümhuriyyətinin *Millətlər Cəmiyyətinə* qəbul edilməsi barədə memorandum hazırlayıb cəmiyyətin katibliyinə təqdim etdi. Azərbaycan məsələsi Millətlər Cəmiyyətinin üçüncü komissiyasının müzakirəsinə verildi. Komissiyanın qoyduğu şərtlər daxilində Cənubi Qafqaz respublikaları de-yure tanınmadığı və aralarında ərazi məsələləri sabit olmadığı üçün onların Millətlər Cəmiyyətinə qəbul edüməlri məsələsi müvəqqəti dayandırıldı. Lakin 1920 ilin əvvəlində Qafqazda bolşevik təhlükəsilə bağlı yaranmış vəziyyət Azərbaycanın və Gürcüstanın müstəqilliyinin tanınmasını təxirəsalınmaz etdi. Bu məqsədlə Böyük Britaniyanın təşəbbüsü ilə 1920 il yanvarın 10-da Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Müttəfiqlərin Ali Şurası B.Britaniyanın xarici işlər naziri Lərd Kerzonun təklifi ilə yanvarın 11 -də qərar qəbul etdi. Qərarda göstərilirdi ki, ***"müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar".*** Yaponiya fevralın 7-də Ali Şuranın qəbul etdiyi bu qərara qoşuldu. ABŞ isə qərara qoşulmaqdan rəsmi olaraq imtina etdi. 1920 il yanvarın 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa xarici işlər nazirliyinə dəvət edildilər. Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh Konfransının rəsmi qərarı Əlimərdan bəy Topçubaşova təqdim olundu. Yanvarın 15-16-da Versalda hərbi ekspertlər şurası Azərbaycana və Gürcüstana hərbi yardım göstərmək məsələsini müzakirə etdi. Yanvarın 19-da Paris Sülh Konfransı Ali Şurasının iclasında Cənubi Qafqaz res-

downloaded from KitabYurdu.az

publikaları məsələsi ətraflı müzakirə olundu. Azərbaycan nümayəndələri bu iclasda tam heyətdə iştirak edirdi. Geniş müzakirədən sonra Ali Şura Qafqaz məsələsinə dair qərar qəbul etdi. Qərarda deyilirdi ki, Müttəfiq hökumətlərin Cənubi Qafqaz respublikalarına ordu göndərmək imkanı yoxdur, onlar bu respublikalara silah, hərbi sursat və ərzaq göndərməklə yardım göstərəcəklər.

Azərbaycanın müstəqilliyinin de-fakto tanınması barədə məlumatı Azərbaycan hökumətinə Böyük Britaniyanın Qafqazdakı səlahiyyətli nümayəndəsi O.Uordrop bildirdi. Onun yanvarın 12-də Tiflisdən göndərdyi teleqram alınan kimi Azərbaycan hökumətinin təcili iclası çağırıldı. Yanvarın 13-də bu mühüm hadisə barədə hökumət məlumatı elan edildi, yanvarın 14-nün bütün Azərbaycanda bayram günü olduğu bildirildi. Paytaxtda mitinq və nümayişlərin, Azərbaycan ordusunun hərbi paradının və Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qəbul edildi. Yanvarın 14-də höku-mətin sədri Nəsib bəy Yusifbəylinin "Azərbaycan vətəndaşlarına" müraciəti elan olundu.

Parlamentin yanvarın 14-də keçirilən təntənəli iclasında Böyük Britaniya, Gürcüstan, Estoniya və Polşanın diplomatik nümayəndələri iştirak edirdilər. Təbrik nitqləri, müstəqilliyin tanınması ilə bağlı təbrik teleqramları dinlənildi. İclasın sonunda ədliyyə naziri Xəlil bəy Xasməmmədov Azərbaycanın müstəqilliyinin tanınması münasibətilə amnistiya elan etmok haqqında hökumətin qərarını oxudu. Azərbaycan istiqlalının Ali Şura tərəfindən tanınması Gəncədə də təntənəli şəkildə bayram edildi. Bu münasibətlə Azərbaycan mətbuatında xeyli yazılar dərc olundu. "Azərbaycan" qəzetinin Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə tanınması ilə əlaqədar xəbər və materialları dərc edilən 24 yanvar 1920 il tarixli 12-ci sayı "Müstəqil Azərbaycan" adı ilə çıxmışdı. Bolşevik mətbuatı isə Azərbaycanın müstəqilliyinin tanırımasını imperialist dövlətlərin qəsbkarlıq planlan kimi qiymətləndirirdi. Müstəqilliyin de-fakto tanınması haqqında Azərbaycan nümayəndələrinin Parisdən göndərdikləri məlumat yanvarın 18-də alındı.

Azərbaycanın müstəqilliyinin Antanta Ali Şurası tərəfindən de-fakto tanınması Azərbaycan diplomatiyasının, xüsusən də Əlimərdan bəy Topçubaşov başda olmaqla, Paris Sülh Konfransındakı Azərbaycan nümayəndəliyinin uğurlu fəaliyyətinin nəticəsi olmaqla yanaşı, Azərbaycan dövlətçiliyinin bərpası baxımından çox əhəmiyyətli hadisə idi.

Müstəqilliyin tanınması beynəlxalq aləmdə Azərbaycana marağın artmasına təkan verdi.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C., Azərbaycan beynolxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər), B., 1990.

**MÜSTƏQİLLİYİN TAMNMASI MÜNASİBƏTİLƏ ƏHALİYƏ VERİLƏN GÜZƏŞTLƏR HAQQINDA QANUN,** Əfvi-ümumi haqqında qanun - Azərbaycanın müstəqilliyinin Antanta dövlətləri tərəfindən defakto tanınması (1920, 11 yanvar) münasibətilə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1920 il 9 fevral tarixli 123-cü iclasında qəbul olunmuş sənəd. Qanuna əsasən, cinayət törətmiş şəxslərin, o cümlədən, bu qanun qəbul edilənədək dövləti cinayətlər (casusluq yolu ilə dövlətə xəyanət istisna olunmaqla), milli ədavət zəminində cinayət əməlləri törətmiş, xidməti vəzifəsinə görə ona tapşırılmış əmlakı mənimsəmiş və ya məsrəf etmiş (mənimsənilmiş və ya məsrəf edilmiş məbləğ bu qanunun dərc olunduğu günədək tamamilə ödənilmişdirsə) şəxslər, 1918 il 28 mayadək cinayət əməlləri (qanunla islah-həbs müəssisəsində saxlanılmaqdan yüksək cəza nəzərdə tutulmayanlar) törədənlərin, həmçinin daha ağır cinayətlər üstündə belə cəzaya məhkum edilənlərin hamısı təqibdən və cəzaçəkmədən azad olunur, 1918 il mayın 28-dək törədilmiş cinayətlərə görə katorqa cəzasına məhkum olunmuş və ya məhkum olunacaq şəxslərin hamısına məhkəmənin kəsdiyi cəza müddəti yarıyadək azaldılır, yaxud da müddətsiz katorqa cəzası onikiillik həbslə əvəzlənirdi.

Qanunun 8-ci maddəsində nəzərdə tutulan güzəştlər sələmçilik və rüşvətxorluq etmiş, həmçinin azğınlıqda, insan şərəfinə, cismani toxunulmazlığa və sağlamlığa qəsd etməkdə təqsirli bilinən şəxslərə şamil edilmirdi.

Birinci dünya müharibəsi (1914-18) başlanandan bütün Cənubi Qafqaz ərazisində baş vermiş və müsəlmanların canına, malına qarşı yönəlmiş zorakılıqların təhqiqi üçün 1918 il iyulun 15-də yaradılmış *Fövqəladə Təhqiqat Komissiyasının* icraatında olan cinayət işlərinə həmişəlik xitam verilirdi.

Qanunda hərbi cinayətlərlə bağh nəzərdə tutulmuş cəza növlərinə də toxunulurdu. Belə ki, Hərbi Nizamnamənin 279-cu maddəsinə əsasən, ölüm cəzasına məhkum olunmuş və ya olunacaq şəxslər mülki cinayət məcəlləsindəki müvafiq cəza növü ilə cəzalandırılmalı idilər. Xidmətdən yayınma və ya hissəni özbaşına tərketmə hallarına görə təqsirli bilinənlər 1920 il martın 15-dən gec olmayaraq könüllü surətdə yerlərinə qayıtdıqda bütün növ təqib və cəzalardan azad edilməli idilər.

Qanunda vergi borcları ilə bağlı maddələr də vardı. Ləğv olunmuş dövlət mənzil vergisi borcları, 1919 il yanvarın 1-nə kimi olan dövlət töycü borcları, dövlət torpaq vergisi borcları və bir sıra digər borclar bağışlanırdı.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законда тельные акты (сборник документов), Б., 1998.

**MÜSÜSLÜ HƏRBİ DƏSTƏSİ** - Bakı Xalq Komissarları Sovetinin Azərbaycan Xalq Cümhuriyyətini aradan qaldırmaq üçün Gəncə istiqamətində hərəkət edən bolşevik-daşnak dəstələrindən ibarət 1-ci Qafqaz qırmızı korpusunun qüvvələrinə qarşı 1918 ilin iyununda Müsüslü stansiyası yaxınlığında mövqe tutmuş milli hərbi hissə və bölmələr. Onların əsasını Müsəlman korpusu tərkibində yaradılmış Azərbaycan hissə və bölmələri təşkil edirdi. Bolşevik-daşnak qüvvələrinin Gəncəyə doğru hücumu güclənərkən *Qafqaz İslam Ordusunun* (QİO) qə-

downloaded from KitabYurdu.az

rargah rəisi Nazim bəy 1918 il iyunun 14-də Müsüslü ətrafına gələrək, buradakı milli hissə və bölmələrə ümumi rəhbərliyi öz üzərinə götürdü. 1918 il iyunun 27-də Nazim bəy Gəncəyə çağırıldı, Müsüslü ətrafındakı hissə və bölmələr isə vahid komandanlıq altında birləşdirildi və ona Müsüslü dəstəsi (müfrəzəsi) adı verildi. QİO komandanının əmri ilə podpolkovnik Həbib bəy Səlimov Müsüslü dəstəsinin komandiri təyin edildi. Dəstənin tərkibinə aşağıdakı Azərbaycan hissə və bölmələri daxil idi: dəstənin qərargahı, dəstənin bir bölüyü, 1-ci Tatar süvari alayının 1 və 2-ci bölükləri, 2-ci süvari alayının 1-ci bolüyü, Qarayazı süvari-piyada bölüyü, pulemyot böliiyü, zirehli qatar, dəstənin səhra batareyası, teleqraf taqımı və Göyçay əsgər bölüyü.

Müsüslü dəstəsinə qarşı 1-ci Qafqaz qırmızı bolşevik-daşnak korpusunun 1-ci briqadası və təlimatçılar məktəbinin şəxsi heyətindən ibarət cəbhə yaranmışdı. Qırmızıların zirehli qatarı da var idi. 1918 il iyulun 2-də L.Biçeraxovun dəstəsi də Müsüslü dəstəsinin qarşısında yerləşdirildi və cəbhə komandanlığı ona həvalə olundu. Müsüslü dəstəsi üç böyük döyüşdə - 1918 il iyunun 18-29-da Müsüslü-Qaraməryəm xəttində, iyulun 5-10-da Kürdəmir ətrafında və iyulun 12-14-də Karrar stansiyası ətrafında baş verən döyüşlərdə iştirak etmişdi. Döyüşün miqyasından asılı olaraq, Müsüslü dəstəsi həm türk hərbi qüvvələri, həm də könüllü Azərbaycan dəstələri ilə möhkəmləndirilirdi. Məsələn, Kürdəmir döyüşünün gedişində QİO komandanı Nuru paşanın əmri ilə Ağdaş və Xaldandakı könüllü dəstələr, Qazaxda toplanmış 350 nəfərlik silahsız dəstə Müsüslü dəstəsinin tabeliyinə verilmişdi.

1918 il iyulun 16-da Müsüslü dəstəsinin bazasında Cənub qrupu təşkil edildi və bununla da Müsüslü dəstəsinin mövcudluğuna son qoyuldu.

*Əd.:* Azərbaycan tarixi. 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**MÜVƏQQƏTİ HƏRBİ DİKTATURA** - Azərbaycanın müstəqilliyini qəbul etməyən şovinist-millətçi Rusiya zabitlərinin Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin cənub bölgəsində hakimiyyəti ələ keçirərək (1918, 4-5 avqust) yaratdıqları qurum. Bax *Mıığan Müvəqqəti Hərbi Diktaturası.*

**MÜVƏQQƏTİ HÖKUMƏT (2(15) mart - 25 oktyabr (7 noyabr) 1917]** - Rusiyada Fevral inqilabından (1917) sonra yaranmış mərkəzi dövlət hakimiyyəti orqanı. Dövlət Dumasının Müvəqqəti komitəsi və Petroqrad Soveti tərəfindən təşkil edilmişdi. Ali icraedici-sərəncamverici orqan olmaqla bərabər, qanunvericilik funksiyasını da yerinə yetirirdi. Yerli hakimiyyət orqanları quberniya və qəza komissarları idi. Eyni tərkibli üç koalisiya hökuməti mövcud olmuşdu (bax *cədvəl).* Müvəqqəti hökuməti ilk olaraq ABŞ [9(22) mart], sonra isə B.Britaniya və Fransa [11(24) mart] tanımışdı.

Müvəqqəti hökumət 3 (16) martda tərkibi, vəzifələri və s. haqqında bəyannamə və 6 (19) martda "Rusiya vətəndaşlarına müraciət" qəbul etmişdi. Hökumətin proq-ramı bu sənədlərdə əks olunmuşdu. "Birinci ictimai kabi-net"in qarşısında 8 əsas vəzifə qoyulurdu: bütün siyasi və dini işlər üzrə tam və təxirəsalınmaz amnistiya; söz, mətbuat, ittifaq, yığıncaq və tətil azadlıqları; bütün silki, dini etiqad və milli məhdudiyyətlərin ləğvi və i.a. Xarici siyasət sahəsində müharibənin qələbə ilə başa çatdırılması, müttəfiqlərlə bağlanmış müqavilələrin yerinə yetirilməsi ifadə edilmişdi.

Müvəqqəti hökumət vəzifələrini yerinə yetirmək üçün müəyyən addımlar atsa da, Rusiyadan Ötrü həyati əhəniy-yətə malik olan milli, aqrar, sülh və b. məsələlərin həlli sahəsində zəruri dəyişikliklər həyata keçirə bilmədi. Müvəqqəti hökumət "böyük və bölünməz Rusiya" prinsipindən çıxış edir, xalqların öz müqəddəratım təyinetmə hüququnu tanımırdı. Xarici siyasət xəttində Birinci diinya müharibəsinin davam etdirilməsi əsas yer tuturdu. Müvəqqəti hökumətin siyasətindən narazılıq nəticəsində hökumət əleyhinə çıxışlar genişlənir, siyasi böhran (aprel, iyun böhranları, iyul hadisələri) dərinləşirdi. Qısa müddət ərzində hökumətin tərkibi dörd dəfə dəyişdirilmişdi. Ölkədə siyasi və iqtisadi vəziyyətin sürətlə pisləşdiyi şəraitdə bolşeviklər oktyabrın 25 (7 noyabr)-də çevriliş edərək, hakimiyyəti ələ aldılar. Həmin gün səhər Petroqraddan qaçmış Kerenski istisna olmaqla, Müvəqqəti hökumətin üzvləri oktyabrın 25-dən 26-na keçən gecə həbs olundular. 2-ci Ümumrusiya sovetlər qurultayı Müvəqqəti hökumətin devrildiyini elan etdi. Lenin başda olmaqla sovet hökuməti yaradıldı. Müvəqqəti hökumətin həbs olunmamış nazir müavinləri və həbsdən azad edilmiş sosialist nazirlər Müvəqqəti hökumət adından fəaliyyətlərini gizli şəkildə davam etdirirdilər. Noyabrın 16 (29)-da gizli Müvəqqəti hökumətin də fəaliyyətinə son qoyuldu.

| Hökumətlərin adı | Tərkibi | Fəaliyyət dövrü | Hökumət böhranlarının davam etməsi |
|---|---|---|---|
| G.Y.Lvov hökuməti | Eyni tərkibli | 2 (15) mart – 2 (15) may | 3-4 (16-17) may |
| G.Y.Lvovun 1-ci koalisiya hökuməti | 10 kapitalist + 6 sosialist | 5 (18) may – 2 (15) iyul | 3 (16) iyul – 23 iyul (5 avqust) |
| A.F.Kerenskinin 2-ci koalisiya hökuməti | 8 kapitalist + 7 sosialist | 24 iyul (6 avqust) – 26 avqust (8 sentyabr) | 26 avqust (8 sentyabr) – 24 sentyabr (7 oktyabr) |
| A.F.Kerenskinin 3-cü koalisiya hökuməti | 6 kapitalist + 10 sosialist | 25 sentyabr (8 oktyabr) – 25 oktyabr (7 noyabr) | 25 oktyabr (7 noyabr) devrilmişdir |

*Müvəqqəti hökumətin tərkibi və hökumətlərin fəaliyyət dövrləri*

Müvəqqəti hökumət, biitün ucqarlar kimi, Cənubi Qafqazı da Rusiyanın tərkibində saxlamağa çalışırdı. Cənubi Qafqazda mərkəzi diyar hakimiyyət orqanı kimi, Xüsusi Zaqafqaziya komissarlığı (Osobıy Zakavkazskiy Komissariat - Ozakom) yaradılmışdı. Lakin Xüsusi Zaqafqaziya komissarlığı və yerlərdə yaradılmış icraiyyə komitələri həyat

downloaded from KitabYurdu.az

qabiliyyətli orqanlara çevrilmədi. Müvəqqəti hökumətin Şimali Azərbaycandakı siyasəti də özünü doğrultmadı, Oktyabr çevrilişi ilə yeni tarixi şərait yarandı.

*Əd.:* İ b r ah i m o v Z., Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər), B., 1957; A d ı g ö z ə l o v a A.P., Fevral inqilabından sonra Azərbaycanda Müvəqqoti hökumətin yerli hakimiyyət orqanlarının və şəhər özünü idarələrinin təşkili və fəaliyyəti (mart 1917 - aprel 1918-ci illər). NDA, B., 1995; Игнатьев А.В., Внешняя политика Временного правительство, Б., 1974; Страцев В.А., Внутерняя политика Временного правительство первого состава, Л., 1980

**MÜVƏQQƏTİ İNQİLAB KOMİTƏSİ** - *Aprel işğalı (1920)* nəticəsində Şimali Azərbaycanda yaradılmış ali dövlət hakimiyyəti orqanı (bax *Azərbaycan Müvəqqəti İnqilab Komitəsi).*

**MÜVƏQQƏTİ RUS MİLLİ KOMİTƏSİ** - milli mənsubiyyət prinsipi əsasında yaradılmış və Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş ictimai-siyasi təşkilatlardan biri. 1918 il sentyabrın 21-də tanınması barədə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə müraciət etmiş, sentyabrın 22-də isə Nazirlər Şurasının sədrinə məktubunda qarşıya qoyduğu vəzifələri açıqlamışdı: "Komitə Azərbaycan hökuməti qarşısında Rusiya dövlətinin və ya rus xalqının siyasi nümayəndəliyi olmaq məqsədi daşımır. Müvəqqəti komitənin məqsədi rus millətindən olan vətəndaşların, əsasən, iqtisadi və mənəvi ehtiyaclarına, özü də, ilk növbədə, son günlərin hadisələri ilə bağlı olan və onların doğurduğu ehtiyacları ödəməkdir". 1918 il sentyabrın 25-də şəhər dumasının və şəhər özünüidarəsinin milliyyətcə rus olan bütün de-putatları və rəsmi nümayəndələri komitənin tərkibinə daxil edildi. Beləliklə, komitənin tərkibinə 18 nəfər daxil oldu və daha 12 nəfər tam üzv kimi tərkibə salmdı. M.F.Podşivyakin komitənin sədri scçildi.

Komitə öz fəaliyyətini böyük Rusiya dövlətini bərpa etmək ideyasında görürdü. Buna görə də öz nümayəndəsini parlamentə göndərmək barədə Azərbaycan hökumətinin çağırışına cavab olaraq, komitə 1918 il noyabrın 28-dəki iclasında Ümumrusiya Müəssislər məclisi çağırılana qədər yerli qanunvericilik orqanlarının yaradılmasını lüzumsuz sayaraq, bu təklifi qəbul etməməyi qərara aldı.

Komitənin 13 noyabr tarixli iclasında A.İ.Neşşerstov belə bir sorğu vermişdi: "1. Rus Milli Komitəsi Bakıda törədilmiş vəhşiliklərə nə üçün vaxtında etirazını bildirməmişdir. 2. Rus Milli Komitəsinin aldığı 100 min rubl nə üçün digər millətlər arasında bölünməmiş, bütünlüklə, Rus Komitəsi tərəfindən götürülmüşdür" və s. Lakin bu sorğu iclasda müzakirə olunmamışdı. 1919 il mayın 23-də komitədə Kiçik Şura yaradıldı. Onun vəzifəsi məsələləri ümumi yığıncağa çıxarmaq üçün hazırlamaq, təxirəsalınmaz məsələləri həll etmək və s. idi. Komitə Bakının rus əhalisinə maddi kömək göstərmək məqsədilə şəhərin müxtəlif rayonlarında, mədən ərazilərində, ilk növbədə, valideynləri Bayılda işləyən uşaqlar üçün gündüz uşaq evi-bağçalar yaratmış və bunlara 3 min rubl ayırmışdı.

1919 il oktyabrm 15-də keçirilmiş iclasda Bakıda komitə adından, təcili olaraq, rus orta təhsil müəssisəsinin təşkilinə başlamaq qərara alınmışdı. Buraya ilk növbədə nas uşaqlarını qəbul etmək nəzərdə tutulurdu.

Rus Milli Komitəsi Denikinin Könüllü ordusu ilə sıx əlaqədə idi. Bakıda gimnaziya açmaq, uşaq evini saxlamaq, kasıblara himayədarlıq etmək üçün vəsait verilməsi barədə xahişlə Könüllü ordu nəzdindəki Xüsusi müşavirəyə müraciət olunmuş, Şuramn üzvləri A.D.Roqov və B.L.Baybakov bu məqsədlə Şimali Qafqaza göndərilmişdilər.

1919 ilin dekabrında Könüllü ordunun gəmiləri Azərbaycanın limanlarını blokadaya almışdı. Bununla əlaqədar dekabrın 22-də komitə məktubla müraciətində bildirirdi ki, blokada Azərbaycana yox, Könüllü ordunun özünə ziyan vurduğuna görə məqsədəuyğun sayılmamalıdır. Rus Milli Komitəsi ingilis komandanlığından və Amerika xeyriyyə komitəsindən də vəsait alırdı. Sonuncunun Bakıdakı nümayəndəliyi komitəyə hər ay 100 min rubl vəsait ayırırdı.



**MÜZNİB** Əlabbas Mütəllibzadə (1883, Bakı - 1938, Vladivostok) - şair, publisist, ədəbiyyatşünas və folklorşünas, islam dini tarixçisi, tərcüməçi. Yaradıcılığa təqlidçi kimi başlamış, 1905 il inqilabından sonra lirik-romantik və "Molla Nəsrəddin" ədəbi məktəbinin təsiri ilə çarizmi, ictimai ətaləti və dini fanatizmi tənqid edən satirik şair kimi tanınmışdır. Əsərləri "Hürriyyəti-bəşəriyyə" (1911), "Çəkməsilən" s (1911), "Sibirya məktubatı" (1913), "Ürək yanğısı" (1913), "Tikan kolu", (1913-17) və s. Ktiabçalarında toplanmışdır. "Hilal" (1910-11), "Şəhabi-saqib" (1911) qəzetlərinin, "Zənbur" (1909-10), "Dirilik" (1914-16), "Babayi-Əmir" (1915-16), "Övraqi-nəfisə" (1919) jurnallarının baş mühərriri və redaktoru olmuşdur. Müznibin yaradıcılığı Azərbaycanda 1911 ildən sonra başlayan milli azadlıq hərəkatı amalları ilə formalaşmışdır. O, "Müsavat" partiyasının fəal üzvü olmuş, onun liderləri Məhəmməd Əmin Rəsulzadə, A.Kazımzadə, Hüseyn Sadiq (Seyid Hüseyn) və b. ilə dostluq və əməkdaşlıq etmişdir.

Redaktoru olduğu "Hilal" və "Şəhabi-saqib" qəzetlərində Azərbaycan xalqını çarizmin milli müstəmləkəçilik siyasətinə qarşı üsyana çağırdığına görə 1912 ilin aprelində Sibirə sürgün edilmişdi. Sürgündən qayıtdıqdan sonra "İqbal" (1912-15) qəzetində, özünün nəşr etdiyi "Dirilik" jurnalında, "Müsavat" partiyasının "Türkçülük", "İslamçılıq" və "Müasirlik" ideallarını təbliğ etmiş, böyük vətəndaşlıq cəsarəti göstərərək, "Ru-siya imperatoru Böyük Pyotrun vəsiyyətnaməsi" adlı məşhur anonim yazını ictimaiyyətə çatdırmışdır ("Dirilik", 1915, sayı 16).

Müznib 20 əsrin 10-cu illərində yaxın Şərq və Azərbaycan folklorunun toplayıcısı, tərcüməçisi və naşiri kimi geniş fəaliyyət göstərmiş, məşhur ərəb folkloru abidəsi "Min bir gecə"ni, Kərbəlayı Vəli Mikayilovla "Molla Nəsrəddin" və "Bəhlul Danəndə" lətifələrini nəşr etdir-

downloaded from KitabYurdu.az

mişdir (1909, 1910). Müznib islam dininin tarixinə aid elmi və bədii əsərlər yazmış, Məhəmməd peyğəmbərin həyatından bəhs edən "Muxtarnamə" kitabını fars dilindən Azərbayean dilinə çevirmişdir (1912). 1917 ildə "Müxtəsər ənbiya və islam tarixi" əsərini yazıb, çap etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Müznib milli istiqlal ideallarını fəal təbliğ edən ziyalılardan biri idi. Bu dövrdə o, Azərbaycan (1918-20), "İstiqlal" (1918-20) qəzetlərində şer və publisist əsərlərlə çıxış etmiş, 1919 ildə yazdığı "Azərbaycan" şeri elan edilmiş müsabiqədə birinci yer tutmuşdur. Şair Vətəninin yenilməzliyini tərənnüm edərək yazırdı:

*Turan boyu başqa soya qarışmaz,*
*Qul olmağa heç bir zaman alışmaz,*
*Qucağında yad tutmağa ahşmaz,*
*Düşmənlərin əğyarıdır bu ölkə.*
*Məbudumuz üç boyalı bayrağı,*
*Kəbəmizdir hər bir ovuc torpağı.*
*Sevməz bu yer hər xaini, alçağı,*
*Doğruların asarıdır bu ölkə.*

Şer A.Şaiqin 1919 ildə nəşr olunmuş "Türk çələngi" (1919) dərsliyinə daxil edilmişdi. Sovet hakimiyyətinin ilk illərində Şuşa qəza siyasi maarif idarəsinin müdiri işləmiş, "Qarabağ füqərası birliyi" qəzetinin redaktoru olmuş, Kommunist" qəzetində mədəni-məişət mövzularında şerlər dərc etdirmişdir. 1920-30 illərdə, əsasən, ədəbiyyatşünaslıqla məşğul olmuş, "Kommunist" qəzetində silsilə məqalələri, "Aşıq Pəri və müasirləri" (1928), "Nakam" (1928), "M.Ə.Sabir" (1928), "S.Ə.Şirvani" (1930), "Abbas Səhhət" 1928, 1935) kitabları çıxmışdır. Müznib 1937 ildə milli ruhlu əsərlərinə və Osmanlı qoşunlarının Bakıya gəlməsini alqışlayan şerinə görə 8 il həbs cəzasına məhkum olunub Sibirə göndərilmiş, Vladivostokdakı xüsusi cəzaçəkmə məntəqəsində vəfat etmişdir.

*Əd.:* Ağayev İ., Ələbbas Müznib (həyatı, yaradıcılığı, mübarizəsi), B., 2000; yenə onun, Ələbbas Müznib (həyatı, yaradıcılığı, əsərlərindən seçmələr), B., 2003.

downloaded from KitabYurdu.az

# N


НАБАТЪ

**"NABAT"**-Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda rus dilində nəşr olunan leqal fəhlə qəzeti. Mətbəə fəhlələrinin həmkarlar ittifaqı tərəfindən 1919 il martın 10-dan iyulun 21-dək (cəmi 51 nömrə, 4 min nüsxə tirajla) nəşr edilmişdir. "Nabat" 11-ci nömrəyədək həftəlik, sonra gündəlik çıxmışdır. İlk nömrələrində menşeviklərin "vahid sosialist cəbhəsi" xəttini təbliğ etmiş, 8-ci nömrədən bütünlüklə bolşeviklərin movqeyinə keçmişdir. "Nabat" Azərbaycanın müstəqilliyi oleyhinə ziyankar təbliğat apardığı üçün Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən bağlanmışdır.

*Əd.: Гусейнов А.А., Мангасарова Н.А., Большевистская периодческая печать Азербаиджана (1904-апрель 1920 гг.), Б.,* 1964.

**NADİM NAXÇIVANİ,** Hüseyn Abdulla oğlu Mehdiyev; 1871, indiki Babək rayonunun Nehrəm k. - 1927, orada) - şair. İlk təhsilini mollaxanada almış, sonra Cəlil Məmmədquluzadənin müəllim olduğu Nehrəm kənd məktəbində oxumuşdur. Atasını erkən itirdiyindən təhsilini davam etdirə bilməmiş, şəxsi mütaliə yolu ilə ərəb və fars dillərini, islam tarixini və Şərq klassiklərinin əsərlərini öyrənmişdi. Nadim Naxçıvani 1918-20 illərdə Azərbaycanda milli azadlıq hərəkatında iştirak etmiş, partizan dəstələrində erməni daşnaklarına qarşı vuruşmuş, Ələngəz dağı ətrafında ağır yaralanmış və sonralar həmin yaradan da vəfat etmişdir. Nadim Naxçıvaninin ədəbi irsinin xeyli hissəsi itsə də, qalan şerləri onun 19 əsrin sonu-20 əsrin əvvəllərində Azərbaycan şerinin inkişafına töhfə vermiş sənətkarlardan olduğunu göstərir. İctimai məzmunlu şerlərində ictimai zülmə etiraz, xalq, vətən məhəbbəti başlıca yer tutur. "Yox bircə kəs xilas edə bu naridən bizi" misrası ilə başlayan qəzəli bu baxımdan xüsusilə diqqətəlayiqdir.

Əsəri: Seçmə şerlər (tərtib edəni Ə.Qədimov), B., 1993.



**NAĞIYEV** Hüseyn Hacı Musa oğlu (1897, Gəncə - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hısabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Yelizavetpol (Gəncə) kişi gimnaziyasını bitirmiş (1917), Kiyev Politexnik İnstitutunun mühəndislik şöbəsində 2 il təhsil almış, lakin maddi çətinlik üzündən təhsilini davam etdirə bilməmişdi. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini kənd təsərrüfatı sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**NAĞIYEV** Musa Hacıəli oğlu (1842, Bakı yaxınlığındakı Biləcəri kəndi - 4.3.1919, Bakı) - məşhur Azərbaycan sahibkarı, iri neft milyonçusu, xeyriyyəçi. Musa Nağıyev sahibkarlıq fəaliyyətinə manufaktura ticarətindən başlayaraq, 1862 ildə kiçik bir dükan açmış, 19 əsrin sonlarında Balaxanı, Sabunçu, Əmircan, Ramanada neftli torpaq sahələri icarəyə götürmüşdü. 1887 ildə "M.Nağıyev" neftçıxarma fırmasını yaratmışdı. 1913 ildə bu firma Bakının ən sabit işləyən firmaları sırasına daxil olmuşdu. Onun neftayırma zavodları, mexaniki emalatxanası, neft daşıyan gəmiləri, Sabunçu, Suraxanı və Ramanada 65 neft buruğu, habelə iri mülkləri vardı.



M.Nağıyevin buxar qazanları istehsal edən müəssisəsi bu tipli iri müəssisələrdən sayılırdı. 1906 ildə Kür çayı boyunda iri balıq vətəgələri almış, "Kür balıq sənayesi" şirkətini yaradanlardan biri olmuşdur. O, həm də Xəzərdə iri gəmiçilik sahiblərindən idi; onun öz bankir kontoru vardı. 1914 ildə Hacı Zeynalabdin Tağıyevlə birlikdə Bakı Ticarət Bankını təsis etmiş, onun idarə heyətinin sədri seçilmişdi. M.Nağıyev geniş xeyriyyəçilik fəaliyyəti göstərmişdir. Məşhur *"İsmailiyyə"* kompleksi, hazırda onun adını daşıyan şəhər təcili yardım xəstəxanası, lüteran kilsəsi və bir çox monumental binaları onun vəsaiti hesabına inşa edilmişdir. Cavankən vəfat etmiş oğlu İsmayılın xatirəsinə tikdirdiyi binanı ("İsmailiyyə") *Mü-*

downloaded from KitabYurdu.az

Neolit və Eneolit dövrlərinə aid boyalı qablar mədəniyyəti tapıntıları. Naxçıvan



*səlman xeyriyyə cəmiyyətinə* bağışlamışdı. M.Nağıyevin "İsmailiyyə" binasındakı 50 yerlik qonaq evinin bütün xərcləri onun kassasından ödənilirdi. 1918 ilin martında erməni-daşnak quldurları və bolşevik vandalları tərəfindən "xaincəsinə yandırılan "İsmailiyyə" binası millətimizin müqəddəs azadlıq və istiqlal məbədgahı" (Seyid Hüseyn) olmuşdur.

Musa Nağıyev, *"Nəşri-maarif"* xeyriyyə cəmiyyətinin fəxri üzvü seçilmiş, cəmiyyətin keçirdiyi tədbirlərə müntəzəm olaraq ianələr vcrmişdir. *Aprel işğalından (1920)* sonra Nağıyevin müəssisələri milliləşdirildi.

*Əd.:* Süleymanov M., Ağa Musa Nağıyev, B., 1994; Cavadov C, Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə), B., 1999; Seyidzadə D., Azərbaycan XX əsrin əvvəliərində: müstəqilliyə aparan yollar, B., 2004.

**NAXÇIVAN** - Azərbaycanın və dünyanın ən qədim şəhərlərindən biri. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqlan üzərində yerləşmişdir. Strateji cəhətdən əlverişli ərazidə salınan qədim şəhərin və onun nekropolunun Naxçıvanın şimal hissəsində yerləşdiyi ehtimal olunur. E.ə. 9-6 əsrlərdə Naxçıvan qədim Manna və Midiya dövlətlərinin tərkibində olmuşdur. Midiya dövründə Naxçıvan tanınmış şəhərlərdən biri idi. E.ə. 6 əsrin ortalarından 4 əsrin 30-cu illərinədək Əhəmənilər (Haxamanişlər) dövlətinin, 4 əsrin sonlarından e.ə. 1 əsrin 1-ci yarısınadək isə Atropatenanın tərkibindo olmuşdu. Bu dövrdə Naxçıvanın Yaxm Şərqin bir sıra şəhərləri və antik dövlət-lərlə iqtisadi və mədoni əlaqələri xeyli genişlonmişdi. Era-mızın əvvəllərindo Naxçıvan Albaniyamn (Qafqaz) şəhər və vilayoti olmuş, 4 osrdən Sasani dövlətinin tərkibinə daxil edilmişdir. Naxçıvan İranın, Gürcüstanın (xüsusilə Msxeti) bir sıra şəhərləri ilə, Qara dəniz limanları, Kiçik Asiya və Beynəlnəhreyndəki şəhərlərlə sıx ticarət əlaqəsi saxlayırdı. 6 əsrin 1-ci yarısından Naxçıvanda Sasanilərə məxsus zərbxana olmuşdur. Bu, Azərbaycanda ən qədim zərbxanalardan biri sayılır. 7 əsrdən Naxçıvan Ərəb xilafətinin Azərbaycanda hərbi və inzibati mərkəzi, ərəb əmirlərinin əsas iqamətgahı idi. 9 əsrdə Azərbaycanda Xilafət əley-hinə yüksələn Xürrəmilər hərəkatı Naxçıvanı da bürümüşdü. 12 əsrin 30-70-ci illərinin ortalarında Azərbaycan Eldənizlər (Atabəylər) dövlətinin (1136-1225) və Naxçıvan xanlığının (1747-1828) paytaxtı olmuşdur. 1826-28 illər Rusiya-İran müharibəsi zamanı rus qoşunları tərəfindən işğal olunmuş (1827, 27 iyun), *Türkmənçay müqaviləsinə (1828)* əsasən, xanlıqla birlikdə Rusiyaya ilhaq edilmişdir. İşğaldan sonra çar Rusiyasınm xüsusi məqsədlə yaratdığı *"Erməni viliayət"inin* tərkibinə verilmiş, Naxçıvan vilayətinin (1828-40), sonra isə Naxçıvan qəzasının mərkəzi olmuşdu.

downloaded from KitabYurdu.az




**Naxçıvanın tarixi-memarlıq abidələri**

1.Möminə Xatın türbəsi. 1187. Memar Əcəmi; 2. Yusif ibn Küseyir türbəsi. 1162. Memar Əcəmi; 3. Qarabağlar memarlıq kompleksi. XII-XIII əsrlər; 4. Memar Əcəmi Naxçıvaninin abidəsi. 1989. *Heykəltəraş K. Ələkbərov.*

downloaded from KitabYurdu.az

downloaded from KitabYurdu.az



**Naxçıvan şəhəri**

1. Yeni yaşayış massivi; 2. Dədə Qorqud meydanı; 3. Xalça muzeyi; 4. Heydər Əliyevin büstü.

downloaded from KitabYurdu.az




*Naxçıvanda zərb olunmuş sikkə nümunələri: 1-2. Sasani hökmdarı II Xosrov (591-628) və Boran (629-631) dövrlərinə aid üzərində "Naxç." sözü yazılmış gümüş dirhəmlər; 3. Atabəy Şəmsəddin Eldəniz (1136-1175) dövrünə aid mis dirhəmlər*

1829-32 illərdə keçirilmiş kameral təsvirə görə, Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərində təxminən 1065 ailə, 4360 nəfər əhali olmuşdur. İşğal prosesində şəhərin müsəlman (azərbaycanlı) əhalisinin zorakı miqrasiyasına və bura İrandan, Türkiyədən xeyli erməni köçürülməsinə baxmayaraq, azərbaycanlılar yenə də əhalinin əksəriyyətini - 909 ailə (85,3%), 3641 nəfər (83,5%) təşkil edirdi. Həmin dövrdə Naxçıvanda cəmi 156 erməni ailəsi (14,6%), yaxud 719 nəfər (16,5%) vardı ki, bu da çar hakimiyyət orqanları tərəfindən köçürülüb gətirilənlər idi. Çar hökuməti işğaldan sonra da ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvan şəhərinə köçürülməsinə başladı. Bu zaman Naxçıvana 265 ailə (bütün ailələrin 24,9%-i qədər) və ya 1110 nəfər (25,4%) erməni köçürülmüşdü. Bunun nəticəsində Naxçıvan şəhəri əhalisinin etnik tərkibində ermənilərin sayı süni şəkildə artırılmışdı.

1917 il Qafqaz təqviminin məlumatma görə, Naxçıvan şəhərində 8934 nəfər əhali qeydiyyata alınmışdı, yəni əvvəlki dövrlə müqayisədə şəhər əhalisi 3464 nəfər (63,3%) çoxalmışdı. Əhalinin 4541 nəfəri (50,8%) kişi, 4393 nəfəri (49,2%) qadın, 8477 nəfəri daimi, 457 nəfəri müvəqqəti yaşayanlar idi. Çarizmin Naxçıvan şəhəri əhalisinin etnik tərkibini məqsədyönlü və sistematik şəkildə dəyişdirmək siyasətinə baxmayaraq, azərbaycanlılar doğma şəhəri tərk etmir, yenə də şəhər əhalisinin 70%-ni təşkil edirdi.

*Naxçıvan şəhərinin qala divarı və bürc. Orta əsrlər*



Naxçıvan şəhərinin iqtisadiyyatı Rusiya işğalından sonrakı dövrlərdə də, əsasən, aqrar xarakter daşıyırdı, lakin kapitalist münasibətlərinin inkişafı tədricən Naxçıvanda da özünü göstərməyə başladı. Sənaye statistikasının məlumatına görə, 1876-77-ci illərdə şəhərdə 56 sənaye, 86 ticarət müəssisəsi var idi. Duz istehsalı ilə yanaşı, digər sahələr də yaranmağa başlayırdı. 1882 ildə Naxçıvanda ilk pambıqtəmizləmə zavodu tikilmişdi. İpəkçilik sürətlə inkişaf edirdi. 1897 il yanvarın 1-dən Naxçıvanda sadələşdirilmiş ictimai idarə sistemi tətbiq olundu.

downloaded from KitabYurdu.az

Çar hökumətinin Naxçıvana köçürdüyü ermənilər 1905-06 illər soyqırımı zamanı burada da azərbaycanlılara qarşı qanlı cinayətlər törətdilər (bax *Min doqquz yüz beşinci il soyqırımı*). Oktyabr çevrilişindən (1917) sonra yaranmış vəziyyətdən istifadə edərək yenidən fəallaşan erməni-daşnak silahlı dəstələri Naxçıvanda dinc azərbaycanlı əhaliyə divan tutdu [bax *Naxçıvan bölgəsində azərbaycanlılara qarşı soyqırımları (1917-20)]*. 1918 il mayın 28-də yaranan Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanı öz ərazisi elan etdi. Ermənilər Naxçıvam Azərbaycandan qoparmaq cəhdlərini davam etdirsələr də, yerli əhalinin müqaviməti və türk əsgərlərinin bölgəyə daxil olması onlarını bu məkrli niyyətlərini həyata keçirmələrinə imkan vermədi. *Mudros barışığına (1918)* əsasən, türk qoşunları bölgədən çıxarıldıqdan sonra, noyabrda erməni-daşnak quldurlarından qorunmaq məqsədilə *Araz-Türk Respublikası* yaradıldı. Naxçıvan şəhəri onun mərkəzi elan olundu. 1919 ilin əvvəllərində Naxçıvanı tutan ingilislər Araz-Türk Respublikasını tanımaqdan imtina etdilər. Daşnaklar iyulda ingilislərin yardımı ilə Naxçıvanı tutsalar da, ingilislərin Naxçıvanı tərk etməsilə Naxçıvan Milli Komitəsinin hərbi hissələri erməni-daşnak qüvvələrini qovmağa nail oldu. Naxçıvan şəhəri bölgənin Azərbaycanın tərkibində qalmasının təmin edilməsində mühüm rol oynadı. Naxçıvanda baş verən hadisələrə həmişə diqqət yetirən Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti Naxçıvandakı vəziyyəti dəfələrlə müzakirə etmişdi. Naxçıvan əhalisi özünü Azərbaycandan ayrı təsəvvür etmədiklərini dönə-dönə bildirmişdi.

Bakıda sovet hakimiyyətinin elan edilməsindən sonra (1920, 28 aprel) iyulun 28-də Naxçıvanda da sovet hakimiyyəti quruldu. 11-ci Qırmızı ordu tərəfindən Ermənistan sovetləşdirildikdon sonra da sovet Ermənistanı Naxçıvanı ələ keçirmək cəhdlərini davam etdirirdi. 1921 ilin yanvarında naxçıvanlılar muxtariyyət statusunda Azərbaycan Sovet Sosialist Respublikasına birləşməyə səs verdi. 1921 il Moskva və Qars müqavilələri Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusunu qəti şəkildə və birdəfəlik müəyyənləşdirdi. 1924 il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldıqda Naxçıvan onun mərkəzi oldu. *Əd:* Azərbaycan tarixi, 7 clddə, c.1-7, B., 1998-2003; M u s a y e v İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və Naxçıvan Muxtar Respublikası tarixindən, B., 1995; KaBKascKHJi K&ıeHaapb na 1917 r., 1916; IUoneH H., HcTopHiecKHH naMHTHHK COCTOH-IHna ApMHnCKOH oÖJiacTH Вəıюху ee npHcoeüHiıeıiHfl К РОССIIİİCKOÜ НМ-epHH. Cn6., 1852.

**NAXÇIVAN ARAZ-TÜRK CÜMHURİYYƏTİ.** Türk Araz Cümhuriyyəti - Azərbaycanın Naxçıvan bölgəsində və onun çevrəsindəki Azərbaycan ərazilərində yaradılmış dövlət qurumu. 1918 ilin noyabrından 1919 ilin martınadək fəaliyyət göstərmişdir. Ətraflı məlumat üçün bax *Araz-Türk Cümhuriyyəti*.

**NAXÇIVAN BÖLGƏSİNDƏ AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLARI (1917-20)** - erməni-daşnak silahlı dəstələrinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri kütləvi soyqırımlarından biri. Rusiyada çarizmin devrilməsi ermənilərin Azərbaycanda həyata keçirdikləri türk-müsəlman soyqırımlarının yeni dalğasının başlanmasına təkan verdi. 1917 ilin əvvəllərindən 1918 ilin martınadək təkcə İrəvan quberniyasında 197 Azərbaycan kəndi erməni silahlı qüvvələri tərəfindən dağıdıldı və boşaldıldı. Onların da müəyyən hissəsi həmin quberniyaya daxil olan Naxçıvan qəzasına və digər qonşu qəzalara aid idi. Zaqafqaziya seyminin Azərbaycandan olan təmçilçiləri bütün bu vəhşilik və zorakılıq hərəkətlərinə ciddi etiraz etmişdilər.

S.Şaumyanm vasitəçiliyi ilə sovet Rusiyasımn himayə və yardımına nail olan ermənilər, xüsusilə də Andronikin silahlı quldur dəstəsi 1918 ilin iyun-avqust aylarında Naxçıvan mahalının dinc türk-müsəlman əhalisinə heç bir çərçivəyə sığmayan vəhşiliklə divan tutdular. Andronikin yürüşü zamanı ermənilər Yaycı kəndinin əhalisinin ciddi müqavimətilə üzləşsələr də, oranı viran qoymuşdular. Onlar Culfada Araz çayı üzərindəki körpünü yandırmış və Ordubadda 2000 türk-müsəlmanı qətlə yetirmişdilər. 300-ə qədər adam Arazı keçərkən boğulmuşdu. Yaycı kəndində ermənilər tarixdə bənzəri olmayan vəhşiliklər törətmişdilər (insanların kürəyinə qaynar samovar bağlanması, hamilə qadınların qarınlarının xəncərlə yırtılması və s.).

*Mömünə xatun türbəsi (1186) və açıq səma altında muzey. Naxçıvan*



Digər bir erməni silahh dəstəsi 1918 ildə "Yaqon" ləqəbli quldurun başçılığı ilə Naxçıvan şəhərindən 40 *km* şimalda yerləşən Almalı yaşayış məntəqəsinin əhalisini qıraraq, öz tarixi yurdlarından didərgin salmışdı. Təxminən 2000 kişi öldürülmüş, xeyli gənc qadın əsir aparılmışdı. Osmanlı ordu hissələrinin Kazım Qarabəkir paşanın komandanlığı ilə Naxçıvan bölgəsinə gəlişi mahalın əhalisini daha irimiqyaslı qırğınlardan xilas etdi. 1919 ilin əvvəlində erməni polkovniki Doluxanovun başçılıq etdiyi silahlı qüvvələr Şəmr-Sədərək ərazilərində onları duz-çörəklə qarşılayan dinc əhaliyə qarşı zorakılıqlar törətdilər. Müsəlmanlar yaşayan 8 kənd mühasirəyə alındı, Dəmirçi kəndi dağıdıldı

downloaded from KitabYurdu.az

və qarət olundu, 60 nəfər həbs edilərək İrəvana göndərildi, 200 nəfər Arazı keçmək istərkən çayda boğuldu. Yerli əhali ilə toqquşmada ağır itkilər verən erməni hərbi hissəsi geri çəkilməyə məcbur oldu.

1919 ilin 1-ci yarısında Naxçıvan mahalında həyata keçirilən ingilis və erməni idarəçiliyi (bax *Naxçıvanda erməni idarəçiliyi)* zamanı da mahalın azərbaycanlı əhalisinə qarşı ağlasığmaz zorakılıqlar edildi. Təxminən iki aylıq "erməni idarəçiliyi" (1919, may-iyul) müddətində yalnız Naxçıvan şəhərində 330-adək axtarış aparılmış, 500-600 nəfər həbs olunmuş, 100-150 nəfərə isə dəhşətli işgəncələr verilmişdi. Bölgənin yerli əhalisinin "erməni idarəçiliyi"nə qarşı bir həftəlik üsyanının (19-25 iyul) uğurla nəticələnməsi, yəni daşnak silahlı dəstələrinin mahaldan çıxarılması yeni soy-qırımların qarşısını aldı.

Ermənilərin yürütdükləri "yandırılmış torpaq" - etnik təmizləmə siyasəti nəticəsində Naxçıvan mahalı 1918-20 illərdə böyük qaçqınlar ordusu problemi ilə də üz-üzə qaldı. Bir tərəfdən, ermənilərin İrəvan ətrafından və Zəngəzurdan qovduqları türk-müsəlman əhali Naxçıvana pənah gətirmiş, digər tərəfdən isə, Andronikin yürüşü və "erməni idarəçiliyi" zamanı bölgənin xeyli yerli sakini Cənubi Azərbaycana üz tutmuşdu. Erməni hərbi hissələrinin Ordubad mahalına 1920 ilin martındakı hücumları da çoxsaylı dinc əhalinin qırılması ilə nəticələnmişdi.

Naxçıvan mahalının türk-müsəlman əhalisi Şimali Azərbaycan Rusiya tərəfindən yenidən işğal olunduqdan sonra, sovet hakimiyyətinin ilk çağlarında da ermənilərin törətdikləri soyqırımlarına məruz qalmışdır. Belə dəhşətli qırğınlardan biri 1920 ilin yay aylarında həyata keçirilmişdi. Erməni silahlı qüvvələrinin Zəngibasar-Vedibasar-Şahtaxtı-Şərur istiqamətindəki qanlı yürüşü zamanı həmin ərazilərin dinc əhalisinə qarşı törədilən vəhşilik və zorakılıqlara dair rəsmi araşdırma-təhqiqatlar aşağıdakı dəhşətli faciələri üzə çıxarmışdı:

Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 18 qız və gənc qadın əsir aparılmış, 400-dən çox uşaq, 150 qoca kişi və qadın öldürülmüş, 100 xəstə yandırılmış, 816 qaçqın Arazda boğulmuş, 160 min nəfər isə Cənubi Azərbaycana keçərək, orada evsiz-eşiksiz qalmışdı; Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşlərilə öldürülmüş, 6 qadın əsir aparılmış, 300-dən artıq uşaq və qoca qətlə yetirilmişdi; Dərələyəzdə 74, Şərur və Şahtaxtıda isə 76 kənd yandırılmışdı. Şərurda 810 xəstə yatağındaca qətlə yetirilmiş, 144 qadın əsir götürülmüş, 72 nəfər top atəşilə məhv edilmiş, 150 qoca və qadın öldürülmüşdü. Şahtaxtıda isə 3 qadın əsir aparılmış, 35 uşaq, 14 qoca kişi, 8 qadın və 9 xəstə qətlə yetirilmişdi.

Bütövlükdə, 1918-21 illərdə erməni quldur dəstələri Naxçıvan bölgəsində 73727 nəfər türk-müsəlman əhalisini vəhşicəsinə qətlə yetirmişdilər.

Bütün bu mahallardan 50000 iri və xırda buynuzlu mal-qara aparılmışdı. Onların 500 min nəfərlik əhalisi tamamilə yoxsul vəziyyətə düşmüşdü. Kütləvi qırğın və talanlardan Cənubi Azərbaycana qaçanların 45 mindən çoxu aclıqdan və xəstəliklərdən tələf olmuşdu. Qaçqınların 70 mini Cənubi Azərbaycanda, 400 min nəfəri isə Naxçıvanda, onun ətrafındakı ərazilərdə yurdsuz-yuvasız qalmışdı.

1921 ilin yanvarında Naxçıvan əhalisinin referendum əsasında Azərbaycanın tərkibində qalmaq arzusunu qəti şəkildə bildirməsi, Moskva və Qars müqavilələri (1921) ilə diyara Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsi və Naxçıvan Muxtar Respublikasının yaradılması (1924) ilə bölgədə türk-müsəlmanların soyqırımına qismən son qoyuldu. Lakin "Böyük Ermənistan" yaratmaq kimi sərsəm xülyalarla yaşayan erməni şovinistləri sonralar da bu siyasətdən əl çəkməmiş, zaman-zaman bütün 20 əsr boyu açıq və gizli şəkildə davam etdirmişlər (30-cu illərin qanlı repressiyaları, 40-50-ci və 80-ci illərdə azərbaycanlıların öz tarixi torpaqlarından - Qərbi Azərbaycandan kütləvi surətdə deportasiyası və s.). 1990-93 illərdə Ermənistanın Naxçıvan Muxtar Respublikasına silahlı təcavüzü nəticəsində muxtar respublikanın Şərur-Sədərək bölgəsində qanlı döyüşlər getmiş, bu döyüşlərdə 108 vətənpərvər

*Şəhidlər abidəsi. Naxçıvan*



*Naxçıvanda türk şəhidliyi*



downloaded from KitabYurdu.az

şəhid olmuş, 500-ə yaxını yaralanmaş, 500-ə yaxın yaşayış evi, ictimai-inzibati bina, sosial obyektlər dağıdılmışdır. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998 il 26 mart tarixli fərmanında erməni millətçilərinin Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da xalqımıza qarşı dəhşətli soyqırımları törətdikləri qeyd olunmuşdur.

*Əd:* Azərbaycan tarixi, 7 cilddl, c.5, B., 2001; Ordubadi M.S.: Qanlı sənələr, B,, 1991; Əliyev M., Qanlı günlərmiz (1918-1920-ci illər), B., 1993; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996; Qasımov A., XX əsrdə Naxçıvanda erməni-Azərbaycan ziddiyyətləri, "Naxçıvan Azərbaycanın tarixində" kitabı, B., 1996; Əliyev Ə., Əlincə yaddaşı: Naxçıvan, 1914-1992, B., 1997.



Naxçıvan qəzasının gerbi, 1840.
Azərbaycan Tarixi Muzeyi

**NAXÇIVAN GENERAL-QUBERNATORLUĞU,**

Azərbaycan Xalq Cümhuriyyətinin Əlahiddə Naxçıvan general-qubernatorluğu-Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvan bölgəsində yaratdığı idarəçilik orqanı; yerli Azərbaycanınlı əhaiinin qəti tələbinə uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 28 fevral 1919 il tarixli qərarı ilə yaradılmışdı (sənədlərdə həmçinin "Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu", yaxud "Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar rayonlarının general-qubernatorluğu" da adlanır). Həmin qərara Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski hərbi işlər üzrə, Hacı Mehdi Bağırov isə mülki işlər üzrə onun müavinləri toyin olunmuşdular. Naxçıvan general-qubernatorluğunun nəz-dində 7 nəfərdən ibarət şura yaradılmışdı; martın 16-da istefa verən Bəhram xan Naxçıvanskini Haşımbəyov əvəz etmiş, o, Azərbaycan Xaiq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin sərəncamına çağırıldıqdan sonra isə Səməd bəy Cəmillinski Naxçıvan general-qubernatoru təyin olunmuşdu. Siyasi şəraitin mürəkkəbliyi, ilk növbədə isə Ermənistan daşnak hökumətinin fitnəkar hərəkətləri üzündən yüksək vəzifəli şəxslərin Naxçıvana gələrək vaxtında öz vəzifələrinin icrasına başlaya bümənıələri general-qubernatorluğun işində ciddi çətinliklər yaratmışdı. Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti general-qubernatorluğun fəaliyyətinin bir an da olsun dayanmasına yol verməmişdi; 1919 ilin avqustunda qısa müddət Ordubadda fəaliyyət göstərməyə məcbur olan general-qubernatorluğun iqamətgahı sonra yenidən Naxçıvana köçürüimüşdü. Naxçıvan general-qubernatorluğu o zamankı mürəkkəb şəraitlə bağlı səbəblər üzündən daha geniş və səmərəli fəaliyyət göstərə bilməsə də, bölgənin erməni təcavüzündən müdafiəsində, Azərbaycan Xaiq Cümhuriyyəti Hökuməti ilə əlaqə yaradılmasında və möhkəmləndirilməsində mühüm rol oynamışdı.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyot və xarici dövlətlərin siyasəti (1917-1921-ciillər), B., 1996.

**NAXÇIVAN QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi. Şimali Azərbaycan Rusiyaya ilhaq olunduqdan sonra Naxçıvan xanlığı ləğv edihniş, 1828 ilin martında *"Erməni vilayəti"nin* tərkibinə verilmişdi. 1840 il islahatı zamanı Naxçıvan əyaləti əsasında qəza yaradılmışdı. 1849 ildə İrəvan quberniyası yaradıldıqda Naxçıvan qəzası onun tərkibinə daxil edilmişdi. Rusiya işğalı ərəfəsində Naxçıvan xanlığının ərazisi təxminən 4500 *kv.verst* (1 *verst* = 1,0668 *km)* olduğu halda, sonralar onun torpaqları xüsusi məqsədlə digər inzibati vahidlər arasında bölüşdürüldü. 1917 il Qafqaz təqviminin məlumatına görə, Naxçıvan qəzasının sahəsi 3939 *kv.verst,* yəni xanlığın ərazisindən 561 *kv.verst* az idi. Həmin dövrdə qəzada 122208 nəfər əhali yaşayırdı. Qəza əhalisinin 66117 nəfəri (54,1%) kişi, 56091 nəfəri (45,9%) qadın, 119272 nəfəri yerli sakin, 2936 nəfəri müvəqqəti yaşayanlar idi. Naxçıvan xanlığı Rusiyanın tərkibinə qatıldığı dövrdə (sonra Naxçıvan əyaləti və Ordubad dairəsi) burada təxminən 29463 nəfər (köçürülüb gətirilmiş ermənilərin sayı çıxılmaqla) əhali yaşayırdı. Çarizmin *Türkmənçay müqaviləsindən (1828)* sonra həyata keçirdiyi kütləvi erməni köçürmələri zamanı buraya 12 min (oradakı əhalinin 40,7%-i qədər) erməni gətirilmiş, nəticədə əhalinin etnik tərkibində ciddi dəyişiklik yaradılmışdı. Ermənilərin Naxçıvan ərazisinə köçürülməsi sonralar da davam etdirilmişdi. 1917 il Qafqaz təqviminin məlumatına görə, Naxçıvan qəzasında azərbaycanlıların sayı 70 min (57,3%) təşkil edirdi. Bu onu göstərirdi ki, çarizmin bütün cəhdlərinə baxmayaraq, Naxçıvan qəzasını erməniləşdirmək siyasəti boşa çıxmışdı.

Çar hökuməti burada qəza idarə sistemi yaratmışdı. Qəzanın təsərrüfat həyatında aqrar bölmə (əkinçilik, bağçılıq, maldarlıq və s.) əsas yer tuturdu. Duz istehsalı da inkişaf ctmişdi. Eyni zamanda, ipəkəyirmə, pambıqtəmizləmə müəssisəiəri fəaliyyət gostərirdi. 19 əsrin 60-70-ci illərində Tiflis-İrəvan-Naxçıvan, 19 əsrin sonu - 20 əsrin

downloaded from KitabYurdu.az



Naxçıvan xanlarının evi

əvvəllərində Yevlax-Şuşa-Gorus-Naxçıvan şose yolunun çəkilməsi iqtisadi əlaqələri genişləndirdi. 1864 ildə Tiflis-Naxçıvan teleqraf xətti istifadəyə verildi. Sosial-siyasi və mədəni həyatda da müəyyən dəyişikliklər baş verdi. 1837 ildə Naxçıvanda qəza məktəbi açılmışdı. Çar Rusiyası tərəfindən ermənilərin Naxçıvana köçürülməsi ilə yanaşı, ermənilərin azərbaycanlılara qarşı apardıqları soyqırım siyasoti qəzada ağır vəziyyət yaratdı. Ermənilər 1905-06 illərdə Naxçıvan qəzasında yerli azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətdilər (bax *Min doqquz yüz beşinci il soyqırımı).* Nəticədə, 1897 illə müqayisədə Naxçıvanda azərbaycanlıların sayı 31279 nəfər (34,6%) azalmışdı. Təbii artımı da nəzərə alınsa, erməni soyqırımı nəticəsində Naxçıvanda azərbaycanlıların sayı iki dəfə aşağı düşmüşdü.

Rusiyada Müvəqqəti hökumət dövründə fəallaşan ermənilər, Oktyabr çevrilişindən (1917) sonra Naxçıvanda yeni qırğınlar törətməklə yenidən etnik təmizləmə siyasətini həyata keçirməyə başladılar [bax *Naxçıvan bölgəsində azərbaycanlılara qarşı soyqırımları (1917-20)]*. Xüsusi Zaqafqaziya komitəsi (1917, mart-noyabr) və Zaqafqaziya komissarlığı (1917, noyabr - 1918, aprel) orqanları bu qırğının qarşısını almaqda fəallıq göstərmədi. Türk ordusunun bölgəyə daxil olması Naxçıvanın həyatında mühüm hadisə oldu. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması (1918, 28 may) dövlətin ərazi bütövlüyü uğrunda mübarizəni gücləndirdi. Lakin *Mudros barışığına (1918)* əsasən, türk ordusunun Azərbaycanı, o cümlədən Naxçıvanı tərk etməsi vəziyyəti yenidən mürəkkəbləşdirdi. Bölgə əhalisini qırğınlardan xilas etmək məqsədilə Naxçıvan - Şərur-Dərələyəz və Ordubad qəzalarını, həmçinin Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. əraziləri əhatə edən məhəlli - Araz-Türk Respublikası (1918, noyabr - 1919, mart) quruldu. Azərbaycanın Xalq Cümhuriyyəti Hökumoti bölgədə vəziyyəti yaxşılaşdırmaq məqsədilə 1919 il 28 fevral tarixli qərarı ilə Cənub-Qərbi Azərbaycan general qubernatorluğu yaratmışdı (bax *Cənub-Qərbi Azərbaycan general-qubernatorluğunun yaradılması haqqında qərar, Naxçıvan general-qubernatorluğu).* Türklərin bölgəni tərk etməsindən sonra burada fəallaşan ingilislər Naxçıvanda təxminən iki ay müddətinə (1919, may-iyul) erməni idarəçiliyi qurmağa nail oldular, lakin xalqın qətiyyətli müqaviməti nəticəsində onun faktik fəaliyyətini təmin edə bilmədilər. İyulun sonlarında ermənilər Naxçıvandan qovuldu (bax *Naxçıvanda erməni idarəçiliyi).* Ermənilərin Naxçıvanda qısa müddətdə idarəçilik cəhdi bölgəyə ağır zərbə vurdu. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bölgədə möhkəmlənmək tədbirlərini davam etdirirdi. 1919 ilin avqustunda Səməd bəy Cəmillinski Cənub-Qərbi Azərbaycan general-qubernatoru təyin olundu. Qubernatorluğun iqamətgahı qısa bir müddətdə Ordubadda olsa da, tezliklə Naxçıvan şəhərinə köçürülmüşdü. Lakin ABŞ-ın bölgə üzərində Millətlər Cəmiyyətinin mandatını alması ilə yeni vəziyyət yarandı. 1919 ilin iyulunda müttəfiqlərin Ermənistanda ali komissarı təyin edilmiş amerikalı polkovnik V.Haskel avqustun 26-da Bakıya gəldi. O, Şorur və Naxçıvandan ibarət neytral zona yaradılması ideyasını irəli sürdü. Haskel oktyabrın 24-də polkovnik Edmund Dellini Amerika general-qubernatoru təyin etdi, lakin Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin və yerli əhalinin səyi nəticəsində bu niyyət baş tutmadı (bax *Naxçıvanda Amerika general-qubernatorluğu)*. Naxçıvanda, yalnız Paris Sülh Konfransının (1919-20) nümayəndəsi kimi fəaliyyətə başlayan Delli az sonra, bütün Amerika zabitləri isə, 1920 ilin əvvəllərində Naxçıvanı tərk etdilər. Amerika general-qubernatorluğu ideyası baş tutmasa da, müttəfiq qoşunlarının Ali komissarlığının qərargah rəisi Haskel Parisə qayıtdığı üçün

downloaded from KitabYurdu.az

onu əvəz edən C.Rey noyabrın 23-də Tiflisdə Azərbaycanla Ermənistan arasında beş maddədən ibarət saziş imzalanmasına nail oldu. Azərbaycan hökuməti sazişə inanaraq, hərbi qüvvələrini Zəngəzurdan çıxardı. Bununla da, Naxçıvan erməni-daşnak hərbi birləşmələrinin hücum təhlükəsi ilə üz-üzə qaldı. 1920 ilin əvvəllərində ermənilərin hücumu daha da gücləndi, yüzlərlə azərbaycanlı qətlə yetirildi. Sovet Rusiyasının 11-ci Qırmızı ordu hissələrinin Azərbaycana hərbi müdaxiləsi və Azərbaycan Xalq Cümhuriyyətinin süqutu (1920, 28 aprel) regionda vəziyyəti yenidən dəyişdi. Sovet qoşunları iyulun 28-də Naxçıvanı ələ keçirdi, Naxçıvan İnqilab Komitəsi yaradıldı. Sovet Rusiyası Ermənistanın sovetləşdirilməsindən sonra (1920, noyabr) Naxçıvan torpaqlarının Azərbaycandan qoparılması siyasətini həyata keçirməyə çalışırdı. Naxçıvanın taleyini Moskva və Qars müqavilələri (1921) qəti şəkildə həll etdi. Naxçıvan qəzasının ərazisi Naxçıvan Sovet Sosialist Respublikasının (1920-23), Naxçıvan Muxtar Diyarının (1923-24), 1924 il fevralın 9-dan isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının tərkibinə daxil oldu.

Naxçıvan MSSR yaradıldığı vaxt ərazisi Qars müqaviləsinin III əlavəsi əsasında 5988 *kv.km* müəyyən edilmişdi. 1929 il fevralın 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvana məxsus ərazilərin bir hissəsi, o cümlədən Qərçivan, Qurdbulaq, Horadiz, Ağxaç, Oqbin, Almalı, İtqıran, Sultanbəy kəndləri həmçinin Kilit kəndi torpaqlarının bir hissəsi əkin sahəsi, otlağı, biçənəyi ilə birlikdə (cəmi 657 *kv.km)* Ermənistana verildi. Beləliklə, 1929-30 illərdə Ermənistan SSR-ə verilən ərazilər hesabına Naxçıvan MSSR-in ərazisi azalaraq 5,5 min *kv.km* oldu. 1930 ildə isə Naxçıvan MSSR-in Aldəro, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.4-5, B., 2000, 2001; Əliyev M., Qanlı günlərimiz (1918-1920-ci illər), B., 1993; Sadıqov S., Naxçıvan Muxtar Rcspublikası tarixindən, B., 1995; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ciillər), B,, 1996.

**NAXÇIVAN MƏSƏLƏSİ** - çar Rusiyasının Cənubi Qafqazı işğal etməsi prosesində və bundan sonrakı dövrdə erməniləri İrandan və Osmanlı imperiyası ərazilərindən kütləvi surətdə Azərbaycan torpaqlarına köçürməsi nəticəsində yaranmış beynəlxalq problem. İlk mənbələrin sübut etdiyi kimi, bugünki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. Bu torpaqlar *Gülüstan müqavihsi (1813)* və *Türkmənçay müqaviləsi (/828)* ilə Azərbaycanın şimal hissəsinin Rusiya tərəfindən işğalının başa çatmasından, İrəvan xanlığının ləğvindən sonra ermənilərə verilmişdi. Naxçıvan, Zəngəzur, Qarabağ ərazilərinə göz dikən ermənilərin əcdadları bu qədim yurda 1828 ilin martında Rusiyanın yaratdığı xüsusi komissiya tərəfindən köçürülmüş, 2 il içərisində Naxçıvana əvvəlcə 434, sonra 2285 ailə (10 mindən çox erməni) gətirilmişdi. Köçürmə kampaniyası çarizmin zorakılıq siyasəti nəticəsində baş tutmuşdu. *Köçürmə siyasətinin* reallaşmasından sonra tarixi Azərbaycan torpaqlarında məskunlaşan və "Dənizdən dənizə Böyiik Ermənistan" xülyası ilə yaşayan üzüdönük məkrli erməni qəsbkarları ərazi iddialarına başladılar. Bu proses 20 əsrdə daha da genişləndi. Ermənilərin təqsiri üzündən istər 20 əsrin əvvəllərində, istərsə də 1918-20 illərdə Naxçıvan, Şərur, Dərələyəz, Culfa və Ordubadda baş verən ictimai-siyasi hadisələr, ermənilərin azərbaycanlılara qarşı soyqırımı cinayətləri dəhşətli, faciəli şəkil aldı. Bunlar Cənubi Qafqaz sərhədləri çərçivəsindən çıxaraq, beynəlxalq aləmi düşündürən mülüm bir problemə çevrildi.

Naxçıvan məsələsi 1918 ildə bir neçə dəfə Zaqafqaziya seymində, 1918-20 illərdə dəfələrlə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində, Ermənistanın, Türkiyənin parlamentlərində, Təbriz bələdiyyə idarəsində, Maku xanlığında, Paris sülh konfransında (1919-20), 1919-20 illərdə ABŞ-ın Ermənistan və Naxçıvandakı nümayəndəliklərində, 1920-21 illərdə Azərbaycan Sovet Respublikası və Ermənistan Sovet Respublikasının inqilab komitələrində, 1921 il martın 16-da Rusiya Kommunist (bolşeviklər) Partiyasının siyasi bürosunda, 1920-21 illərdə Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetində müzakirə olunsa da, Naxçıvanın əsl mənada tarixi taleyini - Azərbaycanın tərkibində muxtar respublika statusunu yalnız *Moskva müqaviləsi (1921)* və *Qars müqaviləsi (1921)* təsbit etdi. Moskva və Qars müqavilələrində Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan, Ermənistan dövlətləri Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanıdılar və buna beynəlxalq hüquqi təminat verdilər.

*Əd.:* Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edən İ.Hacıyev), B., 1999.

**NAXÇIVANDA AMERİKA GENERAL-QUBERNATORLUĞU** - Amerika Birləşmiş Ştatlarının (ABŞ) Cənubi Qafqazda möhkəmlənmək və Naxçıvanı erməni nəzarətinə vermək üçün zəmin hazırlamaq məqsədilə yaratdığı hərbi inzibati idarəçilik forması. Qafqazda nüfuz dairəsi qazanmağa çahşan ABŞ-ın əlverişli strateji mövqedə yerləşən Naxçıvan bölgəsində möhkəmlənmək planları Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdikləri amerikalı polkovnik V.Haskelin 1919 ilin sentyabrında irəli sürdüyü *"Haskel layihələri"* adlandırılan sənəddə öz əksini tapmışdı. Layihədə Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əlahiddə bitərəf zona elan edilməsi və bu ərazidə Naxçıvan general-qubernatorluğunun yaradılması nəzərdə tutulurdu. ABŞ-ın himayəsi altın Naxçıvana yiyələnməyə çalışan Ermənistanın daşnak hökuməti "Haskel layihələri"nin gerçəkləşməsi üçün canfəşanlıq göstərirdi. 1919 ildə ABŞ Azərbaycan ərazisinin bir hissəsini - Naxçıvan diyarını ələ keçirməyə cəhd göstərdi. Birləşmiş Ştatlar Cənubi Qafqaz, İran və Türkiyənin qovuşuğunda yerləşən Naxçıvana xüsusi hərbi-strateji əhəmiyyəti olan ərazi kimi baxırdı. V.Haskelin Azərbaycan və daşnak Ermənistanı hökumətlərinə göndərdiyi direktivdə göstərilirdi ki, Naxçıvan

downloaded from KitabYurdu.az

diyarında və Şərur-Dərələyəz qəzasında başda amerikan general-qubernatoru olmaqla "Neytral idarə zonası" təsis edilir. Eyni zamanda polkovnik Haskel dəmir yollarının və İrəvanla Culfa arasındakı teleqraf xəttinin Birləşmiş Ştatların nəzarəti altına verilməsini tələb edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Azərbaycan xalqının, o cümlədən Naxçıvan əhalisinin mənafeyinə zidd olan bu layihələri qətiyyətlə rədd etdi və onların gerçəkləşməsinə imkan verməyəcəyini bildirdi. Haskelin müavini polkovnik Ceyms Rey 1919 il oktyabrın 24-də Naxçıvana gəldi və Müsəlman Milli Şurası qarşısında V.Haskelin bəyanatını elan edərək, qubernatorluğun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmund L.Dellinin ona başçı təyin olunduğunu bildirdi. Ermənistan-daşnak hökumətinin razılıqla qarşıladığı bu bəyanat Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qəti etirazı və Naxçıvan əhalisinin ciddi müqaviməti ilə üzləşdi. Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidilə Ceyms Rey qərarını dəyişməyə məcbur oldu. Delli Naxçıvanda general-qubernator kimi deyil, Antanta ali komissarı V.Haskelin nümayəndəsi kimi qaldı. 1920 ilin yanvarında sonuncu Amerika əsgəri Naxçıvan torpağını tərk etdi. Beləliklə, bölgə əhalisinin güclü müqaviməti və inadlı mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin isə ciddi diplotmatik səyləri bu növbəti təxribat aktının qarşısını vaxtında aldı və ermənilərin Naxçıvanı ABŞ-ın yardımı ilə ələ keçirmək niyyətini növbəti dəfə puça çıxardı.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyəti və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996.

**NAXÇIVANDA ERMƏNİ İDARƏÇİLİYİ** - 1919 ilin may-iyul aylarında İngiltərənin təşəbbüsü və dəstəyi ilə Azərbaycanın Naxçıvan bölgəsində yaradılmış idarəçilik forması. Bölgə əhalisinin iradəsi əleyhinə bu diyarı Ermənistana birləşdirmək məqsədi güdürdü. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və bölgə əhalisi tarixi Azərbaycan ərazisi olan Naxçıvanın zorla onun əlindən qoparılması təhlükəsi qarşısında zəruri tədbirlər görmək məcburiyyətində qaldı, "erməni idarəçiliyi"nə yol verməmək tələbləri ilə Paris Sülh Konfransına (1919), müttəfiq dövlətlərin Qafqazdakı nümayəndəliklərinə dəfələrlə müraciət edildi. Lakin bu müraciətlərə məhəl qoyulmadığından yerli əhali "erməni idarəçiliyi"nə öz qüvvəsi ilə son qoymaq qərarına gəldi; əli silah tutan kişi əhalisi arasında səfərbərlik keçirildi. Görülmüş zəruri hərbi hazırlıq tədbirlərindən sonra iyulun 18-i ilə 25-i arasında Naxçıvanı və ətraf əraziləri işğalçı erməni silahlı qüvvələrindən təmizləmək, habelə qondarma "erməni idarəçiliyi"nə son qoymaq məqsədilə qanlı döyüşlər aparıldı. Qıvraq kəndindən gələn silahlı yardım sayəsində erməni-daşnak silahlı dəstələri Naxçıvandan çıxarıldı, Şahtaxtı və Noraşen stansiyalarında gedən döyüşlərdə xeyli itkilər verərək, "Qurd qapıları"ndan "Ermənistan"a tərəfə geri çəkilməyə məcbur oldu. Beləliklə, 1919 ilin 25 iyulu Naxçıvan mahalının erməni işğalçıları üzərində qələbəsi günü kimi xalqın yaddaşına əbədi həkk olundu, ermənilərin Naxçıvan bölgəsindəki siyasi, hərbi və iqtisadi mövqelərinə sarsıdıcı zərbə endirildi.

*Əd.:* Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996.

**NAXÇIVANIN MUXTARİYYƏTİ STATUSU** 1918-24 illərdə erməni-daşnak təcavüzünün qarşısını almaq, diyarın Ermənistana ilhaq edilməsinə və Azərbaycan əhalisinə qarşı soyqırımına yol verməmək məqsədilə Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsi ilə bağlı məsələnin beynəlxalq səviyyədə həlli prosesi. Naxçıvanın muxtariyyəti statusunun əldə edilməsində Mustafa Kamal Atatürk, Nəriman Nərimanov, Behbud ağa Şahtaxtinski, Kazım Qarabəkir Paşa və b. mühüm rol oynamışlar. 1917-20 illərdə Naxçıvan diyarı üçün daha çətin inkişaf dövrü olmuş, bu qədim Azərbaycan torpağının real olaraq Ermənistana ilhaq edilmək təhlükəsi yaranmışdı. Birinci dünya müharibəsində qalib gəlmiş dövlətlərin (ABŞ, İngiltərə) himayə etdiyi Ermənistanın daşnak hökuməti bu bölgəni xəyali *"Böyük Ermənistan* "a qatmaq üçün silahlı təcavüzə əl atmış, bu məqsədlə Andronik, Dro, Njde və b. qaniçənlərin başçılıq etdikləri quldur daşnak dəstələrindən də fəal istifadə etmişdi. Lakin diyarın yerli azərbaycanlı əhalisi bu amansız təcavüzlərə mərdliklə müqavimət gostərmiş, özünün yeganə xilas yolunu tarixi vətənə-Azərbaycana birləşməkdə görmüşdü. Həmin dövrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları nəticəsində Naxçıvan diyarında baş verən qırğınlar faciəli həddə çatdığından mühüm beynəlxalq problemə çevrilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin bu problemi sülh yolu ilə həll etmək cəhdlərini zəiflik əlaməti kimi qiymətləndirən daşnak hökuməti bu diyarın tezliklə Ermənistana qatılacağı barədə şayiələr yayırdı. Naxçıvan ərazisinin ermənilər tərəfından işğalının qarşısını almaq üçün 1918 ilin noyabrında burada müstəqil *Araz-Türk Cümhuriyyəti* yaradıldı. 1919 ilin martınadək mövcud olan Araz-Türk Cümhuriyyəti Şimali Azərbaycan üçün çox gərgin bir dövrdə bölgə əhalisinin erməni daşnaklarına qarşı səfərbərliyə alınmasında mühüm rol oynadı. Ən başhcası isə bölgənin erməni təcavüzü təhlükəsi qarşısında toxunulmazlığının və bununla da Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünü təmin etdi.

Azərbaycan Xalq Cümhuriyyəti ağır vəziyyətdə olsa da, Naxçıvana maddi, mənəvi, hərbi yardım göstərir, böl-gədə baş verən hadisələri diqqət mərkəzində saxlayırdı. Azərbaycan Parlamenti, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Naxçıvandakı vəziyyəti dəfələrlə müzakirə etmişdi. Naxçıvan əhalisi özünü Azərbaycandan ayrı təsəvvür etmədiyini dönə-dönə bəyan etmişdi. N.Nərimanov və onun yaxın silahdaşlarının prinsipiallığı və cəsarətli tələbləri sayəsində, ermənilərin Q.K.Orconikidze və onun əlaltılarının "xeyir-duası" ilə Naxçıvanı Ermənistana birləşdirmək cəhdi baş tutmadı. 1920 il dekabrın 2-də Aleksandro-

downloaded from KitabYurdu.az

polda (Gümrüdə) Ermənistanın daşnak hökuməti ilə Türkiyə arasında imzalanmış müqaviləyə əsasən, Naxçıvan, Şərur və Şahtaxtıda səsvermə yolu ilə xüsusi idarəçilik yaradılmalı və Ermənistan onun işinə qarışmamalı idi. Lakin 1920 ildə qədim Azərbaycan torpağı olan Zəngəzur daşnak quldurlarının yuvasına çevrilmişdi. Silahlı daşnak-erməni dəstələrinin və Türkiyədən qaçmış ermənilərin cəmləşdiyi Zəngəzur ətrafında o zaman yaranmış son dərəcə mürəkkəb siyasi şəraitdə Azərbaycan öz torpaqlarının bütövlüyünü qoruyub saxlaya bilmədi. Zəngəzur qəzasınm qərb hissəsi yaranmaqda olan qondarma "Ermənistamn" əlinə keçdi. Bununla, faktiki olaraq, Naxçıvan qalan Azərbaycan torpaqlarından ayrı salındı. Bu, Naxçıvanın muxtariyyoti mə-sələsinin daha qətiyyətlə irəli sürülməsini zəruriləşdirdi.

1920 ilin iyulunda Naxçıvan, Culfa və Ordubad əhalisi məktubla N.Nərimanova və Q.K.Orconikidzeyə müraciət etdi. Məktubda deyilirdi: ***"Yerli əhati öz qüvvəsi ilə daşnaklardan müdafiə olunur, Qırmızı ordunun köməyi ilə bizim diyarı azad etməyi və Azərbaycanla birləşdirməyi təmin etməyi təvəqqe edirik".*** 1920 il iyulun 28-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu Naxçıvandakı vəziyyəti müzakirə edərək, Azərbaycan İnqilab Komitəsinə tapşırdı ki, Naxçıvan məsələsini prinsipial şəkildə aydınlaşdırsın, Ermənistan ilə Azərbaycan arasmda sərhədləri müəyyənləşdirsin və Naxçıvan diyannda sovet hakimiyyəti qurulmasına kömək göstərilməsi haqqında 11 -ci Qırmızı ordunun hərbi inqilab şurası ilə danışıqlar aparsn.

Beləliklə, 11-ci Qırmızı ordu hissələrinə Naxçıvan ərazisini erməni-daşnak işğalçılarından təmizləmək əmri verildi. 11-ci Qurnızı ordunun 1-ci Qafqaz polku Gorus, Şahbuz və Cəhridən keçərək, 1920 il iyulun 28-də axşamüstü Naxçıvan şəhərinə daxil oldu. Naxçıvan diyarında da sovet hakimiyyəti quruldu. Naxçıvan Sovet Sosialist Res-publikası elan edildi və respublikanın ali hakimiyyət orqanı-Naxçıvan İnqilab Komitəsi (M.Bəktaşov, A.Kazımov, F.Mahmudbəyov, Q.Babayev və b.) yaradıldı. Avqustun 10-daNaxçıvan İnqilab Komitəsi Azərbaycan Sovet Sosialist Respublikası XalqKomissarları Sovetinin sədri N.Nərimanova məktub göndərdi. Məktubda deyilirdi: ***"Naxçıvan camaatının çox böyük əksəriyyətinin qərarı ilə Naxçıvan diyarı özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi hesab etmişdir".***

1921 ilin əvvəllərində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda diyar əhalisinin 90 faizindən çoxu Naxçıvanın muxtariyyət statusu ilə Azərbaycanm tərkibində qalmasına səs verdi. Məsələnin həllində Atatürkün və N.Nərimanovun qətiyyəti, B.Şahtaxtinskinin və Türkiyə nümayəndə heyətinin Moskvada apardığı danışıqlar mühüm rol oynadı və Rusiya Sovet Federativ Sosialist Respublikası hökumə-tinin bu məsələdə mövqeyinin dəyişməsinə təsir göstərdi. Naxçıvan diyarı o zaman çox böyük çətinliklər içində idi; daşnak hissələrinin və İranın şimal əyalətində fəaliyyət göstərən əksinqilabi qüvvələrin mühasirəsində qalmışdı. Bu qüvvələr Naxçıvanda sovet hakimiyyətini devirməyə dəfələrlə cəhd göstərdilər. Lakin 1921 il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış dostluq müqaviləsi sayəsində, böyük dövlətlər tərəfmdən dəstəklənən erməni-daşnak silahlı dəstələrinin fitnələrinə son qoyuldu. Bu müqavilənin üçüncü bəndinə əsasən, Naxçıvan vilayəti "Azərbaycanın qəyyumluğu (protektoratı) altında muxtar ərazi elan olundu, bir şərtlə ki, Azərbaycan bu qəyyumluğu üçüncü dövlətə güzəştə getməyəcəkdir". V.İ.Lenin 1921 il aprelin 9-da Türkiyə ilə sülh sazişindən danışarkən demişdi ki, bu, *"bizi Qafqazdakı daimi müharibələrdən xilas edir"*. Lakin bu sözlər özünü doğrultmadı!

1921 ildə imzalanmış Moskva və Qars müqavilələri Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtar qurum kimi qalmaq imkanlarını reallaşdırdı [bax *Moskva müqaviləsi (1921), Qars müqaviləsi (1921)]*. Bu beynəlxalq müqa-vilələr Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu təsbit etdi; bu müqavilələrlə Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan Naxçıvanı Azərbay-canın tərkibində muxtar qurum kimi tanımış və ona beynəl-xalq hüquqi təminat vermişlər.

Azərbaycan Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin 1924 il 9 fevral tarixli qərarı Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusunu qəti təsbit etdi. Naxçıvamn muxtariyyəti statusu diyarın sonrakı tarixi taleyində çox mühüm rol oynamışdır. ***"Naxçıvan muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxla-malıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyiik bir amildir. Biz bu amiti qoruyub saxlamalıyıq"*** **(Heydər Əliyev).**

*Əd.:* Gümrü, Moskva. Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni İ.Hacıyev), B., 1999; Azərbaycan tarixi, 7 clddə. c.5-6, B.. 2000-01; Qasımov A., Naxçıvanın muxtar ərazi taleyi və müasir dövr, Naxçıvan tarixinin səhifələri (məqalələr toplusu) kitabında. B., 1996; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi-hərbi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci ilior). B.. 1996.

**NAXÇIVANSKİ** Bəhram xan (? - ?) - Araz-Türk Cümhurıyyətinin görkəmli xadimlərindən biri, könüllü xalq dəstələrinin tərkibində tabor komandiri; Araz-Türk Cümhuriyyətinin Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə da-mşıqlar aparmaq üçün Bakıya ezam etdiyi nümayəndə heyətinin başçısı.

Bəhram xan Naxçıvanskinin başçılığı ilə Araz-Türk Cümhuriyyətinin Azərbaycan Xalq Cümhuriyyətinə ezam olunan xüsusi nümayəndə heyəti 1919 il martın 8-də Naxçıvandan Bakıya gəlmişdi. Görkəmli Azərbaycan mütəfəkkiri Hüseyn Cavidin də daxil olduğu nümayəndə heyəti Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi ilə müəyyən məsləhətləşmələr, o cümlədən, Naxçıvan məsələsinin Paris sülh konfransında müzakirə olunmasının mümkünlüyü haqqında danışıqlar aparmışdı. B.Naxçıvanski 1919 ilin martında Bakıya gələrkən, yolüstü Tiflisdə Gürcüstan hökumətinin üzvləri ilə, eləcə də Gəncədə "müsavat"çılarla görüşərək, Naxçıvanın Azərbaycan

downloaded from KitabYurdu.az

Xalq Cümhuriyyətinə birləşdirilməsi ilə bağlı məsləhətləşmələr aparmışdı.

Bəhram xan Naxçıvanskidən Araz-Türk Cümhuriyyətindəki vəziyyət haqqında geniş molumat alan Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistan bölgələrinə Teymur bəy Makinski, R.İsmayiləv və doktor Qənizadədən ibarət hökumət nümayəndə heyəti göndərmək qərarına gəldi. Bölgə əhalisinin nümayəndələri də (Bağır Rzayev, Məhərrəm Əliyev, Ələşrəf Kazımov, Hüseyn Cavid, Əsəd Manafov, Bəhram xan və Əziz xan Naxçıvanskilər) Hökumət nümayəndə heyətinə qatıldılar. Nümayəndə heyətinin məqsədi İrəvan quberniyasının erməni quldurlarının təcavüzündən ziyan çəkmiş yerli azərbaycanlı əhalisinin ehtiyacları üçün Hökumət tərəfindən ayrılmış bir milyon manat pulu oraya çatdırmaq idi.

*Əd.: Мамедов Г., Победа Советской в Наичевани и образование Нахичеванской АССР., Б,* 1968; Hacıyev A., Qars və Araz-Türk respublikalarının tarixindən, B., 1994.

**NAXÇIVANSKİ** Cəfərqulu xan (?-?)- görkəmli ictimai-siyasi xadim. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan bölgəsinin ictimai-siyasi həyatında və bölgənin qarşılaşdığı problemlərin həllində mühüm rol oynamışdır. Cümhuriyyətin yaranması ərəfəsində və onun fəaliyyətinin ilk çağlarında Naxçıvan Milli Komitəsinin sədri kimi bölgənin erməni təcavüzündən müdafiəsində, əhalinin daşnaklann törətdikləri qırğınlardan xilas edilməsində fəal iştirak etmişdir. *Araz-Türk Cümhuriyyətinin* süqutundan sonra Kəlbalı xan və Kərim xan İrəvanski ilə birlikdə mahalda yeni qurum - Müvəqqəti hökumət yaratmış və onun sədri olmuşdur.

Naxçıvandakı ingilis general-qubernatoruna ünvanladığı 1919 il 26 fevral tarixli məktubda Osmanlı qoşunlarının getməsindən sonra ermənilərin bölgə üçün təhlükə yaratmasından və mahalın Azərbaycan Xalq Cümhuriyyətindən aralı düşməsindən ciddi narahatlıq, diyarın ana torpaqla – Azərbaycanla birləşə bilməsi üçün şəraitin təmin olunması istəyi ifadə olunmuşdur. Azərbaycanın Xalq Cümhuriyyəti rəhbərliyinin razılığı və *İrəvan quberniyası müsəlmanları həmyerlər cəmiyyətinin* tapşırığı ilə 1919 ilin fevralında Bakıdan Naxçıvana gəlon Mirabbas Mirbağırovla və yerli hökumətin silahlı dəstəsinin komandanı Kəlbalı xanla birlikdə mahalın erməni-daşnak silahlı dəstələrindən müdafiəsi və onun tezliklə Azərbaycan Xalq Cümhuriyyətinə qatılması məsələlərini ingilis general-qubernatoru ilə müzakirə etmişdir. Naxçıvan bölgəsində 1919 ilin may-iyun aylarında ingilislərin dəstəyi ilə elan olunan "erməni idarəçiliyi'nin ləğvinə, bununla da mahalın daşnaklar tərəfindən işğalının əngəllənməsinə çalışmışdır. Mahalın sovetləşdirilməsi prosesinin ilk çağlarında Naxçıvan Milli Şurasımn sədri kimi yenə də bölgənin türk-müsəlman əhalisinin ermənilərdən müdafıəsi işində fəallıq göstərmiş, lakin tezliklə sovet hökuməti tərəfindən təqib olunmağa başlamış, "qardaş qırğınlarının təşkilatçısı" və "antisovet təbliğatçısı" damğaları ilə 1920 il avqustun sonlarında Naxçıvan İnqilab Komitəsi tərəfindən həbs edilərək, Bakıya göndərilmişdir. 1920 il oktyabrın 5-də qardaşı Rəhim xan Naxçıvanski ilə birlikdə *Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin* rəhbərliyinə ərizə ilə müraciət edərək, haqsız repressiyaya məruz qaldığını bildirsə də, azadlığa buraxılmamış, sonralar Şuşa həbsxanasına göndərilmiş və orada da vəfat etmişdir.

*Əd.:* Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917—1921 -ci illər), B., 1996.



**NAXÇIVANSKİ** Cəmşid Cəfərqulu oğlu (10.8.1895, Naxçıvan ş. - 26.8.1938) - görkəmli hərbi xadim, briqada komandiri. Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir (1915). Birinci dünya müharibəsində (1914-18) müsəlmanlardan təşkil olunmuş süvari eskadronunun komandiri olmuş, "Brusilov cəbhəsi"nin yaradılmasında iştirak etmiş, 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan Naxçıvanski igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, 2-ci, 3-cü, 4-cü dərəcəli Anna, 2-ci dərəcəli Stanislav ordenləri ilə təltif olunmuşdu. Cənub-Qərb cəbhəsi dağıdıldıqdan sonra ştabrotmistri Naxçıvanski başçılıq etdiyi alayla birlikdə Azərbaycana qayıtmış, 1918 il sentyabrın 15-də türk qoşunları və Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını daşnak, eser-menşeviklərdən ibarət olan və ingilislərə arxalanan "Sentrokaspi diktaturası" qüvvələrindən təmizləmişdi. Azərbaycanın müstəqilliyi uğrunda Naxçıvanski də inamla vuruşmuşdur. 1920 ilin martında onun Qarabağda (Şuşada) yerləşən alayı daşnaklara və daxili düşmənlərə qarşı döyiiş əməliyyatlarında fəal iştirak etmişdi. *Aprel işğalından {1920)* sonra onun suvari alayı bolşeviklərin tərəfinə keçmişdir. Nəriman Nərimanov Şuşaya, Cəmşid Naxçıvanskiyə dərhal Bakıya qayıtmaq, milli ordu hissələrinin təşkilinə başlamaq haqqında teleqram göndərmişdi. Cəmşid Naxçıvanski Azərbaycanda baş verən antisovet üsyanların yatırılmasında iştirak ctmişdir. O, Bakıda yaradılmış Azərbaycan Birləşmiş Komanda Məktəbinin rəisi, 1921 ilin dekabrında isə Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri təyin olunmuş, yüksək ixtisaslı hərbi kadr hazırlığında mühüm rol oynamışdır.

Naxçıvanski 1923 və 1928 illərdə Moskvada Ali Hərbi Akademiyanın qısa müddətli kurslarında oxumuş, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur. 1922-29 illərdə general Əlağa Şıxlinskinin təşəbbüsü ilə Azərbaycan dilində nəşr olunan "Hərbi bilik" jurnalının redaktorlarından biri idi. Naxçıvanski 1931 ildə Moskvaya M.V.Frunze adına Ali Hərbi-Siyasi Akademiyaya oxumağa göndərilmişdi. Akademiyanı fərqlənmə diplomu ilə bitirdikdən (1933) sonra, orada müəllim saxlanılmış, 3 il Ümumi taktika kafedrasına rəhbərlik etmiş, akademiyada əsas fakültənin kurs rəisi ol-

downloaded from KitabYurdu.az

muşdur. 1935 ildə Naxçıvanski briqada komandiri (kombriq) hərbi vəzifəsinə təyin olunmuşdu.

30-cu illərin axırlarında Naxçıvanski guya başçılıq etdiyi "casus təxribat dəstəsi" ilə mühacirətdə olan qardaşları Davudxan və Kalbalı xanla (Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra onlar rəsmi icazə alıb İrana getmiş, tezliklə Şah qvardiyasında yüksək rütbələrə çatmışdılar. Sovet hökuməti onların antisovet fəaliyyətini dayandırmaq üçün İran hökumətinə təzyiqlər etmiş, notalar vermişdir. Nəticədə, Kalbalı xan Azərbaycanla sərhəddə xidməti vəzifəsindən uzaqlaşdırılmışdı. Cəmşid Naxçıvanskinin Sovet Ordusunda briqada komandiri olmasını, ata-babalarının isə rus qoşunlarının tərkibində İran ordusuna qarşı vuruşmasını bilən şah onları güllələtdirmişdir) sıx əlaqə saxlamaqda təqsirləndirilərək repressiyaya məruz qalmışdır.

Naxçıvanski Azərbaycan Sovet Sosialist Respublikası və Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitələrinin üzvü idi. Qırmızı bayraq, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenləri ilə təltif edilmişdir. Adına Bakıda hərbi litsey (Naxçıvanda filialı açılmışdır), Bakıda və Naxçıvanda küçə var. Naxçıvanda ev-muzeyi yaradılmışdır.

*Əd.:* N ə z i r l i Ş., Azərbaycan generalları, B., 1991.

**"NAŞ QOLOS"** - gündəlik ədəbi, ictimai-siyasi, men-şevik qəzeti. 1-ci nömrəsi 1918 il yanvarın 6-da, sonuncu (59-cu) nömrəsi həmin ilin martında Bakıda çıxmışdır. Qəzet redaksiya heyəti tərəfindən buraxılırdı. Erməni-daşnak silahlı dəstələrinin Bakıda Azərbaycan xalqına qarşı törətdiyi *Mart soyqırımı (1918)* günlərində "Naş qolos" şəhərdəki vəziyyəti təsvir edərək yazmışdı: "Hər yerdə meyitlər qıc olmuş, eybəcər hala salınmışdır. Təzəpir məscidinin yanında ağır mənzərə var. Məscid atoşdən zərər çəkmişdir. İbadətgahın təhqir olunması geniş kütlələrin qəlbini göynə-dir, meyitlər onları daha çox narahat edir. Nifrət və təhqir zəhərinin necə dərinliyə işlədiyi hiss olunur. Bu düşmənçiliyi aradan qaldırmaq, bu nifrətin qəzəbli intiqam hissinə çevrilməsinin qarşısını almaq üçün çox iş görmək lazım gələcək" ("Naş qolos", 24 mart, 1918-ci il**).**

**NAZİR PORTFELLƏRİNİN BÖLÜŞDÜRÜLMƏSİ HAQQINDA QƏRARLAR** - 1918 il iyunun 19-da və oktyabrın 6-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmiş sənədlər. Birinci qərara əsasən, Fətəli xan Xoyski 2-ci hökumət kabinəsində Nazirlər Şurasının sədri və ədliyyə naziri, Məmməd Həsən Hacınski xarici işlər naziri, Behbud ağa Cavanşir daxili işlər naziri, Xudadat bəy Məlik-Aslanov yollar naziri, Əbdüləli bəy Əmircanov maliyyə naziri, Xosrov Paşa bəy Sultanov əkinçilik naziri, Nəsib bəy Yusifbəyh xalq maarifi və dini etiqad naziri, Ağa Aşurov ticarət və sənaye naziri, Xudadat bəy Rəfibəyli səhiyyə və himayədarlıq naziri, Əlimərdan bəy Topçubaşov, Xəlil bəy Xasməmmədov və Musa bəy Rəfiyev portfelsiz nazirlər təyin olunmuşdular. Müvəqqəti olaraq, poçt və teleqraf nazirliyinə rəhbərlik Xudadat bəy Məlik-Aslanova, ərzaq nazirliyi Ağa Aşurova, nəzarət nazirliyi isə Məmməd Həsən Hacınskiyə tapşırılmışdı. 1918 il 6 oktyabr tarixli qərarla Fətəli xan Xoyskinin 2-ci hökumət kabinəsi tərkibində dəyişikliklər edildi. Fətəli xan Xoyski Nazirlər Şurasının sədri, Behbud ağa Cavanşir daxili işlər naziri, ticarət və sənaye naziri, Əlimərdan bəy Topçubaşov xarici işlər naziri, Məmməd Hosən Hacınski maliyyə naziri, Nəsib bəy Yusifbəyli xalq maarifi naziri və ərzaq naziri, Xudadat bəy Məlik-Aslanov yollar naziri, Ağa Aşurov poçt və teleqraf naziri, Xəlil bəy Xasməmmədov ədliyyə naziri, Xudadat bəy Rəfibəyli səhiyyə naziri, Musa bəy Rəfiyev himayədarlıq və dini etiqad naziri, İsmayıl bəy Ziyadxanov hərbi işlər üzrə müvəkkil, Əbdüləli bəy Əmircanov dövlət nəzarətçisi təsdiq edilmişdilər. Azərbaycan Xalq Cümhuriyyətinin ikinci hökuməti 1918 il dekabrın 7-nə qədər fəaliyyət göstərmişdir.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**NAZİRLƏR ŞURASININ BİRİNCİ KABİNƏSİNİN TƏSDİQİ HAQQINDA QƏRAR,** Birinci Cümhuriyyət hökuməti tərkibinin təsdiq olunması haqqında qərar- 1918 il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən qəbul edilmiş tarixi sənəd. Həmin qərara əsasən, Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyoti Nazirlər Şurasının sədri və daxili işlər naziri, Xosrov Paşa bəy Sultanov hərbi nazir, Məmməd Həsən Hacınski xarici işlər naziri, Nəsib bəy Yusifbəyli maliyyə və xalq maarifi naziri, Xəlil bəy Xasməmmədov ədliyyə naziri, Məmməd Yusif Cəfərov ticarət və sənaye naziri, Əkbər ağa Şeyxülislamov əkinçilik və əmək naziri, Xudadat bəy Məlik-Aslanov yollar, poçt-teleqraf naziri, Camo bəy Hacınski dövlət nəzarətçisi təyin olunmuşdular. Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökuməti 1918 il iyunun 17-nə qədər fəaliyyət göstərmişdir. **NAZİRLƏR ŞURASININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ HAQQINDA QƏRAR** - Azərbaycan Milli Şurasının 1918 il iyunun 17-də qəbul etdiyi qərar. Milli Şura bu qorarla dövlət müstəqilliyinin, mövcud siyasi azadlıqların ləğvi, inqilabi qanunların dəyişdirilməsi məsələlərində Müvəqqəti Hökumətin səlahiyyətli olmadığını təsbit etmiş, habelə hökumətə altı aydan gec olmayaraq, Məclisi-müəssisan çağırmağı tapşırmışdı. Qalan idarəetmə məsələlərində hökumətə bütün hüquq və səlahiyyətlər verilmişdi. Bax *Azərbaycan Milli Şurasının buraxılması haqqında qərar.*




*Əd. Азербайджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

downloaded from KitabYurdu.az



*Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının iclası*

**NAZİRLƏR ŞURASININ İKİNCI KABINƏSİNİN TƏSDİQİ HAQQINDA QƏRAR,** İkinci Cümhuriyyət hökuməti tərkibinin təsdiq olunması haqqında qərar -- 1918 il iyunun 17-də Gəncədo Azərbaycan Milli Şurası tərəfındən qəbul edilmiş tarixi sənəd. Həmin qərara əsasən, Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasımn sədri, Məmmədhəsən Hacınski, Nəsib bəy Yusifbəyli, Əlimərdan bəy Topçubaşov, Behbud ağa Cavanşir, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyli, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov, Əbdüləli bəy Əmircanov, Musa bəy Rəfıyev nazirlər təsdiq olunmuşdular. Azərbaycan Xalq Cümhuriyyətinin 2-ci hökumoti 1918 il dekabrın 7-nə qədər fəaliyyət göstərmişdir. Bax, həmçinin *Azərbaycan Milli Şurasının buraxılması haqqında qərar.*

**NEFT SƏNAYESİNİN MİLLİLƏŞDİRİLMƏSİ HAQQINDA DEKRET** - 1918 il iyunun 1-də Bakı Xalq Komissarları Sovetinin qəbul etdiyi sənəd. S.Şaumyanın imzaladığı həmin dekretə əsasən, neft sənayesinin bütün müəssisələri inzibati, texniki və maliyyə cəhətdən Bakı Xalq Təsərrüfatı Şurasına tabe edilirdi; bütün fəhlələrə, inzibati və texniki işçilərə öz yerlərində qalmaq və vəzifələrini yerinə yetirmək tapşırılırdı. Dekret Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Xalq Komissarları Sovetinin 1918 il mayın sonlarında qəbul etdiyi qərarın yerinə yetirilməsini, daha doğrusu, Azərbaycan neftinin qarət olunaraq, Rusiyaya daşınmasını təmin etməli idi. İyunun 2-də Bakı Xalq Komissarları Soveti neft sənayesi müəssisələrinin fəhlə və qulluqçularına müraciət qəbul etdi. Müraciətdə deyilirdi: ***"Bakı neft sənayesi Rusiya Sovetlər Respublikasının sərvəti elan olunur. Bundan sonra biitün mədənlərin, zavodların, emalatxanaların bütün avadanlıqları, neft sənayeçilərinin bütün əmlakı fəhlə-kəndli Sovet hakimiyyətinin şəxsində bütün xalqa məxsusdur".***

Bakı Xalq Komissarları Sovetinə rəhbərlik edən bolşevik cildinə girmiş daşnak S.Şaumyan Azərbaycan xalqına məxsus sərvəti Rusiyanın malı elan etməklə, əslində, bu yolla ermoniləri Bakının sahibi etməyə çalışırdı. Buna görə də Bakı neft sənayeçilərinin ciddi etirazı nəticəsində iyunun 4-də RSFSR Ali Xalq Təsərrüfatı Şurasının Baş Neft Komitəsi Bakıya teleqram göndərərək, milliləşdirmə-ni təxirə salmağı təklif etdi. Bundan hiddətlənən S.Şaumyan iyunun 14-də V.Leninə göndərdiyi teleqramda bildirirdi ki, *"belə bir siyasətə qarşı qətiprotest edirəm. Görünür, Ali Xalq Təsərrüfatı Şurasının Baş Neft Komitəsi nə etdiyini bilmi"* Baş Neft Komitəsi isə özünün Bakıya göndərdiyi ikinci teleqramında neft sənayesinin milləşdirilməsi haqqında dekretin təxirə salınmasında yenə də təkid etdi. Bu, S.Şaumyanı daha da hiddətlondirdi. O, yenidən V.Leninə müraciət etdi: **"iş *görüldükdən vəyaxşı gömldükdən sonra geriyə qayıtmaq olmaz. Bu teleqramlar yalnız pozuculuq salır. Sənayeyə ağır zərərlər vurulmasının qarşısını almaq üçün Sizin işə şəxsən qarışmağınızı xahiş edirəm".***

downloaded from KitabYurdu.az

Nəticədə, V.Leninin təklifi ilə RSFSR Xalq Koraissarları Soveti Bakı neft sonayesinin milliləşdirilməsi haqqındakı dekreti təxirə salmaq barədə Baş Neft Komitəsinin teleqramlarını ləğv etdi. Bununla əlaqədar Bakı Xalq Komissarları Soveti 1918 il iyulun 2-də neft sənayesinin milliləşdirilməsi haqqında yeni dekret verdi. Bu dekretə əsasən, yalnız xırda müəssisələr istisna edilməklə, neftçıxarma, neft emalı, neft satışı, yardımçı qazma və nəqliyyat müəssisələri bütün əmlakları ilə birlikdə dovlət mülkiyyəti elan olundu, neft və neft məhsullarının satışı isə dövlətin inhisarına keçdi.

1918 il sentyabrın 15-də Azərbaycan və Türkiyə hissələrindən ibarət *Qafqaz İslam Ordusu* Bakını azad etdikdən sonra buraya köçən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti həmin il okyabrın 1-də neft sənayesinin milliləşdirilməsinə dair Bakı Xalq Komissarları Sovetinin qəbul etdiyi bütün dekret və sərəncamları ləğv etdi. Azərbaycan xalqının sərvəti özünə qaytarıldı. Həmin qərarla sahibkarların müəssisələri özlərinə verildi və onların hər birinə özlərinin neft və neft məhsulları ehtiyatı barədə Ticarət və Sənaye Nazirliyinə təcili olaraq məlumat verməlәri tapşırıldı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Milman A., Bakı Soveti - Azərbaycanda proletar diktaturası orqanıdır (oktyabr 1917 — iyul 1918), Б., 1957; Большевики в борьбе за победу социалистической революций в Азербайджане (1917-1918) (документы и материалы), *Азербайджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**NEFT SƏNAYESİNİN MİLLİLƏŞDİRİLMƏSİNİN LƏĞV EDİLMƏSİ HAQQINDA QƏRAR** - 1918 il oktyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmiş sənəd. Beş bənddən ibarət olan bu qərara əsasən, daşnak Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin neft sənayesinin və ticarət donanmasının milliləşdirilməsi haqqında verdiyi bütün dekret və sərəncamlar ləğv olundu. Mədənlər, zavodlar, gəmilər, onların idarə olunması əvvəlki sahiblərinə verilmişdi. Bütün mövcud neft və neft məhsullan ehtiyatı hökumətin xüsusi qərarınadək onun sərəncamında saxlandı. Bununla Cümhuriyyət hökuməti Azərbaycan xalqının sərvətini özünə qaytardı.

**"NEFTYANOYE DELO"** - Bakıda ayda iki dəfə rus dilində nəşr olunan jurnal, *Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının* orqanı. İlk nömrəsi 1899 ilin yanvarında, sonuncusu 1920 ilin aprelində çıxmışdır. Neft sənayeçilərinin mənafeyini müdafiə etmişdir. "Neftyanoye delo" Azərbaycan Xalq Cümhuriyyətinin siyasi tarixini öyrənmək üçün də qiymətli mənbədir. Jurnalın 1918-20 illərdə buraxılmış saylarında neft sənayeçiləri qurultayı şurasının dövlət hakimiyyətinin həyata keçirdiyi tədbirlərə münasibəti ifadə edilmişdir. Rusiyada bolşeviklərin mərkəzi hakimiyyəti ələ keçirməsi jurnalda kəskin pislənirdi. Rusiya burjuaziyası kimi, Bakı burjuaziyası da Sovet hakimiyyətinin yeritdiyi siyasətdən narazı idi. Bakı Xalq Komissarları Sovetinin neft müəssisələrini və Xəzər ticarət donanmasını milliləşdirmək haqqında dekretlərindon sonra jurnal sovet hakimiyyətinə qarşı açıq çıxış etməyə başladı. *"Sentrokaspi diktaturası"* dövründə çıxan nömrəsində isə (9 sentyabr) bolşeviklər 1918 ilin martında hakimiyyəti qəsb etməkdə günahlandırılırdılar. Bakı nefti uğrunda mübarizə dövründə ingilislərin neft sənayesini böhrandan çıxaracağına inanan neft sonayeçilərinin milli və dövlətçilik ideallarına biganə mövqeyi jurnalda dərc olunan məqalələrdə əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinə düşmənçilik mövqeyindən yanaşan jurnal Bakının azad olunması ərəfəsində ingilislərə üstünlük versə də, almanların müdaxiləsinin də əleyhinə olmamışdır. Bununla belə, jurnal Bakıda Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin bərqərar olmasını neft sənayeçiləri üçün yeni mərhələnin başlanğıcı kimi səciyyələndirmişdi. Neft sənayesinin milliləşdirilməsinin Fətəli xan Xoyski hökuməti tərəfindən ləğvi təqdir olunsa da, bu sahənin işinə sərt nəzarət qəran razılıqla qarşılanmamışdı. Neft məhsullarının ixracı probleminin yalnız Rusiya ilə sərbəst mal mübadiləsinin bərpası sayəsində həll edilməsinin mümkünlüyü qeyd olunurdu. Yeni dövlət qurumlarının yaranmasının iqtisadi maraqlara zidd olduğunu göstərən jurnal ümumrusiya bazarında sərbəst əmtəə mübadiləsini müdafiə edir, hökumətin neft məhsullarının ixracına aksiz tətbiqi qanunundan kəskin narazılığını bildirirdi. 1919 il yanvarın 30-da jurnalda neft sənayeçilərinin ingilislərə müraciəti dərc edilmişdi. Müraciətdə müttəfiq komandanlığın iqtisadi sahəyə müdaxilə etməklə sənaye və ticarətə yardım göstərəcəyinə ümid ifadə olunur, rəsmi hakimiyyətdənsə, ingilislərlə əməkdaşlığa üstünlük verilirdi.

Jurnalın 1919 ilin sonu - 1920 ilin əvvəlindəki saylarında Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin ticarət-sənaye siyasəti tənqid edilir, neft ixracı üçün Həştərxan yolunun açılması tələb olunurdu. Jurnalın 1920 il aprelin 30-da çıxmış sonuncu nömrəsindəki məqalələrin başlıqları – «Бакинская нефть для советской России ("Bakı nefti Sovet Rusiyası üçün"), «Победу советской России и Бакинский нефтяной экспорт» ("Sovet Rusiyasının qələbəsi və Bakı neftinin ixracı") *Aprel işğalının (1920)* mahiyyətini açmaq baxımından səciyyəvidir.

*Əd.:Наджафалиев Т., Журнал «Нефтяное дело» и политическая история Бакинской буржазии* (1918-1920 гг.); источниковедческий аспект Azərbaycan tarixi Muzeyi-80" toplısu, B., 2001.

**NEMANZADƏ** Ömər Faiq - görkəmli maarif v.ə mətbuat xadimi, publisist. *"Qeyrət"* mətbəəsinin və *"Molla Nəsrəddin "* jurnalının yaradıcılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət idarələrindo fəaliyyət göstərmişdir (bax *Ömər Faiq).*

**NƏBİBƏYOV** Bəhram bəy Qasımbəy oğlu (1884-1930)-Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yüksək rütbəli zabitlərindən biri, polkovnik. Kutaisi realnı məktəbində və Peterburqdakı Konstantin topçu məktəbində təhsil almışdır. 1904 ildən Rusiya ordusunun Qafqazdakı topçu briqadasında xidmətə başlamışdır. İkinci dərəcəli "Müqəddəs Anna" və "Müqəddəs Stanislav" ordenləri ilə təltif edilmişdir. 1918 il noyabrın 27-də B.Nəbibəyov Azərbaycan topçu briqadasına təyinat almış, sonra isə 2-ci topçu briqadasının 3-cü batareya komandiri vəzifəsində xidmət

downloaded from KitabYurdu.az



etmişdir. 1919 ilin noyabrında Şüvəlan-Türkan istiqamətində Bakının dənizdən müdafıəsinin təşkili B.Nəbibəyovun rəhbərliyi ilə 3-cü topçu batareyasından və 5-ci Bakı piyada alayının bir bölüyündən təşkil edilmiş dəstəyə tapşırılmışdı. Denikin qüvvələrinin dənizdən ehtimal edilən təhlükəsinin qarşısını almaq üçün B.Nəbibəyov Şüvəlan-Türkan-Qala xətti üzrə dəniz sahili böyunca müdafıə mövqeləri tutmuşdu.

B.Nəbibəyov 1920 ilin mart-aprel aylarında Cümhuriyyət hərbi qüvvələrinin Qarabağda erməni-daşnak işğalçılarına qarşı apardığı əməliyyatlarda fəal iştirak etmişdir. Onun komandiri olduğu batareya 1920 il aprelin 8-də Malıbəyli-Şuşikənd ətrafında gedən döyüşlərdə xüsusilə fərqlənmişdir. General H.Səlimovun hərbi nazir S.Mehmandarova göndərdiyi teleqramda B.Nəbibəyovun bu xidmətləri xüsusi qeyd olunmuşdu.

*Aprel işğalından (1920)* sonra bir müddət sovet ordusu sıralarında xidmət etmiş, Şəkinin hərbi komissarı olmuşdur. Bu vəzifədə olarkən 1930 ildə Şəki-Zaqatala bölgəsində sovet hakimiyyətinə qarşı baş vermiş xalq üsyanının rəhbərlərindən biri idi. Həmin ilin iyulunda üsyanın yatırılması üçün göndərilmiş çoxsaylı sovet hərbi qüvvələri ilə döyüşdə həlak olmuşdur.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Армия Б., 1998; N ə z i r l i Ş., Topoqraf general İbrahim ağa Vəkilov, B., 2002.

**NƏBİYEV** Mahmud (3.4.1893, Nuxa - ?) - Azərbaycan Xalq Cümhuriyyoti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil alınağa göndərilən azərbaycanlı tətəbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilməsi nəzərdə tutulmuş tələbələrdən biri. Tiflisdəki imperator 1 Aleksandr kişi gimnaziyasını bitirmiş (1914), Kiyev Universitetinin fizika-riyaziyyat şöbəsində 3 il oxumuş, lakin maddi çətinliklə əlaqədar təhsilini davam etdirə bilməmişdi. Parlamentin 1919 il 1 sentyabr tarixli qorarı ilə adı Rusiyaya göndəriləcək tələbələrin siyahısına daxil edilmişdi. Lakin Vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürəkkəb vəziyyətdə oraya tələbə göndərmək mümkün olmamışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**NƏCƏFOV** Rzaqulu Məşədi Ələkbər oğlu (1884, Naxçıvan - 1938, Bakı) - mətbuat xadimi, publisist. Şair Əliqulu Qəmküsarın kiçik qardaşıdır. Ruhani təhsili almış, Məhəmməd Tağı Sidqinin Naxçıvanda açdığı "Tərbiyə" məktəbində oxumuşdur. Culfa gömrükxanasında işləmiş İran inqilabına (1906-11) kömək etmişdir. 1912 ildə Tiflisə köçmüş, "Molla Nəsrəddin" jurnalına ikinci redaktor təyin edilmiş, Ə.Qəmküsarın köməkçisi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gürcüstanda Azərbaycan hökumətinin konsulu vəzifəsində çalışmışdır. Sovet hakimiyyəti illərində "Yeni fıkir" qəzetinin redaktor müavini, "Dan ulduzu" jurnalının redaktoru, "Molla Nəsrəddin"in müxbiri, Zaqafqaziya Yeni Əlifba Komitəsinin sədr müavini, Tiflis Türk (Azərbaycan) Dövlət Dram Teatrının direktoru olmuşdur. 20 əsrin 30-cu illərində Bakıya köçmüş, nəşriyyatda işləmişdir. Dövri mətbuatda müntəzəm olaraq, aktual problemlərə dair elmi, ciddi və satirik üslubda məqalələr, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir haqqında xatirələrini dərc etdirmişdir.



*Əd.:* Zamanov A., Sabir və müasirləri, B., 1973; Salamzadə Q., Kiçikponcərədən görünən dünya, B., 1986; H ə b i b b ə y l i İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**NƏRİMANBƏYLİ** Nəriman bəy Həşim oğlu (1889, Şuşa ş. - 1937) - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, ictimai-siyasi və dövlət xadimi. Ailəsi İrəvana köçdüyü üçün, orta təhsilini İrəvan gimnaziyasında almış, Moskva Universitetinin fizikariyaziyyat şöbəsində, sonra isə Xarkov Universitetinin hüquq fakültəsində təhsil almışdır. Burada "Azərbaycanlı tələbələrin həmyerlilər cəmiyyəti"nin rəhbərliyinə seçilmiş, inqilabi fəaliyyət göstərmişdir. Onun iştirakı ilə cəmiyyət üzvlərinin verdikləri tamaşaların gəliri Birinci dünya müharibəsindən zərər çəkmiş müəllimlərin ailələrinə paylanırdı. Nərimanbəyli 1915 ildə ali təhsilini başa vurub vətənə qayıtmış, vəkil işləməklə yanaşı, "Müsəlman xeyriyyə cəmiyyətinin" rəhbərlərindən biri olmuşdur. Rusiyada Fevral inqilabından (1917) sonra "Müsavat" partiyasına daxil olmuş, Qafqaz müsəlmanlarının Bakı qurultayında, "Müsavat”" partiyasının birinci qurultayında iştirak etmişdir. Nərimanbəyli 1918 ilin fevralında Zaqafqaziya seyminin üzvü seçilmiş, seymin müsəlman fraksiyasının, *Zaqafqaziya Federasiyasının* süqutundan (26 may 1918) sonra isə Azərbaycan Milli Şurasının (27 may 1918) üzvü olmuşdur. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanımn təsisi haqqında qanun* "una (1918,19 noyabr) əşasən, seçkisiz Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsavat” və bitərəflər fraksiyasının üzvü olan Nərimanbəyli 4-cü hökumət kabinəsində dövlət müfəttişi vəzifəsini tutmuşdur. O, Bakıda keçirilən bir sıra mədəni tədbirlərdə yaxından iştirak etmişdir. *Aprel işğalından {1920)* sonra müxtəlif idarələrdə hüquq məsləhətçisi olmuş, təqiblərə məruz qalaraq işdən çıxarılmış, sonralar vəkil işləmişdir. 1937 ildə repressiyaya məruz qalmışdır.



*Əd.:* Əliyev M., Nərimanbəy Nərimanbəyli, “Odlar yurdu” qəzeti, 1989, № 23; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999.

**NƏRİMNBƏYOV** Yaqub Fərman Əmir oğlu (14.6.1898, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azər-*

downloaded from KitabYurdu.az



*baycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına elektrikləşdirmə üzrə ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1-ci Tiflis kişi gimnaziyasını bitir mişdir (1917). Atası Əmir bəy Azər baycan Xalq Cümhuriyyəti Hökumə tinin 1919 il 25 avqust tarixli qərarı ilə Bakının general-qubernatoru tə yin olunmuş və Dövlət Müdafiə Komitəsinin işlər müdiri vəzifəsində çalışmışdır. Parlamentin 1919 il I sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Paris (Fransa) Universitetinə göndərilmişdir. Nərimanbəyov təhsil illərində İrma adlı fransız qadınla ailə həyatı qurmuşdu. Respublikanın xalq rəssamları Vidadi (Fransanm Kann şəhərində doğulmuşdur) və Toğrul Nərimanbəyovların atasıdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabma təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənmək üçün 1921-22 illərdə Xalq komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında onun təhsilini uğurla davam etdirməsi, *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında isə təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Xalq təsərrüfatında elektrik enerjisinin geniş tətbiqi sahəsində təcrübəli mütəxəssis kimi vətənə qayıdan (1927)Nərimanbəyov Respublika Plan Komitəsində elektrikləşdirmə bölməsinin müdiri vəzifəsində işləmişdir. 1937 il dekabrın 31-də əksinqilabi burjua-millətçi təşkilatının üzvü kimi həbs olunmuş, Sibirin Kolına şəhərinə sürgün edilmişdi. 1956 il iyunun 9-da işində cinayət tərkibi olmadığı üçün bəraət verilmişdir.

*Əd.:* El şa dQ o c a, Sibir dərsi, B., 2000.

**NƏRİMANOV** Nəriman Nəcəf oğlu (14.4.1870, Tiflis 19.3.1925, Moskva) - görkəmli ictimai-siyasi və dövlət xadimi, yazıçı, publisist, həkim. İlk təhsilini Tiflis müsəlman ruhani məktəbində almışdır. *Qori seminariyasını* bitirdikdən



(1890) sonra, Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kəndinə müəllim təyin olunmuşdur. 1891 ildə Bakıya gələrək, geniş fəaliyyətə başlamış, Bakıda türk-müsəlman əhali üçün ilk xalq qiraətxanası təşkil etmiş (1894), bir sıra Şərq ölkələrindən, Rusiyadan qiraətxana üçün ədəbiyyat almışdır. 1894 ildə Nərimanovun "Nadanlıq" pyesi Azərbaycan dilində çap olunmuş, 1895 il yanvarın 15-də isə ilk dəfə Bakıda tamaşaya qoyulmuş, əldə olunan gəlir qiraətxanaya verilmişdir. Bu dövrdə Nərimanov "Dilin bəlası", yaxud "Şamdan bəy" (1895), "Bahadır və Sona" (1896-1908), "Nadir şah" (1899) əsərlərini, bir çox publisistik məqalələr, Azərbaycan və rus dillərini öyrənənlər üçün dərsliklər yazmışdı. Azərbaycan dramaturgiyasında ilk tarixi dram olan "Nadir şah" pyesi çap olunsa da, tamaşaya qoyulmasına yalnız 8 ildən sonra icazə verilmişdi. Nərimanovun ədəbi-publisistik fəaliyyəti cəmiyyəti ətalətdən qurtarmağa, türk-müsəlman əhalinin milli oyanışına xidmət etmişdir. 1896 ilin mayında Bakı realnı məktəbində ştatlı müəllim vəzifəsinə təyin olunmuş Nərimanov 1902 ildə ekstern qaydası ilə imtahanı verərək, Bakı kişi gimnaziyasını bitirmək haqqında kamal attestatı almış və həmin ildə Odessadakı Novorossiya Universitetinin tibb fakültəsinə daxil olmuşdur. Odessada oxuyarkən bir qrup tələbə ilə Baxçasaraya (Krıra) gedərək, orada teatr tamaşaları vermiş, İsmayıl bəy *Qaspralı* ilə görüşmüşdür. Nərimanov bu görüş barədə yazırdı ki, *" bir-birimizin dərdindən və məqsədindən xəbərdar olduq".*

Nərimanov siyasi fəaliyyətə Odessada tələbə hərəkatında başlamış, çar hökuməti universiteti müvəqqəti bağladıqdan sonra Bakıya qayıtmış, sosial-demokrat "Hümmət" təşkilatına daxil olmuş, həmin təşkilatın fəaliyyətində yaxından iştirak etmişdir. Bu dövrdə İran inqilabçıları ilə sıx əlaqə saxlamış, İran sosial-demokrat *"İctimaiyyun-amiyyun "* (" M ü c ah i d ") partiyasının əsasını qoyanlardan biri olmuşdur. 1906 ildə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) proqramını Azərbaycan dilinə tərcümə etmişdir. 1906 ildən başlayaraq Nərimanovun mətbuatdakı çıxışları mədəni, maarif problemləri ilə yanaşı, açıq siyasi məzmuıı daşımışdır. "İrşad" və "Həyat" qəzetlərində silsi-lə məqalələr dərc etdirmişdir. 1906 ildo o, Qafqaz müsəl-man müəllimlərinin Bakıda keçirilən birinci qurultaymıı təsis komissiyasına sədrlik etmişdir. 1906 ilin dekabrında tohsilini başa vurnıaq üçün Odessaya qayıtmışdır. 1907-08 illərdə "Nadir şah" faciəsi Vəlqaboyu, Türküstan, Cənubi Qafqaz şəhərlərindo və Tehranda tamaşaya qoyulmuşdur. 1908 ildə Nərimanov universiteti bitirib Bakıya gəlmiş (bu münasibətlə tərəqqipərvər ziyalılar təntənəli qəbul təşkil etmişdilər), şəhər xəstəxanasında işləmişdir. 1909 ilin əv-vəlində Tiflisə köçüb həkim-terapevt işləyən Nərimanov "Mücahid" təşkilatının üzvü olması və İran inqilabçılarına yardım göstərməsi ilə bağlı martın 1-də həbs edilib, Metex qalasına salınmışdır.

1909 ilin sentyabrında Həştərxana sürgün edilənNəri-manov burada olduğu müddəldə Qafqazla əlaqələrini kəs-məmiş, ictimai-siyasi fəaliyyətini davam etdirmiş, yerli məfbuatla fəal əməkdaşlıq etmiş, mədəni-kütləvi təşkilatların işində çalışmış, həkimliklə məşğul olmuşdur. Həştərxan Xalq Universitetinin sədri olan Nərimanov quberniya həkimlərinin 2-ci qurultayında "Şurayi-İslam" cəmiyyəti adından çıxış etmiş (1911, aprel), Həştərxan Şəhər Dumasının üzvü seçilmişdir (1913). Həştərxanda yaşayan türk əsirlərinin birinci qurultayını keçirmişdi. Onun Həştərxandakı fəaliyyətinin əks-sədası Avropaya da çatmışdı. "Paris" qəzetində verilən məlumatda deyilirdi ki, "Həştərxan, Kazan və Ufa şəhərlərində mətbuat vasitəsilə müsəlman millətçiliyi qızğın təbliğ edilir. Bu işdə Xalq Universitetləri Cəmiyyətinin sədri N.Nərimanov görkəmli rol oynayır. Həştərxan quberniyasında yaşayan müsəlman əhalisi arasında onun təbliğatı böyük uğur qazanmışdır".

downloaded from KitabYurdu.az



1913 ilin iyulunda Həştərxandan Bakıya qayıdan Nərimanov həkimliklə yanaşı, *"Nicat"* cəmiyyətinin maarif bölməsinin sədri seçilmiş, "Tənqid gecələri" ədəbi dərnəyinin yaradılmasına rəhbərlik etmişdir. Fevral inqilabından (1917) sonra "Xalq yurdu", "Ədəb yurdu", "Xalq evi", "El yurdu", "Qonaot" adlı təşkilat və cəmiyyətlərin fəal təşkilatçılarından, siyasi mühaziraçilərindən biri kimi Rusiyadakı inqilabi proseslər haqqında müntəzəm məlumatlar vermişdir.

Nərimanov 1917 ilin martında "Hümmət" (bolşevik) təşkilatı Komitəsinin sədri və RSDF(b)P Bakı Komitəsinin üzvü seçilmişdir. *Bakı Müsəlman İctimai Təşkilatları* bürosunun tərkibinə Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Əbdüləli bəy Əmircanovla birlikdə Nərimanov da daxil idi. O, Qafqaz müsəlmanlarının Bakıda keçirilmiş qurultayında iştirak etmiş, qurultayın rəyasət heyətinə seçilmişdir (1917, aprel). Həmin dövrdə qızğın ictimai-siyasi fəaliyyət göstərən Nərimanov 1917 ilin iyununda RSDF(b) P Bakı Komitəsindən partiyalararası Məlumat Bürosu müşavirəsinə nümayəndə seçilmiş, Müsəlman İctimai Təşkilatları Komitəsinin xüsusi müşavirəsində məruzə etmişdir. İyulun 3-də Nərimanovun redaktorluğu ilə "Hümmət" qəzeti nəşrə başlamışdır. 1917 ilin oktyabrında Bakı şəhər Dumasının üzvü seçilmiş, noyabrında isə Müəssislər Məclisinə namizəd göstərilmişdir. O, 1917 ilin dekabrında hərbi əsirlərə yardım göstərilməsi üzrə xüsusi komitənin sədri təyin edilmiş, Bakıda türk əsirlərinə böyük qayğı göstərmişdir. Nargin adasında saxlanılan türk osirlərinin dözülməz vəziyyəti haqqında dəfələrlə mətbuatda, şəhər dumasında çıxış etmiş, onlara yardım göstərməyə çağırmış və vəziyyətlərinin yaxşılaşmasına nail olmuşdur.

1917 ilin payızında bolşeviklər Bakıda hakimiyyəti ələ keçirdiyi dövrdən Nərimanov türk-müsəlman milli qüvvələrinə qarşı S.Şaumyanın rəhbərliyi ilə həyata keçirilən milli düşmənçilik siyasətinin qarşısını almağa çalışmışdır. 1918 ilin əvvəlində müsəlman diviziyasının başçısı general Talışinski Nərimanovun təkidi ilə həbsdən azad olunmuş, martda Nərimanovun təşəbbüsü ilə bolşeviklərlə müsavatçılar arasında danışıqlar aparılmış, qarşıdurmanın aradan qaldırılması yönündə müəyyən razılıq əldə edilsə də, "Hiimmət"ə o qədər də etibarı olmayan bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi. Onlar həm də Nərimanovun çoxluğu öz ətrafında birləşdirib "sağa meyl etməsindən" narazı idilər. S.Şaumyanın başçılığı və göstərişi ilə "sinfi mübarizə" adı altında bolşevik-daşnak hərbiqüvvələri türk-müsəlman əhaliyə qarşı dəhşətli soyqırımı həyata keçirmişdilər [bax *Mart soyqırımı (l918)]*. Nərimanov müsəlmanlara qarşı qırğınları dayandırmaq üçün S.Şaumyana və P.Caparidzeyə məktubla müraciət etmiş, nəticədə, müsəlman sosialistləri ilə Şaumyan və Caparidzenin birgə müzakirəsi keçirilmişdir. 1918 il martın axırlarında yaradılmış Bakı Şəhəri və Rayonlarının İnqilabi Müdafiə Komitəsinin üzvü olan Nərimanov silahlı erməni milli hərbi hissələrinin ləğv edilməsi haqqında Komitənin göstərişini imzalamışdır.

1918 il aprelin 25-də Nərimanov şəhər təsərrüfatı komissarı kimi Bakı Xalq Komissarları Sovetinin (BXKS) tərkibinə daxil edildi. Şəhərin sanitar şəraiti, şəhər müəssisələrinin, xəstəxanaların, təhsil müəssisələrinin vəziyyəti ilə bağlı tədbirlər görmüş, onun təklifi və imzası ilə BXKS-nin kağız pul nişanları buraxılmışdır. O, 1918 ilin mayında Bakı qəza kəndli deputatları sovetlərinin 1-ci qurultayının təşkilatçılarından biri idi. İyunda ağır xəstələnərək, RSDF(b)P Bakı Komitəsinin qərarı ilə müalicə üçün Həştərxana göndərilmişdir. Nərimanov BXKS-nin fəaliyyətindən narazı qalmış, 1918 ilin martında müsəlmanlara qarşı vəhşilikləri, sonradan isə bu cinayotlərin qəzalarda eyni dərəcədə davam etdirilməsini qətiyyətlə pisləmişdir. Bu cinayətlər üçün "1918 ildə Bakıdakı Sovet hakimiyyəti cavab verməlidir" tələbində olsa da, sosializm ideyalarına inanan Nərimanov Qafqazda sovet hakimiyyətinin qurulmasına çalışmışdır. Lakin bu prosesin "sinfi qırğınlar", vətəndaş müharibəsi, silahlı mübarizə yolu ilə deyil, yerli əhalinin milli-tarixi təfəkkürünü, sosial-məişət ənənəsini, mənəvi tələbatını, psixologiyasını nəzərə almaqla, siyasi mübarizə vasitəsi ilə həyata keçirilməsini qəbul edirdi. O, RK(b)P Həştərxan təşkilatı müsəlman bölməsinin komitə üzvü, "Hümmət" Qafqaz Müsəlman Kommunist Partiyası Mərkəzi Bürosunun sədri, həmçinin Həştərxan İcraiyyə komitəsi maarif şöbəsinin müdiri olmuşdur. 1919 ilin yanvarında Nərimanov Həştərxanda Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlığın sədri seçilmişdir.

downloaded from KitabYurdu.az

Nərimanovun "Qafqazın fəthinə baxış" məruzəsi və "Biz Qafqaza hansı şüarla gedirik?" məqaləsi Qafqazda bolşevik siyasətinin proqram məzmunlu sənədləri idi. 1919 ilin iyulunda Nərimanov Azərbaycan Xalq Cümhuriyyəti 4-cü hökumət kabinəsinin başçısı N.Yusifbəyliyə məktubla müraciət etdi. Məktubda hökumətin İngiltərəyə münasibətdə mövqeyi tənqid edilir, Denikin tohlükəsinə qarşı mübarizənin mahiyyəti açıqlanır, sovet Rusiyası ilə əlaqələrin əhəmiyyətindən bəhs olunurdu. Ümumdünya inqilabına güclü inam olduğu dövrdə Azərbaycanda da sovet hakimiyyətinin qurulmasını labüd sayan Nərimanov hökuməti könüllü tərzdə hakimiyyətdən əl çəkməyə çağırırdı. Məktubunu tarixi sənəd kimi dəyərləndirən Nərimanov sonrakı nəticələr üçün məsuliyyəti hökumətin üzərinə qoyurdu. Oxşar məzmunda məktubla Nərimanov az sonra Hacı Nəcməddin *Qotsinskiyə də* müraciət etmiş, onun "panislamizm" ideyasına sədaqətini şübhə altına almış, güclü xarici müdaxiləçilərin istəyinə uyğun hərəkət etdiyinə görə onu məzəmmətləmişdi.

Nərimanov 1919 il avqustun 10-da milli azlıqların Moskvada çağırılan müşavirəsinə nümayəndə seçilmişdir. 1919 ilin iyulunda RK(b)P MK-nın çağırışı ilə Həştərxandan Moskvaya gələn Nərimanov RSFSR Xalq Xarici İşlər Komissarlığı (XXIK)Yaxın Şərq şöbəsinin müdiri təyin edilmiş, bir müddət həm də RSFSR Xalq Milli İşlər Komissarının müavini işləmişdir. Həmin dövrdə Nərimanov I V.Leninlə tez-tez görüşmüş, Rusiyanın xarici siyasətində Şərqin xüsusiyyətlərini nəzərə almağı ona tövsiyə etmişdir. 1919 il noyabrın 27-də Şərq xalqları kommunis təşkilatının 2-ci Ümumrusiya qurultayında çıxış etmişdir. 1920 ilin fevralında Bakıda gizli şəkildə keçirilən AK(b)P I-ci qurultayının fəxri sədri seçilmişdir. Şərqlə bağl məsələlərdə Nərimanovun məsləhətlərinə böyük önəm verən V.Lenin 1920 il martın axırlarında Bakının. Azərbaycanın vəziyyəti, Sovet Rusiyasının Cənubi Qafqaz milli hökumətlərinə münasibəti barədə Nərimanovla söhbət etmişdi. Nərimanov RK(b)P MK-nın qərarı ilə Şimali Qafqazda sovet hakimiyyətini bərpa etmək üçün aprelin 8-də yaradılmış Büronun üzvü idi. V.Leninin göstərişi ilə Qafqaza yola düşən Nərimanova Conubi Qafqaz müsəlmanlarının işləri üzrə komissar vəzifəsi tapşırılmışdı. Aprelin 27-də Nərimanov qiyabi olaraq Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin, sonra isə Azərbaycan İctimai Şura Cümhuriyyəti hökumətinin (Azərbaycanın SSR Xalq Komissarları Soveti) sədri seçildi.

1920 il mayın 16-da Bakıda təntənə ilə qarşılanan Nərimanova məlumat verildi ki, "Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər". Onun gəlişi ərəfəsində Q.Orconikidze və S.Kirov V.Leninə teleqram gön-

*Nəriman Nərimanov Şəki məscidində çıxış edir.*



downloaded from KitabYurdu.az



***Nəriman Nərimanovun heykəli. Tunc, qranit. 1972. Bakı.*** Heykəltəraş C.M.Qaryağdı

downloaded from KitabYurdu.az



Azərbaycan İctimai Şura Cümhuriyyəti hökumətinin ilk tərkibi. 1920

dərək, "bütün Qafqaz və daha geniş ərazi üçün səlahiyyət" istəmiş, həm də "Nərimanova belə səlahiyyət verməməyi" tövsiyə etmişdilər. Nərimanovun gəlişi ərəfəsində Naxçıvan qəzasından başqa, demək olar, bütün Azərbaycanda sovet hakimiyyəti qurulmuşdu. Onun, baş verən haqsızlıqlara qarşı mübarizə ilə başlanan fəaliyyəti Azərbaycan xalqının düşmənləri tərəfindən "milli təmayülçülük", "millətçilik" siyasəti, sonralar isə "nərimanovçuluq" adlandırılmışdır.

Nərimanov Azərbaycan xalqının milli-mədəni tərəqqisinə, din problemlərinə, Azərbaycan dilinə dövlət statusu verilməsinə, milli ziyalılara və təhsilə xüsusi diqqət yetirmiş, bütün bunlara milli dövlət quruculuğunun tərkib hissəsi kimi baxmış, milli adət-ənənələri qorumuş, elm, maarif və mədəniyyətin inkişafına qayğı göstərmişdir. Onun bu fəaliyyəti birmənalı qarşılanmamış, əleyhinə geniş kampaniya aparılmışdır. Nərimanov fəaliyyətə başlayarkən Azərbaycan artıq İrəvan və Dərbənd ərazilərini itirmiş, Zaqatala, Zəngəzur, Naxçıvan, Qarabağ və Bakının taleyi isə mürək-kəb olaraq qalırdı. Onun qətiyyəti sayəsində Naxçıvan, Qarabağ, Zaqatala Azərbaycanın tərkibində saxlanılmış, Bakı Azərbaycanın paytaxtı kimi tanınmışdır. O, Naxçıvanın Azərbaycanından təcrid olunmaması üçün Mehridən yol almaqdan ötrü ardıcıl mübarizə aparmış, Zəngəzurun isə Azərbaycandan ayrılmasının qarşısını ala bilməmişdir. Azərbaycanı sovet Rusiyasının müttəfiqi, müstəqil bir respublika kimi görən Nərimanov qarşılıqlı etimad əsasında mərkəzlə Azərbaycan arasında siyasi və iqtisadi hüquqların bölgüsü, Bakının milli simasının itirməsinin qarşısının alınması, milli və dini ənənələrin qorunması uğrunda ardıcıl mübarizə aparmışdır. Mərkəzin Azərbaycana qərəzli münasibətini, ruslara, ermənilərə və b. qeyri millətlərə xüsusi imtiyazların verilməsini pisləyərək, "kommunist cildinə girmiş daşnakların" məkrli fəaliyyətini ifşa etmişdir. O, Azərbaycan nümayəndəsinin bilavasitə iştirakı olmadan mərkəzdə Azərbaycana aid heç bir məsələnin müzakirə edilməməsini, mərkəzi strukturlarda Azərbaycanın tam səlahiyyətli nümayəndələrlə təmsil olunmasını, neft istehsalına və satışına Azərbaycan hökumətinin nəzarətinin artırılmasını tələb etmişdir. Milli ordunun, aviasiyanın, nəqliyyat sisteminin yaradılmasına diqqət yetirmiş, Bakı-Culfa də-

downloaded from KitabYurdu.az

miryolunun, Bakı-Tiflis-Batum neft kəmərinin çəkilməsini başa çatdırmışdır.

Nərimanov Şərq xalqlarının Qərbin müstəmləkə zülmündən xilasını öz mübarizəsinin başlıca amalı saymışdır. 1920 ilin sentyabrında Kommunist İnternasionalı İcraiyyə Komitəsi (KİİK) tərəfindən Bakıda çağırılan Şərq xalqlarının 1-ci qurultayının hazırlanması və keçirilməsində fəal iştirak etmiş, KİİK yanında təşkil olunmuş "Şərq Xalqlarının Təbliğat və Fəaliyyət Şurası"na daxil olmuşdu.

Nərimanov Sovet hökumətini Şərq siyasətini düzgün anlamamaqda ittiham edirdi. "İranda kommunist inqilabını inkişaf etdirmək" tərəfdarlarının tezliklə iflasa uğrayacağını əvvəlcədən bildirirdi. O, Rusiyanın Türkiyə siyasətinə müsbət yön verilməsinə fəal təsir göstərmişdir. Türkiyədən Moskvaya göndərilən nümayəndə heyətlərinin hamısı Bakıda Nərimanovdan məsləhət aldıqdan sonra oraya gedirdilər. Bakıdakı Britaniya hərbi əsirlərini Malta sürgünləri olan türk-kamalçılara, həmçinin Cənub-Qərbi Qafqaz Cümhuriyyəti hökumət üzvlərinə dəyişmək məsələsində Nərimanovun həlledici rolu olmuşdur. Nərimanov Atatürkə və türk xalqının istiqlal savaşına dərin rəğbət bəsləmiş, əlindən gələn yardımı göstərmişdir. Türkiyə rəsmiləri və mətbuatı onun bu fəaliyyətini yüksək qiymətləndirmişlər. Türkiyə Böyük Millət Məclisi Nərimanova fəxri qılınc vermək məqsədilə Azərbaycana xüsusi heyət göndərmək haqqında qərar qəbul etmişdi. Kremldəki erməniпərəst qüvvələrin təcrid olunmasında, *Qars müqaviləsinin (1921)* bağlanması və ratifikasiya edilməsində Nərimanov xüsusi rol oynamışdır.

Nərimanov sovet Rusiyasının Azərbaycanın səlahiyyətlərini tam məhdudlaşdırmaq siyasətinə qarşı çıxmış, Azərbaycanda baş verən "inqilabi proseslərə" digər bolşeviklərdən fərqli münasibət bəsləmişdir. Bu səbəbdən də AK(b)P-nin 2-ci qurultayında (1920, oktyabr) ifrat bolşeviklər - V.V.Lominadze, Sarkis, Orconikidze, Zemlyanski, Yeqorov və b. tərəfindən kəskin tənqid olunmuşdur. Nərimanov noyabrın 9-da yenidən Azərbaycan İnqilab Komitəsinin sədri təsdiq edilsə də, İnqilab Komitəsinə, həmçinin təbliğat və fəaliyyət şurasına ümumi siyasi rəhbərlik Q.Orconikidzeyə tapşırılmışdır. Nərimanov bu barədə yazmışdır: "Mərkəz ancaq Serqo Orconikidzeyə etibar edib... Ona özünün heç bir xüsusi fikri olmayan, yalnız icraçı adamlar lazım idi".

1921 ilin mayında 1-ci Ümumazərbaycan Sovetlər qurultayını, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin ilk iclasını açmış və sessiya, Nərimanov başda olmaqla, Azərbaycan SSR hökumətini təşkil etmişdir. 1921 ildəAzərbaycan rəhbərliyində (S.M.Kirov, M.D.Hüseynov, L.İ.Mirzoyan, Ə.A.Qarayev, R.Ə.Axundov və b.) ona qarşı ixtilaf güclənmişdir. Yaranmış şəraitdə mövqeyini qorumaq, siyasi fəaliyyət xəttinə dəstək almaq üçün mərkəzi orqanlara, partiya rəhbərliyinə müraciət etmiş, əks halda, istefa verəcəyini bildirmişdir. İdarəetmədə səlahiyyətləri məhdud olsa da, xalq arasında böyük nüfuzu onun Azərbaycandakı fəaliyyətini rəqibləri üçün təhlükəli - dözülməz edirdi. Nərimanovun yüksək statusla rəhbər vəzifələrə təyinatı ilə müxalif qüvvələr onu Azərbaycandan uzaqlaşdırmağa nail oldular. 1922 ilin martında Nərimanov Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) İttifaq Sovetinin sədrlərindən biri oldu. O, Zaqafqaziya partiya təşkilatlarının 1-ci qurultayında (1922, fevral) RK(b)P Qafqaz Ölkə Komitəsinin, iyunda isə Zaqafqaziya Ölkə Komitəsi Rəyasət Heyətinin üzvü, RK(b) P 12-13-cü qurultaylarında MK üzvlüyünə namizəd seçilmiş, Sovet nümayəndə heyətinin üzvü kimi Genuya konfransında (1922) iştirak etmişdir. SSRİ-nin 1-ci Sovetlər Qurultayında (1922, dekabr) yaradılmış Mərkəzi İcraiyyə Komitəsinin ilk sessiyasında ZSFSR-dən SSRİ MİK sədri seçilmiş, SSRİ-nin ilk konstitusiyasının (1924) hazırlanmasında yaxından iştirak etmişdir. SSRİ MİK Rəyasət Heyətinin N.Nərimanovun sədrliyi ilə keçirilən iclasında (1925, 13 fevral) Böyük Sovet Ensiklopediyasının nəşri qərara alınmışdır. Şərqşünaslıq Elmi Cəmiyyəti və onun "Novıy Vostok" jurnalı ilə əməkdaşlıq etmişdir. Moskva Şərqşünaslıq İnstitutu uzun müddət Nərimanovun adını daşımışdır. 1925 ildə Nərimanovun ictimai-siyasi və elmi-ədəbi foaliyyətinin 30 illiyi təntənə ilə qeyd olunmuşdur. Müəmmalı şəkildə qəflətən vəfat edən Nərimanovun zəhərləndirilərək öldürülməsi fıkri geniş yayılmışdır. Onun dəfn günü - martın 23-ü matəm günü elan edilmişdir. Nərimanov Moskvada, Qızıl Meydanda Kreml divarı yanında dəfn olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nərimanov siyasi müxalifətdə olsa da, pyesləri Azərbaycan teatrının səhnəsində oynanılmışdır. Üzeyir bəy Hacıbəyli hələ 1917 ildə Nərimanovu "ustad dramaturq" adlandırırdı. Türk (Azərbaycan) dilinə dair bir sıra kəsərli yazılarla çıxış edən Nərimanov Azərbaycan dilində həftəlik "Təzə xəbərlər" qəzetinin, həmçinin aylıq elmi-pedaqoji "Məktəb" jurnalının nəşri barədə rəsmi müraciətlər etmişdir. Nərimanov Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə xalqın həqiqi mənafeyinin ifadəsi prinsipindən çıxış edərək münasibət göstərmişdir. Dövlət idarəçilərinin, hökumət tərkibinin, sosial mənşəyi mənafeyindən fəaliyyət göstərdiyi qənaətində olan Nərimanovun Azərbaycan Xalq. Cümhuriyyəti xadimlərinə şəxsi münasibəti qərəzli olmamış, onların çoxunun sovet hakimiyyəti tərəfindən məhv edilməsinin qarşısını almış, təhlükəsizlikləri baxımından xaricə getməsinə imkan yaratmış, ölkədə qalanları isə, imkanı daxilində, himayə edib qorumuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə xaricdə təhsil almağa göndərilmiş azərbaycanlı tələbələrə yardımın davam etdirilməsi haqqında N.Nərimanov xüsusi qərar imzalamışdır. Onun şəxsi göstərişi ilə xaricdə oxuyan tələbələrə təhsillərini müvəffəqiyyətlə davam etdirmələri üçün lazımi şərait yaradılması tapşırılmışdı. Nərimanov ZSFSR və SSRİ rəhbərliyində çalışdığı vaxtlarda da Azərbaycanda gedən prosesləri diqqət mərkəzində saxlamışdır. Azərbaycan neftinin 15%-nin respublikaya çatması, maarif və səhiyyəyə sərf edilməsi uğrunda

downloaded from KitabYurdu.az

gərgin mübarizə aparmışdır. Bu barədə müvafiq razılıq əldə edilməsinə baxmayaraq, "Azərnent"in sədri "Serebrovski mövcud qərarı lazımi surətdə yerinə yetirməmişdir". Nərimanov Rusiya Kommunist (bolşcviklər) Partiyası Mərkəzi Komitəsinə məktubunda yazmışdı: "...Sovet respublikasında başda "kral" Serebrovski olmaqla, "monarxiya" yaratmaq nəyə lazım idi, o, indiyə qədər elə bilir ki, azərbaycanlıları aypara və ulduzla aldadır".

Nərimanov Azərbaycan xalqının mənafeyinə zidd siyasəti cəsarətlə ifşa etmiş, mərkəz qarşısında müvafiq məsələlər qaldırmış, "Şərq məsələsi" və "Azərbaycanda vəziyyət" bölmələrindən ibarət "Ucqarlarda inqilabımızın tarixinə dair" adlandırdığı iri həcmli məktub-məruzəni Mərkəzi Komitəyə, İ.Stalinə, L.Trotskiyə, K.Radekə göndərmişdir. Nərimanovun məruzədə qeyd etdiyi "Bu sənədin işıq üzü görməyə imkanı yoxdur, lakin vaxt olacaq ki, tarix bizim qəzanın müqəssirlərini axtaracaqdır" mülahizəsi düzgün çıxdı. Mövcud hakimiyyət, dövlət idarəçiliyi məzmununda kommunist partiyasının iflasa məhkumluğunu irəlicədən bildirən Nərimanov məruzədə yazırdı ki, "hal-hazırda Azərbaycanda Azərbaycanı təmsil edən partiya yoxdur... partiya günbəgün deyil, saatbasaat parçalanır... Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir... Serqo (Q.Orconikidze - *red.)* və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır". Məruzə ilə əlaqədar Bakıya komissiya göndərilmiş, respublika partiya rəhbərliyinin Nərimanova qarşı mənfi münasibətinin təsiri altında keçirilən yığıncaqlarda onun ünvanına qərəzli fikirlər, böhtanlar səslənmişdir. Komissiyanın işinin yekunları RK(b) P MK Siyasi Bürosunun iclasında dinlənilmiş, Nərimanova siyasi etimad göstərilmişdir. Ona heç bir partiya cəzası verilməsə də, mənfi münasibət davam etməkdə idi. Dövlətin yeritdiyi siyasətdən narazı qüvvələrin ümid yeri olan Nərimanov SSRİ miqyasında gələn şikayətlərə baxılmasına və müvafiq tədbir görülməsinə nəzarət edirdi.

Nərimanovun vəfatı ilə Azərbaycanda "milli təmayülçülük" hərəkatı zəifləmiş, "nərimanovçuluq" cərəyanına qarşı təqiblər başlamışdı. Uzun müddət Azərbaycanda onun adının belə çəkilməsi yasaq edilmişdi. 1950 illərin ortalarından Nərimanova "ictimai və siyasi bəraət" istiqamətli tədqiqat işləri dərc edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və qətiyyəti sayəsində Nəriman Nərimanovun ictimai-siyasi fəaliyyəti layiqli qiymətini almış, anadan olmasının 100 illiyi təntənə ilə qeyd olunmuş, Bakıda əzəmətli abidəsi ucaldılmış, Xatirə muzeyi yaradılmışdır. Azərbaycandan başqa yerlərdə, o cümlədən Ulyanovskda (1977), Marneuli şəhərində (1983)

**Nəriman Nərimavla son vida. Həyat yoldaşı Gülsüm xanım və oğlu Nəcəf. Moskvf, Kreml divarı**



downloaded from KitabYurdu.az

Nərimanova abidə qoyulmuşdur. 1982 ildə Moskvada Nərimanovun 1925 ildə yaşadığı binada onun qranitdən barelyef portreti təsvir olunan xatirə lövhəsi açılmışdır.

Əsərləri: Əsərləri, B., 1956; Məqalələr və nitqlər, c.l, B., 1971; Seçilmiş əsərləri, B., 1973; Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub), B., 1992; Seçilmiş əsərləri, B., 2001; Məktublar və Qarabağ məsələsinə dair sənədlər, B., 2002;

*Əd.:* Məmmədov V., Nəriman Nərimanov, B., 1957; Köçərli F., Nəriman Nərimanov, B., 1965; Əhmədov T., Nəriman Nərimanov, B., 1982; Nəriman Nərimanov (anadan olmasının 100 illiyinə həsr edilmiş yubiley təntənələrinin materialları), B., 1974; Əhmədov H., Nəriman Nərimanov, B., 2004; Kərimov İ., N.Nərimanov və teatr, B., 1983; Məmmədli Q., Nəriman Nərimanov, B., 1987; Əhmədova F., Nəriman Nərimanov - ideal və gerçəklik, B., 1998; Qurbanov Ş., N.Nərimanov. Ömrünün son illəri, B,, 2003; yenə onun, Atatürk və Nərimanov, B., 2003; Həsənov H., Nəriman Nərimanovun tarixi missiyası, B., 2005; Hüseyin A d ı g ü z e l, Nəriman Nərimanov. Hayatı və mücadelesi, İstanbul, 2004; Памяти Н.Нариманова (сборник статей), М., 1925; Казиев М., Нариман Нариманов, Б., 1970; Рафили М., нариман Нариманов выдающийся революционер и писатель, Б., 1956; Гулиев Дж. Б. , Нариман Нариманов выдающийся партийный и государственный деятель ,Труды Азербаиджанского филиала ИМЛ при ЦК КПСС, т., XX, Б., 1957; Дубинский-Мухазаде И., Нариманов, М., 1978.

**"NƏŞRİ-MAARİF"** - Azərbaycanda mədəni-maarif işləri sahəsində fəaliyyət göstərmiş xeyriyyə cəmiyyəti. Fəaliyyətinin ilk mərhələsində "Bakı quberniyası müsəlman əhalisi arasında savadı artıran cəmiyyət" də adlandırılır. İlk Nizamnamə layihəsi 1906 il avqustun 1-də təsdiq olunmuş, 1912 il oktyabrın 19-da bəzi əlavələr və dəyişikliklərlə ikinci defo qeydiyyatdan keçmişdir. Təsisçiləri İsmayıl bəy Səfərəliyev, Həsənağa Həsənov, Məmmod Həsən Hacınski, Əsədulla Əhmədov, Ağahüseyn Tağıyev, Əlağa Həsənov və Həsən Mustafaycv idilər. "Nəşri-maarif'in idarə heyətinə 1906 il noyabrın 24-də keçirilən ilk seçkilərdə cəmiyyətin tərkibinə Hacı Zeynalabdin Tağıyev (sədr), Məmməd Həsən Hacınski (sədr müavini), Ə.Ə.Əmircanov, H.Məlikov, M.Ə.Nəzirov (təftiş komissiyası), Ə.Ağayev, Ə.İ.Cəfərov, M.Əfəndiyev (katiblik), A.Tağıyev (xəzinədar) və 14 nəfərdən, o cümlədən İ.Məlikov, M.Muxtarov, Ə.Həsənov, Ə.Əhmədov, İ.Aşurbəyov, Q.Qarabəyli və başqalarından ibarət idarə heyəti, fəxri və ömürlük üzvlər (H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M.Muxtarov, Y. Dadaşov və A.Tağıyev) seçildilər.

"Nəşri-maarif'in əsas məqsədi müsəlman əhalisi arasında Azərbaycan türkcəsində savadın yayılması idi. Cəmiyyətin müxtəlif illərdə Qubada, Göyçayda, Astarada, Bankə bölgəsində, Ağdaşda, Qaryagində (indiki Füzuli rayonu), Şuşada, Gəncədə, habelə Həştərxan quberniyasmda, Saratovda, Moskvada, Türkiyədə, Rumıniyada şöbələri açılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünədək "Nəşri-maarif'in Bakı şəhərində və onun kəndlərində 20 məktəbi fəaliyyət göstərmişdir. Onlardan ikisi qız məktəbi (Balaxa-nıda və Zabratda) idi. Bütün məktəblərdə təhsil pulsuz idi və şagirdlər pulsuz dərs ləvazimatı və geyimlə təmin olu-nurdular. Təhsil müddəti 4 il idi. Şagirdlərə təkcə şəriət, ana dili, rus dili, hesab deyil, həmçinin tarix, coğrafiya, biologiya, astronomiya haqqında da ibtidai biliklər verilirdi. Qız məktəblərində H.Z.Tağıyevin qız məktəblərinin yetirmələri N.Axundova, M.Axundova, İ.Heydərova, M.Molikova, D.Muradxanova, S.Əfəndiyeva-Şuayeva, oğlan məktəblərində M.Ə.Sabir, K.Ağayev, A.Əliyev, H.Həsənov, İ.Mustafayev, A.Nabatəliyev, H.Süleymanov və digər görkəmli pedaqoqlar və ali seminariya təhsilli müəllimlər çalışırdı.

"Nəşri-maarif' 1907 ildə Bakıda Darülmüəllimin -"İslam" müsəlman müəllimlər seminariyası açmışdı. Seminariyanın müdiri İstanbuldan dəvət olunmuş Məhəmməd Cövdət bəy idi. Burada M.Mahmudboyov, F.Ağa-zadə, S.Əbdülrəhmanbəyov, Y.Əfəndiyev, Q.Mirzəzadə (Qafur Rəşad) kimi görkəmli pcdaqoqlar çalışırdı. Seminariyaya kitablar Türkiyədən gətirilirdi. Tələbələr üçün xüsusi geyim forması hazırlanmışdı. Fəaliyyət göstərdiyi 3 il ərzində seminariya Azərbaycan xalq maarifi üçün ibtidai məktəb müəllimi dərəcəsi olan 28 müəllim kadrı hazırlamışdı. Seminariya sonralar maliyyə çətinlikləri üzündən bağlanmışdı.

**"Nəşi-maarif" cəmiyyətinin qız məktəbi. 1911**



**"Nəşi-maarif" cəmiyyətinin oğlan məktəbi**



downloaded from KitabYurdu.az



*Əlisgəndər Cəfərov və N.Qiyasbəyov Bakı altısinifli şəhər məktəbinin 2-ci sinif şagirdləri arasında. 1904*

"Nəşri-maarif' müxtəlif illərdə Bakının bir çox təhsil ocaqlarında - Aleksandr rus-müsəlman qız məktəbində, texniki məktəbdə, realnı məktəbdə, 3-cü ali ibtidai məktəbdə, Aleksey şəhər məktəbində, "İttihad" İran məktəbində və s. məktəblərdə, həmçinin Azərbaycandan kənarda - Tiflis edadiyyə məktəbində, Tiflis Aleksandr Müəllimlər İnstitutunda, İrəvan ticarət məktəbində, Vladiqafqaz Müəllim Seminariyasında, Moskva Kommersiya İnstitutunda, Xarkov Universitetində, Türkiyənin bəzi təhsil ocaqlarında, Varşava Politexnik İnstitutunda və s. təhsil müəssisələrində oxuyan azərbaycanlı tələbələrin təhsil haqqının, təqaüdünün və s. əlavə xərclərinin ödənməsinə yardım göstərirdi.

Kitabxana və qiraətxanaların təşkilinə xüsusi əhəmiyyət verən "Nəşri-maarif' 1907 ilin mayından həftədə iki dəfə xalq arasında açıq oxular təşkil edirdi. Bu tədbirin həyata keçirilməsi üçün yaradılan komissiyanın tərkibinə Ə.Ağayev, Ə.Cəfərov, A.Tağıyev, İ.Məlikov, Ə.Həsənov və M.Sadıqov daxil idilər. "Nəşri-maarif 'in ilk böyük kitabxanası isə 1911 ildə Balaxanıda açılan "Nur" kitabxanası idi. "Nəşri-maarif'in buna qədər və bundan sonra açdığı məktəblərin hər birinin zəngin kitabxanası vardı. 1914 ildə isə Bakıda böyük kitab anbarı açılmışdı.

"Nəşri-maarif"in keçirdiyi milli-mədəni tədbirlər içərisində teatr tamaşaları, xüsusilə "Müsəlman axşamları" mühüm yer tuturdu. 1908-17 illərdə keçirilən 8 "Müsəlman axşamı" nın təşkilində S.Qənizadə, Ə.Ağayev, F.x.Xoyski, Z.Əhmədbəyov, M.Əzizbəyov, Ə.Cəfərov, İ.Məlikov, M.Muxtarov, H.Mahmudbəyov, M.H.Hactnski, A.Aşurov və digər görkəmli şəxslər yaxından iştirak etmişdilər. Bədii hissə *"Nicat"* və *"Səfa"* cəmiyyətlərinin teatr truppaları tərəfindən təşkil olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Nəşri-maarif' ölkənin mədəni-maarif həyatında mühüm rol oynamış, əhalinin maariflənməsinə, milli mədəniyyətin inkişafına xidmət etmişdir. Bu dövrdə cəmiyyət-öz məktəblərini Maarif Nazirliyinin sərəncamına vermişdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Süleymanova S., Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Məmmədova N.Ə., "Nəşri-maarif' cəmiyyətinin məktəbləri, "Tarix və onun problemləri", B., 2000, № 3-4.

**"NİCAT"**, Bakı müsəlman maarif cəmiyyəti -Azərbaycanda fəaliyyət göstərmiş mədəni-maarif cəmiyyəti. 1906 ildə Bakıda fəaliyyətə başlamışdır. Cəmiyyətin əsas məqsədi azərbaycanlı əhali arasında milli oyanışa nail olmaq üçün maarifı yaymaq, orta və ali təhsil müəssisələrinin ehtiyacı olan tələbələrinə maddi yardım göstərmək, həmçinin Azərbaycan dilinin və ədəbiyyatının, milli teatr sənətinin inkişafına kömək etmək idi. Cəmiyyət Bakıda və onun ətraf rayonlarında kitabxana və qiraətxanalar, mək-

downloaded from KitabYurdu.az



*"Nicat" xeyriyyə cəmiyyətinin üzvləri*

təblər, savadsızlığı ləğv etmək üçün axşam kursları açır, xeyriyyə məqsədilə konsert-gecələr, ictimai-siyasi və elmi-kütləvi mövzularda mühazirə və məruzələr təşkil edir, Azərbaycan dilində qəzet və kitab nəşrinə qayğı və kömək göstərirdi. "Nicat" cəmiyyətinə müxtəlif illərdə Həsən bəy Ağayev, İsa bəy Aşurbəyov, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov sədrlik etmişlər. "Nicat"ın tərkibində demokratik ziyalılarla yanaşı, milli burjuaziya nümayəndələri də var idi. Cəmiyyətin işində Həsən bəy Zərdabi, Mahmud bəy Mahmudbəyov, Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Sultanməcid Əfəndiyev və b. yaxından iştirak etmişlər.

"Nicat"ın təşəbbüsü ilə Qafqaz müsəlman müəllimlərinin 1-ci və 2-ci qurultayları (1906, 1907) keçirilmişdir. "Nicat"'ın teatr bölməsi görkəmli aktyorlar Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Mirzağa Əliyev, Hüseynqulu Sarabski və başqalarının iştirakı ilə Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Üzeyir Hacıbəyli, Uilyam Şekspir, Fridrix Şiller, Henrix Heyne, Nikolay Qoqol və başqalarının əsərlərini tamaşaya qoyurdu. Ü. Hacıbəylinin "Leyli və Məcnun", "Şeyx Sənan" operaları, "Ər və arvad" musiqili komediyası ilk dəfə cəmiyyətin vəsaiti ilə tamaşaya qoyulmuşdu. "Nicat"ın təşəbbüsü ilə Gəncə, Şamaxı, Şuşa, Lənkəran və Ağdamda müxtəlif adda xeyriyyə cəmiyyətləri və məktəbləri yaradılmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Nicat" cəmiyyəti, "Nəşri-maarif" lə birlikdə, Azərbaycanın mədəni həyatında mühüm rol oynamış, azərbaycanlı əhalinin maariflənməsinə, milli ruhun, mədəniyyətin dirçəlməsinə, milli teatr sənətinin inkişafına xidmət etmişdir.

*Əd.:* Bax *"Nəşri-maarif"* məqaləsinin ədəbiyyatına

**NİTTİ** Françesko Saverio (1868-1953) - İtaliyanın siyasi və dövlət xadimi. 1919 ilin iyulu - 1920 ilin iyununda Nazirlər kabinetinin sədri və daxili işlər naziri olmuşdur. Nitti Qafqaza mandatdan və buraya hərbi hissələr göndərməkdən imtina etmiş, Qafqaz üzərində İtaliya mandatını baha başa gələ biləcək avantüra adlandırmışdır. Maddi, texniki və maliyyə problemləri ucbatından "italyan mandatı"nı həyata keçirmək mümkün olmamışdır. 1920 ilin yanvarında Antantanın Ali Şurasının iclaslarında Qafqaz respublikalarına maddi yardım göstərilməsi məsələsinin müzakirəsində iştirak etmiş Nitti bu yardımı hərbi sursat göndərməklə məhdudlaşdırmaq tərəfdarı olmuşdur. 1920 ilin iyununda Nitti hökuməti istefaya getmişdir.

**"NOBEL QARDAŞLARI" ŞİRKƏTİ,** Nobel qardaşlarının neft istehsalı şirkəti (Branobel) - 19 əsrin sonu - 20 əsrin əvvəllərində Bakıda fəaliyyət göstərmiş iri neft səhmdar cəmiyyətlərindən biri. Nobellər, əslən, isveçli

downloaded from KitabYurdu.az



*"Nobel qardaşları" şirkətinin Bakıdakı neft mədənləri*

idilər. Stokholm Universitetinin professoru Emmanuel Nobel (1801-72) 1837 ildən 1859 ilədək Rusiyada yaşamış, burada ilk mina zavodu tikdirmişdi. Onun oğulları Alfred, Lüdviq və Robert atalarının ixtiraçılıq və sahibkarlıq fəaliyyətini davam etdirmişdilər. Lüdviq digər qardaşı Robertlə birlikdə Rusiyada silah istehsalı və ağ neft ticarətilə də məşğul olurdu. Robert 1870 illərin əvvəllərində Azərbaycana gəlmişdi. Bu zaman Bakı neft sənayesi sürətlə inkişaf etməyə başlamışdı. Vəziyyəti qiymətləndirən Robert digər qardaşları Lüdviq və Albertlə birlikdə 1879 ildo səhm kapitalı 3 mln. manat olan "Nobel qardaşları" şirkətini təsis etmişdi.

Şirkətin idarə edilməsinə uzun müddət (1888-1917) Lüdviqin oğlu Emmanuel Nobel (1859-1932) rəhbərlik etmişdir. Şirkət tezliklə neft istehsalında həlledici rol oynamağa başladı. Belə ki, ölkədə istehsal olunan neftin 20%-i, ağ neft emalının 49%-i onun payına düşürdü. "Nobel qardaşları" şirkəti neft sənayesinin inhisarlaşdırılmasında xüsusi fəallıq göstərirdi. O, Rusiyada ilk neft ixracı sindikatı - "Ağ neft zavodçuları ittifaq"ında (1893-97) əsas yer tuturdu. Şirkət təkcə neft sənayesi ilə kifayətlənməmiş, müxtəlif sənaye sahələrinə kapital qoymuş, 1908 ildə konsernə çevrilmişdi. Onun tərkibində əsas kapitalı 130 mln. manatdan çox olan 25 müxtəlif müəssisə var idi. 1908 ildə Rusiyada kükürd istehsalı və satışında üstün rola malik olan "Kükürd turşusu sindikatı" yaradılmışdı. 1916 ildə şirkətin səhm kapitalı 45 mln. Manata çatmışdı. Rokfeller və Rotşild şirkətlərilə bərabər, dünyanın ağ neft bazarının bölüşdürülməsində iştirak edirdi. "Nobel qardaşlar"ı şirkəti Azərbaycanının sosial-siyasi və mədəni həyatında da iştirak edirdi. Bakı və Krasnovodskda üç seysmik stansiya tikdirmişdi. 1882-83 illərdə Qara şəhərdə "Villa Petrolia" - neft villası yaradılmışdı. Burada 80 min ağac və kol əkilmişdi.

Nobellərin vəsaiti hesabına bir neçə mükafat təsis olunmuşdu. Lüdviq Nobelin ölümündən sonra (1888) Rusiya imperator texniki cəmiyyəti metallurgiya və neft sahələrində nailiyyətlərə görə (3 ildən bir), 1904 ildə Emmanuel Nobelin şərəfinə isə neft hasilatı və emalı, geologiya və neft kimyası sahəsində kəşflərə görə mükafatlar təsis etmişdi. Alfred Nobel Nobel mükafatını təsis etmişdir. Onun vəsiyyətinə əsasən, ölümündən sonra qalan kapitalı Nobel fonduna çevrilmişdir. Mühüm bir hissəsini Bakı neftindən əldə olunmuş gəlirin təşkil etdiyi bu fondun hesabına 1901 ildən fizika, kimya, ədəbiyyat, tibb və s. sahələrdə nailiyyətlərə görə Nobel mükafatları verilir.




"Nobel qardaşları" şirkəti 1918 ildo Bakı Xalq Komissarları Sovetinin qərarı ilə milliləşdirilmiş, .Azərbaycan Xalq Ciimhuriyyəti Hökuməti bu qərarı ləğv etmişdi. 1920 ilin aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra neft sənayesi yenidən milliləşdirilmiş, Nobellərlə bağlı sosial-mədəni obyektlərin adı ləğv olunmuşdu.

*Əd.:* Vəliyev T.T., İmperializm dövründə Azərbaycanının sənayesi və proletariatı, B., 1987; Алияров С.С., Нефтяные монополии в Азербаиджане в период первой войны, Б., 1974; Дьяконова И.А., Нобелевская корпорация в России, М., 1980.

**"NOVIY MİR"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda nəşr olunan gündəlik leqal bolşevik qəzeti. İlk nömrəsi 1919 il dekabrın 7-də, sonuncusu (59-cu) 1920 il fevralın 21-də çıxmışdır. Qəzetdə Azərbaycanında, sovet Rtısiyasında baş verən hadisələr, Azərbaycanın siyasi və iqtisadi vəziyyəti, fəhlə konfransının fəaliyyəti, kollektiv müqavilə uğrunda mübarizə və s. məsələlər işıqlandırılmış, Rusiya Sovet Federativ Sosialist Respublikası hökumətinin başçısı V.İ.Leninin çıxış və məqalələri dərc edilmişdir. "Azərbaycan hökumətinə qarşı mütəmadi çıxışlarına" və

downloaded from KitabYurdu.az

"hökumət əleyhinə təbliğatına" görə qəzet Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən bağlanmışdır. *Aprel işğalı (1920)* ərəfəsində (aprelin 24-də) qəzetin 60-cı nömrəsi Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi və Bakı Komitəsinin orqanı kimi gizli çıxarılmışdır. Dövlətin əleyhinə yönəlmiş qəzetin bu sayı, hökumətə qarşı silahlı üsyana hazırlığa həsr olunmuş, əhalini sovet hakimiyyəti uğrunda döyüşə çağırmışdır.

**NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ HÖKUMƏT MƏMURLARINA MÜAVİNƏTİ - NƏQDİYYƏ VERİLMƏSİ HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Novruz bayramının yüksək səviyyədə keçirilməsini təmin edən hüquqi sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən 1919 il martın 19-da qəbul edilmişdi. Rusiya əsarəti dövründə Novruz bayramı rəsmən qeyd olunmurdu. Azərbaycanın Xalq Cümhuriyyəti hökuməti Novruz bayramının keçirilməsinə xüsusi önəm verərək, bu məqsədlə 1919 il fevralın 18-də bayram münasibətilə müavinət verilməsi barədə Parlamentə qanun layihəsi təqdim etdi. Qanun layihəsi Parlamentin 17 mart tarixli iclasmda müzakirə olundu. Müzakirədə Əhməd bəy Pepinov, Ağa Aşurov, Xudadat bəy Məlik-Aslanov, Məhəmməd Əmin Rəsulzadə və Mustafa Vəkilov çıxış etdilər. Layihə səs çoxluğu ilə qəbul olundu. Qanuna əsasən, hökumət məmurları əmək haqqına görə üç kateqoriyaya bölünərək, onlara məvaciblərinin 40-70%-i qədər müavinət verilməsi qərara alındı. Hökumətin 1919 il 19 mart tarixli qərarı ilə nazirlər, onların müavinləri və hökumətin işlər idarələri rəislərinin mart ayı iiçün maaşı iki dəfə artırıldı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. c.I, B., 1998; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законд ательные акты (сборник документов), Б., 1998.

**NOVRUZOV** (Berker) Cahangir Hüseyn oğlu [1894,Bakı - 17.7.1958, Bornova (Türkiyə)] - hərbi xadim. Türkiyə ordusunun generalı. Azərbaycan Xalq Cümhuriyyəti ordusu süvari diviziyasının komandiri Teymur boy *Novruzovun* nəslindəndir. *Aprel işğalı (1920)* ərəfəsində kapitan rütbəsində topçu batareyasının komandiri olmuşdur. Sovet qoşunlarının Azərbaycana təcavüzü ilə barışmayan Berker öz bölməsi ilə 1920 ilin yayında işğalçılara qarşı genişlənən xalq üsyanlarında fəal iştirak etmişdir. Yeni rejimi qəbul etməyən Berker İran ərazisindən keçərək Ərzuruma gəlmiş və burada Kazım Qarabəkir paşanın hərbi qüvvələrinə qoşulmuşdur. Türk xalqının istiqlal mübarizəsində fəal iştirak etmiş, ölkənin şərqində tüğyan edən daşnak-erməni silahh quldur dəstələrinə qarşı döyüşlərdə böyük şücaət göstərmişdir. Hərbi təhsilini artırmaq üçün 1928 ildə hərbi məktəbə göndərilmiş, 1929 ildə topçu atış kursunu, 1930 ildə böyük zabitlər üçün topçu kursunu, 1938 ildə komandirlik kursunu və 1944 ildə Geliboluda topçu kursunu bitirmişdir. Bir sıra məsul hərbi vəzifələrdə işləmiş, 3-cü zirehli diviziyasının topçu briqadasının komandiri olmuşdur. 1942 ildə polkovnik (albay), 1948 ildə isə general-mayor (tuğgeneral) rütbəsinə layiq görülmüşdür. 1953 ildə təqaüdə çıxmışdır.

**NOVRUZOV** Teymur bəy Novruz oğlu (?-?)- hərbi xadim. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general mayoru. Çar Rusiyası ordusu sıralarında xidmətə başlamış, Birinci dünya müharibəsində (1914-18) iştirak etmişdir. Müqəddəs Georgi ordeninin bütün dörd dərəcəsi ilə təltif olunmuşdur. Azərbaycan ordusunun təşkil olunmağa başladığı ilk günlərdən onun sıralarında idi. Hərbi nazir Səməd bəy Mehmandarovun 1919 il 9 yanvar tarixli əmri ilə polkovnik rütbəsində olan Novruzov Hərbi Nazirlikdə xüsusi tapşırıqlar üzrə qərargah zabiti vəzifəsinə təyin edilmiş, qoşun hissələrinin təşkilinə nəzarət sahəsində məsul tapşırıqları yerinə yetirmişdir. 1919 ilin aprelində birinci tatar süvari alayının komandiri - Bakı qarnizonunun komandiri təyin edildikdən sonra alaya rəhbərlik Novruzova həvalə olundu. Həmin il avqustun 1-dən süvari diviziyasına komandirlik etmək Novruzova tapşırıldı və avqustun 2-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə ona general-mayor rütbəsi verildi. Süvari diviziyasının komandiri kimi süvari alaylarının formalaşmasında fəal iştirak etmişdir. Süvari diviziyasının hissə və bölmələri Azərbaycan ordusuna verilmiş bütün döyüş tapşırıqlarının icrasında iştirak etmişdir. Novruzov Azərbaycan Xalq Cümhuriyyəti ordusunun, hələ sağlığında haqqında şərqilər qoşulmuş təktək hərbçilərindəndir. Novruzov sovet işğalçılarına qarşı *Gəncə üsyanının (1920)* təşkilatçılarından və fəal iştirakçılarından idi. 11-ci Qırmızı ordu çox böyük qüvvə üstünlüyü hesabına bu üsyanı yatırandan sonra Novruzov mühacirət etmək məcburiyyətində qalmışdır.



*Əd.:* Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995.; Süleymanov M., Mehmandarov, B., 2000.

**NUXA QƏZASI,** Şəki qəzası - Azərbaycanın Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi. Şəki xanlığının ərazisində yaradılmışdı. Xanlıq Kürəkçay müqaviləsi ilə (1805, 21 may) Rusiya imperiyasının tərkibinə qatılmış, 1813 ildə ləğv olunaraq, əyalətə çevrilmişdi. 1840 il 10 aprel qanununa əsasən, Şəki əyaləti əsasında Nuxa qəzası yaradılmışdı. Qəza Nuxa, Qəbələ, Xaçmaz və Ərəş sahələrinə bölünürdü. Kaspi vilayətinin, sonra isə Şamaxı (1859 ildən Bakı) quberniyasının tərkibinə daxil idi. Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqdan (1867) sonra onun tərkibinə verilmişdi. 1873 ildə Ərəş ayrıca qəzaya çevrilmişdi. 1917 il Qafqaz təqviminə görə, Nuxa qəzasının ərazisi 3685 *kv.verst* (4201 *kv.km)* idi. Qəzanın əhalisi 133505 nəfər idi. Əhalinin 73819 nəfəri (55,3%) kişi, 59686 nəfəri (44,7%) qadın, 131132 nəfəri yerli sakin, 2373 nəfəri müvəqqəti yaşayanlar idi. Qəzanın əsas əhalisi azərbaycanlılar (93557 nəfər və ya 70,1%) idi. Bundan başqa, qəzada 17751 (13,3%) erməni (əslində qriqorianlaşmış albanlar və ya udinlər), 7861 müsəlman dağlı əhalisi (5,9%), 1831 (1,4%) rus qeydiyyata alınmışdı. Qozanın mərkəzi Nuxa şəhəri (əhalisi 52243 nəfər) idi. *Qəza idarə sistemi* yaradıl-

downloaded from KitabYurdu.az



Nuxa (Şəki) qəzasının gerbi. 1840.
Azərbaycan Tarixi Muzeyi

mışdı. Qəzanın iqtisadi həyatında kənd təsərrüfatı (taxılçılıq, o cümlədən çəltikçilik, bağçılıq, baramaçılıq, tütünçülük, maldarlıq və s.) əsas yer tuturdu. Yun istehsalı, dulusçuluq və s. kustar sənaye sahələri inkişaf etmişdi. Nuxa qəzası düyü və ipək istehsalı ilə məşhur idi. 20 əsrin əvvəllində qəzada yüzdən çox ipəkəyirmə müəssisəsi var idi.

Fevral inqilabından (1917) sonra Müvəqqəti hökumət yaradıldıqda, Azərbaycanın digər yerlərində olduğu kimi, Nuxa qəzasında da ictimai təşkilatların icraiyyə komitəsi təşkil edilmişdi. İcraiyyə komitəsi ilə birlikdə sovetlər də yaradılmağa başlamışdı. Mayda Nuxa şəhərində fəhlələrin tətili baş verdi. Tətil fəhlələrin qələbəsi ilə başa çatdı, əmək haqqı artırıldı. Fəhlələr iyulda yenidən tətil etdilər. Oktyabr çevrilişindən (1917) sonra yaradılmış *Zaqafqaziya Komissarlığı* (1917, noyabr - 1918, aprel) dövründə də əhalinin vəziyyəti yaxşılaşmadı. 1918 ildə Nuxada (Şəkidə) erməni-daşnak quldur dəstələri baş qaldırdıqda xalq könüllüləri onları ağır məğlubiyyətlərə uğratdı və bölgəni daşnaklardan təmizlədi. 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Nuxa qəzasında da ruh yüksək-liyi ilə qarşılandı. Lakin bolşeviklərin Azərbaycan Xalq Cümhuriyyətinə qarşı mübarizəsi burada da özünü göstərir-di. Onların Bakıda yaradılmış hərbi-döyüş qərargahının Nuxada da hərbi təşkilatı var idi. Sovet Rusiyasının müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut et-dikdən sonra (1920, 28 aprel) işğalçı 11 -ci Qırmızı ordu hissələri mayın əvvəllərində Nuxaya yönəldi, mayın 5-də Nuxada sovet hakimiyyəti quruldu. 1929 ildə Azərbaycan SSR-in rayonlaşdırılması zamanı Nuxa qəzası ləğv edildi. 1968 ildə Nuxanın adı dəyişdirilərək Şəki adlandırıldı.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə, c.4-5, B., 2000, 2001; Vəliyev T.T., XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi (1900-1917-ci illər), B., 1977; İsmayılov M.Ə., Şəki (tarixi oçerk), B., 1982; Кавказский календарь на 1917 г., Б., 1916.

**NURU PAŞA** (1889, İstanbul - 1949, İstanbul) - *Qafqaz İslam Ordusunun* komandanı, Osmanlı ordusunun general-leytenantı. 1934 ildən etibarən Killigil soyadını götürmüşdür. İlk təhsilini başa vurduqdan sonra 1906 ildə quru qoşunları məktəbinə daxil olmuş, 1909 ildə həmin məktəbi bitirərək, zabit kimi xidmətə başlamışdı. 1913 ildə yüzbaşı, 1916 ildə minbaşı, 1918 ildə isə yarbay rütbələri almışdı. *Birinci dünya müharibəsi (1914-18)* illərində Şimali Afrikada olan Osmanlı ordusunda xidmət edirdi. O, Liviya ərazisində cəbhə komandanı idi. Elə buradakı xidməti dövründə Nuru paşa özünün hərbi istedada malik olduğunu nümayiş etdirmişdi. Liviya cəbhəsində göstərdiyi igidliklərə görə Nuru paşa minbaşı rütbəsinə, 1916 ildə "Altun ləyaqət" medalına, Almaniyanın Dəmir xaç medalına, 1917 ildə "Altun imtiyaz" medalına, habelə Avstriya-Macarıstan dövlətinin üçüncü dərəcəli fərqlənmə nişanına layiq görülmüşdü. Trablus qərb cəbhəsində göstərdiyi şücaətə görə, Nuru paşa Trablus qərb qəhrəmanı kimi də tanınır.



Nuru paşanın hərbi xidmətinin ən mühüm dövrü Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlıdır. Bu ordunun yaradılması 1918 ilin əvvəllərində reallaşmağa başladı. Azərbaycanda bolşevik-daşnak rejiminin türk-müsəlman əhaliyə qarşı törətdiyi soyqırımları dayandırmaq məqsədilə milli azadlıq hərəkatı fəallarının kömək üçün Osmanlı dövlətinə müraciətindən sonra Qafqaz İslam Ordusu yaradılması qərara alınmışdı. Türkiyənin hərbi naziri *Ənvər paşa* Azərbaycana yardım göstərilməsinin əsas təşkilatçısı idi. İlk qərara əsasən, Azərbaycana göndəriləcək türk zabitlərinin rəhbərliyi və iştirakı ilə yerli milli qüvvələrdən ordu formalaşdırılmalı idi. Azərbaycana göstəriləcək hərbi yardıma rəhbərlik Nuru paşaya tapşırıldı. Vəzifəsinin icrasına başlamazdan əvvəl Nuru paşaya feriq (general-leytenant) hərbi rütbəsi, bütün Qafqaz İslam Ordusu hissələrinə komandanlıq vəkaləti, Qafqazda Türkiyə sultanının siyasətini təmsil etmək hüququ verildi.

Nuru paşa 1918 il martın 2-ci yarısında 20 nəfərlik bir heyətlə Azərbaycana doğru hərəkətə başladı. Martın 25-də onun heyəti Mosul şəhərinə çatdı. Aprelin əvvəllərində Nuru paşa öz heyəti ilə birlikdə Mosul-Təbriz-Naxçıvan-Qarabağ-Yevlax-Gəncə yolu ilə Azərbaycana doğru istiqamət götürdü. 1918 il mayın 24-də Yevlaxda, mayın 25-də isə Gəncədə Nuru paşanın qarşılanması mərasimi keçirildi. O, Azərbaycandakı hərbi-siyasi vəziyyətlə tanış olduqdan sonra bolşevik-daşnak qüvvələrinin müqavimətini qırmaq üçün, qısa müddət ərzində, milli hərbi struktur formalaşdırılmasının qeyri-mümkün olması qənaətinə gəldi. Bu barədə o, 3-cü ordu komandanı Vehib paşaya təcili məlumat göndərdi və dövlət orqanları qarşısında Azərbaycana türk hərbi qüvvələrinin göndərilməsi barədə mə-

downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
ŞAMAXI QƏZASI
QUBA QƏZASI
BAKI QƏZASI
GÖYÇAY QƏZASI
Şamaxı
Altıağac
1.Cavad qəzası

sələ qaldırmasını xahiş etdi. 1918 il iyunun 4-də Batumda iki dövlət arasında imzalanan müqavilədən sonra Nuru paşanın vəsatəti əsasında 5-ci Qafqaz fırqəsi Azərbaycana göndərildi. Nuru paşa türk və Azərbaycan hərbihissələrindən təşkil edilmiş Qafqaz İslam Ordusunun komandanı olmaqla bərabər, Azərbaycan hökumətinin qərarı əsasında milli hərbihissələrin formalaşdırılmasma rəhbərliyi də Öz üzərinə götürdü. Onun qarşısmda Bakı Sovetinə tabe olan bolşevik-daşnak hərbi qüvvələrinə, erməni silahlı dəstələrinə qarşı mübarizəni təşkil etmək, Azərbaycanın milli hərbi hissələrinin formalaşdırılmasına nail olmaq, Qafqaz İslam Ordusunun komandanlığı altın olan qüvvələrin təchizat və təminat məsələlərini həll etmək kimi mürəkkəb vəzifələr dururdu. İncə və çevik hərbi duyuma malik olan Nuru paşa ona həvalə olunmuş hərbi vəzifələrin öhdəsindən bacarıqla gəldi, Azərbaycan hökumətinin və xalqının dəstəyi ilə onun komandanlığı altında olan hərbi qüvvələr qısa vaxt ərzində Gəncədən Bakıya qədər uğurlu döyüş yolu keçdilər.

Döyüşlərin getdiyi müddətdə Nuru paşa *Əlahiddə Azərbaycan korpusunun* komandiri Əlağa *Şıxlinski* ilə birlikdə üç dəfə birbaşa cəbhə xəttində olmuşdu - 1918 il iyunun 18-də Qaraməryəm cəbhəsində, iyulun 5-də Ağsu cəbhəsində, sentyabrın 10-da isə Bakı cəbhəsində olan Nuru paşanın qüvvələrin yenidən səfərbərliyə alınmasında, döyüş planlarının taktiki baxımdan təkmilləşdirilməsində böyük rolu oldu.

*Bakının azad olunması (1918)* üçün keçirilən həlledici hücumun planı Nuru paşa tərəfindən hazırlanmışdı. Şəhərin azad edilməsindən sonra Cümhuriyyət Hökumətinin başçısı Fətəli xan Xoyski öz minnətdarlığını və təbrikini Nuru paşaya bu sözlərlə bildirmişdi: ***"...Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyəti-pərvəranələrizə və dünyanın ən cəsur və soylu əsgəri olan tiirkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edərim".***

Qarabağın erməni silahlı dəstələrindən təmizlənməsinə başlanmazdan əvvəl də, 1918 il oktyabrın 1-də Nuru paşa Ağdama gəldi, döyüşlərə hazırlaşan türk-Azərbaycan hərbi qüvvələrinin vəziyyəti ilə yaxından tanış oldu.

*Mudros barışığının (1918)* şərtlərinə əsasən türk hərbi qüvvələri bölgəni tərk etməyə məcbur olduqda Nuru paşa Azərbaycanda qalıb fəaliyyətini davam etdirmək istəyirdi. Ancaq ingilis hərbi komandanlığı buna imkan vermədi. Azərbaycanı tərk etməli olan Nuru paşa 1918 il noyabrın sonlarında Gəncəyə gəldi. Noyabrın 29-da Gəncə bələdiyyəsində Nuru paşanın və onun xidmət yoldaşlarının yola sahnması ilə bağlı ziyafət verildi. Nuru paşa bu ziyafətdə çıxış edib, türkçülük və turançılıqla bağlı geniş nitq söylədi.

Nuru paşa Batum-Artvin-Ərdəhan-Qars-Ərzurum-Trabzon yolu ilə İstanbula qayıtdı. İngilislər tərəfından təqibə məruz qalan Nuru paşa Hərbi Nazirliyin polisləri tərəfindən həbs edilib ingilislərə təhvil verildi. O, Batum həbsxanasına gətirildi. İngilislər onlara qarşı vuruşduğuna və Azərbaycanda göstərdiyi hərbi sücaətlərinə görə Nuru paşanın edamına qərar verdilər. Azərbaycan milli azadlıq hərəkatının fəallan Num paşanın rəsmi yolla azad edilməsinin mümkün olmadığını biləndə Batum həbsxanasına silahlı basqın təşkil edilməsini qərarlaşdırdılar. Bunun üçün Batuma xüsusi dəstə göndərildi. 1919 ilin yayında həmin dəstə Batum həbsxanasına basqın etdi. Əməliyyat zamanı itki verilsə də, Nuru paşanı azad etmək mümkün oldu. O, Artvin-Sarıqamış yolu ilə Ərzuruma gəlsə də, bir müddət sonra Bakıya qayıtdı. 1920 ilin aprelində Sovet qüvvələrinin Azərbaycana təcavüzü ərəfəsində Nuru paşa Dağıstan ərazisində fəaliyyət göstərir, yerli milli müqavimət qüvvələrinin yaradılmasına çalışırdı. Sonra yenidən Azərbaycana dönən Nuru paşa 1920 ilin iyununda Qarabağda bolşevik rejiminə qarşı alovlanan xalq üsyanının rəhbərlərindən biri oldu. Üsyan yatırıldıqdan sonra isə Nuru paşa Türkiyəyə döndü.

Hərbi xidmətdən ayrılandan sonra Nuru paşa İstanbulda dəmir-tökmə fabriki açdı. Bir sıra digər məhsullarla bərabər bu fabrikdə hərbi təyinath məhsulların da istehsah mənimsənildi. 1949 il martın 2-də fabrikdə naməlum səbəblər üzündən baş vermiş partlayış nəticəsində həlak olmuşdur.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.7, B., 2003; Süleymanov M., Nuru paşa, B., 1999; Aydemir Ş.S., Makedoniyadan Ortaasiyaya Enver paşa, c.3, İstanbul, 1993; Yüceer N., Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı, Ankara, 1996; Şeyxzamanlı N., Azərbaycanın istiqlal mücadiləsi xatirələri., B., 1997.

**NURUZADƏ** Hacı Molla Əhməd (? - ?) - Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, Gəncə qəzasından Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. "Əhrar" partiyasının üzvü idi. Parlamentdə "Əhrar" fraksiyasını təmsil edirdi.

downloaded from KitabYurdu.az

# O

**"ODLU YURD"** - Azərbaycan siyasi mühacirətinin İstanbulda nəşr etdiyi aylıq ictimai-siyasi toplu. İlk nömrəsi 1929 ilin martında, son - 31-ci nömrəsi isə 1931 ilin avqustunda çıxmışdır. Toplunun nəşrinin imtiyaz sahibi Abbasqulu Kazımzadə, məsul müdiri Kamil, baş mühərriri isə Məhəmməd Əmin Rəsulzadə idi. "Odlu yurd" özündən əvvəl nəşr olunmuş "Yeni Qafqasya", "Azəri-türk" məcmuələrinin ideya istiqamətini davam etdirmişdir. Toplunun birinci sayında verilən proqram-məqalədə Azərbaycançılıq fikrinə önəm vermək məqsədilə təsis olunan "Odlu yurd" un, hər şeydən əvvəl, milliyyətçi, türkçü, cümhuriyyətçi və xalqçı olduğu; Azərbaycan Xalq Cümhuriyyəti məfkurəsini üstün tutduğu və müdafiə etdiyi açıqlanır, topluda türk xalqlan və türk dünyasının yeganə müstəqil dövləti olan Türkiyə Cümhuriyyəti haqqında oxuculara məlumat veriləcəyi; Qafqazın İstiqlal və xilasının reallaşması üçün qafqazlıların ümumi düşmənə qarşı ittifaqa çağırılacağı; Şərqin, xüsusən məzlum və məhkum türk xalqlarının istiqlal savaşını doğrultmaq və milli mücadiləsini yüksəltmək işinin təbliğ olunacağı bəyan edilirdi.

"Odlu yurd"da dərc olunan məqalələrin ana xəttini, hər şeydən əvvəl, Azərbaycanın azadlığı ideyalarının təbliği, 28 May istiqlalı və 28 Aprel işğalı, erməni daşnaklarının xalqımıza qarşı Bakıda törətdiyi 1918 il 31 mart soyqırımı günlərinin anılması, Azərbaycanın gec-tez öz istiqlalına qovuşacağı ümidləri təşkil edirdi. Məcmuənin əsas müəllifləri Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Mustafa Vəkilli (Vəkilov), Hilal Munşi, Mir Yaqub Mehdiyev, Əhməd Cəfəroğlu və başqalan idi. Özündən əvvəlki Azərbaycan siyasi mühacirəti nəşrlərinin ənənələrini davam etdirən "Odlu yurd" Azərbaycan mühacir mətbuatı tarixində parlaq iz buraxmışdır.


ODLU YURT

MİLLİ AZERBAYCAN FİKRİYATINI TERVİC EDEN AYLIK MECMUA

Başmuharriri M. E. Resul-zade

Yıl : 1 — 27 Nisan 1929 — Sayı : 3

Odlu - Yurdun taziyeti

27 nisan!.. Azebaycan Cumhuriyetinin istila edildiği bu kara günde "Odlu-Yurt", azerbaycanlı okuyucularını büyük bir teessüfle taziyet eder. Bir türk cumhuriyetinin istiklaline kıydığı bu günde "Odlu-Yurt" bütün türk cumhuriyetçilerini taziyet eder! O, demokrasinin tahkir edildiği bu günde samimi demokratlara dahi kalbi teessürlerini izhar eder!

Şu candan taziyet ve teessürlerini beyan ederken "Odlu-Yurt" yaşayan azerbaycan neslinin taziyet kabul edecek ne şehitler babasına, ne kahramanlar anasına, ne yiğit yavuklusunu kaybetmiş gelinlere, ne kara gözleri yollarda kalmış hemşire ve kardeşlere, ne dudmanı sönmüş ailelere ve ne yurdundan [illegible] muhacirlere malik olduğunu pekâla bilir!

Kızıl ruslukla yapılan bu mücadelenin yarınki zaferi "Odlu-Yurt"ca muhakkaktır: çünkü o, görüyor ki Hazerin kanlı ka[illegible]ndan tutarak, şairin "buzlu cehennem" dediği Siberya tundralarına kadar yayılan kahramanlar, mefkûrenin yolunda yürürken, kanlı çekistlerden korkmayarak, büyük maksata doğru ölüm çenberinden geçmenin yolunu biliyorlar!

Bunu bilen bir milleti bu günkü matemile taziyet ettiğimiz halde yarınki bayramile de tebrik edebiliriz!

*Əd.:* Tahirli A., Azərbaycan mühacir mətbuatı, B., 2002; Şimşir Səbahəddin, Azərbaycanın İstiqlal mücadiləsi, İstanbul, 2002.

**OKTYABR ÇEVRİLİŞİ (1917)** - Rusiyada 1917 il oktyabrın 25-də (yeni təqvimlə noyabrın 7-də) həyata keçirilmiş dövlət çevrilişi. 1917 il oktyabrın 10-da Rusiya Sosial Demokrat Fəhlə (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (MK) iclasında Lenin, Sverdlov, Stalin, Trotski və b. Fevral inqilabı (1917) nəticəsində yaradılmış Müvəqqəti hökuməti devirmək üçün silahlı üsyan haqqında qətnaməyə səs verdilər. Kamenev və Zinovyev isə əleyhinə çıxaraq, inqilabın kifayət qədər gücü olmadığını və bu səbəbdən Müəssislər Məclisinin açılmasını gözləməyi, orada hakimiyyət haqqında məsələni həll et məyi lazım bilirdilər. Oktyabrın 16-da MK-nın geniş iclasında silahlı üsyanın keçirilməsinə hazırlıq planı təsdiq edildi. Kamenev və Zinovyev əleyhinə səs verdilər. Silahlı üsyana hazırlıq mərkəzi - Müvəqqəti İnqilabi Komitə (MİK) yaradıldı. MİK-ə bolşeviklər, sol eserlər, beynəlmiləlçi-menşeviklər, anarxistlər daxil idilər. MİK-nin faktiki rəhbəri L.D.Trotski hesab olunurdu. O, silahlı üsyanın hazırlanmasında və keçirilməsində mühiim rol oynamışdır. 1917 il oktyabrın 24-də V.İ. Lenin tərəfindən hazırlanmış plana uyğun olaraq, Petroqradda silahlı üsyan başlandı. Oktyabrın 25-də (noyabrın 7-də) şəhərə yaxın Petroqradın strateji əhəmiyyətli bütün məntəqələri üsyançıların əlində idi. MİK V.İ.Leninin yazdığı

downloaded from KitabYurdu.az

"Rusiya vətəndaşlarına!" müraciətnaməsini yaydı. Həmin gün axşam 2-ci Ümumrusiya Sovetlər qurultayı açıldı. Oktyabrın 25-dən 26-na keçən gecə üsyançılar Qış sarayını hücumla aldılar. Müvəqqəti hökumət həbs edildi, silahlı üsyan qalib gəldi. V.İ.Leninin başçılığı ilə sovet hakimiyyətinin əsası qoyuldu. Petroqradda bolşeviklərin hakimiyyəti ələ alması xəbəri Bakıya çatdıqdan sonra, oktyabrın 27-də Bakı Fəhlə və Hərbi Deputatları Sovetinin fövqəladə iclası keçirildi. Menşevik-eser-daşnak bloku 168 səsə qarşı 246 səslə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaradılması haqqında qərarın qəbul edilməsinə nail oldu. Bu siyasi qüvvələr ölkədə bütün hakimiyyətin Müəssislər Məclisinə verilməsini, ona qədər isə Bakıda koalisiya hakimiyyət orqanı yaradılmasını tələb edirdilər. Sovetin qərarı ilə razılaşmayan bolşeviklər Bakı Sovetinin geniş iclasını çağırmaq qərarına qəldilər. Mədən-zavod, alay və donanma komitələrinin dəstəyinə arxalanan bolşeviklər oktyabrın 31-də Bakı Sovetinin yeni iclasında səs üstünlüyünü təmin etdilər və onların təklifi ilə Bakı rayonunda bütün hakimiyyətin Bakı Sovetinə keçməsi haqqında qətnamə qəbul olundu. Noyabrın 2-də Bakı Sovetinin geniş iclasında bolşeviklər yenidən bütün hakimiyyətin Sovetə verilməsi məsələsini qoydular. Siyasi qüvvələr nisbəti onların xeyrinə idi. "Müsavat" partiyası yaranmış şəraitdə İTK-nın hərəkətlərinin barışıq və saziş siyasəti üçün ziyanlı olduğunu, bu səbəbdən həmin qurumda iştirakını mümkün saymadığını bildirdi. "Müsavat" Oktyabr çevrilişindən sonra öz müqəddəratını təyin etmək hüququnun həyata keçiriləcəyinə ümid bəsləyirdi. Sağ eser, menşevik və daşnaklar Sovetin iclasını tərk etdikdən sonra, noyabrın 2-də əksəriyyətin iştirakı ilə Bakı Sovetinin İcraiyyə Komitəsi şəhərdə ali hakimiyyət orqanı elan olundu. S.Şaumyanın sədrliyi ilə yeni İcraiyyə Komitəsi seçildi. Bakı Fəhlə və Hərbi Deputatları Sovetinin adının dəyişdirilib Fəhlə və Əsgər Deputatları Soveti adlandırılması da qərara alındı. Bolşeviklər Sovetdə iştirak edən partiyalar arasındakı ziddiyyətlərdən istifadə edərək, Bakı Sovetində əsas vəzifələri ələ keçirdilər. Oktyabr çevrilişi "Müsavat" partiyasının 1917 il oktyabrın 25-dən 31-dək davam edən 1-ci qurultayının keçirildiyi günlərə düşsə də, qurultay bu hadisəyə konkret münasibət göstərməyib, gözləmə mövqeyi tutdu. Qurultayın sonuncu günü qəbul edilən qətnamədə Mərkəzi Komitəyə Azərbaycanının muxtariyyət əldə etməsi üçün bütün tədbirləri görmək və Mərkəzi Müsəlman Komitəsi qarşısında Azərbaycan Müəssislər Məclisini çağırmaq tələbini qoymaq tapşırığı verildi.

Sovet hakimiyyətinin bəyan etdiyi ilk sənədlərin təsiri ilə müsavatçılar, səhvə yol verərək, Rusiyada baş vermiş Oktyabr çevrilişinə loyal münasibət göstərmiş, müharibəni davam etdirməkdə və Rusiyadakı milli azlıqların ümidlərini doğrultmamaqda günahlandırdığı Müvəqqəti hökumətin devrilməsini bəyənmiş, "Müsavat" partiyasının siyasi proqramını həyata keçirmək üçün şərait yarandığını güman etmişdilər. *Aprel işğalı (1920)* bunun səhv addım olduğunu bir daha təsdiq etdi.

*Əd.:* Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər. B., 1960; Azərbaycan tarixi, 3 cilddə, c.3, B., 1973; Azərbaycanın tarixi, 7 cilddə, c.5, B., 2001; Oruclu M.R., Azərbaycanında və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), B., 2001.

**OLLENQREN** V.K. (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"nun* (1918, 19 noyabr) əsasən, *Slavyan-Rus Cəmiyyətindən* Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Slavyan-rus Cəmiyyəti" fraksiyasını, sonra isə milli azlıqlar fraksiyasını təmsil edirdi.

**ON BİRİNCİ QIRMIZI ORDU (OQO)** - sovet Rusiyası qoşunlarının Qafqaz cəbhəsinin tərkibinə daxil olan iri hərbi birləşmə. Əsası 1918 il oktyabrın 3-də qoyulmuşdur. Həmin tarixdə Cənub cəbhəsi komandanın 16 saylı əmri əsasında Şimali Qafqazın qərb rayonlarındakı qırmızı hərbi hissələrlə Taman qoşunları birləşdirilərək 11 -ci ordu yaradıldı. OQO, başlıca olaraq, Qafqazda azadlıq əldə etmiş gənc müstəqil dövlətlərə qarşı işğalçı hərbi əməliyyatlarda iştirak etmişdir. Saritsını, Həştərxanı və bütünlükdə Şimali Qafqazın Xəzərboyu ərazilərini bolşevik nəzarətinə aldıqdan sonra OQO cənuba doğru irəliləmək və Azərbaycanı işğal etmək tapşırığı almışdı. Həyata keçiriləcək işğalçılıq yürüşü *Bakı əməliyyatı (1920)* adlandırılmışdı.Cənubi Qafqaza yaxınlaşarkən tərkibində 12 süvari və piyada alayın olmasına baxmayaraq, Azərbaycanın tezliklə işğalı üçün OQO daha da möhkəmləndirildi. Cənub cəbhəsində fəaliyyət göstərən P.Kurışkonun süvari briqadası, 9 və 10-cu ordulardan 20, 28 və 32-ci atıcı diviziyalar OQO-ya verildi. Azərbaycana hücum ərəfəsində OQO-nun möhkəmləndirilməsi məqsədilə Qafqaz Cəbhəsində qüvvələr yenidən qruplaşdırıldı. Cəbhə komandanlığının 1920 il 6 aprel tarixli




downloaded from KitabYurdu.az



*İşğalçı 11-ci Qırmızı ordu Bakıda*

əmri ilə 7-vi süvari diviziyası, Taman süvari briqadası və Kurışkonun süvari briqadası 2-ci süvari korpusunda birləşdirilən OQO-nun tərkibinə verildi. Beləliklə, Azərbaycana girməzdən əvvəl OQO-nun tərkibində 20, 28 və 32-ci atıcı diviziyalar, Taman atıcı briqadası, 2-ci süvari korpusu, 1-ci süvari diviziyası, 11 zirehli qatar və bir təyyarə eskadrilyası var idi. Ordunun bütün şəxsi heyəti 72472 nofərdən ibarət idi. 1920 il martın 26-dan OQO-ya M.K.Levandovski komandanlıq edirdi.

1920 il aprelin 27-nə keçən gecə OQO qüvvələri heç bir xəbərdarlıq etmədən və beynəlxalq hüquq normalanın kobudcasına pozaraq müstəqil Azərbaycan dövlətinin -Azərbaycan Xalq Cümhuriyyətinin sərhədini keçdilər və mövcud mürəkkəb şəraitdən istifadə edərək, qısa müddət ərzində ölkəni işğal etdilər. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı.

1921 il mayın 4-don etibarən tərkibi bir qədər də möhkəmləndirilmiş OQO-nun bazasında Əlahiddə Qafqaz ordusu yaradıldı. 1923 ilin avqustundan bu ordıı Qafqaz Qırmızı Ordusu adlandırıldı. 1935 il iyunun 6-da isə Qafqaz Qırmızı Ordusu Zaqafqaziya hərbidairəsinə çevrildi. İkinci dünya müharibəsindən sonra bu struktur, qismən dəyişikliyə məruz qalmaqla, SSRİ dağılana qədər öz mövcudluğunu saxladı.

*On beşinci firqənin türk əsgəri*



**ON BEŞİNCİ FİRQƏ** - Azərbaycan Xalq Cümhuriyyəti və Türkiyə dövlətləri arasındakı qarşılıqlı razılaşmaya əsasən, 1918 il sentyabrın əvvəlində hərbi yardım məqsədilə Azərbaycana gəlmiş və Bakının azad olunmasında fəal iştirak etmiş türk piyada diviziyası. Diviziya Osmanlı dövlətinin hərbi naziri Ənvər paşanın əmrinə əsasən, Xəlil paşanın komandanlıq etdiyi şərq ordular qrupunun tərkibində olan 9-cu ordunun tabeliyindən alınaraq, *Qafqaz İslam Ordusuna* verildi. Azərbaycana yetişdikdən sonra onun tərkibində 38-ci, 56-cı və 106-cı piyada alayları, habelə bir sıra topçu və digər yardımçı bölmələr, cəmi 157 zabit və 7636 əsgər olmalı idi. Azərbaycana daha əvvəl göndərilmiş 38-ci piyada alayı ölkə ərazisinə 1918 il iyulun 14-də daxil olmuşdu. On beşinci firqənin Azərbaycana doğru hərəkətə başlamasına 1918 il avqustun 23-də əmr verildi. Firqə Qarakilsə (Sisyan) - Qazax yolu ilə Azərbaycana çatmalı və sonra da qatarlar vasitəsilə Bakıya yetişməli idi. Firqənin qərargahı 1918 il sentyabnn 6-da Ağstafaya, 9-da isə Bakı ətrafına çatdı. Firqəyə yarbay Süleyman İzzət bəy komandirlik edirdi. Bu birləşmə Bakının şimalında yerləşdirildi. *Bakı əməliyyatı (1920)* başlamazdan əvvəl Qafqaz İslam Ordusu komandanının əmrilə onun tərkibində müəyyən dəyişikliklər edildi. 56-cı piyada alayı *Beşinci Qafqaz Firqəsi* (diviziya) komandirinin əməliyyat tabeliyinə verilərək Qurd qapısı istiqamətində yerləşdirildi. 106-cı piyada alayı isə Qafqaz İslam Ordusu komandanının ehtiyatmı təşkil etdi. Bu hissələrin əvəzində isə 107-ci piyada türk alayı, 2-ci

downloaded from KitabYurdu.az

süvari türk alayı, Azərbaycan süvari alayları, Azərbaycan piyada bölmələri və könüllü taborları on beşinci fırqəyə verildi. Ona Biləcəri məntəqəsinin şərq tərəfindən Bakıya doğru hücuma keçmək tapşırılmışdı. Hücum ərəfəsində 107-ci piyada alayı da fırqə komandirinin tabeliyindən alınaraq, ordu komandanının ehtiyatına verildi. Ancaq sentyabrın 14-də döyüşlərin gedişində 15-ci firqə cəbhəsində yaranan ağır vəziyyəti aradan qaldırmaq üçün 107-ci alay ordu komandanının ehtiyatından alınıb fırqə komandirinin tabeliyinə qaytarıldı. Sentyabrın 15-də fırqənin hissə və bölmələri hücumu uğurla davam etdirərək, Bakının Qara şəhər rayonuna qədər irəlilədilər. Tümənin əsgər və zabitləri Bakının düşməndən azad olunmasında böyük şücaət və qəhrəmanlıqlar göstərdilər. Bakı əməliyyatı başa çatdırıldıqdan sonra 107-ci piyada alayı firqənin tabeliyindən çıxarıldı və əvəzində 56-cı alay ona qaytarıldı. 1918 il sentyabrın 22-də fırqə bu tərkibdə Dağıstana doğru hərəkətə başladı. Orada uğurlu döyüşlər keçirən fırqə Dağıstanda milli qüvvələrin hakimiyyətinin yaranmasına yardımçı oldu.

*Mudros barışığının (1918)* şərtlərinə əsasən, on beşinci firqə də Beşinci Qafqaz Firqəsi ilə birgə 1918 il noyabrın 2-ci yarısından etibarən Türkiyəyə geri çəkilməyə başladı.

*Əd.:* Yüceer N., Birinci Dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı, Ankara, 1996; Süleymanov M., Qafqaz İslam ordusu və Azərbaycanın, B., 1999.

**ON DOQQUZ YANVAR MEMORANDUMU (1920)** -Birinci dünya müharibəsində (1914-18) iştirak etmiş müttəfiq dövlətlərin Cənubi Qafqaz respublikalarına, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinə hərbi yardım göstərmək barədə qərarı (bax *Paris Sülh Konfransı Ali Şurasının 1920 il 19 yanvar tarixli qərarı).*

**ORCONİKİDZE** Qriqori Konstantinoviç (Serqo; 24.10.1886, Gürcüstan - 18.2.1937, Moskva) - bolşeviklərin qanlı Cənubi Qafqaz siyasətini həyata keçirən və antiazərbaycan mövqeyi ilə "fərqlənən" dövlət xadimlərindən biri. 1903 ildən Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) üzvü idi. 1903 ildən Tiflisdə inqilabi fəaliyyətə başlamış, dəfələrlə həbs və sürgün olunmuşdur. 1907 ilin martında Bakıya gizli işə göndərilmiş, RSDFP Bakı Komitəsinin tərkibinə daxil edilmişdir. 1909 ilin avqustunda sürgündən qaçıb Bakıya qayıtmış, İran inqilabına (1905-11) kömək göstərmək üçün bir qrup bolşeviklə ora getmişdir. Rusiyada vətəndaş müharibəsi illərində (1918-20) bolşeviklərin Qafqazda apardığı işlərin rəhbərlərindən biri olmuş, Şimali Qafqazda sovet hakimiyyətinin qalib gəlməsində mühüm rol oynamışdır. 1920 ildən Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun sədri idi. Rusiyada Fevral inqilabından (1917) sonra azadlıq qazanmış üç Cənubi Qafqaz respublikası (Azərbaycan, Gürcüstan, Ermənistan) hökumətlərinin devrilməsi üçün silahlı müdaxiləyə başçılıq etmiş, işğalçı 11-ci Qırmızı ordunun rəhbərlərindon olmuşdur. Qafqaz cəbhəsi Hərbi İnqilab Şurasının üzvü olan Orconikidze 1920 il aprelin 30-da 11-ci Qırmızı ordunun əsas hissələri ilə Bakıya gəlmiş və Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində birbaşa iştirak etmişdir. *Aprel isğalından (1920)* az sonra, mayın 2-də Q.Orconikidze və S.Kirov V.Leninə göndərdikləri teleqramda yazırdılar: *"Sizin Azərbaycana təbrikiniz və onu ümumi formada tanımağınız zəmridir. Sovet Rusiyası ilə hərbi-iqtisadi birləşməni həyata keçirəcəyik".* Bundan sonra Azərbaycana V.Leninin 1920 il 5 may tarixli məlum "təbrik teleqramı" göndərilmişdir. Orconikidzenin və Kirovun Leninə teleqramında deyilirdi: *"Vəziyyət bütün Qafqaz və daha geniş ərazi üçün Xalq Komissarları Sovetinin bizə səlahiyyət verməsini tələb edir. Bizə radio vasitəsilə səlahiyyət verin, yaxud başqa bir adam göndərin, lakin bir an da təxirə salmayın. Nərimanova belə səlahiyyət verməyin".* Lenin buna cavab olaraq Orconikidzeyə teleqram göndərərək, Azərbaycanın bütün xarici və daxili siyasətinə rəhbərliyi ona həvalə etmişdi.

Bakının sovet Rusiyası tərəfindən tutulması üçün Azərbaycanın müstəqilliyi şüarını dəstəkləyən Orconikidze Aprel işğalından az sonra müstəqillik məsələsini partiya Mərkəzi Komitəsinin müzakirəsinə çıxartmışdı: *"Azərbaycan Respublikası müstəqilliyini yaşamalı, yaxud Sovet Rusiyasının tərkibinə daxil olmalıdır"'.* 1920 ilin noyabrında Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun iclasında Qafqazdakı, xüsusən Azərbaycandakı vəziyyət müzakirə edilmiş, İ.Stalinin məlumatına əsasən, Azərbaycan İnqilab Komitəsinə və Şərq xalqlarının 1-ci qurultayında seçilmiş Tobliğat və Fəaliyyət Şurasına ümumi siyasi rəhbərlik Q.Orconikidzeyə tapşırılmışdı. Bundan sonra Q.Orconikidze, habelə qeyri millətlərdən olan digər bolşevik cəlladlarının Azərbaycan xalqına divan tutması dövrü başlanmışdı. Nərimanov Orconikidzeni **"Qafqazın canişini"** kimi fəaliyyət göstərməkdə ittiham etmiş, **onun arxasında Stalinin dayandığını yazmışdı.** Nərimanov yaranmış vəziyyəti belə qiymətləndirirdi: *"Mərkəz ancaq Serqo Orconikidzeyə etibar edib... Ona yalnız özünün heç bir xüsusi fikri olmayan, icraçı adamlar lazım idi".* Orconikidze Azərbaycan torpaqlarının Ermənistana verilməsində fəal rol oynamışdır. 1922-26 illərdə Zaqafqaziya, Şimali Qafqaz ölkə partiya komitələrinin birinci katibi, sonralar digər məsul dövlət və partiya vəzifələrində çalışmış, həmişə antiazərbaycan mövqeyi ilə "fərqlənmişdir".



*Əd.:* Azərbaycan tarixi. 7 cilddə, c.5, B., 2001. Nərimanov N., Ucqarlarda inqilabımızın tarixinə dair, B., 1992; О Серго Орджоникидзе Воспомининия очерки, стати современников, М., 1981.

**ORDUBADİ** Məmməd Səid (Məmməd Səid Hacağa oğlu; 3.14.1872, Ordubad - 1.5.1950, Bakı) - yazıçı, şair, dramaturq, publisist, tərcüməçi, ictimai xadim. Ordubadda mollaxanada və Məhəmməd Tağı Sidqinin "Əxtər" məktəbində oxumuşdur. Ordubad ipək fabriklərində (1886-1904) fəhlə işləmiş, Culfa gömrük xidmətində

downloaded from KitabYurdu.az



Məmməd Səid Ordubadinin büstü. Naxçıvan

tərkibində İran Məşrutə hərəkatına kömək edən qrupun fəal üzvlərindən olmuşdur. 1915 ildə siyasi fəaliyyətinə görə Saritsına sürgün edilmişdir. Fevral inqilabından (1917) sonra Dağıstana gəlmiş, Rusiya Kommunist (bolşeviklər) Partiyası sıralarına daxil olaraq, siyasi fəaliyyətini davam etdirmişdir. 1918 ildə Nəriman Nərimanovun dəvətilə Həştərxana gedərək, "Hümmət" qəzetinin redaksiyasında çalışmışdır. 1920 ildə 11 -ci Qırmızı ordunun tərkibində Dağıstana gəlmiş, Temirxan-Şura şəhərində "Qırmızı Dağıstan" qəzetinin nəşrini təşkil etmişdir. 1920 il mayın 2-də Bakıya gələn Ordubadi "Əxbar" qəzetinin redaktor müavini vəzifəsinə təyin edilmiş, "Əxbar" və "Kommunist" qəzetləri birləşdirildikdən sonra onun redaksiya heyətinin üzvü və redaktor müavini, 1920 ilin sentyabrından isə "Füqəra füyuzatı" jurnalının redaktoru olmuşdur. 1928 ildə "Yeni yol" qəzetinin redaktoru vəzifəsinə təyin edilmişdir. Azərbaycanın SSR Ali Sovetinin (1-3-cü çağırış) deputatı seçilmişdir.

Ordubadi ədəbi fəaliyyətə 19 əsrin 90-cı illərində baş-lamışdır. İlk şerləri 1903 ildə "Şərqi-Rus" qəzetində dərc olunmuşdur. Şair "Qeyrət" mətbəəsində (Tiflis) "Qəflət" (1906), "Vətən və hürriyyət" (1907) adlı şer kitablarını nəşr etdirmişdir. "Qəflət"də islam millətlərinin geriliyini tənqid edən Ordubadi "Vətən və hürriyyət" kitabında fıkirlərini siyasi məcraya yönəltmiş, Cavad xanın və Şeyx Şamilin rus çarizminin Qafqazda işğalçı siyasətinə qarşı mübarizəsini tərənnüm etmişdir. 20 əsrin əvvəlində Bakı və Tiflis dövri mətbuatında, o cümlədən, "İrşad", "Təzə həyat", "Tərəqqi", "Səda", "Sədayi-həqq" və s. qəzetlərdə, "Molla Nosrəddin" jurnalında şerlər, publisistik məqalə və felyetonlarla çıxış etmişdir. "Qanlı sənələr" (1911) kitabı, "İki cocuğun Avropa səyahəti" (1908), "Bağı-şah, yaxud Tehran faciəsi" (1910), "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" (1914) tarixi pyesləri, "Bədboxt milyonçu, yaxud Rzaqulu xan Firəngi-məab" (1914) romanı nəşr olunmuşdur. "Qanlı sənələr"də müəllif 1905-06 illərdə daşnak-erməni quldurlarının Bakıda, Gəncədə, Naxçıvanda, Qarabağda, Qazax qəzasında, Zəngəzurda, Göyçə ətrafında, Mehridə Azərbaycan xalqına qarşı törətdikləri soyqırımlarını real faktlar və sənədlər əsasında qələmə almışdır.

Sovet hakimiyyəti illərində ədəbi fəaliyyətinin miqyasını genişləndirmiş, dövri mətbuatda müntəzəm olaraq publisist və elmi-kütləvi, ədəbi-tənqidi məqalə və felyetonlar dərc etdirmişdir. Ordubadi Azərbaycanın ədəbiyyatında tarixi roman janrının banisidir. 20 əsrin əvvəllərində Cənubi Azərbaycanda milli azadlıq mübarizəsinə həsr olunmuş dördcildlik "Dumanlı Təbriz" (1933-48) epopeyasının, Nizami Gəncəvi dövründən bəhs edən "Qılınc və qələm" (1946-48), inqilabi mövzuda "Döyüşən şəhər" (1936), "Gizli Bakı" (1940) romanlarının və s. əsərlərin müəllifidir.

Əsərləri: Əsərləri, 8 cilddə, B., 1964-1967.

*Əd.:* Vəzirova F., M.S.Ordubadi, B., 1972; Rüstəmov T., Alovlarda bərkiyən qələm, B., 1981; Axundov Y., Məmməd Səid Ordubadi, B., 1987.

**ORDU GÜNÜ** - Azərbaycanın Milli ordusunun yaranma günü. Azərbaycan Respublikasının ümumxalq bayramlarından biri. Azərbaycanın Respublikasının Prezidenti Heydər Əliyevin 1998 il 22 may tarixli Fərmanı ilə təsis edilmişdir (bax *Milli ordu günü).*

**ORUCOV** Oruc Əli oğlu [1878, Yelizavetpol quberniyasının Cavanşir qəzası (indiki Bərdə rayonu), Alpout k. - 1934, Bərdə] - mətbuat xadimi, naşir, publisist. Kənd mollaxanasında oxumuş, Yelizavetpol (Gəncə) Mixail sənət məktəbini bitirmişdir. 1896 ildə Bakıya köçərək, ticarətlə moşğul olmuşdur. 1905 ildə naşirlik fəaliyyətinə başlamış, qardaşları Qənbər və Abuzərlə birlikdə "Orucov qardaşları" nəşriyyatını təşkil etmişdir. Nəşriyyatın müasir avadanlıqla təchiz olunmuş mətbəəsi, kitab və yazı ləvazimatı satılan mağazası vardı. "Orucov qardaş-lan" nəşriyyatında (1905-17) müxtəlif adda və məzmunda 333 kitab, bir neçə qəzet, o cümlədən "Həqiqət", "Yeni həqiqət", "Günəş", "Asari-həqiqət", "Bəsirət", "İqbal", "Yeni iqbal" və s. qəzetlər çap olunmuşdur.

Orucov 1909 ildən etibarən qəzetçilik fəaliyyətinə başlamış, "Həqiqət" (1909-10), "Günəş" (1910-11), "Yeni həqiqət" (1911) qəzetlərinin naşiri olmuşdur. Publisist məqalələrində Avropa imperializminin Şərqdə yeritdiyi müs-təmləkəçilik siyasətini tənqid etmişdir. Orucov 1911 ilin martında panislamizm ideyalarım təbliğdə təqsirləndirilərək, bir qrup jurnalistlə birgə həbs olunmuş və Rusiyanın daxili quberniyalarına sürgün edilmişdi (1911-13). Saratov, Nijni Novqorod və Varşavadan "İqbal" qəzetinə göndərdiyi məqalələrdə Bakıda baş verən hadisələrə münasibət bildirirdi. Romanovlar sülaləsinin 300 illik yubileyi ilə əlaqədar elan edilən əfvi-ümumidən sonra Bakıya dönərək, naşirlik fəaliyyətini davam etdirmişdir. 1917 ilin dekabrında qardaşları Abuzər və

downloaded from KitabYurdu.az

Qənbərdən ayrılaraq, "Açıq söz" qəzetində Məhəmməd Əmin Rəsulzadə ilə əməkdaşlığa başlamış, qəzetin nəşriyyat işləri üzrə müdiri vəzifəsini icra etmişdir. Bax, həmçinin *"Orucov qardaşları" mətbəə-nəşriyyatı* məqaləsinə.

*Əd.:* Əfəndiyev Ə., Əliyeva Y., Orucov qardaşlarının mətbəəsi, B., 1999; İlkin Q., Bakı və bakılılar, B., 1998; Həsənov H., İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi, B., 1965; Zeynalov Ə., Orucov qardaşlarının mətbəəsi, B., 1988.

**"ORUCOV QARDAŞLARI" MƏTBƏƏ-NƏŞRİYYATI** - 1906-17-ci illərdə Bakıda Oruc, Qənbər və Abuzər Orucov qardaşlarına məxsus mətbəə-nəşriyyat. Mətbəə-nəşriyyatın o dövr üçün müasir və mükəmməl avadanlığı ("Mille" markalı özü şriftyığan maşın, "Frangental", "Aqzburq", "Amerikanka" çap dəzgahları, tikən və kəsən alətlər, sinkoqrafıya aparatları və s.) var idi. Nəşriyyatın avadanlığı Bakı Xalq Komissarları Soveti tərəfındən müsadirə edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 ilin sentyabrında Bakıya köçdükdən sonra nəşriyyat dövlət mülkiyyətinə keçirilmişdi. Bununla bağlı "Orucov qardaşları" mətbəə-nəşriyyatı Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti qarşısında iddia qaldırmışdı. Hökumət "Orucov qardaşları"nın mətbəə avadanlığının dövlət nəşriyyatı üçün alınması barədə Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti qarşısında məsələ irəli sürür. Bu məsələ Parlamentin 1919 il martın 20-də keçirilən 25-ci iclasında müzakirə olunur. Plan-büdcə komissiyasının üzvü Məhəmməd Əmin Rəsulzadə məruzə ilə çıxış edərək, mətbəə texnikasının son nailiyyətləri ilə təchiz edilmiş "Orucov qardaşları" nəşriyyatının 1918 ilin martında, bolşevik-daşnak ağalığı zamanı talan olunduğunu göstərmişdir. Məruzəçi bildirmişdir ki, Cümhuriyyət hökuməti Bakıya köçdükdən sonra mətbəənin çoxlu avadanlığı hökumətin əlinə keçmişdir. Xalq Maarifı Nazirliyinin məlumatına görə, Orucov qardaşlarına məxsus çap makinaları, hürufatları və s. hazırda hökumət mətbəəsindədir. Orucov qardaşları ötən il mart soyqırımı hadisələrindən əvvəl mətbəəni iranlılara satmaq istəmiş və o vaxt iranlılar onlara yarım milyon rubl təklif etmişlər. Mütəxəssislərin hesablamasına görə, hökumət mətbəəsində olan Orucov qardaşları mətbəəsinə məxsus avadanhq 468380 manat məbləğində dəyərləndirilmiş, həm plan-büdcə komis-siyası, həm də mətbəə sahibləri bu qiymətlə razılaşmışdır. Parlament dövlət mətbəəsində Orucov qardaşlarına məxsus avadanlıq üçün onun sahiblərinin nümayəndəsi Abuzər Orucova dövlət xəzinəsindən 468380 manat pul ödəmək barədə Qanun qəbul etmişdir.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.I, B., 1998.

**OSMANLI İMPERATORLUĞU İLƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ ARASINDA MÜQAVİLƏ** - 1918 il iyunun 4-də imzalanmış dostluq müqaviləsi. Bax *Batum müqaviləsi (1918)*.

**OZAKOM** (Особый Закавказский Комитет)-Rusiyada fevral inqilabından (1917) sonra Cənubi Qafqazın idarə olunması məqsədilə 1917 il martın 9-da yaradılmış mülki hakimiyyət orqanının - *Xüsusi Zaqafqaziya Komitəsinin* elmi ədəbiyyatda ixtisarla işlədilən adı.

downloaded from KitabYurdu.az

# Ö

**ÖMƏR FAİQ,** Ömər Neman oğlu Nemanzadə (1872, Axalsıx qəzası, Azqur k. (indiki Gürcüstan Respublikası) - 1937, Tiflis) -maarif və mətbuat xadimi, publisist. Azqurda mollaxanada və ibtidai rus məktəbində (1878-82), İstanbulda Fateh" və "Darüşşəfəq" mədrəsələrində (82-91) oxumuşdur. İstanbulda, Qalatasaray poçtxanasında (1891- 92), Şəkidə (1894-96; 1898-1900), Şeyxzadənin açdığı üsuli-cədid məktəbində müəllim işləmişdir.Azərbaycan mətbuatı ilə



bağlamış, Tiflisdə M.Şahtaxtlının nəşr etdiyi "Şərqi-Rus" qəzetində (1903-05) əməkdaşlıq etmişdir. "Şərqi-Rus" fəaliyyətini dayandırarkən Ömər Faiq, Cəlil Məmmədquluzadə və Məşədi Ələsgər Bağırov birgə qəzetin mətbəəsini almış, müstəqil "Qeyrət" adlı nəşriyyat təsis etmiş, müxtəlif mövzuda və məzmunda kitablar buraxmışlar. "Qeyrət"in buraxdığı ilk kitab Ömər Faiqin "Dəvət" əsəri olmuşdur. Siyasi mülahizələrə görə "Torpaq" adlı jurnalının nəşrinə icazə ala bilməyən Ömər Faiq 1906 ildə "Molla Nəsrəddin"in nəşrində fəal iştirak etmiş, qeyri-rəsmi şəkildə jurnalın ikinci redaktoru vəzifəsini (1906-11) yerinə yetirmişdir. O, "Molla Nəsrəddin" lə yanaşı, "Həyat", "Tərcüman", "İrşad", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Açıq söz", "Qardaş köməyi", "Azərbaycan" və s. dövri mətbuat orqanlarında **"Ömər Faiq", "Ümidvar", "Dərdmənd", "Lağlağı", "Cəhrəçi xala"** və b. imzalarla dövrün akmal problemlərinə dair kəs-kin məqalələr dərc etdirir. Xəstəliklə əlaqədar bir müddət Azqur kəndində yaşayan (1911-17) Ömər Faiq 1917 ildə siyasi fəaliyyətə qoşulur, Gürcüstanın türk xalqlannın dövlətçilik hüquqları uğrunda mübarizə aparır. Əmələ və əsgər hökumətinin üzvü olur. Təşkil edilmiş Milli Komitənin işində yaxından iştirak edir, torpaq islahatı ideyasını irəli sürür, müəllimlər üçün yay kursları təşkil edir. Ömər Faiqin Gür-cüstanda mənsub olduğu xalqın siyasi və mədəni muxtariy-yəti uğrunda mübarizəsi gürcü millətçi hakim dairələrini narahat edir və o, 1919 ilin yanvarında gürcü menşevik hökuməti tərəfından həbs edilir. Ömər Faiqin zindana salınmasından narazı qalan Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti müxtəlif yollarla ədibin azad olunmasına çalışmışdır. 1919 ilin mayında Bakıya gələn Ömər Faiq Azərbaycan Xalq Cümhuriyyəti xadimləri tərəfındən təntənə ilə qarşılanır. "İstiqlal" qəzetində dərc olunmuş "Ömər Faiq əfəndi" adlı məqalədə deyilirdi: "Bizim mühərrirlər aləmində şərəfli bir mövqe tutan, türklüyün, islamlığın ən inamlı və dirəxşan bir siması olaraq bilinən və yenilməz bir qəlb, dönməz bir eşq, bir eşqlə mücadiləsində səbat göstərən sevgili və böyük arqadaşımız Ömər Faiq əfəndi Bakıya gəldilər. Ömər Faiq əfəndi Tiflisdə ağır günlərdə qaldığı bir zamanda Azərbaycan türk demokratiyası təsirlər, hüznlər içərisində bulunmuş, onun qurtulması, onun smdırılmayan qələminin, sönməyən milliyyət sevgisinin yenə bir həyat olmasını bütün millət arzu etmiş idi. Ömər Faiq əfəndi türklük məfkurəsini, inqilab fıkrini ən müstəsna bir surətdə təmsil edən bir simadır. O, bəzən millətinin dərdlərini yazır, bəzən millətə ümidlər verir, ümidsizlik zamanında ümidvar olur. Bir fədakar və qəhrəman kimi vəzifəsini ikmal edər və bütün bunlardan sonra etikarənə surətdə bir tərəfə çəkilir idi" ("İstiqlal" qəzeti, 1919, 10 may).



Ömər Faiq tezliklə dövlət işlərinə cəlb olundu, ona şəhər polis idarəsində nəzarətçi-müfəttiş vəzifəsi tapşırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin böyük etimad bəslədiyi Ömər Faiqə ən mürəkkəb məsələlərin həlli həvalə olunurdu. Bu baxımdan Qazaxda baş verən münaqişələrin həllində onun rolu diqqətə layiqdir. 1920 ilin yanvarında Qazaxda hərc-mərcliyin kökünü kəsib, əmin-amanlıq yaradan general-qubernator Əmirxan Xoyski işdən çıxarılarkən məsələni araşdırmaq üçün Ömər Faiqin başçılığı ilə ora komissiya göndərilmiş, münaqişə haqqında səhih məlumat əldə edilmişdi.

Ömər Faiq 1921 ildə Gürcüstan İnqilab Komitəsinin üzvü və Gürcüstan SSR-in müsəlman əhalisi üzrə Şurasının sədri seçilmişdir. O, xalqın vəziyyətini yaxşılaşdırmaq üçün hökumət qarşısında məsələ qaldırır.

downloaded from KitabYurdu.az



1924 ildə dövlət işlərindən ayrılan Ömər Faiq bir müddət Gəncə kənd təsərrüfatı texnikumunda müdir işləyir, 1927 ildə təqaüdə çıxır. Qalan qüvvəsini maarif və mətbuat işlərinə sərf edir. O, "Dərdimiz və dərmanımız", "Dilimiz və imlanımız", "Dəvət", "Ağacı qurd içindən yeyər", "İdareyi-ruhaniyyələrimiz nə vaxt düzələcək?", "Müəllimlərimiz nə üçün Bakıya qaçırlar?", "Məzlum ən böyük zalımdır", "Millətpərəstlik zamanıdır" və s. dərin siyasi-ictimai mündəricəli məqalələrin müəllifidir. 1936 ildə Azərbaycan maarifı və ədəbiyyatının əzablı inkişaf yolundan bəhs edən "Xatirələrim" əsərini yazmışdır.

1937 ildə doğma Azqur kəndində həbs edilərək, Tiflisdə Xüsusi İstintaq Komissiyası nəzdindəki "üçlüyün" qərarı ilə güllələnmişdir.

Əsərləri: Xatirələrim, B., 1985; Seçilmiş əsərləri, B., 1992.

*Əd.:* Mirəhmədov Ə., Azərbaycan Molla Nəsrəddini, B., 1980; Qurbanov Ş., Ömər Faiq Nemanzadə, B., 1992.

**ÖMƏR NACİ BƏY** - (1916 il Kərkük, indiki İraq) -Türkiyə ordusunun yüksək rütbəli zabiti, polkovnik. "İtti-had və tərəqqi" partiyasının görkəmli xadimlərindən biri. Türkiyə hökumətinin xüsusi tapşırıqlar üzrə səlahiyyətli nümayəndəsi kimi Cənubi Azərbaycanda milli azadlıq hərəkatının güclənməsinə böyük kömək göstərmişdir.

20 əsrin əvvəllərində onun səyi nəticəsində Osmanlı hökuməti Cənubi Azərbaycanda milli azadlıq hərəkatına kömək məqsədilə maliyyə yardımı ayırmışdır. Səttar xanın başçılıq etdiyi 1905-06 illər inqilabını yaxından izləmiş, Türkiyə silahlı qüvvələrinin Baş komandanı Ənvər paşanın tapşırığına əsasən Cənubi Azərbaycan türklərinin siyasi cə-hətdən təşkilatlanması işinə yaxından kömək göstərmişdir. Birinci dünya müharibəsi (1914-18) illərində türk-alman or-dusunun Cənubi Azərbaycanda həyata keçirdiyi hərbi əməliyyatlarda yaxından iştirak etmişdir. Tarix ədəbiyyatında "kiçik müharibə" adlandırılan termin onun adı ilə bağlıdır. Beləki, 1915 ilin dekabrından başlayaraq, polkovnik Ömər Naci bəy və fon Şeybner-Rixterin komandanlıq etdiyi 650 nəfərlik kiçik mücahidlər dəstəsi Muş-Bitlis-Cənubi Azərbaycan istiqamətində uğurlu hərbi əməliyyat apararaq 1916 il yanvarın 14-də Təbrizə daxil olmuşdu. Döyüşdə aldığı yaradan Kərkük hərbi xəstəxanasında vəfat etmişdir.

*Əd.: Лудшувейт Е.Ф., Турция в годы первой мировой войны, М., 1966.*

**"ÖYRAQİ-NƏFİSƏ"** - aylıq milli demokratik ruhlu ədəbi-bədii, ictimai-siyasi jurnalı, Azərbaycan mətbuatı tarixində ədəbiyyat və incəsənət məsələlərinə həsr olunmuş ilk dövrü mətbuat orqanı. 1919 ilin mart-avqust aylarında Bakıda cəmisi 6 nömrəsi nəşr edilmişdir. Naşiri Zülfüqar *Hacıbəyli*, redaktoru Əlabbas *Müznib* idi. Rəngli şəkillərini rəssam Əzim *Əzimzadə* çəkmişdir. Jurnalın səhifələrində Firidun bəy Köçərli, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Zülfüqar Hacıbəyli, Əlabbas Müznib, Əmin Abid, Məhəmməd Hadi və başqa müəlliflər iştirak edirdi. Burada ədəbiyyat, musiqi, teatr, həmçinin memarlıq abidələri haqqında məqalələr və fotoşəkillər, aktyorların həyatı və səhnə fəaliyyəti barədə yazılar dərc olunurdu. Jurnalda ədəbiyyat tarixi məqalələri aparıcı yer tuturdu. Burada Molla Pənah Vaqif, Əbdülqasım Nəbati, Mirzə Fətəili Axundov, Əli bəy Hüseynzadə, Haşım bəy Vəzirov, Məhəmməd Hadi, Rəşid bəy Əfəndiyev, Əlabbas Müznib, Xədicə xanım Ədvi, Hacı Səlim Səyyah, Bədri Seyidzadə, Əlağa Vahid və başqalarının tərcümeyi-halı və şerlərindən nümunələr verilirdi. Topluda Şərq musiqisi və musiqi alətlərinə dair məşhur ərəb yazıçısı Cürci Zeydanın əsəri, memarlıq abidələrindən "Tac Mahal" haqqında məqalə və Bakı abidələrinin rəsmləri dərc edilmişdi. Jurnalın birinci nömrəsi yenicə qətlə yetirilmiş Hüseyn *Ərəblinskiyə* həsr olunmuşdu.

Toplunun səhifələrində Azərbaycanda erməni soyqırımı və zorakılığı, qanlı daşnak vəhşilikləri barədə publisistik məqalələr də çap olunurdu. Toplu müstəqillik dövründə milli oyanışın dirçəldilməsinə, türkləşmək, islamlaşmaq, müasirləşmək ideyalarının təbliğinə üstünlük verirdi.

"Övraqi-nəfisə", özünün 5-ci sayında yazdığına görə, kağız qıtlığı üzündən 1919 ilin 6-cı sayından sonra bağlanmışdır.

*Əd.:* "Övraqi-nəfisə", 1919, № 1-6.

downloaded from KitabYurdu.az

# P

**PANİSLAMİZM** (yunanca *pan* - bütün və islam sözlərindən) - antiislam mövqeyində duran rəsmi və ideoloji qüvvələrin ittihadi-islam (islam birliyi) dini-siyasi cərəyanına qarşı mürtəce baxışlar sistemi və ona verdikləri ad. İslamçılığın bütün məsələləri həmin qüvvələrin siyasi-ideoloji maraqları baxımından təhrif olunmuş, mürtəcc mövqedən şərh edilmişdir. Panislamizm anlayışından müsəlman xalqlarının milli-siyasi oyanışına, dövlətçilik ənənələrinin dirçəlişinə mane olmağa, islam ölkələrini fəlakət və səfalət altında saxlamağa və ya müstəqil islam dövlətlərinin daxili işlərinə müdaxilə etməyə çalışan böyük dövlətlərin islam birliyi ideyasına qarşı mübarizə vasitəsi kimi istifadə olunmuşdur. Görkəmli Azərbaycan mütəfəkkiri Seyid Cəmaləddin *Əfqaninin* davamçıları ittihadi-islamın "panislamizm" kimi təqdim edilməsinə qarşı çıxmış, bunu "xristian dövlətlərinin", Avropa millətçilərinin, onların əlaltılarının "müsəlmanlara düşmən münasibətindən doğan iftira və riyakarlığı" kimi qiymətləndirmişlər (hazırda bu, "islam fundamentalizmi" şəklində təvsir edilir).

Azərbaycanın ictimai-siyasi xadimləri panislamizmin mahiyyətini bütün dorinliyi ilə başa düşür və ona qarşı çıxırdılar. Ə.Ağayev (Ağaoğlu) 1905 ildə "Həyat" qəzetində (№ 51) yazırdı: "Bizdə nə panislamizmə (yəni, dünyanın cəmi müsəlmanlarının Osmanlı sultanının hökuməti-xəlifəsinə daxil olub, bir hökuməti-müstəqilliyə - islamiyyə yapmaq fıkri), nə İran və nə Osmanlıya meyl var. Qətiyyən və birdəfəlik cavab veririk ki, panislamizm ittihamı bir mövhumi, xəyali ittiham olub, sidq və gizbini-zahirlərə sübut etmək mümkün olmadığından dəni və biinsaf qələm üçün böyük meydan verir". Lakin bütün bunlara baxmayaraq, müsəlman xalqlarının dirçəlişinə düşmən qüvvələr panislamizmi əldə bayraq edərək, mütərəqqi qüvvələrə qarşı təqib və cəza tədbirlərinə əl atmışdılar. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra "panislamist" damğası repressiyalar və xalqın qabaqcıl övladlarını məhv etmək üçün başlıca ittihamlardan biri olmuşdur.

*Əd.:* Bax *"İslamçılıq"* məqaləsinin ədəbiyyatına

**PANTÜRKİZM** - antitürk qüvvələrin tükrçülüyün mahiyyətini təhrif edən mürtəce ideya-siyasi baxışlar sistemi və ona verilən ad. 19 əsrin sonları - 20 əsrin əvvəllərində türkçülük ideya-siyasi baxışlarının türk xalqları içərisində yayılması və özünə geniş tərəfdarlar toplaması ilə əlaqədar Qərbin və Rusiyanın hakim dairələrində pantürkizm doktrinası və bunu bəhanə edərək, türkçülüyə qarşı ideya-siyasi mübarizə platforması hazırlandı. Qərbin antirus, sonra isə antisovet dövlətləri burada yaşayan türk xalqlarının birlik ideyasından çarizmə, onun devrilməsindən sonra isə sovet hakimiyyətinə qarşı istifadə etməyə çalışırdı. Çar Rusiyası və onun xarabalıqları üzərində qurulan sovet hakimiyyəti bir tərəfdən, beynəlxalq aləmdə, digər tərəfdən, daxildə türk xalqlarının birlik ideyasını pantürkizm adı altında damğalamağa çalışırdı. Türkçülər "pantürkist" adı ilə təqib edilirdi. Sovet dövründə, xüsusilə 1920-30 illər repressiyaları zamanı "pantürkist" ittihamlarından Azərbaycan xalqının qabaqcıl oğullarını - Hüseyn Cavid, Mikayıl Müşfiq, Salman Mümtaz, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad, Tağı Şahbazi, Bəkir Çobanzadə və b. məhv etmək üçün geniş istifadə olunmuşdu. Sovet hakimiyyəti illərində Azərbaycan SSR-in müxtəlif dövlət və hakimiyyət strukturlarında yuva salmış ennəni millətçiləri də Azərbaycanın görkəmli ziyalılarını ləkələyib aradan götürmək üçün "pantürkist" damğasından geniş istifadə etmişdir.

*Əd.:* Bax *"Türkçülük"* məqaləsinin ədəbiyyatına

**PARİS SÜLH KONFRANSI (1919-20)** - Birinci dünya müharibəsində (1914-18) qalib gəlmiş dövlətlərin məğlub dövlətlərlə sülh müqavilələrini hazırlamaq və bağlamaq üçün çağırdıqları beynəlxalq konfrans. Fasilələrlə 1919 il yanvarın 18-dən 1920 il yanvarın 21-dək davam etmişdir. Əvvəlcə konfransda 27 dövlətin nümayəndələri iştirak edirdi. Sonra iştirakçıların sayı tədricən artdı. Dövrün ən tanınmış dövlət xadimləri, siyasətçiləri, diplomatları, hərbçiləri konfransın rəhbər heyətində və işçi qruplarında təmsil olunmuşdular.

Fransanın baş naziri J.Klemanso konfransın prezidenti, ABŞ-ın dövlət katibi R.Lansinq, Böyük Britaniyanın baş naziri D.Lloyd Corc, Orlando (İtaliya) və Sayandzi (Yaponiya) vitse-prezidentləri seçildilər. J.Klemanso, D.Loyd Corc və ABŞ prezidenti V.Vilsondan ibarət "böyük üçlük" yaradıldı. Onlar - Dördlər və Beşlər Şuraları konfransın əsas işçi orqanları idi. Birinci dünya müharibəsindən sonra dövrün ən mühüm məsələləri, müharibədən sonrakı yenidənqurma, məğlub dövlətlərlə sülh müqavilələrinin bağlanması, o zaman deyildiyi kimi, "rus məsələsi" və digər məsələlər konfransın gündəliyinə çıxarılmışdı.

Dağılmış Rusiya imperiyasının ərazisində yeni yaranmış müstəqil milli dövlətlər kimi, Azərbaycan Xalq Cümhuriyyəti də dünya dövlətləri tərəfindən tanımaq, beynəlxalq birliklərin bərabərhüquqlu üzvü olmaq, respublikanın suverenliyini və ərazi bütövlüyünü təmin etmək baxımından Paris Sülh Konfransına böyük ümid bəsləyirdi.

downloaded from KitabYurdu.az



Azərbaycan nümayəndə heyəti Parisdə. Soldan Abbas bəy Atamalıbəyov, Məmməd bəy Məhərrəmov, Əlimərdan bəy Topçubaşov, Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Mir Yaqub Mehdiyev. 1919

*Azərbaycan nümayəndə heyəti Parisdə. Soldan Abbas bəy Atamalıbəyov, Məmməd bəy Məhərrəmov, Əlimərdan bəy Topçubaşov, Əkbər ağa Şeyxülislamov, Ceyhun bəy Hacıbəyli, Mir Yaqub Mehdiyev. 1919*

Azərbaycan hökumətinin nümayəndələri Qafqazdakı müttəfiq qoşunlarının komandanı general V.Tomsonla danışıqlar zamam Azərbaycanın beynəlxalq sülh konfransında iştirakına təminat almışdılar. Britaniya hökumətinm Bakıya gələn rəsmi nümayəndəsi general Corc Miln də öz bəyanatlarında bunu təsdiqləmişdi. General Tomson Azərbaycan hökumətinə yazılı şəkildə bildirmişdi ki, bütün mübahisəli ərazi məsələləri sülh konfransımn qəran ile həll ediləcəkdir.

Bu məqsədlə 1918 il dekabrın 26-da təşkil olunmuş yeni Azərbaycan hökumətinin ilk addımı dekabrın 28-də Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyənləşdirmək oldu. Azərbaycan parlamentinin sədri Əlimərdan bəy Topçubaşov sülh konfransına gedəcək heyətin başçısı, Məmməd Həsən Hacınski isə onun müavini təyin edildi. Nümayəndə heyətinə iki nəfər parlament üzvü - Əhməd Ağayev və Əkbər ağa Şeyxülislamov daxil idi. Mir Yaqub Mehdiyev, Ceyhun Hacıbəyli və Məhəmməd Məhərrəmovdan ibarət məsləhətçilər müəyyən olundu.

1919 il yanvarın 4-də Bakıdan yola düşən nümayəndə heyəti Tiflisdə və Batumda bir sıra ciddi görüşlərdən sonra yanvarın 20-də İstanbula çatdı. Nümayəndə heyəti aym 22-də burada Ə.Topçubaşovun sədrliyi ilə ilk iclasını keçirdi və iş bölgüsü apardı. İclasda nümayəndə heyətinin tərkibinə texniki işçilər - ekspertlər (Əli bəy Hüseynzadə və V.Marçevski), katiblər (Səffət Məlikov və Ələkbər bəy Topçubaşov), tərcüməçilər - A.Qafarov (fransız dili), Q.Qafarova (ingilis dili), H.Məmmədov (fransız və türk dilləri), sədrin şəxsi katibi (Rəşid bəy Topçubaşov) də qatıldılar.

*Əlimərdan bəy Topçubaşovun Paris Sülh Konfransı sədrinə Azərbaycanın müstəqilliyinin tanınması barədə məktubu. 1919, 31 may*



PRÉSIDENT DE LA DÉLÉGATION DE PAIX
DE LA
REPUBLIQUE D'AZERBAIDJAN

Lakin Azərbaycan nümayəndələri elə ilk gündən Parisə getməkdə ciddi çətinliklərlə üzləşdilər. Nümayəndə heyətinin iki üzvü - Ə.Hüseynzadə və Ə.Ağayev İstanbulda müttəfiqlər tərəfindən həbs edildi. Ə.Hüseynzadəni həbsdən azad etdirmək mümkün olsa da, Parisə getməyə viza verilmədi. Ə.Ağayev isə Malta adasına sürgün olundu.

Azərbaycan nümayəndə heyəti Parisə getmək üçün 3 ay İstanbulda viza gözləməli oldu. Bu müddətdə İstanbulda böyük dövlətlərin ali komissarlarına, Sülh konfransının sədrinə və həmsədrlərinə, digər rəsmi orqanlara müraciət edildi. Nəhayət, Azərbaycan nümayəndələri aprelin 22-də İstanbuldan Parisə yola düşdülər.

Parisə gəldikdən sonra nümayəndə heyətinin ilk mühüm işi ***"Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris sülh konfransına memorandumu "*** adlı sənədi konfransını keçirildiyi ingilis və fransız dillərində hazırlayıb nəşr etdirmək oldu. 50 səhifədən və on dörd bölmədən ibarət olan memorandumda Azərbaycanın tarixi, coğrafıyası, mədəniyyəti, iqtisadiyyatı, müasir durumu haqqında ənümumi məlumatlar toplanmışdı.

Nümayəndə heyəti may ayı ərzində Polşa, Gürcüstan, Dağlılar Respublikası, Ermənistan və İran nümayəndələri ilə görüşlər keçirdi. Mayın 23-də ingilis nümayəndə heyətinin üzvü ser Luiz Malletlə görüş oldu. Ayın 28-də, Cümhuriyyətin birinci ildönümü günü ABŞ prezidenti V.Vilson Ə.Topçubaşov başda olmaqla, Azərbaycan nümayəndələrini qəbul etdi. Ə.Topçubaşov ABŞ prezidentinə Azərbaycan haqqında geniş məlumat verərək, bu barədə müxtəlif arayışları, ölkənin sülh konfransından tələblərini ona təqdim etdi. Altı bənddən ibarət olan bu sənəddə

downloaded from KitabYurdu.az

Azərbaycanın müstəqilliyinin tanınması; Vilson prinsiplərinin Azərbaycana da şamil edilməsi; Azərbaycan nümayəndələrinin sülh konfransına buraxılması; Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul olunması; ABŞ hərbi departamentliyinin Azərbaycana hərbi yardım gostərməsi; ABŞ-la Azərbaycan arasında diplomatik münasibətlərin qurulması xahiş edilirdi. Danışıqlar zamanı Qafqaza xüsusi Amerika missiyası göndərmək barədə razıhq əldə edildi. Lakin bu missiya Bakıya xeyli gec, 1919 ilin oktyabrında gəlib çatdı. Azərbaycan nümayəndələrinin prezident V.Vilson tərəfindən qəbul edilməsi əhəmiyyətli hadisə idi.

Paris Sülh Konfransının Ali Şurası may ayı ərzində "rus məsələsi"ni iki dəfə müzakirə edərək, 1919 il 26 may və 12 iyun. tarixli notaları ilə admiral Kolçak hökümətini ümumrusiya höküməti kimi tanıdı. Parisə gəlmiş yeni dövlətlərin nümayəndələri Kolçak hökumətinin tanınmasını etirazla qarşıladı. İyunun 18-də Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belarusiya və Ukrayna nümayəndələri tərəfindən imzalanmış etiraz Bəyannaməsi ABŞ prezidenti V.Vilsona təqdim edildi.

Parisdə olan Qafqaz təmsilçiləri (Azərbaycan, Gürcüstan, Dağlılar Respublikası) iyunun 15 və 18-də Azərbaycan nümayəndə heyətinin yerləşdiyi "Klaric" mehmanxanasında Denikin təhlükəsini müzakirə edib, iyunun 23-də sülh konfransına etiraz notası verdilər.

Xaricdəki rus siyasi mühacirlərinin fəallaşması və yeni yaranmış dövlətlərə qarşı mürtəce mövqe tutması, şimaldan Denikin təhlükəsinin artması avqustun 19 və 26-da Azər-baycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin Sülh konfransının sədrinə, Britaniya xarici işlər naziri A.Balfura, oktyabrın 9-da yenidən konfransın sədrinə məktubla müraciəti ilə nəticələndi. İngilis komandanlığının Qafqazdan getmək ərəfəsində Xəzər donanmasının bir hissəsini Denikinə verməsinə etiraz əlaməti olaraq Ə.Topçubaşov xarici işlər naziri A.Balfura xüsusi məktubla müraciət etdi.

Azərbaycan nümayəndə heyətinin qarşısında duran mühüm məsələlərdən biri ermənilərin qondarma "Böyük Ermənistan" iddialarına qarşı mübarizə idi. Ermənilər özlərini "böyük müttəfiqlərin kiçik müttəfiqi" hesab edib, Aralıq dənizindən Qara dənizə, Qara dənizdən Xəzər dənizinə qədər "Böyük Emıənistan" yaratmaq xülyasına düşmüşdülər. Onlar nəinki Anadolunun 6 vilayətinə, eyni zamanda, Kilikiyaya, hətta Cənubi Azərbaycanının bir hissəsinə də iddia edirdilər. Paris, London, xüsusilə Vaşinqton onların əsassız iddialarını müdafıə edirdi. Ermənilərin sülh Konfransına təqdim etdiyi tələblər ucsuz-bucaqsız ərazilərlə yanaşı, böyük məbləğdə təzminat ödənilməsini də nəzərdə tuturdu. Azərbaycan nümayəndə heyəti bu tələblərlə bağlı xüsusi bəyanatla çıxış etdi. 1919 ilin iyununda Azərbaycan nümayəndələri İrəvan Müsəlman Milli Şurasının İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında hazırladığı məlumatı Avropa və Amerika dövlətlərinin Parisdəki nümayəndələrinə çatdırdı. Məlumatda qeyd edilirdi ki, mübahisəli ərazilər nəzərə alınmadan, azərbaycanlılar Ermənistan əhalisinin yarısını təşkil etsələr də, ən adi insan hüquqlarından məhrumdurlar.

1919 ilin yayında Azərbaycanın hökumətinin qətiyyəti nəticəsində Azərbaycan Cümhuriyyətinin Qarabağda suveren hüquqları bərpa edildikdən sonra Ə.Topçubaşovun Paris Sülh Konfransının sədrinə təqdim etdiyi məlumatda göstərilirdi ki, "Qarabağın erməni əhalisinin nümayəndələri bu əhalinin Azərbaycan hökumətinə tabe olması haqqında qətnamə qəbul etmişlər".

Paris Sülh Konfransında müzakirə edilən məsələlərdən biri də mandatlıq məsələsi idi. Vilson layihəsi əsasında təşkil edilən Millətlər Cəmiyyəti nizamnaməsinin 22-ci maddəsi mandatlıq sisteminin təsis olunması üçün hüquqi baza yaradırdı. Azərbaycanın mandatlıq sisteminə marağı xeyli dərəcədə xarici təhlükə ilə bağlı idi. Xüsusilə Azərbaycana formaca fərqli, mahiyyətcə isə eyni münasibət böyük dövlətlərin simasında himayəçi axtarışını zərurətə çevirmişdi. 1919 ilin iyul-avqust aylarında Azərbaycan, Gürcüstan və Dağlılar Respublikasının Parisdəki nümayəndələrinin Qafqazda Britaniya və İtaliya himayədarlığının perspektivləri ilə bağlı keçirdikləri müzakirələrdə Azərbaycan nümayəndələri Britaniya təhlükəsizlik sisteminə daxil olmağa daha çox üstünlük verirdilər. Lakin avqustun 25-də ingilis qoşunları Azərbaycanını tərk etdikdən sonra oriyentasiya məsələsi yenidən gündəliyə gəldi.

Qafqaz və Azərbaycanın mandatına maraq göstərən dövlətlərdən biri də ABŞ idi. 1919 il iyulun 5-də amerikalı polkovnik Haskel Onlar Şurasının qərarı ilə Ermənistana ali komissar təsdiq edildi (bax *"Haskel layihələri")*. Avqustun 28-də Haskel Bakıya gələrək, baş nazir Nəsib bəy Yusifbəyli ilə danışıqlarda Qarabağ və Zəngəzuru Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab etməklə yanaşı, Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaratmaq ideyasını da irəli sürdü (bax *Naxçıvanda Amerika general-qubernatorluğu)*. Bu ideya Azərbaycan hökuməti, yerli əhali, son nəticədə, sülh konfransı tərəfindən qəbul olunmadı. Parisdə olan Ə.Topçubaşov bu məsələ ilə bağlı sülh konfransının sədrinə etiraz notası təqdim etdi.

ABŞ prezidenti V.Vilsonun tapşırığı ilə 1919.ilin payızında general Harbordun baçşılığı ilə Anadoluya və Cənubi Qafqaza missiya göndərildi (bax *Harbord missiyasi)*. Amerika missiyası İrəvan və Tiflisdən sonra, oktyabrın əvvəllərində Bakıya gələrək, baş nazir N.Yusifbəyli və digər rəsmi şəxslərlə görüşlər keçirdi. Oktyabrın 16-da Parisə dönən Amerika missiyası ABŞ Dövlot Katibinin müavini F.Polka, az sonra Dövlət Departamentinə və prezident V.Vilsona geniş hesabat təqdim etdi. Bu hesabat Qafqaz mandatının götürülməsinin əleyhinə idi. 1919 ilin payızında Versalda olan Azərbaycan nümayəndələri Avropanın müxtəlif ölkələrində təbliğat işlərini xeyli genişləndirdilər. ABŞ-da lobbi qrupunun yaradılması istiqamətində ilk addımlar atıldı. Ağqvardiyaçı rus generallarının məğlubiyyətindən sonra, 1919 ilin payızından başlayaraq Versal Ali

downloaded from KitabYurdu.az

Şurasının, xüsusilə B.Britaniyanın Qafqaza, ilk növbədə, Azərbaycana marağı artırdı. Britaniyanın baş naziri 1919 ilin noyabrında parlamentin icmalar palatasındakı çıxışında Azərbaycanın və Gürcüstanın tanınması ideyasını irəli sürdü. 1919 ilin noyabr-dekabrında beynəlxalq şəraitin yeni yaranmış dövlətlərin xeyrinə dəyişdiyini nəzərə alaraq, Azərbaycan nümayəndələri respublikanın Millətlər Cəmiyyətinə qəbul olunması barədə memorandum hazırlayıb cəmiyyətin katibliyinə təqdim etdilər.

1920 ilin yanvarında Qafqazda bolşevik təhlükəsinin reallaşması Antanta dövlətlərini ciddi düşünməyə vadar etdi. Azərbaycanın müstəqilliyinin tanınması təxirəsalınmaz vəzifəyə çevrildi. Bu məqsədlə B.Britaniyanın təşəbbüsü ilə yanvarın 10-da Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Fransa Xarici İşlər Nazirliyində keçirilən sessiyada Cənubi Qafqaz dövlətlərinin məsələsi çox geniş müzakirə edildi. B.Britaniyanın baş naziri D.Loyd Corc Qafqazdakı vəziyyət barədə ətraflı məlumat verdi. Yanvarın 11-də Versal Ali Şurasının iclasında B.Britaniyanın xarici işlər naziri C.Kerzonun təklifi ilə Ali Şura Azərbaycanın müstəqilliyini de-fakto tanıdı (bax *Müstəqilliyin de-fakto tanınması).* Ali Şuranın qərarında deyilirdi: "Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində tanıyırlar".

Yanvarın 15-də Azərbaycan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət edildi. İngilis nümayəndəsi Filipp Kerrin və İtaliya nümayəndəsi Markiz de-la Torretanın iştirakı ilə nazirliyin baş katibi Jül Kambon Azorbaycanın Paris sülh konfransı tərəfindən de-fakto tanınması barədə rəsmi qərarı Ə.Topçubaşova təqdim etdi. Həmin günün ikinci yarısı B.Britaniya hərbi naziri U.Çörçill, feld-marşal H.Vilson, admirallığın birinci lordu U.Lanq, admiral lord Bitti, marşal Foş və digərlərinin iştirakı ilə Azərbaycana hərbi yardım göstərmək məsələsi müzakirə olundu.

Yanvarın 17-də Azərbaycan nümayəndələrinin iştirakı ilə "Klaric" mehmanxanasında feldmarşal H.Vilsonun sədrliyi ilə hərbi ekspertlərin müşavirəsi oldu. Müşavirə dövlət başçılarının yanvarın 19-da keçiriləcək iclasına təkliflər hazırlamalı idi. Yanvarın 19-da Ali Şuranın iclasında Lloyd Corc, Klemanso, Nitti, Kambon, Kerzon, Çörçill, Foş, Bitti, Vilson və digər tanınmış dövlət xadimləri və Azərbaycanın nümayəndə heyəti tam tərkibdə iştirak edirdi. İclasda müttəfiqlərin hərbi ekspertlər şurasının məruzəsi ilə çıxış edən marşal F.Foş müttəfiqlərin bir neçə diviziyasının Qafqaza göndərilməsinin zəruri olduğunu bildirdi. Lloyd Corc hərbi ekspertlərin təklifinə etiraz edərək, Azərbaycana silah və hərbi sursat verilməsi ilə yardım göstərilməsinə tərəfdar oldu. Bununla da, sülh konfransı öz işini başa çatdırdı.

Beləliklə, 1920 ilin yanvarında Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin siyasi cəhətdən tanın-ması, Ə.Topçubaşov başda olmaqla, Azərbaycan numayəndə heyətinin, bütövlükdə, Cümhuriyyət hökumətinin uğurlu diplomatik fəaliyyətinin nəticəsi idi. Azərbaycan Versal Ali Şurasının tanıdığı ilk türk və müsəlman respublikası idi.

*Əd.:* Azərbaycanın tarixi, 7 cilddə, c.5, B., 2001; Hacıbəyli C, İlk Müsəlman Respublikası Azərbaycanın, Paris, 1919; Rəsulzadə M.Ə., Azərbaycanın Cümhuriyyəti. B., 1990; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti, 1918-1920, B., 1996; Mir Yaqub, Qafqaz problemi, Paris, 1933; *Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; Раевский А., Мусаватское правительство на Версальской конференции. Донесения представителей Азербайджанской Мусаватской делегации, Б., 1931.

**PARİS SÜLH KONFRANSI ALİ ŞURASININ 1920 İL 19 YANVAR TARİXLİ QƏRARI** - müttəfiq dövlətlərin Cənubi Qafqaz respublikalarına hərbi yardım göstərmək barədə qərarı. 1919 ilin sonu - 1920 ilin əvvəllərində sovet Rusiyasının hərbi uğurları nəticəsində Denikin qüvvələri darmadağın edilmişdi. Qırmızı ordu hissələri Şimali Qafqaz ərazisinə soxularaq, sürətlə Cənubi Qafqazdakı müstəqil dövlətlərin sərhədlərinə yaxınlaşırdı. "Dünya inqilabı" şüarını xarici siyasət fəaliyyətinin əsas prinsipinə çevirmiş sovet Rusiyası 1920 ilin əvvəllərindon başlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinə diplomatik təzyiqləri daha da artırmışdı. Yeni yaranmış digər gənc dövlətlər kimi, Azər-baycan Xalq Cümhuriyyətinin də bolşevik təhlükəsinə qarşı təkbaşına mübarizə aparması qeyri-mümkün idi. Əlimərdan bəy Topçubaşovun baçşılığı ilə Paris sülh konfransında

*Əlimərdan bəy Topçubaşovun Paris Sülh Konfransındakı B.Britaniya nümayəndə heyətinə məktubu. 1919, 25 iyul*


Délégation britannique
Paris
25 Juillet 1919.

Monsieur

Je suis Monsieur
Votre très obéissant
et humble serviteur

PRÉSIDENT DE LA DÉLÉGATION DE PAIX
DE LA
RÉPUBLIQUE D'AZERBAIDJAN

Claridge's Hotel

downloaded from KitabYurdu.az

(1919-20) iştirak edən nümayəndə heyəti böyük dövlətlərdən Azərbaycan Xalq Cümhuriyyətinə dərhal hərbi yardım göstərilməsini xahiş etmişdi. Böyük dövlətlərin başçıları aydın dərk edirdilər ki, sovet Rusiyasının təcavüzü təhlükəsi qarşısında Azərbaycanın və Gürcüstanın diplomatik baxımdan tanınması hələ kifayət deyildir. Bolşevizmin Yaxın və Orta Şərq ölkələrinə yayılmasının qarşısını almaq üçün, Azərbaycan və Gürcüstana hərbi yardım göstərilməsi böyük dövlətlərin də maraqlarına cavab verirdi. Beləliklə, 1920 il yanvarın 15-də Versalda toplanmış hərbi eskpertlər şurası Azərbaycana və Gürcüstana hərbi yardım göstərilməsi məsələsini müzakirə etdi. Məsələnin ciddiliyini nəzərə alan B.Britaniya özünün yüksək rütbəli hərbçilərini - hərbi nazir U.Cörçilli, imperiya baş qərargahının rəisi feldmarşal H.Vilsonu, admirallığın birinci lordu U.Lonqu, admiral lord Bittini və b. Parisə göndərmişdi. Fransanın baş naziri J.Klemansonun tapşırığı ilə Fransa xarici işlər nazirliyinin baş katibi Jül Kambon həmin gün Azərbaycan və Gürcüstan nümayəndələri ilə görüşərək, onların bolşevik təcavüzü təhlükəsi ilə əlaqədar fikirlərini öyrənmişdi. Kambon bu respublikaların hərbi, maliyyə və b. yardımlara ehtiyacları olması barədə Klemansoya məlumat versə də, Klemanso həmin məlumatları qənaətbəxş hesab etməmiş və yanvarın 16-da hərbi ekspertlərin onun sədrliyi ilə keçirilən müzakirələrinin yanvarın 17-də H.Vilsonun sədrliyi ilə aparılacaq iclasda Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirakı ilə davam etdirilməsini zəruri saymışdı. Yanvarın 17-də keçirilən iclasda Azərbaycana və Gürcüstana yardım göstərilməsi məsələsi müzakirə olunsa da, müttəfiqlərin Qafqaza hərbi qüvvə göndərməsi məsələsinə toxunulmadı. Yanvarın 19-da İngiltərə, Fransa, İtaliya və digər dövlətlərin hökumət başçılarının iştirakı ilə Paris Sülh Konfransı Ali Şurasının iclasında Cənubi Qafqaz respublikalarının vəziyyəti müzakirə olundu. Marşal F.Foş müttəfiqlərin hərbi ekspertlər şurasının məruzəsi ilə çıxış etdi. İclasda ciddi mübahisə doğuran məsələ bu respublikalara göstəriləcək yardımın hansı formada və səviyyədə olması ilə bağlı idi. F.Foş, H.Vilson, U.Çörçill, J.Klemanso Conubi Qafqaza ordu göndərilməsində israrlı olduqları halda, Böyük Britaniyanın və İtaliyanın baş nazirləri Lloyd Corc və Nitti yalnız hərbi sursat verilməsini zəruri hesab edirdilər.

Lloyd Corcun Azərbaycana və Gürcüstana göndəriləcək yardımla bağlı sualına hər iki nümayəndəlik adından İ.Sereteli cavab verdi. O, bildirdi ki, müttəfiqlərin yardımına böyük ehtiyac vardır və daha faydalı olardı ki, ordu göndərilsin. Lloyd Corcun Azərbaycanın silahlı qüvvələri haqqında sorğusuna cavab verən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin müşaviri M.Məhərrəmov zəruri silah-sursatın olacağı təqdirdə Azərbaycanın qısa müddətdə 100 min nəfəri orduya səfərbər edə biləcəyini bildirdi. Əlimərdan bəy Topçubaşov Ənzəlidəki ingilis donanmasının Bakının müdafiəsinə mühüm yardım göstərə biləcəyini nəzərə çatdırdı. O, həmçinin sovet Rusiyası ilə Cənubi Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublikasının müttəfiqlər tərəfindən de-fakto tanınmasını təklif etdi. İclasa yekun vuran Lloyd Corc Cənubi Qafqaza ordu göndərilməsinin qeyri mümkünlüyünü, yardımın yalnız silah-sursat formasında olmasının vacibliyini bildirdi. O, açıq bəyan etdi ki, bu respublikalar hərbi qüvvələrini möhkəmləndirmək üçün özləri ciddi tədbirlər görməlidirlər. 19 yanvar iclasında Qafqaz məsələsinə dair 4 bənddən ibarət qərar qəbul edildi: 1) Ermənistan və Dağıstan de-fakto tanınmalıdır. Qorar Türkiyə ilə bağlı aparılacaq müzakirələrdə Ermənistanın sərhədləri məsələsinə toxunmur; 2) müttəfiq dövlətlər Cənubi Qafqaz respublikalarına ordu göndərmək imkanına malik deyillər;

3) müttəfiqlər Cənubi Qafqaz respublikalarına silah, hərbi sursat və ərzaq göndərməklə yardım göstərəcəklər;

4) marşal Foşdan və feldmarşal Vilsondan Cənubi Qafqaz respublikalanna göndəriləcək hərbi sursatın konkret şəkildə nədən ibarət olacağı və hansı yolla çatdırılacağı məsələlərinə baxmaları xahiş edilirdi.

Paris Sülh Konfransı Ali Şurasının 1920 il 19 yanvar tarixli bu qərarı ilə müttəfiqlər, əslində, Azərbaycana və Gürcüstana bolşevik təcavüzü qarşısında kömək göstərmədilər. Bu məsələni daim diqqət mərkəzində saxlayan sovet Rusiyası Parisdə aparılan müzakirələrin məhz bu cür sonluqla bitməsini razılıqla qarşıladı. Bu qərarla böyük dövlətlər Sovet Rusiyasının keçmiş çar Rusiyası sərhədlərini yenidən bərpa etmək səylərini de-fakto tanımış oldular. Qərar Azərbaycan və Gürcüstanın müstəqil dövlətlər kimi aradan qaldırılmasına yol açdı.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; Azərbaycanın tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti, 1918-1920, B., 1996.

**PARİS SÜLH KONFRANSINA GÖNDƏRİLƏCƏK AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN MÜƏYYƏN EDİLMƏSİ HAQQINDA QƏRAR-** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Parlamentin Ağsaqqallar Şurasının üzvləri ilə birlikdə 1918 il dekabrın 28-də qəbul etdiyi sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbulda olan Əlimərdan bəy Topçubaşov. 1918 il dekabrın 16-da Nazirlər Şurasının sədrinə yazdığı məktubunda Azərbaycanın qarşıdakı beynəlxalq sülh konfransında iştirakının çox mühüm məsələ olduğunu vurğulamış, nümayəndə heyətinin təşkilinə və lazımi materialların toplanmasına yubanmadan başlamağa çağırmışdı. Fəaliyyətini yenidən bərpa etmiş Azərbaycan Milli Şurası da beynəlxalq sülh konfransına ciddi hazırlaşmağı zəruri hesab edirdi. Azərbaycanın hökuməti, yenicə işə başlayan Azərbaycan Parlamenti bu istiqamətdə yekdil mövqedə idilər. Parlament ilk iclaslarında dünya parlamentlərinə, həmçinin Amerika Birləşmiş Ştatları prezidenti V.Vilsona müraciətlə Azərbaycanın istiqlaliyyətinin tanınmasını xahiş etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetində Paris Sülh Konfransına hazırlıq

downloaded from KitabYurdu.az

məsələsi geniş müzakirə olunurdu. İlk növbədə, Qərbi Avropa ölkələrinə və ABŞ-a xüsusi nümayəndəlik göndərilməsi təklif edilirdi. Nümayəndəliyin qarşısında ölkənin müstəqilliyinin tanınmasına nail olmaq, Azərbaycan Xalq Cümhuriyyətinin Paris sülh konfransında bərabərhüquqlu iştirakını təmin etmək, beynəlxalq ictimai fıkri Azərbaycan barədə məlumatlandırmaq, ticari-iqtisadi əlaqələr qurmaq və s. kimi vəzifələr qoyulurdu. Azərbaycan hökuməti 1918 ilin noyabrında Avropaya və ABŞ-a fövqəladə nümayəndəlik göndərmək üçün 2,5 milyon manat həcmində vəsait ayırmışdı. Paris sülh konfransının açılmasına az vaxt qaldığından hökumət nəzərdə tutulan vəzifələri bu konfransa gedəcək nümayəndə heyətinə həvalə etmək istəyirdi. 3-cü kabinənin təşkili başa çatan kimi, hökumətin ilk addımı beynəlxalq konfransda iştirak üçün Avropaya gedəcək nümayəndə heyətinin seçilməsi haqqında qərar qəbul etməsi oldu. Hökumətin həmin qərarı ilə parlamentin sədri Əlimərdan boy Topçubaşov nümayəndə heyətinin rəhbəri, hökumət üzvü Məmməd Həsən Hacınski onun müavini, parlament üzvləri Əhməd bəy Ağayev və Əkbər ağa Şeyxülislamov heyətin üzvləri, Mir Yaqub Mehdiyev, Məhəmməd Məhərrəmov və Ceyhun Hacıbəyli məsləhətçi təyin edildilər. Ə.Topçubaşov Bakıda olmadığından, İstanbula çatana qədər M.H.Hacınski nümayəndə heyətinə başçılıq etməli idi. Parisə səfəri asanlaşdırmaq üçün V.Tomson nümayəndə heyətinə öz imzası ilə rəy məktubu vermişdi. Xarici işlər nazirliyinin qərarı ilə heyət sədrinin müavini M.H.Hacınskiyə 150 min manat pul verilmiş, həmçinin Avropa və Amerikaya nümayəndəlik göndərmək üçün ayrılmış 2,5 milyon manat vəsait nümayəndəliyin hesabına keçirilmişdi. Azərbaycanın sülh nümayəndə heyəti 1919 il yanvarın 10-da Tiflis-Batum-Poti yolu ilə Avropaya yola düşdü (Ə.Topçubaşov İstanbulda nümayəndə heyətinə qoşulmalı idi). Baş nazir Fətəli xan Xoyski ilə birlikdə hökumət üzvləri, parlamentin deputatları, ictimaiyyətin nümayəndələri, nümayəndə heyətini yola saldılar. Parlament üzvləri Məhəmməd Əmin Rəsulzadə və Əhməd Cövdət Pepinov, nümayəndə heyəti adından isə Əhməd bəy Ağayev çıxış etdilər. Bax həmçinin *Paris sülh konfransı (19/9-1920).*

*Əd.*: H ə s ə n o v C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; *Азербайджанская Демократическая Республика* документы и материалы (1918-1920 гг.) Законодательные акты (сборник документов), Б., 1998; Дипломатические беседы А.А. Топчибашева в Стамбуле (записи чрезвычаиного посланника и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг., Б., 1994.

**PARLAMENT FRAKSİYALARI** Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində siyasi partiya və qrupları təmsil edən qurumlar. Parlamentdə aşağıdakı fraksiyalar vardı: "Müsavat" və bitərəflər fraksiyası, "İttihad" fraksiyası, "Əhrar" fraksiyası, Sosialistlər fraksiyası, Bitərəflər fraksiyası, Müstəqillər fraksiyası, Sol müstəqillər fraksiyası, "Slavyan-rus cəmiyyəti" fraksiyası, Milli azlıqlar fraksiyası, Erməni fraksiyası, "Daşnaksutyun" fraksiyası (bax *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti).*

**PARLAMENT KOMİSSİYALARI** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin komissiyaları. Parlamentin müzakirəsinə təqdim olunan qanun layihələri əvvəlcə onun bu və ya digər komissiyasında müzakirə olunur, lazım gəldikdə, yenidən işlənmək üçün geri qaytarılırdı. Parlamentin ümumi iclasının müzakirəsinə yalnız tam hazır vəziyyətdə olan qanun layihələri çıxarılırdı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində 11 komissiya fəaliyyət göstərirdi: - maliyyə-büdcə komissiyası, qanunvericilik təklifləri komissiyası, Müəssislər məclisinə seçkilər ke-çirmək üzrə mərkəzi komissiya, mandat komissiyası, hərbi işlər üzrə komissiya, aqrar məsələlər üzrə komissiya, sorğular üzrə komissiya, təsərrüfat-sərəncamverici məsələlər üzrə komissiya, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət komissiyası, fəhlə məsələləri üzrə komissiya və nəşriyyat-redaksiya komissiyası.

Komissiyalar parlamentin ümumi iclasında *Parlament fraksiyaları* üzvlərindən təşkil olunmuşdu. Komissiyalara onun üzvləri arasından seçilmiş sədrlər rəhbərlik edirdilər.

*Əd.:* Azərbaycanın Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998; Paşayev A., Açılmamış səhifələrinin iziilə, B., 2001.

**PARLAMENT ÜZVÜNÜN EYNİ ZAMANDA DÖVLƏT QULLUQÇUSU OLA BİLMƏMƏSİ HAQQINDA QANUN** - 1919 il yanvarın 25-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul edilmiş sənəd. Qanunda deyilirdi ki, parlamentin üzvü eyni zamanda dövlət qulluqçusu ola bilməz. Bununla yanaşı, dövlət qulluğunda çalışan, lakin dövlət məmuru sayılmayan azad peşə sahibləri üçün istisna nəzərdə tutulmuşdu.

**PARLAMENTİN MÜHAFİZƏ DƏSTƏSİ** Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin mühafizəsini təmin edən dəstə. Parlamentin 1919 il fevralın 18-də qəbul etdiyi qanuna əsasən yaradılmışdır (bax *Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin mühafizə dəstəsi).*



**PEPİNOV** Əhməd bəy Ömər oğlu, Pepinov Əhməd Cövdət (1893,Gürcüstanın Axalkələk mahalının Bolazurk. 1938)-ictimai-siyasi və dövlət xadimi. Görkəmli Azərbaycan jurnalisti və ictimai xadimi Ömər Faiq Nemanzadənin bacısı oğludur. Tiflis gimnaziyasını bi tirmiş, 1913 ildə Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuş, eyni zamanda, iqtisadiyyat fakültəsində də oxumuşdur. Təhsil illərində "Azərbaycan həmyerlilər təşkilatı"nın rəhbərlərindən biri olmuş, "Axalkələkli Əhməd Cövdət" imzası ilə *"Açıq söz"* qəzetinə məqalələr göndərmişdir. Tələbələrin Moskvada keçirdiyi "Azərbaycan etnoqrafik konsert gecələri"ndə və digər mədəni tədbirlərdə yaxından iştirak etmişdir.

1918 ilin əvvəlində ali təhsilini başa vuraraq, Bakıya qayıdan Pepinov Cənubi Qafqazda baş verən siyasi hadisələrə fəal surətdə qoşulmuş, Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü seçilmişdir. Azərbaycan Milli Şurasının,

downloaded from KitabYurdu.az



Qurban Pirimov Varşavada "Sport-rekord" şirkəti tərəfindən qrammofon valına yazılış zamanı. 1912

sonra isə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü və katibi olan Əhməd bəy elə həmin dövrdə Parlamentin sədri vəzifəsini icra edən Həsən bəy Ağayevin qızı Xurşid xanımla (sonralar ilk azərbaycanlı qadın musiqişünas, Üzeyir Hacıbəyli haqqında ilk monoqrafiyanın müəllifi) ailə qurmuşdur.

Ə.Pepinov Parlamentin fəaliyyətində yaxından iştirak etmiş, bir sıra mühüm məsələlərin, o cümlədən Antanta dövlətləri ilə, Gürcüstan və Ermənistanla münasibətlərin, "Denikin təhlükəsi"nin müzakirəsində təmsil etdiyi sosialistlər fraksiyası adından çıxış etmiş, bir sıra qanun layihələrinin, o cümlədən parlamentin 1919 il oktyabrın 20-də qəbul etdiyi "Nəşrlər istehsah haqqında" qanunun hazırlanmasında bilavasitə iştirak etmişdir. Pepinov Azərbaycanın Müəssislər məclisinə seçkilər üzrə komissiyanın sədr müavini (sədri M.Ə.Rəsulzadə idi) seçilmişdi. Lakin "Hümmət" (menşevik) partiyasının üzvü kimi, müəyyən siyasi və iqtisadi məsələlərdə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin mövqeyi ilə razı olmamış və onun fəaliyyətini tənqid etmişdir. Nəsib bəy Yusifbəylinin təşkil etdiyi ikinci, Cümhuriyyətin isə sayca beşinci hökumət kabinəsində (24.12.1919 - 30.3.1920) Pepinov əmək və əkinçilik naziri idi. Bakı Dövlət Universitetinin təşkilində (1919) yaxından iştirak edən Pepinov Parlamentdə bu məsələ ilə bağlı müzakirələrin sürətləndirilməsinə, universitetin açılması üçün pul vəsaitinin ayrılmasına böyük əmək sərf etmişdir. Cümhuriyyət dövründə Bakıda təntənəli "Türk gecələri" konsertlərinin və digər müsamirələrin təşkili də Pepinovun adı ilə bağlıdır. İşğalçı 11-ci Qırmızı ordunun Bakıya gözlənilən yürüşünü ləngitmək məqsədilə 1920 il aprelin əvvəllərində Pepinov Parlamentin digər üzvü Rəhim bəy Vəkilovla danışıqlar aparmaq üçün Qroznı şəhərinə göndərilmişdi.

*Aprel işğalından (1920)* sonra Bakıya qayıdan Pepinov Azərbaycanda mədəni-maarif və nəşriyyat işlərinə rəhbərlik etmişdir. 20-ci illərin dövri mətbuatında onun çox sayda məqalələri dərc olunmuşdur. Təqiblərlə üzləşən Pepinov 1930 ildə Ulyanovsk şəhərinə köçməyə məcbur olmuşdur. Daha sonra Alma-Ataya (indiki Almatı) köçmüş (1934), Qazaxıstan SSR maarif nazirinin müavini işləmişdir. Repressiyaya məruz qalmışdır.

*Əd.:* Əliyev M., Əhməd bəy Pepinov, Azərbaycanın Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920) kitabında, B., 1990; Şükürоğlu L., Cümhuriyyət hökuməti repressiya mənqətəsində, B., 2000.

**PİRİMOV** Qurban Baxşəli oğlu (1880, Ağdam rayonunun Gülablı kəndi - 29.8.1965, Bakı) - musiqi xadimi, mahir tarzən. Azərbaycanın xalq artisti (1931). Məşhur tarzən Sadıq Əsəd oğlundan dərs almışdır : 1905 ildən Cabbar *Qaryağdı oğlu* ilə birlikdə geniş proqramlı "Şərq konsertləri"ndə iştirak etmiş, Qafqaz, Orta Asiya və İranda, Kiyev və Moskvada qastrol səfərlərində olmuşdur. Qurban Pirimovun ifa etdiyi bir sıra muğam 1912 ildə Varşavada "Sportrekord" şirkəti tərəfindən qrammofon valına yazılmışdır. O, Keçəçi Məhəmməd, İslam Abdullayev, Ələsgər Abdullayev kimi xanəndələri tarda müşayiət etmiş, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasında (1908) orkestrin solisti olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) Üzeyir Hacıbəyli, Müslüm Maqomayev ilə birlikdə musiqi şöbələri olan türk dram kurslarında müəllim kimi çalışmış, eyni zamanda, "*Türk gecələri* "ndə, xanəndə və çalğıçıların musiqili səhnəciklərində, el şənliklərində, xeyriyyə konsertlərində çıxışları ilə milli musiqinin inkişafında yaxından iştirak etmişdir. Qurban Pirimov yaradıcı tarzən idi. O, Azərbaycanın xalq musiqisini yaşadan, onu zənginləşdirən sənətkar olmuşdur. Xüsusilə muğam sənətinin kamil bilicilərindən və mahir ifaçılarından olan Qurban Pirimov tarın milli musiqi aləti kimi imkanlarını açmaqda və geniş-ləndirməkdə böyük xidmət göstərmişdir.



*Aprel işğalından (1920)* sonra Azərbaycan Opera və Balet Teatrı orkestrinin solisti, xalq çalğı alətləri orkestrinin konsertmeysteri olmuşdur. O, konsertlərdə solist-tarzən kimi çıxış edən ilk musiqiçilərdən idi.

*Əd.:* Bədəlbəyli Ə., Qurban Pirimov, B, 1955; Шушинский Ф., Народные певцы и музыканты Азербаиджана, М., 1979.



**PİRVERDİYEV** Hənifə Hacı Murad oğlu (1893, Tiflis - ?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı orta inşaat texniki məktəbini bitirmişdi (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini memarlıq sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi.

downloaded from KitabYurdu.az



**PİŞƏVƏRİ** Seyid Cəfər Mir Cavad oğlu Cavadzadə, Xalxali (12.6.1892, Cənubi Azərbaycan, Xalxal mahalının Zaviyə kəndi - 11.7.1947, Bakı, Fəxri Xiyabanda dəfn olunmuşdur) - ictimai-siyasi xadim. İranda (xüsusilə Cənubi Azərbaycanda) inqilabi hərəkatın görkəmli xadimlərindən biri, publisist. Yoxsul ruhani ailəsində anadan olmuşdur. İlk təhsilini doğulduğu kənddə alan Seyid Cəfər 12 yaI şında ailəsi ilə birlikdə Bakıya (Bülbülə kəndinə) köçmüşdür. 1913 ildə Xırdalan kəndində məktəb açmışdı. ildə Pişəvəri *"Ədalət"* partiyasına daxil olmuş, Nəriman Nərimanovla sıx əməkdaşlıq etmişdir. Bu dövrdə o, həm də Bakıdakı "İttihad" mədrəsəsində dərs demişdir.

1918 ildə İran "Ədalət" partiyası Mərkəzi Komitəsinin üzvü seçilmiş və partiyanın rəsmi orqanı olan "Hürriyyət" qəzetinin məsul redaktoru təyin olunmuşdur. Bununla yanaşı, "Azərbaycan füqərası", "Zəhmət sədası", "Füqəra sədası", "Bakı fəhlə konfransının əxbarı" qəzetlərində məqalələrlə çıxış etmişdir. Pişəvəri bu dövrdə Gənc İşçilər İttifaqının orqanı olan "Yoldaş" jurnalının məsul redaktoru vəzifəsində də çalışırdı. 1918-20 illərdə İranın bir sıra şəhərlərində "Ədalət"in yerli təşkilatlarının yaradılmasında yaxından iştirak etmişdir. O, irtica və imperializm, müstəmləkəçilik və despotizm əleyhinə mübarizədə İran xalqlarının ittihad və ittifaqının təmin olunmasmı başlıca şərt hesab edirdi.

1920 ilin yanvarında, eyni zamanda, "Yoldaş" jurnalının redaktoru olan Pişevəri "Yaşasın müstəqil Azərbaycan Şura Hökuməti" adlı məqalə ilə çıxış etmişdir. Pişəvəri Şura hökuməti uğrunda çıxış etsə də, o, Azərbaycanın müstəqilliyinin tərəfdarı idi.

Pişəvəri "Ədalət" partiyasının Gilan Respublikası hökumətinin sədri Kiçik xanla danışıqlar aparmaq üçün 1920 il mayın 23-də Rəştə göndərdiyi nümayəndə heyətinə başçılıq etmişdir. Uğurla keçən danışıqlardan sonra Pişəvəri Kiçik xan hökumətində xarici işlər komissarı vəzifəsinə təyin olunmuşdur. Həmin ilin iyununda İran Kommunist Partiyasının (İKP) Ənzəlidə keçirilən I qurultayında İKP MK-nın 15 üzvündən biri seçilən Pişəvəri 1922 ildə İKP MK Cənub bürosunun rəhbəri təyin edilərək, 1923 ilədək İsfahanda çalışmışdır. 1930 ilin dekabrında həbs edilmiş, 1940 ildə azadlığa buraxılaraq, Kaşana sürgün olunmuş, lakin az sonra burada yenidən tutulmuş, 1941 ilin sonlarında azadlığa buraxılmışdır.

1941-45 illərdə Cənubi Azərbaycanda demokratik hərəkatın öncüllərindən biri olmuş və Azərbaycan xalqının muxtar hüquqları uğrunda mübarizədə fəal iştirak etmişdir. 1943-45 illərdə Tehranda marksist məfkurəli "Ajir" qəzetini buraxmışdır. 1944 ildə İran Məclisinə seçilən Pişəvərinin deputatlıq mandatı məclisin mürtəce çoxluğu tərəfindən rədd edilmişdi.

1945 ildə Pişəvərinin rəhbərliyi ilə Azərbaycan Demokrat Firqəsi (ADF) təşkil olundu. Cənubi Azərbaycanda milli azadlıq hərəkatının qələbəsi nəticəsində 1945 il dekabrın 12-də (21 Azər) Təbriz şəhərində Azərbaycan Milli Məclisinin iclası açıldı. Milli Məclis Azərbaycan Milli hökumətinin təşkilini Pişəvəriyə tapşırdı. Məclis 10 nazirdən ibarət hökumətin tərkibini təsdiq etdi. Azərbaycan Milli hökuməti bir il yaşadı və İran şahlıq rejiminin hərbi təcavüzü nəticəsində 1946 il dekabrın 12-də süqut etdi.

Pişəvərinin siyasi mövqeyi İran daxilində Azərbaycanın muxtariyyəti uğrunda mübarizədən onun tam müstəqilliyi ideyasınadək yüksəlmişdir. "12 şəhrivər", "Qızıl səhifələr" adlı bədii əsərlərin müəllifı və naşiri idi. Ana dili və ədəbiyyatına, pedaqogikaya və s. məsələlərə dair məqalələrin müəllifıdir.

Əsəri: Seçilmiş əsərləri, B., 1984.

*Əd.:* İbrahimov (Şahin) T.A., İran Kommunist partiyasının yaranması, B., 1963; Cənubi Azərbaycanın ədəbiyyatı antologiyası, 3 cilddə, c.2-3, B., 1988; Vüqar Əhməd, M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı, B., 1998.


*Seyid Cəfər Pişəvəri*
*Azərbaycan Demokrat Firqəsi hökumətinin iclasını aparır*

**PİŞNAMAZZADƏ** Molla Məhəmməd Axund (1853, Gəncə - 1937, orada) - din xadimi, maarifçi, şeyxülislam. İlk təhsilini Gəncə mədrəsəsində, ali ruhani təhsilini Təbrizdə almışdı. 1883 ildə Tiflisə gələrək, ruhani şəhadətnaməsinə layiq görülmüşdü. 1892 ildə Gəncə Cümə məscidinə baş molla təyin olunmuş, bir il sonra Tiflis quberniya məclisinə üzv seçilmiş, 1895 ildə Gəncə quberniya məclisinin sədri təsdiq edilmişdi. Maarif sahəsində mühüm xidmətləri olmuş, yeni tipli məktəb açdırmış, müsəlman qızlarının təhsilinə qayğı göstərmiş, xeyriy-

downloaded from KitabYurdu.az



*M.Pişnamazzadə Gəncə ziyalıları ilə. 1906*

yəçiliklə məşğul olmuşdur. 1900 ilin dekabrında guya Türkiyə və İran hökumətləri ilə əlaqə saxladığına görə və Qafqazda Rusiya əleyhinə təbliğatda təqsirləndirilərək həbs olunmuş və Türküstana sürgün edilmişdi. 1905 ildə "Difai" partiyası yaradılarkən onun sıralarına daxil olmuş və Gəncə komitəsinin sədri seçilmişdir. 1906 ildə yenidən Gəncə qazısı seçilən Pişnamazzadə az sonra "Difai"də fəaliyyətinə görə həbs edilib, Kazana sürgün olunmuş, sürgündə olarkən dövri mətbuatda məqalələr dərc etdirmişdir. Sürgün müddəti başa çatdıqdan sonra Tiflisə qayıdaraq, 1909 il iyulun 20-də Cənubi Qafqaz müsəlmanlan şiə ruhani idarəsinin üzvü təyin edilmiş, şeyxülislamlıq və şiə ruhani idarəsi ona həvalə olunmuşdu. O, Rusiya daxili işlər nazirinin 1915 il 14 yanvar tarixli təqdimatına əsasən, imperator tərəfindən bu vəzifəyə rəsmən təyin edilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının və fəaliyyətinin ilk dövründə Pişnamazzadə müsəlman ruhani idarəsinin işinin qurulmasında yaxından iştirak etmiş, "Məşyəxəti-islamiyyə" ("Şeyxül-islam") idarəsinin həmsədri olmuşdu. 1918 il dekabrın 10-da xəstəliyinə görə öz ərizəsi ilə vəzifəsindən azad olunaraq, Gəncə Cümə məscidinin axundu təyin edilmişdi. Sovet dövründə təqiblərə və həbslərə məruz qalmışdır. Gəncədə İmamzadə qəbiristanlığında dəfn olunmuşdur.

*Əd.:* Əhədov A., Azərbaycanda din və dini təsisatlar, B., 1991; Hüseynli R., Azərbaycan ruhaniliyi, B., 2002; Məmmədzadə V., Şeyxülislam Məhəmməd Pişnamazzadə, "Azərbaycan" qəzeti, 1991, 21 noyabr.

**POÇT VƏ TELEQRAF NAZİRLİYİ,** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Poçt və Teleqraf Nazirliyi - ölkənin rabitə müəssisələrinin yaradılmasına və rabitə işinin təşkilinə rəhbərlik edən ali hakimiyyət orqanı. Əsası 1918 il mayın 28-də qoyulmuşdur; Azərbaycan Milli Şurasının tapşırığı ilə Fətəli xan Xoyskinin yaratdığı 1-ci müvəqqəti hökumət kabinəsində təsis edilmiş ilk poçt və teleqraf naziri vəzifəsinə, eyni zamanda, yollar naziri olan Xudadat bəy Məlik-Aslanov təyin edilmişdi. Həmin il iyunun 17-də F.x.Xoyskinin Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsində də hər iki vəzifənin icrası ona tapşırılmışdı. 1918 ilin sentyabrında Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət olan Qafqaz İslam Ordusu Bakını azad etdikdən sonra F.x.Xoyski hökuməti Bakıya köçdü və 1918 il oktyabrın 6-da onun 2-ci hökumət kabinəsində dəyişikliklər edilərkən, poçt və teleqraf naziri vəzifəsinin icrası Ağa bəy Aşurova həvalə olundu. Azərbaycan Cümhuriyyəti Parlamenti fəaliyyətə başlayandan sonra parlamentin tapşırığı ilə 1918 il dekabrın 26-da F.x.Xoyskinin yaratdığı üçüncü hökumət kabinəsində poçt və teleqraf naziri vəzifəsi sosialist Aslan bəy Səfikürdskiyə tapşırıldı. 1919 il aprelin 14-də və dekabrın 24-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü və 5-ci hökumət kabinələrində isə poçt və teleqraf naziri vəzifəsini sosialist Camo Hacınski tutdu.

Azərbaycan Cümhuriyyəti elan olunarkən ölkədə yaranmış xaos və anarxiya dövründə ən çox zərər çəkmiş sahələrdən biri də poçt və teleqraf xidməti idi. Bir tərəfdən, ölkə daxilində ayrı-ayrı bölgələr arasında poçt-teleqraf əlaqələri tamamilə pozulmuşdu, demək olar ki, yox dərəcəsində idi. Digər tərəfdən isə, Tiflisdə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1918 il iyunun 16-da Gəncəyə köçdükdən sonra onun digər dövlətlərlə poçt və teleqraf əlaqələri saxlamasında böyük çətinliklər meydana çıxdı. Ona görə də Cümhuriyyət hökuməti hələ Gəncədə ikən, ilk növbədə, Tiflislə rabitə yaratmaq üçün ciddi tədbirlər görməyə başladı. Nazirlik Bakıya köçəndən sonra onun fəaliyyət dairəsi daha da genişləndi; ilk növbədə, ştatı artırıldı, dəftərxanası formalaşdırıldı və yerlərdə poçt, teleqraf dairələri yaradıldı. Eyni zamanda, keçmişdə fəaliyyət göstərmiş poçt-teleqraf müəssisələri bərpa edildi, onlar poçt və teleqraf əməliyyatlanın həyata keçirməyə başladı. Poçtlar məktubların, dövri mətbuatın, korrespondensiyaların, bağlamaların, pul baratlarının daşınması işlərini sahmana salır, dağıdılmış teleqraf xətlərinin bərpası işlərini həyata keçirirdilər.

1919 ilin axırlarına yaxın Azərbaycan Xalq Cümhuriyyəti ərazisində artıq 856 nəfər xidmətçinin çalışdığı 54 poçt-teleqraf müəssisəsi bərpa olunmuş, habelə 8 nəfər xidmətçidən ibarət bir beynəlxalq teleqraf stansiyası fəaliyyət göstərirdi. Bu müddət ərzində 4252 *verst* (1 *verst* = 1,0668 *km)* teleqraf və 443 *verst* telefon xətti bərpa və təmir olunmuş, Ləki-Ağdaş, Ucar-Göyçay, Bakı-Yalama arasında telefon əlaqəsi yaradılmışdı. Qazax və Zaqatala qəzaları ərazisində də bu əlaqələr yaradılmaqda idi. Bundan əlavə, bir teleqraf stansiyası açılmış, 33 nəfərin xidmət etdiyi radiostansiya yaradılmışdı. Nazirlik poçt-teleqraf məktəbi açmış və 1919 il sentyabrın 1-də 24 nəfər bu məktəbin tam kursunu bitirmişdi. Bundan əlavə, Gürcüstan və Ermənistan respublikaları ilə poçt və teleqraf əlaqələrinə dair sazişlər imzalanmış, habelə Batumdakı ingilis komandanlığının vasitəçiliyi ilə, Avropa ölkələri ilə məktublaşmalar, poçt-teleqraf əlaqələri bərpa edilmişdi. 1920 il martın 20-də Azərbaycan Xalq Cümhuriyyəti Hö

downloaded from KitabYurdu.az

kuməti ilə İran hökuməti arasında, bir sıra digər müqavilələrlə yanaşı, teleqraf və poçt əlaqələrinə aid ayrıca iki müqavilə də imzalanmışdı. Həmin müqavilələr Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Seyid Ziyaəddin Təbətəbai başda olmaqla İran nümayəndə heyətinin də iştirak etdiyi 1920 il 15 aprel tarixli iclasında ratifikasiya olunmuşdu. Poçt və Teleqraf Nazirliyinin fəaliyyəti dövründə həyata keçirilən mühüm tədbirlərdən biri də Azərbaycan hökumətinin poçt markalarının hazırlanaraq, tədavülə buraxılması olmuşdur.

*Aprel işğalı (1920)* nəticəsində nazirliyin fəaliyyəti dayandırılmışdır.

Əd.: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.2, B.,1998; Адрес-календарь Азербайджанской Республики на 1920 гг., Б., 1920.

**POTİ RAZILAŞMASI (1918)** - Gürcüstanla Almaniya arasında imzalanmış razılaşma. 1918 il mayın 14-də Zaqafqaziya seyminin gürcü fraksiyası seymdəki digər fraksiyaların xəbəri olmadan Almaniyanın regiondakı təmsilçisi Fon Lossov ilə gizli-separat damşıqlara getmək qərarına gəldi. Batum konfransı zamanı Cənubi Qafqaz sülh nümayəndə heyətinin gürcü təmsilçisi konfransda məşvərətçi səs hüququ ilə iştirak edən Fon Lossova bəyanat təqdim etdi. Bəyanatda deyilirdi ki, Gürcü Milli Şurası Gürcüstamn beynəlxalq məsələlərdə hərtərəfli müdafıə olunmasını Almaniyadan xahiş edir.

Almaniya ilə damşıqları sürətləndirmək üçün Gürcü Milli Şurasının sədri Noy Jordaniya başda olmaqla nümayəndə heyəti Batuma gəldi. Burada Jordaniya ilə Fon Lossov arasında aparılan danışıqda əldə olunan razılığa əsasən, Gürcüstan tezliklə Zaqafqaziya Federasiyasının tərkibindən çıxaraq, müstəqilliyini elan etməli idi. Almaniya tərəfi isə, Gürcüstanla müqavilə bağlamaqla, onun hökumətini de-fakto tanımağı öhdəsinə götürdü.

Potidə başlayan alman-gürcü danışıqları Zaqafqaziya Demokratik Federativ Respublikasının parçalanmasını sürətləndirdi, eyni zamanda, Osmanlı hökumətini Cənubi və Şimali Qafqazda yaşayan müsəlman-türk xalqlannın müstəqilliyi məsələsinə yeni mövqedən yanaşmağa məcbur etdi. 1918 il mayın 25-də Fon Lossovun rəhbərliyi ilə alman nümayəndə heyəti Batumdan gəmi ilə Potiyə gəldi. Mayın 28-də burada Almaniya ilə Gürcüstan arasında bir sıra məsələləri əhatə edən 5 maddədən (İlkin razılaşma; hər iki tərəfdən olan hərbi əsirlərin tezliklə dəyişdirilməsi haqqında; qarşılıqlı valyuta əlaqələrinin ilkin nizamlanması haqqında; Gürcüstanın tabeliyində olan bütün gəmilərin Almaniyanın sərəncamına verilməsi haqqında; birinci və ikinci razılaşmaya əlavə olaraq, Gürcüstan və Almaniya arasında əlaqələrin öncədən nizamlanması haqqında) ibarət razılaşma imzalandı.

*Gəncə praporşiklər məktəbinin müdavimləri. 1919*



Zaqafqaziya seyminin gürcü fraksiyasının Almaniyaya arxalanması Türkiyə hökumətinin ciddi narahatlığına səbəb oldu. 1918 il mayın 14-də Ənvər paşanın Batuma gəlməsinin əsas səbəblərindən biri də bu məsələ idi. O, burada olarkən həmin məsələni Osmanlı sülh nümayəndə heyətinin üzvü Mehmet Vehib paşa ilə ciddi müzakirə edərək, gürcülərin bu hərəkətini səhv addım kimi qiymətləndirdi. Poti razılaşmasından az sonra Zaqafqaziya seymi və komissarlığı süqut etdi. Cənubi Qafqazda üç dövlət, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti yarandı.

*Əd.*. Həsənov C,Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Хачапуридзе Г.В., Борьба за пролетарскую революцию в Грузии. Очерки 1917-1921 гг., Тифлис, 1936; Людендорф В., Мои воспомининия о войне 1914-1918, гг. 1-2, М., 1923-1924.

**PRAPORŞİKLƏR MƏKTƏBİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordu üçün zabit kadrları hazırlayan ilk hərbi təhsil müəssisəsi. 1918 il dekabrın 1-də Gəncə hərbi məktəbinin əsasında yaradılmışdı. Yeni şəraitdə məktəbin statusu da genişləndirildi. Belə ki, praporşiklər məktəbinin məzunu buraxılış imtahanlarım uğurla verdikdə dərhal ilk zabit rütbəsinə - praporşik rütbəsinə layiq görülürdü. 1918 il dekabrın 24-də polkovnik Şirin bəy Kəsəmənli Praporşiklər məktəbinin rəisi təyin olundu. Hərbi na-zirin 1919 il 8 aprel tarixli 186 saylı əmri ilə Ş.Kəsəmənli 2-ci Bakı piyada alayının komandiri təyin olunduğundan həmin əmrlə 1-ci qaubitsa-topçu divizionunun komandiri polkovnik Rüstəm bəy Şıxlinski Praporşiklər məktəbinin rəisi təyin edildi. 1919 ilin aprelində Praporşiklər məktəbinin yeni statusda ilk buraxılışı oldu. Azərbaycan Parlamenti sədrinin müavini Həsən bəy Ağayev və digər rəsmi şəxslər bu əlamətdar hadisə münasibətilə Gəncəyə gəldilər. İlk buraxılışda Praporşiklər məktəbinin 135 məzunu zabit rütbəsinə layiq görüldü. Məktəbin 1919 ilin sentyabrındakı ikinci buraxılışında isə onu 119 nəfər bitirdi. 1919 ilin oktyabrında Praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi yaradıldı (bax *Hərbiyyə məktəbi)*.

*Əd.:* Süleymanov M., Azərbaycanda ilk milli hərbiyyə məktəbi, B., 2000.

**PRJEVALSKİ** N. (?-?)- rus hərbi xadimi, general. 1917 ilin iyunundan Qafqaz cəbhəsi qoşunlarının baş komandanı idi. 1917 ilin dekabrında Türkiyə ilə sülh bağlanmasında iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti

downloaded from KitabYurdu.az




general Prjevalskini bütün qərargahı ilə birlikdə Bakı şəhərindən çıxarmış, Azərbaycan ərazisində Denikin ordusu üçün rus zabitlərinin səfərbər edilməsinə nəinki imkan verməmiş, hətta Petrovsk-Port şəhərində rus zabitlərinin səfərbərliyi haqqında qəzetlərdə elan yerləşdirməyi ona qəti qadağan etmişdi. Prjevalski sovet hakimiyyətinə qarşı fəal mübarizə və vahid antibolşevik hökumət yaradılması haqqında general Kaledinlə danışıqlar aparmışdı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-20). Parlament (stenoqrafık hesabatlar), c. l, B.,1998.

**"PROLETARİ"** - rus dilində gündəlik leqal bolşevik qəzeti. 1919 il avqustun 19-dan 28-dək (cəmi 8 nömrə) Bakıda redaksiya heyəti tərəfindən nəşr olunmuşdur. Qəzet kütlələri Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı mübarizəyə qaldırmaq məqsədilə yazılar dərc etmişdir. "Proletari"də "Pravda" qəzetindən və "Kommunist İnternasionalı" jurnalından məqalələr, V.İ.Leninin, S.M.Kirovun məruzə və yazıları dərc olunurdu. Qəzet milli hökumətin əleyhinə açıq təbliğat apardığı üçün Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfındən bağlanmışdır.

**"PROMETEY"** - SSRİ-dən olan milli mühacir təşkilatlarının siyasi birliyi. Qeyri-rus mühacirlərin sovet hakimiyyətinə qarşı mübarizəsini istiqamətləndirən bu təşkilat Məhəmməd Əmin Rəsulzadənin təşəbbüsü və Polşa hökumətinin yardımı ilə 1926 ildə Parisdə yaradılmışdı. "Prometey"də ermənilər və ruslar istisna olmaqla, SSRİ-dən olan bütün milli mühacir təşkilatlarının - Azərbaycan, Ukrayna, Belarus, Şimali Qafqaz, Gürcüstan, Türküstan, Moldova, İdil-Ural, Krım, Kareliya, Komi və Kuban nümayəndələri təmsil olunmuşdu. Onlarm əksəriyyəti, hələ 1-ci dünya müharibəsi (1914-18) dövründə Lozanna konfransına (1916) toplaşan Rusiya Dövlət Dumasının bir-biri ilə yaxşı tanış olan üzvləri idilər. Təşkilatda Azərbaycanı M.Ə.Rəsulzadə, Mir Yaqub Mehdiyev, Ukraynanı professor Roman Smal Stotski, A.Şulgin, Türküstanı Mustafa Çokayev, Gürcüstanı N.Jordaniya, Q.Qvazava, Şimali Qafqazı Səid Şamil, Xurşiləv, Tausultan Şakmanov, Krımı Cəfər Seyid Əhməd, İdil-Uralı Ayaz İshaki və b. nüfuzlu mühacirlər təmsil edirdi. "Prometey"in ilk rəhbəri Tausultan Şakmanov, sonralar isə Roman Smal Stotski olmuşdu. Təşkilatm eyni adlı jurnalı nəşr edilirdi (birinci sayı 1926 il yanvarın 10-da çıxmışdır). M.Ə.Rəsulzadə jurnalda müntəzəm olaraq yazılar dərc etdirirdi. Təşkilatın İstanbulda M.Vəkilov, Seyid Əhmədov, Osman Xoca, M.Çokayev, V.Murskinin təmsil olunduqları böyük bir şöbəsi fəaliyyət göstərirdi. "Prometey" təşkilatının "Prometey gəncliyi" şöbəsi də yaradılmışdı. 1936 ildə bu şöbənin "Gənc Prometey" adlı toplusu nəşrə başlamışdı. Onun ilk sayında Mirzə Bala Məmmədzadə şöbənin fəaliyyət istiqamətləri və yaranma məqsədləri barədə yazırdı: "Kommunist fırqələri və Komintern yeni kadrosunu gənc kommunistlər birliyindən alır. Buna qarşı məhkum millətlərin gəncləri "Prometey Gənclər" təşkilatını yaratmalı və yaşlı nəslin açdıqları istiqlal davasını davam etdirəcək kadr və nəsil yetişdirməlidirlər: Kominternə qarşı "Prometey", Gənclər Kominterninə qarşı "Gənc Prometeyçilər". "Prometey" mühacir təşkilatlarının müştərək antibolşevik fəaliyyətini gücləndirməyə çalışır, SSRİ-də baş verən hüquq pozuntuları ilə bağlı rəsmi etira-zını bildirir, SSRİ-də gizli fəaliyyət göstərən milli təşkilatlara istiqamət verir, onlara sənəd və mətbu materiallar göndərirdi. "Prometey"in başlıca fəaliyyət sahələrindən biri öz jurnalını yayınlamaqla yanaşı, təşkilatın mənafeyinə uyğun gələn, lakin ayrı-ayrı mühacir təşkilatları tərəfindən çap olunan qəzet və jurnallara maliyyə yardımı göstərmək idi. Bu məqsədlə Parisdəki "Sakartvelo" (Gürcüstan), Rumıniyadakı "Əməl" (Krım), Varşavadakı "Severnıy Kavkaz" (Şimali Qafqaz), "Yana Milli Yol" - "Yeni Milli Yol" (İdil-Ural), Berlindəki "Qurtuluş" (Azərbaycan) və "Yaş Türküstan"-"Gənc Türküstan" (Türküstan) jurnalları maliyyələşdirilir, fəaliyyətləri əlaqələndirilirdi.

1936 ildə (31 may - 1 iyun) Varşavada, "Prometey" birliyində təmsil olunan millətlərin qurultayı keçirilmişdi. Qurultayda, SSRİ-də yeridilən ruslaşdırma siyasətinə etiraz bildirilmişdi. Türk millətindən olan mühacirlər SSRİ-də yaşayan türklər arasında süni sədlər çəkilməsindən, əlifba islahatlarından bəhs etmişdilər. Qurultayda dil problemi ilə bağlı qərar və Millətlər Cəmiyyətinə rəsmi müraciət qəbul olunmuşdu. Müraciətdə deyilirdi: "...Qeyri-ruslar öz dillərinin sərbəst inkişafına tam hüquqlu olduqlarından, qurultay buna şərait yaradılmasının Sovetlər birliyindən tələb olunmasını Millətlər Cəmiyyətindən xahiş edir". "Prometey" təşkilatı yalnız dil problemini deyil, SSRİ-də cərəyan edən hadisələri araşdırıb, Millətlər Cəmiyyətinə tez-tez rəsmi bəyanatlar, etiraz notaları göndərirdi. SSRİ-nin Millətlər Cəmiyyətinin üzvlüyünə daxil olması ilə bağlı "Prometey" təşkilatının etiraz notasını Azərbaycan adından Mir Yaqub Mehdiyev imzalamışdı. Rus mühacir təşkilatları "Prometey"ə qarşı kəskin müxalif mövqedə idilər. Radikal millətçiliyi müdafiə edən sağ yönlü Qafqaz mühacirləri də "Prometey"ə kəskin müxalifət mövqeyi tuturdu. Heydər Bammatın lider olduğu bu qrupa Azərbaycan mühacirlərindən Xəlil bəy Xasməmmədov, Şəfı bəy Rüstəmbəyli, Nağı bəy Şeyxzamanlı, Fuad Əmircan və b. daxil idi.

1939 ildə Almaniyanın Polşanı işğal etməsi ilə "Prometey" birliyi, əsasən, dağıldı. Birlik üzvlərindən almanların əlinə düşənlər siyasətdən əl çəkmək şərti ilə faşist rejiminin ciddi nəzarəti altında elmi araşdırmalara cəlb edildi. Qalanlardan Əhməd Xoca Londona, oradan da İrana getdi. Ayaz İshaqi Londona, sonra isə İstanbula gedərək, faşist Almaniyası əleyhinə açıq təbliğat aparmağa

downloaded from KitabYurdu.az

başladı. Cəfər Seyid Əhməd Polşa və İngiltərənin mövqeyini müdafiə edir, Almaniyanın siyasətinə qarşı çıxırdı. Polşanın işğalı ərəfəsində Varşavada yaşayan M.Ə.Rəsulzadə də faşist təcavüzkarlığına qarşı çıxmışdı. Paris almanların əlinə keçdikdən sonra "Prometey"in qərargahı dağıdıldı. İkinci dünya müharibəsindən (1939-45) sonra ayrı-ayrı qruplar şəklində fəaliyyət göstərən "Prometey"çilər Londonda yeni rəhbərlik orqanı – Divan yaratdılar. Nisbətən zəif bir qrup isə Varşavada formalaşdı. Lakin bu qruplar öz aralarında mükəmməl əlaqə yarada bilmədilər, 20 əsrin 60-cı illərinə qədər mövcud olsalar da, beynəlxalq aləmdə fəaliyyətləri nəzərə çarpmadı. "Prometey" təşkilatı 1920-30-cu illərdə SSRİ daxilində baş verən hadisələrin, yeridilən milli ayrı-seçkilik siyasətinin mahiyyətinin açıqlanıb beynəlxalq ictimaiyyətə çatdırılmasında xeyli iş görmüş, mühacirətdə milli azadlıq ideologiyasının formalaşmasında mühüm rol oynamışdır.

*Əd.:* İ b r a h i m l i X., Azərbaycanın siyasi mühacirəti (1920-1991), B., 1997; Oruclu M.R., Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), B., 2001.

**PROTASOV İ.** (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"una* (19 noyabr, 1918) əsasən, *Slavyan-Rus Cəmiyyətindən* parlamentin tərkibinə daxil edilmişdi. Parlamentdə "Slavyan-Rus cəmiyyəti" fraksiyasını təmsil edirdi. Fətəli xan Xoyskinin 3-cü hökumət kabinəsində (26.12.1918 - 14.3.1919) maliyyə naziri vəzifəsini tutmuşdur.

**PUANKARE** Raymon (20.8.1860, Möz departamenti, Bar-le-Dük - 15.10.1934, Paris) - Fransa siyasi və dövlət xadimi. Fransa prezidenti (1913-20), baş naziri (1912-13, 1922-24, 1926-29). Puankare 1922 il martın 31-də parla-mentdəki məruzəsində Azərbaycanla əlaqələrə xüsusi yer ayırmışdır. O demişdi: biz müstəqil Azərbaycan hökumətinin hüquqlarını pozan hər hansı fəaliyyəti qəbul edə bilmərik... Biz Bakıda nüfuzlu neft siyasətimizi yeridə bilərik. Heç bir bölgə Bakı nefti ilə müqayisə edilə bilmoz. Dünyanın heç bir yerində, hətta Meksikada da Bakı neft hövzəsindəki qədər neft yoxdur. Bu rayonda neft ehtiyatları tükənməz dərəcədə böyükdür. Ona görə də bizim fəaliyyətimizin əsas mərkəzi məhz Bakı olmalıdır.

Puankare hökuməti Azərbaycanda bolşevik işğalına qarşı silahlı üsyanlara rəğbət və ümid bəsləmişdir. Fransa hökuməti, Əlimərdan bəy Topçubaşov başda olmaqla, Parisdə qalmağa məcbur olan Azərbaycan nümayəndə heyətinə maliyyə yardımı göstərmiş, Azərbaycanın müstəqilliyini bərpa etmək məqsədilə Topçubaşov və Ankara hökuməti ilə danışıqlar aparmışdır.

*Əd.* : Q a s ı m o v M., Avropa və Amerika ölkələrinin müasir tarixi, 2 hissədə, h.I, 1918-1945-ci illər, B., 2003.

downloaded from KitabYurdu.az

# R

**RAZUMOVSKİ** Vasili İvanoviç (8.4.1857, Simbirsk vil. -7.4.1935, Yesentuki) - görkəmli alim, pedaqoq, cərrah. Bakı Universitetini (hazırda Bakı Dövlət Universiteti) təşkil edənlərdən biri və ilk rektoru (1919). 1880 Kazan Universitetinin tibb fakül təsini bitirmiş, 1884 ildə tibb elmləri doktoru elmi dərəcəsi almışdır. 1885 ildən Kazan



Universitetinin operativ kafedrasında prozektor, professor (1887), qospital və fakültə cərahlığı klinikasında işləmişdir. 1917 ildə Qafqaz ordusunun baş cərrahı təyin olunan Razumovski Tiflisə gəlmiş, həmin ilin payızında Ali qadın kurslarında tibb fakültəsi açılması işinə cəlb olunmuş, 1918 ilin yanvarında professor, 1918 ilin iyununda Ali qadın kursları Zaqafqaziya Universitetinə çevrildikdən sonra isə Universitetin rektoru seçilmişdi. Lakin Zaqafqaziya Universiteti sonralar fəaliyyətini davam etdirə bilməmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıda universitet açılmasına böyük dövləti əhəmiyyət verirdi. Məsələnin həllinə tezliklə nail olmaq məqsədilə professor Razumovski başda olmaqla Universitet komissiyası təşkil edilmişdi. Komissiya qısa müddət ərzində Universitetin təsis edilməsi haqqında qanun layihəsini, Universitet nizamnaməsini, həmçinin 1919-20 tədris ili üçün müvəqqəti ştat və smeta cədvəllərini hazırlayıb təqdim etmişdi. Razumovski yazırdı: ***"Azərbaycan öz maarif ocağını yaratdı, türk (Azərbaycan - red.) xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Asiya ilə Avropanın qovşağında yeni məşəl yandı".*** 1919 il sentyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti müsəlman Şərqində ilk Avropa tipli ali məktəb -"Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında qanun" qəbul etdi. Bax, həmçinin *Bakı Dövlət Universiteti.*

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Atakişiyev A.M., Bakı DövlətUniversitetinin tarixi, 1-ci hissə, B., 1991; Məhərrəmov A.M., Bakı Dövlət Universiteti, B., 2000; Алимирзоев Х.О., Азербаиджанский государственный университет за 50 лет, Б., 1969; Шиловцеи С.П., В.И.Разумовский, 1857-1935, Куйбышев, 1968.

**REMİZOV** Sergey (?-?)- Azərbaycan Xalq Cümhuriy-yəti parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, *Slavyan-Rus Cəmiyyətindən* parlamentin tərkibinə daxil edilmişdi. Parlamentdə "Slavyan-Rus cəmiyyəti" fraksiyasını təmsil edirdi.

**RESPUBLİKA DÖVLƏT ARXİVİ,** Azərbaycan Respublikası Dövlət Arxivi - əsası Azərbaycan İnqilab Komitəsinin 1920 il dekabrın 6-da Nəriman *Nərimanov* tərəfından imzalanmış "Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin təşkili haqqında"kı dekretlə qoyulmuşdur. 1930 il aprelin 19-da Mərkəzi Dövlət Arxivinin İnqilab Tarixi şöbəsinin bazasında yaradılmışdır. Azərbaycan hökumətinin qərarı ilə 1994 ildən Azərbaycan Respublikası Dövlət Arxivi adlanır. Respublika Dövlət Arxivində Azərbaycan Xalq Cümhuriyyətinin tarixini öyrənmək üçün əsas mənbələr saxlanılır. Burada 1918-20 illərə aid dövlət hakimiyyəti və idarəetmə, hüquq-mühafizə, təhlükəsizlik və yerli idarəçilik orqanlarının və digər təşkilatların fəaliyyətini əks etdirən 25 mindən yuxarı arxiv işi vardır. Cümhuriyyət dövrünü əks etdirən ən zəngin arxiv fondlarından biri Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fondudur. Səkkiz yüzdən yuxarı işdən ibarət olan bu fondda Parlamentin 1918 il dekabrın 7-dəki ilk açılış iclasından 1920 il aprclin 19-da keçirilmiş 142-ci iclasınadək bütün iclaslarının protokolları, bir çoxunun stenoqrafik hesabatları qorunub saxlanır. Arxivdə Xalq Cümhuriyyəti hökuməti nazirliklərinin, digər mərkəzi və yerli idarə orqanlarının sənədləri də mühafızə olunur. Sənədlər Cümhuriyyət hakimiyyəti zamanı ölkədəki siyasi durum, dövlət və ordu quruculuğu, ölkənin müdafiəsi, xarici siyasət, hüquq-mühafizə və yerli idarə orqanlarının fəaliyyəti, sənaye, ticarət, kənd təsərrüfatı, xalq maarifi, mədəniyyət, səhiyyə, əhalinin sosial vəziyyəti, ölkədaxili əlaqələrin möhkəmləndirilməsi üçün poçt-teleqraf, rabitə, şose və dəmir yollarının bərpası, erməni təcavüzü nəticəsində yaranmış çoxminli qaçqınlara yardım göstərilməsi və s. haqqında geniş məlumat verir. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən-ali təhsil almaq üçün xarici ölkələrə göndərilmiş 100 tələbənin şəxsi işləri arxivdə mühafızə olunan nadir sənədlərdəndir.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollektivi Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üçün Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998 il 30 yanvar tarixli sərəncamına əsasən yaradılmış Dövlət Komissiyasının qərarı ilə Cümhuriyyət dövrünə aid 7 cildlik sənədlər toplusunu (Azərbaycan və rus dillərində) çap etdirmişdir (1998).

*Əd.:* Azərbaycan Respublikası Dövlət Arxivləri (məlumat kitabı), B., 2003; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001.

downloaded from KitabYurdu.az

**RESPUBLİKA DÖVLƏT ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT ARXİVİ,** Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi - Azərbaycan SSR Nazirlər Sovetinin 1965 il 17 iyul tarixli qərarı ilə yaradılmış arxiv. 1966 ilin yanvarından fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə 1996 ildə arxivə görkəmli mətnşünas *Salman Mümtazın* adı verilmişdir. Hazırda arxivdə 700-ə yaxın ədəbiyyat və incəsənət xadiminin şəxsi, 40-dan artıq isə idarə arxivlərinin fondları mühafizə olunur.

Ayrı-ayrı ədəbiyyat və incəsənət xadimlərinin şəxsi fondlarında, habelə arxivdə yaradılmış sənəd kolleksiyalarında Azərbaycan Xalq Cümhuriyyəti (1918-20) dövrünə aid qiymətli sənədlər, məlumatlar, şəkillər, proqramlar və s. vardır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin YUNESKO məsələləri üzrə Milli Komissiyasının Baş katibi Ramiz Abutalıbovun Fransa və başqa ölkələrdən gətirərək arxivə təqdim etdiyi Ceyhun Hacıbəylinin şəxsi fondu, Azərbaycan mühacirətinin xaricdə fəaliyyətini əks etdirən sənədlər, qəzet-jurnallar, tarixi-ədəbi əhəmiyyətə malik digər materiallar da Cümhuriyyət dövrü haqqında mühüm məlumatlar verir. 1919-20 illərdə Paris Sülh Konfransında iştirak etmiş Azərbaycan nümayəndə heyətinin konfransın iştirakçısı olan dövlətlərə göndərdiyi memorandum, teleqram, radioqram və başqa sənədlərin surətləri də həmin materiallar arasındadır.

*Əd.:* Bax *Respublika Dövlət Arxivi* məqaləsinin ədəbiyyatına

**RESPUBLİKA DÖVLƏT KİNO-FOTO SƏNƏDLƏRİ ARXİVİ,** Azərbaycan Respublikası Dövlət Kino-Foto Sənədləri Arxivi - 1930 il aprelin 19-da yaradılmış Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivinin foto sənədləri şöbəsi. 1943 ildə müstəqil Azərbaycan SSR Mərkəzi Dövlət Kino-Foto-Fono Sənədləri Arxivinə çevrilmişdir. 1968 ilin aprelində Azərbaycan SSR Mərkəzi Dövlət Səs Yazmaları Arxivi yaradılaraq, fono sənədlər həmin arxivə verilmişdir. 1994 ildən isə arxiv Azərbaycan Respublikası Kino-Foto Sənədləri Arxivi adlanır.

Kino-Foto Sənədləri Arxivində Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimləri Məhəmmod Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov və başqalarına aid çoxlu foto şəkillər mühafizə olunur. Burada Azərbaycan Xalq Cümhuriyyəti ordusunun əsgər və zabitlərinə, generallardan Səməd ağa Mehmandarova, Əlağa Şıxlinskiyə və başqalarına, habelə Cümhuriyyət Hökuməti tərəfindən ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrə aid də çoxlu nadir foto şəkillər qorunub saxlanılır.

*Əd.:* Bax *Respublika Dövlət Arxivi* məqaləsinin ədəbiyyatına

**RESPUBLİKA DÖVLƏT SİYASİ PARTİYALAR VƏ İCTİMAİ HƏRƏKATLAR ARXİVİ,** Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1991 il 18 dekabr tarixli qərarı ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Partiya Tarixi İnstitutu Arxivinin bazasında yaradılmışdır.

Partiya Tarixi İnstitutu hakim partiyanın təsisatı olması səlahiyyətlərindən sui-istifadə edərək, Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş mühüm nazirlik, idarə və təşkilatların ən qiymətli sənədlərini seçib, partiya arxivində xüsusi kolleksiya fondu yaratmışdı. Fondda daha çox Cümhuriyyət hökumətinin xarici və daxili işlər nazirliklərinə, Fövqəladə Təhqiqat Komissiyasına və başqa təşkilatlara aid sənədlər toplanmışdır. Burada mühafizə edilən sənədlər Cümhuriyyət tarixini və onun beynəlxalq əlaqələrini öyrənmək üçün qiymətli mənbədir. Müstəqil Azərbaycanın ilk ordenlərini hazırlamaq üçün keçirilmiş müsabiqənin materiallan da burada saxlanılan sənədlər arasındadır.

*Əd.:* Bax *Respublika Dövlət Arxivi* məqaləsinin ədəbiyyatına

**RESPUBLİKA GÜNÜ** - müsəlman Şərqində ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu (1918, 28 may) və Azərbaycan dövlətçiliyinin bərpa edildiyi gün. Həmin gün Azərbaycan Milli Şurasının iclasında 6 bənddən ibarət Azərbaycanın *İstiqlal bəyannaməsi* qəbul olundu. İlk konstitusiya aktı - İstiqlal bəyannaməsinin qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyəvi Xalq Cümhuriyyəti formasında elan edildi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919 ilin 21 mayında 28 may İstiqlal gününün bayram edilməsi haqqında qərar qəbul etmiş və bayramın keçirilməsi üçün komissiya yaratmışdı. 1919 il mayın 27-28-də istiqlaliyyətin birinci ildönümü münasibətilə Bakıda və bölgələrdə təntənəli bayram mərasimləri və kütləvi tədbirlər keçirildi. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşasa da, Azərbaycan xalqının tarixində silinməz iz buraxmış, milli dövlətçlik ənənələrinin yaşamasında və inkişafında mühüm rol oynamışdır. Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən (1991) sonra Azərbaycan Respublikası prezidentinin fərmanı (1992) ilə 28 may - Respublika günü elan edilərək, hər il dövlət və ümumxalq bayramı kimi təntənəli şəkildə qeyd olunur [bax, həmçinin *İyirmi səkkiz may {1918)]*.



**RƏCƏBLİ** Əhməd Cabbar oğlu (14.2.1898, İrəvan 15.12.1963, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (hax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. İrəvan kişi gimnaziyasını bitirmiş (1916), həmin il Moskvada Petrovski-Razumovski Akademiyasının tibb şöbəsinə qəbul edilmişdi. Lakin maddi çətinliklə əlaqədar təhsilini yarımçıq buraxmağa məcbur olmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün İtaliyaya göndərilmiş, 1923 ildə Peruca şəhərindəki Ali Kral Eksperimental Aqrar İnstitutunu genetika-seleksiya ixtisası üzrə bitirmişdir. 1925 ildə Azərbaycana

downloaded from KitabYurdu.az

dönmüş, Zaqatala dairəsinin aqronomu vəzifəsinə təyin olunmuşdur. Kənd təsərrüfatı texnikumunun yaradılması, kənd təsərrüfatı üzrə ixtisaslı kadrların hazırlanması da ona tapşırılmışdı. Bir çox bitkilərin introduksiyası və seleksiyası ilə məşğul olmuş, yerfındığı (araxis), tütün, kənaf, soya, yeralması və digər bitkiləri ilk dəfə təsərrüfatda yaymış, bir neçə buğda, çəltik, həmçinin alma, heyva, ərik, zeytun, şaftalı sortlarının yaratmış, aqrotexniki tədbirlər hazırlamışdır. 1930-36 illərdə Ə.Rəcəbli Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kafedra müdiri, eyni zamanda, respublika xalq əkinçilik komissarlığında məsləhətçi olmuşdur. Böyük elmi əməyini nəzərə alaraq, 1935 ildə ona professor elmi adı verilmişdir. O, 40-dan çox elmi əsərin, o cümlədən "Azərbaycanın meyvə bitkiləri" monoqrafiyasının müəllifidir.

1937 ildə repressiyaya məruz qalaraq, Kolımaya (Rusiyanın Maqadan vilayəti), 1950 ildə isə Qazaxstana sürgün olunmuşdur. 1955 ildə bəraət almışdır. 1958 ildə Ə.Rəcəbli Azərbaycan SSR Kənd Təsərrüfatı Akademiyasının akademiki və rəyasət heyətinin üzvü seçilmişdir.

Əsəri: Azərbaycanın meyvə bitkiləri, B., 1976.

*Əd.:Дулаева З, Страницы истории национальной интеллигенции* "Azərbaycan Tarixi Muzeyi-2003", B., 2003.

**RƏFİBƏYLİ** Cavad bəy Hadı bəy oğlu (1890, Gəncə 1956, Bakı) - maarif xadimi. İlk təhsilini Yelizavetpol (Gəncə) rus gimnaziyasında almış (1898-1908), əmisi Ələkbər bəyi *Rəfibəylinin* məsləhəti ilə 1911 ildə Kiyev İmperator Universitetinin tarixgenologiya fakültəsinə daxil olmuşdur. Alman, fransız, latın, ərəb və fars dülərini bilirdi. 1916 ildə Universiteti bitirdikdən sonra vaxtilə oxuduğu Gəncə oğlan rus gimnazi yasına latın dili müəllimi təyin edil mişdir. O, bu gimnaziyada latın dilini tədris edən ilk türk müəllim idi. Pedaqoji sahədəki uğurlarına görə tezliklə Temirxan-Şura müəllimlər seminariyasına direktor təyin edilmişdir.



Azərbaycan Xalq Cümhuriyyəti qurulandan sonra 1918 il dekabrın 31-də xalq maarif naziri Nəsib bəy Yusifbəylinin əmri ilə o, Gəncə Gimnaziyasının müfəttişi, 1919 il oktyabrın 1-dən isə gimnaziyanın direktoru təyin edildi. Direktor olduğu dövrdə təhsil sahəsində mühüm islahatlar apardı. Nəticədə, 2 il ərzində gimnaziyada təhsil alan azərbaycanlıların sayı bir neçə dəfə artdı, Cavad bəy Rəfıbəyli gimnaziyada yeritdiyi türkçülük və millətçilik xəttinə gorə 1927 ildə Gəncədən uzaqlaşdırıldı. Həmin il Bakı Dövlət Universitetində "Şərq incəsənəti tarixi" kafedrasına müəllim göndərildi və "İncəsənətşünaslıq" fənninin tədrisinə başladı. 1930 ildə ona universitetin dosenti adı verildi. Cavad bəy 1941 ilədək həmçinin, Azərbaycan Həmkarlar İttifaqları Şurası kinoekskursiyası bürosunda mühazirəçi, Bakı Tikiş Tresti təlimatçılar kurslarının müdiri, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda lektor, Azərbaycan Dövlət Rəssamlıq və Azərbaycan Dövlət Teatrı məktəblərində incəsənət tarixi müəllimi, Azərbaycan Qiyabi Texniki Təhsil İnstitutunun rus şöbələrində Azərbaycan dili müəllimi, SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialı Azərbaycan şöbəsində elmi əməkdaş, Elmlər Akademiyasının aspiranturasında müəllim, M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda rus və Azərbaycan dilləri kafedrasında müəllim vəzifələrində işləmişdir.

Azərbaycanın mədəniyyətinə aid sanbalh əsərlərin müəllifidir. 1941 ildə Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinin elmi məsləhətçisi və muzeyin Bədii Şurasınm üzvü seçilmiş, 1941 il sentyabrın 1-də ailəsi ilə (3 qızı, 2 oğlu) birlikdə Qazaxıstana sürgün edilmişdir.

1947 ildə sürgündən azad edilərək Bakıya qayıtmış, yenə də universitetdə və İncəsənət İnstitutunda fəaliyyətə başlamışdır. Lakin ona Bakıda işləməyə imkan verilməmiş, Gəncədə rus dili müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir.

**RƏFİBƏYLİ** Cəmil bəy Bağır bəy oğlu (1894, Gəncə, Balabağmanlar - 1981) - Gəncə 8 illik şəhər məktəbini bitirmişdir (1916). Gənc yaşlarından "Müsavat" partiyası sıralarına daxil olmuş, 1918 ildə Azərbaycan Xalq Cümhuriyyəti ordusunda hərbi xidmətə başlamış, 6 ayhq unter-zabit məktəbini bitirdikdən sonra 1-ci piyada alayında zabit köməkçisi vəzifəsinə təyin olunmuşdur. 1919 ildə həmin alayın tərkibində Qarabağa göndərilərək, daşnak-erməni qiyamçılarına qarşı döyüşlərdə fəal iştirak etmiş, burada göstərdiyi şücaətə görə kapitan rütbəsinədək yüksəlmişdir.



*Aprel işğalından (1920)* sonra Azərbaycan ordusunun 244-cü piyada alayında atıcı taqımın komandir köməkçisi vəzifəsini yerinə yetirmişdir. 1920 ilin ortalarında alayın tərkibində erməni daşnaklarına qarşı döyüşlərdə fəal iştirak etmişdir. 1924 ildə ictimai mənşəyini gizlətməkdə ittiham olunaraq, ordu sıralarından uzaqlaşdırılmış və Gəncəyə qayıtmışdır. Təqiblərə məruz qalmış, 1927 ildə həbs olunaraq 10 illik həbs cəzası ilə "Medvejya Qora" (Kareliya) həbs düşərgəsinə sürgün edilmişdir. Orada məhbuslara xidmət edən ambulatoriyada feldşer işləmiş, cəza müddəti dövründə 2 illik tibb texnikumunu bitirmişdir. Sür-gündən sonra Gəncəyə qayıdaraq, feldşer işləmişdir. Lakin az sonra (1937) yenə də həbs edilərək 10 illik həbs cəzası ilə Novosibirsk (Siblaqa - Sibir) həbs düşərgəsinə göndərilmişdir. 1947 ildə azad olunduqdan sonra xaricə keçmək ümidi ilə Özbəkistanın Denaus sərhəd rayonuna getmişdir. Sərhəd zonasında tibb məntəqəsində işə düzəlmiş, tezliklə məntəqənin müdiri vəzifəsinə təyin olunmuşdur. Az sonra 3-cü dəfə "vətən xaini" ittihamı ilə həbs olunmuş, bu dəfə Krasnoyarsk vilayətinə sürgün edilmişdir. 1958 ildə əfv olunaraq vətənə dönmüşdür.

**RƏFİBƏYLİ** Ələkbər Kərbəlayi Həsən oğlu (1839, Gəncə -3.4.1919, orada) - görkəmli ictimai və siyasi xadim.

downloaded from KitabYurdu.az



Azərbaycan xalqının milli istiqlal hərəkatının fəal mübarizlərindən biri. Progimnaziya bitirmiş, ilk təhsilini rusca almışdır. Peterburqda kənd təsərrüfatı üzra təhsil aldıqdan sonra Gəncəyə qayıtmışdır. 1870 ildən 1896 il avqustun 10-dək polis sistemində fəaliyyət göstərmişdir. Nuxa Şəki) qəzasının Bum məntəqəsinə pristav təyin edilmiş, bir müddət quberniya katibliyində tərcüməçi işləmiş, 1888 il iyulun 1-də Yelizavetpol (Gəncə) qəzası polis sahəsinin pristavı təyin edilmiş, həmin il noyabrın 30-da Ərəş qəzasının 1 saylı polis sahəsinə köçürülmüşdür. 1890 il sentyabrın 17-də Yelizavetpol qubernatorunun 42 saylı əmri ilə Yelizavetpol qəzasının pristavı təyin edilmişdir. 1891 il sentyabrın 28-də Müqəddəs Vladimir ordeni ilə təltif olunmuşdur. Senatın fərmanı ilə 1892 il noyabrın 6-da və 1894 il dekabrın 30-da qüsursuz xidmətlərinə görə rütbəsi artırılmışdır. Ələkbər bəy 1895 ilin dekabrından 1896 ilin yanvarınadək Yelizavetpol polismeysteri vəzifəsində çalışmışdır.Polis sistemindən saray müşaviri rütbəsində ayrılmışdır.

Ələkbər bəy 1896 ildən başlayaraq maarifçi və xeyriyyəçi kimi geniş fəaliyyət göstərmişdir. Əlaqələrindən istifadə edərək, Gəncəyə Türkiyədən müasir təlim verəcək müəllimlərin gətirilməsinə çahşmışdır. Gəncəli gənclərin xaricdə təhsil almasına da xeyli səy göstərmişdir. Ələkbər bəy Rəfıbəyli "Gəncə müsəlman dram məclisi"nin yaradılmasının, Gəncə milli məktəbinin açılmasının, Gəncədə Nizaminin qəbirüstü məqbərəsinin tikilməsinin ilk təşəbbüsçülərindən olmuşdur. O, erməni terrorçularına qarşı mübarizə məqsədiiə yaradılmış *"Difai"* partiyasının Gəncə təşkilatının rəhbərlərindən biri idi.

1905 ildə Gəncədə silahlı daşnak-erməni dəstələrinin azərbaycanlılara qarşı soyqırımlarının qarşısını almaq üçün Ələkbər bəy ümumi səfərbərlik keçirmiş, xalqa rəhbərlik etmişdir. Erməni vəhşiliklərini ifşa etmək məqsədilə 1905 il noyabrın 1-dən başlayaraq qanlı soyqırımı faktlarını ardıcıl surətdə rus dilində qeydə almış, çoxsayh məqalələr dərc etdirmiş, 245 müxbir məktubunun əksəriyyətini şəxsən özü yazmışdır. O, banşıq yaratma, əsirdəyişmə heyətlərinin nüfuzlu üzvü idi. Ələkbər bəy Rəfıbəyli 22 il ərzində Gəncə Bələdiyyə Şurasının - Dumanın üzvü olmuşdur. O, Yeliza-vetpol qubernatorunun 1906 il 30 iyun tarixli fərmam ilə Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin ömürlük fəxri üzvü təsdiq edilmişdir. 1905 ildə daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımları zamanı və bundan sonra fəal milli mövqeyinə görə hökumətin məxfi nəzarətində olan Ələkbər bəy 1908 il iyulun 31-də general-qubernatorun fərmanı ilə 5 il müddətinə Orenburq quberniyasına sürgün edilmişdi. General-qubernator, eyni zamanda, Qafqaz canişininə müraciət edərək, onun qlasnılıq-dan geri çağınlması məsələsini qaldırmışdı. Lakin sürgün baş tutmamış, Rəfıbəyli 1909-13 illərdə Yelizavetpol şəhər dumasının qlasnısı kimi fəaliyyətini davam etdirmişdir. Mübariz milli mövqeyindən geri çəkilməyən Ələkbər bəy 1905-11 illər İran inqilabı zamam Səttar xan dəstələrinə silah və sursatla yardım göstərmişdir. Birinci dünya müharibəsi dövründə Türkiyənin zərərçəkən əhalisinə yardım göstərilməsi üçün icazə ahnması, almanların Sibirə sürgün edilməsi haqqında 1915 il tarixli çar fərmanının Azərbaycan almanlanna şamil edilməməsi məhz Ələkbər bəyin cəsarətli mövqeyi və diplomatik çalışmaları sayəsində baş tutmuşdu.

Birinci dünya müharibəsi (1914-18) zamanı rus koman-danlığı zəifləyən Rusiya ordusunun say tərkibini artırmaq məqsədilə Qafqaz türklərindən (azərbaycanlılardan) də əsgər götürməyi və onları Türkiyəyə qarşı döyüşlərə cəlb etməyi qərara almışdı. Bu məkrli planm baş tutmasına mane olmaq üçün Xəlil bəy Xasməmmədov, İsmayıl xan Ziyadxanov və Ələkbər bəy Rəfibəylidən ibarət nümayəndə heyəti Tiflisdə Qafqaz general-qubernatoru ilə danışıqlar aparmışdılar. Nəticədə, Qafqaz türklərinin orduya məcburi qaydada deyil, könüllü cəlb edilməsi qərara ahnmışdı. Fevral inqilabından (1917) sonra Ələkbər bəy Rəfibəyli Gəncə Milli Komitəsinin üzvü kimi daha geniş fəaliyyət göstərmişdir.

Nuru paşanın komandanlığı ilə Azərbaycana köməyə gələn Qafqaz İslam Ordusunun fəaliyyətinin Gəncə dövründə Ələkbər bəy Rəfıbəyli xüsusi rol oynamışdır.

Ələkbər bəy Rəfibəyli xalqın güzəranı, məişəti və həyat tərzinin, şəhər təsərrüfatının hərtərəfli bilicisi olmuş, publisist kimi də fəaliyyət göstərmiş, qəzetlərdə vaxtaşırı məqalələr dərc etdirmişdir. O, "Tərcüman" qəzetinin tanınmış yazarlarından biri idi.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimləri onu "Azərbaycanın namuslu vətəndaşı" (Nəsib bəy Yusifbəyli), "Gəncənin ən yaxşı vətəndaşı, Azərbaycanın milli ideallarının təəssübkeşi" (Məhəmməd Əmin Rəsulzadə), "Bütün həyatı boyu millətinin maraqlarının müdafiəsi naminə fədakarlıqla çalışmış Azərbaycanın nəhəng ictimai xadimi" (Şəfı bəy Rüstəmbəyli) kimi qiymətləndirmişlər. Ələkbər bəy Rəfibəylinin vəfatı ümummilli itki kimi qəbul edilmişdir.



Ölümündən sonra Gəncə şəhər idarəsi onun xatirəsinin əbədiləşdirilməsi üçün 7 maddədən ibarət qərar qəbul etmiş, lakin bolşevik işğalı bu qərarın yerinə yetirilməsinə imkan verməmişdir.

Əd.: Hüseynov R., Rəfibəylilər, B., 1996; Şüküroğlu L., Cümhuriyyət hökuməti repressiya məngənəsində, B., 2000.

**RƏFİBƏYLİ** Əyyub bəy Məşədi bəy oğlu (1890, Gəncə 19.1.1979, Ankara) - siyasi mühacir, hərbi xadim, polkovnik. İlk təhsilini rus dilli litseydə almış, 1909 ilin sentyabrında Yelizavetpol (Gəncə) şəhərinin 3-cü hissəsinin pristav köməkçisi işləmiş, bir müddət həmin hissənin pristavı vəzifəsini icra etmişdir. 1917 ilin sonlarında Yelizavetpol şəhər polisinin pristavı, 1920 ilin aprelində isə Nuxa (Şəki) qəzasının rəisi idi. *Aprel işğalından (1920)* sonra sovet-

downloaded from KitabYurdu.az

bolşevik rejiminə qarşı *Gəncə üsyanının (1920)* fəal iştirakçılarından olmuşdur. Üsyan amansızlıqla yatırıldıqda təqiblərdən qurtularaq 1920 ilin iyununda bir qrup silahdaşı ilə bərabər Türkiyəyə keçə bilmişdir. Türkiyənin xüsusi xidmət orqanlarında fəaliyyət göstərmiş, 1941 ildə Türkiyə kəşfiyyat idarəsinin Qars filialının rəis müavini təyin edilmişdir. Türkiyədə Eyyub Sayqın adını daşımışdır.

*Əd.:* Hüseynov R., Rəfibəylilər, B., 1996; Ə l y a r l ı İ., Beh-b u d o v T., Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər), B., 1998; Ş ü k ü r o ğ l u L., Cümhuriyyət hökuməti repressiya məngənəsində, B., 2000.

**RƏFİBƏYLİ** Xudadat bəy Ələkbər bəy oğlu (12.1.1877, Gəncə - 1.6.1920, Bakı) - Azərbaycan xalqının milli istiqlal mübarizəsinin fəal iştirakçılrından biri, görkəmli dövlət xadimi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında



və fəaliyyətində yaxından iştirak etmişdir. Azərbaycanın ilk ali təhsilli cərrah həkimlərindən biri idi. Atası Ələkbər bəy *Rəfibəyli* xeyirxah, bütün mahalda tanınan müdrik el ağsaqqalı və ictimai xadim idi. Xudadat bəy ilk təhsilini Gəncə gimnaziyasında almış, 1904 ildə Xarkov İmperator Universitetinin tibb fakültəsini bitirmiş, həmin universitetin qospital-klinikasının cərrahiyyə şöbəsində 3 il ordinator işləmişdir. Xarkovda tələbə dostlan ilə birlikdə azərbaycanlılardan ibarət "Zemlyaçestvo" ("Həmyerlilər") dərnəyi yaratmışdı. 1907 ildə Gəncəyə qayıtmış, qubernatorun əmri ilə şəhər xəstəxanasına direktor təyin olunmuşdu. 1912-13-cü tədris ilində Sankt-Peterburqdakı İmperator Klinik İnstitutunda 12 ixtisas üzrə dinləyici olmuşdur. Səmərəli fəaliyyəti, peşəkarlığı və qüsursuz xidməti nəzərə alınaraq Xudadat bəy Rəfibəyli titulyar müşavir (1909), kollej asessoru (1910), saray müşaviri (1912) rütbələrinə təqdim olunmuş, 1909 ildə Gəncə Mahal Məhkəməsində fəxri barışıq hakimi (mirovaya sudya) təyin edilmişdir (1916 ilədək). 1915 il noyabrın 18-ində kollej müşaviri rütbəsinə irəli çəkilmişdir. 1916 ildə 3-cü dərəcəli Müqəddəs Stanislav ordeni ilə təltif olunmuşdur.

Xudadat bəy Rəfibəyli 1914 ildə Həsən bəy *Ağayevlə* birlikdə Azərbaycanda ilk səhiyye-sağlamlıq cəmiyyəti olan "Gəncə tibb cəmiyyəti"ni yaratmışdır. O, cəmiyyətin üzvü, Xarkov Universitetinin məzunu Musa bəy *Rəfiyev* və b. ilə birlikdə yoluxucu xəstəliklərin qarşısını almağa çalışmış, imkansızlara, yoxsullara pulsuz tibbi yardım etmiş, xeyriyyəçilik fəaliyyəti göstərmişdir. Xudadat bəy 1918 ilin yanvarında Türkiyə cəbhəsindən qayıdan yaralı rus əsgərləri üzərində Şəmkir və Zəyəmdə cərrahiyyə əməliyyatları aparmış, neçə-neçə yaralını ölümdən qurtarmışdı.

**Xudadat bər Rəfibəyli və arvadı Cəvahir xanım**



Xudadat bəy Rəfibəyli 1917 ilin martında Gəncədə yaranmış Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdi. O, heç bir partiyamn, yaxud qrupun üzvü olmamış, ömrünün sonuna qədər bitərəf qalmışdı. Bununla belə, ölkədə baş verən ictimai-siyasi hadisələrdən kənarda qalmamış, azadlıq və istiqlal ideyası onu həmişə düşündürmüşdü.

1918 il iyunun 17-də Fətəli xan Xoyski tərəfindən Gəncədə təşkil edilmiş Azərbaycan Xalq Cümhuriyyətinin 2-ci hökumət kabinəsində Xudadat bəy Rəfibəyli xalq səhiyyəsi və himayədarlıq naziri təyin olunmuşdu. Cümhuriyyət hökuməti Bakıya köçdükdən sonra həmin ilin oktyabrında Səhiyyə Nazirliyi müstəqil nazirliyə çevrilmiş və Xudadat bəy yenə də nazir vəzifəsinə təyin edilmişdi. Müstəqil səhiyyə sisteminin yaradılması Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ən böyük nailiyyətlərindən biri idi. Bu işdə Xudadat bəy fəal rol oynadı. Həmin dövrdə onun təşəbbüsü və rəhbərliyi ilə tibb müəssisələrinin genişlənməsinə başlandı, xəstəxanalar, ambulatoriyalar, həkim və feldşer məntəqələri işə başladı, dövlət hesabına pulsuz müalicəxanalar açıldı, yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirildi, yeni-yeni müalicə ocaqlarının bünövrəsi qoyuldu. 1918 ilin dekabrında F.x.Xoyski hökuməti istefa verdikdə, Xudadat bəy xalq səhiyyəsi naziri vəzifəsini tərk etdi.

Xudadat bəy Rəfibəylinin ədalətli, nəcib adam olduğunu, habelə yüksək peşəkarlığını, bölgədə böyük nüfuzunu görən Azərbaycan hökuməti 1919 ilin mayında

downloaded from KitabYurdu.az



onu Gəncə quberniyasının qubernatoru vəzifəsinə təyin etdi. O, ilk gündən Gəncə quberniyası ərazisində daşnak qulduru Andronikin başçılıq etdiyi erməni-daşnak silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımlarının qarşısını almaq üçün qətiyyətlə mübarizə aparmağa başladı. Ərazidə azərbaycanlılara qarşı soyqırımının qarşısının alınması, hərc-mərcliyə, soyğunçuluğa son qoyulması, asayişin bərqərar edilməsi, sabitlik yaradılması üçün qəti tədbirlər gördü. Nəticədə, quberniya quldur dəstələrindən təmizlənmiş, erməni terrorçuları zərərsizləşdirilmiş, əmin-amanlıq xeyli möhkəmlənmişdi. Bu dövrdə erməni-daşnak quldur dəstələrinin törətdikləri qanlı cinayətlər, vəhşiliklər nəticəsində Zəngəzurda, bütövlükdə, Azərbaycanın qərb bölgəsində (indiki Ermənistan ərazisində) neçə-neçə şəhər və kənd dağıdılmış, yandırılmış, azərbaycanlılar kütləvi surətdə məhv edilmiş, uşaqlar, qocalar amansızcasına qətlə yetirilmişdi. Xudadat bəy Rəfibəyli erməni vəhşilikləri nəticəsində doğma yurd-yuvalarından - Qərbi Azərbaycandan qovulmuş 20 mindən çox soydaşımızı Gəncə mahalında yerləşdirmək, onlara ilkin yardım göstərmək, ərzaq məhsulları ilə təmin etmək, yaralılara və xəstələrə tibbi xidmət göstərmək sahəsində gərgin fəaliyyət göstərmişdi.

*Aprel işğalından (1920)* sonra Rəfıbəyli aprelin 30-da bolşeviklərin tələbi ilə qubernator kimi səlahiyyəti öz üzərindən götürdü. Hakimiyyəti yeni yaranmış inqilab komitəsinə təhvil verdi. Mayın 12-də Rəfibəyli həbs olundu və ona qarşı bir neçə ittiham irəli sürüldü. Əsas ittiham ermənilərin yazdığı danoslara əsaslanırdı. Bolşeviklər onu erməni kəndlərinin yandırılması, quberniyanın erməni sakinlərinin sıxışdırılması ittihamı ilə Nargin adasında güllələdilər. Rəfibəylinin arvadı Cəvahir xanım kiçik yaşlı 3 uşaqla birlikdə taleyin ümidinə qaldı: ataları qətlə yetirilərkən Kamilin 11, Rəşidin 9, Nigarın isə 7 yaşı vardı. 1930 ilin oktyabrında Gəncə Şəhər Soveti Rəyasət Heyəti X.Rəfibəylinin arvadı Cəvahir xanımın ailəsi ilə birlikdə, əmlakı müsadirə olunmaqla keçmiş Gəncə dairəsi hüdudlarından çıxarılması (sürgün edilməsi) haqqında qərar qəbul etmişdir.

Azərbaycan Respublikası Prokurorluğunun 1990 il 2 iyul tarixli qərarı ilə Xudadat bəy Rəfıbəyli barəsində cinayət işinə cinayət hadisəsi tərkibi olmadığına görə xitam verildi.

Xudadat bəy Rəfibəylinin övladları ata-babalarının şərəfli ömür yolunu davam etdirdilər. Kamil bəy Rəfibəyli ömrünün sonuna kimi Türkiyədə hakimlik etmiş, Nigar Rəfıbəyli Azərbaycanın poeziyasının görkəmli nümayəndəsi - Xalq şairi zirvəsinə ucalmışdır. Rəşid bəy isə tanınmış geoloq olmuşdur.

*Əd.:* Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920), B., 1990; Hüseynov R., Rəfibəylilər, B., 1996; Şüküroğlu L., Cümhuriyyət hökuməti repressiya məngənəsində, B., 2000.

**RƏFİBƏYLİ** Səməd bəy Məşədi bəy oğlu (1892, Gəncə -19.1.1980, İstanbul) - görkəmli hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti, Türkiyə ordusunun generalı (1948). Azərbaycan milli istiqlal hərəkatı tarixində görkəmli yeri olan Rəfibəylilər nəslindəndir. 1916 ilin yanvarında Tiflis kadet korpusunu bitirmiş, bir müddət Qafqaz Sərhəd Alayında rota komandiri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti ordusu hissələrinin formalaşdırılmasında böyük xidmətləri olmuşdur. 1917 ilin sonlarında milli qoşun hissələrindən təşkil olunmuş Müsəlman korpusu formalaşdırılanda Səməd bəy Rəfibəyli də onun sıralarına cəlb edilmiş, 1-ci Bakı alayına rota komandiri təyin olunmuşdur. 1918 il iyulun 2-də Azərbaycan dəmir yolunun müvəqqəti hərbi komissarı təyin edilmişdi. Azərbaycanın istiqlaliyyəti elan edildikdən sonra Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* sıralarında Azərbaycan torpaqlarının daşnak-bolşevik qüvvələrindən təmizlənməsində fəal iştirak etmişdir. Həmin vaxt kapitan (yüzbaşı) rütbəsində olan Səməd bəy birbaşa Qafqaz İslam Ordusu komandanına tabe olan əlahiddə süvari bölüyünün komandiri idi.

Türk qoşunları Azərbaycam tərk etdikdən sonra Səməd boy Rəfibəyli Azərbaycan Xalq Cümhuriyyəti ordusunun 1-ci piyada diviziyasına qəbul olunmuş və baş adyutant vəzifəsinə təyin edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin hərbi naziri Səməd bəy Mehmandarov öz əmr və qərarlarında Rəfibəylini bacarıqlı, milli mənafelərə sadiq zabit kimi səciyyələndirmişdir. 1919 il fevralın 3-də Ağdama ezam olunan ştabs-kapitan Səməd bəy 1-ci piyada alayının 3-cü batalyonunun komandiri olmuşdur. 1919 il avqustun 26-da Səməd bəy Rəfibəyli ycni yaradılmış Lənkəran ehtiyat taborunun komandiri təyin edildi. Bir müddətdən sonra bu tabor alaya çevrildi. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun sayca 7-ci olan bu piyada alayı Şirvan piyada alayı adlandırılmış və Səməd bəy Rəfıbəyli onun komandiri saxlanmışdı. Şirvan alayı Qarabağda erməni-daşnak təcavüzkarlarına qarşı döyüşlərdə də yaxından iştirak etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ərəfəsində isə Səməd bəy süvari alayının komandiri təyin olunmuşdu.

Azərbaycan ordusunda sonuncu rütbəsi podpolkovnik olan Səməd bəy Rəfibəyli *Aprel işğalıdan (1920)* sonra bolşevik rejiminə qarşı geniş miqyas almış xalq üsyanlarının fəal iştirakçılarından idi. Bu üsyanlar yatırıldıqdan sonra öz qüvvələri ilə birlikdə Türkiyəyə keçmək məcburiyyətində qalan Səməd bəy Türkiyə ordusu sıralarına qatılaraq, Atatürkün başçılıq etdiyi İstiqlal savaşına qoşuldu. Türkiyədə yaşadığı dövrdə Səməd paşa Rəfıbəyli Əbdülsoməd Sayqın adı ilə tanınmışdır. Səməd bəy Türkiyədə bir sıra hərbi vəzifələrdə çahşmış, 45-ci və 2-ci süvari alaylarının komandiri olmuşdur. Sədaqətli xidmətinə görə o, Türkiyənin Hərb və İstiqlal medalları ilə təltif edilmişdir.

*Əd.:* Əlyarlı İ., Behbudov T., Müstəqil Azərbaycanın polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər), B., 1998; Şüküroğlu L., Cümhuriyyət hökuməti repressiya məngənəsində, B., 2000.

**RƏFİYEV Hacı** Məmmədhüseyn (1860, Gəncə - 1920, orada) - maarifçi ziyalı, xeyriyyəçi. Nizaminin qəbirüstü

downloaded from KitabYurdu.az



məqbərəsinin bərpasının təşəbbüsçülərindən biri olmuş, onun maliyyələşdirilməsində iştirak etmişdir. 1902 ildə Gəncədə Azərbaycan məktəbinin açılmasında da onun böyük rolu olmuşdur. Klassik ədəbiyyatın gözəl bilicisi idi. Gənc yaşlarından şer yazmış, dövrünün görkəmli şairləri ilə tanış və dost olmuşdur. Gəncədə zəngin kitabxanası var idi. M.Rəfıyev Gəncədə 1 -ci gildiya tacir rütbəsi almış yeganə məşhur ticarətçi və sənayeçi idi. Xalça toxuculuğu və satışı sahəsində dünyanın bir çox ölkələrində məşhurlaşmışdı. Onun Təbriz, Nijni Novqorod, İstanbul, Tehran və Parisdə xalça mağazaları var idi. Gözəl rəssamlıq qabiliyyətinə malik olan Hacı Məmmədhüseyn özünün çəkdiyi milli naxışlarla nəfıs xalçalar toxutdururdu. Ümumdünya Paris xalça sərgisində "Qrand prix" yüksək mükafatı və qızıl medalla (1900), maarifçilik sahəsində fəaliyyətinə görə çar hökuməti tərəfındən "Za userdie" ("Göstərdiyi səyə görə") qızıl medalı ilə təltif olunmuşdu. Yelizavetpol (Gəncə) general-qubernatorunun 1906 il 30 iyun tarixli fərmanı ilə Hacı Məmmədhüseyn Rəfiyev və onun oğlanları Məşədi Əli və Abbas Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin fəxri üzvü təsdiq edilmişdilər. Hacı Məmmədhüseyn və oğlu Məşədi Əli 1909-13 illərdə Gəncə şəhər dumasının qlasnısı olmuşlar.

1906 ildə ermənilərin törətdiyi soyqırımlarına qarşı mübarizə aparmaq üçün yaradılan *"Difai"* partiyası Gəncə təşkilatının fəal üzvlərindən idi. 1918 il yanvarın 7-də Qafqaz cəbhəsindən qayıdan rus qoşunları tərk-silah edilərkən həlak olan azərbaycanlı şəhidlərin Gəncədə dəfn mərasiminin təşkilatçıları Hacı Məmmədhüseyn Rəfiyev və Həsən bəy Ağayev olmuşlar.

**RƏFİYEV** Məşədi Əli Hacı Məmmədhüseyn oğlu (1886, Gəncə - 9.9.1948, İstanbul) - Azərbaycan istiqlal hərəkatının iştirakçılarından biri, xeyriyyəçi. İlk təhsilini Gəncənin "Şah Abbas" məscidi yanındakı mədrəsədə almış, sonra Yelizavetpol (Gəncə) klassik gimnaziyasını bitirmişdir. Maliyyə və kommersiya işləri ilə məşğul olmuş, Gəncə



Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü kimi xeyriyyəçilik fəaliyyəti göstərmişdir. Gəncə general-qubernatorunun fərmanı ilə atası Hacı Məmmədhüseyn və qardaşı Abbasla birlikdə Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin fəxri üzvü təsdiq edilmişdi. 1909-13 illərdə Gəncə şəhər dumasının qlasnısı olmuşdur.

Fevral inqilabından (1917) sonra siyasi fəaliyyətə qoşulmuş, "Türk Ədəmi-Mərkəziyyət" partiyasının, bu partiyanın "Müsavat"'la birləşməsindən sonra "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" Partiyasının fəal üzvlərindən olmuşdur. Nəsib bəy Yusifbəylidən sonra "Müsavat"'ın Gəncə təşkilatına rəhbərlik etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk milli Gəncə Dövlət Bankının müdiri olmuşdur.

*Aprel işğalından (1920)* sonra qardaşları ilə birlikdə sovet-bolşevik rejiminə qarşı *Gəncə üsyanının (1920)* təşkilində fəal iştirak etmişdir. Üsyan qəddarlıqla yatırıldıqdan sonra təqiblərdən qurtularaq Türkiyəyə mühacirət etmiş, "Müsavat" ın Xarici Bürosunun fəallarından olmuşdur.

**RƏFİYEV** (Rəfizadə) Musa bəy Hacı Məmmədhüseyn oğlu (1888, Gəncə - 1938, Təbriz) - ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin üzvü. İlk təhsilini Gəncənin "Şah Abbas" məscidi nəzdindəki mədrəsədə almış, sonra Gəncə klassik gimnaziyasında oxumuş, 1906 ildə Xarkov Universitetinin tibb fakültəsinə daxil olmuşdur. Təhsil illərində azərbaycanlı tələbələrin həmyerlilər cəmiyyətində fəal iştirak etmişdir. 1911 ildə universiteti bitirib Gəncəyə qayıtmış, şəhər xəstəxanasında həkim işləmişdir. Nümunəvi xidmətlərinə görə ona 1913 ildə "Titulyar müşavir", 1914 ildə



"Kollej assesoru", 1916 ildə "Saray müşaviri" rütbələri verilmişdir. 1914 ilin sonlarında Xudadat bəy Rəfibəyli, Həsən bəy Ağayev ilə birlikdə Gəncədə ilk səhiyyə cəmiyyətinin yaradılmasında iştirak etmişdir. Fevral inqilabından (1917) sonra Müvəqqəti hökumətin yaratdığı Xüsusi Zaqafqaziya Komitəsinin Yelizavetpol quberniyası üzrə müvəkkili olmuşdur. 1917 ildə Gəncədə yaradılan "Türk Ədəmi-Mərkəziyyət" partiyasının fəal üzvlərindən olmuş, 1917 il oktyabrın 25-də Bakıda "Müsavat" partiyasının birinci qurultayında Mərkəzi Komitənin üzvü seçilmişdir. Musa bəy Rəfiyev *Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının,* Zaqafqaziya Federasiyasının süqutundan sonra isə (1918, 26 may) Azərbaycan Milli Şurasının (27 may 1918 ildən) üzvü olmuşdur. 1918 il iyunun 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə ikinci müvəqqəti hökumət təşkil edilərkən Musa bəy Rəfiyev portfelsiz nazir təyin olunmuşdur. Gəncədə fəaliyyət göstərən Müsəlman Milli Şurasının nəzdindəki qaçqın şöbəsi əsasında Səhiyyə və Himayədarlıq Nazirliyi yaradılmış, oktyabrda Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Bakıya köçərkən bu nazirlik iki nazirliyə - Səhiyyə Nazirliyinə və Himayədarlıq Nazirliyinə bölünmüş, Musa bəy Rəfiyev Himayədarlıq Nazirliyinə rəhbərlik etmişdir. Bu müddətdə o, qaçqınlar probleminin həllinə xüsusi diqqət yetirmiş, bu problemi mütərəqqi yollarla, milli ayrı-seçkiliyə yol vermədən həll etməyə səy göstərmişdir.

Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Musa bəy Rəfiyev Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsavat və bitərəflər fraksiyasi"ndan maliyyə-büdcə komissiyasının üzvü, həm də hərbi komissiyanın sədri idi. 1919 il dekabrın 24-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi Azər-

downloaded from KitabYurdu.az

baycan Xalq Cümhuriyyətinin 5-ci hökumət kabinəsində Musa bəy Rəfiyev səhiyyə və himayədarlıq naziri olmuşdur. Musa bəy milli dövlətçiliyi bərpa etmək üçün *Gəncə üsyanının (1920)* təşkilatçılarından biri olmuş, üsyan qəddarlıqla yatırıldıqdan sonra Türkiyəyə mühacirət etmişdir. Bir neçə ildən sonra İrana getmiş, Təbrizdə klinika yaradaraq, ömrünün axırına qədər orada həkimlik etmişdir.



**RƏHİMLİ** Məmmədəli Paşasadıq oğlu (10.4.1899, Tiflis -?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Tiflis gimnaziyasını bitirmişdi (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini maşınqayırma sahəsində davam etdirmək üçün Darmştadt İnstitutuna (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**RƏHİMOV** Cəbrayıl Məmmədrza oğlu (1892, Bakı - ?)-Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şamaxı realnı məktəbini bitirmiş (1912), Moskva Kommersiya İnstitutuna daxil olmuşdu. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**RƏHİMZADƏ** Abdulla Məmməd oğlu (1898, Gəncə - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Yelizavetpol kişi gimnaziyasını bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**RƏSULZADƏ** Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu (31.1.1884, Bakı, Novxanı k. - 6.3.1955, Türkiyə, Ankara) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi; Azərbaycan Xalq Cümhuriyyətinin (1918-20) banilərindən biri; Azərbaycan Milli Şurasının sədri (1918, 27 may - 1918, 17 iyun; 1918, 16 noyabr – 7 dekabr), Azərbaycan Xalq



Cümhuriyyəti Parlamentində "Müsavat" və bitərəflər fraksiyasının sədri; jurnalist, publisist. İlk təhsilini Sultan məcid Qənizadənin 2 saylı rus-tatar (rus-Azərbaycan) məktəbində almış, Bakı texniki məktəbini bitirmişdir. Gənc yaşlarından inqilabi hərəkata qoşulmuş, "Müsəlman Gənclik Təşkilatı" adlı gənc azərbaycanlı inqilabçılar dərnəyi yaratmış və ona başçılıq etmişdir (1902-03). Təşkilat mətbəə üsulu ilə intibahnamələr çap edib əhali arasında yaymışdır. 1904 ildə o, Rusiya Sosial Demokrat Fəhlə Partiyası Bakı Komitəsi nəzdində "Müsəlman sosial-demokrat "Hümmət" qrupunun yaradılmasında iştirak etmişdir. Bu dövrdə mətbuatda ("Şərqi-Rus", *"Hümmət"*, "Təkamül" və s.) dərc olunmuş yazılarında xalqa söz, mətbuat, vicdan, cəmiyyət və ittifaqlar yaratmaq azadlıqları verilməsi, vətəndaşların əmlakının və canlarının toxunulmazlığının təmin olunması tələbləri ilə çıxış edir, xalqı maariflənməyə çağırır, Rusiyanın Azərbaycanda yeritdyi milli qırğın siyasətini kəskin tənqid edirdi. 1905-07 illər rus inqilabının gedişində və bundan sonra Azərbaycanda yaranan milli oyanış, Əlimərdan bəy *Topçubaşov,* Əhməd *Ağaoğlu,* Əli bəy *Hüseynzadə,* Həsən bəy *Zərdabi* və b.-nın çar Rusiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizəsi, getdikcə genişlənməkdə olan "türkləşmək, islamlaşmaq və müasirləşmək" ("türk qanlı, islam imanlı, Avropa qiyafətli") məfkurəsi Rəsulzadənin milli-siyasi görüşlərinin formalaşmasına güclü təsir göstərmişdir. 1906-07 illərdə "Təkamül"də, həmçinin başqa qə

*Azərbaycan Milli Şurasının üzvləri: M. Ə.Rəsulzadə, M. Vəkilov, A. Kazımzadə və Cəfəroğlu. 1918*



downloaded from KitabYurdu.az



*İstanbulda sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndə heyətinə – M.Ə.Rəsulzadəyə, X.Xasməmmədova və A.Səfikürdskiyə Cümhuriyyət Hökuməti tərəfindən verilmiş etimadnamə. 1918, 17 iyun*

zetlərdə millətlərə, tayfalara, siniflərə, insanlara (fərdlərə) hüquq bərabərliyi və azadlıq tələb edən yazılarla çıxış etmiş və zaman keçdikcə bu siyasi tələbləri ***"insanlara hürriyyət, millətlərə istiqlal!"*** çağınşı kimi formalaşdırmışdır. 1905-07 illər inqilabının məğlub olmasından sonra Rusiya-da təqiblərin artdığı şəraitdə Rəsulzadə İrana mühacirət etdi. Rəsulzadə 1908-11 illər İran inqilabında, Cənubi Azərbaycanda milli-demokratik oyanışda fəal iştirak etmiş, Səttarxan və Bağırxanla görüşmüşdü. Bu müddətdə o, Teh-randa Avropa tipli ilk gündəlik "İrane-nou" ("Yeni İran") qəzetini dərc etmişdir (1910-11). Həmin dövrdə o, Seyid Həsən Tağızadə ilə birlikdə İran Demokrat Partiyasını yaratmış və onun Mərkəzi Komitəsinə üzv seçilmişdir. İran inqilabı yatırıldıqdan (1911) sonra Rəsulzadə S.H.Tağızadə ilə birlikdə Türkiyəyə mühacirət etmişdir. Burada çar Rusiyasının təqiblərindən qurtularaq Türkiyəyə sığınmış Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu ilə sıx əməkdaşlıq et-miş, *"Türk ocağı"* təşkilatına daxil olmuş, "Türk yurdu" jurnalında Cənubi Azərbaycan türklərinə həsr olunmuş məqalələrində onların milli-siyasi hüquqlannı müdafıə etmişdir. Rəsulzadə, eyni zamanda, bu dövrdə türkçülük ideyaları ilə daha dərindən tanış olur, böyük Azərbaycan mütəfəkkiri Şeyx Cəmaləddin *Əfqaninin* "Vəhdəti cinsiyyə fəlsəfəsi"nə ("Milli Birlik fəlsəfəsi"nə) yiyələnir, onu farscadan türkcəyə çevirib "Türk yurdu"nda çap etdirir.

Rəsulzadə 1913 ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə verilmiş əfv-ümumidən sonra Bakıya dönür, *"Müsavat" partiyasının* rəhbərliyinə keçir ("Müsəlman Demokratik Partiyası" "Müsavat" 1911 ilin oktyabrında, Rəsulzadə hələ Türkiyədə mühacirətdə olduğu zaman, Məmmədəli *Rəsulzadə,* Abbasqulu *Kazımzadə* və Tağı Nağıoğlu tərəfindən yaradılmışdı) və milli azadlıq mübarizəsində daha fəal iştirak edir. 1915 ildə *"Açıq söz "* qəzetini nəşr edir. Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparır, "Dirilik" (1914-16) jurnalında "Milli dirilik" başlığı ilə silsilə məqalələr dərc etdirir, millətin tərifındə dini birliyi deyil, dil və mədəniyyət birliyini önə çəkir, milli istiqlal ideyalarını geniş təbliğ edir. Onun rəhbərlik etdiyi "Müsavat" partiyası milli azadlıq mübarizəsinin önünə keçir. Rusiyada Fevral inqilabının (1917) qələbəsindən sonra milli əsarət altında olan xalqlara, o cümlədən Azərbaycan xalqına yeni yaradılacaq demokratik Rusiyada "Milli-məhəlli (ərazi) muxtariyyət" verilməsi uğrunda mübarizə apanr. Qafqaz müsəlmanlarının Bakı (1917, aprel) və Rusiya müsəlmanlannın Moskva (1917, may) qurultaylarında öz mövqeyini uğurla müdafıə edir. Moskva qurultayında onun Azərbaycan dilində etdiyi çıxışda irəli sürülən "Milli-məhəlli (ərazi) muxtariyyət" proqramı Əhməd *Salikovun* "milli-mədəni muxtariyyət" proqramından fərqli olaraq böyük səs üstünlüyü ilə (446:291) qəbul olunur. Bu, Rusiyanın türk xalqları arasında onun nüfuzunu daha da artırdı. Nəticədə o, Rusiyanın gələcək dövlət idarəçiliyi formasını müəyyən edəcək Müəssislər məclisinə Azərbaycanla yanaşı Türküstandan da deputat seçildi. 1917 ilin iyununda "Müsavat" la Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi *"Türk Ədəmi-Mərkəziyyət" Partiyası* birləşdi. Rəsulzadə birləşmiş "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın sədri oldu. 1917 ilin oktyabrında "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın 1-ci qurultayında M.Ə.Rəsulzadə partiyanın Mərkəzi Komitəsinin sədri seçildi. O, qurultaydakı çıxışında partiyanın mübarizə istiqamətini müəyyən edərək bildirdi: ***"Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal".*** Lakin Oktyabr çevrilişindən (1917) sonra Rusiyada bolşevik irticası və yeni milli əsarət dövrü başlandı. Silah gücünə keçmiş Rusiya imperiyasının sərhədlərini bərpa etmək siyasəti yeridildi. Bakıda və onun ətraflarında hakimiyyəti ələ keçirən S.Şaumyamn bolşevik-daşnak güruhu Azərbaycana "muxtariyyət" əvəzinə "məzarıstan" vəd etdi və 1918 ilin martında Bakıda və bunun ardınca ölkənin digər bölgələrində Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törədildi [bax *Mart soyqırımı (1918), Zəngəzur qırğınları, Qarabağda azərbaycanlılara qarşı soyqırımları, Quba qırğınları, Naxçıvan bölgəsində soyqırımları (1917-20), Şamaxı qırğınları, Cənubi Azərbaycanda soyqırımı]*. Mart soyqırımı zamanı milli-istiqlalçı qüvvələrə başçılıq edən "Müsavat"ın binası və "Açıq söz" ün redaksiyası yandırıldı. Bu zaman Rəsulzadə milli azadlıq hərəkatının digər görkəmli nümayəndələri ilə birlikdə Qafqazın Rusiyadan aynlaraq müstəqil konfederasiya dövləti yaratması və Türkiyə ilə sülh danışıqlarına girməsi uğrunda mübarizəyə başlayır və Tiflisdə - Zaqafqaziya

downloaded from KitabYurdu.az



Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclasının açılışında M.Ə.Rəsulzadənin çıxışı. 1918, 7 dekabr

fraksiyası rəyasət heyətinin sədri kimi çıxışlar edir. *Zaqafqaziya seymi* dağıldıqda Rəsulzadə Batum konfransında iştirak etdiyinə görə gizli səsvermə nəticəsində qiyabi olaraq *Azərbaycan Milli Şurasının* (parlamentinin) sədri seçilir (1918, 27 may). Milli Şura Azərbaycanı müstəqil dövlət elan edir (bax *İstiqlal bəyannaməsi)* və M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri kimi xarici işlər naziri Məmməd Həsən Hacınski ilə birlikdə Osmanlı dövləti ilə Batum müqaviləsini imzalayır (1918, 4 iyun). Müqavilənin 4-cü maddəsinə əsasən Osmanlı dövləti Bakı sovetinin daşnak-bolşevik hərbi birləşmələri və erməni-daşnak quldur dəstələri tərəfindən soyqırıma məruz qalmaqda olan Azərbaycan xalqına qardaşlıq yardımı göstərir. Azərbaycanın və bütün Cənubi Qafqazın türk-müsəlman əhalisi qırılıb məhv olmaqdan qurtulur. Rəsulzadə dövlət xadimi kimi Azərbaycan Xalq Cümhuriyyətinin 1918 ilin iyununda baş vermiş ilk hökumət böhranın aradan qaldırılmasında mühüm rol oynamış, istiqlalın qorunub saxlanması naminə sədri olduğu Milli Şuranın müvəqqəti olaraq, istefasına razılıq vermişdir [bax *"İyun böhranı"]. O,* 1918 ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinin İstanbul beynəlxalq konfransına göndərilən səlabiyyətli nümayəndə heyətinə (Rəsulzadədən başqa Xəlil bəy Xasməmmədov və Aslan bəy Səfıkürdski daxil idi) sədrlik etmiş, çox mürəkkəb beynəlxalq şəraitdə Azərbaycanın mənafeyini uğurla müdafıə etmiş, Azərbaycanda hərbi işin təşkili, maliyyə problemi, ərazi məsələsi haqqında Türkiyə rəsmiləri ilə danışıqlar aparmış, xüsusən Bakı məsələsində çevik və prinsipial mövqe tutmuşdur. 1918 il noyabrın 16-da Azərbaycan Milli Şurasının fəaliyyəti bərpa olunduqdan sonra onun sədri kimi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin formalaşdırılmasında mühüm rol oynamışdır.

Parlamentin təntənəli açılışında (1918, 7 dekabr) parlaq nitq söyləmiş və sonra "Müsavat" partiyasi adından gənc Cümhuriyyətin dövlət quruluşu, daxili və xarici siyasətinin əsas prinsipləri barədə bəyannamə ilə çıxış etmişdir. Onun ***"...müstəqil Azarbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrarnəsini təmsil edən bu iiç boyalı bayraq daima başlarımızın üstündə ehtiraz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir"*** sözləri Parlament üzvlərinin ayaq üstə sürəkli alqışları ilə qarşılanmışdı. Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində "Müsavat" fraksiyasına (1919 ilin oktyabrından *"Müsavat" və bitərəflər fraksiyasi)* başçılıq etmiş, digər istiqlalçı qüvvələrlə birlikdə Azərbaycanın milli və dövlət maraqlarına cavab verən qanunların qəbulunda həlledici rol oynamışdır.

downloaded from KitabYurdu.az

M.Ə.Rəsulzadə Parlamentdə Bakı Dövlət Universitetinin açılması ətrafında gedən müzakirələrdə də qətiyyətli çıxışlar etmişdi. O, milli kadrların azlığına görə Universitetin açılmasını vaxtsız hesab edənlərə və başqa dildə açılmasına qarşı çıxanlara cavabında demişdi: "...Universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin, bu, başqa dildə də olsa, Universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır. ...Universitetdə türk dili keçiləcək, tələbələrin özləri də Bakıda, öz doğma xalqı içərisində özlərini rahat hiss edəcəklər". M.Ə.Rəsulzadə Universitet fəaliyyətə başladıqdan sonra tarix-filologiya fakültəsində Osmanlı ədəbiyyatı tarixindən dərs demişdir.

Rəsulzadə bu dövrdə Borçalı və Qarabağla bağlı Azərbaycan Xalq Cümhuriyyətinə qarşı qaldırılmış ərazi iddialarında prinsipial mövqe tutmuşdur. Borçalı ilə bağlı Azərbaycan hökumətini "qan tökməklə" hədələyən gürcü nümayəndəsinə ***"nə etmək olar, əgər məcbur etsələr, qan da tökmək olar"*** **deyə qətiyyətlə cavab vermişdi. O, Qarabağ məsələsində də eyni cür qətiyyət göstərmişdi:** ***bizim fikrimizcə və hökumətin fikrinə görə Qarabağ məsələsi yoxdur. Necə ki, Bakı məsələsi yoxdur. Buna görə də Qarahağ ünvanı ilə olan hər növ təklifi rədd edirik.***

Rəsulzadə "Müsavat" partiyasının 1919 ilin dekabrında keçirilmiş 2-ci qurultayının rəyasət heyətinin sədri seçilmiş, partiyanın Mərkəzi Komitəsinin və Parlament fraksiyasının fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış etmişdir. Yenidən partiyanın Mərkəzi Komitəsinin sədri seçilmişdir.

1920 il aprelin 27-də 11-ci Qırmızı ordunun artıq Bakını ələ keçirmiş olduğu şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində hakimiyyəti bolşeviklərə təhvil vermək məsələsi müzakirə olunarkən qətiyyətlə bunun əleyhinə çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra gizli fəaliyyətə keçən Rəsulzadənin göstərişi ilə Bakıda "Müsavat"ın gizli mərkəzi yaradıldı. Onun özü isə Lahıcda gizləndi. Rəsulzadə qırmızı istiladan sonra Azərbaycan Xalq Cümhuriyyətinin dövlət strukturlarının dağıdılması, repressiyalar, qanlı qırğınlar dovründə xalqın sovet-bolşevik rejiminə qarşı göstərdiyi şiddətli müqaviməti və verdiyi saysız qurbanları görərək, ***milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə etməkdə olduğuna inandığını*** bildirirdi.

M.Ə.Rəsulzadə 1920 il avqustun 17-də həbs olunmuş, lakin İ.Stalinin göstərişi ilə həbsdən azad olunub Moskvaya aparılmış, Rusiya Sovet Federativ Sosialist Respublikasının Milli İşlər Komissarlığında işlə təmin olunmuşdu. Bir müddət sonra Sankt-Peterburqa, oradan isə gizli yolla Finlandiyaya keçərək Türkiyəyə mühacirət etdi. 1922 ilin sonlarında onun İstanbulda siyasi mühacir həyatı başlandı. O, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra müxtəlif xarici ölkələrə getməyə məcbur olan azərbaycanlıların istiqlal mübarizəsini vahid mərkəzdən idarə etmək məqsədilə *Azərbaycan Milli Mərkəzini* (İstanbulda), *"Müsavat" Partiyasının Xarici Bürosunu* yaratdı və "Müsavat"ın Azərbaycanda fəaliyyət göstərən gizli təşkilatına istiqamət verdi. O, eyni zamanda siyasi mühacirətin parçalanmasının qarşısını almağa, onun vahid mərkəzdən idarə olunmasına çalışırdı. 1926 ildə onun fəal iştirakı ilə Parisdə *"Prometey"* təşkilatı yaradıldı. "Prometey" sovet rejiminə qarşı müxtəlif xalqların nümayəndələrinin vahid mübarizə blokunu yaratmalı idi. O, 1931 ildə sovet hökumətinin tələbinə əsasən, Türkiyəni tərk etməyə məcbur oldu. 1932 ildə Rəsulzadənin siyasi mühacirətinin Polşa dövrü başlandı. 1934 ildə Ə.Topçubaşovla birlikdə Brüsseldə Qafqaz Konfederasiyası sazişini imzaladı. Sazişə əsasən Qafqazda Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikalarından ibarət konfederasiya dövləti - respublikası yaratmaq nəzərdə tutulurdu. Ə.Topçubaşovun ölümündən (1934) sonra siyasi mühacirətin istiqlal mübarizəsində aparıcı rol oynadı. 1936 ildə Varşavada "Müsavat"ın qurultay səlahiyyətli konfransını keçirdi. M.Ə.Rəsulzadə konfransda "Milli hərəkatda Firqə" mövzusunda hesabat məruzəsi ilə çıxış edərək, partiyanın həm Azərbaycan daxilində, həm də mühacirətdə öz taktiki xəttini düzgün müəyyənləşdirdiyini bildirdi. O, *"şəxslər müvəqqəti, ideologiya əbədidir"* tezisini əsas tutaraq, siyasi mühacirləri istiqlal ideologiyasına sadiq olmağa çağırdı. 1939 ildə İkinci dünya müharibəsinin başlanması ilə Polşadan Fransaya, oradan İsveçrəyə, İsveçrədən İngiltərəyə, nəhayət Rumıniyaya keçdi. 1942 ildə Azərbaycanın istiqlalına nail olmaq məqsədilə Almaniyanın Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi ilə danışıqlara girdi. Lakin danışıqlar uğursuzluqla nəticələndi. M.Ə.Rəsulzadə Berlində "Azərbaycanın milli haqlarını qorumaq, vətənin xilası və istiqlalı üçün mübarizə etmək, qafqasiyalı millətlərin dostluqları və siyasətcə bir yerdə yaşamaları üçün çalışmaq və Almaniya ilə sıx surətdə işbirliyi təmin etmək" məqsədilə Milli Azərbaycan Komitəsi yaratdı. Almaniya tərəfindən Azərbaycan müstəqilliyinin tanınması məsələsində müsbət

**M.Ə.Rəsulzadə Azərbaycan siyasi mühacirləri ilə, İstanbul (Türkiyə)**



downloaded from KitabYurdu.az

nəticə əldə olunmadığını görən Rəsulzadə 1942 ilin sonlarında Almaniyanı tərk edib Buxarestə getdi. Müharibənin sonuna yaxın Münxendə gizli şəraitdə yaşayan Rəsulzadənin yaratdığı "Azərbaycan Demokrat Birliyi" cəmiyyəti azərbaycanlıların faşist əsirliyindən azad olunmasına, bir müddət sonra yaratdığı "Türkiyə-Azərbaycan" cəmiyyəti isə onların Türkiyəyə apanlmasına kömək gostərdi. Müharibədən sonra, 1947 ildə Türkiyəyə qayıdan Rəsulzadə burada Azərbaycan Milli Mərkəzinin başçısı kimi fəaliyyətini davam etdirdi. O, eyni zamanda bütün Azərbaycan mühacirlərini vahid mərkəz ətrafında birləşdirmək məqsədilə Ankarada Azərbaycan Kültür Dərnəyini yaratdı (1949, 1 fevral). 1952 ilin dekabrında Münxendə keçirilən Ümumi Qafqaz Konfransında iştirak etdi. Konfransın qərarına əsasən, Azərbaycanın, Gürcüstan və Şimali Qafqazın təmsil olunduğu Qafqaz İstiqlal Komitəsi yaradıldı. Amerika Birləşmiş Ştatlarına gedərək Azərbaycanın Xalq Cümhuriyyətinin yaradılmasının 35-ci ildönümü münasibətilə 1953 il mayın 28-də "Amerikanın səsi" radiosu ilə Azərbaycan xalqına müraciət etdi.

Rəsulzadə Azərbaycanın motbuatı tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biridir. Tədqiqatlar göstərir ki, onun 1903-20 illərdə təkcə Azərbaycanın dövri mətbuatında 1200-dən artıq müxtəlif janrda yazıları dərc olunmuşdur. O, ədəbi-publisistik fəaliyyətini siyasi mühacirət illərindo də davam etdirmiş, Azərbaycan xalqının tarixi və ədəbiyyatı ilə bağlı çoxsaylı məqalələr dərc etdirmişdir. Bu dovrdə "Yeni Qafqasya" (1923), "Azəri Türk" (1928), "Odlu yurd" (1929), "Qurtuluş" (1934), "Müsavat bülleteni" (1936), "Azərbaycan" (1952) jurnallarını, "İstiqlal" (1932) qəzetini nəşr etdirmişdir. Rəsulzadə Ömrünün sonunadək Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda istiqlal mübarizəsini davam etdirmişdir. Ankaramn Əsri qəbristanında dəfn olunmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimlərinin, o cümlədən M.Ə.Rəsulzadənin xidmətlərini yüksək qiymətləndirmişdir.

Əsərləri: Seçilmiş əsərləri, c.l (1903-1909), B., 1992; c.2, 1909-1914 (toplayanı, tərtib və transliterasiya edəni və ön sözün müəllifi prof. Şirməmməd Hüseynov), B., 2001; Azərbaycan Cümhuriyyəti, İstanbul, 1922; Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və indiki vəziyyəti, İstanbul, 1923, B., 1990; Əsrimizin Siyavuşu, İstanbul, 1923, B., 1995; İstiqlal məfkurəsi və Gənclik, İstanbul, 1925; Şəfibəyçilik, İstanbul, 1934; Çağdaş Azərbaycan ədəbiyyatı, Berlin, 1936, Ankara, 1950, B., 1991; Azərbaycan kültür gələnəkləri; Ankara, 1949; Çağdaş Azərbaycanın tarixi, Ankara, 1951, B., 1991; Azərbaycan şairi Nizami, Ankara, 1951, İstanbul, 1991, B., 1991; Milli təsanüd, Ankara, 1984; Stalinlə ixtilal xatirələri, B., 1991; İran türkləri, İstanbul, 1993; Kafkasya türkləri, İstanbul, 1993.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Məmmədzadə M.B., Milli Azərbaycan hərəkatı, Berlin, 1938, B., 1992; Azərbaycanın Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920), B., 1990; İ b r a h i m l i X., Azərbaycan siyasi mühacirəti, B., 1996; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Yaqublu N., Məhəmməd Əmin Rəsulzadə, B., 1991: yenə onun, Azərbaycanın milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rosulzadə, B., 2001; Oruclu M.R., Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), B., 2001; Məhəmməd Əmin Rəsulzadə və ictimai-siyasi ideallar, B., 2005.



**RƏSULZADƏ** Məmmədəli Əbdüləziz oğlu (7.4.1882, Bakı, Novxanı kəndi - 3.2.1982, İstanbul) - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Məhəmməd Əmin *Rəsulzadənin* əmisi oğludur. İlk təhsilini din xadimi olan atasından almış, sonralar maarif xadimi Sultanməcid Qənizadənin rəhbərliyi ilə Bakıda açılmış 2-ci "rus-müsəlman" məktəbində oxumuşdur. Siyasi fəaliyyətə 1902 ildə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yaranmış və Azərbaycanında Rusiya müstomləkəçiliyinə qarşı mübarizə aparan "Müsəlman gənclik təşkilatı"nda başlamışdır. 1904 ilin axırında Rusiya Sosial Demokrat Fəhlə Partiyası (RSDFP) Bakı Komitəsinin nəzdində Mirhəsən Mövsümov, Məmməd Həsən Hacınski və Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə yaradılan ilk müsəlman sosial-demokrat təşkilatın əsası bu təşkilatla qoyulmuşdur. Həmin "Hümmət" təşkilatına ilk daxil olanlardan biri də Məmmədəli Rəsulzadə idi. O, "Hümmət"in "Təkamül" (1906-07) və "Yoldaş" (1907) qəzetlərində inqilabi hərəkata dair məqalələrlə çıxış etmişdir. 1907 ildə Balaxanı neft rayonunda P.Caparidze, M.Əzizbəyov, İ.Fioletov, S.Əfəndiyev və başqalarının iştirakı ilə təşkil olunan "Neft sənayesi fəhlələrinin ittifaqı"nın sədri P.Caparidze, texniki katibi isə Məmmədəli Rəsulzadə idi. 1911 ilin oktyabrında Bakıda gizli şəkildə təşkil olunmuş Müsəlman demokratik "Müsavat" partiyasının müəssislərindən olmuşdur. Partiyanın əsas orqanı olan "Açıq söz" (1915-19) qəzetinin müxtəlif vaxtlarda naşiri və redaktoru Məmmədəli Rəsulzadə idi.

M.Ə.Rəsulzadənin qəbirüstu abidəsi. Ankara, Əsri qəbiristanı (Türkiyə)




Məmmədəli Rəsulzadənin Azərbaycan Xalq Cümhuriyyəti dövrü fəaliyyəti diqqətəlayiqdir. O, 1918 il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan Parlamentinə gizli səsvermə yolu ilə Bakıdan üzv seçilmiş,

downloaded from KitabYurdu.az

1919 ilin əvvəllərində təşkil olunmuş Azərbaycan Xalq Cümhuriyyəti Hökumət mətbəəsinin müdiri təyin olunmuşdur. Məmmədəli Rəsulzadə 1919 ilin oktyabrında "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" partiyası" Bakı komitəsinin üzvü seçilmişdi.

*Aprel işğalından (1920)* sonra iki ilə yaxın Moskvada Xalq Millətlər Komissarlığına tabe olan kooperativ təşkilatında işləyən Məmmədəli Rəsulzadə 1922 ilin yayında Bakıdan İrana və oradan isə İstanbula mühacirətə getmişdir. M.Rəsulzadə həmin dövrdə İstanbulda nəşr olunan "Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd", "Azərbaycan yurd bilgisi" və s. mətbuat orqanları ilə yaxından əməkdaşlıq et-mişdir. Onun Türkiyədə Azərbaycan ədəbiyyatının təbliği sahəsindəki fəaliyyəti də diqqətəlayiqdir. 1952 ildən Ankarada nəşr olunan "Azərbaycan" jurnalında "M.Ə.Rəsuloğlu" imzası ilə çoxlu məqaləsi dərc olunmuşdur.

**RUS-AZƏRBAYCAN MƏKTƏBİ**, Rus-müsəlman məktəbi, Rus-tatar məktəbi - 19 əsrin sonu - 20 əsrin əvvəllərində Qafqaz azərbaycanlıları arasında geniş yayılmış məktəblər. Daha çox rus-müsəlman məktəbləri adı ilə tanınırdılar. Əsası 1887 ildə Bakıda Həbib bəy Mahmudbəyov və Sultanməcid Qənizadə tərəfindən qoyulmuşdur. Xüsusi şəkildə açılmış ilk rus-Azərbaycan məktəbi dörd il şagirdlərdən toplanmış təhsil haqqı hesabına fəaliyyət göstərmişdir. 1891 ildə Bakı əhalisinin xahişi ilə ilk xüsusi rus-Azərbaycan məktəbinin işinə xitam verilmiş, onun yerində xalq məktəbləri direktorunun nəzarəti altında şəhər bələdiyyə idarəsinin vəsaiti hesabına iki ibtidai təhsil ocağı yaradılmışdır. Birinci məktəbə S.Qənizadə müdir təyin edilmişdi. Şəhər əhalisinin təhsilə olan ehtiyacını təmin etmək üçün rus-müsəlman məktəblərinin sayı ildən ilə artırılmış, birinci rus inqilabı ərəfəsində Bakıda 12 oğlan, 4 qız rus-Azərbaycan məktəbi açılmışdı. 1898 ildə S.Qənizadənin təşəbbüsü ilə onun müdir olduğu ikinci rus-Azərbaycan məktəbi natamam orta təhsil verən ikinci dərəcəli məktəbə çevrilmiş, Aleksey ali ibtidai məktəbi adı ilə tanınmışdır.

Rus-Azərbaycan məktəbi xalqın təhsil maraqlarına cavab verən güclü təhsil hərəkatına çevrilmiş, onun nümunəsində Bakı, Tiflis, Gəncə, İrəvan quberniyalarında rus-Azərbaycan məktəbi açılmışdır. Rus-Azərbaycan məktəbinin təsiri ilə əski molla və məhəllə məktəblərində islahatlar aparılmış, onların böyük əksəriyyəti müasir tələblərə uyğunlaşdırılmışdır. Rus-Azərbaycan məktəbi Azərbaycanda siyasi müstəqillik və istiqlaliyyət, milli dirçəliş uğrunda mübarizə tarixində, xalq maarifinin və mədəniyyətin inkişafında misilsiz rol oynamışdır. Rus-Azərbaycan məktəbinin açılışı ilə "Əkinçi"dən sonra Bakıda azərbaycanlıların ikinci ictimai qurumu yaradılmışdır. Məktəblərin sayı artdıqca Qori, İrəvan seminariyalarında, ali pedaqoji institutlarda və gimnaziyalarda təhsil alan gənclərin Bakıya toplaşması üçün geniş imkanlar yaranmış, 19 əsrin 90-cı illərində azərbaycanlılara məxsus "Müsəlman ziyalılarının özəyi" adlı ilk ictimai təşkilat təsis olunmuş, əyalət şəhərlərində, kənd və qəsəbələrdə milli-mədəni həyat dirçəlmişdi. Rus-Azərbaycan məktəbi müəllimlərinin təşəbbüsü ilə Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, Qubada, Tiflisdə, İrəvanda və s. şəhərlərdə ilk teatr truppaları təşkil olunmuş, səhnə vasitəsilə maarifçilik ideyaları təbliğ olunmuşdur. 19 əsrin sonu, 20 əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəaliyyət göstərənlər, əsasən, rus-Azərbaycan məktəbi müəllimlərindən və məzunlarından ibarət olmuşdur.

Rus-müsəlman məktəbləri pedaqoji heyətinin Sultanməcid Qənizadə, Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Abdulla bəy Divanbəyoğlu, Əlisgəndər Cəfərzadə, Qafur Pəşad (Mirzəzadə), Fərhad Ağazadə (Şorqli) və b.-nın istedadı sayəsində milli realist və romantik ədəbiyyat rövnəq tapmış, ilk dərsliklər yaradılmış, ilk uşaq jurnalları nəşr edilmiş və yüksək bədii təsir gücünə malik sağlam məzmunlu uşaq ədəbiyyatı təşəkkül tapmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında və fəaliyyətində rus-Azərbaycan məktəbinin xidmətləri xüsusilə əlamətdardır. Həmin məktəblərin məzunları 20 əsrin əvvəllərində siyasi mübarizədə, siyasi partiyaların təşkilində iştirak etmişlər. Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri, Məmməd Yusif Cəfərov onun fəal liderlərindən biri olmuşdur. Üzeyir bəy Hacıbəyli, Ceyhun bəy Hacıbəyli, Seyid Hüseyn, Cəfər Cabbarlı və b. milli dövlət quruculuğunda fəal iştirak etmişlər.

Rus-Azərbaycan məktəbinin müəllimlərindən Sultan-məcid Qənizadə və Mustafa Mahmudov Azərbaycanın parlamentinin üzvü olmuşlar.

*Əd.:* Məmmədov X., İlk "Rus-müsəlman" məktəbi və onun tarixi rolu, "Azərbaycan məktəbi" jurnalı, 1964, № 5; Vəzirov H., "Rus-müsəlman" məktəblərinin iyirmi beş illik yubileyi münasibətilə. "Kefim gələndə" kitabında, B., 2001.

**RUS XEYRİYYƏ CƏMİYYƏTİ** Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş xeyriyyə cəmiyyətlərindən biri. 1875 ildə yaradılmışdır. 1918 ildə cəmiyyətin 123 oğlan və 138 qız üçün uşaq evi, 66 kişi və qadın üçün qocalar evi vardı. Bunlar Azərbaycan Xalq Cümhuriyyəti Himayədarlıq Nazirliyinin köməyi ilə və cəmiyyətin vəsaiti hesabına saxlanırdı. Nazirlik ayda hər nəfərə 200 rubl ayırırdı. 1919 il oktyabrın 1-dən "Uşaq bağçası" adlı yetimxana da *"Uşaqlara yardım bürosu"ndan* alınıb bu cəmiyyətə verilmişdi. Uşaq evi nəzdindəki 2 sinifli məktəbdə 6 müəllim işləyirdi. Əl əməyi emalatxanalarında uşaqlara xarratlıq, çəkməçilik və dərzilik öyrədilirdi. Cəmiyyətin idarə heyətinin sədri V.Klementyev idi.

*Əd.:* Адрес-календарь *Азербаиджанской Республики на* 1920 г., Б., 1920.

**RUS MİLLİ ŞURASI** - 1918 ilin noyabrında Bakıda yaradılmış siyasi qurum. Azərbaycanında fəaliyyət göstərən kadet və menşevik partiyalarının, "Rus demokratik cəmiyyəti"nin (üzvlərinin sayı 12 min nəfər), zabitlər, müəllimlər, məmurlar ittifaqlarının, pravoslav kilsələrinin, molokan icmalarının və b, nümayəndələrini birləşdirirdi. Şuranın tərkibi 70 nəfər idi, cari işlərə 12 nəfərdən ibarət "kiçik şura" rəhbərlik edirdi (sədri kadet M.F.Podşibyakin idi). Muğanda, Şamaxı qəzasında, Lənkəranda, Dərbənddə, Petrovsk-Portda (indiki Mahaç-

downloaded from KitabYurdu.az

qala), Gəncədə və b. yerlərdə şöbələri fəaliyyət göstərirdi. Mərkəzi orqanları "Yedinaya Rossiya", "Rossiya" (Bakı) qəzetləri idi. Proqramlarına "vahid, bölünməz və böyük Rusiya" uğrunda mübarizə; "dövlət quruluşu formasının müəyyən edilməsi" üçün Müəssislər Məclisi çağırılması; "Rusiyanın ucqarlarının" milli-mədəni muxtariyyəti; oxşar məqsədlərə xidmət edən bütün qüvvələrlə əməkdaşlıq daxil idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi qanunda Cümhuriyyət Parlamentində rus nümayəndələri üçün 10 yer ayrılırdı. "Vahid və bölünməz Rusiya" ideyalarına xidmət edən Bakı Rus milli şurası Azərbaycandakı ruslar adından danışmaq üçün heç bir mənəvi hüququ olmadığı halda, Parlamentdə iştirak etməmək barədə qərar qəbul etdi. Lakin Bakıda fəaliyyət göstərən "Slavyan-Rus cəmiyyəti" Azərbaycan Milli Şurasına müraciət edərək, onların Parlamentə daxil olmalarına razılıq verməyi xahiş etdi. Parlament tərəfindən "Slavyan-Rus cəmiyyəti" üçün 5 yer ayrılmışdı. Rus milli şurasına 1918 ilin payızında ingilis işğal qoşunlarının komandanlığı, sonra isə Denikin kömək edirdi. 1919 ilin martında Gürcüstandakı eyni birliklə (1918 ilin əvvəllərində Tiflisdə yaradılmışdı; sədri kadet Z.F.Semyonov idi; eser və menşeviklər hakim mövqe tuturdu) olaqə yaratmışdılar. Dağıstanın ağqvardiyaçılar tərəfindən işğah ilə şura şovinist təbliğatını genişləndirdi, ağqvardiyaçı dəstələrin formalaşdırılmasına başladı. İngilis qoşunları Azərbaycanı tərk etdikdən sonra Şura Cümhuriyyət Hökumətinin təqib etdiyi ağqvardiyaçı zabitlərə kömək etmiş, "Xüsusi müşavirə" ilə, "Milli mərkəz"in Kislovodsk, Rostov və b. şəhərlərdəki şöbələri ilə əlaqə saxlamış, Denikinin Könüllü ordu agentlərinin (general N.N.Baratov və b.) Cənubi Qafqazdakı fəaliyyətinə yardım göstərmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920, 28 aprel) sonra Rus milli şurası üzvlərinin əksəriyyəti xaricə qaçmışdır.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafık hesabatlar), c.l, B.. 1998; Гражданская война и военная интервенция в СССР. Энциклопедя, М., 1983.

**RUSİYA DÖVLƏT BANKININ BAKI ŞÖBƏSİ** - Rusiya Dövlət Bankının yerli qurumlarından biri. 1875 il iyulun 6-dan fəaliyyətə başlamışdı. Bankın sərəncamında xəzinədarlıq və kredit idarələri vardı.

Rusiyada Fevral inqilabından (1917) sonrakı hərc-mərclik dövründə bank əməliyyatları dayandırılmışdı. Azərbaycanın müstəqilliyi elan edildikdən sonra Cümhuriyyət Hökumətinin əsas vəzifələrindon biri bankın fəaliyyətinin bərpası oldu. Bu sahədə hökumətin ilk tədbiri bankın uçot əməliyyatlarının yenidən başlanması haqqında 1918 il 23 iyun tarixli qərarı idi. 1918 il dekabrın 24-də neft sənayesi müəssisələrinə borc vermək üçün maliyyə nazirliyinə 2 milyon rubl məbləğində kredit açılması barədə qərar qəbul edildi. Həmin borc veksellərlə (borc sənədi) təmin olunmah, Dövlət bankının uçot (hesabaalma) komitəsi borc verilən sahibkarların borc-ödəmə qabiliyyətini aydınlaşdırmalı idi. 1919 il martın 17-də fəhlələrə əmək haqqı verməkdən ötrü neft sənayeçilərinə maliyyə yardımı ayrılmışdı. Maliyyə yardımının verilməsi əməliyyatını Bankın Bakı şöbəsi aparırdı. 1919 ilin aprel və iyun aylarında Britaniya komandanlığının maliyyələşdirilməsi də Dövlət bankının Bakı şöbəsi tərəfindən həyata keçirilmişdi. 1919 il avqustun 17-də hökumət 1918 ilin mart hadisələri zamanı əhalidən talan olunmuş və Bankda saxlanan qiymətli əşyalann qaytarılması haqqında qərar çıxarmışdı. Bank 1920 ilin iyununadək fəaliyyət göstərmişdi. Həmin il iyunun 9-da Azərbaycan İnqilab Komitəsinin bankların milliləşdirilməsi haqqında dekretinə əsasən, Bankın Bakı şöbəsi müstəqil fəaliyyətini dayandırdı.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б.,1998; Декреты Азревкома (1920-1921 гг.) сборник документов., 1988.

**RUSİYA DÖVLƏT DUMALARI** - 1906-17 illərdə Rusiyada fəaliyyət göstərmiş ali nümayəndə qanunvericilik təsisatı. 1905-07 illər inqilabının təsiri ilə Rusiyanın siyasi sistemində dəyişikliklər etmək zərurəti yarandı. 1905 il Ümumrusiya Oktyabr siyasi tətili bu prosesi daha da sürətləndirdi. Çar II Nikolay 17 oktyabr manifestini elan etdi. Manifestdə əhalinin bütün təbəqələrinin iştirakını təmin edəcək qanunverici Dövlət dumasının çağırılması da nəzərdə tutulurdu.

**Birinci Dövlət duması** (1906, 27 aprel - 8 iyul; bir sessiyası olmuşdur). Dövlət dumasına 524 nümayəndə seçilməli idi. Seçkilər 1906 ilin fevral-mart aylarında [Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında mayda] keçirildi. Kadetlər fəal seçki kampaniyası apardı. Bolşeviklər boykot taktikasını seçdi. Seçkilər müxtəlif vaxtlarda keçirildiyindən duma natamam tərkibdə işə başladı. Birinci Dövlət dumasının 478 deputatından 179-u kadet, 63-ü muxtariyyətçi, 16-sı oktyabrist, 105-i bitərəf, 18-i sosial-demokrat idi. Dumaya bütün Cənubi Qafqazdan beş azərbaycanlı deputat seçilmişdi: Məmmədtağı *Əliyev,* Əsədulla *Muradxanov,* Əlimərdan bəy *Topçubaşov,* İsmayıl bəy *Ziyadxanov,* Əbdürrəhim bəy *Haqverdiyev.* Onlar 36 nəfərdən ibarət olması nəzərdə tutulan müsəlman parlament qrupuna (sədr Ə.Topçubaşov) daxil idilər. Azərbaycanlı deputatlar dumanın işində fəal iştirak edirdüər. Ə.Topçubaşov aqrar komissiyanın məruzəsinin müzakirəsində çıxış etmişdi. İ.Ziyadxanov millətlərarası toqquşmalarla əlaqədar verilmiş sorğu ilə bağlı nitq söyləmişdi. O, çıxışında çarizmin Azərbaycandakı siyasətini kəskin tənqid edərək demişdi: "Artıq elə bir vaxt gəlib çatmışdır ki, biz də oyanmışıq və bizim susmağa ixtiyarımız yoxdur. Rusiya yüz il bundan əvvəl Cənubi Qafqazı zəbt etmişdir. Yüz il ərzində biz, bir növ, hərbi əsir hesab olunurduq və hərbi əsir kimi daim nəzarət altında idik, heç bir hüququmuz yox idi...". Dumadaxili və ondan kənarda da ziddiyyətlərin kəskinləşməsi çar hökumətini narahat etməyə başladı. 20 iyun bəyannaməsilə mülkədarların torpaq üzərindəki mülkiyyətinin toxunulmazhğı bildirildi, lakin bununla kifayətlənməyən çar 9 iyul manifesti ilə Dumanın buraxıldığını elan etdi.

downloaded from KitabYurdu.az



Əlimardan bəy Topçubaşov | Fətəli xan Xoyski | İsmayıl xan Ziyadxanov | Əbdürrəhim bəy Haqverdiyev | Xəlil bəy Xasməmmədov | Məhəmməd ağa Şahtaxtlı



Məmmədtağı Əliyev | Əsədulla bəy Muradxanov | Məmməd Yusif Cəfərov | Mustafa Mahmudov | Zeynal Zeynalov

Bununla razılaşmayan kadetlər trudoviklər və sosial-demokratlarla birgə iclasları Vıborqda davam etdirməyi qərara alınışdı. İyulun 9-10-da Vıborqda 200-dək deputatın iştirakı ilə iclaslar keçirilmiş, burada hökumətə passiv müqaviməti nəzərdə tutan *Vıborq müraciətnaməsi* qəbul olunmuşdu. Həmin müraciətnaməni Topçubaşov və Ziyadxanov da imzalamışdı. Çar hökuməti müraciətnaməni imzalayanlara qarşı repressiya tədbirlərinə əl atmışdı. Onlara üçaylıq həbs cəzası verilmişdi. Həmin deputatlar, o cümlədən Topçubaşov və Ziyadxanov növbəti Dövlət dumalarına seçkidə iştirak etmək hüququndan məhrum olunmuşdu.

**İkinci Dövlət duması** (1907, 20 fevral - 2 iyun; bir sessiyası olmuşdur). 1905 il 11 dekabr tarixli seçki qanununa "senat izahatı" ilə seçkidə iştirak edənlərin dairəsi məhdudlaşdırılmışdı. İkinci Dövlət dumasına seçkilər 1907 ilin yanvar-fevral aylarında keçirilmişdi. Dumaya 518 deputat seçilmişdi. Onlardan 104-ü trudovik, 98-i kadet, 76-sı millilər, 65-i sosial-demokrat və b. idi. İkinçi Dövlət dumasına altı azərbaycanlı deputat seçilmişdi: Fətəli xan *Xoyski,* Xəlil bəy *Xasməmmədov,* İsmayıl *Tağıyev,* Məhəmməd ağa *Şahtaxtlı,* Mustafa *Mahmudov,* Zeynal *Zeynalov.* Lakin İ.Tağıyev Dumanın işində iştirak etməmişdi. İkinci Dövlət dumasına seçkilərin nəticələri çar hökumətinin ümidlərini doğrultmadı. Duma daim qovulmaq təhlükəsi altın fəaliyyət göstərirdi.

Dumada aqrar məsələnin müzakirəsində azərbaycanlı deputatların daxil olduğu müsəlman fraksiyası adından F.x.Xoyski çıxış etmişdi. Azərbaycanlı deputatlar Dumada müzakirə olunan digər məsələlər ətrafında da çıxışlar etmişdilər. Dumanın fəaliyyətindən narazı qalan çar hökuməti onun qovulması üçün bəhanə axtarırdı. Nəhayət, 103 günlük fəaliyyətdən sonra, İkinci Dövlət duması 1907 il iyunun 3-də qovuldu və yeni seçki qanunu elan edildi.

**Üçüncü Dövlət duması** (1907, 1 noyabr- 1912, 9 iyun; beş sessiyası olmuşdur). 1907 il 3 iyun seçki qanunu vəziyyəti mülkədar və burjuaziyanın xeyrinə daha da dəyişdirdi. Milli ucqarlardan nümayəndəlik azaldıldı. Dövlət dumasına deputatların sayı 442-yə endirildi. Üçüncü Dövlət dumasının deputatları içərisində oktyabristlər və onlara qoşulanlar 154, ifrat sağ, mötədil sağ və millilər 97, kadetlər 54 nəfər və s. idi. Müsəlman qrupu 8 nəfər təşkil edirdi. Dumaya yalnız bir azərbaycanlı - X.Xasməmmədov seçilmişdi. Çar hökuməti həyata keçirdiyi siyasət nəticəsində, əvvəlki dumalardan fərqli olaraq, üçüncü dumada hökmranlığı ələ ala bildi. X.Xasməmmədov Dövlət dumasının işində fəal iştirak etmişdi. Onun çıxışlarında müsəlmanların hüquq və azadlıqları, köçürmə məsələsi, ana dilində təhsil və s. məsələlər mühüm yer tuturdu. Üçüncü Dövlət duması qanuni müddətini başa vurduqdan sonra, çarın 1912 il 9 iyun fərmanilə fəaliyyətini dayandırdı.

**Dördüncü Dövlət duması** (1912, 15 noyabr - 1917, 6 oktyabr; beş sessiyası olmuşdur). Dumaya seçkilər 1912 ilin sentyabr-oktyabr aylarında keçirilmişdi. Dördüncü Dövlət dumasına 442 deputat seçilmişdi. Burada sağ-oktyabrist (283 səs) və oktyabrist-kadet (226 səs) çoxluğunun saxlanması təmin edilmişdi.

downloaded from KitabYurdu.az

Dördüncü Dövlət dumasına cəmi bir nəfər azərbaycanlı deputat - Məmməd Yusif Coforov seçilmişdi. Dumanın müsəlman fraksiyası 7 nəfərdən ibarət idi. Dördüncü Dövlət dumasının nüfuzu, əvvəlkilərlə müqayisədə, aşağı düşmüşdü. Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar ölkədəki mürəkkəb vəziyyətə baxmayaraq, Duma hələ də çarizmə münasibətdə gözləmə mövqeyində durmaqda davam edirdi. Vəziyyət yalnız 1916 il noyabrın 1-də açılan beşinci sessiyadan sonra dəyişdi. Dövlət şurası da Duma ilə həmrəy çıxış etməyə başladı. Lakin Fevral inqilabına qədər Duma səmərəli fəaliyyət göstərə bilmədi.

Fevral inqilabı zamanı Dövlət dumasının Müvəqqəti komitəsi yaradıldı. Martın 2 (15)-də Petroqrad Soveti tc-raiyyə Komitəsi ilə danışıqlar nəticəsində Müvəqqəti hökumət təşkil olundu. 1917 ilin martında isə Cənubi Qafqazda mərkəzi diyar hakimiyyəti kimi *Xüsusi Zaqafqaziya Komitəsi* yaradıldı. Müvəqqəti hökumət Müəssislər Məclisinə seçkilərin başlanması ilə əlaqədar olaraq, 1917 il oktyabrın 6 (19)-da Dövlət dumasını buraxmağı qərara aldı. Lakin Dövlət duması qəti şəkildə Oktyabr çevrilişindən (1917) sonra ləğv edildi. RSFSR Xalq Komissarları Sovetinin 1917 il 18 (31) dekabr dekreti ilə Dövlət duması və Müvəqqəti Komitənin dəftərxanaları ləğv olundu.

Rusiya Dövlət dumaları Azərbaycan parlamentarizminin inkişafına müsbət təsir göstərdi. Rusiya Dövlət dumalarının azərbaycanlı deputatlarının əksəriyyəti Azərbaycan Xalq Cümhuriyyəti parlamentində fəaliyyətini davam etdirmişdi.

*Əd.:* Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004; Государственная Дума. Стенографический отчет. Созыв 1-4, СПб., 1906-1907; государственная Дума в России, сборник документов и материалов, М., 1957.

**RUSİYA XALQLARININ HÜQUQ BƏYANNAMƏSİ** -sovet Rusiyasınm ilk hüquqi aktlarından biri. Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Soveti tərəfindən 1917 il noyabrın 2 (15)-də təsdiq edilmişdi. Bəyannamədə "Lenin milli siyasəti"nin aşağıdakı əsas prinsipləri elan olunmuşdu: Rusiya xalqlarının bərabərliyi və suverenliyi; Rusiya xalqlarının azad surətdə öz müqəddəratını təyin etməsi (ayrılmaq və müstəqil dövlət yaratmağa qədər); bütün milli və milli-dini imtiyaz və məhdudiyyətlərin ləğvi; Rusiyada azlıqda qalan xalq və etnik qruplann müstəqil inkişafı. Lakin sovet Rusiyası bu bəyannaməni, demək olar ki, həyata keçirmədi, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) yaranmasınadək (1917, noyabr -1922, dekabr) keçmiş Rusiya xalqlarının müstəqil dövlət yaratmaq hüquqlarını açıq-aşkar pozdu. Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətini tanımaqdan imtina etdi. 1920 il aprelin 27-dən 28-nə keçən gecə 11-ci Qırmızı ordu onun varlığına son qoydu, ərazisini işğal etdi. Şimali Azərbaycan yenidən Rusiyaya qatıldı. Çox keçmədən keçmiş Rusiya imperiyasının ərazisində yaranmış digər müstəqil dövlətlərin də varlığına son qoyuldu. Sonra isə onlar SSRİ-nin tərkibində birləşdirildi (1922, dekabr). Bu siyasət özünü doğrultmadı, 1991 ilin dekabrında SSRİ süquta uğradı. Keçmiş müttəfiq respublikalar dövlət suverenliyini elan etdi.

**RUSİYA KOMMUNIST (BOLŞEVİKLƏR) PARTİYASI [RK(B)P]** - Rusiya proletariatının inqilabı marksist partiyası. 1898 ildo Rusiya Sosial Demokrat Fəhlə Partiyası (RSDFP), 1917 ildən Rusiya Sosial Demokrat Fəhlə (bolşeviklər) Partiyası [RSDF(b)P], 1918 ilin martından isə Rusiya Kommunist (bolşeviklər) partiyası [RK(b)P] adlandırılmışdır. Onun yaradılmasında ilk addım 1895 ildə atılmışdı. Həmin ilin payızında V.İ.Lenin bir qrup marksistlə Peterburq "Fəhlə sinfinin azadlığı uğrunda mübarizə ittifaqı"nı yaratmışdı. Dekabrda Lenin ittifaqın digər üzvləri ilə birlikdə həbs edilmiş, lakin marksist partiya yaradılması uğrunda mübarizə davam etdirilmişdi. 1898 ildə partiyanın birinci qurultayında (Minsk) RSDFP-nın yaradılması elan edilsə də, əslində, vahid mərkəzləşdirilmiş marksist partiya kimi fəaliyyət göstərə bilmədi. Sibirdə sürgündə olan Lenin Ümumrusiya siyasi qəzeti vasitəsi ilə belə bir partiya yaratmaq planını irəli sürdü. 1900 ildən nəşrə başlayan Ümumrusiya marksist "İskra" qəzeti partiyanın təşkilində mühüm rol oynadı. 1903 ildə RSDFP-nın ikinci qurultayında (Brüssel, sonra London) partiyanın proqramı qəbul edildi. Qurultayın gedişində partiya bolşeviklərə və menşeviklərə bölündü. Belə bölünmə yerli partiya komitələrində, o cümlədən Bakı Komitəsində də özünü göstərdi. Rusiyada 1905-07 illər inqilabının gedişində üçüncü qurultay (1905, London) keçirildi. Burada partiyanın proqramına uyğun taktiki xətt qəbul edildi. 1906 ildə partiyanın dördüncü (Birləşdirici) qurultayında (Stokholm) bolşeviklərlə menşeviklər formal olaraq birləşdilər. Beşinci qurultayda (1907, London) birləşmə sahəsində müəyyən addımlar atılsa da, 1905-07 illər inqilabının məğlubiyyətindən sonra partiyadaxili mübarizə yenidən kəskinləşdi. Altıncı konfransda (1912, Praqa) tösviyəçi menşeviklər partiyadan xaric edildi. Birinci dünya müharibəsi (1914-18) dövründə milli məsələnin kəskinləşdiyi şəraitdə bu məsələdən təbliğat məqsədilə istifadə etməyə başlayan bolşeviklər millətlərin öz müqəddəratını təyin etmək və ayrılıb müstəqil dövlət yaratmaq hüququnu irəli sürdülər. Lakin sonrakı tarixi hadisələr, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinə münasibət bu müddəanın yalnız təbliğat məqsədilə irəli sürüldüyünü sübut etdi.

Bolşeviklər partiyası Fevral inqilabından (1917) sonra gizli şəraitdən çıxdı. Mühacirətdən Rusiyaya qayıdan Lenin "Aprel tezisləri"ni irəli sürdü. Burada bir sıra müddəalarla birgə proletariat diktaturasının forması kimi Sovetlər respublikası ideyası irəli sürüldü. Yeddinci Ümumrusiya (1917, aprel) konfransı Leninin "Aprel tezisləri" ni bəyəndi. 1917 il iyul hadisələrindən sonra hakimiyyət bütünlüklə *Müvəqqəti hökumətə* keçdikdə "Bütün hakimiyyət sovetlərə!" şüarı müvəqqəti olaraq geri götürüldü. Altıncı qurultay (1917, Petroqrad) silahlı üsyan xəttini irəli sürdü. Kornilovçuluğun (bax *"Kornilov qiyamı")* ləğvindən sonra "Bütün hakimiyyət sovetlərə!" şüarı yenidən gündəmə gəldi. Bu dəfə onun silahlı üsyan yolu ilə qurulması xətti ortaya atıldı. Oktyabr çevrilişi (1917) ərəfəsində partiyanın 350

downloaded from KitabYurdu.az

minədək üzvü var idi. Qafqazda, Qafqaz cəbhəsi və Don vilayətində partiya üzvlərinin sayı 20 min (bütün üzvlərin 5,5%-i) idi. 75 bolşevik qəzet və jurnalı nəşr olunurdu. Bolşeviklər 1917 il 25 oktyabr (7 noyabr) çevrilişi nəticəsində Müvəqqəti hökuməti devirib hakimiyyəti ələ aldılar. Elə həmin gün işə başlayan İkinci Ümumrusiya Sovetlər qurultayı Lenin başda olmaqla Xalq Komissarları Soveti yaratdı. Beləliklə, bolşeviklər partiyası hakim partiyaya çevrildi. Sovet hökuməti torpaq və sülh haqqında dekretlə birgə, Rusiya xalqlarının hüquq bəyannaməsini, zəhmətkeş və istismar olunan xalqın hüquq bəyannaməsini elan etdi. Lakin bu mühüm sənədlərə işdə əməl olunmadı. Vətəndaş müharibəsində və xarici müdaxiləyə (1918-20) qarşı mübarizədə dönüş əldə edildikdən sonra, keçmiş Rusiya imperiyasının xarabahlıları üzərində meydana gələn sovet Rusiyası müstəqil dövlətlərə qarşı təcavüzkar siyasət yeritdi. Onların ərazisini işğal etdi və sovetləşdirmə həyata keçirdi. 1922 ilin dekabrında SSRİ yaradıldı. Partiya 1925 ildən Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası (ÜİK(b)P), 1952 ildən isə Sovet İttifaqı Kommunist Partiyası (Sov. İKP) adlandırıldı. 1991 ildə SSRİ-nin dağılması ilə partiya parçalandı və ləğv olundu.

Bolşeviklər partiyası bütün tarixi boyunca Azərbaycanda təşkilatlanmağa, burada siyasi mübarizəsini təşkil etməyə və ölkəni öz hakimiyyətinə tabe etməyə cəhd göstərmiş, Azərbaycanın milli mənafeyinə zidd siyasət yeritmiş, 1920 ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinə qarşı hərbimüdaxilənin təşkilatçısı olmuşdur [bax *Azərbaycan Kommunist partiyası, Aprel işğalı (1920)* məqalələrinə].

*Əd.:* Azərbaycan tarixi, 7 cildd, c.4-5, B., 2000-2001; Багирова И.С., Политические партии и организации Азербаиджана в начале XX века, Б., 1997; Терне А., В Царстве Ленина, М., 1991.

**RUSİYA KOMMUNİST (BOLŞEVİKLƏR) PARTİYASI QAFQAZ ÖLKƏ KOMİTƏSİNİN BAKI BÜROSU** [RK(b)P QÖK-in Bakı Bürosu] - Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı fəaliyyət göstərən bolşevik təşkilatı. Bakı Xalq Komissarları Sovetinin süqutundan sonra bolşeviklər 1919 ilin yazında yenidən fəallaşdılar. 1919 ilin martında bolşeviklərin Bakı şəhər partiya konfransında RK(b)P QÖK-in Bakı Bürosu təşkil olundu. Əsasən, qeyri-azərbaycanlı bolşeviklərin rəhbərlik etdiyi Bakı Bürosu Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı yönəlmiş fəaliyyətini genişləndirdi.

Bakı Bürosu müsəlman kütləlləri içərisində iş haqqında, "Hümmət" və "Ədalət" kommunist təşkilatlan barədə məsələləri müntəzəm olaraq müzakirə edirdi. Bu təşkilatlara aid bütün maliyyə məsələləri RK(b)P QÖK-in Bakı Bürosu və Bakı Komitəsi tərəfindən həll olunurdu. "Ədalət" təşkilatını Bakı Bürosunda Dadaş Bünyadzadə təmsil edirdi. Bütün kommunist, həmkarlar ittifaqı, gənclər təşkilatlarının, Bakı və rayon fəhlə konfranslarının, fəhlə klublarının fəaliyyətinə, qəzetlərin və siyasi ədəbiyyatın nəşrinə RK(b)P QÖK-in Bakı Bürosu və Bakı Komitəsi rəhbərlik edirdi. Büronun üzvləri tez-tez Azərbaycanın qəza və şəhərlərinə gedirdilər. RK(b)P QÖK-in Bakı Bürosu Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının [AK(b)P] yaradılmasında mühüm rol oynamışdır. Bakı Bürosunun qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətini devirmək məqsədilə silahlı üsyan hazırlamaq üçün xüsusi inqilab qərargahı yaradılmışdı.

1920 il aprelin 27-də hakimiyyətin kommunistlərə təslim edilməsi barədə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə təqdim edilən ultimatum AK(b)P Mərkəzi Komitəsi və Mərkəzi fəhlə Konfransı ilə yanaşı RK(b)P QÖK-in Bakı Bürosu adından verilmişdi.

*Əd.:* Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, B., 1986.

**RUSİYA KOMMUNİST (BOLŞEVİKLƏR) PARTİYASI MƏRKƏZİ KOMİTƏSİNİN QAFQAZ BÜROSU** [RK(b)P MK-nın Qafqaz Bürosu] - RK(b)P MK-nın Qafqazda səlahiyyətli diyar nümayəndəliyi. RK(b)P MK-nın diyar bürolarını yaratmaq haqqında partiyanın 9-cu qurultayının (1920, 29 mart - 5 aprel) qərarına uyğun olaraq, Mərkəzi Komitəsinin plenumu 1920 il aprelin 8-də RK(b)P MK Qafqaz Bürosunun təşkili haqqında qərar qəbul etdi. Büronun tərkibinə S.Kirov, N.Nərimanov, A.Nazaretyan, Q.Orconikidze, Y. Stasova və b. daxil oldular. Qafqaz bürosu Şimali Qafqazın kommunist təşkilatlarının bütün təşkilati işlərinə rəhbərlik üçün yaradılmışdı. Büro Cənubi Qafqaz partiya təşkilatları ilə əlaqə yaratmalı, buradakı müstəqil dövlətləri devirib sovet hakimiyyəti qurmaq uğrunda kommunist təşkilatlarının mübarizəsinə rəhbərlik etməli idi. Yerli partiya təşkilatlarına operativ rəhbərlik üçün Bakı, Armavir, sonradan Rostov "üçlükləri" yaradılmışdı. Bakı "üçlüyü" Cənubi Qafqaz partiya təşkilatları ilə məşğul olurdu. Büro RK(b)P Zaqafqaziya diyar komitəsinin təşkilinədək (1922, fevral) fəaliyyət göstərmişdir.

Əd.:Очерки истории коммунистических организаций Закавказья, ч.1, Тблиси, 1967; История Коммунистической Партии Советского Союза, т., М., 1970.

**RUSİYA MÜSƏLMANLARI TÜRK-TATAR MİLLƏTLƏRİNİN HÜQUQ MÜDAFİƏ CƏMİYYƏTİ** - Birinci dünya müharibəsi illərində Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatların başlanmasından az sonra Rusiyadakı müsəlman və türk xalqlarının mədəni və siyasi hüquq tələblərini beynəlxalq aləmə çatdırmaq məqsədi ilə Türkiyədə yaşayan, əslən Rusiyadan olan xadimlərin yaratdığı çox saylı təşkilatlardan biri. Cəmiyyətin müəssisləri Əli bəy Hüseynzadə (Azərbaycanın) və Yusif bəy Akçura və Əbdürrəşid İbrahimov (Tatarıstan) olmuşlar. Cəmiyyətə, həmçinin, Məhəmməd Əsəd Cələbizadə (Krım) və Mukiməddin Beycan (Buxara) da daxil idilər. Bu heyət (Turan heyəti) Rusiya müsəlmanlarının hüquqlarını qorumaq və Mərkəzi Avropa dövlətlərinin hökumətlərinə anlatmaq məqsədilə 1915 ilin sonlarında İstanbuldan Avropaya getmişdi. Səfər Türkiyə hökuməti tərəfindən dəstəklənir və maliyyələşdirilirdi. Səfər zamanı Macarıstan, Avstriya, Almaniya və İsveçrədə görüşlər keçirilməsi nəzərdə tutulmuşdu.

1915 ilin sonlarında Ə.Hüseynzadə və Y.Akçura səfər edəcəkləri dövlətlərin rəsmi nümayəndələrinə və tanınmış

downloaded from KitabYurdu.az

siyasi xadimlərinə təqdim olunmaq üçün Cəmiyyət adından alman dilində "Rusiya müsəlmanlarının tələbləri" adlı kitabça buraxmışdılar. Memorandum xarakteri daşıyan sənəddə Rusiya müsəlmanları (türk-tatarlar) haqqında qısa məlumat verildikdən və statistik rəqəmlər gətirildikdən sonra bu xalqların siyasi və mədəni hüquqlarının tanınmasının vacibliyi qeyd edilirdi. Memorandumun siyasi tələblər hissəsində Buxara və Xivə xanlıqlarının hüquqlarının genişləndirilməsi, Kazan xanlığının, Osmanlı dövlətinin himayəsində Krım xanlığının bərpası, Vəlqa çayının neytrallaşdırılması və s. məsələlər də öz əksini tapmışdı.

Macarıstanda hökumət başçısı Kont Tissa tərəfindən yüksək səviyyədə qəbul olunan nümayəndələr Budapeştdə siyasi xadimlərlə yanaşı, ziyalılarla da görüşmüş, yerli mətbuatda məqalələr çap etdirmişdilər.

Vyanada baş nazir Strork və xarici işlər naziri Forqax tərəfından qəbul edilən nümayəndələr cəmiyyətin memorandumunun müdafiə olunmasını Avstriya hökumətindən xahiş etmişdilər. Nümayəndələr Almaniyadakı görüşlərə xüsusi əhəmiyyət verirdilər. Səfər zamanı Berlində və digər şəhərlərdə çox faydalı rəsmi görüşlər keçirilmişdi. Berlindən sonra heyət İsveçrəyə getdi.

Cəmiyyətin beynəlxalq miqyasda ən səmərəli fəaliyyəti yalnız bitərəf ölkə olan İsveçrədə mümkün oldu. Çünki qarşı-qarşıya duran hərbi-siyasi koalisiyalardan birinin üzvü olan ölkələrdə fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən soyuq qarşılana bilərdi və bu cür fəaliyyət həmin koalisiyanın hərbi-strateji xəttinin reallaşdırılması üçün cəhd kimi qiymətləndirilərdi. Digər tərəfdən, İsveçrədə mühacirətdə olan rus siyasi xadimləri ilə rəsmi görüşlər onlan bu tələblərə münasibətdə daha mülayim mövqe tutmağa vadar edə bilərdi.

Əli bəy Hüseynzadə və Yusif bəy Akçura 1916 il iyunun 27-29-da Lozannada keçirilən "Rusiyada azlıqda olan (və əzilən) millətlərin konqresi"ndə də iştirak etmişdilər. Y.Akçura konqres iştirakçılarına paylanmaq üçün 1916 ildə Berndə "Rusiyadakı müsəlman türk-tatarların bugünkü vəziyyəti və istəkləri" adlı kitabça nəşr etdirmişdi. Diqqəti cəlb edən cəhət "Rusiya müsəlmanlarının mədəni muxtariyyətdən başqa bir istəkləri yoxdur" fıkri idi. Rus sosialistlərini ehtiyatlandırmamaq üçün kitabçada siyasi hüquqlara toxunulmurdu. Y.Akçura İsveçrədə təhsil alan Əziz bəy ilə birlikdə Surixdo bolşeviklərin lideri V.İ.Ulyanovla (Lenin) görüşündə kitabçanı ona təqdim etmişdi. Lenin onları yaxşı qarşılayıb, diqqətlə dinləsə də, mövzu ilə bağlı hələlik qəti bir görüşü olmadığını bildirmişdi.

1916 ilin yanvarında türk xalqlarının Berlində keçirilən konqresində iştirak edən nümayəndə heyəti həmin ay Türkiyəyə qayıtdı. Rusiya müsəlmanlarının problemlərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından heyətin fəaliyyəti faydalı olsa da, Avropa dövlətləri Rusiya müsəlmanlarının hüquqlarının müdafıəsi üçün konkret bir iş görmədilər.

*Əd.:* Kurat A.N., Türkiyə və Rusiya, Ankara, 1990; Q a s ı m o v M., Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə, h.l, B., 2000.

**RUSİYA MUSƏLMANLARININ QURULTAYLARI** -bax *Umumrusiya müsəlmanlarının qurultayları.*

**RUSİYA MÜSƏLMANLARININ MOSKVA QURULTAYI (1917)** - Rusiya müsəlmanlarının 1917 il mayın 1-dən 11-dək Moskva şəhərində keçirdiyi qurultay. Bakı milyonçusu Şəmsi *Əsədullayevin* Moskva müsəlmanlarına bağışladığı binada keçirilmişdi. Qurultaya Rusiyanın türk-müsəlman xalqlarından 600-ə qədər nümayəndə, o cümlədən 100 qadın dəvət olunmuşdu. Qurultayın gündəliyinə 13 məsələ daxil edilmişdi: dövlət idarə forması; milli-mədəni təyini-müqəddərat hüququ; müharibəyə münasibət; Müəssislər məclisi; qadın məsələsi; fəhlə məsələsi; aqrar məsələ; ucqarlar məsələsi; silahlı qüvvələrin təşkili; təşkilati məsələ; Müəssislər məclisinə seçki kampaniyası taktikası; müharibədən zərər çəkənlərə yardımın təşkili; Ümumrusiya müsəlmanlan Şurasına seçkilər.

Əlimərdan bəy Topçubaşov və Məhəmməd Əmin Rəsulzadə qurultayın işində fəal iştirak edirdilər. Qurultayın mərkəzi məsələsi, Qafqaz müsəlmanlarının Bakı qurultayında olduğu kimi, Rusiyanın siyasi-dövlət quruluşu məsələsi oldu. Qurultaya sədrlik edən Əhməd Salikov və M.Ə.Rəsulzadə bu məsələyə dair qətnamə layihələrini müzakirəyə çıxardılar. Ə.Salikov Rusiyada yaşayan xalqlara milli-mədəni müxtariyyət verilməklə unitar dövlətin saxlamlması təklifini irəli sürdü. O hesab edirdi ki, "Rusiya dövlətinin ərazi-federativ əsasda yenidən təşkil edilməsi müsəlman əhalisinin geniş təbəqələrinin marağına uyğun deyildir". M.Ə.Rəsulzadə isə Bakı qurultayında irəli sürdüyü fıkri Moskvada daha qətiyyətlə müdafiə etdi. O, "milli-ərazi federasiya prinsipləri əsasında demokratik respublika yaradılması" tərəfdarı olub, Ə.Salikovun "federasiya idarə formasının türk-müsəlman qövmlərini parçalayacağı" iddiasını rədd cdirdi. Hər iki layihə müzakirə olunarkən M.Ə.Rəsulzadənin təklif etdiyi layihənin lehinə 446, əley-hinə 271, Ə.Salikovun layihəsinin lehinə 291, əleyhinə isə 422 səs verildi. Beləliklə, qurultayda Rusiyanın milli-federativ respublikaya çevrilməsi və müsəlman əhalisi yaşayan vilayətlərə muxtariyyət verilməsi barədə qətnamə əksəriyyət səslə (717 səsdən 446 səs) qəbul edildi. Qurultay rus dilində aparıldığından M.Ə.Rəsulzadənin Azərbaycan dilində çıxış etməsi müəyyən narazılıqlara səbəb olmuşdu. Qurultay bütün Rusiya müsəlmanlarının ictimai-siyasi həyatında böyük rol oynamışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; S ü l e y m a n o v a S., XIX əsrin sonları - XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi hərəkat, B., 2001.

**RUSİYA SOSİAL-DEMOKRAT FƏHLƏ PARTİYASININ (BOLŞEVİKLƏR) BAKI TƏŞKİLATI** - Rusiya Sosial-Demokrat Fəhlə Partiyası Mərkəzi Komitəsinin tapşırığı ilə Bakıya göndərilmiş sosial-demokratların fəhlə hərəkatına siyasi xarakter vermək üçün təsis etdikləri partiya təşkilatı. 1900 ildə 15 marksist dərnəyin birləşdirilməsi nəticəsində yaradılmışdı. Tərkibi, əsasən, qeyri millətlərin nümayəndələrindən ibarət idi. 1901 ilin yazında RSDFP-nın Bakı komitəsi yaradıldı.

downloaded from KitabYurdu.az

1903 ildə RSDFP-nin 2-ci qurultayında partiya bolşevik və menşeviklərə parçalanarkən Bakı komitəsi bolşeviklərin mövqeyini dəstəklədi və onun rəhbəri L.Krasin 1903 ildə yaradılmış RSDFP bolşevik Qafqaz İttifaqının 1-ci qurultayında iştirak etdi. Mərkəzi Komitəni təmsil edən V.A.Noskovun (Qlebovun) Bakıya səfərindən sonra onun tövsiyəsi ilə menşevik V.Mitrov Bakı komitəsi sıralarına qatıldı. Apreldə V.Mitrov komitənin tərkibini tamamilə dəyişdirərək orada menşeviklərin sayını artırdı.

1907 il iyulun 10-da RSDFP-nin Bakı şöbəsində menşeviklərin üstünlük təşkil etdiyi "Rəhbərlikedici kollektiv" adlı bir qurum yaradıldı. Menşeviklərin birgə ümumşəhər təşkilatının yaradılması təklifi Q.Orconikidze tərəfindən rədd olunandan sonra "Rəhbərlikedici kollektiv" müstəqil təşkilat kimi fəaliyyət göstərməyə başladı və 1907 ilin oktyabrından Bakıda paralel fəaliyyət göstərən iki sosial-demokrat təşkilatı yarandı.

1908 ildən bolşeviklər gizli fəaliyyətə keçdilər, menşeviklər isə "təsviyəçilər" adı ilə leqal fəaliyyətlərini davam etdirdilər. 1912 ilin martında RSDFP Bakı təşkilatının hər iki fraksiyasının birlikdə konfransı keçirildi və 4-cü Dövlət Dumasına seçkilərdə birgə kampaniya aparılması qərara alındı. 1913 il avqustun 26-da RSDFP-nin Bakı təşkilatı ləğv edildi, həm bolşevik, həm də menşevik üzvləri həbs olundular. Bolşeviklər Bakı komitəsini yalnız 1914 ilin mayında bərpa edə bildilər.

1915 ilin əvvəlində S.Şaumyanın rəhbərliyi ilə RSDFP-nin yeni bolşevik Bakı komitəsi seçildi. Onun tərkibinə P.A.Caparidze, N.N.Kolesnikova, İ.T.Fioletov, A.B.Roxlin və b. daxil oldular. Qafqaz bolşeviklərinin rəhbər orqanı RSDFP-nin Qafqaz bürosu oldu. Qafqaz bolşevik təşkilatlarının 1915 ilin oktyabrında Bakıda keçirilmiş müşavirəsində S.Şaumyanın yazdığı qətnamədə fəhlələr kəndlilərlə və digər demokratik qüvvələrlə birgə burjuaziyaya və mülkədarlara vətəndaş müharibəsi elan etməyə çağırılırdı. Qətnamənin əsas tələblərindən biri də dünya müharibəsinə son qoyulması idi. Bakı bolşevikləri öz fəallarını cəbhəyə göndərib, orada müharibə əleyhinə təbliğat aparır, şəhərdə neft sənayeçilərinə qarşı tətillər təşkil edirdilər. 1916 ilin fevralında bolşeviklərin Bakı komitəsinin çox hissəsi, o cümlədən S.Şaumyan həbs olundu və Fevral inqilabına qədər bolşeviklərin fəaliyyəti, demək olarki, dayandırıldı.

Fevral inqilabından (1917) sonra, bütün Rusiyada olduğu kimi, Azərbaycanda da RSDFP-nin təşkilatları birləşmək qərarına gəldilər. Martın 10-da bolşeviklərdən və menşeviklərdən ibarət Müvəqqəti Bakı komitəsi seçildi. Bakının bütün rayonlarında, həmçinin Azərbaycanının qəzalarında birləşmiş rayon komitələri təşkil olundu. Lakin tezliklə fraksiyalararası münaqişələr özünü büruzə verdi. Bu, ilk növbədə, sosial-demokratların Müvəqqəti hökumətə münasibətində Özünü göstərdi. Menşeviklər hökuməti dəstəklədiyi halda, bolşeviklər onun qəti əleyhdarları idilər. S.Şaumyanın yazdığı məruzədə "vətəndaş sülhü yox, yalnız sinfi mübarizə" şüarı səsləndirildi. Apreldə RSDFP-nin Bakı təşkilatı adından Bakı Sovetinə bolşeviklər tərəfindən P.A.Caparidze, S.Əfəndiyev, menşiviklərdən isə A.Xaçiyev, Bakradze, İ.Landiya seçilmişdilər. Lakin bu müttəfiqlik uzun sürmədi. Petroqrad bolşeviklərindən sonra, RSDFP Bakı təşkilatının 1917 il iyunun 25-də keçirilmiş konfransında bolşeviklər menşeviklərlə birgə işləməyin mümkünsüzlüyünü bəyan etdilər və Bakı komitəsinin 31 bolşevikdən təşkil olunmuş yeni tərkibini təsdiqlədilər. Onların arasında "Hümmət"in üzvləri N.Nərimanov, S.Əfəndiyev və M.N.İsrafilbəyov (Qədirli) də var idi,

1917 il Oktyabr çevrilişindən sonra Bakı bolşevikləri öz qüvvələrini səfərbər etməyə başladılar. Onlar Bakı Sovetini ələ keçirmək üçün burada çoxluq təşkil edən müsavatçıların köməyi ilə eser-menşevik blokunu təcrid etdilər və bu orqanı 1917 il noyabrın 2-dən fəhlə və əsgər deputatları Soveti adlandıraraq, siyasi hakimiyyət mərkəzinə çevirdilər. Həmin ilin dekabrında bolşeviklərlə müsavatçıların münasibətlərinin gərginləşməsi şəraitində Bakı Sovetinə yeni seçkilər keçirildi və bolşeviklər burada sos çoxluğu qazanmağa müvəffəq oldular. S.Şaumyan Bakı Sovetinin sədri seçildi. Lakin V.Lenin tərəfindən dckabrın 18-də S. Şaumyan Cənubi Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin olunduqdan sonra P.A.Caparidze bir müddət onu Sovetin sədri vəzifəsində əvəz etdi. Bakı Sovetinin 1918 ilin iyuluna qədərki hakimiyyəti dövründə S.Şaumyanın başçılığı ilə Azərbaycan xalqına qarşı ən dəhşətli cinayət - soyqırımı (bax *Soyqırımı)* törədildi. Martın 30-dan aprelin 2-nə qədər davam edən qırğınlar zamanı S.Şaumyanın rəhbərlik etdiyi daşnak-bolşevik silahlı dəstələri Bakı, Şamaxı, Quba, Xaçmaz, Lənkəran və b. şəhər və bölgələrdə azərbaycanlı əhaliyə qarşı kütləvi soyqırımları törətdilər. Mart soyqırımı zamanı təkcə Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirildi. S.Şaumyan Moskvaya göndərdiyi hesabatda bu hadisələrə "vətəndaş müharibəsi" donu geyindirdi və qeyd etdi ki, *"onlar (müsəlmanlar - red.) Bakıda üstün gəlsəydilər, şəhər Azərbaycanın paytaxtı elan edilərdi."*. Mart hadisələrindən sonra Bakı Sovetinin şəhərdə və bölgələrdə hakimiyyəti gücləndi. Aprelin 14-də Lənkəranda, 21-də Salyanda, 23-də Qubada sovet hakimiyyəti quruldu. Bu bölgəni idarə etmək üçün S.Şaumyanın rəhbərliyi ilə aprelin 25-də ali icra orqanı - Bakı Xalq Komissarları Soveti (XKS) yaradıldı. XKS, faktik olaraq, sovet Rusiyasının tabeçiliyində olan yerli idarə orqanı idi. Daşnaklardan və sol eserlərdən başqa, bütün partiyalar hakimiyyətdən uzaqlaşdırıldılar. Şəhər Duması buraxıldı və daşnak B.Avakyan Bakı şəhərinin komendantı təyin olundu. Daşnakların və bolşeviklərin siyasətini dəstəkləməyon "Kaspi", "Baku", "Bakinskiye izvestiya", "Naş qolos" və s. qəzetlər bağlandı. 1918 il aprelin 2-də Azərbaycan neft sənayesinin, bir neçə gün sonra isə Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında dekretlər verildi. Əsas məqsəd Leninin göstərişi ilə sovet Rusiyasını neftlə təmin etmək idi. Aprel-

downloaded from KitabYurdu.az

iyul ayları ərzində Bakıdan Rusiyaya 1,3 mln. tona yaxın neft və neft məhsulları göndərilmişdi.

1918 il mayın 28-də elan olunmuş *Azərbaycan Xalq Cümhuriyyəti* və Gəncədə fəaliyyətə başlamış Cümhuriyyət hökuməti Bakı Kommunasının ən ciddi rəqibinə çevrildi. Türk komandanlığının kömoyi ilə yaradılmış Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* Bakını azad etmək üçün iyundan hərbi əməliyyatlara başladı. Türk-Azərbaycan ordusu Bakı kommunasının daşnaklardan və general L.Biçeraxovun alayından ibarət olan birləşmiş hərbi qüvvələrini məğlub edərək iyulun sonuna qədər Göyçayı, Kürdəmiri, Şamaxını azad etdi.

Son dərəcə gərgin siyasi şəraitdə, 1918 il iyulun 25-də Bakı Sovetinin iclası keçirildi və daşnak-eser-menşevik blokunun tələbi ilə səsvermə nəticəsində ingilis qoşunlarının Bakıya dəvət olunması haqqında qərar qəbul olundu. Bakı kommunasının başçılan tezliklə Sentrokaspi hökuməti tərəfındən həbs edilib qətlə yetirildilər.

Bundan sonra zəifləyən Bakı bolşevik təşkilatı 1918 ilin sonundan fəallaşmağa başladı. Mərkəzdən göstəriş alan bolşeviklər həmin ilin dekabrında fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə qarşı fəal boykot taktikası seçdilər və onun işində iştirak etməkdən imtina etdilər. Bolşeviklərin 1918-19 illərdəki fəaliyyəti, əsasən, *Bakı Fəhlə Konfransı (BFK)* çərçivəsində gedirdi. BFK-da eser və menşeviklərlə kəskin mübarizəyə qatılan bolşeviklər 1919 il ərzində təşkilatı öz əllərinə keçirməyə nail oldular. Bolşeviklər gərgin sosial-iqtisadi vəziyyətdən istifadə edərək, dövlətə qarşı pozuculuq işi aparır, neft və başqa istehsal sahələrində işləyən fəhlələrin tətillərini təşkil edir, onların çıxışlarını Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı yönəldirdilər. Bolşeviklərin pozuculuq fəaliyyəti nəticəsində əgər 1918 il tətillərində cəmi 849 fəhlə iştirak etmişdisə, 1919 ildə onların sayı 6189-a çatmışdı. Bolşeviklərin hazırladıqları 1919 ilin may tətili azərbaycanlı fəhlələrin hökumətə qarşı çıxmaqdan imtina etməsi nəticəsində baş tutmadı və onun təşkilatçıları olan bolşeviklər A.Mikoyan, A.Anaşkin, A.Çurayev, B.Qubanov həbs edildilər. Lakin sosial-iqtisadi vəziyyətin pisləşməsi nəticəsində 1919 ilin sonunda bolşeviklərin kütlələr arasında nüfuzu artmağa başladı. Hələ 1918 ilin noyabrında təşkil olunmuş Ümumrusiya Kommunist (bolşeviklər) Partiyasının (ÜRK(b)P) müvəqqəti Bakı bürosu 1919 ildən Bakı Komitəsinə çevrildi. Ona Mikoyan başçılıq edirdi. 1920 ilin əvvəllərində Bakı kommunistləri Rusiyadan göstəriş və dəstək alaraq, Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün fəal işə başladılar. Yanvarda RK(b)P Bakı Komitəsi yanında Azərbaycan Xalq Cümhuriyyətini devirmək üçün silahlı üsyan təşkil etmək məqsədilə Əliheydər Qarayevin rəhbərliyi ilə "operativ qərargah" yaradıldı. "Hümmət" və *"Ədalət"* müsəlman sosialist təşkilatlarının sıralarında "təmizlik" aparan bolşeviklər 1920 il fevralın 11-12-də Bakıda keçirilən birinci qurultayda həmin təşkilatlarm üzvləri də qatılmaqla Azərbaycan Kommunist (bolşeviklər) Partiyasını yaratdılar. Partiyaya həmçinin Ruhulla Axundovun rəhbərliyi ilə Azərbaycanınlı sol eserlər təşkilatı da daxil oldu. Bu vaxtdan etibarən bolşeviklərin təsiri altında olan fəhlələrin milli hökumətə qarşı çıxışları artdı. Bolşeviklər bütün qüvvələrini dövlətə qarşı silahlı üsyanın hazırlanmasına yönəldərək fəhlələri silahlandırır, hərbi drujinalar yaradırdılar. V.Leninin göstərişilə RK(b)P-nin Bakı komitəsinin sərəncamına hərbi məqsədlər üçün 15 milyon manat pul göndərilmişdi. Aprelin əvvəlində hökumət yaratmağa səlahiyyət almış Məmməd Həsən Hacınski bolşeviklərə nazir vəzifələri təklif etdi, lakin rədd cavabı aldı. Həmin dövrdə artıq bolşevik təşkilatının üzvü olan Əliheydər Qarayev Dağıstandakı sovet qoşunlarının komandanı B.Şeboldayevə ən yaxın günlərdə Bakıda çevrilişə hazırlıq görülməsi barədə teleqram vurdu. RK(b)P Qafqaz ölko komitəsi və AKP-nın birlikdə hazırladığı plana görə, 1920 il aprelin 27-də bolşe-viklərin silahlı dəstoləri şəhər daxilində və onun ətrafında on mühüm obyektləri - dəmiryol vağzalını, poçt-teleqrafı və s. ələ keçirməyə başladılar. Günorta, artıq hərbi drujinaların şəhərdə vəziyyətə tam nəzarət etdiyi və 11-ci Qırmızı ordunun Azərbaycanının ərazisinə müdaxilə etmiş olduğu bir vaxtda başda H.Sultanov olmaqla, kommunistlərin nümayəndə heyəti AK(b)P MK, RK(b) P Qafqaz ölkə komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından hakimiyyəti Nəriman Norimanov başda olmaqla sovet fəhlə-kəndli hökumətinə təslim etmək barədə Parlamentə ultimatum təqdim etdi. Aprelin 27-dən 28-nə keçən gecə Azərbaycanın Parlamenti buraxıldı. Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. N.Nərimanov (sədr), A.A.Alimov, D.X.Bünyadzadə, M.D.Hüseynov, Ə.Qarayev və H.Sultanovdan ibarət Müvəqqəti İnqilab Komitəsi həmin gün Azərbaycanı Sovet Sosialist Rcspublikası elan etdi. Aprelin 27-də gecə, parlamentə ultimatum verilməsindən 12 saat əvvəl A.Mikoyan, H.Cəbiyev, Q.Musabəyovun da olduğu "III İnternasional" zirehli qatarı Samur körpüsündən keçdi və Bakıya doğru hərəkət edərək, səhər saat 4-də şəhərə daxil oldu. Mayın 1-də Volqa-Xəzər hərbi donanmasının gəmiləri Bakı limanını, 3-4-də isə Lənkəranı və Astaranı tutdular. 1920 il mayın ortalarında 11 -ci Qırmızı ordu Azərbaycanın, demək olar ki, bütün ərazisini nəzarət altına aldı. Bu vaxtdan başlayaraq, Azərbaycan Kommunist Partiyası 70 il ərzində ölkənin hakim partiyası oldu.

*Əd.:* Azərbaycanın tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri, B„ 1964; Багирова И.С., Политические партии и организации Азербаиджана в начале XX века, Б.,

**RUSİYA SOSİAL-DEMOKRAT FƏHLƏ PARTİYASININ (MENŞEVİKLƏR) BAKI TƏŞKİLATI** - Rusiya sosial-demokrat fəhlə partiyasının (RSDFP) yaranmasından (1898) 5 il sonra 1903 ildə baş vermiş parçalarına nəticəsində əvvəlcə menşevik (azlıq) fraksiyası, sonralar isə partiya kimi siyasi səhnəyə çıxmışdı.

downloaded from KitabYurdu.az

KSDFP-nin Bakı təşkilatı 1900 ildə Partiya Mərkəzi Komitəsinin tapşırığı ilə Bakıya göndərilmiş sosial-demokratlar tərəfindən yaradılmış, 1901 ilin yazında fəaliyyətə başlamışdı.

1903 ildə RSDFP-nin 2-ci qurultayında proqramın bəzi maddələrinin qəbulu ilə əlaqədar yaranmış mübahisələr nəticəsində partiya bolşevik və menşevik fraksiyalarına parçalandı.

Münaqişənin başlanğıcında partiyanın Bakı komitəsi bolşeviklərin mövqeyində durdu. Lakin Mərkəzi Komitəni təmsil edən V.A.Noskovun (QJebovun) 1904 ildə Bakıya səfərindən sonra onun tövsiyəsi ilə menşevik V.Mitrov Bakı komitəsinin sıralarına qatıldı. Apreldə V.Mitrov komitənin tərkibini tamamilə dəyişdirərək, orada menşeviklərin sayını artırdı. Həmin il Qafqaz İttifaq Komitəsinin tapşırığı ilə bolşevik A.M.Stopani Bakıya göndərildi və Bakı komitəsini yenidən bolşevikləşdirdi. A.M.Stopani 1905 ildə Bakını tərk etdikdən sonra isə komitənin tərkibi yenidən menşevikyönlü oldu. 1912 ilə kimi, yəni, bolşevik və menşevik fraksiyalarının qəti təşkilati haçalanmasına qədər, Bakı sosial-demokrat təşkilatının rəhbərliyi tez-tez dəyişir, fəhlə kiitlələrinə təsir göstərmək uğrunda mübarizə aparan və müxtəlif dövrlərdə gah bolşevik, gah da menşeviklərin üstünlük təşkil etdiyi yeni rəhbər orqanları yaradılırdı. 1907 il iyun 10-da RSDFP-nin Bakı şöbəsinin "Rəhbərlikedici kollektiv" adlanan qurumu seçildi. Bu qurumun 26 üzvündən 19-u menşevik, 7-si bolşevik idi. Şəhərin demək olar ki, biitün rayonlarına menşeviklər nəzarət edirdi. "Rəhbərlikedici kollektiv" ümümşəhər konfransını keçirmək təklifi ilə iki dəfə bolşeviklərə müraciət etmişdi, lakin Q.K.Orconikidzenin bu müraciəti kobud şəkildə rədd etməsindən sonra menşeviklər özlərinin konfransını çağıraraq "Rəhbərlikedici kollektiv"in yeni tərkibini seçdilər və müstəqil təşkilat kimi işləməyə başladılar. Beləliklə, 1907 ilin oktyabrından Bakıda paralel olaraq iki sosial-demokrat təşkilatı fəaliyyət göstərirdi.

Say tərkibinə görə menşeviklər 1907 ilə qədər bolşeviklərə nisbətən azlıq təşkil edirdiJər, Lakin 1907 ildən başlayaraq onların sayı getdikcə artır və bolşevikləri iki dəfə üstələyir (1907 ildə bolşeviklər 500 nəfər, menşeviklər isə 1000 nəfər idi). Bunu menşeviklərin Jeqal işə daha çox üstünlük verməsi və fəhlələr arasında, xüsusilə həmkarlar ittifaqlarında populyarlıqlarının artması ilə izah etmək mümkündür. 1908 il Bakıda irticanın başlanması ilə yadda qaldı. Bolşeviklər gizli fəaliyyətə keçdilər və ya sürgün edildilər, menşeviklər isə, əvvəlki kimi, leqal işin tərəfdarı idilər ki, buna görə də onların bir hissəsi "təsviyəçilər", yəni qeyri-leqal işin "ləğvediciləri" adı qazandılar.

Neft sənayesi fəhlələrinin növbəti çıxışları uğursuzluqla başa çatdıqdan sonra 1913 il avqustun 26-da RSDFP-nin Bakı təşkilatı ləğv edildi, həm bolşevik, həm də menşevik üzvləri həbs olundular. Leqal fəaliyyət göstərdiklərindən polisin təqiblərinə məruz qalan menşeviklər, xüsusilə "tösviyyəçilər" böyük itkilər verdilər. 1914-17 illərdəki inqilabi yüksəliş dovründə, yalnız gizli fəaliyyət göstərən menşevik təşkilatını qoruyub saxlamaq və bərpa etmək mümkün oldu.

Birinci diinya müharibəsi (1914-18) dövründə menşeviklərin "Rəhbərlikedici kollektiv"i fəaliyyətini bərpa etmək üçün böyük səylər göstərsə də təşkilatın üzvlərinin sayı yalnız 45 nəfərə çatırdı. Menşeviklərin və bolşeviklərin miiharibəyə münasibəti əvvəllər üst-üstə düşürdü, yəni, onlar miiharibənin əleyhinə çıxış edib, onu çar hökumətinə qarşı yönəltməyə çağırırdılar. Lakin 1915 ildən başlayaraq, menşeviklər Rusiya və Qafqaz sosial-demokratlarının liderləri G.V.PIexanovun və N.Jordaniyanın çağırışlarını rəhbər tutaraq, vətənpərvəriik mövqeyindən çıxış etməyə başladılar. 1915 ilin oktyabrında sosial-demokratların (menşeviklərin) Gürcüstanın Axalsixi şəhərində keçirilən konfransında müharibə zamanı burjuaziyanın hakimiyyət əleyhinə addımlarını dəstəkləmək və bu addımları demokratik hökumətin yaradılmasına yönəltmək qərara alındı. Hərbi-iqtisadi qüvvələrin səfərbərliyi ilə məşğul olan Hərbi-Sənaye Komitələrinin (HSK) işində də fəal iştirak etmək barədə qərar qəbul olundu. Bakı HSK yanında yaradılmış fəhlə qruplarına menşeviklər V.İ.FroIov və İ.Y.Anşeles daxil edilmişdilər.

Menşeviklər 1917 il Fevral inqilabını, bolşeviklərdən fərqli olaraq, boyük rəğbətlə qarşıladılar. V.İ.Frolov həmin dövrdə yaradılmış və Müvəqqəti hökumətin Bakıdakı təmsilçisi olmuş İctimai Təşkilarların İcraiyyə Komitəsinin (İTİK) sədri seçildi. Bundan başqa, bütün Rusiyada olduğu kimi, Bakı Sovetinin də yenidən seeilmiş tərkibinin çox hissəsini menşeviklər və eserlər təşkil edirdilər. 1917 ilin birinci yarısında hər iki sosial-demokrat təşkilatında barışdırıcılıq əhval-ruhiyyəsi hökm sürürdü və martın 10-da keçirilmiş ümumi iclasda RSDFP-nin Miivəqqəti Bakı Komitəsi seçildi. Onun tərkibinə 3 menşevik və 2 bolşevik daxil oldu. Lakin tezliklə fraksiyaarası münaqişələr özünü biruzə verdi. 1917 ilin üyulunadək hər iki təşkilat formal olaraq birgə işləyirdi, hətta 11 illik fasilədən sonra "Bakinski raboçi" qəzetinin də birgə çapına başlanmışdı. Lakin V.İ.Lenin və onun Bakıda təmsilçisi olan S.Şaumyan müharibəni müdafiə edən menşeviklərlə heç bir işbirliyinə getməmək mövqelərində israrlı idilər. Qarşıdurmada son nöqtəni RSDFP Bakı təşkilatının 1917 il iyunun 25-də keçirilən ümumi konfransı qoydu. Konfransda " ən mühüm proqram və taktiki məsələlərdə dərin fikir ayrılığına görə "müdafiəçi" mövqeyində duran menşeviklərlə heç bir işbirliyinin mümkün olmadığı" haqqında qərar qəbul edildi. Bakı Sovetində də fraksiyaların parçalanması baş verdi. Bu vaxtdan etibarən hər iki təşkilatın müstəqil fəaliyyəti rəsmi olaraq təsdiqləndi.

Bu dövrdə menşeviklərin nüfuzu nisbətən azalmışdı. Bunu 1917 ilin oktyabr və dekabr aylarında Bakı Sovetinə, noyabrında isə Müəssislər məclisinə keçirilən seçkilər də göstərdi. Menşeviklər bu seçkilərdə ən az səs toplayan partiyalardan biri oldu. Onlar həm Bakı Sovetində, həm də həmkarlar ittifaqlarında, əsasən, eserlərlə bir blokda fəaliyyət göstərirdilər.

downloaded from KitabYurdu.az

Bakı Kommunası dövründə (1917, 2 noyabr- 1918, 25 iyul) menşeviklər eserlərlə birgə Bakı Sovetində S.Şaumyanın rəhbərlik etdiyi bolşevik fraksiyasına, sonra isə (1918 il aprelin 25-dən) Xalq Komissarları Sovetinə qarşı müxalifətdə olsalar da, bolşeviklərlə daşnakların 1918 ildə törətdiyi mart soyqırımı zamanı onların tərəfındə durdular. Bu, menşeviklərin, əsasən, rus və erməni əhalisinə arxalanması ilə izah oluna bilər. Menşeviklərin lideri Q.Ayollo martın 30-da, onun partiyasının Bakı Sovetini müdafıə edəcəyini bildirdi. Lakin mart qırğınlarının nəticəsi menşevikləri dəhşətə gətirmişdi. Menşeviklərin "Naş qolos" qəzeti azərbaycanlıların kütləvi surətdə qətlə yetirilməsini təsvir edərək yazırdı ki, "bu düşmənçiliyi aradan qaldırmaq, bu nifrətin qəzəbli intiqam hissinə çevrilməsinin qarşısını almaq üçün çox iş görmək lazım gələcəkdir". Apreldə S.Şaumyan "Naş qolos" qəzetini bağlatdırdı.

RSDFP-nin 7 qurultayında (1918, mart) bolşeviklər partiyalarının adını dəyişdirərək Rusiya Kommunist (bolşevik) Partiyası qoydular. Menşeviklər isə RSDFP adını saxlayıb, sosial-demokrat olaraq qaldılar.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ilə fəaliyyətə başlayan Azərbaycan milli hökumətini devirmək üçün Bakı Xalq Komissarları Soveti hərbi qüvvələrinin Gəncə üzərinə başladığı yürüş komunna hakimiyyətində yaranmış iqtisadi-siyasi böhranı daha da gücləndirdi. Bakı Sovetinin menşevik-eser-daşnak bloku şəhərə ingilis qoşunlarının çağırılmasını tələb edirdilər. Həmin ərəfədə onlar İranın Ənzəli limanında yerləşdirilmiş ingilis qoşunlarının komandanı L.Denstervillə intensiv danışıqlar aparırdılar. Bakı Kommunasının süqutundan sonra, 1918 il avqustun 1-də menşevik, eser və daşnaklardan ibarət "Sentrokaspi Diktaturası və fəhlə və əsgər deputatları Müvəqqəti İcraiyyə Komitəsinin Rəyasət Heyəti" adlı hökumət təşkil olundu. Yeni hökumətdə menşeviklərin lideri Sadovski idi. Bir neçə gün sonra üç batalyondan ibarət ingilis qoşunları Bakıya daxil oldular. Yeni hökumət, ilk növbədə, sovet hakimiyyətinə qarşı mübarizə aparan demokratik Rusiya (yəni, ağ qvardiya) ilə həmrəyliyini bildirdi. Lakin hökumətdə təmsil olunan partiyalar, o cümlədən menşeviklər qoşunlarının sayının azlığına və Bakını türk-Azərbaycan ordusundan müdafiə etmək iqtidarında olmadığına görə ingilislərdən narazı idilər. Qafqaz İslam Ordusunun Bakıya yaxınlaşdığını görən ingilislər sentyabrın 15-də şəhəri tərk etdilər. Onların arxasınca Sentro-kaspi hökumətinin üzvləri də qaçmağa məcbur oldular.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial-demokratlar (menşeviklər) əsasən, həmkarlar İttifaqlarında və Bakı Fəhlə Konfransında (BFK) fəaliyyət göstərirdilər. 1918 il dekabrın 6-dan 14-dək keçirilən Demokratik müşavirədə onlar kadet və eserlərlə birlikdə yeni milli hökuməti tanımamaq və Rusiyanın bölünməzliyi haqqında bəyanat qəbul etdilər. Menşeviklər özlərini parlament partiyası saymalarına baxmayaraq, milli parlamentdə iştirakdan imtina etdilər. Onların rəhbərlik etdiyi həmkarlar şurası yeni hökumətə müxalif mövqedə dururdu. Lakin menşeviklərə yaxın sayılan Tiflis hümmətçiləri parlamentin işində iştirak edərək, sosialist fraksiyasına daxil oldular.

Bakı Fəhlə Konfransının işində fəal iştirak edən menşevik və eserlər bütün mühüm məsələlərdə ingilis komandanlığına müraciət edirdilər. Məsələn, onların 1918 ilin dekabrında təşkil etdiyi tətil zamanı fəhlələrin bütün tələbləri - söz və mətbuat azadlığı, həbs olunanların azad edilməsi, kollektiv müqavilənin bərpası və başqa tələblər ingilislərə ünvanlanmışdı. Bakı Fəhlə Konfransının yığıncağında iştirak edən Məhəmməd Əmin Rəsulzadə buna öz qəti etirazını bildirib ölkədə yeganə qanuni hakimiyyət orqanı kimi milli hökumətin tanınmasını tələb etmişdi. Bolşeviklərin tezliklə Bakı Fəhlə Konfransında üstünlük qazanması menşeviklərin təsir dairəsini daraltmağa başladı. Onların sonuncu dayağı - Bakının Həmkarlar Şurası da 1919 ilin sentyabrında bolşeviklər tərəfindən zəbt olundu. Menşeviklər bir neçə fəhlə tətilinin təşkilində iştirak etsələr də, onların mövqeyi bolşeviklərlə müqayisədə çox zəif idi. Menşevikyönlü sosialist Əhməd bəy Pepinov Nəsib bəy Yusifbəylinin 1-ci kabinəsində (Cümhuriyyətin 4-cü hökumət kabinəsi) əmək naziri vəzifəsini tutduğu zaman da menşeviklərin fəhlə təşkilatlarını hökumətə qarşı qaldırmaq cəhdləri davam edirdi. Buna cavab olaraq, Ə.Pepinov fəhlələrə böyük güzəştlər verilməsini və əmək məcəlləsində islahatlar aparılmasını vəd etmişdi.

*Aprel işğalından (1920)* sonra bolşeviklər bütün sosialist partiyalarının, o cümlədən menşeviklərin təşkilatlarını ləğv etdilər. Sosial-demokratların bir hissəsi Kommunist partiyasının sıralarına daxil oldu, digər qismi isə gizli fəaliyyətə keçdi və sonralar repressiyalara məruz qaldı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), B., 1998; Багирова И.С., Политические партии и организации Азербайджана в начале XX века, Б., 1997 Очерки коммунистической партии Азербайджана, т.1, Б., 1985.

**RUSİYA SOVET FEDERATİV SOSİALİST RESPUBLİKASI XALQ KOMİSSARLARI SOVETİNİN "TÜRKİYƏ ERMƏNİSTAM HAQQINDA" DEKRETİ-** Osmanlı Türkiyəsinin parçalanmasına yönəlmiş sənəd. 1917 il 29 dekabrda (1918, 11 yanvar) verilmiş, yanvarın 15-də (28) 3-cü Ümumrusiya sovetlər qurultayı tərəfindən təsdiq edilmişdi (bax *"Türkiyə Ermənistanı haqqında dekret").*

**RUSİYA VƏ AZƏRBAYCAN ARASINDA HƏRBİ-İQTİSADİ İTTİFAQ HAQQINDA MÜQAVİLƏ (1920)-** sovet Rusiyası ilə Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) arasında sentyabrın 30-da Moskvada imzalanmış müttəfiqlik müqaviləsi. Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətini devirərək (1920, 28 aprel) Azərbaycanı sovetləşdirdikdən sonra buradakı mövqelərini siyasi-hüquqi cəhətdən möhkəmləndirmək üçün tədbirlər görməyə başladı. Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) xalq xarici işlər komissarı G.Çiçerin Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri Nəriman Nərimanova nota ilə müraciət edərək, ikitərəfli danışıqlar üçün Moskvaya səlahiyyətli nümayəndə göndərməyi təklif etdi. Azərbaycan hökuməti xalq ədliyyə komissarı Behbud

downloaded from KitabYurdu.az

ağa Şahtaxtinskiyə belə səlahiyyət verdi. 1920 ilin avqustunda RSFSR ilə Azərbaycan SSR arasında xarici ticarət əlaqələri, dəmir yolları və dəmir yol şəbəkələrinin birləşdirilməsi haqqında sazişlər bağlandı. Digər mühüm müqavilələr sentyabrın 30-da bağlandı. Onların içərisində hərbi-iqtisadi müqavilə əsas yer tuturdu. Müqavilə preambula və dörd maddədən ibarət idi. Preambulada hər iki respublikanın ***"Rusiya və Azərbaycanın zəhmətkeş kütlələrinin mənafelərinin dərin birliyinin dərk edilməsindən çıxış edərək vəyalnız hər iki qardaş respublikanın bütiin qüvvələrinin tam birləşdirilməsinin ümumi düşmənə - imperialist burjuaziyaya qarşı ağır mübarizədə onların müvəffəqiyyətini təmin edəcəyini nəzərə alaraq"*** bu müqaviləni bağladıqları bəyan edilirdi. **Birinci maddədə** göstərilirdi ki, "Rusiya və Azərbaycan öz aralannda sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar". **İkinci maddədə** RSFSR hökuməti ilə Azərbaycan Respublikasının 1) hərbi təşkilatları və hərbi komandanlığı; 2) xalq təsərrüfatını və xarici ticarəti idarə edən orqanları; 3) təchizat orqanlarını; 4) dəmir yol nəqliyyatını və poçt-teleqraf idarələrini; 5) maliyyəni ən qısa müddətdə birləşdirəcəkləri bildirilirdi. **Üçüncü maddəyə** görə, xalq həyatının göstərilən sahələrini idarə edən müəssisələrin birləşməsi qaydaları və forması hər iki hökumətin xüsusi sazişi ilə müəyyənləşdirilməli idi. **Dördüncü mad-dədə** qeyd olunurdu ki, bu müqavilə imzalandığı andan qüvvəyə minir və xüsusi ratifikasiya olunmayacaqdır. Müqaviləni RSFSR hökuməti adından G.Çiçerin, Azərbaycan hökuməti adından B.Şahtaxtinski imzalamışdı. Bu müqavilə ilə yanaşı, iqtisadi siyasət birliyi, poçt və teleqrafın idarəsi, maliyyə məsələləri və s. haqqında sazişlər də imzalanmışdı. Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi ittifaq haqqında müqavilə və digər sazişlər faktik olaraq, Azərbaycanın dövlət müstəqilliyini tamamilə məhdudlaşdırır, həlledici məsələlərdə suveren hüquqlarını Rusiyaya güzəştə gedilməsini göstərirdi. Bu isə müstəqilliyin saxlanılması şərti ilə hakimiyyətin kommunistlərə təhvil veril-məsi haqqında Azərbaycan Xalq Cümhuriyyəti parlamenti-nin 1920 il aprelin 27-də qəbul etdiyi qərara tamamilə zidd idi. Bu müqavilələrlə Azərbaycan SSR-in Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına (ZSFSR), onun tərkibindo isə Sovet Sosialist Respublikaları İttifaqma (SSRİ) daxil olmasının əsası qoyuldu. Beləliklə, Azərbaycan SSR əsas suveren hüquqlarından məhrum oldu. Azərbaycan öz suveren hiiquqlannı yalnız 1991 ildo yenidən bərpa edo bildi.

*Əd.:* Azərbaycan Rcspublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı. 199I-ci il 18 oktyabr, B., 1991; Qasımov M., Xarici dövlətlər və Azərbaycan, B., 1998;

**RUSİYA VƏ ZAQAFQAZİYA QANUNLARIMN MÜVƏQQƏTİ SAXLANMASI** Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin reallıqla hesablaşaraq, qəbul etdiyi müvəqqəti qərarlardan biri. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətə başladığı dövrdə dövlət quruluşunun, bütövlükdə, siyasi sistemin dəyişdirilməsi yeni qanunların qəbulunu zəruri edirdi. Lakin bunun üçün müvafiq təşkilati tədbirlər və qanunvericilik prosesi tələb olunurdu. Buna görə də, çıxış yolu kimi müvəqqəti olaraq köhnə qanunvericilik sistemi saxlanıldı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bu məqsədlə 1918 il 23 iyun tarixli qəran ilə idarəetmə və məhkəmənin bütün sahələri üzrə mövcud olan qanunları, həmin qanunlar hökumət tərəfindən ləğv olunana və ya dəyişdirilənədək qüvvədə saxlanıldı. Eyni zamanda, Milli Şura, Parlament və Hökumət qanunvericilik sahəsində gərgin çalışaraq, bu qanunlann xeyli hissəsini ləğv etməyə və yenilərini qəbul etməyə nail oldu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**RUSİYADA MÜSƏLMANLIQ "İTTİHAD"** - 1918 ilin yanvarında Bakıda fəaliyyət göstərən "Rusiyada müsəlmanlıq" partiyası ilə Gəncədəki "İttihadi-İslam" cəmiyyətinin birləşməsi nəticəsində yaradılmış partiya. Ətraflı məlumat üçün bax *İttihad.*

**"RUSİYANIN VƏ ŞƏRQİN BÜTÜN MÜSƏLMAN ZƏHMƏTKEŞLƏRİNƏ"** - Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin (RSFSR XKS) 1917 il noyabrın 20-də (dekabrın 3-də) qəbul olunmuş müraciətnaməsi. XKS-nin sədri V.İ.Lenin və xalq milli işlər komissarı İ.V.Stalin imzalamışlar. Mətni Bakıda nəşr edilən qəzetlərdə, o cümlədən "Hümmət" qəzetində (1917 il 5 dekabr, № 22) dərc olunmuşdu. Müraciətnamədə deyilirdi: *"Rusiyada böyük hadisələr baş verir. Özgə ölkələrini bölüşdürmək üstündə başlanmış qanlı müharibə sona çatmaqdadır. Dünyanın xalqlarını əsarət altına almış yırtıcıların hökmranlığı süqut edir".* Bunun ardınca Rusiyada baş vermiş *Oktyabr çevrilişinin {1917)* rolundan bəlağətlə bəhs edilirdi: *"Rus inqilabının zərbələri ilə köhnə əsarət və köləlik binası dağılır. Özbaşınalıq və zülm dünyası son günlərini keçirir. Yeni dünya, zəhmətkeşlər və azadlığa çıxanfar dünyası yaranır. Bu inqilabın başında Rusiyanın fəhlə və kəndli hökuməti, Xalq Komissarları Soveti durur".* Sonra müraciətin ünvanı aşağıdakı kimi müəyyənləşdirilirdi: "Bu böyük hadisələrin baş verdiyi bir zamanda biz Rusiya və Şərqin siz zəhmətkeş və binəsib müsəlmanlarına müraciət edirik. Rusiya müsəlmanları, Volqaboyu və Krım tatarları, Sibir və Türküstanın qırğız və sartları (özbəklərin qədim zamanlardan oturaq həyat keçirən hissəsi), Zaqafqaziyanın türk və müsəlmanları, Qafqazın çeçen və dağlıları, məscidləri və ibadətgahları viran edilənlər, din və adətləri Rusiya çarları və zalimləri tərəfindən istehza edilənlər!" Lakin ən başlıca məsələ müraciətdə irəli sürülən müddəalar idi. Müraciətdə göstərilirdi ki, "Bu gündən sizin dininiz və adətləriniz, sizin milli və mədəni təsisatlarımız azad və toxunulmazdır. Öz milli həyatınızı azad və mümaniətsiz qurun. Sizin buna haqqınız vardır. Bunu biliniz ki, Rusiyanın bütün xalqlarınm hüququ kimi, sizin də hüququnuzu inqilab və onun orqanları, Fəhlə, Əsgər və Kəndli Deputatları Sovetləri var qüvvəsi ilə qoru-yur" və i.a. 1917 il noyabrın 2 (15)-də elan edilmiş *Rusiya xalqlartnın hüqıιq bəyannaməsi* kimi, bu sənəd də bilavasi-

downloaded from KitabYurdu.az

tə təbliğat xarakteri daşımış, orada elan edilmiş, prinsipial müddəalara əməl olunmamışdı. Bu, "Zaqafqaziyanın türk və müsəlmanları"na, xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinə münasibətdə özünü əyani şəkildə göstərmişdi. Müraciətdə göstərilirdi ki, "bu gündən sizin dininiz və adətləriniz, sizin milli və mədəni təsisatlarımız azad və toxunulmazdır". Lakin işdə buna məhəl qoyulmadı. *Aprel işğalı (1920)* nəticəsində sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoydu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycanında sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B., 1960.



**RÜSTƏMBƏYLİ** Şəfı bəy Mustafa oğlu (1893, Ağdaş qəzasının Məmmədli kəndi - 1960, İstanbul) - Azərbaycan xalqının istiqlal mübarizəsinin fəal iştirakçılarından biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Gəncə klassik gimnaziyasını və Kiyev Universitetinin hüquq fakültəsini bitirmişdir (1916). Universitetdə təhsil aldığı illərdə "Azərbaycan həmyerlilər təşkilatı"nın üzvü və başçılarından biri, 1911 ilin oktyabrında gizli təsis edilən "Müsavat" artiyası Kiyev şöbəsinin fəal üzvlərindən olmuşdur. 1916 ildən Gəncə dairə məhkəməsində işləmişdir. 1917 ilin prelində Bakıda Qafqaz müsəlmanlarının qurultayında Azərbaycana muxtariyyət verilməsini qətiyyətlə tələb edənlərdən olmuş, *Rusiya müsəlmanlarının Moskva qurultayında (1917)* iştirak etmişdir. Ş.Rüstəmbəyli 1917 il noyabrın 15-də aradılmış Zaqafqaziya komissarlığı və seyminin müsəlman fraksiyasının, Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan (1918, 26 may) sonra isə *Azərbaycan Milli Şurasının* üzvü olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin rəsmi orqanı olan *"Azərbaycan "* qozeti Azərbaycan dilində 6-cı nömrəsindən, rus dilində isə 5-ci nömrəsindən "mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfı bəy Rüstəmbəyli" imzaları ilə buraxılmışdır. 1918 il noyabrın 28-dən qəzetin rus dilində çıxan nömrələri Ş.Rüstəmbəylinin redaktorluğu ilə nəşr edilmişdir. Qəzetin səhifələrində onun Azərbaycanın siyasi həyatına aid xeyli məqaləsi dərc olunmuşdur. O, "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksutyun" partiyasının şovinist - qarşıdurma və terrorçuluq xəttini tənqid edərək yazırdı: *"Bizim üçün vacibdir ki, erməni xalqı, nəhayət, "Daşnaksutyun " partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, nə qədər ki gec deyil, ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır".*



Ş.Rüstəmbəyli Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, Azərbaycanın Parlamentinə daxil edilmişdi. Parlamentin mandat komissiyasının sədri, Müəssislər məclisinin çağırılması üzrə Mərkəzi komissiyanın üzvü olmuşdur. O, "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" Partiyası"nın 1 -ci (1917, 26-31 oktyabr) və 2-ci (1919, dekabr) qurultaylarında Mərkəzi Komitənin üzvü, 2-ci qurultayda həm də partiya sədrinin müavini seçilmişdi. Qəzet redaktorluğu ilə yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti daxili işlər nazirliyi dəftərxanasının müdiri, 1920 il martın əvvəllərindən isə nazir müavini vəzifələrini icra etmişdir. 1920 il aprelin 27-də N.Yusifbəylinin yanında məhdud dairədə keçirilmiş müşavirədə Ş.Rüstəmbəyli qan tökülməsinə yol verməmək üçün Bakıdan çıxmağı və bolşeviklərə qarşı mübarizəni təşkil etmək üçün Gəncəyə köçməyi təklif etmişdi. Lakin onun təklifi toplantı iştirakçıları tərəfindən qəbul olunmamışdı.

*Aprel işğalından (1920)* sonra Ş.Rüstəmbəyli Tiflisə getmiş, onun rəhbərliyi ilə burada "Azərbaycanı qurtuluş komitəsi" yaradılmışdı. 1921 ilin fevralında Gürcüstanın 11-ci Qırmızı ordu tərəfindən işğalından sonra Ş.Rüstəmbəyli İstanbula köçmüş, *"Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd"* və "Azərbaycanın yurd bilgisi" jurnallarında Azərbaycanın siyasi tarixinə dair məqalələr dərc etdirmiş

downloaded from KitabYurdu.az

dir. Parisdə çıxan "Prometey" (fransızca) və "Qafqaz" (rusca) jurnallarında da siyasi mövzularda bir çox yazıları çap olunmuşdur.

Ş.Rüstəmbəyli "Müsavat" Partiyası Xarici Bürosunun fəal üzvü olmuşdur. 1927 ildən "Müsavat" partiyasının rəhbərliyində təmsil olunan Ş.Rüstəmbəyli Xəlil bəy Xasməmmədovla birlikdə müstəqil fəaliyyəti üstün tutdu. Onların *Azərbaycan Milli Mərkəzinin* (İstanbul) fəaliyyətinə üstünlük verməları müsavatçıların kəskin etirazına səbəb oldu. Nəticədə, müsavatçılar arasında təfriqə baş verdi, Şəfi bəy və Xəlil bəy İstanbul təşkilatından xaric edildilər. M.Ə.Rəsulzadə "Şəfi bəy heç bir mərkəzə lüzum olmayıb hər şöbənin kəndi başına müstəqil olaraq, çalışması tezisini müdafıə ediyormuş" deyirdisə, Şəfi bəy də M.Ə.Rəsulzadəni "kəndi əmrinə tabe olan tərəfdarlarını milli və fırqə təşkilatından ayırıb, yeni qrup təşkil etməklə, yeni ixtilafa yol açmaqda" ittiham edirdi. 1934 il 5 aprel tarixli qərarla Ş.Rüstəmbəyli "Müsavat" partiyasından xaric edildi. 1934 ildə dərc edilən bir neçə kitabça mühacirlər arasındakı parçalarını daha da dərinləşdirdi. Ş.Rüstəmbəylinin "Yıxılan bütlər", Nağı Şeyxzamanlının "Biz və onlar" əsərləri müqabilində M.Ə.Rəsulzadə "Şəfibəyçilik" əsərini yazaraq, müxalifətçi qrupun mahiyyətini açıqlamışdı. "Müsavat" partiyasının Varşava konfransında (1936) Ş.Rüstəmbəylinin partiyadan xaric edilməsi haqqında qərar təsdiqləndi.

Ş.Rüstəmbəyli *"Prometey"* təşkilatına kəskin müxalif mövqe tutmuş, *Bammat Heydərin* başçılıq etdiyi sağ müxalifətçilər qrupuna daxil olmuşdur. X.Xasməmmədovla birgə Qafqaz xalqlarının birliyi ideyasının qəti tərəfdarı olmuş, onun reallaşmasına çalışmışdır. 1943 ildə Berlində keçirilmiş *"Milli Birlik Məclisi" nin* ümumazərbaycan qurultayında Rəyasət Heyətinin fəxri üzvü seçilmişdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; İ b r a h i m l i X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997.

**RÜSTƏMBƏYOV** Baxış bəy (1870, Salyan - 1942) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. 1890 ildə Bakı realnı məktəbini bitirmiş, həmin ildə Moskva texniki məktəbinə daxil olmuşdur. Lakin bu məktəbdə təhsilini başa vurmadan 1893 ildə Sankt-Peterburq Texnoloji İnstitutunun mexanika şöbəsinə daxil olmuşdur. Buraxılış ərəfəsində tələbə hərəkatında iştirakına görə institundan xaric edilmiş, lakin tezliklə bərpa olunmuşdur. İnstitutu bitirdikdən sonra Bakıya qayıdaraq, 1906 ilə qədər Şəmsi Əsədullayevin yanında müdir müavini işləmişdir. Sonra Ağa Musa Nağıyevin yanında eyni vəzifəni icra etmiş, balıqçılıq sahəsində, 1910-17 illərdə isə neft mədənlərində çalışmışdır. B.Rüstəmbəyov Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"*una ( 1918, 19 noyabr) əsasən, Salyandan Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasını təmsil edirdi.

Sovet hakimiyyəti illərində Azərbaycanın yüngül sənaye sistemində rəhbər vəzifələrdə çalışmış, həmçinin balıqçılıq institutu və texnikumunda, Xalq yüngül sənaye komissarlığı yanında ixtisasartırma institutunda dərs demişdir.

1939 ildə repressiyaya məruz qalmış, 1942 ildə azad olun-muş, Bakıya qayıdarkən yolda vəfat etmişdir. **RÜSTƏMBƏYOV** Cəfər bəy (?-?)- 1919 il martın 19-dan Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Kubanda və Donda, həmin il sentyabrın 23-dən, eyni zamanda, Cənubi Rusiya silahlı qüvvələri baş komandanı Denikinin yanında diplomatik nümayəndəsi olmuşdur (bax *Azərbaycanın Kubanda və Donda diplomatik nümayəndəliyi)*.

**RZA ZAKİ,** Rza bəy L ə t i f b ə y o v (? - ?) - pedaqoq, yazıçı. Şəkidə üsuli-cədid məktəbində, Batumda Anxazi məktəbində, Gəncə Ruhani Seminariyasında (1906-09), Göyçayda müsəlman cəmiyyətinin "İqbal" məktəbində (1910), Hacı Zeynalabdin Tağıyevin fabrik məktəbində (1910-14) və rus-Azərbaycan (rus-müsəlman) məktəbində (1915-20) Azərbaycan dilindən və şəriətdən dərs demişdir. Rza Zaki 20 əsrin əvvəllərində bədii yaradıcılıqla məşğul olmuş, "Zavallı Cavad" (1912), "Fədayi-eşq" (1912), "Koroğlu" (1913) romanlarını, "Sultan Ədbülhəmidin xəli" (1913) pyesini yazıb nəşr etdirmişdir. Azərbaycanın istiqlal yazıçısı Seyid Hüseyn Rza Zakinin nəsr əsərlərinin ideya-bədii cəhətdən zəifliyini, xüsusilə Avropa məişətinin Azərbaycan adət-ənənəsi kimi təsvir olunmasını, xalq ədəbiyyatı nümunələrinin bəsit əksini kəskin surətdə tənqid etmişdir.

Rza Zaki Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət teatr truppasının inzibatçısı vəzifəsində işləmiş, 1919 il oktyabrın 24-də teatr mövsümü onun nitqi ilə açılmış, sonra İsa bəy Aşurbəyovun tarixi movzuda "Azərbaycan" pyesinin tamaşası göstərilmişdi. Həmin ildə Rza Zakinin "Sultan Əbdülhəmidin xəli" pyesi də tamaşaya qoyulmuşdu.

**RZAYEV** (İrzayev) Abuzər bəy Əsgər bəy oğlu (1876, Gəncə - 1920, Bakı) - Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Rəfibəylilər nəslindəndir. Tiflis realnı məktəbini (1894) və Moskva texniki məktəbini (1899) bitirmişdir. 1899 ildən Musa Nağıyev və Murtuza Muxtarovun Bibiheybətdəki neft mədənlərində mühəndis, sonra mədən müdiri işləmişdir. Neft sənayesində böhranla əlaqədar olaraq 1909 ildə Gəncəyə köçmüş, bir müddətdən sonra Gəncə şəhər idarəsi başçısının (şəhər qlavası) müavini seçilmiş, şəhərin içməli su ilə təchizatı sahəsində səmərəli fəaliyyət göstərmişdir. Fevral inqilabından (1917) sonra təşkil edilmiş Gəncə Quberniya İcraiyyə Komitəsinin üzvü olmuşdur.



Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun*"una (1918, 19 noyabr) əsasən, Gəncə şəhərindən Cümhuriyyət Parlamentinin tərkibinə seçilmişdi. Parlamentdə "Bitərəflər" fraksiyasını, 1919 ilin oktyabrında bu fraksiyanın parçalanmasından və böyük əksəriyyətin "Müsavat" fraksiyası ilə birləşməsindən sonra "Müsavat" və bitərəflər fraksiyasını təmsil etmişdir. Eyni zaman-

downloaded from KitabYurdu.az

da, maliyyə-büdcə komissiyasının üzvü, sonralar sədri olmuşdur.

*Aprel işğalından (1920)* sonra bir müddət Bibiheybət rayonu neft mədənlərinin müdiri işləmiş, 1920 il iyunun 15-də Azərbaycan Fövqəladə Komissiyası tərəfindən həbs edilmiş və güllələnmişdir.

**RZAYEV** Bağır (? - ?) - Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Rzayev *Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının* (Müsəlman sosialist bloku), *Zaqqfqaziya Federasiyasının* süqutundan (1918, 26 may ) sonra isə Azərbaycan Milli Şurasının (1918, 27 may) üzvü olmuşdur. Milli Şuranın *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun* "una (1918, 19 noyabr ) əsasən, Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Sosialistlər" fraksiyasını təmsil edirdi.



**RZAYEV** Nüsrət Rza oğlu (1899, Lənkəran - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanında sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan Azərbaycanlı tələbələrin maddi vəziyyətini, təhsilin gedişini və məişət məsələlərini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında Rzayevin təhsilini uğurla davam etdirdiyi, *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi haqqında məlumat əldə olunmamışdır.

**RZAYEV** Tağı Əsgər oğlu (1895, İrəvan - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. İrəvan kişi gimnaziyasını bitirmişdir (1916). Parlamentin 1919 il 1 sentyabr tarixli qəranna əsasən, təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Sonrakı taleyi haqqında məlumat əldə olunmamışdır.

**RZAZADƏ** İsgəndər xan Cabbar oğlu ( 5.11.1897, Tehran 1938, Bakı) Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qanuna)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş; tələbələrdən biri. Bakı realnı məktəbini, 3-cü Bakı kişi gimnaziyasını itirmiş (1915), Petroqrad Politexnik İnstitutunun elektrotexnika şöbəsində oxumuşdur. Maddi çətinliklə əlaqədar təhsilini davam etdirə bilməmiş, Bakı dəmir yolu stansiyasında işləmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində başa vurmaq üçün Fransaya göndərilmişdir. İki il Nansi Elektrotexnika İnstitutunda oxuduqdan sonra 1922 ilin əvvəllərində Darmştadt (Almaniya) Ali Texniki Məktəbinə keçmiş və 1924 ildə oranın elektrotexnika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Bir müddət Darmştadt şəhər elektrik stansiyasında, "Azər-neft"in Berlin kontorunda, Berlində özəl şirkətdə çalışmışdır. 1925 ilin sentyabrında Bakıya çağırılaraq, "Elektrotok" istehsalat birliyində mühəndis-layihəçi işləmiş, "Qırmızı Ulduz" elektrik stansiyası ilə leytenant Şmidt (indiki Səttarxan) adına maşınqayırma zavodu arasında yüksək gərginlikli elektrik xəttini layihələşdirmiş, Şəki, Zurnabad, Zaqatala və Xankəndidə elektrik stansiyalarının layihələşdirilməsi və quraşdırılmasına rəhbərlik etmiş, Azərbaycanın SSR-in 2-ci beşillik (1933-37) üçün elektrikləşdirilmə planını hazırlamışdır. Azərbaycan Politexnik İnstitutunda pedaqoji fəaliyyət göstərmiş (1930 ildən dosent), kafedra müdiri işləmiş, Azərbaycan dilində elmi-texniki terminologiyanın yaradıcılarından biri olmuşdur. 1931-33 illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsində energetika bölməsinin sədri idi. Ömrünün son 4 ilini SSRİ EA Azərbaycan filialında çalışmış, 1937 ildən filialın energetika bölməsi rəhbərinin müavini işləmişdir. Bir çox ixtiraların, elektrotexnikanın aktual problemlərinə dair elmi əsərlərin müəllifidir. Rzazadə 1937 ildə repressiyaya məruz qalmış, ölümündən sonra bəraət almışdır (1956).



*Əd.:* Tahirzadə Ə., İsgəndər Rzazadə, B., 2000.

downloaded from KitabYurdu.az

# S

**SABİR** Mirzə Ələkbər, Məşədi Ələkbər Hacı Zeynalabdin oğlu Tahirzadə (30.5.1862, Şamaxı - 12.7.1911, Şamaxı) - böyük Azərbaycanın görkəmli şairi, Azərbaycan poeziyasında inqilabi satiranın banisi, görkəmli maarif xadimi. Azərbaycan xalqının milli oyanışında və istiqlal ideyalarının yayılmasında mühüm rolu olmuşdur. Şamaxıda mollaxanada (1869-74), Seyid Əzim Şirvaninin üsuli-cədid məktəbində (1875-77) oxumuşdur. Şərqə səyahət ctmiş (1884-86), İranın,



Orta Asiyanın, İraqm şəhərlərində olmuş, yerli ziyalılarla görüşmüş, müşahidələr aparmışdır. 1886-1908 illərdə Şamaxıda sabun bişirib satmaqla güzəran keçirmişdir. 1901 ildə Abbas Səhhətlə dostlaşmış, Ağəli bəy Nasehin təşkil etdiyi ədəbi məclisdə iştirak etmişdir. Maarifpərvərlik ruhunda yazdığı "Şükrlillah ki, afıtabisüxən" misrası ilə başlayan şeri 1903 ildə "Şərqi-Rus" (Tiflis) qəzetində çıxmışdır. Birinci rus inqilabı (1905-07) illərində geniş ictimai və ədəbi fəaliyyət göstərmiş, "Həyat" (1905-06), "İrşad" (1905-08) qəzetlərində şeir və məqalələr dərc etdirmişdir. 1906 ildə Tiflisdə nəşrə başlayan satirik "Molla Nosrəddin" jurnalının dördüncü sayında "Millət necə tarac olur olsun, nə işim var" şeri ilə çıxış edən Sabir onun daimi müəllifi olmuşdur. Dörd il ərzində (1906 ilin aprelindən 1910 ilin martına qədər) "Molla Nəsrəddin"də imzasız və 40-a yaxın gizli imza ilə 156 şeri, eyni zamanda, Bakıda "Dəbistan" (1906-08), "Rəhbər" (1906-07), "Füyuzat" (1906-07), "Tazə həyat" (1907-08), "Həqiqət" (1909-10), "Zənbur" (1909-10) və s. jurnal və qəzetlərdə şeir və tərcümələri çıxmışdır. 1908 ildə Bakı quberniyası ruhani idarəsində xüsusi komissiya qarşısında imtahan verərək şəriət müəllimi hüququ qazanmış, Şamaxıda yeni üsulla "Ümid" adlı məktəb açmışdır. 1910 ildə Bakıya gələrək, "Tazə həyat", "Həqiqət" qəzetləri redaksiyalarında,

*M.Ə.Sabir Balaxanı məktəbinin müəllimləri arasında. 1909*



downloaded from KitabYurdu.az



*Mirzə Ələkbər Sabirin abidəsi. 1958. Bakı. Heykəltəraş C.M.Qaryağdı*

downloaded from KitabYurdu.az

"Səda" mətbəəsində müsəhhih (korrektor) işləmiş, "Nəşri-maarif' cəmiyyətinin Balaxanı məktəbində dərs demişdir. Qara ciyər xəstəliyinə tutulan şair Cəlil Məmmədquluzadə və Həmidə xanım tərəfindən müalicədən ötrü Tiflisə dəvət olunmuş, fevral-mart aylarında "Molla Nəsrəddin"in redaksiyasında qalmışdır. Üç ay davam edən müalicədən sonra 1910 ilin dekabrında Şamaxıya qayıdaraq, ömrünün son aylarını ağır maddi çətinliklər içində yaşamışdır.

M.Ə.Sabir yaradıcılığa erkən yaşlarında lirik şair kimi başlamış, qəzəl, qəsidə, rübai, mərsiyə, növhə və s. formalarda şeirlər yazmışdır. Birinci rus inqilabı (1905-07) Sabirin yaradıcılıq taleyində həlledici rol oynamışdır. Şair sələfləri Qasım bəy Zakir, Baba bəy Şakir və Seyid Əzim Şirvani simasında inkişaf edən ictimai satiraya kəskin siyasi məzmun aşılayaraq, onu inqilabi satira səviyyəsinə qaldırmış, Azərbaycanın ədəbiyyatında yeni bir mərhələnin - inqilabi satira ədəbi məktəbinin əsasını qoymuşdur. Çarizmin milli zülmünün, sosial ədalətsizliyə əsaslanan yaramaz ictimai quruluşun, xalqı soyub-talayan "boynuyoğun" və "şişqarın" hakim təboqələrin, ictimai tərəqqiyə mane olan mədəni geriliyin, xurafat və mövhumatın, köhnəlmiş adət-ənənələrin, habelə Şərq, o cümlədən İran, Türkiyə müstəbid şah və sultan rejimlərinin amansız ifşası, milli və sosial azadlıq ideyalarının və mübarizəsinin tərənnümü Sabir şerinin başhca mövzularıdır.

Azərbaycan xalqının milli şüurunun, özünüdərkinin formalaşmasında, istiqlal uğrunda mübarizə yoluna çıxmasında Sabir yaradıcılığının müstəsna əhəmiyyəti olmuşdur.

Əsəri: Hophopnamə, 3 cilddə, B., 1962-65; 2 cilddə, B., 2004.

*Əd.:* Azərbaycanın ədəbiyyatı tarixi, 3 cilddə, c.2, B., 1960; Mirəhmədov Ə., Sabir, B., 1958; İbrahimov M., Böyük şairimiz Sabir, B., 1962; Sabir (məqalələr məcmuəsi), B., 1962; Zamanov A.. Sabir və müasirləri, B., 1973; yenə onun, Sabir bu gün, B., 1985; Məmmədov M., Sabir və mətbuat, B., 1974; Мирахмедов А., Плачущий смехач, М., 1989.



**SADIQOV** Əkbər ağa (?-?)- Azərbaycan Xalq Cümhuriyyətinin Zakaspi hökuməti yanında konsulu (2.4.1919 - 6.11.1919), sonra isə İrandakı diplomatik missiyanın müşavir əvəzi və katibi olmuşdur. Bax *Azərbaycanın Zakaspidə konsulluğu.*

**SADIQOV** Mirsadıx Səid Kamil oğlu (1896, Bakı, Maştağa k. - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı orta texniki məktəbinin mexanika şöbəsini bitirmişdir (1917). Tomsk texnologiya institutunun dağ mühəndisliyi şöbəsində 2-ci kursadək oxumuş, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxıb geri qayıtmışdı. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Frayberq akademiyasına (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbəbr İttifaqının* 1923-25 illər üçün məlumatında Sadıqovun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**SALAHOV** Yusif Məşədi Hüseyn oğlu (6.9.1897, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Münxen Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanında sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında təhsilinin bitməsinə 2 il qaldığı gostərilirdi. Təhsilini başa vurduqdan sonra vətənə qayıtmış, 1928-41 illərdə Bakıda həkimlik etmiş, diaqnostika sahəsində görkəmli mütəxəssis kimi tanınmışdır. 1941 ildə könüllü olaraq cəbhəyə yollanan Y.Salahov Kiyev ətrafında döyüşlərdə əsir düşmüş, müharibədən sonra Ölkədə tuğyan edən repressiyalar üzündən bir daha vətənə qayıda bilməmiş, Türkiyəyə gcdərək, ömrünün sonuna qədər orada yaşamışdır.



**SALİKOV** Əhməd Tembulatoviç (əsl soyadı Salık-katı; 1882, Rusiya, Tver vilayəti - 1928, Polşa, Varşava) - Rusiyada müsəlmanların azadlıq hərəkatı liderlərindən biri, ədib və şair. Müsəlman osetin ailəsində anadan olmuşdur. Tələbə hərəkatında fəal iştirak etmiş, Rusiya Sosial Demokrat Fəhlə Partiyasının (RSDFP) menşevik qanadının üzvü olmuşdur. 1905-07 illər inqilabının məğlubiyyətindən sonra fəhlələrin Ümumrusiya qurultayının keçirilməsi və burada onların yeni siyasi təşkilatının yaradılması təklifi ilə çıxış etmişdir. Bu təşəbbüsünə görə Lenin tərəfindən kəskin tənqid edilmişdir. Birinci dünya müharibəsi (1914-18) ərəfəsində müsəlmanların milli dirçəlişi ideyaları ilə çıxış etmiş, tatar dilində "Söz" qəzetini nəşr etdirmişdir (1915, dekabr - 1916, sentyabr). 4-cü Döylət Dumasının və onun müsəlman fraksiyasının büro üzvü seçilmişdir.

Fevral inqilabından (1917) sonra RSDFP-nin Petroqrad Şurasının üzvü seçilmiş, eyni zamanda, 4-cü Dumanın müsəlman fraksiyası üzvlərinin təşəbbüsü ilə yaradılmış Rusiya Müsəlmanlarının Müvəqqəti Mərkəzi Bürosunun sədri olmuşdur. Dəfələrlə Krım, Xivə, Şimali Qafqaz və Volqaboyunda milli azadlıq hərəkatına qarşı yönəlmiş müxtəlif təxribatların qarşısının alınmasında fəaliyyət göstərmişdir. 1917 ilin mayında *Rusiya müsəlmanlarının Moskva qurultayında (1917)* milli mədəni

downloaded from KitabYurdu.az

muxtariyyət ideyası layihəsinin əsas təşəbbüsçüsü və müəllifi olmuşdur. Qurultayda Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə hazırlanmış və Rusiyanın federal əsaslarda qurulmasını, ayrı-ayrı müsəlman ərazilərinə "milli-məhəlli" ("milli-ərazi") muxtariyyət hüququ verilməsini nəzərdə tutan layihə onun layihəsinə qarşı səsə qoyulmuşdur. Qurultay iştirakçılarının əksəriyyəti Salikov layihəsinin əleyhinə səs verməklə, milli ərazi muxtariyyətinə tərəfdar olduqlarını bildirmişlər. Buna baxmayaraq, Ə.Salikov qurultayda demək olar ki, yekdilliklə yeni yaradılan Ümumrusiya Müsəlmanları Milli Şurasmın sədri seçilmişdir. 1917 ilin iyunundan dekabrına kimi, eyni zamanda, "Ümumrusiya Müsəlmanları Şurasının Xəbərləri" (rusca) qəzetinə rəhbərlik etmişdir. Salikovun tatarların Daxili Rusiya, Volqaboyu, Ural və Sibir müsəlmanlarının vahid muxtariyyəti ("Ural-Volqa ştatı") ideyasını dəstəkləməsi və iyulun 22-də Kazanda keçirilən 2-ci Ümumrusiya Müsəlmanları Qurultayının bu haqda qərar çıxarması onunla başqırdlar arasında gərginlik yaratmışdı. Bolşeviklər hakimiyyətə gəldikdən sonra, 1917 il dekabrın 1-də Stalinin dəvəti ilə onun yanında olmuş, lakin bütün təkidlərə baxmayaraq, müsəlmanların "birtərəfli bolşevik hökumətini tanımayacaqlarını" bəyan etmişdir. Stalin Ümumrusiya Müsəlmanları Milli Şurasına məktubla müraciət edərək, RSFSR-in Xalq Milli İşlər Komissarlığı nəzdində Müsəlman Komissarlığının yaradılmasını və Ə.Salikovun bu quruma rəhbər təyin olunmasını təklif ctsə də, rədd cavabı almışdır. 1918 il yanvarın 5-də Rusiya Müəssislər Məclisində müsəlman sosialist fraksiyası adından çıxış edən Ə.Salikov Sovet hökumətinin milli siyasətini kəskin tənqid etmiş və onun xalqlara vəd olunan azadlığı vermədiyini bildirmişdir.

Bundan sonra Lenin Salikovla şəxsən görüşərək, onu Sovet hökumətinin tərəfinə çəkməyə yenidən cəhd göstərmişdir. Bolşeviklərin bütün bu təşəbbüsləri uğursuzluğa düçar olduqdan sonra 1918 ilin mayında Xalq Milli İşlər Komissarı Stalinin dekreti ilə Ümumrusiya Müsəlmanları Milli Şurası qanundan kənar qurum elan edilmişdir.

Həmin ilin yayında Osetiyaya gələn Salikov burada Terek xalqlarının 4-cü qurultayında iştirak etmiş, Terek Xalq Sovetinin sədri seçilmişdir. Dağlı azadlıq hərəkatının bir çox üzvləri bolşeviklərin törətdiyi milli qırğınların qarşısını almaq üçün bu qurumda iştirak etmək qərarına gəlmiş, lakin eyni zamanda, yenicə elan olunmuş Şimali Qafqaz Dağlılar Respublikasının rəhbər qurumlarında da təmsil olunmuşdular. Ə.Salikov Tiflisdə fəaliyyət göstərən Qafqaz Dağlıları parlamentinin, İttifaq Məclisinin sədri seçilmiş və bir müddət ona rəhbərlik etmişdir. 1919 ildən Denikinə qarşı dağlı üsyanının iştirakçısı və bir müddət Şimali Qafqaz və Dağıstan Müdafiə Şurasının sədri olmuşdur. Bolşevik işğalından sonra Tillisə mühacirət etmiş, buradan Şimali Qafqazın Rusiya tərəfindən yenidən ələ keçirilməsinə qarşı beynəlxalq etirazın təşkilinə cəhdlər göstərmişdir. 1921 ildə Gürcüstanın sovetləşməsindən sonra Polşaya mühacirət etmişdir.

Əsərləri: Кавказ и Поволжье.Очерки инородческой политики и культурно-хозяйственного быта, Б, 1913; Брат на Брата.Роман из революционной жизни Кавказа, Прага, 1926.

*Əd.:* Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000; Магамедов Ш.М. Сверный Кавказ в трех революциях ,М., 1986; Валаев А., Азербаиджанскюе национальное движение 1917-1920 гг., Б., 1990.



**SALMAN MÜMTAZ,** Salman Məmmədəmin oğlu Əsgərov (1884, Şəki - 1941) - şair, publisist, görkəmli ədəbiyyatşünas-mətnşünas alim. Aşqabadda məhəllə məktəbində oxumuş, Şərq ədəbiyyatını, ərəb, fars və urdu dillərini öyrənmişdir. Orta Asiya, Sibir, Zabaykalye və Qafqaz şəhərlərində ticarətlə məşğul olmuşdur. 1908 ildən Azərbaycan mətbuatı ilə əlaqə yaratmış, "Molla Nəsrəddin", "Zənbur", "Kəlniyət", "Tuti", "Qardaş köməyi", "Qurtuluş" jurnallarında, "Səda", "Tərəqqi", "Günəş", "İqbal", "Yeni İqbal", "Açıq söz" qəzetlərində "Salman Mümtaz", "Xortdan bəy" imzalan ilə satirik şer və felyetonlar, publisist və ədəbi-tənqidi məqalələr dərc etdirmişdir. 1913 ildə "Seyid Əhməd Hatif İsfahaninin tərcibəndi və tərcümeyi-hal" əsərini Tiflisdə kitab halında nəşr etməklə ədəbiyyatşünaslıq sahəsində fəaliyyətə başlamışdır. Salman Mümtaz 1918 ildə Aşqabaddan Bakıya köçmüş, Azərbaycan Xalq Cümhuriyyətinin mədəni



quruculuq işlərində fəal iştirak etmişdir. 1919 ildə təşkil edilmiş *"Yaşıl qələm "* ədəbi birliyinə üzv olmuş, ona maddi yardım göstərmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da ardıcıl surətdə Azərbaycanın şifahi xalq ədəbiyyatının və klassik irsin (əlyazma, cüng, təzkirə və nadir kitablarını) toplanması, nəşri və tədqiqi ilə məşğul olmuşdur. 1920-37 illər arasında 24 kitab, 70-dən çox məqalə çap etdirmiş, 100-dən çox Azərbaycan və Yaxın Şərq şairi haqqında tədqiqat aparmışdır.

Alimin "Azərbaycan ədəbiyyatı" başlığı altında çap olunmuş "Ağa Məsihi Şirvani", "Molla Pənah Vaqif', "Nişat Şirvani", "Məhəmməd Hüseyn xan Müştaq", "Qövsi", "Qasım bəy Zakir", "Mirzə Şəfı Vazeh", "Seyid İmadəddin Nəsimi", "Babahəy Şakir" (1925-26), "El şairləri" (h. 1-2,

downloaded from KitabYurdu.az

1927-28; təkrar çapı 1935) və s. kitabları, "Unudulmuş yarpaqlar", "Mirzə Fətəli (Səbuhi) və Cəfərqulu xan Nəva", "Rudəki və Molla Pənah Vaqif", "Sultanüş-şüəra Həbibi", "Əmir Əlişir Nəvai", "Dünya şairi Firdövsi", "Rəşid bəy və Səadət xanım hekayəsi mühərriri Qutqaşınlı İsmayıl bəyin həyatı", "Şeyx Nizami" və s. çoxsaylı məqalələri, araşdırmaları Azərbaycanın ədəbiyyatı tarixinin öyrənilməsində dəyərli qaynaqlardır.

Azərbaycanda mətnşünaslıq elminin inkişafında böyük xidmətləri vardır. Milli baxışllarına görə təqib olunmuş, repressiyaya məruz qalmışdır.

Əsəri: Azərbaycan ədəbiyyatının qaynaqları, B., 1986.

*Əd.:* Ağayev Ə., Şəxsiyyətinə vurulduğum insan, "Azərbaycan" jurnalı, 1984, Dadaşzadə A., Salman Mümtaz. "Fikrin karvanı" kitabında, B., 1983; Nəcəfov N., Salman Mümtazın ədəbi və elmi fəaliyyəti, B., 1987.

**SALYAN DÖYÜŞLƏRİ** - daşnak-erməni silahlı birləşmələri tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi qüvvələrinin (bax *Qqfqaz İslam Ordusu)* və Azərbaycan hərbi birləşmələrinin keçirdiyi döyüş əməliyyatlarından biri. S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin əsasən erməni zabit və əsgərlərindən ibarət olan qoşunlarına qarşı 1918 il iyunun sonunda və iyulun ortalarında Salyan bölgəsində (Kür çayı boyunca və indiki Neftçala ətrafında) baş vermişdir.

Salyan ətrafında döyüşlərin aparılmasına hər iki tərəf mühüm diqqət yetirirdi. Çünki Muğanda bol taxıl ehtiyatları var idi. Digər tərəfdən Kür boyu ərazilərin nəzarət altında saxlanması ilə bolşevik-daşnak qüvvələrinin Yevlaxa qədər üzüb Yevlax körpüsünü partlatmaq təhlükəsinin qarşısını almaq olardı. Buna nail olmaq üçün Qafqaz İslam Ordusu komandanlığı konkret tədbirlərə əl atdı, çar ordusunda xidmət etmiş mayor Nazim Ramazanovun komandalığı altında Cavadda silahlı dəstə təşkil olunmasına yardım göstərildi. Dəstəyə 10-cu Qafqaz piyada alayının 28-ci taborundan bir bölük, 30-cu taborundan bir pulemyot tağımı və iki rus topu verildi. Azərbaycan süvarilərindən ibarət 140 nəfərlik bir dəstə də N.Ramazanovun tabeliyində idi.

İyunun 26-da Qarabucaq kəndində düşərgə salan bolşevik-daşnak qüvvələri səhərisi gün Kür çayının hər iki sahili boyunca irəliyə doğru hərəkətə başladı. Surra kəndi yaxınlığında N.Ramazanovun dəstəsinin mühafizə postlarında dayanmış azsaylı döyüşçülərlə düşmən qüvvələri arasında iki saata qədər davam edən döyüş baş verdi. Ancaq mühafizə qrupunun döyüşçüləri bolşevik-daşnak qüvvələrinin təzyiqinə davam gətirə bilməyərək geri çəkildi. Ertəsi gün saat 4-də Surra ilə Qarabuçaq kəndləri arasında döyüşlər yenidən qızışdı. Düşmənin Kür çaymdakı hərb gəmilərinin aramsız atəşləri türk-Azərbaycan qoşunlarını yenidən öz mövqelərindən geri çəkilməyə məcbur etdi. Bu qüvvələrin Ərəbqardaşbəyli kəndi yaxınlığında yeni mövqe tutub, bolşevik-daşnak qüvvələrinin qarşısını kəsmək cəhdi də bir nəticə vermədi. Burada döyüşən düşmən qüvvələrinin tərkibində əsasən rus və ermənilərdən ibarət 2 mindən çox piyada, 12 pulemyot və 6 top vardı. Düşmən qüvvələrinə dinc Azərbaycan əhalisinə divan tutmaqda "ad çıxarmış" daşnak cəlladı Ter-Avakimov başçılıq edirdi. Kür çayında üzən iki hərb gəmisi və bir nəqliyyat gəmisi də onlara yardım edirdi.

1918 il iyulun 12-14-də Salyan ətrafında hərbi əməliyyatlar yenidən qızışdı və üç gün aramsız davam edən döyüş baş verdi. Qırmızı ordu qüvvələri Salyanı top atəşinə tutub güclü dağıntılar törətməklə bərabər, 3-4 dəfə Türk-Azərbaycan qüvvələrinin mövqelərinə hücuma keçdilər. Ancaq hər dəfə böyük itkilər verərək geri çəkildilər.

Salyan türk şəhid abidəsi



Çox böyük üstünlüyə malik olmasına baxmayaraq, daşnak-bolşevik qüvvələri döyüşlərin 4-cü günü Salyandan geri çəkilməyə məcbur oldular. Geri çəkilən Qırmızı ordu hissələri Bankədə toplaşaraq yeni hücuma hazırlaşmağa başladılar. Türk-Azərbaycan qoşun birləşmələri və könüllü dəstələr ciddi hazırlıq gördükdən sonra iyulun sonlarında Bankə üzərinə hücuma keçdilər. Qırmızı ordu hissələri nə qədər cəhd göstərsələr bu hücumun qarşısını ala bilmədilər və ağır məğlubiyyətə uğradılar. Sağ qalan daşnak-erməni əsgər və zabitləri çoxlu hərbi ləvazimatı döyüş meydanında ataraq gəmilərlə Bakıya qaçdılar. Salyan bölgəsi düşməndən tamamilə azad olundu.

*Əd.:* Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; yenə onun, Nurupaşa, B., 1999.

**SAN-REMO KONFRANSI (1920)** - *Paris Sülh Konfransında (1919-20)* yarımçıq qalmış məsələləri müzakirə etmək üçün İngiltərə, Fransa, İtaliya baş nazirlərinin və Yaponiya səfirinin iştirakı ilə Antanta dövlətləri Ali Şurasının San-Remo (İtaliya) şəhərində keçirilmiş konfransı (19-26 aprel). Amerika Birləşmiş Ştatları (ABŞ) nümayəndələri konfransda müşahidəçi kimi, Yunanıstan və Belçika nümayəndələri isə yalmz onların mənafeyi ilə bağlı məsələlərin müzakirəsində iştirak edirdilər. Konfransda Azərbaycan nümayəndə heyətini maraqlandıran Batum, neft, Türkiyə ilə sülh müqaviləsinin ilkin lahiyəsi, Türkiyə-Ermənistan sərhədləri, Qafqaz respublikalarının daxili sərhədləri, bu respublikalara yardım göstərilməsi və s. məsələlər müzakirə edilməli idi. Konfrans ərəfəsində Cənubi Qafqaz respublikaları arasında müxtəlif məsələlərə münasibətdə həmrəylik yaratmaq məqsədilə B.Britaniya Xarici İşlər Nazirliyinin nümayəndəsinin iştirakı ilə aparılan müzakirələr nəticə

downloaded from KitabYurdu.az

vermədi; tərətlər mübahisəlı məsələlərdə razılığa gələ bilmədilər. B.Britaniya nümayəndəsi Əlimərdan bəy Topçubaşovun təqdim etdiyi memorandumu, mübahisəli məsələlərin həlli üçün memorandumda irəli sürülən ideyaları yüksək qiymətləndirdi. Cənubi Qafqaz respublikalarının nümayəndə heyəti konfransda çıxış etmək üçün San-Remoya yola düşdü. Konfransın ikinçi günü, aprelin 20-də "erməni məsələsi" müzakirə edildi. Norveç Ermenistan mandatını götürmək təklifindən imtina etdi, həmin mandatın götürülməsi ABŞ-a təklif olundu. Aprelin 23-də ABŞ hökuməti Ermənistam de-fakto tanıdı, iyunun 1-də isə ABŞ konqresi Ermənistan mandatı ilə bağlı hökumətin təklifini rədd etdi. Aprelin 23-də Azərbaycan və Gürcüstan nümayəndələri Batum məsələsi haqqında konfransın katibliyinə birgə memorandum təqdim etdilər, arpelin 24-də hər üç Cənubi Qafqaz Respublikası ingilis nümayəndələri ilə birlikdə bu məsələni müzakirə etdilər. Konfransda Batum azad liman şəhəri elan olundu. Azərbaycan Respublikasının Batum limanından sərbəst istifadə hüququ saxlanıldı. Millətlər Cəmiyyətinin iradəsini yerinə yetirmək üçün Batuma bir fransız və bir italyan alayı göndərilməli idi.

Konfrans sərhəd məsələlərini həll edə bilmədi. Cənubi Qafqaz respublikalarına xaricdən hücüm olacağı halda onların müdafiə qabiliyyətini möhkəmləndirmək ücün yardım göstərilməsi məsələsində müttəfiqlər konfransın sonuncu günü bildirdilər ki, yalnız bu respublikalar arasında möhkəm sülh və həmrəylik olduğu halda yardım göstərilə bilər. Azərbaycan nümayəndə heyəti İtaliyadan Parisə qayıtmamış Rusiyanın11-ci Qırmızı ordusu tərəfindən Bakının işğal edildiyi və Azərbaycan Xalq Cümhuriyyətinin devrildiyi xəbərini aldı. Azərbaycan nümayəndəliyi bu xəbəri alan kimi Antanta dövlətləri Ali Şurasına, İtaliya hökumətinə, xarici dövlətlərin Romadakı səfirliklərinə Azərbaycan dövlətinin RSFSR ordusu tərəfindən işğal olunduğu barədə nota təqdim etdi. Notada göstərildi ki, Azərbaycan müstəqilliyinin bərpa olunmasında sülh konfransı tərəfindən ona kömək göstəriləcəyinə ümid edir. Millətlər Cəmiyyətinə, dünya siyasətini müəyyən edən dövlətlərə bu məzmunda dəfələrlə notalar, müraciətlər göndərildi. Spa, London, Genuya, Haaqa, Lozanna konfranslarına da bu məzmunda müraciətlər edilsə də, bir nəticəsi olmadı.

*Əd.:* Mehdizadə Mir Yaqub, Beynəlmiləl siyasətdə petrol, B., 1994; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzadə N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**SANILI,** Hacı Kərim Kərbəlayi Hüseyn oğlu Sanıyev (1878, Qazax qəzasının Çaylı-Kəsəmən kəndi - 1937) – Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, şair, maarifçi, ictimai xadim. Kəndli ailəsində doğulmuşdur. Mollaxanada oxumuş (1886-93), Qori Müəllimlər Seminariyasını bitirmişdir (1898). Zəngəzur qəzasının Xaçmaz kənd məktəbində (1898-1902), Gəncə şəhər rus-müsəlman məktəbində (1902-04), Qazax qəzasının Poylu və Dağ Kəsəmən ibtidai məktəblərində (1905-18) müdir işləmişdir. 1905 ildə siyasi fəaliyyətə başlamış, *"Difai"* partıyasının fəaliyyətində yaxından iştirak etmişdir. 1917 ildən Tiflis menşevik "Hümmət" təşkilatının üzvü olmuşdur. 1918 ildə Qazax qəzasının general-qubernatoru vəzifəsində işləmişdir. 1918 ilin noyabrında Tiflis "Hümmət" partiyasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə seçilmiş, Sosialistlər fraksiyasının, sorğu komissiyasının üzvü olmuşdur. 1918-20 illərdə "Müsavat" partiyasına qarşı mübarizə aparmış, Azərbaycan Xalq Cümhuriyyətinə qarşı təxribatların həyata keçirilməsinə rəhbərlik etmişdir.

Azərbaycanda sovet hakimiyyəti illərində xalq maarifi sahəsində çahşmış, Azərbaycan İstehlak-Kooperasiya İnstitutunda (1933-35), Sovet Ticarəti İnstitutunun nəzdindəki işçi fakültəsində (1933-36) müəllim, Azərbaycan Dövlət Elmi-tədqiqat İnstitutunda elmi işçi, Bakı xalq maarifi şöbəsində inspektor işləmişdir.

H.Sanılı bədii yaradıcılıqla məşğul olmuş, "Aran köçü", "Namus davası", "Turut qaçaqlan", "Zülmün sonu", "Novruz və Gülarə" kimi lirik-epik poemalarının, "Canavarlar hökuməti" mənzum satirik əsərinin, lirik şerlərin müəllifi kimi tanınmışdır. 1937 ildə repressiyaya məruz qalmışdır.

Əsəri: Seçilmiş əsərləri, B., 1993. *Əd.:* Şükürov S., Hacı Kərim Sanılının ədəbi və pedaqoji fəaliyyəti, B., 1970.

**SARABSKİ,** Hüseynqulu Məlikoğlu Rzayev (20.3.1879, Bakı - 16.2.1945, Bakı) - görkəmli Azərbaycan aktyoru, müğənni, rejissor, pedaqoq, teatr xadimi. Azərbaycan peşəkar musiqili teatrının banilərindən biri. Azərbaycanın xalq artisti (1932). Əslen Cənubi Azərbaycanın Sərab mahalından olduğu üçün "Sarabski" soyadını 1902 ildə başlamış, həvəskar artist rinin işində fəal iştirak etmişdir. Burada o. Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev və başqaları ilə yaxından tanış olmuş və dostluq etmişdir. 1908 ildən *"Nicat"* cəmiyyəti nəzdindəki opera truppasının solisti olmuş, həmin il ilk Azərbaycan operası "Leyli və Məcnun" da (Üzeyir Hacıbəyli) Məcnunun partiyasını müvəffəqiyyətlə ifa etmişdir. Bu partiyada o, 400 dəfədən artıq çıxış etmişdir (sonuncu dəfə 1941 ildə). Bu vaxtdan başlayaraq o, opera sənətinin böyük ustalarmdan biri kimi məşhurlaşır. Digər milli opera və operettalarda da əsas partiyaları ilk dəfə Sarabski ifa etmişdir.



Sarabskinin Azərbaycan musiqi və teatr sənətinin inkişafında böyük xidməti var. "Şərq gecələri"nin təşəbbüsçüsü və fəal iştirakçılarından idi. "Müsəlman opera truppası", "Müsəlman dram truppası"nın yaradıcılarından olmuşdur. 1910 ildən rejissor kimi də fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin mədəni həyatmda yaxmdan iştirak edən H.Sarabski 1919 ilin sentyabrında

downloaded from KitabYurdu.az



H.Sarabski Məcnun (Ü.Hacıbəyli, "Leyli və Məcnun") rolunda

açılan türk dram kurslarında müəllim kimi çalışmış, Bakı mərkəzi fəhlə klubunda dram dərnəyinə rəhbərlik etmiş, professional musiqi təhsilinin inkişafında, milli mədəniyyətin təbliğində, milli aktyor kadrlarının hazırlanmasında böyük xidmətləri olmuşdur.

H.Sarabski ədəbi yaradıcılıq sahəsində də özünü sınamışdır. Onun "Cəhalət", "Axtaran tapar", "Nə tökərsən aşına, o çıxar qaşığına" dram əsərləri tamaşaya qoyulmuşdu. H.Sarabski "Azərbaycan milli kostyumu", "Azərbaycan teatr sənətinin oçerkləri", "Hüseyn Ərəblinskinin tərcümeyi-halı", "Bir aktyorun xatirələri" və s. əsərlərin müəllifidir. Etnoqrafik materiallar əsasında yazdığı "Köhnə Bakı" əsərində Bakının həyat və məişət tarixinin bəzi məsələləri öz əksini tapmışdır. O, "Dağlar", "Muğan" kimi populyar mahnıların müəllifidir.

Sarabski Azərbaycan opera və balet teatrının solisti, həmçinin 1932 ildən ömrünün sonunadək respublika xalq yaradıcılıq evinin rəhbəri olmuş, eyni zamanda Azərbaycan dövlət konservatoriyasında, Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində muğamatdan dərs demişdir.

Əsərləri: Bir aktyorun xatirələri, B., 1930; Köhnə Bakı, B., 1982.

*Əd.:* Cahangirov İ., H.Sarabski, B., 1933; Карагичева Л., Мастера азербаиджанского музыкального театра, в кН.: Азербаиджанская музыка, Б., 1961: Касимов К., Гусейн Кули Сарабский. Жизнь и творчество.Б., 1980.

**SARI ƏLƏKBƏR** İmamqulu oğlu (19 əsrin 2-ci yarısı, Gəncə, Bağbanlar qəsəbəsi - 1938 Türkiyə, Qars ş.)- *Gəncə üsyanının (1920)* təşkilatçılarından və qəhrəmanlarından biri. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dövründə taqım komandiri olmuş, daha sonra polis idarəsi rəisinin müavini işləmişdir. Gəncə üsyanının başçılarından biri Cahangir bəy *Kazımbəy* xatirələrində 1920 il mayın 24-dən 25-nə keçən gecə Balabağban məscidində partizan dəstələrinin rəhbərləri Sarı Ələkbər və Qaçaq Qəmbərlə üsyana başlamaq haqqında razılığa goldiklərini qeyd etmişdir. Üsyan zamanı qəhrəmanlıqlar göstəron San Ələkbər 11-ci Qırmızı ordu hissələrinin tərk-silah olunmasında fəal iştirak etmişdir. 1952 ildə Parisdə nəşr olunan "Azərbaycan" jurnalının ikinci sayında Ceyhun bəy Hacıbəyli Gəncə üsyanının qəhrəmanları sırasında Sarı Ələkbərin də adını çəkmişdir. Gəncə üsyanı amansızcasına yatırıldıqdan sonra Sarı Ələkbərin qardaşları və yaxın qohumları istintaqsız-məhkəməsiz güllələnmiş, özü isə böyük çətinliklərlə Trabzona (Türkiyə) qaça bilmişdir. Oğlanları Qulu, İsmayıl, qızı Brilyant Qazaxıstana sürgün edilmiş, lakin Sarı Ələkbərin silahdaşları onları 1924 ildə gizli yolla Trabzona keçirə bilmişlər. Gəncədə sovet hakimiyyəti qurularkən Sarı Ələkbərin bütün əmlakı müsadirə olunmuşdur.

*Əd.:* Hacıbəyli C, Gəncə üsyanı, Azərbaycan jurnalı, Paris, 1952, № 2; Bayramov X., Sarı Ələkbər, "Gəncəbasar" qəzeti, 1993, 23 fevral.

**SARIQAMIŞ ƏMƏLİYYATI** - Birinci dünya müharibəsi zamanı (1914-18) Osmanlı qoşunları ilə Rusiya hərbi qüvvələri arasında Sarıqamış (Türkiyə) ətrafında baş vermiş hərbi əməliyyat (1914, dekabr - 1915, yanvar). Sarıqamış əməliyyatı hər iki tərəf üçün böyük əhəmiyyət kəsb edirdi. Hərbi nazir Ənvər paşanın rəhbərlik etdiyi türk hərbi qüvvələrinin qarşısına Qarsa doğru irəliləmək və sonradan Batuma çıxmaq vəzifəsi qoyulmuşdu. Sarıqamış əməliyyatında iştirak edən türk hərbi qüvvələri 90 min nəfərdən, rus hərbi qüvvələri isə 130 mindən artıq idi.

Türk hərbi komandanlığının kifayət qədər qətiyyətli hərbi plana əsaslanması əməliyyatın ilkin mərhələsində müəyyən uğurlar qazanılmasına imkan verdi.

downloaded from KitabYurdu.az

Lakin sonradan yol verilən səhvlər Türkiyə hərbi qüvvələrini ağır vəziyyətə saldı. Son dərəcə soyuq kcçən havalar türk hərbi qüvvələrinin vəziyyətini daha da ağırlaşdırdı. Əməliyyatda uğursuzluğa düçar olan Türkiyə tərəfi çoxlu itki verdi. Şəxsi heyətin böyük bir hissəsi isə rus hərbi qüvvələri tərəfindən əsir alındı.

Sarıqamış ətrafında və bütünlükdə, Birinci dünya müharibəsinin gedişində Qafqaz cəbhəsində əsir alınmış türk hərbçilərinin bir hissəsi Azərbaycanında (Nargin adasında) saxlanılır, digər hissəsi isə Azərbaycan ərazisindən keçməklə Rusiyaya aparılırdı. istər Azərbaycan, istərsə də Rusiya ərazisində saxlanılan türk əsgər və zabitlərinin əsirlikdən azad edilməsi Azərbaycan milli azadlıq hərəkatı fəallarının qarşısında dayanan başlıca vəzifələrdən biri idi. Rusiya əsirliyindən qaçırılmış Hüsaməddin Tunac sonradan hərbi yardım xahişi ilə Nağı Şcyxzamanlının başçılığı ilə Türkiyəyə göndərilən Azərbaycan nümayəndə heyətin tərkibinə daxil edilmişdi. Əsirlikdən qaçırılmış başqa bir türk zabiti Müzəffər Tuğsavul sonradan xidmətini davam etdirərək türk ordusunun ordu generalı rütbəsinə qədər yüksəlmişdi.

Azərbaycan vətənpərvərlərinin səyi nəticəsində 1918 ilin əvvəlində təkcə bir gecədə Nargin adasından 16 türk zabiti qaçırıldı. Əsirlikdən nicat tapmış türk zabitlərinin çoxu Azərbaycanda qalaraq *Aprel işğalından (1920)* sonra milli müqavimət dəstələrinin yaranmasında və fəaliyyətində iştirak etmişdilər. Azərbaycanın istiqlaliyyət əldə etməsi ərəfəsində əsirlikdən qaçırılmış türk zabitləri Bədri Əfəndi və Sidqi Əfəndi Şəkidə təşkil edilmiş müqavimət dəstəsinə, Həqqi Əfəndi ilə Ələddin Əfəndi Zaqatalada yaradılmış müqavimət dəstəsinə rəhbərlik edirdilər.

Azərbaycan milli istiqlal hərəkatının görkəmli xadimləri. eyni zamanda, Azərbaycan ərazisirıdən keçirilib Rusiyaya aparılan türk hərbi əsirlərinin qayğı ilə əhatə olunmasına da çalışırdılar. Bu işdə Nəsib bəy Yusifbəyli, Ələkbər bəy Rəfıbəyli, Xəlil bəy Xasməmmədov, Nağı bəy Şeyxzamanlı və başqaları fəal iştirak edirdilər. Onların və digər Azərbaycan vətənpərvərlərinin rəhbərliyi ilə əvvəlcə Gəncədən kcçən qatarlardakı türk hərbi əsirlərinə yemək, pal-paltar paylanır, xəstələrə mənəvi yardım göstərilirdi. Bu iş üçün təşkil olunmuş xüsusi qrup əvvəlcədən yemək və paltar bağlamaları hazırlayır və əsirləri aparan qatar yetişən kimi türk hərbçilərinə paylayırdı.

Gəncə dəmir yol stansiyasında türk hərbi əsirləri üçün xüsusi xəstəxana da təşkil edilmişdi. Gəncənin hakimiyyət orqanlarının icazəsi ilə xəstə türk hərbçiləri, müvəqqəti olaraq, burada müalicə olunurdu.

Türk hərbi əsirlərinə kömək və yardımların nizamlı şəkildə istiqamətləndirilməsi üçün Gəncədə *"Qardaş köməyi"* adlı cəmiyyət də yaradılmışdı. Cəmiyyətin köməyi ilə Türkiyənin müharibə gedən bölgələrində yetim qalmış türk uşaqları toplanıb Azərbaycana gətirilir və burada onların böyüyüb təhsil alması üçün şərait yaradılırdı. Türk hərbi əsirlərinə qayğı göstərilməsi üçün zəruri olan maliyyə vəsaiti şəxsi ianələr və xeyriyyə tədbirləri hesabına toplanırdı. Azərbaycanında olan türk hərbi əsirlərinin vəziyyəti Nəriman Nərimanovun da diqqət mərkəzində olmuşdur. O, 1917 ilin dekabrnda hərbi əsirlərə yardım göstərilməsi üzrə xüsusi komitənin sədri təyin edilmiş, Bakıda türk əsirlərinə böyük qayğı göstərmişdir. Nargin adasında saxlanılan türk əsirlərinin dözülməz vəziyyəti haqqında dəfələrlə mətbuatda, şəhər dumasında çıxış etmiş, onlara yardım göstərməyə çağırmış və vəziyyətlərinin yaxşılaşmasına nail olmuşdur.

*Əd.:* Şeyxzamanlı N., Azərbaycan İstiqlal mücadiləsi xatirələri, B., 1997; Süleymanov M., Azərbaycanında türk şəhidlikləri, B., 2000; Birinci düya harbinde türk harbi Kafkas cephesi 3-cü ordu harekatı, c.l, Ankara. 1993; Строков А.А., Ворцженные силы военное искуство в Первой Мировой войне, М., 1974.

**SENTRODOM** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış qeyri-hökumət xeyriyyə cəmiyyəti. Köməyə ehtiyacı olanların qeydiyyata alınması, evlərdə və küçələrdə qayda-qanuna və təmizliyə nəzarət, yanğınla mübarizə, əhalinin zəruri ərzaq məhsulları ilə təchizatı, yoluxucu xəstəliklərlə mübarizə və s. vəzifələri yerinə yetirirdi (bax *Mərkəzi ev komitəsi).*

**SENTROKASPİ** (Mərkəzi Xəzər) - Xəzər hərbi donanmasının mərkəzi komitəsi. 1917 ilin 1-ci yarısında Bakıda yaradılmışdı. Kadet, keçmiş çar zabiti İ.Turkiya, eserlər Yüzbaşev, Çurgin və b. rəhbərlik edirdi. Sentrokaspinin siyasəti qeyri-sabit idi. Donanma dənizçilərinin 1-ci qurultayı [1917 il 3 (16) noyabr] Oktyabr çevrilişini alqışlamış və fəhlə və əsgərlərin Bakı Sovetinə kömək göstərməsini Sentrokaspiyə həvalə etmişdi. Lakin eser-menşevik rəhbərlik bu tapşırığı həyata keçirməmişdi. Şaumyan başda olmaqla, Bakı Sovetinin Azərbaycan xalqına qarşı törətdiyi 1918 il mart soyqırımı zamanı neytral mövqe tutmuşdu. Yeni seçilən Sentrokaspi (sədri bolşevik A.R.Kuzminski) donanmanı *Bakı kommunasının* hərbi qüvvəsinə çevirdi, Bakı Xalq Komissarları Sovetinin bütün direktivlərini həyata keçirdi, Azərbaycan Xalq Cümhuriyyətinin Bakını azad etməsinə müqavimət göstərilməsində iştirak etdi. Bakı Xalq Komissarları Sovetinin süqutu ilə fəaliyyətini dayandırdı. Sentrokaspidə üstünlüyə nail olan daşnaklar və eser-menşeviklər avqustun 1-də *"Sentrokaspi diktaturası"* adlandırılan oyuncaq hökumət yaratdılar; sentyabrın ortalarında *Qafqaz İslam Ordusu* və Azərbaycan könüllü birləşmələri Bakını azad etdikdən sonra fəaliyyətinə son qoyuldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c .5, B.: 2001; İbrahimov Z., Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918-ci illər), B., 1957; Великая Октябрьская социалистическая революция. Энциклопедия, М., Денстервиль Л, Британский империализм в Баку и Персии в 1917-1918 гг, Тифлис, 1925.

**"SENTROKASPİ DİKTATURASI",** "Mərkəzi Xəzər və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsinin Diktaturası" antimilli və antisovet oyuncaq hökumət. 1918 il avqustun 1-də, Bakıda sovet hakimiyyətinin süqutundan sonra Sentrokaspinin antimilli və antisovet əhval-ruhiyyəli zabitləri və Bakı Soveti icraiyyə komitəsi tərəfindən yaradılmışdı. Partiya mənsubiyyətinə görə daşnaklardan, sağ eser və menşeviklərdən (11 nəfər) ibarət idi. Hökumətin tərkibinə Sadovski (sədr), A.Arakelyan, Məlik-Yeqanov, L.Velunts, L.Umarıski, S.Saakyan, Q.Ayollo və b. daxil idilər.

downloaded from KitabYurdu.az

"Sentrokaspi diktaturasr"nın hərbi qüvvələri, əsasən, Bakı kommunası dövründə fonnalaşdırılmış erməni-daşnak dəstələrindən ibarət idi. Diktaturanın liderləri Azərbaycan və Türkiyə hərbi qüvvələrindən ibarət *Qafqaz İslam Ordusunun* Bakıya doğru irəliləməsinin qarşısını almaq üçün L.Biçeraxovun və İrandakı ingilis hərbi qüvvələrinin komandanı Denstervillin köməyinə əl atdılar. L.Biçeraxov "Sentrokaspi diktaturası" qoşunlarının komandanı elan edildi. Dağıstan ərazisində olan L.Biçeraxov Bakıya doğru hərəkətə başlaması barədə "Sentrokaspi diktaturası"nın rəhbərliyinə teleqram göndərdi. Azərbaycanın şimal rayon-lannda yerli əhalidən təşkil olıınmuş könüllü silahlı dəstə-lər qətiyyət nümayiş etdirərək, L.Biçeraxovun dəstəsinin Bakıya irəliləməsinə imkan vermədilər. "Sentrokaspi diktaturası"nın dəvəti ilə ingilis qoşunları avqustun 4-də Bakıya daxil oldu. İrandan general Denstcrvillin başçılığı ilə 1000 nəfərlik hərbi qüvvə, bir neçə top və zirehli avtomobil Bakıya gəldi. Bu qüvvələrlə Bakını əldə saxlamağın mümkün olmayacağını görən "Sentrokaspi diktaturası"nın rəhbərliyi şəhərdə kütləvi səfərbərlik aparmaq qərarına gəldi. Bakıda və onun rayonlarında səfərbərliyin aparılması üçün məsul olan komissar vəzifəsi də təsis edilmişdi.

"Sentrokaspi diktaturası"nın mövcud olduğu qısa vaxtda 70 minədək şəhər əhalisi hərbi səfərbərliyə alınmışdı. Onların 30 mini rüşvət verib xidmətdən canını qurtarmışdı. 40 min nəfərə silah paylanmışdı ki, onlardan da 4-5 min nəfəri cəbhə xəttinə yollanmışdı. Müxtəlif adlar altında (hüquqşünaslar, artistlər, dükançılar və s.) dəstələr yaradılmışdı. Ştata əsasən, 26 piyada taboru, bir neçə divizion, topçu briqadası və süvari bölmələri var idi. Lakin onlar kifayət qədər komplektləşdirilməmişdi.

"Sentrokaspi diktaturası"nm hərbi komissarı əvvəlcə Markaryan, 1918 il avqustun 12-dən isə Baqratuni təyin olundu. "Sentrokaspi diktaturası"nın qoşunları əvvəlcə "Döyüşən Qafqaz Qırmızı ordusu" (komandanı Avetisov), sonra isə "Bakı və onun rayonlarının ordu və donanması" (komandanı general Dokuçayev, müavini Avetisov) adlandırılmışdı. "Sentrokaspi diktaturasr'nda ingilis zabitləri də rəhbər vəzifələrə təyin edilmişdilər. Lakin hərbi komissar və qoşunların komandanı vəzifəsi "Sentrokaspi diktaturası" fəallarının - daşnakların əlində idi. Həştərxana gedən Bakı Xalq Komissarları Soveti üzvləri diktatura tərəfindən həbs edildi.

"Sentrokaspi" qüvvələrinin başlıca vəzifəsi Bakı şəhərinin Azərbaycanın milli qüvvələrinin əlinə keçməsinə yol verməmək idi. Bu məqsədlə onlar 1918 il avqustun ilk günlərindən sentyabrın 15-nə qədər ingilislərin yardımı və birbaşa iştirakı ilə Bakı ətrafında Azərbaycan xalqına qardaşlıq yardımı göstərən türk hərbi qüvvələrinə, milli nizami hissələrə və könüllü dəstələrə müqavimət göstərdilər. Lakin Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusu şəhəri azad etdi. Bütün cəhdlərinə baxmayaraq, Sentrokaspi və ingilis hərbi qüvvələri tam uğursuzluğa düçar oldular. "Sentrokaspi diktaturası" süqut etdi, onun üzvləri Petrovsk-Porta (indiki Mahaçqala), sonra isə Ənzəliyə qaçdı. Bax. həm-çinin *Bakının azad olunması (1918).*

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Cumhuriyyəti (1918-1920), B., 1998; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**SENZURANIN LƏĞVİ BARƏDƏ SƏRƏNCAM** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarətinin ləğv olunmasını həyata keçirən hüquqi sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 9 noyabr tarixli sərəncamı ilə qəbul edilmişdir.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Е., 1998.

**SEREBROVSKİ** Aleksandr Pavloviç (25.12.1884, Peterburq - 10.2.1938) - sovet dövlət xadimi, Oktyabr çevrilişi-nin (1917) iştirakçısı. 1920 ilin yazında V.Leninin imzaladığı mandatla Bakıya göndərilmişdi. *Bakı əməliyyatı (1920)* zamanı neft mədənlərinin bolşeviklərin nəzarətində saxlanılması, Bakı neftinin Rusiyaya daşınmasının təmin olunması Serebrovskiyə tapşırılmışdı. 11-ci Qırmızı ordunun sonrakı hərbi birləşmələri ilə aprelin 30-da Bakıya gələn Serebrovskiyə V.Leninin imzaladığı xüsusi mandatla geniş hüquq və səlahiyyətlər verilmişdi. Baş neft idarəsinin üzvü Serebrovski 1920-26 illərdə "Azərneft" idarəsinin sədri işləmişdir. Azərbaycan neft sənayesini Rusiyanın yanacaq bazasına çevirmiş Serebrovski birbaşa V.Leninin sərəncamında olan kadr idi. Azərbaycanın 1920 ildə "nəinki neft verir, hətta öz dövlət kassasından fəhlələrin məvacibini də ödəyirdi" (Nəriman Nərimanov). Bunun müqabilində, neftin 15%-nin Azərbaycanına verilməsi barədə razılıq əldə edildikdə belə, "Serebrovski mövcud qərarı lazımı surətdə yerinə yetirməmişdir". N.Nərimanov Azərbaycan SSR hökumətinin sədri olduğu halda, "neft məhsullarından Azərbaycanın xeyrinə faizli ayırmalara dair düz bir il Serebrovski ilə mübarizə apardığını" yazırdı. N.Nərimanov mərkəzə müraciətində yazmışdı: *"...Sovet respublikasında başda "kral" Serebrovski olmaqla, "monarxiya" yaratmaq nəyə lazım idi, o indiyə qədər elə bilir ki, azdrbaycanlıları aypara və ulduzla aldadır".* Onun sədrlik etdiyi komitənin tərkibi, Nərimanovun yazdığı kimi, "qərəzsiz müşahidəçini dəhşətə" gətirəcək qədər "rus, erməni və yəhudilərlə doldurulduğu" halda, işin ağırlığı mazutun içərisində "çapalayan" müsəlman fəhlələrinin çiynində idi. Serebrovski 1921 ildə İstanbulda olarkən Vrangel ordusunun orada qalan əsgərləri arasında təbliğat apararaq, onların 5 mindən çoxunun-Bakıya gəlib, neft mədənlərində işləməsini təmin ctmişdi. Bakıda fəaliyyətindən sonra SSRİ miqyasında bir sıra məsul təsərrüfat sahələrinə rəhbərlik etmişdir. SSRİ MİK üzvü olmuşdur. Repressiyaya məruz qalmışdır.

**SERETELİ** İrakli Georgiyeviç (20.11.1881, Kutaisi -20.5.1959, Nyu-York) - menşevizmin liderlərindən biri, siyasi və dövlət xadimi. 20-ci yüzilliyin əvvəllərində inqilabi hərəkata qoşulmuşdu. 1903 ildən gürcü sosial-demokrat jurnalı "Kvali"nin ("Şırım") redaktoru idi. Kutaisi quberniyasından 2-ci Dövlət dumasının (1907) deputatı, sosial-demokrat fraksiyasının lideri olmuş, 1907-17 illərdə

downloaded from KitabYurdu.az

katorqaya və Sibirdə məcburi yaşamağa məhkum edilmişdir. Fevral inqilabından (1917) sonra Petroqrad Soveti İcraiyyə Komitəsinin, Fəhlə və Əsgər Deputatları Sovetinin (1-ci çağırış) Ümumrusiya MİK-in üzvü, Müvəqqəti hökumətdə 1917 ilin mayından poçt və teleqraf, iyuldan daxili işlər naziri olmuşdur. Müvəqqəti hökumətin 1917 ilin avqustunda Rusiyanın əks-inqilabi qüvvələrini səfərbər etmək üçün çağırdığı dövlət müşavirəsində (Moskva) iştirak etmişdi. Müəssislər Məclisində antisovet blokun başçısı olmuşdur. 1918 ildən gürcü menşeviklərinin liderlərindən idi. 1918 il mayın 25-də Zaqafqaziya seyminin gürcü fraksiyası adından bəyanat verərək Zaqafqaziya Respublikasının ləğv olunacağını seymin müsəlman fraksiyasına bildirmişdi. Gürcüstan nümayəndə heyəti tərkibində *Paris Sülh Konfransında (1919-20)* iştirak etmişdir. 1920 il yanvarın 19-da konfransın Ali Şurasının iclasında, əldə olunmuş razılığa görə, Azərbaycan və Gürcüstan nümayəndə heyəti adından çıxış edən Sereteli müttəfıqlərin yardımına böyük ehtiyac olduğunu bildirmiş, bolşeviklərin Qafqaza müdaxiləsinin labüd olduğunu söyləmişdir. Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra (1921) Fransaya mühacirət etmiş, 1940 ildən ABŞ-da yaşamışdır.

**SEVR SÜLH MÜQAVİLƏSİ (1920)** - avqustun 10-da Sevr şəhərində (Paris yaxınlığında) Osmanlı dövləti ilə Birinci Dünya müharibəsində qalib gəlmiş "başlıca müttəfiq dövlətlər" (B.Britaniya, Fransa, İtaliya, Yaponiya) və onlara kömək etmiş dövlətlər (Belçika, Yunanıstan, Polşa, Portuqaliya, Rumıniya, Çexoslovakiya, Yuqoslaviya) arasında bağlanmış müqavilə. Sevr sülh müqaviləsinin əsasını vaxtilə ingilis diplomatı M.Sayks və fransız diplomatı F.Jorio-Piko tərəfindən hazırlanmış gizli İngiltərə-Fransa (Sayks-Piko) müqaviləsinin (1916) şərtləri və Antanta dövlətlərinin *San-Remo konfransında (1920)* işləyib hazırladıqları, Osmanlı imperiyası ərazilərinin, həm də digər türk torpaqlarının bölüşdürülməsi haqqında müqavilənin mətni təşkil edirdi. Sevr sülh müqaviləsinə əsasən, Fələstin və İraq B.Britaniyanın, Suriya və Livan isə Fransanın mandatlığı altına keçirdi. Türkiyə Ərəbistan yarımadasına və Şimali Afrikaya iddialarından əl çəkir. İngiltərənin Kipri ilhaq etməsini, həmçinin İngiltərənin Misir, Hicaz əmirliyi, Fransanın isə Mərakeş və Tunis üzərində protektoratlığını tanıyırdı; Dodekanes adaları İtaliyaya, Ədirnə və Gelibolu ilə birlikdə Şərqi Frakiya Yunanıstana, Anadolu vilayətinin cənub-şərqi Türkiyə torpaqlarında yaradılması nəzərdə tutulan "müstəqil Kürdüstan"a, əksər sərhəd əraziləri isə daşnaklara (Ermənistan) verilirdi; Sevr sülh müqaviləsinin İstanbul və Boğazlara aid şərtləri Türkiyəni nəinki Boğazlardan, əslində, həm də İstanbuldan məhrum edirdi. Boğazlar üzərində nəzarət üçün yaradılmış "komissiya"ya daxil ediləcək 7 dövlətin 4-ü (B.Britaniya, Fransa, İtaliya, Amerika Birləşmiş Ştatları) Qara dəniz dövləti deyildi; İstanbul formal olaraq Türkiyəyə verilsə də, onun quru tərəfinən Yunanıstan torpaqları ilə əhatə edilməsi, dəniz tərəfdən isə hər iki sahilinin "Boğazlar komissiyası"nın nəzarəti altında olan "beynəlxalq boğazlar zonası"na aid edilməsi bu "güzəşfi, əslində, heçə endirmişdi. Sevr sülh müqaviləsi təkcə Osmanlı imperiyasının varlığına son qoymaqla kifayətlənməyərək, Türkiyənin müstəqilliyini və türk dövlətçiliyini də məhv etməyə yönəldilmişdi; hətta Türkiyənin əlində qalan Daxili Anadolunun mərkəzi Ankara olan kiçik bir sahəsi üçün belə elə məhdudiyyətlər və ağır şərtli təəhhüdlər qoyulurdu ki, bunlar, əslində, Türkiyəni gələcəkdə müstəmləkəyə çevirmək məqsədi güdürdü.

Sevr sülh müqaviləsi həm də Cənubi Qafqazda sabitliyin pozulmasına şərait yaradırdı; müqaviləyə əsasən, Türkiyə əraziləri hesabına şirnikləndirilən daşnaklar cürətlənərək, yenidən "Böyük Ermənistan" yaratmaq xülyasına qapılır, Azərbaycan torpaqlarına olan ərazi iddialarını reallaşdırmaq üçün "tarixi əsaslar" axtarır, Naxçıvan bölgəsini və digər Azərbaycan ərazilərini işğal və ilhaq etmək üçün növbəti cəhdlər göstərirdilər.

Sevr sülh müqaviləsi Türkiyədə milli azadlıq hərəkatına güclü təkan vermiş və Mustafa Kamal Paşa Atatürkün başçılığı ilə xarici qəsbkarlara qarşı yönəlmiş Kamalçılar inqilabını sürətləndirmişdi. 1921-22 illərdə xarici işğalçılara ağır zərbələr endirərək onları ölkədən qovmağa əsasən nail olmuş kamalçı türk hökumətinin diplomatik sahədə də fəaliyyətini xeyli gücləndirməsi sayəsində Sevr sülh müqaviləsi Lozanna konfransının (1922-23) qərarları ilə ləğv edilmişdir.

*Əd.:* Hüseynov Q.H., Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair, B., 1970; Орешкова С.Ф. и др. , Очерки истории Турции, М., 1983.

**SEYİD ƏZİM ŞİRVANİ,** Seyid Əzim Seyid Məhəmməd oğlu Mir Cəfərzadə (10.7.1835, Şamaxı - 20.5.1888, Şamaxı) görkəmli şair, maarif və mətbuat xadimi, tarixçi və ədəbiyyatşünas. Dağıstanın Yaqsay kəndində (1843-53), Nəcəf, Şam (Dəməşq), Bağdad şəhərlərində (1855-61) ruhani təhsili almışdır. 19 əsrin 60-cı illərində Məkkə ziyarətinə getmiş, Səudiyyə Ərəbistanına, Misirə, Türkiyəyə, İrana səyahət etmişdir. 1869-70 illərdə Şamaxıda yeni üsullu (üsuli-cədid) məktəb açmışdı. Mirzə Ələkbər Sabir və Sultanməcid Qənizadə ilk təhsili bu məktəbdə almışlar. Bakı quberniyasının Şamaxı ruhani idarəsinin "Məclis" məktəbində (1874-88), Şamaxı şəhər məktəbində (1877-88) müəllim işləmişdir. 1879 ildə Qori Müəllimlər Seminariyasında açılan Azərbaycan şöbəsində Azərbaycan dili və şəriət fənləri müəllimi yerini tutmağa təşəbbüs göstərmişdir. 1875 ildə Bakıda nəşrə başlayan "Əkinçi" qəzetinin redaksiyası ilə əlaqə yaratmış, qəzetin demokratik ideya istiqamətini müdafıə etmiş, satirik, didaktik şerlər dərc etdirməklə, maarifçi-realist poeziyanın bünövrəsini qoymuşdur. "Ziya" ("Ziyayi-Qafqaziyyə", 1879-83), "Kəşkül" (1884-91) qəzetlərində iştirak etmiş, Şirvanın sosial-iqtisadi həyatına dair məqalələr, əxlaqi, tərbiyəvi, didaktik mövzularda şerlər, mənzum hekayələr dərc etdirmişdir. Seyid



downloaded from KitabYurdu.az

Əzim 19 əsrin 70-80-ci illərində maarifçilik hərəkatında fəal iştirak etmiş, məktəblərin ehtiyacını təmin etmək üçün "Rəbiül-ətfal" ("Uşaqların baharı"), "Əhvali-Ənbiya" ("Şəriət"), "Tacül-kütub" dərsliklərini yazmışdır. Dərsliklərində çarizmin müstəmləkə ucqarlarındakı siyasətini təbliğ etmədiyinə görə 1879 ildə "siyasi etibarzıslıqda" ittiham edilmiş, müəllimlikdən çıxarılması haqqında sərəncam verilmişdir. Yerinə bərpa olunduqdan sonra siyasi təqiblərə məruz qalmışdır. Azərbaycan şairlərinin əsərlərini toplamış, tərtib etdiyi "Təzkirə" də (1883) 270-dən çox şairin qısa tərcümeyi-halını və əsərlərindən nümunələr vermişdir. "Tarixi-Şirvannamə" (1887) adlı əsəri də var. Seyid Əzim yaradıcılığa erkən yaşlarından lirik şair kimi başlamış, qəzəl, qəsidə, müxəmməs, müstəzad, rübai, mərsiyə kimi klassik şer janrlarında zəngin ədəbi irs yaratmışdır. 19 əsrin 70-ci illərində "Əkinçi"nin təsiri altında yaradıcılığında ictimai mövzulara meyl qüvvətlənmiş, orta əsrlərin feodal qanunları üzərində bərqərar olan əski dünyanı yıxmaq, kapitalizm inkişafı dövrünün ahənginə uyğun yeni dünya qurmaq uğrunda mübarizə Seyid Əzim yaradıcılığının əsas amalına çevrilmişdir. Şair yaradıcılıq məramını "Gətirmək tazə üsluba gərəkdir köhnə dünyanı" şəklində bildirmiş, yaradıcılığını bu məramın həyata keçməsi uğrunda mübarizəyə səfərbər etmişdir. Lirika, satira, mənzum hekayə, təmsil Seyid Əzim yaradıcılığının aparıcı janrlarıdır. Zərdabi, Ünsizadə və b. müasirlərinə ünvanladığı mənzumələrdə cəmiyyətin yenidən qurulması yolları haqqında düşüncələrini əks etdirən Seyid Əzim satiralarında çarizmin və mürtəce ruhanilərin törətdiyi rəzalətləri amansızlıqla qamçılayır, öyüd və nəsihətlərində müasir məndəricəli sağlam əxlaqi fikirləri təbliğ edirdi. Seyid Əzim qüvvətli tarixilik duyğusuna malik idi. O, Azərbaycan xalqının milli oyanışında, geniş kütlələr içərisində azadlıq və istiqlal ideyalarının yayılmasında mühüm rol oynamışdır. O, 19 əsrin iqtisadi inqilabının dünyanın əski simasını dəyişib, maarifçilik ideyaları zəminində sağlam və azad bir cəmiyyətin qurulması ilə nəticələnəcəyinə dərin inam bəsləyirdi. Şerlərinin birində qurulacaq yeni dünyanın insanlarına müraciətlə onu da xatırlamalarını tövsiyə edirdi.

*Ol zaman kim, bu dövreyi-əflak,*
*Çürüdüb, eyləyər vücudumu xak.*
*Oxuyanlar həqiri yad eddlər,*
*Ruhumu qəbr evitdə şad edələr.*
*Gələcək, əmma çox əhli-məzaq,*
*Olacaqlar vücuduma müştaq.*
*Deyəcəklər ki, heyf Seyyidi-zar,*
*Oldu Şirvan ara qəribə məzar.*
*Kaş olaydı zəmanəmizdə bizim,*
*Bəzmi-cəngü çəğanəmizdə bizim. ...*
*Bir ümidini ki, vəqti-ricətdə,*
*Kövkəbi-bəxt ola səadətdə.*
*Yetirəm xaki-payma cani.*

Əsəri: Əsərləri, 3 cilddə, B., 1967-71; 3 cilddə, B., 2005.
*Əd.:* Azərbaycanın ədəbiyyatı tarixi, *3* cilddə, c.2, B., 1960; Mirbağırov K., Seyid Əzim Şirvani, B., 1959; Hüseynov S., Seyid Əzim Şirvaninin yaradıcılıq yolu, B., 1977; Bağırov Ə., S.Ə.Şirvani və məktəb. B., 1986.



**SEYİD HÜSEYN,** Seyid Hüseyn Mir Kazım oğlu Sadıqzadə I (1887, Bakı - 1.8.1938, Bakı) - yazıçı, tənqidçi, publisist mətbuat xadimi. Dənizçi ailəsində doğulmuşdur. İçərişəhərdə Sınıqqala məscidi nəzdindəki məktəbdə (1895- I1902), birinci rus-müsəlman məktəbində (1902-05) təhsil almışdır. "Kaspi" mətbəəsində işləmiş, Haşım bəy Vəzirovun "Tazə həyat" və "İttifaq" qəzetlərinin müsəhhihi (korrek toru) olmuşdur (1905-11). Ələsgər Əliyev və qardaşı Mir Hüseynlə bir satirik "Bəhlul" jurnalını (cəmi 9 nömrəsi çıxmışdır) nəşr etdirmişdir (1907). Seyid Hüseyn 1911 ildən aramsız olaraq dövri mətbuat sahəsində fəaliyyət göstərmişdir. 1912 ildə Hacı İbrahim Qasımovun redaktorluğu ilə Bakıda satirik "Kəlniyət" (1912-13) jurnalını buraxmışdır. 1912 ilin avqustunda Sənətullah Eynullayev-İbrahimovun nəşr etdirdiyi "İqbal" qəzetinin əməkdaşı, 1914-15 illərdə həmin qəzetin naşiri və baş mühərriri olmuşdur. 1915 ilin oktyabrında "Qurtuluş" jurnalını (cəmi 4 nömrə; 1920 ilin aprelində 2 nömrə) nəşr etdirmişdir. "İqbal", "Yeni İqbal", "Təzə xəbər", "Son xəbər", "Yeni İrşad", "Açıq söz" qəzetlərində aktual sosial problemlərə dair publisist məqalələri və hekayələri dərc olunmuşdur.

1918 ilin martında S.Şaumyanın göstərişi və başçılığı ilə daşnakların Bakıda Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqırımı zamanı, tarixi binaları, o cümlədən nadir memarlıq incisi olan "İsmailiyyə"ni yandırması ilə əlaqədar dərin ürək ağrısı ilə qələmə aldığı "Həzin bir xatirə", "İsmailiyyə" (1919) hckayoləri ictimai-ədəbi mühitdə böyük əks-səda doğurmuşdu. 20 əsrin 10-cu illərində Seyid Hüseyn ardıcıl surətdə ədəbi tənqidlə məşğul olmuş, milli ədəbiyyatın, ədəbi-bədii dilin saflığı, realist sənət uğrunda fəal mübarizə aparmışdır. "Müsavat" partiyasının üzvü olan Seyid Hüseyn Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi mədəni quruculuqda, o cümlədən "Azərbaycan" qəzetinin başçılıq etdiyi "Yaşıl qələm" ədəbi birliyinin işində yaxından iştirak etmişdir. O, Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra "Müsavat" partiyasının Bakıda gizli fəaliyyət göstərən Mərkəzi Komitəsinin üzvü idi. 1923 ilin avqustunda gizli təşkilatın üstü açılarkən, "Kommunist" qəzetində xüsusi bəyannamə ilə çıxış edib, "Müsavatın məxfı təşkilatını buraxılmış elan" edənlərin arasında Seyid Hüseynin də imzası vardı. Sovet hakimiyyəti illərində müəllimlik (Xızı rayonu, Bakı), fəhlə klublarında ədəbiyyat dərnəklərinə rəhbərlik etmiş, "Maarif və mədəniyyət", "Hücum" jurnallarında məsul katib, "Kommunist" qəzetində buraxıcı. Azərnəşrdə redaktor işləmişdir. "Yeni həyat yollarında" (1928), "İki həyat arasında" (1930), "Şirinnaz" (1937) kitabları nəşr olunmuşdur. Repressiyaya məruz qalmışdır.
Əsərləri: Seçilmiş əsərləri, B., 1960; Hekayələr, B., 1977.
*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B.. 1998;

downloaded from KitabYurdu.az



Talıbzadə K., XX əsr Azərbaycanın tənqidi, B., 1966; Zamanov A., Əməl dostları, B., 1979; Sadıqzadə Q., Son mənzili Xəzər oldu, B., 1991; Hüseynzadə A., Romantik şair Əlipaşa Səbur, B., 2000.

**SEYİD MUSƏVİ** - "Hümmət" təşkilatının banilərindən biri, nasir, yazıçı-publisist (bax *Musəvi).*

**SEYİD ŞUŞİNSKİ,** Mir Möhsün ağa Seyid İbrahim oğlu -Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndələrindən biri, musiqi xadimi, pedaqoq. Azərbaycanın xalq artisti (1956), respublikanın əməkdar müəllimi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin mədəni həyatında yaxından iştirak etmişdir (bax *Şuşinski* Seyid).

**SEYİDƏLİYEV** Mirməmmədrza Abutalıb oğlu (1898, Şamaxı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı kişi gimnaziyasını bitirmişdir (1919). Parlamentin 1919 il 1sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**SEYİDOV** Mir Hidayət bəy Mir Adil oğlu (1887 - mart, 1919, Ordubad) - Azərbaycanın milli istiqlal hərəkatının fəal iştirakçılarından biri, Azərbaycanın Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycanın Xalq Cümhuriyyətinin təşəkkülündə və inkişafında fəal iştirak etmişdir. 1906 ildə Yelizavetpol (Gəncə) gimnaziyasını bitirmiş, sonra Kazan Universitetinin hüquq fakültəsində oxumuşdur. 1907 ildən inqilabi hərəkata qoşulmuşdur. İrəvan quberniyası Müsəlman Milli Şurasının sədri, Zaqafqaziya seymi Müsəlman fraksiyasının üzvü olmuşdur. 1918 il mayın 28-də İstiqlal bəyannaməsini qəbul və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını elan edən Azərbaycan Milli Şurasının 26 nəfər üzvü arasında M.H.Seyidov da vardı. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü elan edilmiş 44 nəfər Milli Şura üzvündən biri olmuşdur.

**"SƏADƏT"** - 1907 ildən Bakıda fəaliyyət göstərən və xalqın maariflənməsində, milli oyanışında mühüm rolu olmuş müsəlman xeyriyyə cəmiyyəti. Cəmiyyətin yaranması və fəaliyyətində görkəmli xeyriyyəçi, maarifpərvər Hacı Zeynalabdin Tağıyevin böyük rolu olmuşdur. "Səadət"in əsas məqsədi xalqı maarifləndirmək, onun mədəni inkişafında özünəməxsusluğunu qorumaq olmuşdur. Cəmiyyət köhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulmasına, təkmilləşdirilməsinə, onların yayılmasına, kitabxanalar, qiraətxanalar açılmasına çalışırdı. 1908 ildə cəmiyyət tərəfindən Bakıda açılmış "Səadət" məktəbində Fərhad Ağazadə, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Axund Molla Ağa Əlizadə, Molla Qədir İsmayılzadə, Məmməd Hənəfı Terequlov, Əli Hüseynov, Kərim bəy Məlikov və b. müəl-

*"Səadət" məktəbinin müəllim və şagirdləri*



downloaded from KitabYurdu.az

limlik edirdilər. Məktəbin müdiri Əli bəy *Hüseynzadə* idi. Cəmiyyətin bütün məktəb proqramlarına Qori seminariyasının məzunu Fərhad Ağazadə rəhbərlik edirdi. Cəmiyyətin fəaliyyətində mütərəqqi din xadimləri yaxından iştirak edirdilər. "Səadət" məktəbində dünyəvi fənlərlə (Azərbaycan, rus, fars, ərəb, alman və fransız dilləri, hesab, coğrafiya, rəsm, tarix, təbiətşünaslıq) yanaşı, ilahiyyat da tədris olunur, türkçülük və islamçılıq təbliğ edilirdi. "Səadət" cəmiyyəti Azərbaycanın bir sıra şəhərində məktəb və mədrəsələr açmış, Cənubi Azərbaycandan gəlmiş fəhlələrin uşaqları üçün Bakıda "İttihad", Tiflisdə isə "İttifaq" məktəbi təşkil etmişdi.

"Səadət" müsəlman ruhani cəmiyyəti idarə heyətinin sədri Axund Molla Ağa Əlizadənin Azərbaycan qəzetlərində dərc olunmuş müraciətində Bakıda fəaliyyət göstərən 400 şagirdi olan məktəbə yardım edilməsi xahiş olunurdu: "Biz, müsəlmanlar geridə qalmış xalqıq, bizə, ilk növbədə, maariflənmək lazımdır. Biz müsəlmanları yalnız məktəb xilas edə bilər. Bizə işıq saçan idarəyə hərtərəfli yardım göstərmək lazımdır. Gedin və mövcud olan məktəblərə dəstək verin. Gələcək nəslinizin sözün əsl mənasında ayılmasını istəyirsinizsə, məktəblərə yardım əlinizi uzadın" ("Kaspi" qəzeti, 1914, 31 yanvar).

Cəmiyyət Azərbaycanda elmin və maarifin yayılmasında, azərbaycanlıların təhsil alması və savadlandırılmasında böyük rol oynamışdır. "Səadət" məktəbində təhsil almış bəzi azərbaycanlı mütəxəssislər sonralar ictimai-siyasi fəaliyyət göstərmiş, Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra hökumətin tərkibinə daxil olmuşdular.

*Əd.:* Bax *"Nəşri-maarf"* məqaləsinin ədəbiyyatına



**SƏBUR,** Əlipaşa Fərəculla oğlu Hüseynzadə (1885, Bakı - 11.5.1934, Bakı) - mətbuat xadimi, şair, naşir, maarifçi. Fəhlə ailəsində doğulmuşdur. İçərişəhərdə məhəllə məktəbində (1892-96), 1-ci rus-müsəlman məktəbində (1896-99), 2-ci dərəcəli ali ibtidai şəhər məktəbində (1899-1902) oxumuşdur. 1909 ildə məşhur türk mühərriri Əhməd Kamal Rasım oğlundan "Sərf-nəhv və qəsaidi-ədəbiyyə"ni öyrənmişdir. Əmək fəaliyyətinə 1902 ildə ticarət kontorunda başlamışdır. 1910 ildə "Yeni Füyuzat" jurnalını nəşr etdirmişdir. Jurnalda Şərq ölkələrində gedən milli azadlıq mübarizəsi də işıqlandırılırdı. 1911 ildə "panislamizm"i təbliğ etməkdə, "zərərli ideyalar yaymaqda" və Avropa dövlətlərinin Şərqdəki siyasətinə qarşı çıxmaqda ittiham olunaraq, mərkəzi Rusiyanın daxili quberniyalarına sürgün edilmiş, Rostov və Həştərxan şəhərlərində yaşamışdır (1911-14). Nəriman Nərimanov və İbrahim Əbilovla birlikdə Həştərxan şəhərinin mədəni həyatında yaxından iştirak etmişdir. 1913 ildə Romanovlar sülaləsinin 300 illik yubileyi münasibəti ilə əfvi-ümumi elan edildikdən sonra Bakıya qayıdaraq, "Səfa" maarif cəmiyyətində çalışmışdır. 1917 ildə hərbzadələrə yardım üçün tərtib olunmuş "Qardaş köməyi" məcmuəsinin nəşrində fəal çalışmış və "Gəl, etmə fərariliyi" şerini dərc etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuat sahəsində çalışmış, "Türk ocağı" ədəbi təşkilatında və onun nəzdində yaradılmış "Yaşıl qələm" ədəbi dərnəyində fəal iştirak etmişdir. Sovet hakiyyəti illərində müəllimlik etmiş (1920-31), "Kommunist" və "Azərbaycan kolxozçusu" qəzetlərinin əməkdaşı olmuşdur.

1923 ildə Bakı Dövlət Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuş, maddi vəziyyətinin ağırlığı üzündən təhsilini davam etdirə bilməmişdir.

Səbur dövri mətbuatda ("Yeni Həqiqət", "İqbal", ( "Bəsirət" qəzetləri, "Dirilik" jurnalı və s.) müntəzəm çıxış etmiş, əsərlərini "Ə.P.", "Səbur", "Giryan", "Paşa Hüseynov Bakılı", "Ə.S.", "Nüsrət", "Nasir" və s. imzalarla dərc etdirmişdir. Birpərdəli "Millətpərəstlər" (1913) pyesi, "Təranə", "Düşüncə yarpağı" (1915) kitabları nəşr olunmuşdur.

*Əd.:* Hüseynzadə A., Romantik şair Əlipaşa Səbur, B., 2000.

**SƏƏDİ** Hacı Həsən oğlu (?, Göyçay - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qəranna (bax *Xaricdə təhsil almağa göndərlən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. 1919 ildə Türkiyədə İstanbul Universitetinin tibb fakültəsinin son kursunda oxuyarkən maddi çətinlik üzündən təhsilini yarımçıq buraxmağa məcbur olmuş və Azərbaycana qayıtmışdı. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün yenidən İstanbul Universitetinə (Türkiyə) göndərilmişdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır. "SƏFA" - mədəni-maarif cəmiyyəti. 1912-20 illərdə Bakıda fəaliyyət göstərmişdir. Cəfər Bünyadzadənin təşəbbüsü, Seyid Hüseyn və digər ziyalıların köməkliyi ilə təsis olunmuşdu. Cəmiyyətin 1912 il avqustun 14-də çağırılan birinci iclasında Haşım bəy Vəzirov idarə heyətin sədri, Cəfər Bünyadzadə, Hacı İbrahim Qasımov, Səməd Mənsur Kazımzadə, Seyid Hüseyn Sadıqzadə və b. üzvləri seçilmişdilər.

**"Səfa" xeyriyyə cəmiyyətinin üzvləri**



downloaded from KitabYurdu.az



*Nəriman Nərimanov və Azərbaycan sahibkarları "Səfa" xeyriyyə cəmiyyəti məktəbinin şagirdləri arasında. Bakı, 1917*

Bir ildən sonra (1913, 6 may) yenidən seçki keçirilmiş, Mirtağı Mirbabayev fəxri, İsgəndər bəy Məlikov həqiqi sədr, Səməd Mənsur Kazımzadə müavin, İslam bəy Qəbulov katib seçilmiş, Seyid Hüseyn Sadıqzadə, Axund Molla Zəki, Əlağa Axundov idarə heyətinə daxil edilmişdilər.

Cəmiyyətin cəmi 50 üzvü vardı. "Səfa" üzvlük haqqı, fərdi ianələr və teatr tamaşalarından yığılan vəsait hesabına fəaliyyət göstərirdi. Məqsədi çoxsaylı baxımsız uşaqlan təhsilə cəlb etmək, əhalinin yoxsul təbəqəsinə tibbi yardım göstərmək, xalqın mədəni səviyyəsini yüksəltməkdən ibarət idi. 1912 ilin sentyabrında Cəfər Bünyadzadənin rəhbərliyi ilə "Səfa" məktəbi fəaliyyətə başladı. İlk vaxtlar burada 60 nəfər uşaq oxuyurdu. 1914 ildə onların sayı 160 nəfərə çatdı. Cəmiyyətin xəzinədarı Kərbəlayi Əlibala Zərbəliyev öz vəsaiti hesabına məktəb binası tikdirmişdi. Məktəbin müəllimləri arasında Hüseyn Cavid və Seyid Hüseyn də vardı.

"Səfa" cəmiyyətinin nəzdində xüsusi teatr bölməsi fəaliyyət göstərirdi. Tamaşaların təşkilinə, repertuarın seçilməsinə və icrasına Səməd Mənsur rəhbərlik edirdi. Onun fəaliyyəti sayəsində Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Abbas Mirzə Şərifzadə, Hüseynqulu Sarabski, Sidqi Ruhulla kimi görkəmli aktyorlar "Səfa" truppasına cəlb olundular. Truppa Nəcəf bəy Vəzirovun "Ağakərim xan Ərdəbili", "Yağışdan çıxdıq yağmura düşdük", Nəriman Nərimanovun "Nadanlıq", "Nadir şah", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri-cadu", Bədrəddinin "Əmir Əbü-lüla", Şəmsəddin Saminin "Dəmirçi Gavə" pyeslərini göstərmişdi. Zülfüqar bəy Hacıbəylinin "Evliykən subay" operettası ilk dəfə burada tamaşaya qoyulmuşdu. Azərbaycan opera müğənnilərinin səsinin qrammofon valına yazılmasında, milli opera sənətinin populyarlaşmasında da "Səfa" cəmiyyətinin mühüm rolu olmuşdur.

*Əd.:* Cəfərov C, Azərbaycan teatrı, teatrının salnaməsi (toplayanı, tərtib edəni Q.Məmmədli), B., 1975.

**SƏFƏRƏLİYEV** Ağa bəy (? - ?) - Azərbaycan milli azadlıq hərəkatı iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun" una* (1918, 19 noyabr) əsasən, Bakı şəhərindən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə üzv seçilmişdi. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasını təmsil edirdi.



**SƏFƏROV** Məhiş Məşədi Hacı oğlu (1.12.1899, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. İmperator II Nikolay adına Dərdənd realnı məktəbini bitirmişdir (1917). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini yol mühəndisliyi sahəsində davam etdirmək üçün Darmştadt Universitetinə (Almaniya) göndərilmişdir. Azər

downloaded from KitabYurdu.az

baycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Səfərovun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**SƏFİKÜRDSKİ** Aslan bəy Ağalar bəy oğlu (30.9.1881, Gəncə qəzasının Səfikürd kəndi - 20.9.1937, Bakı) - görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. 1901 ildə Gəncə klassik gimnaziyasını bitirərək, həmin ildə Xarkov Universitetinin hüquq fakültəsinə qəbul olunmuş, 1902 ildə öz xahişi ilə



Peterburq Universitetinə dəyişilmişdir. Tələbə hərəkatında fəal iştirakına görə 1903 ilin martında Pekterburq Universitetindən xaric edilmiş, 1904 il yanvarın 20-də yenidən həmin Universitetə bərpa olunmuşdur. 1907 ildə universiteti bitirən Səfikürdski, 1907-11 illərdə Gəncənin ədliyyə orqanlarında andlı müvəkkil köməkçisi vəzifəsində işləmiş, eyni zamanda, xeyriyyəçiliklə məşğul olmuşdur; Gəncə "Müsəlman xeyriyyə cəmiyyəti"nin rəhbərlərindən biri, həmçinin "Aktyorlar cəmiyyəti"nin sədri idi. 1911-17 illərdo əvvəlcə Şuşa şəhər dumasında iclasçı, sonralar isə andlı müvəkkil olmuşdur. Fevral inqilabından (1917) sonra Səfikürdski Gəncə qəza icraiyyə komitəsinin tərkibinə, həmçinin Gəncə Müsəlman Milli Şurasınm üzvü seçilmişdir. Qasım bəy Əmircanovla birlikdə, Rusiya imperiyası qeyri-rus millətlərinin 1917 ildə Kiyevdə keçirilən qurultayında Azərbaycandan nümayəndə kimi iştirak etmiş və çıxışında Azərbaycana milli muxtariyyət verilməsi haqqında təklif irəli sürmüşdür.1917 il noyabrın 11-də Cənubi Qafqazın siyasi partiya və ictimai təşkilatlan nümayəndələrinin Tiflis də keçirilən konfransında iştirak etmişdir. Elə həmin il Səfıkürdski eserlər partiyasının tərkibindən çıxaraq, Müsəlman sosialistləri blokuna daxil olmuşdur. Onun başçılıq etdiyi blok Rusiya Müossislər Məclisinə seçkilərdə 3 yer qazanmışdı.

Rusiya Müəssislər Məclisi buraxıldıqdan sonra yaradılan Zaqafqaziya Seyminin Müsəlman Fraksiyasının, sonra isə Azərbaycanın Milli Şurasının üzvü idi. Seymin Müsəlman sosialistləri blokunun lideri kimi Səfikürdski Bakıda müsəlman əhaliyə qarşı vəhşiliklərin qarşısının dərhal alınmasını tələb etmişdi. Azərbaycan Milli Şurası yaradılanda onun məqsəd və vəzifələrini Cənubi Qafqazın bütün müsəlman bölgələrində xalqa izah etmək üçün göndərilən nümayəndələr içərisində A.Səfikürdski də vardı. 1918 ilin iyununda Gəncədə yaranmış hökumət böhranı (bax *"İyun böhram ")* zamanı, A.Səfikürdski Azərbaycan Milli Şurasının və birinci hökumətinin buraxılmasına etiraz əlaməti olaraq, Müsəlman sosialistləri bloku adından partiyasının yeni hökumətin tərkibinə daxil olmayacağını bəyan etmişdi. İstanbul konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. 1918 ilin dekabrında Qazax qəzasından Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə deputat seçilmişdi. O, Müsəlman sosialistləri bloku adından Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını alqışlamış, aqrar problemin həllini parlamentin ən vacib məsələsi saymış, torpağın əvəzsiz olaraq kəndlilərə paylanmasını tələb etmişdi. O, siyasi məhbuslara əfvi-ümumi verilməsi üzrə xüsusi komissiyanın üzvü idi. Onun təklifi ilə əfvi-ümuminin, kənd yerlərindən olan siyasi məhbuslara da tətbiq edilməsi qəbul olunmuşdu.

Səfikürdski Azərbaycanın Cümhuriyyəti 3-cü hökumət kabinəsində poçt-teleqraf və əmək naziri, 4-cü kabinədə isə ədliyyə və əmək naziri vəzifəsini tutmuşdur. Onun təşəbbüsü ilə respublikanın ayrı-ayrı bölgələrindəki poçt-teleqraf müəssisələrində əməliyyat və poçt daşınmaları işləri bərpa edilmiş, telefon danışıq məntəqələri istismara buraxılmışdı. Sofikürdski rabitə sahəsində kadr hazırlanması işinə də xüsusi diqqət verirdi. Məhz onun səyi nəticəsində 1919 ildə Bakıda xüsusi poçt-teleqraf məktəbi fəaliyyət göstərməyə başladı. Onun qonşu dovlətlərlə rabitə işlərinin qaydaya salınmasında və inkişaf etdirilməsində böyük xidmətləri olmuşdur. Nazir olduğu dövrdə üzərində Azərbaycan dövlətinin nişanları olan poçt markaları buraxılmağa başladı. Səfikürdski ədliyyə sisteminin işinin təkmilləşdirilməsi sahəsində vacib tədbirlər həyata keçirmişdir. Onun göstərişi ilə nazirliyin nəzdində Azərbaycanda ilk dəfə olaraq hüquq elmi üzrə mükəmməl kitabxananın təşkilinə, Azərbaycan Məhkəmə palatası nəzdində andlı müvəkkillər şurasının yaradılmasına başlanmışdı. Milli kadrların ədliyyə sisteminə daha çox cəlb edilməsi də Səfikürdskinin diqqət mərkəzində olmuşdur. Məhkəmə orqanlarına qəbul edilən şəxslərin dövlət dilini bilməsi zəruri idi. ***"Xalq məhkəməyə deyil, məhkəmə xalqa xidmət etməlidir"*** deyən Səfıkürdski yerli dairə məhkəmələri şəbəkələrinin genişləndirilməsinə çalışırdı. Həmin məhkəmələri yaşayış məntəqələrinə yaxınlaşdırmaq məqsədilə Səfikürdski Cümhuriyyət ərazisində üç yeni dairə məhkəməsinin (Şəki, Şuşa və Kürdəmirdə) açılmasına nail olmuşdu. Cinayətin profilaktikası, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində mühüm tədbirlər görmüşdü. Səfıkürdski 1919 ilin iyunundan Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Müdafıə Komitəsinin, 1920 ilin yanvarından Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın üzvü idi. 1920 ildən öz fəaliyyətini əsasən Parlamentdə davam etdirən Səfıkürdski fevralın 5-də maliyyə-büdcə komissiyasının üzvü seçilmişdi. Paris Sülh Konfransının Ali Şurası tərəfindən Azərbaycanın suverenliyinin "de-fakto" tanınması münasibətilə sosialist fraksiyası və bütün Azərbaycan zəhmətkeşləri adından parlamenti təbrik etmişdir. Azərbaycanı xarici ölkələrdə təmsil etmək üçün səfirliklərin ilk növbədə Şərq ölkələrində, xüsusilə Yaponiyada, Çində, Əfqanıstan və Türkiyədə açılmasını təklif etmişdi. O, həmçinin ilk növbədə Rusiyada səfirliyin açılması fikrini irəli sürmüş və fikrini oradakı azərbaycanlıların hüquqlarının müdafıəyə ehtiyacı olması ilə əsaslandırmışdı. 1920 il aprelin 27-də Parlament müşavirəsi tərəfindən seçilmiş fövqəladə səla-

downloaded from KitabYurdu.az

hiyyətli nümayəndə heyətinin üzvü kimi bolşeviklərlə hakimiyyət haqqında danışıqlar aparmışdır. Danışıqlarda Səfikürdski təslimçi mövqe tutmuşdu. Həmin gün parlamentdəki çıxışında bildirmişdi ki, ***"Biz Azərbaycan kommunistlərinin təklifini rədd etməyib qəbul etməli, hakimiyyəti və bununla birlikdə millətin ixtiyarını onlara verməliyik...Hərgah onlar istiqlaliyyəti müdafiə edə bilməzlərsə, onda camaat özü müdafiə edər və öz istədiyinə nail olar".*** *Aprel işğalından (1920)* sonra A.Səfikürdski Azərbaycan SSR xalq ədliyyə komissarının müavini işləmişdir. Lakin 1922 ildə həbs edilmiş, "eser partiyasının Zaqafqaziya təşkilatının işi" adlı ittihamla 3 il azadlıqdan məhrum edilmişdir. Həbsdən azad edildikdən sonra Səfikürdski "Azərneft" sistemində hüquq məsləhətçisi işləsə də, daim təqiblərə məruz qalmışdır.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti. Parlament (stenoqrafik hesabatlar), c.1-2, B., 1998, Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Çıraqzadə V., Aslan bəy Səfikürdski, B., 1994.

**SƏHİYYƏ NAZİRLİYİ,** Azərbaycan Xalq Cümhuriyyətinin Səhiyyə Nazirliyi- Azərbaycan Xalq Cümhuriyyətində ölkənin səhiyyə sisteminin yaradılmasına və fəaliyyətinə rəhbərlik edən ali icra orqanı. 1918 il iyunun 17-də Fətəli xan Xoyski tərəfından Gəncədə təşkil edilmiş 2-ci hökumət kabinəsində Xalq Səhiyyəsi və Himayədarlıq Nazirliyi adı ilə təsis edilmişdir. Doktor Xudadat bəy *Rəfibəyli* Azərbaycan Xalq Cümhuriyyoti Hökumətinin ilk səhiyyə və himayədarlıq naziri təyin olunmuşdur.

1918 ilin sentyabrında Bakı Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* tərəfındən azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncədən Bakıya köçdü və oktyabrın 6-da F.x.Xoyskinin 2-ci hökumətində dəyişikliklər edildikdə Səhiyyə Nazirliyi müstəqil nazirliyə çevrildi və X.Rəfıbəyli səhiyyə naziri təyin olundu. Himayədarlıq və dini etiqad işləri isə ayrıca nazirlikdə birləşdirildi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti işə başladıqdan (1918, dekabr) sonra Parlamentin tapşırığı ilə F.x.Xoyskinin təşkil etdiyi 3-cü hökumət kabinəsində xalq səhiyyə naziri vəzifəsi *Y.Gindesə* həvalə olundu. 1919 il aprelin 14-də Nəsib bəy *Yusifbəylinin* təşkil etdiyi 4-cü hökumət kabinəsində səhiyyə naziri vəzifəsinə *A.Dostakov,* 1919 il dekabrın 24-də yenə N.Yusifbəylinin təşkil etdiyi 5-ci hökumət kabinəsində isə Musa *Rəfiyev* təyin olundu.

Gəncədə fəaliyyətə başlayan Səhiyyə Nazirliyi Gəncə şəhəri və Gəncə quberniyası ərazisindəki müalicə müəssisələrinin bina və avadanlıqlarını qeydiyyata aldı və səhiyyə müəssisələrinin işi üzərində nəzarət yaratdı. 1918 ilin sentyabrında Qafqaz İslam Ordusu tərəfindən Bakı azad olunduqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə Bakıya köçən Səhiyyə Nazirliyi Bakı şəhərində Bakı quberniyasına tabe olan səhiyyə müəssisələrini də nəzarətə götürdü. Səhiyyə Nazirliyi fəaliyyətə başladığı ilk günlərdən ölkədə səhiyyə işini təşkil etməklə, əhalinin sağlamlığına mənfi təsir göstərən antisanitariyaya qarşı ciddi mübarizə aparmaqla, yoluxucu xəstəliklər, ağır epidemiyalar əleyhinə profilaktik tədbirlər həyata keçirməyə başladı. Səhiyyə Nazirliyində bu sahədə qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün təkliflər hazırlamaq məqsədilə mütəxəssislərdən ibarət xüsusi komissiya yaradılmışdı.

Azərbaycan əyalətlərində doğma yurd-yuvalarını tərk etməyə məcbur olmuş qaçqınların çoxluğu və onların yaşayışı üçün normal şəraitin olmaması yoluxucu xəstəliklərin artmasına səbəb olurdu. Belə bir vaxtda Səhiyyə Nazirliyi tərəfındən qaçqınlarm daha çox olduğu yerlərdə yoluxucu xəstəliklərlə mübarizə üçün əlavə 15 yeni həkim nəzarəti dəstələri yaradılmışdı.

Səhiyyə Nazirliyinin aparatı 5 funksional şöbədən ibarət idi: şəhər və məhkəmə tibb müəssisələri; qəzalarda kənd səhiyyə müəssisələri; tibbi statistika; əczaçılıq və baytarlıq şöbələri.

Şəhər və məhkəmə tibb müəssisələri şöbəsi şəhərlərdə hökumətin tabeliyində olan səhiyyə müəssisələrinə rəhbərlik edir, onları lazımi tibbi xidmət heyəti vəsait və avadanlıqlarla təmin edir, şəhərlərdə hakimləri və məhkəmə tibbi ekspertlərini seçir, onların işinə nəzarət edirdi. Bundan əlavə, şöbə Xəzərətrafı ərazilərdə yoluxucu xəstəliklərə qarşı karantin işlərinə də rəhbərlik edirdi.

Qəzalarda kənd səhiyyə müəssisələri şöbəsi bütün kənd rayonlarındakı xəstəxanaları lazımi avadanlıq və tibb xidməti personalı (həkimlər, feldşerlər) ilə təmin edirdi. Cümhuriyyət dövründə kənd yerlərində Səhiyyə Nazirliyinə tabe olan 33 kənd xəstəxanası var idi. Onların hərəsində 1 həkim, 2 feldşer və xidmətçi qadınlar işləyirdi. Bu tibbi heyət 6 çarpayılıq kənd xəstəxanalarında xəstələrə xidmət edir, ambulator müalicəyə ehtiyacı olanlara isə pulsuz tibbi yardım göstərirdi. Tibbi statistika şöbəsi nazirlik sistemində olan bütün tibbi müəssisə və məntəqələrdə əhaliyə tibbi xidmət və müxtəlif xəstəliklərə aid məlumatları toplayaraq təhlil edir, ümumiləşdirərək nəticəsini şəxsən səhiyyə nazirinə çatdırırdı. Bu şöbədə aparılan düzgün statistik hesabat ölkədə xəstəliklər haqqında dəqiq məlumatlar əldə etməyə, epidemiya və digər xəstəliklərə qarşı vaxtında mübarizə üçün tədbirlər görməyə imkan verirdi.

Əczaçılıq şöbəsi bütün dövlət tibb müəssisələrini lazımi dərman və tibb avadanlıqları ilə təmin etməli idi. Bunun üçün dövlət aptek anbarı, laboratoriyası və s. yaradılmışdı. Baytarlıq şöbəsi isə ölkədəki bütün baytarlıq-sanitariya işlərinə, baytarlıqla məşğul olan müəssisələrə və baytar həkimlərinin fəaliyyətinə nəzarət edirdi. Şəhər və kənd səhiyyə şöbələrinə, statistika şöbəsinə bilavasitə həkimlər, əczaçılıq şöbəsinə əczaçı-provizor, baytarlıq şöbəsinə isə baytar həkimi rəhbərlik edirdi. Şöbələrin işini Səhiyyə Nazirliyi özü nəzarətdə saxlayırdı. Şöbələr hər gün hazırladıqları ətraflı məlumatları şəxsən nazirə təqdim edirdilər.

Nazir müavini ilə birlikdə şöbə müdirləri nazirin şurasını təşkil edirdi. Nazirin şurası ölkədə səhiyyə işinin və əhaliyə tibbi xidmətin yaxşılaşdırılması barədə hazırlanmış layihələrə və təkliflərə baxaraq bəyənir, sonra isə həmin məsələlər baxılmaq üçün Nazirlər Şurasına və ya Parlamentə təqdim olunurdu. Bundan əlavə, Səhiyyə Nazirli-

downloaded from KitabYurdu.az

yində nazirliyin dəftərxanası və mühasibat bölməsi də fəaliyyət göstərirdi.

Səhiyyə Nazirliyi öz fəaliyyətinin son dövrlərində yaxın gələcəkdə, xüsusilə 1920 ildə kənd yerlərində əhaliyə tibbi xidməti yaxşılaşdırmaq məqsədi ilə qəzalarda kənd xəstəxanalarının sayını iki dəfə artırmağı nəzərdə tuturdu. Həmin ildə Azərbaycan ərazisini Səhiyyə Nazirliyinə tabc olan 6 dairə müfəttişliyinə bölmək planlaşdırılırdı. Hər dairəyə rəhbərlik edəcək müfəttiş öz dairəsində olan tibb müəssisələrinin və onların heyətlərinin fəaliyyətinə rəhbərlik etməli idi. Digər tərəfdən, nazirlik ölkənin zəruri dərman preparatları ilə təchizi, hökumət və ictimai tibb müəssisələrinin dərmanla təminatı işini mərkəzləşdirməyi planlaşdırırdı. *Aprel işğalı (1920)* nəticəsində nazirliyin fəaliyyətini dayandırması bu planların yerinə yetirilməsinə imkan vermədi.

*Əd.:* Адрес-календарь *Азербайджанской Республики на* 1920 гг. Б., 1920.



**SƏİDZADƏ** Mir İsmayıl Səid Əhməd oğlu (30.1.1896, Lənkəran - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentin xüsusi qərargahı (bax xaricə *təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Lənkəran kişi gimnaziyasını bitirmiş (1917), Kiyev Politexnik İnstitutunun elektrotexnika şöbəsində 2-ci kursa dək oxumuş, lakin maddi çətinlik üzündən təhsilini davam etdirə bilməmişdi. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Səidzadənin təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**SƏLİMOV** Həbib bəy Hacı Yusif oğlu (1881-1920) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru. 1918 il martın 14-dən *Müsəlman korpusunda* xidmətə başlamışdır. Səlimov Müsəlman korpusu qərargahında məsul vəzifədə işləmiş, hərbi nizamnamələrin təkmilləşdirilməsi üzrə komissiyanın üzvü olmuşdur. Sonradan korpusun üç süvari alayından ibarət süvari briqadasının qərargah rəisi təyin edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Səlimov *Qafqaz İslam Ordusunun* (QİO) tərkibində daşnak-bolşevik qoşunlarına qarşı döyüşlərdə fəal iştirak etmişdir. 1918 il iyunun evvəllərində o, Bakı-Gəncə dəmir yolu xətti boyunca irəliləyən daşnak-bolşevik qoşunlarının hücumunu dəf etmək üçün Ucar ətrafına göndərilmişdi. Azsaylı milli qüvvələr burada mövqe tutmuşdular. Səlimov vəziyyəti ətraflı öyrənmiş, təklif və mülahizələrini 1918 il iyunun 11-də QİO-nun və Müsəlman korpusunun komandirinə çatdırmışdı. İyunun 27-də Müsüslü stansiyası ətrafında olan qüvvələr Müsüslü dəstəsində birləşdirildi və Səlimov onun komandiri təyin edildi. Dəstə Müsüslü, Kürdəmir və Karrar ətrafındakı döyüşlərdə daşnak-bolşevik hərbi birləşmələri üzərində parlaq qələbə qazandı. 1918 il iyulun ortalarında Müsüslü dəstəsinin bazasında Cənub qrupu yaradıldı və Həbib bəy bu qrupun komandiri vəzifəsində saxlanıldı. Cənub qrupu Bakı ətrafına qədər şərəfli döyüş yolu keçdi. QİO-nun komandanı Nuru paşanın 1918 il 13 avqust tarixli əmri ilə Əlahiddə Azərbaycan Korpusunun yenidən qurulmasına başlandı. Həmin gün Səlimov Cənub qrupundan Gəncəyə geri çağırılmış, korpusun formalaşdırılmasına cəlb edilmiş, onun qərargah rəisi olmuş, 1918 il noyabrın 15-də hərbi nazirliyinin 2 nömrəli əmrilə Səlimov Azərbaycan ordusunun Ümumi qərargahının və nazirliyin dəftərxanasının rəisi təyin edilmişdi. Səlimov həmçinin, nazirlik üzrə yaradılmış bir sıra komissiyaların, Böyük və Kiçik Hərbi şuraların üzvü idi. O, *Praporşiklər məktəbində,* sonra isə *Hərbiyyə məktəbində* taktikadan dərs demişdir, 1919 il fevralın 28-də Nazirlər Şurasının qərarı ilə Həbib bəy general-mayor rütbəsinə layiq görülmüşdür. H.Səlimov 1919 il avqustun 13-dən sentyabrın 3-nə qədər davam edən *Lənkəran əməliyyatına (1919)* rəhbərlik etmişdir. Onun qətiyyətli, düşünülmüş manevrləri nəticəsində Lənkəran bölgəsində Azərbaycanın suverenliyi bərpa olunmuşdu.

1919 il dekabrın 10-da Səlimov Bakı İstehkamçılar hissəsinin rəisi təyin edilmiş, bu vəzifədə Bakı ətrafının müdafiəsinin möhkəmləndirilməsi sahəsində mühüm tədbirlər həyata keçirmişdi. 1920 il fevralın 17-də Səlimov hərbi nazirin əmri ilə Azərbaycan ordusu qərargahının yenidən qurulması üçün yaradılmış komissiyanın sədri təyin edildiyindən, fevralın 20-də Bakı İstehkamçılar hissəsinin rəisi vəzifəsindən azad olunmuş, Azərbaycan ordusunun vahid qərargahının yaradılmasından sonra onun rəisi təyin edilmişdi.

Həbib bəy Səlimovun başlıca xidmətlərindən biri 1920 ilin mart-aprel aylarında uğurla keçirilmiş Qarabağ əməliyyatıdır. Bu əməliyyat zamanı dövlətə xəyanət edərək, silahlı qiyam qaldırmış erməni-daşnak silahlı birləşmələrinə ağır zərbə vuruldu (bax *Qarabağ əməliyyəti).* Həbib bəy Səlimov *Aprel işğalından (1920)* sonra ordu sıralarından istefa versə də, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun generalı kimi sovet orqanları tərəfindən həbs edilmiş və güllələnmişdir.

*Əd.:* Süleymanov M., Mehmandarov, B., 2000.

**SƏLİMOV** Hüseynqulu Yusif oğlu (9.10.1889, Bakı - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə gondərilməsi nəzərdə tutulmuş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmiş (1909), Xarkov Texnologiya İnstitutunun kimya şöbəsində 3-cü kursadək oxumuşdur. Lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxıb geri qayıtmağa məcbur olmuşdu. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, Hüseynqulu Səlimovun təhsilini kimya sahəsində davam etdirməsi üçün Rusiyaya göndəriləcək tələbələrin siyahısına salınmışdı. Lakin Vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürək

downloaded from KitabYurdu.az

kəb vəziyyətdə oraya tələbə göndərmək baş tutmamışdır. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**SƏMƏD MƏNSUR,** Səməd Hacı Əhməd oğlu Kazımzadə (1879, Bakı - 3.1.1927, Bakı) - şair, naşir, jurnalist, teatr xadimi. Mollaxanada və rus-tatar məktəbində oxumuşdur. "İqbal", dövlət mətbəəsinin direktoru idi. Mətbəədə təkcə qəzet və jurnallar deyil. Bir sıra kitablar (o cümlədən Məhəm-Əlabbas Müznib, Abdulla Şaiq və b. müəlliflərin əsərləri) da nəşr edilirdi. Burada işlədiyi müddətdə o, ölkədə nəşriyyat işinin təşkilinə və canlanmasına nail olmuşdu. 1918-19 illərdə satirik "Şeypur" jurnalını nəşr etdirmişdir. Cəmi 13 sayı işıq üzü görən jurnalın rəsmi redaktoru Məmmədəli Sidqi idi. "Molla Nəsrəddin" ənənələrindən bəhrələnən jurnalın işində başqa müəlliflərə yanaşı, Ə.Müznib və Cəfər Cabbarlı da iştirak edirdilər. Jurnalın başlıca satira hədəflərindən biri də daşnak-erməni si-lahlı dəstələrinin Qarabağda törətdikləri vəhşiliklərin ifşası idi ("Erməni yuxusu", 1919, № 13). Səməd Mənsurun "Şeypur"da çap etdirdiyi silsilə publisistik yazılarda ("Ziyalılarımız") yeni gerçəklik qarşısında çaş-baş qalmış, milli oyanışa, tərəqqiyə və islahatlara biganə, başdan-başa rus ifadələri ilə danışan üzdəniraq ziyalılar tənqid olunurdu.



Səməd Mənsur Azərbaycan Xalq Cümhuriyyətinin rəhbər xadimlərindən çoxunu şəxsən tanımış, onlarla yaradıcılıq və dostluq əlaqəsi saxlamışdır. O, Cümhuriyyət hökumətinin rəsmi tədbirlərində iştirak etmiş, yaxın dostu, məşhur aktyor Hüseyn Ərəblinskinin ölümünə şer həsr etmişdi. Seyid Hüseynin rəhbərliyi ilə 1919 ildə Bakıda yaradılmış "Yaşıl qələm" cəmiyyətinin fəxri üzvlərindən idi.

Məşhur "Həpsi rəngdir" fəlsəfi şerinin müəllifi olan Səməd Mənsur Sovet dövründə yazdığı satirik şerlərində ("Bacıoğlunun dayıya ərizəsi", "Dayının bacıoğluna cavabı", "Mənim" kəlməsi" və s.) Mirzə Ələkbər Sabir ənənələrini yeni şəraitdə davam etdirərək, sovet quruluşunun eybəcərliklərini cəsarətlə tənqid atəşinə tutmuş, müstəmləkə olmaq, talanmaq dərdlərini qələmə almışdır. Pyesləri də var. Səməd Mənsur 1925 ildo yazdığı "Oğlum Əhməd Tofiqə vəsiyyətim" (görkəmli rejissor, xalq artisti Tofıq Kazımov nəzərdə tutulur - *red.)* şerində uzaqgörənliklə və inamla deyirdi:

*Bizim də ölkədə Əhməd, gələr bir öylə zaman*
*Hüquqa malik olar millət, güllər vələnim...*
*O gün məzarıma qoş! Sanma bir ovuc xakim*
*O gün vürudunu gözlər o xaki-qəmnakim.*

Ə s ə r l ə r i: "Deyilən söz yadigardır" kitablarında (toplayanı və tərtib edəni Cəfər Rəmzi İsmayılzadə), B., 1981, 1987; Həpsi rəngdir (tərtib edəni və ön sözün müəllifi Anar), B., 1993.

Əd.: Ələkbərli N.. Bir ömrün rəngləri, B., 2000; Sona Xəyal, Əlabbas Müznib Bakı və bakılı şairlər haqqında, B., 2003.

**SƏMƏDAĞA AĞAMALIOĞLU** dövlət xadimi, maarifçi-publisist. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində sosialistlər fraksiyasının lideri olmuşdur (bax *Ağamalıoğlu* Səmədağa).

**SƏNƏTULLA** - mətbuat xadimi, naşir, redaktor, publisist. Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Azərbaycan" qəzetinin redaksiyasında işləmiş, qəzetin aparıcı müəlliflərindən biri olmuşdur (bax *Eynullayev* Sənətulla İbrahim oğlu).

**SƏRHƏD KEŞİKÇİ DƏSTƏSİNİN TƏŞKİL OLUNMASI HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti sərhəd keşikçi dəstəsinin təşkil olunmasını təmin edən sənəd. 1919 il martın 10-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən qəbul edilmişdir. Qərarda maliyyə nazirinə Azərbaycanda sərhəd keçikçi dəstəsinin təşkilinə dair layihəni hökumətin müzakirəsinə təqdim etmək, Daxili İşlər Nazirliyinə isə həmin məsələnin qanun-vericilik qaydasında həllinə qədər Muğan ərazisində Azərbaycanın İranla sərhədlərinin mühafizəsi üçün 200 atlıdan ibarət keşikçi dəstəsi təşkil etmək tapşırılmışdı.

**SƏRHƏD MÜHAFİZƏSİNİN TƏSİS EDİLMƏSİ HAQQINDA QANUN** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qəbul etdiyi mühüm qanunlardan biri. 1919 il avqustun 18-də qəbul edilmişdir. Səkkiz bənddən ibarət olan qanunda Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərinin mühafızəsi və qaçaqmalçılıqla mübarizə məqsədi ilə 99 sərhəd postu və bununla əlaqədar bir sıra vəzifələr təsis olunması nəzərdə tutulurdu. Bütün sərhədyanı təşkilatlara rəhbərlik etmək və gömrük işi ilə məşğul olan idarələrlə birgə fəaliyyəti razılaşdırmaq və nizamlamaq məqsədilə mərkəzi orqan kimi Maliyyə Nazirliyinin dəftərxanasında xüsusi sərhəd mühafızəsi şöbəsi yaradılmışdı.

**SXAKAYA** Qriqori İvanoviç (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusamnın təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, gürcü əhalisindən Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdi.

**SIĞNAQ QƏZASI** - *Tiflis quberniyasında* inzibati-ərazi vahidi. Çar Rusiyasının Cənubi Qafqazda təcavüzkarlıq siyasəti 19 əsrin başlanğıcında yeni mərhələyə qədəm qoydu. I Aleksandrın 1801 il 12 sentyabr Manifesti ilə Kartli-Kaxeti çarlığı ləğv olundu və Rusiyaya birləşdirildi. 1802 il mayın 8-də Tiflisdə Gürcüstanın Ali hökuməti fəaliyyətə başladı. Köhnə pristavlıqlar (samonravo) yeni qəza inzibati vahidləri ilə əvəz edilməyə başladı. Kartli-Kaxeti beş qəzaya bölündü. Onlardan biri də Sığnaq qəzası idi. 1840 il 10 aprel islahatı zamanı Cənubi Qafqazda Gürcü-İmereti quberniyası və Kaspi vilayəti təşkil olundu. 1846 ildə isə onların əvəzinə Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyaları yaradıldı və Sığnaq qəzası Tiflis quberniyasına daxil edildi. 19 əsrin sonlarında Sığnaq qəzasında (mərkəz Sığnaq şəhəri) dörd polis sahəsi (Bakursix, Kodaloy, Maçxaan, Şirok) var idi. Sonralar beşinci polis sahəsi - Zaalazan yaradılmışdı. 1917 il Qafqaz təqviminin məlumatına görə, Sığnaq qəzasının ərazisi 5291,79 *kv.verst* (6032,65 *kv.km)*

downloaded from KitabYurdu.az

idi. Sığnaq şəhərində 17662 nəfər (10101 kişi, 7561 qadın) yaşayırdı. Qəza əhalisi isə 136202 nəfər (70569 kişi, 65633 qadın) idi. Qəza əhalisinin 5137 nəfərini (3,8%) müsəlmanlar təşkil edirdi. Sığrıaq qəzası tərkibindəki Şirək və Eldar çölləri azərbaycanlılara məxsus olan geniş və mühüm otlaq sahələri idi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti ərazisini və sərhədlərini müəyyən edərkən Sığnaq qəzasının beşinci sahəsini Gürcüstanla mübahisəli ərazilərə daxil etmişdi. Tarixən həmişə Azərbaycanın tərkibində olan bu ərazi Gəncə-Qazax düzənliyi və Zaqatala dairəsi əhalisi üçün böyük təsərrüfat əhəmiyyətinə malik olan qışlaq yerləri idi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu ərazi məsələsini həll etməyə imkan vermədi. Azərbaycanın, sonra isə Gürcüstanın sovetləşməsindən sonra Sığnaq qəzası, Azərbaycan tərəfinin rəsmi razılığı olmadan, demək olar, bütünlüklə Gürcüstan SSR-nin tərkibinə qatıldı.

*Əd.:* Адрес-календарь *Азербаиджанской Республики на* 1917 гг., Б., 1916; Очерки истории Грузии, т., 5 Тбилиси, 1990: Шепотьев А. Доклад о спорных Кавказских территориях, на которые права самоопределившиеся Азербаиджанские тюрки, Известия АН Азербаиджанской ССР (серия истории, философии и права), 1990, № 2.

**SİDQİ,** Məhəmməd Tağı Kərbəlayi Səfər oğlu Səfərov (22.3.1854, Ordubad - 9.12.1903, indiki Şərur rayonunun Qarabağlar kəndi) - görkəmli maarif xadimi, pedaqoq, şair, publisist. Ordubadda mollaxanada, mədrəsədə və Səbzivarda (İran) təhsil almışdır. Yeniyetmə ikən Ordubad ipək fabriklərində fəhlə işləmiş, 19 əsrin 70-ci illərində ticarətlə məşğul olmuşdur. Bir müddət Bakıda neft mədənlərində işləmişdir. 1885 ildə Ordubada qayıdaraq, dükan açmış, "çayçılıqla güzaran keçirmişdir". Sidqinin dükanı maarifçilik, milli dirçəliş və tərəqqi ideyalarını təbliğ edən mərkəzə çevirilmişdi. Burada Şərq ölkələrində, Rusiyada çıxan qəzetlər alınıb oxunur, maarif və mədəni tərəqqi məsələləri müzakirə olunurdu.



Sidqi 1892 ildə Ordubadda "Əxtər" adlı üsulu-cədid məktəbi açmaqla, bütün istedadını doğma şəhərində xalq maarifının inkişafı ilə bağlamışdır. O, 1894 ildə Naxçıvana dəvət olunaraq, burada "Tərbiyə" ("Məktəbi-Tərbiyə") məktəbini təsis etmiş, xalq müəllimi kimi tanınmışdır. Ədəbi-mədəni tədbirlərin, teatr tamaşalarının təşkilində yaxından iştirak etmişdir.

Sidqinin maarifçilik fəaliyyətinin əsasında milli dirçəliş və siyasi müstəqillik uğrunda mübarizə dururdu. O, məqalələrinin birində assimiliyatorların təzyiqi altın yad təsirlərə məruz qalmış ana dilini və ədəbiyyatını milli zəmində inkişaf etdirmək zərurətini irəli sürürdü. Ana dilini millətin varlığının əsas əlaməti və tərəqqinin başlıca vasitəsi sayan Sidqi ərəb, fars və rus dilinin təsiri altında milli müstəqilliyini itirmək təhlükəsilə qarşılaşan türk dilini yad təsirlərdən qorumaq, daxili imkanları hesabına zənginləşdirib xalqın xidmətinə verməyə çağırırdı. Sidqi mühüm elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin ("Nümuneyi-əxlaq", "Töhveyi-bənat, yainki Qızlara hədiyyə", "Müxtəsər coğrafiya risaləsi" və s.) müəllifidir. Müntəzəm surətdə bədii yaradıcılıqla məşğul olmuşdur. Ordubadda fəaliyyət göstərən "Əncüməni-şüəra" ədəbi məclisinin fəal üzvlərindən idi. Pedaqoji fəaliyyəti ilə bilavasitə bağlı olan ədəbi irsi qəzəllərdən (300-dən çox), "Məsnəviyyati-mənəviyyə" adlı iri həcmli mənzumədən, Kəblə Nəsir mənzum hekayətindən, "Heykəli-insanə bir nəzər" ədəbi-fəlsəfi traktatından (1912 ildə kitab halında çap edilmişdir) və 20-dən çox hekayədən ibarətdir. Məktəb hekayələri kimi tanınan bu əsərlərdə o, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, yüksək mənəvi-əxlaqi keyfiyyətləri təbliğ etmişdir. Sidqi publisistika sahəsində də fəaliyyət göstərmiş, "Tərcüman" (Baxçasaray), "Əxtər" (İstanbul), "Həblülmətin" (Kəlkətə), "Kaspi", "Nasiri" (Təbriz) və s. qəzetlərlə yaxından əməkdaşlıq etmişdir.

Əsərləri: Seçilmiş pedaqoji əsərləri, B., 1967; Əsərləri, B., 2004.

*Əd.:* Mollayev İ., M.T.Sidqinin pedaqoji görüşləri, B., 1997; Qədimov Ə., Məhəmməd Tağı Sidqi, B., 2004; Эйвазов Я. Мамед Таги Сидги, Б., 1986.

**SİDQİ,** Məmmədəli Məhəmməd Tağı oğlu Səfərov (1888, Ordubad - 1956, Sumqayıt) - müəllim, jurnalist, yazıçı-publisist. Məşhur şair və pedaqoq Məhəmməd Tağı Sidqinin oğludur. Naxçıvanda "Məktəbi-Tərbiyə"də və şəhər məktəbində oxumuşdur. Naxçıvan şəhər rus-müsəlman məktəbində, Qıvraq, Şahtaxtı və Qahab kənd ibtidai məktəblərində müəllim işləmişdir. 1910 ildə Cəlil Məmmədquluzadənin dəvəti ilə Tiflisə gələrək, "Molla Nəsrəddin" jurnalının müvəqqəti redaktoru (13.11.1910- 16.3.1911) vəzifəsini icra etmişdir. 1911 ildə Bakıya köçmüş, *"Nəşri-maarif"* cəmiyyətinin Bülbülə kəndində açdığı məktəbdə işləmişdir. Bakıda atasının əlyazması halında qalan "Kəblə Nəsir" mənzum hekayəsini, "Puşkin" və "Heykəli-insanə bir nəzər" adlı elmi-publisist əsərlərini "Kaspi" mətbəəsində kitabça halında buraxdırmışdır. "Həyat", "İrşad", "Molla Nəsrəddin", "İqbal" və s. jurnal-qəzetlərdə məqalələr dərc etdirmişdir. 1916-17 illərdə "Sovqat", 1918 ildə "Açıq söz" qəzetində mütərcim, Bakı aktyorlar ittifaqında katib və suflyor işləmişdir. 1918 ilin may-avqust aylarında bir qrup artistlə Həştərxanda qastrol səfərində olmuşdur. 1919 ilin sentyabrından Azərbaycan qəzetində mütərcim, Parlamentdə katib vəzifələrində çahşmışdır.



Azərbaycan Xalq Cümhuriyyəti dövründə şair *Səməd Mənsurla* həftəlik satirik *Şeypur* (1918-19) jurnalını nəşr etdirmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Dövlət Teatr truppasında inzibatçı və suflyor, "Kommunist" qəzeti redaksiyasında mütərcim kimi fəaliyyət göstərmiş, Azərbaycan zəhmətkeş ədib və şaiıiər ittifaqının katibi olmuşdur. Əsasən, "Kommunist" qəzetinin redaksiyasında çalışan Məmmədəli Sidqi jurnalist kimi böyük nü-

downloaded from KitabYurdu.az

fuz qazanmışdır. Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və başqaları haqqında xatirələr yazmışdır.

*Əd.:* Axundov N., "Molla Nəsrəddin" jurnalının nəşri tarixi, B., 1959; Müasirləri Sabir haqqında, B., 1962; Şərif Ə., Keçmiş günlər, B., 1977; Mirəhmədov Ə., Azərbaycan Molla Nəsrəddini, B., 1980; Məmmədli Q., Molla Nəsrəddin (Salnamə), B., 1984; Həbibbəyli L, Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.

**SİDQİ RUHULLA,** Ruhulla Fətulla oğlu Axundov (28.3.1886, Bakı yaxınlığındakı Buzovna kəndi - 5.5.1959, Bakı) görkəmli aktyor, teatr xadimi. Azərbaycan peşəkar teatr sənətinin banilərindən biri. SSRİ xalq artisti (1949). SSRİ Dövlət mükafatı laureatı (1948). Müəllim ailəsində doğulmuşdur. Səhnə fəaliyyətinə 1908 ildə Nəcəf bəy Vəzirovun "Adı var, özü yox" komediyasında Telli rolu ilə başlamışdır. Hüseyn Ərəblinskinin truppasında Rüstəm bəy ("Müsibəti-Fəxrəddin", Nəcəf bəy Vəzirov) rolunda uğurla çıxış etmiş, bu truppa ilə birlikdə İrəvan, Naxçıvan, Tiflis, Batum və Vladiqafqazda qastrol səfərlərində olmuş, sonralar Cənubi və Şimali Qafqaz, Orta Asiya və Cənubi Azərbaycan şəhərlərində, Rəştdə (İran) yerli səhnə həvəskarları ilə birlikdə tamaşalar hazırlamışdır. Təbrizdə milli teatrın (1909) yaradıcılarından olan Sidqi Ruhulla Tiflis Azərbaycan Teatrının inkişafında da mühüm xidmət göstərmişdir. 1916 ildə Daşkənddə Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarını tamaşaya qoymuş, özbək musiqili dram teatrının inkişafı üçün zəmin hazırlamışdır. Sidqi Ruhulla yaradıcılığının ilk dövründə Qacar, Fərhad və Hacı Səməd ağa ("Ağa Məhəmməd şah Qacar", "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Nadir şah ("Nadir şah", Nəriman Nərimanov), Foxroddin ("Müsibəti-Fəxrəddin", N.Vəzirov), Şeyx Nəsrullah ("Ölülər", Cəlil Məmmədquluzadə), bələdiyyə rəisi ("Müfəttiş", N.V.Qoqol), Frans, Vilhelm Tell ("Qaçaqlar", "Vilhelm Tell", F.Şiller) kimi müxtəlif xarakterli obrazlar yaratmışdır. 1913 ildə Moskvaya gedərək, rus səhnə xadimlərinin sənətkarlıq xüsusiyyətlərini öyrənmiş, həmin il Ümumrusiya Teatr Cəmiyyətinə üzv qəbul olunmuşdur.



Azərbaycan Xalq Cümhuriyyəti dövründə mədəni həyatda yaxından iştirak edən Sidqi Ruhulla coşğun yaradıcılıq fəaliyyətini davam etdirmiş, Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları teatr truppasının, sonra isə Azərbaycanın Dövlət Teatrının (1919) aparıcı aktyorlarından olmuş, səhnəyə qoyulan tamaşalarda baş rolları oynamışdır. Bu dövrdə Azərbaycan teatrının təşəkkülündə, aktyorların peşəkarlıq səviyyəsinin artmasında və püxtələşməsində Sidqi Ru-hullanın böyük xidməti olmuşdur.

Sidqi Ruhulla 1924 ildən ömrünün sonuna qədər Azərbaycan Döviət Akademik Milli Dram Teatrında işləmişdir. Onun Azərbaycan, rus və Qərbi Avropa dramaturqlarının əsərlərinin tamaşalarında yaratdığı obrazlar [Qurban, Nəcəf bəy ("Pəri-cadu", "Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Rüstəm, dərviş ("Səyavuş", "Şeyx Sənan", Hüseyn Cavid), Atakişi, Əbu Übeyd və Altunbay, İbad, ("Sevil", "Od gəlini", "Almas", Cəfər Cabbarlı), Süleyman ("Həyat", Mirzə İbrahimov), Dikoy ("Tufan", A.Ostrovski), Yaqo, Banko ("Otello", "Makbet", Uilyam Şekspir)] və s. Azərbaycan teatrı tarixində mühüm yer tutur. Onun ifasındakı Qacar (Vaqif, Səməd Vurğun) və Lir ("Kral Lir", U.Şekspir) obrazları diqqətəlayiqdir. Sidqi Ruhulla 300-dən artıq səhnə obrazı yaratmışdır. Zəngin həyat təcrübəsinə, geniş müşahidə qabiliyyətinə malik sənətkar olan Sidqi Ruhullanın ifası üçün obrazı bütün incəliklərinədək psixoloji dərinliklə açıb göstərmək məharəti səciyyəvi idi. Yaradıcılığında romantik və realist teatr ənənələri üzvi surətdə birləşmişdi. Bir çox Azərbaycan aktyorlarının yetişməsi və inkişafında Sidqi Ruhullanın mühüm xidməti var.

İlk Azərbaycan kino aktyorlarından olan Sidqi Ruhulla "Hacı Qara", "Gilan qızı", "Kəndlilər", "Fətəli xan" filmlərində çəkilmişdir.

*Əd.:* Cəfər M., Sidqi Ruhulla, B., 1956; Шейхзаде Э. Сидги Рухулла, Б., 1978.



*Sidqi Ruhulla Qacar ("Vaqif", Səməd Vurğun) rolunda*

downloaded from KitabYurdu.az

**SİYASİ MÜHACİRƏT**, Azərbaycan siyasi mühacirəti - Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra azərbaycanlıların siyasi təqiblər üzündən ölkəni tərk edərək, milli istiqlal mübarizəsini xaricdə davam etdirməsi. *Aprel işğalından (1920)* sonra on minlərlə azərbaycanlı təqiblər üzündən ölkəni tərk etdi. Bu mühacirlərin əsas hissəsini milli ordunun əsgər və zabitləri, nazirlər, parlament üzvləri, yüksək vəzifəli dövlət məmurları, siyasi partiya üzvləri, müstəqil əqidəyə malik ziyalılar, habelə sabiq mülkədarlar, sənaye və ticarət burjuaziyası, təşkil edirdi. Xaricdəki Azərbaycan mühacirəti iki əsas qrupa bölünürdü: siyasi və qeyri-siyasi mühacirlər. Mühacirlərin siyasi baxımdan təşkilatlanması ilə xaricdə Azərbaycanın istiqlalı uğrunda mübarizə gücləndi. Siyasi mühacirlər, əsasən, İran, Türkiyə, Fransa, Almaniya və Polşada fəaliyyət göstərirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin yaşadığı dövrdə xaricdə fəaliyyət göstərən dövlət xadimləri və diplomatik təmsilçilər, o cümlədən Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransında iştirak edən nümayəndələr aprel işğalı ilə Azərbaycan siyasi mühacirlərinin ilk dəstəsinə çevrildilər. İşğal nəticəsində başlamış terror və həbslər üzündən Fətəli xan Xoyski, Mustafa Vəkilov, Şəfi bəy Rüstəmbəyli, Nağı Şeyxzamanlı və Azərbaycan Xalq Cümhuriyyətinin digər xadimləri Gürcüstana keçməyə məcbur oldular. İşğaldan bir qədər əvvəl Həsən bəy Ağayevin rəhbərliyi ilə Cənubi Qafqaz respublikalarının konfransına göndərilən nümayəndə heyəti də Tiflisdə qaldı. Gürcüstanda fəaliyyətə başlayan Azərbaycan mühacirləri sovet Rusiyasının Azərbaycana qarşı təcavüzünü dünya ictimaiyyətinə çatdırmaq üçün etiraz bəyannaməsi ilə çıxış etdilər. Aprel işğalına xaricdə ilk rəsmi etiraz ifadə edilən bu bəyannamədən bir ay sonra Fətəli xan Xoyski və Həsən bəy Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirildilər. Şəfı bəy Rüstəmbəyli tərəfindən Tiflisdə Azərbaycanın qurtuluşu komitəsinin osası qoyuldu. Azərbaycan mühacirəti, başlıca olaraq, Türkiyədə toplaşmışdı. Məhəmməd Əmin Rəsulzadənin Türkiyəyə gəlməsi ilə (1922) burada Azərbaycan mühacirlərinin ilk siyasi təşkilatı -*"Müsavat" Partiyasının Xarici Bürosu* yaradıldı. Büro Azərbaycanda gizli fəaliyyətə başlayan "Müsavat" təşkilatı ilə əlaqə saxlayırdı. 1924 ildə xarici büronun qərarı ilə Azərbaycan Gənclər Birliyi yaradıldı. Siyasi mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan mühacirlərinin təmsil oluna biləcəyi yeni siyasi təşkilat yaratmaq sahəsində fəal iş aparılırdı. Məqsəd bütün siyasi mühacirləri bir araya toplamaq, Azərbaycanın beynəlxalq səviyyədə təmsil olunmasında vahid mövqedən çıxış etmək idi. Bu məqsədlə 1924 ildə İstanbulda *Azərbaycan Milli Mərkəzi* yaradıldı. Elə həmin ildə Avropada ilk mühacir siyasi təşkilatı "Azərbaycan İstiqlal Komitəsi" (AİK) fəaliyyətə başladı. 1924 ildə Almaniyada təhsil alan azərbaycanlı tələbələrin bazasında yaradılan bu təşkilatın ilk sədri Heydər adlı bir mühacir olmuş, sonralar ona Hilal Münşi başçılıq etmişdir. AİK konfranslar keçirməklə və ədəbiyyat yaymaq vasitəsilə Avropa ictimaiyyətinin diqqətini Azərbaycanın istiqlalı məsələsinə cəlb edə bilmişdi. Siyasi mühacirətin vahid təşkilatda birləşməsi prosesi çətin gedirdi. "İttihad" partiyasının mühacirətdəki lideri Xosrov Paşa bəy Sultanov partiyanın xarici ölkələr bürosunu formalaşdırmağa və bütün ittihadçıları bir təşkilat ətrafında cəmləşdirməyə çalışırdı. O, 1926 ildə İrana gedərək, "İttihad"ın Tehran və Təbriz komitələrini yarada bildi. Lakin X.P.Sultanovun və Mir Yaqub Mehdiyevin bütün cəhdlərinə baxmayaraq, partiyanın xarici ölkələr bürosunu yaratmaq mümkün olmadı. Azərbaycan mühacirlərinin bir mərkəzdə birləşməsi ideyasına tərəfdar olan Ə.Topçubaşov bütün Qafqaz mühacirlərinin vahid təşkilat vasitəsilə Qafqaz Birliyində təmsil olunmasına çalışırdı. Parisdə Azərbaycan mühacirləri və digər Qafqaz respublikalarının nümayəndələri onun rəhbərliyi ilə müstəqil Qafqaz Konfederasiyası yaradılması uğrunda fəaliyyət göstərmişlər [bax *Qafqaz Konfederasiyası, "Prometey", Qafqaz İstiqlal Komitəsi (1927), Qafqaz Konfederasiyası Paktı, Qafqaz Konfederasiyası Şurası, Qafqaz İstiqlal Komitəsi (1952)]*. M.Ə.Rəsulzadə Qafqaz Birliyi məsələsini Türkiyənin öz inhisarına götürməsi yönündə çalışırdısa da, mövcud beynəlxalq şəraitdə Türkiyə dövləti SSRİ-nin təzyiqi ilə mühacirətin həm siyasi, həm də mətbu fəaliyyətlərini məhdudlaşdırmağa məcbur oldu. Bu, Türkiyənin o zamankı şəraitdə sovetlərlə yaxşı münasibətləri itirməmək siyasətindən irəli gəlirdi. Bu siyasət isə 1921-25 illər arasında bağlanmış müqavilələrlə (Moskva və Qars müqavilələri, eləcə də hücum etməmək və bitərəflik haqqında 1925 il müqaviləsi) tənzimlənirdi.

1930-cu illərin əvvəlindən Türkiyədə SSRİ-dən olan siyasi mühacirlər Avropa ölkələri ilə əlaqələrə üstünlük verməyə başladılar. Bu dövrdə Qafqaz mühacirəti bolşevik işğalından iki yolla qurtarmağı mümkün hesab edirdi: Xarici müdaxilə və müharibə, SSRİ-nin dağılması vasitəsilə. Mühacirlər müharibə zamanı SSRİ-də yaşayan xalqların üsyana qalxacağına ümid bəsləyirdilər. 1928 ildə bir sıra xarici ölkələrdə, xüsusilə, Parisdə və Berlində Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasının 10 illiyi bayram edildi. Britaniya və Polşa dövlətləri də siyasi mühacirətə böyük dəstək verirdi. Parisdəki Azərbaycan nümayəndə heyəti Fransa rəsmi dairələri ilə danışıqlar aparırdı. Azərbaycan siyasi mühacirəti Polşa rəsmi dairələri ilə daha sıx əlaqələr qurmuşdu. Lakin 30-cu illərin 1-ci yarısı Azərbaycan siyasi mühacirəti üçün kəskin ixtilaflar dövrü olmuşdur. Nəticədə, Azərbaycan Milli Mərkəzi və "Müsavat" Partiyasının Xarici Bürosu daxilində qruplaşmalar yaranmışdı. Şəfı bəy Rüstəmbəyli Mustafa Vəkilovla birlikdə Azərbaycan Milli Mərkəzinin, "Müsavat"ın Xarici Bürosunun fəaliyyətinin Türkiyə çərçivəsində məhdudlaşmasına görə M.Ə.Rəsulzadəni tənqid edir, Qərbə yönəli siyasətin tərəfdarı kimi çıxış edirdilər. Sonralar isə onlar M.Ə.Rəsulzadəni Qərblə əməkdaşlığı genişləndirməklə, Türkiyəni tamam yaddan çıxarmaqda suçlayırdılar. Bu dövrdə Parisdəki Azərbaycan mühacirlərinin bir qrupu (Əkbər ağa Şeyxü-

downloaded from KitabYurdu.az

lislamov, Ceyhun bəy Hacıbəyli və b.) da ixtilaflara fəal qoşulmuşdular. İxtilaflarla əlaqədar M.Ə.Rəsulzadə 1928 ildə Parisə getmiş və uzun müzakirələrdən sonra Ə.Topçubaşovla, yəni Paris qrupu ilə müəyyən razılaşma əldə olunmuşdu.

Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi Paris qrupuna M.Y.Mehdiyev, Ə.Şeyxülislamov, Məhəmməd Məhərrəmov, C.Hacıbəyli daxil idi. İstanbul qrupuna M.Ə.Rəsulzadə rəhbərlik edirdi. Qrupa Şəfi bəy Rüstəmbəyli, Musa Rəfıyev və b. daxil idilər. M.Ə.Rəsulzadə Parisdən qayıdan ərəfədə Türkiyədəki mühacirlər arasında ziddiyyətlər xeyli kəskinləşsə də, İstanbuldakı bir sıra nüfuzlu şəxslərin barışdırıcılıq səyi nəticəsində parçalanmanın qarşısı, müvəqqəti olaraq, alındı. Lakin bu çox çəkmədi. 1930-31-ci illərdə Azərbaycan mühacirləri arasında ziddiyyətlər xeyli dərinləşmişdi. Tərəflər aralarındakı ixtilafları mətbuat səhifəsinə çıxararaq, bir-birini Azərbaycan davasına xəyanətdə ittiham edirdilər. 1934 ildə mühacirlər arasındakı parçalanmanı daha da dərinləşdirən bir neçə kitabça (Ş.Rüstəmbəyli - "Yıxılan bütlər", N.Şeyxzamanlı - "Biz və onlar", M.Ə.Rəsulzadə - "Şəfıbəyçilik") nəşr olundu. 1934 ildə Azərbaycan mühacirətinin liderlərindən olan Ə.Topçubaşov vəfat etdi. 1928-34 illər ixtilafları nəticəsində Azərbaycan mühacirətinin daxilində bir-birinə müxalif mövqedə dayanan açıq qruplaşmalar meydana gəlmişdi. Mühacirət daxili münasibətlərdə yaranmış xoşagəlməz vəziyyət, həmçinin beynəlxalq aləmdə baş verən dəyişikliklər və siyasi mühacirətin ideya-siyasi istiqamətdə təşəkkülü "Müsavat" partiyasının yeni qurultayının keçirilməsini zəruri etdi.

Partiya rəhbərliyi qurultay səlahiyyətinə malik olan növbəti konfrans çağırmağı qərara aldı. 1936 ilin avqustunda Varşavada keçirilən konfrans mühacirətdaxili böhranın aradan qaldırılmasında mühüm rol oynadı.

Mühacirlər ayrı-ayrılıqda öz milli təşkilatlarını qurmaqla yanaşı, bolşevizmə qarşı beynəlxalq birliklər də yaradırdılar. 1920-30-cu illərdə Azərbaycan siyasi mühacirətinin də yaxından iştirak etdiyi iki belə birlik meydana gəlmişdi: "Qafqaz Konfederasiyası Şurası" və "Prometey". Bu təşkilatlar SSRİ-də baş verən hadisələrin mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılmasında xeyli iş görmüş, mühacirətdə milli azadlıq ideologiyasının, dövlətçilik şüurunun formalaşmasında əhəmiyyətli rol oynamışlar. İkinci dünya müharibəsi (1939-45) dövründə Azərbaycan siyasi mühacirətinin fəaliyyət istiqamətləri dəyişikliyə məruz qaldı. 1920-30-cu illərdəki kimi, Azərbaycanın dövlət müstəqilliyi məsələsi başlıca istiqamət olsa da, mühacirlərin bu dövrdəki fəaliyyəti, əsasən, əsir düşmüş azərbaycanlıların xilas edilməsi, SSRİ-yə qarşı ayrıca döyüş legionlarının təşkili, Almaniya tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması yönündə idi. Müharibə başlayanda M.Ə.Rəsulzadə və Hilal Münşi Berlində *Milli Azərbaycan Komitəsi* yaratdılar. Komitə Azərbaycan legionlarının formalaşdırılmasında mühüm rol oynamışdı. Lakin Azərbaycanın müstəqilliyinin Almaniya tərəfindən tanınması məsələsində müsbət nəticə hasil olmadığını görən M.Ə.Rəsulzadə 1942 ilin sonlarında Almaniyanı tərk etdi. Almaniya silahlı qüvvələrinin Baş komandanlığı milli legionlar yaratmağa başladıqda Azərbaycan mühacirətinin nümayəndəsi Məmmədtuğay Seyidəliyev və hərbi əsirlərin nümayəndəsi Beydulla Babayev tərəfindən Polşa ərazisində Azərbaycan legionu təşkil olundu. Legion 1943 ilin sonunda oradan Fransanın Rodos şəhərinə köçürüldü. Azərbaycanın müstəqilliyi ideyasının legionçuların şüurunda daha da möhkəmlənməsi üçün Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginskinin təşəbbüsü ilə Berlində ümumazərbaycan qurultayı çağırmaq qərara ahndı. 1943 il noyabrın 6-9-da Berlində birinci Milli Azərbaycan Birliyi qurultayı keçirildi. Qurultayı *Gəncə üsyanının (1920)* başçılarından biri olmuş Cahangir bəy *Kazımbəyli* açmış, Ə.Fətəlibəyli-Düdənginski geniş məruzə etmişdi. O, azərbaycanlıların çarizm və bolşevizm əsarətinə dözmədikləri kimi, başqa bir millətin də hakimiyyətinə dözməyəcəyini bildirərək, nitqini "Azərbaycan müstəqil olmalıdır", "Yaşasın azad Vətən" sözləri ilə bitirmişdi.

Qurultayını qəbul etdiyi beş maddədən ibarət qətnamədə 1918 il mayın 28-dən 1920 il aprelin 27-dək fəaliyyətdə olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövrünün tariximizin ən parlaq səhifəsini təşkil etdiyi, Azərbaycanın bolşevik istilasından sonra keçən 23 il ərzində xalqımızın öz istiqlalının bərpası uğrunda istər Vətən daxilində, istərsə də yad ellərdə mübarizə apardığı göstərilir və istiqlalımızın bərpa olunacağına sarsılmaz inamı bildirilirdi.

Qurultay mühacirlərin vahid təşkilatda birləşərək, Azərbaycan naminə fəaliyyətlərini davam etdirmələrinə kömək göstərdi. Bu dövrdə Münxendə gizli şəraitdə yaşayan M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yeni yaradılan Azərbaycan Demokratik Birliyi Azərbaycanınlı hərbi əsirlərin müxtəlif ölkələrdə yerləşdirilməsi ilə məşğul olurdu.

Müharibədən sonra Fətəlibəyli-Düdənginski başda olmaqla, yeni mühacirət dalğası yarandı. Fətəlibəylinin hələ 1943 ildə yaratdığı "Azərbaycan Milli Birlik Məclisi" adlı siyasi təşkilat (bax *Milli Birlik Məclisi)* müharibədən sonra Ə.Şeyxülislamovu, C.Hacıbəylini, İ.Əkbəri, C.Kazımbəylini öz ətrafında birləşdirərək, Azərbaycan Milli Mərkəzinə və "Müsavat" Partiyasının Xarici Bürosuna qarşı müxalifət mövqeyində durdu.

Milli Birlik Məclisi rus mühacirləri ilə birlikdə *Visbaden konfransında (1951)* iştirak edərək, müştərək bəyannamə imzaladı. Qafqaz, o cümlədən Azərbaycan, Türküstan və Şərqi Avropa siyasi mühacirləri Visbaden anlaşmasını beynəlxalq səviyyədə boykot etmək məqsədilə 1951 il noyabrın 30-da Münxendə konfrans çağıraraq, bu bəyannaməni rədd edən qərar qəbul etdilər. Qərarı Azərbaycan Milli Mərkəzi adından Məhəmməd Kəngərli imzaladı. 1952 ilin oktyabrında 4 rus, 5 qeyri-rus mühacir təşkilatının nümayəndələri yenidən Münxendə konfrans keçirərək, Bolşevizm Əleyhdarlarının Əlaqələndirmə Mərkəzini yaratdılar. Mərkəzin yaradılması barədə razılaşmanı Milli Birlik Məclisi adından C.Hacıbəyli, Ə.Şeyxülislamov və

downloaded from KitabYurdu.az

polkovnik C.Kazımbəyli imzaladılar. Əlaqələndirmə mərkəzi yaradıldıqdan sonra mühacirlər arasında ziddiyyətlər daha da dərinləşdi.

İxtilafların artdığı, parçalanmanın qaçılmaz olduğu bir vaxtda Azərbaycan, Gürcüstan və Şimali Qafqaz mühacir təşkilatları Münxendə Ümumqafqaz Konfransına toplaşdılar (1952, 11-16 dekabr). Konfransda Azərbaycanı "Milli Mərkəz" (sədri M.Ə.Rəsulzadə), Gürcüstanı "Milli Siyasi Mərkəz" (sədri R.Qabaşvili), Şimali Qafqazı "Milli Komitə" (sədri Ə.Maqoma) təmsil edirdi. 1935 ildə yaradılan "Qafqaz Konfederasiyası Şurası"nın prinsiplərindən çıxış edən bu təşkilatlar antibolşevik cəbhəni gücləndirmək üçün Şərqi Avropa, Türküstan və digər tnilli mühacir təşkilatları ilə iş birliyi qurtnaq məqsədilə 1952 ildo Qafqaz İstiqlal Komitəsini yaratdılar. Konfrans Visbaden razılaşması və "Bolşevizm Əleyhdarlarının Əlaqələndirmə Mərkəzi" ilə bağlı xüsusi sənəd və mətbuat üçün birgə bəyanat qəbul etdi. Bu sənəddə deyilirdi: "Konfrans Qafqaz respublikaları müstəqilliyinin danışıqsız qəbul olunması hüququnu bilmədən Visbaden və Münxen razlaşmalarına imza atmaqla, onu Rusiyanın daxili məsələsinə çevirən naməlum və yeni yaradılmış Qafqaz təşkilatlarının hərəkətini pisləyir".

Münxendə təşkil edilmiş və ABŞ tərəfindən maliyyələşdirilən "Azadlıq" radiostansiyasının Azərbaycan redaksiyasına başçılıq edən Ə.Fətəlibəyli-Düdənginski 1954 ildə geniş antisovet fəaliyyətinə görə SSRİ Dövlət Təhlükəsizlik Komitəsi agenti tərəfindən qətlə yetirildikdən sonra "Azər-baycan Milli Birlik Məclisi"nin də fəaliyyətinə son qoyuldu.

1950 illərin sonlarından başlayaraq, Azərbaycan mühacirlərinin yaratdıqları siyasi və qeyri-siyasi təşkilatların əksəriyyəti öz fəaliyyətlərini dayandırdı. "Müsavat" partiyası və Azərbaycan Milli Mərkəzi 1949 ilin fevralında M.Ə.Rəsulzadənin başçılığı ilə yaradılmış Azərbaycan Kültür Dərnəyinin ətrafında birləşmişdi. Ankarada fəaliyyət göstərən bu təşkilatlardan başqa, İstanbulda İldəniz Qurtulamn rəhbərlik etdiyi "Azərbaycan Gənclik Dərnəyi" və Əhməd Cəfəroğlunun yaratdığı "Azərbaycanın Kültürünü Tanıtma Dərnəyi" də fəaliyyət göstərirdi.

Azərbaycan siyasi mühacirəti SSRİ-dən olan digər mühacir təşkilatlarla əlaqədə fəaliyyət göstərir, dünya birliyinin diqqətini Azərbaycanın problemlərinə cəlb etməyə çalışırdı. Siyasi mühacirət Azərbaycanın mədoniyyəti ilə bağlı tədqiqat və tobliğat aparır, 1960-cı illərdən başlayaraq Azərbaycanla yaranmaqda olan mədəni əlaqələrin genişlənməsinə, 1979 il İran İslam İnqilabından sonra Türkiyəyə mühacirət etməyə məcbur olan cənubi azərbaycanlıları Kültür Dərnəyinin ətrafında cəmləşdirməyə, onların tapdalanan hüquqlarını dünya ictimaiyyətinə çatdırmağa soy göstərirdi.

1970 illərin sonlarına yaxın Azərbaycan siyasi mühacirətinin fəaliyyətində yeni istiqamot görünməyə başladı. SSRİ-dən olan müsəlman mühacirlər dini amilləri önə çəkərək, islam dövlətlərinin diqqətini Sovet İttifaqında 60 milyona yaxın müsəlmanın hər cür məhrumiyyətlərə məruz qaldığına cəlb etməyə çalışırdı. 1976 ildə Azərbaycan (Əbdülvahab *Yurdsevər)*, Qərbi Türküstan, Şərqi Türküstan, İdil-Ural, Şimali Qafqaz, Krım Milli Mərkəz başqanları İslam dövlətləri xarici işlər nazirlərinin İstanbulda keçirilən konfransına müraciətnamə göndərərək. SSRİ-də və Çində türk-müsəlman əhalisinin ağır vəziyyə-tini nəzərə alaraq, bir sıra tədbirlər görülməsini xahiş etdi-lər. 1986 ilin yanvarında Kasablankada keçirilən İslam Konfransı zirvə toplantısına da Azərbaycan Kültür Dornəyi adından SSRİ, Çin və İranda hüquqları tapdalanan müsəlman-türklərin müstəqilliyə, insan kimi yaşamaq haqqına malik olduğunu ifadə edən teleqram vurulmuşdu. Azərbaycan siyasi mühacirəti artıq yalnız Şimali Azərbaycan adından çıxış etmir, İranı tərk etmək məcburiyyəti qarşısında qalmış yüz minlərlə Cənubi Azərbaycanın türklərinin də məsələsini beynəlxalq ictimaiyyətin nozərino çatdırırdı.

SSRİ-Türkiyə münasibətlərinin nisbətən yumşalması ilə Azərbaycan-Türkiyə münasibəllərində də canlanmayarandı. Azərbaycanın mühacirəti bu istiqamətdə bütün imkanlardan istifadə edirdi. Mədəniyyət xadimləri, xüsusən də məşhur bəstəkar-dirijor Niyazi Azərbaycanla Türkiyə ara-sında əlaqələrin qurulmasında və daha da genişlənməsində mühüm rol oynayırdı.

Avropaya mühacirət edənlər də məskunlaşdığı ölkələrdə cəmiyyətlər, dərnəklər yaradaraq, Azərbaycan Kültür Dərnəyi ilə əlaqə saxlayırdılar. Bunlardan Mad-riddə "Azərbaycan dostları", Londonda "Azərbaycan dayaqçıları", Avstriyada "Qafqaz dostları", Stokholmda "Azərbaycan Mədəniyyət Mərkəzi", Malmödə (İsveç) "Azərbaycan Mədəniyyət Mərkəzi", Almaniyada "Azərbaycan Mədəniyyət Mərkəzi" (Köln), "Azərbaycan-Almaniya Kültür Dərnəyi" və b. fəaliyyət göstərir, Avropa ictimaiyyətini Azərbaycanla bağlı məlumatlandırırdılar.

1980-ci illərin sonlarında Sovetlər İttifaqı respublikalarında milli azadlıq hərəkatının gctdikcə güclənməsi Azərbaycan siyasi mühacirətinin fəaliyyətindəki canlanmanı daha da artırdı. Bu dövrdə Azərbaycan mühacirləri, əsasən, ermənilərin əzəli Azərbaycan torpaqlarına, xüsusilə Dağlıq Qarabağ və Naxçıvana qarşı əsassız ərazi iddiaları ilə bağlı qəsbkarlıq planlarını və onların bu məqsədlə törətdikləri cinayətkar əməlləri dünya ictimaiyyətinə çatdırmaq yönündə iş apanrdılar. Mühacirlər bütün imkanlardan istifadə edərək, Azərbaycanla əlaqələri güclondir-məyə can atırdılar. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə siyasi mühacirət 71 illik mübarizə amalına yetişdi. Hazırda müxtəlif xarici ölkələrdə yaşayan keçmiş Azərbaycan siyasi mühacirlərinin nümayəndələri müstəqil Azərbaycanın fəal müdafiəçilərinə çevrilmişlər. Onlar xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasına yaxından kömək göstərirlər.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.6, B., 2000; İ b r a h i m l i X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B., 1997; Oruclu M.R., Azərbaycanda və mühacirətdə Müsavat Partiyasının fəaliyyəti (1911-1992), B., 2001; Q ə n d i l ə v S., Azərbaycan Xalq Cümhuriyyəti və siyasi mühacirət, "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual problemləri" beynəlxalq elmi sessiyasının materialları (mart-may 2003), B., 2003.

downloaded from KitabYurdu.az

**SKOTLAND-LİDDELL** (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda və Tiflisdə fəaliyyət göstərmiş ingilis hərbi müxbiri. Azərbaycan Respublikasının Dövlət Arxivində Cümhuriyyət tarixinə aid sənədlər arasında Skotland-Liddellin ingilis və rus dillərində çoxlu məqalələrinin surətləri saxlanılır. Cənubi Qafqazdakı siyasi və millətlərarası münasibotləro həsr edilmiş məqalələrində daha çox azərbaycanlılarla ermənilər arasında münasibətlər əksini tapmışdır ["Erməni-tatar (azərbaycanlı) razılaşması - Qafqazda sülhün bərpa olunması", "Qarabağ erməniləri", "Müsəlmanlarla müharibə. Ermənilər yenə də hücum edirlər", "Tiflisdə bolşevik bombaları", "Bakıda faciə", "Siyasət lazımdır" və s.].

Skotland-Liddell enrıəni psixologiyasını, ermənilərin regionda və ona qonşu ərazilərdə yeritdikləri şovinist millətçilik siyasətinin mahiyyətini çox gözəl başa düşmüşdür. Belə ki, 1920 ilin yanvarında Paris Sülh Konfransı dövlətləri tərəfindən Cənubi Qafqaz respublikalarının müstəqilliyinin de-fakto tanındığı bir vaxtda daşnak Ermənistanı hökumət ordusunun silahlı ermoni quldur dəstələri ilə birlikdə Qarabağda Şuşa istiqamətində hücumunu Skotland-Liddell ***"təkcə cinayət deyil, həm də son dərəcə ağılsız hərəkət"*** **adlandırmışdı. O yazırdı:** ***"Ermənilər ona görə bədbəxt xalqdır ki, orada daşnak partiyası hakimiyyətdədir. Bu terrorçu inqilabi təşkilat bir çox illər ərzində erməniləri ərazi iddiası ilə məqsədyönlü şəkildə müsəlmanlara qarşı hiicuma çağırır. Sonunculardan layiqli cavab aldıqda isə, onlar bu məsələni bilərəkdən şişirdərək, dünya ictimaiyyətinin rəğbətini yazıq ermənilərə tərəf yönəltmək istəyirlər".*** Skotland-Liddell qeyd edirdi ki, Londonda erməni bürosu var. Ermənilərin belə təşkilatları Fransada və Amerikada da mövcuddur. Ermənilərin sevimli üsulları ucuz reklam xarakteri daşıyan "xristian" amilindən gen-bol istifadə etməkdir. Bu, ingilis ictimaiyyətinə bəlli deyilsə də, ingilis nazirləri bunu çox yaxşı bilirlər.

Skotland-Liddell məqalələrində Azərbaycan-erməni münasibətlərinə geniş yer verir və bu millətləri bir-biri ilə müqayisə edərək yazırdı: *"Ermənilər dünyanın ən yaxşı təbliğatçılarıdır".* Onların bu hərəkəti son ayların işi deyil, uzun illər apardıqlan təbliğatlarının nəticəsidir. Buna baxmayaraq, ***"nə Rusiyada, nə Qafqazda elə bir adam tapa bilməzsiniz ki, o, ermənilər haqqında hansısa yaxşı bir söz desin. Ruslar, tatarlar (azərbaycanlılar), gürcülər onlara nifrət edir və görmək belə istəmirlər. Bunun belə olub-olmadığını mənim deməyimə lüzum yoxdur, çünki burada ermənilər nifrət edilən irqdir. Ancaq xaricdə onların təbliğatı elə qurulubdur ki, Avropa və bütün dünya onların tərəfindədir".***

Skotland-Liddell yazırdı ki, azərbaycanlılar ermənilərlə müqayisədə çox mord və yüksəkdə duran bir millətdir.

Ermənilərin "Aşkatavər" qəzetində dərc edilmiş "Müstəqil Ermənistan", Müttəfiqlərin mərhəməti lazım deyil məqalələrinə münasibət bildirən Skotland-Liddell yazırdı ki, "Azərbaycan və Gürcüstan Cənubi Qafqaz respublikalarının müstəqilliyinin tanınmasını sevinclə qarşılayaraq, müttəfiqlərə öz səmimi mınnətdarlıqlarını bildirdikləri bir vaxtda, Ermənistamn hakim partiyası "Daşnaksutyun" nə öz razılığını, nə də təşəkkürünü bildirmişdir". O göstərirdi ki, belə bir vaxtda *Ermənistan ordusu Zəngəzurda hücuma keçərək, qırxa yaxın müsəlman kəndini dağıtmışdır.*

Skotland-Liddell məqalələrində Cənubi Qafqaz xalqlarını həmişə sülhə, qarşılıqh anlaşmaya çağırır, Qarabağa və Zəngəzura səfərləri ilə bağlı yazdığı iri həcmli məqalədə göstərirdi ki, əgər Ermənistandakı və Qarabağdakı er-məni rəhbərləri imkan versə, belə bir sülhün yaranmasına heç bir şübhə etmirəm. Erməni saxtakarhğını kəskin şəkil-də ifşa edon Skotland-Liddell 1920 il martın 30-da qələmə aldığı "Qarabağ erməniləri" məqaləsində həmin il fevralın 21-də buraxılmış "Qrafik" jurnalının redaktoruna ünvanladığı etiraz məktubunda göstərirdi ki, Tiqran Nazaryan adlı şəxs öz yazısında sülh konfransını inandırmağa çalışır ki, Qarabağın siyasi cəhətdən Ermənistana qatılmasını sübut edən fakt odur ki, guya Qarabağdakı əhalinin 198 min nəfəri erməni, 80 min nəfəri isə müsəlmandır. Skotland-Liddell qeyd edirdi ki, bu yalandır. Bu sahədə böyük nüfuz sahibi və dəqiq hesablamalar müəllifı professor Şepotyevə görə, Qarabağda 415 min müsəlman və 170 min erməni var. Öz məqaləsində Skotland-Liddell ermənilərin homin il martın 22-də, müsəlmanların ən əziz Novruz bayramı günü bütün Qarabağda qaldırdıqları qiyamı və qəfil basqınları bir daha erməni xəyanətinin bariz süburu olduğunu qeyd edirdi. O yazırdı ki, bütün erməni təbliğatına baxmayaraq, "biz Cənubi Qafqazdakı həqiqətləri bilirik. Sözsüz, artıq vaxtdır ki, onu İngiltərə cəmiyyəti də bilsin".

Skotland-Liddellin bir məlumatı da maraqlıdır. O, 1920 il martın 21-də Bakıdan "Müsəlman Respublikası de-yure tanındı" adlı xəbərdə bildirirdi ki, İran ilə Azərbaycan hökumətləri arasında müqavilə bağlandıqdan sonra təşkil edilmiş rəsmi mərasimdə İran nümayəndə heyətinin rəhbəri ağayi Təbatəbai bəyan ctmişdir ki, İran hökumoti Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanıyır. Öz məqalələrində o, 1920 ilin əvvəllərində Bakı, Tiflis və Cənubi Qafqazın digər şəhərlərində sovet Rusiyası bolşevik təxribatı və gizli təbliğatı barədə də məlumatlar verirdi.

Əd.: *Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə (Z.M.Bünyadovun redaktəsi ilə), B., 1990.

**SLAVYAN-RUS CƏMİYYƏTİ** - "Vahid, bölünməz Rusiya" -uğrunda mübarizə məqsədilə Tiflis şəhərində yaradılmış qurum. 1918 il martın 11-də K.N.Lizqarın sədrliyi ilə cəmiyyətin ilk iclası keçirilmiş, nizamnaməsi qəbul edilmişdi. 1918 il martın 14-də qeydiyyatdan keçmiş nizamnaməsində onun slavyan və rus əsilli vətəndaşların milli, elmi, dini, məişət, texniki, tədris-tərbiyəvi birliyi məqsədilə yaradıldığı göstərilirdi. Bu məqsədə nail olmaq üçün Cəmiyyət mövcud qanunlar çərçivəsində müxtəlif tipli (praktiki və ümumtəhsil,) məktəblər, yaşhlar və uşaqlar üçün bazar günü məktəbləri, peşə kursları, uşaq bağçaları, kitabxanalar və qiraət zalları, klublar, körpələr evi və

downloaded from KitabYurdu.az

yetimxanalar, kilsələr, ambulatoriya və müalicə müəssisələri, kooperativlər, kredit idarələri, hüquqşünas, həkim, tibb bacıları dərnəkləri, cəmiyyət üzvləri üçün məşğulluq büroları, əyləncə yerləri, mətbuat orqanları və mətbəələr açmağı nəzərdə tuturdu. Nizamnamədə, həmçinin cəmiyyətin, milliyyətindən asılı olmayaraq, hamıya mədəni-maarifçilik və xeyriyyə köməyi göstərəcəyi qeyd olunurdu. Bakıda şöbəsi fəaliyyət göstərirdi. 1918 il dekabrın 3-də Slavyan-Rus Cəmiyyəti Şurası onun fəaliyyətinin əsasını təşkil edən ideyalarını həyata keçirilməsi məqsədilə tərkibinı daxil olan cəmiyyət və təşkilat üzvlərinin mənafelərinin müdafiısi istiqamətində birgə iş aparmaq üçün Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə daxil olmaq arzusu ilə Azərbaycanın Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadəyə müraciət etdi. Azərbaycan parlamentində 3 nümayəndəsi vardı. Slavyan-Rus Cəmiyyətinin nümayondələri İ.Protasov, Y.Gindes, K.Lizqar, V.KIenevski Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində nazir vəzifələrində çalışmışlar. Cəmiyyət "bolşeviklərsiz Rusiya" ilə ittifaqa tərəfdar idi.

*Əd.:* Şüküroğlu L., Cümhuriyyət hökuməti repressiya məngənəsində, B., 2000.

**SMİLQA** İ.T. (1892-1938) - Bakının sovet Rusiyası tərəfindən işğalının (1920) təşkilatçılarından biri. 1907 ildən Rusiya Sosial Demokrat Fəhlə (bolşeviklər) Partiyasının üzvü olub. Fevral inqilabından (1917) sonra Rusiya Sosial Demokrat Fohlə (bolşeviklər) Partiyası Kronştadt komitəsinin tərkibinə daxil olmuş, Finlandiya vilayət ordu, donanma və fəhlə icraiyyə komitəsinin sədri vəzifəsində işləmişdir. Oktyabr çevrilişindən (1917) sonra Rusiya Sovet Fede-rativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin (RSFSR XKS) Finlandiyada müvəkkili, respublika hərbi-inqilab şurasının üzvü, Ali Xalq Təsərrüfatı Şurası sədrinin müavini olmuşdur. Qafqaz cəbhəsinin rəhbərlərindən biri kimi Bakının işğalı planının hazırlanması və həyata keçirilməsində iştirak etmişdir. 1920 il 16 yanvar- 21 may və 1921 il 26 yanvar - 26 mayda Qafqaz cəbhəsi hərbi-inqilab şurasının üzvü, həmin cəbhəyə daxil olan 11-ci Qır-mızı ordunun Bakını işğalı zamam Qafqaz cəbhəsinin müvəqqəti komandanı (1920, 24 aprel - 15 may) olmuşdur. RSFSR XKS-nın sədri V.İ.Leninin Bakını işğal etmək haqqındakı 1920 il 17 mart tarixli şifrəli teleqramı Smilqa və Q.K.Orconikidzeyə ünvanlanmışdı. Teleqramda deyilirdi: ***"Bakını almaq bizdə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə dip-lomat olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlan-dığını tamamilə yəqin etmək lazımdır. Gürcüstan haqqın-da da eynilə belə hərəkət etməli, həm də Giircüstana daha ehtiyath yanaşmağı məsləhət görürəm. Qüvvələr yeridilməsi haqqında Baş komandanla şərtləşin*** ". Həmin teleqramın Leninin əlyazması ilə birlikdə arxivdən aşkar edilmiş surətində Orconikidze bu sözləri yazmışdır: "Teleqram Ba-kıya hücum hazırlanması dövrünə aiddir. Əməliyyat hazırlanmışdı və Levandovskinin başçılığı ilə aprelin 25-26-da Azərbaycan sərhədini keçdik, 28-də isə Bakıda olduq". Smilqa 1920-21 illərdə həmkarlar ittifaqı diskussiyası zamanı L.D.Trotski platformasının tərofdarı olmuşdur. Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının 15-ci qurultayında (1927), trotskiçi müxalifətin fəal xadimi kimi partiyadan çıxanlmışdır. 1930 ildo partiyaya bərpa edilmiş, lakin partiyanın siyasi xəttinə qarşı fəaliyyətini davam etdirdiyinə görə yenidən xaric olunmuşdur.

*Əd.:* Lenin V.İ., Əsərlərinin tam külliyyatı, c.51, B., 1984; V.İ.Lenin Azərbaycan haqqında, B., 1970; Интернациональная помошь 11 армии в борьбе за победу советской власти в Азербаиджане. Документы и материалы. 1920-1921 гг., Б., 1989.

**SMİT** Villoqbi F. (? - ?) - ABŞ diplomatı. 1917-18 illərdə ABŞ-ın Tiflisdə konsulu, ABŞ-ın Conubi Qafqaz barəsində siyasi tədbirlərinin hazırlanmasında və həyata keçirilməsində mühüm rolu olmuşdur. Cənubi Qafqazda baş verən siyasi və hərbi proseslər barəsində Vaşinqtona və ABŞ-m Rusiyadakı diplomatik missiyalanna məlumatlar göndərə-rək, burada çevik və qətiyyətli hərbi-siyasi tədbirlər keçirilməsində israr edir, əks halda, "Qafqazdakı xristian əhalisinə qarşı baş verə biləcək böyük ədalətsizlik və zərərlər üçün günahkar" olacaqları haqqında xəbərdarlıq edirdi. O, erməniləri və gürcüləri təcili olaraq silahlandırmaq üçün iri məbləğdə vəsaitin göndərilmosini məqsədəuyğun sayır, bununla da türk qoşunlarının bölgədə hücumlarının qarşısını alma biləcəyini bildirirdi. Onun göndərdiyi məlumatlar antitürk və antiazərbaycan ruhunda olub regiondakı vəziyyəti obyektiv əks etdirmirdi. Onlarda ermənilərin dinc müsəlman əhalisinə qarşı törətdiyi cinayətlərinə haqq qazandırmağa cəhd göstərilirdi. Smit Zaqafqaziya Komissarlığı hökumətini de-fakto tanımaq üçiin ABŞ senatından ona səlahiyyət verilməsini xahiş etmişdi. Lakin bunun Rusiyanın parçalanmasına və separatizmin dərinləşməsinə səbəb ola biləcəyi nəzərə alınaraq, ona belo vəkalət verilməmişdi.

Smit 1918 il martın 10-12-də dovlət departamentinə göndərdiyi teleqramlarda türk ordularının hücumları ilə bağlı Cərıubi Qafqazda yaranmış böhran vəziyyəti barədə məlumat verərək ora təcili olaraq maliyyə və maddi yardım göstərilməsində təkid edirdi. Dövlət katibi Lansinqin Smitin məlumatlarına əsaslanaraq, 1918 il aprelin 25-də ABŞ-ın Fransadakı səfiri Şarpa göndərdiyi teleqramda guya türklərin hücumları nəticəsində ermənilərin tam məhv edilməsi təhlükəsi olduğu bildirilirdi. Lansinqin Antanfanın Cənubi Qafqazda öz maraqlannın təmin olunması naminə ermənilərdən bir alət kimi istifadə etdiyi fikrini bir daha təsdiqləyir. Teleqramda diqqəti çəkən cəhət ABŞ rəsmilərinin Cənubi Qafqazdakı vəziyyət barəsində qərəzli şəkildə məlumatlandırılmalarıdır. Konsulun verdiyi məlumatda yalnız erməni mənbələrinə istinadla Almaniyanın yerli müsəlman əhalisindən öz planını həyata keçirmək üçün istifadə etdiyi və yaxud müsəlmanların erməni kəndlərinə və hərbi birləşmələrinə basqınlar etdiyi göstərilirdi. ABŞ-ın dövlət katibi vəzifəsini icra edən Frenk Polkun 1918 il iyulun 31-də ABŞ-ın Böyük Britaniyadakı səfiri Peycə yazdığı məktubdan məlum olur ki, erməni katolikosunun Vaşinqtondakı xüsusi nümayəndəsi Q.Pasdermaeyan erməni və gürcülərin Qafqazda müttəfiqlərə xidmət göstərəcəkləri barədə ona 2

downloaded from KitabYurdu.az

məktub göndərmişdir. Polkun fikrincə, almanların və türklərin Qafqazda irəliləmələri islam dünyasının və Mərkəz dövlətlərinin rəyincə mənəvi qələbə olub, eyni zamanda, onlara strateji və maddi üstünlüklər verir. Onların hücumları bu bölgədəki xristianlar üçün təhlükə yaradır. F.Polk etiraf edirdi ki, departament Qafqazdakı həqiqi vəziyyət barədə etibarlı və otraflı informasiyaya malik deyildir.

*Əd.:* Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920-ci illər, B., 1993; Qasımlı M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 cilddə, c.3, B., 2004.

**SOFİYEV** Nuh bəy (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti. Hərbi nazirin 1919 il 19 fevral tarixli əmri ilə 1 -ci Cavanşir piyada alayının komandiri təyin edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 28 fevral tarixli qərarı ilə ona polkovnik rütbəsi verilmiş, 1919 il avqustun 3-də 1-ci Tatar süvari alayına komandirlik həvalə olunmuşdu. Həmin vaxt 1 -ci Tatar süvari alayı Şimal sərhədinin müdafiəsini möhkəmləndirmək məqsədi ilə Qusarda yerləşdirilmişdi. Bir müddət Qusar qarnizonunun rəisi vəzifəsini icra etmişdi. Hərbi nazirin 1 dekabr 1919 il tarixli əmri ilə Nuh bəy Sofiyev 1-ci Cavanşir piyada alayının komandiri təyin edilmiş, 7 dekabr 1919 il tarixli əmri ilə isə 1-ci Tatar süvari alayının komandirliyinə qaytarılmışdı. 1920 ilin martında Qarabağda daşnak-erməni silahlı dəstolərinin dövlətə qarşı qaldırdıqları qiyamının yatırılması zamanı Nuh bəy Sofiyevin komandir olduğu Tatar süvari alayı Qaryagin ətrafında düşmənə zərbələr endirmişdi. *Aprel işğalından (1920)* sonra Qarabağda müstəqilliyin bərpası məqsədilə sovet hakimiyyətinə qarşı üsyan qalxanda Nuh bəy Sofiyev də öz alayı ilə həmin üsyana qoşulmuşdu.

**SOSİALİST İNQİLABÇILAR**-eserlərin Bakıda 1903 il-də fəaliyyətə başlamış ilk dərnəyi. Bax *Eserlər.*

**SOSİALİSTLƏR FRAKSİYASI** Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fraksiyalarından biri. Tərkibinə müsəlman sosialistlər bloku ilə "Hümmət" (menşevik) fraksiyalarının üzvləri daxil idi. 13 nəfərdən ibarət olmuşdur. Fraksiyanın sədri Səmədağa Ağamalıoğlu, üzvləri Əli-heydər Qarayev, Əkbər Ağa Şeyxülislamov, Hacı Kərim Sanılı (Sanıyev), Qasım bəy Camalbəyov, Bağır Rzayev, Əhməd bəy Pepinov, İbrahim Əbiləv, Rza bəy Qaraşarov, Vladislav Bakradze, Camo bəy Hacınski, Aslan bəy Səfi-kürdski, İbrahim İsmayılzadə idi. Sosialistlər parlamentin komissiyalarında təmsil olunmuşdular. Əhməd bəy Pepinov və Səmədağa Ağamalıoğlu maliyyə-büdcə komissiyasında, Bağır Rzayev təsərrüfat komissiyasında, Əhməd bəy Pepinov, Bağır Rzayev, Qasım bəy Camalbəyov, Rza bəy Qaraşarov müəssislər məclisinin çağırılması üzrə mərkəzi komissiyada, İbrahim Əbiləv və Hacı Kərim Sanılı redaksiya, aqrar, həmçinin sorğu komissiyalarında fəaliyyət göstərirdilər. S.Ağamalıoğlu aqrar komissiyanın sədri idi. Sosialistlər fraksiyasının bəyannaməsində yeni hökumətin koalision olması və demokratik prinsiplərə əsaslanması tələbi qoyulurdu. Bəyarmamədə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin qorunması və demokratiyanın təsdiqi hökumətin başlıca vəzifəsi kimi müəyyənləşdirilirdi. Fəhlə məsələsinin həlli üçün 8 saatlıq iş gününün tətbiqi, inqilab dövründə fəhlələrlə bağlanmış müqavilələrin qüvvədə qalması, fəhlə təşkilatlarına dövlət tərəfindən maddi yardım göstərilməsi kimi tədbirlərin görülməsi təklif olunurdu. Aqrar məsələ ilə bağlı torpaq komitələri yaradılması nəzərdə tutulurdu. Bəyannamədə "qadınların haqq və səlahiyyəti kişilərlə bərabər olmaqdır", - fikri xüsusi vurğulanırdı. Xarici siyasət sahəsində qonşu dövlətlərlə, Avropa ilə ən geniş əlaqələr qurulmasının vacibliyi qeyd edilirdi.

Sosialistlər fraksiyası "Müsəlman Sosialist bloku" və "Hümmət" təşkilatları çərçivəsində fəaliyyət göstərən azərbaycanlı sosial-demokratları, eser və menşevikləri birləşdirərək, parlamentin sol cinahını təşkil edirdi. Fraksiya hadisələrə və hakimiyyətdaxili proseslərə yanaşmada bir-mənalı mövqe tutmurdu. Sosialistlər hökumətə qarşı kəskin münasibətdə olmalarına baxmayaraq, hakimiyyətin sağların əlinə keçəcəyindən ehtiyat etdikləri üçün, onun istefası əleyhinə çıxıb kabinetin tərkibində bəzi fərdi dəyişiklik edilməsinin tərəfdarı idilər. Onlar cinayət və möhtəkirlik məsələlərini araşdıracaq geniş səlahiyyotli xüsusi parlament komissiyasını təsis etmək, vəzifə cinayətləri, möhtəkirlik və ölkədəki əks-inqilabi cinayətləri mühakimə edəcək ali tribunalın əsaslannı işləyib hazırlamaq üçün xüsusi komissiya haqqında qətnamə layihələri təklif edirdilər. Parlament, sosialistlərin tələbi ilə, ölkədə ərzaq məsələsini tənzimləyəcək xüsusi komissiya yaratdı. Ali tribunal haqqında sosialistlərin təqdim etdikləri layihə parlament tərəfindən rədd olundu. Aqrar məsələdə isə sosialistlər torpağını müsadirə olunub, ödəncsiz olaraq kəndlilərə verilməsini tələb edirdilər. Uzun müzakirələrdən sonra keçirilən səsvermə sosialistlərin xeyrinə nəticələnsə də, aqrar məsə-lənin həllinə ciddi təsir göstərmədi. 3-cü hökumət kabinəsinin istefasından sonra sosialistlər hesab edirdilər ki, təşkil olunacaq yeni hökumət geniş ohali təbəqələrinin tələblərini təmin edən əsl demokratik hökumət olmalıdır. Bunun üçün mərkəzin demokratik hissəsi ilə sol qüvvələrin koalisiyasını zəruri sayan sosialistlər hökumətin siyasətinə təsir etmək imkamna malik olmaq üçün nazirlər kabinetindəki yerlərin, daxili işlər naziri vəzifəsi də daxil olmaqla, yarıya qədərini tutmağa çalışırdılar. Sosialistlər 'bitərəfləri "ən mürtəce ünsürlər" kimi qiymətləndirib, onların koalisiyaya daxil olunmasının əleyhinə çıxış edirdilər. Sosialistlər ("Hümmət"siz) hökumətin tərkibinə daxil olmağa razılıq verdikdə 4-cü kabinədə Camo bəy Hacınski poçt və teleq-raf naziri, Aslan bəy Səfikürdski ədliyyə və əmək naziri oldu. 1919 ilin sentyabrında parlamentdə hökumətə etimad məsələsi qoyularkən sosialistlər fraksiyası qəti və açıq şəkildə hökumətə etimad göstərmədiyini bildirdi. Yeni höku-mət kabinəsinin formalaşdırılması prosesində sosialistlər, "İttihad" partiyası kimi, hökumətə daxil olmaq təklifini rədd etsələr də, irəli sürdükləri tələblər (Denikinə qarşı mübarizə aparan dağlı xalqlarına fəal kömək göstərmək; qonşu respublikalar arasında bütün mübahisəli məsələləri

downloaded from KitabYurdu.az

həll etmək; fəhlə təşkilatlarının təqib edilməsini dayandırmaq və siyasi motivlərə görə həbs olunanları azad etmək; ölkədə mövcud olan qanunsuzluqların, özbaşınalıqların və siyasi hüquqlarının məhdudlaşdırılmasının qarşısını almaq; torpağın dərhal kəndlilərə verilməsini dekretləşdirmək, məsələ tam həll edilənə qədər bütün torpaq icarəsi müqavilələrini ləğv etmək və torpaqları kəndlilərdə saxlamaq; ərzaq məsələsini nizama salmaq üçün qəti tədbirlər görmək) yerinə yetiriləcəyi halda hökumətə daxil olmaq imkanını istisna etmirdilər.

1919 ilin dekabrında təşkil olunan yeni koalisyon hökumətin tərkibinə sosialistlərdən Əhməd bəy Pepinov (əmək və əkinçilik naziri), Camo bəy Hacınski (poçt və teleqraf naziri) daxil idilər. Əvvəlki iki kabinetdə olduğu kimi, sosialistlər fraksiyasının nümayəndələri sonuncu hökumət kabinetinin tərkibinə daxil edilsələr də, fraksiya hökumətə qarşı tənqidi mövqedə dayanmışdı.

1920 ilin yanvarında sovet Rusiyasına münasibət məsələsi siyasi partiyalar arasında kəskin qütbləşmə yaratdıqda Aslan bəy Sofikürdski sosialist fraksiyası adından xarici işlər naziri Fətəli xan Xoyskiyə sovet Rusiyasının notasına hökumətin münasibəti barədə sorğu göndərdi. Rusiyapərəst mövqedən çıxış cdən sosialistlər G.V.Çiçerinin notasına müsbət cavab verilməsinin tərəfdarı idilər. 1920 ilin yazında bolşeviklərin və digər qüvvələrin dövlətə zidd fəaliyyətinə qarşı hökumətin həyata keçirdiyi qətiyyətli tədbirlər sosialistlərin etirazına səbəb oldu. Martın 20-də Ə.Pepinov parlamentin iclasında Fəhlə klubunun bağlanması və keçirilmiş həbslərlə bağlı ctiraz bəyanatı verdi. Onun bu bəyanatını təcili müzakirə etmək təklifı hökumət üzvlərinin əksəriyyəti tərəfindən rədd olundu. Parlamentin sonrakı iclasında Ə.Pepinov öz partiyasının qəranna əsasən, istefaya gctdiyini bildirdi və martın 23-də nazir səlahiyyətlərindən əl çəkdi. Ə.Pepinovun ardınca aprelin 9-da C.Hacınski də istefa verdi. Sosialistlərin və "İttihad" nümayəndələrinin getməsi hökumət böhranını kəskinləşdirdi. Sosialistlər fraksiyası radikal-sosialist hakimiyyət yaradılmasında təkid edirdi. Üç nazir vəzifəsi tələb edən fraksiya daxili işlər, xarici işlər və hərbi nazir vəzifələrinə C.Hacınski, A.Səfikürdski və B.Rzayevin namizədliklərini irəli sürmüşdür.

1920 il aprelin 27-də parlamentdə hakimiyyəti kommunistlərə təhvil vermək barədə ultimatumun müzakirəsi zamanı sosialistlər hakimiyyətin təhvil verilməsinə tərəfdar olduqlarını bildirdilər.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c. 1-2, B., 1998; Azərbaycan tarixi cilddə, c. 5, B., 2001.

**SOVET İŞĞALINA QARŞI ÜSYANLAR (1920-22)** - Azərbaycanın bolşeviklər tərəfindən işğalı əleyhinə müqavimət hərəkatı. Üsyan dalğası 28 aprel işğalından az sonra bütün Azərbaycanı bürümüşdü. Mayın 18-də bolşeviklər və qırmızı döyüşçülər Şuşada yeni hökumətə qarşı hazırlanan üsyandan xəbər tutub onun qarşısını ala bildilər. Həmin vaxtlarda Ucar və Bərgüşadda yeni rejimlə razılaşmayan əhali dəmir yolu xəttində qatarların hərəkətini dayandırmağa cəhd göstərdi. 1920 il mayın ortalarından Bakıda sovet hakimiyyəti əleyhinə üsyana hazırlıq aparıldı. Şəhər hərbi qarnizonunun rəisi, 28-ci diviziyanın komandiri Nesterovskinin 1920 il mayın 26-da imzaladığı əmrdə göstərilirdi ki, Bakı şəhə-rində fəhlə və kəndli hökumətinə qarşı üsyanlann hazırlanması barədə şayiələr dolaşmaqdadır. Əmrdə daha sonra de-yilirdi: "Hansı evdən güllə atılsa, o ev top atəşinə tutulacaq, evdə sükunət edənlər də fəhlə və kəndli hökumətinin düşməni adlandırılaraq, 16 yaşından 50 yaşına qodor olan hər kəs mühakiməsiz güllələnəcək. Siqnal və yaxud nişan ve-rənlər tutulduqları yerdə güllləbaran ediləcəklər".

Yeni hökumətə qarşı ilk qüvvətli üsyan Qarabağda başladı. Yerli əhali, xüsuson də daşnak Ermənistanının nizami qoşunlarına qarşı mübarizə aparmış Cümhuriyyət ordusunun əsgər və zabitləri yeni rejimə qarşı nifrətini silahlı çıxışlarla ifadə edirdilər. Bu zaman Şuşada Qarabağ sakinlərindən ibarət 300 nəfərlik silahlı dəstə də formalaşmışdı.

Qarabağda yaranmış gərgin vəziyyət, nəhayət, partla-yışla nəticələndi. Mayın 21-də Tərtərdə yerli əhali buradakı 11 -ci Qırmızı ordu bölmələrinə qarşı hücuma keçdi. Üsyançılar qalib gəldilər. 11-ci Qırmızı ordu hissələri 80 nəfərə qədər itki verdi. Tərtərdəki 11-ci Qırmızı ordu alayının komandiri Naumov öldürüldü. Üsyan Azərbaycanda sovet rejiminə qarşı ilk güclü müqavimət idi. Onun daha da genişlənməsinin qarşısını almaq üçün 11-ci ordu komandanlığı dərhal əməli tədbirlər gördü. Gəncədən Qarabağa süvari bölmələri gətirildi. Ermənilər xəyanət edərək, düşmən tərəfinə keçdilər. Ermonilərdən təşkil edilmiş dəstə 11-ci Qırmızı ordu dəstələri ilə birlikdə üsyanın yatırılmasında fəal iştirak etdi. Bütün bunlann nəticosində Tortordo üsyançıları müvəqqəti olaraq sakitləşdirmək mümkün oldu.

*Gəncə üsyanı (1920)* 11-ci ordu komandanlığını daha ciddi təşvişə saldı. Həm bu üsyanın, həm də digər bölgələr-də baş verən üsyanların qarşısının alınması üçün 11 -ci ordu komandanı 1920 il mayın 26-da 60 nömrəli direktiv imzaladı. Azərbaycanda baş verən xalq hərəkatı ilə bağlı mayın 28-də Qafqaz cəbhəsi komandanı V.Gittis də xüsusi direktiv imzaladı. Cəbhə komandanı Zaqatala, Gəncə, Şuşa bölgələrində vəziyyətə nəzarət edilməsi üçün həmin yerlərdə lazımi qədər qüvvə saxlanılmasını lazım bildi. O, əsas vəzifə kimi, nəyin bahasına olursa-olsun, Bakıda vəziyyətə nəzarət olunması, neft mədənlərinin və qurğularının qorunması haqqında göstəriş verdi.

Azərbaycanda Moskvanın dayağı olan qüvvələr Bakının xaricdən qorunmasını təmin etməklə bərabər, onun da-xilində də işğal rejimini möhkəmləndirmişdilər. Xüsusi şöbənin əməkdaşları şübhələndikləri adamlan terrorla aradan götürürdülər. Əhalidə saxlanılan silahlar toplanırdı. Sovet rejiminə qarşı ən adi hərəkətlərə görə amansız tədbirlər görülürdü. Bu baxımdan Bakı şəhər qarnizonu rəisinin iyunun 7-də imzaladığı əmr səciyyəvidir. Əmrin imzalanmasına səbəb kimi Abşeron yarımadasında qırmızı hərbçilərin əhali tərəfındən öldürülməsi, yaralanması, bozilərinin isə itkin düşməsi göstərilirdi. 11-ci ordu komandanlığı bu ha-

downloaded from KitabYurdu.az

disələri kütləvi üsyana xəbərdarlıq kimi qəbul edir və əhalinin narazılığını yerindəcə boğmağa çalışırdı. Ona görə, qarnizon rəisi Bakı kəndlərinin əhalisindən evlərində saxladıqları silahları təhvil verməyi tələb edirdi. Kənd sakinləri isə qarnizon rəhbərliyinin tələblərinin əksinə olaraq, özlərini qorumaq üçün saxladıqları silahları təhvil verməyə meyl göstərmirdilər. Belə olduqda, sakinlərdən 10 nəfər girov götürülmüş və bir neçə gündən sonra güllələnmişdilər. Lakin 11 - ci ordu komandanlığının həyata keçirdiyi tədbirlər əhalinin narazılığını daha da artırdı.

Gəncə üsyanından sonra növbəti kütləvi üsyan Qarabağda və Zaqatala bölgəsində baş verdi [bax *Qarabağda antisovet üsyanı (1920), Zaqatalada antisovet üsyanı (1920)]*.

Qarabağdakı üsyanın vüsət aldığı bir vaxtda Azorbaycanın digər ərazilərində də sovet rejiminə qarşı xalq üsyanları baş verdi. Kür və Qanıq (Alazan) çaylarının qovuşacağında sovet hakimiyyətindən narazı olan əhali 800 nəfərlik silahlı dəstə yaratmışdı. Dəstənin sorəncamında 2 top və 8 odəd pu-lemyot var idi. Qəbələdə bütün müsəlmanlar işğalçılar əleyhinə müqəddəs müharibəyə (cihada) çağırıldı. Bu çağırışa səs verənlər Şəkidən 50 verst cənub-şərqdə olan Xaçmaz kəndinə toplanırdı. Xalq könüllüləri Şamaxı-Quba yolu ilə şimala doğru hərəkət edib Azərbaycanın Sovet Dağıstanı ilə əlaqələrini kəsməli idi. 3000 nəfərlik başqa bir silahlı dəstə Cavad qəzasında, Saathda yaradılmışdı. Dəstə onlara qarşı göndərilmiş 28-ci diviziyanın 2-ci süvari alayına hücum etdi. Toqquşmalar nəticəsində üsyançılar ağır tələfat verdilər.

1920 ilin yayında Şəmkirin Müsgürlü kəndində də sovet rejimi əleyhinə üsyan baş verdi. Qırmızı ordu hissələrinə müqavimot göstərmək üçün burada da yerli əhalidən silahlı dəstə təşkil olunmuşdu. Digər bölgələrdə olduğu kimi, 11-ci ordu komandanlığı buradakı üsyanın da yatırılmasına böyük qüvvələr göndərdi. Şəmkirdə sovet qüvvələrinə qarşı qadınlar və uşaqlar da vuruşurdular. Payızda burada alovlanan başqa bir üsyana Namaz adlı bir kəndli rəhbərlik edirdi. Üsyançılar 500 nəfərlik dəstə ilə qəzanın böyük bir hissəsində sovet rejimini ləğv etmişdilər. Qırmızı ordunun çoxsaylı hərbi qüvvələri bu üsyanı da böyük qəddarlıq və amansızlıqla yatıraraq, yerli əhaliyə divan tutdu.

Avqustun 23-də Quba qəzasında Küzün kəndinin əhalisi silahlı üsyan qaldırdı. Onlar kənddə iki nəfər milisi öldürdülər və yeni hakimiyyətə itaətsizliklərini bəyan etdilər. Üsyanın qarşısını almaq üçün qəza komitəsi kəndə 4-cü süvari alayından 45 nəfərlik (30 nəfər süvari, 15 nəfər piyada) dəstə göndərdi. Lakin dəstə üsyanı yatıra bilmədi və çoxlu itki verdi. Dəstədən yalnız 6 nofər xilas oldu. Qubanın hərbi komissan Küzün kəndində sovet hakimiyyotinin bərpa olunması üçün bir taqım və pulemyotçu göndərdi. Avqustun 26-da Küzün kəndinin üsyançıları ilə sovet qüvvələri arasında yeni döyüş oldu. Kənd əhalisi bu dəfə də sovet qüvvələrinə ciddi müqavimət göstərdi. Avqustun 29-da Qubanın 4 verstliyində (1 *verst* = 1,0668 *km)* sovet qüvvələri ilə üsyançılar arasında yeni vuruşma baş verdi. 100 nəfərlik sovet qüvvələri xeyli itki verdilər. Avqustun sonu - sentyabrın əvvəllərində üsyançıların silahlı dəstəsi tam fonnalaşmışdı. Cümhuriyyət ordusunun podpolkovniki Əfəndiyevin rəhbərlik etdiyi dəstədə türk zabitləri də vardı. Üsyançılar xeyli pulemyot və beşaçılan tüfəng əldə etmişdilər. Sentyabrın 3-də səhər saat 7-də üsyançılar Dəvəçi-Xaçmaz üzərinə hücum etdlər. Onların qarşısına 7-ci süvari dəstəsi çıxarıldı. Gərgin döyüşdən sonra sovet-bolşevik döyüşçüləri mövqelərini qoruyub saxlaya bildilər.

Quba ərazisində mövcud olan güclü dəstələrdən birinə də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin keçmiş deputatı Həmdulla əfəndi *Əfəndizadə* rəhbərlik edirdi. Sovet rejimi üçün təhlükəli xarakter alan bu üsyanlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1920 il sentyabrın 9-da keçirilən plenumunda ciddi müzakirə edilmişdi. Plenum Quba üsyanını yatırmaq üçün Əliheydər Qarayev və Qoqoberidzeni ora ezam etmək barədə qərar qəbul etdi. Üsyan sentyabrın birinci ongünlüyünün sonlarına qədər davam etdi. Çətinliklə yatırılan Quba üsyançılarınm böyük silahlı dəstələrindən birinin rəhbəri Həmdulla əfəndi Şamaxı ilə sərhəd olan yüksək dağ kəndlərinə çəkildi. Üsyançı kəndlər isə qırmızıların nəzarəti altına keçdi.

Sovet hakimiyyətinə qarşı vuruşan böyük üsyançı dəstələrdən biri də Muğanda formalaşmışdı. 1920 il avqustun sonundan başlayaraq bu dəstənin fəaliyyəti bölgənin bir çox kəndlərində sovet hakimiyyəti orqanlarının devrilməsi ilə başa çatmışdı. Sovet qüvvələri Qaradonlu (indiki İmişli) otrafında üsyançı dəstəni məhv etməyə cəhd göstərsə də, bu cəhd nəticəsiz qaldı. Qaradonlu ətrafındakı 7 kənd də üsyançılara qoşuldu. Bu kəndlərin birləşmiş silahlı dəstəsinə Sarıxan rəhbərlik edirdi. Həmin dəstə xeyli gücə malik idi. Cavad qəzası İnqilab Komitəsinin sədri Baxtamov Bakıya göndərdiyi raportlarında israrla əlavə kömək göndərilməsini xahiş edirdi. Sanxanın 4 minlik dəstəsinin qarşısını almaq üçün qəzada kifayət qədər qüvvə yox idi. Usyançı dəstə yerlərdəki sovet qüvvələrinin müqavimətini qıraraq, sentyabrın 21-də qəzanın daha bir neçə kəndini qırmızılardan təmizlədi. Kəndlərdə olan milislər də üsyançıların tə-rəfinə keçdilər. Qəza roisi sentyabrın sonlarına aid raportlarının birində sovet hakimiyyətinin qəzadakı mövqeyinin getdikcə mürəkkəbləşdiyini və yaxın vaxtlarda təcili tədbirlər görülməzsə, Salyana qədər olan ərazilərin üsyançıların nəzarəti altına kcçəcəyini bildirirdi. Qəza rəisi sovet hakimiyyətinin möhkəmləndirilməsinin yeganə yolunu 11-ci ordu qüvvələrinin göndərilməsində ora görürdü. Çünki bölgədəki hərbi qüvvənin əsgər və komandirləri xalqla bir olduğundan üsyançılara qarşı çıxış etmirdilər.

Azərbaycanın cənubunda ən kütləvi antisovet üsyanı Lənkəran-Astara bölgəsində baş verdi [bax *Lənkəran üsyanı (1920)]*. Bu bölgədəki üsyanların əsas dalğası 1920-22-ci illərə təsadüf edir. Azərbaycanında sovet hakimiyyətinə qarşı çıxışlar 20 əsrin 30-cu illərində və ondan sonra da müxtəlif formalarda davam etmişdir.

*Əd:* Azərbaycan tarixi, 7 cilddə c.6, B., 2000; XX əsr Azərbaycan tarixi, c.2. B., 2004; İbi şov F., Azərbaycanın kəndində sosial-siyasi proseslər (1920-1930), B., 1996; Qaffarov T., Azərbaycan tarixi (1920-1991), B., 1999; Ибрагимов Б., Жизнь отданная народу, Б., 1989.

downloaded from KitabYurdu.az

**SOVET-TÜRKİYƏ MÜQAVİLƏSİ (1921)** Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə arasında "Dostluq və qardaşlıq" haqqında müqavilə [bax *Moskva müqaviləsi (1921)]*.

**SOVETLƏR** - Rusiyada seçkili siyasi təşkilatlar. 1905-07 illər inqilabının gedişində yaranmış, inqilabın məğlubiyyətindən sonra fəaliyyətini dayandırmışdı. *Fevral inqilabından (1917)* sonra Rusiyanın hər yerində Sovetlər yenidən təşkil edildi. 1905-07 illər inqilabı dövründən fərqli olaraq, bu dəfə vahid Fəhlə və Əsgər Deputatları Sovetləri yaradılırdı. Eyni zamanda, kəndli deputatları sovetləri də təşkil olunurdu. Cəbhədə Əsgər komitələri fəaliyyət göstərməyə başlamışdı. 1917 il fevralın 27-də (martın 12-də) təşkil olunmuş Petroqrad Fəhlə və Əsgər deputatları soveti Ümumrusiya soveti funksiyasını yerinə yetirirdi. Lenin 1917 il Aprel tezislərində Sovetlər respublikası yaradılmasını proletariat diktaturasının dövlət forması kimi irəli sürmüşdü. Oktyabr çevrilişindən (1917) sonra İkinci Ümumrusiya Sovetlər qurultayı bütün hakimiyyətin Sovetlərə keçməsini qanunvericiliklə təsbit etdi. 1918 ilin martında sovct Rusiyasında Sovetlərin vahid sistemi yaradıldı. Sovet hakimiyyəti müxtəlif qeyri-demokratik vasitələrlə Sovetlərdə fəhlələrin üstünlüyünü tomin etdi. Cari işlərin apanlması məqsədilə Sovetlərin icraiyyə komitələri seçilirdi. Yaradılmış sistem RSFSR-in 1918 il konstitusiyasında, sonralar isə SSRİ konstitusiyalarında təsbit cdilmişdi.

Azərbaycanda ilk sovet 1905 ilin noyabrında mədən-zavod komissiyalarının scçdiyi Bakı Fəhlə Deputatları Soveti olmuşdur. 1905-07 illər inqilabının məğlubiyyətindən sonra sovet fəaliyyətini dayandırmışdı. Fevral inqilabından (1917) sonra Bakıda Fəhlə Deputatları Soveti yenidən təşkil olundu (1917, 7 mart). Eyni vaxtda əsgər və zabit deputatları sovetləri də yaradıldı və az sonra vahid hərbi deputatlar sovetində birləşdilər. Mayın 10-da fəhlə və hərbi deputat sovetləri birləşdirilərək, Bakı Fəhlə və Hərbi Deputatları Soveti yaradıldı. Sovetdə eser və menşeviklər üstünlük təşkil edirdi. Bolşeviklər sovetdə möhkəmlənməyə və hakimiyyəti ələ almağa çalışırdılar. 1917 il oktyabrın 31-də (noyabrın 13-də) Bakı rayonunda bütün hakimiyyətin Bakı Sovetinə keçməsi haqqında qətnamə qəbul edildi. Noyabrın 2 (15)-də Bakı Soveti İcraiyyə Komitəsi Bakıda ali hakimiyyət orqanı elan olundu, Sovetin adında hərbi sözü əsgərlə əvəz edildi. S.Şaumyanın başçılıq etdiyi Bakı Fəhlə və Əsgər Deputatları Soveti antiazərbaycan siyasətinin mərkəzinə çevrildi, 1918 ilin martında Azərbaycan xalqına qarşı soyqırımının təşkilatçısı və icraçısı oldu. Bakı Soveti 1918 il aprelin 25-də Bakı Xalq Komissarları Sovetini yaratdı və Azərbaycanın qəzalarında da sovet hakimiyyəti uğrunda mübarizəyə başladı. Lakin bu xətt iflasa uğradı. İyulun 31-də Bakıda sovet hakimiyyəti yıxıldı. Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* tərəfindən Bakı azad olunduqdan sonra, Azərbaycanın digər yerlərində olduğu kimi, burada da Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət orqanlarının fəaliyyəti bərqərar edildi. 11-ci Qırmızı ordunun köməyi ilə Azərbaycan Xalq Cümhuriyyətini devirən sovet Rusiyası Azərbaycanda sovet hakimiyyətinin qurulduğunu elan etsə də, onun hakimiyyət orqanı Hərbi İnqilab Komitəsi oldu. 1920 ilin sentyabrından yoxsul komitələri yaradılmağa başlanmışdı. Bu, ölkədə sovetlərin yaranması üçün əlverişli şəraitin olmadığını göstərirdi. Sovetlərin "yuxarıdan" tətbiqi üçtin müəyyən vaxt və qeyri-demokratik tədbirlər (seçki hüququnun məhdudlaşdırılması və s.) həyata keçirilmişdi. Azərbaycan SSR-də Sovetlərin hakimiyyəti 1921 il Konstitusiyasında təsbit edildi. 1991 ildə Azərbaycanın yenidən müstəqillik əldə etməsindən sonra Sovetlərin hakimiyyətinə son qoyulmuşdur.

*Əd.:* Azərbaycanın tarixi, 7 cilddə, c.5, B., 2001; Əzimov II., Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər), B.,1971; İbrahimov Z., Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917- 1918-ci illər), B., 1957; Очерки истории Коммунистической партии Азербаиджана, т.1, Б., 1985.

**SOYQIRIMI,** g e n o s i d - bütöv əhali qruplarının, etnosların irqi, milli, etnik, yaxud dini əlamətlərə görə tamamilə və ya qismən məhv edilməsi. Azərbaycan xalqı dünyanın ən dəhşətli soyqırımlarına məruz qalmış xalqlarındandır. Rusiya-İran müharibələri (1804-13; 1826-28) nəticəsində bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən, Şimali Azərbaycan xanlıqları Rusiyaya ilhaq edildikdən və Rusiya-Türkiyə müharibəsini (1828-29) başa çatdıran Ədirnə sülhünə (1829) görə, Türkiyə digər dövlətlərlə yanaşı, həm də Cənubi Qafqazın çox hissəsinin Rusiyaya ilhaq olunmasını tanıdıqdan sonra Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölüşdürülməsinin əsası qoyuldu, ona qarşı soyqırımları dövrü başlandı. Car Rusiyası Cənubi Qafqazın şimal hissəsində xristian əhalini yerləşdirməklə, yeni inzibati ərazi vahidi yaratmaq və gələcəkdə İran və Türkiyə tərəfdən gözlənilə bilən tohlükoni aradan qaldırmaq barədə hələ 18 əsrin əvvəlindən hazırlanmış planını gerçoklоşdirmoyə başla-dı. Bu məqsədlə çarizmin müttəfiqi olan ermənilər kütləvi şəkildə İran və Türkiyədən Şimali Azərbaycan torpaqlarına köçürüldü. Təkcə 1828 ildən 1830 ilədək Cənubi Qafqaza İrandan 40 mindən, Türkiyədən isə 84 mindən çox erməni köçürülərək, Şimali Azərbaycan ərazisində yaradılmış Yelizavetpol və İrəvan quberniyalarının ən münbit torpaqlarında yerləşdirildi (bax *Köçürmə siyasəti).* İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində xüsusilə intensiv surətdə məskunlaşdırılan ermənilər yerli zərbaycanlılarla müqayisədə xeyli azhq təşkil etmələrinə baxmayaraq, çar Rusiyasının himayəsi altında 1828 il martın 21-də *"Erməni vilayəti"* adlandırılan süni inzibati bölgü yaradılmasına nail oldular; bununla da, azərbaycanlıların əzəli torpaqlanndan qovulmasının və soyqırımı siyasətinin bünövrəsi qoyuldu. Mifık "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. 19 əsrin 2-ci yarısından sonra təşkilatlanmağa başlayan ermənilər Birinci rus inqilabı (1905-07) dövründə yaranmış şəraitdən istifadə edərək, azərbaycanlılara qarşı geniş miqyaslı qanlı aksiyalar törətdilər. Ermənilərin 1905 ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan əra-

downloaded from KitabYurdu.az

zisindəki yaşayış məntəqələrini əhatə etdi; yüzlərlə Azərbaycan kəndi dağıdıldı, on minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi (bax *Min doqquz yüz beşinci il soyqırımı).* Bütün bu vəhşiliklər ermonilərin vaxtilə yerləşdirildikləri, lakin ohalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycanın torpaqlarını zorla erməniləşdirmək, bədnam "azərbaycanlılarslz Ermənistan" kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımıı hesabına həyata keçirmək niyyətindən xəbər verirdi.

1905-07 illərdə öz mənfur məqsədlərinə nail ola bilməyən ermənilər *Birinci dünya müharibəsindən (19/4-18),* Rusiyada baş vermiş *Fevral inqilabından (1917)* və *Oktyabr çevrilişindən (1917)* istifadə edərək sərsəm "Böyük Ermənistan" ideyalarını bolşevik bayrağı altında gerçəkləşdirməyə ciddi səy göstərdilər. 1918 ilin martından erməni-daşnak S.Şaumyanın başçılıq etdiyi Bakı Kommunası "əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən soyqırımı planını həyata keçirməyə başladı. Nəticədə, 1918 il martın 31-dən aprelin 2-dək təkcə Bakı şəhərində 12 min nəfərdən çox azərbaycanlı ermənilər tərəfindən soyqırımına məruz qaldı [bax *Mart soyqırımı (1918)].* 1917-18 illər-də ermənilər Zəngəzurda 115 (bax *Zəngəzur qırğınları),* Qarabağda 157 (bax *Qarabağda azərbaycanlılara qarşı soyqırımları),* Qubada 122 (bax *Quba qırğınları),* İrəvan quberniyasında 211 [bax *Naxçıvan bölgəsində soyqırımları (1917-20)],* Gəncə ətrafında 272, Ağsu, Kürdəmir və Lənkəranda 130 yaşayış məntəqəsinin əhalisini vəhşicəsinə qırmış, kəndləri talan edərək yandırmışdılar. Təkcə 1918 ildə Şamaxı şəhərindo 7 min (bax *Şamaxı qırğınları),* Quba şəhərində 2 min, Zongəzurda 3 mindən çox, İrəvan quberniyasında 135 min, Cənubi Azərbaycanın Xoy və Səlmas şəhərlərində 130 min azərbaycanlı, Urmiya şəhərində bir gecədə 500 azərbaycanlı ailəsi (12 min nəfər) qətlə yetirilmişdi (bax *Cənubi Azərbaycanda soyqırımı).* 1919-21 illər-də Naxçıvanın 100 mindən bir qədər artıq əhalisinin 73720 nəfəri ermənilər tərəfındən öldürülmüş, İrəvan quberniyasının 1916 ildəki 375 min nəfərlik azərbaycanlı əhalisinin sayı azalaraq, 1922 ildə 70 min nəfərə enmişdi.

Beləliklə, 1918-20 illərdə ermənilər yüz minlərlə azərbaycanlını qətlə yetirmiş, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələrini məhv və talan etmişdilər.

Cənubi Qafqazın sovetləşməsindən məkrli niyyətləri üçün istifadə edən ermənilər tez bir zamanda "bolşevikləşərək", Azərbaycan xalqına qarşı soyqırımı siyasətini Azərbaycan SSR-in özündə də qəddarlıqla həyata keçirə bilmişdilər. 1920 ilin aprelindən 1921 ilin avqustunadək Azərbaycanın SSR-də rəhbər vəzifələrə soxulmuş ermənilərin əli ilə rəsmi məlumatlara görə daha 48 min nəfər azərbaycanlı məhv edilmişdi. Bu proses 30-cu illər repressiyası dövründə DTK orqanlarında yuva salmış xain xislətli ermənilər tərəfindən daha məkrli şəkildə davam etdirilmiş, nəticədə, xalqımızın yüzlərlə say-seçmə ziyalıları - şairlər, alimlər məhv edilmiş, elm və mədəniyyətimizə ağır zərbə vurulmuşdur.

20 əsrin 20-30-cu illərində Azərbaycanın Zəngəzur qəzası və bir sıra digər əraziləri SSRİ hökumətinin qərarı

*Bakı Mart soyqırımı günlərində. 1918*



downloaded from KitabYurdu.az

ilə Ermənistana birləşdirilmiş, hələ İkinci dünya müharibəsi ərəfəsində kütləvi kolxoz hərəkatı və repressiya illərində Ermənistan SSR-dən repressiyaya məruz qalanların əksəriyyətini azərbaycanlılar təşkil etmişdi.

20 əsrin 30-cu illərində Qərbi Azərbaycanın Vedibasar, Zəngibasar, Qərnərli, Dərələyəz, Ağbaba və digər bölgələrinin 50 min nəfərdən artıq azərbaycanlı əhalisi Qazaxstan çöllərinə sürgün olunmuşdu. Sərt iqlim şəraitinə uyğunlaşa bilməyən azərbaycanlıların xeyli hissəsi tələf olmuşdu. Sürgün müddəti başa çatmış bir çox azərbaycanlılar isə sonralar müxtəlif bəhanələrlə Ermənistan SSR-ə buraxılmamışdılar.

Ermənilər İkinci dünya müharibəsindən (1939-45) sonrakı dövrdə də azərbaycanlılara qarşı deportasiya və soyqırımı siyasətini daha geniş miqyasda davam etdirərək, SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947 il 23 dekabr tarixli xüsusi qərarının qəbul edilməsinə və 1948-53 illərdə Azərbaycanınlıların kütləvi sırətdə (100 min nəfərdən çox) öz tarixi-etnik torpaqlarından deportasiyasına nail oldular.

Erməni millətçiləri 20 əsrin 50-ci illərindon etibarən Azərbaycan xalqına qarşı iyrənc mənəvi tocavüz kampaniyasına başlayaraq, mədəniyyətimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu "sübut etməyə" cəhdlər göstərirdilər, bütün dünyada azərbaycanlıların mənfı obrazlarını formalaşdırmaq üçün ən çirkin, böhtanvə iftiralara əl atırdılar. Bunun ardınca isə ermənilərin 1987 il-dən törətdikləri yeni münaqişənin - qondarma Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlı Ermənistandakı tarixi-etnik torpaqlarından qovuldu. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə qatılması haqqında qeyri-konstitusion qərar qobul edildi. Azərbaycan xalqı o zaman SSRİ-nin partiya və dövlət rohbərliyini ələ keçirmiş ermənipərəst M.S.Qorbaçovun göstərişi ilə SSRİ hökumətinin bu açıq-aşkar işğalçılıq aktma heç bir mənfı reaksiya verməməsini qəzəblə qarşıladı və siyasi etiraz aksiyalarına əl atmaq məcburiyyətində qaldı; etiraz mitinqlərində torpaqlarımızın işğalı siyasəti hamılıqla lənətləndi. Buna cavab olaraq, SSRİ hökuməti Azərbaycanda getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya, əsasən, ehtiyatda olan erməni əsgər və zabitlərindən təşkil edilən qoşun hissələri yeritdi, 1990 il yanvarın 19-dan 20-ə keçən gecə yüzlərlə dinc azərbaycanlı məhv və şikəst edildi, yaralandı, müxtəlif fiziki təzyiqlərə məruz qaldı (132 adam öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu, bir çoxları itkin düşdü).

1992 ilin fevralında ermənilər Azərbaycanın Xocalı şə-horinin əhalisinə vəhşicəsinə divan tutdular, Azərbaycan

*Bakıda Mart soyqırımı. 1918*



downloaded from KitabYurdu.az



Şəhidlər Xiyabanı. Bakı şəhəri.

downloaded from KitabYurdu.az




Soyqırımı abidəsi. Naxçıvan şəhəri

downloaded from KitabYurdu.az



Xocalı soyqırımı. 1992

tarixində daha bir dəhşətli soyqırımı - Xocalı soyqırımım törətdilər; dinc azərbaycanlılar ağır işgəncələrə məruz qaldı, əsir götürüldü, məhv edildi, şəhər isə yerlə yeksan olundu. Təkcə fevralın 25-dən 26-a keçən gecə Rusiyanm, tərkibində xeyli erməni əsgər və zabiti olan Qarabağdakı 366-cı motoatıcı alayı ilə birgə Xocalıya hücum edən ermənilər 613 azərbaycanlını (o cümlədən 106 qadını, 63 uşağı, 70 qocanı) qətlə yetirdilər. Xocalı faciəsi zamanı 487 nəfər soydaşımız ömürlük şikəst oldu, 1275 dinc sakin əsir alındı, 150 nəfər itkin düşdü, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 70 uşaq isə bir valideynini itirdi. Beləliklə, dünyanın gözü qarşısmda ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımım törətdilər.

1988 ildən ermənilərin təcavüzü ilə başlayan və hələ də həll olunmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün uzunmüddətli faciə mənbəyinə çevrilmiş və xalqımızı çoxsaylı soyqırımı faktları ilə üz-üzə qoymuşdur. Həm də bunların hamısı bütün dünyada sülh və əmin-amanlıq üçün cavabdeh olan beynəlxalq təşkilatlarını - BMT-nin, ATƏT-in - onun Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə nizama salmaq məqsədilə yaradılmış Minsk Qrupunun gözləri qarşısmda baş vermişdir. Nəticədə, Azərbaycan ərazisinin 20 faizini təşkil edən 12 rayonu işğal olunmuş, 1 milyondan çox vətəndaşı qaçqın və məcburi köçkün düşmüş, 30 min nəfər azərbaycanlı öldürülmüş, 20 min nəfəri yaralanmış, 50 mindən artıq insan ömürlük əlil olmuş, 783 soydaşımız əsir almmış, 5 minə yaxm vətəndaşımız itkin düşmüşdür. Müharibə nəticəsində 877 şəhər, qəsəbə və kənd dağıdılmış və yandırılmış, 4 mindən çox təhsil, 2 mindən çox mədəniyyət ocağı, 700 səhiyyə müəssisəsi, məscidlər, məbədlər, tarixi abidələr, muzeylər və s. məhv edilmişdir. Bütövlükdə, 20 əsr ərzində 1,5 milyon azərbaycanlı erməni qəsbkarlarının əli ilə soyqırıma məruz qalaraq, qətlə yetirilmiş, 2 milyon vətəndaşımız qaçqına, didərgine çevrilmişdir.

Xocalı soyqırımı. 1992



Ermənilərin xalqımıza qarşı soyqırımı nəticəsində milyonlarla insan məhv edilsə və qaçqına çevrilsə də, bəşəriyyət əleyhinə bu cinayət bütün təfərrüatı ilə heç vaxt dünya ictimaiyyətinin mühakiməsinə çıxarılmamış, yüksək səviyyəli beynəlxalq məclislərdə ciddi müzakirə obyekti olmamışdır. Azərbaycanın özündə 1918 il mart qırğmlarına yalmz Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra, xüsusi diqqət yetirilmişdir. Cümhuriyyət Nazirlər Şurasının 1918 il iyunun 15-də bu faciənin tədqiq olunması məqsədilə yaratdığı *Fövqəladə Təhqiqat Komissiyası* mart soyqırımını, ilkin mərhələdə ermənilərin Şamaxıda, İrəvan quberniyası ərazisində törətdikləri vəhşilikləri, ağır cinayətləri araşdırmış, bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün xarici işlər nazirliyi nəzdində xüsusi quram təsis etmişdi. 1919 və 1920 illərdə martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd olunmuşdu. Əslində, bu, azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətlərinə və bir əsrdən artıq davam edən torpaqlarımızm işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət cəhdi idi və Cümhuriyyətin süqutu bu işi başa çatdırmağa imkan verməmişdi.

Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımlarının siyasi baxımdan qiymətləndirilməsinə Azərbaycanda milli azadlıq hərəkatının genişləndiyi ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində başlasa da, ona

downloaded from KitabYurdu.az



Xocalı soyqırımı. 1992

əsl və tam siyasi qiymət hemin illərin sonunda verilmişdir. Bu qiymət Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycanlıların soyqırımıı haqqında" 1998 il 26 mart tarixli fərmamnda bütün dolğunluğu ilə əksini tapmışdır. Fərmanda deyilir: **"Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarımızın zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.** Bu hadisələrin yakuz birinə - 1918 il mart qırğmma siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cüm-huriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarlann məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir". Həmin fərmanla martın 31 -i azərbaycanlıların soyqırımı günü elan edilmişdir.

*Əd.:* Əliyev Heydər, Müstəqilliyimiz əbədidir, 1-13-cü cildlər, B., 1997-2004; yene onun, Müstəqillik yolu (seçilmiş fıkirləri), B., 1997; Tariximizin faciəli səhifələri: Soyqırımı, B., 2000; Ordubadi M.S., Qanlı illər, B., 1991; Nəvvab M., 1905-1906-cı illərdə ermənimüsəlman davası, B., 1993; Əliyev M., Qanlı günlərimiz (1918-1920 illər), B., 1993; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1996; Deportasiya. Azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası, B., 1998; "Naxçıvan" jurnalı., N°5, Naxçıvan, 2001; Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya, B., 2003; Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.). КРАТКАЯ ХРОНОЛОГИЧЕСКАЯ ЭНЦИКЛОПЕДИЯ, Б., 2002.

**STOKS** S.V. (?-?)- Birinci dünya müharibəsi (1914-18) dövründə Cənubi Qafqazda B.Britaniya ordusu Baş qərar-gahının rəisi, polkovnik. B.Britaniyanm İrandakı səfırliyinin hərbi attaşesi ikən 1911 ildə Tehranda Məhəmməd Əmin Rəsulzadə ilə tanış olmuşdu. Rəsulzadə onu "İrandakı irtica qüvvələrini müdafıə edən Rusiya siyasətinin qatı müxaliflərindən" hesab etmişdir. 1918 il avqustun 4-də 600 nəfərlik ingilis hərbi dəstəsi Stoksun komandanlığı altında Bakı limanına daxil olmuşdu. Həm birinci, həm də general U.Tomsonun komandanlığı altında ikinci ingilis missiyasında geniş fəaliyyət göstərmişdir. General *D.Şatelvorqun* qərargahmda siyasi müşavir olmuşdur. Azərbaycan Parlamentinin açılışmm nəzərdə tutulduğu 1918 il dekabrın 3-də Stoks polkovnik Rolandsona təcili məktub göndərərək, müttəfiqlərin komandanlığı koalision Azərbaycan hökumətini tanımayınca Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılmasına imkan verməməsini tapşırmışdı.

Stoks B.Britaniya imperiyasının mənafeyi naminə istənilən ölkədə müsəlmanların rəğbətini qazanıb, dostluq mü-nasibətləri qurmağı gərəkli sayırdı. Qara dəniz və Xəzər dənizi sahillərindən Mərkəzi Asiyayadək müsəlmanları əhatə etməklə, vahid müsəlman dövlətinin yaradılması ideyasının qızğm müdafıəçisi olmuşdur. Əsasən, şiə müsəlmanlarının məskunlaşa biləcəyi bu dövlətin Kiçik Asiyada istənilən sünni türk dövləti ilə düşmənçilik edəcəyi ehtimal olunurdu. B.Britaniyanın tərəfini saxlayacaq şiə dövlətinin ingilislərin Asiya mülkləri ilə Rusiya arasında bufer dövlət olacağı nəzərdə tutulurdu. B.Britaniyanm Cənubi Qafqazdakı diplomatik missiyasının başçısı O.Uordropdan fərqli olaraq, Stoks müsəlman bufer dövləti yaradılmasının qızğın tərəfdarı idi. Stoks Azərbaycan Xalq Cümhuriyyətinin hökumət başçıları ilə dövlətin beynəlxalq vəziyyəti, xarici siyasəti haqqında danışıqlar aparmış, təkliflər vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Fətəli xan *Xoyski* Qırmızı ordu qoşunlarının irəliləməsi ilə bağlı yaranmış vəziyyətdə B.Britaniyanın göstərə biləcəyi hərbi yardım barəsində O.Uordrop ilə damşıqları Stoks vasitəsilə aparmışdır. Sonralar Stoks Cənubi Qafqazda B.Britaniyanın Baş komissarı təyin olunmuşdu.

Qafqaz müsəlmanları Stoksun təyinatı ilə B.Britaniyanın siyasətinin onlarm xeyrinə dəyişiləcəyinə əmin idilər. Lakin Stoks 1921 il martın 10-da öz qərargahı ilə birlikdə Batumu tərk etmiş və bununla B.Britaniya ilə Cənubi Qafqaz dövlətləri arasında rəsmi münasibətlər kəsilmişdir.

**SUİ-QƏSD EDƏNLƏRİN VƏ QİYAMÇILARIN MƏSULİYYƏTİ HAQQINDA QANUNLAR KÜLLİYYATININ BƏZİ MADDƏLƏRİNƏ DƏYİŞİKLİKLƏR** - dövlət quruluşunun devrilməsini nəzərdə tutan cinayət hərəkətləri ilə mübarizeni gücləndirmək məqsədilə qəbul olunmuş hüquqi sənəd. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919 il 13 oktyabr tarixli iclasmda qüvvədə olan Qanunlar külliyyatının "Qiyamlar və hökumət əsaslarma sui-qəsd edənlərin məsuliyyəti haqqında" fəslinin, dövlət quruluşunun devrilməsinə, parlament sədrinin, hökumət sədrinin yaxud üzvlərinin həyatma və ya azadlığma qəsd etməkdə, parlamentin işinə mane olmaqda, ağır cinayətlərə təhrikçilikdə iştirak etməkdə təqsirkar bilinənlər barəsindəki 99-105 və 129-cu maddələrinə bir sıra əlavə və dəyişikliklər etdi. Dəyişikliklərə əsasən parlamentin sədri, hö-

downloaded from KitabYurdu.az

kumətin sədri və üzvlərinin həyatına və azadlığına qəsd edənlər, Cümhuriyyət ərazisində güc tətbiq etmək yolu ilə dövlət quruluşunu devirməyə və ya onun bir hissəsini ayırmağa cəhd göstərənlər müddətli və ya müddətsiz olaraq katorqa cəzasına məhkum olunmalı idilər.

Qorxutmaq və ya güc tətbiq etməklə parlament üzvlərinə öz vəzifələrini yerinə yetirməyə imkan verməyən, habelə güc tətbiq etməklə Parlamentin işinə mane olmağa cəhd göstərən şəxslər həbsxanaya salınmalı və ya islah əmək düşərgələrinə göndərilməli idilər. Şifahi çıxışlarında və əsərlərində açıq şəkildə adam öldürmək, quldurluq, talançılıq, habelə əhalinin hər hansı bir qurumu üzərində güc tətbiq etməyə çağıranlar, cinayətkarlar, qanunları və məcburi qərarları pozanlar, qüvvədə olan qanunlar əsasında əsgəri mükəlləfıyyəti yerinə yetirməyənlər habelə, öz vəzifələrini yerinə yetirməkdən imtina edən hərbi vəzifəli şəxslər barədə 6 ildən çox olmayaraq katorqa cəzası nəzərdə tutulurdu.

*Əd.:* Адрес-календарь *Азербаиджанской Республики Б.,* 1920.



**SULKEVİÇ** Süleyman bəy (20.7.1865, Vilno quberniyası, Litva- 15.7.1920)- hərbixadim, general-leytenant (1915), Azərbaycan Xalq Cümhuriyyəti ordusunun Baş Ərkani-hərb (Baş qəargah) rəisi. Mənşəcə Polşa-Litva tatarlarındandır. Veronens kadet kor pusunu və Mixail Topçu məktəbini bitirmiş, poruçik rütbəsində ikən 1888 ıl oktyabrın 3-də Rusiyanın Bas Qərargah Akademiyasına daxil ol muşdu. Sonradan qərargah zabiti kimi Odessa hərbi dairəsində xidme tini davam etdirmişdir. 1899 ildə M.Sulkeviç həm podpolkovnik rütbəsi, həm də Müqəddəs Stanislav ordeninə layiq görülmüş, Odessa hərbi dairəsi qərargahının baş yavəri vəzifəsinə təyin olunmuşdu. 1904-05 illər Rusiya-Yaponiya müharibəsində iştirak etmiş, xidmətlərinə görə 2-ci dərəcəli Müqəddəs Anna və 4-cü dərəcəli Müqəddəs Vladimir ordenləri ilə təltif edilmişdi. 1910 ildə general-mayor rütbəsinə layiq görülərək İrkutsk hərbi dairəsinin general-kvartirmeysteri vəzifəsinə irəli çəkilmişdi. 1912 ildə ona 7-ci ordu korpusunun qərargah rəisi vəzifəsi həvalə olunmuşdu. 1915 il aprelin 26-da M.Sulkeviçə növbəti general-leytenant rütbəsi verilmişdi. Birinci dünya müharibəsi (1914-18) illərində yaradılmış ilk Müsəlman korpusunun komandiri olmuşdur. Krımda yaradılan tatar hökumətinin sedri seçilmişdi. Denikinin qoşunları 1918 ilin axırlarında müstəqil Krım-tatar hökumətini aradan qaldırdıqdan sonra 1919 ilin martında Sulkeviç Azərbaycana gəlmişdir (bu vaxtdan o, Azərbaycanda Məmmed bəy Sulkeviç kimi tanınmışdır).

Sulkeviçin Baş Ərkani-hərbin (Baş qərargah) rəisi təyin edilməsi ilə (1919, 19 mart) Azərbaycanın milli qoşun hissələrinin formalaşdırılması sürətləndirildi, onların döyüş hazırlığı xeyli təkmilləşdirildi. Onun rəhbərliyi ilə hissə və birləşmələrdə çavuş məktəbləri yaradıldı, döyüş hazırlığının proqram və cədvəlləri tərtib edildi, qoşun və agentura kəşfiyyatı işinin təşkilinə diqqət artırıldı. Bakıdakı ingilis qüvvələri komandanlığı ilə razılaşma əsasında ingilis toplarının öyrənilməsi üçün 50-80 nəfərlik qrupun yaradılamasına nail olundu. Həmin qrupda dərsləri ingilis zabitləri aparırdı. Qoşun hissələrinin atəş hazırlığmm yüksəldilməsi üçün Sulkeviç 1919 ilin mayında Gəncə, Xankəndi, Şəki, Zaqatala, Qusar və Bakı qarnizonlarının rəisləri qarşısında ateş meydanlarının təchiz olunması məsələsini qoydu. Atəş hazırlığı üçün metodik göstərişlər və rəhbər sənədlər hazırlandı.

Hərbi məktəblərin zabit və yunkerlərinin geyim forması, ölkədə səfərbərlik planının hazırlanması istiqamətində görülən işlər də Sulkeviçin rəhbərliyi ilə həyata keçirilirdi. Denikin təhlükəsi güclənərkən Bakı müdafiə sisteminin, Bakınm dənizdən və qurudan müdafiəsinin, Abşeronun, şimal sərhədinin müdafiə sistemlərinin qurulması da Sulkeviçin gördüyü əhəmiyyətli işlərdəndir. Bakı limanındakı bəzi ticarət və nəqliyyat gəmilərinin hərbiləşdirilərək, şəhərin müdafiəsinə cəlb edilməsi ideyası da ona məxsus olmuşdur. Səfərbərlik elan ediləcəyi təqdirdə dəmir yolu xətlərinin qorunması haqqında təlimat, Ermənistanm və *Könüllü ordunun* Azərbaycana təcavüzünün geniş miqyas alacağı halda qoşun hissələrinin yerləşdirilməsi, müharibə başlanarsa, Gəncədə arxa cəbhə komandanlığının yaradılması planları və digər mühüm sənədlər Sulkeviç tərəfindən hazırlanmışdı.

Sulkeviç 1920 ilin yanvarın Qarabağda vəziyyətin sabitləşdirilməsi və qoşun hissələrinin möhkəmləndirilməsi istiqamətində konkret tədbirlər həyata keçirərək, erməni-daşnak silahlı dəstələrinin ləğv edilməsi üçün azərbaycalı hərbi pilətlarm Gürcüstan təyyarələrində döyüşə cəlb edilməsi barədə təkliflər irəli sürmüşdü.

1920 il fevralın 17-də öz xahişi ilə ordu sıralarından tərxis edilən Sulkeviç az sonra Nazirlər Şurasının qərarı ilə, Bakıdan keçərək, Rusiyaya gedən Könüllü ordu qalıqlarından silah və techizatı qəbul edən idarələrarası komissiyanın sədri təyin olunmuşdu.

*Aprel işğalından (1920)* sonra Sulkeviç bolşeviklər tərəfinden mtularaq, ölümə məhkum edilmişdir.

*Əd.:* Süleymanov M., Mehmandarov, B., 2000; Гришин Я., Шарафтудинов Д., Отчизны верны сыны, Казань, 2001.



**SULTAN VI MƏHƏMMƏD** (1861 - 1926) - sonuncu Osmanlı sultanı. 1918 ildə vəfat etmiş V Məhəmmədin yerinə şahzadə Vahidəddin VI Məhəmməd adı ilə taxta çıxmışdır. 1918 il sentyabrn 6-da VI Məhəmmədin Qılıncas ma mərasimi zamanı sultanın bir sıra nümayəndəliklər arasında birinci olaraq məhz Azərbaycan nümayəndələrini qəbul etməsi o zaman Azərbaycanın beynəlxalq vəziyyətinə müsbət təsir göstərmişdi. Qəbul zamam sultan Azərbaycan nümayəndələri tərəfindən təbrik edilməsini "həyatında xoşbəxt bir hadisə" saydığını söyləmişdi.Həmin ilin oktyabrında isə VI Məhəmməd Azərbaycanın İstanbuldakı səla-

downloaded from KitabYurdu.az

hiyyətli nümayəndəsi Ə.M.Topçubaşovu qəbul etmişdi. Sultan Azərbaycana hər vasitə ilə kömək göstərəcəyini, Türkiyə və Azərbaycan xalqlarının qardaş olduqlarını bildirmişdi.

Atatürkün başçılığı ilə istiqlal savaşı qalib gəldikdən sonra, VI Məhəmməd 1922 il noyabrın 7-də İstanbuldan Maltaya qaçdı.

*Əd.:* H ə s ə n o v C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920), B., 1993; Nəsibzadə N, Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996.

**SULTANOV** Baxşəli bəy (?, Zəngəzur qəzasımn Tanzıvar k. - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qəranna (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabma ali təhsil almaq üçün xaricə göndərilməsi nəzərdə tutulmuş tələbələrdən biri. Şamaxı realnı məktəbini bitirmişdir. Don-Alekseyevsk Politexnik İnstitutunun dağ mühəndisliyi şöbəsində 3-cü kursadək oxumuşdur. Lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxaraq, geri qayıtmağa məcbur olmuşdur. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Rusiyaya göndəriləcək tələbələrin siyahısma daxil olunmuşdu. Lakin Vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürəkkəb vəziyyətdə oraya tələbə göndərmək mümkün olmamışdır. Sonrakı taleyi barədə məlumat aşkar edilməmişdir.

**SULTANOV** Cəlil bəy (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı. Azərbaycan Milli Şurasmın *"Azərbaycan Məclisi-Məbusanına seçkilər haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Parlamentə seçilmişdir. Əvvəlcə "Bitərəflər" fraksiyasına daxil olmuş, 1919 ildə bu fraksiyanın parçalanmasından sonra 8 nəfərdən ibarət böyük əksəriyyətlə birlikdə "Müsavat" fraksiyasına keçmişdi. "Bitərəflər"in "Müsavat" fraksiyası ilə birləşməsindən sonra Parlamentdə həlledici səsə malik "Müsavat və bitərəflər fraksiyası" yaranmışdı.



**SULTANOV** Eynəli bəy Çölü bəy oğlu (5.5.1866, Naxçıvan - 5.6.1935, Tiflis) - yazıçı, publisist. Naxçıvanda mollaxanada, qəza məktəbində oxumuş, İrəvan kişi gimnaziyasında təhsil almışdır (1880-86). 1880-ci illərdən Naxçıvanda maarif və mədəniyyət sahəsində fəaliyyət göstərmişdir. Onun təşəbbüsü ilə burada "Ziyalı məclisi", Naxçıvan teatrımn təməlini qoyan Müsəlman şiə incəsənəti və dram cəmiyyəti yaradılmışdır. Cəlil Məmmədquluzadə Ey-nəli bəyi əməl dostu, ilk müəllimi adlandırmışdır. Qars şəhər idarəsində mühüm işlər məmuru (1886-91), İrəvan quberniya idarəsində birinci dərəcəli dəftərxana xidmətçisi, İrəvan dairə məhkeməsində tərcüməçi, məhkəmə katibinin köməkçisi, mühüm işlər üzrə masa rəisi (1892-97), dairə məhkəməsində prokuror köməkçisi və prokurorun Naxçıvan mahalı üzrə köməkçisi (1897-1908) işləmişdir. 1908 ildən Tiflisdə yaşayan Eynəli bəy Sultanov burada çıxan dövri mətbuatla sıx əməkdaşlıq etmiş, "Novoye obozreniye" qəzetində məqalələri ("Azərbaycanlılar nə oxuyurlar", "Bir daha şiə müsəlmanlarının dini şəbihləri haqqında", "Şahtaxtinski və Şərq fonetik əlifbası", "Balıqçı və balıq nağılı") və hekayələri ("Kiçik sər-güzəşt", "Novruz ağa", "Çayı keç, sonra bərəkallah deyərsən", "Kürd qızı") dərc olunmuş, 1905-08 illərdə "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə müxbiri olmuş, "Zakavkazye" (Tiflis) qəzetində Müsəlman həyatı şöbəsinin müdiri işləmişdir. Sultanov mətbuatla yanaşı, pedaqoji sahədə də çalışmış, 1912-16 illərdə Tiflis qadın gimnaziyasında rus dilindən, əlilba sinfində ana dilindən dərs demiş, sinif nəzarətçisi olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Tiflisdə "Vozrojdenye" qəzetinin redaksiyasında işləmiş, digər qəzetlərlə əməkdaşlıq etmiş, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fəaliyyəti haqqında məqalələr yazıb, Qafqaz oxucularını məlumatlandırmışdır.

Eynəli bəy Sultanov geniş yaradıcılıq diapazonuna malik yazıçıdır. Bədii yaradıcılığa "Tatarka" ("Azərbaycan qızı") pyesi ilə başlamış, mövzusu xalq ədəbiyyatından alınmış və real həyatdan götürülmüş silsilə hekayələr yazmışdır. Publisistika ilə müntəzəm məşğul olmuş, bu sahədə böyük uğur qazanmışdır. Onun "Novəye obozreniye", "Kaspi", "Zakavkazye", "Zakavkazskayareç", "Vozrojdenye", "Yeni fikir", "Dan ulduzu" kimi müxtəlif dövri mətbuat orqanlarında dərc olunmuş məqalələrində azərbaycanlıların həyat və məişəti əks olunmuşdur. Öz millətini azad, müstəqil, mədəni xalqlar arasında görmək arzusu Sultanov publisistikasının əsas qayəsini təşkil edir. O. soydaşlarına müraciətlə yazırdı: ***"Mənim xalqım! Səni azad insanlar içərisində azad, xoşbəxtlər içərisində xoşbəxt, maarifçilər içərisində maarifçi görə biləcəyəmmi? "***

Əsəri: Seçilmiş hekayələri (tərtib edəni İzzət Maqsudov), B., 1966.

*Əd.:* Maqsudov İ., Eynəli Sultanovun publisistikası haqqında, Azərbaycan SSR EA Xəbərləri (ictimai elmlər seriyası), 1963, № 5; Mirəhmədov Ə., Alim və jurnalist, "Elm və həyat", 1970, № l; Həbibbəyli İ., Cəlil Məmmədquluzadə: Mühiti və müasirləri, B., 1997.



**SULTANOV** Həmid Həsən oğlu (26.5.1889, Qazax qəzasının Şınıx Ayrım k. - 1938) - Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində və sovet hakimiyyətinin qurulmasında fəal iştirak etmiş dövlət xadimi. 1900 ildə Tiflis gimnaziyasına daxil olmuş, 1906 ildə Bakıya gəlmiş, Balaxanıda işləmiş, 1907-09 illərdə Ramana mədənlərində çalışmış, fəhlələr arasında inqilabi təbliğat aparmışdır. 1907 ildən Rusiya Sosial Demokrat Fəhlə (bolşeviklər) Partiyasının üzvü olmuşdur. 1909-13 illərdə Leypsiq (Almaniya) politexnik institutunda oxumuşdur. 1914-17 illərdə Bakıda neft mədənlərində işləmişdir. Fevral inqilabından (1917) sonra bolşevik "Hümmət" təşkilatı Mərkəzi Komitəsin, həmin ilin dekabrından Bakı Soveti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. Bakıda Qırmızı qvardiya dəstələri Mərkəzi qərargahının məsul katibi, Qafqaz ordusu Hərbi İnqilab

downloaded from KitabYurdu.az

Komitəsinin üzvü idi. 1918 ilin mart soyqırımı zamanı Bakı Sovetinin tərəfində olmuşdur. Bakı Xalq Komissarları Sovetinin qəza müvəkkili, Bakı qəzası Kəndli Deputatları Soveti İcraiyyə Komitəsinin sədr müavini olmuşdur. Bakı XKS-nin süqutundan sonra Rusiya Kommunist (bolşeviklər) Partiyasının Həştərxan quberniyası komitəsi yanında Müsəlman kommunistləri bölməsinin təşkili ilə məşğul olmuşdur. 1919 ilin iyulunda Azərbaycan Xalq Cümhuriyyətinə qarşı gizli iş aparmaq üçün Bakıya göndərilmişdir. RK(b)P Qafqaz ölkə komitəsinin tərkibinə daxil idi. Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının 1-ci qurultayıda (1920, fevral) AK(b)P MK üzvü seçilmişdir. Azər-baycan Xalq Cümhuriyyəti Hökumətinə qarşı çevrilişin təşkilatçılarından olmuşdur. 1920 ilin yanvarın AK(b)P-nin Bakı Komitəsi yanında Əliheydər Qarayevin sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı silahlı üsyan təşkil etmək məqsədilə yaradılmış "Operativ qərargah"ın üzvü ıdi. 1920 il aprelin 27-də AK(b)P MK, RK(b)P Qafqaz Ölkə Komitəsi Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransı admdan hakimiyyətin fəhlə-kəndli hökumətinə təslim edilməsi haqqında ultimatumu Azərbaycan parlamentinə təqdim etmişdir. Sultanov AK(b)P-nin 2-ci qurultayındakı (1920, oktyabr) çıxışında bu barədə demişdi ki, hakimiyyətin devrilməsi üçün heç bir fəhləyə, heç bir kəndliyə göstəriş verilməmişdi: ***"Hakimiyyətin devrilməsində mən özün şəxsən iştirak etmişəm. Mən çox yaxşı başa düşürdüm ki, arxamızda MK-dan olan hörmətli yoldaşlar deyil, Yalamada yerləşən qırmızı siingülər dayanır... MK-ya ümid etmirdim ki, o işi ləngidə bilərdi".*** Sultanov Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin üzvü, xalq daxili işlər komissarı, Azərbaycan İnqilab Komitəsinin Gəncə quberniyasında fövqəladə komissarı olmuş, *Gəncə üsyamnın (1920)* yatırılmasında fəal rol oynamışdır. Sultanov xalq sənaye və ticarət komissarı, Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Komissarları Sovetinin sədri, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin katibi, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası xalq ticarət komissarının müavini və s. vəzifələrdə çalışmışdır. Repressiyaya məruz qalmışdır.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5-6, B., 2000-2001: Məmmədzadə N.B., Həmid Sultanov, B., 1966.



**SULTANOV** Xosrov Paşa bəy oğlu (10.5.1879, Zəngəzur mahalının Kürdhacı k. - 1947, Türkiyə) - Azərbaycan Xalq ümhuriyyətinin görkəmli dövlət və siyasi xadimi. Azərbaycan milli azadlıq hərəkatının fəal iştirakçısı.

Gəncə gimnaziyasında oxumuş, Novərossiysk Universitetinin tibb fakül təsini bitirmişdir (1903). Zəngəzur və Qarabağda topladığı zəngin bitki1 lərdən hazırladığı dərmanlarla kəndI lərə gedərək, xəstələri təmənnasız müalicə etmişdir. Vətən tarixini, ədəbiyyatmı və mədəniyyətini sevən ziyalılardan olan Xosrov bəy Şuşadakı evlərindən birini Şərq kitabxanası adlandırmış, quberniya işçilərinə Şərq xalqlarının tarix və mədəniyyətindən mühazirələr oxumuşdur.

Xosrov bəy Sultanov 1917 ildə "Müsavat" partiyasına daxil olmuş, Rusiya Müəssislər Məclisinə deputat seçilmişdir. Zaqafqaziya seyminin üzvii idi. 1918 ildə "İttihad" partiyasına keçmişdir. 1918 il mayın 28-də *İstiqlal bəyannaməsini* imzalayan 26 nəfərdən biri de Xosrov bəy Sultanov olmuşdur. Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən təsdiq olunan 1-ci hökumət kabinəsində hərbi nazir təyin edilmiş, Azərbaycan Milli Şurasının və Hökumətinin yaranmasını, onların məqsəd və vəzifələrini izah etmək, regionda qayda-qanun və əmin-amanlıq yaratmaq məqsədilə Nəsib bəy Yusifbəyli və Şəfi bəy Rüstəmbəyli ilə birlikdə ilk nümayəndə heyətinin tərkibində Gəncəyə göndərilmişdir. Xosrov bəy 1918 il iyunun 17-də Gəncədə təşkil olunan 2-ci hökumət kabinəsində əkinçilik naziri idi.

Xosrov bəy 1918-20 illərdə Qarabağm və Zəngəzurun daşnak-erməni quldur dəstələrindən təmizlənməsində qardaşı Sultan bəylə birlikdə müstəsna xidmət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Ermənistanın daşnak hökumətinin 1918 ilin yayından başlayaraq Zəngəzur bölgəsində azərbaycanlılara qarşı dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı siyasətinin, Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında törətdiyi kütləvi soyqırımılarının, vəhşiliklərin, qarətlərin qarşısını almaq məqsədilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarını Gencə quberniyasından ayırıb, Müvəqqəti Qarabağ general-qubernatorluğu yaratdı və Xosrov bəy Sultanovu 1919 il fevralın 12-də həmin qubernatorluğun general-qubernatoru təyin etdi.

Azərbaycan hökumətinin öz tarixi torpaqlarında general-qubernatorluq yaratması və Xosrov Paşa bəy Sultanovun bu vəzifəyə təyin etməsi haqqında qərarmı daşnaklar çox böyük narahatlıqla qarşıladılar. Ermənistan Xarici İşlər Nazirliyinin Rusiya hökumətinə, digər aparıcı dövlətlərə və beynəlxalq təşkilatlara çoxsaylı müraciətlərində, Azərbaycan hökumətinə etiraz notalarında, belə bir iddia irəli sürülürdü ki, guya bu bölgənin böyük bir hissəsi Ermənistan ərazisidir, Xosrov Paşa bəy isə guya ermənilərin düşmənidir.

Xosrov Paşa bəy Sultanov Şuşaya gələn kimi Qarabağda daşnak Andronik başda olmaqla erməni quldur dəstələrilə amansız mübarizəyə başladı, təhlükəli yerlərdə milli ordunun əsgərlərindən ibarət mühafızə dəstəsi yaratdı, Erməni Milli Şurası üzvlərinin Azərbaycandan çıxarılmasına nail oldu. Buna cavab olaraq erməni yaraqhları Şuşada silahlı toqquşma törətsə də, ertəsi gün - iyunun 6-da sülh əldə edilmiş, şəhərin dinc erməni əhalisi Xosrov bəy Sultanova üzrxahlıq məktubu yazaraq, erməni separatçılarının fıtnəkarlığına görə onun şəxsində Şuşanm müsəlman camaatından üzr istəmişdi. 1919 ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində Qarabağda, Zəngəzurda və ermənilərin ərazi iddiası irəli sürdüyü digər yerlərdə Azərbaycanın suveren hüquq-

downloaded from KitabYurdu.az

larının bərpa edilməsində Xosrov bəy Sultanov böyük xidmət göstərdi. Həmin ilin sentyabrında Azərbaycan hökuməti burada yaşayan ermənilərə mədəni muxtariyyət verdi. Xosrov bəy Sultanov *Aprel işğalından (1920)* sonra mühacirətdə yaşamış, "İttihad" partiyasının liderlərindən biri kimi partiyanın xarici ölkələr bürosunu formalaşdırmağa və ittihadçıları bir təşkilat ətrafında cəmləşdirməyə çalışmışdır. O, 1926 ildə Parisdən İrana gedərək, burada İttihadın Tehran və Təbriz komitələrini yaratmışdı. Xosrov Paşa bəy Türkiyədə olarkən 1941-45 illər sovet-alman müharibəsində əsir alınmış Azərbaycanınlıların həbs düşərələrindən azad olunmasına yaxından kömək göstərmiş, Fransada Azərbaycan xəstəxanası açmışdır.

*Əd.:* Azərbaycan tarixi. 7 cildda. c.5, B.. 2001: Məmmədova H.İ., Qarabağın gencral-qubematoru Xosrov bəy Sultanov, Azərbaycan Milli EA-nın Xəbərləri (tarix. fəlsəfə və hüquq seriyası), 1999, *№2*.



**SULTANOV** İsgəndər Rüstəm oğlu (25.5.1897, Zəngəzur qəz. - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı kommersiya məktəbini bitirmiş (1916), Şuşa qəza polis idarəsində işləmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet ha-kimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Sultanovun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

**SULTANOV** Mehdi bəy (1880-1937) - Azərbaycanın Xalq Cümhuriyyəti ordusunun zabiti, polkovnik. Cümhuriyyət ordusunun sıralarında 1918 ildən xidmət edirdi. 1919 il yanvarın 4-də hərbi nazirin əmri ilə podpolkovnik Sultanov Ləki topçu anbarının rəisi təyin edildi. Azərbaycan Hökumətinin 1919 il 24 noyabr tarixli qərarı ilə ona polkovnik rütbəsi verilmişdi. Hərbi nazirin 1920 il 9 yanvar tarixli əmri ilə o, 6-cı Göyçay piyada alayının komandiri təyin edilmişdi.

*Əd.:* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1994; Süleymanov M., Azərbaycan ordusu (1918-1920). B.. 1998. **SULTANOV** Sultan Paşa bəy oğlu (?, Zəngəzur mahalmm Kürdhacı kəndi - ?, Ərzurum) - Azərbaycanın Qarabağ və Zəngəzur bölgələrində erməni daşnaklar tərəfindən soydaşlarımıza qarşı soyqırımımn qarşısını alan, erməni hərbi birləşmələrinə, xüsusilə Andronikin quldur dəstəsinə divan tutan xalq qəhrəmanı. Xosrov Paşa bəy *Sultanovun* qardaşıdır. Qarabağda Andronikin, Hamazaspm, Dronun quldur-daşnak dəstələrinə öldürücü zərbələr endirərmişdir. Xalq arasında xeyirxahlığı, sədaqəti, silahlı dəstələrə bacarıqla rəhbərlik etməsi ilə məşhur idi. Sultan bəy Sultanov Sovet hakimiyyəti elan ediləndən sonra da ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər haqqında Azərbaycan İnqilab Komitəsinə dəfələrlə məlu-mat vermiş, təqiblərə məruz qalmış, İrana, sonra isə Tür-kiyəyə mühacirət etmişdir.

*Əd.:* Azərbaycan tarixi. 7 cilddə, c.6, B., 2000; Şüküroğlu L.. Cümhuriyyət lıökuməti repressiya məngənəsində, B.. 2000.

**SÜBHANVERDİXANOV** Abdulla bəy Vəli ağa oğlu-yazıçı, maarif xadimi, etnoqraf, folkorşünas. Azərbaycan Xalq Cümhuriyyəti dövründə daxili işlər nazirliyində tərcüməçi işləmiş. dövlət tərəfindən təşkil edilmiş kurslarda Azərbaycan dili fənnindən dərs demişdir (bax *Divanbəyli* Abdulla bəy).



**SÜLEYMAN İZZƏT BƏY** (? - ?) - Türkiyə hərbi xadimi. 1918 ildə Bakının daşnak-eser-menşevik-ingilis işğalmdan azad olunmasında fəal iştirak etmiş türk ordusu 15-ci diviziyasının komandiri. 1918 il avqustun axırlarında Türkiyə və Azərbaycan hərbi hissələrindən ibarət *Oafqaz İslam Ordusunu* Bakını azad etməyə hazırlaşdığı bir zamanda qəti həmlə üçün qüvvələrin azlığını yəqin edən komandanlıq əlavə kömək üçün Türkiyəyə müraciət etdi. Buna cavab olaraq daha bir diviziya - yarbay Süleyman İzzət bəyin 15-ci firqəsi avqustun 28-də Qarakilsə-Dilican-Ağstafa yolu ilə hərəkət edərək, sentyabrın 9-da Bakı ətrafına çatdı. Süleyman İzzət bəy və onun komandanlıq etdiyi 5-ci və 15-ci firqələr Azərbaycanın nizami və könüllü qüvvələrindən ibarət hissələrlə birlikdə sentyabrın 12-15-də Bakı uğrunda gedən döyüşlərdə böyük sücaət göstərdilər. Bakı azad olunduqdan sonra Süleyman İzzət bəyin başçılıq etdiyi 15-ci fırqə Dərbənd və Petrovsk-Port (Mahaçqala) şəhərlərini azad etməyə göndərildi. Oktyabrın 6-da Biçeraxovun hərbi qüvvələri darmadağın edilərək, Dərbənd azad olundu. Firqə noyabrın 8-də Petrovsk-Portu da azad etdi. Süleyman İzzət bəy sonralar 15-ci diviziyanın Azərbaycan və Şimali Qafqazdakı xilaskarlıq əməliyyatlarına həsr olunmuş əsər yazıb çap etdirmişdi.

Əsəri: 15 piyade fırkasının Azerbaycan ve Şimali Kafkasyadakı harekatı ve müharibelcri. "103 saylı Askcri mecmuanın tarih kısmı", 1936. № 4.

*Əd.:* Süleymanov M.. Qafqaz İslam Ordusu və Azərbaycan, B.. 1999.

**SÜLEYMAN SANİ** Axundov - yazıçı, maarif xadimi. Qori Müəllimlər Seminariyasım bitirmişdir (1894). Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-20) 4-cü türk məktəbində müdir işləmişdi (bax *Axundov* Süleyman Sani).
**SÜLEYMANOV** Əhməd xan (1862-?) - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yüksək rütbəli zabiti. Stavropol klassik gimnaziyasını bitirdikdən sonra rus ordusunun 84-cü Şirvan piyada alayında sıravi əsgər kimi xidmətə başlamışdır. Tiflisdəki piyada yunker məktəbi kursunu bitirmiş, podpraporşik rütbəsi almış (1885) və yenidən 84-cü Şirvan alayına qayıtmışdır. 1886 il iyunun 16-da Ə.Süleymanova podporuçik rütbəsi verilmiş və o, 83-cü

downloaded from KitabYurdu.az

Samur piyada alayına dəyişdirilmişdir. 1905 ilin dekabrında podpolkovnik, 1911 ilin aprelində ise polkovnik rütbəsi almışdı. 1914 ilin avqustundan 1915 ilin avqustunadək Qroznı piyada alayının komandiri olmuşdur. 1918 ilin yanvarın *Müsəlman korpusunda* atıcı alaym komandiri təyin edilmişdir. 1918 il dekabrın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi nazirinin müavini səhhəti ilə əlaqədar Ə.Süleymanova general-mayor rütbəsi verilməsi haqqında vəsatət qaldırılmaqla ehtiyata buraxılması barədə nazir Səməd bəy Mehmandarova müraciət etmişdi. Nazirlik üzrə 1918 il 15 dekabr tarixli 15 nömrəli əmrlə polkovnik Ə.Süleymanov ehtiyata buraxılmış və dekabrın 21-də S.Mehmandarov Əhməd xan Süleymanova general-mayor rütbəsi verilməklə onun ehtiyata buraxılması barədə Nazirlər Şurasının sədri qarşısında vəsatət qaldırmışdı. Hərbi Nazirlik üzrə 1918 il 25 dekabr tarixli əmrlə hökumət tərəfindən ona general-mayor hərbi rütbəsi verildiyi və xəstəliyinə görə ehtiyata buraxıldığı bildirilirdi. Ə.Süleymanovun, təqaüdə çıxdıqdan sonra, ömrünün qalan hissəsini Temirxan-Şura şəhərində yaşadığı güman edilir.

**SÜRMƏLİ QƏZASI** - *İrəvan quberniyası* tərkibində inzibati vahid. Xanlıqlar dövründə mahal kimi İrəvan xanlığına daxil olmuşdu. İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edildikdən sonra Sürməli mahalı erməniləşdirilməyə başlamışdı. 1828-32 illərdə keçirilən kameral təsvirin yekunlarına görə mahala İrandan 299 erməni ailəsi və ya 1459 nəfər (788 kişi, 671 qadın), Türkiyədən isə 261 ailə və ya 1342 nəfər (746 kişi, 596 qadın), cəmi 560 ailə və ya 2801 nəfer köçürülmüşdü. 1849 ildə İrəvan quberniyası yaradıldıqda onun tərkibində olmuşdu. 1917 il Qafqaz təqviminin məlumatına görə, sahəsi 3147,09 *kv.verst* idi. Əhalisinin sayı 104791 nəfər (55364 kişi, 49427 qadın) idi. Onlardan 98212 nəfəri yerli sakin, 6579 nəfəri müvəqqəti yaşayanlar olmuşdu. Əhalinin əsas hissəsini türk-müsəlmanlar təşkil edirdi. 1920 il Ermənistan-Türkiyə müharibəsinin gedişində türk qoşunları Sürməli qəzasını erməni hakimiyyətindən azad etdi. *Gümrü müqaviləsinə (1920)* əsasən, Türkiyəyə keçmişdi. Ermənistan sovet hakimiyyəti 1920 il dekabrın 10-da Gümrü müqaviləsi şərtlərinin yenidən nəzərdən keçirilməsi haqqında Türkiyəyə nota vermiş, lakin Türkiyə hökuməti müqaviləni ədalətli sayaraq, notanı rədd etmişdi. Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış *Moskva müqaviləsinə (1921)* görə Qars, Kağızman, Ərdəhan, Olti, Artvin dairəsi ilə birgə Sürməli qəzasının da Türkiyəyə keçməsi qərara alınmışdı. Sovet Rusiyasınm vasitəçiliyi ilə Azərbaycan, Ermənistan, Gürcüstan və Türkiyə arasında bağlanmış *Qars müqaviləsi (1921)* ilə Türkiyə 1921 il Moskva müqaviləsi istisna olmaqla, Ermənistan Gürcüstan və Azərbaycana aid heç bir beynəlxalq aktı qəbul etmədiyini bildirmişdi. Beləliklə, Ermənistan özü də 1921 il Moskva müqaviləsi ilə müəyyən edilmiş sərhədləri təsdiq etmişdi.

*Əd.:* Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (tərtib edəni İ.Hacıyev), B., 1999; Кавказский календарь на 1917г., Тифлис 1916; Шопен И., Исторический памятник состояния Армиянской области в эпоху ея присоединения к Российской империи. СПб., 1852.

**SÜVARI DİVİZİYASI** - Azərbaycan ordusunun tərkibində hərbi birləşmə. Diviziyaya daxil olan süvari hissələrinin əsası *Müsəlman korpusunun* formalaşması dövründə qoyulmuşdu. Burada üç süvari alayı bir süvari briqadasında birləşdirilmişdi. *Əlahiddə Azərbaycan korpusunun* tərkibində isə süvari qüvvələri alay şəklində mövcud idi. Türkiyə və Azərbaycan hərbi hissələrinden ibarət *Qafqaz İslam Ordusunun* komandanı *Nuru paşanın* 1918-ci il 13 avqust tarixli əmri ilə ləğv edilmiş Əlahiddə Azərbaycan korpusunun yenidən qurulmasına başlananda onun tərkibində iki piyada, bir süvari diviziyasının təşkili planlaşdırıldı. Əvvəlcə piyada diviziyalarının hər birinə bir süvari alayı verildi, üçüncü süvari alayı isə birbaşa korpusun tabeliyində yaradıldı. Sonra 1, 2 və 3-cü süvari alayları 1-ci piyada diviziyasının tərkibinə qatıldı, 2-ci diviziyanın tərkibində isə 4-cü süvari alayınm təşkilinə başlandı. Türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə süvari diviziyasının təşkili yarımçıq qaldı və bu işin başa çatdırılması hərbi nazirliyin bərpasından sonra mümkün oldu. Mövcud süvari qüvvələri yenidən qurularaq 1-ci tatar və 2-ci Qarabağ süvari alaylarında birləşdirildi. Süvari diviziyasının komandiri general-mayor Feyzulla Mirzə *Qacar,* 1-ci tatar süvari alayınm komandiri polkovnik Hacıbəylinski, 2-ci Qarabağ süvari alayının komandiri isə polkovnik Süleyman bəy *Əfəndiyev* təyin edilmişdilər. Süvari diviziyasının qərargahı və 1-ci tatar süvari alayı Gəncədə, 2-ci Qarabağ süvari alayı isə Tərtər ətrafında yerləşirdi. 1918 il dekabrın 20-də Süvari diviziyanın komandiri general-mayor F.Qacarm xidmətdən azad edilməsi barədə hərbi nazirə müraciətindən sonra, 2-ci süvari alayının komandiri S.Əfəndiyev diviziya komandiri təyin olundu. Lakin bir neçə gündən sonra general-mayor F.Qacar vəzifəsinin icrasma davam etmək niyyətində olduğunu bildirdi. S.Əfəndiyev başqa vəzifəyə keçirildi.

1918 ilin fevralından diviziyaya rəhbərlik qərargah rəisi Amaşuneliyə həvalə olundu. Həmin ilin aprelində 3-cü Şəki süvari alayının da təşkili başa çatdırıldı. Polkovnik Xosrov Mirzə *Qacarın* komandir təyin edildiyi bu alay da Süvari diviziyanın tərkibinə qatıldı. 1919 ilin avqustunda diviziya komandiri vəzifəsinin icraçısı Amaşuneli xidmətdən tərxis olundu. Süvari diviziyasının formalaşmasında göstərdiyi xidmətlərə görə hərbi nazir S.Mehmandarov ona xüsusi təşəkkür elan etdi. Polkovnik Teymur bəy Novruzov avqustun 1 -də diviziyanın komandiri təyin edildi və *Aprel işğalına (1920)* qədər bu vəzifəni icra etdi. Diviziyanın hissələri şimal sərhədi müdafıə sisteminin möhkəmləndirilməsində, Lənkəran və Qarabağ əməliyyatlarının uğurla başa çatdırılmasında, Zəngəzur ekspedisiyasının təşkilində fəal iştirak etmişdilər. Diviziya komandiri T.Novruzov layiqli xidmətlərinə görə 1919 il avqustun 2-də general-mayor rütbəsinə layiq görülmüşdü.

Aprel işğalından sonra süvari diviziyası ləğv olundu, onun bölmələri sovet-bolşevik işğalçılarma qarşı xalq üsyanlarında fəal iştirak etdilər.

downloaded from KitabYurdu.az

# Ş

**ŞADLİNSKİ** Abbasqulu bəy Xanbala oğlu (24.2.1886, İrəvan quberniyasının Böyük Vedi k. - fevral, 1930) – xalq qəhrəmanı, *"Qırmızı tabor*"un komandiri. Uşaqkən atasını itirmiş, 1894 ildə anasının köməyi ilə Vedidəki ikiillik rus-tatar (Azərbaycan) məktəbində oxumuş, lakin maddi çətinlik üzündən təhsilini davam etdirə bilməmişdir. 1902 ildən



atadanqalma kiçik torpaq sahəsini əkib-becərməklə məşğul olmuşdur. Rusiyada 1905-07, İranda 1905-11 illər inqilabları ictimai-siyasi dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir. Fevral inqilabından (1917) sonra Şadlinski həyatını xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir. 1918 ilin əvvəllərində Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və b. ərazilərdə daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımlarının baş ahb getdiyi bir şəraitdə xalq içərisində böyük nüfuzu olan Şadlinski Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı könüllü xalq birləşməsi - gələcək "Qırmızı tabor"u təşkil etmişdi. 1918-19 illərin yay aylarında daşnak hərbi hissələrinin Vediyə hücumlarının qarşısının alınmasında böyük şücaət göstərən "Qırmızı tabor"çular sonradan Şadlinskinin əmri ilə nizami daşnak ordusunun üstün qüvvələri qarşısında kəndi döyüşlə tərk etmiş, Vedibasar və Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçərək, əvvəlcə Xoy şəhəri yaxınlığında, sonra isə Mərənd şəhəri ətrafında mövqe tutmuşdular. Naxçıvanda sovet hakimiyyəti elan olunduqdan (1920, 28 iyul) sonra Hərbi İnqilab Komitəsinin dəvətini qəbul edərək, sentyabrın 17-də 200 nəfərlik "Qırmızı tabor" dəstəsi ilə Naxçıvana gəlmişdi; buradakı qırmızı qvardiya döyüşçüləri də onun dəstəsi ilə birləşmişdi. Şadlinski ilk vaxtlar Naxçıvan sərhədlərinin qorunmasına, sonra Zengəzur istiqamətində öz dəstəsinin daşnak hissələri ilə fəal döyüş əməliyyatlarına başçılıq etmiş, 1921 ilin fevralında - aprelin əvvəlində isə İrəvanda daşnak qiyamının yatırılmasında qəhrəmanlıq göstərmişdi. Daşnaklarla döyüşlərdə göstərdikləri sücaətə görə, Şadlinski başda olmaqla, "Qırmızı tabor"un 19 nəfər üzvü Ermənistan SSR-in "Qınnızı bayraq" ordeni ilə təltif olunmuşdu.

1921 ilin yayında Şadlinskinin döyüşçüləri Dərələyəz və Zəngəzurda daşnak quldurlarının darmadağın edilməsində qəhrəmanlıq göstərmişdilər. Ermənistanda və Zəngəzurda daşnak fitnəkarlıqlarına son qoyulduqdan sonra Şadlinski 1922 ilin sonunadək Naxçıvanda qalmış və bölgə sərhədlərinin qorunmasına rəhbərlik etmişdi. Bundan sonra Vediyə qayıdan Şadlinski 1922-28 illərdə Ermənistanda bir sıra məsul təsərrüfat vəzifələrində çalışmış, sonra isə yeni yaradılan Dəvəli sement zavodu tikintisinin rəhbəri olmuşdu. Banditlər tərəfindən öldürülmüşdür. F.Kərimzadənin "Qarlı aşırım" romanı və onun süjeti əsasında çəkilmiş "Axırıncı aşırım" bədii filmi Şadlinskinin həyat və fəaliyyətindən bəhs edir.

*Əd.:* Bax *"Qırmızı tabor"* məqaləsinin ədəbiyyatına

**ŞAHBAZİ,** Tağı Abbas oğlu Şahbazi; Simurq (2.7.1892, Bakı - 2.1.1938, Bakı) - yazıçı, publisist, ictimai xadim. Mollaxanada, "rus-müsəlman" məktəblərində oxumuş, Bakı şəhəri birinci realnı məktəbində orta təhsil almış (1905-12), Xarkov Universitetinin tibb fakültəsini (1918) bitirmişdir. Realm məktəbdə oxuyar eviklər) Partiyasının tələbe fraksiyasına daxil olmuşdur. 1917 ildə Bakıya gələrək, "Hümmət" təşkilatında çalışmış, partiyanın orqanı "Hümmət" qəzetinin nəşrində fəal rol oynamışdır. 1918 ildə Ukraynaya dönərək, Xarkovda qəzet redaktoru olmuşdur. 1919 ildə Moskvada əvvəl Xalq Milli İşlər Komissarlığının Zaqafqaziya müsəlman şöbəsində katib, sonra Şərq xalqları Kommunist Təşkilatları Mərkəzi bürosunda şöbə müdiri vəzifəsində çalışmışdır.



*Aprel işğalından (1920)* sonra Bakıya qayıdan Şahbazi Azərbaycan xalq səhiyyə komissarının, xalq maarifi komissarının müavini, Mərkəzi İcraiyyə Komitəsinin katibi, "Maarif və mədəniyyət" jurnalının redaktoru, Ali Pedaqoji İnstitutun direktoru, Azerbaycan Dövlət Universitetinin rektoru və s. məsul vəzifələrdə işləmişdir.

Şahbazi yaradıcılığa məktəbli ikən başlamış, fransız yazıçısı Oktav Mirbonun "Fəhlə uşaqları", rus ədibləri İ.F.Najivinin "Madonnanın tükü", L.N.Tolstoyun "İnsana çoxmu yer lazımdır" hekayələrini tərcümə etmişdir. 20 əsrin 10-cu illərinin ortalarından bədii yaradıcıqla müntəzəm məşğul olmuş, bir-birinin ardınca "İki qəm", "İki göz", "Südçü qız", "Aleksandr Eyniç", "Şəkərəli çoban", "Quşlar kimi azadə", "Aclar", "Hürriyyət günəşi", "Haq

downloaded from KitabYurdu.az

sızlıq dünyası", "Aldanmış ümüd", "Qayçı", "Siyasət adamı" və s. hekayələrini nəşr etdirmişdir. Xalq həyatının müxtəlif məsələləri, azadlıq həsrəti, hüquqsuzluq, ağır məişət, fərəhsiz yaşayış və s. bu hekayələrin başhca mövzularıdır. Bədii yaradıcılıqla yanaşı, dövri mətbuatda da müntəzəm çıxış etmiş, "İqbal", "Doğru söz", "Hümmət", "Maarif və mədəniyyət", "Şərq qadını", "Yeni fikir", "Kommunist" və s. qəzet-jurnallarda günün aktual problemlərindən bəhs edən məqalələr dərc etdirmişdir.

Şahbazi 1937 il martın 4-də "gizli milli-təmayülçülər qrupuna məxsusluğuna, əksinqilabi millətçi çıxışlarına görə" partiya sıralarından xaric edilmiş, iyulun 11-də həbs olunmuşdu. 1938 il yanvarın 2-də Şahbazi güllələnməyə məhkum edilmiş, hökm dərhal yerinə yetirilmişdi. 1956 ildə bəraət verilmişdir.

Əsərləri: Seçilmiş əsərləri, B., 1983.

*Əd.:* Azərbaycan sovet ədəbiyyatı tarixi, 2 cilddə, c.l, B., 1967; İsmayilov A., Tağı Şahbazi Simurq, B., 1987.

**ŞAHNƏZƏROV** Əhməd Hacı oğlu, Əhməd Hədis oğlu Hacıyev (2.1.1899, Dağıstan - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Azərbaycan Parlamentinin 1919 il 11 avqust tarixli "Azərbaycan vətəndaşlığı haqqında" qanununun 6-cı maddəsinə əsasən, Azərbaycan vətəndaşlığını qəbul etmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini toxuculuq sahesində davam etdirmək üçün Nansi Toxuculuq Məktəbinə (Fransa) göndərilmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin məlumatında Əhməd Şahnəzərovun 2-ci kursa keçdiyi göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**ŞAHSUVAROV** Ələkbər xan (1879 - 13.5.1920, Bakı) -Azərbaycan istiqlal hərəkatı iştirakçılarından biri. Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Petrovsk-Portda (indiki Mahaçqala) sənaye fəhlələri və yükdaşıyanlar ittifaqının yaradıcılarından olmuş, 1919 ilin martınadək həmin təşkilata rəhbərlik etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Qarabağ general-qubernatorluğunda məsləhətçi (1919, mart - 1920, yanvar), Bakı general-qubernatorluğunda yaradılmış və Bakı möhkəmləndirilmiş rayonunda əks-kəşfiyyat təminatını yerinə yetirən informasiya şöbəsinin rəisi (1920 il martın 19-dan) vəzifələrində işləmişdir.

*Aprel işğalı (1920)* günü həbs olunmuş, 11-ci Qırmızı ordu Xüsusi şöbəsinin qərarına əsasən, güllələnmişdir. *Əd.:* Elşad Qoca, Tariximiz, taleyimiz, B., 2001.

**ŞAHSUVAROV** Mürsəl Adilxan oğlu (19.6.1900, Zəngəzur qəzası - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Tiflisdəki İmperator I Aleksandr kişi gimnaziyasını bitirmişdi (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini tibb sahəsində davam etdirmək üçün Leypsiq Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin başa çatdırmasına 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi haqqında məlumat aşkar olunmamışdır.



**ŞAHSUVAROV** Nurməmməd bəy Ədilxan oğlu (1883, Laçın rayonunun Minkənd k. - 11.8.1958, Bakı) - Azərbaycan istiqlal hərəkatı iştirakçılarından və Azərbaycan Xalq Cümhuriyyəti dövlət xadimlərindən biri, maarifçi. Qori müəllimlər seminariyasını bitirmiş (1903), bir müddət Gəncədə rus dili müəllimi işləmişdir. Sonralar Tiflis Aleksandr Müəllimlər İnstitutunu (1912), ekstern yolu ilə Kiyev Universitetinin hüquq fakültəsini (1915) bitirmişdir. Şahsuvarov Rusiyada Fevral inqilabı (1917) dövründə siyasi hadisələrdə yaxından iştirak etmiş, 1918 ilin yayında Şimali Qafqaz xalqlarının azadlıq hərəkatı nəticəsində yaradılmış Dağlı Respublikasının xalq maarif naziri təyin olunmuşdur. 1919 ilin iyununda Bakıya gələn Şahsuvarov Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəylinin 1-ci hökumət kabinəsində (Cümhuriyyətin 4-cü hökumət kabinəsi) maarif nazirinin müavini vəzifəsində işləmiş, Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyalarını açılması, təhsil və mədəniyyət sahəsində bir sıra mütərəqqi tədbirlərin həyata keçirilməsində, Bakı Dövlət Universitetinin təşkilində yaxından iştirak etmişdir. "İttihad" partiyasının üzvü idi. Şahsuvarov 1920 il martın 5-də N.Yusifbəylinin 2-ci hökumət kabinəsində (Cümhuriyyətin 5-ci hökumət kabinəsi) maarif və dini etiqad naziri təyin olunmuşdu.



*Aprel işğalından (1920)* sonra Şahsuvarov Azərbaycan SSR xalq maarif komissarının müavini olmuş, Bakıda orta və ali təhsil ocaqlarında rus dilindən dərs demişdir. 1940 ildə saxta ittihamlar əsasında həbs edilərək, Krasnodar diyarına sürgün edilmişdi. 1943 ildə sürgündən qayıdaraq, Azərbaycan Tibb İnstitutunda rus dili kafedrasının müdiri işləmişdir.

**ŞAHSUVAROV** Surxay Əzim oğlu (19.7.1900, Zəngəzur qəz. - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin

downloaded from KitabYurdu.az



xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Tiflisdəki İmperator I Aleksandr kişi gimnaziyasını bitirmişdi (1918). Parlament 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini dağ muhəndisliyi sahəsində davam etdirmək üçün Frayberq akademiyasına (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı Tələbələr İttifaqının 1923-25 illər üçün məlumatmda onun təhsilinin bitməsinə 1 il qaldığı göstərilirdi. Sonrakı taleyi haqqında məlumat aşkar olunmamışdır.

**ŞAHTAXTİNSKİ** Behbud ağa (1881, Şərur rayonunun Şahtaxtı k. - 30.5.1924, Tiflis) - siyasi və dövlət xadimi, diplomat. 1905-07 illərdə Bakıda kontor qulluqçuları ittifaqmm yaradılmasmda və fəaliyyətində



iştirak et-mişdir. 1917-18 illərdə Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı Xalq Komissarları Soveti Fövqəladə Komissiyasının üzvü, "Hümmət" təşkilatı Mərkəzi Komitəsinin sədri olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra (1920) xalq ədliyyə komissarı, eyni zamanda, Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) Rusiya Sovet Federativ So-sialist Respublikasında (RSFSR) fövqəladə nümayəndəsi idi. RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında müqaviləni RSFSR xalq xarici işlər kommisarı G.Çiçerin və Şahtaxtinski imzalamışdılar (1920, 30 sentyabr). 1921-24 illərdə Naxçıvan İnqilab Komitəsinin, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Naxçıvan MSSR) Xalq Komissarları Sovetinin sədri, Azərbaycan Xalq Fəhlə-Kəndli Müfəttişliyi komissarı, Xalq Komissarları Soveti sədrinin müavini və s. vəzifələrdə çalışmışdır.

Ermənilərin Naxçıvana dair əsassız ərazi iddialarının dəf olunması sahəsində Nəriman Nərimanovun tapşırığı ilə xeyli iş görmüşdür. 1921 il martın 1-də V.İ.Leninə ünvanladığı məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ mahallanının gələcəyi ilə bağlı narahatlığı nəzərə çarpdırmış, Naxçıvan bölgəsi ilə əlaqədar olaraq isə konkret təkliflər vermişdir. RK(b)P MK Siyasi Bürosundakı müzakirədən (16.3.1921) sonra Behbud ağanın təklifləri də nəzərə alınmaqla, Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul edilmişdi. Rusiya ile Türkiyə arasında Moskvada aparıları danışıqlarda (1921, fevral-mart) Azərbaycan SSR-in səlahiyyətli nümayəndəsi kimi iştirak etmiş, Moskva (1921) və Qars (1921) müqavilələrində Naxçıvan məsələsinin ədalətli həllinə nail olunması yönündə ciddi səylər göstərmişdir. Qars konfransında (1921, sentyabr-oktyabr) Azərbaycan SSR-in nümayəndəsi olmuşdur.

**ŞAHTAXTİNSKİ** Həmid ağa Xəlil oğlu (12.3.1880, Naxçıvan qəzasının Şahtaxtı kəndi - 3.2.1944, Arxangelsk vilayəti) - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, parlamentin üzvü; görkəmli maarifçi. Naxçıvanda mollaxanada, üçüncü dərəcəli şəhər məktəbindədir. İrəvan müəllimlər seminariyasını (1899) bitirmişdir.



Pedaqoji fəaliyyətə həmin seminariyada Azərbaycan və rus dilləri müəllimi kimi başlamışdır. İrəvandakı Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. Odessada Novorossiysk Universitetinin hüquq fakültəsini bitirmiş (1912), tələbəlik illərində buradakı "Azərbaycanlı həmyerlilər təşkilatının aşçılarından olmuşdur. 1912 ildə Gəncəyə gələrək, şəhərin ictimai-siyasi həyatmda yaxmdan iştirak etmişdir. 1914 ildə Yelizavetpol (Gəncə) quberniyasının xalq məktəbləri inspektoru təyin edilmişdir. İki ilə yaxın Yelizavetpol dairə məhkəməsində andçı-müvəkkilin köməkçisi vəzifəsində işləmiş, sonra Bakıya köçərək, dairə məhkəməsində eyni vəzifədə çalışmışdır.

Fevral inqilabından (1917) sonra siyasi fəaliyyətə başlamışdır. 1917 ildən "İttihad" partiyasının üzvü idi. 1917 il avqustun 29-dan Cənubi Qafqaz Təhsil İdarəsi üzrə komissar idi. Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin 2, 3 və 4-cü hökumət kabinələrində maarif nazirinin müavini, 5-ci hökumət kabinəsində maarif və dini etiqad naziri (1920 il martın 5-də istefa vermişdir), Azərbaycan Parlamentinin üzvü olmuşdur. Şahtaxtinski Azerbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyalarının açılmasına böyük əmək sərf etmişdir. Bakı Dövlət Universitetinin təşkilində xidməti olmuş, orada müəllim, prorektor (1919-25), həmçinin Bakı xalq maarifı şöbəsi nəzdindəki ikiillik müəllimlər institutunda və Azərbaycan Dövlət Tibb İnstitutunda (1930-40) işləmişdir (1929 ildən professor). Tiflisdəki Zaqafqaziya Universitetinin tibb fakültəsini bitirmişdir (1928). Azərbayca-nın ümumtəhsil məktəbləri üçün dərsliklərin, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyalarının sədri olmuş, yeni Azərbaycan əlifbasının yaradılmasında iştirak etmişdir.

Şahtaxtinski repressiyaya məruz qalmış, 1941 ildə həbs və sürgün edilmiş, sürgündə həlak olmuşdur.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Əliyev M, Həmid bəy Şahtaxtinski "Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti (1918-1920)", B., 1990; Məmmədov X., Bir ərizə, "Azərbaycan gəncləri" qəzeti, 4 yanvar, 1967.

**ŞAHTAXTLI,** Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtinski (1846, indiki Naxçıvan MR, Şərur rayonunun Şahtaxtı kəndi - 12.12.1931, Bakı) - görkəmli Azərbaycan publisisti, maarifçi, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim. Beynəlxalq Fonetika Cəmiyyəti (1899), "Beynəlxalq Asiya Cəmiyyəti" (1900) ve Rusiya İmperator Coğrafıya Cəmiyyəti Qafqaz Şöbəsinin (1903) həqiqi üzvü.

downloaded from KitabYurdu.az



Bakı Universitetinin professoru (1920). Naxçıvan şəhər məktəbini və Tiflis klassik kişi gimnaziyasını (1863) bitirdikdən sonra, Peterburqda müstəqil yolla alman dilini öyrənmişdir. Leypsiq Universitetinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmişdir (1869). 1873-75 illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk və fars dillərində ədəbi, elmi əsərlər yazmışdır.

Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamışdır. 19 əsrin 70-ci illərində dərc etdirdiyi ilk məqalələrində liberal xalqçılığının təsiri duyulur. Şahtaxtlı əlifba islahatı sahəsində Mirzə Fətəli Axundzadənin ardıcıllarındandır; 1879 ildə Tiflisdə Şərqdə əlifba islahatı tarixində ilk kitab - "Təkmilləşmiş müsəlman əlifbayi"ni nəşr etdirmişdir. Bir müddət "Moskovskiyo vedomosti" qəzetinin əməkdaşı və İstan-bulda xüsusi müxbiri işləmişdir. 1891-93 illərdə "Kaspi" qəzetinin müvəqqəti redaktoru təyin edilmişdi. 1898 ildə Azərbaycan dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, lakin çar senzurası buna icazə vermədiyi üçün yenidən Avropaya getmiş, 1902 ilədək Parisdə yaşamış, Fransa kollecində və Ali Təcrübi Təhsil Məktəbində Şərq dillərinden dərs demişdir. Bu dövrdə fransız dilində nəşr etdirdiyi əsərlər Qərbi Avropa və Amerika mətbuatında elmi müzakirə və mübahisələrə səbəb olmuşdu. Şahtaxtlı Sorbonna Universitetində professor P.Passinin rəhbərliyi ilə fonetika sahəsində tədqiqat aparmış, Fransa maarif nazirliyinin fəxri diplomunu (1901) almışdır.

1902 ildə Şahtaxtlı Tiflisdə xüsusi mətbəə açmış, 1903 ilin martından Azərbaycan ictimai fikir və mətbuatı tarixində əhəmiyyətli rol oynamış olan "Şərqi-Rus" qəzetinin nəşrinə başlamışdı. 1907 ildə İrəvan quberniyasından 2-ci Dövlət Dumasına deputat seçilən Şahtaxtlı Duma buraxıldıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında işləmiş, 1908-18 illərdə, əsasən, xaricdə (xüsusilə, Türkiyə, İran və İraqda) yaşamışdır.

Elmi və publisist əsərlərində Şahtaxtlı müstəmləkəçilik, irqçilik siyasətini, qadın hüquqsuzluğunu tənqid etmiş, dövlət quruculuğu, demokratiya, xalq hakimiyyəti və s. məsələlərə dair dövrünə görə mütərəqqi fikirlər irəli sürmüşdür.

Şahtaxtlı 1919 ildə vətənə qayıtmış, Bakı Universitetinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. Universitetin müstəqil milli dövlətçilik maraqlarına uyğun qurulması məsələsi ilə məşğul olmuşdur. "Darülfünun nə halda?" məqaləsində ("İttihad" qəzeti, 1920, 11 mart) rektor Razumovskinin ruslaşdırma siyasətini, professor-xidmətçi heyətinin ruslardan təşkil olunmasını, kadr hazırlığı işinin elmi dərəcəsi, peşəkarlıq səviyyəsi olmayan müəllimlərə tapşırılmasını, Azərbaycan dili dərslərinin cədvələ salınmamasını kəskin tənqid etmişdir. Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin işində yaxından iştirak etmişdir.1922 ildə Məhəmməd ağa Şahtaxtlıya fərdi pensiya təyin olunmuşdu.

Əsərləri: Sövti Şərq əlifbası, Tiflis, 1902; Усовершенствованная мусульманская азбука , Тифлис, 1902; Кризис мусульманской жизнеспособности, в кн.: Турецкий сборник СПб., 1919.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, c.2, B., 1960; Mirəhmədov Ə., Dövri mətbuat, "Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX-XX əsrlər)" kitabında, B., 1983; Məlikova M., Bayramov E., Azərbaycanın siyasi hüquqi nəzəriyyələr tarixi (oçerklər), B., 1984; Novruzov Ş., "Şərqi-Rus"un çağırışı, B., 1988.

**ŞAMAXI ƏMƏLİYYATI** - *Qafqaz İslam Ordusu* Şimal qrupunun Şamaxı şəhərini S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin bolşevik-daşnak qüvvələrindən azad etmək uğrunda 1918 il iyulun 19-22-də keçirdiyi hərbi əməliyyat. Əməliyyat üçün münasib şərait Ağsu və Kürdəmirin azad edilməsindən (bax *Kürdəmir döyüşü)* sonra yarandı. Qafqaz İslam Ordusunun komandanlığı qüvvələri yenidən qruplaşdıraraq, Şərq cəbhesinin komandanhğı altın şimal və cənub qruplarını yaratdı. Şamaxı istiqamətində döyüşləri şimal qrupu aparırdı.

Bakı uğrunda həlledici hücumlara başlamaq üçün Şamaxı əsas dayaq bazası olduğundan ordu komandanlığı bu mentəqənin tezliklə almmasım zəruru hesab edirdi. Şimal qrupunun qüvvələri Şamaxının cənub kəndlərindən keçməklə, Şamaxı-Bakı yolunu bağlamalı və Şamaxıdakı bolşevik-daşnak qüvvələrini mühasirəyə almalı idilər. Bunun üçün Şamaxının cənubundakı Göylər kəndinə güclü dəstə göndərilməli idi. Dəstə kənddən keçərək, irəli hərəkət etməklə, Şamaxı-Bakı şose yoluna çıxmalı və nəzərdə tutulan planın icrasını təmin etməli idi. Lakin hücum ərəfə-sində (iyulun 19-da) gecə güclü yağış yağması əməliyyatın nəzərdə tutulduğu kimi həyata keçirilməsinə imkan vermə-di. Göylər kəndinə doğru hərəkət etməli olan qüvvələr Mədrəsə kəndinə istiqamət götürdülər. Hücum planının dəyişməsinə baxmayaraq, qüvvələr xeyli irəliləyə bildi. Bolşevik-daşnak qoşunları müqavimət göstərməyin əbəs olduğunu anlayaraq, günün ikinci yarısında kütləvi şəkildə Şamaxıya doğru geri çəkildilər.

Şamaxı türk şəhid abidəsi



İyulun 20-də şimal qrupu Şamaxıdan keçərək, onun şərqindəki Çuxanlı-Məlikçoban xəttinə çıxdı. Düşmən qüvvələri Şamaxıda mühasirə olunmaq təhlükəsi ilə

downloaded from KitabYurdu.az


Şamaxı qəzasının gerbi. 1840.
Azərbaycan Tarixi Muzeyi

üzləşdiklərindən təcili Mərəzəyə doğru geri çəkildilər. İyulun 21-də şimal qrupunun hissə və bölmələri Mərəzəyə daxil oldular, 22-də isə bu məntəqə ətrafında baş verən döyüşdən sonra bolşevik-daşnak qüvvələri Cəngiyə qədər qaçaraq, orada müdafıə mövqeləri qurmağa çalışdılar. Bununla da Şamaxı və onun ətrafi azad edildi və Bakı istiqamətində hücumu genişləndirmək üçün əlverişli mövqelər ələ keçirildi.

*Əd.:* Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; yenə onun, Nuru paşa, B., 1999.

**ŞAMAXI XALQ EVİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial-mədəni sahədə fəaliyyət göstərmiş klub tipli müəssisə. 1919 il iyulun 2-də təsis edilmişdi. Bax *"Xalq evləri" cəmiyyəti.*

**ŞAMAXI QƏZASI** - Bakı quberniyası tərkibində inzibati ərazi vahidi. "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar" adlı qanuna (1840, 10 aprel) uyğun olaraq, Şirvan əyaləti və Salyan torpaqları əsasındayaradılmışdı. Mərkəzi Şamaxı şəhəri idi. 1841-46 illərdə Kaspi vilayətinin tərkibinə daxil idi. 1846 ildə Şamaxı quberniyası yaradıldıqda, eyni adla onun tərkibinə qatılmışdı. 1859 il Şamaxı zəlzələsindən sonra quberniya mərkəzi Bakıya köçürüldüyündən, Bakı quberniyasının tərkibində idi. Şamaxı qəzasında *Qəza idarə sistemi* fəaliyyət göstərirdi. Qafqaz təqviminin (1917) məlumatma görə, qəzanın sahəsi 6625,99 *verst* (7553,64 *kv.km)* idi. Burada 133800 nəfər əhali yaşayırdı. Onlarm 132362 nəfəri yerli sakinlər, 1438 nəfəri isə müvəqqəti yaşayanlar, 71848 nəfəri kişi, 61952 nəfəri qadın idi. Əhalinin 97 min nəfərini azərbaycanlılar təşkil edirdi. Çarizmin köçürmə siyasəti nəticəsində qəzada ruslar da məskunlaşdmlmışdı. 17656 nəfər rusun, 1511 —i pravoslav, 16145-i sektaçı (sektant) idi. Köçürülmə erməni-qriqorianların sayı 17542 nəfəridi. Şamaxı şəhərində 27752 nəfər yaşayırdı. Qəzanm iqtisadi həyatmda kənd təsərrüfatmm əkinçilik, bağçılıq, ipəkçilik, maldarlıq sahələri üstünlük təşkil edirdi. Sənətkarlıq, xüsusilə toxuculuq inkişaf etmişdi. Fevral inqilabından (1917) sonra Şamaxıda fəhlə və əsgər deputatları soveti yaradılmışdı. Şamaxı qəzasında Müvəqqəti hökumətin də orqanlan yaradılırdı. Bakı Soveti öz hakimiyyətinin qəzalara yayılmasında, Bakıda olduğu kimi, azərbaycanlıların soyqırımıdan bir vasitə kimi istifadə edirdi. İsmayıl xan Ziyadxanovun Şamaxım müdafiə etməsinə imkan verməmək üçün ora Bakıdan 2 min nəfərlik dəstə göndərilmişdi. Şamaxı qəzasında azərbaycanlılara qarşı soyqırımıa S.Şaumyanın yaxın silahdaşlarından olan daşnak cəlladı Lalayan (Lalayev) başçılıq etmişdi. Hesablamalara görə, ermənilər Şamaxı qəzasının 53 kəndində 8027 nəfər azərbaycanlının qətlə yetirmişdilər; onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadm, 1277 nəfəri uşaq idi. Əhaliyə, ümumiyyətlə, 339,5 milyon manat məbləğində maddi zərər vuru-muşdu. Qəzada sovet hakimiyyətini yalnız bu qətl və qarətlər hesabına qurmaq mümkün olmuşdu. Şəhər dağıdılmış, qəza mərkəzi Çuxuryurd kəndinə köçürülmüşdü (bax, həmçinin *Şamaxı qırğınları).* 1918 il mayın 16-da Bakı Xalq Komissarları Sovetinin quberniya komissarı Məşədi

Əzizbəyovun rəhbərliyi ilə Şamaxı qəzasmda kəndli deputatları sovetlərinin qurultayı keçirilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ölkədə hakimiyyətinin tam bərqərar edilməsi uğrunda mübarizəyə başladı. Cənubi Qafqaz dəmir yol xətti boyunca döyüşlərdə qalib gələn Azərbaycan-türk hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* 1918 ilin iyulunda Şamaxıya daxil oldu. Şamaxı qəzasında Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti bərqərar edildi. Şamaxı qəzası Cümhuriyyətin sosial-iqtisadi və siyasi həyatmda mühüm yer tuturdu. Lakin *Aprel işğalı (1920)* nəticəsində 1920 il aprelin 29-da Şamaxı qəzasında sovet hakimiyyəti quruldu.

*Əd.:* Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920), Ankara, 2001.

**ŞAMAXI QIRĞINLARI** - S.Şaumyanın başçılıq etdiyi Bakı Soveti bolşevik-daşnak ordularının erməni quldur dəstələri ilə birlikdə Şamaxı şəhərində və Şamaxı qəzasında azərbaycanlılara qarşı törətdikləri soyqırımları. 1918 ilin mart və aprel aylarında Şamaxı şəhəri və qəzasının azərbaycanlılar yaşayan kəndlərində bolşevik-daşnak qüvvələrinin törətdikləri qanlı cinayətlər haqqında Cümhuriyyət Hökumətinin yaratdığı *Fövqəladə Təhqiqat Komissiyasının* topladığı 7 cild və 925 səhifədən ibarət istintaq materiallarındakı yüzlərlə arayış və məruzələr, zərərdidə və şahid ifadələri, dindirmə protokolları, ermənilər tərəfindən yandırılmış, dağıdılmış tikililərə və mədəniyyət abidələrinə baxış protokolları, aktlar, siyahılar və digər sənədlər ermənilərin Şamaxı şəhəri və qəzasmm azərbaycanlılar yaşayan kəndlərində törətdikləri vəhşilikləri aydın və təkzibolunmaz şəkildə sübut edir. Komissiyanın sədri Ələkbər bəy Xasməmmədovun ədliyyə nazirliyinə göndərdiyi məruzə-

downloaded from KitabYurdu.az

də bildirilirdi ki, Şamaxı qəzasmda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkəti hələ Birinci dünya müharibəsinin (1914-18) ilk vaxtlarından özünü büruzə vermişdir. Fevral inqilabından (1917) sonra ermənilər daha fəal hərəkət etməyə, Cənubi Qafqazm digər qəzalarından erməni əsgərlərini Şamaxı şəhərindən 6 *verst* (1 *verst* = 1,0668 *km)* aralıdakı Mədrəsə erməni kəndinə toplamağa başlamışdılar.

1919 il martın birinci yarısmda S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin daşnak hökuməti Şamaxıya çoxlu miqdarda hərbi sursat, top və pulemyotlarla silahlanmış üç minədək yalnız ermənilərdən ibarət qoşun dəstələri göndərdi. Martın 15-də Şamaxı şəhərinə çatan dəstə ilə müsəlmanlar arasında ilk atışma düşdü. Şamaxıdakı bütün millətlərin nümayəndələri erməni yepiskopunun hiyləsinə uyaraq, sülh şəraitində yaşayacaqlarına and içdilər. Bu hiyləyə inanan azərbaycanlı əhali öz gündəlik işləri ilə məşğul ikən Novruz bayramı günü - martın 18-də qəfildən şəhərin bütövlüklə azərbaycanlılardan ibarət olan aşağı hissəsi cənubdan ermənilər, şimali-şərqdən isə malakanlar tərəfindən mühasirəyə alınaraq, top və pulemyot atəşinə tutuldu. Bu vəhşiliklər bir neçə gün davam etdi. Ermənilər və malakanlar yalnız Gəncədən silahlı dəstələrin köməyə gəlməsindən qorxuya düşərək, şəhəri tərk etdilər. Gəncədən gələn silahlı qüvvə onlan təqib etdi, lakin erməni və malakan qüvvələri qat-qat üstün olduğundan təqibi dayandırdı ve strate-ji mülahizələrə görə, dörd güri sonra şəhərdən çıxdı. Müsəlman əhalinin çox hissəsi onlarla birlikdə şəhəri tərk etsə də, xeyli hissəsi orada qaldı. Geri qayıdaraq, Şamaxının yenidən zəbt eden erməni və malakan quldur dəstələri bu dəfə əhaliyə daha qəddarlıqla divan tutdular. Şəhərdə qalan azərbaycanlı əhali - uşaqlar, qadınlar və qocalar tamamilə məhv edildi. Fövqəladə Təhqiqat Komissiyasının verdiyi məlumata görə, küçələr, həyətlər, evlər, məscidlər meyitlərlə dolu idi. Şəhərdə azərbaycanlılara məxsus bütün daşınar əmlak qarət edilmiş, şəhərin azərbaycanlılara məxsus hissələrinə od vurulmuşdu. Şəhərdəki on iki məhəllə məscidi, təkcə ibadət yeri deyil, həm də 800 illik tarixə malik nadir memarlıq abidəsi olan "Cümə məscidi" də yandırılmışdı. Təhqiqat materiallarında göstərilirdi ki, ermənilərin Şamaxı şəhərinə birinci və ikinci basqınları zamanı şəhərdə "bir neçə min azərbaycanlı qətlə yetirilmişdi". Qətlə yetirilənlər arasında təkcə Şamaxıda deyil, bütün Azərbaycanda tanınmış nüfuzlu şəxslər və ictimai xadimlər də var idi. Şəhərdə böyük nüfuz sahibi olan axund Hacı Cəfərqulunu ermənilər xüsusi qəddarlıqla öldürmüşdülər. Əvvəlcə onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxaramış, qulaqlarımı və burnunu kəsmiş, sonra isə od vuraraq yandırmışdılar. Ermənilərin qəddarlıqla qətlə yetirdikləri nüfuzlu şəxslər arasında şəhər rəisi Teymur bəy Xudaverdov, Rusiyanın birinci Dövlət Dumasının Şamaxıdan seçilmiş deputatı Məmməd Əliyev və başqaları da var idi. Fövqəladə Təhqiqat Komissiyasmm məlumatında qeyd olunurdu ki, ermənilər kişi, qadın və uşaqları xüsusi qəddarlıqla, əzab işgəncə ilə - qolları, qıçları, burunları, qulaqları kəsilməklə, gözləri çıxarılmaqla, qarınları yırtılmaqla, yandırılmaqla qətlə yetirmişlər. Ermənilər təkcə Şamaxı şəhərində azər-baycanlılara məxsus dəyəri bir milyard manatdan yuxarı olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandırmışlar.

Şamaxı qəzasının 120 azərbaycanlı kəndindən 86-sı da ermənilər tərəfindən qarət edilmiş, yandırılmış, dağıdılmış və əhalisi qətlə yetirilmişdir. Fövqəladə Təhqiqat Komissiyasının həmin kəndlərdən 53-nün hər birinə vurulmuş zərərlər barədə tərtib etdiyi xüsusi yekun aktında ayrı-ayrı kəndlərdə ölənlərin sayı (o cümlədən kişi, qadını və uşaqlar göstərilməklə) və hər bir kəndə dəymiş maddi zərərin miqdarı göstərilirdi. Həmin aktlara əsasən tərtib olunmuş mə-lumatlara görə, Şamaxı qəzasının 53 kəndində ermənilər qısa müddətdə 8027 nəfər azərbaycanlının qətlə yetirmişlər ki, onların da 4190 nəfəri kişi, 2560 nəfəri qadın, 1277 nəfəri uşaqlar olmuşdur. Hesablamalara görə, bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manata çatırdı.

Komissiyanın gəldiyi qənaətə görə, Şamaxı qəzasmda törədilmiş bu vəhşiliklərin əsas təşkilatçıları, Bakı şəhərin-də və Quba qəzasında olduğu kimi, Bakı Kommunasının erməni daşnak başçıları S.Şaumyan, Q.Korqanov və b. idi. Onun icraçıları isə S.Şaumyanın Bakıdan hərbi dəstənin başçısı kimi göndərdiyi Lalayan (Lalayev), habelə Şamaxı sakinləri olan erməni-daşnak quldurları Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Armenak Martirosyan və b.- cəmi 31 nəfər olmuşlar. Komissiyanın qəbul etdiyi qərarda göstərilirdi ki, bu cəlladlar istintaqa cəlb edilərək, Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərə görə cavab verməlidirlər. *Aprel işğalından (1920)* sonra ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi bu vəhşiliklər unutduruldu, Lalayana və onun başçılıq etdiyi erməni vandallarına bəraət verildi, S.Şaumyan və Q.Korqanov isə Azərbaycan tarixinin xalqımıza "ən əziz adamları kimi" yad edildi. Bax, həmçinin *Soyqırımı* məqaləsinə.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; P a ş a y e v A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920), Ankara, 2001.

**ŞAMÇIZADƏ** Əli Yəhya oğlu, Əli Razi - şair, publi-sist, dramaturq, mühərrir. "Müsavat" qəzetində "müsavatçı Əli Razi" imzası ilə şerlər dərc etdirmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin kəşfiyyat xidmətində fəaliyyət gös-tərmişdir. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı üçlüyünün qərarına əsasen, 1938 il yanvarm 7-dən 8-nə keçən gecə güllələnmişdir (bax *Əli Razi).*

**ŞAMXOR HADİSƏSİ** - Türkiyə cəbhəsindən geri qayıdan Rusiya hərbi hissələrinin 1918 il yanvarın 8-10-da Şamxor (indiki Ş ə m k i r) stansiyası yaxınlığında tərk-silah edilməsi. Zaqafqaziya Komissarlığının tələbi əsasında buraxılmış rus hərbi hissələri Cənubi Qafqazı tərk edərkən silahlarım təhvil verməli, həmin silahlar milli hissələrin təchiz olunmasına yönəldilməli idi. Lakin rus qoşun hissə-

downloaded from KitabYurdu.az

lərinin çoxu silahı təhvil vermək istəmir, tərxis olunmalarına baxmayaraq, hətta ağır silahları belə özləri ilə Rusiyaya aparmağa cəhd göstərirdilər. Gürcüstan və Azərbaycandan keçib, şimala gedən hərbi eşelonların bir qismi bolşeviklərin, digər qismi isə rus qoşunlarında olan çoxsaylı erməni hərbçilərinin təhriki ilə silahlarını Bakıda S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak qüvvələrinə təhvil verirdilər. Daşnak millətçiləri rus hərbi eşelonlarından pulla da xeyli silah alırdılar. Bununla yanaşı, cəbhədən qayıdan Rusiya əsgərləri erməni zabitlərinin təhriki ilə yol boyu kəndləri talayır, əhalinin var-yoxunu silah gücünə qarət edirdilər. Buna görə də Qafqazdan keçən hərbi eşelonların silahlarını təhvil verməsindən ötrü qəti tədbirlərin həyata keçirilməsi qərara alındı.

Hərbi eşelonların Şamxor yaxınlığında tərk-silah edilməsinə razılıq vermiş Zaqafqaziya Komissarlığının qərarı Millətlərarası Şura tərəfindən də bəyənilmiş və onun həyata keçirilməsi üçün 100 nəfərlik dəstə, həmçinin zirehli qatar göndərilmişdi.

Tərk-silah və silahların toplanması əməliyyatında yaxından iştirak edən Yelizavetpol (Gəncə) Müsəlman Milli Komitəsinin fəalları bu işi dinc yolla həyata keçirməyə çalışdılar. Danışıqların aparılması üçün müəyyən adamlar da seçilmişdi. Silahların könüllü təhvil verəcəkləri halda hərbçilərin ərzaq və digər zəruri əşyalarla təmin edilib yola salınması nəzərdə tutulmuşdu. Lakin dinc danışıqlar nəticə vermədiyi üçün silahlı qarşıdurma yarandı və hər iki tərəfdən itkilər oldu.

Tədbirə Rəfibəyovlardan, Gəncə Müsəlman Milli Komitəsinin fəallarından əlavə, Gəncədə yerləşən Tatar süvari alayının şəxsi heyəti də cəlb olunmuşdu. Hərbi eşelonlardan alınan toplarını birini A.Səfikürdski özü Yelizavetpola qədər müşayət etmişdi. Hərbi eşelonların tərk-silah olunmasında polkovnik Süleyman bəy Əfəndiyevin komandir olduğu 5-ci Yelizavetpol nişançı alayı da yaxından iştirak etmişdi. Şamxor hadisəsi zamanı hərbi eşelonlardan 20 ədəd top, 70 ədəd pulemyot və 15000 tüfəng alınmışdı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti, B., 1998; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**ŞAMXOR (ŞƏMKİR) QƏZASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi. Şamxor qəzasının yaradılması haqqında məsələ Parlamentin 1920 il 22 aprel iclasında müzakirə edilmiş və bu barədə 5 madddən ibarət xüsusi qanun qəbul edilmişdi. Birinci maddədə qəzanın Gəncə qəzasının qərb hissəsində və keçmiş Novobayazet (Yeni Bayazid) qəzasının ona bitişik hissələrində yaradıldığı göstərilirdi. Qəza idarələri Zəyəm stansiyasında yerləşməli idi. İkinci maddəyə görə, yeni təsis edilmiş Şamxor qəzasına 34 kənd icması verilməsi nəzərdə tutulurdu. Bunlar Qaracəmirli, Georgiyevsk, Alabaşlı,

*Şamxor (Şəmkir) şəhidlərinin dəfn mərasimi. Gəncə, 1918*



downloaded from KitabYurdu.az

Seyfəli, Annino, Dəllər, Keçili, Morul, Quşçu, Zəylik və b. idi. Sonrakı maddələr Şamxor qəza idarə sisteminin təşkili və maliyyə məsələlərinə həsr edilmişdi. Şamxor qəzasının yaradılması haqqında qanunun qəbul edilməsindən sonra ölkədə vəziyyətin daha da gərginləşməsi və aprelin 28-də Cümhuriyyətin süqutu Şamxor qəzasının yaradılması haqqında qanunun həyata keçirilməsinə imkan vermədi. Yeni qurulmuş Azərbaycan SSR hökuməti də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Şamxor qəzası yaradılması haqqında qanununu yerinə yetirməyərək, əvvəlki inzibati-ərazi bölgüsünü saxladı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.2, B., 1998; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Список населенных мест Азербаиджана (по материалом селькохозяйственных переписей 1917 и 1921 гг.), Б., 1922.

**ŞATELVORQ** D. (?-?)- Bakıdakı müttəfiq qoşunlarının komandanı, Böyük Britaniya hərbçisi, general. Fəaliyyəti, əsasən, Denikinin başçılıq etdiyi *Könüllü ordunun* cənub istiqamətində irəlilədiyi dövrə təsadüf etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti demarkasiya xəttinin pozulması ilə əlaqədar general Şatelvorqla mütəmadi danışıqlar aparmışdır. Şatelvorq 1919 il 3 aprel tarixli bəyanatı ilə Xosrov Paşa bəy Sultanovun Qarabağın general-qubernatoru vəzifəsinə təyinatını tanımışdır. Azərbaycandan getmək ərəfəsində, avqustun 23-də B.Britaniya qoşunları adından Bakı əhalisinə "vida müraciəti" etmişdi: ***"Britaniya ordusunun bütün qulluqçuları özlərilə Azərbaycanda keçirdikləri günlər haqqında ən xoş xatirələri aparırlar".***

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Е., 1998.

**ŞEYX MƏHƏMMƏD XİYABANİ** - Azərbaycanın cənubunda şahhq rejiminə və imperialist ağalığına qarşı milli azadlıq hərəkatının görkəmli xadimi (bax *Xiyabani* Şeyx Məhəmməd, *Azadıstan).*

**ŞEYX UZUN HACI** (1852, Dağıstan, Saltı k. - may, 1920) - Şimali Qafqaz dağlarının azadlıq hərəkatı liderlərindən biri. Nəqşbəndi şeyxlərindəndir. Çarizm dövründə imperiyaya qarşı apardığı



təbliğata görə Saratov quberniyasına sürgün edilmiş, Fevral inqilabından (1917) sonra vətənə dönmüşdür. Şimali Qafqaz dağlılarının müstəqilliyi və Şeyx Şamil İmamlığının (İmamətinin) bərpası ideyası ilə çıxış etmişdir. Şimali Qafqaz dağlılarının 1-ci qurultayında müfti seçilmiş Nəcməddin *Qotsinskinin* vəkili və naibi olmuşdur. Məhz onun təkidi ilə N.Qotsinski Əndi qurultayında Şimali Qafqaz dağlılarının imamı seçilmişdir. 1918 ilin əvvəlində N.Qotsinski hakimiyyəti zorla ələ keçirmekdən imtina etdikdən sonra Uzun Hacı ondan aynlmış və öz hərbi dəstələri ilə Çeçenistan ərazisinə keçərək, bolşeviklərə qarşı vuruşmuşdur. Şimali Qafqazın və Dağıstanın denikinçilər tərəfindən işğalı prosesi başlandıqdan sonra 1919 ilin aprelində Uzun Hacı Dağlı hökumətinin dəvəti ilə Temirxan-Şuraya gəlmiş və parlamentin qəran ilə ağqvardiyaçılara qarşı silahh müqavimətin təşkili ona həvalə edilmişdi. Aprelin 14-də Azərbaycan Xalq Cümhuriyyətinin Dağlılar Respublikasındakı səfiri Əbdünəhim bəy Haqverdiyevlə görüşdükdən sonra Şeyx Uzun Hacı hərbi dəstələri ilə Çeçenistana keçərək, silahlı müqavimətə rəhbərliyi öz üzərinə götürmüşdü. Vəzdvicenko, Vedeno, Şali döyüşlərində denikinçiləri məğlubiyyətə uğradaraq, Vedenoda qərargah salan şeyx 1919 il sentyabnn 29-da müstəqil "Şimali Qafqaz Əmirliyinin" yaradıldığını rəsmən bildirərək, Osmanlı xəlifəsi 6-cı Mehmet Vahidəddinin fərmanına əsasən, Uzun Xeyri Hacı Xan adı ilə özünü Əmir və İmam elan etmişdi. Əmirliyə Əndi, Şatoy, Vedeno, İtum-Qala, Qroznı və inquş əraziləri daxil idi. Yeni dövlətin öz pul vahidi də kəsilməyə başlamışdı. Uzun Hacının uğur qazandığını görən bolşeviklər Denikinə qarşı mübarizədə ondan istifadə etmək qərarına gəlmiş və öz hərbi dəstələrini onun sərəncamına vermişdilər. Sonralar Azərbaycanın kommunist rəhbərlərindən biri olan N.F.Gikalo Uzun Hacının fərmanı ilə əmirliyin ordu rəhbərlərindən biri təyin edilmişdi. Əmirlikdə bolşeviklərin səfirliyi də fəaliyyət göstərirdi. Uzun Hacının denikinçilərə qarşı mübarizəsində ən böyük dəstəyi isə Azərbaycan Xalq Cümhuriyyətindən gəlirdi. Azərbaycan hökuməti dağlıların azadlıq hərəkatına hər ay 10 milyon Bakı bonu məbləğində maliyyə yardımı göstərirdi. Bundan əlavə, hökumətin qəran ilə Uzun Hacının hərbi dəstələrinə çoxlu sayda azərbaycanlı və türkiyəli hərbçi mütəxəssis ezam olunmuşdu. Çeçenistanda Uzun Hacı, Dağıstanda isə Əli Hacı Akuşalı və Nuru paşanın rəhbərliyi ilə denikinçilərə qarşı mübarizə sonunculann məğlubiyyəti ilə nəticələndi. 1920 ilin əvvəllərində bolşevik ordulrının Terek vilayətinə daxil olması ilə vəziyyət dəyişdi. Qroznıda dağlı ərazilərinin gələcək taleyi barədə bolşeviklərlə Uzun Hacının nümayəndələri arasında danışıqlar apanldı. Bolşeviklərin Uzun Hacının yalnız dini liderliyini tanıyacağı və onu qəti şəkildə siyasi iddialarından əl çəkməyə çağırması denikinçilərə qarşı mübarizə dövründə müttəfiq olmuş bu iki qüvvə arasında münasibəti kəskinləşdirdi. Bolşeviklər tərəfindən aldadıldığını görən Uzun Hacı 1920 il mayın 11 -də Vedeno yaxınlığındakı Qayış-Yurt aulunda qurultay toplayaraq, onlara qarşı silahlı mübarizə aparmaq qərarına gəlir. Şeyx Şamilin Türkiyədə yaşayan oğlu Kamili rəsmi varisi elan edən Şeyx Uzun Hacı qurultaydan bir neçə gün sonra dünyasını dəyişmişdir. Çeçenistanın Dışni-Vedeno kəndindəki türbəsi ziyarətgahdır.

*Əd.:* Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq hərəkatı, B., 2000.

**ŞEYXÜLİSLAMOV** Əkbər Ağa İbrahim oğlu (1891, İrəvan ş. - 2.3.1961, Paris, şəhərin yaxınlığındakı müsəl man qəbiristanlığında dəfn olunmuşdur) - ictimai-siyasi və dövlət Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Orta təhsilini İrəvan gimnaziyasında almış, 1912 ildə Peterburq Yol Mühendisliyi İnstitutuna daxil olmuşdur. Ali məktəbdə bütün tədris kursunu başa çatdırmasına baxmayaraq, Fevral inqilabından (1917) sonra

downloaded from KitabYurdu.az

yaranmış siyasi vəziyyətlə əlaqədar, diplomunu almadan vətənə dönməli olmuşdur. 1918 ilin fevralında Zaqafqaziya seyminin üzvü seçilmişdir. Seymin Müsəlman fraksiyasmda təmsil olunan "Hümmət" (menşevik) partiyasına daxil idi. Şeyxülislamov Zaqafqaziya seyminin Türkiyə hökuməti ilə sülh danışıqları aparmaq üçün 1918 il martın 1-də yaratdığı nümayəndə heyətinin tərkibində olmuş, həmçinin Zaqafqaziya hökumətində daxili işlər nazirinin müavini vəzifəsini icra etmişdir. Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan sonra (1918, 26 may) Azərbaycan Milli Şurasının üzvü kimi *İstiqlal bəyaımaməsinin* qəbul olunmasında iştirak ctmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 1-ci hökumət kabinəsində torpaq və əmək naziri vəzifəsini tutmuşdur. Azərbaycanın Xalq Cümhuriyyəti Parlamentində sosialist fraksiyasının üzvü olmuşdur.

1918 il dekabrın 12-də siyasi partiyalarının Bakıda keçirilmiş demokratik müşavirəsində "Hümmət" (menşevik) partiyası adından çıxış edərək, sosialistlərin hökumətin tərkibinə daxil olmasını tələb etmişdir. *Paris Sülh Konfransına (1919-20)* göndərilən Azərbaycanın nümayondə heyətinin üzvü idi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirətdə yaşamış, Azərbaycan *Siyasi mühacirətinin* fəal nümayəndələrindən olmuşdur. 20 əsrin 20-ci illərində Parisdə Azərbaycandan II İnternasionalın üzvü olmuşdur. Parisdə rusca nəşr olunan "Azərbaycan" juralında (№ 2) dərc olunmuş "Azərbaycan necə quruldu" mə-qaləsində 1918 il 26-28 may hadisələrindən ətraflı bəhs edilir. Həmin məqalə Ankarada nəşr olunan "Mücahid" (1962, №49-50) jumalında yenidən çap olunmuşdur.

*Əd.:* Azərbaycan tarixi. 7 cilddə. c.5, B.. 2001; Ə l i y e v M., Əkbərağa Şeyxülislamov, "Azərbaycanın Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920)" kitabında, B.. 1990.

**ŞEYXZAMANLI** Məmmədbağır Salah bəy oğlu (1881, Gəncə - 1920) - ictimai-siyasi xadim, maarif və mədəniyyət xadimi. Gəncənin qədim Şeyxzamanlılar nəslindəndir. Gəncə realm məktəbini bitirmiş, şəhərin mədəni həyatında yaxından iştirak etmiş, 1906 ildə dram cəmiyyəti təşkil edərək, Azərbaycan, Avropa dramaturqlarının əsərlərini tamaşaya qoymuşdur. *"Difai"* partiyası Gəncə şöbəsinin yaranmasında və fəaliyyətində yaxından iştirak etmiş, şəhər dumasının üzvü olmuşdur. Fevral inqilabından (1917) sonra Nəsib bəy Yusifbəylinin Gəncodə yaratdığı "Türk Ədəmi-Mərkəziyyət partiyası"na daxil olmuş, həmin partiya Məhəmməd Əmin Rəsulzadənin "Müsəlman demokratik "Müsavat" partiyası ilə birləşdikdən sonra "Türk Ədəmi-Mərkəziyyət "Müsavat" partiyasımn üzvü kimi Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında və fəaliyyətində mühüm rol oynamış, "Müsavat" partiyasından Parlamentin deputatı seçilmişdir. M.Şeyxzamanlı 1919 il iyunun əvvəllərində yaradılmış Dövlət Müdafiə Komitəsi sədrinin əmri ilə *Əks-inqilabla mübarizə təşkilatının* rəisi teyin olunmuş, dövlət təhlükəsizliyinin xarici və daxili düşmənlərdən qorunmasına böyük əmək sərf etmişdir. Lakin 1919 il avqustun 20-də öz xahişi ilə vəzifəsindən azad edilmiş və bu vəzifəyə onun kiçik qardaşı Nağı bəy *Şeyxzamanlı* təyin olunmuşdu. Bu dövrdə o. Azərbaycanında xaiq maarifinin tərəqqisi üçün də xeyli iş görmüş, dövri mətbuatda maarifçilik nıhunda xeyli məqalə dərc etdirmişdir.

1920 ilin aprelində Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalının ilk günlərində həbs olunmuş, müstəqil Azərbaycana xidmət etdiyi üçün 11-ci Qınmzı ordunun xüsusi şöbəsinin qərarı ilə güllələnmişdir.

1921 ŞEYXZAMANLI Nağı bəy Salah bəy oğlu, Keykurun (1883. Gəncə - 1967, İstanbul) - ictimai-siyasi və dövlət xadimi. İlk təhsilini Gəncə gimnaziyasında ahnış, şəhərin ictimai-siyasi həyatında fəal iştirak etmişdir. *"Difai" parti*yası Gəncə şöbəsinin, "Gənclik" təşkilatının, "Miisavat" partiyasımn foal üzvlərindən olmuşdur.

Türkiyənin hərbi yardımını təmin etmək üçün 1918 ilin yanvarında xüsusi göstərişlə ora göndərilmiş, Qafqaz cəbhəsinin komandanı Vehib paşa və digər dövlət rəsmilərilə danışıqlar aparmış. *Şamxor hadisəsi* zamanı ras əsgərlərinin tərksilah olunmasında yaxından iştirak etmişdir.

1919 il avqustun 20-də böyük qardaşı Məmmədbağır Şeyxzamanlının yerinə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində *Əks-inqilabla miibarizə təşkilatının* rəisi təyin olunmuş, 1920 il martın 6-na qədər bu quruma rəhbərlik etmişdir. Cümhuriyyət dövründə ölkənin təhlükəsizliyinin təmin olunmasında, sərhədlərin qorunmasında mühüm xidmətlər göstərmişdir.

*Aprel işğalından (1920)* sonra N.Şeyxzamanlı da vətəni tərk etmək məcburiyyətində qalmış, çox çətinliklə əvvəlcə Gəncəyə. sonra isə Tiflisə getmişdir. Fətəli xan Xoyski və Həsən bəy Ağayev Tiflisdə faciəli surətdə qətlə yetirildikdən sonra N.Şeyxzamanlı İstanbula getmiş, ömrünün sonuna qədər burada yaşamış, Keykurun soyadını qəbul etmişdir. Türkiyədə jumalistliklə məşğul olmuş, "Azərbaycan". "Türk yolu". "Qafqaz", "Odlu Yurd" jurnallarında, bir çox qəzetlərdə Azərbaycan istiqlal mücadiləsinin səhifələrini işıqlandıran yazılar dərc etdinnişdir. "Biz və onlar" (1934). "Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağızadə" (1957), "Dərdləşmə" (1963), "Azərbaycan istiqlal mücadiləsi xatirələri" (1964) kitabları nəşr olunmuşdur. Əsərləri Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini əks etdirən dəyərli mənbələrdir. Nağı bəy Şeyxzamanlı Azərbaycan *Siyasi mühacirətinin* ən fəal nümayəndələrindən biri olmuşdur.

Əsəri: Nağı Şeyxzamanlının xatirələri, B., 1997.

*Əd.:* İ b r a h i m l i X., Azərbaycanın siyasi mühacirəti (1920-1991), B., 1997: Elşad Qoca. Tariximiz. taleyimiz. B.. 2001.

**"ŞEYPUR"** - Bakıda Azərbaycan dilində nəşr olunan həftəlik satirik jurnal. İlk sayı 1918 il oktyabrın 5-də, sonuncu sayı isə 1919 il yanvarın 18-də (cəmi 14 nömrə) çıxmışdır. Redaktoru Məmmədəli *Sidqi,* naşiri *Səməd Mənsur* idi. Satirik jumalistikanın qaydalarına uyğun olaraq. "Şeypur"da publisistik və bədii materiallar üstüörtülü imzalarla dərc edilmişdir. Jurnalda Səməd Mənsurun satirik şerləri, əsasən, "Pampuşəli" imzası ilə dərc olunmuşdur. Baş mühərrir Məmmədəli Sidqi isə daha çox "Şeypur" imzası ilə çıxış etmişdir. Jurnalda "Dağlı", "Dağlızadə"

downloaded from KitabYurdu.az

(C.Cabbarlı), "Qozqurab bəy" (Əmin Abid), habelə "Yaf-tuməli", "Çalma", "Qoçu Mauzerzadə". "Mömin çinovnik", "Lağlağı", "Müsahib", "Hamınalsuvar" və s. gizli imzalar da işlənmişdir.

Jurnal Azərbaycanın Xalq Cümhuriyyətinin müstəqillik ideallarını təbliğ edir, bu yoldakı əngəlləri, bolşevik-daşnak fitnəkarlıqlarını. Bakı neftini ələ keçirməyə can atan əcnəbi dövlətlər arasındakı çəkişmələri ifşa edirdi.

"Molla Nəsrəddin" jumalının ənənələrini davam etdirən "Şeypur"da müxtəlif satirik-yumoristik üsullardan istifadə olunurdu. "Şeypur"un lüğəti", "Bakı xəbərləri". "Poçt qutusu", "Teleqraf xəbərləri" və s. başlıqlar altında verilən materiallar, hər nömrədə dərc edilən şerlər sıyasi kəskinliyi, tənqid hədəflərinin aydınlığı və populyarlığı ilə seçilirdi.

**ŞƏHƏR ÖZÜNÜİDARƏSİ** - şəhər idarə sistemi. Rusiyada 1870 il şəhər islahatından sonra formalaşmışdı. Sərəncamverici orqan olan şəhər dumasından və onun seçdiyi şəhər idarəsindən ibarət idi. 1870 il şəhər islahatı Azərbaycanda ancaq 1878 ildə, özü də yalnız Bakıda tətbiq edildi. Çar 111 Aleksandrın 1892 il şəhər əsasnaməsi isə 1897 ildə Yclizavetpolda (Gəncə) həyata keçirildi. Lənkəran, Nuxa (Şəki), Quba. Şamaxı və digər qəza şəhərlərində sadələşdirilmiş ictimai idarələr yaradıldı. Fevral inqilabından (1917) sonrayaradılmış Müvəqqəti hökumət dövründə yerli, özünüidarə orqanlarının. o cümlədən şəhər özünüidarəsinin əhəmiyyəti artdı. Oktyabr çevrilişindən (1917) sonra vəziyyət dəyişdi. Bakıda hakimiyyəti əle keçirmiş Bakı Soveti 1918 il aprelin 20-də şəhər dumasını ləğv etdi. Azərbaycan Xalq Cümhuriyyoti qurulduqdan sonra şəhor özünüidarəsinin təşkilinə böyük əhəmiyyət verildi. Cümhuriy-yət hökuməti 1918 il iyulun 30-da şəhər özünüidarəsinin bərpası haqqında qərar qəbul etdi. Qərara əsasən. Azərbaycanda şəhər özünüidarəsinin bərpası üçün tədbirlər görülməsi daxili işlər nazirinə həvalə olundu. Şəhor özünüidarəsinin olmadığı qəza mərkəzlərində, Ağdaş, Salyan, Ağdam, Bərdə, Qazax və bu kimi şəhərlərdo kondxuda ştatı yaradıldı. Bakıda, Gəncədə və digər şəhərlərdə şəhər özünüidarəsinin canlandırılması sahəsində qanunvericilik tədbirləri və praktik işlər görüldü. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra şəhər özünüidarəsi sistemi ləğv olundu.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Е.,1998; Мильман А.Т., Политический строи Азербаиджана XIX – начале XX веков, Б., 1966; Одватова К., Городское самоуправление, Б., 2003.

**ŞƏHİDLƏR XİYABANI** - Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş mübarizlərin uyuduğu məzarlıq. Şəhidlər Xiyabanında 1918 ilin martında S.Şaumyanın göstərişi və baçşılığı ilə daşnak-bolşevik silahlı birləşmələrinin həyata keçirdiyi kütləvi soyqırımı [bax *Mart soyqırımı (1918)]* nəticəsində qətlə yetirilmiş minlərlo azərbaycanlı. 1918 ilin sentyabrında Bakının daşnak və eser-menşevik diktaturasının hakimiyyətindən azad olunmasında şəhid olmuş Azərbaycanın-türk əsgər və zabitləri. 1990 ilin 20 Yanvar qırğını və Qarabağm azad olunması uğrunda erməni qəsbkarlarına qarşı döyüşlərdə həlak olmuş şəhidlər dofn olunmuşlar. Azərbaycan Xalq Cümhuriyyətinin müdafio naziri general Səməd bəy Mehmandarov və iki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun məzarları da Şəhidlər Xiyabanındadır. Hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakının daşnaklar və eser-menşeviklərin idarə etdiyi "Sentrokaspi diktaturası"nın hakimiyyətindən azad edilməsi (1918, 15 sentyabr) zamanı şəhid olmuş azərbaycanlı və türk əsgərlərinin xatirəsini əbədiləşdirmək üçün onların dəfn olunduğu Çəmbərəkənd qəbiristanlığında (indiki Şəhidlər Xiyabam) xatirə abidəsi ucaltmaq qərara alınmış və həmin abidə kompleksinin layihəsi (memar Zivər bəy *Əhmədbəyov)* hazırlanmışdı. Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunmasının ildönümü münasibətilə 1919 il sentyabrın 15-də Azərbaycan Parlamentinin xüsusi iclası keçirilmiş, millət vəkilləri hökumət üzvləri ilə birlikdə Çombərəkənd qəbiristanhğına gedərək, xatirə abidəsinin özülünü qoymuşdular. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin vəsaiti ilə tikiləcək bu abidənin inşaat işlərinə 1919 il sentyabrın 15-də başlanmalı və 1920 ilin sentyabrınadək başa çatdırılmalı idi. Lakin *Aprel işğalı (1920)* nəticəsində abidənin tikintisi yarımçıq qalmışdı.

1990 il yanvarın 19-dan 20-nə keçən gecə sovet imperiyasının Bakıya yeridilmiş iri qoşun kontingentinin törətdiyi kütləvi qırğın zamanı Vətənin azadlıq uğrunda şəhid olan övladlarını dəfn etmək üçün Bakınm keçmiş Çəmbərəkənd qəbiristanlığında Şəhidlər Xiyabanı salındı. Dəfn zamam şəhid məzarları bir-birinə qovuşdu. Azərbaycanın torpaqlarının bütövlüyü uğrunda Qarabağda erməni qəsbkarlarına qarşı döyüşlərdə canlarını qurban verənlər və şəhidlik məqamına ucalanlar da burada dəfn olundular. Mənnər lövhələrdə və qəlblərdə azadlıq uğrunda şəhid olanların adları əbədi həkk olundu. Sonralar Azərbaycanın digər şəhər və rayonlarında da şəhid xiyabanları salındı.

Şəhidlər Xiyabanı Azərbaycan xalqının müqəddəs ziyarətgahı, and yeridir. Azərbaycanına rəsmi səfərə gələn görkəmli ictimai-siyasi və dövlət xadimləri, xarici ölkələrin rəsmi nümayəndəlikləri, qonaqlar Şəhidlər Xiyabanına gələrək, Azərbaycanın qəhrəman övladlarının əziz xatirəsini ehtiramla yad edirlər. Azərbaycan xalqı, bütün Azərbaycan gəncliyi şəhidlərin xatirəsini əziz saxlayır, ən əziz və əlamətdar günlərdə Şəhidlər Xiyabanını ziyarət edir, vətənə, xalqa onlar kimi sadıq olacaqlarına and içirlər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998 il 5 avqust tarixli sərəncamına əsasən, onun şəxsən iştirakı və tövsiyyələri ilə Şəhidlər Xiyabanmda milli memarlıq ənənələri üslubunda türbə ucaldılmış, xatirə kompleksi yaradılmışdır (1998, avqust-sentyabr; memarlar Elboy Qasımzadə, Akif Abdullayev, Kazım Əliyev).

**ŞƏRİFZADƏ** Abbasmirzə Mirzə Əbdülrəsul oğlu (22.3.1891, Şamaxı - noyabr, 1938, Bakı) - görkəmli Azərbaycan aktyoru, rejissor. teatr xadimi. Azərbaycanın SSR xalq artisti (1936). 1895 ildə ailəsi Şamaxıdan Bakıya köçmüşdür. Şərifzadə burada ibtidai məktəbi bitirəndən (1906)

downloaded from KitabYurdu.az



sonra gimnaziyaya daxil olmuş, lakin xəstələndiyindən təhsilini yarımçıq qoymuşdur. Hələ məktəbli ikən həvəskar teatr tamaşalarında iştirak edən Abbasmirzə 1908 ildən taleyini həmişəlik teatrla bağlamış, səhnədə (J-B-Molyer) tamaşasında lal qız rolunu oynamış, Hüseyn Ərəblinski məktəbinin davamçısı kimi tanınmışdır.

Şərifzadə 1910 ildən "Səfa", "Nicat" xeyriyyə cəmiyyətlərinin teatr truppalarında çıxış etmiş, 1913 ildən Azərbaycanın bölgələrinə, Orta Asiyaya, Şimali Qafqaza, Vəlqaboyuna, İrana qastrol səfərlərinə getmişdir. Bacarıqlı rejissor kimi də tanman Şərifzadə 1916 ilde *"Hacıbəyli qardaşları" truppasına* rejissor dəvət olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şərifzadə milli mədəniyyətin, o cümlədən teatr sənətinin inkişafında fəal iştirak etmişdir. 1919 ilin sentyabrında Azərbaycan Dövlət Teatrında Mirzə Bala Məmmədzadənin mart soyqırımından bəhs edən "Bakı uğrunda mübarizə" pyesi Şərifzadənin rejissorluğu ilə tamaşaya qoyulmuşdur. O, yaradıcılarından biri olduğu "Müsəlman artistləri ittifaqf'mn 1919 ilin sentyabrında "Hacıbəyli qardaşları" truppası ilə birlikdə açdığı dörd şöbədən ibarət "bədaye" kurslarında müəllim kimi çalışmış, aktyorların püxtələşməsinə, peşəkarlıqlarının artırılmasına, milli aktyor kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. Şərifzadə teatrın repertuarının zənginləşdirilməsinin də qayğısına qalmış, Azərbaycan dramaturqlarının milli şüurun oyanmasına təkan verən əserləri ilə yanaşı, dünya klassikasının nümunələrini də tamaşaya qoymuşdur.



*A.M.Şərifzadə Şeyx Sənan ("Şeyx Sənan", H.Cavid) rolunda*

Sovet hakimiyyəti illərində Şərifzadə Azərbaycan Dövlət Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) çalışmış, milli teatrın inkişafına dəyərli töhfələr vermişdir. Kino rejissoru kimi də fəaliyyət göstərmiş, "Bismillah" (1925), "Hacı qara" (1929), "Məhəbbət oyunu" (1934) bədii filmlərini və "Azərbaycana səyahət" (1926) sənədli fılmini çəkmişdir. 1928 ildə Azərbaycan Dövlət Opera Teatrının baş rejissoru olmuş, "Əsli və Kərəm" (Ü.Hacıbəyli), "Aşıq Qərib" (Z.Hacı-bəyli) və "Şah İsmayıl" (M.Maqomayev) operalarını tamaşaya qoymuşdur.

Yüksək aktyorluq məharətinə malik olan Şərifzadə 30 illik səhnə fəaliyyəti ərzində milli dramaturqlarını, eləcə də dünya klassiklərinin əsərlərində müxtəlif rollar oynamış, zəngin obrazlar qalereyası yaratmışdır: Aydın, Oqtay, Elxan ("Aydm", "Oqtay Eloğlu", "Od gəlini", C.Cabbarlı), Şeyx Sənan, İblis, Səyavuş, Knyaz ("Şeyx Sənan", "İblis", "Səyavuş", "Knyaz", H.Cavid), Qacar ("Ağa Məhəmməd şah Qacar". Ə.Haqverdiyev), Karl Moor ("Qaçaqlar", F.Şiller), Otello, Hamlet, Makbet ("Otello", "Hamlet", "Makbet", U.Şekspir), Uriel Akosta ("Uriel Akosta", K.Qutskov) və s. U.Şekspirin qəhrəmanları Şərifzadənin aktyorluq istedadının zirvəsidir. Bu rolları o, olduqca plastik, psixoloji dərinlik və temperamentlə oynamışdır. Azərbaycan və Moskva mətbuatında Şərifzadənin Hamlet rolundakı çıxışı aktyorun böyük qələbəsi kimi qiymətləndirilmişdir.

Şərifzadənin yaradıcılığı Azərbaycan teatr sənətinin yüksək inkişaf pillələrindəndir. 1928 ildə Bakıda səhnə fəaliyyətinin 20 illiyi təntənəli surətdə qeyd edilmişdir. 1938 ilin oktyabrında saxta ittihamlarla həbs edilmiş və güllələnməyə məhkum olunmuşdur. Ölümündən sonra bəraət verilmişdir.

*Əd.:* A.M.Şərifzadə haqqında xatirələr, B., 1963; Sadıxov N., Mərdanov M., Ahbas Mirzə Şərifzadənin teatr və kino fəaliyyəti, B., 1963: Məmmədli Q.. Abbas Mirzə Şərifzadə, B.. 1985; Bünyadov Z.M., Qırmızı terror, B.. 1993; Джафаров Дж., Гордость театра, Б., 1963; Гаджинская Дж., Гордость театра, Б., 1963; Гаджинская Н., Аббас Мирза Щарифзаде, в кН.: 20 режиссерских биографий, М., 1978.

**ŞƏRQ CƏBHƏSİ KOMANDANLIĞI** 1918 il iyulun 16-18-də Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusu (QİO) qüvvələrinin daha çevik və səmərəli idarəsinə nail olmaq məqsədilə yaradılmış taktiki qrup. QİO-nun hissə və bölmələri S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin bolşevik-daşnak qüvvələrinə qarşı Göyçay-Şamaxı-Bakı şose yolu və Gencə-Bakı dəmir yolu xətti boyunca hücuma başlamışdı. Müsüslü-Qaraməryəm və Ağsu-Kürdəmir xəttindəki döyüşlər vahid plan əsasında

downloaded from KitabYurdu.az

həyata keçirilirdi. Lakin hücum istiqamətləri bir-birindən məsafəcə uzaqlaşdığından bu və ya digər hissənin qısa müddət ərzində Göyçay-Şamaxı-Bakı şose yolundan dəmir yolu ətrafına atılması və ya geri çəkilməsi çətinləşirdi. Ona görə QİO komandanlığının əmri ilə Bakıya gedən şose yolu ilə hərəket edəcək hissə və bölmələr bir taktiki qrupda birləşdirildi. 10-cu Qafqaz piyada alayının komandiri Şimal qrupu adlandırılan bu taktiki qrupun komandiri təyin edildi. Dəmir yolu boyunca herəkət edən qüvvəler isə Cənub qmpu adlandırıldı və polkovnik Həbib bəy Səlimov onun komandiri təyin edildi. Bu iki taktiki qrupa rəhbərlik isə xüsusi olaraq yaradılmış Şərq Cəbhəsi Komandanlığına tapşırıldı. Bu komandanlıq bəzən Bakı cəbhəsi komandanlığı da adlandırılırdı. 5-ci Qafqaz firqəsinin komandiri Mürsəl bəy Şərq cebhəsi komandanı təyin edildi. İstər Şimal Cebhəsi Komandanlığının, istərsə də Şimal və Cənub qurplarının müstəqil qərargahları var idi. Ağsudan və Karrar stansiyasmdan başlayaraq, həlledici Bakı əməliyyatına qədər bütün döyüşləri Şərq cəbhəsi komandanlığı apanrdı.

1918 il avqustun son günlərində Şərq cəbhəsi komandanlığının tərkibində üç taktiki qrup - Şimal, Qərb ve Cənub qmpları yaradıldı. Şimal qmpunun komandiri yenidən Osman bəy təyin edildi. Bu qmp Xırdalan-Mərdəkan xəttində olan sahədə fəaliyyət göstərməli idi. Qərb qrupu isə Xırdalanla Puta arasında yerləşməli idi. Onun komandiri Cəmil Cahid bəy təyin edildi. Puta ilə Ələt stansiyası arasında yerləşən Cənub qurpu isə qayməqam Həlim Pərtov bəyin rəhbərliyi altın fəaliyyət göstərməliydi.

Həlledici Bakı əməliyyatı ərəfəsində, yəni 1918 il sen-tyabrın 10-da QİO-nun komandanı Num paşanın əmrilə Şorq Cəbhəsi komandanlığına daxil olan türk hissələri yenidən 5-ci Qafqaz fırqəsinin komandirinə tabe edildi və bununla Şərq Cəbhəsi Komandanlığının fəaliyyəti dayandırıldı.

Əd.: Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B,, 1998; y enə onun, Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999.

**ŞƏRQİ ANADOLUDA ERMƏNİLƏRİN TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLARI** - erməni-daşnak silahlı quldur dəstələrinin türk-müsəlman əhaliyə qarşı törətdikləri kütləvi qırğmlar. Birinci dünya müharibəsi (1914-18) illərində ermənilərin Türkiyəyə qarşı ilk silahlı çıxışı çoxdan hazırlıq gördükləri Zeytun bölgəsində oldu. Onlar Türkiyədə hərbi səfərbərliyə qarşı çıxır, qeydiyyat üçün səfərbərlik məntəqələrinə gedən müsəlmanları qətlə yetirir, qarət edirdilər.

Zeytundakı erməni "Hnçaq" komitəsinin yığıncağında "ingilislər İsgəndəruna çıxacaqları üçün Adana, Maraş işğal olununcaya qədər üsyanlarla səfərbərliyə mane olmaq, ingilislərin hərəkətini dəstəkləmək. jandarmların silah və cəbbəxanalarını ələ keçirmek, hökumət məmurlarını və ailə üzvlərini öldürmək, teleqraf tellərini kəsmək" tövsiyə olunmuşdu. 1915 ilin fevralında hərəkətə başlayan 800 nəfərlik erməni quldur dəstəsi Maraşın teleqraf xəttini kəsmiş, hərbi qışlaya basqın etmiş və Təkke monastırına sığınmışdı. 25 jandann həlak olmuş, 34-ü yaralanmışdı. Bundan əlavə, Maraşın müxtəlif yerlərində çoxlu müsəlman öldürülmüşdü. Bölgədən orduya çağırılan ermənilərin hamısı fərarilik etmişdi.

1915 il fevralın 24-də Rusiyanın İngiltərədəki səfiri İngiltərə Xarici İşlər Nazirliyinə gedərək, zeytunlu bir erməninin Qafqaz canişini knyaz Voronsov-Daşkova müraciət edərək, türk ordularının əlaqə yollarını kəsmək üçün ermənilərin 15 minlik bir qüvvə topladıqlarını, ancaq silah və sursatın olmadığını söylədiyini bildirmişdi. İngilis və fransızların Antakya limanı vasitəsiylə yardım göndərə biləcəyi güman edilirdi.

"Hnçaq" komitəsi mühüm ticarət və strateji məntəqələrindən olan Qeysəriyyədə də xeyli miqdarda silah-sursat toplamışdı. Bundan əlavə, ermənilər Amerikada yaşayan ermənilərin maddi yardımı ilə müxtəlif ticarət mallarının içərisində hissələrə ayrılmış halda göndərilən silah və sursatla silahlandırılmışdı. Bölgədə təşkilatlarına və təbliğat fəaliyyəti də gücləndirilmişdi. "Daşnaksutyun" Qeysəriyyə sancağımda geniş fəaliyyət göstərirdi.

Komitəçilər müxtəlif yerlərə gizli çəkilən məftillərə elektrik cərəyanı buraxmaqla müsəlman əhalini və əsgərləri öldürməyə çalışırdılar. Amerikada bomba düzəltməyi öyrənən ermənilər bomba emalatxanaları qurmuşdular. Lakin 1914 ilin yanvarında bir erməninin evində bomba partlaması nəticəsində bu emalatxanada saxlanan silah və sursat hakimiyyət orqanları tərəfindən ələ keçirilmişdi. Erməni patriarxlığının hazırladığı qiyam planı hakimiyyət orqanlarına əvvəlcədən məlum olduğundan 1915 ilin əvvəllərində Qeysəriyyənin bir çox yerlərində qiyam və qətl-qarətlər vaxtından qabaq başlanmışdı.

Osmanlı dövləti səfərbərlik elan etdikdən sonra Məmuratüləzizdə (Elyazıq) də müsəlman əhaliyə basqınlar başladı. Mərkəzi ingilis konsulluğunun tərcüməçisi, Osmanlı təbəəsi olan bir erməni casusun toplayıb, konsulluğa verdiyi məlumat səfırliyə göndərilərkən ələ keçirilmişdi. Vilayət mərkəzində ermənilərə məxsus anbarda 5000-dən çox silah, 300-ə qədər bomba. 40 kq bomba fitili, xeyli dinamit aşkar olunmuşdu. Səkur nahiyəsində ermənilər jandarmlara silahlı basqın edərək, ikisini öldürrnüşdülər.

Ermənilər Diyarbəkirdə də çıxışlara hazırlaşırdılar. Əsgərliyə getməyən və silahları ilə birlikdə ordudan qaçan ermənilər "dam tabum" adlı dəstelər təşkil edərək ev-ev gəzir, hərbi ehtiyaclar üçün pul və vəsait toplayır, verməyənləri hədələyirdilər. Ruslar Cənubi Azərbaycanda Diyarbəkir istiqamətində hücum planlaşdırmışdılar. Bununla əlaqədar. ermənilər Diyarbəkirdə böyük qiyam qaldırmaq fikrində idilər.

Türk hakimiyyət orqanlarının apardıqları axtarışlar nəticəsində "dam tabum" təşkil edən 500 erməni silahları ilə birlikdə yaxalanmışdı. 1000-ə qədər erməni fərarisi tutulmuş, çoxlu silah və hərbi sursat ələ keçirilmiş, silahların böyük qisminin kilsələrdə və məzarlıqlarda gizlədildiyi məlum olmuşdu.

Diyarbəkirin Silyan qəzasının Başnik kəndində gizlənən erməni quldurları 1915 il iyunun 28-də jandarımı mü-

downloaded from KitabYurdu.az



*Erməni-daşnak silahlı quldur dəstələrinin Şərqi Anadoluda türklərə qarşı soyqırımı. Toplu şəhid məzarlığı. Ərzurum, Həsənqala kəndi. 1993*

hafizə dəstəsinə hücum edərək, əksəriyyətini qətlə yetirmişdilər. Şərq nahiyəsindəki Arzaoğluda və Saniköydə əli silah tutan bütün kişilərin cəbhədə olduğu Xıdır İlyas kəndinə basqın edərək, qadın və uşaqları güllələmiş və süngüdən keçirmişdilər. Ermənilər təxribat törətmək və silah gizlətmək məqsədilə dini təsisatlardan da istifadə edirdilər. Hələ 1913 ilin oktyabrında Sivasda Şirşəhri qəzasının Ezdebir nahiyəsindəki erməni monastırının keşişi evində çoxlu silah gizlətdiyi üçün həbs olunmuşdu. Başqa bir erməni keşişi 1914 ilin noyabrında Sivas bölgesinin kəndlərini gəzərək, ermənilər arasında Türkiyə əleyhinə təbliğat aparırdı. Səfərbərlik elan olunandan sonra mauzerlə və tüfənglə təchiz edilmiş otuz min erməninin on beş mini Cənubi Qafqaza göndərilmiş, on beş min nəfəri isə Türkiyədə qalaraq. Rusiyadan gələcək təlimat üzrə müharibənin lazımi məqamında qiyam və iğtişaş qaldırmağa hazırlanmışdı.

Ermənilər Ərzurum bölgəsinə xüsusi əhəmiyyət verirdilər. Rusiya erməniləri buradan Türkiyəyə keçərək, bölgədə öz mərkəzlərini yaratmışdılar. Trabzon-Van yolunun ortasında yerləşdiyindən, Ərzurum həm quru yolla Qafqazdan, həm də Trabzon yolu ilə (dənizdən) Batum, Göstənçə və digər yerlərdən müntəzəm məlumat almaq, vilayətlərə silah, hərbi sursat göndərmək üçün çox əlverişli idi. Müharibə başlanan kimi vilayət mərkəzində və Bayaziddə yaşayan və ordudan fərarilik edən ermənilərin böyük bir qismi Rusiyaya keçmiş, silahlandırılıb təşkil edilən könüllü alaylar rus orduları ilə birlikdə Osmanlı ordusuna qarşı vuruşmağa başlamış və bölgənin müsəlman ohalisinə qarşı qətl-qarətlər törətmişdilər.

Səfərbərliyin elanından sonra Kağızmanda böyük qismi fərari əsgərlərdən ibarət olan ermənilər ruslar tərəfindən silahlandırılmışdı. 800-dən çox erməni toplaşmış, buraya ermənilərdən ibarət rus könüllü bölüyü də gəlmiş. beləliklə, bölgədəki silahlı ermənilərin sayı 15000 nəfərə çatmışdı. Ermənilər Osmanlı hökumətinin bölgələrlə əlaqəsini kəsmək məqsədilə poçtlara basqınlar edirdilər.

Ərzincanda sui-qəsdlər, atəşə tutmalar adi hal almışdı. Erməni evlərində xüsusi tərtibatlı yerlər, gizli yollar, mağaralar, evləri biıiəşdirən yeraltı dəhlizlər salınmışdı. Nazyan Tiqran adlı ərzincanlı erməni komitəçisi açıqca bildirmişdi ki, on beş gün də keçsəydi, komitələrin aldıqları təlimatlarla Ərzincan başdan-başa od vurulub yandırılacaq, bütün müsəlmanlar və türk əsgərləri doğranacaqdı; lakin, hökumətin vaxtında xəbər tutması ilə bu təxribatın qarşısı alınmışdı.

Erməni komitəçilərinin mühüm əhəmiyyət verdikləri bölgələrdən biri də Van-Diyarbəkir-Hələb-İsgəndərun yolu üstündəki Bitlis idi. Bura yaxın olan Muş, Taləru şəhərləri keçmişdə də erməni qiyamlarının mərkəzi olmuşdu. Ermənilərin və onların avropalı havadarlarının ən çox təbliğat və təşkilat işi apardıqları bölgə isə Van idi. Erməni komitələri bölgədəki konsulluqlardan, məktəb

downloaded from KitabYurdu.az

lərdən, kilsələrdən və dərnəklərdən istifadə edərək, sürətlə təşkilatlanmış və quldurluğa başlamışdılar. Bölgənin daşnak liderlərinə Qafqazda, o cümlədən Qarabağda törətdiyi cinayətlərə görə Rusiya hökuməti tərəfindən edama məhkum edilmiş İşxan və Aram da qatılmışdı. Van gölünün Axtamar adasındakı ruhani məktəbi təşkilatın mərkəzinə çevrilmişdi. Van-Muşun erməni əhalisinin qiyama hazırlanmasına Vandan millət vəkili olan Papazyan rəhbərlik edirdi.

Ətrafdakı kəndlərdə, Gevasda baş qaldıran erməni dəstələri onlarla müsəlmam öldürmüşdülər. Quldurları tutmaq üçün Şükür kəndinə gələn jandarmlar öldürülmüş, gözləri oyulmuş, cəsədləri isə daş-qalaq edilmişdi.

1915 il fevralın 27-28-de Adilcəvazdan Vana gedən 300-ə qedər siyirtli əsgər Arın adlı erməni kendində gecələmək istərkən ermənilər buna silahh müqavimət göstərmiş və könüllü əsgərlerdon səkkizini öldürmüşdülər.

Van bölgəsinin Mahmudiyyə qəzası qayməqamının daxili işlər nazirliyinə göndərdiyi 1915 il 15 mart tarixli raportda ermənilərin Merkehu və İstisu kəndlərində 70 dinc müselmanı qətlə yetirmələri, 9 qadının namusuna təcavüz etmələri xəbər verilirdi. Raporta şəhidlərin şəkilləri də əlavə olunmuşdu.

Osmanlılar Vanı tərk etdikdən bir neçə gün sonra rusların ön bölmələri buraya gələrək, erməni dəstələri ilə birləşmişdilər. Vanın yeni hakimi Aram Manukyan şəhərin açarlarını rus komandanı Nikolayevə təqdim etmiş, Nikolayev isə onu Vanın rəsmi valisi təyin etmişdi.

Vanım işğalından sonra rusların da təhriki ilə erməni qiyamları ətrafa yayılmış, erməni quldur dəstələri bir çox yerlərdə qətllər törətmiş və bəzi kəndləri tamamilə viran etmişdilər. Son zamanlar aparılan axtarışlar nəticəsində Van şəhərində, ətraf kəndlərdə soyqırımı qurbanlarının kütləvi məzarlıqları aşkar olunmuşdur.

1916 il fevralın 16-da Ərzurum alındı. ABŞ tarixçisi St.C.Şou yazır: *"Bunun ardınca bütün müharibə ərzində ən dəhşətli qırğın baş verdi: milyondan çox miisəlman kəndlisi qaçmalı oldu.. Onlardan minlərcəsi Ərzincana çəkilən Osmanlı ordusu ilə birlikdə qaçmağa cəhd göstərərkən tikə-tikə doğrandı*".

Muşda və ətrafında əvvəlcə 7000 erməni silahlandırılaraq, kəndlərə səpələndilər. Ordudan fərarilik edən ermənilər də onlara qoşuldular və Sasunda böyük quldur dəstələri təşkil olundu. Daşnak dəstələri və "Hnçaq" qrupları bölgəyə gələn "ruslara sədaqətlərini və şücaətlərini" göstərmək üçün cəbhəboyu türk kənd və qəsəbələrindəki qadın, uşaq və yaşlılara təsəvvürə gəlməz işgəncələr verib qətlə yetirirdilər.

Muş süqut edərkən erməni quldurları qarşılarına çıxan müsəlmanları rəhmsizcəsinə qətlə yetirir, qadınların namusuna toxunub, yaşlıları diri-diri yandırırdılar. Ayaz

*Soyqırımı şəhid məzarlığından görüntülər (qazıntı zamanı aşkar olunmuşdur). Ərzurum, Tumar kəndi. 1993*



downloaded from KitabYurdu.az

(Fayto) nahiyəsində 15 kəndin sakinləri ayaqlanna ağır at nalları vurulub. Hazal gölünə atıldılar.

Bu gün Ərzurum. Qars. Van, Bitlis, Muş, Sivas. Ankara bölgələrində ermənilər tərəfindən qətlə yetirilmiş türklərin 100-ə yaxın kütləvi məzarlığı mövcuddur. Bunlarm beşində minlərcə insanın skletləri tapılmışdır.

1915 ilin fevralında artıq Şərqi Anadolunun bütün erməni əhalisi qiyam qaldırmışdı. Buna görə də Osmanlı hökuməti qəti tədbirlər görməyə məcbur oldu. Fevralın 25-də Baş qərargah "ermənilərin heç bir halda hərbi xidmətə cəlb edilməməsi barədə" bütün hissələrə təlimat göndərdi. Aprelin 24-də daxili işlər nazirliyi erməni komitə mərkəzlərinin bağlanması, əmlaklarının müsadirə edilməsi və komitə başçılarının həbs olunması barədə əmr vermişdi.

Daxili işlər nazirinin bu əmrinə uyğun olaraq, İstanbulda 2345 erməni həbs edilmişdi. Mənbələrin araşdırılmasından məlum olur ki, ermənilərin hər il "soyqırımı günü" kimi qeyd etdikləri gün- aprelin 24-də, əslində, 2345 erməni komitəçisinin həbs olunması günüdür.

Beləliklə, erməni millətçiləri Birinci dünya müharibəsində Türkiyənin ağır vəziyyətə düşməsini sərsəm "Böyük Ermənistan" yaratmaq xülyalarının həyata keçirilməsi üçün əlverişli məqam bilib, Şərqi Anadolunun bir çox yerlərində erməni qiyamları təşkil etmiş. silahh erməni quldur dəstələri gələcək Ennənistan dövləti üçün ərazi yaratmaq məqsədilə dinc türk ohalisinə qarşı dəhşətli soyqırımı törətmiş, əhalini ata-baba yurdlarından qovmuşlar.

Erməni millətçiləri insanlığa qarşı törətdikləri bu dəhşətli soyqırımı cinayətlərini ört-basdır etmək üçün sonralar yalançı "erməni soyqırımı" mifıni uydurdular və erməniləri dünyanın "əzabkeş xalqı" kimi qələmə verdilər.

*Əd.:* Hacıyev S.. Osmanlı dövləti 1870-1918 illərdə. B., 2002; Ennəniler tarafından yapılan katliam belgeleri. c.l (1914-1991); c.2 (1919-1921), Ankara, 2001; Konukçu Enver, Ermenilerin Yeşilyayladakı türk soykırımı (mart 1918), Ankara 1990.

**"ŞƏRQİ-RUS"** - Tiflisdə Azərbaycan dilində həftədə üç dəfə çıxmış, ictimai-siyasi, iqtisadi, elmi. ədəbi qəzet. İlk nömrəsi 1903 il martın 30-da, sonuncusu 1905 il yanvarın 15-do (cəmi 392 nömrə; 1905 ilin əvvəlində həm də Bakıda "Şorqi-Rus"un teleqramları" adlı axşam xəbərlərinin bir neçə nömrəsi) çıxmışdır. Naşiri və redaktoru M.Şahtaxtlı. son 45 nömrəsinin redaktoru isə C.Məmmədquluzadə idi. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. L.Tolstoydan Azərbaycan dilinə ilk tərcümələr bu qəzetdə verilmişdir, "Şərqi-Rus" qəzeti C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, Ö.F.Nemanzadə, H.Cavid. M.S.Ordubadi. Ə.Qəmküsar, Ə.Nəzmi kimi görkəmli maarifçiləri ətrafında birləşdirmişdi. Bu yaradıcı heyət Azərbaycanda mətbuatın yeni inkişaf mərhələsinin başlanmasına ("Molla Nəsrəddin") zəmin yaratdı.

*Əd.:* Axundov N., Azərbaycanda dövri mətbuat. B.. 1965; Zeynalov N., Azərbaycanın mətbuatı tarixi, h.l, B., 1973; Novruzov Ş.. "Şərqi-Rus"un çağırışı, B., 1988.

**ŞƏRUR-DƏRƏLƏYƏZ QƏZASI** *İrəvan qıtberniyasında* inzibati-ərazi vahidi. İrəvan xanlığı dövründə (18 əsrin 40-cı illəri - 1827) Şərur mahal kimi onun tərkibinə, Dərələyəz isə Naxçıvan xanlığına daxil idi. Çar Rusiyası Naxçıvan və İrəvan xanlıqlarını işğal etdikdən sonra burada "Erməni vilayəti" yaratmışdı. 1840 il inzibati-ərazi bölgüsü zamam *"Erməni vilayəti"* ləğv edildi, İrəvan və Naxçıvan qəzaları təşkil olundu. 1849 ildə onların əsasında İrəvan quberniyası təşkil edilmiş, quberniyanın tərkibində beş qəza [İrəvan, Naxçıvan. Gümrü (Aleksandropol), Yeni Bayazid (Novobayazet) və Ordubad] yaradılmışdı. 1870 ildə isə Şərur və Dərələyəz torpaqları əsasında yeni qəza - Şərur-Dərələyəz qəzası (mərkəzi Baş Noraşen) təşkil olunmuşdu. İ.Şopenin 1829-32 illərdə tərtib etdiyi kameral təsvirə görə, İrəvan əyalətinin Şərur mahalında 50 kənd qeydiyyata alınmışdı. Bu kəndlərdə 1305 ailə yaşayırdı. Onlarm hamısı azərbaycanlılar idi, bir nəfər də erməni ailəsi qeydə ahnmamışdı. Əhalinin sayı 6510 nəfər (3397 kişi, 3113 qa-dın) idi. Yalnız çar Rusiyasının köçürmə siyasəti nəticəsində mahalda ermənilər peyda olmuşdu. Dərələyəz mahalına İrandan 336 ailə, yaxud 1757 nəfər (958 kişi, 804 qadın) köçürülmüşdü. Erməni ailələrinin köçürülməsi əhalinin etnik tərkibində erməni ünsürünün yaradılmasına səbəb oldu. O zaman Naxçıvan əyalətinin Dərələyəz mahalında 78 kənd qeydiyyata alınmışdı. Burada da əhali, demək olar ki, azərbaycanlılardan ibarət idi. 1001 azərbaycanlı ailəsində 4583 nəfər (2411 kişi, 2172 qadın) yaşayırdı. Ermənilər cəmi 58 ailə (0,57%), yaxud 288 nəfər (141 kişi, 147 qadm) idi. Çar Rusiyasının köçürmə siyasəti nəticəsində Dərələyəz mahalına İrandan 507, Türkiyədən 8 ailə (cəmi 515 ailə) köçürülmüş, erməni əhalisinin sayı süni şəkildə 2773 nəfər artırılmışdı. 1917 il Qafqaz təqviminin məlumatma görə, Şərur-Dərələyəz qəzasının sahəsi 2637,50 *kv.verst* idi. Qəzada 90250 nəfər (47399 kişi, 42851 qadın) qeydiyyata alınmışdı, onların 88496 nəfəri (98,05%) yerli sakin, 1754 nəfəri (1,95%) müvəqqəti yaşayanlar idi. Şərur-Dərələyəz qəzası əhalisinin təxminən 58493 nəfəri (64,8%) azərbaycanlı. 29165 nəfəri (32,3%) erməni və b. idi. Azərbaycan Xalq Cümhuriyyəti Baş nazirinin Paris Sülh Konfransı sədrinə 1919 il 16/19 avqust tarixli müraciətində Şərur-Dərələyəz qəzasında azərbaycanlıların 72,3%,


ШАРКЫ-РУСЪ
شرق روس

downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az



ermənilərin 27,1%, başqalarının 0,4% olduğu bildirilirdi. Göründüyü kimi, İrəvan və Naxçıvan xanhqlarının son dövründə, demək olar ki, əhalisi ancaq azərbaycanlılardan ibarət olan Şərur-Dərələyəz qəzasında ermənilərin sayı süni şəkildə bütün əhalinin üçdə birinədək artırılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Şərur-Dərələyəz qəzasını Azərbaycanın ayrılmaz tərkib hissəsi elan etmişdi. Lakin bu əzəli Azərbaycan torpaqlarına əsassız iddia irəli sürən erməni-daşnak hakimiyyəti digər bölgələrdə olduğu kimi burada da əhaliyə qarşı soyqırımı siyasəti həyata keçirməyə başladı. Onlar etnik təmizləmə vasitəsilə bu ərazilərin erməni hakimiyyətinə keçməsinə can atırdılar. Lakin əhali erməni təcavüzünə qarşı qətiyyətlə müqavimət göstərirdi. Şərur-Dərələyəz qəzası da mərkəzi Naxçıvan olan *Araz-Türk Respublikasına* daxil olmuşdu. Müttəfiq dövlətlər Naxçıvan, Sürməli və İrəvan quberniyasının bir hissəsi ilə birgə Şərur-Dərələyəz qəzasını da ermənilərə verməyə cəhd edirdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bu siyasətə qarşı qəti etirazını bildirmiş, Paris Sülh Konfransına etiraz notasında Naxçıvan, Sürməli, Şərur-Dərələyəz, həmçinin İrəvan quberniyasının bir hissəsinin Azərbaycan Respublikası hökuməti-nin əlində saxlanmasını zəruri hesab etmişdi. Azərbaycan və Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra vəziyyət dəyişdi. Şərur-Dərələyəz qəzasının Dərələyəz sahəsi bütünlüklə Ermənistan SSR-ə verildi.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), *Б,* 1998; Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, B., 1990; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, B., 1995; Кавказский календарь на 1917 г.;



**ŞIXƏLİBƏYOV** Asəf bəy (? - ?) - Azərbaycanın Xalq Cümhuriyyəti Parlamentinin deputatı. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanına seçkilər haqqında qanun"* (1918, 19 noyabr) əsasən, Parlamentin tərkibinə daxil edilmişdir. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasının üzvü idi.

**ŞIXIYEV** Hüseyn Mustafa oğlu (25.6.1898, Qazax qəzası -?) - Azərbaycanın Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmişdi (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini dağ mühəndisliyi sahəsində davam etdirmək üçün Frayberq akademiyasına (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi haqqında məlumat aşkar olunmamışdır.

**ŞIXLİNSKİ** Cavad bəy Məmməd ağa oğlu (1875-1959) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru, diviziya komandiri. Əlağa *Şıxlinskinin* qardaşı oğludur. Tiflis kadet korpusunu, sonra isə Peterburqdakı Mixail topçu məktəbini bitirmişdir. Çar ordusu sıralarında bir sıra vəzifələrdə xidmət etmiş dir. Azərbaycan ordusunda hərbi xidmətə *Əlahiddə Azərbaycan korpusunda* başlamışdır. Korpus yenidən qurulduqdan sonra onun 2-ci piyada alayının komandiri olduğu güman edilir. Bu alayın polkovniki kimi o, 1918 il sentyabnn 3-də Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət olan *Qafqaz İslam Ordusunun* komandanı Nuru paşa tərəfindən Türkiyənin hərbi medalına təqdim olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi nazirliyi bərpa edildikdən sonra Şıxlinski topçu şöbəsi (sonradan Topçu idarəsinə çevrilmişdi) rəisinin müavini, 1919 il fevralın 24-də isə 1-ci piyada diviziyasının komandiri təyin olunmuşdu. Bu vəzifəni Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər icra etmişdir. Hərbi nazirin əmri ilə 1919 il iyunun 27-dən Gəncə qarnizonunun rəisi vəzifəsi də C.Şıxlinskiyə həvalə olunmuşdu. Diviziyanın qərargahı Gəncədə, hissələri isə, əsasən, Qarabağ və Zaqatala bölgələrində yerləşirdi. Xidməti uğurlarına görə C.Şıxlinski Nazirlər Şurasının 1919 il 25 iyun tarixli qərarı ilə general-mayor rütbəsinə layiq görülmüşdü. 1919 il noyabrın əvvəllərində Zəngəzur ekspedisiyası 1-ci piyada diviziyasının qüvvələri tərəfindən həyata keçirilmişdi. Qarabağda erməni təcavüzünün cilovlanmasında da bu diviziyanın böyük xidməti olmuşdur. Qarabağ əməliyyatı zamanı diviziya tam səfərbərliyə almmışdı. Cavad bəy Şıxlinski *Gəncə üsyanının (1920)* rəhbərlərindən biri olmuş, üsyan yatırıldıqdan sonra mühacirət etmişdir.

*Əd.:* Süleymanov M.. Azərbaycan ordusu (1918-1920), B., 1998: Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995.



**ŞIXLİNSKİ** Əlağa İsmayıl ağa oğlu (23.4.1865, Qazax qəzasının Qazaxlı k. - 18.8.1943, Bakı) - Azərbaycanın görkəmli hərbi xadimi. Çar Rusiyası və Azərbaycan ordusunun generalı, tanınmış hərbçi alim. Tiflisdə özəl gimnaziya (1876), Tiflis hərbi gim-naziyasını (1883), Peterburqda artilleriya məktəbini (1886) bitirmişdir. Aleksandropoldakı (Gümrü) 39-cu topçu briqadasına təyinat alaraq, 1900 ilədək bu briqadada xidmət etmiş, kapitan rütbəsinə qədər yüksəlmişdir. 1900 ildə Zabaykalye əlahiddə artilleriya diviziyasına göndəriş alan Şıxlinski 1902 ilin mayında müvəqqəti olaraq, Peterburqa 6 aylıq kursa göndərilmiş Səməd bəy Mehmandarovun yerinə 2-ci batareya komandiri vəzifəsinin icraçısı təyin edilmişdi. Şıxlinski 4-cü Şərqi Sibir atıcı-topçu briqadasının tərki-

downloaded from KitabYurdu.az

bində 1904-05 illər Rusiya-Yaponiya müharibəsində iştirak etmişdir. Müharibənin gedişində göstərdiyi igidliyə görə Şıxlinski 4 ordenə, podpolkovnik rütbəsinə və bir sıra qiymətli hədiyyələrə layiq görülmüşdü.

Şıxlinski 1905 ilin mayında Odessa hərbi dairəsinin 15-ci artilleriya briqadasına, bir ildən sonra isə Sarskoye Selodakı topçu zabitlər hazırlayan məktəbə göndərildi. 1906 ilin avqustunda təhsilini başa vurub briqadaya qayıtsa da, 1907 ilin əvvəlində Şıxlinski artilleriyadan dərs demək üçün yenidən həmin məktəbə devət olundu. 1908 ildə orada işləyərkən ona polkovnik rütbəsi verilmişdi. 1912 ildə general-mayor rütbəsinə layiq görülən Şıxlinski 1914 ilde bir müddət Çarskoe Selo topçu zabit məktəbinin rəisi vəzifəsini icra etmişdir.

Şıxlinski 1914 ilin sentyabrında Petroqradın artilleriya hücumundan müdafiəsinin rəisi olmuş, 1915 ilin əvvəlində Şimal-Qərb cəbhəsi komandanın sərəncamına göndərilmiş, həmin ilin mayından komandanm tapşırıq generalı vəzifəsinə təyin edilmişdi. 1916 ilin aprelində Şıxlinskiyə Qərb cəbhəsinin artilleriya müfəttişi vəzifəsi həvalə olundu. 1917 ilin aprelində general-leytenant rütbəsinə layiq görülən Şıxlinski həmin il sentyabrın 10-da Qərb cəbhəsi 10-cu ordusunun komandanı təyin edilmişdi. Ancaq iki ay sonra. Şıxlinski səhhəti ilə əlaqədar həmin vəzifədən azad olunaraq, Qafqaz hərbi dairəsinin ehtiyatına göndərildi.

Şıxlinskinin rus ordusu sıralarındakı xidməti "Müqəddəs Stanislav" ordeninin hər üç dərəcəsi ilə, "Müqəddəs Anna" ordeninin hər dörd dərəcəsi ilə, "Müqəddəs Vladimir" ordeninin 2, 3 və 4-cü dərəcələri ilə, "Müqəddəs Georgi" ordeninin 4-cü dərəcəsi ilə, xarici orden və medallarla, qiymətli hədiyyələrlə qeyd olunmuşdur.

Şıxlinski 1917 il dekabrın 11-dən təşkilinə başlanan *Müsəlman Korpusunun* komandiri təyin edildi. Onun rəhbərliyi altın korpusun tərkibinə daxil olan iki piyada diviziyasının, xüsusi süvari briqadasının, iki nişançı-topçu briqadasının zabit-komanda heyəti formalaşdırıldı, azərbaycanlı əhali arasında çağırış işinin əsası qoyuldu, qoşun hissələrindo döyüş hazırlığı təşkil olundu, milli kadr hazırlığı üçün ilk hərbi məktəbin yaradılmasına cəhd göstərildi. 1918 il iyunun 26-da Müsəlman Korpusunun bazasında yaradılmış *Əlahiddə Azərbaycan Korpusunun* da komandiri Şıxlinski idi. O, *Qafqaz İslam Ordusunun* tərkibinə daxil olan Azerbaycan qoşun hissələrinin və könüllün dəstələrinin döyüş fəaliyyətini izləmək və təşkil etmək üçün dəfələrlə cəbhə xəttinə getmiş, *Bakının azad olunması (1918)* əməliyyatının keçirilməsi zamanı da şəhər ətrafındakı qərar-gahdan döyüşlərin idarə olunmasında bilavasitə iştirak etmişdi.



Əlağa Şıxlinski və həyat yoldaşı Nigar Şıxlinskaya

Əlağa Şıxlinski Azərbaycan əsgərlərinin döyüş hazırlığı məşğələsində. 1925



1922 il dekabrın 29-da Şıxlinski Azərbaycanın Xalq Cümhuriyyəti hərbi nazirinin müavini təyin edildi, artilleriya və istehkamçı hissələrinə, habelə hərbi-təhsil müəssisələrinə və texniki müəssisələrə, artilleriya və istehkam anbarına nəzarət ona həvalə olundu. 1919 ilin əvvəlində isə Şıxlinski qoşun hissələrinin, idarə və müəssisələrin ştatlarının maaş cədvəllərini hazırlayan komissiyanın sədri təyin edildi. Azərbaycan ordusunun şəxsi heyətinin geyim formasının Iayihəsini hazırlamaq da bu komissiyaya tapşırıldı.

downloaded from KitabYurdu.az

1919 il yanvarın 10-da Şıxlinski hərbi nazirliyin Müvəqqəti Hərbi Şurasının üzvü təyin edildi və Hərbi Şuranın əsasnaməsini hazırlamaq ona tapşırıldı. O, 1919 ilin yanvarında təsdiq edilmiş kiçik və böyük hərbi şuraların da üzvü idi. Böyük hərbi şura Şıxlinskinin sədrliyi ilə toplaşırdı.

Şıxlinski Türkiyənin Aydın vilayətində ermənilər tərəfindən törədilmiş qətliama məruz qalmış minlərlə türk vətəndaşlarına yardım göstərmək məqsədilə yaradılmış ianə komitəsinə sədrlik etmiş və bununla bağlı olaraq, 1920 il martın 16-da Azərbaycan vətəndaşlarına müraciət etmişdir.

*Aprel işğalından (1920)* sonra qısa müddət qırmızı ordu sıralarında xidmətini davam etdirən Şıxlinski 1920 ilin iyu-nunda bolşevik həbsinə məruz qalsa da, Nəriman Nərimanovun müdaxiləsi ilə həbsdən azad edilmişdi. 1920 ilin avqustunda S.Mehmandarov ilə birlikdə Şıxlinski Baş qərargahda işləmək üçün Moskvaya göndərilərkən N.Nərimanov V.İ.Leninə yazmışdı: "...Biz onları Qərargahda işləmək üçün Sizin sərəncamınıza göndəririk, çünki bir hərbi mütəxəssis kimi onlar əvəzedilməzdir. Onlardan biri - Şıxlinski Nikolay ordusunda "artilleriyanın allahı" hesab olunurdu...". 1921 ilin yayında onların hər ikisi yenidən Azərbaycana qayıtmış və xalq hərbiyyə və bəhriyyə komissarlığında xidmətə qəbul edilmişdilər. Şıxlinski Bakı qarnizonu hərbi-elmi cəmiyyətinin sədr müavini, 1924 ildə Azərbaycanın birləşmiş hərbi məktəbinin rəis müavini, 1925 ildə Azərbaycan hərbi tərcümə kollegiyasının redaktoru təyin olunmuşdu. Səhhəti ilə əlaqədar 1929 ildə istefa verərək, fərdi təqaüdə çıxmışdı.


Дорогой
Владимир Ильич!
Во время Гянджинского восстания все офицеры старой Азербайджанской армии были арестованы, в числе их были и податели сего известные генералы Мехмандаров и Шихлинский. После тщательного расследования оказалось, что эти генералы не причастны, но все же до упрочения нашего положения и с целью помочь нашему общему делу мы решили их отправить в Ваше распоряжение для работы в Штабе, т.к. они как военные специалисты являются незаменимыми. Один из них

N.Nərimanovun generallar S.Mehmandarov və Ə.Şıxlinski barədə V.İ.Leninə məktubu

Şıxlinski artilleriya nəzəriyyəsinə yeniliklər ("Şıxlinski üçbucağı", "Şıxlinski formulu") gətirmişdir. "Cəbhədə səhra toplarının işlədilməsi", "Rusca-türkcə müxtəsər hərbi lüğət" kitablarının, "Öz qoşunlarının başı üzərindən atəş", "Gələcək müharibə", "Dağlıq şəraitdə topçu atəşinin xüsusiyyətləri" və s. məqalələrin müəllifidir.


Пролетарии всех стран, соединяйтесь!
Краткий Русско-Тюркский
Военный Словарь.
(Пособие для перевода уставов и военно-научн книг с русского на тюркский язык.)
Составил: АЛИ-АГА ШИХЛИНСКИЙ.
Азербайджанская Военная Редакцион. Издательская Комиссия при Р.В.С. К.И.А.
БАКУ 1926 г.

1942 ildə görkəmli Azərbaycan filosofu, o zaman SSRİ EA Azərbaycan filialının sədr müavini olan Heydər Hüseynovun təklifi ilə Şıxlinski öz xatirələrini yazmağa başlamış, 1944 ildə tamamlayaraq rus dilində çap etdirmişdir. "Xatirələrim" 1984 ildə Azərbaycan dilində çap olunmuşdur.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5, B., 2001; Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995; Süleymanov M., Mehmandarov, B., 2000; Ибрагимов С.Д., Генерал Али Ага Щыхлинский (Жизнь и деятельность), Б., 1975.

**ŞIXLİNSKİ** Rüstəm bəy (1878-1920) - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti. Əlağa *Şıxlinskinin* qardaşı oğludur. Tiflis Kadet Korpusunu və Peterburq Mixail Topçuluq Məktəbini bitirmişdir. Cümhuriyyət ordusunun təşəkkülünün ilk dövründən onun sıralarında olmuşdur. Bir müd-dət 1-ci topçu briqadasının 1-ci qaubitsa-topçu divizionunun komandiri vəzifəsində xidmət etmişdir. Hərbi nazirin 1919 il 8 aprel tarixli əmri ilə Gəncə Praporşiklər Məktəbinin rəisi təyin olunmuşdu. Onun rəhbərliyi ilə Praporşiklər məktəbi yenidən qurularaq, *Hərbiyyə məktəbinə* çevrilmişdi. Hərbi nazirin diger əmri



downloaded from KitabYurdu.az



ilə R.Şıxlinski 1919 il dekabrın 1-də 2-ci topçu briqadasının komandiri təyin edilmişdi. *Aprel işğalından (1920)* sonra bolşeviklər tərəfindən güllələnmişdir.

*Əd.:* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999; Süleymanov M.. Azərbaycanda ilk milli hərbiyyə məktəbi, B.. 2000.

**ŞİMAL QRUPU** - 1918 il iyulun 16-da *Şərq Cəbhəsi komandanlığının* tərkibində təşkil edilmiş taktiki qrup. Göyçay-Şamaxı-Bakı şose yolu boyunca Bakıya doğru irəliləyən hissə və bölmələrdən təşkil edilmişdi. 10-cu Qafqaz alayının komandiri yarbay Osman bəy qrupun komandiri təyin edilmişdi. 10-cu piyada alayının komandirliyi isə yarbay Səlim bəyə tapşırılmışdı. Şimal qrupunun tərkibinə 10-cu Qafqaz piyada alayı, minbaşı Zehni bəyin komandir olduğu dəstə və ehtiyatda saxlanılan 25-ci, 26-cı və 28-ci taborlar daxil idi. 1918 il avqustun sonunda Şərq Cəbhəsi komandanlığı tərkibindəki taktiki qruplar yenidən qurulanda Osman bəy yenidən Şimal qrupunun komandiri vəzifəsində saxlanıldı. Qrup Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın 1918 il 10 sentyabr tarixli əmri ilə ləğv olundu. Həmin əmrə əsasən, Şimal qrupunun tərkibinə daxil olan hissə və bölmələr yenidən birbaşa 5-ci Qafqaz fırqəsinin komandanlığına tabe etdirildi.

**ŞİMAL SƏRHƏDİNİN MÜDAFİƏ SİSTEMİ** - şimal sərhədi boyunca Denikin qoşunlarının təcavüzü təhlükəsinə qarşı həyata keçirilmiş hərbi tədbirlər sistemi. Bu istiqamətdə əsas işlər 1919 ilin ikinci yarısında görülmüşdü. Azərbaycan Xalq Cümhuriyyətinin Şimal sərhədinin möhkəmləndirilməsi sahəsində praktik işlər iki istiqamətdə aparılırdı. Bir tərəfdən, sərhəd boyunca müdafıə istehkam sistemi qurulur, digər tərəfdən də, Denikin qoşunlarının Azərbaycan serhədini keçəcəyi təqdirdə onlara müqavimət göstərmək üçün xüsusi taktiki qrup yaradılırdı.

Azərbaycanın şimal sərhədlərinin müdafıə istehkam sistemi üç xətt boyunca qurulmuşdu: 1) Xəzri mövqeləri (ön xətt), 2) Sarvan xətti (aralıq xətt), 3) Hilhil xətti (arxa xətt). Bunlardan başqa, Samur körpüsü ətrafında və Mixaylovsk limanında istehkam işlərinin aparılması nəzərdə tutulurdu.

Şimal sərhədinin qorunması ilk vaxtlar general İbrahim ağa Usubovun komandir olduğu 2-ci piyada diviziyasına həvalə edilmişdi. 1919 ilin yayında bu diviziyanın sərəncamında 4-cü Quba piyada alayı, 5-ci Bakı piyada alayı. Gəncə piyada alayının yığma taboru, zirehli qatar, 2 top batareyası var idi. 5-6 min nəfərlik partizan dəstəsinin də şimal sərhədinin müdafıəsinə cəlb ediləcəyi planlaşdırılmışdı. Azərbaycan ərazisi üçün təhlükənin reallaşacağı təqdirdə qüvvələr aşağıdakı kimi bölüşdürülməli idi: 1) Zaqatala dairəsinin partizanlan Dağıstan ərazisinə yeriyərək, Axtı məntəqəsini və Samur çayı hövzəsini tutmalı və Könüllü ordunun arxasında ona qarşı təhlükə yaratmalı idi; 2) Nuxa (Şəki) qəzasının partizanları da Dağıstan ərazisinə keçməli, düşmənə arxadan zərbə vurmaqla bərabər, onun hərəkəti istiqamətində maneçiliklər yaratmalı idi; 3) Quba partizanlarından isə, əraziləri yaxşı tanıdıqlan üçün, həm nizami süvari bölmələr yetişənə qədər kəşfiyyatın aparılmasında, cinahların qorunmasında, Ferqat kəndindən Giləziyə kimi olan ərazidən dənizin müşahidə altın saxlanılmasında, həm də Qızılburun limanın tutulmasında istifadə edilməsi nəzərdə tutulurdu.

Diviziyanın nizami hissələri aşağıdakı mövqeləri tutmalı idilər: 1) 4-cü Quba piyada alayı və 3-cü Gəncə piyada alayının yığma taboru Ləcət-Xəzri ön mövqelərini tutmalı və qorumalı idilər; 2) 5-ci Bakı piyada alayı Xaçmaz-Xudat stansiyalarına gətirilərək, diviziyanın ehtiyat qüvvəsini təşkil etməli idi; 3) 1-ci tatar süvari alayının bölmələri Könüllü ordu bölmələri ilə toqquşma baş verənədək kəşfiyyatla məşğul olmalı, döyüşlər başladıqdan sonra isə düşmənin arxasında və cinahlarında vuruşmalı idi; 4) 5-ci Bakı piyada alayının bir bölüyü, partizan dəstəsi, topçu və pulemyot taqımları, çevik ehtiyat qüvvəsi kimi, Xaçmaz və Qızılburunda saxlanılmalı idi və nəhayət, 5) zirehli qatar Yalama stansiyasına doğru hərəkət edərək, Samur körpüsündən keçmək istəyən Könüllü ordu dəstələrinin hərəkətini ləngitməli idi.

1919 ilin yayında Azərbaycanın şimal sərhədinin müdafiəsini öz üzərinə götürməli olan xüsusi taktiki *Xaçmaz*

downloaded from KitabYurdu.az

*dəstəsi* yaradıldı. 1919 ilin noyabrında Xaçmaz dəstəsinin bazasında *Quba dəstəsi* təşkil olundu. Lakin Denikin təcavüzü ehtimalının aradan qalxması ilə əlaqədar 1919 ilin sonunda Quba dəstəsi ləğv edildi.

1920 ilin martında Qarabağda Azərbaycan Xalq Cümhuriyyətinə qarşı erməni qiyam qaldırılması ilə əlaqədar olaraq. şimal sərhədinin möhkəmləndirilməsi üçün yerləşdirilmiş hissə və bölmələr oradan geri çağırıldılar. Bu da *Aprel işğalı (1920)* ərəfəsində erməni xəyanəti nəticədə şimal müdafiə sisteminin fəaliyyət göstərə bilməməsinə səbəb oldu.

*Əd.:* Azərbaycanın tarixi. 7 cilddə, c.5, B., 2001; Süleymanov M., Azərbaycan ordusu (1918-1920). B., 1998.

**ŞİMALİ QAFQAZ DAĞLI XALQLARI İTTİFAQI RESPUBLİKASI,** Dağlı Respublikası - 1918-19 illərdə Şimali Qafqazda - Dağıstan və Terek vilayətləri ərazisində fəaliyyət göstərmiş milli hökumət. Oktyabr çevrilişindən (1917) sonra bolşevikləri dəstəkləyən sovetlər, Terek kazakların rəhbərliyi və dağlı xalqlarının milli şuraları Şimali Qafqazda hakimiyyət uğrunda mübarizəyə başladılar. Bu qurumlarm nümayəndələri noyabrın 8-də Vladiqafqazda birgə iclas keçirdilər. İclasda Terek kazakların atamanı M.Karaulov və Şimali Qafqaz Dağlıları Mərkəzi Komitəsinin sədri Ə.Çermoyev, Terek vilayəti İcraiyyə Komitəsinin sədri P.Kotsev və vilayət soveti rəhbərliyi bölgədə idarəçiliyi təmin etmək üçün ayrı-ayrı sahələr üzrə komissarlıqlar yaratdılar. Oktyabrın sonunda Petroqrad çevrilişi Dağıstanda da pisləndi və Terek Dağlıları ilə birlikdə Terek-Dağıstan hökuməti yaradılması fikri irəli sürüldü. Dekabrın 2-də Şimali Qafqaz Dağlı İttifaqının yaradılması haqqında bəyannamə qəbul edildi. Rəşid xan Qaplanovun başçılığı ilə müvəqqəti hökumət təşkil olundu. General Talışxanov hərbi komissar, M.Karaulov ədliyyə və maliyyə komissarı, "Dikaya diviziya"nın komandanı general Polevtsev Terek-Dağıstan hərbi hissələrinin komandanı təyin olundular. Lakin bolşevik təbliğatı və Qafqaz cəbhəsindən qayıdan rus əsgərlərinin yerli əhaliyə qarşı zorakılıqları milli toqquşmalara səbəb oldu. Dekabrın 13-də bolşevik təsiri altın olan rus əsgərləri M.Karaulovu qətlə yetirdilər. Bu, rus-kazak hərbçilərinin bölgədə dağlılara qarşı qətl və qarətlərinin geniş miqyas almasına gətirib çıxardı. Qroznıda, Vladiqafqazda rus əsgəri qüvvəsinə arxalanan Sovetlər 1918 ilin əvvəlində hakimiyyəti ələ keçirdilər. Martın 17-də ise Pyatiqorskda Terek Xalq Komissarları Soveti təşkil edildi. Şimali Qafqazda bolşevik hakimiyyəti qurulmasına başlandı.

Dağıstanda isə Nəcməddin bəy *Qotsinskinin* və *Şeyx Uzun Hacının* başçılıq etdiyi islamçı qüvvələr fəallaşdılar. Petrovsk-Port (Mahaçqala) bolşeviklərdən təmizləndi. N.Qotsinski Dağıstan və bütün Şimali Qafqaz müsəlmanlarımn imamı kimi öz hakimiyyətini elan etdi, aprelin əvvəlində isə Bakıda müsəlman əhaliyə qarşı erməni-bolşcvik soyqırımının qarşısını almaq üçün hərbi yürüşə başladı. Dağıstan süvari alaylarının da iştirak etdiyi bu yürüş zamanı erməni-bolşevik qüvvələri Xaçmaz yaxınlığında məğlubiyyətə uğradıldı. Lakin N.Qotsinskinin başçılıq etdiyi Dağıstan könüllüləri Bakı Sovetinin yaratdığı Biləcəri-Xırdalan müdafiə xəttini yarmağa hazırlaşdığı zaman Həştərxandan dəniz yolu ilə bolşeviklərin Petrovsk-Porta hərbi qüvvə yeritməsini eşidib Dağıstana dönməyə məcbur oldular.

Terek-Dağıstan hökuməti isə iflic vəziyyətə düşdü və dağh milli qüvvələrinin liderləri Zaqafqaziya seymi ilə birləşmək, bütün Qafqazın təmsil olunduğu hakimiyyət yaradılmasına nail olmaq məqsədilə Tiflisə toplaşdılar. Seymdə azərbaycanlı nümayəndələr tərəfindən müdafiə olunan bu təşəbbüs onun gürcü-erməni çoxluğu tərəfindən rədd edildi. Lakin azərbaycanlı ictimai xadimlərin təkidi ilə Trabzona sülh konfransına göndərilən nümayəndə heyətinin tərkibinə dağlı nümayəndələri də daxil edildi. Trabzonda dağlı nümayəndələri Şimali Qafqazla Cənubi Qafqazın vahid dövlətdə birləşməsini təklif etdilər. Lakin gürcü və erməni nümayəndələri, eləcə də alman komandanhğmm təmsilçisi Qafqazda müstəqil dövlət yaradılması zamanı bölgədə müsəlman-türk təsirinin güclənməsindən ehtiyatlanaraq, buna razılıq vermədilər.

Trabzonda uğur qazana bilməyən dağlı nümayəndələri İstanbula gedərək, Osmanlı hökuməti ilə birbaşa təmasa girdilər. Batum sülh konfransı ərəfəsində hərbi nazir Ənvər paşa ilə görüşüb, ondan yardım istədilər. 1918 il mayın 11-də isə dağlı nümayəndə heyəti Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının (Dağlı Respublikası) yaradılması haqqında İstiqlal bəyannaməsi qəbul etdi. Osmanlı dövlətinə və onun müttəfiqlərinə bu haqda rəsmi nota verildi. Əbdülməcid Çermoyevin və Heydər Bammatın imzaladığı bu sənədlər Osmanlı dövlətinin rəhbərliyi tərəfindən məmnunluqla qarşılandı. Alman nümayəndə heyəti isə bu qurumun bütün Şimali Qafqazı əhatə etməsinə qarşı çıxaraq, Kuban vilayətindəki kazaklarla münasibətləri daha önəmli saydığım nümayiş etdirdi. Mayın 24-də Ə.Çermoyevin başçılıq etdiyi Dağlı Respublikası hökuməti Gəncəyə köçdü. Dağlı Respublikası nümayəndə heyəti 1918 il iyunun 8-də Batumda Osmanlı dövləti ilə dostluq və əməkdaşhq müqaviləsi imzaladı. Bu müqaviləyə əsasən, Osmanlı dövləti Dağlı Respublikasına hərbi yardım etməyi və onu xarici təhlükələrdən müdafiə etməyi öhdəsinə götürdü.

Daha sonra Dağlı hökumətinin üzvləri P.Kotsev və V.G.Cabagiyev Osmanlı dövlətinin hərbi yardımı məsələsinin detallarının aydmlaşdırmaq üçün Tiflisdə Yusif İzzət paşa ilə danışıqlar apardılar. Dağlı hökumətinin ilk xarici işlər naziri Heydər Bammat isə diplomatik missiya ilə Avropaya yola düşdü. 1918 ilin iyununda Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Dağlı hökumətinin başçısı Ə.Çermoyevin xahişilə İsmayıl Haqqı bəyin baçşılığı ilə Dağıstana hərbi dəstə göndərdi. 74 zabit və 577 əsgərdən ibarət olan bu hərbi qüvvə Dağıstanm dağlıq bölgəsində bolşeviklərə qarşı mübarizə aparan Nuh bəy Tarkovskinin və polkovnik Cəfərovun başçılıq etdikləri

downloaded from KitabYurdu.az

könüllü dəstələrə yardım göstərdi. İyunun 21-də Qunib aulunda qərargah yaratmış əslən çərkəz olan İsmayıl Haqqı bəy bütün Şimali Qafqaz müsəlmanlarına müraciət edərək, onları birləşməyə və bolşeviklərə qarşı qəti mübarizəyə çağırdı. 1918 ilin yayında Bakı yaxınlığında Osmanlı-Azərbaycan hərbi qüvvələrinin zərbələrindən Şimala qaçan L.Biçeraxovun rus kazak dəstəsi Dərbəndi və Petrovsk-Portu ələ keçirərək, Rusiya hakimiyyətini bərpa etdi. Belə vəziyyətdə N.Tarkovski dağlı könüllü alayları ilə Xunzaxa, oradan da Temirxan-Şuraya yürüş edərək, bütün bölgənin kazaklar tərəfindən işğalının qarşısını aldı. Sentyabrın sonunda Osmanlı və Azərbaycan hərbi qüvvələri Dağlı Respublikasına yardıma gəldilər. Yusif İzzət paşanın komandanlıq etdiyi ordu hissələri oktyabrın 6-da Dərbəndi, noyabrın 7-də Petrovsk-Portu Biçeraxovun rus-kazak-erməni qüvvələrindən azad etdi.

Oktyabrın 13-də Dağlı Respublikası hökuməti Ə.Çermoyevin başçılığı ilə Dərbəndə, oktyabrın 24-də isə Temirxan-Şuraya köçdü. Azərbaycan Hökuməti onun normal fəaliyyətə başlaması üçün oktyabrın8-də 1 milyon rubl faizsiz kredit ayırdı. Daha sonra əlavə maliyyə yardımı, yanacaq və silah-sursat yardımları göstərildi. Noyabrın ortalarında Dağlı Respublikası hökuməti Antanta nümayəndələrinin tələbi ilə Biçeraxovla barışıq imzaladı. Osmanlı hərbi qüvvələri bölgədən çıxarıldı.

1918 il noyabrın 12-də Temirxan-Şurada Dağıstan, Çeçen və İnquş nümayəndələrinin böyük toplantısı çağırıldı. Toplantı iştirakçıları Dağlı Respublikası hökumətinə tam etimad nümayiş etdirdilər. Noyabrın 24-də Dağlı Respublikası hökumətinin rəsmi orqanı olan "Şimali Qafqaz" qəzetinin ilk nömrəsində hökumətin "Dağlılara, kəndlilərə, kazaklara, fəhlələrə, ziyahlara!" müraciəti dərc edildi. Burada hökumətin Dağıstan və Çeçenistanda vəziyyətə nəzarət etdiyi, bolşevik qüvvələrinə qarşı qəti mübarizə aparıldığı bildirilir, Şimali Qafqazın bütün xalqlarının, həmçinin rusların hüquqlarının qorunmasına təminat verilirdi. 1918 il noyabrın 28-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti ilə Dağlı Respublikası arasında müqavilə bağlanması, Azərbaycan tərəfinin Dağlı hökumətinə 10 milyon rubl həcmində maliyyə yardımı göstərməsi Dağlı Respublikasının öz mövqeyini möhkəmləndirməsi üçün böyük əhəmiyyətə malik idi.

Dağlı Respublikası hökuməti Qafqazdakı ingilis qüvvələrinin komandanı U.Tomsonun təklifi ilə dağlı-kazak münasibətlərini normallaşdırmaq üçün əməli addımlar atdı. Dekabrın 10-da Bakıda Dağlı hökumətinin nümayəndəsi Şimali Qafqazın rus, kazak əhalisinin təmsilçiləri ilə müqavilə imzaladı. Bu sənədlə rus əhalisinə ali dövlət idarəçili-yində iştirak hüququ verildi, kazak hərbi dəstələrinin 40 minlik dağlı ordusunun tərkibinə daxil edilməsi qərara alındı. Bu razılaşmaya əsasən, dekabrın 15-də Ə.Çermoyevin başçılıq etdiyi hökumət istefa verdi. Dekabrın 19-da P.Kotsevin başçılığı ilə yeni koalision hökumət təşkil edildi. İki nazir postu kazaklara ayrıldı. Lakin ingilislərin himayəsində olan L.Biçeraxovun pozuculuq fəaliyyəti üzündən kazaklar Dağlı hökuməti ilə əməkdaşlıqdan imtina etdilər. Dekabrın 31 -də isə Tomson bildirdi ki, Dağlı Respublikasının səlahiyyəti Rostov-Petrovsk dəmir yolu xəttinə kimidir, ondan cənubdakı Dağıstan ərazisi L.Biçeraxovun fəaliyyət dairəsi olacaq, Petrovsk-Bakı dəmir yolu, Petrovsk və Derbənd limanları müttəfiqlərin nəzarəti altında qalacaqdır. İngilis komandanlığı bu addımı ilə Şimali Qafqaz xalqlarının birliyinə və bolşevik təcavüzünə qarşı mübarizəsi işinə ciddi zərbə vurdu. Şimali Qafqazda "vahid və bölünməz Rusiya" uğrunda çıxış edən general Denikinin Dağlı Respublikasına qarşı təcavüzünə şərait yarandı.

Şimali Qafqaz dağlı xalqları nümayəndələrinin 1919 il yanvarın 15-də Temirxan-Şurada keçirilən yığıncağında parlament yaradılması qərara alındı. Yanvarın 20-də Dağlı məclisi adlı nümayəndəli orqan yaradıldı. Dağlı xalqlarının milli azadlıq mübarizəsinin fəal iştirakçısı, qumuq ictimai xadimi Zübeyir Temirxanov Dağlı məclisinin - parlamentin sədri seçildi.

1919 ilin əvvəlində Denikin ordusu Terek vilayətinə soxuldu, inquşların müqavimətini çətinliklə də olsa qırıb, Vladiqafqazı ələ keçirdi. Dağlı hökumətinin ingilis komandanlığı və Denikinlə danışıqları nəticəsiz qaldı. Denikin Dağlı Respublikasını tanımaqdan boyun qaçırdı və Könüllü ordunun generalı Lyaxovu Terek-Dağıstan diyarının hakimi təyin etdi. Martın 5-də Denikin ordusu Çeçenistana soxuldu. Azərbaycan Hökuməti Dağlı Respublikasına qarşı hərbi təcavüzün dayandırılması üçün bütün imkanlara əl atdı. Dağlı hökumətinə yeni maliyyə yardımı göstərdi, könüllü hərbi dəstələr və sanitar briqadaları təşkil edilməyə başladı, Bakıdakı ingilis missiyasından təsirli tədbirlər görməsi istənildi və s. (bax *"Azərbaycanla Dağlı Respublikası arasında müqavilələr")*. Azərbaycan Hökumətinin diplomatik fəaliyyəti nəticəsində Gürcüstan hökuməti də martın 7-də Denikinin Dağlı Respublikası ərazisinə hücumuna etirazını bildirdi və Dağlı hökumətinə yardım göstərəcəyini elan etdi. Dağlı Respublikası üçün çox ağır bir vaxtda - martın 28-də Azərbaycanın diplomatik nümayəndəliyi Temirxan Şurada fəaliyyətə başladı (bax *Azərbaycanın Dağlı Respublikasında diplomatik nümayəndəliyi)*.

Aprelin əvvəlində Denikin ordusunun Çeçenistanın çox hissəsini işğal etməsi Dağlı Respublikasında hökumət böhranı yaratdı. P.Kotsevin və hərbi nazir N.Tarkovskinin passivliyini tənqid edən hökumət üzvləri R.Qaplanov, V.G.Cabagiyev və N.Şahsuvarov istefa verərək, yeni hökumət qurulmasını istədilər. Aprelin 11-də parlamentin iclasında P.Kotsev istefa verdiyini elan etdi. Parlament hökumətin təşkilini yenidən P.Kotsevə tapşırdı. Dağlı hökumətinin əhali arasında böyük nüfuza malik din xadimləri Şeyx Uzun Hacı və Şeyx Əli Hacıya müraciətlə bütün dağlı qüvvələrini səfərbər etmək cəhdi gözlənilən səmərəni vermədi. Dağıstanda isə Dağlı Respublikasından çıxıb Azərbaycanla birləşmək uğrunda hərəkat geniş vüsət aldı (bax *Azərbaycan-Dağıstan itüfaqı)*.

downloaded from KitabYurdu.az

Mayın 12-də P.Kotsevin başçılıq etdiyi Dağlı hökuməti istefa verdi. Dağlı parlamenti yeni hökumətin təşkilini general M.Xəlilova tapşırdı. Lakin Denikin nümayəndəsi ilə danışığa girən general Xəlilov Dağlı Respublikası hökumətinin buraxıldığını bildirdi və ayrıca Dağıstan hökuməti yaradılması haqqında qərar verdi (bax *Dağıstan hökuməti)*. Mayın sonunda Dağıstan hökuməti Denikin ordusunu müqavimət göstərmədən ölkəyə buraxdı. Beləliklə, bütün Şi-mali Qafqaz Denikin ordusunun nəzarətinə keçdi. Şimali Qafqaz xalqlarının istiqlal mübarizəsi növbəti dəfə məğlubiyyətə uğradı. Şimaldan gələn təhlükə Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərinə yaxınlaşdı.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; Göyüşov A., 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.



Şuşa şəhərinin qala divarları. 18 əsr

**ŞULENBURQ** Fridrix Verner fon (20.11.1875, Kemberq, Saksoniya - 10.11.1944, Plyottsenzeye həbsxanası, Berlin) - alman diplomatı, müqavimət hərəkatının iştirakçısı, qraf. Lozanna, Berlin və Münxen universitetlərində təhsil almışdır. 1901 ildən xarici işlər nazirliyində çalışmış, 1911 ildən Tiflisdə konsul vəzifəsində işləmişdir. 1918 ilin mayından Qafqazda alman diplomatik missiyasının tərkibində olmuş, Batum konfransındakı Almaniya nümayəndəliyinin tərkibinə daxil edilmişdi. Şulenburq 1918 il avqustun 21-də Almaniyanın Baş qərargahında Qafqazla bağlı iqtisadi və nəqliyyat məsələlərinin müzakirə olunduğu konfransda iştirak etmiş, müşavirənin nəticələrini mövzular üzrə sistemləşdirib, qeydlər aparmışdır. Onun Bakı ilə bağlı qeydləri əsasən, Bakı neftinin nəqli məsələsinə aiddir. Qeydlərdə deyilir: "... a) Bakı Rusiya ağalığı altında qalmaqdadır; b) Neft gəliri Almaniyamn nəzarətinə keçir; v) Bakıdan gələn dəmir yollan və boru kəmərləri alman nəzarəti altında olmahdır". Şulenburqun yazdığına görə, Bakımn tutul-masından sonra neft sahələrini Nobel fırması ilə sıx əməkdaşlıq yolu ilə istismar etmək nəzərdə tutulurdu. Şulenburq 1919 ilin iyulundan Berlində xarici işlər nazirliyinin mərkəzi aparatında referent vəzifəsində çahşmışdır. 1923 ildən İranda, 1931 ildən Rumıniyada, 1934 ildən isə SSRİ-də Almaniyamn səfiri olmuşdur. Müharibənin elan olunması haqqında Almaniyamn notasım 1941 il iyunun 22-də SSRİ xarici işlər xalq komissarı V.M.Molotova Şulenburq təqdim etmişdir. Almaniyaya qayıtdıqdan sonra istefa vermiş və antihitlerçi müxalifətə qoşulmuşdur. Hitlerə qarşı uğursuz sui-qəsddən (1944) sonra həbs edilərək edam olunmuşdur.

*Əd.:* Qasımlı M.C., Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, 3 clddə. c.3. B.. 2004; 3ajieccKHH K.A., KTO 6bLi KTO B nepBoii MnpoBofl BOHHe. BiiorpadpiiMecKHİi 3nmiK.ToneaiiMecKHİı cjioBapb, M., 2003.

**ŞUŞA** - Azərbaycan şəhəri. Ölkənin ən qədim yaşayış məntəqələrindən birinin əsasında yaranmışdır. Şuşanın yüksəlişi Qarabağ xanlığının banisi Pənah xanın [1747-59] adı ilə bağlıdır. Onun göstərişi ilə Şuşanm ətrafında müdafiə divarları tikilmiş və şəhər abadlaşdırılmışdı. Şuşamn siyasi, iqtisadi və mədəni mərkəz kimi tərəqqisində Qarabağ xanlığı misilsiz rol oynadığı kimi, Şuşa da xanlığın həyatında həlledici əhəmiyyətə malik olmuşdur. Şəhər beynəlxalq ticarət əlaqələrində fəal iştirak edirdi. Burada Pənabadi (Pənahabadi) gümüş sikkəsi zərb olunurdu. Şuşa İbrahim xanın dövründə [1759-1806] daha da inkişaf etmiş, 1783-84 illərdə şəhərin ətrafına daha möhkəm qala divarları çəkilmişdi. Ağa Məhəmməd Qacar [1795-97] Şuşaya hücumu zamanı (1795), onu 33 gün mühasirədə saxlasa da, şəhəri tuta bilməmişdi. O, Qarabağa yeni, 1797 il hücumu zamanı Şuşanı tutmağa nail olsa da, burada qətlə yetirilmişdi. 19 əsrin əvvəllərində çar Rusiyasının Şimali Azərbaycanda işğalçılıq fəaliyyəti genişlənməyə başlamışdı. Qafqazdakı rus qoşunlarının baş komandanı P.D.Sisianov Gəncəni amansızlıqla işğal etdikdən (1904) sonra Qarabağ xanlığına qarşı mübarizəyə başladı. Qa-

Pənahəli xanın sarayı. Şuşa



downloaded from KitabYurdu.az



Şuşa qalasının gümüş açarları. 1805.
Azərbaycan Tarixi Muzeyi

rabağın qriqorianlaşmış və erməniləşmiş alban məlikləri bu işdə cidd-cəhdlə iştirak edir, hər vasitə ilə Qarabağ xanlığına zərbə vurmağa çalışırdılar. Belə bir şəraitdə İbrahim xan Rusiya ilə Kürəkçay müqaviləsini bağlamağa razı oldu (1805, 14 may). Müqavilənin şərtlərindən birinə əsasən, Şuşada rus qarnizonu yerləşdirildi. Kürəkçay müqaviləsinə görə, Qarabağ xanlığı məhz Azərbaycan torpağı kimi Rusiya imperiyasına ilhaq edilmişdi. Lakin Rusiyanın müstəmləkəçilik siyasəti tezliklə özünü açıq şəkildə göstərmiş, 1806 ildə İbrahim xan ailəsilə birlikdə işğalçılar tərəfindən Şuşada qətlə yetirilmişdi. Çar I Aleksandrın [1801-25] fərmanı ilə onun oğlu Mehdiqulu xan hakimiyyətə [1806-22] gəlmişdi. Lakin çar hökuməti 1822 ildə Qarabağ xanlığının ləğv edərək, onu əyalətə çevirmişdi. Şuşa Qarabağ əyaləti və hərbi müsəlman dairəsinin mərkəzi olmuşdu. Çar Rusiyasının Qarabağ əyalətində 1823 ildə keçirdiyi kameral təsvirin yekunlarına görə, Şuşada 1532 ailə qeydiyyata alınmışdı, onun 1111-i (72,5%) azərbaycanlı-müsəlman, yalnız 421-i (27,5%) erməni idi. 1840 il inzibati-ərazi bölgüsü zamanı Şuşa qəzası yaradıldıqda Şuşa şəhəri yenə mərkəz olmuşdu. 1873 il kameral təsvirinə görə Şuşada 24552, 1886 il siyahısına görə 26806, 1897 il Ümumrusiya siyahıyaalmasına görə isə 25881 nəfər əhali qeydiyyata alınmışdı. 1917 il Qafqaz təqviminin məlumatına görə, Şuşada 43869 nəfər (25404 kişi, 18465 qadın) yaşayırdı. Onlardan 41102 nəfəri yerli sakin, 2767 nəfər müvəqqəti yaşayanlar idi. Çarizmin köçürmə siyasəti nəticəsində Şuşada da əhalinin etnik tərkibində xristian əhalinin, o cümlədən ermənilərin sayının artırılması özünü qabarıq göstərmişdi. Yuxarıda xatırlanan mənbəyə görə, Şuşa şəhər əhalisi içərisində azərbaycanlılar təxminən 20 min nəfər təşkil edirdi. Əhalinin 2 mindən çoxunu ruslar, digər Avropa xalqlarının nümayəndələri və b. pravəslav dininə mənsub olanlar təşkil edirdi. Ermənilər Şuşa şəhərinin siyasi həyatında dağıdıcı ünsür kimi çıxış edir, azərbaycanlılara qarşı soyqırım siyasəti yeridirdilər. 1905-06 illərdə ermənilər rus üsul-idarəsi ilə birləşərək, azərbaycanlılara qarşı açıq mübarizəyə başlayaraq, qanlı cinayətlər törətdilər. Oktyabr çevrilişindən (1917) sonra yaranan tarixi şəraitdə ermənilər, bütün Cənubi Qafqazda olduğu kimi, Şuşada da fəallaşdılar. Yalnız Azərbaycan

Xan qızı Xurşidbanu Natəvanın evi. Şuşa. 19 əsr



Həmin mülk erməni vandalları tərəfindən dağıdıldıqdan sonra. 1992



downloaded from KitabYurdu.az



Şuşa qəzasının gerbi ,1840. Azərbaycan Tarixi Muzeyi

Xalq Cümhuriyyətinin qurulması, bütövlükdə, Qarabağda, o cümlədən onun mərkəzi olan Şuşada ermə-nilərin separatçı-terrorçu hərəkatının qarşısının alınmasında böyük rol oynadı. 1918 ilin sentyabrında Şuşada Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti bərqərar edildi. Bu dövrdə Şuşanın 35 kilometrliyinədək yaxınlaşan Andronikin şəhəri ələ keçirmək cəhdləri boşa çıxdı və o, Zəngəzura çəkildi. 1917 ilin yanvarında *Qarabağ general-qubernatorluğu* təşkil edildi. Qubernatorluq Şuşada [sabitlik yaradılması iiçün böyük iş gördü. Bununla əlaqədar olaraq, Cümhuriyyət hökuməti Şuşada mühüm əhəmiyyətə malik olan sosial tədbirlər həyata keçirdi. 1919 il noyabrın 20-də Şuşada hökumət xəstəxanası açılması barədə qanun qəbul edildi. Lakin erməni-daşnak güruhu separatçı-terrorçu fəaliyyətindən əl çəkmək istəmirdi. 1920 ilin martında ermənilər, bütün Qarabağda olduğu kimi, Şuşada da azərbaycanlılara qarşı qanlı soyqırımları törətdilər. Bu hadisələr sovet Rusiyasımn işğalçı hərbi qüvvələri il ə birlikdə Azərbaycan Xalq Cümhuriyyotinə ağır zərbə vurdu və onun süqutunu yaxınlaşdırdı. Bakını işğal edən 11-ci Qırmızı ordu hissələri 1920 il mayın 12-də Şuşaya daxil olsa da, lakin burada möhkəmlənə bilmədi. İyunun 3-dən 4-nə keçən gecə Şuşa Azərbaycan milli qüvvələri tərəfindən azad edildi. Lakin 11-ci ordu hissələri iyunun 15-də Şuşanı yenidən işğal etdi, sovet hakimiyyəti bərpa edildi. 1923 il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması haqqında dekret verdi. Şuşa Azərbaycan K(b)P MK Rəyasət heyətinin 1923 il 16 iyul tarixli qərarı ilə DQMV-nin tərkibinə daxil edildi.1980 illərin sonlarmda ermənilərin Azərbaycana ərazi iddialarımn yeni mərhələsi Ermənistamn Azərbaycana qarşı elan edilməmiş müharibosinə çevrildi. 1992 ilin mayında Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu. burada qurulan işğal rejimi nəticəsində azərbaycanlılara məxsus maddi mədəniyyət abidələri barbarcasma da-ğıdılıı. Azərbaycan dövləti və xalqı Azərbaycan torpaq-larımn, o cümlədən Şuşanın ermənilər tərəfindən işğalı ilə bir an belə barışmamış, onlarm azad edilməsi və ölkə-mizin ərazi bütövlüyü uğrunda əzmlə mübarizə aparır.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B.. 1998; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законадательные акты (сборник документов), Б., 1998; Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, B., 1990; Qarabağnamələr. Kitab 1-2, B., 1989-1991; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Köçərli T., Qarabağ, B., 2002; Описание Карабахской провинции, составленное в 1823 г., Тифлис, 1866; К истории образования Нагорно-Карабахской автономной области Азерб. ССР., Документь и материалы, Б., 1989; Кавказский календарь на 1917 г., Б., 1989; Кавказский календарь на 1917 г., Б., 1916; Авалов Э., Архитетекура гогорда Шуши, Б., 1977; Мурадалиева Э. города Северного Азербаиджана во второй половине XblX века, Б., 1991.

**ŞUŞA, CAVANŞİR, CƏBRAYIL VƏ ZƏNGƏZUR QƏZALARININ MÜVƏQQƏTİ GENERAL-QUBERNATORLUĞU**- ermənilərin Azərbaycana qarşı yeni erazi iddiaları ilə əlaqədar Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 ilin yanvarın məcburiyyət qarşısında yaratdığı müvəqqəti inzibati idarəçilik rejimi (bax *Qarabağ general-qubernatorluğu).*

**ŞUŞA HƏRBİ FELDŞER MƏKTƏBİ** - Azərbaycan Xalq Cümhuriyyoti dövründə Şuşada hərbi tibb kadrları ha-zırlayan təhsil müəssisəsi (bax *Hərbi feldşer məktəbi).*

**ŞUŞA QƏZASI** Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi. Azərbaycanın ən böyük xanlıqla-rından biri olan Qarabağ xanlığı Kürəkçay müqaviləsindən (1805) sonra, əslində Rusiyaya ilhaq edilərək, 1822 ildə ləğv olundu və əyalətə çevrildi. 1840 il inzibati-ərazi islahatı nəticəsində Qarabağ əyaləti Şuşa qəzası adlandırıldı və hərbi-müsəlman dairəsinin (mərkəzi Şuşa şəhəri) tərkibinə daxil edildi. 1867 ildə Yelizavetpol (Gəncə) quberniyası təşkil edildikdə Şuşa qəzası da onun tərkibinə qatıldı. Şuşa qəzasının ərazisində üç yeni qəza – Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları yaradıldı. Beləliklə, əvvəllər bütün Qarabağ xanlığını əhatə edən Şuşa qəzasının ərazisi dörd qəza arasında bölüşdürüldü. 1917 il Qafqaz təqviminin məlumatına görə, Şuşa qəzasının ərazisi 4423,28 *kv.verst* idi. Burada 144876 nəfər (76730 kişi, 68146 qadın) əhali yaşayırdı. Onların 141327 nəfəri yerli sakin, 3549 nəfəri müvəqqəti yaşayanlar idi. Çar hökumətinin Şimali Azərbaycanı işğal prosesində xüsusilə *Türkmənçay müqaviləsindən (1828)* sonra ermənilərin buraya köçürməsi Qarabağda əhalinin etnik tərkibində onların sayını artırmışdı. Yuxarıda xatırlanan qaynağın məlumatına görə, Şuşa qəzasında təx-minən 66501 nəfər (46%) azərbaycanlı yaşayırdı. Ruslar, digər Avropa xalqlarından olanlar 3 min nəfərədək təşkil edirdi. Erməni separatçı-terrorçu qüvvələri bütün Qarabağda, o cümlədən Şuşa qəzasında azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. 1905-06 illərdə ermənilər Şuşa qəzasında azərbaycanlılara qarşı qanlı soyqırımları törətmişdilər. Ermənilərin separatçı-terrorçu

downloaded from KitabYurdu.az

fəaliyyəti Rusiyada Oktyabr çevrilişindən (1917) sonra daha da genişlənmişdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Şuşa qəzasında öz hakimiyyətini bərqərar etdi. 1919 ilin yanvarında Şuşa qəzasını da əhatə edən *Qarabağ general-qubernatorluğu* yaradıldı. Burada məskunlaşan ermənilər Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini qəbul etdilər. Bununla belə, erməni-daşnaklar Şuşa qəzasının azərbaycanlı əhalisinə qarşı qanlı qırğınlar törətməkdə davam edirdilər. 1920 ilin martında Azərbaycan Xalq Cümhuriyyətinə qarşı erməni qəsdləri geniş miqyas aldı. Bütün bunlar ölkənin hərbi qüvvələrini bu regiona cəlb etdi, Şimal sərhədləri müdafiəsiz qaldı, Azərbaycan Xalq Cümhuriyyətinin süqu-tunu yaxınlaşdırırdı. 1920 il aprelin 28-də Bakı işğal olun-duqdan sonra, 11-ci Qırmızı ordunun köməyi ilə mayda Şu-şa qəzasında da hakimiyyət bolşeviklərin əlinə keçdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923 il 7 iyul dekreti ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqda Şuşa qəzasının bir hissəsi onun tərkibinə verildi. Qəza 1929 ildə rayonlaşma zamanı ləğv olunmuşdur.

*Əd.:* Bax *Şuşa* məqaləsinin ədəbiyyatına



Seyid Şuşinski, bəstəkar Fikrət Əmirov və tarzən Qurban Pirimov

**ŞUŞİNSKİ** Seyid, Mir Möhsün ağa Seyid İbrahim oğlu (12.4.1889, Şuşa qəzasının Horadiz kəndi - 1.10.1965, Bakı) Azərbaycanın xalq artisti (1956). Zil və məla hetli səsə malik olan Mir Möhsün uşaq ikən dini mərasimlərdə və xalq şənliklərində oxumuşdur. 1907 ildə Şuşada alim-musiqişünas Mir Möhsün Nəvvabın musiqi məktəbində təhsil alır, aşıq sənətini dərindən mənimsəyir, muğamları öyrənməyə başlayır. Bu vaxtlar



"Mani", "Arazban", "Heyratı", "Simayişəms", "Mənsuriyyə" kimi zərbi muğamları məharətlə oxumuş və tezliklə Şuşada müğənni kimi tanınmışdır. Şuşinskinin xanəndə kimi yetişməsində Cabbar Qaryağdı oğlunun böyük rolu olmuşdur. 1912 ildə Tifhsdə Cəlil Məmmədquluzadənin, Əlimirzə Nərimanovun təşəbbüsü ilə şəhərin azərbaycanlılar yaşayan hissəsində ("Şeytanbazar"da) açılan "Auditoriya" klubunda Şuşinskinin rəhbərliyi ilə "Şərq konserti" təşkil olunmuş, o zaman Üzeyir bəy Hacıbəylinin Tiflisdə tamaşaya qoyulan "Leyli və Məcnun" operasında İbn Səlam, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında Sərvər və Əsgər rollarını ifa etmişdi. Bir müddət tarzən Məşədi Zeynal, Məşədi Cəmil Əmirovun müşayiətilə xalq şənliklərində oxumuşdur. "Molla Nəsrəd-din" jurnalının nəşrinə, Azərbaycan teatrına və aktyorlara, kasıb tələbələrə maddi yardım göstərmişdir. 1913-14 illərdə "Ekstrafon" səhmdar cəmiyyəti tərəfindən Kiyevdə onun ifasında bir sıra muğamlar və xalq mahnıları vala yazılmışdır.

S.Şuşinski 1919 ildən Bakıda yaşamış, Cümhuriyyət Hökumətinin üzvləri ilə tez-tez görüşmüş, ölkənin müstəqil mədəni həyatında yaxından iştirak etmiş, fəhlə klublarında, mədəni-kütləvi tədbirlərdə musiqili səhnəciklərdə, bayramlarda, xeyriyyə konsertlərində və başqa el şənliklərində çalıb-oxumuşdur.

*Aprel işğalından (1920)* sonra S.Şuşinski Azərbaycan Dövlət Konservatoriyasında, Asəf Zeynallı adına Musiqi Məktəbində xanəndəlik və muğam sənətindən dərs demiş, ömrünün son illərində isə Azərbaycan Opera və Balet Teat-rında muğam operalan üzrə məsləhətçi işləmişdir. Şuşinski gözəl musiqi yaddaşına və yüksək ifaçılıq mədəniyyətinə malik sənətkar olmuş, bir çox muğamlara yeni guşələr, xallar, hissələr əlavə etmişdir. Ustad xanəndə olan Seyid Şuşinski Azərbaycan muğam sənətinin tərəqqisində və inkişafında mühüm rol oynamış, ifaçılıq məktəbi yaratmışdır.

*Əd.:* Şuşinski F., Seyid Şuşinski. B., 1996; yenə onun, Azəzbaycan xalq musiqiçiləri, B., 1985.

downloaded from KitabYurdu.az

# T

**TAĞIYEV** Ağa Zeynal (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri; Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. "İttihadi-İslam-Rusiyada müsəlmanlıq" partiyasınm təşkilatçılarından olmuş, partiyanın 2-ci qurultayında (1920, yanvar) Mərkəzi Komitənin üzvü seçilmişdir. Azərbaycan Milli Şurasınm *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, Bakı şəhərindən Cümhuriyyət Parlamentinə seçilmişdi.

**TAĞIYEV** Əşrəf (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri; Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, Ağdaş şəhərindən Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Müsavat" və bitərəflər fraksiyasının üzvü idi.

**TAĞIYEV** Hacı Zeynalabdin Məhəmmədtağı oğlu (1838, Bakı - 1.9.1924, Bakı yaxınlığındakı Mərdəkan kəndi) Azərbaycan sahibkarlığının görkəmli nümayəndəsi, xeyriyyəçi, maarifpərvər və ictimai xadim. Nəslən "İçərişəhər" dəndir. Atası başmaqçı idi. Ehtiyac içərisində yaşayan ailəsinə kömək məqsədilə kiçik yaşlanndan fəhləlik etmiş, 15 yaşmdan bənnalığa başlamışdır. 1872 ildə neft sənayesində iltizam sistemi ləğv edildikdən də torpaq sahəsi götürərək, quyu qazdırmış, elə həmin il 12 ilk neftçıxartma müəssisəsi yaranmışdı ki, onlardan biri də "H.Z.A.Tağıyev" neft sənayesi firması idi. 1873 ildə neftçıxartma işinə sərmayə qoymuş, sahibkarlıq fəaliyyətinə başlamışdır. 1877 ildə 2-ci gildiya tacir rütbəsi almışdı. 1878 ilin əvvəlində Tağıyevin mədənində baş verən neft fontanı onu Bakının zəngin sahibkarlarından birinə çevirmişdir. 70-ci illərin sonunda Tağıyev artıq 3 neft zavodunun sahibi idi. 1882 ildə 1-ci gildiya tacir rütbəsi almış, 1886 ildə "H.Z.A.Tağıyev" şəxsi ticarət evini təşkil etmişdir. 1896 ildə Tağıyev firmasının neft hasilatı ən yüksək göstərici ilə (32 milyon pud) ən iri - "Nobel qardaşları" şirkətini (28 milyon pud) geridə qoydu.

Tağıyev neft məhsullarının Xəzər dənizi və Qafqaz dəmir yolu ilə nəqli üzrə əsas fınnalar qrupunun daimi iştirakçısı olmuşdur. 19 əsrin 90-cı illərində məhz Tağıyev, ilk dəfə, Şuşa-Yevlax dəmir yolu çəkilişi layihəsini təklif etmişdir. 20-ci yüzilliyin əvvəllərində təsisçisi olduğu "Kür-Xəzər gəmiçilik cəmiyyəti" Xəzər dənizində "Qafqaz və Merkuri" və "Şərq" şirkətlərinə qarşı dura biləcək yeganə qüvvəyə çevrildi. Tağıyev Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinə zərbə vuran, onu sındıran ilk milli sənayeçi olmuşdur. Başqa sənaye sahələrinə kapital qoymaq üçün 1897 ildə özünün neft mədənlərini, müəssisələrlə birlikdə, Britaniyanın ən iri sahibkar şirkətinə 5 milyon rubla satan Tağıyev toxuculuq sənayesinə, gəmiçiliyə, tikintiyə, kənd təsərrüfatına və balıqçılığa xeyli kapital qoymuş, "Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti" (1897), toxuculuq fabriki (1900), "Xəzər manufaktura cəmiyyəti" (1911), "Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti" (1916) yaratmışdı. Bakıda toxuculuq fabriki tikilməsi təkcə Azərbaycanda qiymətli ixrac məhsulları və külli miqdarda gəlir verən yeni sənaye sahəsinin yaradılması deyil, həm də minlərlə işsizin işlə və pulsuz evlə təmin edilməsi demək idi. Fabrikin ambulatoriyası və məktəbi də var idi.



Bir sıra xırda neft sənayesi şirkətləri ilə əməkdaşhq edən Tağıyev "Şərqi-Qafqaz neft sənayesi və ticarət səhmdar cəmiyyəti"nin təsisində iştirak etmiş, həmin cəmiyyətin idarə heyətinin sədri seçilmiş, beləliklə. 20 əsrin əvvəllərində neft sənayeçiləri arasında nüfuzunu müəyyən dərəcədə bərpa etmişdir. Tağıyev 1914 ilin yayında pambıq parça sənayesi sahəsində "H.Z.Tağıyevin fabriklər birliyi kontoru"nu təşkil etmişdir. Fabriklərini xammalla təmin etmək məqsədilə Tağıyev Yevlax yaxınlığında pambıq əkini üçün torpaq sahəsi almış, 1909 ildə isə Cavad qəzasında pambıq-təmizləmə zavodu tikdirmişdi. 1899 ildə yaradılan "Elektriçeskaya sila" səhmdar cəmiyyətinin sədr müavini seçilən Tağıyev idarə heyətinin 6 direktoru arasında yeganə azərbaycanlı idi. Tağıyevin metal emalı və gəmi təmiri sahələrində də müəssisələri vardı. 1903 ildə gəmi sahibləri onun təşəbbüsü ilə "Yanacaqdoldurma şxunları ittifaqı" adlı sindikat yaratmışdılar. Beləliklə, milli kapital Xəzər yanacaq-doldurma donanmasında yüksək çəkiyə və sabit mövqeyə malik oldu. Tağıyev yeyinti sənayesinin inkişafına da diqqət yetirmiş, dəyirman tikdirmiş, Quba qəzasında üzüm bağları saldırmış, 40 desyatin (43,7 ha) sahəlik üzümçülük-şərabçılıq təsərrüfatını şərikli satın almışdı. 1909 ildə balıq sənayesinə 1 milyon rubla yaxın sərmayə qoymuş, 1910 ildən ən iri vətəgələrdən olan "Bankə" vetəgəsinin sahibi olmuşdur. Balıq məhsullarını saxlamaq üçün Dağıstanın Petrovsk-Port (indiki Mahaçqala) şəhərində soyuducu

downloaded from KitabYurdu.az



*H.Z.Tağıyevin ailəsində. Ailə üzvləri musiqi ilə məşğul olur.*

zavod, buz istehsal edən və çəllək zavodları tikdirmişdi. 1916 ildə balıq sənayesi sahəsində yaradılan "Kaspi-Tağıyev" səhmdar cəmiyyətinin əsas kapitalının üçdə iki payı Tağıyevə məxsus idi. Tağıyevin foaliyyət sahələrindən biri də rabitə ilə bağlı idi. Telefon xətlərinin çəkilişində də öncüllərdən biri Tağıyev olmuşdur. O, torpaq sahələrinin, mülklərin və b. daşınmaz əmlakın alqı-satqısı ilə bağlı əməliyyatlarla da moşğul olurdu. Tağıyev Bakı Şəhər Dumasının üzvü kimi şəhərsalma məsələsinə xüsusi diqqət yetirirdi. Bakının mərkəzində ticarət passajı (köhno Bakı univermağı), bank binası, üçmərtəbəli yaşayış mülkü (Azərbaycan tarixi muzeyinin binası), ilk əsash teatr binası (Tağıyev teatrı; 1883), müsəlman qızları üçün ilk təhsil məktəbi (1901; AMEA-nın Əlyazmalar İnstitutu), Abşeronda ilk dəfə xüsusi olaraq fəhlələr üçün Zığ kəndində salınmış qəsəbə və s. ona məxsus idi. 1904-13 illərdə xüsusi kredit müəssisələri şəbəkəsinə "H.Z.Tağıyev" bankir kontoru da daxil olmuşdu. H.Z.Tağıyevin fəaliyyotinin zirvələrindən biri sənaye müəssisələrini maliyyələşdirmək, yerli sahibkarlara maddi dəstək vermək məqsodilə 1914 ildə yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını təsis etməsi idi. 1917 ilin axırlarında Tağıyevin kapitalı 30 milyon manata çatırdı.

Tağıyev müsəlmanlarının mənafeyi ilə bağlı ictimai-siyasi məsələlərdə daim fəallıq göstərmişdir. 1905 ildə şəhər özünüidarəsi sahəsində müsəlmanların hüquqlarının məhdudlaşdırılmasının ləğvi ilə əlaqədar ləngimədən tədbirlər görülməsini təklif etmiş, Əhməd bəy Ağayev tərəfindən Azərbaycan dilinə çevrilmiş 1864 il "Əsasnaməsi" onun köməyi ilə dərc olunmuşdu. O, Cənubi Azərbaycanda gedən milli azadlıq hərəkatına (1905-11) yardım olaraq pul vəsaiti və silah göndərmişdi.

H.Z.Tağıyev iqtisadiyyatın inkişafı ilə yanaşı, maarif və mədəniyyətin tərəqqisi üçün də misilsiz səy və xidmətlər göstərmişdir. Onun vəsaiti hesabına şeyxülislam Əbdüssəlam Axundzadənin "Tarixi-müqəddəs", Sultan-məcid Qənizadənin kitabları, "Əşari-Seyid Əzim Şirvani" kitabı, Nəriman Nərimanovun "Nadir şah" dramı (Tağıyevin xahişi ilə, fars dilinə tərcümə olunaraq) və bir çox başqa kitablar çap olunmuşdur. Bundan başqa, İranda, İstanbulda, Hindistanda, Misirdə və başqa Şərq ölkələrində xəstəxanalara, məktəblərə, xeyriyyə cəmiyyətlərinə, məscid və mədrəsələrin inşasına böyük ianələr ayırmış, təkcə Azərbaycanın deyil, Rusiyanın çoxmilyonlu müsəlman əhalisinə kömoyini əsirgəməmişdir. O, Mahaçqala, Tiflis, Krım, Si-bir, Moskva, Odessa, Vladiqafqaz, Həştərxan, Kutaisi, Pe-terburq, Vəlqaboyu, Xarkov və s. yerlərdə ana dilində məktəblərin açılmasına xeyli vəsait sərf etmişdi. Tağıyev 1895 ildə 57 min rubla "Kaspi" qəzetini almış və onun

downloaded from KitabYurdu.az



*H.Z.Tağıyev iş otağında*

sahibi olmuşdu; Quran Azərbaycan dilində "Kaspi" qəzetinin nəşriyyatında nəşr edilmişdir. 1879 ildən Bakı şəhər Dumasının üzvü olan Tağıyevin Bakıya su kəmərinin çəkilməsində xüsusi xidməti var. Onun təşəbbüsü ilə ingilis mühəndisi V.V.Lindley 1904 ildə Şollar-Bakı su kəmərinin çəkilməsinə başlamışdı. Tağıyevin 1899 ildə Mərdəkanda tikdirdiyi elektriklə işləyən dəyirman ətraf kəndlərin camaatını 1-ci dünya müharibəsi illərində aclıqdan xilas etmişdir. 1902 ildə Şamaxı zəlzələsi zamanı Tağıyev şəhər ohalisinə böyük kömək göstərmişdir. Tağıyev ilk müsəlman qız məktəbinin fəaliyyətinə xeyli vəsait (325 min manat) və əmək sərf etmişdir. Peterburq müsəlman xeyriyyə cəmiyyətinə 11 min manat bağışlamış və bu cəmiyyətin ömürlük üzvü seçilmişdir. Qəzet və jurnalların nəşrinə ("Kaspi", "Həyat", "Füyuzat" və s.), mədəni-maarif cəmiyyətlərinə, milli kadrların hazırlanmasına xeyli vəsait sərf etmişdir.

Tağıyevin maarif sahəsindəki xidmətlərinin coğrafıyası daha böyük və genişdir. Onun himayə etdiyi, təqaüd verdiyi şəxslər sonralar öz ölkələrinin, xalqlarının görkəmli nümayəndələri olmuşlar. Nəriman Nərimanov. Məşədi Əzizbəyov, Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyli, Behbud Ağa Cavanşir, Lütfəli bəy Behbudov, Mirzə Davud Hüseynov, Nəsib bəy Yusifbəyli, Maxaç Daxadayev, Mir Həsən Vəzirov, Xudadat bəy Məlik-Aslanov, R.Axundov, A.Mahmudbəyov, Şövkət Məmmədova və onlarca başqaları H.Z.Tağıyevin köməyi sayəsində təhsil almışlar.

Tağıyev yeni tipli təhsil ocaqlarını ərəb, fars, türk dillərində kitablarla, tədris vəsaiti və məktəb avadanlığı ilə təmin etmiş, onlara nağd pulla yardım göstərmişdir. Quberniya mərkəzində texniki kommersiya və ya peşə məktəblərinin açılmasına da 100.500 manat pul ayırmış, həmin tedris ocaqlarında kabinet və laboratoriyaların yaradılmasına əlavə yardım göstərmişdir. "Nəşri-maarif", "Nicat" və b. xeyriyyə cəmiyyətlərinin təsis edilib fəaliyyət göstərməsində Tağıyevin böyük əməyi olmuşdur. O, "Nəşri-maarif" cəmiyyəti idarə heyətinin sədri seçilmişdi. Bakı texniki məktəbinin qəyyumu (hamısı) seçilmiş, öz vəsaiti hesabına məktəb üçün ikinci mərtəbə tikdirmiş. Yaşlılar üçün rus dili kursları təşkil etmişdir. 12 yoxsul müsəlman texnik-tələbənin xərcini öz üzərinə götürmüşdür.

Tağıyevin vəsaiti hesabına Petrovsk-Portda tikiş fabriki, Dərbənddə qızlar üçün təhsil müəssisəsi (Tağıyev məktəbin saxlanması üçün hər il pul köçürmüşdür), Peterburqda məscid, Moskvada yaşayış evi və ticarət müəssisələri tikilmişdir. Balkan müharibəsi illərində türklərə pul yardımı göstərmişdir. Birinci dünya müharibəsində rus qüvvələri tərəfindən işğal edilmiş Türkiyə vilayətlərində erməni quldur dəstələrinin vəhşiliklərinə məruz qalmış

downloaded from KitabYurdu.az

müsəlmanlara yardım edilməsində də onun fəal rolu olmuşdur. Gizli fəaliyyətdə olan "Müsavat" partiyasına da maddi yardım göstərmiş. İsmayıl bəy Qaspralının "Tərcüman" qəzetinə Qafqazdan abunələr təşkil etmiş, abunəçilərin pulunu özü ödəmişdir.

1917 ilin aprelində Bakıda keçirilmiş Qafqaz müsəlmanları qurultayında fəxri qonaq kimi çıxış edən H.Z.Tağıyev qurultayın yaratdığı milli fonda 50 min rubl məbləğində pul bağışlamışdı. 1918 ilin martında dinc müsəlman əhalinin məruz qaldığı qırğınm qarşısını almaq üçün Dağıstan qüvvələrinin başçısı imam Nəcməddin Qotsinski ilə saziş əldə edilməsində Tağıyevin mühüm xidməti olmuşdur. Məşum mart günlərində "Tağıyev teatn", "Kaspi'" redaksiyası da yandırılmışdı.

Azərbaycanın XX əsr siyasi həyatında Tağıyevin fəal rolu olmuşdur. Nəinki çar hakimiyyəti dövründə cərəyan edən siyasi proseslərə müxtəlif formalarda münasibotini ifadə etmiş (Arxiv sənədlərində "Difai" partiyasının təsisçisi kimi adı çəkilir, milli münaqişələr zamanı müsəlman əhalinin xilası yönündə zəruri tədbirlər görməsi, 1918 ilin mart günlərində müsəlman müdafiə dəstələrinin maddi təminatı, talan olunmuş kəndlərə İrandan ərzaq gətirdib paylaması və s.), həm də Azərbaycanın Xalq Cümhuriyyəti dövründə müstəqil milli dövlətçilik mənafelərini dəstəkləmiş. təntənəli dövlət tədbirlərində iştirak etmişdir. Yüksək səviyyəli dövlət qonaqlarını öz yaşayış mülkündə qonaq etmiş, Britaniya diplomatik missiyasının başçısı O.Uordrop Bakıya gələrkən şəxsi mülkünün bir hissəsini onun sərəncamına vermiş, general C.Harbord başda olmaqla, Amerika missiyasmın üzvləri onun mülkündə qahnış, burada hökumət başçısı Nəsib bəy Yusifbəyli torofmdən qəbul edilmişdi.

1919 il iyunun 29-da H.Z.Tağıyev Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin başçısı N.Yusifbəyliyə iri həcmli məktubla müraciət etmiş, hökumətin maliyyə və iqtisadi siyasəti ilə bağh mülahizələrini bildirmiş, tövsiyələr vermişdi. Milli pulun dəyərdən düşməsi səbəbləri, ixracata qoyulan qadağalarm ölkə iqtisadiyyatına vurduğu zərər. Azərbaycan valyutasını gücləndirmək tədbirləri, yerli sənaye sahəsində hökumət orqanlarının yeritdiyi siyasətin tənqidi Tağıyevin hökumət başçısına müraciətinin əsas məzmununu təşkil edirdi. Müraciətin motivini Tağıyev məktubun sonunda şərh etmişdi: "Mənim sizə müraciətini tacir və sənayeçinin şəxsi marağından deyil, səmimi vətənpərvərlik hissindən və dövlətin əsl siyasi müstəqilliyinin yalnız onun maliyyə və iqtisadi müstəqilliyi əsasında mümkünlüyünə dərin inamından irəli gəlir ki, bunsuz siyasi mənada azad vətəndaşlar özlərinin sənaye və ticarət baxımından daha güclü qonşularının quluna çevrilirlər". Dövlət qadağalarının və məhdudiyyətlərinin inkişafa əngəl olduğunu göstərən Tağıyev gənc Azərbaycan respublikasının iqtisadi müstoqilliyi üçün zəmin yaratmaq, onun dünyanın digər dövlətlərinin sırasında tamhüquqlu üzv kimi şorəfli yer tut-ması naminə sənaye və ticarət sorbəstliyini müdafiə etdiyini bildirirdi. 1922 ildə H.Z.Tağıyevin Azərbaycan SSR hökumətinin sədri N.Nərimanova müraciəti də eyni motivə söykənmişdir. O, sovet iqtisadi siyasətində məcburi dönüşü işgüzarcasına çevik dəyərləndirmişdir: "Qocalığıına və böyük tarixi hadisələr səbəbindən müvəqqəti olaraq. indiyədək ölkəmizin iqtisadi həyatında nişanələrini saxlamış əmək fəaliyyətimdən uzaq düşməyimə baxmayaraq, artıq fəaliyyətsiz qala bilmərəm. xüsusən hökumətin səsi və xalqın maraqları iqtisadi siyasətin yeni yoluna qədəm qoyaraq. bütün canlı qüvvələri xalq təsərrüfatının və sənayenin bərpasına səslədiyi bir vaxtda". H.Z.Tağıyevin təklifı qəbul edilmədisə də. N.Nərimanovun təklifə münasibəti müsbət olmuşdur: "Qərbi Avropa ona daha artıq etibar edər, nəinki bizə. Əgər o, kredit açarsa. həmin pullara Qərbi Avropadan bizə lazım olan hər şeyi əldə edə bilərik".

Sovet hakimiyyəti qurulduqdan sonra Tağıyevin bütün müəssisələri milliləşdirildi. Ona Mərdəkandakı bağında yaşamağa icazə verildi. N.Nərimanov Azərbaycan sovet hökumətinə rəhbərlik etdiyi dövrdə və sonra Moskvada fəaliyyət göstərdiyi zaman H.Z.Tağıyevə xeyirxah münasibət bəsləmiş, onu bolşevik hakimiyyətinin təhqiramiz tədbirlərindon qorumuşdur. Tağıyevin vəfatı münasibətilə "Kommunist" qəzetində (1924, 13 sentyabr) nekroloq verilmişdi. Tağıyev öz vəsiyyətinə görə Mərdəkandakı bağından 200-300 metr məsafədə yerləşən, tikintisi onun adı ilə bağlı olan Axund Əbuturab məqbərəsində dəfn edilmişdir. Tağıyevin vəfatından sonra ailəsinin məşəqqətli günləri başlamış. onun adı qatı sinfi düşmənçilik mövqeyindən hallandırılmışdır. Tağıyevin qızı Sara xanım bu münasibətlə barışmayaraq. "H.Z.Tağıyevin maarifçi fəaliyyəti", "H.Z.Tağıyevin Azərbaycan xalqının mənəvi mədəniyyətinin inkişafında mütərəqqi rolu" mövzularında müstəqil araşdırma aparmış, lakin sovet hakimiyyəti dövründə rəsmi etirafa nail ola bilməmişdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra H.Z.Tağıyevin tarixi xidmətləri layiqli qiymətini almışdır.

Adına qəsəbə, küçə, məktəb və müəssisələr vardır. 1993 ildə "Hacı Zeynalabdin Tağıyev xatirə mərkəzi" təsis edilmişdir. Mərkəz hər il sentyabrın 1-də xatirə gününü, yanvarın 25-də isə təvəllüd gününü qeyd edir. "İnsanlığa

downloaded from KitabYurdu.az

xeyirxahlıq və fəzilət nümunəsi, sərvət və səxavət sahibi Hacı Zeynalabdin Tağıyev" media mükafatı diplomu (1993) onun şərəfinə təsis edilmişdir.

*Əd.:* Nərimanov N., Hacı Zeynalabdin Tağıyevin əlli illik məişəti və cəmiyyətə xidmətləri, B.. 1900; Talıbzadə A.Y., Sərvət və səxavətlə məşhur cənab Hacı Zeynəlabidin Tağıycvin tərcümeyi-əhvali. B., 1993; Hacı Zeynalabdin Tağıyev, B.. 1993; İsmayiləv M., İbrahimov M., El atası, B.. 1993; Nağı Şeyxzamanlının xatirələri, B., 1997; Əhmədova F., Hacı Zeynalabdin Tağıyev: tarixi qayıdış, "Azərbaycanın Tarixi Muze-yi-80" toplusu, B., 2001; Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin xəbərləri. 4-cü buraxılış. B.. 2003; Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004;

**TAHİRZADƏ** Abdulla Mahmud oğlu (1896, Oğuz rayonunun Xaçmaz k. - 2.11.1978, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. İlk təhsilini Ağdaşda, orta təhsilini İstanbulda xeyriyyə məktəbində almışdır. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün İstanbul Universitetinə (Türkiyə) göndərilmişdir. İstanbulda Ali İqtisad Məktəbində və İstanbul Universitetinin riyaziyyat fakültəsində oxumuşdur. 1923 ildə vətənə dönmüş, Azərbaycanın orta ixtisas və ali məktəblərində müəllim işləmişdir. 1949 ildə repressiyaya məruz qalmış, 5 il müddətinə islah-əmək düşərgəsinə göndərilmişdir. 1953 ildə azad edilmiş, 2 il Canbulda (Qazaxıstan) müəllim işləmişdir. 1955 ildə boraət almışdır. Həmin ildən Azərbaycan Neft və Kimya İsti-tutunda (indiki Neft Akademiyası) dərs demişdir.



**TALIBZADƏ** Axund Yusif Mustafa oğlu (20.1.1877, Tiflis- 18.5.1922) - maarif xadimi. Abdulla Şaiqin böyük qardaşıdır. Tiflisdə Cənubi Qafqaz şiə məzhəbi ruhani idarəsinin nəzdində üçüncü dərəcəli məktəbdə oxumuş, xüsusi müəllimdən ilahiyyat elmlərini öyrənmişdir. 1893 ildə təhsilini tamamlamaq üçün Məşhəd (İran) şəhərinə getmiş. dini fənləri öyrənmişdir. 1900 ildə Tiflisdə "axundluq" dərəcəsinə imtahan vermiş, Zaqafqaziya Ruhani İdarəsində qazı, vaiz, müdərris və pişnamaz işləmək hüququ almışdır. Tiflisdəki Şah Abbas məscidinə axund təyin olunmuş, lakin Hacı Zeynalabdin Tağıyev tərəfindən Bakıya dəvət olunduğundan vəzifəsini icra edə bilməmişdir. 1900 ildən rus-müsəlman məktəblərində müəllim işləmişdir. 1910 ildə Türkiyəyə köçmüş, burada hərbi təhsil almış, Birinci dünya müharibəsində (1914-18) Qars-Ərdəhan cəbhəsində vuruşmuşdur. 1918 ilde Nuru paşanın başçılıq etdiyi Türkiyə Ordusu sıralarında Bakıya qayıtmış, "Müsavat" partiyasının üzvü olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin mədəni quruculuq işlərində fəal iştirak etmiş, maarif nazirliyinin nəzdində əlifba islahatı komissiyasının üzvü seçilmişdir. Bir sıra məsələlərdə Cümhuriyyət rəhbərləri ilə razılaşmayan Talıbzadə yenidən Türkiyəyə qayıtmışdır.



1921 ildə Naxçıvanda hərbi komissar olmuş, 1922 ildə Orta Asiyada Qızıl orduya qarşı vuruşan basmaçılara rəhbərlik etmişdir.

Talıbzadə islam dininə, dilçiliyə, təlim-tərbiyəyə dair "Müəllimüş-şəriə", "Təəllümüş-şəriə", "Həqiqəti-islam", "Hədiyyeyi-nisvan", "Tərtibibeyti-islam", "Türk lisanında sərf və nümunələr", "İslam tarixi və tarixi ənbiyaya dair məkanlarının nəqşəsi və islam məmləkətlərinin xəritəsi" və s. elmi əsərlərin müəllifidir. "Şərqi-rus", "Həyat", "İrşad", "Tərəqqi", "İqbal", "Füyuzat", "Azərbaycan" və s. dövri nəşrlərdə dini, ictimai-siyasi mövzularda, ədəbiyyata və maarifə dair məqalələr dərc etdirmişdir. Nəriman Nərimanovun "Nadir şah" tarixi faciəsini fars dilinə çevirmişdir. "Əmir Xalid ibn Valid" adlı tarixi faciəsi var. "Sərvət və səxavətlə məşhur cənab Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-halı" əsərinin müəllifidir.

*Əd.:* "Azərbaycan arxivi" jurnalı, 1985, Talıbzadə K.,Axund Yusif Talıbzadə, "Odlar yurdu" qəzeti, 1992, 10-17 sentyabr.

**TALIŞİNSKİ** Xəlil bəy Mirəlixan oğlu (1859, Tiflis - ?) -hərbi xadim. Çar ordusu sıralarında xidmətdə olmuş, Birinci dünya müharibəsində (1914-[ 18) iştirak etmişdir. Nümunəvi xidmətinə görə ona general-mayor rütbəsi verilmişdir. 1917 ilin dekabrında *Müsəlman korpusunda* 1-ci atıcı diviziyanın komandiri təyin edilmişdi. Diviziyanın 1-ci alayının təşkili ilə əlaqədar X.Talışinski 1918 il fevralın 24-də rəhbərlik etdiyi qərargahın zabitləri ilə Bakıya gəlmişdi. Milli hərbi qüvvələrin formalaşmasına maneçilik törədən bolşeviklər və erməni-daşnak hərbi qüvvələri X.Talışinskini və zabitləri dəmir yolu vağzalında həbs etmişdilər. Bu hadisə xalq kütlələrinin geniş narazılığına səbəb olduğundan onlar Talışinskini və onun zabitlərini azad etməyə mocbur oldular. X.Talışinski və ətrafındakı zabitlər alayın təşkili ilə əlaqədar Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi *"İsmailiyyə"* binasında fəaliyyətə başladılar. Sonradan Bakıda hərbi vəziyyətin mürəkkəbləşməsi ilə əlaqədar X.Tahşinski korpus komandirinin əmrinə əsasən, şəhəri tərk etdi. Müsəlman korpusu *Əlahiddə Azərbaycan korpusuna* çevrildikdən sonra X.Talışinskinin fəaliyyəti barədə məlumat aşkar olunmamışdır.

*Əd.:* Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995; Süleymanov M,, Azərbaycan ordusu (1918-1920), B., 1998.

downloaded from KitabYurdu.az

**TARİX MUZEYİ,** Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Tarixi Muzeyi - Azərbaycan tarixinin qədim dövrlərdən bu günədək inkişafını əks etdirən maddi və mənəvi mədəniyyət abidələrinin toplanılması, saxlanılması, öyrənilməsi, nümayişi və təbliği ilə məşğul olan elmi tədqiqat və mədəni-maarif müəssisəsi. 1919 il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ildönümü münasibətilə Parlament binasında açılmış *"İstiqlal"* muzeyinin əsasında yaradılmış. 1936 ilədək Azərbaycanın Dövlət Muzeyi adlarmış, həmin vaxtdan Azərbaycan Tarixi Muzeyi kimi fəaliyyət göstərir.

Onun fondlarında "İstiqlal" muzeyinin, 1919 il sentyabrın 1 -də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən təsis edilmiş "Bakı Dövlət Universitetr"nin, "Azərbaycan Dövlət Teatrı"nın (1918-19) möhürləri, Parlamentin açılışına (1918.7 dekabr) həsr olunmuş xatirə medalyonları, Cümhıriyyətin ilk ordeninin - "İstiqlal"' ordeninin layihəsi saxlanılır. Muzeyin ən zəngin fondlarından olan numizmatika fondunda Cümhuriyyət dövründə tədavülə buraxılan kağız pullar (əsginas) və qiymətli kağızlar, eləcə də orden, medal, xatirə nişanları, poçt markaları və s. realiyalar qorunmaqdadır. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti 1919 ilin əvvəllərindən dövlətin ən mühüm atributlarından sayılan kağız pullar buraxmağa başladı. 1919 il ərzində 25, 50, 100, 250 manatlıq kağız pullar buraxıldı. 1920 ilin əvvəllərində dövriyyəyə daxil olmuş ən iri nominalın -500 manatlıq əsginasın üzərində Azərbaycan Xalq Cümhuriyyətinin və nominalın adı Azərbaycan, rus və fransız dillərində verilmişdir. Fondda 1919 il avqustın 20-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin icazəsi ilə Bakı bə-lədiyyə idarəsi tərofindon buraxılmış. hər biri 500 manat olmaqla, 100 min ədəd faizsiz və hərəsi 50 bilet olmaqla, 2 min seriyaya bölünmüş 550 milyon manatlıq uduşlu istiqrazlar. Şərq naxışları və müxtəlif rəmzlərlə bəzədilmiş 10, 20, 40, 60 qəpiklik, 1, 2, 5. 10. 25, 50 manatlıq markalar vardır.

Muzeyin fondlarında Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimlərinin, milli istiqlal hərəkatının fəal iştirakçılarının fotoşəkilləri, onların ailə üzvlərindən alınmış eksponatlar (məktublar, sənədlər, xatirələr və s.). Cümhuriyyət Hökuməti tərəfindən ali təhsil almaq üçün xarici ölkələrə göndərilmiş tələbələrin foto şəkilləri, bəzi şəxsi işləri. onların sonrakı taleləri haqqında sənədlər mühafizə olunur. Son illərdə muzeyə bağışlanmış Əlağa Şıxlinskiyə, Əlimərdan bəy Topçubaşova məxsus sənəd, foto, əşya və məktublar, Məhəmməd Əmin Rəsulzadənin həyat yoldaşı ilə birlikdə mühacirotdə olarkən öz əlləri ilə hazırladığı üç-rəngli dövlət bayrağı onun ən dəyərli eksponatlarındandır. Cümhuriyyətin süqutu ilə fəaliyyətini dayandırmış "İstiqlal" muzeyindən 1920 ildə təşkil edilmiş Dövlət Muzeyinə

**Azərbaycan Tarixi Muzeyinin binası (H.Z.Tağıyevin mülkü. Şəxsi albomundan)**



downloaded from KitabYurdu.az



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tarix Muzeyində. 2004, 30 dekabr

təhvil verilən çox qiymətli materiallar - İstiqlal bəyannaməsinin əsli, parlamentin protokolları, müxtəlif dövlət sənədləri, Cümhuriyyətin üçrəngli bayrağı, ayn-ayn hərbi hissələrin bayraqları və s. 20 əsrin 20-ci illərinin sonlarında Moskvada yaradılan İnqilab Muzeyinin daimi ekspozisiyasına verilmişdir. Tarix Muzeyində qorunan bir sıra qiymətli eksponatlar Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsində mühüm mənbədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Tarixi Muzeyində olmuş (2004, 30 dekabr), xalqımızın maddi-mədəni sərvətlərinin, milli irsinin toplayıcısı, qoruyucusu və gələcək nəsillərə ötürücüsü olan Tarix Muzeyində müasir dünya muzeyləri səviyyəsində bərpa və yenidənqurma işlərinin aparılması. həmçinin məşhur Azərbaycan milyonçusu-xeyriyyəçisi, maarifpərvər Hacı Zeynalabdin Tağıyevin mülkü olmuş həmin binada onun xatirəsinə həsr edilən ev-muzeyi yaradılması barədə göstəriş vermişdir.

*Əd.:* Azərbaycan Tarixi Muzeyi 80. B.. 2001; Azərbaycan Tarixi Muzeyi-2002. B. 2002; Azərbaycanın Tarixi Muzeyi-2003. B.. 2003; Azərbaycan Tarixi Muzeyi-2004, B.. 2004.

**TATAR SÜVARİ ALAYI** - Azərbaycan ordusu süvari diviziyasının tərkibində hərbi hissə. Tatar süvari alayı hələ Birinci dünya müharibəsi (1914-18) dövründə təşkil edilmiş *"Dikaya diviziya* "nın tərkibində yaradılmışdı. Əsasını azərbaycanlı süvarilər təşkil edirdilər. "Dikaya diviziya" ləğv edildikdən sonra alayın döyüşçüləri Azərbaycana döndülər və *Müsəlman korpusıt* formalaşdırılanda yenidən onun tərkibində yaradılan Tatar süvari alayının əsasını təşkil etdilər. Gürcü knyazı polkovnik Maqalov bir müddət bu alayın komandiri oldu. Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra rəhbərliyində dəyişiklik baş verən Tatar süvari alayı *Qafqaz İslam Ordusunun* hissələri ilə birlikdə Azərbaycan ərazisinin bolşevik-daşnak qoşunlarından təmizlənməsində fəal iştirak etdi. Hərbi Nazirlik bərpa ediləndə polkovnik İ.Hacıbəylinski Tatar süvari alayının komandiri idi. Səməd bəy *Mehmandarov* hərbi nazir kimi qoşun hissələri ilə tamşlığa Tatar süvari alayından başlamışdı.1918 il dekabrın 28-də polkovnik İ.Hacıbəylinskinin xidmətdən istefaya çıxması ilə bu vəzifədə onu polkovnik Fərhad Ağalarov əvəz etdi. 1919 ilin aprelində polkovnik Ağalarov da başqa vəzifəyə keçməsi ilə əlaqədar Tatar süvari alayının komandiri vəzifəsindən azad edildi. Sonralar Tatar süvari alayma polkovnik Teymur Novruzov, polkovnik Nuh bəy Sofıyev, podpolkovnik Tongiyev komandirlik etmişdilər. Digər süvari alayları kimi, Tatar süvari alayının da tərkibində üç süvari bölüyü, pulemyot bölüyü, təlim və rabitə komandaları vardı. Alaym ştatı

downloaded from KitabYurdu.az

20 zabitdən, 7 məmurdan. 620 əsgərdən və 29 muzdlu sıravidən ibarət idi. Alayın bölmələri Qarabağ və Gəncədə sovet-bolşevik işğalına qarşı xalq üsyanlarında da iştirak etmişdilər.

*Aprel işğalından (1920)* sonra Azərbaycan ordusunun digər hissələri kimi Tatar süvari alayı da ləğv edildi.
**TEXNİKİ CƏMİYYƏT** - neft sənayesinin inkişafına, həmçinin Bakı quberniyasının və ətraf vilayətlərin təbii sərvətlərinin öyrənilməsinə yardım məqsədilə yaradılmış qurum. 1879 il martın 24-də təsis edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə də fəaliyyətini davam etdirmişdir. 1920 ilin məlumatına görə, 280 üzvü var idi. Cəmiyyətin tərkibində "Bakı texniki cəmiyyəti" jurnalının redaksiyası, kimyovi laboratoriya, texniki kitabxana və oxu zalı, fəhlələr üçün texniki kurslar, muzey fəaliyyətgöstərirdi.

**TELEQRAF AGENTLİYİNİN TƏSİS OLUNMASI BARƏDƏ QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə müstəqil teleqraf agentliyinin yaradılması ilə bağlı qəbul olunmuş hökumət sənədi. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il 3 mart tarixli qəraπ ilə Xalq Maarifı Nazirliyinə Azərbaycan Teleqraf Agentliyinin təşkil edilməsi tapşırıldı. Xalq Maarifi Nazirliyi yanında fəaliyyət göstərən agentlik sonralar Poçt və Teleqraf Nazirliyinin sərəncamına verilmiş, 1919 ilin avqustundan isə müstəqil fəaliyyətə başlamışdı (bax *Azərbaycan Teleqraf Agentliyi).*

**TEYMURXANOV** Murad Zabir oğlu (3.1.1899, Dağıstan - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesaba almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdir (1918). Parlamentin "Azərbaycan vətəndaşlığı haqqında" 1919 il 11 avqust tarixli qanununun 6-cı maddəsinə əsasən, Azərbaycan vətəndaşlığını qəbul etmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən. təhsilini nəqliyyat sahəsində davam etdirmək üçün Karlsruhe şəhərinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında Temurxanovun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.



**TƏBƏƏLİK** - şəxsin və ya fərdin bu və ya digər dövlətə mənsubiyyətini bildirən anlayış. Adətən, mütləqiyyət idarə formasında olan dövlətlərdə tətbiq olunur (bax *Vətəndaşlıq).* Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918 il 23 avqust tarixli qərarı ilə Azərbaycan təbəəliyi haqqında 5 bənddən ibarət Əsasnamə təsdiq olunmuşdu. Əsasnamənin 1-ci maddəsinə görə 1914 il iyulun 19-dək Cümhuriyyətin o zamankı ərazisində hər hansı inzibati vahidə və ya silki birliyə daxil olan bütün şəxslər, həm Cümhuriyyət, həm də xaricdəki Azərbaycan təbəələrindən doğulanlar. Cümhuriyyət ərazisində 5 ildən az olmayaraq yaşayan xarici təbəələrin uşaqları Azərbaycan Xalq Cümhuriyyətinin təbəələri hesab olunurdular. 2-ci maddəyə görə, xarici təbəə Azərbaycan təbəəsi ilə nikah bağladıqda Cümhuriyyətin təbəəsi hesab olunurdu. 3-cü maddədə göstərilirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin təbəəsi, eyni zamanda, digər dövlətin təbəəsi ola bilməz.

4-cü maddə ilə Azərbaycan Xalq Cümhuriyyətində bütün siyasi hüquqlardan (mərkəzi qanunvericilik təsisatlarına, yerli özünüidarə orqanlarına və s. seçkilər zamanı aktiv və ya passiv hüquq) yalnız respublika təbəələrinin istifadəsi təsbit olunurdu. Xarici təbəələrin Azərbaycan Xalq Cümhuriyyəti təbəəliyinə qəbulu, eyni zamanda, Azərbaycan təbəəliyinin itirilməsi xüsusi qanunla müəyyən edilməli idi (5-ci maddə). Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin "Azərbaycan vətəndaşlığı haqqında" 11 avqust 1919 il tarixli qanununun dördüncü bölməsində Azərbaycan Cümhuriyyəti təbəəliyi haqqında Əsasnamə ləğv edilmişdir.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). c.l. B.. 1998; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**TƏFTİŞ-İSTİNTAQ KOMİSSİYASI,** müxtəlif idarələrdə cinayətlərin vəsui-istifadə hal-larının təhqiqatı üzrə xüsusi təftiş-istintaq komissiyası - Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yanında fəaliyyət göstərən xüsusi qurum. 1918 il iyulun 27-də yaradılmışdı. Təftiş-istintaq komissiyasının səlahiyyətlərinə bütün hökumət idarələrindən və vəzifəli şəxslərdən, eləcə də məhkəmə orqanlarından. həmçinin ictimai qurumlardan, Hökumət. ictimai və ya özəl maliyyə, o cümlədən kredit təsisatlarından istənilən zəruri məlumatları və sənədləri tələb etmək, bütün vəzifəli və özəl şəxslərdən bilavasitə izahat almaq və s. daxil idi. Komissiyaya bütün vəzifəli və digər şəxslərə qarşı cinayət işi qaldırmaq, istintaq aparmaq və s. hüquqlar verilmişdi. Komissiyamn tərkibi sədrdən və səkkiz üzvdən ibarət idi. Onlar Ədliyyə Nazirliyinin toqdimatı osasmda hökumotin qərarı ilə təyin edilirdi. Komissiyanın kargüzarlıq işləri onun sədri tərəfindən üzvlərdən birinə tapşırılırdı. Komissiyanın fəaliyyəti üçün hökumətin fonduna iyirmi milyon rubl pul keçirilmişdi (sonradan həmin vəsait Ədliyyə Nazirliyinin 1918-19 illər üçün smetasına daxil edilməli idi).

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**TƏKİNSKİ** Məmməd xan (? - ?) - dövlət xadimi. Azər-baycan Fövqəladə İstintaq Komissiyasımn üzvü olmuş (1918, iyul-dekabr). 1919 il yanvarın 29-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Ermənistanda diplomatik nümayəndəsi təyin edilmişdi. Təkinskinin ermənilərin keçmiş İrəvan quberniyasının türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklərin qarşısınm alınmasında, azərbaycanlı qaçqmların problemlərinin həllində xidmətləri olmuşdur. O, Naxçıvan mahalında "erməni idarəçiliyi"nə son qoyulması məsələsinin zəruriliyini

downloaded from KitabYurdu.az

dəfələrlə Ermənistandakı beynəlxalq missiyalarının qarşısında qaldırmış, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini bu işə fəal müdaxilə etməyə çağırmışdır. Təkinskinin fəal diplomatik mövqeyindən narazı qalan Ermənistanın daşnak hökuməti müxtəlif bəhanələrlə onun geri çağırılmasına nail olmuşdu. 1919 ilin oktyabrından 1920 il aprelin 28-ə qədər xarici işlər nazirinin müavini vəzifəsini icra etmişdir.

**TƏLƏT PAŞA** (1874-15.3.1921, Berlin) - Türkiyə siyasi və dövlət xadimi. *"İttihad və Tərəqqi"* partiyasının təşkilatçılarından, liderlərindən biri və sədri olmuşdur. 1908 ildə Ədirnədən millət vəkili və Məclisi-Məbusasında birinci rəis vəkili seçilmişdi. 1909 ildə daxili işlər nazirliyində məsul vəzifə tutmuş, bir müddət sonra poçt və teleqraf naziri, 1913 ildə isə daxili işlər naziri olmuşdur. 1917 il fevralın 4-də, paşa rütbəsi S. I verilməklə, baş nazir vəzifəsinə təyin edilmişdir. Tələt paşa Qafqazda, o cümlədən Azərbaycanda gedən prosesləri yaxından izləyir və Azərbaycanda milli azadlıq hərəkatının güclənməsinə mümkün olan yardımları göstərirdi. 1918 ilin əvvəlində Azərbaycan milli azadlıq hərəkatının İstanbula gəlmiş nümayəndə heyəti ilə görüşmüş və hərbi nazir *Ənvər paşa* ilə birlikdə Azərbaycana hərbi yardım göstərilməsi yollarını müzakirə etmişdi. Bu müzakirələrin nəticəsi kimi *Nuru paşanın* rəhbərliyi ilə Azərbaycana hərbi yardım göstərilmişdi. Müttəfiqi Türkiyənin regiondakı siyasəti ilə razılaşmayan və *Qafqaz İslam Ordusunun* Bakıya yürüşünün qarşısını almağa çalışan Almaniya 1918 il avqustun 27-də Rusiya ilə saziş imzaladı. Həmin sazişə əsasən, Almaniya bütün təzyiq vasitələrindən istifadə etməklə, türk hərbi qüvvələrinin Bakıya yaxınlaşmasına yol verməməli idi. Bu sazişin təsrinin zəiflədilməsi və Almaniyanın Azərbaycanın istiqlaliyyətinə münasibətinin dəyişdirilməsi üçün Tələt paşa 1918 il sentyabrın 6-da Berlinə gedərək, Almaniyanın hökumət rəsmiləri ilə danışıqlar apardı və iki ölkə arasında imzalanması arzu edilən saziş layihəsi təqdim etdi. Bu layihədə Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, Bakının azad edilərək, Azərbaycanın paytaxtına çevrilməsi haqqında müddəalar da var idi. Almaniya tərəfi Rusiya ilə məsləhətləşmələrdən sonra bu layihəni qəbul etmədi. Birinci dünya müharibəsinin sona yetməsi Tələt paşanın Almaniya ilə danışıqları davam etdirməsinə imkan vermədi (bax, həmçinin *Tələt paşa-İoffe danışıqları).*

1918 il noyabrın 1-də gizli şəkildə ölkəni tərk edərək Berlinə gələn və ömrünün qalan hissəsini mühacirətdə keçirən Tələt paşa Teyleryan adlı erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir.

*Əd.:* Süleymanov M.. Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999.

**TƏLƏT PAŞA-İOFFE DANIŞIQLARI** - Osmanlı hökumətinin başçısı Tələt paşanın 1918 il sentyabrın 6-24-də Almaniyaya rəsmi səfəri gedişində sovet Rusiyasının Almaniyadakı səlahiyyətli nümayəndəsi A.A.İoffe ilə Qafqazdakı hərbi-siyasi vəziyyətə dair danışıqları. Tələt paşanın Almaniyanın rəsmi nümayəndələri ilə danışıqlarından bu ölkənin yalnız



sovet Rusiyasının qəbul edəcəyi şərtləri məqbul sayacağı aydın olmuşdu. Azərbaycan-Osmanlı hər-bi qüvvələrinin sentyabrın 15-də Bakını azad etməsindən sonra sovet Rusiyası sentyabrın 20-də Osmanlı dövlətinə nota verərək, Brest-Litovsk müqaviləsinin ona aid olan müddəalarının qüvvədən düşdüyünü bildirmişdi. Müəyyən səbəblərdən İstanbula çatdırılmamış nota barəsində Rusiyanın rəsmi dövlət qəzeti "İzvestiya" vasitəsilə xəbər tutan Osmanlı dövlətinin Berlindəki rəsmi nümayəndələri Tələt paşanın Almaniyada səfərdə olmasından istifadə edərək, vəziyyəti buradakı sovet nümayəndəsi ilə müzakirə etmək qərarına gəldilər. Əslində, İoffenin Osmanlı dövlətinin təkliflərinə münasibəti sentyabrın 11 -də onun Almaniya Xarici İşlər Nazirliyinin məsul şəxslərindən olan doktor Krige ilə görüşündə ortaya qoyulmuşdu. Sovet nümayəndəsi Osmanlı dövlətinin Cənubi Qafqazdakı milli hakimiyyətlərlə imzaladığı sülh müqavilələrini beynəlxalq hüquqa zidd akt kimi qiymətləndirərək, bu ərazinin yenə də sovet Rusiyasına məxsus olduğunu bildirmişdi. Onun fikrincə, Rusiya ilə Osmanlı dövləti arasında bir Qafqaz dövlətinin qurulması sovet Rusiyası hökuməti üçün məqbuldur. Lakin Şimali və Cənubi Qafqaz müsəlmanlarının bir dövlət halında birləşdirilməsi yolverilməzdir. Senryabnn 21-dəki görüşdə Tələt paşa Türkiyənin Rusiya ərazisini ilhaq etmək niyyətində olmadığını və Bakı məsələsinin sülh yolu ilə həll edilməsini istədiyini açıqlamışdı. Bakı üzərinə yürüşdə rəsmi Türkiyənin və nizami hərbi qüvvələrin iştirakını inkar edən Tələt paşa Nuru paşanın rəsmi və bu işə səlahiyyətli şəxs olmadığını bildirdi.

Tələt paşa ilə sentyabrın 22-dəki görüşündə İoffe bir sıra "dəlillər" gətirərək, türkləri Brest-Litovsk müqaviləsinin şərtlərini mütəmadi olaraq pozmaqda suçladı, axırda isə Bakının türklər tərəfindən tutulmasının sovet Rusiyasının səbrini tükəndirdiyini bəyan etdi. Bunun müqabilində Tələt paşa Türkiyənin Qafqaz işlərinə heç bir tərzdə qatılmayacağına dair yazılı zəmanət verməyə hazır olduğunu bildirdi. Tələt paşanın danışıqlarda mülayim mövqeyi müharibənin Türkiyə üçün arzuolunmaz halda başa çatmasının yaxınlaşdığını və Türkiyənin Qafqazdakı siyasətinin Almaniya tərəfindən müdafiə olunmadığını yəqin etməsi ilə bağlı idi. O, bütün türk hərbi qüvvələrinin Qafqazdan dərhal geri çəkilməsinə və Türkiyənin Rusiya ilə münasibətlərinin sülh şəraitində qurulmasına hazır olduğunu bəyan etdi. Sovet Rusiyasının xalq xarici işlər komissarı G.Çiçerin sentyabrın 22-də türklərin Bakını Sovet hakimiyyətinə təhvil vermələri barədə şərt qoymağı İoffeyə tapşırdı.

Sentyabrın 24-dəki görüşdə İoffe nəinki Bakının Sovet hakimiyyətinə təhvil verilməsinin, həmçinin dəymiş zərərin Türkiyə tərəfindən ödənilməsinin zəruriliyini bildirdi. Tələt paşa isə bu şərtləri rədd edərək, Türkiyənin öz qüv

downloaded from KitabYurdu.az

ələrini yalnız Brest-Litovsk müqaviləsi ilə müəyyənləşdirilmiş xətdən geri çəkməyə hazır olduğunu və Qafqaz xalqlarının daxili işlərinə qarışmayacağını bəyan etdi. Osmanlı dövlətinin hərbi-siyasi vəziyyətinin pisləşməsi ilə bağlı Tələt paşamn sentyabrın 24-də İstanbula qayıtmasından sonra danışıqlar Berlindəki Osmanlı səfiri Rüfət paşa ilə İoffe arasında davam etdirildi. Bolqarıstanın məğlub olaraq, müharibədən çıxmasını nəzərə alan sovet Rusiyası oktyabrın əvvəllərində tələblərini daha da sərtləşdirdi və hərbi əməliyyatlar zamanı dəymiş zərərin ödənilməsini Osmanlı dövlətindən tələb etdi.

1918 ilin oktyabrında Türkiyənin beynəlxalq vəziyyətinin pisləşməsi və bununla bağlı olaraq daxili-siyasi gərginlik, həmçinin sovet Rusiyasının ifrat tələbləri Berlin damşıqlarının dayandırılması ilə nəticələndi.

*Əd.:* Həsənov C, Azerbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Akdes Nimət Kurat, Türkiyə və Rusiya, Ankara. 1990.

**TƏRTƏR ÜSYANI (1920)** - Azərbaycanda *Aprel işğalına (1920)* qarşı ilk kütləvi silahlı üsyan. Mayın 21-23-də baş vermişdir. Üsyan mayın 21-də yerli əhalidən olan silahh dəstənin Tərtərdəki sovet bölmələri və Tərtəri tərk edən Qırmızı ordu alayı üzərinə silahlı hücumu ilə başladı. Qırmızı ordu bölmələri üsyançı qüvvələrin qarşısını ala bilmədi və 80 nəfərə yaxın itki verərek, qaçmağa məcbur oldu. Qırmızı alaym komandiri də öldürüldü. Üsyanm genişlən-məsinin qarşısını almaq üçün dərhal tədbirlər görüldü. Bir tərəfdən, Dadaş Bünyadzadə və Çingiz İldınm Tərtərə gəlib, əhalini sovet rejiminə müqavimətdən çəkindirməyə çalışdılar, digər tərəfdən isə bölgəyə əlavə hərbi qüvvələr gətirildi və Tərtər ətrafında Qırmızı ordu hissələrinin qüvvə üstünlüyü yaradıldı. Bununla, Tərtər ətrafında vəziyyəti müvəqqəti sakitləşdirmək mümkün oldu. Lakin Qarabağ üsyanınm başlaması ilə Tərtərdə xalq hərəkatı yenidən gücləndi.

**TİCARƏT-SƏNAYE İTTİFAQI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət təşkilatı (bax *Bakı Sənaye-Ticarət İttifaqı).*

**TİCARƏT, SƏNAYE VƏ ƏRZAQ NAZİRLİYİ** Azərbaycan Xalq Cümhuriyyəti ilk hökumətinin (1918, 28 may - 1918,17 iyun) nazirliklərindən biri. İlk ticarət və sənaye naziri Məmməd Yusif Cəfərov təyin olunmuşdu.

Azərbaycan Milli Şurası və Cümhuriyyet hökuməti Gəncəyə köçdükdən sonra burada iyunun 17-də Fətəli xan Xoy-skinin təşkil etdiyi 2-ci hökumət kabinəsində (1918, 17 iyun - 1918, 7 dekabr) Ticarət və Sənaye Naziri vəzifəsini Ağa bəy Aşurov tutdu. Hökumət Bakıya köçdükdən sonra oktyabrın 6-da 2-ci hökumət kabinəsində dəyişikliklər zamanı ticarət və sənaye naziri vəzifəsi Behbud xan Cavanşirə həvalə olundu. F.x.Xoyskinin təşkil etdiyi 3-cü hökumət kabinəsində (1918,26 dekabr - 1919, 14 mart) ticarət və sənaye naziri vəzifəsinə Mirzə Əsədullayev təyin edildi. 1919 il aprelin 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü hökumət kabinəsində isə ticarət və sənaye naziri vəzifəsi Ağa Əminova tap-şınldı. N.Yusifbəylinin başçılıq etdiyi 5-ci hökumət kabinəsində (1919,24 dekabr- 1920, 30 mart) ticarət, sənaye və ərzaq naziri vəzifəsini əvvəlcə Xudadat bəy Məlik-Aslanov, sonra isə Məmməd Həsən Hacınski tutmuşdular.

Geniş və çoxşaxəli funksiyaları yerinə yetirən Ticarət, Sənaye və Ərzaq Nazirliyinin fəaliyyəti müxtəlif şöbələr arasında bölünmüşdü. Həmin şöbələrin hazırladığı məsələləri ümumiləşdirmək və həll etmək məqsədilə Nazir Şurası yaradılmışdı.

Nazir Şurası nazirliyin Əsasnaməsində nəzərdə tutulan bir çox məsələlərə baxaraq, onları həll edirdi. Nazirin həllini vacib saydığı və ümumi müzakirə tələb edən bir sıra məsələlər də şuranın müzakirəsinə verilirdi. Nazir Şurasma nazir, onun müavini (nazir olmadıqda şuraya sədrlik etmək səlahiyyəti ona verilirdi), nazirin baş müvəkkilləri, dəftərxananın direktoru, mərkəzi idarələr yanındakı müvəkkillər, hüquq, ərzaq, maliyyə və ticarət şöbələrinin müdirləri, Maliyyə, Yollar, Dövlət Nəzarəti nazirliklərinin, Neft Sənayesi İşçiləri Qurultayı Şurasının, Birja Komitəsinin, Ticarət-Sənaye Şurasının, Nəqliyyat İttifaqları Cəmiyyətinin və kooperativ təşkilatlarının nümayəndələri daxil idi.

Nazirliyin şöbələri onlara həvalə olunmuş vəzifələri yerinə yetirirdilər. Ümumi şöbədə müfəttişliyə, inzibati idarə və məhkəmə sisteminə aid işlər, məktublaşmalar, Nazirlər Şurasına göndərilən məktub və məruzələr toplanırdı. Bu şöbəyə, habelə sənaye və ticarət məhsullarının gətirilməsi və aparılmasına dair qərar və sərəncamların verilməsi də həvalə olunmuşdu. Hüquq şöbəsi müxtəlif müqavilələr, iddia məktubları və s. kimi sırf hüquq xarakterli tapşırıqları yerinə yetirməklə bərabər, nazirlik sistemində qanunların tətbiqi, habelə nazirlikdə və tabe idarələrdə qanunvericilik aktlannın hazırlanması və s. məsələlərlə məşğul olurdu. Sənaye şöbəsi fabrik markalarını təsdiq edir, ixtiralar üçün patentlər verir, gəmilərin, qayıqlarını, neft daşıyan barkasların satışı və icarəyə verilməsi barədə, habelə torpaq sahələrinin alınması, icarəyə verilməsi və sahibkar-lıq hüququnun başqasına verilməsi məsələlərinə baxırdı. Statistika şöbəsi Azərbaycan dəmir yolu ilə daşman yüklərin qeydiyyatını aparır, ölkəyə gətirilən və ölkədən çıxarılan bütün mallar barədə məlumat toplayırdı. Ticarət şöbəsi hökumətin sərəncamları əsasında mallarını Azərbaycandan kənara aparılmasına icazə verirdi. Maliyyə şöbəsi isə nazirliyin özündə və onun səlahiyyətində olan təşkilatlarda maliyyə əməliyyatlarının aparılması işlərinə nəzarət edirdi. Ərzaq şöbəsi 1919 ilin axırlarında nazirliyin keçmiş satınal-ma, bölüşdürmə, nəzarət-müfəttiş və ekspeditor şöbələrinin birləşdirilməsi əsasında yaradılmışdı. Nazirliyin strukturunda fəaliyyət göstərmiş satınalma qurumu 1919 ilin axırlarında ölkədə ərzaq probleminin yaranması ilə əlaqədar olaraq intensiv surətdə taxıl tədarükü məsələsi ilə məşğul olurdu. Taxıl tədarükü, çox vaxt, mal mübadiləsi şəklində həyata keçirilirdi. Nazirlik daxili bazarla yanaşı, kənardan da mal alırdı. 1919 ilin axırlarında nazirliyin Batumda aldığı 50 min pud şəkər tozunu Bakı şəhəri və qəzalar arasında bölüşdürmək nəzərdə tutulurdu. Ərzağa və digər çox işlənən mallara tələbatda yaranan çətinlikləri aradan

downloaded from KitabYurdu.az

qaldırmaq məqsədi ilə nazirlik daxil olmuş mallardan ehtiyat fondu yaradırdı. Lazım gəldikcə, həmin mallar əhali və dövlət idarələrinin qulluqçuları arasında bölüşdürülürdü. Gətirilmiş ərzağı və əhalinin daha çox ehtiyacı olan çox işlənən malları almaq məqsədilə nazirlikdə gömrük təşkilatları ilə əlbir işləyən xüsusi qiymətqoyma komissiyası da yaradılmışdı. Gəncə, Zaqatala quberniyalarında, Qarabağ general-qubernatorluğunda nazirliyin səlahiyyətlərini nazirin həmin quberniyalardakı müvəkkilləri həyata keçirirdi. Ticarət, Sənaye və Ərzaq Nazirliyinin tabeliyində Bakı Quberniyası Fabrik Müfəttişliyi, Bakı Texnika Komitəsi, Dağ-Mədən İdarəsi. Bakı Yoxlama Çəki və Ölçü Palatası və başqa qurumlar fəaliyyət göstərirdi.

*Aprel işğalı {1920)* nəticəsində Ticaret, Sənaye və Ərzaq Nazirliyinin də fəaliyyətinə son qoyuldu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законддательные акты (сборник документов), Адрес-календарь *Азербаиджанской Республики* 1920 гг., Б., 1920.



*Narınqala. Tiflis yaxınlığında*

**TİFLİS** - Gürcüstan Demokratik Respublikasının (1918-21) paytaxtı. Gürcüstanın qədim mədəniyyət və siyasi mərkəzlərindən biri. Şəhərin meydana gəldiyi ərazi eradan əvvəl 4-3-cü minilliklərdə mühüm yaşayış məskənlərindən biri olmuşdur. Sonralar Şərqi Gürcüstanın iqtisadi mərkəzlərindən birinə çevrilmiş, 6 əsrdə Kartli çarlığının paytaxtı olmuşdur. Şəhərin tarixində Tiflis müsəlman əmirliyi dövrü (8 əsrin 30-cu illəri - 1122) böyük əhəmiyyətə malik olmuş, onun inkişafına güclü təkan vermişdir. Qurucu Davidin dövründə (1089-1125) Gürcüstanın paytaxtına çevrilmişdir. 14-18 əsrlərdə türk-islam dövlətlərinin nüfuz dairəsinə və tərkibinə daxil olmuşdur. Çar Rusiyasının işğallarından sonra Qafqazın əsas siyasi mərkəzinə çevrilmişdir. 1844 ildə Qafqaz canişinliyinin iqamətgahı olmuşdur. 1846 ildə eyni adlı quberniya yaradılmışdı (bax *Tiflis quberniyası).* 1917 il Qafqaz təqviminin məlumatına görə, Tiflisdə 346766 nəfər (179463 kişi, 167303 qadın) qeydə alınmışdı. Onlardan 171687 nəfəri yerli, 175079 nəfəri isə müvəqqəti yaşayanlar idi.

Müsəlmanlar şəhər əhalisinin 6%-dən çoxunu təşkil edirdi. Tiflis çar Rusiyasının süqutu və Cənubi Qafqazın imperiyadan ayrıldığı dövrdə bölgənin siyasi mərkəzinə çevrilmişdi. Xüsusi Zaqafqaziya Komitəsinin, Zaqafqaziya Komissarlığının və Zaqafqaziya Demokratik Federativ Respublikasının paytaxtı olmuşdur. Tiflisin tarixində azərbaycanlıların özünəməxsus yeri olmuş, 19-20 əsrin birinci qərinəsində azərbaycanlıların həyatında əsas siyasi, iqtisadi və mədəniyyət mərkəzlərindən biri rolunu oynamışdı. Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və b. Azərbaycan mütəfəkkirlərinin həyatında Tiflis dövrü mühüm yer tutmuş, Cəlil *Məmmədquluzadə* "Molla Nəsrəddin" jurnalının burada çap etdirməyə başlamışdır. 1905-06 illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları ilə əlaqədar sülh konfransı Tiflisdə keçirilmişdir. Zaqafqaziya dövlətçiliyi sistemində çalışan Azərbaycan siyasi və ictimai xadimləri Tiflisdə yaşamış və fəaliyyət göstərmişdilər (bax *Xüsusi Zaqafqaziya Komitəsi, Zaqafqaziya Komissarlığı, Zaqafqaziya Seymi, Zaqafqaziya Demokratik Federativ Respublikası).* Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında *İstiqlal bəyannaməsi* də Tiflisdə elan edilmiş, 1-ci hökumət kabinəsinin təşkili və ilk dövlətçilik tədbirləri burada həyata keçirilmişdir (bax *Azərbaycan Xalq Cümhuriyyəti).* Cümhuriyyətin Gürcüstan səfirliyi də Tiflisdə yerləşmişdi. Tiflis Azərbaycanın Xalq Cümhuriyyətinin beynəlxalq görüşləri (bax *Azərbaycan-Ermənistan münasibətləri),* iqtisadi və mədəni əlaqələrində xüsusi yer tutmuşdur. Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri M.Ş.Vazeh, M.F.Axundzadə, F.x.Xoyski və başqalarının məzarları Tiflisdədir.

*Şah İsmayıl məscidi. Rəssam Pirosmani*



*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законддательные акты (сборник документов), 1917 ; Hacıyev A., Tiflis ədəbi mühiti, B., 1980; Mişiyev A.. Azərbaycan yazıçıları və Tiflis ədəbi-ictimai mühiti, Tbilisi, 1987; Ordubadi M.S., Qanlı illər, B., 1991; квирквелия Т., Тбилиси. М„ 1969.

**TİFLİS QƏZASI** - Tiflis quberniyası tərkibində inzibati-ərazi vahidi. 1840 il 10 aprel qanunu ilə tətbiq edilən yeni inzibati-ərazi bölgüsünə əsasən yaradılan Gürcü-İmereti

downloaded from KitabYurdu.az

quberniyası tərkibində Tiflis qəzası təşkil olundu. 1846 ildə *Tiflis quberniyası* təsis edildikdə Tiflis qəzası onun tərkibinə verildi. 1917 il Qafqaz təqviminin məlumatına görə, Tiflis qəzasımn sahəsi 4004,08 *kv.verst* idi. Qəzada 174456 nəfər yaşayırdı, onların da 167981 nəferi yerli sa-kin, 6475 nəfəri müvəqqəti yaşayanlar idi. Qəza əhalisinin 104863 nəfəri (60,1%) kişi, 69593 nəfəri (39,9%) qadın idi. Tiflis qəzasında 33717 müsəlman (19,32%) yaşayırdı ki, onun əsas hissəsini azərbaycanlılar təşkil edirdi. Burada, digər qəzalarda olduğu kimi, qəza idarə sistemi mövcud idi. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra dövlət ərazisinin müəyyənləşdirilməsi sahəsində ciddi tədbirlər görülməyə başladı. Cümhuriyyət hökuməti Tiflis qəzasının 2-ci (Tiflis) və 3-cü (Qarayazı) polis sahələrini mübahisəli ərazilər sırasına daxil etmişdi (bax *Qarayazi)*. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra (1920, 28 aprel) Azərbaycan və Gürcüstanın sovetləşdirilməsi dövründə Tiflis qəzası bütünlükdə Gürcüstanın tərkibinə verildi.



*Narınqala. Tiflis yaxınlığında*

*Əd.:* Bax *Tiflis quberniyası* məqaləsinin ədəbiyyatına

**TİFLİS QUBERNİYASI** - Cənubi Qafqazda inzibati-ərazi vahidi. Çar Rusiyasının Gürcüstanı ələ keçirmək uğrunda mübarizəsi 19 əsrin başlanğıcmda başa çatdı. I Aleksandrın [1801-25] 1801 il 12 sentyabr manifesti ilə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Kartli-Kaxeti çarlığı ləğv edildi, Gürcüstan quberniyası yaradıldı. 1802 il mayın 8-də Tiflisdə Gürcüstamn ali hakimiyyəti adlandırılan yeni idarə sisteminin açılışı oldu. Keçmiş Kartli-Kaxeti çarlığı ərazisində Qori, Ləri, Duşeti, Telavi və Sığnaq kimi beş qəza yaradıldı. 1840 il 10 aprel qanunu ilə Cənubi Qafqazın inzibati-ərazi bölgüsü dəyişdirildi. Azərbaycanın bəzi ərazilərinin də daxil edildiyi Gürcü-İmereti quberniyası (Tiflis, Qori. Telavi, Balakən, Kutais, Yelizavetpol, Aleksandropol, İrəvan, Naxçıvan, Axalsıx, Quri qəzaları) və Kaspi vilayəti (Şirvan, Qarabağ, Şəki, Talış, Bakı, Dərbənd, Quba qəzaları) yaradıldı. 1846 ildə inzibati-ərazi bölgüsü yenidən dəyişdirildi. Gürcü-İmereti quberniyası və Kaspi vilayəti əsasında Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyaları təşkil edildi. 1917 il Qafqaz təqviminin məlumatına göre, Tiflis quberniyası Axalkalaki, Axalsıx, Borçalı, Qori, Duşeti, Sığnaq, Telavi, Tiflis, Tionet qəzalarına bölünürdü. Quberniyanın ümumi ərazisi 35904,04 *kv.verst* (40930, 6056 *kv.km)* idi. Quberniyada 1473308 nəfər əhali yaşayırdı. Hər *kv.verstə* 41,03 nəfər adam düşürdü. Onlardan 1255176 nəfəri yerli sakin, 218132 nəfəri müvəqqəti yaşayanlar idi. Əhalinin 780010 nəfəri (52,94%) kişi, 693298 nəfəri (47,06%) qadın idi. Tiflis quberniyası əhalisinin 1045638 nəfəri (70,97%) qəzalarda, 427670 nəfəri (29,3%) şəhərlərdə yaşayırdı. Tiflis quberniyası əhalisinin 106,5 min nəfərini (7,23%) azərbaycanlılar təşkil edirdi. Quberniya mərkəzi olan Tiflis şəhəri eyni zamanda Qafqaz (1844-81), sonralar isə Zaqafqaziya (Cənubi Qafqaz) administrasiyasının iqamətgahı idi. Quberniyanın iqtisadi həyatında kənd təsərrüfatı əsas yerruturdu, sənaye zəif inkişaf etmişdi. Tiflis quberniyası Birinci dünya müharibəsi (1914-18) dövründə *Qafqaz cəbhəsində* arxa cəbhə rolu oynayırdı. Burada 20 mindən çox ehtiyat əsgər və zabit, həmçinin Tiflis qarnizonu yerləşmişdi. Çar hökumətinin devrilməsindən sonra (1917, fevral) Tiflisdə sovetlər və Müvəqqəti hökumətin orqanları yaradılmağa başladı. 1917 il martın 4 (17)-də Tiflisdə fəhlə deputatları soveti, 5 (18)-də isə menşevik

*Şah Abbas məscidi. Tiflis, 17 əsr*



downloaded from KitabYurdu.az


Koroğlu qalası. Tiflis

N.N.Jordaniya başda olmaqla rəyasət heyəti seçildi. 6(19) martda Əsgər Deputatları Soveti təşkil olundu. Sovetlər 26 mayda (18 iyunda) formal olaraq birləşdilər. Sovetlərlə eyni dövrdə 6 (19) martda Tiflis İcraiyyə Komitəsi yaradıldı. Martın 9 (22)-də Müvəqqəti hökumətin bölgədə ali hakimiyyət orqanı olan *Xüsusi Zaqafqaziya Komitəsi* təşkil edildi. Müvəqqəti hökumətin devrilməsi və Petroqradda bolşeviklərin hakimiyyəti ələ almasından sonra [1917, 25 oktyabr (7 noyabr) yeni dəyişikliklər başlandı. 1917 il 25 oktyabrda (7 noyabrda) Tiflisdə İctimai Təhlükəsizlik Komitəsi (İTK) yaradıldı. 11 (24) noyabrda sovetlər, həmkarlar ittifaqı və başlıca siyasi partiyalar İTK-nı diyarda ali hakimiyyət kimi tanıdılar və ona hökumətin yaradılmasını tapşırdılar. 1917 il 15 (28) *noyabrda Zaqafqaziya Komissarlığı* yaradıldı. Gürcü menşevikləri də hərbi-siyasi cəhətdən təşkilatlarının davam etdirirdi. Onlar tezliklə Gürcü milli şurası, milli hərbi hissələr və menşevik dəstələri (xalq qvardiyası) formalaşdırmağa başladılar. Xalq qvardiyası 1917 il 29 noyabrda (12 dekabrda) Tiflis cəbbəxanasının ələ keçirdi, hərbi hissələr tərk-silah olunmağa başladı. Bunu görən Qafqaz ordusu Müvəqqəti İnqilab Komitəsi (sədr Q.Korqanov) Bakıya köçdü. Qafqaz cəbhəsi qoşunlarının 1917 ilin sonu - 1918 ilin əvvəllərində Rusıyaya geri çəkilmiş Tiflisdə milli siyasi qüvvələrin mövqelərini daha da möhkəmləndirdi. Rusiyada hakimiyyəti ələ keçirmiş bolşeviklər Qafqazm əldən çıxması ilə razılaşmaq istəmirdi. Rusiya Sosial Demokrat Fəhlə (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi və Rusiya Xalq Komissarları Soveti tamamilə qeyri-qanuni olaraq, S.Şaumyanı 1917 il 16 (29) dekabrda Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdi. O, Tiflisə gələrək bolşevik partiyasının diyar komitəsinə rəhbərliyə başladı. Lakin gürcü milli qüvvələri 1918 ilin fevralında siyasi mövqelərini daha da gücləndirməyə nail ola bildilər. 1918 il 10 (23) fevralda Tiflisdə *Zaqafqaziya seymi* açıldı. Seym Zaqafqaziyanın sovet Rusiyasından ayrılmasını təsdiq etdi. 1918 il aprelin 22-də Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradılması elan edildi. Gürcü milli şurası 1918 il mayın 26-da Gürcüstan Respublikası yaratmağı qərara aldı. Mayın 28-da Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Cüuıhuriyyət hökuməti Tiflis quberniyası ərazisinin azərbaycanlılara məxsus olan 8,7 min *kv.km-lik* sahəsini (Tiflis qəzasınm 2 və 3-cü, Sığnaq qəzasının 5-ci, Borçalı qəzasının 1. 2 polis sahələri və 3.4-cü polis sahəsinin bir hissəsi) onunla Gürcüstan arasında mübahisəli ərazi hesab edir, bu məsələnin dinc yolla həllinə çalışırdı. Təcavüzkar Ermənistan isə Tif-lis quberniyasına, o cümlədən onun tərkibindəki Azərbaycan torpaqlarına iddialarını müharibə yolu ilə həyata keçirməyə başladı və Gürcüstanla müharibəyə girdi [bax *Erməni-Gürcüstan müharibəsi (1918)]*. 1918 il iyunun 4-də Gürcüstan Respublikası ilə Osmanlı dövləti arasında bağlanan müqaviləyə görə vaxtilə Rusiya tərəfindən işğal edilərək imperiya tərkibinə daxil edilmiş Axalkalaki və Axalsıxını bir hissəsi Türkiyəyə qaytarıldı. 1921 ildə Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Tiflis quberniyasının qalan hissəsi onun tərkibinə daxil edildi. Sovet hökumətinin rayonlaşdırma siyasəti zamanı quberniya rayonlara bölündü.

*Əd.:* Адрес-календарь *Азербаиджанской Республики* 1917 г.; Очеркии истории Грузии, в XIX веке, Тбилиси, 1990; Победа советской власти в Закавказских территориях, на которые имеют самоопределившиеся Азербаиджанские тюрки//Изв.АН Азерб.ССР, Серия истории, философии и право, 1990, №2.

**TİTUL** (lat. *titulus* - yazı; fəxri ad) - ayrı-ayrı şəxslərə verilən, yaxud irsən keçən fəxri ad (xan, bəy, qraf, knyaz və s.). Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1920 il 30 yanvar tarixli qərarı ilə mülki idarələrdə titullar ləğv edilmişdi. Nazirlərə və məmurlara yazılı və ya şifahi müraciət zamanı onların vəzifələrinin əvvəlinə "əfəndi" sözü əlavə edilirdi. Sovet hakimiyyəti qurulduqdan sonra bu qayda da ləğv olundu.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), *Б.,* 1998.

**TLEXAS** Murad Gəray (1874-1920) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru. Əslən çərkəzdir. Mixail artilleriya məktəbini bitirdikdən sonra Rusiyanm bir sıra bölgələrində xidmət etmişdi. Tlexas milli tərkibli qoşun hissələrinin sıralarında xidmətə *Müsəlman korpusunun* təşkilindən sonra başlamışdı. 1918 il yanvarın 1-də bu korpusa qəbul edilən Tlexas 2-ci topçu briqadasının komandiri təyin olunmuşdu. *Əlahiddə Azərhaycan korpusunda* Tlexas topçu müfəttişi vəzifəsini icra edirdi. O, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfından general-mayor rütbəsinə layiq görülmüş ilk zabitlərdəndir.

downloaded from KitabYurdu.az

Əlahiddə Azərbaycan korpusu 1918 il avqustun 13-də ləğv edilərkən Tlexas Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* komandanlığının topçu müfəttişliyinə qəbul olunmuşdu. Hərbi Nazirlik borpa edildikdən sonra hərbi nazir Səməd bəy Mehmandarovun ordu qərargahının formalaşdırılması ilə bağlı 1918 il 15 noyabr tarixli əmrilə Tlexas Ümumi qərargahın tərkibindəki topçu şöbəsinin rəisi təyin olundu. O, topçu hissələrinin təşkilinə, topçu əmlakının mühafizəsinə və bölüşdürülməsinə rəhbərlik edirdi. Orduda iki topçu briqadası və bir neçə əlahiddə topçu taboru təşkil olunmuşdu. Ləki stansiyasındakı mərkəzi topçu anbarı və onun Kürdəmirdəki bölməsi də topçu şöbəsinə tabe idi. S.Mehmandarovun 1918 il 31 dekabr tarixli əmri ilə topçu şöbəsi genişləndirilərək, Topçu idarəsinə çevriləndən sonra da Tlexas bu qurumun rəisi vəzifəsində saxlanıldı. Tlexas 1919 ilin yanvarında qoşun hissələrinin, hərbi idarə və müəssisələrinin ştat və maaş cədvəlini müəyyənləşdirməli olan komissiyanın tərkibinə daxil edilmiş, həmin ilin iyununda isə Gürcüstandan satın alınmalı olan hərbi texnika, silah və sursat, habelə ərzağını qəbulu komissiyasının sədri təyin olunmuşdu. Onun rəhbərliyi ilə alınmış çoxlu top, atıcı silah, texniki ehtiyat hissələri, ərzaq üç eşelonla Azərbaycana yola salmmışdı. 1919 il sentyabrın 13-də Tlexas hərbi nazirin təqdimatı ilə Dövlət Müdafiə Komitəsi tərəfındon *Bakı İstehkamçılar hissəsinin* rəisi təyin olundu. Bu struktur Denikin təhlükəsinin mövcud olduğu dövrdo şəhərin müdafiəsini təşkil etməli və Bakıda asayişin sabitliyini qorumalı idi. Tlexas Bakının hərbi general-qubernatoru vəzifəsini də öz üzərinə götürmüşdü. Onun rəhbərliyi ılə Bakının qurudan və dənizdən müdafıəsi üçün konkret tədbirlər həyata keçirildi, şəhər ətrafında müdafiə zolaqları quruldu. S.Mehmandarovun 1919 il 4 dekabr tarixli əmri ilə Topçu idarəsinin rəisi vəzifəsindən azad edilən Tlexas bundan sonra bütün diqqətini yalnız Bakının müdafıəsinin və asayişin təşkilinə yönəltməli idi. 1919 il dekabrın 10-da Bakının hərbi general-qubernatoru vəzifəsini daha səmərəli icra etməsi üçün Tlexas Bakı İstehkamçılar hissəsinin rəisi vəzifəsindən azad edildi.

*Aprel işğalından (1920)* sonra həbs olunan Tlexas bolşevik Əli Bayramovun qətlində ittiham olunaraq ölümə məhkum edildi.

*Əd.:* Süleymanov M.. Mehmandarov. B.. 2000.

**TOMSON** Uilyam (? - ?) - Birinci dünya müharibəsinin (1914-18) sonunda Bakıya müdaxilə etmiş müttəfiq qoşunlarının komandanı, general-mayor. *Mudros barışığının (1918)* şərtlərinə uyğun olaraq Şimali İranda B.Britaniya qoşunlarının komandanı olan Tomson 1918 il noyabrın 17-də fransız və Amerika hərbi missiyalarının, həmçinin L.Biçeraxovun kazak dəstəsinin müşayiəti ilə Bakıya daxil olmuşdu. Bakının zəbtindən dərhal sonra şəhərdə hərbi vəziyyət rejimi yaradılmış, Tomson özünü Bakımn general-qubernatoru elan etmişdi. Tomsonun tələbi ilə Azərbaycan hərbi hissələri şəhərdən çıxarıldı. Hərbi nazirliyin idarə aparatı bir müddət (1918, noyabr - 1919, aprel) Gəncə şəhərində

*Murad Gəray Tlexas Azərbaycan Xalq Cümhuriyyəti zabitləri arasında (2-ci sıra, soldan 3-cü).*



downloaded from KitabYurdu.az

fəaliyyət göstərdi. Tomson missiyasının məramı onun verdiyi bəyannamələrdə əksini tapmışdı (bax *Tomson bəyannamələri)*. İlk vaxtlar Azərbaycanın müstəqilliyinin tanınmasına mənfı münasibət bəsləyən Tomson, Rusiya dövlətinin əvvəlki hüdudlarda bərpasının müttəfiq komandanlığının başlıca vəzifəsi olduğunu bəyan edirdi. Tomsonun əmri ilə "mülki hakimiyyət ordunu ictimai asayişin qorunması məsuliyyətindən azad edə biləcək dərəcədə güclü olana qədər" Bakıda hərbi vəziyyət elan edildi. Tomson 1918 il noyabrın 19-da müharibə dövrü qanunlarının pozulmasına görə cəzalar haqqında əmr vermişdi. Azərbaycan hökuməti noyabrın 18-də rəsmi məlumatında bildirirdi ki, Bakıya daxil olmuş müttəfiq qoşunları, müvəqqəti olaraq, yalnız hərbi hakimiyyəti təmsil edəcəklər. Lakin Tomson ölkənin ictimai-siyasi və iqtisadi həyatının bütün sahələrinə müdaxilə edirdi (bax *Bakı ingilis general-qubematorluğu)*. Azərbaycan Xalq Cümhuriyyəti dəmir yolu işçilərinə ingilis zabitlərinin yükünü və qatarda gedən zaman sənədlərini belə yoxlamağı qadağan etmişdi. İnzibati hakimiyyətin hərbi komandanlığa tabe edilməsi Azərbaycan hökumətinin Bakı rayonunda səlahiyyətlərini xeyli məhdudlaşdırırdı.

Bölgədə hərc-mərcliyin qarşısını almağa çalışan Tomson əhalinin ərzaq təchizatı, kağız pul sisteminin tətbiqi, kredit sisteminin bərpası, münaqişə aparan millətlər arasında sülhün bərpasına yönəlmiş tədbirlər görülməsi və s. ilə yanaşı, Azərbaycan ərazisində talançılıqla, qarətlə məşğul olan, dinc müsəlman əhalisinə divan tutan erməni silahlı dəstələrinə qarşı sərt tədbirlər görmüşdür. Xalq Cümhuriyyəti Hökumətinin səriştəli siyasəti Tomsonun Azərbaycana münasibətini dəyişdi. 1918 il dekabrın 28-də Tomson Fətəli xan Xoyskinin yaratdığı hökumətə **"yeganə yerli qanuni hakimiyyət"** kimi müttəfiq komandanlığı tərəfindən hərtərəfli dəstək veriləcəyini bəyan etdi. Tomsonun Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə müzakirə etdiyi ərazi münaqişəsi və dövlət təhlükəsizliyi ilə bağlı məsələlər beynəlxalq sülh konfransına istinadən həll edilirdi. Denikinin Könüllü ordusu ilə Azərbaycan arasında demarkasiya xəttini Tomson müəyyənləşdirmişdi. Zəngəzur və Qarabağ məsələsində Tomson Azərbaycanın dəstəkləmişdir. 1919 ilin aprelində Tomsonun dekreti ilə Cənub-Qərbi Qafqaz Respublikası buraxılmışdı. Parlamentin və Hökumətin başçısı 11 nazirlə birlikdə ingilislər tərəfından həbs edilmiş və Malta adasına sürgün edilmişdilər.

Tomson B.Britaniya qoşunlarının Qafqazdan və xüsusilə Azərbaycandan çıxarılmasının əleyhinə olmuşdur: "Britaniyalıların Transqafqazdan çıxarılması zorakılıq aktıdır, yeni yaranmış respublikalara qarşı xəyanətdir". Tomson 1919 il mayın 10-da öz hökumətinin qərarını Azərbaycan hökumətinə çatdırmış, eyni zamanda o, özünün də Qafqazdan İngiltərəyə getdiyini, onun general-mayor Kori ilə əvəz olunacağını bildirmişdi. Real siyasi şəraitə müvafiq olaraq, Tomson Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə maksimum əməkdaşlıq fəaliyyəti həyata keçirmişdir.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə. c.5, B.. 2001; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; *Азербаиджанской Республики* документы и материалы 1918-1920 гг,, Б., 1998;

**TOMSON BƏYANNAMƏLƏRİ** - Bakıdakı müttəfiq qoşunlarının komandanı, general *U.Tomsonun* 1918 il noyabrın 19-da və dekabrın 28-də Bakıda yaydığı bəyannamələr. 1918 il noyabırn 17-də Bakıya daxil olan müttəfiq qoşunlarının komandanı general U.Tomsonun imzaladığı əmrə görə 1918 il noyabrın 17-si gündüz saat 12-dən Bakı şəhərində hərbi vəziyyət elan edilirdi. Hərbi vəziyyət müddətində Bakı şəhərinin hərbi qubernatoru U.Tomson olmalı idi. Polkovnik F.P.Kokkerel müttəfiq dövlətlərin Bakı şəhərində polis komissarı təyin edilirdi. Əmrə görə Bakı şəhər idarəsi və şəhərin digər mülki müəssisələri öz fəaliyyətlərini davam etdirməli idilər. İki gün sonra, noyabrın 19-da hərbi vəziyyətin qanun-qaydalarına - 17 noyabr tarixli əmrə əlavələr elan edildi. Noyabrın 19-da dərc edilmiş ilk bəyannaməsində U.Tomson müttəfiq komandanlığının məramını açıqladı. Dünya müharibəsinin ilk illərində bir müttəfiq kimi rus xalqının xidmətlərini xatırladan Tomson Rusiyada qayda-qanun yaratmaq istədiklərini bildirdi. Tomsonun "Şimali İranda Böyük Britaniya qoşunlarının komandanı" kimi imzaladığı həmin iri həcmli bəyannamə Qafqazın, o cümlədən Bakı bölgəsinin Rusiyanın bir parçası olduğuna diqqəti çəkir, müttəfıqlərin Rusiyanın bir parça ərazisinə belə göz dikmədiklərini, ölkənin daxili idarəçiliyinin yalmz rus xalqının işi olduğunu və müttəfiqlərin bu işə heç bir halda qarışmayacağını təsdiq edirdi. Tomson, öz missiyasının yalnız bir məqsəd daşıdığını bəyan edirdi: qayda-qanun yaratmaq. Bütün xalqlara, dini etiqadlara eyni münasibət bəslənəcəyi, müvəqqəti yerli hakimiyyət orqanları yaradılacağı bildirilirdi. Tomson vətəndaşları vəzifələrini icra etməyə, ictimai asayişi qorumaqla vətəndaşlıq borcunu yerinə yetirməyə çağırırdı. Bəyannamə dərhal lazımi tədbirlər görülməsini nəzərdə tutan üç bəndlə tamamlanırdı: **əldə olan silahların hakimiyyət orqanlarına təhvil verilməsi, türk və alman təbəələrini təhvil verənlərin mükafatlandırılması, şəhərdə hərbi vəziyyət tətbiq edilməsi.** İctimai asayişi qorumağa qadir güclü mülki hakimiyyət olana qədər hərbi vəziyyət qüvvədə qalacaqdı.

Azərbaycan xalqı və hökuməti ilə yenicə tanışlığa başlayan və hələ yanlış və qərəzli informasiyayanın təsiri altında olan Tomsonun ilk bəyannaməsi Rusiyaya kömək ruhunda tərtib olunmuşdu. U.Tomsonun bəyannaməsində vurğulanırdı ki, dünya müharibəsində ümumi düşmən üzərində əldə edilən qələbədən Rusiya da bəhrələnəcəkdir.

Fransa və Amerika Birləşmiş Ştatları nümayəndələrinin müşayiəti ilə müttəfiqlər adından Bakının Böyük Britaniya qoşunları tərəfindən tutulmasından yeni Rusiya hökumətinin xəbəri və tam razılığı olduğu, habelə Türkiye ilə bağlanmış barışığa əsasən onun da buna razılıq verdiyi bəyannamədə göstərilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin fəaliyyəti nəticəsində U.Tomsonun Azərbaycana münasibəti qısa

downloaded from KitabYurdu.az

müddət ərzində dəyişdi və o, 1918 il dekabrın 28-də yeni bəyannamə ilə çıxış etdi. İngilislərin təkid etdiyi koalision tərkibli yeni Azərbaycan hökumətinin müttəfiq qoşunları komandanlığı tərəfindən tanınması vacib şərt idi. Hətta komandanlıq koalision hökumətin onlar tərəfindən tanınmasına qədər parlament iclasının açılmasına da yasaq qoymaq istəyirdi. F.x.Xoyskinin sədrliyi ilə yeni hökumətin tərkibi 1918 il dekabrın 26-da elan ediləndən iki gün sonra Tomson yeni bəyanat verdi. Bəyanatda deyilirdi ki, *müttəfiq qoşunlan komandanhğı F.x.Xoyskinin sədrliyi ilə təşkil edilən koalision Azərbaycan hökumətinə ölkə ərazisində yeganə qanuni hakimiyyət kimi tam dəstək verəcəkdir.* Tomsonun bəyanatı dekabrın 30-da parlamentdə müzakirə olundu. Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cövdət Pepinov çıxış edərək, bəyanatın Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət daşıdığını, Cümhuriyyətin ərazi bütövlüyünün qorunması, müstəqilliyinin müttəfiq dövlətlər tərəfindən tanınması yolunda ilk addım olduğuna, *Paris Sülh Konfransına (1919-20)* yola düşəcək nümayəndə heyətinin uğur qazanacağında əminlik yaratdığını bildirdilər. Bəyanatın verildiyi gün Azərbaycan hökuməti parlamentin Ağsaqqallar Şurasının üzvləri ilə birlikdə Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyən etdi.

Azərbaycan Parlamenti Tomsonun bəyanatını yekdil razılıqla qarşılamışdı. Bəyanat verildikdən az sonra Balkanlarda və Qafqazdakı ingilis qoşunlarının baş komandanı general Corc Miln Bakıya gəlmiş, U.Tomsonun bəyanatını təsdiqləyərək bildirmişdi ki, *B.Britaniya hbkuməti bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət orqanı kimi Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini tanıyır.*

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; *Азербаиджанской Республики* документы и материалы 1918-1920 гг„ Б., 1998; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**TONQİYEV** (? - ?) – Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti, podpolkovnik. Bir müddət 3-cü Şəki süvari alayında xidmət etmişdir. Hərbi nazirin omri (1918, dekabr) ilə 1-ci Tatar süvari alayının komandiri, sonra isə 1919 il 18 fevral tarixli əmrə əsasən, 3-cü Şəki süvari alayının komandiri təyin edilmişdi. 1920 ilin martında Qarabağda dövlətə qarşı qaldırılmış separatçı erməni qiyamı zamanı bu alay Tərtər-Goranboy istiqamətində çox uğurlu hərbi əməliyyat aparmışdı. Sonrakı taleyi barədə məlumat aşkar olunmarmşdır.

**TOPÇU İDARƏSİ** - Azərbaycan Xalq Cümhuriyyəti ordusunun topçu hissə və bölmələrinin formalaşdırılmasına və təlim-tərbiyəsinə, habelə atıcı və topçu ehtiyat əmlakının yaradılması, qorunması və qoşun hissələrinə çatdırılması işlərinə rəhbərlik edən hərbi qurum (bax *Baş topçu idarəsı).* Hərbi Nazirliyin Ümumordu Qərargahının strukturuna daxil idi.

**TOPÇUBAŞOV-ÇANDLER KONTRAKTI (1919)** Parisdə Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşovla Nyu-York şəhərindən Amerika Birləşmiş Ştatları Konqresi nümayəndələr palatasının üzvü Valter Çandler arasında Azərbaycanın mənafelərini müdafiə etmək haqqında imzalanmış müqavilə. Müqaviləyə görə, Çandler 3 ay müddətinə Azərbaycan Xalq Cümhuriyyətinin mənafeyini və müstəqilliyini müdafiə etməyi öz üzərinə götürürdü (ətraflı məlumat üçün bax *Çandler* Valter).

**TOPÇUBAŞOV** (Topçubaşı) Əlimərdan bəy Ələkbər bəy oğlu (4.5.1863, Tiflis - 5.11.1934, Paris, Sen-Deni) - Azərbaycanın görkəmli siyasi və dövlət xadimi; Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri (1918, 7 dekabr -1920, 28 aprel). Rusiyanm müsəlman-türk xalqlarının milli



azadlıq hərəkatımn liderlərindən biri. Birinci Tiflis gimnaziyasını (1884) və Peterburq Universitetinin hüquq fakültəsini (1888) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsilini başa vurduqdan sonra bir neçə il Rusiyada işləmiş, 1894 ildə Bakıya gələrək, hüquq-mühafizə orqanlarında çalışmış, sonralar müstəqil vəkil kimi fəaliyyət göstərmişdir. Hüquq elmlərinə dərindən bələd olan, Azərbaycan və rus dillərindən əlavə fars, fransız, ingilis və gürcü dillərini də mükəmməl bilən Topçubaşov tezliklə Hacı Zeynalabdin *Tağıyevin* diqqətini cəlb etmiş və 1897 ildə *"Kaspi"* qəzetinin redaktorluğu ona tapşırılmışdı. Bakının ictimai-siyasi həyatında fəal iştirak edən Topçubaşov Bakı Şəhər Dumasının üzvü seçilmiş, bir müddət onun sədri olmuşdur. Birinci rus inqilabı (1905-07) Rusiyada yaşayan türk-müsəlman xalqlarının milli şüurunun oyanmasında mühüm rol oynadı. Bu dövrdə müsəlman xalqlarının azadlıq mübarizəsinin təşkilində Ə.Topçubaşovun əvəzsiz xidmətləri olmuşdur. İnqilabın gedişində Azərbaycanda da genişlənən petisiya kampaniyasında Ə.Topçubaşovun əməyi son dərəcə böyükdür. Bütün petisiyalar - xahişnamələr, müraciətlər və i.a. bilavasitə onun iştirakı ilə tərtib və təqdim edilirdi. 1905 ilin aprelində Cənubi Qafqaz müsəlmanları adından Rusiya Nazirlər Kabinetinə təqdim edilən petisiyalar da Ə.Topçubaşov tərəfindən tərtib olunmuşdu. Ə.Topçubaşov Ümumrusiya müsəlmanlarının 1905 il avqustun 15-də Nijni Novqorodda keçirilən birinci qurultayına sədrlik etmiş, qurultay (bax *Ümumrusiya müsəlmanları qurultayları)* onun çıxışı ilə açılmışdı. Çıxışda deyilirdi: ***"Biz türk övladları, əslimiz bir, nəslimiz bir, dinimiz birdir. Qərbdən Şərqə qədər bizim atalarımızın miilkii idi. Atalarımız o qədər qəhrəman millət olduqları halda, bu gün Qafqaz dağlarında, Krım bağlarında, Kazan çöllərində və Orta Asiya ovalıqlarında, atalarımızın müllkü olan öz vətənimizdə, öz torpaqlarımızda öz ehtiyaclarımızı bildirməyə imkanımız qalmamışdır".*** Topçubaşov Rusiya müsəlmanlarının sonrakı qurultaylarının da keçirilməsində müstəsna rol oynamışdı. Rusiya müsəlmanlarının 1906 il yanvarın 13-23-də Peterburqda keçirilən 2-ci qurultayı Əlimərdan bəy Topçubaşov

downloaded from KitabYurdu.az

tərəfindən hazırlanmış *"Ümumrusiya Müsəlmanları ittifaqı"* partiyasının nizamnamə və proqram layihələrini bəyəndi, təkmilləşdirilmək şərti ilə, qəbul üçün növbəti qurultaya təqdim olunmasını tövsiyyə etdi. 1906 il avqustun 15-21-də Nijni Novqorodda keçirilən 3-cü qurultayda "Ümumrusiya Müsəlmanları İttifaqf "nın proqramı qəbul olunmuş, Ə.Topçubaşov partiyanın sədri seçilmişdi. Bununla bağlı qurultayda çıxış edən Ə.Topçubaşov demişdi: *"Ey möminlər, ey qardaşlar. Mən bu gün o qədər məmnun oldum ki, bu məmnuniyyətimi sizə heç bir dillə tərif edə bilmirəm. Mən bu günü heç vaxt unutmayacağam. Bu günün indən belə Ümumrusiya müsəlmanları üçün milli bayram günü olacağı şübhəsizdir".*

Bakı quberniyasından 1-ci Dövlət Dumasına deputat seçilən (1906) Ə.Topçubaşovun təşəbbüsü ilə Dumada müsəlman fraksiyası yaradılmışdı. Topçubaşov həm fraksiyanın sədri, həm də 7 nəfərlik büro üzvündən biri idi. Dumadakı fəalliyyəti dövründə çarizmin ucqarlarda yeritdiyi milli ayrı-seçkilik siyasətini kəskin tənqid etmişdi. Aqrar komissiyanın məruzəsinin müzakirəsində iştirak edən Ə.Topçubaşov komissiyanın məlumatının geniş şəkildə nəşr olunmasını zəruri sayır və bir "ucqarlı", "qafqazlı" kimi təklif edirdi ki, məlumat təkcə dövlət dilində deyil, həm də, imkan daxilində, "yerli dillərə" də tərcümə olunub dərc edilsin. O deyirdi: "Bütün Rusiya təbəələrinin hüquq bərabərliyi, vicdan azadlığı, söz azadlığı, şəxsiyyətin toxunulmazlığı, kəndlilərə torpaq verilməsi kimi məsələlərin işlənib hazırlanmasında, bu qəbildən olan ümumi dövlət məsələlərində milli xarakterli heç bir məsələyə yol verilə bilməz. Rusiyanın bütün xalqlarının mənafeləri buna yol vermir, dövrün bütün şəraiti bunun əleyhinədir".

Dumanın müsəlman fraksiyasının, o cümlədən Azərbaycan deputatlarının siyasi amalı Ə.Topçubaşovun *"Müsəlman parlament fraksiyası" məqaləsində dəqiq ifadə olunmuşdu: "Müsəlman proqramı ciddi surətdə konstitusiya əsasları üzərində dayanaraq, torpaqların milliləşdirilməsi, din məsələlərində tam muxtariyyət, bütün imperiya ərazisində özünü idarə edən kiçik vahidlərin və vilayət məclislərinin təsis edilməsi ilə yerlərdə geniş muxtar idarəçilik prinsipini irəli sürür".*

Ə.Topçubaşov Dumanın buraxılmasına etiraz edən deputatların Vıborq müraciətnaməsini imzaladığına görə üç ay həbs cəzasına məhkum olunmuş, Dumaya seçilmək hüququndan məhrum edilmiş, "Kaspi" qəzetinə rəhbərlikdən uzaqlaşdırılmış, Bakı şəhər Duması üzvlüyündən çıxarılmışdı. Buna baxmayaraq, Ə.Topçubaşov 2-ci Dövlət Duması Müsəlman fraksiyasının əməli işlərində xüsusi fəallıq göstərirdi. O, dəfələrlə Peterburqa getmiş, bəzən isə müsəlman parlament fraksiyası və Ümumrusiya Müsəlman İttifaqı Mərkəzi Komitəsi üzvlərinin Dumada müzakirəyə çıxarılan qanun layihələri, həmçinin sorğular üzrə fraksiyanın ümumi mövqeyini işləyib hazırlayan iclaslarına sədrlik etmişdi. Dövlət Dumasının müsəlman deputatları və "İttifaqi-müslimin" partiyasının üzvləri Topçubaşovun fəaliyyətini davam etdirməsi üçün Moskvada "Daimi təmsilçilik" bürosu açmışdılar. Moskvada Əlimərdan bəyin rəhbərliyi ilə tcz-tez toplantılar keçirilmiş müxtəlif məsələlər, o cümlədən "Torpaq islahatı" məsələsi müzakirə olunmuş, onun hüquq elmləri sahəsində bilik və təcrübəsindən geniş istifadə edilmişdir. Rusiya müsəlmanlarının digər görkəmli şəxsiyyəti, Baxçasarayda (Krım) çıxan "Tərcüman" qəzetinin naşiri və redaktoru İsmayıl bəy Qaspralı 1908 il aprelin 11-də Topçubaşova yazdığı məktubda onun fəaliyyətini yüksək qiymətləndirmişdir: "Əzizim Mərdan! Hər şeydən evvəl, sən Peterburqda qalmalısan... kütbeyinlər və yaramazlar istisna olmaqla, sağlam düşüncəli bütün insanlar sənin Peterburqda olmağının əhəmiyyətini anlayır. Ona görə də sən orada qalmalı və yaşamalısan. Sonra hər hansı hadisə baş versə belə. *səni, sənin biliyini, təcrübəni və ürəyini xalqdan heç kim məhrum edə bilməz və bunu sən bilməlisən ki, sən xalqa daha çox lazımsan ".*

***Ə.Topçubaşovun Cümhuriyyət Hökumətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilməsi haqqında F.x.Xoyskinin M.Ə.Rəsulzadəyə məktubu. 1918, 23 avqust***



Lakin 1905-07 illər inqilabının məğlubiyyətindən sonra irticanın yenidən baş qaldırması nəticəsində Ə.Topçubaşov 1910 ildə Moskvanı tərk edərək, Bakıya dönməli olmuşdur.

Topçubaşov 1914 ildə Bakıda 45 nəfərdən ibarət "Məşvərət məclisi" təşkil etmiş, müsəlmanların "Tələblər paketi"ni hazırlayaraq, çar hakimiyyəti orqanlarına göndərmişdir. O, 1916 ildə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil etmişdir. Rusiya Dövlət Şurasının müşa

downloaded from KitabYurdu.az



İsmayıl bəy Qaspralı, Həsən bəy Zərdabi və Əlimərdan bəy Topçubaşov

irəsində (1917, 12-15 avqust, Moskva) Topçubaşov Rusiya müsəlmanlarının 8 demokratik təşkilatı adından geniş nitq söyləmiş, Rusiyada "dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratlarını təyini şüannm qoyulduğunu" da bəyan etmişdir. Topçubaşov 1917 ilin sonuna kimi Müsəlman Milli Komitəsinə sədrlik etmiş, həmin il Rusiya Müəssislər Məclisinə nümayəndə seçilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra, Topçubaşov yeni yaranmış müstəqil milli dövlətin dünyada tanıdılmasında əvəzsiz xidmətlər göstərmişdir. Fətəli xan Xoyskinin 1918 il iyunun 17-də Gəncədə təşkil etdiyi 2-ci hökumət kabinəsi tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-dən xarici işlər naziri olmuş, avqustun 23-də isə Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilmişdi. İstanbulda qızğın diplomatik fəaliyyət göstərən Topçubaşov 1918 il oktyabrın 2-dən 1919 il yanvarın 16-dək burada 36 rəsmi görüş keçirmiş, danışıqlar aparmış, 1919 il yanvarın 10-da Sultan Mehmetlə görüşmüşdür. Əlimərdan bəy Sultana "... *azərbaycanlıların bədxahlan həmişə olub və yenə də var. Amma sizi əmin etməyə cürət edirəm ki, Azarbaycan türkləri heç vaxt bu düşmənlərdən qorxmamıışlar. Çünki bilirdilər ki, onların Türkiyə kimi "böyük dostu var"* -dedikdə, Sultan *"Dostu yox, qardaşı!"* deyə onun sözlərinə düzəliş vermişdi. İstanbulda olarkən Əlimərdan bəy İngiltərənin, ABŞ-ın, İtaliyanın, Hollandiyanın, İsveçin, İranın, Ukraynanın buradakı səlahiyyətli nümayəndələri - İranın xarici işlər naziri M.Əliqulu xanla, Rusiyanın keçmiş xarici işlər nazirləri P.Milyukov və S.Sazonovla, Ermənistanın Paris Sülh Konfransına gedən nümayəndə heyətinin rəhbəri A.Aqaronyan və başqaları ilə görüşüb söhbət aparmışdır.

Topçubaşovun İstanbulda yaratdığı Azərbaycan mətbuat bürosu ölkə haqqında məlumat toplamaq, yaymaq və Azərbaycanı xaricdə tanıtmaq işində mühüm xidmət göstərmişdir. Topçubaşov Qafqaz millətlərinin vahid bir federasiyada birləşməsini istəyirdi. O hesab edirdi ki, bununla xalqlar aralarındakı münasibətləri daha yaxşı qura və kənar müdaxilələrin qarşısını birlikdə daha uğurla ala bilərlər. İstanbuldan hökumətin sədri F.x.Xoyskiyə yazdığı 1918 il 16 dekabr tarixli məktubda Cənubi Qafqaz cümhuriyyətlərinin Paris Sülh Konfransında vahid nümayəndə heyəti ilə çıxış etməsi təklif olunurdu. Topçubaşov məktubda bu məsələ ilə əlaqedar konfrans iştirakçısı olan ölkələrə xüsusi memorandumla müraciət etdiyini də bildirirdi. Bununla belə, Topçubaşov ermənilərin bu işə razı olacaqlarına şübhə ilə yanaşırdı, *"...çünki ermənilərin iştahası çox böyükdür və həm də bu iştahalarını özgələrinin, ilk növbədə isə, bizim hesabımıza doydurmaq istəyirlər. Az qala, bütün paytaxtlarda bizim mənafeyimizin zərərinə təbliğat aparır, bizi*

downloaded from KitabYurdu.az

*dövlət həyatı qurmağa qabil olmayan və başqa millətlərlə bartşmaz millət kimi qələmə verirlər".*

Topçubaşovun İstanbulda fəaliyyət göstərdiyi dövr Os-manlı dövlətinin hərbi və sosial-iqtisadi vəziyyətinin ən böhranlı zamanlarına təsadüf edir. Birinci dünya müharibəsində (1914-18) Almaniya-Osmanlı ittifaqı məğlub olduqdan sonra Türkiyə *Mudros barışığı (1918)* ilə razılaşmaq məcburiyyətində qaldı.

Ə.Topçubaşov noyabrın 3-də İstanbulda Mudros barışığını imzalamış dənizçilik naziri, Batum və Trabzon konfranslarında Türkiyə nümayəndə heyətinin rəhbəri Rauf bəylə, noyabrın 4-də xarici işlər nazirinin müavini Rəşid Hikmət bəylə. noyabrın 5-də isə xarici işlər naziri Naib bəylə görüşərək, onun Azərbaycana aid 11 və 15-ci maddələri ilə əlaqədar öz etirazmı bildirmişdi. Onlar cavablarında mığlub tərəf kimi, Türkiyənin bu barışığı imzalamaq məcburiyyəti qarşısında qaldığını, Azərbaycanın isə müstəqil dövlət kimi öz hüquqlarını qoramağa haqlı olduğunu bildirmişdilər.



Əlimərdan bəy Topçubaşov mühacirətdə

1918 il dekabrın 7-də öz işinə başlayan Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti elə ilk iclasında Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə bu zaman İstanbulda olan Topçubaşovu, qiyabi olaraq, Parlamentin sədri seçmişdir. Dekabrın 28-də Azərbaycan Hökumətinin və Parlamentin ağsaqqallar şurasının birgə iclasında Ə.Topçubaşov *Paris Sülh Konfransına (1919-20)* göndərilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin sədri təyin olundu və İstanbuldan birbaşa Parisə yola düşdü.

Böyük çətinliklərdən sonra, nəhayət, 1919 il mayın birinci ongünlüyündə Parisə gəlib çatan nümayəndə heyətinin apardığı intensiv diplomatik görüşlər, danışıqlar getdikcə öz bəhrəsini verməyə başlamışdı. ABŞ Prezidenti V.Vilsonun təşəbbüsü ilə İngiltərə, Fransa və İtaliya dövlət başçıları səviyyəsində Azərbaycan məsələsinin gündəliyə salınaraq, müzakirə olunduğu yığıncaqda bilavasitə Prezident Vilsonun Ə.Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı olaraq tanıması və Azərbaycanın Paris Sülh Konfransına qatılması təklifı qəbul edilmişdi. 1919 il mayın 28-də. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının birinci ildönümü günü ABŞ prezidenti V.Vilson başda Topçubaşov olmaqla, Azərbaycan nümayəndə heyətini qəbul etmişdi. Görüşdə Topçubaşov ABŞ nümayəndə heyətinin konfransda Azərbaycanı dəstəkləməsini V.Vilsondan xahiş etmiş və ona müraciətində demişdi: *"Qüdrətli Amerikanın nümayəndəsi kimi Sizə müraciətlə xahiş edirik ki, cənab prezident, bizim ölkəmiz, xalqımız, eləcə də özümüz haqqında məlumatları bizdən eşidəsiniz. Çünki biz Avropa və Amerika mətbuatında tez-tez Azərbaycan haqqında səhv, saxtalaşdırılmış və həqiqətə uyğun olmayan məlumatlar verilməsinin şahidi oluruq. Düzdür, bizi hələ yaxşı tanımırlar, biz, indi birinci dəfədir ki, Avropadayıq, lakin Sizi əmin edirik ki, konfrans bizi dinləyəcək və biz Millətlər Cəmiyyətinə buraxılacağıq. Biz, əminik ki, bütün xalqlar kimi, Sizin böyük prinsipləriniz əsasında yardım alacağıq".* Çıxışının sonunda Ə.Topçubaşov qətiyyətlə demişdi: *"Biz bildiririk ki, nə Kolçakı, nə Denikini, nə də köhnə Rusiya imperiyasının hüdudlarında hakimiyyəti bərpa etmək niyyətində olan qeyri birisini tanımayacağıq. Biz Azərbaycan üçün yalnız öz Parlamentimizi və öz Hökumətimizi tanıyırıq və tanıyacağıq".* Ə.Topçubaşov Qafqaz xalqlarının – azərbaycanlıların, ermənilərin, gürcülərin və dağlıların konfederasiyasının mümkünlüyünü prezident Vilsona bildirmiş və Azərbaycan Cümhuriyyəti nümayəndələrinin memorandumunu Amerika prezidentinə təqdim etmişdi (bax *Memorandum).*

Paris Sülh Konfransında iştirak edon Azərbaycan nümayəndə heyətinin, xüsusilə onun başçısı Ə.Topçubaşovun gərgin fəaliyyəti tezliklə öz nəticələrini verdi. Nümayəndə heyəti müxtəlif partiya və fraksiyalarm üzvlərindən ibarət olmasına baxmayaraq, Sülh Konfransında vahid mövqedən - gənc Azərbaycan Cümhuriyyətinin mənafeyi mövqeyindən çıxış edirdi. Ə.Topçubaşov bu barədə Bakıya - Cümhuriyyət hökumətinin sədrinə ünvanladığı 1919 il 6-10 noyabr tarixli məktubunda yazırdı: ***"Nümayəndə heyəti ayrı-ayrı partiyalara mənsub şəxslərdən təşkil olunsa da, özünün indiyə qədərki fəaliyyətində bütünlüklə partiya maraqlarına deyil, Azərbaycanın mənafelərini əsas tutan ümumi mülahizələrə əsaslandığını bildirməyi özümə borc sayıram. Məncə, bu, nümayəndə heyətimiz üçün müsbət haldır və onun üzvlərinə şərəf'gətirir"'.***

Parisdə olmağına baxmayaraq, o, 1919 ilin dekabrında yenidən Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri seçilmişdi.

1919 ilin axırlarına yaxın Rusiyada bolşeviklərin mövqeyinin getdikcə möhkəmlənməsi, habelə müttəfiq ölkələrin son ümidi olan Denikinin, Yudeniçin və Kolçakın məğlubiyyəti, qalib dövlətlərin Rusiyanın bütövlüyünü bərpa etmək arzusunu puça çıxardı. Nəticədə, onların keçmiş çar Rusiyasına daxil olan və rus inqilabından sonra öz müstəqilliklərini

downloaded from KitabYurdu.az

elan etmiş ölkələrə münasibətləri dəyişdi. 1920 il yanvarın 11 -də Paris Sülh Konfransının Ali Şurası Qafqaz məsələsini çox gərgin şəraitdə müzakirə etdi və B.Britaniyanın xarici işlər naziri Corc Kerzonun təklifı ilə Azərbaycan və Gürcüstanın müstəqilliyini de-fakto tanıdığını açıqladı. Hazırlanan sənəd yanvarın 12-də Ali Şura üzvləri tərəfindən imzalandı, yanvarın 15-də isə Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin rəhbəri Ə.Topçıbaşov və Məhəmməd Məhərrəmov Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular və qərar rəsmən onlara təqdim edildi. Bu, xalqımızın və xüsusilə Ə.Topçubaşovun rəhbərliyi ilə çox gərgin fəaliyyət göstərmiş Azərbaycan nümayəndə heyətinin böyük qələbəsi idi.

*Aprel işğalından (1920)* sonra Parisdə qalıb, mühacir həyatı yaşamağa məcbur olan Topçubaşov siyasi fəaliyyətini dayandırmamış, sovet nümayəndə heyətinin etirazlarına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ona verdiyi mandatla 1920 ilin noyabrında Millətlər Cəmiyyətinin Cenevrə toplantısında, 1920 ildə London və Genuya, 1923 ildə isə Lozanna konfranslarında iştirak etmiş, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunduğu və bolşeviklərin Azərbaycanda törətdikləri cinayətlər haqqında geniş məlumat vermişdir.

Topçubaşov siyasi fəaliyyətini digər Qafqaz respublikaları nümayəndələrinin fəaliyyəti ilə əlaqələndirməyə çalışmışdır. Bu məqsədlə onlar 1921 il mayın 8-də Parisdə bir araya gələrək, Qafqaz Konfederasiyası yaradılması məsələsini müzakirə etmiş, iyunun 10-da isə üç Qafqaz respublikasının səlahiyyətli nümayəndələri Topçubaşovun sədrliyi ilə keçirilən iclasda siyasi və iqtisadi ittifaq yaratmaq haqqında razılığa gəlmişdilər. Həmin iclasda Topçubaşov Azərbaycan nümayəndələrinin Qafqaz Konfederasiyasının qəti tərəfdarı olduqlarını vurğulamışdı.

*Ata-oğul Topçubaşovların məzarı. Paris. Sen-Deni qəbiristanlığı*




Topçubaşov 1934 ildə, ölümündən bir qədər əvvəl, Azərbaycan Milli Mərkəzinin divan üzvü kimi, M.Ə.Rəsulzadə ilə birlikdə Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin iştirakı ilə Brüsseldə "Qafqaz Konfederasiyası bəyannaməsi"ni imzalamışdı.

Həyatını təkcə öz xalqının deyil, həm də bütün Rusiyanın türk-müsəlmanlarının istiqlalı uğrunda mübarizəyə həsr etmiş Topçubaşov xaricdəki digər siyasi mühacirlərlə birlikdə Azərbaycanın müstəqilliyinin bərpa olunması yolunda fəaliyyətini ömrünün sonuna qədər davam etdirmişdir.

Əsərləri: Azərbaycanın təşəkkülü, İstanbul, 1918; Paris məktubları, B., 1998; Memorandum, B., 1993; Дипломатические беседы в Стамбуле (1918-1919 гг.), Б., 1994.

*Əd.:* Azərbaycan tarixi, 7 clddə, c.5, B.. 2001; Həsənov C, Azər-baycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), 3 hissədə, h.l, B., 2003; Qasımlı M., Hüseynova E., Azərbaycanın xarici işlər nazirləri, B., 2003; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; *Азербаиджанской Республики* документы и материалы 1918-1920 гг,,Б., 1998;

**TOPÇUBAŞOV** Mustafa Ağabəy oğlu (5.8.1895, İrəvan ş. - 23.11.1981, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti dövründə elmi-tədris fəaliyyətinə başlamış görkəmli cənah, ictimai və dövlət xadimi. 1919 ildə Kiyev Universitetinin tibb fakültəsini bitirmişdir. Təhsil dövründə Y.Ç.Çəmənzeminlinin rəhbərliyi ilə yaradılmış "Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın Kiyev şöbəsinin katibliyinə daxil idi. 1920 ildə Bakı Universiteti tibb fakültəsinin cərrahlıq klinikasının kordinatoru seçilmişdir. 1923 ilədək bu vəzifədə çalışmış, 1923-30 illərdə fakültə cərrahlığı klinikasında asissent işləmişdir. 1930 ildə doktorluq dissertasiyasını müdafiə etmiş, həmin ildən

downloaded from KitabYurdu.az



Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Tibb Universiteti) fakültə cərrahlığı kafedrasının müdiri, eyni zamanda, Azərbaycan SSR Eksperimental Tibb İnstitutunun direktoru olmuşdur (1945-48). Azərbaycan Milli EA akademiki (1945), SSRİ Tibb EA akademiki (1960), Bolqarıstan EA-nın müxbir üzvü (1951), Azərbaycanın əməkdar elm xadimi (1940). Sosialist Əməyi qəhrəmanı (1975), SSRİ Dövlət mükafatı laureatı (1943) idi. Dünyada istifadə olunan analgeziya üsulunu ilk dəfə Topçubaşov kəşf etmişdir (1937). Beynəlxalq Cərrahlar Assosiasiyasının fəxri üzvü (1950 ildən) olmuş, 1951-56 və 1969-81 illərdə Azərbaycan Milli EA vitse-prezidenti işləmişdir. Ölkə daxilində və xaricdə bir sıra mötəbər elmi cəmiyyətlərin üzvü, sədri olmuşdur. Azərbaycan SSR Ali Sovetinin (1-10-cu çağırış) deputatı seçilmişdir, 1955-59 və 1967-71 illərdə Azərbay-can SSR Ali Sovetinin sədri idi. Ən yüksək ordenlər və medallarla təltif edilmişdir. Elmi-tədqiqat Eksperimental və Klinik Təbabət İnstitutuna onun adı verilmişdir (1983).

*Əd.:* Məmməd Süleyman, Cərrah, B., 1983; Топчибашев М.А., Библиография, Б., 1965; Сборник научных трудов, посвященных 7 летию М. А. Топчибашева, Б., 1968.



**TOPÇUBAŞOV** Rəşid Əlimərdan bəy oğlu (26.10.1900, Tiflis - 1926) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Əlimərdan bəy *Topçubaşovun* oğlu. Paris Sülh Konfransına (1919-20) göndərilmiş Azərbaycan Hökuməti nümayəndə heyətinin katibi. Bakı realnı məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini hüquq sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənmək üçün 1921-22 illərdə Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında Topçubaşovun təhsilini uğurla davam etdirməsi göstərilirdi. Cümhuriyyətin süqutundan sonra Topçubaşov Sovet Azərbaycanın verdiyi təqaüddən imtina etmişdir.

**TOPDANSATIŞ ƏMƏLİYYATLARI CƏMİYYƏTİ-KOOPERASİYASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə istehlak kooperasiyasının rəhbər təşkilat və təsərrüfat mərkəzi. Bax *Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqı (Azərittifaq).*

**TORPAQ KOMİTƏLƏRİ** - Zaqafqaziya Komissarlığının 1917 il 16 dekabr tarixdə təsdiq etdiyi Əsasnaməyə və Zaqafqaziya Seyminin torpaq islahatı haqqında 1918 il 7 mart tarixli qanunu ilə təsdiq olunmuş təlimata əsasən, yaradılmış hökumət qurumları. Azərbaycan ərazisində fəaliyyət göstərən torpaq komitələri öz işlərini düzgün qura bilmədiklərindən kənd əhalisinin bütün zümrələrinin etibarını qazana bilməmişdilər. Digər tərəfdən, ölkədə yaranmış hakimiyyətsizlik və anarxiya nəticəsində həm dövlət, həm də mülkədar torpaqları ayrı-ayrı şəxslər tərəfindən zəbt olunmuşdu. Bunun nəticəsində mövcud şəraitdən və yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin elan etdiyi İstiqlal bəyannaməsinin demokratik ruhundan narazı qalan azərbaycanlı torpaq sahibləri hökumətin fəaliyyətinə şübhə ilə yanaşırdılar. Elə buna görə də onlar 1918 il mayın axırlarında Gəncəyə gələn və burada real hakimiyyətə malik olan Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın ətrafında cəmləşdilər. İyunun 16-da Gəncəyə köçən Cümhuriyyət hökuməti həmin torpaq sahiblərinin təsiri ilə elə həmin ayın 22-də Zaqafqaziya seyminin qəbul etdiyi 1918 il 7 mart tarixli qanunun icrasını Azərbaycanda Müəssislər məclisi çağırılana qədər dayandırmaq barədə qərar qəbul etdi. Qərarda həmin vaxtadək ayrı-ayrı şəxslər tərəfindən tutulmuş həm şəxsi və həm də xəzinə torpaqlarının geri qaytarılması tələb olunurdu. Əkinçilik Nazirliyinə isə göstərilən qərarın qəbul olunduğu vaxtdan etibarən Müəssislər məclisinə təqdim etmək üçün torpaq məsələləri ilə bağlı lazımi materiallarını hazırlanmasına başlamaq və torpaq komitələrinin ləğvi barədə qısa müddətdə hökumətə məruzə təqdim etmək tapşırıldı.

Torpaq islahatları ilə bağlı məsələlərə baxmaq üçün Əkinçilik və Dövlət Əmlakı Nazirliyi yanında aqrar islahatlar şöbəsi yaradılmışdı. Ətraflı məlumat üçün bax *Aqrar məsələ.*

**TRABZON KONFRANSI (1918)** - Osmanlı hökuməti və Zaqafqaziya seymi (ZS) nümayəndələrinin iştirakı ilə martın l(14)-dən aprelin 1 (14)-dək Türkiyənin Trabzon şəhərində keçirilmiş beynəlxalq toplantı. Zaqafqaziya Seymi nümayəndə heyətinə 40 nəfər (o cümlədən "Müsavat" fraksiyası üzvləri Məmməd Həsən Hacınski. Xəlil bəy Xasməmmədov, sosialist İbrahim bəy Heydərov, ittihadçı Mir Yaqub Mehdiyev, menşevik-hümmətçi Əkbər ağa Şeyxülislamovdan ibarət Azərbaycan qrupu) daxil idi. Türkiyə nümayəndə heyətinə (7 nəfər) xarici işlər naziri Hüseyn Rauf bəy başçılıq edirdi. Zaqafqaziya seymi Birinci dünya müharibəsindən (1914-18) əvvəlki Rusiya-Türkiyə sərhədlərinin bərpa edilməsi, Türkiyədə ermənilərə muxtariyyət verilməsi və s. şərtlərlə sülh müqaviləsi bağlamağa cəhd göstərsə də, bu şərtlər qəbul edilmədi. Türkiyə tərəfi *Brest sülhünün (1918)* tanınmasını və bu müqaviləyə əsasən Qarsın, Ərdəhanın və Batumun dərhal boşaldılmasını, danışıqlar aparmaq üçün hüquqi şəxs kimi tanınmaqdan ötrü Zaqafqaziyanın müstəqilliyinin elan olunmasını tələb etdi; danışıqlar zamanı Axalsıx və Axal-kələk qəzalarının bir hissəsinin müsəlman əhalisi nümayəndələri adından bu qəzalarını Türkiyəyə birləşdirilməsini

downloaded from KitabYurdu.az

tələb edən sənəd Türkiyənin təkidi ilə gündəliyə daxil olundu. Danışıqlar getdiyi vaxtda türk qoşunlarının hərbi əməliyyatları davam etdirərək irəliləməsi şəraitində martın 29 (10 aprel)-da menşevik A.Çxenkeli Brest-Litovsk sülhünü danışıqların əsası kimi qəbul etdi və Batum istisna olmaqla, digər ərazilərin türklərə verilməsinə razı oldu. Lakin Türkiyə nümayəndə heyəti Batumun da onlara verilməsini tələb etdi. Yaranmış mürəkkəb şəraitdə Zaqafqaziya seyminin Azərbaycan fraksiyasının münaqişəni dinc yolla aradan qaldırmaq tələblərinə baxmayaraq, seymin qeyri-müsəlman çoxluğu aprelin 14-də Türkiyəyə müharibə elan etmək lehinə səs verdi və Trabzon konfransı uğursuzluqla başa çatdı. 1918 ilin mart-aprelində Bakıda və Azərbaycanın digər bölgələrində Bakı Sovetinin bolşevik-daşnak rəhbərliyinin azərbaycanlılara qarşı törətdiyi qanlı soyqırımlarına münasibətdə Zaqafqaziya seyminin passiv mövqe tutması da Trabzon konfransının iflasında mühüm rol oynadı. 1918 il aprelin 22-də müsəlman fraksiyasının təzyiqi altında Zaqafqaziya seyminin geniş iclası müstəqil Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradıldığını elan etdi.

Konfransın 6 plenar iclası və 2 xüsusi müşavirəsi oldu. 1918 il martın 13-də sülh nümayəndə heyətlərinin bir-birinə təqdimolunma mərasimi keçirildi. Həmin iclasda sülh konfransının rəsmi açılışının martın 14-də olacağı qərara alındı. 1918 il martın 13-də Trabzonda Transqafqaz sülh nümayəndə heyətinin müsəlman nümayəndələri ilə Osmanlı sülh nümayəndə heyəti arasında Transqafqazda yaranmış ümumi durumu müzakirə etmək üçün gizli görüş keçirildi. Həmin görüşdə İbrahim bəy Heydərov və Mir Yaqub Mehdiyevdən başqa, Şeyx Şamilin tayfasından olan Mustafa bəy ilə Hüseyn Rauf bəy arasında müzakirə aparıldı. Azərbaycan və Dağıstan nümayəndələri siyasi əqidə və hər hansı fırqəni təmsil etmələrindən asılı olmayaraq, türk ordusunun Qafqaza daxil olmasını alqışlayacaqlarını bildirdilər.

Mir Yaqub Mehdiyev həmin görüşdə bəyan etdi ki, "Sülh danışıqları ancaq indiki Qafqaz hökumətinin özünü rəsmən müstəqil bir hökumət olaraq" elan etməsi ilə mümkündür. Bu görüşün nəticəsi olaraq, Türk nümayəndə heyətinin başçısı Rauf bəy Orbay erməni, gürcü və azərbaycanlılardan ibarət mürəkkəb bir Qafqaz Cümhuriyyətinin yaranmasını mümkünsüzlüyünə əmin oldu.

1918 il martın 16-da Transqafqaz sülh nümayəndə heyətinin başçısı A.Çxenkeli ilə Türkiyə nümayəndə heyətinin başçısı Rauf bəy arasında gizli görüş keçirildi. Həmin görüşdə A.Çxenkeli Batum limanının gürcülərdə qalmasını istədi. Bu şərt daxilində ermənilləri ərazi muxtariyyəti iddiasından və ingilislərə sığınmaqdan çəkindirməyə söz verdi.

1918 il martın 18 və 21-də Transqafqaz sülh nümayəndə heyətinin ümumi toplantısında verilən bəyanatda Brest-Litovsk sülhünün Transqafqaza dair maddələrinin məqbul olmadığı bildirildi. Hadisələrin bu cür inkişafı Trabzon sülh konfransının işini çətinləşdirdi. Buna görə nümayəndə heyətinin üzvləri Mir Yaqub Mehdiyev və Kaçaznuni məsləhətləşmə aparmaq üçün Tiflisə göndərildilər. Bu ərəfədə Azərbaycan nümayəndələri Türk nümayəndə heyəti ilə görüşərək, onları Batum məsələsindən çəkindirməyə çahşsalar da, buna nail ola bilmədilər. Transqafqaz sülh nümayəndə heyətinin erməni üzvləri də müstəqil fəaliyyət göstərirdi.

Daşnak lideri Xatisov Rauf bəyin yanına elçi göndərərək, onunla gizli görüş keçirmək istəyini bildirdi. Xatisov görüşün ilk şərti kimi, osmanlı ərazisindən qaçmış ermənilərin öz yerlərinə qaytarılmasını və onlara muxtariyyət verilməsini irəli sürdü. Belə olacağı halda, Xatisov Batum məsələsində gürcülərə təzyiq göstərəcəklərini vəd etdi. Hüseyn Rauf bəy bu şərt çərçivəsində görüşün keçirilməsinə razılıq vermədi.

1918 il aprelin 6-da Türk nümayəndə heyəti Brest-Litovsk sülhünün tanınması və Transqafqaz hökumətinin öz dövlət quruluşu haqqında bəyannamə təqdim etməsi ilə bağlı, onlara ultimatum verdi. Bununla Trabzon Sülh konfransının yeni mərhələsi başladı. Bu mərhələ Zaqafqaziya seymi və hökuməti daxilində milli fraksiyalar arasında qarşılıqlı inamsızlıq və ziddiyyətlərin dərinləşməsi dövrü kimi səciyyələnir [bax *Batum konfransı (1918)* və *Batum müqaviləsi* məqalələrinə].

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998; Məmmədzadə M.B., Milli Azərbaycan hərəkatı, B., 1992; Azərbaycan Cümhuriyyəti (1918-1920). B.. 1998; Kurat A.H., Türkiyə və Rusiya, Ankara, 1970; Документы и материалы внешней политики Закавказья и Грузии, Тифлис, 1969.

**TRANSQAFQAZ DƏMİR YOLU HAQQINDA SAZİŞ** - Cənubi Qafqaz dəmir yolunun hərəkət vasitələrinin bölüşdürülməsi haqqında Azərbaycan, Gürcüstan, Ermənistan və Osmanlı dövlətləri arasında bağlanmış saziş. 1918 il iyunun 4-də Batumda sülh danışıqlarında iştirak edən Azərbaycan, Gürcüstan, Ermənistan və Osmanlı dövlətlərinin səlahiyyətli nümayəndələri Cənubi Qafqaz dəmir yolu idarəsinin sərəncamında olan keçmiş Rusiya dövlətinə məxsus parovozların, yük və sərnişin vaqonlarının bölüşdürülməsi haqqında saziş imzaladılar. Sazişə görə, Cənubi Qafqaz dəmir yolunda mövcud olan hərəkət vasitələri razılığa gələn dörd tərəf arasında hər ölkənin ərazisindəki dəmir yolu xəttinin uzunluğuna uyğun surətdə bölüşdürülməli idi. Sazişi Azərbaycan Xalq Cümhuriyyəti adından Məhəmməd Əmin Rəsulzadə və Məmməd Həsən Hacınski, Osmanlı imperiyası adından Xəlil bəy və Vehib paşa, Gürcüstan Respublikası adından N.Ramişvili və Q.Qvazava, Ermənistan Respublikası adından A.Xatisov və R.Caçaznuni imzaladılar.

Azərbaycan və Osmanlı nümayəndələri arasında iyunun 4-də Batumda imzalanmış dostluq müqaviləsi ilə Cənubi Qafqazda dəmir yolu nəqliyyatının normal işinin təşkil edilməsi üçün ikitərəfli öhdəliklər də razılaşdırıldı. Müqavilənin 6-cı maddəsinə görə, tərəflər dəmir yolu ilə yük daşımalarında bir-birinə əlverişli şərait yaratmağı, aşağı tariflər müəyyən etməyi öhdələrinə götürür, dəmir yolunun istismarı və hərəkət vasitələrinin saz vəziyyətdə saxlanmasına, yeni dəmir yolu xətlərinin inşası üçün zəruri

downloaded from KitabYurdu.az

olan materialların daşınması zamanı xüsusilə aşağı tarif tətbiq edilməsinə razılıq verirdilər.

Osmanlı dövləti iyunun 4-də Ermənistanla bağladığı sülh və dostluq müqaviləsinə görə, Aleksandropol (Gümrü) - Culfa dəmir yolundan da istifadə hüququ əldə etdi. Ermənistanın ixtiyarında cəmi 6 *km-lik* dəmir yolu xətti qaldı. Osmanlı dövlətinin həmin gün Gürcüstan Respublikası ilə bağladığı sülh və dostluq müqaviləsinə görə, Türkiyə tərəfı bu ölkənin dəmir yollarından Almaniya ilə birlikdə istifadə etmək hüququ aldı.

Bu saziş və razılaşmalar hərbi əməliyyatlar zamanı ağır zərbə almış Transqafqaz dəmir yolunun bərpası və normal işləməsi üçün ilk addım oldu.

*Əd.:* Документы и материалы внешней политики Закавказья и Грузии, Тифлис, 1969. *Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998.

**"TURAN"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda fəaliyyət göstərmiş mətbəə-nəşriyyat. 1917 ilin iyulunda Bakıda Hacı İbrahim *Qasımov* tərəfindən məşhur naşir və jurnalist Haşım bəy *Vəzirovun* "Səda" mətbəəsinin bazasında yaradılmışdır. "Bəsirət" qəzeti 1917 ilin ortalarından "Turan" mətbəəsində nəşr olunmuşdur. "Turan" müxtəlif mövzuda kitablar da nəşr etmişdir. Onların arasında bədii ədəbiyyat, siyasi partiyaların nizamnamələri, dərsliklər və s.-də var idi. Mətbəədə həmçinin, dəftərxana ləvazimatı, vizit kartları, ştempel və möhürlər də hazırlanırdı.

*Əd.:* Azərbaycan kitabı (biblioqrafiya). 3 cilddə, c.l, B., 1963; "Bəsirət" qəzeti. 1917-1920 illər; Q ə r i b l i İ.. Məhəmməd Hadinin "İnsanların tarixi faciələri yaxud Əlvahi-intibah" poeması, B.. 2001.

**TURAN HEYƏTİ** - Rusiya imperiyası türk-müsəlman xalqlarının mədəni və siyasi hüquq tələblərini beynəlxalq aləmə çatdırmaq məqsədilə 1915 ilin dekabrında Avropaya səfər etmiş heyət. Tərkibinə Əli bəy Hüseynzadə (Azərbaycan), Yusif bəy Akçura və Əbdürrəşid İbrahimov (Tatarıstan), Məhəmməd Əsəd Çələbizadə (Krım), Mukiməddin Beycan (Buxara) daxil idilər. Heyət Sofiya, Budapeşt, Vyana və Berlində rəsmi görüşlər keçirmiş, Lozannada (İsveçrə) "Rusiyada azlıqda olan (və əzilən) millətlərin konqresi"ndə iştirak etmişdi. Bax *Rusiya müsəlmanları türk-tatar millətlərinin hüquq müdafiə cəmiyyəti.*

**TÜRK-ARAZ CÜMHURİYYƏTİ** Azərbaycanın Naxçıvan bölgəsində və onun çevrəsindəki ərazilərdə erməni-daşnak silahlı dəstələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi soyqırımları şəraitində yaradılmış dövlət qurumu (1918, noyabr - 1919, mart). Bax *Araz-Türk Cümhuriyyəti.*

**"TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT MÜSAVAT PARTİYASI",** "Türk Ədəmı-Mərkəziyyət firqəsi Müsavat", Türk Demokratik Federalistlər "Müsavat" partiyası - 1917 il iyulun 3-də *"Müsavat" a "Türk Ədəmi-Mərkəziyyət" partiyasının* birləşməsindən sonra yaranmış yeni partiyanın adı.

**"TÜRK ƏDƏMİ-MƏRKƏZİYYƏT" PARTİYASI,** "Türk federalistlər partiyası" - Fevral inqilabından (1917) sonra yaranmış Azərbaycan milli partiyası. 1917 il martın sonunda Nəsib bəy Yusifbəyli başda olmaqla və Şəfı bəy Rüstəmbəyli, Həsən bəy Ağayevin iştirakı ilə Gəncədə yaradılmışdı. "Qeyrət" partiyası ənənələrini davam etdirən partiya Rusiya məkanında federativ respublika yaradılması ideyasını irəli sürmüşdü. Partiyamn əsas dayağını kəndlilər və fəhlələr təşkil edirdilər. Öndərləri içərisində torpaq sahibləri də var idi. Partiyanın ideoloji təməli türkçülük idi. Partiya 1917 il aprelin 2-də Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə Şah Abbas məscidinin həyatində böyük mitinq təşkil etdi. Mitinqdə üzərində *"Yaşasın demokratik respublika". "Yaşasın Azərbaycan muxtariyyəti"* sözləri yazılmış qırmızı bayraqlar dalğalanırdı. "Kaspi" qəzetinin yazdığına görə, natiqlər gurultulu alqışlarla qarşılandılar. Qısa müddət ərzində partiyaya 500-dən çox üzv yazıldı. Partiya fonduna böyük məbləğdə ianə toplandı.

Partiyanın proqramı 19, 20, 24 may tarixli "Kaspi" qəzetində dərc olunmuşdu. Proqramda deyilirdi ki, "Türk ədəmi-mərkəziyyət fırqəsi" demokratik partiya kimi zəhmətkeş xalq kütlələrinə arxalanır və Rusiyanın islama etiqad edən bütün türk zəhmətkeş kütlələrinin iqtisadi-sinfi və milli-mədəni mənafelərini müdafiə etməyə çalışır. Partiya dövlətin federativ əsaslarla yenidən qurulması üçün "Dövlət quruluşu" adlı birinci bölmədə 9 tələb irəli sürürdü. Bütün türk xalqlarına, o cümlədən Azərbaycan, Türküstan. Qırğızıstan və Başqırdıstana ərazi muxtariyyəti verilməsi və beynəlxalq sülhün saxlanması üçün daimi qoşunun xalq milisi ilə əvəz olunması tələb edilirdi. "Ümummilli məsələ" adlı ikinci bölmədə Rusiya türklərinin mədəni-milli ittifaqının yaradılması, onun forma, tərkib və funksiyasının müəyyən edilməsi üçün qurultay çağırılması nəzərdə tutulurdu. "Dini məsələlər" adlı üçüncü bölmədə Rusiyanın bütün müsəlmanlarının müftinin başçılığı altında birləşdirilməsi fikri irəli sürülürdü. Dördüncü bölmə muxtar qurum vətəndaşlarının cinsi, milli mənsubiyyəti və dini etiqadından asılı olmayaraq, bərabır hüquqlara malik olmasını nəzərdə tuturdu.

*"Türk Ədəmi-Mərkəziyyət Firqəsi Müsavat"ın MK üzvləri. 1918*



Proqram maliyyə və iqtisadi siyasət sahəsində mütərəqqi vergi sistemini məqbul hesab edirdi. "Aqrar məsələ" bölməsində partiya dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə olan bütün torpaq sahələrinin, əvəzi ödənilmək şərtilə, müsa-

downloaded from KitabYurdu.az

dirə edilib torpaq fondu yaradılmasını nəzərdə tuturdu. Yeddinci bölmə "Fəhlə məsələsi" adlanır. Burada fəhlə qanunvericiliyinin yayılması və qanunun icrası üzərində fəhlə nəzarətinin qoyulması, 8 saatlıq əmək günü, qocalığa və iş qabiliyyətini itirməyə görə dövlət sığortası və s. öz əksini tapmışdı. "Məhkəmə icrası" bölməsi məhkəmənin hər cür təsirdən və təzyiqdən azad olmasını nəzərdə tuturdu.

"Məktəb məsələsi" adlı doqquzuncu bölmədə xalq maarifinin demokratik əsasda təşkili və azad tədrisi planlaşdırılırdı. Təhsil ibtidaidən aliyə birbaşa əlaqəli surətdə qurulmalı idi. İbtidai və orta məktəblərdə, türk və rus dilləri məcburi olmaq şərtilə, çoxluğun dili, ali məktəblərdə ümumi türk dili tədris olunmalı idi.

Qafqaz müsəlmanlarının qurultayında (1917, 15-20 aprel) "Türk ədəmi-mərkəziyyət" və "Müsavat" partiyaları eyni mövqedən çıxış edirdilər. 1917 il iyunun 2-ci yarısında "Müsavat" partiyası ilə "Türk ədəmi-mərkəziyyət" partiyası birləşərək, "Türk ədəmi-mərkəziyyət fırqəsi Müsavat" adı altında fəaliyyətə başladı.

Partiyanın 8 nəfərdən ibarət Mərkəzi Komitəsi yaradıldı ki, bu da Bakı və Gəncə bürolarını əhatə edirdi. Bakı bürosuna Məhəmməd Əmin Rəsulzadə, Məmməd Həsən Hacınski, Musa Rəfiyev, Mustafa Vəkilov, Gəncə bürosuna Nəsib bəy Yusifbəyli, Həsən Ağayev, Şəfi bəy Rüstəmbəyli və Mirzə Məhəmməd Axundov seçildilər. Bu iki partiyanın birləşməsi Azərbaycanda siyasi qüvvələr nisbətinin tənzimlənməsində, milli istiqlal uğrunda mübarizənin güclənməsində və bir səmtə yönəldilməsində mühüm rol oynadı, Azərbaycan muxtariyyəti və sonra istiqlaliyyəti ideyasının gerçəkləşməsinin zəminini qoydu.

*Əd.:* Azərbaycan tarixi. 7 cilddə. c.5. B.. 2001; Məmmədov X.M.. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər), B., 1996; Süleymanova S.Y.. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). B.. 1999; XX əsr Azərbaycan tarixi. c.2. B.. 2004; Валаев А., Азербаиджанское национальное движение в 1917-1918 гг., Б., 1998;

**TÜRK FƏHLƏ KONFRANSI** - Bakı mədən rayonu müsəlman fəhlələrinin konfransı. 1920 il aprelin 8-də *"Türk ocağı"* cəmiyyətinin binasında keçirilmişdir. Müsəlman fəhlələrinin maraqlarını müdafiə etmək, xalqların öz müqəddəratını təyin etmək və Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi prinsiplərinə cavab verə biləcək ali fəhlə orqanı yaradılmasının zəruriliyindən irəli gəlmişdir (ətraflı məlumat üçün bax *Müsəlman fəhlə konfransı).*

**"TÜRK GECƏLƏRİ"** - 1918 ilin sonlarında Bakıda təşkil edilən geniş proqramlı konsertlər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ruhun və milli ideyalarını güclənlənməsi nəticəsində milli mədəniyyətin təbliğinə və tədqiqinə, tarixi və milli ənənələrə maraq fövqəladə dərəcədə artmışdı. "Türk gecələri"nin təşkili də bununla əlaqədar idi. Maraqlı və orijinal proqramlı "Türk gecələri" konsertlərində türk xalqlarının musiqisinə və ədəbiyyatına geniş yer verilir, "Azərbaycanın müstəqilliyi", "Türk qadının dünyası", "Türk tipləri", "Milli birlik" və s. mövzularda tamaşalar göstərilirdi. Bu tədbirlərdə tatarlar, osmanlı türkləri, Azərbaycan və Türkiyə şair və yazıçıları, artistlər və rəssamlar iştirak edirdilər. Gecələrdə türk xalqlarının etnoqrafiyasına və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi sərgilər nümayiş etdirilirdi. Gecələrin bədii tərtibat hissəsinə Əzim *Əzimzadə,* ədəbi-vəkal hissəyə *"Yaşıl qələm " cəmiyyətinin* üzvləri rəhbərlik edirdilər. "Türk gecələri" konsertlərində Məhəmməd Əmin Rəsulzadə məsul müdir kimi çıxış edirdi. "Müsavat" partiyasının və Azərbaycan Hökumətinin üzvləri və digər siyasi xadimlər də bu konsertlərin keçirilməsində bilavasitə iştirak edirdilər.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998.

**"TÜRK OCAĞI'** - türk xalqlarının milli ruhda tərbiyəsinə, elmi, ictimai və iqtisadi səviyyəsinin tərəqqisinə nail olmaq məqsədilə yaradılmış cəmiyyət. 1911 il martın 12-də İstanbulda təsis olunmuşdur. Cəmiyyət eyni adlı klublar, məktəblər açmağa, kitab və risalələr nəşr etməyə çalışırdı. Həmin dövrdə İstanbulda yaşayan Əli bəy Hüseynzadə. Əhməd bəy Ağaoğlu və Məhəmməd Əmin Rəsulzadə də "Türk ocağı" nda çalışmışlar.

Bakıda da eyni adlı xeyriyyə cəmiyyəti yaradılmışdı. 1918 il sentyabrın 24-də Cavad Axundzadə (Əhməd Cavad), Abdulla Şaiq Tahbzadə, Abbasqulu Kazımzadə, Kərbəlayi Vəli Mikayılzadə və Tağı Nağızadə Bakı şəhər komendatına müraciətlə, "Osmanlı türkləri ilə Azəri türklərini bir-birinə yaxından tanıtmaq üçün" bir "Türk ocağı" cəmiyyəti açmağa icazə verilməsini xahiş etmişdilər. Azərbaycan Xalq Cümhuriyyətinin daxili işlər naziri Behbud xan Cavanşir müraciət ərizəsinin üzərində belə bir kənar qoymuşdu: "Türk ocağı"nın proqramı dairəsində açılmasına məhdudiyyət yoxdur". Oktyabrın 7-də cəmiyyətin açılmasına icazə verilməsi barədə Bakı vitse qubernatorunun imzası və qubernatorluğun möhürü ilə təsdiqlənmiş 731 saylı vəşiqə verilmişdi. Abdulla Şaiq onun surətində vəsiqəni aldığını və proqramın iki nüsxəsini təqdim etməyi öhdəsinə götürdüyünü yazmışdı.

"Azərbaycan" qəzetinin 1918 il 6 noyabr tarixli 32-ci sayında hökumət tərəfindən "Türk ocağı" cəmiyyətinin yaradılmasına icazə verildiyi bildirilərək, onun məram və məqsədi barədə yazılmışdı: ***"İndi türklüyü sevən, millətinə kömək etmək istəyən hər bir ziyalı türk, bu ocağın başına yığışmalı, bu ocağı öz səyi və müavinəti ilə işıqlandırmalı, hərarətləndirməlidir ki, bu ocaq da öz işığı ilə millətimizi işıqlandırıb, öz istisi ilə milli vücudumuzu isindirə bilsin".*** Qəzetdə cəmiyyətin 5 fəsil və 22 maddədən ibarət proqramı da dərc olunmuşdu. Əhməd Cavadın noyabrın 14-də "Azərbaycan" qəzetində dərc edilmiş məqaləsində isə "Türk ocağı" nın fəaliyyətə başladığı və ilk mühazirəni noyabrın 15-də ocağın konfrans salonunda Məhəmməd Əmin Rəsulzadənin oxuyacağı bildirilirdi.

1919 ilin dekabrında "Müsavat" partiyası Bakı Komitəsinin təşəbbüsü ilə "Türk ocağı" siyasi klubunun açılması qərara alınmışdı. Bu məqsədlə Məhəmməd Əmin Rəsulzadə, Şəfı bəy Rüstəmbəyli. Rza bəy Ağabəyov, Seyid Hüseyn və Məmmədbağır Şeyxzamanlıdan ibarət komissiya yaradılmışdı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə. c.5. B., 2001.

**TÜRKÇÜLÜK** - böyük dövlətlərin əsarəti altında olan türk xalqlarının birliyinə əsaslanan ideya-siyasi cərəyan. Türk xalqları birliyinin əleyhinə olan, buna görə də ona qarşı mübarizə aparan və ya bu birlikdən öz məqsədləri üçün istifadə etməyə çalışan siyasi dairələrin türkçülüyə münasibəti mürtəce pantürkizm doktrinasında əks olunmuşdur. Türkçülüyün meydana çıxması obyektiv tarixi şəraitin nəticəsi idi. Avropanın müstəmləkəçi dövlətlərinin və Rusiya imperiyasının türk xalqlarına qarşı siyasəti milli azadlıq hərəkatına və milli oyanışa təkan vermişdi. Türkçülük ideya-siyasi cərəyan kimi. əsasən, çar Rusiyasının zülmü altında türklərin azadlıq mübarizəsinin təsiri ilə formalaşmışdı. 1897 il

downloaded from KitabYurdu.az

məlumatına görə, Rusiya əhalisinin (125635,2 min nəfər) 10,8%-ni (13599,2 min nəfər) türk xalqları təşkil edirdi. 1914-17 illərdə onların sayı mütləq rəqəmlərlə artdığı halda (16634,5 min nəfər) imperiya əhalisi (168828,5 min nəfər) içərisində payı 9,8%-ə enmişdi. Türkçülük ideologiyasının banisi, böyük Azərbaycan mütəfəkkiri Ə.Hüseynzadə hesab olunur. Tədqiqatçıların fkrincə. Onun türkçülük görüşlərinin inkişafında Türkiyədə Əbdülhəmid istibdadına qarşı təşkil olunan "İttihad və tərəqqi" təşkilatında iştirakı və 1905-07 illər rus inqilabının təsiri mühüm rol oynamışdır. Ə.Hüseynzadənin türkçülük baxışlarının ifadəsində 1892 ildə yazdığı "Turan" şeri mühüm yer tutur. Bu şer o dövrdə ziyalılar arasında geniş yayılmasına baxmayaraq, ilk dəfə 1915 ildə Yusif Akçura tərəfındən yaddaşında hifz olunanlara əsasən bərpa olunub çap edilmişdir:

***Sizlərsiniz ey kavmi Macar bizlərə ihvan***
***Ecdadımızın müstərəkən menşei Turan.***
***Bir dindeyiz biz, həpimiz hakperestan;***
***Mümkünmü ayırsın bizi İncil ilə Quran?***
***Cengizləri titrətti şu afaki səraər***
***Timurlan hükmetti şehinşahlara yekser,***
***Fatihlərinə geçti bütün keşveri kayser.***

Türkçülüyün tarixində Ə.Hüseynzadənin əsas xidmətlərindən biri onu siyasi müstəviyə keçirməsi olmuşdur. Onun fıkrincə. İslamlaşmaq türklərin dini məfkurəsidirsə, türkləşmək milli məfkurəsidir. Azərbaycanda türkçülük ideologiyasının təşəkkülündə və inkişafında Ə.Ağayevin də böyük rolu olmuşdur. Rusiyada türkçülük ideologiyasının möhkəmlənməsində İsmayıl bəy Qaspralının da xidməti böyükdür. Onun "Dildə, işdə, fikirdə birlik" şüarı türkçülük tarixində xüsusi yer tutur. Türkçülük ideologiyasının formalaşmasında Osmanlı imperiyası türkləri içərisində baş verən milli oyanış da ayrıca qeyd edilməlidir. Ziya Göyalpın yazdığına görə "türkçülüyün ilk ataları Əhməd Vefiq paşa ilə Süleyman paşadır". Ziya Göyalp özü də türkçülüyün təşəkkülü və elmi müstəviyə keçməsi sahəsində mühüm işlər görmüşdür. Türkçülər arasında "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarı mühüm yer tutmuşdur. Z.Göyalp 1918 ildə bu adda kitab nəşr etdirmişdi. Osmanlı imperiyasının süqutu, Türkiyə Respublikasının qurulması Z.Göyalpın türkçülük baxışlarını daha da inkişaf etdirməsinə böyük təkan verdı. O, 1923 ildə "Türkçülüyün əsasları" adlı kitabını yazdı. Kitabın birinci bölümündə türkçülüyün mahiyyəti, ikinci bölümündə isə türkçülüyün proqramı şərh olunmuşdur. Türkçülük ilk dövrlərdə turançılıq (türk xalqlarının vahid dövlətdə birləşməsi) ideyası ilə də bağlı olmuşdur. Bu, özünü Z.Göyalpın baxışlarında da göstərir. O, 1911 ildə nəşr etdirdiyi "Turan" şerində yazırdı:

***Vətən nə Türkiyədir türklərə, nə Türküstan,***
***Vətən böyük və müəbbət bir ölkədir: Turan.***

Lakin o, tədricən turançılıqdan uzaqlaşmış, türkçülük baxışlarını təbliğ etmişdir.

Türkçülük yalnız baxışlar sistemi olmamış, siyasi-dövlətçilik fəaliyyətinə də müəyyən təsir göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin siyasətində türkçülüyün həyata keçirilməsinə xüsusi fikir verilmiş, bu baxışlar sistemi onun bayrağında da təsbit edilmişdir. Türk birliyi ideyası "Müsavat" partiyasının ideologiyasında da özünə yer almışdı. Bu ideya Türkiyə Respublikasının yaranmasında da öz tarixi rolunu oynamışdı. Təsadüfi deyil ki, Atatürk Ziya Göyalpı özünün mənəvi atası adlandırmışdı.

Türkçülüyün ideya düşmənləri onun tərəfdarlarını pantürkist adı ilə damğalamış, onları təqib etmişlər. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra qurulan Azərbaycan SSR-də Azərbaycan xalqının qabaqcıl oğullarına qarşı həyata keçirilən repressiyalar zamanı "pantürkist" ittihamlarından geniş istifadə olunmuşdu.

*Əd.:* Ziya Göyalp. Türkçülüyün əsasları. B.. 1991; Bünyadov Z. Qırmızı terror. B.. 1993; Hüseynzadə O.. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar, B., 1996; yeno onun, Türklər kimdir və kimlərdən ibarətdir. B.. 1997; Qarayev Y.. Əli bəyin irsi və varisləri...Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. B., 1996; Qasımov M.. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (V bölüm. Rusiyanın Quzey Azərbaycanda islamçılara və türkçülərə qarşı mübarizəsi). B.. 2000; Şükürov K..Türk xalqları XVI-XX yüzilliklərdə: say dinamikası (Çar Rusiyası və Sovctlər İttifaqı üzrə). B.. 1997; Həsonova E.Y., Türkiyədə türkçülük ideologiyasının yaranması məsələsinə dair Türkiyə respublikası və Osmanlı dövləti, B.. 2000; Bayat A.H., Ali Bey Hüseyinzade ve Türkiyede yayınladığı eserleri, İstanbul. 1992:

**"TÜRKİYƏ ERMƏNİSTAM" HAQQINDA DEKRET** - Rusiya Sovet Federativ Sosialist Respublikası Xalq Komissarları Sovetinin Türkiyənin daxili işlərinə qarışmasını və ermanipərəst siyasət yeritməsini təsdiq edən avantürist qanunvericilik aktı. Dekret 1917 il dekabrın 29-da (1918, 11 yanvar) verilmiş, 1918 il 15 (28) yanvarda üçüncü Ümumrusiya Sovetlər qurultayı tərəfindən təsdiq edilmişdi. Dekreti XKS sədri V.Ulyanov (Lenin), Millətlər məsələsi üzrə xalq komissarı İ.Cuqaşvili (Stalin). XKS-nin işlər müdiri V.Bonç-Bruyeviç, XKS-nin katibi N. Qorbunov imzalamışdı. Oktyabr çevrilişindən (1917) sonra sovet Rusiyası

downloaded from KitabYurdu.az

keçmiş Rusiya imperiyası tərəfından Cənubi Qafqaza köçürülüb gətirilən və burada yaşayan ermənilərin mənafeyini hərtərəfli müdafiə edir. dövlət və partiya işlərində onlara böyük etimad göstərirdi. S.Şaumyan Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin olunmuşdu. Lakin RSFSR XKS bununla kifayətlənməyərək, Türkiyədə yaşayan ermənilərin müdafıəçisi kimi də çıxış etməyə başlamışdı. Sovet hökuməti ermənilərdən istifadə edərək, Türkiyənin daxili işlərinə qarışmağa əl atmış, təhlükəli xarici siyasət xətti seçmişdi. "Türkiyə Ermənistanı" haqqmda sənədin dekret şəklində ortaya çıxması da bu xarici siyasət xəttinin bir təzahürü idi. Dekret preambula 4 maddə və qeyddən ibarətdir. Preambulada Rusiya XKS erməni xalqının Rusiyanın işğal etdiyi "Türkiyə Ermənistan"nda tam müstəqilliyədək öz müqəddəratım təyin etmək hüququnu tanıdığını bildirirdi. XKS belə hesab edirdi ki, bu hüququn həyata keçirilməsi erməni xalqının azad referendumu üçün mütləq zəruri olan bir sıra ilkin təminatlar şəraitində mümkündür. Dekretdə bu təminatların "Türkiyə Ermənistanı" hüdudlarından qoşunların çıxarılması, qaçqın və məcburi köçürülmüş ermənilərin maneəsiz geri qayıtması, erməni xalqının Deputatlar Soveti şəklində "Türkiyə Ennənistanı"nın müvəqqəti Xalq İdarəsinin yaradılması və s. olması göstərilirdi. Dekretin həyata keçirilməsində əsas rol S.Şaumyana ayrılırdı. Bu onu göstərir ki, həmin dekretin hazırlanmasında onun da rolu olmuş, sovet Rusiyası, faktik olaraq, erməni siyasətinin gerçəkləşdirilməsinə çalışan Şaumyana geniş səlahiyyət vermişdi. Dekretin qeydində "Türkiyə Ermənistan"nın coğrafi sərhədlərinin müəyyənləşdirilməsindən söhbət gedir. Buradan aydın olur ki, RSFSR XKS-nin "Türkiyə Ermənistan"nın coğrafi sərhədləri barədə tam anlayışı yoxdur. Digər tərəfdən isə, onun müəyyən edilməsi üçün elmi-siyasi məntiqə uyğun gəlməyən bir üsul irəli sürülür. Bu coğrafi sərhədlər erməni xalqının, qarışıq və mübahisəli bölgələrin müsəlman və digər əhalisinin demokratik yolla seçilmiş nümayəndələri ilə razılaşma əsasında, Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissarla birlikdə müəyyən edilməli idi. Göründüyü kimi, dekret qanunvericilik aktının və beynəlxalq hüququn ən adi tələblərinə cavab vermirdi, onun əməli cəhətdən həyata keçirilməsi də mümkün deyildi. Ona görə də RSFSR XKS-nin digər ilk sənədləri kimi, bu dekret də deklarativ və avantürist səciyyə daşıyırdı. Lakin sovet hökuməti xarici siyasət xəttində Atatürkün başçılığı ilə İstiqlal savaşının qələbəsinin labüd olduğunu və hər iki tərəfın qarşılıqlı mənafeyini nəzərə alaraq. Tezliklə Türkiyəyə münasibətində əsaslı dəyişiklik etdi. 1918-23 illərdə Türkiyə ilə münasibətlərdə əsaslı irəliləyişlər baş verdi. 1921 ildə Moskva və Qars müqavilələri imzalandı. Bax *Moskva müqaviləsi (1921)* və *Qars müqaviləsi (1921)* məqalələrinə.

*Əd.:* документы Внешней политики СССР, т.1, М. 1957.

**TÜRKMƏNÇAY MÜQAVİLƏSİ (1828)** - Rusiya ilə İran arasında Azərbaycan torpaqlarımn bölüşdürülməsinin başa çatması, Şimali Azərbaycanın Rusiyanın, Cənubi Azərbaycanın İranın tərkibinə qatılmasını təsbit edən sənəd. *Gülüstan müqaviləsindən (1813)* sonrakı dövrdə Rusiya-İran münasibətlərinin kəskinləşməsi yeni müharibəyə gətirib çıxardı. 1826 ilin iyulunda İran ordusu Arazı keçərək, Şuşanı mühasirəyə aldı, lakin şəhər təslim olmadı. İyulun 26-da Salyan tutuldu. Sentyabr ayınadək Talış, Şirvan, Şəki, Qarabağ əyalətləri və Yelizavetpol (Gəncə) dairəsi ələ keçirildi. Bundan sonra Rusiya əks tədbirlər gördü, Şamxor, Gəncə və başqa döyüşlərdə qələbə çaldı, itirilən mövqelər geri qaytarıldı. 1827 ilin fevralınadək ciddi döyüşlər baş vermədi.

Müharibə ilə əlaqədar Rusiyanın 1826 il sentyabrın 16-da elan etdiyi "Bəyannamə"də gələcək sülh müqaviləsinin əsas müddəaları ümumi şəkildə şərh olunmuşdu. Rus qoşunlarının Qafqazdakı baş komandanı A.P.Yermolovun və A.S.Menşikovun 1826 il noyabrın 17-də Rusiyanın xarici işlər naziri qraf K.V.Nesselrodeyə təqdim etdikləri yazılı qeydlərdəki təkliflər və Gülüstan müqaviləsinin ayrı-ayrı maddələri əsasmda sülh və ticarət müqaviləsinin layihəsi tərtib olundu. Layihə 1827 ilin aprelində müzakirə edildikdən sonra sülh müqaviləsinin maddələrini və ticarət haqqmda xüsusi aktı əsaslandıran təlimat hazırlandı. Rusiya diplomatı A.M.Obrezkov gələcək müqavilənin şərtlərinin izah edildiyi çar fərmanını 1827 il mayın 24-də Calaloğlu yaxınlığındakı düşərgəyə gətirdi.

Sülh haqqında ilkin danışıqlara İran tərəfindən cəhdlər (1827 ilin fevralında) bir nəticə verməmişdi. Buna görə də rus qoşunları yeni hücuma başlamış, iyunun 26-da Naxçıvan döyüşsüz tutulmuş, iyulun 7-də Abbasabad təslim olmuşdu. İyulda danışıqlar yenidən başlanmışdı. Türkiyə ilə müharibə təhlükəsi artdığına görə Rusiya sülh bağlanmasını sürətləndirməyə can atırdı. Lakin bu niyyətdən bir nəticə hasil olmadığına görə yeni baş komandan İ.F.Paskeviç oktyabrda İrəvanı tutdu. Hələ 1826 ilin sonunda Cənubi Azərbaycan torpaqlarına daxil olan rus qoşunları həmin istiqamətdə hücumu genişləndirdilər. Oktyabrın 13-də Təbriz tutuldu. Noyabrın 6-da Dehqarqanda yenidən danışıqlar başladı. Rusiya nümayəndə heyətinə İ.F.Paskeviç, A.S.Qriboyedov, A.M.Obrezkov, A.K.Amburger, N.D.Kiselyov və tərcüməçilər Abbasqulu Ağa Bakıxanov və Q.M.Vlaqali daxil idilər.

Danışıqlarda İran tərəfini vəliəhd Abbas Mirzə, qaimməqam Fərrahani, bəylərbəyi Fətəlixan, katib Mirzə Məhəmməd Əli və fransız dili tərcüməçisi Mirzə Məsud təmsil edirdi. Təzminat məsələsində bəzi ciddi narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Buna görə də rus qoşunları yenidən hücuma keçməklə, İrana təzyiqi gücləndirdilər. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu. Bu vəziyyət müqavilə bağlanmasını sürətləndirdi. 1828 il fevralın 9-dan 10-na keçən gecə saat 12.00-da, Abbas Mirzənin münəccimi tərəfindən müəyyən edilmiş vaxtda Mianə şəhərindən 33 *km.* şimal-qərbdə olan Türkmənçay kəndində müqavilə imzalandı. Bu münasibətlə rus toplarından 101 yaylım atəşi açıldı.

Müqavilə 16 maddədən ibarət idi.

downloaded from KitabYurdu.az



Naməlum türk əsgərinin qəbri. Şamaxı rayonu, Acıdərə vadisində

1-ci maddədə tərəflər arasında "bundan sonra əbədi sülh, dostluq və tam razılıq" olacağı bildirilirdi; 2-ci maddə Gülüstan müqaviləsi üzrə qarşılıqlı təəhhüdlərin başa çatdığını və onun Türkmənçay müqaviləsilə əvəz olunduğunu təsdiq edirdi: 3-cü maddə ilə İran İrəvan və Naxçıvan xanlıqlarını Rusiyaya güzəştə getdiyini etiraf edirdi; 4-cü maddə sərhədləri müəyyənləşdirirdi: "İran şahı... Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların... Rusiya imperiyasına məxsus olduğunu" tanıyırdı. Müqaviləyə görə, İran Rusiyaya iyirmi milyon gümüş manat təzminat verməli idi (6-cı maddə).

Gülüstan müqaviləsində olduğu kimi, yenə də Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlaya bilərdi (8). 12-15-ci maddələr əhalinin hərəkəti, əsirlər və başqa məsələlərə həsr edilmişdi.

Türkmənçay müqaviləsinin ayrı-ayrı maddələrinin hazırlanmasında A.Qriboyedov mühüm rol oynamışdı. İ.F.Paskeviç qeyd etmişdir ki, 4 və 13-cü maddələr Qriboyedov tərəfindən "yaxşılaşdırılmış". 14-cü maddə isə genişləndirilmişdir. Dəyişikliyin əsas hissəsini ermənilərin köçürülməsinə və təzminatın həcminə aid maddələr təşkil edirdi. Tarix ədəbiyyatında 12, 14 və 15-ci maddələrin müəllifi A.S.Qriboyedov sayılır.

Türkmənçay müqaviləsi Rusiya tərəfindən 1828 ilin martında, İran tərəfindən iyulda ratifikasiya edilmişdir. Fətəli şahın ratifikasiya fərmanı Axalkalaki qalasını mühasirə edən rus ordusunun düşərgəsində İ.F.Paskeviçə təqdim olunmuşdur. Bu barədə iyulun 29-da tərtib edilmiş protokolu İ.F.Paskeviç, A.S.Qriboyedov və İran tərəfindən Mirzə Cəfər imzalamışlar.

Türkmənçay müqaviləsi vahid Azərbaycan xalqının və onun torpaqlarının iki yerə parçalanmasını başa satdırdı. Azərbaycanın şimalında 1918 ildə müstəqil Azərbaycan dövləti - *Azərbaycan Xalq Cümhuriyyəti* yaradıldı. *Aprel işğalı (1920)* ilə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra Türkmənçay müqaviləsi rəsmən RSFSR və İran arasında 1921 ilin fevralında bağlanmış müqavilənin 11 -ci maddosilə qüvvədən salınmışdır.

**TÜRKÜN QƏBRİ** - Nuru paşanın komandanlığı altında 1918 ildə Azərbaycan xalqına qardaşlıq köməyinə gəlmiş Qafqaz İslam Ordusunun (QİO) döyüşçüsü olan naməlum türk hərbçisinin Bakı-Şamaxı avtomobil yolunun kənarında, Acıdərə vadisində qəbri. Qodir Əfəndi adlı türk zabitinin qəbri olduğu ehtimal edilir.

Şamaxının Təklə kəndinin Məlik Məmməd adlı sakini bu qəbri abadlaşdıraraq, üstünü götürmüşdür. Qəbrin üzərinə qoyulmuş sənduqədə aşağıdakı kitabə həkk olunmuşdur: "Bir türk oğlu qəhrəmanındır bu məzar. Gör necə yer ilə yeksan eləyibdir xar-zar. Ərseyi - hərb içrə bir aslanındır bu məzar. Bu qəbir Osmanlı alayı qoşunlarından olan zabitin qəbridir. Qafqaza gəldi, müharibə etdi və şəhid oldu... 1336 ildə şərəfli şəhadət daddı, ilqarını seçdi" (yazıda şəhidlik tarixi 1336 il göstərilir. Əslində, 1918 il hicri-şəmsi ilə 1334 ilə uyğun gəlir).

Qəbir 1964 ildə yenidən abadlaşdırılmışdır. Bu dəfə belə bir qayğını əslən şamaxılı olan Bakı sakini Babaxan Qara oğlu Rzaxanov öz üzərinə götürmüşdür. Türk əsgərinin qəbrinin üstü və ətrafı sonuncu dəfə 2000 ildə abadlaşdırılmışdır. Bu işin təşəbbüsçüsü Türkiyənin Azərbaycandakı hərbi attaşesi tuğ general Sadık Ercandır. Qəbrin abadlaşdırılması və yaxınlıqdakı meydançada QİO-nun şəhid olmuş döyüşçülərinə qoyulmuş abidə türk mütəxəssisləri tərəfindən layihələşdirilmişdir. Abadlaşdırma işləri zamanı qəbrin ətrafı möhkəmləndirilmiş, kənarlarına daş döşənmiş və önündə Azərbaycanın və Türkiyənin bayraqları qaldırılmışdır.

Xatirə abidəsi qəbirdən 250 metr aralıdadır. Abidə səlcuq memarlığının ənənələrinə uyğun ucaldılmışdır. Əsasını 2.5 *metr* hündürlüyündə 1.20x1,20 metrlik platforma üzərində qranit daş təşkil edir. 74.24 *kv.m* sahəni əhatə edən abidənin ön tərəfində ağ rəngdə ay-ulduz şəkli və kitabə həkk edilmişdir.

*Əd.:* Süleymanov M, Azərbaycanda türk şəhidlikləri, B.. 2000.

downloaded from KitabYurdu.az

# U

**UFA DIREKTORİYASI** - Oktyabr çevrilişindən (1917) sonra Ufada bolşeviklərə qarşı yaradılmış hakimiyyət orqanı. 1918 il sentyabrın 23-dən noyabrın 18-dək fəaliyyət göstərmişdir. Ufa direktoriyası oktyabrın 9-da Ufadan Omska köçmüşdü. Direktoriya Rusiyanın yenidən birləşdirilməsi uğrunda mübarizə aparır, Avstriya-alman blokuna qarşı müharibənin davam etdirilməsi tərəfdarı kimi çıxış edirdi. Sibir, Ural və Uzaq Şorqdə Kolçak hakimiyyətinin bərqərar edilməsinə kömək göstərirdi. Lakin A.V. Kolçak 1918 il noyabrın 18-də çevriliş edərək Ufa direktoriyasını da qovmuş, özünün hərbi diktaturasını qurmuşdu. General Biçeraxov Kolçakla əlaqə yaratmışdı. O, Bakıya müdaxilə edən ingilis hərbi qüvvələrinin komandanı Tomsonla əlaqə yaradaraq. Kolçak hökumətinə tabe olmadığı halda, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini buraxmağa təhrik edirdi. Lakin Biçeraxovun dövlət çevrilişi cəhdlərinin üstü açıldıqdan sonra, onun hərbi hissələri buraxıldı.

*Əd.:* N ə s i b z a d ə N., Azərbaycan Demokratik Respublikası (məqalələr və sənədlər). B.. 1990; От первого лица, М., 1990.

**ULTİMATUM** (lat. *ultimatum* - sona çatdırılma; lat. *ultimus* - sonuncu, axırıncı) – beynəlxalq hüquqda bir dövlətin başqa dövlətə müəyyən şərtləri yerinə yetirmək haqqında qəti tələbi; diplomatik sənəddə, yaxud, şifahi şəkildə bildirilir. Ultimatumun yerinə yetirilməməsi həmin dövlətə qarşı təsir tədbirlərinin tətbiqinə səbəb ola bilər. Dövlət daxi-lində müxtəlif orqanlar və ya insanlar arasında bir-birinə qarşı qəti tələblərə də şamil edilir.

"Ultimatum məsələsi" Azərbaycan Xalq Cümhuriyyətinin də son dövründə özünü göstərmişdi. Bəzi tarixi ədəbiyyatda Həmid Sultanovun Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransının adından hakimiyyəti Nəriman Nərimanovun başçılıq etdiyi fəhlə-kəndli Şura hökumətinə təslim etmək barədə Çingiz İldırım tərəfindən tərtib edilmiş ultimatumu Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə təqdim etdiyi göstərilir. Bəzi ədəbiyyatda isə əksinə AK(b)P MK, Bakı Bürosu və MFK-nın ultimatumunun Ç.İldırımın ultimatumu ilə eyni zamanda təqdim olunduğu bildirilir. Hər iki fikir yanlışdır. Tarixi faktlardan aydın olur ki, burada iki ultimatumdan söhbət gedir. Parlamentə, ilk olaraq, H.Sultanovun gətirdiyi ultimatum təqdim olunmuşdu. H.Sultanov həmin hadisəni bolşeviksayağı təsvir edərək yazmışdı ki, ultimatum parlamentin iclası zamanı təqdim olunduqda "Parlament üzvləri özlərini o qədər itirdilər ki, tam bir dəqiqə ağızlarını belə aça bilmədilər. Parlamentdə sədrlik edən doktor Ağayev ultimatumu oxuduqda. Ağamalıoğlu yerindən səslənərək, "vəssalam, bazar bağlandı..."-dedi". Ç.İldırımın ultimatumu tərtibi və göndərməsi isə belə təsvir olunur: topları hökumət binaları və parlamentə yönəlmiş hərbi gəmidə Ç.İldırım bloknotundan bir vərəq qopararaq, ultimatumun mətnini yazır. onu Y.Lukyanenko ilə parlamentə göndərir. H.Sultanovun yazdıqlarından aydın olur ki, Ç.İldırımın ultimatumu parlamentə ondan tez və ya eyni vaxtda daxil olsaydı, orada təsir olunduğu kimi göziənilməzlik şəraiti yarana bilməzdi. Buradan aydın olur ki, Ç. İldırımın ultimatumu sonra, əvvəlki ultimatumun müzakirəsi zamanı daxil olmuşdu. H.Sultanovun təqdim etdiyi ultimatumda deyılirdi: "Azərbaycan parlamentinə və hökumətinə. Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsi adından Azərbaycan proletariatı və zəhmətkeş kəndlilərinin iradəsini ifadə edərək Mərkəzi Komitə qan tökülməsinin qarşısını almaq naminə hakimiyyəti dərhal bolşeviklər partiyasına təslim verməniz ultimatum şəkildə qarşınızda qoymağı özünə borc bilir...". Azərbaycan parlamenti 1920 il aprelin 27-də saat 20.45-də ultimatumun müzakirəsinə başlamışdı. Ultimatumun əsas müddəaları M.H.Hacınskinin parlamentdəki çıxışında bir daha səsləndirilmişdi.

Ç.İldırımın ultimatumunda isə deyilirdi: "Azərbaycan hökumətinə və parlamentinə. Azərbaycan Sosialist Şura Cümhuriyyətinin Qızıl donanması hakimiyyəti dərhal başda yoldaş Nərimanov olmaqla fəhlə-kəndli Şura hökumətinə verməniz tələb edir. Qızıl donanma bu halda, milliyyətindən asılı olmayaraq, butün Bakı şəhər əhalisinə asayiş və əmin-amanlıq təmin edir. Cavab, almandan sonra, 2 (iki) saat ərzində verilməlidir. Əks təqdirdə, atəş açılacaqdır. Şura Azərbaycanının Qızıl donanma komandanı. Mühəndis İldırım. 27 aprel 1920-ci il".

Parlament iclasının stenoqramından aydın olur ki, burada H.Sultanovun təqdim etdiyi ultimatum müzakirə obyekti olmuşdur. Müzakirələrin sonunda hakimiyyətin bolşeviklərə təhvil verilməsi haqqında qərar qəbul edilmişdi. Hər iki ultimatumun meydana çıxdığı tarixi şəraitin, təqdim edilməsinin forma və üsulunun. Qəbulu şəraitinin təhlili Azərbaycan Xalq Cümhuriyyətinin güc yolu ilə devrildiyini bir daha təsdiq edir.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.2, B., 1998; Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; K a t i b l i M., Çingiz İldırım, B.. 1964; R ə s u l z a d ə M.Ə., Azərbaycan Cümhuriyyəti, B., 1990.

downloaded from KitabYurdu.az

**UMUDOV** Mirzə Mansur Mirzə Hakim oğlu (18.3.1898, Daşkənd - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsilə göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Daşkənd realnı məktəbini bitirmişdir 1917). Kiyev Politexnik İnstitutunun mexanika şöbəsinə qəbul olunmuş, lakin Rusiyada Oktyabr çevrilişindən (1917) sonra və maddi çətinlik üzündən geri qayıtmağa məcbur olmur. 1919 ilin 10 dekabrında Azərbaycanın xalq maarif nazirinə göndərdiyi ərizədə Türküstanın, türk mədəniyyətinin inkişafı naminə ona təhsilini davam etdirmək üçün yalnız yol xərci ödənilməklə Fransaya göndərilməsini xahiş etmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, Fransaya təhsil almağa göndərilmişdir. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.





*General İbrahim ağa Usubov ailəsi ilə. 1914. Xarkov*

**USUBOV** İbrahim ağa Musa ağa oğlu (1872-1920) - hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru. Tiflis kadet korpusunu və Xarkov piyada hərbi məktəbini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti elan edilənədək rus ordusu sıralarında Rusiya-Yaponiya (1904-05) I və Birinci dünya müharibələrində iştirak etmişdir. *Əlahiddə Azərbaycan korpusunun* tərkibində xidmət Nazirlər Şurasının 1918 il iyul tarixli qərarı ilə general-mayor rütbəsinə layiq görüldüyü güman edilir. 1918 il noyabrın 15-də Usubov hərbi-təhsil müəssisələrinin rəisi və qoşunlarda atıcılıq işinin rəisi, türk hərbi qüvvələri Azərbaycanı tərk edəndə isə 1-ci piyada diviziyasının komandiri təyin olunmuşdur. 1919 ilin ilk günlərindən Hərbi Nazirlikdə tapşırıq generalı vəzifəsini icra edən Usubova həmin il iyulun 19-da daha bir məsul vəzifə - yenicə təşkil edilmiş 2-ci piyada diviziyasına rəhbərlik də tapşırıldı. O, bir müddət Şimal sərhədinin mühafizəsini gücləndirmək üçün təşkil olunmuş *Xaçmaz dəstəsinin* də rəisi olmuşdu. 1919 il sentyabrın 23-də Usubov Azərbaycan ordusuna hərbi geyim almaq üçün İtaliyaya ezamiyyətə göndərildi. Onun rəhbərlik etdiyi nümayəndə heyəti lazımi miqdarda geyimin əldə edilməsi üçün Genuya, Milan, Turin, Verona və Triyento şəhərlərindəki müəssisələrlə danışıqlar aparsa da, onların ancaq bəziləri ilə müəyyən razılığa gəlmək mümkün oldu. Əldə edilən paltarların Azərbaycana yola salınması bolşevik Rusiyasının dəstəkləyən İtaliya sosialistlərinin təzyiqi nəticəsində xeyli ləngimişdi. Usubov 1920 il fevralın 17-də uzunmüddətli ezamiyyətdən geri qayıtdı. Onun əldə etdiyi hərbi geyimlər isə ancaq 1920 il aprel işğalı ərəfəsində Azərbaycana yetişdiyindən 11 -ci Qırmızı ordu tərəfindən qənimət götürüldü. Bakıya qayıdandan sonra Usubov 2-ci piyada diviziyasının komandiri saxlanılmaqla, həm də Bakı İstehkamçılar hissəsinin rəisi təyin olundu. 1920 il aprelin əvvəllərində Usubov bir müddət, müvəqqəti olaraq, hərbi nazir vəzifəsini də icra etmişdi. *Aprel işğalından (1920)* sonra Usubov Sovet orqanları tərəfindən həbs edilərək Nargin adasında güllələnmişdir.



*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; N ə z i r l i Ş., Cümhuriyyət generalları, B., 1995.

**"UŞAQ EVİ"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət xeyriyyə cəmiyyəti. 1913 ildə yaradılmış "Uşaq xəstəxanası" cəmiyyətinin varisi kimi 1915 ilin yanvarından fəaliyyətə başlamışdır. Hacı Zeynalabdin Tağıyev cəmiyyətin fəxri üzvü, Əli bəy Aşurbəyov, Sadıqov qardaşları, M.Səlimov ömürlük, Haşım bəy Vəzirov, Mehdi bəy Hacınski həqiqi üzvləri idilər. Cəmiyyətin əsas məqsədi yoxsul və kimsəsiz uşaqların yaşayışını yüngülləşdirmək idi. "Uşaq evi" Azərbaycan Xalq Cümhuriyyəti illərində cinsindən, milliyyətindən və dinindən asılı olmayaraq, qəyyumluq etdiyi uşaqların tərbiyəsi ilə məşğul olur, onlara peşə təhsili verirdi. Cəmiyyət, həmçinin, kimsəsiz uşaqlar üçün müxtəlif səhər tamaşaları göstərirdi. *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır. "UŞAQ HƏKİMLƏRİ DƏRNƏYİ" - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət qurumu. 1919 ildə yaradılmışdı. Sədri tanınmış uşaq həkimi *Y.A.Gindes* idi. Dərnək üzvləri İsveç gimnastikası, uşaqlarda bir sıra yoluxucu xəstəliklərin profilaktikası və müalicəsi sahəsində təcrübə mübadiləsi aparır, qabaqcıl müalicə üsullarının tətbiqinə səy göstərirdilər. *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır. "UŞAQ ÖLÜMÜ İLƏ MÜBARİZƏ CƏMİYYƏTİ" Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət xeyriyyə qurumu. 1907 ildə yaradılmışdı. Sədri tanınmış uşaq həkimi Y.A.Gindes idi. Liza xanım Muxtarova (neft sənayeçisi Murtuza Muxtarovun həyat yoldaşı), İsrafıl bəy və Tağı bəy Səfərəliyevlər cəmiyyətin fəxri üzvləri, F.B.Rüstəmbəyov, İsa bəy Aşurbəyov, Fətəli xan Xoyski və başqaları cəmiyyətin həqiqi üzvləri olmuşlar. Cəmiyyətin məqsədi uşaq ölümünün artmasının qarşısını almaq, cinsindən, sosial mənşəyindən, milli və dini

downloaded from KitabYurdu.az

mənsubiyyətindən asılı olmayaraq, bütün uşaqların fiziki inkişafının qayğısına qalmaq idi. Cəmiyyət yoxsul uşaqlarına pulsuz yemək verir, evlərdə, xəstəxanalarda onlara tibbi yardım göstərir, uşaqları körpələr evi, yetimxana və sanatoriyalarda yerləşdirirdi. Cəmiyyət südlü yemək mətbəxləri, pulsuz uşaq yeməkxanaları, südün və s. pulsuz verildiyi ambulatoriyalar təşkil edirdi. Cəmiyyətin sərəncamında bir sıra müəssisələr var idi: şəhər müalicəxanası (həftənin müəyyən günlərində burada uşaqlara qulluq edilməsi və onların qidalanmasına aid məsləhətlər verilirdi); Balaxanı müalicəxanası - zəif südəmər uşaqlar üçün sığınacaq (burada mədə-bağırsaq xəstəlikləri keçirmiş 1 -2 yaşlı uşaqlar yerləşdirilirdi, ilk dəfə olaraq, cəmiyyət tərəfindən təşkil edilmişdi); Zuğulba uşaq koloniyası (burada vərəmdən əziyyət çəkən 5-14 yaşlarında 75 uşaq saxlanılırdı). Cəmiyyət *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır.

**UŞAQLARA YARDIM BÜROSU** Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət xeyriyyə təşkilatı. Azərbaycan xalqına qarşı *Mart soyqırımı (1918)* nəticəsində kimsəsiz qalmış uşaqlara yardım məqsədilə həmin ilin sentyabrında yaradılmışdı. Büronun sərəncamında bir sıra uşaq sığınacaqları var idi. 1918 ilin dekabrında kimsəsiz uşaqlar üçün səhiyyə və sanitar-gigeyena işlərinin son dərəcə ciddi qurulduğu şəraitdə körpələr evləri açılmışdı. 1919 il martın ortalarında Büro "Körpələr evi" nəzdində azyaşlı uşaqlar (1 yaşından 7 yaşınadək) üçün xüsusi uşaq bölmələrinin təşkilinə başlamışdı. Büro müsəlman uşaq sığınacağına yardım göstərirdi. Xeyriyyə tədbirləri də keçirilirdi: ucuz ağ çörək bişirilərək, onun satışından gələn gəlir, milliyətindən asılı olmayaraq, yetimxanalara sərf edilirdi. İsa bəy Sadıqbəyov, Hənifə Zeynalabdin oğlu Tağıyev, Qasım Qasımov, Yusif Abdullayev, Tağı Nağıyev, Baba bəy Qocayev, Zeynəb xanım Səlimxanova və b. büroya ianələr vermişdilər. Yay vaxtlannda Büro "Nina" barjasını icarəyə götürərək, vərəmdən əziyyət çəkən 130-dək uşağını səhhətinin yaxşılaşmasına şərait yaratmışdı. 1918 ilin sonu – 1919 ilin əvvəllərində Bakıda yatalaq epidemiyası zamanı Büro şəhərin fəhlə rayonlarında uşaqlar üçün gündüz evləri açmışdı. Uşaqlar saat 8-dən 18-ə qədər həmin evlərdə yeməklə təmin edilir, xəstələndikdə onlara tibbi yardım göstərilirdi. *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır.

**"UŞAQLARI MÜHAFİZƏ CƏMİYYƏTİ"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş qeyri-hökumət xeyriyyə təşkilatı. Y.*A.Gindesin* təşəbbüsü ilə yaradılmışdı (1917). Sədri Y.A.Gindes, sədr müavini isə Eynülhəyat *Yusifbəyli* (Azərbaycan Xalq Cümhuriyyəti 4-cü və 5-ci hökumət kabinələrinin başçısı Nəsib bəy Yusifbəylinin həyat yoldaşı) olmuşdur. Cəmiyyətin məqsədi Bakıda yaşayan 17 yaşınadək uşaqların həyat şəraitini hərtərəfli öyrənmək, əhalini onların yaşayış tərzi və bütün ehtiyacları ilə geniş tanış etmək idi. Cəmiyyət xüsusi uşaq məhkəməsi təşkil etməklə, kimsəsiz uşaqların cinayətkar aləmdən uzaqlaşdırılmasına, onların yenidən tərbiyələndirilməsinə və cəmiyyətə faydalı vətəndaşlar kimi yetişdirilmələri üçün etibarlı əllərə verilməsinə səy göstərirdi. Uşaq məhkəməsinin nəzdində uşaq koloniyası vardı. *Aprel işğalından (1920)* sonra fəaliyyətini dayandırmışdır.

downloaded from KitabYurdu.az

# Ü

**ÜÇÜNCL HÖKUMƏT KABİNƏSİ** Azərbaycan Xalq Cümhuriyyəti dövründə ali icra hakimiyyəti orqanı. 1918 il dekabrın 7- də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin işə başladığı gün Fətəli xan *Xoyski* özünün 1-ci və 2-ci müvəqqəti hökumət kabinələrinin gördüyü işlər haqqında parlament qarşısında hesabat verərək, hökumətin istefasını qəbul etməyi parlamentdən xahiş etdi. Parlament F.x.Xoyski hökumətinin istefasını qəbul edərək, yeni-3-cü hökumət kabinəsinin də təşkilini ona tapşırdı. F.x.Xoyski yeni hökumət kabinəsi yaratmaqdan imtina etsə də, parlamentə sədrlik edən Həsən bəy Ağayevin təkidindən sonra buna razılıq verdi. Dekabrın 26-da parlamentin 5-ci iclasında F.x.Xoyski Parlament üzvlərini özünün formalaşdırdığı hökumət kabinəsinin proqramı ilə tanış etdi və hökumətin tərkibini açıqladı. Parlament təklif olunan tərkibi təsdiq etdi. Parlamentin etimad göstərdiyi 3-cü hökumət kabinəsi aşağıdakı tərkibdə idi: F.x.Xoyski - Nazirlər Şurasının sədri və xarici işlər naziri; Xəlil bəy *Xasməmmədov* - daxili işlər naziri; *İ.Protasov* - maliyyə naziri; Xudadat bəy *Məlik-Aslanov* - yollar naziri; Səməd bəy *Mehmandarov* - hərbi nazir; Nəsib bəy *Yusifbəyli* - maarif və dini etiqad naziri; Aslan bəy *Səfikürdski* - poçt. teleqraf və əmək naziri; Yevsey *Gindes* - xalq səhiyyəsi naziri; Teymur bəy *Makinski* - ədliyyə naziri; Rüstəm xan *Xoyski* - himayədarlıq naziri; Mirzə *Əsədullayev* - ticarət və sənaye naziri; Konstantin *Lizqar* - ərzaq naziri; Xosrov Paşa bəy *Sultanov* - əkinçilik və dövlət əmlakı naziri; Məmməd Həsən *Hacınski* - dövlət nəzarəti naziri. M.H.Hacınskinin Azərbaycan nümayəndə heyətinin tərkibində Paris Sülh Konfransına getməsi ilə əlaqədar 1919 ci il yanvarın ikinci yarısından dövlət nəzarəti naziri vəzifəsini Əliğa *Həsənov* icra etməyə başladı.

1919 ilin yanvar və fevral aylarında parlamentdəki sosialistlər, "İttihad" və "Əhrar" fraksiyalarının üzvləri tərəfindən F.x.Xoyskinin təşkil etdiyi 3-cü hökumət kabinəsi ədalətsiz tənqid edildiyindən kabinə istefa verdi. Lakin Parlamentin xahişi ilə, N.Yusifbəyli aprelin 14-də Cümhuriyyətin 4-cü hökumət kabinəsini təşkil edənə qədər, F.x.Xoyskinin 3-cü hökumət kabinəsi öz fəaliyyətini davam etdirmişdi. Bax, həmçinin, *Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti* məqaləsinə.

**ÜÇÜNCÜ LOZANNA KONFRANSINDA TÜRK-TATAR HEYƏTİ** - Rusiya imperiyası türk xalqlarının millətlər birliyinin üçüncü Lozanna konfransında (1916, 27-29 iyun) iştirak edən nümayəndə heyəti. Nümayəndə heyətinin tərkibinə azərbaycanlılardan Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu, Kazandan Yusif Akçura və İbrahim Əbdurrəşid, buxaralı Beycan Mukiməddin, qazax və qırğızlar adından Məhəmmədsəfər Əhmədov, Dağıstandan qumıq Əhmədsaib Kaplanov, Seyid Tahir, çərkəz Əziz Məkər və b. daxil idilər. Heyət üzvləri İsveçrə, Osmanlı dövləti, Bolqarıstan, Almaniya və Avstriya-Macarıstanda konfranslar keçirərək ictimai rəyi Rusiya İmperatorluğunda yaşayan türklərin problemlərinə yönəltməyə çalışmışlar. Üçüncü Lozanna konfransında nümayəndə heyətinin birgə mətn təqdim etmək hüququ olmadığı üçün nümayəndələr ayrı-ayrılıqda öz millətlərinin vəziyyəti, haqlarının pozulması barədə çıxışlar etmiş, onların həlli yollarını göstərmişdilər. Konfransın gedişində nümayəndə heyəti üzvlərinin tələbləri çap edilərək (18 səhifə) yayımlanmışdır. Nümayəndələr konfransa hələ 1915 ilin dekabrında çap olunmuş memorandum təqdim etmişdilər. Memorandumda deyilirdi: ***"Rusiya öz təbəəsi olan türk və digər müsəlman xalqlarının ən təbii məmburə müqəddəs haqlarını cəbrən əbərindən almışdır. Onlara öz irqdasları ilə hər cür təmas və münasibət təsisi yasaq edilmişdir. Məsələn, kazanlı vəya qafqazlı türkə Türküstan və qırğız yerlərində mülk və ərca torpaq almaq qətiyyən qadağandır. Rusiyadakı müsəlmanlar ən miiqəddəs dini vəzifələrini belə icradan məhrum bıraxılırlar, hər cür dini və milli tərbiyə imkanı onların əllərindən alınmışdır. Əllərimizi göyə qaldıraraq xahiş edirik: bizi rus zəncirindən xilas ediniz".*** Bununla belə, müharibədə Rusiyaya qarşı hərbi əməliyyatlar aparan dövlətlər türk və müsəlman xalqlara diqqətlərini artırsalar da, onların hüquqlarının müdafiəsi üçün əməli addımlar atmadılar (bax, həmçinin *Rusiya müsəlmanları türk-tatar millətlərinin hüquq müdafiə cəmiyyəti).*

*Əd.:* Məmmədzadə M.B., Milli Azərbaycan hərəkatı. B.. 1992; Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə, h. l. B.. 2000; Kurat M., Türkiye ve Rusiya. Ankara, 1990; Bayat Ali Haydar, Hüseynzade Alibey, Ankara, 1998.

**ÜMMÜGÜLSÜM,** Sadıqzadə Ümmügülsüm Əbdüləziz qızı (1899, Bakı yaxınlığındakı Novxanı kəndi - 1944, Şamaxı) - Azərbaycan şairi. Ruhani ailəsində doğulmuşdur. Məhəmməd Əmin *Rəsulzadənin* əmisi qızıdır. Ailəsi uzun müddət M.Ə.Rəsulzadənin ailəsi ilə bir həyətdə yaşamış. Sonralar Ümmügülsümün bacısı Ümmübülbanu xanım M.Ə.Rəsulzadə ilə ailə həyatı qurmuşdur.

Ümmügülsüm 9 yaşından şeir yazmağa başlamış, "İqbal". "Yeni iqbal", "Açıq söz". "Qurtuluş", "Dirilik". "Məktəb",

downloaded from KitabYurdu.az



*Şairə Ümmügülsümün portreti.*
*Rəssam Oqtay Sadıqzadə*

"Qardaş köməyi", "Azərbaycan" və s. qəzet və jurnallarda şerləri, hekayələri dərc edilmişdir. "Solğun çiçək" hekayəsi "Qurtuluş" jurnalının elan etdiyi müsabiqədə mükafata layiq görülmüşdür. Burada o, jurnalın redaktoru, sonralar ailə qurduğu görkəmli yazıçı Seyid Hüseynlə tanış olmuşdur.

1918-20 illər Ümmügülsüm yaradıcılığının ən məhsuldar dövrüdür. O, Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılamış, şerlərində xalqımızın milli istiqlala qovuşmasını tərənnüm etmişdir. Bütün xalqlar kimi, Azərbaycan xalqının da azad yaşamaq hüququnu müdafiə edən şairə milli istiqlalın qorunmasına çağırış ruhlu əsərlər ("Türk ordusuna", "Ey türk oğlu!", "Çəkil, dəf ol!", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" və s.) yazmışdır.

Ümmügülsümün 1920 il aprelin 28-də Cümhuriyyətin devrilməsi ilə əlaqədar yazdığı "Hicran" və "Bayrağını enərkən" şerləri Azərbaycan ədəbiyyatında bununla bağlı yazılmış dəyərli əsərlərdəndir. "Hicran" şerində şairə yazırdı:

*Ayrılınca hilal qaşlı yanımdan, Mən yaslara batdım, geymədim əlvan. Düşünüb o yıldız gözləri hər an, Ağlarkən, kəndini yorma dedilər. Könül şəkvəsini kimə söyləsin, Qəlbimin dərdini kimlər dinləsin? Səni sevən, sənsiz ömrü neyləsin?*

*Dalınca qoşarkən, varma dedilər...*
*Günəşim bir daha doğmayacaqmı?*
*Vəhşi qaranlığı boğmayacaqmı?*
*Kölgələri şəfəq qovmayacaqmı?*
*Sordum, ümidini qırma dedilər.* "Bayrağını enərkən" şerində isə deyilirdi:

*Yazıq səni Bayrağım, endirdilər, öylə mi?*
*Səni yıxıb devirən o zəhərli ruzigar,*
*O, haqq yeyən haqsızlar, vəhsilər, tanrısızlar*
*Yanar ocağımı da söndürdülər, öyləmi?*
*Bir röyamı oldu o gördüklərim, həpisi?*
*Bağlandımı üzümə türk elinin qapısı?* 1937 ildə Seyid Hüseyn həbs edildikdən sonra Ümmügülsüm də "xalq düşməni"nin arvadı kimi həbs olunaraq, bir müddət Bayıl həbsxanasında saxlanıldıqdan sonra Rusiyanın Moldva vilayətinə 8 illik sürgünə göndərilmiş, əsərləri yasaqlanmışdır. 30-cu illər ədəbi-tənqidində Ümmügülsüm Cümhuriyyət dövründə yazdığı şeirlərdən daha çox, "Hicran" və "Bayrağını enərkən" şeirlərinə və M.Ə.Rəsulzadəyə həsr etdiyi "Bən" şerinə görə "xalq düşməni", "sosializmin düşməni", "müsavatçı" kimi ittiham edilmişdir. Bu şeirlər 20-30 illərdə Türkiyədə, Azərbaycan siyasi mühacirləri arasında dillər əzbəri olmuş, M.Ə.Rəsulzadə mühacirətdə yazdığı əsərlərində onlardan xüsusi bəhs etmişdir.

Ümmügülsüm, eyni zamanda, 1937 ildə Bayıl həbsxanasında bolşevik rejimini ittiham edən şeirlər yazmış yeganə Azərbaycan şairidir. "Xəzərə xitab" şeri bu cəhətdən səciyyəvidir. Şair dənizə müraciətlə yazırdı:

*Darmadağın eylə dalğalarınla*
*Bizi dar divara alan qalanı.*
*Heçliklərə sovur nalələrinlə*
*Çıxılmaz tilsimə salan qalanı.*
*Nəymiş təqsirimiz, neyləmişik biz?*
*Bunu sən sual et, mənim dilim yox.*
*Hansı xəyanətin şərməndəsiyiz?*
*Bunu sən sual et, mənim dilim yox.*

Ümmügülsüm sürgündən sonra Bakıya dönsə də, onun burada yaşamasına icazə verilməmiş, Şamaxıya sürgün olunmuş və orada vəfat etmişdir. Qızı Qumral Sadıqzadə atası Seyid Hüseynə həsr olunmuş "Son mənzili Xəzər oldu" romanının 2-ci hissəsində Ümmügülsümdən də geniş bəhs etmişdir.

Ə s ə r l ə r i: "Gözümüz yaşlıdır, sinəmiz dağlı". Şeirlər (tərtib və ön söz Aydın Hüseynzadənindir), B., 1992; Şeirlər, "1500 ilin oğuz şeri" antologiyasında, c. l, B., 1999.

*Əd.:* Tağıyev R., "Ümmügülsüm", "Azerbaycan qadını" jurnalı, 1971, № 2; Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998.

**ÜMUMİ QƏRARGAH** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoşun hissələrinin təşkilinə, komplektləşdirilməsinə, həmçinin təchizatı, təlim-tərbiyəsi, döyüş hazırlığı və döyüş vəzifələrinin icrasına rəhbərlik edən hərbi orqan. Əsası Səməd bəy *Mehmandarovun* 1918 il 15 noyabr tarixli əmri ilə qoyulmuşdu. O vaxta qədər *Əlahiddə Azərbaycan*

downloaded from KitabYurdu.az

*korpusunun* qərargah rəisi olan polkovnik Həbib bəy *Səlimov* Ümumi qərargahın rəisi təyin edilmişdi. Qərargah ləvazimat, istehkam, növbətçi general, general-kvartirmeyster, topçu, tibb, hərbi təhsil və nəzarət şöbələrindən ibarət idi. Səməd bəy Mehmandarovun göstərilen emri ilə pol-kovnik Həmid bəy *Qaytabaşı* növbətçi general, polkovnik Seyfulla Mirzə *Qacar* ləvazimat, general-mayor Murad Gəray *Tlexas* topçu şöbələrinin, general-mayor İbrahim ağa *Usubov* hərbi təhsil şöbəsinin rəisi və qoşunlarda atıcılıq işi müfəttişi vəzifələrinə təyin olunmuşdular.

*Tomson* missiyasının fəaliyyətə başlaması ilə 1918 il noyabrın 22-də Hərbi Nazirliklə bərabər, Ümumi qərargah da Gəncəyə köçdü və fəaliyyətini burada davam etdirdi. Hərbi nazirin 1918 il 31 dekabr tarixli əmri ilə topçu şöbəsinin bazasında *Baş topçu idarəsi* yaradıldı və həmin struktur Ümumi qərargahın tərkibindən çıxarılaraq, birbaşa hərbi nazirə tabe etdirildi. İstehkam şöbəsinin də strukturu və səlahiyyətləri genişləndirilərək, İstehkam idarəsinə çevrildi və o da Ümumi qərargahın tərkibindən çıxarılaraq, hərbi nazirə tabe etdirildi.

1919 ilin martında hərbi nazirin əmri ilə *Ərkani-hərb* (Baş qərargah) yaradıldı. Bununla əlaqədar general-kvartirmeyster, topoqrafiya şöbələri Ümumi qərargahın tərkibindən alınaraq, Ərkani-hərbə verildi. Yeni struktur dəyişikliyindən sonra Ümumi qərargahın səlahiyyətində, əsasən, qoşunların və xidmətlərin təminat və təchizat məsələləri qaldı. 1919 il avqustun 17-də imzalanmış əmrə əsasən, Ümumi qərargahın tərkibində olan nazirlik dəftərxanası hərbi nazirin özünə, *Praporşiklər məktəbi* ilə zirehli qatarlar Ərkani-hərb rəisinə, avtomobil hissəsi isə istehkam idarəsinin rəisinə tabe etdirildi. 1920 ilin martında ordunun ali idarəetmə strukturlarında aparılan islahatlardan sonra Ümumi qərargahla Ərkani-hərb yenidən birləşdirildi və onlann bazasında Azərbaycan ordusunun Qərargahı təsis edildi. Həbib bəy Səlimov qərargah rəisi təyin olundu.

*Əd.:* Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998

**ÜMUMRUSİYA MÜƏSSİSLƏR MƏCLİSİ** - dövlətin idarə formasını müəyyən etmək və konstitusiya hazırlamaq üçün ümumi seçki hüququ əsasında yaradılan ali nümayəndəli orqan. Bax *Müəssislər məclisi.*

**ÜMUMRUSİYA MÜƏSSİSLƏR MƏCLİSİNƏ SEÇKİLƏR** - Rusiyada Fevral inqilabından (1917) sonra yaranan Müvəqqəti hökumətin üali nümayəndəli qanunvericilik orqanı yaratmaq məqsədilə ümumi seçki hüququ əsasında həyata keçirdiyi seçkilər. 1917 ilin noyabr-dekabr aylarında (Azərbaycanda noyabrın 26-29-da) keçirilmişdir. Azərbaycanda Ümumrusiya Müəssislər Məclisinə seçkilər üzrə komissiyaya Fətəli xan Xoyski rəhbərlik edirdi. "Müəssislər Məclisinə seçki haqqında Əsasnamə" qadınların, hərbi qulluqçuların səsverməyə buraxılması, dairələrin çoxunda proporsional seçki sisteminin tətbiqi və s. baxımından demokratik sənəd idi. "Müsavat" partiyası Azərbaycanın bütün siyasi partiya və təşkilatlarını seçkilərdə vahid siyahı ilə çıxış etməyə çağırdı. "Müsəlman sosialist bloku" milli qüvvələrin vahid seçkiqabağı blokunu yaratmaq haqqında "Müsavat"ın təklifinə qoşulsa da, aqrar məsələ ətrafında onların arasında fikir ayrılığı yarandı. Ümumrusiya Müəssislər Məclisinə seçkilərdə müstəqil siyasi qüvvə kimi, əsasən, dörd Azərbaycan partiyası -"Müsavat", "Müsəlman sosialist bloku", menşevik "Hümmət" və "İttihad" partiyaları iştirak edirdilər.

Azərbaycan milli qüvvələrinin, xüsusilə "Müsavat"ın güclənməsindən ehtiyatlanan bolşeviklər, menşeviklər, eserlər, kadetlər öz aralarındakı ixtilafları kənara qoyub, "Müsavat"a qarşı vahid cəbhədə çıxış etdilər.

Cənubi Qafqaz dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, müsavatçılar və daşnaklar, ümumilikdə, səslərin 73%-ni qazandılar. Səslərin sayına görə Cənubi Qafqaz üzrə ikinci yerə çıxan müsavatçılar bolşeviklərdən 6 dəfə çox səs topladılar. Azərbaycan milli hərəkatında "Müsavat" partiyasının aparıcı mövqeyi seçkilər nəticəsində əyani təsdiqini tapdı. Azərbaycan partiyalarının aldığı səslərin 66,5%-i "Müsavat"ın payına düşürdü.

Azərbaycan partiyalarına verilən səslərin 17,2%-ini alan "Müsəlman sosialist bloku"nun uğuru onun aqrar məsələlərdə radikal mövqeyi ilə izah oluna bilər. Belə ki, blok səslərin çoxunu Azərbaycanın qərbindəki kənd rayonlarında qazanmışdı. Azərbaycan partiyalarına verilən səslərin 9,1%-ini menşevik "Hümmət", 7,2%-ini "İttihad" partiyaları aldı.

Ümumrusiya Müəssislər Məclisinə seçkilərdə bütün Rusiya üzrə bolşeviklər 23,9% səs toplaya bildilər və Məclisdə üstünlüyü 62%-dən çox səs toplamış eser və menşeviklər bloku əldə etdi. Bu tərkibdə işə başlayan Ümumrusiya Müəssislər Məclisi bolşevik platformasında durmadığı üçün bir gün sonra buraxıldı (ətraflı məlumat üçün bax *Müəssislər Məclisi).*

**ÜMÜMRUSİYA MÜSƏLMANLARI İTTİFAQI** Rusiya müsəlmanlarının siyasi təşkilatı. Rusiya imperiyası ərazisində yaşayan türk xalqları 1905-07 illər inqilabının təsiri ilə öz azadlıqları uğrunda mübarizəyə qalxdı. Bu yöndə uğur qazanmaq üçün imperiya ərazisində yaşayan bütün türk xalqlarının qüvvələrini birləşdirmək zəruri idi. Həmin məqsədlə 1905 il mayın 20-də Peterburqda Rusiya müsəlmanları nümayəndələrinin ilk birgə yığıncağı toplandı. Yığıncaq iştirakçıları Rusiya müsəlmanlarının ümumi siyasi təşkilatını yaratmaq barədə razılığa gəldilər. Rusiya müsəlmanlarının növbəti toplantısına qədər yaradılacaq partiyanın proqram layihəsinin hazırlanıb, növbəti toplantı iştirakçılarının müzakirəsinə verilməsi qərara alınırdı.

Rusiya müsəlmanlarının 1906 il yanvarın 13-23-də Peterburqda keçirilən 2-ci qurultayı Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanmış Rusiya Müsəlmanları İttifaqı partiyasının nizamnamə və proqram layihələrini bəyəndi, təkmilləşdirilmək şərti ilə, qəbul üçün növbəti qurultaya təqdim olunmasını tövsiyyə etdi. 1906 il avqustun 15-21-də Nijni Novqorodda keçirilən 3-cü qurultayda Rusiya Müsəlmanları İttifaqının proqramı qəbul olundu.

downloaded from KitabYurdu.az

Proqram "Siyasi məqsədlər", "Əhalinin hüququ", "Dövlət quruluşu", "Dini qaydalar", "Məhəlli muxtariyyət", "Məhkəmə", "Maarif", "Maliyyə işləri", "Torpaq məsələsi" və "Fəhlə məsələsi" adlı 10 fəsil və 72 maddədən ibarət idi. İttifaqın başlıca məqsədi zamanın, yaranmış vəziyyətin və öz proqramının tələblərinə uyğun olaraq, Rusiya müsəlmanlarının siyasi, iqtisadi, ictimai və dini işlər sahəsində fəaliyyətlərini əməli cəhətdən əlaqələndirmək və istiqamətləndirmək idi. Proqramın fəsillərində milliyyətindən, dinindən, cinsindən asılı olmayaraq, ölkənin bütün əhalisinin qanun qarşısında bərabərliyi, sinfi imtiyazların, ölkədə dinlərə və millətlərə münasibətdə qanunların yaratdığı məhdudiyyətlərin tamamilə ləğv edilməsi, qanun çərçivəsində hər bir şəxsin toxunulmazlığı və azadlığı tələb olunurdu. Hər bir şəxsin mənzil toxunulmazlığı, mülki toxunulmazlığı, istədiyi yerdə yaşamaq hüququnun, dini etiqad, sərbəst toplaşma, söz, mətbuat və vicdan azadlığının təmin edilməsi məsələləri proqramda geniş əksini tapmışdı. Proqramda ölkənin hər yerində vətəndaşlara cinsi, dini, milli fərq qoymadan ümumi, bərabər və gizli səsvermə yolu ilə məhəlli milli muxtariyyətlərin təsis olunması, ölkənin hər yerində ana dilində ibtidai məktəblərin açılması, təhsilin icbari və pulsuz olması, yeni məktəb və mədrəsələrin açılması, sənaye məktəblərinin, kolleclərin, ali məktəblərin artırılmasına xüsusi diqqət yetirilməsi, kəndlilərə torpaq sahələrinin ayrılması, onların kənd təsərrüfatı alətləri ilə təmin edilməsi, fəhlələrə lazımi iş şəraitinin yaradılması, onların iş saatlarının dəqiq müəyyənləşdirilməsi, fəhlələrin iş saatlarından əlavə vaxtlarda istismar olunmasının qadağan edilməsi, qadın və uşaq əməyinin qorunması və s. tələblər göstərilirdi.

Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanmış bu proqram qurultayda maddə-maddə müzakirə edilərək, əlavə və dəyişikliklərlə qəbul olundu. "İttifaq" Bakı şəhərini, müvəqqəti olaraq, partiyanın siyasi mərkəzi seçdi. Bu, təsadüfi olmayıb, Ə.M.Topçubaşovun partiyanın Proqramının hazırlanmasında və Ümumrusiya müsəlmanları qurultaylarının keçirilməsindəki fəaliyyətinin məntiqi nəticəsi idi. Ə.M.Topçubaşov qurultaydakı çıxışında demişdi: ***"Ey möminlər, ey qardaşlar. Mən bu gün o qədər məmnun oldum ki, bu məmnuniyyətimi sizə heç bir dillə tərfədə bilmirəm. Mən bu günü heç vaxt unutmayacağam. Bu günün indən belə Ümumrusiya müsəlmanları üçün milli bayram günü olacağı şübhəsizdir".***

Qurultayda avqustun 15-nin bütün Rusiya müsəlmanları tərəfindən ümumi bayram günü kimi qeyd edilməsi də qərara alındı. "İttifaqi-müslimin"in Mərkəzi Komitəsinin Ə.M.Topçubaşov daxil olmaqla. 15 nəfərdən ibarət daimi bürosu seçilmişdi (bax, həmçinin *"İttifaqi-müslimin* ").

*Əd.:* Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992.

**ÜMUMRUSİYA MÜSƏLMANLARININ QURULTAYLARI** - Rusiya imperiyasında yaşayan müsəlman xalqlarının sosial-iqtisadi və mədəni tərəqqisi problemlərinin birlikdə həll edilməsi üçün onların siyasi cəhətdən təşkilatlanması məqsədilə çağırılmış qurultaylar. Ümumrusiya Müsəlmanları İttifaqının *("İttifaqi-müslimin* ") yaradılması, bu təşkilatın təsis qurultayının çağırılması ideyası 1905 ilin əvvəllərində Şimali Azərbaycanda meydana çıxmışdı. 1905 il aprelin 8-də Rusiya müsəlmanlarının müştərək siyasi qurumunu yaratmaq məqsədilə Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Alim əfəndi Maksud və Binyəmin Əfəndi Ədhəm Peterburqda Rəşid əfəndinin evində toplandılar. Bir neçə gün sonra Krımdan gələn İsmayıl bəy Qasprah da onlarla həmfıkir olduğunu bildirdi.

**Rusiya müsəlmanlarının 1-ci qurultayı** 1905 il avqustun 15-də Nijni Novqorodda yarmarka zamanı keçirildi. Qurultayda 150-dək nümayəndə iştirak edirdi. Hökumətin rəsmi razılığı olmadan keçirilən qurultaya Qafqaz, Krım, Kazan, Türküstan, Sibir və b. yerlərdən nümayəndələr gəlmişdi. İsmayıl bəy Qasprah qurultayın sədri, Əlimərdan bəy Topçubaşov, Rəşid İbrahimov və Əbülsüqut Axtyamov isə onun müavinləri seçildilər. Qurultayı Ə.Topçubaşov açdı. Qurultayda müzakirə edilən əsas məsələlərdən biri siyasi və mədəni sahədə bütün Rusiya müsəlmanlarını birləşdirməyə qabil müsəlman siyasi partiyasının yaradılması məsələsi idi. Müzakirələrdən sonra "İttifaqi-müslimin"in (Ümumrusiya Müsəlmanları İttifaqı) yaradılması qərara alındı. Qurultayın qəbul etdiyi qətnamədə bütün Rusiya müsəlmanlarının vahid hərəkat çərçivəsində birləşdirilməsi, bütün millətlərin nümayəndələrinin bərabər surətdə təmsil olunması əsasında Rusiyada konstitusiyalı monarxiyanın qurulması, müsəlman və rus əhalisinin hüquqi cəhətdən bərabərliyi, müsəlmanlara qarşı ayrı-seçkilik salan bütün qanunların və idarəetmə metodlarının ləğv edilməsi, müsəlmanların mədəni tərəqqisi müddəaları əksini tapmışdı.

**Rusiya müsəlmanlarının 2-ci qurultayı** 1906 il yanvarın 13-23-də Peterburqda gizli şəraitdə, rəsmi icazə olmadan keçirilmişdi. Qurultayda müsəlman burjuaziyası, ruhani və ziyalılarının 100-ə yaxın nümayəndəsi iştirak etmişdi. Azərbaycan müsəlmanlarının nümayəndələri - Əli-mərdan bəy Topçubaşov, Qara bəy Qarabəyli və Əsədulla Axundov qurultayın işində fəal iştirak etmişlər. Qurultayda "İttifaq"ın proqram və nizamnamə layihələri (Ə.Topçubaşov tərəfindən hazırlanmışdı), 1-ci Dövlət Dumasına seçkilərdə taktikası müzakirə olunmuşdu. 23 bənddən ibarət nizamnamə və müvəqqəti proqram layihəsi qəbul edilmiş, növbəti qurultaya qədər çatışmazlıqların aradan qaldırılması tövsiyə olunmuşdu. Qurultay Duma seçkilərində kadetlərlə birlikdə hərəkət etməyi qərara almışdı.

**Rusiya müsəlmanlarının 3-cü qurultayı** 1906 il avqustun 15-21-də yenə də Nijni Novqorodda keçirildi. Qurultayda 800 nümayəndə iştirak edirdi. Qurultaya Ə.Topçubaşov sədrlik edirdi. Qurultayın işində müsəlman qəzetlərinin naşirləri də iştirak edirdi. Qurultay hər biri 15 nəfərdən ibarət iki komissiya (təhsil və dini işlər üzrə) yaratdı. Komissiya sədrlərinin məruzələri əsasında 33 maddəlik "Məktəb islahatı" və 13 maddədən ibarət dini siyasətin təkmilləşdirilməsi haqqında qərar qəbul edildi.

downloaded from KitabYurdu.az

Qurultayın işində ən əhəmiyyətli hadisə siyasi partiya elan edilən "İttifaqi müslimin"in Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanan 11 bölmə və 79 maddədən ibarət proqramının qəbul edilməsi idi. Proqramın siyasi hissəsi kadet partiyası proqramına uyğun olsa da, müsəlmanlar üçün səciyyəvi tələblər də nəzərdə tutulmuşdu (müsəlmanlara digər xalqlarla bərabər hüquqların verilməsi, ana dilində təhsil, qəzet və jurnalların nəşri, islam dininə etiqad azadlığı və s.). Proqramda konstitusiyalı monarxiya ideyası irəli sürülürdü. Qurultayda Cənubi Qafqazda milli münaqişələrə son qoyulması haqqında qətnamə qəbul olundu. İttifaqın 15 nəfərdən ibarət Mərkəzi Komitəsi və onun nəzdində 3 nəfərlik daimi büro seçilmişdi. Ə.Topçubaşov MK-nın və büronun üzvü idi. MK Dövlət Dumasında müsəlman fraksiyasının fəaliyyətinə də rəhbərlik etmişdi.

Qurultay 15 avqustun Rusiya müsəlmanlarının həmrəyliyi günü kimi bayram edilməsini qərara almışdı.

Dumanın müsəlman fraksiyasının təklifi ilə 1914 il iyunun 15-25-də Peterburqda **Rusiya müsəlmanlarının icazəli qurultayı** keçirilmişdir. Qurultay "Ruhani yığıncaqları" və müsəlman dini məktəblərinin islahatı məsələlərinə həsr olunmuşdu. Dövlət Duması Müsəlman fraksiyasının sədri K.M.Tevkelov qurultayın sədri, Ə.Topçubaşov və Ə.Axtyamov onun müavinləri seçilmişdilər. Hökumotin müsəlman ruhani işlərino münasibəti, qadınların seçki hüququ, Rusiyada müsəlman məktəblərinin vəziyyəti və s. məsələlər müzakirə edilmsişdi. Azərbaycan müsəlmanları adından çıxış edən Məmməd Yusif Cəfərov dövlətin dini işlərə qarışmasının zərərindən və bütün Rusiya müsəlmanları üçün vahid ruhani idarəsi yaradılmasının vacibliyindən danışmışdı. Qurultayda qəbul olunmuş qətnamələrdə Türküstan və çöl əyalətlərində yaşayan müsəlmanların Dövlət Dumasına seçkilərdə iştirak etmək hüququnun bərpası, Türkiyə və İranda ruhani təhsili alan şəxslərin Rusiyanın müsəlman məktəblərində müəllim işləməsinə icazə verilməsi və s. nəzərdə tutulurdu.

**Rusiya müsəlmanlarının növbəti** qurultayı 1917 ildə, Fevral inqilabından sonra keçirilmişdi. Müsəlmanların Ümumqafqaz qurultayından (bax *Qafqaz müsəlmanlarının Bakı qurultayı)* sonra 1917 il mayın 1-11-də Moskvada, azərbaycanlı milyonçu Şəmsi Əsədullayevin Moskvadakı müsəlmanlara hədiyyə etdiyi binada keçirilən Ümumrusiya müsəlmanları qurultayında 900 nümayəndə iştirak edirdi [bax *Rusiya müsəlmanlarının Moskva qurultayı (1917)].*

Qurultay Rusiyanın federativ respublikaya çevrilməsi və müsəlman əhalisi yaşayan vilayətlərə milli-ərazi (məhəlli) muxtariyyəti verilməsi haqqında Məhəmməd Əmin Rəsulzadənin layihəsi əsasında qətnamə qəbul etdi. Qurultayın 8 may tarixli iclasında Ə.Topçubaşov Azərbaycan nümayəndələri adından növbədənkənar çıxış edərək, Azərbaycan xalqını gözləyən milli qırğın təhlükəsi haqqında Rusiya müsəlmanlarını, həm də Müvəqqəti hökuməti xəbərdar etmişdi. Bu məsələ ilə bağlı qurultay Ə.Topçubaşovun rəhbərliyi ilə Peterburqa nümayəndə heyəti göndərilməsi haqqında qərar qəbul etdi. Qadın məsələsi də gərgin mübahisə doğurmuş və müsəlman qadınlarının Kazan qurultayının qərarı heç bir düzəliş edilmədən qəbul olunmuşdu. Rusiya müsəlmanlarının təşkilati məsələlərinə rəhbərlik etmək və onun siyasi istiqamətlərini müəyyənləşdirmək məqsədilə, qurultay qanunverici funksiyaya malik olan Mərkəzi Ümummüsəlman Şurasını yaratdı. 30 üzvdən ibarət Şura (Qafqazdan 5 nəfər), 12 nəfərdən ibarət İcraiyyə Komitəsi seçildi. Mərkəzi Ümummüsəlman Şurası Peterburqda fəaliyyət göstərməli idi. Azərbaycan nümayəndələrinin təmsil etdikləri federasiya tərəfdarlarının üstünlük qazandığı qurultay mühüm qərarlar qəbul edərək, bütün Rusiya müsəlmanlarının ictimai-siyasi həyatında tarixi rol oynadı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B.. 2001; Məmmədov X., Azərbaycan milli hərəkatı. 1875-1917, B., 1996; Süleymanova S., Azərbaycanda ictimai siyasi hərəkat (XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri), B., 1999; Sey idzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004; Багирова И.С., Политические партии и организации Азербаиджана в начале XX века, Б., 1997 Azərbaycan dosyesi, Ankara, 1990; İlqar İ., Rusiyada birinci Müsülman Konqresi. Bütün Rusiya Müsəlmanlarının (Türklərin) 1917 yılın 1-11 mayısında Moskovada yapdıkları genel toplantının protokolları, İstanbul, 1988.

**"ÜNVAN-TƏQVİM"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr olunmuş məlumat kitabı. 1919 il iyulun 28-de Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən nəşri bəyənilmiş və Parlamentə müvafiq qanun layihəsi təqdim edilmişdi. Bax *"Azərbaycan Respublikasının ünvan-təqvimi"*

**ÜŞR** (ərəbcə - onda bir) - müsəlman ölkələrində natural şəkildə alınan vergi. Azərbaycan Xalq Cümhuriyyəti Hokumətinin 27 yanvar 1919 il tarixli qərarı ilə üşr yığılması ləğv edilmişdi. Cümhuriyyət Hökumətinin 1919 il 16 iyun tarixli qərarı ilə Morul kəndi sakinlərindən yığılmış üşr həmin kəndin yoxsul əhalisinə paylanmaq üçün himayədarlıq nazirliyinin sərəncamına verilmişdi. Əlcəzairdə 1918, Türkiyədə 1925, Tunisdə 1935 ildə ləğv olunmuşdur. Bəzi müsəlman ölkələrində indi də qahnaqdadır.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

downloaded from KitabYurdu.az

# V



**VAHİD,** Əlağa Məmmədqulu oğlu İsgəndərov (1895, Bakı 1.1.1965, orada) - görkəmli Azərbaycan şairi. Azərbaycanın eməkdar incəsənət xadimi (1943). Mollaxanada oxumuş, lakin ehtiyac üzündən təhsilini yarımçıq qoyaraq xarratlıq etmişdir. Gənc yaşlarından Bakıdakı "Məcməəş-şüəra" ədəbi məclisində iştirak etmiş, Azər (İmaməliyev), Müniri və başqalarının təsiri ilə lirik şerlər yazmışdır. Bu dövrə aid ilk qələm təcrübələrində gənc şairi milli və sosial zülm altında əzilən Vətənin və soydaşlarının acınacaqlı taleyi də düşündürürdü. O, "İqbal" qəzetinin 1914 il 4 may tarixli nömrəsində yazırdı: *Olmadım bir ləhzə, ya rəbb, bu vətən küncündə şad, Səbrin əskildi günü-gündən, qəmim oldu ziyad.* Satirik şeirlərində ictimai ədalətsizliyi, zülm və haqsızlığı, mövhümat və xurafatı ifşa etmişdir. "Tamahın nəticəsi" adlı ilk şeirlər kitabı 1916 ildə nəşr olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə digər şairlər kimi, Vətənin, milli istiqlalın qorunması mövzusu Vahidin də yaradıcılığında mühüm yer tuturdu. Şair Qarabağda erməni-daşnak qiyamına qarşı yazdığı və "Hüriyyət" qəzetində (1919, 10 avqust) dərc olunan "Əsgər" şerində Vətən yolunda canından keçən Azərbaycan əsgərini belə tərənnüm edirdi:

*Qeyrətli kişi qan axıdırdı zəlinə,*
*Qoymaz girə əduni, o, hərgiz Vətəninə.*

Əlağa Vahidin abidəsi



downloaded from KitabYurdu.az

Bununla yanaşı, şair "Meyxana" şerində (1918) yeni yaradılmaqda olan ordu quruculuğundakı nöqsanları, milyonçu balalarının rüşvətlə ordudan yayınmasını və sair halları tənqid, "töylə" yə bənzər kazarmalarda paltar, yemək sandan, soyuqdan, zabitlərin kobud rəftarından əziyyət çəkən əsgərlərin acınacaqlı vəziyyətini təsvir edirdi. Lakin Vahid Azərbaycan ədəbiyyatı tarixinə Füzuli ənənələrini 20 əsrdə davam etdirən sonuncu ən görkəmli qəzəl şairi kimi daxil olmuş, bu janrın kamil bədii nümunələrini yaratmışdır. Poetik dilinin xəlqiliyi, sadeliyi, axıcılığı ilə seçilən qəzəlləri xanəndələrin repertuarında mühüm yer tutur.

Əsərləri: Qəzəllər, B., 1964; Seçilmiş əsərləri, 2 cilddə, B., 1975; Seçilmiş əsərləri, B., 1982; Seçilmiş əsərləri, B., 2005.

*Əd.:* Məmməd Nuruoğlu, "Əsərin qaldı cahanda" (Ə.Vahidin həyat və yaradıcılığı), B., 1983.

**VEHİB PAŞA MEHMET** (1877-1940) - Türkiyə hərbi xadimi, general-leytenant. Piyada hərbi məktəbini, sonra Hərbi Akademiyanı bitirmiş, 1909 ildə hərbi məktəbin rəisi təyin edilmişdir. 1912 ildə başlanan Balkan müharibəsinin iştirakçısı olmuşdur. Birinci dünya müharibəsi (1914-18) illərində diviziya komandiri, korpus komandanı vəzifələrində xidmət etmişdir. Çanaqqala döyüşlərində hərbi təşkilatçılıq bacarığı və qabiliyyəti ilə fərqlənmişdir. Sonradan Ənvər paşanın əmri ilə Şərq cəbhəsində döyüşən 3-cü ordunun komandanı təyin edilmişdir. Fevral inqilabından (1917) sonra Zaqafqaziyadakı rus ordusu komandanlığı ilə sülh müqaviləsi bağlanmasının təşəbbüsçüsü olmuş və bu müqavilə həmin il dekabrın 18-də onun iştirakı ilə Ərzincanda imzalanmışdı.

Vehib paşa Osmanlı hərbi nazirliyinin 1918 il 7 və 9 iyun tarixli əmrləri ilə yaradılan Şərq orduları qrupunun komandanı təyin olundu. Ordu qrupuna Vehib paşanın komandan olduğu 3-cü, habelə 6 və 9-cu ordular daxil idi. Türk hərbi qüvvələrinin iştirakı ilə Azərbaycanda təşkil edilmiş *Qafqaz İslam Ordusu* da inzibati xətlə Şərq ordular qrupuna tabe idi. Ona görə də Qafqaz İslam Ordusunun ilkin təşkilatlanması Vehib paşanın nəzarəti altında aparıldı. Lakin 1918 il iyunun 29-da bu vəzifədən istefa verdi və onun yerinə Xəlil paşa təyin edildi.

Birinci dünya müharibəsinin sonunda Vehib paşa xaricə mühacirət etdi.

*Əd.:* Baykara H., Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992; Süleymanov M., Qafqaz İslam Ordusu və Azərbaycan, B., 1999; Yüceer N., Birinci Dünya Savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan harekatı, Ankara, 1996.

**VERGİ PALATASI** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin maliyyə sisteminə daxil olan mühüm dövlət qurumu. Bax *Azərbaycan Xəzinə Palatası.*

**VERSAL ALİ ŞURASI** - *Paris Sülh Konfransına (1919-20)* rəhbərlik etmiş ali orqan. Şuranın tərkibinə beş böyük dövlətin (ABŞ, B.Britaniya, Fransa, İtaliya, Yaponiya) nümayəndə heyətlərinin başçıları və xarici işlər nazirləri daxil idi.

1919 ilin mayından Ali Şuranın iclaslarında "rus məsələsi" - Rusiyaya münasibət məsələsi daha fəal müzakirə edilməyə başladı. İyunun 12-də Antanta Ali Şurası admiral A.Kolçakın başçılıq etdiyi Omsanlı hökumətinin tanınması və ona hərtərəfli yardım göstərilməsi barədə nota ilə çıxış etdi. Müttəfiqlərin Kolçak hökumətini Ümumrusiya hökuməti kimi tanımalarına qarşı yeni yaranmış respublikaların Parisdəki nümayəndələrindən birinci olaraq Azərbaycan nümayəndələri etiraz etdilər. Nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşov hələ mayın 31-də verdiyi bəyanatda Kolçak hökumətinin dağılmış Rusiya imperiyasının bütün ərazisində tanınmasının mümkünlüyünü Qafqaz Azərbaycanının həyati mənafeyinə qarşı zərərli hesab etmişdi. Azərbaycan nümayəndə heyəti iyunun 5-də bununla bağlı sülh konfransının sədrinə və Müttəfiq dövlətlərin baş nazirlərinin adına etiraz notası göndərdi. Azərbaycanın da daxil olduğu yeni yaranmış yeddi respublikanın nümayəndə heyətlərinin başçıları tərəfindən iyunun 17-də etiraz bəyannaməsi, habelə iyunun 23-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikaları adından 7 maddədən ibarət etiraz notası imzalandı. Notada Kolçakla bərabər, Qafqaz respublikaları üçün ciddi təhlükəyə çevrilmiş Denikinə qarşı da etiraz edilirdi. Azərbaycan, Gürcüstan və Dağlı Respublikası nümayəndələri Versal Ali Şurasının üzvlərini inandırmağa çalışırdılar ki, Denikin Könüllü ordusunun Cənubi Qafqaza yolunu bağlamaq lazımdır. Ermənilər nə "yeddilərin" bəyanatına qoşuldular, nə də Qafqaz respublikalarının etiraz notasını imzaladılar.

Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndə heyətləri sədrlərinin imzası ilə Antanta Ali Şurasının sədri J.Klemansoya ünvanlanmış 28 avqust tarixli müraciətdə Qafqaz respublikalarının müstəqilliyi tanınana qədər müttəfiq qoşunlarının Qafqazdan çıxarılmasının dayandırılması xahiş edilirdi.

Azərbaycan və Gürcüstan nümayəndələri Qafqaz məsələsinin həllini sürətləndirmək məqsədilə 1919 ilin payızında konfransın sədrinə, Ali Şura üzvlərinə müxtəlif formalarda müraciətlər etmişdilər. Azərbaycan nümayəndələri tərəfindən hazırlanmış və daha 7 respublikanın qoşulduğu kollektiv nota oktyabrın 8-də sülh konfransına təqdim edildi. Notada yeni yaranmış respublikaların müstəqilliyinin tanınmasının, onlann beynəlxalq maliyyə sisteminə və iqtisadi münasibətlərə cəlb edilməsinin zəruriliyi Ali Şuranın nəzərinə çatdırılırdı.

Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması təxirəsalınmaz məsələyə çevrildikdə, 1920 il yanvarın 10-da B.Britaniyanın təşəbbüsü ilə Ali Şuranın sessiyası çağırıldı. Sessiyada Cənubi Qafqaz respublikaları məsələsi ətraflı müzakirə edildi. Ali Şuranın qəbul etdiyi qərara görə, hərbi ekspertlər Cənubi Qafqaz respublikalarına hərbi yardım göstərmək barədə təkliflər hazırlamalı idilər. Ali Şuranın xarici işlər nazirləri səviyyəsində davam etdirilən iclasında B.Britaniyanın xarici işlər naziri lord Kerzon baş nazir Lloyd Corcun Azərbaycan və Gürcüstanın müstəqilliyini tanımaq məsələsini Ali Şuranın iclasında qoymaq niyyətində olduğunu bildirdi. 1920 il yanvarın 11-də Antanta Ali Şurası Azərbaycan və

downloaded from KitabYurdu.az

Gürcüstan hökumətlərini de-fakto tanımaq haqqında qərar qəbul etdi. Qerarda göstərilirdi ki, ***"müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar"*** (bax *Müstəqilliyin de-fakto tanınması*).

1920 il yanvarın 19-da Ali Şuranın hökumət başçılarının iştirakı ilə keçirilən iclasında Cənubi Qafqaz respublikaları məsələsi ətraflı müzakirə edildi. Ali Şuranın 10 yanvar tarixli tapşırığına əsasən, iclasda ingilis nümayəndələri tərəfindən tərtib edilmiş memorandum elan olundu. Ali Şura Qafqaz məsələsinə dair dörd bənddən ibarət qərar qəbul etdi. Qərarda müttəfiq hökumətlərin Cənubi Qafqaz respublikalarına ordu göndərmək imkanına malik olmadıqları, bu respublikalara silah, hərbi sursat və ərzaqla kömək ediləcəyi göstərilirdi.

Azərbaycan nümayəndələri Antanta Ali Şurasının 1920 ilin fevral-mart aylarında keçirilən London konfransında və San-Remo (aprel) konfransında iştirak etdilər. Ali Şuranın London sessiyasında "rus məsələsi" müzakirə edilərək, "Rusiyada müttəfiqlərin siyasəti" adlı memorandum qəbul olundu. Konfransda müstəqilliyi müttəfiqlər tərəfindən tanınan yeni dövlətlərə Rusiya ilə dinc münasibətlər yaratmaq tövsiyə edilir və bildirilirdi ki, Rusiya yeni yaranmış dövlətlərə hücum edib, onların qanuni sərhədlərini pozarsa, Antanta həmin dövlətlərə bütün vasitələrlə yardım göstərəcəkdir. Lakin bütün bu vədlər yerinə yetirilmədi. Müstəqilliyi Versal Ali Şurası tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı *Aprel işğalı (1920)* ilə başa çatdı.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993; Nəsibzade N., Azərbaycanın xarici siyasəti (1918-1920), B., 1996; Musayev İ., Azərbaycanın xarici siyasəti (XX əsr), B., 1996.

**VERSAL SÜLH KONFRANSI** bax *Paris Sülh Konfransı (1919-20).*

**VERSAL SÜLH MÜQAVİLƏSİ (1919)** Birinci dünya müharibəsinin rəsmən başa çatmasının təsbit edən sülh müqavilələrindən biri. Versalda (Fransa) Antanta dövlətləri ilə Almaniya arasında 1919 il iyunun 28-də imzalanmış, 1920 il yanvarın 10-da qüvvəyə minmişdir. Almaniya məğlub dövlət olduğundan müqavilənin tərtib olunmasında iştiraka buraxılmamışdı. Müqavilə layihəsinin *Paris Sülh Konfransında (1919-20)* Beşlər şurası (ABŞ, İngiltərə, İtaliya, Fransa, Yaponiya) tərəfindən tərtib olunmasına baxmayaraq, həlledici müqavilə imzalandıqdan sonra ABŞ senatı iki dəfə - 1919 ilin noyabrında və 1920 ilin martında müzakirələr keçirsə də, onu ratifikasiya etmədi. Buna səbəb isə V.Vilsonun təşəbbüsü ilə yaradılmış və ABŞ-ın dünyada aparıcı rolunu müəyyən etməli olan Millətlər Cəmiyyətində İngiltərə və Fransanın mövqeyinin üstünlüyü idi. Çin isə Şandunun Yaponiyaya verilməsinə etiraz edərək, müqaviləni imzalamadı. 1921 ilin avqustunda ABŞ Almaniya ilə ikitərəfli sülh müqaviləsi bağladı. Bu müqavilə Versal sülhü ilə eyni olsa da, burada Millətlər Cəmiyyəti barəsində maddələr yox idi. Versal sülh müqaviləsi 440 maddədən ibarət olub, 15 hissəyə bölünmüşdü. Millətlər Cəmiyyətinin Nizamnaməsi (1-ci hissə) və Beynəlxalq əmək bürosunun nizamnaməsi (13-cü hissə) də müqavilənin tərkibinə daxil idi. Versal sülhü qalib dövlətlərin maraqlarının təmin olunmasına xidmət edib, dünyanın müharibədən sonrakı inkişafını müəyyənləşdirilmiş məcraya yönəltməli idi. Versal sülhü Almaniyanın 1914 il avqustun 1-nə qədərki ərazisinin 1/8-ni, əhalisinin isə 1/10-ni itirməsinə səbəb oldu. Elzas, Lotaringiya Fransaya, Eypen, Malmedi və Morene Belçikaya, Poznan, Yuxarı Sileziya, Qərbi Prussiyanın xeyli hissəsi Polşaya, Şlezviq-Holşteyn Danimarkaya verilirdi. Qdansk (Dansiq) "sərbəst şəhər" elan olunurdu və Milletler Cəmiyyətinin himayəsinə verilirdi. Memel (Klaypeda) qalib dövlətlərin ixtiyarına keçdi. Helqoland və Dyun adalarındakı hərbi istehkamlar dağıdıldı. Saar vilayəti 15 il müddətinə Millətlər Cəmiyyətinin idarəçiliyinə, Saar kömür şaxtaları isə Fransanın mülkiyyətinə verilirdi. 80-ci maddə ilə Almaniya Avstriyanın müstəqilliyinə hörmətlə yanaşmalı idi. Yəni, onun Almaniyaya birləşdirilməsi qadağan edilirdi. Almaniya, həmçinin, Çexoslovakiya və Polşanın da müstəqilliyini tanıyır və Çindəki mülklərindən və imtiyazlarından, bütün müstəmləkələrindən məhrum edilirdi.

42-44-cü maddələrə görə Reyn silahsızlaşdırılmış zonası yaradılırdı. Müqavilənin V hissəsi Almaniya üzərinə qoyulmuş hərbi məhdudiyyətləri əks etdirirdi. Almaniya daxili asayişi təmin etmək üçün könüllülük əsasında təşkil olunmuş 100 minlik qoşun saxlaya bilərdi. Ümumi icbarı hərbi mükəlləfiyyət qadağan edilirdi. Almaniya ağır artilleriyaya, tanklara, hərbi aviasiyaya və sualtı qayıqlara malik ola bilməzdi. Hərbi-dəniz donanması xeyli ixtisar olunurdu. Bu məhdudiyyətlərə nəzarət etmək üçün xüsusi komissiya yaradılırdı.

231-284-cü maddələrlə Almaniya üzərinə təzminat qoyulsa da, onun miqdarı müqavilədə qeyd edilməmişdi. Versal sülhü Elba, Oder, Neman, Reyn və Dunay çaylarını beynəlxalq çaylar elan etmişdi. 116-cı maddə ilə Almaniya Rusiyanın 1914 il avqustun 1-ə olan sərhədləri daxilində ərazi bütövlüyünü tanıyırdı. İşğal etdiyi rus torpaqlarından qoşunlarını geri çəkməli və sovet Rusiyası ilə bağlanmış Brest-Litovsk müqaviləsini və digər müqavilələri ləğv etməli idi.

Versal sülh müqaviləsi, ədalətsiz olaraq, müharibənin bütün günahlarını məğlub olmuş dövlətlərin üzərinə qoymaqla və həmin xalqları ağır şərtləri qəbul etməyə məcbur etməklə, bu ölkələrdə revanşizmin, şovinizmin və millətçiliyin güclənməsinə zəmin yaratdı. 30-cu illərdə Almaniyanın faşist rəhbərliyi Versal müqaviləsinin şərtlərini ləğv edərək, yeni müharibəyə başlamaq qərarına gəldi.

Almaniyanın sovet Rusiyası ilə imzaladığı müqavilələrin ləğv edilməsi, alman siyasətçilərinin 1918 ildə Qafqaz bölgəsində həyata keçirmək istədikləri antiazər-

downloaded from KitabYurdu.az

baycan planlarına da son qoydu. Almaniya hakim dairələrinin Azərbaycan xalqının maraqlarına laqeyd münasibətinə baxmayaraq, öz milli hüquqlarının daim qətiyyətlə müdafiəsinə qalxan Azərbaycan Xalq Cümhuriyyətinin siyası xadimləri nəinki Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, həm də Paris Sülh Konfransında müstəqil dövlət kimi iştirakına nail oldular. Versal sülhü keçmiş Rusiya imperiyasının ərazi bütövlüyünün tanınmasını nəzərdə tutsa da, xalqların öz müqəddəratlarını sərbəst müəyyən etmələri prinsipinin elan olunması və Qərb dövlətlərinin antibolşevik tədbirləri Azərbaycanın müstəqil dövlətçiliyini möhkəmlətmək istəyinə, müvəqqəti də olsa, şərait yaratdı.

*Əd..История диаломатит, т. 3,М.,* 1965; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-cı illər), B., 1993.

**"VƏHDƏT" TƏŞKİLATININ BAKI ŞÖBƏSİ** menşeviklərin ifrat sağ qanadını təşkil edən qrup. 1914 ildə yaradılsa da, təşkilatı baxımdan 1917 ilin martında təşəkkül tapmışdır. 1917 ilin sentyabrında Rusiyanın müxtəlif şəhərlərində "Vəhdət"in 50-yə yaxın təşkilatı var idi. Bakıda 1917 il avqustun 3-dən 1918 ilin iyununadək fəaliyyət göstərmişdir. Tərkibində bir nəfər də azərbaycanlının olmadığı Bakı qrupu, bütövlükdə, ümumrusiya sosial-demokrat "'Vəhdət" təşkilatı kimi, açıq-aşkar şovinist mövqe tuturdu. Digər menşevik cərəyanları kimi, Bakı qrupunun da liderləri burjuaziyanı hakimiyyətə gətirən Müvəqqəti hökuməti tanıyırdı.



**"VƏHŞİ DİVİZİYA"** - Birinci dünya müharibəsi (1914-18) dövründə Qafqazın müsəlman əhalisindən təşkil edilmiş süvari diviziya (bax *"Dikaya diviziya").*

**VƏKİLOV** Faris bəy İbrahim ağa oğlu (1886, **Tiflis** -1982, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ictimai-siyasi xadimi, diplomat, mühəndis. General İbrahim ağa Vəkilovun oğlu. 1914 ildə Peterburq Texnologiya İnstitutunu bitirmiş, 1917 ilədək buradakı Putilov və "Feniks" zavodlarında mühəndis, həmin ildən isə Tiflisdə Qafqaz Su Təsərrüfatı İdarəsində işləmişdir. Rus, gürcü, türk, fransız dillərini mükəmməl bilirdi. Faris bəy Vəkilov 1918 ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə üzv seçilən Məmməd Yusif Cəfərovun yerinə *Azərbaycanın Gürcüstanda diplomatik nümayəndəliyinə* rəhbərlik etmişdir. Azərbaycan-Gürcüstan münasibətlərinin qurulmasında mühüm rol oynamış, bəzi Qərb ölkələrinin nümayəndələri ilə görüşlər keçirərək, Azərbaycan hökuməti adından bir sıra mühüm sənədləri imzalamışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Parisə gedərək, 1926 ilədək orada yaşamış, sonra Bakıya qayıdaraq, 1940 ilədək müxtəlif sənaye müəssisələrində yüksək vəzifələrdə çalışmışdır. 1942 ildə həbs olunub, 10 il azadlıqdan, sonra isə 5 il bütün hüquqlardan məhrum edilmişdir. Əvvəlcə Lənkəranda. sonra Penzada (Rusiya) cəza çəkmiş, 1952 ildə Qaraqandaya (Qazaxıstan) sürgün olunmuşdur. 1956 ildə Bakıya qayıdaraq, Tikinti Materialları və Qurğuları Elmi-Tədqiqat İnstitutunda mühəndis işləmişdir. Çoxlu ixtira və patentlərin müəllifidir. *Əd:* Umudlu İ., Vəkiloğulları, B., 2003.

**VƏKİLOV** İbrahim ağa Paşa oğlu (1853-1934) - hərbi xadim. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general-mayoru. İlk təhsilini Tiflisdə almış. sonra Peterburqda hərbi topoqrafiya məktəbini bitirmişdir. Əsasən, Qafqazda xidmət etmişdir, topoqraf kimi rus ordusu sıralarında müxtəlif vəzifələrdə çalışmışdır. İctimai işlərdə də yaxından iştirak etmiş, 1906 ildə polkovnik rütbəsində ikən Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri seçilmişdi. Rusiyanın, habelə iki dövlət arasındakı qarşılıqlı razılaşmaya əsasən, İran ərazisindəki fəaliyyətinə görə İranın ordenləri ilə təltif olunmuşdu. Azərbaycanın istiqlaliyyəti elan olunduqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qərarı ilə Vəkilov Gəncə general-qubernatoru təyin edilmişdi. Hökumətin 1919 il 6 may tarixli qərarı ilə yenidən ordu sıralarına çağırılmış və Hərbi Nazirliyin topoqrafiya şöbəsinin rəisliyi ona tapşırılmışdı. Vəkilov Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər bu vəzifəni icra etmişdir. Hərbi topoqraf vəzifəsinin icrası ilə yanaşı, müstəqil Azərbaycan ordusu piyada və süvari alaylarının, əlahiddə taborların və hərbi məktəblərin döyüş bayraqlarının təsvirinin hazırlanması da Vəkilova tapşırılmışdı. Onun rəhbərliyi ilə hazırlanan eskizlər Hərbi Nazirliyin rəhbərliyi tərəfindən bəyənilmiş və nazir Səməd bəy Mehmandarovun 1919 il 8 dekabr tarixli əmri ilə qoşunlara elan edilmişdi.



General İbrahim ağa Vəkilov ailəsi ilə



Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, Vəkilov Xalq Hərbiyyə və Bəhriyyə Komissarlığında, Xalq Torpaq Komissarlığında fəaliyyət göstərmiş, Azərbaycanın coğrafi xəritələrinin hazırlanmasında, sərhəd xəttinin dəqiqləşdirilməsində yaxından iştirak etmişdir.

downloaded from KitabYurdu.az

*Əd.:* N ə z i r l i Ş., Topoqraf general İbrahim ağa Vəkilov, B., 2002; S ü l e y m a n o v M., Azərbaycan ordusu (1918-1920), B., 1998.

**VƏKİLOV** Məmmədrza Hacı Mansur oğlu (8.3. 1864, Qazax qəzasının Salahlı k. - 1944, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, ictimai-siyasi xadim, həkim. Tiflis klassik gimnaziyasının (1887) və Xarkov



Universitetinin tibb fakültəsini (1893) bitirmişdir. Türkiyədə (Qars) həkim işləmiş, 1900 ildə Bakıya gələrək, bir il sonra burada ilk poliklinika açmışdır. Qafqaz İmperator Tibb Cəmiyyətinin həqiqi üzvü idi (1900). 1905-15 illərdə Bakı şəhər dumasının, 1914-17 illərdə isə şəhər rəisi yanında neft işləri daimi komissiyasının üzvü olmuş, 1918 il fevralın 10-da Zaqafqaziya seyminə seçilmişdir. 1918 ilin dekabrında Azərbaycan Parlamentinin deputatı və "Müsavat" fraksiyasının üzvü seçilmiş, burada, əsasən, səhiyyə və maarif sahələri ilə mışğul olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1920 və 1937 illər-də iki dəfə həbs olunmuş, lakin əleyhinə heç bir dəlil-sübut tapılmadığına görə azad edilmişdir. Torpaq məsələlərini yaxşı bildiyindən 1922 ildə Azərbaycan-Gürcüstan sərhədini müəyyənləşdirən komissiyaya cəlb edilmiş, onun və Mamay bəy Şıxlinskinin təkidindən sonra sərhəd Poylu stansiyasından götürülərək, Böyük Kəsik stansiyasından o tərəfə qoyulmuş, Qarayazı və Ceyrançöldəki qışlaq yerləri Azərbaycanın hüdudlarında saxlanılmışdır. Vəkilov 1924 ildə təqaüdə çıxsa da, həkimlik fəaliyyətini davam etdirmişdir.

*Əd.:* U mu d l u İ., Vəkiloğulları, B., 2003.

**VƏKİLOV** Mustafa Məmmədağa oğlu (25.1.1899, Tiflis -30.4.1943) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali



təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Tiflis kişi gimnaziyasını bitirmişdir (1917). Azərbaycan Xalq Cümhuriyyətinin Tiflisdəki daimi nümayəndəliyində tərcüməçi işləmişdir. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini hüquq sahəsində davam etdirmək üçün Paris Universitetinə (Fransa) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənmək üçün 1921-22 illərdə Xalq komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında onun 2-ci kursa keçdiyi göstərilirdi. Universiteti bitirdikdən sonra hüquq magistri elmi dərəcəsi almışdır (1924). Vəkilov respublikanın ədliyyə orqanları (1924-27) və ali məktəblərində (1927-37) çalışmış, həmçinin elmi-tədqiqat, tərcümə və redaktə işi ilə məşğul olmuşdur. Azərbaycanda ailə hüququ (inqilabdan əvvəl), hüquq və əxlaq və s. mövzularda əsərlər, həmçinin mülki hüquqdan qısa dərslik yazmış, "Rusca-Azərbaycanca lüğət" (Bakı, 1938) tərtib etmişdir. 1937 ilə "əksinqilabi-millətçi təşkilatın üzvü" ittihamı ilə həbs edilmiş, Voloqda, sonra isə Komi MSSR-ə sürgün olunmuşdu.

*Əd.:* Um u d l u İ., Vəkiloğulları, B., 2003.

**VƏKİLOV** Mustafa bəy Nadir ağa oğlu (sentyabr 1896, Qazax qəzası, Salahlı kəndi - 1.11.1965, Ankara) -ictimai-siyasi xadim. Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti



Parlamentinin üzvü. Bakı gimnaziyasını (1912) və Moskva Universitetinin hüquq fakültəsini (1917) bitirmişdir. 1917 ildə Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayında, Moskvada Rusiya müsəlmanları qurultayında, Kiyevdə qeyri-rus millətlərin qurultayında fəal iştirak etmişdir. Əlimərdan bəy Topçubaşovun təqdimatına əsasən, Xüsusi Zaqafqaziya Komitəsi M.Vekilovu Bakı quberniyası komissarının müavini təyin etmişdi. "Müsavat" partiyasının 1-ci qurultayında (1917, oktyabr) Mərkəzi Komitənin üzvü seçilmiş, həmin il noyabrın 15-də Zaqafqaziya Komissarlığında daxili işlər naziri A.İ.Çxenkelinin məsləhətçisi təyin olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Daxili İşlər Nazirliyində işləmişdir. *"Azərbaycan "* qəzeti redaksiya heyətinin üzvü olmuşdur. 1918 ilin iyununda Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə İstanbul konfransına gedən nümayəndə heyətində ekspert idi. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda fövqəladə səfiri və səlahiyyətli naziri Əlimərdan bəy Topçubaşovun katibi olmuşdur. Azərbaycandakı vəziyyətdən xəbər tut-maq, həm də hökuməti mövcud beynəlxalq durumla tanış

*Mustafa bəy Vəkilov (1-ci sırada sağdan 2-ci)*
*Universitet yoldaşları ilə. Moskva. 1917*



downloaded from KitabYurdu.az

etmək üçün Mustafa bəy Vəkilov İstanbuldan Azərbaycana göndərilmişdi. 1918 ilin dekabrında "Müsavat" partiyasından Azərbaycan Parlamentinin deputatı seçilmiş, maliyyə-büdcə, redaksiya komissiyalarının, həmçinin Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın üzvü olmuş, bu sahədə qanun və qərarlar hazırlanmasında yaxından iştirak etmişdir. 1919 ilin dekabrında "Müsavat" partiyasının 2-ci qurultayında yenidən Mərkəzi Komitənin üzvü seçilmiş, həmin ilin dekabrında daxili işlər nazirinin müavini, 1920 ilin fevralında isə daxili işlər naziri təyin edilmiş, Qarabağda erməni daşnakları ilə döyüşlərin qaynar yerlərində iştirak etmişdir.

*Aprel işğalından (1920)* sonra Tiflisə, 1921 ildə Rusiya Gürcüstanı işğal edəndən sonra isə Türkiyəyə getmiş, "Müsavat"ın xarici bürosunda istiqlal mübarizəsini davam etdirmiş, Azərbaycan Milli Mərkəzində (təşkilatın Mərkəzi Komitəsinin üzvü idi), "Prometey" təşkilatında çalışmışdır. 1929-41 illərdə Polşada, sonralar isə Fransada və İsveçrədə yaşamışdır. Bir çox Avropa dillərini bilən M.Vəkilov Türkiyədə nəşr olunan "Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd", "Azərbaycan yurd bilgisi" jurnallarında Azərbaycan tarixi və ədəbiyyatına dair məqalələr, Parisdə çıxan "Prometey" (fransızca), "Kavkaz" (rusca) və "Qurtuluş" (Ber-lin) jurnallarında siyasi mövzularda yazılar dərc etdirmişdir. Varşavada yaşadığı dövrdə "Prometey" adlı siyasi klubun ikinci rəisi olmuşdur.

İkinci Dünya müharibəsinin (1939-45) sonundan Türkiyədə yaşamış, Ankarada İllər Bankasında (Vilayətlər bankı) hüquq məsləhətçisi işləmiş və siyasi fəaliyyətini davam etdirmişdir.

*Əd.:* Əliyev M.. Mustafa bəy Vəkilov, "Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920) kitabında, B., 1990; Umudlu İ., Vəkiloğulları. B., 2003.



**VƏKİLOV** Rəhim boy Əlağa oğlu (29.2.1897, Qazax qəzasının Salahlı k. - 1934) - Azərbaycan Xalq Cümhuriy Parlamentinin üzvü; ictimai- siyasi xadim. Salahlı kənd məktəbini, sonra isə Bakı realnı məktəbini bitirmiş (1916), şagird təşkilatının işində fəal iştirak etmiş, bu təşkilat "Ümumqafqaz tələbə təşkilatı"na çevrildikdən sonra onun üzvü olmuşdur. Fevral inqilabından (1917) sonra təşkilat milli əlamətə görə parçalanmış və onun türk qrupu "Müsəlman Demokratik "Müsavat" Partiyası"nın tərkibində fəaliyyət göstərmişdir. *Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Zaqafqaziya Demokratik Federativ Respublikasının* süqutundan (1918, 26 may) sonra isə *Azərbaycan Milli Şurasının* (1918, 27 may) üzvü və katibi olmuşdur. O, İstiqlal bəyannaməsi mətninin katibi və onu imzalayanlardan biridir. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanun" una* (1918, 19 noyabr) əsasən, Cümhuriyyət parlamentinin tərkibinə daxil olunmuşdu. Parlamentdə "Müsavat" fraksiyasının təmsil edirdi. 1918 il dekabrın 7-də açılan Azərbaycan Parlamentinin ən gənc üzvü olan Vəkilov onun katibi seçilmişdi. Türk ordusu Azərbaycana gələndən sonra Azərbaycanın Osmanlı dövlətinə birləşməsi və müstəqillik tərəfdarları arasında mübarizədə Rəhim bəy ikincilərin tərəfində idi. O, 1919 ilin dekabrında keçirilmiş *Azərbaycan-Ermənistan konfransında* iştirak etmişdir.

"1920 il üçün Azərbaycan Respublikasının ünvan təqvimi" kitabında R.Vəkilovun "Azərbaycan Respublikasının yaranma tarixi" adlı oçerki (rus dilində, B., 1920; Azərbaycan dilində, B., 1998) çap edilmişdir. Bu, Azərbaycan Xalq Cümhuriyyəti tarixinə dair ilk ümumiləşdirici əsərlərdəndir. O, həmin dövrdə həyata keçirilən mədəni-maarif tədbirlərində də yaxından iştirak etmişdir.

*Aprel işğalından (1920)* sonra Bakı Dövlət Universitetinin Şərq fakültəsinə daxil olan (1923) R.Vəkilov "Müsavat"ın gizli təşkilatında fəaliyyət göstərmiş, ziyalılar arasında iş aparmışdır. Buna görə 1923 ilin iyun və oktyabr aylarında həbs olunmuş, 1924 ilin aprelində üç illiyə Rusiyanın Yaroslav şəhərinə sürgün edilmiş, az sonra əfv olunaraq vətənə qayıtmışdır. 1926 ildə yenidən həbs edilmiş və 1927 il fevralın 28-də 8 illiyə SSRİ-nin Şimalına sürgün olunmuşdu. Onun rəhbərliyi ilə burada gizli "Müsavat" qrupu yaradılmışdı.

1934 ildə vətənə dönən R.Vəkilov az sonra Tiflisə, oradan da müalicə üçün Borjomiyə getmiş və bir neçə ay orada işləmişdir. Tiflisə qayıtdıqdan sonra bir müddət yaxın dostlarının evində yaşayan Rəhim bəy hökumət orqanları tərəfindən aramsız təqiblərə dözməyərək, 1934 ildə intihar etmişdir.

Əsəri: Azərbaycan Respublikasının yaranma tarixi, B., 1998. *Əd.:* Bax Məmmədrza *Vəkilov* məqaləsinin ədəbiyyatına

**VƏKİLOV** Teymur bəy Məmməd ağa oğlu (1892, Tiflis - 1948, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilməsi nəzərdə tutulmuş tələbələrdən biri. Qori seminariyasını bitirmiş (1911), 3 il Bakı rus-tatar məktəbində müəllim işləmişdir. Petroqrad Psixonevrologiya İnstitutuna qəbul olunmuş (1915), dolanmaq üçün evlərdə dərs demişdir.

Rusiyada Oktyabr çevrilişindən (1917) sonra təhsilini yarımçıq qoyub geri qayıtmağa məcbur olmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Xarkov Tibb İnstitutuna göndərilmişdir. Lakin siyasi vəziyyətin dəyişməsi nəticəsində təhsil almağı baş tutmamışdır. Sovet hakimiyyəti dövründə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1942-43 illərdə Qazaxıstanda sürgündə olmuş, xəstə olduğundan tez buraxılmışdır. Müharibədən sonra da həbs edilmişdir.

*Əd.:* Bax Məmmədrza *Vəkilov* məqaləsinin ədəbiyyatına

downloaded from KitabYurdu.az

**VƏLİYEV** İsgəndər Mahmud oğlu (15.4.1896, Bakı - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı orta inşaat-texniki məktəbini bitirmişdir (1916). Parlamentin 1919 il sentyabr tarixli qərarına əsasən, təhsilini kənd təsərrüfatı sahəsində davam etdirmək üçün Peruça universitetinə (İtaliya) göndərilmişdir.



**VƏLİYEV** Məmmədhəsən Nəcəfqulu oğlu B a h a r l ı (1896, Bakı - 1943) - iqtisadçı-alim, repressiya illərinin qurbanlarından biri. Bakı gimnaziyasında oxuduqdan sonra, Kiyev Universitetinin iqtisadi coğrafiya fakültəsini bitirmişdir (1915). Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı Dövlət Universitetində dərs demiş, 1919 ilin sentyabrında yaradılmış Azərbaycan Dövlət Bankının müdiri vəzifəsində çalışmışdır. *Aprel isğalından (1920)* sonra əmək fəaliyyətini Dövlot Plan Komitəsində davam etdirmiş, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvü seçilmişdir (1923-29). Azərbaycan Xalq Təsərrüfatı Şurası tərəfindən 1921 ildə "Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat)" adlı əsəri nəşr olunmuşdur (əsərin tarix, etnoqrafiya və iqtisadiyyat baxımından müasir əhəmiyyəti nəzərə alınaraq 1993 ildə yenidən çap edilmişdir). O, "millətçi" baxışlarına görə dəfələrlə təqiblərə məruz qalmış, 1926 ildə həbs edilmişdi. 1937 ilə qədər gizli fəaliyyət göstərən "Əksinqilabi millətçi təşkilat"ın katiblərindən biri olan Məmmədhəsən Vəliyev milli azadlıq uğrunda mübarizəyə qoşulduğuna görə həbs olunaraq Sibirə sürgün edilmişdir. 1943 ildə sürgündə - Sibirdə vəfat etmişdir.

**VƏTƏNDAŞLIQ HAQQINDA AND** - Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlıq andı. Azərbaycan vətəndaşlığını qəbul edən hər bir şəxs Cümhuriyyət Parlamentinin 1919 il 11 avqust tarixli *"Azərbaycan Vətəndaşlığı Haqqında Qanun"unun* altıncı maddəsində göstərilən qaydada dövlətə sədaqət andı içməli idi.

Andda deyilirdi: ***"Mən (adı və soyadı) Azərbaycan vətəndaşları sırasına daxil olarkən qadir Allah və öz vicdanın qarşısında söz verir və and içirəm ki, Azərbaycana sədaqətimi müqəddəs və sarsılmaz tutacaq, bundan sonra ondan başqa Vətən tantmayacaq, Azərbaycan vətəndaşının bütün vəzifələrini dönmədən yerinə yetirəcək və Azərbaycan Cümhuriyyətinin səadati naminə can-başla qulluq edəcək, onun üçün nə gücümü, nə əmlakımı, nə də, lazım gələrsə, həyatınıt belə əsirgəməyəcəm. Qoy, bu andı yerinə yetirməkdə Allah ona yar olsun".***

Andı qəbul etməyən şəxslər bu məzmunda, ancaq "and içirəm" ifadəsi olmadan təntənəli surətdə söz verirdilər.

*Əd.: Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

**VƏZİROV** Aslan bəy Zeynalabdin oğlu (6.12.1898, Şuşa1.4.1984, Bakı) - Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Bakı realnı məktəbini bitirmiş (1914), 1915 ildə Petroqrad dağ-mühəndisliyi institutuna daxil olaraq burada 2 il təhsil almış, Rusiyada Oktyabr çevrilişindən (1917) sonra təhsilini yarımçıq buraxıb geri dönmüşdü. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Fransaya göndərilmişdir. Əvvəlcə Sorbonna Universitetinin fizika-riyaziyyat fakültəsində, sonra isə Nansi şəhərində geologiya institutunda oxumuş, təhsilini başa vurduqdan (1924) sonra Nansi mineralogiya institutunda kristallokimya sahəsində tədqiqat aparmışdır (1924-25). 1925 ildə Bakıya qayıdıb, Azərbaycan Sənaye İnstitutunda (indiki Neft Akademiyası), Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) dərs demişdir. 1930 ildə ona professor, 1946 ildə isə əməkdar elm xadimi fəxri adı verilmişdir. 1983 ildə pensiyaya çıxana qədər Azərbaycan Neft və Kimya İnstitutunda kristalloqrafıya və mineralogiya kafedrasının müdiri işləmişdir.



**VƏZİROV** Bəhram İsmayıl oğlu (1886, Şuşa ş. - 1929, Ağdam ş.) - Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Bakı realnı məktəbini və Peterburq meşəçilik institutunu bitirmişdir. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, "İttihad" partiyasından Azərbaycan Parlamentinin üzvü seçilmişdir. Parlamentdə "İttihad" fraksiyasına daxil idi. *Aprel işğalından (1920)* sonra müxtəlif təsərrüfat müəssisə və idarələrində çalışmışdır. **VƏZİROV** Firudun bəy Cəlal oğlu (19.4.1850, Tiflis -30.6.1925, Bakı) - Azərbaycan Xalq Cümhuriyyətinin hərbi xadimlərindən biri; general-mayor. İlk təhsilini Tiflisdə almış, 1868 ildə Yelizavetqrad hərbi süvari məktəbini bitirmiş, unter-zabit rütbəsində çar ordusu sıralarında xidmət etmişdir. Orduda səmərəli xidmətləri Rusiyanın yüksək orden və medalları ilə qiy-mətləndirilmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. 1-ci və 2-ci dərəcəli Müqəddəs Anna, 3-cü və 4-cü dərəcəli Müqəddəs Stanislav ordenləri və medallarla təltif edilmişdir. 1919 ilin yazında istefada olan general Firidun bəy Vəzirov Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin rəhbərliyi tərəfindən Azərbaycan ordusunda hərbi xidmətə dəvət olunmuş, milli ordu quruculuğunda yaxından iştirak etmişdir.



downloaded from KitabYurdu.az

Hərbi nazir Səməd bəy Mehmandarovun 1919 il 7 avqust tarixli əmri ilə Firidun bəy həmin ayın 1-dən etibarən Bakı komendantı vəzifəsinə təyin olunmuş, eyni zamanda, Bakı şəhər qarnizonu rəisi vəzifəsinin icrası da müvəqqəti olaraq ona tapşırılmışdı. 1919 il avqustun 16-da 2-ci piyada diviziyasının komandiri general-mayor İbrahim ağa Usubov Bakı qarnizonunun rəisi təyin edildiyindən, Firidun bəy bu vəzifənin icrasından azad olunmuş və xidmətini yalnız Bakı şəhər komendantı kimi davam etdirmişdir. *Aprel işğalından (1920)* sonra, 1921 il iyulun 2-də "İslam" partiyasının agenti adı ilə həbs olunmuş, bir müddətdən sonra Azərbaycan Respublikası Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun göstərişi ilə azad edilmişdir. Lakin 1925 ildə yenidən həbs olunaraq güllələnmişdir.

*Əd.:* Nəzirli Ş., Cümhuriyyət generalları, B., 1995; Süleymanov M., Azərbaycan ordusu (1918-1920), B., 1998; Elşad Qoca, Tariximiz, taleyimiz, B., 2001.

**VƏZİROV** Haşım bəy Mir İman oğlu (1868, Şuşa -4.2.1916, Bakı) - maarif, mədəniyyət və mətbuat xadimi, publisist, dramaturq və tərcüməçi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ərəfəsində milli istiqlal ideyalarının yayılmasında yaxından iştirak etmişdir. İlk təhsilini Şuşada mədrəsədə almış, sonra Şuşa yeni üsullu məktəbini (üsuli-cədid) və İrəvan Müəllimlər Seminariyasını (1889) bitirmişdir. 19 il İrəvan quberniyasının Böyük Vedi, Cavanşir qəzasının Alpout, Şəkinin Göynük kəndlərində, Bərdodə, daha sonra Şuşadakı rus-müsəlman məktəbində müəllim və inspektor vəzifəsində (1887-1905) işləmişdir. Şuşa bələdiyyə idarəsinə qlasnı (vəkil) seçilmişdir.

Vəzirov 19 əsrin sonu - 20 osrin əvvəllərində müəllimliklə yanaşı, publisist kimi də fəaliyyət göstərmişdir. "Kaspi", "Novəye obozreniye", "Kavkaz" qəzetlərində və "Sbornik materialov dlya opisaniya mestnostey i plemyon Kavkaza" (SMOMPK) məcmuəsində Azərbaycan xalqının milli mənafelərini təbliğ və müdafiə, 20 əsrin əvvəllərində erməni-daşnak quldurlarının Qarabağda törətdiyi soyqırım vəhşiliklərini ifşa edən məqalələr dərc etdirmişdir.

Azərbaycanlılara qarşı 1905 il soyqırımlarını ifşa etdiyinə görə həmin ilin sonlarında 5 il müddətinə Şimali Qafqaza sürgün olunmuş, lakin günahsızlığını sübuta yetirdiyi üçün vətənə qayıdaraq Bakıya köçmüş, həyatını bütünlükdə mətbuata və yaradıcılığa həsr edib, milli ictimai fıkrin görkəmli təbliğatçılarından birinə çevrilmişdir. Vəzirovun 1907-16 illərdə "Tazə həyat" (1907-08), naşiri və baş mühərriri olduğu "İttifaq" (1908-09), "Səfa" (1909-11), "Kavkazets" (rusca, 1911), "Sədayi-Vətən" (1911-12), "Sədayi-həqq" (1912-15), "Sədayi-Qafqaz" (1915-16), "Məzəli" (1914-15) kimi qəzet və jurnallarda "Seyid Həşim Vəzirov". "Müslüm", "Birisi" imzaları ilə çarizmin müstəmləkə rejimini, millətçi-monarxist partiyaları, imperializmi tənqid, maarif və mədəniyyəti təbliğ edən məqalə və felyetonları Azərbaycanda milli ictimai şüurun inkişafında əhəmiyyətli rol oynarmşdır.

Vəzirov həm də tanınmış dramaturq idi. O, "Döymə qapımı, döyərlər qapını", "Evlənmək su içmək deyil" və "Xan-xan" komediyalarının müəllifidir. U.Şekspirin "Otello" faciəsini və "Məktəb tərbiyəsi", "Cinlər və şeytanlar", "Çox arvadlılıq", "Sillə" kitablarını rus dilindən tərcümə etmişdir.

20 əsrin əvvəllərində Azərbaycanda mətbəə və nəşriyyat işlərinin inkişafında Vəzirovun böyük xidmətləri olmuşdur. Azərbaycan kitab mədəniyyətinin bir sıra qiymətli nümunələri onun "Səda" nəşriyyatında işıq üzü görmüşdür.

Əsəri: Kefım gələndə (tərtib edəni və "Haşım bəy Vəzirov" adlı müqəddimənin müəllifi A.Zeynalov), B., 2001.

*Əd.:* Quliyev V., Tarixdə iz qoyan şəxsiyyətlər, B., 2000; Ağayev İ., Əliabbas Müznib. Həyatı, yaradıcılığı, əsərlərindən seçmələr., 2003.



**VƏZİROV** Heydər Sadıq oğlu (1893, Babək rayonunun Nehrəm kəndi - 1937) - hərbi və dövlət xadimi, komissar. İlk təhsilini Naxçıvanda Məhəmməd Fağı Sidqinin üsuli cədid tipli "Tərbiyə" məktəbində almış, 1913 ildə İrəvan seminariyasını bitirərək, gimnaziyanın səkkizinci sinfinə imtahan vermişdir. Birinci dünya müharibəsi (1914-18) başlananda qısa müddət hərbi məktəbdə təhsil almış və ön cəbhəyə göndərilmişdir 1915 ilin iyununda kiçik zabit rütbəsində uğrunda döyüşlərdə almanlar tərəfmdən əsir alınmış, 1918 ildə hərbi əsirlər dəyişdirilərkən yaralılar sırasında Türkiyədən keçərək Azərbaycana qayıtmışdır. 1918 ildə Azərbaycan Xalq Cümhuriyyəti ordusu üçün zabitlər hazırlayan məktəbdə müəllim işləmiş, sonra həmin məktəbin rəisi təyin olunmuşdur. Vəzirov *Aprel işğalından (1920)* sonra Azərbaycan Birləşmiş Hərbi Məktəbinin rəisi təyin olunmuşdur. Azərbaycan Birləşmiş Hərbi Məktəbi Vəzirovun rəhbərliyi ilə Ermənistanda, həmçinin Azərbaycan qəzalarında daşnaklara və banditizmə, Gürcüstanda menşeviklərə qarşı hərbi əməliyyatlarda fəal iştirak etmişdir. O, respublika hərbi komissarı kimi milli hərbi kadrların hazırlanmasında xidmətlərinə görə Azərbaycan SSR-in Qırmızı Bayraq Ordeni (1923) ilə təltif olunmuşdu. 1925-27 illərdə Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927-33 illərdə isə Azərbaycan SSR Xalq Torpaq Komissarı vəzifələrində işləmişdir. Azərbaycan Kommunist Partiyası 12-ci və 13-cü qurultaylarında Mərkəzi Komitə üzvü, Azərbaycan MİK (8-ci çağırış), Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası MİK (7-ci çağırış) və Sovet Sosialist Respublikaları İttifaqı MİK-in (7-ci çağırış) üzvü seçilmişdir. 1937 ildə repressiyaya məruz qalırmş, ailəsi ilə birlikdə məhv edilmişdir.

*Əd.:* Nəzirli Ş., Arxivlərin sirri açılır, B., 1999.

**VƏZİROV** Qambay Məmməd oğlu (19.8.1899, İrəvan quberniyasının Gümrü ş. - 13.11.1937) - hərbi xadim, diviziya komandiri, general-mayor. İlk (yeddiillik) təhsilini İrəvan gimnaziyasında almışdı. 1918 ildə altı ay Türkiyədə işləmişdir. 1919 ildən Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordusunda xidmət etmişdir. Hərbiyyə məktəbini bitirdikdən sonra 1920-22 illərdə Qazaxda, Cəbrayılda və

downloaded from KitabYurdu.az



Qarabağda daşnaklara qarşı döyüşlərdə vuruşmuşdur. Vəzirov 1922 ildə Moskvaya Frunze adına Hərbi Akademiyaya göndərilmişdir. Təhslini başa vurduqdan sonra 1925 ilin avqustunda Azərbaycan Birləşmiş Hərbi Məktəbinin rəisi təyin olunmuş və burada işlədiyi iki ildə özünü təşəbbüskar komandir və qayğıkeş müəllim kimi göstərmişdir. 1927 ildə Zaqafqaziya milli hərbi məktəbləri birləşdirildikdən sonra Vəzirov 3-cü Qafqaz atıcı diviziyasının, 1928 ildə isə Azərbaycan atıcı diviziyasının qərargah rəisi təyin edilmişdi. Azərbaycan atıcı diviziyası onun rəhbərliyi ilə 1929 ilin avqust-sentyabrında Əlahiddə Qafqaz ordusunun ilk manevrlərində uğurla iştirak etmişdi. Vəzirov nümunəvi döyüş komandiri kimi, 1930-32 illərdə Belarusiya hərbi dairəsi 111-ci atıcı alayının komandiri, eyni zamanda, Jizdra şəhər qarnizonunun rəisi vəzifələrində çalışmışdı. 1932 ildə Vəzirov Azərbaycan atıcı diviziyasının komandiri və komissarı təyin edilmiş, bilik və təcrübəsini respublikada hərbi kadrların hazırlanmasına həsr etmiş, Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu. 1937 ilin iyununda saxta ittihamlar əsasında (guya terrorçu-əksinqilabi milli təşkilatın rəhbəri olub) həbs edilərək güllələnmişdir. SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının 1956 il 28 iyul tarixli qərarı ilə Vəzirova ölümündən sonra bəraət verilmişdir.

*Əd.:* Nəzirli Ş.. Arxivlərin sirri açılır, B., 1999.

**VƏZİROV** Mirhəsən Seyidkazım oğlu (13.2.1889, Şuşa -20.9.1918, Zakaspi) - siyasi xadim (sol eser). Sol eserlər qrupunun üzvü olan Vəzirov 1917 ildən bolşeviklərlə birlikdə işləmişdir. 1917 il iyulun 14-də Bakı müsəlman ictimai və siyasi təşkilatları icraiyyə komitəsinin katibi seçilmişdir. 1917 il noyabrın 2-də Bakı Sovetinin yeni İcraiyyə Komitəsinə üzv, Bakı qəza kəndli deputatları Sovetinin birinci qurultayında (1918, may) İcraiyyə Komitəsi sədrinin müavini seçilmişdir. 1918 ilin mayından Bakı Xalq Komissarları Sovetinin (XKS) xalq torpaq komissarı idi. XKS-nin torpaq haqqında dekretini imzalamış, dekretin həyata keçirilməsində, qəzalarda kəndli qurultaylarının təşkilində fəal iştirak etmişdir. Bakı komissarları ilə birlikdə qüllələnmişdir.

*Əd.:* Azərbaycan Komraunist Partiyası tarixinin oçerkləri, B., 1964; Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda bolşeviklərin mübarizəsi. Sənədlər və materiallar. 1917-1918-ci illər, B.,1960; 26 Bakı Komissarının xatirəsi (sənədlər və materiallar), B.,1968.

**VƏZİROV** Nəcəf bəy Fətəli bəy oğlu (11.4.1854, Şuşa -9.7.1926, Şamaxı rayonu, Çuxuryurd qəsəbəsi) - dramaturq, publisist, teatr xadimi, ictimai xadim. Bəy ailəsində doğulmuşdur. Şuşada mülki məktəbdə (1866-68), Bakıda realnı gimnaziyada (1868-74), Moskvada Petrovski-Razumovski Kənd təsərrüfatı və meşəçilik Akademiyasında (1874-78) təhsil almışdır.Yelizavetpol (Gəncə) quber-niyasının Tərtər və Dilican nahiyələrində meşəbəyi (1878-90), İrəvanda və Qazaxda məmur (1890-95), Bakıda vəkil (1895-1903), şəhər idarəsinin məktəb bölməsində katib (1903-20) işləmişdir.



Mirzə Fətəli Axundzadə dramaturgiyası ənənələrinin ilk davamçısı olan Vəzirov teatr aləminə hələ Bakı realnı gimnaziyasında oxuyarkən qədəm qoymuş, Həsən bəy Zərdazadənin "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının tamaşaya qoyulmasında fəal iştirak etməklə, professional milli teatr sənətinin yaranmasında əhəmiyyətli rol oynamışdır. Vəzirov "Ev tərbiyəsinin bir şəkli" (1875), "Sonrakı peşmançılıq fayda verməz" (1890), "Daldan atılan daş topuğa dəyər" (1891), "Adı var, özü yox" (1891), "Yağışdan çıxdıq, yağmura düşdük" (1895), "Pəhləvanani-zəmanə" (1898-1900) və s. komediyaları ilə pulun hökm sürdüyü cəmiyyətin həyat tərzini və əxlaq normalarını kəskin surətdə tənqid etmiş, komediya sənətini yeni inkişaf mərhələsinə qaldırmışdır. Yeniliklə köhnəliyin mübarizəsinə, mütərəqqi maarifçilik ideyalarının təbliğ və tərənnümünə həsr olunmuş "Müsibəti-Fəxrəddin" (1896) əsəri ilə Vəzirov Azərbaycan ədəbiyyatında faciə janrının əsasını qoymuşdur. "Keçmişdə qaçaqlar" (1912), "Təzə əsrin ibtidası" (1923), "Pul düşkünü Hacı Fərəc" (1924) pyesləri dram janrının dəyərli nümunələridir.

Vəzirov "Əkinçi" (1875-77) qəzetində, 20 əsrin əvvəllərində "Həyat", "İrşad", "Təzə həyat", "Yeni İrşad", "Sədayi-həqq" və s. qəzetlərdə dərc etdirdiyi publisist məqalələri və felyetonlan ilə həqiqi vətəndaşlıq cəsarəti nümayiş etdirmiş, Azərbaycan xalqının azadlığı, mədəni tərəqqisi yolunda əngələ çevrilən ictimai qüvvələri, mühafizəkar düşüncə tərzini tənqid etmiş, vətəndaşları ölkənin abadlığı, milli müstəqilliyi uğrunda mübarizəyə çağırmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə *"Yaşıl Qələm Cəmiyyəti"* ədəbi birliyində yaxından iştirak edərək publisistik fəaliyyətini davam etdirmiş, "Quzğunlar" felyetonunda müstəqil dövlətin bir sıra məmurlarını xalq malını oğurlamaqda, vətənə yox, şəxsi mənafelərinə xidmətdə ittiham etmişdir.

Əsərləri: Seçilmiş əsərləri, B.. 1976; Seçilmiş əsərləri, B., 2005.

*Əd.:* Qasımzadə F., N.B.Vəzirov, B,, 1954; Məmmədov K., Nəcəf bəy Vəzirov, B., 1968; Əsgərli Z., Nəcəf bəy Vəzirov, B., 1998.

**VƏZİROV** Yusif Vəzir - Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədə səfiri; yazıçı, ədəbiyyatşünas, ictimai-siyasi xadim (bax *Çəmənzəminli* Yusif Vəzir).

**VƏZİROV** Zeynal bəy (?-?)- Azərbaycan milli azadlıq hərəkatının iştirakçılarından biri. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Şuşa şəhərindən Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdi. "İttihad" partiyasının üzvü idi. Parlamentdə "İttihad" fraksiyasını təmsil edirdi.

**VİBORQ MÜRACİƏTNAMƏSİ,** Viborq çağırışı - 1-ci Dövlət Dumasının buraxılmasına etiraz olaraq xalqa

downloaded from KitabYurdu.az

ünvanlanmış çağırış sənədi. Rusiya 1-ci Dövlət Dumasının tərkibi çar hökumətini təmin etmədiyindən o, 1906 ilin iyulunda buraxıldı. Duma deputatları, o cümlədən müsəlman fraksiyasının üzvləri üçün gözlənilməz olan bu aksiya ilə əlaqədar kadetlər fraksiyasının təşəbbüsü ilə hökumətə etiraz ifadə olundu. Fraksiyanın təklifi ilə Dumanın iclaslarının Vıborqa keçirilməsi. trudoviklər və sosial-demokratlarla birlikdə iclasların davam etdirilməsi qərara alındı. İyulun 9-da və 10-da Vıborqda keçirilən iclaslarda Azərbaycan deputatları da iştirak etdilər.

Xalqa çağırış-müraciətin mətnini tərtib etmək üçün fraksiyalarını nümayəndələrindən ibarət qarışıq komissiya yaradıldı. Vıborq iclaslarının iştirakçıları "Xalq nümayəndələrindən xalqa" adlanan müraciətnamənin kadetlər tərəfindən tərtib olunmuş layihəsini imzaladılar. Əlimərdan bəy Topçubaşov və İsmayıl xan *Ziyadxanov* da onların arasında idi.

Vıborq müraciətnaməsinin müəllifləri "Rusiya vətəndaşlarına" bildirirdilər ki, "...biz xalqın azadlığını təmin etmək üçün qanunlar tərtib edir, ...lakin, hər şeydən əvvəl, ...əməkçi kəndlilərə torpaq vermək haqqında qanun qəbul etməyi arzulayırdıq. Hökumət bu qanunu yolverilməz hesab etdi, Duma məcburi özgəninkiləşdirmə haqqında qərarını bir daha inadla təsdiq edəndə xalq nümayəndələrinin buraxılması elan olundu". Vıborq müraciətnaməsi bütün Rusiya əhalisini Dumanın buraxılmasına müqavimət göstərməyə, vergiləri ödəməkdən. rekrut mükəlləfiyyətindən boyun qaçırmağa, istiqrazları tanımağa çağırdı.

Çar hökuməti, onun yerli qurumları bu müraciətdən çox ciddi narahat olmuşdu. Bakının müvəqqəti general-qubernatoru 1906 il iyulun 15-də yerli qəzet və mətbəələrin bütün redaktorlarına sərəncam göndərərək, "Dövlot Dumasının keçmiş üzvlərinin müraciətnaməsinin" çap olunmasını qadağan etdi, onları inzibati qaydada on ciddi cəza ilə hədələdi. İyulun 31-də isə Bakı jandarm idarəsinin rəisi "Vıborq müraciətnaməsinin çapı barədə istintaq aparıldığına görə" çağırışın ottiski ilə əslinin eyniliyini müəyyənləşdirmək üçün sənədin əslinin bir nüsxəsinin ona göndərilməsini polis departamentindən xahiş etmişdi.

Vıborq iclaslarının iştirakçılarına divan tutuldu. Müraciətnaməni imzalamış şəxslərə qarşı cinayət işi açıldı; onlar məhkəməyə verildilər, bəziləri, o cümlədən İ.Ziyadxanov, Ə.Topçubaşov müraciətnamədə özlərinə qarşı irəli sürülmüş ittihamın mahiyyəti üzrə izahat verməK istəmədilər. O.Topçubaşov və İ.Ziyadxanov "xalqa ünvanlanan xüsusi müraciətnamə vasitəsilə Rusiya əhalisini itaətsizliyə və qanuna qarşı çıxmağa sövq etmək"də və onun "Rusiya hüdudlarında çoxlu nüsxələrini" yaymaqda ittiham edilirdilər. 1907 ilin dekabrında keçirilmiş məhkəmənin çıxardığı hökmə görə, müqəssirlər üç aylıq həbs cəzasına məhkum olunmuşdular. Dumanın 167 nəfər keçmiş üzvü, o cümlədən Ə.Topçubaşov və İ.Ziyadxanov gələcəkdə Dövlət Dumasının tərkibinə seçilmək hüququndan məhrum edilmişdilər. Ə.Topçubaşov "Kaspi" qəzetinə rəhbərlikdən kənarlaşdırılmışdı. 1907 il fevralın 15-də Bakı şəhər dumasının iclasında onun qlasnılar sırasından xaric olunması məsələsinə baxıldı. Bir sıra qlasnıların təkidi ilə və Moskva şəhər dumasının nümunəsi əsasında onun "müvəqqəti konarlaşdırılmış" hesab edilmosi qorara alındı. Buna baxmayaraq, Ə.Topçubaşov şəhər dumasının tərkibindən çıxarıldı. Həbs müddəti bitdikdən sonra İsmayıl xan Ziyadxanov Gəncəyə qayıtmışdı. Qardaşı Adil xanın "Onu həmin məclisdə iştirak etməyə və müraciəti imzalamağa hansı məntiq vadar etdi" sualına İsmayıl xan belə cavab vermişdi: *"Rusiya millətlərinin müqəddəratı yolunda birinci dərəcəli nümayəndələr belə bir addıma hazır olduqları bir vaxtda, əlbəttə, rəva deyildi ki, Qafqaz müsəlmanlarının vəkili, fəqət öz şəxsinə dəyəcək zərərin qorxusundan belə bir addımdan kənara çəkilsin "*.

*Əd.:* S e y i d z a d ə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. B.. 2004.

**VİLSON**, U i l s o n Tomas Vudro (28.12.1856, Stanton -3.2.1924, Vaşinqton) - ABŞ siyasi və dövlət xadimi. Prinston Universitetinin hüquq professoru (1890-1902), rektoru (1902-10), 1910-12 illərdə Nyu Cersi ştatının qubernatoru, 1912-20 illərdə Demokratlar partiyasından ABŞ prezidenti olmuşdur. 1918 ilin yanvarında 14 bənddən ibarət sülh proqramı (bax *Vilson sülh proqramı)* ilə çıxış etmişdir. 1918 ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Vilsona teleqram göndərərək. respublikanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına kömək göstərməyi xahiş etmişdir. 1919 il mayın 28-də - Cümhuriyyətin elan edilməsinin birinci ildönümü günündə Azərbaycan nümayəndə heyəti Vilson tərəfindən qəbul edilmişdir. Əlimərdan bəy Topçubaşov Paris Sülh Konfransına təqdim olunmuş memorandumun bir nüsxəsini Vilsona vermişdi. Vilson Azərbaycan məsələsinə Rusiya məsələsi həll olunduqdan sonra baxılacağını bildirmiş. Cənubi Qafqaz xalqlarının konfederasiyası ideyasını müzakirə etməyi məsləhət görmüşdü. VİLSON SÜLH PROQRAMI - ABŞ prezidenti Tomas Vudro Vilsonun 1918 il yanvarın 8-də ABŞ Konqresinə göndərdiyi 14 bənddən ibarət proqram. Proqramda aşağıdakı məsələlər irəli sürülmüşdür: sülh müqavilələrinin açıq müzakirəsi. Bundan sonra heç bir gizli beynəlxalq saziş olmayacaq, diplomatiya isə həmişə açıq-aydın və hamının gözü qarşısında fəaliyyət göstərməlidir; ərazi suları xaricində həm sülh, hom də müharibə vaxtı gəmiçiliyin dənizlərdə mütləq sərbəstliyi; bütün iqtisadi maneələrin. mümkün olduğu qədər, ləğv edilməsi; dövlət təhlükəsizliyinə uyğun olaraq silahların mümkün qədər azaldılması üçün ədalətli zəmanətlər verilməsi; müstəmləkələr üzərində suverenliklə bağlı bütün məsələlərin həllində əhalinin maraqlarının hökumətlərin ədalətli tələblərinə nisbətdə bərabər tutulması prinsipinə əsaslanaraq bütün müstəmləkə mübahisələrinin sərbəst, səmimi və mütləq bitərəflik mövqeyindən həlli: bütün Rusiya torpaqlarının azad edilməsi. Rusiya öz taleyini özü müəyyənləşdirməli, istədiyi idarə formasını seçməli və Millətlər Cəmiyyətinə qəbul olunmalıdır; Belçika boşaldılmalı və bərpa edilməlidir; Fransa

downloaded from KitabYurdu.az

boşaldılmalı, işğala məruz qalmış ərazilər bərpa olunmalı, Elzas və Lotaringiya Fransaya verilməlidir. İtaliyanın sərhədləri dəqiq müəyyənləşdirilməli, milli əlamətlərə görə dəyişdirilməlidir; Avstriya-Macarıstan xalqları inkişaf üçün geniş muxtariyyət imkanları əldə etməlidirlər; Rumıniya, Serbiya və Çernoqoriya boşaldılmalıdır; Osmanlı imperatorluğunun türk hissəsi təminat və möhkəm suverenlik almalıdır; tabe etdirilmiş miliətlər üçün təhlükəsizlik və muxtar inkişatin mütləq pozulmaz şərtləri təmin olunmalıdır; müstəqil Polşa dövləti yaradılmalıdır; xüsusi müqavilələr əsasında Millətlər Cəmiyyəti qurulmalıdır. Proqram ABŞ-ın xarici siyasət strategiyasına müvafiq olaraq, müharibədən sonra yeni dünya nizamının müəyyənləşdirilməsinə yönəlmişdi. Ümumi məsələlərdən əlavə konkret ölkələrə şamil edilən məsələlər içərisinde Rusiyaya aid bənd keçmiş Rusiya imperiyası ərazisində yaşayan çoxsaylı xalqların müqəddəratının həlli üçün olduqca əhəmiyyətli idi.

Vilson prinsiplərində kiçik xalqların müqəddəratını təyin etməsi hüququ təsbit edilsə də, Rusiya imperiyasının dağılması nəzərdə tutulmamışdı.

1918 ilin fevralında Vilson proqramına daha 4 bənd də əlavə etmişdi. Əlavələr keçmiş Rusiya imperiyası məkanında yeni yaranan dövlətlərin mənafeyinə uyğun olduğundan, onlardan yararlanmaq ümidi güclü idi. Belə ki, sülh prosesi. qeyd-şərtsiz olaraq, ədalətə əsaslanmalı, xalqlar və vilayətlər dövlətlər arasında mübadilə vasitəsinə çevrilməməli; hər bir ərazi məsələsi aidiyyəti üzrə yerli əhalinin maraqlarına uyğun olaraq həll edilməli; öz taleyini qəti müəyyən etmiş bütün milli elementlərin tələbləri ödənilməli idi. Bu prinsiplərdən faydalanmaq istəyən və istiqlaliyyətinin tanınmasını tələb edən xalq öz taleyini müəyyən etməyə qadir olmalı, özünü xarici təcavüzdən qoruya bilməli, özünü təmin etmək üçün iqtisadi, təbii və maliyyə ehtiyatlarına malik olmalı, müəyyən intellektual və mənəvi-dini xüsusiyyətlərinə görə seçilməli idi.

Məhz Vilson prinsiplərindən çıxış edən Azərbaycan Xalq Cümhuriyyəti, gənc dövlət kimi, istiqlalının dünya dövlətləri tərəfindən tanınmasında israrh olmuş və bu yolda ardıcıl, məqsədyönlü siyasət yeritmişdir. 1918 il noyabrın 10-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti T.V.Vilsona teleqramla müraciət etmişdi: *"Avropanının böyük dövlətlərinə müraciət etməzdən əvvəl, Azərbaycun xalqı və hökuməti əzilən kiçik xalqların müdafiəçisi kimi, sizin hummanist şəxsiyyətinizə müruciət edib, yardım almağa və tanınmağa ümid bəsləyir"*. Görüş zamanı Ə.Topçubaşov Azərbaycan nümayəndə heyəti adından Vilsonu salamladı. "Vilson prinsipləri" əsasında Azərbaycanın da öz taleyini həll edəcəyinə əminliyini bildirdi. Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin memorandumu və nümayəndə heyətinin tələbləri Vilsona təqdim edildi (bax *"Qafqaz Azərbaycanı Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu ")*.

Azərbaycan nümayəndə heyətinin Vilson prinsiplərindən çıxış edərək apardığı ardıcıl diplomatik fəaliyyət 1920 il yanvarın 11-də müttəfiqlərin Ali Şurası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin de-fakto tanınması ilə nəticələndi.

*Əd.:* Azərbaycan tarici, 7 cilldə, c.5, B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B„ 1993; Hacıyeva A., Beynəlxalq münasibətlər tarixi (1871-1919-cu illər), B., 2001; Qasımlı M., Avropa və Amerika ölkələrin müasir tarixi. *2* hissədə. I hissə (1918-1945-ci illər)., B., 2003; Уткин А.И., Дипломатия Вудро Вилсона, М., 1989.

**VİNOQRADOV** M.M. (? - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"una* (1918, 19 noyabr) əsasən, Slavyan-rus cəmiyyətindən Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Slavyan-Rus ittifaqı" fraksiyasını təmsil edirdi.

**VİSBADEN KONFRANSI** (1951) - vahid antibolşevik cəbhəni genişləndirmək və möhkəmləndirmək məqsədilə kcçirilmiş konfrans (1951, 2-8 noyabr). 1948-50 illərdə bir neçə rus mühacir təşkilatı ilə yanaşı, Qafqaz, Türküstan, Ukrayna, Belarus mühacir təşkilatları ayrı-ayrı cəbhələrdə qruplaşmışdı. Belə qruplaşmaların mövcud olduğu bir şəraitdə "vahid antibolşcvik cəbhə" yaratmaq məqsədilə xüsusi "Amerika Komitəsi" meydana gəlmişdi. Komitə keçmiş Rusiya Müvəqqəti hökumətinin başçısı A.Kerenskiyə istinad edirdi. Kerenski isə "antibolşevik cəbhənin" yaranmasında "vahid, bölünməz Rusiya" prinsipindən çıxış edir və qeyri-rus mühacir təşkilatları ilə iş birliyinin bu şərt daxilində reallaşmasına çalışırdı. A.Kerenskinin və S.Melqunovun rəhbərlik etdiyi partiyalar "Amerika Komitəsi"nin yardımı ilə 1951 il yanvarın 16-da digər rus partiyalarının da qatıldığı Füssen konqresinə toplaşdılar. Konqresdə rus partiyaları bolşevik rejiminin süqutundan sonra, Rusiyanm bütövlüyünün qorunması şərtilə, qeyri-rus mühacir təşkilatları ilə iş birliyinin mümkünlüyü qənaətinə gəldilər. Rusiya mühacirlərinin çox keçmədən Ştutqart şəhərində çağırılan ikinci konqresində (1951, 19 avqust) "Rusiya Millətlərinin Qurtuluş Şurası" (RMQŞ) yaradıldı. Ayrı-ayrı milli mühacir təşkilatları Komitəni "rusofillikdə" ittiham edirdi. 1951 ci noyabrın 2-8-də RMQŞ-nin yaratdığı Büronun təşəbbüsü ilə beş rus və beş qeyri-rus miihacir təşkilatının iştirak etdiyi Visbaden konfransı çağırıldı. Konfransda A.Kerenski qeyri-rus mühacirlərin, beş rus partiyası tərəfindən Ştutqart konqresində təsdiqlənən proqramı qəbul etmək üçün dövlət olunduqlarını bildirdi. Kerenski. Melqunov və b. milli özünütəyinin deklarativ mahiyyət kəsb etdiyini, problemin həllinin yalnız keçmiş Rusiya imperiyası çərçivəsində mümkünlüyünü açıqladılar. Konfransın gedi-şində rusların və qeyri-rusların bir-birlərinə səmimi münasibətdə olmadıqları, onların "konspirativ" iş üsuluna üstünlük verdikləri aşkar oldu. Rus mühacirləri Ştutqartda qəbul edilən proqram sənədi, qeyri-ruslar isə milli bərabərlik, paritetlik və BMT, Atlantika Xartiyası prinsipləri əsasında birliyin mümkünlüyündə israr edirdilər. "Vahid antibolşevik cəbhu" ideyası istiqamətində əhəmiyyətli

downloaded from KitabYurdu.az

tədbir olan Visbaden konfransında əlaqələndirmə Mərkəzi yaratmaq qərara alındı. Mövcud ziddiyyətlərə baxmayaraq, müştərək bəyannamə imzalandı. Ceyhun Hacıbəyli, Əkbər Ağa Şeyxülislamov və İsmayıl Əkbərin "Azərbaycan Milli Birlik Məclisi" adından bəyannaməni imzalaması Azərbaycan mühacirlərinin kəskin narazılığı ilə qarşılaşmışdı. Ankarada, İstanbulda. Münxendə və b. şəhərlərdə fəaliyyət göstərən Azərbaycan mühacirət təşkilatları yığıncaqlar keçirərək bəyannamə şərtlərinin məqbul olmadığını bildirirdilər. "Müsavat" Partiyası isə "Azərbaycan Milli Birlik Məclisini" tanımadığını və heç bir azərbaycanlının Azərbaycan məsələsini SSRİ-nin, yaxud da Rusiyanın daxili məsələsi kimi müzakirə etməyə haqlı olmadığını bəyan etdi. Tanınmış siyasi mühacirlər - Mirzə Bala *Məmmədzadə,* Nağı Keykurun (Şeyxzamanlı). Əhməd Cəfəroğlu, Süleyman Təkinər, Fuad Əmircan, Səlim Ağasıbəyili və b. mətbuatda Visbaden anlaşması əleyhinə kəskin çıxışlar etmişdilər.

Visbaden anlaşmasına müxalifətdə dayanan siyasi mühacirət. İlk növbədə, milli mübarizələrin "Rusiyanın iç işi" elan olunmasına etiraz edirdi. Visbaden anlaşmasını beynəxalq səviyyədə boykot etməyi planlaşdıran siyasi mühacirətin Münxen konfransında Visbaden bəyannaməsini rədd edən qərar qəbul olundu. Visbaden konfransı əski mühacirət üçün yeni sınağa çevrildi. Konfrans 1950-ci illərin əvvəllərində siyasi mühacirətin həyatında canlanmaya, uzun sürən mübahisələrə və münaqişələrə səbəb olmuşdu.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə. c.6, B., 2000; İ br ah im li X., Azərbaycan siyasi mühacirəti (1920-1991), B.. 1997.

**VONSOVİÇ** Stanislav Aleksandroviç (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü. Azərbaycan Milli Şurasının *"Azərbaycan Məclisi-Məbusanımn təsisi haqqında qanun* "una (1918, 19 noyabr) əsasən, polyaklardan Cümhuriyyət parlamentinin tərkibinə daxil edilmişdi. Parlamentdə "Milli azlıqlar" fraksiyasını təmsil edirdi.

**VÜSUQÜDDÖVLƏ** Mirzə Həsən xan (1874-1951) -İran dövlət xadimi. Dəfələrlə Məclisin deputatı seçilmiş, müxtəlif nazir vəzifələri daşımışdır. 1916-17 və 1918-20 illərdə İranın baş naziri olmuşdur. 1919 ilin iyununda Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətini qəbul etmiş. iki dövlət arasında dostcasına sıx münasibətlərin qurulacağına əminliyini bildirmişdir. Vətənə yola düşməzdən əvvəl Vüsuqüd Dövlə nümayəndə heyətini yenidən qəbul etmiş, İranın öz sərhədlərini Azərbaycan, Türküstan və digər ərazilər hesabına genişləndirmək niyyəti barədə İran nümayəndə heyətinin Versal konfransındakı bəyanatına münasibətini açıqlayaraq, ölkəsinin belə bir fikri olmadığını bildirmişdi. Versal nümayəndə heyətinə protest göndərilərək, bu qeyri-dəqiq xəbərin təkzib olunması tapşırılmışdı. Vüsuqüd Dövlə hər iki dövlət üçün dostluq. Qarşılıqlı əlaqə və çiçəklənmə dövrünün başladığına əminliyini bir daha vurğulamışdı. Vüsuqüd Dövlə hökuməti Versaldakı nümayəndə heyətinə konfransda Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyini dəstəkləmək barədə teleqram göndərmişdi. 1920 il martın 20-də, bolşevik işğalının yaxınlaşdığı şəraitdə, Azərbaycan Xalq Cümhuriyyəti ilə İran arasında sülh və dostluq haqqında müqavilə bağlandı. Vüsuqüd Dövlə hökuməti Azərbaycanın müstəqilliyini de-yure tanıdı.Tərəflər dostluq, iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi, Tehranda Azərbaycan. Bakıda isə İran səfirliyinin açılması haqqında öhdəliklər götürdülər (bax*Azərbaycan-İran müqavilələri).*

Vüsuqüd Dövlət hökuməti 1919 il avqustun 9-da İngiltərə ilə saziş bağlamışdı. Həm ölkə daxilində, həm də xaricdə kəskin əks-reaksiya doğurmuş İngiltərə-İran sazişinin bağlanması Cənubi Azərbaycanda genişlənən milli azadlıq hərəkatına (bax *Azadıstan)* yeni təkan vermiş. 1920 il Təbriz üsyanı nəticəsində iyunun 25-də Vüsuqüd Dövlət istefaya çıxmağa məcbur olmuş, 1921 ildə saziş ləğv edilmişdi.

downloaded from KitabYurdu.az

# Y

**YADİGAROV** Davud bəy (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti ordusunun generalı. 1918 ilin sonunda polkovnik rütbəsində 2-ci Qarabağ süvari alayının komandiri təyin edilmiş və bu alaym formalaşmasında səmərəli fəaliyyət göstərmişdi. Vəzifəsinin icrası zamanı əldə etdiyi uğurlara görə hərbi nazirin 1919 il 28 iyun tarixli əmri ilə ona təşəkkür elan edilmişdi. Hərbi nazirin 1919 il 3 avqust tarixli əmri ilə süvari diviziyası komandirinin müavini təyin edilməklə polkovnik Yadigarov, eyni zamanda, bir müddət Xankəndi qarnizonunun rəisi vəzifəsini də icra etmişdi. 1919 il oktyabrın 8-də general-mayor hərbi rütbəsinə layiq görülmüşdür. 1919 ilin noyabrında Zəngəzurda erməni silahlı quldur dəstələrinə qarşı aparılan uğurlu döyüş əməliyyatlarının rəhbərlərindən biri olmuşdur.

Hərbi nazirin 1919 il 7 dekabr tarixli əmri ilə general-mayor Davud bəy Yadigarov hərbinazirlikdə tapşırıq zabiti vəzifəsinə təyin edilmişdi.

**"YAXIN ŞƏRQDƏ AMERİKA YARDIMI" CƏMİYYƏTİ** - ABŞ hökumətinin Birinci dünya müharibəsində hərbi əməliyyatlardan zərər çəkmiş xalqlara yardım göstərilməsi məqsədilə yaratdığı təşkilat. 1915 ilin sentyabrında yaradılmışdır. Cəmiyyətin Yaxın Şərq ölkələrində, habelo Qafqazda (Bakı, Şuşa, Tiflis, İrəvan. Batum və b. şəhərlərdə) şöbələri təşkil olunmuşdu. Bu şöbələr ehtiyacı olan əhaliyə maddi yardım göstərməklə bərabər. Bölgələrdəki vəziyyət barəsində məlumatlar da toplayırdılar. Cəmiyyətin fəaliyyəti əsasən,erməni əhalisinə ünvanlandığı üçün əldə edilən və Amerika hökumətinə göndərilən məlumatlar da bir qayda olaraq ermənilərin mənafelərini və baxışlarını əks etdirirdi. Cəmiyyətin Azərbaycanda fəaliyyəti xüsusilə

1919 ilin ortalarında xeyli güclənmişdi. 1919 ilin noyabrında Cəmiyyətin Qafqaz bölməsinin rəhbəri vəzifəsinə polkovnik V.Haskel təyin edilmişdi. Bölmənin heyəti 40 nəfərdən ibarət idi. Bölmə 1919 ilin noyabrında Azərbaycan hökumətinə müraciət edərək avtomobil nəqliyyatının ehtiyaclarını ödəmək üçün haqqı ödənilməklə müəyyən qədər benzin və surtgü yağlarının göndərilməsini xahiş etmişdi. Cəmiyyətlə Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti arasında mal mübadiləsi barəsində danışıqlar

1920 ilin yanvarında Tiflisdə aparıldı. Cəmiyyətin israrla Azərbaycan Hökumətinə təqdim etdiyi saziş iqtisadi və kommersiya cəhətdən ədalətsiz xarakter daşıyırdı. Belə ki, cəmiyyət neft məhsullarının ona Sənanin stansiyasında (Gürcüstan) təhvil verilməsini tələb etdiyi halda, bunun əvəzində ödəniləcək ağ buğda ununu Azərbaycan Hökumətinə Batum limanında təqdim edirdi. Beləliklə, cəmiyyət Gürcüstan yollarında da yükün məsuliyyətini Azərbaycan Hökumətinin üzərinə qoyurdu. Azərbaycan nümayəndələrinin qarşı tərəfı bərabər hüquqlu müqavilə bağlamağa inandırmaq cəhdləri bir nəticə vermədi. 1920 il yanvarın 26-da Tiflisdə cəmiyyətin təqdim etdiyi layihə əsasında qarşı tərəflərin mənafeyinə uyğun olan müqavilə imzalandı. Müqaviləyə əsasən Azərbaycan hökuməti cəmiyyətə *tonu* 20 dollar hesabı ilə 10 *min ton* mazut, *tonu* 35 dollar hesabı ilə 150 *ton* kerosin verməli, cəmiyyət isə bunun əvəzini qeyri-bərabər şərtlə *tonu* 210 dollar hesabı ilə unla ödəməli idi. Müqaviləni cəmiyyətin adından polkovnik V.Haskel, Azərbaycan Hökuməti adından iso Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstandakı diplomatik nümayəndəsi Faris bəy Vəkilov imzalamışdılar. Lakin Azərbaycan tərəfi öz müqavilə öhdəliyini yerinə yetirmiş, müqabil tərəf isə Azərbaycana ödəməli olduğu 4760 pud unu verməyərək borclu qalmışdı. *Aprel işğalından (1920)* sonra Azərbaycan SSR hökuməti həmin borcun ödənilməsini tələb etsə də, cəmiyyət borcun ödənilməsi ilə bağlı müraciətlərə cavab verməmişdi.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998.

**"YAŞIL QƏLƏM" CƏMİYYƏTİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş ədəbi birlik. Hələ 19 əsrdə daha çox ayrı-ayrı bölgələrdə "Məclisi-üns", "Məclisi-fəramuşan"' (Şuşa), "Beytüs səfa" (Şamaxı), "Əncüməni şüəra" (Ordubad), "Fövcül tüsəha" (Lənkəran), "Məcməüş süəra" (Bakı) kimi ədəbi məclislər fəaliyyət göstərsə də, Azərbaycanda bütün ədəbi qüvvələri birləşdirən vahid ədəbi qurum yox idi.

20 əsrin əvvəllərində, əsasən, ədiblərin sıx birləşdiyi Bakıda da müəyyən ədəbi birlik və dərnəklər fəaliyyət göstərirdi. Onların təşkilində çox vaxt məfkurə uyğunluğu nəzərə alınırdı. 1917 ildə Hacı İbrahim Qasımovun rəhbərliyi ilə "Müsəlman mühərrir və əbiblər cəmiyyəti", 1919 ildə "Mühərrir və ədiblər ittifaqı" yaradıldı. 1919 ildə bolşevik ideyalarına xidmət edən yazıçılar və jurnalistləri birləşdirən "Qırmızı qələm" cəmiyyəti də təşkil olunmuşdu. Bakıda "Ədəb yurdu", "Tənqid gecələri", Gəncədə "Ədəbiyyat və sənayeyi-nəfisə ittifaqı" kimi ədəbi birliklər fəaliyyət göstərirdi. Bununla belə, Azərbaycanın qabaqcıl ziyalılarının vahid ədəbi cəmiyyət yaratmaq təşəbbüsləri uğursuz olmuş, müstəqil dövlətin qurulmasına qədər reallaşmamışdır.

downloaded from KitabYurdu.az

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli mədəniyyətin inkişafı yolunda atılan mühüm addımlardan biri ilk vahid ədəbi cəmiyyətin - "Yaşıl qələm" cəmiyyətinin təşkili oldu. Cəmiyyətin təsis toplantısı 1919 il avqustun 26-da keçirildi. 35 nəfərin iştirak etdiyi iclasda Seyid Hüseyn cəmiyyətin sədri seçildi. Qəbul olunmuş məramnamədə göstərilirdi ki, ***"cəmiyyətin məqsədi Azərbaycan xalqının fikrən yüksəlməsinə çalışmaq, Azərbaycan ədəbiyyatında müşahidə edilməkdə olan yeniliyi qüvvətləndirmək, onu türklüyə və sadələşməyə sövq etməkdir".***

Cəmiyyət konkret işlər görməyi də planlaşdırmışdı. Onun məramnaməsində ədəbiyyatın təhlili və ədəbiyyat tarixinin tərtibi, yazıçılıq sənətinin təşviqi və ədəbiyyat həvəskarlarının bir araya toplanması, yaradıcılıq müsabiqələrinin keçirilməsi, elmi konfranslar təşkil olunması, ədəbi irsin, milli tarixə və ənənələrə aid əsərlərin toplanması, nəşri, nəşriyyat işinə diqqətin artırılması, ədəbi məcmuə və qəzetlərin buraxılması, gənc yazarlarla iş aparılması, əcnəbi dillərdəki Azərbaycana aid mühüm əsərlərin tərcüməsi nəzərdə tutulurdu. Cəmiyyətin "Yaşıl qələm" adlandırılması bununla izah olunurdu ki, ***"əvvələn, yaşıl baharı andırır, saniyən, yaşıl rəngi ümid və nicat işarələrini mütəzəmindir. Bunun üçün də istiqlaliyyətimizdən naşi ədəbiyyatımızda da bir bahar mövsümü gələcəyini cəmiyyət öz adı ilə təbəşşir edir".***

Məramnamədə nəzərdə tutulan tədbirlər Azərbaycan mədəniyyətində vaxtı çatmış, həllini gözləyən problemlərlə bağlı idi. Onların həyata keçirilməsi Azərbaycan ədəbiyyatına, həqiqətən, bahann gəlişi kimi qiymətləndirilə bilərdi. Bütün bu problemlərin həlli üçün çoxlu vəsait tələb olunurdu. Odur ki, təsis iclasında üzvlərin hamısı üzvlük haqqı vermiş, Salman Mümtaz isə cəmiyyətə böyük məbləğdə yardım göstərmişdi.

Cəmiyyət demokratik əhvali-ruhiyyəli mühərrir və şairləri öz ətrafında birləşdirdi. Cəmiyyət üzvlərinin əksəriyyəti Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını ruh yüksəkliyi ilə qarşılayan, Azərbaycanın istiqlaliyyət qazanması ilə ədəbiyyatımızda daha böyük uğurlar əldə ediləcəyinə inanan, milli mədəniyyətin inkişafı yolunda çalışan görkəmli ziyalılar, sənət adamları idilər. Təsis iclasında *Seyid Hüseyn,* Məhəmməd *Ağaoğlu, Ümmügülsüm, Əli Yusif,* Mirzə Bala *Məmmədzadə* idarə heyətinə seçilmişdilər. Məhəmməd Əmin Rəsulzadə, Həsən bəy Ağayev, Üzeyir bəy Hacıbəyli, Əhməd Cövdət, Şəfi bəy Rüstəmbəyli, Nəcəf bəy Vəzirov, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, Cəfər Cabbarlı, Əlabbas Müznib, Salman Mümtaz və b. cəmiyyətin iclaslarında iştirak edirdilər.

Cəmiyyətin fəaliyyəti qısa müddət ərzində ədəbi mühitdə canlanma yaratdı. 1919 il 19 sentyabr tarixli iclasında Sabirin "Hophopnamə"sinin yenidən təb və nəşri məsələsi" müzakirə edilmiş, böyük şair "xalq şairi" adlandırılmışdı.

"Yaşıl qələm" cəmiyyəti Bakıda *Mart soyqrımı (1918)* zamanı erməni daşnaklarının vəhşicəsinə yandırdıqları binalardan biri - möhtəşəm memarlıq abidəsi, milli istiqlal mübarizəmizin müqəddəs məbədgahı "İsmailiyyə"yə həsr olunmuş əsərlər üçün müsabiqə elan etmişdi. Bu münasibətlə mətbuatda həmin mövzuda xeyli yazı dərc olunmuşdu. Bu yazılar içərisində Seyid Hüseynin "Həzin bir xatirə. İsmailiyyə" (1919) sənədli-publisistik hekayəsi xüsusilə seçilirdi. Əsər müsabiqənin mükafatına layiq görülmüşdü.

Azərbaycan Xalq Cümhuriyyətinin ədəbi-mədəni həyatında əhəmiyyətli rol oynayan "Yaşıl qələm" cəmiyyətinin bir çox üzvləri kommunist ideologiyasının uzun illər boyu unutdurmağa cəhd göstərdiyi milli istiqlal ədəbiyyatımızın görkəmli nümayəndələri olmuşlar.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), B., 1998.

**YAYCILI** Kərim (1913-1979) - mühacirətdə Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçısı, şair, publisist, nasir. Türkiyənin Qarakəsə, Qaraqoyunlu və Ərzurum ibtidai məktəblərində dərs demişdir. Xəstəliyi üzündən sistemli təhsil ala bilməmişdir. Yalnız Ərzurum litseyinin ədəbiyyat bölümünü bitirmiş, daxil olduğu Ankara Universitetinin türk dili və ədəbiyyatı bölümünü isə yarımçıq buraxmışdır.

Yaycılı ilk poetik yaradıcılıq nümunələrini Berlində çıxan "Qurruluş" dərgisində dərc etdirmiş, Ankarada nəşr olunan "Azərbaycan" jurnalı ilə sıx əlaqə saxlamışdır. Sağlığında şairin yalnız "Vətəni və milli şerlər" (Ankara, 1962) adh kitabı buraxılmışdır. Kitaba onun müxtəlif vaxtlarda yazdığı şeirlər və "Hacı Tağı" adlı hekayəsi daxil edilmişdir. K.Yaycılının şerlərinin əsas mövzuları Azərbaycan, Türkiyə və Qafqazla bağlıdır.

Məhəmməd Əmin Rəsulzadənin ölümü ilə əlaqədar yazdığı "Batan günəş" adlı şerindən iki misra Ankaranın Əsri qəbiristanlığında uyuyan ulu öndərin məzar daşına həkk olunmuşdur:

*Yaşatmazdı qəlblərdə ümidsizlik və məlal,*
*Oıuın məfkurəsiydi: haqq, müsavat, istiqlal.*

*Əd.:* Sultanlı V.. Azərbaycan mühacirət ədəbiyyatı, B., 1998.

**YEFREMOV** Mixail Qriqoryeviç (11.3.1897, Rusiya, Tarusa ş. - 19.4.1942, Smolensk vilayətinin Jarı kəndi yaxınlığında) - Rusiya hərbçisi, general-leytenant (1940). Birinci dünya müharibəsinin (1914-18), habelə Moskvada Oktyabr silahh çevrilişinin (1917) iştirakçısıdır. 1918 ilin fevralından sovet ordusunda xidmət etmişdir. 1920 ilin aprelində Şimali Azərbaycanı işğal edən və Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradan 11-ci Qırmızı ordunun dəmir yollarını müdafiə rəisi, sonra isə dəmir yolları döyüş məntəqəsinin rəisi idi. Yefremova 4 zirehli qatar və 28-ci diviziyanın 299-cu atıcı alayının 2 rotasından ibarət desantla birlikdə sürətli hərəkətlə Bakıya soxulmaq tapşırığı verilmişdi. 11-ci ordunun onun başçılıq etdiyi zirehli qatarlar dəstəsi 1920 il aprelin 27-ə keçən gecə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət sərhədlərini keçmiş, iki saatlıq qanlı vuruşmadan sonra Yalama stansiyasını, aprelin 27-si axşam saat 9-da Biləcəri stansiyasını, aprelin 28-də səhər saat 4-də isə Bakı stansiyasını ələ keçirmişdi. Həbib Cəbiyev,

downloaded from KitabYurdu.az

Qəzənfər Musaboyov və başqa azərbaycanlı bolşeviklər, həmçinin A.Mikoyan da "Üçüncü İnternasional" adlı zirehli qatarda olmuşlar. Əməliyyatm son dərəcə məxfiliyi, A.Mikoyanın rəhbərliyi altında türk dilini, məişətini, həmçinin yerli şəraiti bilən qrupun bələdçiliyi, Azərbaycanın əsas hərbi qüvvələrinin Moskvanın sifarişi ilə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı Qarabağda qiyam qaldırmış erməni-daşnak silahh quldur dəstələrinə qarşı qərb sərhədlərində olması Yefremovun hərbi hissəsinin uğurunu təmin etdi və bu Azərbaycan Xalq Cümhuriyyətinin süqutunda əsas rol oynadı [bax, həmçinin *Aprel işğalı (1920), Bakı əməliyyatı (1920)]*. Onun bu "xidməti" sovet hökuməti tərəfindən yüksək qiymətləndirilmiş, Qınnızı Bayraq ordeni, həmçinin Azərbaycan SSR-in Qırmızı Bayraq ordeni (2 dəfə) ilə təltif olunmuşdur. "Rəşadotli" yürüşlə Bakını aldığına görə Yefremova bir ay sonra Azərbaycan İnqilab Komitəsi tərəfindən dəstəyinə xatirə yazısı həkk olunmuş, üzəri qiymətli daşlarla bəzədilmiş qılınc hədiyyə verilmişdi.

Yefremovun komandanlığı ilə zirehli qatarlar dəstəsi *Gəncə üsyanının (1920)* yatırılmasında da iştirak etmişdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə c.5, B., 2001; Əhmədova F,, Nəriman Nərimanov - ideal və gerçəklik, B., 1998.

**YELİZAVETPOL,** Yelisavetpol - Azərbaycanın qədim şəhəri Gəncənin 1804-1918 illərdə adı. Qədim Gəncəyə "Yelizavetpol" adı Rusiya işğalçıları tərəfindən verilmişdir. Tarixi qaynaqlardan məlumdur ki, 1803 il noyabrın 20-də general P.D.Sisianovun başçılığı ilə Rusiya qoşunu Gəncəyə hücum etmişdi. P.D.Sisianovun təslim olmaq tələblərini dəfələrlə rədd edən Gəncə xam Cavad xan qalaya çəkilərək, uzun müddət çar qoşunlarına şiddətli müqavimət göstərmişdi. 1804 il yanvarın 3-də Cavad xan döyüşdə şəhid oldu, rus qoşunları Gəncə qalasını tutdu. Gəncə xanlığı ləğv edilərək, ərazisi Rusiyaya qatıldı. "Gəncə" sözü, Gəncənin qəhrəmanlığı Azərbaycan xalqının müstəmləkəçilərə qarşı mübarizə rəmzinə çevrildi. Odur ki, işğalçılar bu adı Azərbaycan xalqının yaddaşından silib çıxartmaq qərarına gəldilər. P.D.Sisianovun təklifı ilə Gəncə şəhərinin adı imperator I Aleksandrın arvadı Yelizavetanın "şərəfmə" Yelizavetpol adlandırıldı. "Gəncə" adının dilə gətirilməsinin qadağan olunması haqqında fərman verildi. Bu qaydanı pozanlar bir qızıl manat cərimə verməli idilər. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918 il 30 iyul tarixli qəran ilə Gəncə şəhərinin tarixi adı yenidən özünə qaytarıldı (bax, həmçinin *Gəncə şəhərinin adının bərpası barədə qərar)*.

**YELİZAVETPOL QUBERNİYASI** Azərbaycanda inzibati-ərazi vahidi. Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında 1867 il 9 dekabr tarixli çar fərmanına əsasən yaradılmışdı. Mərkəzi Yelizavetpol (Gəncə) şəhəri idi (bax *Gəncə quberniyası)*.

**YENİ BAYAZİD QƏZASI,** Novobayazet qəzası *-İrəvan quberniyası* tərkibində inzibati-ərazi vahidi, tarixi Göycə mahalı. Rusiya müstəmləkəçilərinin Türkiyənin Bayazid vilayətindən Göycəyə köçürüb gətirdikləri ermənilər onu "Nor Bayazid" (Yeni Bayazid) adlandırmışlar. Rusiya işğalından sonra müstəmləkəçilər tərəfındən məhz bu ad rəsmiləşdirilmişdi. 1849 ildə lrəvan quberniyası təşkil edildikdə onun tərkibində qəzaya çevrilmişdi. İ.Şopenin 1829-32 illərdə apardığı kameral təsvirə görə, İrəvan əyalətinin Göycə mahalında 59 kənd qeydə alınmışdı. Çar Rusiyası tərəfindən ermənilərin köçürülüb gətirilməsi ərəfəsində burada 999 azərbaycanlı ailəsi [yaxud 5607 nəfər (3164 kişi, 2443 qadın)], comi 15 erməni ailəsi [yaxud 90 nəfər (52 kişi, 38 qadın)] olmuşdur. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonrakı köçürmələr nəticəsində buraya Türkiyədən 1485 erməni ailəsi, yaxud 8557 nəfər (4457 kişi, 4100 qadın) gətirilmişdi. Nəticədə, mahalda əhalinin etnik tərkibi köklü şəkildə dəyişdirilmişdi. Əhalinin cüzi hissəsini (4,9%) toşkil edən erməni ünsürünün payı 60,4%-dək artırılmışdı. 1917 il Qafqaz təqviminin məlumatına görə, qəzanın ərazisi 4122,76 *kv.verst* (4699,95 *kv.km)* idi. Qəza mərkəzi Novobayazet şəhərində 14748 nəfər qeydiyyata ahnmışdı. Qəzanın özündə isə 174111 nəfər (90384 kişi, 83727 qadın) yaşayırdı. Onlardan 161935 nəfəri daimi, 12176 nəfəri müvəqqəti yaşayanlar idi. 1828-ci və sonrakı illərdə olduğu kimi, baş verən köçürmələr vasitəsilə ermənilərin sayı süni surətdə artmaqda davam etmişdi. Bu da əhalinin ümumi sayında azərbaycanlıların azalmasına (50,7 min və ya 29,1%) səbəb olmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Yeni Bayazid qəzasının 1 -ci və 2-ci polis sahəsini Cümhuriyyətin mübahisəsiz torpaqları sırasına daxil etmişdi. Qəzanın bu hissəsində *Göycə dairəsi* yerləşirdi. Erməni-daşnak hökuməti 1918-20 illərdə Yeni Bayazid qəzasının azərbaycanlılar yaşayan kəndlərində soyqırımı törətmişdilər. Dağlıq zolağını 5-ci sahəsinin müsəlman əhalisi üzrə müvəkkili 1919 il mayın 17-si məlumatında bildirirdi ki, həmin ilin 13 aprelindən başlayaraq, Ararat Respublikasının qoşunları Göycə bölgəsinin, Yeni Bayazid qəzasınm dinc müsəlman əhalisinə qarşı hücuma keçmişlər. Məqsəd, Göycə gölünün şərq və şimal hissəsini burada yaşayan müsəlmanlardan təmizləməkdir. Hal-hazırda Yeni Bayazid qəzasında 84 müsəlman kəndi dağıdılmış, yandırılmış, əhalisi isə qırılmışdır... Göycə bölgəsində müsəlman qalmamışdır. Ermənilər istədiklərinə nail olmuşlar. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Yeni Bayazid qəzasının-qədim Azərbaycan torpağı olan Göycə mahalının torpaqları, bütünlüklə, Ermənistanın tərkibinə daxil edildi.

*Əd.:* Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, B.. 1990; Ermənistan azərbaycanlılarının tarixi coğrafıyası, B., 1995; Адрес-календарь *Азербайджанской Республики на* 1920 г.;

**"YENİ FÜYUZAT"** - Bakıda Azərbaycan dilində nəşr edilən həftəlik illüstrasiyalı jurnal (1910-11). *"Füyuzat"* (1906-07) ənənələrinin davamçısı olan jurnalın naşiri və məsul müdiri Əlipaşa Hüseynzadə (Səbur), baş mühərriri Əhməd Kamal Rasim oğlu idi. İslam birliyi, milli istiqlaliyyət, siyasi dirçəliş, vətənpərvərlik ideyalarının təbliği, şah, sultan istibdadını, Rusiya və İngiltərə dövlətlərinin Yaxın və Orta Şərq ölkələrində - Misirdə, Ərəbistanda, İranda,

downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az



Türkiyədə, Əfqanıstanda qanlı müstəmləkəçilik siyasətinin tənqidi jurnalın əsas ideya istiqamətini təşkil edirdi.

"Yeni fuyuzat"ın əsas müəllifləri Əhməd Kamal, Mir-zə Ələkbər Sabir, Əliqulu Qəmküsar, Abdulla Şaiq, Əlipaşa Hüseynzadə (Səbur), Əli Mişan, Axund Yusif Tahbzadə, Məhəmməd Sadıq Axundov, Nemət Bəsir, Əli Səbri və b. idi. "Yeni füyuzat"da poeziya aparıcı yerlərdən birini tuturdu. Şerlərin çoxu siyasi məzmunlu olub, vətənin istiqlaliyyəti və suverenliyi ideyalarını təbliğ edirdi. Bu ideyalar Əhməd Kamal, Əlipaşa Hüseynzadə (Səbur), Abdulla Şaiq kimi müasir şairlərlə yanaşı, klassik türk şairlərinin, xüsusilə Namiq Kamalın şerlərində daha bariz ifadə olunmuşdu.

"Yeni füyuzat” da islam birliyinin təbliği xüsusilə güclü idi. Əhməd Kamahn "Asiya" başlıqlı silsilə məqalələrində Rusiya və İngiltərənin müsəlman ölkələrini öz aralarında bölüşdürmək üçün törətdikləri silahlı toqquşmalarının real tarixi əks olunmuşdu. Müəllif İslam dövlətlərinin Qərb imperializminin təzyiqindən qurtuluş yolunu birləşməkdə görürdü.

İmperialist dövlətlərin Şərqdə müstəmləkəçilik siyasətinin tənqidi jandarm idarəsinin diqqətini cəlb etmiş, 1911 il martın 19-da naşirin və baş redaktorun evində axtarış aparılmış, naşir və məsul müdir Əlipaşa Hüseynzadə (Səbur) Həştərxana sürgün olunmuş, baş redaktor Əhməd Kamal isə Rusiya hüdudlarından çıxarıhb, vətəni Türkiyəyə göndərilmiş, bununla da "Yeni füyuzat"ın fəaliyyəti dayandırılmışdı.

*Əd.:* Məmmədzadə M, Azərbaycan türk mətbuatı, B., 1922; Azərbaycan dövri mətbuatı (1875-1990-cı illər), B.. 1993; Hüseynzadə A., Romantik şair Əlipaşa Səbur, B., 2000.

**"YENİ HƏQİQƏT"** - gündəlik qəzet. 1911 ildə Bakıda nəşr olunmuşdur. İlk nömrəsi yanvarın 21-də, sonuncu, 44-cü nömrəsi martın 18-də çıxmışdır. "Günəş" və "Həqiqət" qəzetlərinin davamı idi. "Yeni həqiqət"də müxtəlif siyasi-inzibati regionların həyatına dair informasiyalar, beynəlxalq siyasətə, dini məsələlərə dair məqalələr, bədii ədəbiyyat nümunələri dərc olunurdu. Qəzetin naşiri və baş redaktoru Oruc Orucov, əsas müəllifləri Əhməd bəy Ağayev (Ağaoğlu), Mirzə Ələkbər Sabir, Əlabbas Müznib, Mirzə Məhəmməd Axundov, Məhəmməd Sadıq Axundov, Abdulla bəy Divanbəyoğlu, Azad Mərəndi, Əliqulu Qəmküsar və b. idi.

Avropa dövlətlərinin Şərqdə müstəmləkəçilik siyasətinin tənqidi, dünya müsəlmanlarının birliyi, "İttihadi-islam" ideyasının təbliği "Yeni həqiqət"in əsas ideya istiqamətini təşkil edirdi. Ə.Ağayevin "Osmanlı məktubları" silsiləsin-də, Haşım Məhəmmədzadənin "Avropahlar və ovçuluq", İstanbul müxbirinin "Müsəlmanlara qəsd" məqalələrində və s. yazılarda imperialist dövlətlərin, o cümlədən Rusiyanın müsəlman xalqlarına qarşı yürütdükləri təcavüzkarhq siyasəti ifşa olunurdu. Məhz buna görə də 1911 il martın 19-da "Yeni həqiqət"in nəşri dayandırıldı, naşir-redaktoru Oruc Orucov həbs olunaraq Rusiyanın daxili quberniyalarına sürgün edildi.

Qısa müddətdə çıxmasına baxmayaraq, "Yeni həqiqət" milli ictimai-siyasi şüurun, istiqlal ideyalarının oyanışında müəyyən rol oynamışdır.

*Əd.:* Məmmədzadə M.B., Azərbaycan türk mətbuatı, B., 1922; Mirəhmədov Ə., Sabir, B.. 1958: Məmmədov M,, Sabir və mətbuat, B., 1974.

**"YENİ QAFQASYA"** - Azərbaycan siyasi mühacirətinin mətbu orqanı. 1922 ilin yazından 1927 ilin noyabrına kimi İstanbulda ayda iki dəfə çıxmış. cəmi yüz nömrəsi işıq üzü görmüşdür. Sahibi və müdiri Seyid Tahir, 1926 ildən sonra isə Sultan Əhməd Həqqi olsalar da, nəşrə bilavasitə Məhəmməd Əmin Rəsulzadə rəhbərlik və redaktorluq etmişdir. Redaksiya heyətinin üzvləri Şəfı bəy Rüstəmbəyli, Əhməd Cəfəroğlu, Xəlil bəy Xasməmmədov, Əmin Abid (Gültəkin) və Buxara Respublikasının sabiq prezidenti Osman Xoca idilər. Nəşrin ilk nömrələrində M.Ə.Rəsulzadənin açıq imzası ilə yazıları çıxmırdı. İlk dəfə onun imzası ilə "İdarəyə gəlmiş bir məktub" yazısı məcmuənin 1922 il 15 oktyabr tarixli 4-cü nömrəsində dərc olunmuşdur.

"Yeni Qafqasya"nın nəşri ilə mühacirlər arasında canlanma, fəallıq yarandı. İlk nömrəsində dərc olunan proqram məqaləsindən aydın olurdu ki, "Yeni Qafqasya" *"bir milli imanla işə başlayaraq, Azərbaycan, Qafqaz və əsir türklərin milli istiqlal davasını tanıtmağı* "özünün əsas vəzifəsi hesab etmişdir.

***"Yalnız azərbaycanlıların deyil, rus əsarəti altındakı bütün türklərin"*** (Mirzə Bala Məmmədzadə) məcmuəsi olan "Yeni Qafqasya" proqram məqaləsində qarşısına qoyduğu tarixi vəzifələri yerinə yetirmək üçün ciddi ideoloji mübarizəyə başladı. Onun nəşri Moskvada, Bakıda, Daşkənddə, Kazanda çıxan "Pravda", "Kommunist", "Bakinski raboçi", "Qızıl

downloaded from KitabYurdu.az

Özbəkistan", "Novıy Vostok", "Qızıl Orenburq" və s. kimi qəzet və jurnalların, hətta ali sovet hakimiyyət orqanlarının ciddi narahatlığına səbəb olmuşdu.

***"Yeni Qafqasya" Anadolunun dörd bir tərəfinə, İranın, Misirin, Hindistanın, Əfqanıstanın və digər Şərq ölkələrinin mərkəzlərinə yayılaraq, bolşevizm zülmü altında inliyən türk və islam millətlərinin uğradıqları qəzavü-qədər və zülm haqqında həzin və oyandırıcı xəbərlər aparırdı"*** (M.B.Məmmədzadə).

"Yeni Qafqasya" bir tərəfdən sovetlərə qarşı amansız ideoloji mübarizə aparır, rejimin xalqa qarşı törətdiyi terroru, cinayəti ifşa edirdisə, digər tərəfdən, Azərbaycan Xalq Cümhuriyyətinin, istiqlal dövrünün tarixini yazırdı."Yeni Qafqasya"nın vaxtilə toxunduğu mövzular böyük elmi-tarixi əhəmiyyət kəsb edir. *Mart soyqırımının (1918)* dəhşətlərinə, Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusunun erməni-bolşevik hərbi birləşmələrini darmadağın etməsinə, 28 May -istiqlal gününə, 27 Aprel - işğal və matəm gününə dair jurnalda dərc edilən yazılar həmin dövrdə ideoloji mübarizəyə, ictimai rəyin düzgün formalaşdırılmasına xidmət edirdisə, bu gün sanballı tarixi mənbə rolunu oynayır. Jurnalın aparıcı mövzularından biri də beynəlxalq münasibətlər idi. Bu mövzuda, əsasən, M.Ə.Rəsulzadə və Mirzə Bala Məmmədzadə yazırdılar. "Neft uğrunda mübarizə" (1927, 18 avqust, 1*22), "Rusiya dalanda" (1927, 18 iyun, N°18), "Rusiya və Şərq arasında ticarət əlaqələri" (1927, 17 fevral ) və s. yazılar "Yeni Qafqasya"nın beynəlxalq mövzulara böyük maraq və həssaslıq göstərdiyini əks etdirir.

Azərbaycan mühacirət mətbuatı tarixində "Yeni Qafqasya"nın xüsusi yeri və rolu vardır. Ankarada çıxan "Azərbaycan" jurnalı özünün 1952 il sentyabr tarixli 6-cı nömrəsində "Yeni Qafqasya" adlı məqaləsində yazırdı: "Yeni Qafqasya" özündən sonra gələn bütün milli nəşriyyat orqanlarının piridir; dost və düşmən tərəfindən böyük bir ilgi ilə qarşılanmışdır".

*Əd.:* Tahirli A., Azərbaycan mühacirət mətbuatı, B., 2002.

**"YENİ ŞİRVAN"** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şamaxı şəhərində fəaliyyət göstərmiş xeyriyyə cəmiyyəti. Bakının baş memarı olmuş ali təhsilli ilk azərbaycanlı memar Zivərbəy *Əhmədbəyovun* təşəbbüsü ilə təşkil olunmuşdur (1919). Cəmiyyətin əsas məqsədi S.Şaumyanın göstərişi ilə erməni-daşnak və bolşevik hərbi birləşmələri tərəfindən Azərbaycan xalqına qarşı 1918 ildə həyata keçirilmiş soyqırımları zamanı xüsusi qəddarlıqla dağıdılmış və yandırılmış Şamaxı şəhərini bərpa etmək olmuşdur.

**YERLƏRDƏ QAÇQINLARIN VƏZİYYƏTİNİ ARAŞDIRAN MƏRKƏZİ KOMİSSİYANIN İŞ PLANININ TƏSDİQİ VƏ QAÇQINLARIN BOŞ ƏRAZİLƏRDƏ YERLƏŞDİRİLMƏSİ LAYİHƏSİNİN HAZIRLANMASI HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1919 il avqustun 11-də qəbul etdiyi sənəd. Yeddi bənddən ibarət olan həmin qərarda Mərkəzi komissiyaya qaçqınların boş ərazilərdə yerləşdirilməsinə dair dərhal layihə hazırlamaq tapşırılmışdı. Xarici ölkələrdəki qaçqınların qayıtması haqqında məsələnin həlli hökumətin ixtiyarında qalırdı. Mərkəzi komissiyaya qaçqın məsələsini həll etmək üçün xarici işlər naziri vasitəsilə Beynəlxalq komissiya ilə əlaqə saxlamaq səlahiyyəti verilmişdi.

*Əd.: Азербайджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998;

**YƏHUDİ MİLLİ ŞURASI** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkədə yaşayan yəhudilərin mənafeyini müdafiə etmək məqsədilə fəaliyyət göstərmiş şura. 1917 il dekabrın 3-də yaradılmışdı. Həmin ilin sentyabrında Şuranın fəaliyyəti dayandırılmış, 1918 il oktyabrın 9-da Bakı qubernatorunun icazəsi ilə yenidən bərpa edilmişdi. Müxtəlif dini və siyasi yəhudi qruplarının təmsil olunduğu Şura mədəni-maarif, dini və xeyriyyə işləri ilə məşğul olurdu. Aylıq büdcəsi 150 min rubla çatan yəhudi ibtidai və yuxarı sinif məktəbləri (800-dək şagird), yaşlılar üçün axşam kursları və kitabxana, ucuz yeməkxana, erməni-daşnak və bolşevik hərbi birləşmələrinin 1918 ildə törətdikləri soyqırımlar zamanı talanlardan zərər çəkmiş yəhudilərə yardım komitəsi, xırda alverçi və sənətkarlara yardım göstərən yəhudi borc-əmanət birliyi Şuranın sərəncamında idi. Şuranın büdcəsi yəhudi icmasının üzvlərindən yığılan gəlir vergisi hesabına formalaşırdı. Azərbaycan Milli Şurasının 1918 il 19 noyabr tarixli qərarı ilə, milli təmsilçilik prinsipinə uyğun olaraq, yəhudi əhalisindən bir nümayəndəni Parlamentin tərkibinə daxil etmək və onun seçimini həyata keçirmək yəhudi milli təşkilatlarına həvalə edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində Yəhudi Milli Şurasını onun sədri M.A.Quxman təmsil edirdi. Onun Parlamentdəki, xüsusilə aqrar komissiyadakı fəaliyyəti, əsasən, yəhudilərin mənafelərinin müdafiəsinə yönəlmişdi. **YOLLAR NAZİRLİYİ,** Azərbaycan Xalq Cümhuriyyəti Yollar Nazirliyi - Azərbaycan Xalq Cümhuriyyəti dövründə vətəndaşların və nəqliyyatının hərəkətini, yüklərin daşınmasını təmin edən yollar şəbəkəsinin fəaliyyətinə rəhbərlik edən ali icra hakimiyyəti orqanı. 1918 il mayın 28-də - Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin elan olunduğu gün Fətəli xan Xoyskinin təşkil etdiyi hökumət kabinəsində ilk nazirliklərdən idi. İlk yollar naziri vəzifəsinə hələ Zaqafqaziya Cümhuriyyəti hökumətində yollar naziri işləmiş, dəmir yol işləri sahəsində böyük təcrübəsi olan məşhur ixtiraçı-mühəndis Xudadat bəy Məlik-Aslanov təyin olunmuşdu. Sonrakı dörd hökumət kabinələrində də Yollar Nazirliyi vəzifəsini X.Məlik-Aslanov tutmuşdur. 1919 ilin sonuna yaxın Yollar Nazirliyinin strukturuna işlər idarəsi,

downloaded from KitabYurdu.az

dəmir yol idarəsi, su və şose yolları idarəsi daxil idi. Bakı Dənizçilik Məktəbi, Azərbaycan dəmir yolunun mühafızəsi idarəsi və Bibiheybət buxtasının torpaqla doldurulması idarəsi də nazirliyin tabeliyində idi.

Azərbaycanın müstəqilliyi elan edildikdən sonra Gən-cədə Azərbaycan Dəmir Yolu İdarəsi yaradıldı. İdarənin ştatları milli mənsubiyyətindən asılı olmayaraq, keçmiş Zaqafqaziya dəmir yolu işçilərinin hesabına komplektləşdirilirdi. Bu dövrdə ölkədə yaranmış anarxiya, xüsusilə Türkiyə ilə müharibə cəbhəsindən qayıdan Rusiya hərbi hissələri ilə baş vermiş münaqişə nəticəsində dəmir yol stansiyalarının yandırılması, texniki avadanlıqların dağıdılması, dəmir yol teleqraf və telefon xətlərinin, cihazlarının zədələnməsi və dağıdılması, buxar qazanlarının, armaturlarının oğurlanması, elektrik işığı vermək üçün lazım olan dinamo maşınlarının, onların avadanlıqlarının oğurlanması və s. işi çətinləşdirirdi. Yalnız Tiflis-Gəncə şəhərləri arasında sərnişin qatarları işləyirdi. Yük qatarları işləmir, Gəncədən Kürdəmirədək ərazi cəbhə xətti hesab edilirdi. Kürdəmirdən Bakıya qədərki dəmir yol xəttində nə baş verdiyindən xəbər yox idi. Hökumət Gəncədə olarkən onun sərəncamında cəmi 651 yük vaqonu (335-i bağlı, 110-u platforma, 206-sı isə sistern), 86 sərnişin vaqonu (çoxunun təmirə ehtiyacı var idi) olmuşdur. Hökumotin sərəncamında acınacaqlı vəziyyətdə olan 77 parovoz var idi. Gəlirin yox dərəcəsində olduğu belə bir şəraitdə hətta, işçilərə əmək haqqı ödəmək belə mümkün deyildi.

1918 il sentyabrın 15-də Azərbaycan və Türkiyə hərbi hissələrindən ibarət *Qafqaz İslam Ordusu* tərəfindən Bakı azad olunduqdan sonra Yollar Nazirliyi ilə bərabər dəmir yolu idarəsi də Bakıya köçürüldü. Dəmir yol vaqonlarmın sayı 1152 açıq, 965 platforma, 820 sistern, 194 sərnişin və 153 parovoz hesabına artsa da, sərnişin və yük vaqonlarının yarısından çoxu, parovozların isə 60 faizə qədəri tam yararsız halda idi. Lakin Bakıda emalatxana və lazımi materialların olması dəmir yolunda çatışmayan vəsaitləri və materialları əldə etməyə imkan verirdi. Bakıya köçdükdən sonra nazirliyin neft məhsullarını Türkiyə komandanlığının ünvanına Batuma və Aleksandropola göndərməsi işi intensivləşdirildi. Eyni zamanda, Bakı-Batum neft kəməri bərpa edilərək, onunla neft nəql olunması işi bərpa olundu.

1918 ilin noyabrında türk ordulan Azərbaycam tərk edərkən dəmir yolu, artıq türk ordusunun daşınması işini həyata keçirə bildi. Bundan sonra Azərbaycana müdaxilə etmiş ingilis qoşunlarının komandanlığı dəmir yolunun xidmətindən geniş istifadə etdi. General Tomson ingilis zabitlərinin yükünü və sənədlərini yoxlamağı Azərbaycan Xalq Cümhuriyyəti dəmir yolu işçilərinə qadağan etmişdi. Yollar Nazirliyinin gördüyü təsirli tədbirlər nəticəsində 1919 ilin əvvəllərindən başlayaraq dəmir yolunda yüklərin və sərnişinlərin daşınması sahəsində işlər getdikcə yaxşılaşdı. Həmin ilin fevralından Bakı-Tiflis yolunda qatarlarm hərəkət intensivliyi artdı. Martdan isə Bakı ilə Xaçmaz arasında sərnişin və yük, Bakı ilə Petrovsk-Port arasında isə poçt qatarları işləməyə başladı. Sonralar Yollar Nazirliyi yüklərin Azərbaycan dəmir yolu ilə daşınması işini də getdikcə intensivləşdirdi. 1919 ilin axırlarına yaxın Azərbaycan dəmir yolunda sərnişin qatarlarının sayı 7 cütə çatdırılmışdı. 1918 il sentyabrın 15-nədək parovoz və vaqonların təmiri üçün 7 depo fəaliyyət göstərirdi. Onlardan yalnız Bakı, Gəncə və Biləcəri depolarının təmir emalatxanaları vardı. Bu depolarda müvafiq olaraq, 18, 10 və 9 nisbətən saz dəzgah var idi. Çətinliklərə baxmayaraq, Yollar Nazirliyi parovozların təmiri üçün mümkün olan bütün tədbirləri görürdü. Əgər fəaliyyətinin ilk dövründə nazirliyin sərəncamında 52 işlək, 14 təmirdə olan və 169 təmir gözləyən parovoz var idisə, 1919 il noyabrın 1-i üçün vəziyyət xeyli yaxşılaşdı. Bu zaman nazirliyin sərəncamında artıq 101 işlək, 52 təmirdə olan və 82 təmir gözləyən parovəz vardı. 1919 ilin sonuna Azərbaycan dəmir yol parkında 384 sərnişin və 4096 yük vaqonu var idi.

Yollar Nazirliyinin həyata keçirdiyi əsas tədbirlərdən biri də dağıdılmış dəmir yolu xətlərini, platformaları, dayanacaqları, stansiyaları, körpüləri və s. bərpa etmək idi. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətə başladığı dövrdə, demək olar ki, bütün dəmir yol stansiyaları dağıdılmış, yandınlmış, avadanlıqları məhv edilmişdi. 1919 ilin axınna qədər bunların aradan qaldırılması üçün gərgin işlər görülmüş, təkcə 26 dağıdılmış dəmir yol körpüsü bərpa olunmuşdu. Həyata keçirilən mühüm işlərdən biri də 1916 ildə tikintisinə başlanılmış *Ələt-Culfa dəmir yolunun* inşasının 1919 ildə bərpa edilməsi idi. Bu yol Birinci dünya müharibəsində (1914-18) Qafqaz cəbhəsində rus ordusunun hərbi əməliyyatlarını yüngülləşdirmək məqsədilə çəkilməyə başlanmış və yarımçıq qalmışdı. Həmin yolun Azərbaycan üçün böyük iqtisadi və mədəni əhəmiyyətini nəzərə alaraq, Yollar Nazirliyi onun inşasının bərpasını maliyyələşdirmək barədə qanun layihəsi hazırlayaraq parlamentə təqdim etdi. 1919 ilin mayında Parlament Bakı (Ələt)-Culfa dəmir yolunun tikintisi üçün vəsait ayrılması barədə qərar qəbul etdi.

Yollar Nazirliyi, eyni zamanda, ölkə ərazisindəki su yolları və şose yollannın işinə də rəhbərlik və nəzarət edirdi. Su yolları və şose yolları idarəsinin tabeliyinə 1000 verst uzunluğunda şose və möhkəmləndirilmiş yollar verilmişdi. Mərkəzi idarədən əlavə, ölkənin şose yolları ayrı-ayrı bölmələrə, o cümlədən Quba, Kürdəmir (Şamaxı), Lənkəran, Şəki, Şuşa və Gəncə bölmələrinə (distansiyalarına) aynlmış və hər bölmə üçün distansiya rəisləri təyin olunmuşdu. Yerli inzibati idarə orqanlarından qəbul edilmiş bu yollarda heç bir təmir işinin aparılmaması və hələ bundan da qabaq yolların təmiri üçün lazımi materialların olmaması nəticəsində şose yolları tamamilə dağılmış vəziyyətdə idi. Nazirliyin yollar idarəsi və onun distansiya işçilərinin səyi ilə mümkün olan bütün vasitələrdən istifadə edilərək, avtomobillərin bu yollarda maneəsiz hərəkətini təmin etmək üçün lazımi şərait yaradılmışdı. Yollar idarəsi Gəncə-Zaqatala, Şamaxı-Quba, Şamaxı-Bakı və Bakı-Mərdəkan arasındakı yolların bərpası və yeni yolların çəkilməsi işini təşkil etdi.

downloaded from KitabYurdu.az

Xəzər dənizində hərəkətin yox dərəcəsində olması Yollar Nazirliyinə və onun yollar idarəsinə əsas diqqətini Kür çayında gəmiçiliyin inkişafına yönəltmək imkanı verirdi. Buna görə də Kür çayında gəmiçilik işinin təşkilinə nəzarət və rəhbərlik üçün müstəqil çay gəmiçiliyi müfəttişliyi də yaradılmışdı.

1920 il aprelin 27-də sovet Rusiyası tərəfindən Şimali Azərbaycanın işğalı Azərbaycan Xalq Cümhuriyyəti Yollar Nazirliyinin fəaliyyətini yarımçıq qoydu.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), B., 1998; *Азербаиджанская Демократическая Республика* (1918-1920). Законодательные акты (сборник документов), Адрес-календарь *Азербаиджанской Республики* Б., 1920.

**YOLLARIN VƏ YOL TİKİLİLƏRİNİN YOLLAR NAZİRLİYİNİN İXTİYARINA VERİLMƏSİ HAQQINDA QANUN (1919)** - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il martın 17-də qəbul etdiyi qanun. 5 bənddən ibarət idi. Qanuna əsasən, bütün şose yolları, bərk örtüklü və torpaq yollar dövlət əhəmiyyətli hesab edilməklə yol tikililəri, bunlara xidmət edən idarələr və texniki heyətlə birlikdə Yollar Nazirliyinin ixtiyarına verilirdi. Qanunun sonuncu - 5-ci bəndində texniki heyətin və qulluqçuların ştatlarının sayı və ştat cədvəlləri təsdiq olunmuşdu.

**YUNKERLƏR MƏKTƏBİ** - Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncədə milli hərbi kadrlar hazırlayan təhsil müəssisəsi (bax *Gəncə hərbi məktəbi)*.



**YUNUS NADİ** (Abahoğlu; 1880-1945) – türk juraalisti və siyasi xadimi. "İttihad və Tərəqqi" partiyasının xadimləri ilə yaxınlıq etmiş, 1918 ildə Türkiyədə nəşr olunan "Təsviri-əfkar",

"Yeni gün" və s. qəzetlərdə Türkiyə-Azərbaycan əlaqələrinə dair yazıların müəllifı kimi tanınmışdır. 1918 il iyunun 4-də "Təsviri-əfkar" qəzetində dərc olunmuş "Qafqazlılar və Türkiyə" adlı məqaləsində Batum sülh konfransında Azərbaycan və Türkiyə nümayəndələri arasında aparılmış danışıqlar və əldə edilmiş razılaşma haqqında geniş məlumat verilir. Müəllif Azərbaycan türklərinin istiqlal mübarizəsini ön plana çəkərək, Qafqazın Türkiyə üçün əhəmiyyətini vurğulayırdı. 1918 il sentyabrın 4-də "Yeni gün" qəzetində çıxan "Bolşeviklərin hökuməti" məqaləsində Yunus Nadi 1918 il avqustun 27-də imzalanmış alman-sovet sazişini (bax *Brest-Litovsk sülh müqaviləsinə əlavə məxfi saziş)* şərh edərək, Azərbaycan və Bakı məsələsində qeyri-fəal mövqe tutduğuna görə Türkiyə hökumətini tənqid edirdi. Yunus Nadi Türkiyə ictimaiyyətində Azərbaycanın müstəqilliyinin labüdlüyü fıkrinin formalaşmasında mühüm rol oynamışdır.

**"YURD BİLGİSİ",** "Azərbaycan yurd bilgisi" -Azərbaycan siyasi mühacirətinin ictimai-siyasi və ədəbi-bədii jurnalı. 1932-34 illərdə İstanbulda nəşr olunmuş jurnalının cəmi 36 nömrəsi çıxmışdır. 20 illik fasilədən sonra, 1954 ilin fevralında Azərbaycan kültürünü Tanıtma Dərnəyinin orqanı kimi daha bir nömrəsi (sonuncu) - 37-ci nömrəsi buraxılmışdır. Jurnalın müdiri görkəmli filoloq alim, publisist və ictimai xadim Əhməd Cəfəroğlu idi. "Yurd bilgisi"nin səhifələrində Azərbaycan xalqının tarixi. dili, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, iqtisadiyyatı ilə bağlı materiallar dərc olunurdu. Jurnalda Azərbaycan Xalq Cümhuriyyəti, onun tarixi əhəmiyyəti, Qafqazda rus siyasəti, onun iflası ilə bağlı yazılara da geniş yer ayrılırdı. Jurnalın müəllifləri sırasında Əhməd Cəfəroğlu ilə yanaşı, Fuad Köprülüzadə, Həsən Abdullahoğlu. Əbdülbaki, Əhməd Zəki Validi və b. var idi.



**YURDSEVƏR,** Əbdülvahab Məmmədzadə (1898, Bakı - 1976, Ankara) - Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri, ədəbiyyatşünas, publisist. 1911 ildə rus litseyinə qəbul edilmiş, 1917 ildən siyasi fəaliyyətə başlamış. həyatını bütünlüklə istiqlal hərəkatına həsr edərək, Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında yaxından iştirak etmiş, 1920 ildən sonra Müsavat partiyasının katibi və Milli Mü-qavimət Komitosinin üzvü olmuşdur. 1923 ildə həbs edilərək, əvvəlcə Şimali Qafqaza sürgün edilmiş, cəza müddəti bitdikdən az sonra isə Yaroslavl və Saratovda on bir illik sürgün həyatı yaşamışdır. Sürgündən sonra Ə.Yurdsevər bir müddət Daşkənddə qız məktəbində müəllimlik etmiş, daha sonra İrana, oradan isə Varşavaya mühacirət etmiş, əqidə və amalı uğrunda mübarizəsini mühacirətdə davam etdirmişdir. İkinci dünya müharibəsinin başlanmasından sonra Türkiyəyə getmiş, burada hüquq təhsili almışdır. Ana dili ilə yanaşı, rus, alman. ərəb və fars dillərini də mükəmməl bilirdi. Bir müddət Ankara radiosunda farsca siyasi xəbərlər proqramının başçısı olmuşdur. Yurdsevər 1959 ildən ömrünün sonuna kimi *Azərbaycan Milli Mərkəzinə* (İstanbul) rəhbərlik etmişdir. Siyasi mübarizə ilə yanaşı, ədəbi fəaliyyətlə də məşğul olmuş, Ankarada fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyinin işində yaxından iştirak etmiş, Azərbaycan ədəbiyyatına dair silsilə əsərlər ["Mirzə Fətəli Axundzadənin həyatı və dram əsərləri" (Ankara, 1950), "Azərbaycan dram ədəbiyyatı" (Ankara, 1951; B.. 2003), "Sabirin Azərbaycan ədəbiyyatındakı yeri" (Ankara, 1951), "Azərbaycan ədəbiyyatında Vidadi və Vaqifm yaradıcılığı" (Ankara, 1952)] yazmışdır.

*Əd.:* İbrahimli X.. Azərbaycan siyasi mühacirəti (1920-1991). B., 1997; Sultanlı V., Azərbaycan mühacirət ədəbiyyatı. B., 199S.

**YUSİF AKÇURA** – görkəmli tatar tarixçisi, yazıçı və siyasi xadim. Türk xalqlarını birliyə və mübarizəyə çağıran mütərəqqi hərəkat olan, lakin mürtəce qüvvələr tərəfindən mənfi qiymətləndirilən Türkçülüyün - Pantürkizmin "atası" kimi məşhur olmuşdur (bax *Akçura* Yusif).

**YUSİFBƏYLİ** Eynülhəyat (qızlıq soyadı Baişeva; 30.5.1887, Rusiyanın Penza ş. - 1955, Bakı) - ictimai xadim, maarif işçisi, xeyriyyəçi; görkəmli ictimai-siyasi və

downloaded from KitabYurdu.az



dövlət xadimi Nəsib *bəy Yusifbəylinin* həyat yoldaşı. Mənşəcə Kazan tatarlarındandır. Sankt-Peterburq ali qadın kurslarının fizika-riyaziyyat fakültəsini bitirmişdir (1910). Ailə həyatı qurduqdan sonra Gəncəyə köçmüş (1912), buradakı müqəddəs Nina qadın gimnaziyasında (1912-18) dərs demişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə maarif sahəsində çalışmış, Bakıdakı müqəddəs Nina qadın gimnaziyasında, Bakı realnı məktəbində riyaziyyat müəllimi, maarif nazirliyinin inspektoru olmuşdur. Bu illərdə xeyriyyəçilik fəaliyyəti də göstərmiş, kimsəsiz uşaqların cinayətkar aləmdən uzaqlaşdırılmasında, onların yenidən tərbiyələndirilməsində, cəmiyyət üçün faydalı vətəndaşlar yetişdirilməsində mühüm xidməti olmuşdur (bax *Uşaqları Mühafizə Cəmiyyəti)*. Bakı Dövlət Universitetində fəhlə fakültəsinin dekan müavini və türk şöbəsinin müdiri (1921-27), daha sonra assistent, ali riyaziyyat kafedrasının privat-dosenti (1927-36) vəzifəsində işləmişdir. Kütləvi repressiyalar dövründə (1936-37) işdən kənarlaşdırıldıqda, Daşkəndə bacısının yanına qaçmış, burada maliyyə-iqtisad institutunda müəllim işləmiş, 1944 ildə Bakıya qayıdıb, Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda müəllimlik etmişdir. Çox keçmədən yenidən təqiblərə məruz qalmış, işdən qovularaq Moskvaya, sonra Tatarıstana getmiş, 1952 ildə yenidən Bakıya qayıtmış, ömrünü burada başa vurmuşdur.

*Əd.:* Gəncəli S., Qadın, gözəllik və ülviyyət (ensiklopedik toplu), B., 2001.

**YUSİFBƏYLİ** (Yusifbəyov, Usubbəyov) Nəsib bəy Yusif oğlu (1881, Gəncə - 31.5.1920) - Azərbaycanın görkəmli dövlət və siyasi xadimi; Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən və Azərbaycan Xalq Cümhuriyyətinin hökumət başçılarından biri. Ziyalı ailəsində doğulmuşdur. Gəncə klassik gimnaziyasını bitirmiş, 1902 ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Tələbələrin inqilabi mübaizəsindən qorxuya düşən çar höku universiteti müvəqqəti olaraq ağladıqdan (1907) sonra, Nəsib bəy Bağçasaray şəhərinə (Krım) getmiş, burada İsmayıl bəy Qaspralının nəşr etdiyi "Tərcüman" qəzetində əməkdaşlıq etmişdir. Qaspralının qızı Şəfiqə Soltan xanımla evlənərək, bir müddət orada yaşamışdır. Krım tatarlarının ədəbi-mədəni həyatında fəal iştirak etmiş, Ə.Haqverdiyevin teatr həvəskarları tərəfindən tamaşaya qoyulmuş "Dağılan tifaq" dramında Nəcəf bəy rolunu oynamışdır. Ehtiyac üzündən təhsilini başa çatdıra bilməyən Nəsib bəy çar xəfiyyələrinin təqibindən yaxa qurtarmaq üçün 1908 ildə Türkiyəyə mühacirət etmişdir. 1909 ildə Gəncəyə qayıdaraq, şəhər bələdiyyəsində çalışan və tez-tez Bakıya gələn Yusifbəyli burada "Açıq söz" qəzeti redaksiyasında onun redaktoru Məhəmməd Əmin *Rəsulzadə* ilə tanış olmuşdur.

Fevral inqilabından (1917) dərhal sonra Yusifbəyli Gəncədə *Türk Ədəmi-Mərkəziyyət Partiyasını* yaratmış (1917, mart), 1917 ilin aprelində Bakıda keçirilən Qafqaz və həmin ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanları qurultaylarında iştirak etmişdir. 1917 ilin iyununda Türk Ədəmi-Mərkəziyyət partiyası M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" partiyası ilə birləşmiş, yeni partiya "Türk Ədəmi-Mərkəziyyət firqəsi Müsavat" adlanmışdır. Yusifbəyli bu partiyamn oktyabrın 26-31-də Bakıda keçirilən və Azərbaycanın siyasi həyatında böyük hadisəyə çevrilən 1-ci qurultayının hazırlanmasında və keçirilməsində fəal iştirak etmiş, partiya proqramının müəlliflərindən biri olmuş, onun mərkəzi komitəsinin üzvü seçilmiş, Gəncə şöbəsinə rəhbərlik etmişdir.

Rusiya Müəssislər məclisinə nümayəndə seçilən, lakin *Oktyabr çevrilişi (1917)* baş verdiyi üçün Petroqrada gedə bilməyən Yusifbəyli *Zaqafqaziya seyminin* yaradılmasında fəal iştirak etmiş, 1918 il aprelin 22-də elan olunan Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətində maarif naziri vəzifəsini tutmuş, milli siyasətin ən çətin və ən məsul vəzifələrini icra etmişdir. *"Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəklində formula etmək şərəfi mərhum Nəsib bəyindir"*. (M.Ə.Rəsulzadə)

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra F.x.Xoyskinin təşkil etdiyi 1-ci hökumət kabinəsində Yusifbəyli maliyyə və xalq maarifi naziri vəzifəsini, Xoyskinin 2-ci və 3-cü hökumət kabinələrində də xalq maarifı və dini etiqad naziri vəzifələrini tutmuşdur. Xalq maarifi nazirliyinin həyata keçirdiyi ilk tədbirlərdən biri Azərbaycan dilinin dövlət dili elan edilməsi idi. Bu vəzifəni həyata keçirrnək üçün isə təhsil sistemini milli zəmin üzərində tamamilə yenidən qurmaq və Azərbaycan dilini mükəmməl bilən ixtisaslı milli kadrlar yetişdirmək tələb olunurdu. Məhz buna görə N.Yusifbəylinin təqdimatı ilə hökumət 1918 il avqustun 28-də Azərbaycan məktəblərinin milliləşdirilməsi haqqında qərar qəbul etdi. Xalq Maarifı Nazirliyinin səyləri nəticəsində artıq 1919 ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 637 ibtidai və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi.



1919 ildə 4-cü hökumət kabinetinin təşkili Yusifbəyliyə tapşırıldı və aprelin 14-də elan olunan tərkibdə o, baş nazir vəzifəsindən əlavə, daxili işlər naziri vəzifəsini də tutdu. Parlamentdə daxili və xarici siyasət haqqında hökumət proqramı ilə çıxış edən N.Yusifbəyli bildirmişdi ki, hökumətin xarici siyasət sahəsində başlıca məqsəd və vəzifəsi böyük dövlətlərin Azərbaycanın istiqlaliyyətini tanınmasına nail olmaq, ölkənin ərazi bütövlüyünü qoruyub saxlamaq, daxili siyasət sahəsində isə iqtisadiyyatı dirçəltmək. əhalinin sosial rifahını yaxşılaşdırmaq, demokratik azadlıqları, o cümlədən söz, mətbuat. Yığıncaq və s. azadlıqları təmin ctməkdir. Yusifbəylinin başçılıq etdiyi hökumət Denikin qüvvələrinin xaricdən, bolşeviklərin isə daxildən törət-

downloaded from KitabYurdu.az



*Nəsib bəy Yusifbəyli Azərbaycan Xalq Cümhuriyyəti 4-cü hökumət kabinəsinin üzvləri ilə, 1919*

dikləri təhlükələrlə qarşılaşırdı. İyunun 5-də keçirilən parlament iclasında Denikinin könüllü orduları ilə bağlı məsələ təkrarən müzakirə olundu. Denikin təhlükəsi ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti *Dövlət Müdqfiə Komitəsinin* yaradılması haqqında qərar qəbul etdi. Yusifbəylinin 1919 ilin dekabrında özünün təşkil etdiyi ikinci hökumət kabinəsi 1920 ilin martına kimi fəaliyyət göstərdi. Yusifbəylinin baş nazir olduğu dövrdə Azərbaycan xalqının tarixində ən mühüm hadisə 1920 il yanvarın 11 -də Azərbaycanın istiqlaliyyətinin böyük dövlətlər tərəfindən defakto tanınması oldu. Bu münasibətlə yanvarın 14-də Yu-ifbəyli Azərbaycan xalqına müraciət etdi. Müraciətdə deyilirdi: ***"Azərbaycanın müstəqilliyi Böyük Avropa millətlərinin Ali Şurası tərəfindən yekdilliklə tanınmışdır. Azərbaycanın Qərb xalqları ailəsinin tamhüquqlu üzvlüyünə daxil olması onun tarixində ən işıqlı gündiir. Bu gündən onun mənəvi qüvvələrinin yeni çiçəklənmə dövrü başlanır. Hökumət inanır ki, bütün vətəndaşlar yenidən hər hansı bir maneə və təhlükə yaranarsa belə, azad və müstəqil Vətənin xoşbəxtliyini təmin etmək üçün birləşəcəklər. Yaşasın müstəqil Azərbaycan xalqı!"*** *Bakı Dövlət Universitetinin* yaradılması, 100 nəfərə yaxın azərbaycanlı gəncin Avropanın müxtəlif ali məktəblərinə göndərilməsi, torpaq islahatları haqqında qanun layihəsinin hazırlanması, savadsızlıqla mübarizə kurslarının açılması, məktəb dərsliklərinin hazırlanması və nəşrinə başlanılması da Yusifbəyli hökuməti dövrünün mühüm hadisələri sırasındadır. Yusifbəyli hökumətinin qəbul etdiyi son qərarlardan biri hərbi ordenlərin, milli himnin, dövlət gerbi və möhürü layihələrinin hazırlanması haqqında 1920 il 30 yanvar tarixli qərar idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti öz planlarını axıra qədər həyata keçirə bilmədi. Diplomatik əlaqə yaratmaq haqqmda Azərbaycan hökumətinin bütün təkliflərini cavabsız qoyan sovet Rusiyası tərəfindən təhlükənin artdığı və işğal üçün zəmin hazırlayan daxili qüvvələrin fəallaşdığı şəraitdə Yusifbəylinin başçılıq etdiyi 2-ci hökumət 1920 il martın 30-da istefa verməyə məcbur oldu. Məmməd Həsən Hacınskinin yeni hökumət (6-cı kabinə) təşkil etmək cəhdi uğursuzluqla nəticələndi. Aprelin sonlarında sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına tapdalayan hərbi müdaxiləsi və 11 -ci Qırmızı ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Paris Sülh Konfransının (1919-20) iştirakçısı olan dövlətlər tərəfindən tanınmış müstəqil Azərbaycan dövləti - Azərbaycan Xalq Cümhuriyyəti aradan qaldırıldı və onun ərazisi işğal olundu.

downloaded from KitabYurdu.az

Bakının 11 -ci Qırmızı ordu tərəfindən işğalından sonra təqibdən yaxa qurtarmaq məqsədilə şəhəri tərk edən Yusifbəyli yolda faciəli surətdə qətlə yetirildi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; İsayev Ə., Cümhuriyyətin Gəncə səhifələri, "Azərbaycan Xalq Cümhuriyyəti" kitabında, B., 1998; Əliyev M., Nəsib bəy Yusifbəyli, "Azərbaycan Demokratik Respublikası. Azər-baycan Hökuməti 1918-1920" kitabında, B., 1990.

**YUSİFZADƏ** Ağaəli Cəlal oğlu (1.1.1900, Şuşa - ?) -Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdi. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini texnika sahəsində davam etdirmək üçün Mülxuz politexnik məktəbinə (Fransa) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin maddi vəziyyətini, təhsilin gedişini və məişət məsələlərini öyrənmək üçün 1921-22 illərdə Xalq komissarları Sovetinin sədri Nəriman Nərimanovun tapşırığı ilə xaricə ezam olunmuş xüsusi nümayəndənin hesabatında onun təhsilini uğurla davam etdirməsi və 1922 ilin sentyabrında bitirəcəyi göstərilirdi.



**YÜZBAŞOV** İsmayıl Qafur oğlu (?-?)- Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar)* və özünün xalq maarifı nazirinə müraciətinə əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilməsi nəzərdə tutulmuş tələbələrdən biri. Xarkov Texnologiya institutunun mexanika şöbəsində 12 semestr oxumuş, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq buraxmağa məcbur olmuşdu. 1919 il oktyabrın 25-də Xalq Maarifi Nazirliyi ona təhsilini başa vurmaq üçün Xarkova qədər 3 min rubl yol pulu və 12000 aylıq xərclik ayırmışdı. Parlamentin 1919 il 1 sentyabr tarixli qərarı ilə adı Rusiyaya göndəriləcək tələbələrin siyahısına salınmışdı. Lakin Vətəndaş müharibəsi ilə əlaqədar yaranmış mürəkkəb vəziyyətdə oraya tələbə göndərmək baş tutmamışdır.

downloaded from KitabYurdu.az

# Z

**ZAKASPİ HÖKUMƏTİ** - *Oktyabr çevrilişindən (1917)* sonra Mərkəzi Asiyada yaradılmış hökumət. 1918 il iyulun 11-də Aşqabadda Zakaspi vilayətinin Müvəqqəti İcraiyyə Komitəsi - Zakaspi Müvəqqəti Hökuməti təşkil edildi. Hökumətin sədri eser F.A.Funtikov seçildi. İyulun 21-də Zakaspi vilayəti ərazisində eser-menşevik tətil komitələrinin diktaturası qurulmuşdu. Zakaspi hökuməti sovet hakimiyyətinə və bolşeviklərə qarşı qəti mübarizə xətti yeridirdi. Zakaspi hökumətinin 1918 il avqustun 19-da İrandakı ingilis qüvvələrinin nümayəndəsi ilə bağladığı müqaviləyə əsasən. bölgəyə ingilis-amerikan hərbçiləri yeridildi. Bu qüvvələrin yardımı ilə Qınnızı ordu hissələri məğlubiyyətə uğradıldı, Mərvdə bolşeviklərin yaratdığı Türküstan Xalq Respublikası aradan qaldırıldı.

Zakaspi hökuməti Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti ilə münasibətlər qurmağa çalışırdı. Cümhuriyyət hökuməti 1919 il fevralın 12-də Zakaspi hökuməti ilə əlaqə yaradıb, danışıqlara girmək barədə müvafiq nazirliklərə tapşırıq verdi. Həmin il aprelin 2-də Aşqabadda Azərbaycan konsulluğu açıldı. 1919 ilin yayında Zakaspi hökumətinin də Bakıda konsulluğu fəaliyyətə başladı.

1919 ilin oktyabrında Qırrmzı ordunun hücumu nəticəsində Zakaspi hökuməti süqut etdi. Onun Azərbaycan konsulluğu Denikin könüllü ordusunun Bakıdakı nümayəndəliyinə biriəşdirildi. Zakaspi hökumətinin üzvləri bolşevik təqiblərindən yaxa qurtarmaq üçün İraqa və Əfqanıstana mühacirət etdilər.

*Əd.: Иностранная военная интервенция и гражданская война в Средней Азии и Казахстане. Документы и материалы, т.1-2, Алма-Ата, 1963-1964;* A3ep6aiuı;KaHCKaa JteMOKpaTHıecKaa Pecny6jiHKa (1913-1920). BHcniHaa ıiojiHTHKa uoKyMeHTbi н MaTepnajibi), E., 1998.

**ZAQAFQAZİYA** çar Rusiyasında, sonralar isə SSRİ-də Qafqazın cənubuna verilən ad. Böyük Qafqaın Baş Qafqaznyaxud Suayırıcı silsiləsindən cənubda yerləşir. Çar Rusiyasının işğalçılıq siyasəti nəticəsində Şimali Qafqaz torpaqlarının zəbt edilməsi ilə rus dilində "Predkavkazye" (Ön Qafqaz) anlayışı işlənməyə başladı. Buna uyğun olaraq, Cənubi Qafqaz "Zakavkazye" (Arxa Qafqaz, yəni "Qafqazın arxası") adlandırıldı. *Türkmənçay müqaviləsilə (1828)* Conubi Qafqazm işğalı başa çatdırıldıqdan sonrakı ilk dövrlərdə Peterburqda bu region haqqında nəşr olunan ədəbiyyatlarda (1836 ildoki dörd hissəli icmal və s.) "za Kavkaz" şəklində yazıldığı halda. "Za" və "Kavkaz" tədricən bitişik yazılmağa başlayır. Çar hökuməti 1828 ildən Zaqafqaziyanın siyasi quruluşunda və inzibati-ərazi bölgüsündə dəfələrlə dəyişiklik etmişdi. Bölgədə iki dəfə (1844-83; 1905-17) canişinlik sistemi tətbiq edilmiş, ya da o, mərkəzə tabe olunmuşdu. *Müvəqqəti hökumət* isə burada Xüsusi Zaqafqaziya Komitəsi (rusca Osobıy Zakavkazskiy Komitet - Ozakom) yaratmışdı. Oktyabr çevrilişindən (1917) sonra Zaqafqaziya Rusiyamn hakimiyyətindən çıxmışdı. Bu ərəfədə Zaqafqaziya on iki inzibati vahiddən ibarət idi: 1) Bakı quberniyası; 2) Bakı şəhər rəisliyi; 3) Batum vilayəti; 4) Dağıstan vilayəti; 5) Yelizavetpol quberniyası; 6) Zaqatala dairəsi; 7) Qars vilayəti; 8) Kutaisi quberniyası; 9) Suxum dairəsi; 10) Tiflis quberniyası: 11) Qara dəniz quberniyası; 12) İrəvan quberniyası. Onun ümumi sahəsi 214693,7 *kv.verst* idi. Bu, bütövlükdə, Qafqaz ərazisinin 59,4%-ni təşkil edirdi (bax *İnzibati-ərazi bölgüsü).* 1917 ilin noyabr-1918 ilin may aylarında burada *Zaqafqaziya komissarlığı,* sonra *Zaqafqaziya Demokratik Federativ Respublikası (ZDFR)* elan edilmiş, *Zaqafqaziya seymi* fəaliyyət göstərmişdi. 1918 il mayın 26-da ZDFR parçalanmış, seym buraxılmış, Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları yaradılmışdı. Vaxtilə çar hökuməti tərəfindən həyata keçirilən inzibati-ərazi bölgüsü siyasətinin ağır nəticələri məhz bu dövrdə bütün kəskinliyi ilə ortaya çıxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı ermənilərə güzəştə getmiş, ərazisini 99908,87 *kv.verst* (mübahisəsiz və mübahisəlilərlə birlikdə) elan etmişdi. 1918 ildə ərazi məsələsi üstündə Ermənistanla Gürcüstan arasında müharibə baş vermişdi. Azərbaycan Xalq Cümhuriyyətinin, sonra isə Ermənistan və Gürcüstan respublikalarının süqutu ilə Zaqafqaziyada sovet hakimiyyəti qurulmuşdu. Azərbaycan SSR-in ərazisi 86,6 min, Gürcüstan ərazisi 69,7 min, Ermənistan ərazisi isə 29,8 min *kv.km* müəyyənləşdirilmişdi. Zaqafqaziya anlayışı sovet dövründə də geniş tətbiq edilmişdi. 1922-36 illərdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) fəaliyyət göstərmişdi. ZSFSR-in ləğvindən sonra da bölgənin hərbi-iqtisadi vahid kimi saxlanması (Zaqafqaziya dəmir yolu, Zaqafqaziya hərbi dairəsi və s.) siyasəti davam etdirilmişdi. SSRİ-nin dağılması ilə (1991) bölgədə vəziyyət yenidən dəyişmişdir. Hazırda Zaqafqaziya anlayışı, əsasən, Rusiya imperiyası və sovet dövrü hadisələri ilə əlaqədar olaraq tarixi-coğrafı ad kimi işlədilir. Müasir terminologiyada həmin ərazi coğrafı mövqeyinə görə Cənubi Qafqaz (Transqafqaz) adlandırılır.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.4-7, B., 2000-2003;

downloaded from KitabYurdu.az

**ZAQAFQAZİYA BONLARI** - *Zaqafqaziya Komissarlığının* pul nişanları. İlk dəfə 1918 il fevralın 5-də buraxılmışdı. *Zaqafqaziya seymi* dövründə və sonralar müstəqil Cənubi Qafqaz respublikaları yarandıqdan sonra da işlənən Zaqafqaziya bonları bu respublikalar arasındakı razılaşmalar əsasında buraxılmışdı. İlk razılaşma 1918 il iyunun 20-də Gürcüstanla Ermənistan arasında, daha sonra, 1918 il sentyabrın 6-da Azərbaycan, Gürcüstan, Ermənistan arasında əldə olunmuşdu. Sonralar bir neçə dəfə - 1918 ıl noyabrın 15-də Azərbaycanla Gürcüstan, 1919 il fevralın 12-də və mayın 7-də Gürcüstanla Ermənistan, sonuncu dəfə isə 1919 il iyunun 4-də Azərbaycan. Gürcüstan və Ermənistan arasında razılaşmalar əldə edilmişdi.

Azərbaycanda Gürcüstan arasında 1918 il noyabrın 15-də imzalanmış müqaviləyə əsasən, Azərbaycan və Gürcüstanın səlahiyyətli nümayəndələrinin 1918 il 6 sentyabr tarixli sazişinə olavə olaraq, Zaqafqaziya Komissarlığının daha 160 milyon rubl məbləğində (Azərbaycan və Gürcüstan respublikalarının hər birinin ehtiyacı üçün 80 milyon rubl) birgə bonlar buraxılması barədə razılıq əldə olunmuşdu.

Bonlar respublikalarm hökumətlərinə, onlar ekspedisiyadan daxil olduqca, Dövlət bankının Tiflis kontoru tərəfindon buraxılırdı. Tərəflərdən heç birinin digərinin xəbəri və razıhğı olmadan Zaqafqaziya bonlarını hazırlamağa və buraxmağa ixtiyarı yox idi.

1919 il 4 iyun tarixli sazişə əsasən, Azərbaycan, Gürcüstan və Ermənistanın hər birinə, əlavə olaraq, 100 milyon rublluq Zaqafqaziya bonu buraxmaq qorara alınmışdı. Həmin sazişlə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu məbləği, habclə 1919 il 12 fevral tarixli müqaviləyə əsasən ona düşən 80 milyon rublluq bonları (cəmi 180 milyon) almışdı. 1919 il 4 iyun tarixli sazişdə həm də bildirilirdi ki, hər üç respublika birgə bonlar buraxmaq barədə razılığa gəlməsələr, Zaqafqaziya Komissarlığının mövcud nümunələrindən olan bonlarının buraxılması həmişəlik dayandırılmalıdır. Bu halda, Gürcüstan hökuməti Zaqafqaziya bonlarının bütün nümunələrinin litoqrafıya daşlarını və qurğuşun lövhələrini cilalatmağı, rəsmlərinin, foto şəkillərinin neqativlərini məhv etməyi və hər üç tərəfın nümayəndələrinin iştirakı ilə onların orginaliarını yandırmağı öhdəsinə götürürdü.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Zaqafqaziya bonları ilə əlaqədar bir sıra qərarlar qəbul ctmişdi (bax, həmçinin *Bakı bonları*).

**ZAQAFQAZİYA DEMOKRATİK FEDERATİV RESPUBLİKASI (ZDFR),** Zaqafqaziya Qoşma Xalq Cümhuriyyəti - 1918 il aprelin 9 (22)-dan mayın 26-dək mövcud olmuş dövlət. Morkəzi Tiflis şəhəri idi. Oktyabr çevrilişindən (1917) sonra Cənubi Qafqazda Rusiya üsul-idarəsinə son qoyulmağa başladı. Bu məqsədlə *Zaqafqaziya Komissarlığı* təşkil edildi. 1918 il fevralın 10-da isə *Zaqafqaziya seymi* fəaliyyətə başladı. Lakin Cənubi Qafqazda mövcud olan dövlət quruluşu regionun qarşısında duran mürəkkəb problemləri həll etməyə imkan vermirdi. Ona görə də dövlət quruculuğunu təkmilləşdirməyə ehtiyac yarandı. Burada daxili amillərlə yanaşı, xarici amillər də müəyyən rol oynamışdı. 1918 il aprelin 9 (22)-da ZDFR-in yaradılması elan olundu. Hökumətin tərkibi aşağıdakı kimi idi: A.Çxenkeli - baş nazir və xarici işlər naziri; N.Ramişvili - daxili işlər naziri; Q.Georqadze - hərbi nazir; N.Xomeriki - kənd təsərrüfatı naziri; X.Məlik-Aslanov - yollar naziri; F.x.Xoyski - ədliyyə naziri: N.Yusifbəyli - maarif naziri; M.H.Hacınski - ticarət naziri; İ.Heydərov - dövlət nəzarəti naziri; A.Xatisyan - maliyyə naziri; A.Saakyan -ərzaq naziri; R.Kaçaznuni - ictimai məişət xidməti naziri; A.Erzikyan - əmək naziri. Göründüyü kimi, hökumət etnik mənsubiyyətinə görə 4 gürcü, 5 Azərbaycanlı və 4 ermənidən ibarət idi. Lakin strateji əhəmiyyətli nazirliklər gürcü və ermənilərdə idi. Yeni yaradılmış hökumət daxili və xarici siyasətdə ciddi dəyişiklik edə bilmədi. Daxili ziddiyyətlər 1918 il mayın 11-16-da keçirilən *Batum konfransında* daha aşkar şəkildə ortaya çıxdı. Konfransda Gürcüstan Almaniya nümayəndələrinin təzyiqi nəticəsində ZDFR-dən çıxmağı qorara aldı. Bu, Zaqafqaziya seyminin mayın 26-da keçirilən iclasında reallaşdırıldı. Həmin iclasda ZDFR-in parçalanması barədə qətnamə qəbul olundu, Zaqafqaziya seymi buraxıldı. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edildi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Həsonov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B-, 1993.

**ZAQAFQAZİYA FEDERASİYASI** 1918 il aprelin 22-dən mayın 26-dək mövcud olmuş dövlət. Bax *Zaqafqaziya Demokratik Federativ Resuıblikası.*

**ZAQAFQAZİYA KOMİSSARLIĞI** Cənubi Qafqazı idarə etmək üçün 1917 il noyabrın 15-də Tiflisdə yaradılmış hökumət. Oktyabr çevrilişi (1917) Rusiya xalqlarında milli müstəqillik ümidlərini artırdı. Belə ki, bolşeviklərin elan etdikləri "Rusiya xalqlarının hüquq bəyannaməsi" və "Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə müraciət" ilk addım kimi, keçmiş imperiyaya daxil oları xalqların azad surətdə, ayrılıb öz müstəqil dövlətlərini yaratmalarına hüquqi təminat verirdi.

1917 il noyabrın 11-də Cənubi Qafqazda fəaliyyət gös-tərən siyasi təşkilatların yığıncağı kcçirildi. Gürcü menşeviklərinin rəhbəri Noy Jordaniya müstəqil yerli hökumət yaradılmasını təklif etdi. Hakimiyyət məsələsi Müəssislər məclisi tərəfindən həll olunana qədər regionu idarə etmək üçün Zaqafqaziya Komissarlığının yaradılması qərara alındı. Noyabrın 14-də yeni yaradılan hökumətin tərkibi elan edildi. Ona gürcü menşeviki E.P.Gegeçkori sədrlik edirdi. Daxili işlər və hərbi nazirliklərə D.Donskoy, maarif nazirliyinə Fətəli xan Xoyski, ədliyyə nazirliyinə Ş.Alekseyev-Mesxiyev, ticarət və sənaye nazirliyinə Məmməd Yusif Cəfərov, yollar nazirliyinə Xudadat bəy Məlik-Aslanov, qanunlara nəzarət nazirliyinə X.Xasməmmədov, əkinçilik, dövlət əmlakı və dini işlər nazirliyinə A.B.Neruçev, maliyyə nazirliyinə X.Korçikyan, himayəçilik nazirliyinə A.Ohancanyan, ərzaq malları nazirliyinə A.Ter-Qazarov başçılıq edirdilər. Əmək və xarici işlər nazirliyi E.P.Gegeçkorinin səlahiyyətində idi.

downloaded from KitabYurdu.az

*Xüsusi Zaqafqaziya komitəsi (XZK)* ilə müqayisədə Zaqafqaziya Komissarlığı müstəqilliyə doğru daha bir addım atdı. Lakin onun icra orqanları Cənubi Qafqazda vəziyyəti sabitləşdirmək üçün gücsüz idi. Regionun hər üç milləti və onların siyasi partiyaları komissarlıqda təmsil olunduğundan onlar öz milli fraksiyalarını yaratdılar. Noyabrda Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Milli Fraksiyası təsis edildi. Komissarlığın qəbul edəcəyi qərarlar əvvəlcə fraksiyaların iclaslarında müzakirə olunur, sonra qəti qərar çıxarılırdı.

Müəssislər məclisinə qədər özünü Cənubi Qafqazın müvəqqəti hakimiyyət orqanı elan etmiş bu hökumət Birinci dünya müharibəsi ilə və daxili ziddiyyətlərlə əlaqədar, regionun ərazi bütövlüyünü qoruyub saxlamağı xarici siyasətinin başhca vəzifəsi kimi qarşıya qoymuşdu. Komissarlıq yaranandan iki həftə sonra Müəssislər məclisinə seçkilər keçirildi. Nəticədə, gürcü menşevikləri 11, müsavatçılar 10, daşnaklar 9, müsəlman sosialist bloku 2, bolşevik, eser və ittihadçıların hərəsi 1 **yer** əldə etdilər. Seçkilərin gedişində Azərbaycan türklərinin böyük əksəriyyətinin "Müsa-vat" partiyasının milli ərazi muxtariyyəti ideyasını müdafiə etdikləri aydın oldu. Lakin Komissarlığın xarici siyasətinə münasibətdə milli fraksiyalar arasında ilk gündən fikir ayrılığı mövcud idi və bu, sonralar daha da dərinləşdi. Müsəlman fraksiyası ayrı-ayrı dövlətlərlə əlaqə məsələsində hökumətin tam müstəqilliyini elan edən bəyannamə qəbul olunmasını zəruri sayırdı.

Almaniya ilə sovet Rusiyası arasında hərbi əməliyyatlarını dayandırılmasına dair barışıq bağlandığı üçün Qafqaz cəbhəsində də 1917 il dekabrın 5 (18)-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə arasında barışıq haqqında saziş imzalandı. Barışıq müqaviləsinin imzalanması ilə rus qoşunları Qafqaz cəbhəsindən geri çəkilməyə başladı. Əslində isə, Rusiya üçün bu cəbhə dağıldı. Komissarlığın ordusu, demək olar ki, mövcud deyildi. Zafqaziya Komissarlığı rus ordusunun Qafqazda qalasından narahat idi. Rus ordusunda bolşevik təbliğatının güclənməsi komissarlıq üçün təhlükə törədə bilərdi. Ona görə də 1917 il dekabrın 19-da komissarlıq Qafqazdakı rus ordusunun buraxılması haqqında əmr verdi. Əmrə əsasən, Qafqazdakı hərbi hissələr yalnız milli korpuslar halında saxlanılırdı. Erməni və gürcü milli ordu hissələrinin yaradılması bir qədər asan oldu, çünki Qafqaz cəbhəsində ermənilər rus ordusunun tərkibində könüllü hərbi dəstələr adı ilə fəaliyyət göstərirdilər. Yarandığı gündən avantürist və qatı millətçi dairələrin rəhbərlik etdiyi 17 minlik erməni hərbi hissələri Azərbaycan əhalisinə qarşı terror əməliyyatına başladılar. Bu təhlükənin qarşısını almaq üçün Azərbaycan ordusunun yaranması zərurəti meydana çıxmışdı. Zaqafqaziya seyminin üzvü Aslan bəy Səfikürdski qeyd edirdi ki, ***"Transqafqazda kiçik qardaslar olan ermənilər və gürcülər silahlandırdıqları halda, böyiik qardaş olan müsəlmanlara silah verilmədi".*** Zaqafqaziya Komissarlığında ikili standartlar təkcə silahlı qüvvələrin yaradılmasında deyil, digər məsələlərdə də özünü biiruzə verirdi. 1918 il fevralın 10-da *Zaqafqaziya seymi* yaradıldı. Cənubi Qafqazdan Rusiya Müəssislər məclisinə seçilmiş bütün siyasi partiyaların nümayəndələri Seymdə təmsil olundular. Zaqafqaziya seyminin yaradılması ilə Cənubi Qafqazda cərəyan edən siyasi hadisələrin ağırlıq mərkəzi komissarlıqdan onun üzərinə keçdi. 1918 il martın 26-da Seym Zaqafqaziya Komissarlığını ləğv etdi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5. B., 2001; Nəsibzadə N., Azərbaycan Demokratik Respublikası, B., 1990; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B.. 1993; İsgəndərov A., Azərbaycan Xalq Cümhuriyyoti, B.. 2003;

**ZAQAFQAZİYA KONFRANSI** - üç Cənubi Qafqaz respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan arasında konfrans (1919, may). 1918 il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra ölkənin xarici siyasəti qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə mehriban əlaqələr yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan Parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: ***"Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər!".*** Bütün Qafqazı hədələyən ağ və qırmızı Rusiya bu münasibətlərin yaradılmasını daha da zəruriləşdirirdi.

Dağlı Respublikasının Denikinin könüllü ordusu tərəfindən işğal olunması Azərbaycanı və Gürcüstanın ciddi şəkildə narahat edirdi. 1919 ilin yazında Şimali Qafqazda cərəyan edən hadisələr bu respublikaların özləri üçün də gözlənilməz nəticələr verə bilərdi. Məhz buna görə də 1919 ilin mayında çağırılmış Zaqafqaziya konfransında bir çox məsələlərlə bərabər, Denikin təhlükəsi də müzakirə edildi. Konfransdakı erməni nümayəndələri Denikin könüllülərinə öz münasibətlərini birbaşa bildirməkdən yayındılar. Lakin şimaldan gələn təhlükə Azərbaycan və Gürcüstanı eyni dərəcədə narahat etdiyi üçün onlar bu məsələdə həmrəy olduqlarını bildirdilər. Fətəli xan Xoyski konfransda çıxış edərək, könüllü ordunun Şimali Qafqazın Dağlı Xalqları İttifaqı Respublikası ərazisinin, xüsusən Dağıstanın Azərbaycan üçün bilavasitə təhlükə yaradan işğalına qarşı etiraz bildirməyi tələb etdi. Azərbaycan nümayəndəliyinin təkidi ilə konfrans Şimali Qafqazın işğalını öz müqəddəratını təyin etmiş xalqlarını ərazisinin Denikin könüllü ordusu tərəfindən işğalı kimi pisləyən qətnamə qəbul etdi. Qətnamədə bu qüvvələrin bütün Cənubi Qafqaz respublikalarının müstəqilliyinə bilavasitə təhlükə törətdiyi də qeyd olunurdu.

Ermənilərin mövqeyinə gəldikdə isə, bunun bir səbəbi onların sərhəd zolağından uzaqda yerləşməsi ilə bağlı idisə, digər səbəbi ermənilərlə könüllü ordu arasında gizli saziş olmasından irəli gəlirdi. Bu sazişə əsasən, könüllü ordu Azərbaycana və Gürcüstana hücum edəcəyi halda, ermənilər onlara kömək göstərməli idi. Ermənilər bu hücum zamanı Azərbaycana və Gürcüstana

downloaded from KitabYurdu.az

olan ərazi iddialarını da hərbi yolla reallaşdırmaq niyyətində idilər.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c. 5,B., 2001; Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), B., 1993.

**ZAQAFQAZİYA QOŞMA XALQ CÜMHURİYYƏTİ** bax *Zaqafqaziya Demokratik Federativ Respublikası.*

**ZAQAFQAZİYA MÜSƏLMANLARI** - Zaqafqaziyanın islam dininə etiqad edən əhalisi. Əksəriyyəti azərbaycanlılardan (Azərbaycan türklərindən) ibarət idi. Ərəb xilafətinin 7-ci əsrdə Cənubi Qafqaza yürüşləri burada islamın yayılmasına səbəb olmuşdu. 19-cu əsrin əvvəllərindəki Rusiya işğallarınadək islam Cənııbi Qafqazda hakim din olmuşdu. Bundan sonra vəziyyət dəyişmiş, çar hökuməti müsəlmanların hüquqlarını ardıcıl və məqsədyönlü şəkildə pozmağa, bölgədə xristianlaşdırma siyasəti yeritməyə başlamış, Zaqafqaziya müsəlman ruhaniləri idarəsi haqqmda 1872 il 5 aprel Əsasnaməsi ilə onları nəzarətdə saxlamağa çalışmışdı. Müsəlmanlann üstünlük təşkil etdiyi ərazilərin etnokonfessional tərkibi ermenilərin, rusların və digər xristian əhalinin hesabına dəyişdirilmişdi. Cənubi Qafqazın inzibati-ərazi bölgüsü həyata keçirilərkən əhalinin konfessional tərkibi nəzərə alınmamışdı. Beləliklə, Cənubi Qafqaz müsəlmanları çarizmin milli və dini zülmünə məruz qalmışdı. 1917 il Qafqaz təqviminin-məlumatına görə, Cənubi Qafqazda *(İnzibati-ərazi bölgüsü* məqaləsində təqdim olunan ərazi vahidləri üzrə) 3,3 milyondan çox müsəlman qeydiyyata alınmışdı. Əlimərdan bəy Topçubaşov da "Azərbaycanın təşəkkülü" adlı tədqiqatında belə bir rəqəm göstərmişdir. Cənubi Qafqaz müsəlmanları inzibati vahid-ləri üzrə aşağıdakı kimi bölünmüşdü: Bakı şəhər rəisliyi ilə birgə Bakı quberniyasında 940248, Yelizavetpol quberniyasında 797880, Dağıstan vilayətində 653384, İrəvan quberniyasında 410149, Tiflis quberniyasında 178331, Qars vilayətində 153406, Batum vilayətində 86320, Zaqatala dairəsində 85136, Qara dəniz quberniyasında 5684, Suxum dairəsində 3755, Kutais quberniyasında 730 nəfər.

Rusiya imperiyasınm parçalanması və Cənubi Qafqazda milli dövlətlərin yaradılması şəraitində qeyri-müsəlman əhalinin, xüsusilə ermənilərin müsəlmanlara qarşı zorakılıq aktları artmağa başladı (bax *Soyqırımı, Köçürmə siyasəti)*. Belə bir şəraitdə Azərbaycan Xalq Cümhuriyyəti nəinki ərazisi hesab etdiyi torpaqlarda (bax *İnzibati-ərazi bölgüsü),* həmçinin Cənubi Qafqazm digər ərazilərində yaşayan müsəlmanlarını da hüquqlarının müdafıəçisi kimi çıxış etmişdi. Cümhuriyyət Hökuməti 1919 il avqustun 2-də Birinci dünya müharibəsi başlanandan bəri bütün Cənubi Qafqaz hüdudlarında müsəlmanlara və onların əmlakına qarşı yol verilmiş zorakıhqlan təhqiq etmək üçün *Fövqəladə təhqiqat komissiyası* yaradılması barədə qərar qəbul etmişdi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu sahədə nəzərdə tutulmuş bütün planları gerçəkləşdirməyə imkan vennədi.

*Əd.:* Topçubaşov Ə., Azərbaycanın təşəkkülü, Azərbaycan SSR EA-nın Xəbərləri (Tarix, fəlsəfə, hüquq seriyası), 1990,

**ZAQAFQAZİYA SEYMİ** - Cənubi Qafqazda ali dövlət hakimiyyəti orqanı (1918, 23 fevral-26 may). 1918 ilin əvvəllərində Cənubi Qafqazda vəziyyət son dərəcə mürəkkəb idi. Rusiyanın Almaniya ilə Brest-Litovsk sülh danışıqları boşa çıxdıqdan sonra alman-türk qoşunları hücuma keçdilər. Türk qoşunlarının irəlilədiyini görən *Zaqafqaziya Komissarlığı* 1918 il fevralın 6-da Qafqaz cəbhəsinin komandanı Vehib paşaya teleqram göndərərək, Türkiyə ilə sülh danışıqları aparmaq istədiyini bildirdi.

Lakin regionda nüfuzu və güclü hakimiyyəti olmayan Zaqafqaziya komissarlığı tezliklə özünü buraxmaq məcburiyyətində qaldı. 1918 il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatlarının yığıncağında Zaqafqaziya seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul olundu. Fevralın 23-də üç əsas partiya fraksiyasının nümayəndələrindən ibarət Zaqafqaziya seymi öz işinə başladı. Seymdə Gürcüstandan sosial-demokratlar (menşeviklər) -32 nəfər, Azərbaycandan müsavatçılar və onlara qoşulmuş bitərəf demokratlar - 30 nəfər, erməni "Daşnaksutyun" partiyası - 27 nəfər deputat iştirak edirdi. Bundan əlavə, Müsəlman Sosialist Bloku 7 nəfər, Rusiyada müsəlmanlıq fraksiyası ("İttihad") 3 nəfər, menşevik-hümmətçilər partiyası 4 nəfər deputatla, həmçinin sosialist-inqilabçılar (eserlər), milli demokratlar, Erməni Xalq Azadlıq Partiyası, təmsil olunmuşdular. Zaqafqaziya seymində Azərbaycan siyasi partiyalarının 44 nümayendəsi var idi (bax *Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası)*.

*Zaqafqaziya seyminin bayrağı*



Qafqaz cəbhəsində vəziyyət və Cənubi Qafqazm müstəqilliyinin elan edilməsi məsələləri seymin fəaliyyətində mühüm yer tuturdu.

Cənubi Qafqazı müstəqil dövlət elan etmədən seym bu regionu beynəlxalq hüququn subyekti kimi təqdim edə və deməli, xarici dövlətlərlə sülh bağlamaq səlahiyyətinə də malik ola bilməzdi.

Zaqafqaziya seymi Türkiyə ilə sülh danışıqlarına hazırlaşdığı vaxt Brestdə Rusiya ilə Almaniya arasında separat müqavilə imzalandı. Onun bir şərtinə görə, Ərdəhan,

downloaded from KitabYurdu.az

Qars və Batum Türkiyəyə verilməli idi. Zaqafqaziya seymi Brest sülhünün bu şərtini qəbul etmədi və bildirdi ki, RSFSR Xalq Komissarları Sovetinin hakimiyyətini heç vaxt qəbul etməmişdir. Türkiyə isə Brest sülhünün qerarlarına əsaslanaraq, Qars, Batum və Ərdəhanı dərhal boşaltmağı Zaqafqaziya seymindən tələb etdi. Belə bir şəraitdə 1918 il martın 14-də Trabzonda Türkiyə ilə Zaqafqaziya seymi arasında sülh konfransı açıldı (bax *Trabzon konfransı).* Türkiyə nümayəndəliyi Zaqafqaziya seymindən müstəqilliyinin elan edilməsini əsas şərtlərdən biri kimi qoyurdu. Müstəqilliyin elan edilməməsi Türkiyənin damşıqlara marağını zəiflətdi. A.Çxenkeli etiraf edirdi ki, "Türkiyə, obyektiv olaraq, Cənubi Qafqazın müstəqilliyinin elan edilməsində maraqlıdır. Cənubi Qafqazın müstəqilliyi şimaldan Türkiyənin təhlükəsizliyini təmin edir". Türkiyə tərəfi Cənubi Qafqazın idarəçilik formasının, onun sərhədlərinin, dövlət dili və dininin, həmçinin Osmanlı imperiyasına münasibətinin resmən müəyyən edilməsi məsələlərinin müzakirə olunmasının zəruriliyini qeyd etdi. Cənubi Qafqaz nümayəndəliyi qoyulan məsələlərlə bağlı xüsusi bəyanatla çıxış edərək göstərdi ki, regionun dövlət idarəçiliyi forması Seym tərəfindən işlənərək, Demokratik Federativ Respublika formasında qalacaqdır; Cənubi Qafqazın ərazisinə Bakı, Yelizavetpol, İrəvan, Tiflis, Kutaisi quberniyaları, Batum və Qars vilayətləri, Suxumi və Zaqatala dairələri daxildir. Dağıstan vilayəti və Qara dəniz sahili quberniyaları məsələsi onların Seymə nümayəndə göndərməsinə qədər açıq qalır; rəsmi dil hələlik rus dilidir, lakin hazırlanan konstitusiyada gürcü, türk və erməni dillərinin dövlət dili kimi tanınacağını elan etməyə əsas vardır. Bəyanatda, həmçinin, Cənubi Qafqazda vicdan azadlığı haqqında qanunun fəaliyyət göstərəcəyi, qəbul ediləcək konstitusiyada isə dinin dövlətdən ayrılacağı da xüsusi vurğulanırdı.

Zaqafqaziya seymi daxilində milli fraksiyalar arasında yekdillik yox idi. Bu amil Trabzon danışıqlarında özünü daha qabarıq büruzə verdi. Belə ki, ermənilər Qars vilayətinin böyük bir hissəsinin, gürcü nümayəndələri Ərdəhanın və Batumun Osmanlılara verilməsinə ciddi etiraz etdiler. Azərbaycan nümayəndəsi X.Xasməmmədov isə Türkiyəyə güzəştə gedilən ərazilərin siyahısından Batumun çıxarılmasını təklif etdi. O, Bakı neft kəmərinin son məntəqəsi olan Batumun Cənubi Qafqazın tərkibində saxlanılmasını Azərbaycan neft sənayesinin mənafeyinə uyğun sayırdı. Çünki, Batum Azərbaycanın dünya okeanına yeganə çıxış qapısı idi.

Martda bolşeviklərin daşnaklarla birlikdə Bakıda hakimiyyəti ələ keçirmek üçün qaldırdığı qiyam və azərbaycanlılann görünməmiş qəddarlıqla kütləvi surətdə məhv edilməsi, soyqırımlarına Azərbaycanın digər ərazilərində də geniş miqyasda həyata keçirilməsi Zaqafqaziya seymi daxilindəki ziddiyyətləri gücləndirdi. Azərbaycandakı qanh cinayətləri ilə bir vaxtda ermənilər Türkiyədə, xüsusilə Ərzurumda da böyük vəhşiliklər törətdilər. Bütün bunlar Türkiyə ilə aparılan istər Trabzon, istərsə də Batum danışıqlarında Zaqafqaziya seyminin vəziyyətini çətinləşdirdi. Aprelin 13-də Seymin, hökumətin və fraksiya nümayəndələrinin birgə iclasında Türkiyə ilə danışıqların gedişi müzakirə olundu. Seym həmin iclasda Trabzon danışıqlarını dayandırmaq və Türkiyə ilə müharibəyə hazırlaşmaq haqqında qərar qəbul etdi. Ölkədə hərbi vəziyyət elan edildi və Y.Gegeçkori, N.Ramişvili və X.Karçikyandan ibarət Ali Müdafiə Şurası yaradıldı. Azərbaycan nümayəndəsinin bu Şuraya daxil edilməməsindən əsas məqsəd müsəlman fraksiyasının hadisələrin gedişinə təsir imkanlarını aradan qaldırmaq idi. Lakin bu tədbirlər də Türkiyə qoşunlarının irəliləməsini dayandıra bilmədi və onlar 1918 il aprelin 14-də Batumu tutdular.

1918 il aprelin 22-də müsəlman fraksiyasının təkidi ilə Zaqafqaziya seyminin geniş iclası keçirildi və müstəqil, demokratik, federativ Zaqafqaziya Respublikasımn elan olunması haqqında qətnamə qəbul edildi. Aprelin 20-də azərbaycanlılara qarşı Bakı soyqırımları ilə bağlı məsələnin müzakirəsi zamanı yaranmış hökumət böhranın bir nəticəsi də bu oldu ki, Y.Gegeçkorinin başçılıq etdiyi Zaqafqaziya hökuməti istefa verdi. Zaqafqaziya seymi həmin gün aşağıdakı tərkibdə yeni Zaqafqaziya hökumətini təsdiq etdi: 1. A.Çxenkeli - baş nazir və xarici işlər naziri; 2. N.Ramişvili - daxili işlər naziri; 3. A.Xatisyan - maliyyə naziri; 4. Xudadat bəy Melik-Aslanov - yollar naziri; 5. Fətəli xan Xoyski - ədliyyə naziri; 6. Q.Georqadze - hərbi nazir; 7. N.Xomeriki - kənd təsərrüfatı naziri; 8. Nəsib bəl Yusifbəyli - maarif naziri; 9. Məmməd Həsən Hacınski -ticarət naziri; 10. A.Saakyan - ərzaq naziri; 11. R.Kazaçnuni - ictimai məişət xidməti naziri; 12. A.Erzikyan -əmək naziri; və 13. İbrahim Heydərov - Dövlət nəzaret naziri. Bununla, hökumətdə əsas postları gürcülər və ermənilər ələ keçirdilər.

Zaqafqaziyada vəziyyət getdikcə pisləşirdi, çünki müstəqilliyin elanından sonra Zaqafqaziya Federativ Respublikasının nə daxili, nə də xarici siyasətində ciddi bir dəyişiklik baş verməmişdi. Siyasi partiyaların nümayəndələri Zaqafqaziya seymində ümumi dil tapa bilmirdilər, onların ümumi fəaliyyət proqramı yox idi və fraksiyaların hər biri öz siyasi xəttini həyata keçirməyə çalışırdı.

1918 il mayın sonuncu ongünlüyündə Zaqafqaziya seyminin dağılacağı açıq-aydın hiss olunurdu. Azərbaycan nümayəndəliyinə məlum olmuşdu ki, Seymin gürcü fraksiyası Batumda Almaniya nümayəndəliyi ilə gizli danışıqlar aparır və Gürcüstanın müstəqilliyini elan etməyə hazırlaşır. Elə həmin günlərdə seymin sosial-demokrat fraksiyasının lideri İ.Q.Sereteli Cənubi Qafqaz xalqlarının konfederasiya halında birləşmək ideyasının özünü doğrultmadığını bildirdi. Sereteli Türkiyə ilə Batum danışıqlarında təklənmələrini bəhanə gətirərək, Gürcüstanın Seymdən çıxıb, müstəqil respublika elan olunmasını zəruri hesab etdi. Mayın 25-də Seymdə iclasa sədrlik edən F.Xoyski Cənubi Qafqaz xalqları birliyinin zəruriliyini əsaslandırmaqla yanaşı, gürcü nümayəndəliyinin arzularmın əleyhinə çıxmadı, eyni zamanda bildirdi ki, Azərbaycan türkləri də belə bir addım atmalı olacaqlar.

downloaded from KitabYurdu.az

1918 il mayın 26-da Zaqafqaziya seyminin sonuncu iclası keçirildi. İ.Q.Sereteli Seymin buraxıldığını elan etdi. Zaqafqaziya seyminin buraxılması Cənubi Qafqazda öz müstəqilliklərini elan edən dövlətlərin, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Vəkilov P., Azərbaycan Respublikasının yaranma tarixi, B., 1998.

**ZAQAFQAZİYA SEYMİNİN MÜSƏLMAN FRAKSİYASI** - *Zaqafqaziya seymində* Azərbaycanı təmsil edən fraksiya. 1918 il fevralın 23-də təşkil olunmuş, həmin il mayın 26-da Zaqafqaziya seyminin buraxılması ilə fəaliyyəti sona çatmışdır. 1918 ilin yanvarında bolşeviklər Rusiyada Müəssislər məclisini buraxdıqdan sonra Zaqafqaziya Diyar Soveti yerli hökumət strukrurunun yaradılmasını qərara aldı. Bu vəzifəni 1918 il fevralın 23-də ilk sessiyasını keçirən Zaqafqaziya seymi öz üzərinə götürdü.

Zaqafqaziya seymində dörd müsəlman partiyası -"Müsavat" və ona qoşulan demokratik bitərəflər qrupu (bu qrup müsəlman ictimai xadimlərindən ibarət idi və müsəlman milli komitələri, müxtəlif mərkəzlər tərəfindən "Müsavat"la eyni siyahıda irəli sürülüb seçilmişdilər),**"Müsəlman sosialist bloku", "Rusiyada Müsəlmanlıq"** ("İttihad"), **"Hümmət"** (menşevik) partiyaları təmsil olunmuşdu: "Müsavat" və demokratik bitərəflər qrupu - Məmməd Yusif Cəfərov, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Resulzadə, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Xosrov Paşa bəy Sultanov, Məmməd Həsən Hacınski, Mir Hidayət Seyidov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Qazı Əhməd Məhəmmədbəyov, Aslan bəy Qardaşov, Şəfi bəy Rüstəmbəyli, Cavad bəy Məlik-Yeqanov, Mustafa Mahmudov, Mehdi bəy Hacıbababəyov, Hacı Molla Səlim Axundzadə, Mehdi bəy Hacınski, Xudadat bəy Məlik-Aslanov, Müseyib Əxicanov, Lütfəli bəy Behbudov, Firidun bəy Köçərli, İbrahim ağa Vəkilov, Həmid bəy Şahtaxtinski, Rəhim Vəkilov, Ələsgər Mahmudbəyov, Yusif əfəndi Əfəndizadə, Mirzə Cəlal Yusifzadə, Məmmədrza ağa Vəkilov, İslam bəy Qəbulov; müsəlman sosialist bloku - İbrahim bəy Heydərov, Əlixan Qantəmir, Aslan bəy Səfikürdski, Əhməd Cövdət Pepinov, Bağır Rzayev, Camo Hacınski, Məhəmməd Məhərrəmov; "Rusiyada müsəlmanlıq" ("İttihad") - Sultanməcid Qənizadə, Mir Yaqub Mehdiyev, Heybətqulu Məmmədbəyov; müsəlman sosial-demokrat menşevik partiyası "Hümmət" - Cəfər Axundov, İbrahim Əbilev, Əkbər Ağa Şeyxülislamov və Səmədağa Ağamalıoğlu.

Partiyaların bu siyahısı Seymin 1918 il 28 fevral tarixli iclasında təsdiq olunmuşdu, lakin sonralar bu siyahıda müxtəlif dəyişikliklər edilmiş, bir partiyadan digərinə keçmək halları qeydə alınmışdı. Hümmətçi menşeviklər isə gürcü fraksiyasına daxil olmuşdular.

Bütün partiyaların ümumi razılığı ilə "Müsavat" fraksiyasının və demokratik bitərəflər qrupunun aşağıdakı tərkibdə rəyasət heyəti müsəlman fraksiyalarının birləşmiş iclaslarının rəyasət heyəti kimi qəbul edilmişdi: Məhəmməd Əmin Rəsulzadə (sədr), Məmməd Yusif Cəfərov və Nesib bəy Yusifbəyli (sədrin müavinləri), Mustafa Mahmudov və Rəhim Vəkilov (katiblər), Mehdi bəy Hacıbababəyov və İslam bəy Qəbulov (katiblər olmayanda onları müvəqqəti əvəz edənlər).

Müsəlman fraksiyası, gürcü və erməni fraksiyalarından fərqli olaraq, çox dağınıq fəaliyyət göstərməsinə baxmayaraq, mühüm məsələlərin müzakirəsində öz qətiyyəti və sabit siyasi mövqeyi ilə seçilirdi. Fraksiyanın əsas diqqəti cənub-qərbi Qafqazda cərəyan eden proseslerə yönəlmişdi. Fraksiya Qars ve Ərdəhanda müsəlmanların kütləvi qətlləri haqqında məlumatlar alırdı. Axalsıx, Axalkələk və Borçalıda milli zəmində toqquşmalar baş verirdi. Erməni-yunan və gürcü birləşmələri Salhidə və Qalistavada müsəlmanlara qarşı zorakılıqlara yol verirdilər. Qafqaz müsəlmanları bütün ümidlərini Müsəlman fraksiyasına bağlamışdılar. Seymin bu prosesleri nizamlamaq imkanları məhdud idi. Müsəlman fraksiyasının sərəncamında isə hərbi qüvvə yox idi. Bununla belə, Müsəlman fraksiyası Seymin iclaslarında Qafqaz müsəlmanlarının maraqlarını təmin etmək uğrunda səylə mübarizə aparırdı. Qərb dövlətləri Müsəlman fraksiyası ilə əlaqələr yaratmağa cəhd göstərirdilər. Lakin fraksiya liderləri dərk edirdilər ki, öz maraqlarını güdən Qərb dövlətləri ilə əlaqələr Qafqazın müsəlman əhalisini təhlükəli vəziyyətə sala bilər. Onlar, ilk növbədə, Qafqaz müsəlmanlarının digər siyasi qüvvələri ilə əlaqələr yaratmağı zəruri hesab edirdilər. Bu məqsədlə Şimali Qafqazı təmsil edən Heydər Bammat, Əbdülməcid Çermoyev və başqaları ilə görüşlər keçirilmiş, Qafqazdaxili milli münasibətlərə və xarici təhlükə məsələlərinə dair danışıqlar aparılmışdı. Lakin Müsəlman fraksiyası federativ dövlətin tərkibində olduğu üçün separat danışıqlara meyl etmirdi. Hətta Türkiyə ilə danışıqlarda da fraksiya Cənubi Qafqazın federativliyini nəzərə alırdı. Lakin gürcülər və ermənilər öz milli maraqlarını ümumqafqaz maraqlarından üstün tuturdular. Zaqafqaziya seyminin Batum haqqında Türkiyənin ultimatumu ilə bağlı təcili iclasında E.Gegeçkori, İ.Sereteli, X.Karçikyan, Y.Semyonov və digərləri öz çıxışlarında müqavimət göstərməyi, əslində, Türkiyəyə rəsmən müharibə elan olunmasını tələb edirdilər. Müsəlman fraksiyası isə müharibənin əleyhinə idi. Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Seymdə müsəlmanlarını bütün səyləri cəbhə məsələsinin dinc yolla həlli və Qafqazın müstəqilliyinin dərhal həyata keçirilməsinə yönəlmişdi". Seymin Türkiyə ile Trabzonda apardığı sülh danışıqlarında (bax *Trabzon konfransı)* Müsəlman fraksiyasından M.H.Hacınski, X.Xasməmmədov, İ.Heydərov, M.Y.Mehdiyev, Ə.Şeyxülislamov iştirak edirdilər. Azərbaycan nümayəndələri Türkiyə ilə müharibəyə razı olmadıqlarını bildirdilər. Müsəlman fraksiyası adından Seymdə çıxış edən M.Y.Mehdiyev bildirdi ki, Zaqafqaziya öz müstəqilliyini elan etməsə, Müsəlman fraksiyası sülh danışıqlarını müdafiə etməyəcək. X.Xasməmmədov Batumun Türkiyəyə güzəştə gedilən ərazilərin siyahısından çıxarılmasını təklif etdi. O, Bakı neft kəmərinin son məntə-

downloaded from KitabYurdu.az

qəsi olan Batumun Cənubi Qafqazın tərkibində saxlanmasını Azərbaycan neft sənayesinin mənafeyinə uyğun sayırdı. Türkiyə ilə müharibənin əleyhinə olan "Müsavat", demokratik bitərəflər qrupu və ittihadçılar birgə qətnamə qəbul etdilər. Qətnamədə deyilirdi ki, "Müsavat" fırqəsi, demokratik bitərəflər qrupu və "İttihad" partiyası Türkiyə ilə müharibənin Zaqafqaziya demokratiyası və onun daxili həyatı üçün ağır nəticələr verə biləcəyini əsas tutaraq, onun məsuliyyətini öz üzərinə götürmür. **Erməni və gürcülər dini nifaq salmaq məqsədilə şiə azərbaycanlıların uzun bir tarixi dövrdə sünni türklərə qarşı döyüşdüyünü xatırlatsa da, bunun əhəmiyyəti olmadı.** Hadisələrin sonrakı inkişafı Müsəlman fraksiyasının aparıcı qüvvələrinin düzgün mövqe tutduğunu sübut etdi. Xüsusilə erməni-daşnakların 1918 ilin martında Bakıda və Azərbaycanın digər şəhərlərində törətdiyi soyqırımlarından sonra Türkiyəyə qarşı müharibədə iştirak etmək Azərbaycan üçün acınacaqlı nəticələrə gətirib çıxara bilərdi.

Müsəlman fraksiyasının Türkiyə ilə müharibə əleyhinə mövqeyi Seymi öz fikrindən döndərə bilmədi. Seym 13 aprel tarixli iclasında müharibə haqqında qərar çıxardı. Ölkədə hərbi vəziyyət elan edildi. Seymin fəaliyyəti iki həftəliyə donduruldu. Həmin iclasda hərbi vəziyyətlə əlaqədar yaradılmış Ali Müdafiə Şurasında Azərbaycan təmsil edilməmişdi. Bu, Müsəlman fraksiyasının müharibə əleyhinə olmasından daha çox onların hadisələrin gedişinə təsir imkanlarını aradan qaldırmaq məqsədi güdürdü. Seymin iclaslarının keçirilməməsi isə Müsəlman fraksiyasının tamamilə təcrid edilməsilə nəticələndi. Müsəlman fraksiyasının aprelin 13-də keçirilən iclasında çıxış edən Heybətqulu Məmmədbəyov bildirdi ki, hökumət və Seym bu addımı ilə müsəlmanlarını hüquqlarım tapdalayır, belə olduqda ermənilər və gürcülərlə işləmək mümkün deyil. O, Seymin tərkibindən çıxaraq, Qafqazın çeçen və inguş nümayəndələrini bir yerə toplayıb onların gələcək taleyi barədə düşünməyi təklif etdi. Lakin Məmməd Yusif Cəfərov sülh nümayəndələri Trabzondan qayıdana qədər Seymin tərkibindən çıxmaq məsələsini müzakirədən çıxarmağı məsləhət gördü. O, həmçinin bildirdi ki, müharibə ilə bağlı milli münasibətlərin kəskinləşdiyi bir vaxtda müsəlmanlar bütün hakimiyyətin hərbi kollegiyanın əlində cəmlənməsi ilə banşmayacaqlar.

Həsən bəy Ağayev isə hesab edirdi ki, fövqəladə səlahiyyətli hərbi kollegiyanın yaradılması müsəlmanları ağır vəziyyətə salacaq və bundan yaxa qurtarmaq üçün kollegiyaya hansı hüquqların verildiyi qabaqcadan aydınlaşdırılmalı, bu orqanla yanaşı, seym də fəaliyyət göstərməlidir. Fraksiya bütün vasitələrlə Seymin fəaliyyətinin dayandırılmasına yol verməmək haqqında qərar qəbul etdi.

Seymdə Bakı Xalq Komissarları Sovetinə qarşı mübarizə məsələləri müzakirə edildikdə daşnak nümayəndələri Müsəlman fraksiyası ilə razılığa gəlməyib "bitərəf olduqlarını elan etmişdilər. Şübhəsiz, bu qərar S.Şaumyanın Bakıda başçılıq etdiyi Xalq Komissarları Sovetinin onların mənafeyinə uyğun olmasından irəli gəlirdi. Bakıda azərbaycanlılara qarşı törədilən mart soyqırımından sonra özlərini şəhərin əsl sahibləri kimi aparan erməni-bolşevik güruhunun özbaşınalıqlarına Zaqafqaziya seyminin etinasız münasibəti də Müsəlman fraksiyasının ciddi etirazına səbəb oldu. Müsəlman fraksiyası Seymdən müsəlman əhalisini müdafiə etmək üçün Bakıya qoşun yeritməyi tələb etdi. 1918 il aprelin 3-də Seymin Bakı hadisələrinə həsr olunmuş iclasında F.x.Xoyski bildirdi ki, ***"...müsəlman əhalini müdafiə etmək üçün tədbirlər görülməsə, müsəlman nazirlər hökumətin tərkibindən çıxacaqlar".*** F.x.Xoyski Seymin aprelin 7-də və 17-də keçirilən iclaslarında da Zaqafqaziya hökuməti qarşısında məsələni kəskin qoydu: *"Bakı məsələsi respublikanın olum vəya ölüm məsələsidir".*

Müsəlman fraksiyasının təkidi ilə aprelin 22-də Seymin geniş iclası keçirildi və müstəqil, demokratik, federativ Zaqafqaziya Respublikasının elan olunması haqqında qətnamə qəbul edildi. Yeni Zaqafqaziya hökumətinə Müsəlman fraksiyasından X.Məlik-Aslanov, F.x.Xoyski, N.Yusifbəyli, M.H.Hacınski, İ.Heydərov daxil oldular (bax *Zaqafqaziya seymi).*

"Bakı məsələsini" Seymin gücü ilə həll etmək cəhdlərinin əbəs olduğunu görən Müsəlman fraksiyası yeganə çıxış yolunu Osmanlı qoşunlarının çağırılmasında gördü.

Zaqafqaziya seyminin sonunun yaxınlaşdığını, habelə Türkiyəyə olan meylin artdığını hiss edən daşnak liderləri Bakı Sovetinə olan "bitərəf" münasibətlərini bəzi şərtlər daxilində dəyişməyə hazır olduqlarını Müsəlman fraksiyasına təklif etdi. Bu şərtlər Bakıda gələcək hökumətin təşkilində onların iştirakının təmin edilməsi, habelə erməni hərbi hissələrinin Bakıda saxlanılmasından ibarət idi. Seymin daşnak fraksiyası bu şərtlərin qəbul ediləcəyi halda Bakı Sovetinin buraxılmasını öz öhdəsinə götürürdü. Lakin Müsəlman fraksiyası bu şərtləri qəti surətdə rədd etdi. Mayın 6-da Müsəlman fraksiyasının birgə iclasında Fətəli xan Xoyski fövqəladə bəyanat verərək, bu şərtlərlə bağlı kəskin etirazını bildirmişdi.

Nəsib bəy Yusifbəyli daşnaklarını bu həyasız, qeyri-səmimi tələblərinin mehriban qonşuluq şəraitində yaşamaq arzusundan deyil, daha çox Türk ordusunun Azərbaycana yaxınlaşmasından irəli gəldiyini göstərmişdi. O qeyd edirdi ki, *"Bakıda və ümumilikdə, Şərqi Zaqafqaziyada bütün hakimiyyət müsəlmanlara məxsus olmalıdır, biz Bakını müvəqqəti olaraq itirmişiksə də, lakin onu bütövlükdə və əbədi olaraq qaytarmaq üçün hər şeyi etməliyik, ikinciyol yoxdur, ya hamısı, ya da heç nə".*

Zaqafqaziya seymi ilə Türkiyə arasında Batumda davam etdirilən damşıqlarda (bax *Batum konfransı)* Azərbaycanı Müsəlman fraksiyasının üzvləri M.Ə.Rəsulzadə və M.H.Hacınski təmsil etmişdi. Konfransda Almaniya nümayəndələri ilə separat danışıqlar aparan Seymin gürcü fraksiyası Gürcüstanın Federativ Zaqafqaziya Respublikası tərkibindən çıxmasını

və öz müstəqilliyini elan etməsini qərara aldı. Mayın 25-də Seymin müsəlman fraksiyasının

downloaded from KitabYurdu.az

iclası keçirildi. İclasda Cənubi Qafqazda siyasi vəziyyətin dəyişilməsi ilə əlaqədar olaraq oxunmuş rəsmi bəyanatda deyilirdi ki, Zaqafqaziya seyminin gürcü fraksiyası, gürcü sülh nümayəndə heyətinin üzvləri Batumda gizli danışıqlar aparır, ayrılmağa və Gürcüstanın müstəqilliyini elan etməyə hazırlaşırlar. Müsəlman fraksiyasının bununla bağlı qəbul etdiyi qətnamədə göstərilirdi ki, "Gürcüstan öz müstəqilliyini elan etdiyi halda, biz də öz tərəfimizdən Azərbaycanın müstəqilliyini elan etməliyik". Daxili ziddiyyətlərin kəskinləşməsi, həmçinin xarici amillərin təsiri nəticəsində Seym dağıldı. 1918 il mayın 27-də artıq keçmiş Seymin Müsəlman fraksiyası yaranmış siyasi vəziyyəti müzakirə etmək üçün fövqəladə iclas çağırdı və Müvəqqəti Milli Şura yaratmaq qərara almdı (bax *Azərbaycan Milli Şurası).*

Zaqafqaziya seymindəki Müsəlman fraksiyasının bütün fəaliyyəti taleyüklü məsələlərdə Azərbaycan xalqının maraqlarını qorumaqdan ibarət olmuşdur. Zaqafqaziya seyminin Müsəlman fraksiyası gələcək müstəqil dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin idarə olunması, minillik qədim dövlətçilik ənənələrinin bərpası üçün mühüm təcrübə məktəbi keçdi.



*Zaqatala qəzasının gerbi. 1840.*
*Azərbaycan Tarixi Muzeyi*

*Əd.:* Azərbaycan tarixi, 7 cüddə, c.5, B., 2001; İsgəndərov A., Azərbaycan Xalq Cümhuriyyəti, B., 2003.

**ZAQAFQAZİYA SEYMİNİN TORPAQ İSLAHATI HAQQINDA QANUNUNUN LƏĞVİ HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qəbul etdiyi mühüm sənədlərdən biri. 1918 il iyunun 22-də qəbul olunmuşdur. Beş bənddən ibarət bu qərara əsasən, Məclisi-Müəssisan çağırılana qədər Zaqafqaziya seyminin torpaq islahatı haqqında qanununun icrası dayandırılırdı. Zəbt edilmiş şəxsi mülkiyyət olan və xəzinəyə məxsus torpaqlar geri qaytarılmal idi. Əkinçilik nazirinə Məclisi-Müəssisana çıxarmaq üçün torpaq məsələsinə dair materiallar toplamaq, habelə torpaq komitələrinin yenidən təşkili və ya ləğvi, torpaq pulu ödənişləri haqqında məruzələr hazırlamaq tapşırılmışdı.

**ZAQAFQAZİYADA MÜSƏLMANLARA QARŞI ZORAKILIĞIN ARAŞDIRILMASI ÜÇÜN FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSİYASININ TƏŞKİLİ HAQQINDA QƏRAR** - Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin qəbul etdiyi ən mühüm sənədlərdən biri. 1918 il iyulun 15-də qəbul olunmuşdur. Qərarda xarici işlər nazirinə Avropa müharibəsinin (Birinci dünya müharibəsinin) başlandığı vaxtdan Zaqafqaziyada müsəlmanlara qarşı zorakılığını araşdınlması üçün *Fövqəladə Təhqiqat Komissiyası* yaratmaq tapşırılmışdı.

**ZAQATALA** - Azərbaycan Xalq Cümhuriyyətində qubernatorluq və onun mərkəzi şəhəri. Azərbaycanın tarixi ərazilərini olan Car-Balakən camaatlığı və İlisu sultanlığının torpaqlarını əhatə edirdi. Car-Balakən camaatlığı Rusiya imperiyasının qoşunları tərəfindən 1803 ildə işğal edilmişdi. Tərəflər arasında imzalanmış müqaviləyə görə camaatlıq daxili idarəçilik sistemini saxlamışdı. Lakin çar hökuməti 1830 il Car-Balakən üsyanını bəhanə gətirərək, camaatlığı ləğv etmiş, onun əsasında Car vilayəti təşkil olunmuş, burada müvəqqəti idarə orqanı yaradılmışdı. 1840 il 10 aprel qanunu ilə Car vilayəti Balakən qəzası adlandırılmış və Azərbaycanın bu ərazisi xüsusi məqsədlə Gürcü-İmereti quberniyasının tərkibinə daxil edilmişdi. Balakən qəzası 1842 ildə Car-Balakən dairəsinə çevrildi. 1844 ildə İlisu sultanı Daniyal bəyin üsyam yatırıldıqdan sonra sultanlıq da ləğv olundu, apreldə Car-Balakən və İlisu torpaqlarında Car-Balakən hərbi dairəsi təşkil edildi. Dağıstan vilayətinin idarəçiliyi haqqında 1860 il 5 aprel tarixli əsasnaməyə uyğun olaraq, Car-Balakən hərbi dairəsi Zaqatala dairəsi adlandırıldı. Zaqatala ilk vaxtlar kiçik yaşayış məntəqəsi olmuş, adı ilk dəfə 1807 ilə aid sənədlərdə çəkilmişdir. Zaqatala dairə mərkəzinə çevrildikdən sonra sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etməyə başlamışdı. Zaqatala dairəsi yaradıldıqdan sonra burada həyata keçirilən inzibati-ərazi bölgüsü əsasında İlisu sultanlığının Saxur mülkü ondan qoparılaraq Samur dairəsinə birləşdirilmişdi. 1917 il Qafqaz təqviminin məlumatına görə Zaqatala dairəsinin ərazisi 3502,24 *kv.verst* idi. Dairə inzibati cəhətdən Əliabad, Car-Muxax, Qax sahələri və Almalı, Balakən, Muxax rayonlarına bölünürdü.

Həmin məlumata əsasən Zaqatala şəhərində 4505 nəfər (2456 kişi, 2049 qadın) yaşayırdı. Bütövlükdə dairədə 92608 nəfər (48323 kişi, 44285 qadın) əhali yaşayırdı. Onlardan 86128 nəfər (93%) yerli sakin, 6480 (7%) müvəqqəti yaşayanlar idi. Zaqatala dairəsi əhalisinin 85136 nəfərini (92%) müsəlmanlar təşkil edirdi. Zaqatala dairəsində hərbi idarə sistemi mövcud idi. Hərbi, mülki və inzibati hakimiyyət hərbi rəisin əlində cəmləşmişdi. Əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı, başlıca olaraq tütünçülük idi. Sənətkarhq və ticarət də inkişaf etmişdi. Zaqatala

downloaded from KitabYurdu.az

dairəsi Azərbaycanda çarizmin müstəmləkəçilik sistemine qarşı mübarizənin əsas mərkəzlərindən biri olmuşdur. 1863 ildə burada məşhur Zaqatala üsyanı baş vermişdi. Üsyan yatırıldıqdan sonra Zaqatala dairəsi hərbi və mülki hissələrə bölünmüşdü. Kəndli hərəkatı, onun spesifik forması olan qaçaq hərəkatı da yayılmışdı. *Fevral inqilabından (1917)* sonra Zaqatala dairəsində də Müvəqqəti Hökumətin orqanları yaradılmağa başlamışdı. 1917 il oktyabrın 20-də Zaqatala dairəsi Kazak qoşunlarının, Qafqaz dağlıları və düzəngahlarının azad xalqlarının Cənub-Şərq ittifaqına daxil edilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Zaqatala dairəsini özünün mübahisəsiz ərazisi elan etmişdi. Zaqatala dairəsinin əhalisi də Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi kimi qalmaq arzusunu ifadə etmişdi. Zaqatala dairə Milli Şurası dairənin Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi haqqında qərar qəbul etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bunu nəzərə alaraq 1918 il iyunun 30-da aşağıdakı qərarı qəbul etmişdi: Zaqatala dairəsi əhalisinin yerli Milli Komitənin 1918 il 28 iyun teleqramında ifadə olunmuş arzusuna uyğun olaraq, Zaqatala dairəsi Azərbaycan Respublikasına birləşdirilsin, bu barədə əhaliyə məlumat verilsin. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti bu qərarla Gürcüstanın ərazi iddialarına qarşı qanuni yol ilə cavab vermiş, onun həyata keçirilməsinə nail ola bilmişdi. Hökumət 1918 il iyulun 30-da Zaqatala dairəsində vəziyyətin öyrənilməsi üçün Maliyyə, Ədliyyə və Daxili işlər nazirlikləri nümayəndələrindən ibarət komissiya yaratmış, ona yerli əhalinin arzu və istəklərinin öyrənilməsi və b. mühüm vəzifələr tapşırmışdı. Daxili işlər nazirliyinə Zaqatala dairəsində digər quberniyalarda qəbul edilmiş əsaslarla inzibati hakimiyyət təşkil etmək həvalə olunmuşdu. Zaqatala dairəsi rəsmi sənədlərdə quberniya adlandırılmağa başlamışdı. 1919 il fevralın 17-də Gəncə dairə məhkəməsinin səlahiyyətlərinin Zaqatala quberniyası və Şimal-Qərbi Azərbaycana aid edilməsi haqqında qərar qəbul edilmişdi. 1919 il 26 fevral qərarı ilə Zaqatala quberniyası Muxax sahəsinin yoxsul ailələrinə 1715 pud taxıl ayrılmışdı. Zaqatala qubernatoru general Haşımbəyov 1919 il martın 16-da Şimal-Qərbi Azərbaycan generalqubernatoru təyin edildikdən sonra həmin vəzifəyə Məmməd bəy Şahmalıyev təyin olunmuşdu. 1919 il 25 oktyabr-2 noyabrda Azərbaycan Respublikasının Zaqatala quberniyası və Tiflis quberniyasının Sığnax qəzası arasında müvəqqəti sərhədlərin müəyyənləşdirilməsi üçün Azərbaycan və Gürcüstan respublikalarının beynəlxalq komissiyası fəaliyyət göstərmişdi. Tərəflər bütün məsələlərin sülh yolu ilə həll edilməsini qərara almışdı. Azərbaycan Xalq Cümhuriyyəti Zaqatala şəhərinin sosial-iqtisadi və mədəni həyatının inkişafına da diqqət yetirirdi. Parlament 1919 il noyabrın 6-da Zaqatala şəhər təsərrüfat idarəsinə şəhər küçələri, su boruları və digər qurğuların təmiri üçün xəzinə vəsaitindən 70 min manat ayırmaq haqqında qanun qəbul etmişdi. Şəhərin Talaçayın daşqınlarından qorunması məqsədilə 1920 il fevralın 26-da 234 min manatdan çox vəsait ayrılması haqqında daha bir qanun qəbul edilmişdi. Hökumət isə ciddi ehtiyac olduğunu nəzərə alaraq 1920 il fevralın 2-də Zaqatala şəhərində kişi müəllimlər seminariyası açılması barədə qərar vermişdi. Azərbaycan Xalq Cümhuriyyətinin Zaqatala quberniyasında həyata keçirdiyi tədbirlər ona böyük nüfuz qazandırmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin 11 -ci Qırmızı ordu tərəfindən süqutundan sonra mayda Zaqatala quberniyasında da sovet hökuməti quruldu, qəza inzibati-ərazi vahidi tətbiq olundu. Sovet hökumətinə qarşı müqavimət hərəkatı zamanı Zaqatala anti-sovet üsyanlarının mərkəzlərindən biri oldu. 1920 il iyunun 6-da Zaqatalada antisovet üsyan. başladı. 11-ci Qırmızı ordu hissələri yalnız iyunun 18-də Zaqatala üsyanının yatıra bildi [bax *Zaqatalada antisovet üsyanı (1920)]*. Zaqatala qəzası 1929 ildə həyata keçirilən rayonlaşdırma zamanı ləğv olundu. Onun ərazisində Zaqatala, Balakən və Qax rayonları yaradıldı.

*Əd.:* Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), c.1-2, B,, 1998: Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документь и материалы), Б., 1998; Respublika elmi-konfransının materialları, B,, 2003; Летифова Э., Северо-западный Азербайджан: Илисуйское султанство, Б., 1999; Шепетьев А., Доклад о спорных Кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки// Изв. АН Азерб. ССР (серия истории, философии и право), 1990, №2.

**ZAQATALADA ANTİSOVET ÜSYANI (1920)** - 1920 il iyunun birinci yarısında Zaqatala bölgəsində sovet işğalına qarşt baş vermiş xalq hərəkatı. Qarabağdakı antisovet üsyanı ilə eyni vaxtda başlanmışdı. Üsyandan məqsəd qırmızı ordu hissələrinin bölgıdəki azğmlıqlarının qarşısını almaq və onu bütünlüklə sovet rejimindən azad etmək idi. Üsyan iyunun 6-da başladı. Üsyanda xalq kütlələri ilə bərabər, azsaylı qoşun dəstələri də iştirak edirdi. Onun rəhbərləri də xalq arasından seçilmişdi. Zaqatala üsyanının rəhbəri, Tala kəndinin imamı Hafiz əfəndi idi. İlk günlərdə üsyançıların sayı 1000 nəfərə çatırdı. Cümhuriyyət ordusunun Zaqatalada yerləşən və sonradan sovet hakimiyyətinə tabe etdirilən taboru da üsyançıların tərəfinə keçdi. 1920 il iyunun 9-da, səhər saat 6-da bölgədəki üsyançı qüvvələr Zaqatalaya toplaşdılar. Şəhər qalası və teleqraf dərhal elə keçirildi. İnqilab Komitəsi üzvlərinin və sovet işçilərinin həbsi barədə qərar verildi. Gürcüstanla sərhəddə yerləşən keçmiş Cümhuriyyət taborunun üsyançılara qoşulması onlann gücünü daha da artırdı. Qısa müddətdən sonra Qax da sovet qüvvələrindən azad edildi.

11 -ci Qırmızı ordunun bölgədə yerləşdirilmiş 7-ci süvari diviziyasının 37, 39 və 40-cı süvari alayları 1920 il iyunun 10-da Əlibəyli, Yuxarı Muxax kəndləri yaxınlığındakı yüksəklikdə, Qaraman və s. məntəqələr ətrafında döyüşlərdə üsyançı qüvvələrin müqavimətini qıra bilməyib böyük itkilər verdi. İyunun 11-də üsyançılar

downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az




downloaded from KitabYurdu.az



39-cu süvari alayının Əmbərçay ətrafındakı zastavalarını da geri çəkilməyə məcbur etdilər. İyunun 13-də strateji əhəmiyyətli Baş Göynük kəndi də üsyan qaldırdı və kənd qırmızı qüvvələrdən təmizləndi. Bölgədə hərbi təşəbbüs bütünlüklə üsyançı qüvvələrin əlinə keçdi və onlarını döyüş fəallığı nəticəsində 11 -ci Qırmızı ordunun 7-ci süvari diviziyasının vəziyyəti xeyli mürəkkəbləşdi. Bu diviziyanı tamamilə məhv olmaqdan xilas etmək üçün bölgəyə 58-ci piyada briqadası, 27-ci zirehli dəstə və kommunistlərdən təşkil edilmiş dəstədən ibarət əlavə qüvvələr göndərildi. Əlavə qüvvələr iyunun 16-da bölgəyə yetişdilər və iyunun 17-də bütün cəbhəboyu üsyançı qüvvələrin üzərinə hücum təşkil edildi. Çoxsaylı hərbi texnikaya və üstün qüvvələrə malik olan 11-ci Qırmızı ordu hissələri gün ərzində üsyançılarını müqavimətini qırmağa nail oldular. Zaqatala-Şəki şose yolu və digər strateji məntəqələr yenidən onların əlinə keçdi. İyunun 18-də isə 11-ci Qırmızı ordunun hissə və bölmələri Zaqatalaya daxil oldular və burada sovet hakimiyyəti yenidən bərpa edildi. Bölgə əhalisinə qanlı divan tutuldu.

*Əd.:* Azərbaycan tarixi. 7 cilddə, c.6, B., 2000; Qaffarov T., Azərbaycan tarixi. 1920-1991, B., 1999.

**"ZARYA"** - gündəlik siyasi-ictimai, ədəbi qəzet. Müsəlman sosialistlərinin, hümmətçi-menşeviklərin, müsəlman sağ eserlərin orqanı. 1919 ildə Bakıda rus dilində nəşr edilmişdir. 1-ci nömrəsi yanvarın 29-da, sonuncu 109-cu nömrəsi sentyabrın 15-də buraxılmışdır. Qəzet bəzi məsələlərdə bolşeviklərə qarşı çıxışlar da etmişdir. "Zarya"nın səhifələrində S.Ağamalıoğlunun, İ.Əbiləvun və M.Musəvinin xalqının ağır vəziyyətinə, inqilabi mübarizəyə dair yazıları dərc olunurdu. Azərbaycan Xalq Cümhuriyyətinə qarşı pozuculuq təbliğatı apardığı üçün nəşri dayandırılmışdı.

**ZEYNALLI** Məmmədhənəfi (Hənəfi) Baba oğlu (1896, Bakı, Mərdəkan - 13.10.1937, Bakı) - ədəbiyyatşünas « alim, folklorşünas, tənqidçi. Mədrəsədə oxumuş, rus-müsəlman orta məktəbini bitirmişdir. 1916 ildə Moskva Ali Texniki məktəbində (indiki Bauman adına İnstitut) təhsil almış, tələbə hərəkatında iştirakına görə məktəbdən xaric edilmiş (1917), Bakıda və qəzalarda siyasi iş aparmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1919 il 1 sentyabr tarixli xüsusi qərarı ilə dövlət hesabına hüquq təhsili almaq üçün İstanbul Universitetinə göndərilmişdir. Lakin Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1920 ilin iyulunda Türkiyədən geri qayıtmış, 1922-27 illərdə Azərbaycan Tibb Universitetində oxumuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Göyçay, Salyan, Şamaxı qəzalarında partiya və sovet orqanlarının təşkilində iştirak etmiş, Şuşa qəza partiya komitəsinin katibi işləmişdir.



Azərbaycan Dövlət Nəşriyyatının təşkilatçılarından və baş redaktoru (1924-29) olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun Azərbaycan ədəbiyyatı kafedrasında dosent, Azərbaycan Elmi Tədqiqat İnstitutunda ədəbiyyat bölməsinin elmi işçisi olmuş, folklor qrupuna rəhbərlik etmişdir. 1923 ildə "Azərbaycan ədib və şairlər ittifaqı" rəyasət heyətinin sədr müavini, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" folklor komissiyasının sədri seçilmişdir. 1934 ildən elmi fəaliyyətini SSRİ EA-nın Azərbaycan filialında davam etdirmişdir. Azərbaycan ədəbiyyatının tədqiqi, klassik ədəbi irsin, folklor nümunələrinin toplanması, araşdırılması və nəşri sahəsində fəaliyyət göstərmişdir.

Zeynallı ədəbiyyat tarixçisi kimi, əsasən, 19-20 əsrlər Azərbaycan ədəbiyyatını tədqiq etmiş, Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvan, İsmayıl Nakam, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Süleyman Sani Axundov, Cəfər Cabbarlı və başqaları haqqında məqalələr yazmışdır. "M.F.Axundzadənin əsərlərində ideologiya", "Azərbaycanda M.F.Axundzadə əsri", "Aşıq Pəri haqqında bir neçə söz", "Molla Nəsrəddin", Hüseyn Cavidin dramları ("Şeyx Sənan", "Peyğəmbər" və s.) haqqında məqalələri 20 əsrin 20-30-cu illər ədəbiyyatşünaslığının uğurlarından sayılır.

Zeynallının şifahi xalq ədəbiyyatının tədqiqi sahəsində xidməti də diqqətəlayiqdir. O, "Azərbaycan atalar sözü" (1926), "Azərbaycan tapmacaları" (1928) kitablarını nəşr etmiş, "Ağız ədəbiyyatı", "Azərbaycan folkloru" və s. məqalələr, habelə Əlabbas Müznibin, Salman Mümtazın, Hümmət Əlizadənin xalq ədəbiyyatı nümunələrindən ibarət kitablarına müqəddimə yazmışdır. Ədəbiyyatın elmi-nəzəri və metodoloji məsələləri ilə maraqlanmış, bu problemə "Sənət nə üçündür?", "Sənət və ədəbiyyatın ictimai həyatla əlaqələri", "Ədəbiyyat tədqiqində metod", "Həyat və sənət", "Xəvas və avam ədəbiyyatı" kimi dəyərli yazılar həsr etmişdir.

1937 ilin oktyabrında saxta ittihamlar əsasında həbs edilmiş və güllələnmişdir.

Əsəri: Seçilmiş əsərləri. B.. 1983.

*Əd.:* Qurbanova N.. Hənifə Zeynallı. B.. 1989.

downloaded from KitabYurdu.az

**ZEYNALOĞLU CAHANGİR** - tarixçi. Azərbaycanın qədim dövrlərdən 1920 ilə qədərki tarixini əhatə edən "Müxtəsər Azərbaycan tarixi (elmi-publisistik və tarixi kitab)" əsərini çap etdirmişdir (1924, İstanbul). Əsərdə Azərbaycan Xalq Cümhuriyyəti tarixi xüsusi fəsil kimi ayrıca verilmişdir (bax *Cahangir* Zeynaloğlu).



**ZEYNALOV** Behbudəli Məşədi Həmid oğlu (2.12.1899, Şuşa - ?) - Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax *Xaricə təhsil almağa göndərihn azərbaycanlı tələ bələr haqqında qərar)* əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. Şuşa realnı məktəbini bitirmişdir (1918). Parlamentin 1919 il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini nəqliyyat sahəsində davam etdirmək üçün Berlin Universitetinə (Almaniya) göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan **sonra** xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən *Azərbaycanlı Tələbələr İttifaqının* 1923-25 illər üçün məlumatında onun təhsilinin bitməsinə 2 il qaldığı göstərilirdi.

**ZEYNALOV** Zeynal Eynal oğlu (1876, Bakı yaxınlığında Əmircan kəndi - 1935, Əmircan) - ictimai-siyasi xadim; 2-ci Dövlət Dumasının üzvü. Ev təhsili almışdır. Mədən qulluqçusu olan Zeynalov sosial-demokratlara qoşulmuş, Bakı fəhlələrinin 1901-04 illərdəki



tətil və nümayişlərində iştirak etmiş, Balaxanıda fəhlələr arasında inqilabi iş aparmışdır. Birinci rus inqilabı (1905-07) dövründə "Hümmət" təşkilatında, Neft Senayesi Fəhlələri İttifaqında çalışmış, bolşevik "Təkamül" qəzetində əməkdaşlıq etmişdir. 1907 ildə Bakı quberniyasından 2-ci Dövlət Dumasına seçilən Zeynalov dumada "Trudoviklər" fraksiyasına daxil olmuşdur.

1907 ilin aprel-may aylarında Q.Xasanovla birlikdə Peterburqda "Duma" qəzetini nəşr etdirmişdi. Qəzetdə Zeynalovun Bakı fəhlələrinin vəziyyətinə dair yazıları dərc edilirdi. Aclıq çəkənlərə və işsizlərə kömək məsələsinin müzakirəsi zamanı Zeynalov onlara kömək göstərmək üçün vahid komissiya yaradılmasını toklif edərək bildirmişdi ki, aclıq çəkənlər çörəklə təmin olunmasa, tətillərin qarşısını almaq mümkün olmayacaqdır. Zeynalov Duma üzvlərinə müraciətində, onları fəhlələrə və aclıq çəkənlərə kömək etməyə çağırırdı: ***"bütün bunlardan sonra xalq sizi eşidəcək, xalq görəcək ki, siz onlar üçün işləmək istəyirsiniz, onda xalq da sizə işləmək imkanı verəcəkdir".*** Aqrar məsələ müzakirə olunarkən Zeynalov başçılıq etdiyi əməkçi müsəlman fraksiyası adından çıxış edərək, Bakı quberniyası kəndlilərinin vəziyyəti üzərində ətraflı dayanmış və demişdi ki, onlar torpaq sahələrini heç bir qiymətlə almaq iqtidarında deyillər, torpaqları kəndlilərə pulsuz vermək lazımdır. Dumanın aqrar komissiyasında. Bakı quberniyası torpaqlarının neft və zavod tikililəri üçün kəndlilərin əlindən alınması faktları barədə bəyanat vermiş, yerli torpaq komitələrinin yaradılması məsələsində trudoviklərə tərəfdar olmuşdur. Fəhlələr ilə sənayeçilər arasında saziş əldə olunmasına kömək edən tədbirlər hazırlanmasını təklif etmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bir sıra təsərrüfat vəzifələrində çalışmışdır.

*Əd.:* Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004.

**ZEYNALZADƏ** Kərim İbadulla oğlu, Kərim Odər (1901, Bakı - 19.11.1981, İstanbul) - Azərbaycan mühacirətinin görkəmli nümayəndələrindən biri. Bakı ticarət litseyini bitirmişdir. *Aprel işğalından (1920)* sonra təzyiq və təqibə məruz qalan Kərim Odər Tiflisə. üç il sonra isə Türkiyəyə mühacirət etməyə məcbur olmuşdur. Əvvəl xırda ticarətlə məşğul olan Kərim Odər, sonralar bank sahəsində müxtəlif məsul vəzifələrdə çalışmışdır. Rus, fransız, fars, alman, ingilis dillərini bilən Kərim Odər "Azərbaycan" (Ankara) jurnalında fəal əməkdaşlıq etmiş, "Azərbaycan iqtisadiyyatı" adlı əsərini yazmışdır. Mühacirətdə Azərbaycanın istiqlalı, onun tarixinin, mədəniyyətinin, ədəbiyyatının tanınması, təbliğ edilməsi uğrunda fədakar mübarizə aparmışdır. Ölümündən bir il sonra (1982) İstanbulda "Azərbaycan" adlı əsəri çapdan çıxmışdır. 130-dək ərəb, türk, alman, rus, ingilis, sovet mənbələrindən bəhrələnən kitabda Azərbaycanın qədim zamanlardan, sovet hakimiyyəti illəri də daxil olmaqla, son dövrlərə qədərki tarixi, etnoqrafiyası, mədəniyyəti, me-marlıq, incəsənət, musiqi, dil və ədəbiyyatı, ictimai və siyasi cərəyanları, ölkənin iqtisadi həyatı öz əksini tapmışdır. Kitabda xalqın tarixində və taleyində mühüm rol oynamış şəxsiyyətlər barədə müfəssəl və maraqlı məlumatlar verilir. Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə, Şəhriyar, Səhənd, Səməd Behrəngi və başqa görkəmli xadimlərin xidməti yüksək qiymətləndirilir.

**ZƏHMƏTKEŞ VƏ İSTİSMAR OLUNAN XALQIN HÜQUQ BƏYANNAMƏSİ** -- Sovet dövlətinin əsas prinsip və məqsədlərini elan edən konstitusiya aktı. Layihəsi *V.İ.Lenin* tərəfindən yazılmış. 1918 il yanvarın 3 (16)-də Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi tərəfindən qəbul edilmişdi. *Müəssislər məclisinin* bolşevik fraksiyası yanvarın 5 (18)-də bəyannaməni Sovet hökuməti adından müzakirəyə təqdim etsə də, o, eser-menşevik çoxluğu tərəfindən rədd olunmuşdu. Bəyannamənin layihəsi bəzi dəyişikliklərlə yanvarın 12 (25)-də Üçüncü

downloaded from KitabYurdu.az

Ümumrusiya fəhlə və əsgər deputatlan sovetlərinin qurultayında, sonra isə yanvarın 18 (31)-də üçüncü Ümumrusiya Sovetlər Qurultayında təsdiq edilmişdi. Bəyannamə 4 hissədən ibarət idi. Birinci hissədə Sovet dövlətinin siyasi əsası müəyyən edilir, ikinci hissədə onun əsas vəzifələrindən bəhs olunurdu. Üçüncü hissədə Sovet dövlətinin xarici siyasətinin əsas prinsipləri göstərilirdi. Dördüncü hissədə istismarçı siniflərin Sovet dövlətinin idaro edilməsindən uzaqlaşdırılması təsbit olunmuşdu. Leninin təklifi ilə, Bəyannamə Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) Konstitusiyasına (birinci bölmə kimi) daxil edilmişdi. *"Rusiya xalqlarının hüquq bəyannaməsi"* və *"Rusiyanın və Şərqin bütün zəhmətkeşlərinə"* adlı sənədlərdə əks olunan başlıca müddəalar kimi, bu bəyannamədə elan edilən fundamental konstitusiya tələbləri də həyata keçirilmədi. Üçüncü hissədə bütün xalqların milli suverenliyinə hörmət göstərilməsi təsbit olunsa da, RSFSR hökuməti Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini tanımaqdan imtina etdi və *Aprel işğalı (1920)* ilə onun varlığına son qoydu.

**"ZƏNBUR"** - Azərbaycan dilində həftəlik illüstrasiyalı satirik jurnal. 1918 ilin aprel-noyabr aylarında "Türk nəşriyyat cəmiyyəti" tərəfindən Bakıda nəşr edilmişdır (cəmi 24 nömrə). "Zənbur" Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olub, redaksiya heyəti tərəfindon buraxıhrdı. Naşiri 1909-19 illərdə çıxmış eyni adlı satira jurnalmın sahibi, tibb elmləri doktoru, yazıçı, ictimai xadim Mirzə Əbdülxalıq *Axundov*, əsas rəssamı Əzim Əzimzadə, beşinci nömrədən "NN" imzalı rəssam, sonralar isə Səfizadə idi. Jurnalda Əlabbas Müznib, Əli Nəzmi, Səməd Mənsur, Hacı Qasım Səyyah, B.Səttaroğlu və b. müəlliflər fəal iştirak edirdilər.

"Zənbur"un əsas mövzusu və tənqid hədəfi dövrün aktual məsələləri, kəskin ictimai-siyasi hadisələri idi. Jurnalda Rusiyanın (Lenin və Kerenskinin timsalında) Azərbaycanı işğal etmək niyyətləri, erməni-daşnak silahh dəstələrinin Zəngəzurda və Bakıda törətdikləri soyqırımları, beynəlxalq imperializm qüvvələrinin neft Bakısını işğal etmək üçün Azərbaycana müdaxiləsi, dövlət idarələrində kök salıb qalan və milli dövlətçiliyə əngəl olan "nikolaypərəst" və s. mürtəce qüvvələr, habelə dövlət qurumlarındakı özbaşınalıqlar, lovğa nitqlərlə xalqı aldadan nazirlər, "padşah yerişli naçalniklər", "müstəbid çinovniklər", kəndlilərin "qabıqlarını soğan qabığı kimi soyan" pristavlar, şəxsi mənafelərini xalqa xidmətdən üstün tutan parlament üzvləri, külək əsən tərəfə əyilən partiya liderləri, sosialistlər yığcam formalı şeir və publisist yazıarda tənqid edilirdi. "Zənbur" "Molla Nəsrəddin" jurnahnın satira ənənələrindən geniş bəhrələnirdi.




*Əd.:* Ağayev İ., Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuat və publisistika, "Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil və mədəniyyət quruculuğu)" kitabı, B., 1998.

**ZƏNGƏZUR** - Azərbaycanın tarixi ərazisi. Tarixi vilayət kimi indiki Ermənistan ərazisinin cənub-şərqini, Göycə gölü hövzəsini, Azərbaycan Respublikasımn cənub-qərbini əhatə edirdi. Zəngəzur ərazisi ən qədim dövrlərdən başlayaraq Azərbaycan dövlətlərinin tərkib hissəsi olmuşdur. Antik dövrdə və erkən orta əsrlərdə Azərbaycan Atropatena və Albaniya dövlətlərinin tərkib hissəsi olmuşdur. 5-6 osrlərdə Cənubi Qafqazda Sasanilər əleyhinə baş verən üsyanlar Zəngəzur ərazisinə də yayılmışdı. 7 əsrin 1-ci ya-rısında Albaniyamn tərkibində olan Zəngəzur Xəzər xaqanlığının hakimiyyəti altına düşmüş, həmin əsrin ortala-rında isə ərəblər torəfından istila olunaraq, Xilafətə qatıl-mışdı: burada islam dini yayılmağa başlamışdı. 9 əsrin 20-ci illərində Babəkin başçılığı ilə Xilafət əleyhinə qalxmış xürrəmilər hərəkatı Zəngəzur ərazisini də bürümüşdü. Zəngəzur 10 əsrin sonlarında təşəkkül tapmış Sünik knyaz-lağının tərkibində olmuş, 11 əsrdə Səlcuqlar tərəfindən tu-tulmuşdu. 12-13 əsrlərdə Eldənizlər (Azərbaycan atabəy-ləri), Hülakülər, sonralar isə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin tərkibində olmuşdur. 1639 ildə Osmanlı Türkiyəsi ilə Səfəvi dövləti arasında imzalanmış

downloaded from KitabYurdu.az



Sənduqə tipli qəbir abidələri. Zəngəzur, Urud kəndi. 1578-79

müqaviləyə əsasən, Səfəvilər dövlətinin tərkibində qalmış, 1730 ildə türk qoşunları tərəfindən tutulmuş, 1735 ildə Nadir şah Əfşar imperiyasının tərkibinə qatılmışdı. Zəngəzur Nadir şahın ölümündən (1747) sonra yaranmış Azərbaycan xanlıqlarından biri olan İrəvan xanlığının (bir hissəsi Qarabağ xanlığının) tərkibində olmuşdur. Rusiya-İran müharibələrindən (1804-13; 1826-28) sonra *Türkmənçay müqaviləsinə (1828)* əsasən, Rusiyaya qatılmışdır. Bu vaxtan etibarən Zəngəzura çar hökumətinin himayəsi altında Türkiyə və İrandan kütləvi surətdə ermənilərin köçürülməsinə başlanmış, beləliklə, qədim Azərbaycan torpağı olan Zən-gəzurda süni surətdə erməni əhalisinin sayca çoxaldılması siyasəti yeridilmişdir. Zəngəzur 1829 ildən Qarabağ əyalətinə qatılmış, 1861 ildən isə ayrıca qəzaya (bax *Zəngəzur qəzası)* çevrilmişdir.

1917 ilin martından 1918 il mayınadək Zəngəzurda daşnaklar türk-müsəlman əhalisinə qarşı soyqırımları həyata keçirmiş, yüzlərlə kənd yerlə-yeksan edilmiş, on minlərlə insan məhv edilmiş, doğma yurdlarından didərgin salınmışdır. 1918 ilin mayında Cənubi Qafqazda üç müstəqil dövlət - Azərbaycan, Gürcüstan, Ermənistan respublikaları elan edildikdən sonra daşnak hökuməti azərbaycanlılara qarşı soyqırımını dövlət siyasəti səviyyəsində həyata keçirməyə başladı, Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Zəngəzura basqınları təkcə 1918 ildə 115 Azərbaycan kəndinin viran qoyulmasına və yandırılmasına, yüz minlərlə insanın qətlə yetirilməsinə və yaralanmasına, 40 min nəfərdən artıq dinc sakinin öz doğma yurdunu tərk etmək məcburiyyətində qalmasına səbəb olmuşdu; üstəlik, daha 30 mindən artıq erməni Zəngəzurda - soyqırımına məruz qalmış azərbaycanlıların torpaqlarında yerləşdirilmişdi. Andronikin və Njdenin quldur dəstələri 1919-20 illərdə də Zəngəzurda türk-müsəlman əhaliyə qarşı soyqırımlarını davam etmişdilər.

1920 il aprelin 28-də Azərbaycanda, 1920 il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra yaranmış mürəkkəb şəraitdə, Moskvanın antiazərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisinin böyük hissəsi Ermənistan SSR-ə verilmişdir. Bu Azərbaycan torpağı hesabına, Ermənistan SSR XKS-nin 1921 il iyulun 20-də təsdiq etdiyi yeni inzibati ərazi bölgüsünə əsasən Ermənistan SSR-dəki 8 qəzaya daha bir qəza 9-cu -Zəngəzur qəzası da əlavə olunmuşdur.

*Əd.:* Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), c. 1, B., 1994; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1961; Əliyev F., Həsənov U., İrəvan xanlığı, B., 1997; Azərbaycan Xalq Cümhuriyyəti, B., 1998;

**ZƏNGƏZUR EKSPEDİSİYASI** (1919) erməni-daşnak silahı quldur dəstələrinin Zəngəzuru Ermənistana birləşdirmək məqsədilə yerli azərbaycanlı əhaliyə qarşı

Sənduqə tipli qəbir abidəsi. 1555-56. Zəngəzur, Urud kəndi



downloaded from KitabYurdu.az

həyata keçirdikləri soyqırımlarının qarşısını almaq məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti qoşun hissələrinin 1919 il noyabrın 3-7-də bölgədə keçirdiyi hərbi əməliyyat. Əməliyyatın keçirilməsi obyektiv zərurətdən irəli gəlmişdi. Belə ki, erməni-daşnak silahlı quldur dəstələri bölgəni Azərbaycandan qoparmaq üçün ən mənfur vasitələrə əl atırdılar. 1919 ilin iyulunda Zəngəzurda böyük potensiala malik erməni-daşnak nizami qoşun hissələri mövcud idi. Onlar Qızılboğaz keçidi vasitəsilə Ermənistan hökumətilə əlaqə saxlayırdılar. 1919 ilin oktyabrında Zən-gəzurun gəlmə erməni əhalisini azərbaycanlılara və Azər-baycan Hökumətinə qarşı qaldırmaq üçün buraya xüsusi təxribat qrupları göndərilmişdi. Zəngəzura Ermənistandan yeni nizami qoşun hissələrinin göndərilməsi planlaşdırılırdı. Bölgədə Ermənistan hökumətinin silahlı qüvvələrinin iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı hazırlanan qiyamın qarşısını almaq, ölkənin ərazi bütövlüyünü təmin etmək və əhalini qırğınlardan qorumaq üçün Azərbaycan hökuməti onun öz torpağı olan bu qəzaya qoşun dəstəsinin göndərilməsini qərara aldı.

Bu məqsədlə Hərbi nazirlik 1919 il oktyabrın 30-da xüsusi Zəngəzur dəstəsi yaratdı. Dəstənin rəhbəri 1-ci pi-yada diviziyasının komandiri, general-mayor Cavad bəy *Şıxlinski* idi. Dəstenin tərkibində iki qrup var idi. Birinci dəstədən ibarət qrupa general-mayor Davud bəy *Yadigarov*, sağ və sol dəstələrdən ibarət ikinci qrupa isə polkovnik Levestam komandirlik edirdi.

Birinci dəstənin tərkibinə görə daha böyük idi və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində əsas zərbə qüvvəsi kimi nəzərdə tutulmuşdu. Onun tərkibinə 2-ci Zaqatala piyada alayının bir taboru və 8 pulemyotu, 2-ci Qarabağ süvari alayının 4 bölüyü və 4 pulemyotu, 3-cü Şəki süvari alayından 2,5 bölük və 2 pulemyot, 2-ci dağ-topçu diviziyasından iki topu olan 4-cü batareya daxil idi. Bütövlükdə, dəstədə 1 tabor, 6,5 bölük süvari, 14 pulemyot və 2 top var idi. Dəstə oktyabrın 30-da ilkin mövqelər istiqamətində Xankəndidən Zəngəzura doğru hərəkətə başladı.

Müxtəlif istiqamətlərlə hərəkət edən Birinci, habelə sağ və sol dəstələr Dığ yaşayış məntəqəsinə doğru irəliləməli idilər. Dağın erməni silahlı qüvvələrindən təmizlənməsi həm Qarabağa aparan strateji yolu, həm də bölgəni nəzarət altında saxlamaq üçün böyük əhəmiyyətə malik idi. Birinci dəstə Dığa doğru şimaldan hərəkət etməli idi.

Zəngəzur dəstəsinin rəisi general-mayor C.Şıxlinskinin əmrinə əsasən, Birinci dəstə noyabrın 3-də hücuma başlamalı, dəstənin piyada bölmələri 2 ədəd topla Sultan-kənd, süvari bölmələri isə Sadınlar kəndi istiqamətində irə-liləməli və orada döyüşqabağı mövqe tutmalı idi.

Hücum zamanı dəstənin sağdan mühafizəsi Sultan bəy *Sultanovun* rəhbərliyi ilə yerli partizanlara tapşırıldı.

Noyabrın 4-nə keçən gecə yerli partizanlar Keçəldağ strateji yüksəkliyini tutub, orada möhkəmlənməli, sonra isə hərbi hissə və bölmələr hücuma qoşulmalı idilər. Bölgədə azərbaycanlıları sıxışdırmağa çalışan ermənilər də bu döyüşə ciddi hazırlaşmışdılar. Onların Dığ və Gorus ətrafında 6 minədək canlı qüvvəsi, 4 qaubitsası və 2 ədəd topu var idi. Atəşlərin dəqiq və dağıdıcı olması göstərirdi ki, toplara təcrübəli zabitlər rəhbərlik edirlər. Suvari qoşunları ən azı 3 bölükdən ibarət idi.

Dığ istiqamətində aparılan döyüşlər Azərbaycan qoşun hissələrinin uğuru ilə başlasa da, onu əldə saxlamaq mümkün olmadı. Düşmən qüvvələrinin çoxluğu və onların dağ şəraitinin imkanlarından istifadə etmələri, təminat məsələlərinin vaxtında həll olunmaması, irəli getmək üçün ərazidə münasib yolların olmaması və onların çoxunun Andronikin dəstəsi tərəfindən dağıdılması Azərbaycan qoşun hissələrinin hücumunu söngitdi. Ona görə də noyabrın 3-dən 7-dək Dığ istiqamətində aparılan döyüşlərdə Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qoşun bölmələri qarşıya qoyulan vəzifoləri yerinə yetirmədən ilkin mövqeyə qayıtmalı oldular.

General C.Şıxlinski döyüşün nəticələri ilə bağlı hərbi nazirə göndərdiyi raportunda əminliklə bildirirdi ki, Zən-gəzur dəstəsinə əlavə olaraq üç taborlu bir piyada alayını verilməsi ilə döyüş tapşırığını uğurla yerinə yetirmək mümkündür. Lakin Zəngəzur ekspedisiyasının hərbi əməliyyatları başa çatdırılmadı. Zəngəzur məsələsinin Azərbaycan və Ermənistan hökumətləri arasında danışıqlar yolu ilə həll ediləcəyi ehtimalına görə bölgədə döyüşlər dayandırıldı.

Əd.: Süleymanov M., Azərbaycan ordusu (1918-1920). B., 1998.

**ZƏNGƏZUR QƏZASI** - Rusiya imperiyasına qatılmış Şimali Azərbaycan ərazisində yaradılmış inzibati-ərazi vahidi. Azərbaycanın tarixi vilayətindən biri olan *Zəngəzur* ərazisində yaradılmışdır. Çar Rusiyasının müstəmləkəçilik siyasəti nəticəsində Qarabağ, Naxçıvan, İrəvan və digər Azərbaycan torpaqları kimi Zəngəzura da İran ve Türkiyədən kütləvi şəkildo ermənilər köçürülmüşdü. 1861 ildə Zəngəzur qəzası təşkil olunmuşdu. Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda (1867, dekabr) Zəngəzur qəzası (mərkəzi, Gorus) onun tərkibinə daxil edilmişdi. Qəza idarə sistemi fəaliyyət göstərirdi. 1917 il Qafqaz təqviminin məlumatına görə, Zəngəzur qəzasının ərazisi 6742,92 *kv.verst* idi. Gorusda 2201 nəfər (1193 kişi, 1008 qadın) əhali yaşayırdı. Qəzada 224197 nəfər (112780 kişi, 111417 qadın) qeydə alınmışdı. Onlardan 120 min nəfərini (53, 2%) azərbaycanlılar, 3638 nəfərini kürd müsəlmanlar (1,62%) təşkil edirdi. Çar Rusiyasının köçünnə siyasəti nəticəsində qəza ərazisində ermənilərin sayı süni şəkildə artırılmışdı. Onlar qəza əhalisinin 44,3%-ni (99,3 min nəfer) təşkil edirdi. Fevral inqilabı (1917) nəticəsində çar hökumətinin devrilməsindən sonra Zəngəzurda məskunlaşmış ermənilər azərbaycanlılara qarşı qırğınlar törətməyə, qəzada say baxımından üstünlüyə nail olmaqla bu torpaqlara yiyələnməyə cəhd etdilər.

downloaded from KitabYurdu.az



*Sənduqə tipli qəbir abidəsi. Zəngəzur, Urud kəndi. 16 əsr*

Cənubi Qafqazda müstəqil respublikalar yaradılandan sonra ermənilərin Zəngəzura qarşı ərazi iddiaları soyqırımları ilə müşahidə olunmağa başladı. 1918 ilin may-avqust aylarında Zəngəzurda Ermənistan Respublikasının azərbaycanlılara qarşı etnik təmizləmə siyasətə daha da genişləndi. Azərbaycan Fövqəladə təhqiqat komisiyyasının üzvü Mixaylovun Cavanşir, Şuşa, Cəbrayıl qəzaları və digər Azərbaycan torpaqları kimi Zəngəzur qəzasında ermənilərin həyata keçirdikləri talanlar və başqa zorakılıq hərəkətlərindən zərər çəkmiş müsəlman kəndlərinin yoxlanılması haqqında məruzəsində burada 115 kəndin, 10-a yaxın təzəbinə yaşayış məskənlərinin dağıldığı və yerlə-yeksan edildiyi bildirilir. Andronik və digər erməni-daşnak quldur başçılarının vəhşiliyi nəticəsində bu azərbaycanlı kəndlərində 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı. Beləliklə, Zəngəzur qəzasında hər iki cinsdən olan 10068 nəfər öldürülmüş və ya şikəst edilmişdi. Lakin ermənilərin Zəngəzur qəzasında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin miqyası əslində bundan da çox idi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Zəngəzur qəzasında vəziyyəti sabitləşdirmək, əhalinin müdafiəsini təşkil etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Hökumətin 1918 il 27 iyul tarixli qəzası ilə Zəngəzur komendantına qayda-qanunun bərpası üçün 50 min manat ayrılmışdı. 1919 il yanvarın 13-də Cavanşir, Şuşa və cəbrayıl qəzaları ilə birgə Zəngəzur qəzasının da daxil olduğu *Qarabağ general-qubernatorluğu* yaradılmışdı. Ermənilərin Zəngəzur qəzasının azərbaycanlı əhalisinə qarşı qırğınları 1919-20 illərdə də davam etdirilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqurundan sonra (1920, 28 aprel) ermənilərin Zəngəzuru Azərbaycandan qoparmaq siyasəti daha da fəallaşmış, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bunu həyata keçirmək mümkün olmuşdu. Sovet Rusiyasının da yaxından iştirakı ilə Zəngəzur qəzası torpaqlarının böyük bir hissəsi Ermənistana ilhaq edilmiş, Ermənistan Xalq Komissarları Sovetinin 1921 il 20 iyul tarixli qərarı ilə Ermənistan SSR-də Zengəzur qəzası yaradılmışdı. 1920 illərin sonlanndan həyata keçirilən rayonlaşdırma zamanı həmin ərazilərdə Qafan, Gorus, Mehri və Sisiyan rayonları təşkil edilmiş, Zəngəzur bir tarixi vilayət kimi ləğv edilmişdi.

*Qəbirüstü abidə. Daş qoç heykəl. Zəngəzur qəzası. 1578–79*



Tarixi Azərbaycan torpaqları olan Zəngəzur qəzasının böyük bir hissəsinin Ermənistana ilhaq edilməsi ilə birgə Azərbaycana daha bir zərbə vurulmuş, Naxçıvan Azərbaycandan ayrı salınmışdı.

*Əd.:* Азербаиджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, B., 1995; Musayev İ., Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), B., 1998; Vəlixanlı N,, 31 mart - azərbaycanlıların soyqırımı günüdür. İpək yolu, 1998.

downloaded from KitabYurdu.az

**ZƏNGƏZUR QIRĞINLARI** (1918-20) - erməni-daşnak quldur dəstələrinin 1918 ildən 1920 ilin aprelinə qədər Zəngəzurda azərbaycanlılara qarşı törətdiyi soyqırımları. Bu müddət ərzində erməni quldur dəstələrinin həmin qəzanın müsəlman əhalisinə qarşı zorakılıq aktları hərdən səngisə də, zaman-zaman daha qəddarlıqlarla təkrar olunmuşdur. Dağlıq bölgədə yerləşən bu qəzanın əlaqələri Şuşa qəzası ilə tamamilə, Cəbrayıl qəzası ilə isə qismən kəsilmişdi. Azərbaycan kəndləri erməni kəndlərinin arasında qaldığından, bir-birləri ilə yalnız həmin kəndlər vasitəsilə əlaqə saxlaya bilirdilər. Qəzamn müsəlman əhalisinin vəziyyəti Azərbaycanın başqa əyalətlərinə nisbətən bir də ona görə ağır idi ki, erməni kəndlərindəki silahlı quldur dəstələri ilə yanaşı, bu qəzada Andronikin mütəşəkkil erməni əsgər və zabitlərindən ibarət nizami qoşunlan da var idi. Nizami qoşunu və erməni quldur dəstələrini ətrafında cəmləşdirmiş Andronik Ermənistan Respublikası hökumətinin tapşırığı ilə Azərbaycan ərazisinə soxulub, müsəlman əhalidən ya Ermənistan hökumətinə tabe olmağı, ya da guya "Ermənistan Respublikasına daxil olan" bu qəzanın ərazisindən çıxmağı tələb edirdi. Qəzanın, demək olar ki, xarici aləmdən təcrid olunmuş və çox zəif silahlanmış müsəlman əhalisi Andronikin bu tələblərini rədd etdikdə ermənilər həmin əhaliyə qarşı görünməmiş vəhşiliklər törətmiş, kütləvi soyqırımları həyata keçirmişdilər.

*Fövqəladə təhqiqat komissiyasının* məruzəsində Zəngəzur qəzasında 115 müsəlman kəndinin ermənilər tərəfindən dağıdıldığı göstərilir. Həmin kəndlərdə 3257 kişi, 2776 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadm və 485 uşaq yaralanmışdı.

Şahidlərin ifadələri əsasında tərtib olunmuş məruzədə ermənilərin törətdikləri cinayətlər haqqında ətraflı məlumat vermişdir. Vaqudi kəndində erməni vandalları 400-dən yuxarı azərbaycanlı əhalinin sığınacaq tapdığı məscidə əvvəlcə əl qumbaraları atmış, sonra isə ona od vuraraq, adamlarla birlikdə yandırmışdılar.

Qaniçən quldurlar həmin kənddən qaçıb, canını qurtarmaq istəyən uşaq və qadınların başlarını qılınc və xən-cərlərlə üzmüş, İmişli kəndini qətl-qarət edərkən südəmər uşaqları süngülərе taxaraq göyə qaldırmış, öldürülənlərin meyitlərini tikə-tikə doğramışlar.

Göstərilənlər ermənilərin törətdikləri vəhşiliklərin cüzi bir hissəsi idi. Şahidlərin dediyinə görə, bütün bu cinayətlər bilavasitə Andronikin başçılığı ilə həyata keçirilmişdir.

Zəngəzurun müsəlman əhalisinə qarşı erməni basqınları, vəhşilikləri 1919 ilin dekabrından etibarən yenidən şiddətləndi. Müsəlmanlar yaşayan Oxçu, Şabadan, Atqız, Pordavdan kəndlərinə qarşı geniş hərbi əməliyyatlar başlandı. Özü də bu vaxt əməliyyatlarda artıq erməni Ararat Respublikasının rəsmi nizami ordusu da iştirak edirdi. Lakin Ararat Respublikası hökuməti riyakarcasına bu işlərlə heç bir əlaqəsinin olmadığını, bu vəhşiliklərin guya ancaq Andronikin dəstəsi və başqa erməni quldur dəstələri tərəfindən törədildiyini bildirirdi.

Andronikin "döyüşçüləri"nin vəhşilikləri misli görünməmiş həddə çatmışdı. Şahidlərin söylədiklərinə görə, Va-qudi kəndində 15 gözəl qız erməni yaraqlılarına paylanmışdı. Onlar mənəvi və fiziki işgəncələrdən ölmüşdülər. Həmin kənddə ermənilər qadımları öldürməzdən əvvəl zorlayır və döşlərini kəsirdilər. Meyitlər o qədər eybəcərləşdirilmişdi ki, onlan tanımaq mümkün olmurdu.

Quldur dəstələri bütün müdafiəsiz müsəlman kəndləri-ni talan etdikdən sonra hər yeri və hər şeyi oda qalayırdılar. Kəndlərdən hansısa biri müdafiə olunmağa cəhd göstərdikdə mühasirəyə alınır və yerlə yeksan edilirdi.

Bu hadisələrin iştirakçısı olan A.Lalayan yazırdı: ***"Türk qadınlarının və uşaqlarının, qocaların və yeniyetmələrin ınəhv edilməsində daşnak dəstələri... maksimum "şücaət" göstərdilər. Daşnak dəstələrinin ələ keçirdiyi kəndlər canlı insanlardan "azad olunur" və eybəcərləşdirilmiş meyitlərlə dolu xarabazarlığa çevrilirdi".***

Erməni millətçilərinin Zəngəzurdakı dəhşətli cinayətləri və onlara layiqli cavab verilməməsi azərbaycanlı əhali arasında ümidsizlik doğururdu. 1920 il yanvarın 23-də Cəbrayıldan müəllim Hüseyn Axundzadə və başqaları tərəfindən Azərbaycan Cümhuriyyəti Parlamenti və Hökuməti adına göndərilən teleqramda deyilirdi: ***"İkinci dəfə olaraq, teleqraf edirik. Zəngəzur müsəlmanları sarıdan başınız sağ olsun. Zəngəzurlular nə qədər ağladılarsa da, nalələri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı... Qızlar və gəlinlər ermənilərin əlinə keçmiş, onların namuslarına təcavuz edilmişdir. Zəngəznrda düşınən müqabilində bir az kişi qalıb. Lakin onlar da ümidsiz vəziyyətdədirlər. Heç bir tərəfdən kömək gəlməmişdir. Ermənilərin nizami orduları on min nəfərə çatmışdır və qüvvələri hər an artmaqdadır".***

Həmin gün Cəlil Sultanovdan da Azərbaycan Parlamentinə və Hökumətinə aşağıdakı məzmunda teleqram daxil olmuşdu: ***"İndicə aldığım məlumata görə, yanvarın 19-da erməni nizami ordusu 10 top və çoxlu pulemyotlarla Xocahan və Qaladərəsi arasındakı bir sıra tatar (Azərbaycan) kəndlərinə hücum etmişlər***. *Dünənə qədər 15 kənd məhv edilmişdir".*

C.Sultanov əməliyyat yerindən Parlamentə göndərdiyi üçüncü teleqramda yazırdı: "***Bu gün axşam vaxtı qəza rəisi ilə birlikdə Cəbrayıla gəldim. Açıq səma altında Zəngəzurdan təzəcə gəlmiş on minlərlə lüt, ac qadın və uşaq qaçqınları gördüm. Zəngəzur qəzası İrəvandan on top və pulemyotlarla gəlmiş nizami ordu tərəfindən tamamilə məhv edilmişdir. Vuruşmada iştirak edən nizami erməni ordusunun sayı on minə çatır... Aldığımız məlumata görə, sabah Zəngəzur tərəfdən Cəbrayıl qəzasına hücum başlanır. Məqsəd Qarabağ erməniləri ilə birləşmək, naticədə, Naxçıvanla əlaqəni tamamilə kəsmək,***

downloaded from KitabYurdu.az

*beləliklə də, həm Qarabağ, həm də Naxçıvan məsələsini birdəfəlik həll etməkdir. Qarabağın dağlıq hissələrinin ermənilәri sürətlə üsyana hazırlaşırlar".*

Yanvarın 24-də C.Sultanovun Cəbrayıldan göndərdiyi son teleqramda deyilirdi: *"Bütün teleqramlarıma əlavə olaraq, hərbi əməliyyat yerindən məlum edirəm ki, Zəngəzur sarıdan başınız sağ olsun. Ermənilər öz qüvvələrini Cəbrayıl qəzasının sərhədində cəmləşdirirlər. Qarabağı xilas etmək lazımdır. Erməni xəyanəti və hiyləgərliyi qurbanlarının sayı hesaba gəlməzdir".*

*Aprel işğalından (1920)* sonra sovet Rusiyasının Zəngəzur məsələsi ilə bağlı yeritdiyi siyasət Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra köklü şəkildə dəyişdi. Belə ki, 1920 il aprelin sonunda 11-ci Qırmızı ordunun siyasi rəhbərliyi və Azərbaycan İnqilab Komitəsi sədrinin müavini M.D.Hüseynovun Ermənistan daşnak hökumətinə notasında Qarabağı və Zəngəzuru erməni qoşunlarından təmizləmək tələb olunurdusa, artıq həmin ilin dekabrında Azərbaycan Zəngəzuru Ermənistana "bağışlamağa" məcbur edildi. Bu, sovet Rusiyasımn bölgədə yeritdiyi yeni müstəmləkəçilik siyasətinin təzahürü idi. Məkrli planlarını onilliklərə irəlicədən hesablayan ermənilər daim azərbaycanlıları bu bölgədən sıxışdırmış, nəhayət, ötən əsrin 80-ci illərinin sonunda SSRİ rəhbərliyindəki himayədarlarının köməyi ilə onları əzəli Azərbaycan torpağı Zəngəzurdan son nəfərinə kimi çıxarmışlar.

*Əd.:* Azərbaycan tarixi, 7 cilddə, c.5, B., 2001; Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001; Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya, B..2003;



**ZƏRDABİ** (M ə l i k o v) Həsən bəy Səlim bəy oğlu (1842, Göyçay qəzasının Zərdab kəndi - 28.11.1907, Bakı) - təbiətşünas alim, pedaqoq, publisist. Azərbaycan mətbuatının banisi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnən millisiyasi dirçəliş ideyalarının formalaşmasında mühüm rol oynamış ictimai xadim. Zərdabda mollaxanada, Şamaxı şəhər məktəbində oxumuş, Tiflis birinci şəhər gimnaziyasını (1861), Moskva Universiteti fizika-riyaziyyat fakültəsinin təbiiyyat şöbəsini (1865) bitirmiş, elmlər namizədi dərəcəsi almışdır. Bir müddət Tiflisdə "Mərz palatası"nda, Bakı quberniya idarəsində, Quba şəhər məhkəməsində işləmiş (1865-69), 1869 ildə Bakı şəhər realnı gimnaziyasında təbiiyyat tarixi və riyaziyyat müəllimi təyin olunmuşdur.

Zərdabi 1872 ildə yoxsul və kimsəsiz şagirdlərə maddi yardım göstənnək məqsədilə "Cəmiyyəti-xeyriyyə" təşkil etmişdir. 1873 ilin martında gimnaziyanın şagirdləri H.Zərdabinin rəhbərliyi, Nəcəf bəy Vəzirovun təşəbbüsü, Əsgər ağa Adıgözəlov (Gorani) və b.nın iştirakı ilə Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" və "Hacı Qara" komediyalarını tamaşaya qoymuşlar. Azərbaycan milli teatrının tarixi bu tamaşalarla başlanır. Zərdabi, həmçinin, Azərbaycan demokratik mətbuatının banisidir. Qubalı mülkədar Abdulla ağa Bakıxanovdan maddi yardım alan Həsən bəy 1875 il iyulun 22-də "Əkinçi" qəzetinin birinci nömrəsini nəşr etdirmişdir. "Əkinçi" (1875-77) siyasi oyanış, ictimai tərəqqi, iqtisadi dirçəliş, mədəni yüksəliş yolunda azərbaycanlıların bələdçisi olmuş, müasir elmi bilikləri təbliğ etməklə, əhalinin təsərrüfatının inkişafına, maddi rifah halının yaxşılaşmasına kömək etmişdir. "Əkinçi" kənd təsərrüfatına dair biliklərin təbliğini əsrin qabaqcıl maarifçi-demokratik ideyalarının yayılması ilə məharətlə əlaqələndirdi. Bununla da durğun müsəlman cəmiyyətini aşağıdan-yuxarıya qədər silkələyib hərəkətə gətirdi, xalqa müasir şəraitdə tərəqqi yollarını göstərdi.

Həsən bəy Zərdabi "zindəganlıq cənginin" ("yaşamaq uğrunda mübarizə") mahiyyətini açıqlayaraq yazırdı: " Zikr olan zindəganlıq cəngində tüfəng və xəncər işlənməz, güc və rəşidlik iş görməz. Onun əsbabı ancaq ağıldır... elm təhsil etdikcə ağıl da artır... bizim zəmanə dəyişilib. Biz elm sahiblərinə rast gəlmirik. Bizimlə zindəganlıq cəngini edən millətlər elm təhsil edirlər. Ona binaən, gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olma-saq da, onlarm bərabərində dayanıb duraq. Yoxsa, dövlət və xoşgüzəranlıq onların əlinə keçəcəkdir və bizlər mürur ilə zindəganlıq cəngində məğlub olub tələf olacağıq. Səy et, zəhmət çək, elm təhsil elə ki, dövlət qazanıb xoşgüzəran olasan" ["Əkinçi" (1875-77), Bakı, 1979, səh.51].

Həsən bəy Zərdabinin milli dirçəliş ideyaları rosmi hökumət dairələrində ciddi narazılıq yaratdı. O, hökumət məmurlarının nəzərində siyasi cəhətdən etibarsız adama çevrildi. 1877 ilin sentyabnnda "Əkinçi" bağlandı. Millət xadimi 1879 ildə realnı məktəbdə müəllimlik vəzifəsindən çıxarıldı, Bakını tərk etməyə məcbur edildi. Ailəsi ilə birlikdə doğma Zərdab kəndinə köçdü. Orada 16 il sürgün həyatı yaşadı. 1896 ildə yenidən Bakıya qayıtdı. "Kaspi" qəzeti ilə əməkdaşlıq etməyə başladı. 1897 ildə Bakı şəhər Dumasının məktəb komissiyasının üzvü seçildi. Bakıya ikinci qayıdış Həsən bəy Zərdabiyə ehtiyatda qalan qüvvəsini xalq işinə sərf etmək imkanı yaratdı. Müdrik el ağsaqqalı faydalı məsləhətləri ilə ədəbiyyatm, teatrın, maarifin inkişafina yaxmdan kömək etdi. "Kaspi" redaksiyasında işləməklə yanaşı, "Şərqi-Rus", "Həyat" qəzetlərində, "Dəbistan" jurnalında əməkdaşlıq etdi. 1906 ildə Qafqaz müsəlman müəllimlərinin Bakıda çağırılan birinci qurultayı Həsən bəy Zərdabinin sədrliyi ilə keçirildi.

Həsən bəy Zərdabi geniş yaralıcılıq diapazonuna malik alim-publisist idi. Onun yaradıcılığı 19 əsrin sonu, 20 əsr Azərbaycan ədəbiyyatının, publisistikasının mühüm məsələlərini əks etdirir. Ədibin "Əkinçi", "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül", "Şərqi-Rus", "Həyat", "Dəbistan",

downloaded from KitabYurdu.az



*İsmayıl bəy Qaspralı, Həsən bəy Zərdabi və Əlimərdan bəy Topçubaşov*

"Novyo obozreniye", "Kaspi", "Obzor" kimi Azərbaycan və rus dilli mətbuatda dərc olunmuş məqalələrində xalq həyatının müxtəlif məsələləri, iqtisadiyyat, ticarət, ədəbiyyat, dil, əlifba, idarə üsulunun islahı məsələləri əhatə olunmuşdur. Ədibin "Daxiliyyə", "Elmi xəbərlər". "Əkin və ziraət xəbərləri", ümumi başlığı altında silsilə məqalələri, təbiətşünaslığa ("Torpaq, su və hava"), gigiyenaya ("Bədəni salamat saxlamaq düsturu və əməlidir") dair əsərləri Azərbaycan elmi-publisistikasının dəyərli nümunələridir.

Həsən bəy Zərdabi "Əkinçi"ni nəşr etməklə "bir ovuc maarif buğdası səpdi", Azərbaycanın "daşlı, dərə-təpə, qumlu torpaqlarını" şumlamağa, müasir dövr üçün tərəqqi vasitələrini hazırlayıb həmvətənlərinin istifadəsinə verməyə başladı.

Həsən bəy Zərdabinin səpdiyi toxumlardan "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül", "Şərqi-Rus", "Hoyat", "İrşad", "Molla Nəsrəddin", "Dəbistan", "İqbal", "Açıq söz" cücərdi. Bu qəzet və jurnallarını təbliğ etdiyi ideyalar sayəsində milli dirçəliş, siyasi müstəqillik və dövlətçilik ideyaları formalaşdı. "Əkinçi"nin nəşri ilə azərbaycanlı ziyalıların birinci ictimai və ədəbi mərkəzi yarandı. Onun tərkibində Həsən bəy Zərdabi başda olmaqla Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Əhsənül-Qəvaid, Nəcəf bəy Vəzirov, Əsgər ağa Adıgözəlov, Heydəri kimi əsrin qabaqcıl ziyalıları, millət xadimləri birləşdi. Onlar əlbir, dilbir vahid cəbhədən zülm və cəhalət səltənətinə qarş hücuma keçib əski dünyanı yıxmaq, yeni cəmiyyət qurmaı uğrunda döyüşlərə başladılar. Bütün bunlar son nəticədi Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə nəticələndi.

Əsərləri: Seçilmiş əsərləri. B.. 1960; Türk nəğmələrinin məcmuəsi. "'Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı" (XIX-XX osrlər). B 2001;

*Əd.:* Ağazadə F.. Azərbaycan mətbuatının 50 illiyi, B., 192. Rüstəmov İ., Həsən boy Zərdabi, B., 1969; Məmmədov B "Əkinçi" qəzeti, B., 1976; Mirəhmədov Ə.Birinci Azərbaycan şozet "Əkinçi" (1875-1877). B., 1979; Мамедов Ш.Ф. Мировоззрение Гасан-бек, Зардаби, М., 1960.



**ZİYA GÖYALP,** Mehmet Ziya (1876, Diyarbəkir 25.10.1924, İstanbul, Sultan Mahmud türbəsi məzarlığında dəfn edilmişdir) - türkçülüyün əsas ideoloqlarından biri sosioloq, şair və publisist. İlk və orta təhsilini Diyarbəkirdə almışdı (1883-94). Bu illərdə o, ərəb, fars və fransız dillərini öyrənmişdir. İstanbuldakı Ali baytar məktəbində təhsi almışdır (1895-99). Həmin illərdə Əbdülhəmid rejiminə qarşı çıxaı gizli təşkilatlarla əlaqəyə girmiş 1899 ilin martında tutulub, 9 aylıq həbsdən sonra, 1900 ildə Diyar

downloaded from KitabYurdu.az

bəkirə sürgün olunmuşdur. 1908 il inqilabından sonra "İttihad və Tərəqqi" partiyasının Diyarbəkir şöbəsini yaratmış, eyni zamanda qızğın elmi və ədəbi fəaliyyətə başlamışdır. Ziya Göyalp həm Şərq alim və mütəfəkkirlərinin, həm də Qərb filəsof və sosioloqlarının əsərlərini dərindən öyrənmiş, öz araşdırmalarında onların fikir və metodlarından bəhrələnmişdir. Ziya Göyalp 1910 ildə Səlanikdə "İttihad və Tərəqqi" partiyasının qurultayında partiyanın Mərkəzi Komitəsinin üzvii seçilmiş, burada partiyanın litseyini təşkil edərək, ilk dəfə sosiologiya elmini proqrama saldırmışdı. 1911 ildən Ziya "Göyalp" təxəllüsü ilə ilk şerlərini "Gənc qələmlər" jurnalında çap etdirmişdir. Bu vaxtdan etibarən Ziya Göyalp ən alovlu türkçü, sosioloq, fıkir adamı kimi tanınmış, "İttihad və Tərəqqi" partiyasının "düşünən beyninə" çevrilmişdir.

Ziya Göyalp 1914-18 illərdə İstanbul Universitetində sosiologiya professoru kimi çalışmış. bu illərdəki elmi və ədəbi çalışmaları ilə türkçülüyü elmi sistem şəklinə salmışdır. 1919 ilin əvvəllərində həbs edilərək, Yusif Akçura, Əhməd Ağaoğlu və başqa görkəmli türkçülərlə birlikdə ingilislər torəfından Malta adasına sürgün olunmuşdu. 1922-23 illərdə Diyarbəkirdə "Kiçik məcmuə" adlı jurnal nəşr etdirmiş, 1923 ildən Ankaraya çağırılaraq, Milli Maarif Nazirliyinin "Təlif və Tərcümə" komissiyasının başçısı toyin olunmuşdur. Atatürkün yüksək qiymətləndirdiyi və özünün mənəvi atası adlandırdığı Ziya Göyalp Türkiyə Cümhuriyyətinin ilk konstitusiyasının hazırlanmasında yaxından iştirak etmişdir. 1923 ildə Türkiyə Böyük Millət Məclisinin deputatı seçilmişdir.

Ziya Göyalpın türkçülük fəaliyyəti turançıhq fıkrinin geniş yayıldığı bir dövrə təsadüf cdir. O, 1911 ildə "Gənc qələmlər" jurnalında dərc ctdirdiyi "Turan" şerində turançılıq ideyasını beiə ifadə etmişdi:

***Vətən nə Türkiyədir türklərə, nə Tiirküstan, Vətən böyük və müəbbət bir ölkədir: Turan.***

Ziya Göyalpın türkçülük baxışlarının formalaşmasında, özürün etiraf etdiyi kimi, Əli boy *Hüseynzadənin* böyük rolu olmuşdu. O yazırdı: *"Rusiyadan İstanbula gələn Hüseynzadə Əli bəy Tibbiyyədə (Tibb nıəktəbində) türkçülüyün əsaslarını basa salırdı. "Turan" adlı şeri "turançılıq" ideyasının ilk ortaya qoyuluşu idi".* 1912 ildən türkçülük (turançıhq) "İttihad və Tərəqqi" partiyasının siyasə-tində özünə möhkem bir yer tuturdu. İlk əvvəl turançılığı təbliğ edən Ziya Göyalpın düşüncəsində sonralar dəyişiklik yaranmışdır. Türkçülər arasında *"Türkləşmək, islamlaş-nıaq, qərbləşmək"* fikirləri güclənməyə başladığı zaman Ziya Göyalp 1918 ildə nəşr etdirdiyi *"Tiirkləşmək, islaın-laşmaq, ntüasirləsmək"* aldı kitabında bu üç düşüncəni əsaslandırmış, türkçülüklə islamçıhq və müasirliyi uzlaşdırmağa çalışmısdır. O, türkçülüyə "türkçülük - türk millətini yüksəltmək demokdir" - tərifmi vermişdir.1923 ildə Ziya Göyalpın "Türkçülüyün əsaslan" kitabı nəşr olunmuş-dur. Kitab 2 bölümdən ibarətdir. Nəzəri səciyyə daşıyan birinci bölümdə türkçülyün mahiyyəti, ikinci bölümdə isə proqramı şərh edilir.

Digər böyük türkçülərlə yanaşı, Ziya Göyalpın türkçülük baxışları həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm do Türkiyə Cümhuriyyətinin siyasi-dövlətçilik fəaliyyətində mühüm yer tutmuşdur. Bütövlükdə, türkçülük baxışları sistemi Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətində nəzərə alınmış, onun bayrağında təsbit olunmuşdur.

Əsəri: Türkçülüyün əsasları, B., 1991.



**ZİYADXANOV** Adil xan Əbülfət oğlu (1877, Gəncə -1957, İstanbul) - ictimai-siyasi və dövlət xadimi, Azərbaycan milli istiqlal hərəkatının görkəmli nümayəndəsi. Sonuncu Gəncə xanı Cavad xanın nəticəsi olan atası dövrünün maarifpərvər ziyalılarından, anası İran şahzadəsi onun Şuşadakı şöbəsində andçı müvəkkil vəzifəsində çalışmışdır. Adil xan 1905 ilin yazında Bakı və Gəncənin ali müsəlman təbəqəsinin nümayəndələri ilə yanaşı. Əlimərdan bəy Topçubaşov tərəfindən tərtib edilmiş və Nazirlər Komitəsinə təqdim olunmuş petisiyanın imzalamışdı. Adil xan 1905 ilin mayında Topçubaşov və Ə.Xasməmmədovla birlikdə şəhərlərin idarə olunmasında müsəlmanların hüquqlarını məhdudlaşdırap qanunlar ləğv edilənedək şşhər dumalarına yeni seçkilərin dayandırılması barədə vəsatətləri müdafiə etmək üçün seçilrmiş deputat heyətinə daxil olmuşdur. 1906 il fevralın 20-də Azərbaycanlı və erməni nümayəndələrinin Tiflisdə canişin şurasında keçirilən "barışdırıcı qurultayında" Yelizavetpol qəzasını Ələkbər bəy Xasməmmədovla birgə Adil xan da təmsil etmişdir.

Azərbaycan tərəfinin proqramının müzakirəsi zamanı Adil xan bildirmişdi: *"...bu qanlı hadisələr başımızın üstü-nii Domokl qılıncı kimi kəsdikcə, heç bir azadlıq barədə düşünməyə belə dəyməz, azadlıq isə müsəlmanlara hava və su kinti laztmdır".* Adil xan "Daşnaksutyun" partiyasını ittiham edərək demişdi: *"Əgər "Daşnaksutyun" Qafqazdakı silahlı qüvvələrini buraxmasa, müsəlmanlar da tədricən öz dəstələrini yaratmağa məcbur olacaqlar, onda qanlı toqquşmalar labüd olacaq və çiçəklənən Qafqaz yenidəıı qan içində üzəcəkdir".* A.Ziyadxanov *"Difai"* partiyasının təşkilat komitəsinin üzvü olmuşdur.

Fevral inqilabından (1917) sonra Gəncədə yaradılmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinə seçilmiş 7 üzvdən biri də A.Ziyadxanov idi. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Gəncədən Bakıya köçdükdən (1918, sentyabr) sonra A.Ziyadxanovun fəaliyyəti Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər nazirliyi ilə bağlı olmuşdur. Xarici işlər naziri vəzifəsinin icraçısı kimi Türkiyə ilə Antanta dövlətləri arasında *Mudros barışığına (1918)* əsasən, Türkiyə qoşunlarının Azərbaycanı tərk etməli, müttəfiq dövlətlərin qüvvələri ölkəyə girməli olduğu mürəkkəb siyasi durumda fəaliyyətə başlayan Adil xan cərəyan edən hadisələrə dair məruzə hazırlamışdı. 1919 il Novruz bayramı günlərində dərc edilmiş məruzə onun diplomatik fəaliyyəti haqqında ətraflı təsəvvür yaradır.

Noyabrın 17-də daxili işlər naziri Behbud xan Cavanşirlə birlikdə general Tomsonu rəsmən qarşılamış Adil xan Azərbaycanın gələcək taleyinə məsuliyyəti ona çatdırmışdı. Tomson cavabmda respublikanın daxili işlərinə qarışmayacağmı bəyan etmişdi. A.Ziyadxanov 1919 ilin yanva-rında Britaniya qoşunlarının baş komandanı general Corc Milni

downloaded from KitabYurdu.az

də qəbul etmişdi. Yaxın qonşularla münasibətləri nizama salmağa, qarşılıqlı dinc əlaqələr yaratmağa çalışan A.Ziyadxanov 1918 ilin axırlarında Gürcüstan və Ermənistan arasında müharibə vəziyyəti ilə əlaqədar həmin dövlətlərin xarici işlər nazirlərinə göndərdiyi notada o, Borçalı bölgəsində ərazi-sərhəd mübahisələri zəminində silahlı toqquşmadan narahatlığını ifadə edib, bölgənin azəri türkləri yaşayan torpaqlannın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu vurğulamışdı. 1919 il yanvarın 7-də "Azərbaycan" qəzetində dərc olunmuş notada üç yüzədək azərbaycanlımn İrəvan quberniyasında məruz qaldıqları erməni zorakılığından və təqibindən canlarmı xilas edərkən Araz çaymda boğulması faktları nəzərə çatdırıhr. Quberniya ərazisinin Azərbaycana aid mübahisəsiz hissəsində özbaşı-nalıqlara etiraz bildirilir. müvafıq tədbirlər görülməsi tələb olıınurdu. Üç gün sonra qonşu respubulikalar arasında hərbi münaqişənin dayandırılması xəbərini alan Adil xan hər iki hökumətin xarici işlər nazirinə göndərdiyi təbrik məktubunda sərhəd mübahisələrinin yalnız üç dövlətin könüllü razılığı əsasında həll oluna biləcəyini bir daha həmkarları-nın nəzərinə çatdırmışdı. Erməni hökuınət daırələrinın Azərbaycanın hüdudlarmda. Qazax qəzasında gömrük məntəqəsi qurub, qonşu dövlətin hüquqlarım açıq-aşkar və kobud şəkildə pozmasına etirazını bildirən A.Ziyadxanov həmin məntəqənin ləğv olunmasını tələb edirdi. Adil xanın fevralın 12-də dərc olunan növbəti notası kəskinliyi və qətiyyəti ilə xüsusilə fərqlənirdi. Göycə ətrafındakı vəhşiliklər Azərbaycan Hökumətindən daha radikal addımlar atılmasını əələb edirdi. Adil xan erməni hökumətini xalqm artan qəzəbinin yarada biləcəyi təhlükə barədə xəbərdar edərək, faciənin günahkarlarının cəzalandırılmayacağı və bir daha təkrarlanacağı təqdirdə məsuliyyəti öz hökumətinin üzərindən götürürdü. Notanın surəti müttəfiqlərin Qafqazdakı komandanlığına da göndərilmişdi. A.Ziyadxanov Azərbaycandakı vəziyyəti şifrlenmiş məktub vasitəsilə Paris Sülh Konfransındakı Azərbaycan nümayəndo heyətinə də yollamışdı. A.Ziyadxanov Denikinin könüllü ordu komandanlığı ilə diplomatik münasibətlərə dair Azərbaycanın Kuban hökumətindəki diplomatik nümayəndəsi Cəfər bəy Rüstəmbəyova 1919 il iyunun 26-da təcili teleqram göndərmişdi: "Qəti olaraq bilin ki, Azərbaycan xalqı heç yerə getməyəcək, yalnız özünün Müəssislər yaxud başqa məclisinə toplaşacaqdır. Bizim hökumətin fıkri belədir ki, kim olursa-olsun: bolşevik, menşevik və i.a., Azərbaycan istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir... Könüllü orduya müsasibətimiz belədir: son və qəti olaraq qərara alınmışdır ki, könüllü ordu hissələri Azərbaycan respublikası ərazisinə buraxılmasını, Dağıstanda olan könüllü ordu hissələrinin oradan çıxarılması üzərində israr edilsin və Azərbaycan qoşunları tərəfındən Dağıstan demarkasiya xəttinə qədər tutulsun". Parisdəki sülh nümayəndə heyəti bu metnlə tanış olduqda "dərin razılıq hissi" keçirmiş, Ziyadxanovun mövqeyini "möhkəm qətiyyətli və vətənpərvər siyasət" kimi qiymətləndirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin İranda diplomatik nümayəndəsi təyin edilən A.Ziyadxanov 1920 ilin yanvarında başçılıq etdiyi missiya ilə Tehrana yola düşmüşdür. İran azərbaycanlılarının hüquqlarının müdafiəsinə onların mədəni-maarif işlərinə kömək göstərmiş, Azərbaycan xarici işlər nazirinə məktubunda İranın rəsmi hökumət dairələrindən fərqli olaraq, ölkənin türk-azərbaycanlı əhalisinin Azərbaycan Xalq Cümhuriyyətinə qardaşlıq, dostluq münasibəti bosləndiklərini, İran Azərbaycanın muxtariyyətə, müstəqilliyə can atdığını vurğulamışdır.

1921 il iyunun 23-də rəsmi nümayəndə statusunu iti-rən Adil xan 1924 ildən İranın müxtəlif idarə və nazirliklərində işləmişdir. 1934 ildə İstanbula köçmüş, universitetdə müəllim işləmiş, ömrünün sonunadək burada yaşamışdır.

Əsəri: Azərbaycan, B., 1993.

*Əd.:* Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документь и материалы), Б., 1998; 1998; Əhmədova F., Ziyadxanov qardaşları, "Azərbaycan Tarixi Muzeyi-80" toplusu, B., 2001; Seyidzadə D., Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yoilar, B., 2004.



**ZİYADXANOV** İsmayıl xan Əbülfət xan oğlu (1867, Gəncə - 1920, Bakı) - ictimai-siyasi və dövlət xadimi, Azərbaycan milli istiqlal hərəkatının görkəmli nümayəndəsi Ziyadoğluları – Qacarlar nəslindəndir. Goncə xanı Cavad xanın kötükcəsidir. Adil xan *Ziyadxanovun* qardaşıdır. Gəncə gimnaziyasında oxumuş, Moskva Universtetinin hüquq fakültəsini bitirmiş, Tiflis dairə məhkəməsində prokuror müavini vəzifəsində çalışmışdır. Məhkəmə işlərinin hərraca qoyulması, ana dilinin işlədilməməsi, mil li hüquqşünaslardan hakim teyin edilməməsi, köçürmə siyasəti, "müsəlman hümmətinə" etibarsızlıq, əsgəri mükəlləfıyyətdən məhrum etmə, ümumiyyətlə çar höku-mətinin xalqı cəhalətdə saxlamaq məqsədini hər an hiss edən İsmayıl xan 1905 ildə erməni daşnaklarının törətdiyi dəhşətli soyqırımlarına məruz qalan azərbaycanlıların taleyinə məsuliyyət duyaraq siyasi fəaliyyətə qoşulmuşdur. 1906 ildə Qafqaz canişini yanında xüsusi yığıncağa azərbaycanlı nümayəndələr seçildi.

downloaded from KitabYurdu.az

Nümayəndəliyə namizədlər arasında Ziyadxanovun da adı var idi. Həmin ildə Yelizavetpol (Gəncə) quberniyasından 1-ci Dövlət Dumasının (1906) deputatı seçilmiş, dumanın müsəlman fraksiyasının büro üzvü və Xalq Azadlıq Partiyasına mənsub olmuşdur. Dumadakı fəaliyyəti dövründə çarizmin ucqarlarda köçürmə siyasətini kəskin tənqid etmiş, təkcə Qafqazda deyil, Baltikyanı bölgələrdə də baş verən haqsızlıqlara qarşı çıxmış və etirazını bildirmişdi. Müsəlmanların çarizmə qarşı mübarizəsini rəsmi ərizələrdən və xahişnamələrdən Dumadakı etiraz səviyyəsinədək yüksəltmişdir. Dumadakı çıxışlarından birində demişdi: ***"Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir. Bu əsr ərzində biz müsəlmanlar əsir kimi həyat sürmüşük, təqiblərə məruz qalmışıq, bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq. Sözün əsl mənasında, yüz il ərzində biz hökumətin şiddətli hücumlarına və böhtanlarına məruz qalmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansına nəzər salsanız, hamısında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi olacaqsınız. Ölkəmiz istila edilən kimi, dərhal milli varlığımıza təcavüz edildi. Dinimizə və müqəddəs yerlərimizə müdaxilə edildu Deyirlər ki, müsəlmanlar geridə qalmış xalqdırlar, lakin bu düzgün deyil, onları yatmağa və geridə qalmağa məcbur etmişlər... Əgər bütün Rusiya bir dəniz, Qafqaz da onun sahili olaraq düşünülərsə, bu dəniz sizə lüzum olmayan nə qədər boş və səfil adam varsa, hamısını bizim Qafqaz sahilinə atır və onlar da həqiqətdə əxlaqsız olan bir idarənin məmur kadrlarını təşkil edirlər".*** Ziyadxanov Dumanın buraxılmasına etiraz edən deputatların (onların sırasmda Əlimərdan bəy Topçubaşov da var idi) *Vıborq müraciətnaməsini* imzaladığına görə üç aylıq həbs cəzasına məhkum olunmuş, dumaya seçilmək hüququndan məhrum edilmişdir. Vıborq iclasındakı mövqeyini belə izah etmişdir: ***"Rusiya millətlərinin müqəddəratı yolunda birinci dərəcəli nümayəndələr belə bir addıma hazır olduqları bir vaxtda, əlbəttə, rəva deyildi ki, Qafqaz müsəlmanlarının vəkili, fəqət öz şəxsinə dəyəcək zərərin qorxusundan belə bir addımdan kənar çəkilsin".*** 1907 ildə rus müstəmləkəçiliyinə qarşı gizli mübarizə aparan "Müdafiə" təşkilatma başçılıq etmişdir. Həmin ilin martmda Cənubi Qafqaz, Şimali Qafqaz və Krım müsəlmanları nümayəndələrinin Gəncədə keçirilmiş qurultayında, İsmayıl xan Ziyadxanov başda olmaqla, Zaqafqaziya Ümummüsəlman İttifaqının yaradılması qərara alınmışdı. Fevral inqilabından (1917) sonra Gəncədə yaradılan ictimai təşkilatlarm icraiyyə komitəsi tərəfindən şəhər milisinin rəisi təyin edilmişdir. 1918 ilin yazmda İ.Ziyadxano-vun başçılıq etdiyi silahlı dəstə erməni-daşnak silahh birləşmələrinin törətdiyi Şamaxı qırğınları zamanı müsəlman əhalinin xilası üçün fədakarcasına mübarizə aparmışdır. S.Şaumyan İ.Ziyadxanovu Azərbaycanda sovet hakimiyyəti üçün ən təhlükəli adam adlandırmışdı. İ.Ziyadxanov Azərbaycan Xalq Cümhuriyyətinin 2-ci hökumətinin tərkibində hərbi işlər üzrə müvəkkil olmuşdur. 1919 ilin yazında İran hökuməti ilə danışıqlar aparmaq üçün Tehrana göndərilən Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə diplomatik missiyasına sədrlik etmişdir. Missiyanın fəaliyyəti nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin Tehranda daimi diplomatik nümayəndəliyinin və İranın bir sıra məntəqələrində konsulluqlarını açılması razılaşdırılmış, poçt-teleqraf, ticarət və s. sahələrə dair saziş layihələri hazırlanmışdı. *Aprel işğalından (1920)* dorhal sonra qətlə yetirilmişdir.

*Əd.:* Əliyev M, İsmayıl xan Ziyadxanov, "Odlar yurdu" qəzeti. 1990, № 14; Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992; Əhmədova F., Ziyadxanov qardaşları, "Azərbaycan Tarixi Muzeyi-80" (məqalələr toplusu), B., 2001; Seyidzadə D,, Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar, B., 2004.

**ZİYALILAR** - zehni əmək və yaradıcılıq fəaliyyəti ilə məşğul olan sosial qrup. Müxtəlif təbəqələrin (burjuaziya, mülkədar, fəhlə, kəndli və s.) içərisindən formalaşır. Ziyalılar, ənənəvi olaraq, kəmiyyət göstəricilərinə, tərkibinə, sosial-siyasi baxışlarına görə təsnif olunur.

Azərbaycan ziyalılarımn formalaşması dərin tarixi köklərə malikdir. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən, ölkənin iki imperiya arasında bölüşdürülmosi Azərbaycan ziyallığına ağır zərbə vurdu. Şimali Azərbaycanın Rusiya tərəfındən işğalı nəticəsində ölkənin bu hissosində, bir tərəfdən, ziyalıların sayında və tərkibində dəyişiklik yaranmış, digər tərəfdən, müstəmləkə əsarətinin ağır şərtləri özünü büruzə vermişdi. Bəzi hesablamalara görə, 19 əsrin sonlarında Şimali Azərbaycanda ziyalıların sayı 5635 nəfər, 20 əsrin əvvəllərində isə 12 mindən çox olmuşdur. Milli ziyalılar onların yarısını təşkil edirdi. Bütün imperiyada olduğu kimi, Şimali Azərbaycanda da əhalinin ümumi sayına görə ziyalıların az olmasına baxmayaraq, onun tərkibi dövrünə görə müasir idi. Ziyalılarını mühüm bir hissəsi mühəndis-texniki işçilərdən (neft sənayesi üzrə: Fərrux bəy Vəzirov, Fətulla bəy və Baxış bəy Rüstəmbəyovlar, Hüseyn bəy Talışxanov, Abuzər bəy Rzayev, Teymur bəy Mehmandarov, İsmayıl bəy Səfərəliyev, Əbdülqadir Əfəndiyev, Ağa Eminov, Behbud xan Cavanşir, Sərvər bəy Atabəyov, Balabəy Mustafabəyov, Midhət bəy Məlikov; avia və avtonoqliyyat vasitələrinin təmiri üzrə: Əli Verdiyev; dəmir yolları üzrə: Fətəli bəy Sultanov, İsaq bəy Mehmandarov, Səməd bəy Vəkilov, Xudadat bəy Məlik-Aslanov, Rəşid bəy Axundov,

downloaded from KitabYurdu.az




*Azərbaycan müəllimlərindən bir qrup. 1901*

Yusif xan Məmmədbəyov; tikinti üzrə: Məmməd Həsən Hacınski; eiektrotexnika üzrə Məşədi Əzizbəyov, Ağa Aşurov; mühəndis-texnoloqlar İbadulla Əliyev, Ağa və Hacıbəy Axundovlar, İbrahim Heydərov, Kərim bəy və Səffət bəy Məlikovlar və b.) ibarət idi. Ziyalıların digər mühüm hissəsi səhiyyə sahəsində çalışırdı. Onlardan Əbdülkərim bəy Mehmandarov, Xudadat bəy Rəfibəyli, Məmməd Rza bəy Vəkilov, Həsən bəy Ağayev, Əbdülxalıq Axundov, Bəhram bəy Axundov, Qarabəy Qarabəyli, Nəriman Nərimanov, Abbas Səhhət, Əli bəy Hüseynzadə, Məmməd bəy Qayıbov, Əliheydər Cavadov, Bəybala bəy Sultanov, Bahadur bəy Əliverdibəyov, Mustafa ağa Şərifov, Bahadır bəy Qayıbov, İlyas Cəfərov, Məlik bəy Sultanov, Xosrov Paşa bəy Sultanov, Musa bəy Rəfiyev, Kərim bəy Sultanov, Əli Cavadov, Cəmil Ləmbəranski, Əsədulla bəy Şahtaxtinski, Sultanməcid Əfəndiyev və b. qeyd etmək olar. Tibb sahəsində azərbaycanlı qadın mütəxəssislər də (Əminə xanım Batırşina, Sona xanım Rəhimova-Vəlixan, Sona xanım Axundova və b.) fəaliyyətə başlamışdı. Kənd təsərrüfatı sahəsində Nəcəf bəy Vəzirov, Səmədağa Ağamalıoğlu, Cahangir bəy Əliyev, Böyükağa Vəkilov, Hüseyn bəy Hüseynbəyov və b. çalışırdı. Çar hökumətinin yaratdığı bütün çətinliklərə baxmayaraq, hərbi ziyalılar da (Balakişi bəy Ərəblinski, Ədibəy Novruzov, Ağası bəy Avşarov, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Firidun bəy Vəzirov, Hüseyn xan Naxçıvanski, Mir Kazım bəy və Əsəd bəy Tahşxanovlar, İbrahim ağa Usubov, İsrafil bəy Yadigarov və b.) formalaşmaqda idi. Çarizmin müstəmləkəsi olan Şimali Azərbaycanda hüquq sahəsində ziyalı kadrların yetişməsi xüsusilə əlamətdar idi. Onlardan Əsgər ağa Adıgözəlov (Gorani), Adil xan və İsmayıl xan Ziyadxanovlar, Ələkbər bəy, Ələsgər bəy və Xəlil bəy Xasməmmədovlar, Fətəli xan Xoyski, Məmmod bəy Hüseynbəyov, Mustafa bəy Eminov, Əlimərdan bəy Topçubaşov, Aslan bəy Səfikürdski, Cahangir bəy Xoyski, Hidayət bəy Sultanov, Məmməd bəy Şahmalıyev, Cümşüd bəy Sultanov, Əsəd bəy və Əsgər bəy Kəngərlilər, Rəşid bəy Axundzadə, Qasım Qasımov, Həmid bəy Şahtaxtinski, Mustafa bəy Vəkilov, Məmməd xan Təkinski, Məmməd Yusif Cəfərov, Rüstəm xan Xoyski, Nəriman bəy Nərimanbəyov, Nurməmməd bəy Şahsuvarov, Şəfi bəy Rüstəmbəyli, Əhməd bəy Pepinov, Yusif Vəzir Çəmənzəminli və b. göstərmək olar. Azərbaycan ziyalılarının böük bir hisssi xalq təhsili sahəsində (Firidun

downloaded from KitabYurdu.az

bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Sultanməcid Qənizadə, Əbdüləli bəy Əmircanov, Qafur Rəşad, Əlisgəndər Cəfərov və b.) çalışırdı. Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində (ədəbiyyat, incəsənət, mətbuat və s.) çalışan ziyalıların xeyli hissəsi fəaliyyətə müəllimlikdən başlamışdı. Müəllimlər və digər ziyalılar arasında azərbaycanlı qadınların (Hənifə xanım Məlikova-Abayeva, Səkinə xamm Axundzadə, Həmidə xanım Məmmədquluzadə-Cavanşir, Rəhilə xanım Hacıbababəyova, Xədicə xanım Ağayeva, Şəfiqə xanım Əfəndizadə, Xədicə xanım Əlibəyova və b.) da sayı getdikcə artmışdı. Təhsillə bərabər elmi fikir də inkişaf edirdi. Elmi fikrin əsas sahələri üzrə tədqiqatlar apanhrdı. Azərbaycan elmi fikri Əhməd bəy Cavanşir, Həsən bəy Zərdabi, Mir Möhsün Nəvvab, Əhməd bəy Ağayev, Nəcəf bəy Vəzirov, Əli bəy Hüseynzadə, Məhəmmədağa Şahtaxtinski, Firidun bəy Köçərli və bir çox b. ilə təmsil olunmuşdu. **Mətbuat-nəşriyyat** işinin inkişafı nəticəsində bilavasitə bu sahədə çalışan yaxud digər sahələrdə fəaliyyətlə yanaşı, bu sahədə də çalışan ziyahlann rolu yüksəlmişdi. H.Zərdabinin "Əkinçi" (1875-77) qəzeti ilə formalaşan bu sahədə, o cümlədən siyasi publisistika ilə xeyli ziyalı (Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev və b.) məşğul olurdu. Ədəbi-bədii sahədə Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Tağı Sidqi, Abbas Səhhət, Nəriman Nərimanov, Məmməd Səid Ordubadi, Abdulla Şaiq, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı və b., musiqi sahəsində Üzeyir bəy Hacıbəyli, Zülfüqar bəy Hacıbəyli, Müslüm Maqomayev və b., təsviri sənət sahəsində Mirzə Qədim İrəvanı, Mir Möhsün Novvab, Əzim Əzimzadə, Bəhıuz Kəngərli, Əli bəy Hüseynzadə və b. kimi görkəmli ziyalılar, təməli 1873 ildə qoyulmus professional Azərbaycan teatr sənəti sahəsində müqtədir sənətkarlar - aktyor və rejissorlar nəsli (Cahangir Zsynalov, Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadə və b.) yetişmişdi. Müsəlman ruhaniləri, xüsusilə onun yüksək təbəqəsi (şeyxülislamlar: Şeyx Əhməd Salyani, Axund Əbdüssəlam Axundzadə, Molla Məhəmməd Axund Pişnamazzadə, müfti Hüseyn Əfəndi Qaibov) Azərbaycan ziyalıları içərisində özünəməxsus yer tuturdu. Bütün bunlara baxmayaraq, Azərbaycanda ziyalıların sayı xalqın istedad və intellektual yaradıcılıq imkanlarından çox aşağı idi. Bunun günahı Azərbaycan xalqını müstəmləkə əsarətində saxlayan, milli-dini ayrı-seçkiliyi dövlət siyasətinə çevirən çar hökumətində idi. Azərbaycan ziyalılarının iqtisadi, sosial-siyasi və hüquqi vəziyyəti istənilən səviyyədə deyildi. Mövcud çətinliklərə baxmayaraq, Azərbaycan ziyalıları xalq qarşısında xidmətlərini layiqincə yerinə yetirir, onun maariflənməsi, dünya mədəniyyətinin qabaqcıl nailiyyətlərinə qovuşması üçün əlindən gələni əsirgəmirdi. Bu məqsədlə mədəni-maarif və xeyriyyə cəmiyyətləri ("Nəşri-maarif', "Nicat", "Səfa", "Səadət" və s.) yaratmağa başlamışdılar.

İctimai-siyasi baxışlarına görə Azərbaycan ziyalıları yekcins deyildi. 19 əsrin sonu-20 əsrin əvvəllərində Rusiya imperiyasında mövcud olan ictimai-siyasi qüvvələrin bütün spektri Şimali Azərbaycanda da əksini tapmışdı. Lakin iki xətt tədricən üstünlük təşkil etməyə başlayırdı: Azərbaycan ziyalılarının böyük əksəriyyəti milli müstəqilliyə tərəfdar çıxaraq, bu yönlü siyasi partiya və təşkilatlar ətrafında birləşir, digər bir qrup isə sosial-demokrat ideyasını qəbul cdərək, Rusiya bolşevik partiyasının Azərbaycan dəstəsini yaradırdı. Birincilər Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına və onun var qüvvəsi ilə fəaliyyətinə çahşdığı halda, ikincilər Azərbaycan bolşevik təşkilatının digər milli dəstələri ilə (rus, erməni və b.) birgə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı açıq-aşkar mübarizəyə qoşulmuş, sovet Rusiyası ilə birlikdə Cümhuriyyətin süqutunda fəal rol oynamışdı. Azərbaycan ziyalılarının ictimai-siyasi baxışlarına görə birliyinin olmaması onun hər iki hissəsi üçün faciə ilə nəticələnmiş, Azərbaycan Xalq Cümhuriyyəti xadimləri bolşevik rejiminin təqibindən yaxa qurtarmaq üçün mühacirət etmiş, yaxud yeni qurulmuş sovet hakimiyyəti tərəfindən məhv edilmişdi. Sovet hakimiy-yətinin qurulmasında iştirak etmiş Azərbaycan ziyalılarının böyük bir hissəsi isə 1937-38 illərdə repressiyaya məruz qalmışdı.

*Əd.: Гусейнова Д.С. , Интеллигенция Азербаиджана в конце* XIX - начале XX в. Б., 1993; Святочовоски Т., Руский Азербаиджан. 1905-1920, Формирования национального самосознания в мусульманском обществе, «Хазар», 1990, №1-2.

**ZİZİKSKİ** Əli bəy Harun bəy oğlu (? - 1928) - Azər-baycan milli istiqlal hərəkatının fəal iştirakçılarmdan biri; Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü. Fevral inqilabmdan (1917) sonra kapitan Ə.Zizikski *Xüsusi Zaqafqaziya Komitəsi* tərəfindən Quba qəzasının komissarı təyin edilmişdi (müavini Mir Cəfər Bağırov idi). Oktyabr çevrilişindən (1917) sonra qəzanın Bakı Sovetinin nəzarətinə keçməsinin qarşısını almağa çalışmışdır. Əli bəy Zi-zikski 1918 il mart soyqırımı zamanı öz dəstələri ilə Dağıstandan Bakınm köməyinə gələn Nəcməddin *Qotsinskinin* alaylarına qoşulmuşdu. Qotsinski və Zizikskinin silahlı dəstələri daşnak-bolşevik birləşmələrinin Biləcəri-Xırdalan müdafiə xəttinə qədər yaxınlaşmış, ilk toqquşmada onları məğlubiyyətə uğradıb, şəhər üzərinə son hücum hazırlığına başlamışdılar. Lakin Həştərxandan Xəzər dənizi vasitəsilə göndərilən çoxsayh bolşevik hərbi qüvvələrinin Bakıya çatması ilə qüvvələr nisbəti dəyişmiş və onlar tutduqları mövqeləri tərk etməli olmuşdular. 1918 ilin aprelində Bakı Soveti Quba üzərinə əks-hücum təşkil edərək ora böyük qoşun göndərmişdi. 1918 ilin mayında Əli bəy Zi-

downloaded from KitabYurdu.az

zikski, Həmdulla əfəndi *Əfəndizadə* və başqalarının rəhbərlik etdiyi müsəlman birləşmələri şəhəri Bakı Sovetinin qüvvələrindən azad etmişdilər. Aprelin sonu - mayın əvvəlində S.Şaumyan və G.Korqanovun göstərişi ilə daşnak Hamazaspın başçılığı ilə Qubaya yeni daşnak-bolşevik qüvvələri yeridildi. Zizikski düşmənin sayca üstün olan və yaxşı silahlanmış qüvvələrinə müqavimət göstərə bilməyib Dağıstana keçməyə məcbur oldu. Hamazaspın dəstəsi şəhərdə və ətraf kəndlərdə kütləvi qırğınlar və vəhşiliklər törətdi (bax *Quba qırğınları). Qafqaz İslam Ordusunun* və Dağstanda yerli əhalinin köməkliyi ilə yeni hərbi dəstə yaradan Zizikski Hamazaspın daşnak-bolşevik dəstələrinə qarşı güclü hücum təşkil etdi və Qubanı azad etdi. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda Zizikskinin dəstəsinin əksər üzvləri yeni yaradılan Milli ordunun sıralarına daxil oldu.

Bakı Azərbaycan və Türkiyə hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu tərəfindən azad edildikdən (1918, 15 sentyabr) sonra artıq polkovnik rütbəsində olan Zizikski paytaxt valisinin müavini təyin edilmiş, eyni zamanda, Quba qəzasından Azərbaycan Parlamentinə üzv seçilmişdi. O, Parlamentdə "İttihad" fraksiyasını təmsil edirdi. "İttihad" partiyasının 1-ci (1919, aprel) və 2-ci (1920, yanvar) qurultaylarında partiyanın Mərkəzi Komitəsinə üzv seçilmişdi.

*Aprel işğalından (1920)* sonra Zizikski bir müddət sovet hakimiyyətinə qarşı müqavimət hərəkatında iştirak etmiş, Qubada elan edilən amnistiyadan sonra leqal fəaliyyətə keçmiş, lakin bolşeviklərin elan etdiyi amnistiyanın yalnız müvəqqəti olduğunu yəqin edərək, yenidən gizli fəaliyyət göstərmişdir. Zizikskinin sabiq müavini, o zaman Azərbaycan Fövqəladə Komissiyasının başçısı M.C.Bağırov onu sovet-bolşevik təqiblərindən qurtarmışdı. Bundan sonra Zizikski 1928 ilə qədər Bakıda yaşamış, lakin həmin il Bağırov Azərbaycandan kənara partiya işinə göndərildikdən sonra yenidən bolşevik təqiblərinə məruz qalmış, həbs edilmiş, "erməni qırğmı törətməkdə" ittiham olunaraq edam edilmişdir.

*Əd.:* Göyüşov A., Azərbaycanda İttihadçılıq, B.,1997; yenə o n u n , 1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi, B., 2000.

downloaded from KitabYurdu.az

# CİLDƏ DAXİL EDİLMİŞ ƏSAS MƏQALƏLƏRİN MÜƏLLİFLƏRİ

| | |
|---|---|
| Ramiz ABUTALIBOV | Seyfəddin QƏNDİLOV |
| İslam AĞAYEV | Nazif QƏHRƏMANOV |
| Fərida ASLANOVA | Elşad QOCA |
| Tofiq BABYEV | Yaqub MAHMUDOV |
| Azər BAĞIROV | Nigar MAKSVELL |
| İradə BAĞIROVA | Abel MƏHƏRRƏM |
| Mədinə ELDAROVA | Alxan MƏMMƏDOV |
| Firdovsiyyə ƏHMIDOVA | Atamoğlan MƏMMƏDOV |
| Səidə ƏLİQIZI | Fəxrəddin MƏMMƏDOV |
| Qabil ƏLİYEV | Xeyrulla MƏMMƏDOV |
| Aybəniz ƏLİYEVA | Elmira MƏMMƏDOVA |
| Altay GÖYÜŞOV | Mirheydər MİRZƏYEV |
| İsmayıl HACIYEV | Tofiq MUSTAFAZADƏ |
| Sani HACIYEVA | İsmayıl MUSAYEV |
| İsa HƏBİBBƏYLİ | Ataxan PAŞAYEV |
| Cəmil HƏSƏNLİ | Vaqif SULTANLI |
| Rövşən HƏTƏMOV | Mehman SÜLYEMANOV |
| Lalə HÜSEYNOVA | Ələmdar ŞAHVERDİYEV |
| Anar İSGƏNDƏROV | Kərim ŞÜKÜROV |
| Maisə İSGƏNDƏROVA | Abid TAHİRLİ |
| Musa QASIMLI | Nərmin TAHİRZADƏ |
| Əsgər QƏDİMOV | Nailə VƏLİXANLI |

downloaded from KitabYurdu.az

**AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ**

**ENSİKLOPEDİYASI**

**İKİ CİLD**

“LİDER NƏŞRİYYAT”

**BAKI-2005**

downloaded from KitabYurdu.az

| | |
|---|---|
| Buraxılışa məsul: | Əziz Güləliyev |
| Texniki redaktor: | Rövşən Ağayev |
| Dizayner: | Səbuhi Hüseynov |
| Xəritələrin tərtibçisi: | İlyas Süleymanov |
| Tərtibatçı-rəssam: | Nərgiz Əliyeva |
| Yığım opetarorları: | Səidə Quliyeva |
| | Aliyə Ələsgərova |
| | Nazilə Məmmədova |
| | Sayad Əyyubova |
| | Rəna Şahbazova |
| Komyuter səhifələyiçisi: | Emil Məmmədov |
| Korrektorlar: | Əxtər Zeylanova |
| | Elmira Məmmədyarova |

Yığılmağa verilmişdir 23.10.2004. Çapa imzalanmışdır 23.04.2005.

Formatı 84x108 $_{1/16.}$ Fiziki çap vərəqi 29, 5. Ofset çap üsulu.

Tirajı 25000. Sifariş 92.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.

downloaded from KitabYurdu.az